# NAXÇIVAN ENSİKLOPEDİYASI



# AZƏRBAYCAN RESPUBLİKASI










# NAXÇIVAN ENSİKLOPEDİYASI

REDAKSİYA HEYƏTİ

C.Ə. ƏLİYEV
A.A. ƏLİZADƏ
İ.Ə. HƏBİBBƏYLİ
M.K. KƏRİMOV
C.B. QULİYEV
R.Ə. MEHDİYEV
A.A. NADİROV
V.Y. TALIBOV

Bakı 2002

Я20
N17

# NAXÇIVAN ENSİKLOPEDİYASI

NE

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Bakı 2002

ELMİ REDAKSİYA ŞURASI

M. K. KƏRİMOV (sədr), C. B. QULİYEV (sədr müavini), A. A. ABBASOV,
S. Y. BABAYEV, T. A. BABAYEV, B. Ə. BUDAQOV,
T. Ə. BÜNYADOV, İ. H. ƏLİYEV, V. H. ƏLİYEV, V. C. HACIYEV,
F. S. HEYDƏROV, A. A. QASIMOV, N. A. QULİYEV,
M. Ə. MƏMMƏDYAROV, Ş. M. MURADOV, M. S. NEMƏTOVA,
B. Ə. NƏBİYEV, V. Z. PİRİYEV, M. İ. RÜSTƏMOV,
N. M. VƏLİXANLI, İ. Ö. VƏLİYEV, H. S. ZEYNALOV

C. B. QULİYEVİN redaktorluğu ilə

T. A. BABAYEV, A. S. BAĞIROV, K. Y. MUXTAROV,
M. B. ORUCOV, N. Ə. RZAYEVA, İ. S. SÜLEYMANOV
tərəfindən hazırlanmışdır.

## REDAKSİYADAN

Ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm hadisə olan Naxçıvan ensiklopediyası Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 12 fevral 1999-cu il tarixli Sərəncamına əsasən Azərbaycan Milli EA Rəyasət Heyəti nəzdində yaradılmış Naxçıvan ensiklopediyası qurumu tərəfindən nəşrə hazırlanmışdır. Ensiklopediyanın sözlüyü dövlətimizin, o cümlədən Naxçıvan MR-in elmi və ictimai təşkilatlarında geniş müzakirə olunmuş, onun daha da təkmilləşdirilməsi üçün verilən təklif, qeyd və tövsiyələr nəzərə alınmışdır.

Naxçıvan ensiklopediyası muxtar respublikanın təbiətindən, tarixindən, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatından sistemli şəkildə bəhs edən elmi nəşrdir. Burada muxtar respublikaya həsr olunmuş kompleks məqalədən əlavə, diyarın bütün inzibati rayonları, fiziki-coğrafi obyektləri, şəhər və kəndləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında məqalələr verilmişdir.

Tarixə dair məqalələrdə ən qədim dövrlərdə Naxçıvan MR ərazisindəki arxeoloji mədəniyyətlərdən, qədim və orta əsr dövlətlərindən, tarixi vilayətlərdən, mühüm taleyüklü hadisələrdən, müharibələrdən və onları başa çatdıran müqavilələrdən ensiklopedik prinsiplərə uyğun bəhs edilir. Əzəli Azərbaycan torpağı olan Naxçıvan diyarının qədimdən müasir dövrümüzədək ancaq elmə əsaslanan tarixi verilmişdir.

Muxtar respublikanın iqtisadi-coğrafi rayonları, mühüm sənaye və kənd təsərrüfatı müəssisələri haqqında məqalələr diyarın iqtisadiyyatının bugünkü vəziyyəti, inkişaf potensialı və perspektivləri haqqında tam və aydın təsəvvür yaradır.

Ensiklopediyada Naxçıvanın elm, təhsil, mədəniyyət, memarlıq, ədəbiyyat və incəsənətinin inkişafına həsr olunmuş məqalələr onun ən qədim dövrlərdən bu günə qədər keçdiyi çətin və şərəfli tərəqqi yolunu göstərməklə yanaşı, bu diyarın nəinki Azərbaycan, həm də bütün Yaxın Şərq sivilizasiyasının beşiklərindən olduğunu təsdiq edir.

Naxçıvan ensiklopediyasında bu qədim diyarın tarix boyu xalqımıza, Vətənimizə bəxş etdiyi görkəmli şəxsiyyətlərin – dövlət, ictimai və siyasi xadimlərin, sərkərdələrin, xalq, hərb və əmək qəhrəmanlarının, alim və mütəfəkkirlərin, şair, yazıçı, memar,

rəssam, musiqiçi, aktyor və digər sənət adamlarının həyat və fəaliyyətindən, yaradıcılığından bəhs edən çoxsaylı tərcümeyi-hal məqalələri verilmişdir. Elmi redaksiya şurasının təsdiq etdiyi prinsiplər əsasında ensiklopediyada, həmçinin, Azərbaycan Respublikasının, istisna hallarda isə həm də, təkcə Naxçıvan MR-in fəxri adlarına layiq görülmüş digər tanınmış şəxslər haqqında da məqalələr daxil edilmişdir.

Dünya və Azərbaycan ensiklopedik ədəbiyyat nəşri təcrübəsi əsasında yaradılmış bu əsərin materiallarının hazırlanmasında ölkəmizin, o cümlədən Naxçıvanın görkəmli alim və mütəxəssisləri, dövlət və ictimai təşkilatları yaxından iştirak etmişlər.

Nəşrdəki faktlar, rəqəmlər və cədvəllər son illərin statistik məlumatları əsasında verilmişdir.

Ensiklopediyada 3 minə yaxın məqalə dərc edilmiş, 408 portret, 765 rəngli, 55 ağ-qara şəkil, 18 rəngli xəritə, 2 xəritə-sxem və 1 ağ-qara mətndaxili xəritə, şərti işarələr və ixtisarlar verilmişdir.

Ensiklopediyada məqalələr əlifba sırası ilə düzülmüş və qara şriftlə yazılmışdır. Əgər qara şriftlə verlmiş məqalə adından sonra seyrək yazılmış başqa söz varsa, deməli, həmin söz məqalə adının sinonimidir.

Tərcümeyi-hal məqalələrində soyadı, adı və atasının adından sonra şəxsin doğulduğu və öldüyü tarix, habelə doğulduğu və öldüyü yer mötərizədə yazılmışdır. Şəxsin doğulduğu və ya öldüyü il məlum olmayanda bu sual işarəsi ilə göstərilir.

Rəngli illüstrasiyalar və xəritələr mətndən uzaq düşdükdə, onların səhifəsi məqalənin sonunda göstərilir.

Ensiklopediyada lazımi məlumatı asan tapmaq üçün müraciət qaydasından istifadə edilir. Müraciət məqaləsinin adı kursivlə yığılır və ya "bax ..." yazılır. Mətndə kursivlə verilmiş və ya önündə "bax" yazılan söz ayrıca məqalə kimi verilir. Qənaət məqsədilə ixtisarlardan istifadə olunur.

Bədii, elmi və s. əsərin nəşri, mükafat və elmi dərəcələrin verilmə tarixi mötərizədə rəqəmlərlə göstərilmişdir.

Redaksiya müstəqil Azərbaycanın bu ilk olduqca önəmli ensiklopedik nəşrinin çapa hazırlanmasına daim diqqət və qayğı göstərmiş Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevə, Naxçıvan MR-in rəhbərliyinə, Prezident İcra Aparatının müvafiq şöbələrinə, dövlət və hökumət təşkilatlarına, elmi və ictimai qurumlara, kitabın ərsəyə gəlməsində yaxından iştirak etmiş alim və mütəxəssislərə təşəkkürünü bildirir.



# A

**ABBASABAD QALASI** – Naxçıvan ş.-ndən 6 *km* c.-ş.-də, Araz sahilində hərbi istehkam tipli qala. Fransız hərbi mütəxəssislərinin layihəsi əsasında 1809–10 illərdə tikilmişdir. Beşbucaq şəklində olan qalanın bürcləri var. Qala divarlarının hünd. 4 *m* 30 *sm*, qalınlığı 60 *sm* idi. Qala hər tərəfdən 10 *m* enində arxla əhatə olunmuşdu. Rusiya–İran müharibəsində (1826–28) A. q.-nda vuruşmalar olmuşdur. Qalanı 4000 sərbaz və 500 atlı müdafiə edirdi. Qalanın baş mühafizi İran ordusuna komandanlıq etmiş Abbas Mirzənin kürəkəni Məhəmməd Emin xan idi. *Ehsan xan Kəngərli* də qalanın mühafizi olmuşdur. Araz su qovşağı tikilərkən (1963–71) xarabalığı su altında qalmışdır.

**ABBASQULİYEV** Əbülfəz Həsən oğlu (may 1918, keçmiş Şərur–Dərələyəz qəzasının Mahmudkənd k. – 27. 6. 1985, Bakı) – yazıçı, nasir, dramaturq. Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) və Yerevan Dövlət Pedaqoji İn-tunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1937–43). Şərur r-n qəzeti redaksiyasında məsul katib, redaktor işləmişdir. 1947 ildə Bakıya köçmüş, "Ədəbiyyat qəzeti" redaksiyasında nəsr şöbəsinin müdiri olmuş, ali məktəblərdə dərs demişdir. "İş günləri" (1950) povesti, "Bahar axşamları" (1956), "Sənin gözlərinlə" (1964) romanları, "Hekayələr" (1951), "Oğul toyu" (1955) hekayə topluları nəşr olunmuşdur. "Günəş doğur" adlı dram əsəri 1946 ildə C. Məmmədquluzadə ad. Naxçıvan Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. "Sədəf" pyesi var.

**ABBASQULU XAN** (?–?) – Naxçıvan xanı. Kəngərlilərdən olan A. x. 18 əsrin 80-ci illərinin əvvəlində İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan, Kartli-Kaxeti çarı II İrakli ilə sıx əməkdaşlıq münasibətləri yaratmış, onların yardımı ilə Naxçıvan xanlığının hakimi olmuşdu. Lakin A. x.-ın Naxçıvan hakimi olması onun əmisi oğlu Cəfərqulu xanı hakimiyyətə gətirmək istəyən xoylu Əhməd xanı narazı saldı. Nazik və Şükürlü kəndlərinin ona verilməsini A. x.-dan tələb edən Əhməd xan rədd cavabı aldıqda qoşunlarını Naxçıvan xanlığının sərhədlərinə yeritdi. Müqavimət göstərə bilməyəcəyini başa düşən və yerli əyanlar tərəfindən müdafiə edilməyən A. x. Naxçıvanı tərk etməyə məcbur olub, Sisyana getdi. A. x.-ın bir çox tərəfdarı da Naxçıvanı tərk edib, Gürcüstana pənah apardı. Sonralar A. x. Naxçıvan taxtını özünə qaytarmaq məqsədilə gah qarabağlı İbrahimxəlil xana, gah II İrakliyə, gah da Rusiyanın Qafqazdakı hərbi dairələrinə müraciət etmişdi. 1783 ildə Naxçıvanda Cəfərqulu xan hakimiyyətə gəldi.

*Əd.*: Bax *Naxçıvan xanlığı* məqaləsinin ədəbiyyatına.




***Abbasabad qalasının planı:*** *1. Xandək. 2. Qala divarı. 3. Darvaza. 4. Körpü. 5. Bulaq*



Abbasov Akim



Abbasov Arif



Abbasov Cəfərxan

Abbasov Əli



**ABBASOV** Akim Əli oğlu (25.5.1911, Naxçıvan ş. – 29.2.1992, Bakı) – hərbi xadim, gen.-mayor (1956). 1927 ildən orduda xidmət etmiş, Bakı və Tbilisi hərbi məktəblərini (1930, 1932), Moskvada M. V. Frunze ad. Hərbi Akademiyanı (1956) bitirmişdir. Böyük Vətən müharibəsində (1941–45) 76-cı diviziyanın heyətində Qərb cəbhəsində vuruşmalarda iştirak etmiş, 1942 ildə 402-ci milli atıcı diviziya qərargahında əməliyyat şöbəsinin rəisi, sonralar polk komandiri təyin olunmuşdur. Müharibədən sonrakı illərdə polk komandiri, diviziya komandirinin müavini və komandiri vəzifələrində işləmişdir. 1956–67 illərdə bir sıra hərbi birləşmənin komandiri olmuşdur. Ehtiyata çıxandan (1967) sonra Azərb. SSR avtomobil nəqliyyatı nazirinin müavini, Respublika Sülhü Müdafiə Komitəsi Sülh Fondunun məsul katibi vəzifələrində çalışmışdır. Azərb. SSR Ali Sovetinin (4–6-cı çağırış) deputatı olmuş, Azərb. KP 22 və 24-cü qurultaylarında MK üzvü seçilmişdir. 2 Qırmızı Əmək Bayrağı, 2 Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir.

*Əd.:* K a z ı m o v İ., General Akim Abbasov, B., 1995; А б а с о в М., Дороги генерала Акима Аббасова, Б., 1996.

**ABBASOV** Arif Akim oğlu (d. 22. 12. 1937, Naxçıvan ş.) – tarixçi-etnoqraf. Tarix elmləri doktoru (1995). Azərb. Milli EA m. üzvü (2001). *A. Ə. Abbasovun* oğludur. Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir (1961). Azərb. Milli EA Rəyasət Heyəti yanında təbiyyətşünaslıq və texnika tarixi elmi şurasının elmi katibi (1973–78), Azərb. Milli EA Tarix İn-tunun direktor müavini və etno-sosioloji tədqiqatlar şöbəsinin rəhbəri (1978–93) olmuşdur. 1993 ildən Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunun direktorudur. Tədqiqatları Azərb.-da milli proseslərin, etno-mədəni və etno-sosioloji proseslərin tədqiqinə, şəhər əhalisinin məişəti məsələlərinin öyrənilməsinə həsr olunmuşdur. 5 monoqrafiya, 50 elmi məqalə, 3 elmi broşürün müəllifidir. Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunun nəşrə hazırladığı "Azərbaycanlılar" monoqrafiyasının müəlliflərindən biri və baş redaktorudur. Beynəlxalq elmi məclislərdə [uzunömürlülük problemlərinə həsr olunmuş II Sovet–Amerika simpoziumu (ABŞ, 1982), SSRİ-nin türkdilli xalqlarının problemlərinə dair konqres (ABŞ, 1988), antropoloq və etnoqrafların beynəlxalq konqresi (Zaqreb, Yuqoslaviya, 1988), Türkiyənin sosial və iqtisadi tarixinə dair konqres (Türkiyə, 1989), Azərbaycan – Ermənistan münaqişəsinin nizama salınması məsələlərinə (Fransa, 1989), Qafqazda münaqişə vəziyyəti problemlərinə (İngiltərə) dair konfranslar, folklorçu və etnoqrafların II Avropa konqresi (Suzdal, Rusiya, 1983 və s.) məruzələr etmişdir.

**ABBASOV** Cəfərxan Abbas oğlu (1903, indiki Şərur r-nunun Təzəkənd k. – 29.8.1965, indiki Oğlanqala k.) – əmək qabaqcılı, Sosialist Əməyi Qəhrəmanı (1950). Şərur r-nundakı M. Qorki ad. k-zda manqa başçısı işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**ABBASOV** Əli Məmməd oğlu (d. 1.1.1953, Naxçıvan ş.) – avtomatika texnikası sahəsində alim. Texnika elmləri doktoru (1994), prof. (1998).Azərb. Milli EA akad. (2001). Moskva Energetika İn-tunun avtomatika və hesablama texnikası fakültəsini (1976) və Ukrayna EA-nın aspiranturasını (1980) bitirmişdir. 1991 ildən Azərb. Milli EA İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinin direktoru, eyni zamanda Azərb. Texniki Un-tinin professoru olmuşdur. 2000 ildən Azərb. İqtisad Un-tinin rektorudur. A.-un kompüter şəbəkələrində paylanmış informasiya və intellektual sistemlərin layihələşdirilməsi nəzəriyyəsinə dair tədqiqatları var. Respublika Avtomatlaşdırılmış İdarəetmə Sistemləri – "RAİS–Azərbaycan" yaradılmasında baş layihəçi, INTERNET və EARN kompüter şəbəkələrinin Azərb. üzrə koordinatoru, "qara qutu" emal sisteminin, "METEO" kompüter şəbəkəsinin işlənib hazırlanmasının icraçısı və rəhbəri olmuşdur. A. Avropa INTERNET Assosiasiyasında (TERENA) Azərb.-nı təmsil edir (1995 ildən). İnformatika, telekommunikasiya və hesablama texnikası üzrə 100-dən çox elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. Xarici ölkələrdə ardıcıl elmi ezamiyyətlərdə olur, konfrans və simpoziumlarda çıxışlar edir. Kembric bioqrafiya mərkəzi A.-u texnika və texnologiya sahəsində "İlin beynəlxalq adamı" (1991–92) və "Müvəffəqiyyətli adam" (1995–96) siyahısına salmışdır. YUNESKO-nun informatika və telekommunikasiya üzrə ekspertlər sırasına daxil edilmiş (1994 ildən). Beynəlxalq İnformatizasiya Akademiyasının (1998) həqiqi üzvü seçilmişdir. Azərb. Respubliksı Milli Məclisinin (2-ci çağırış) deputatıdır.



**ABBASOV** Əyyub Cəbrayıl oğlu (1905, Şəki k., indiki Erm. Respublikasının Sisyan r-nu – 18.12.1957, Bakı) – yazıçı. Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1954). Uşaq yaşlarından yetim qalmış, 1920 ildən Naxçıvanda, qohumlarının yanında yaşamışdır. Burada orta təhsil almış, pedaqoji texnikumu, sonra isə Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini bitirmişdir (1930). Naxçıvan Pedaqoji Texnikumunda müəllim, Naxçıvan (indiki Babək) r-n xalq maarif şöbəsinin müdiri işləmişdir. İlk şerləri "Şərq qapısı" qəzetində çıxmış (1926), "Mübarizə" adlı şer kitabçası 1932 ildə Naxçıvanda nəşr olunmuşdur. Sonralar Bakıda "Günəşli yollar" (1938), "Ürək nəğmələri" (1948), "Könül şikəstəsi" (1956) və s. şer və poema topluları çapdan çıxmışdır. İkicildlik "Zəngəzur" (1956–1957) tarixi romanında 1917–20 illərdə əzəli Azərb. torpaqlarını zəbt etməyə can atan erməni millətçilərinin məkrli niyyətləri, Andronikin quldur dəstələrinin bölgənin azərb.-lı əhalisinə qarşı törətdikləri soyqırımı, qaçqın və didərgin düşmüş soydaşlarımızın acınacaqlı taleyi təsvir edilir. Uşaqlar üçün də yazmışdır. "Qadın azadlığı" adlı ilk pyesi Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. "Böhtan", "Qardaşlar", "Bahar nəğməsi", "Şəfəq", "Məlik Məhəmməd", "Alma ağacı", "Qisas", "Sevinc" pyesləri, tərcümələri var.

*Ə s ə r i:* Seçilmiş əsərləri, B., 1962.

**ABBASOV** Qurban Abbasqulu oğlu (26.10.1926, indiki Babək r-nunun Paiz k. – 14.9.1994, Bakı) – neftçi, mühəndis, Sosialist Əməyi Qəhrəmanı (1959), Azərb.-ın əməkdar mühəndisi (1975), SSRİ-nin fəxri neftçisi, SSRİ (1951) və Azərb. Respublikası (1972) Dövlət mükafatları laureatı. Əmək fəaliyyətinə 1944 ildə "Artyomneft" trestində fəhlə kimi başlayan A. "Azərneft" Birliyinin qazma kontorunda qazmaçı, buruq ustası, "Gürganneft" Neft Mədənləri İdarəsinin Şimal qazma sahəsi kontorunun rəisi vəzifələrində işləmişdir. 1967–83 illərdə "Xəzərdənizneftkəşfiyyat" trestinin müdiri, "Xəzərdənizneft" İstehsalat Birliyinin (İB) baş direktor müavini, "Neft daşları" Neft və Qazçıxarma İdarəsinin rəisi, 1980–88 illərdə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İB-nin baş direktoru, 1988–92 illərdə "Xəzərdənizneft" İB-nin baş direktoru, 1992–94 illərdə Azərb. Dövlət Neft Şirkətinin baş müşaviri olmuşdur. A. açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarındandır. "Neft daşları"nın kəşfinə görə SSRİ Dövlət mükafatına layiq görülüb. "Şelf-1" tipli yarımdalma üzən qazma qurğularının Xəzər dənizi şəraitində mənimsənilməsində, "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz" və s. iri yataqların kəşf edilməsində xüsusi xidmətləri var. SSRİ Ali Sovetinin (6–11-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (6–9-cu çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir. Adına kran-gəmi, mədəniyyət sarayı, küçə, məktəb, körpü var. Bəstəkar A. Rzayevanın məşhur "Neftçi Qurban" mahnısı ona həsr olunmuşdur. Tələbə və aspirantlar üçün "Neftçi Qurban" təqaüdü təsis edilmişdir.

**ABBASOV** Namiq Rəşid oğlu (d. 22.2.1940, Ordubad ş.) – hüquq-mühafizə orqanı işçisi, gen.-polkovnik (2002). Azərb. Dövlət Un-tinin (indiki BDU) jurnalistika fakültəsini bitirmişdir (1962). "Abşeron" r-n qəzetinin şöbə müdiri, məsul katibi, redaktor müavini (1962–70) və redaktoru (1974–75), Azərb. KP Abşeron r-n komitəsinin şöbə müdiri (1970–74) və ikinci katibi (1975–77) işləmişdir. 1977–79 illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi (DTK) üçün rəhbər kadrlar hazırlayan ikiillik kursların dinləyicisi olmuşdur. 1979–85 illərdə təhlükəsizlik orqanlarının rəhbər vəzifələrində xidmət etmişdir. Azərb. SSR DTK sədrinin müavini (1985–88), SSRİ DTK-nın Murmansk vil. üzrə idarəsinin rəis müavini (1988–92), Azərb. Respublikası Milli Təhlükəsizlik nazirinin müavini, nazirin birinci müavini və nazir əvəzi vəzifələrində çalışmışdır (1992–95). 1995 ildən Azərb. Respublikası Milli Təhlükəsizlik naziridir. Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla



Abbasov Qurban

Abbasov Namiq




Abbasov Tofiq Ələkbər oğlu


Abbasov Tofiq


Abbasova Banoş

Abbaszadə Nazmiyyə


Əlaqələr Dövlət Komissiyasının sədridir (1993 ildən). Abşeron r-nu ilə Bolqarıstanın Razqrad mahalı arasında dostluq əlaqələrindən, müxtəlif sahələrdə aparılan təcrübə mübadiləsinin müsbət nəticələrindən bəhs edən "Razqrad–Abşeron qardaşdırlar" (B., 1973) və 1995–99 illərdə respublikanın ictimai-siyasi durumuna, təhlükəsizlik məsələlərinə həsr edilmiş "Öncə, Vətəndir" (B., 2000) kitablarının müəllifidir. "Şərəf nişanı" (1985) və "Azərbaycan Bayrağı" (1998) ordenləri ilə təltif olunmuşdur.

**ABBASOV** Tofiq Ələkbər oğlu (d. 1936, indiki Babək r-nunun Cəhri k.) – əmək qabaqcılı, sürücü. Azərb. Respublikası Dövlət mükafatı laureatı (1988). Babək kənd təsərrüfatı texnikumunun meyvə və tərəvəzçilik fakültəsini bitirmişdir (1991). K-z və s-z-da sürücü (1956–78), Cəhri k.-ndəki Q. Əkbərov ad. k.-zda briqadir (1979–97) işləmişdir. 1988 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ABBASOV** Tofiq Hüseyn oğlu (d. 5.2. 1938, indiki Şərur r-nunun Qıvraq k.) – baytar həkimi. Baytarlıq elmləri doktoru (1982), prof. (1983). Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmişdir (1961). Ümumrusiya Baytarlıq Sanitariyası, Gigiyenası və Ekologiyası (ÜBSGE) Elmi-Tədqiqat İn-tunun entomologiya və akarologiya laboratoriyasının müdiridir. A.-un elmi fəaliyyəti ərzaq məhsullarında pestisidlərin müəyyən edilməsi metodlarının hazırlanması və tətbiqi problemləri ilə bağlıdır. O, yemlərdə, ətdə, süddə və yumurtada pestisidlərin 30-dan çox müəyyənləşdirmə metodikasını, insektoakarisidlərə dair 38 normativ sənəd işləyib hazırlamışdır. Onun rəhbərliyi ilə 70-ə yaxın polimer və sintetik material baytarlıq-sanitariya, gigiyena və toksikologiya baxımından qiymətləndirilmiş, onlar heyvandarlıq obyektlərinin tikintisində, texnoloji avadanlaşdırılmasında tətbiq olunmasına icazə verilmiş polimer material və konstruksiyalar siyahısına daxil edilmişdir. A. heyvanların sanitar müayinəsi üçün bir sıra ekoloji cəhətdən təmiz dərman preparatları təklif etmişdir. 200-dən çox elmi əsər və məqalənin müəllifidir. 19 müəlliflik şəhadətnaməsi və patenti var. Rusiya Kənd Təsərrüfatı Akademiyası "Baytarlıq sanitariyası, gigiyena və ekologiya bölməsinin" üzvüdür. Ümumittifaq sərgisinin laureatı diplomu, XTNS-in gümüş medalı və SSRİ ixtiraçısı medalı ilə təltif olunmuşdur.

**ABBASOVA** Banoş Cəfərqulu qızı (d. 1.2. 1918, indiki Şərur r-nunun Xok k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1971 ildən Şərur r-nundakı Əzizbəyov ad. k-zda kolxozçu və manqa başçısı olmuş, 1971–74 illərdə s-zda fəhlə işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1974 ildən fərdi pensiyaçıdır.

**ABBASZADƏ** (Sultanzadə) Nəzmiyyə Müzəffər qızı (d. 19.7.1945, Naxçıvan ş.) – musiqişünas, ilk azərb.-lı violençelçalan qadın, prof. (1998). 1968 ildə Azərb. Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası; BMA), 1973 ildə isə P. İ. Çaykovski ad. Moskva Konservatoriyasının aspiranturasını bitirmişdir. 1968 ildən BMA-nın simli alətlər kafedrasında müəllim, dosent, 1990–99 illərdə isə kafedra müdiri işləmişdir. 1999 ildən akademiyanın ifaçılıq fakültəsinin dekanıdır. Qadınlardan ibarət simli kvartetin tərkibində 30 il bir sıra xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir. Bir çox dərslik və metodik vəsaitin müəllifidir.

**ABDAL** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Hünd. 1925 *m*.

**ABDİNOV** Cavad Şahvələd oğlu (d. 5.1.1940, Ordubad r-nunun Behrud k.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1976), prof. (1982), Azərb. Respublikası Dövlət mükafatı laureatı (1982). Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU) bitirmişdir (1961). 1973 ilədək Azərb. Milli EA Fizika İn-tunda elmi işçi işləmiş, 1973 ildən Fotoelektronika İn-tunda şöbə müdiri, 1993 ildən isə elmi işlər üzrə direktor müavinidir. Selen və bir sıra mürəkkəb yarımkeçiricilərdə və onların əsasında strukturlarda elektron və fonon hadisələrinin mexanizmini aydınlaşdırmış, alınmış nəticələr əsasında yeni elektron çeviriciləri işləyib istehsalata tətbiq etmişdir. Respublikada və keçmiş ittifaqda ilk dəfə olaraq elektron soyuducuları vasitəsilə soyudulan infraqırmızı fotoqəbuledicilərin yaradılması istiqamətini, bu fotoqəbuledicilərin istehsalını təşkil etmişdir. Yaradılmış cihazlar xüsusi




Abdinov Cavad


Abdinov Əhməd


Abdullayev Aydın

Abdullayev Faiq


təyinatlı uçan və yerüstü sistemlərdə, yerin təbii sərvətlərini tədqiq edən kosmik qurğularda və s. tətbiq olunmuşdur. İki monoqrafiyanın, 250-dən çox elmi məqalənin və 28 ixtiranın müəllifidir. Beynəlxalq və ittifaq əhəmiyyətli konfrans və simpoziumlarda məruzələr etmişdir.

**ABDİNOV** Əhməd Şahvələd oğlu (d. 30.5. 1945, Ordubad r-nunun Behrud k.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1978), prof. (1981). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini bitirmişdir (1968). 1968 ildə BDU-nun fiziki elektronika kafedrasında aspiranturaya qəbul olunmuş, təhsilini Leninqradda (indiki Sankt-Peterburq) SSRİ EA Fizika və Texnika İn-tunda davam etdirmişdir. 1972 ildən BDU-da elmi-pedaqoji fəaliyyət göstərir; fizika fakültəsinin dekanı (1988–89) olmuşdur. 1992 ildən fiziki elektronika kafedrasının müdiri və bərk cisim elektronikası elmi-tədqiqat laboratoriyasının rəhbəridir. Azərb. Respublikası Təhsil nazirinin müavini (1990–2000) olmuşdur. Tədqiqatları qismən nizamsız yarımkeçirici sistem və materiallarda elektron hadisələrinin xüsusiyyətlərinin aşkar edilməsinə, belə sistemlərdə müxtəlif növ elektron proseslərinin mexanizmlərinin müəyyənləşdirilməsinə aiddir. 220-dən çox elmi əsərin müəllifidir, bir neçə müəlliflik şəhadətnaməsi var. 20-dən çox elmi əsəri xarici ölkələrdə çap olunmuşdur. 40-dan çox beynəlxalq və ittifaq əhəmiyyətli elmi konfrans, simpozium və konqreslərdə məruzələr etmişdir. Nyu-York EA-nın həqiqi üzvü seçilmişdir (1995). Elm sahəsində Beynəlxalq Soros qrantına layiq görülmüşdür.

**ABDULLAYEV** Aydın Həsən oğlu (d. 25.4. 1951, Bakı ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1980), prof. (1985). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1991). *H.M.Abdullayevin* oğludur. Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini bitirmişdir (1973). Azərb. Milli EA Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində bölmə rəisi, laboratoriya müdiri, Kosmik cihazqayırmanın fiziki-texnoloji əsasları şöbəsinin müdiri, Baş direktorun elmi işlər üzrə müavini işləmişdir (1975–1992). 1992 ildən İnformatika Elmi-Texniki Kompleksinin Baş direktoru, Elektronika və İnformatika Elmi-Tədqiqat İn-tunun direktorudur. Tədqiqatları bərk cisimlər fizikasına aiddir. İnfranazik təbəqələrdə baş verən fiziki proseslərin öyrənilməsində və bu əsasda cihazların yaradılmasında yaxından iştirak etmişdir. 150-dən çox elmi əsərin və 40-dan artıq ixtiranın müəllifidir.

**ABDULLAYEV** Faiq Məmmədəli oğlu (d.26.12.1936, Naxçıvan ş.) – texnoloji proses və istehsalatların avtomatlaşdırılması sahəsində alim. Texnika elmləri doktoru (1987), prof. (1988). SSRİ Nazirlər Sovetinin mükafatı laureatı (1981). Azərb. Neft və Kimya İn-tunu (indiki Neft Akademiyası) bitirmişdir (1959). Sumqayıt "Neft-Kimyaavtomat" Elmi Tədqiqat Layihə İn-tunda elmi tədqiqat şöbəsinin müdiri (1966–71), direktorun elmi işlər üzrə birinci müavini (1972–85), Azərb. "Neftqazavtomat" Elm-İstehsalat Birliyi Baş direktorunun elmi işlər üzrə birinci müavini (1986–93), Azərb. Sənaye İn-tunun (indiki Sumqayıt Dövlət Un-ti) "İdarəetmənin avtomatlaşdırılması" kafedrasının prof. (1993–98) işləmişdir. 1998 ildən Azərb. Dövlət Neft Akademiyası "Avtomatika, telemexanika, elektronika" kafedrasının prof.-dur. Elmi tədqiqatları qeyri-stasionar neft-kimya proseslərinin riyazi modelləşdirilməsi, optimallaşdırılması və avtomatlaşdırılmasına həsr olunmuşdur. Elmi nəticələri sənayedə tətbiq edilmişdir. 3 monoqrafiyanın, 200-dən çox elmi məqalənin və 70-ə yaxın ixtiranın müəllifidir. Çexoslovakiya, Polşa, Almaniya və Fransada beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r i: Оптимизация процессов с изменяющейся активностью катализатора, Б., 1982.

**ABDULLAYEV** Həsən Məmmədbağır oğlu (20.8.1918, indiki Culfa r-nunun Yaycı k. – 1.9.1993, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1954), SSRİ EA m. üzvü (1970), Azərb. Milli EA akad. (1967; m. üzvü 1955), Azərb. Respublikası əməkdar elm xadimi (1974), Azərb. Dövlət mükafatı laureatı (1972). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini (1941) və Azərb. Milli EA Fizika-Riyaziyyat İn-tunun aspiranturasını (1948) bitirmişdir. Azərb. Milli EA Fizika-Riyaziyyat (1950, 1957–58) və Fizika (1959–68) in-tularının direktoru, Azərb. Milli EA fizika-riyaziyyat və


*Abdullayev Həsən*

texnika bölməsinin akademik katibi (1968–70) və Azərb. Milli EA prezidenti (1970–83) olmuşdur. A. selenin, tellurun, onların mürəkkəb birləşmələrinin və bunların əsasında hazırlanan yarımkeçirici cihazların fizikası, selenin bioloji proseslərdə rolunun tədqiqi sahəsində əsaslı elmi nəticələr qazanmışdır. A.-in rəhbərliyi ilə bir sıra cihazlar, yeni fiziki prinsipdə işləyən uzunmüddətli elektrik yaddaşlı cihazlar yaradılmışdır. Termoelektrik çeviricilər üçün A.-in aldığı yarımkeçirici materiala ABŞ və Fransanın patentləri verilmişdir. O, Azərb.-da yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaratmışdır. A.-in təşəbbüsü ilə 1956 ildə BDU-da yarımkeçiricilər fizikası kafedrası təşkil edilmişdir. A. SSRİ EA Rəyasət Heyəti yanında "Yarımkeçiricilər fizikası və kimyası" elmi şurasının üzvü, respublika "Fizika problemləri" elmi şurasının və "Bilik" Cəmiyyəti İdarə Heyətinin sədri, elm və texnika sahəsində Azərb. Respublikası Dövlət Mükafatları Komitəsinin sədri idi. 11 monoqrafiyanın, 300-dən çox elmi əsərin, 40 ixtiranın müəllifidir. ABŞ (1961, 1972), Fransa (1957, 1971, 1976), B. Britaniya (1962), Yaponiya (1966), İsveç (1971) və s. ölkələrdə keçirilən beynəlxalq elmi məclislərdə məruzələr etmiş, Türkiyədə (1974) yarımkeçiricilər fizikasına dair mühazirələr oxumuşdur. A.-in "Elektron yarımkeçiriciləri və onların tətbiqi" (1952) kitabı yarımkeçiricilər fizikası sahəsində Azərb. dilində nəşr olunan ilk əsərdir. SSRİ Ali Sovetinin (8–11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, SSRİ EA-nın S.İ.Vavilov ad. qızıl medalı ilə təltif edilmişdir. Azərb. Milli EA-nın Fizika İn-tuna onun adı verilmişdir. İn-tun binasının önündə onun barelyefi olan xatirə lövhəsi vurulmuşdur. Naxçıvanda adına küçə və məktəb var.

Əsərləri: Yarımkeçiricilər (şərikli), B., 1961; Полупроводниковые выпрямители, Б., 1958; Некоторые вопросы физики электродырочных переходов, Б., 1971; Селен и теллур, Б., 1972; Физика селена, Б., 1975.

*Əd.:* Vəliyev M., Həsən Abdullayev: alim və elm təşkilatçısı, B., 1999.


*Abdullayeva Sevda*

**ABDULLAYEV** Mehdi Abdulla oğlu (yanvar, 1907, indiki Babək r-nunun Nehrəm k. – 23.8.1979, Naxçıvan ş.) – həkim. Nax. MR-in (1947) və Azərb. Respublikasının (1960) əməkdar həkimi. Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1935). Naxçıvan şəhər poliklinikasının direktoru (1937–39), Naxçıvan şəhər xəstəxanasının baş həkimi (1939–40), Tibb məktəbinin direktoru (1940–41) işləmişdir. 1941–46 illərdə orduda xidmət etmiş, tərxis olunduqdan sonra Nax. MSSR Səhiyyə Nazirliyinin Baş dövlət sanitar inspektoru, eyni zamanda nazir müavini (1946–48), nazirliyin baş terapevti (1951–57) vəzifələrində çalışmışdır. Sonrakı illərdə müxtəlif tibb müəssisələrində baş həkim, baş həkimin müavini, şöbə müdiri işləmişdir.

**ABDULLAYEV** Tahir Abdulla oğlu (d. 25.8.1915, Naxçıvan ş.) – memar, Azərb. Respublikasının əməkdar mühəndisi (1964) və əməkdar memarı (1979). Azərb. Sənaye İn-tunun memarlıq-inşaat fakültəsini bitirmişdir (1939). 1942 ildən Bakı Şəhər Sovetinin memarlıq idarəsində işləmişdir. 1944–51 illərdə Şəki ş.-nin baş memarı olmuşdur. 1951–92 illərdə "Azərdövlətlayihə" İn-tunun direktoru vəzifəsində çalışmışdır. Bakıda "Azərdövlətlayihə" İn-tunun binası (1963, Y.Qədimovla birgə), Daxili İşlər Nazirliyinin yaşayış binası (1965, Y. N. Kozlovla birgə), Azərb. Bədən Tərbiyəsi İn-tu (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası) kompleksi (1966, X.Rəhmanova ilə birgə), indiki Azərb. Pedaqoji Un-tinin tədris korpusu (1977), Azərb. Respublikası Milli Məclisinin binası (1978, Y. Qədimov və X. Rəhmanova ilə birgə), Prezident Sarayı (1987, X. Rəhmanova və F.Orucovla birgə) A.-in ən yaxşı işlərindəndir. A., həmçinin Qazax r-nunun Şıxlı k.-də M.V.Vidadinin qəbirüstü abidəsinin (1963, heykəltaraş E. Şamilovla birgə) və Bakıda N.Nərimanovun abidəsinin (1972, heykəltaraş C. Qaryağdı, memar Y. Qədimovla birgə) memarlıq layihələrini vermişdir.

**ABDULLAYEVA** Sevda Həsən qızı (d. 16.8.1949, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1983), prof. (1984). H. M. *Abdullayevin* qızıdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini bitirmişdir (1971). Tədqiqatını SSRİ EA-nın Fizika İn-tunda tamamlamışdır (1981–83). Azərb. Dövlət Tibb Un-tinin tibbi bioloji fizika və kibernetika kafedrasının prof. (1989–97), İndiana ştatı (ABŞ) un-ti tibb fakültəsinin prof., həmin in-tun dissertasiya müdafiəsi şurasının üzvü (1993–2000) olmuşdur. 1999 ildən Azərb. Milli EA Fizika İn-tunda işləyir. Əsas tədqiqatları tibbdə yeni optik şüalanma dedektorlarının tətbiqi məsələlərinə yönəldilmişdir. 100-dək məqaləsi beynəlxalq elmi nəşrlərdə dərc olunmuşdur. 13 müəlliflik şəhadətnaməsi var. Beynəlxalq elmi məclisdə məruzələr etmişdir. ABŞ-ın "Tibbdə fundamental elmlər" və Avropa Ali Təhsil assosiasiyalarının üzvü idi.

Əsəri: Избранные лекции по медицинской физике, Б., 1992.




*Abutalıbov Müzəffər*

**ABUTALIBOV** Müzəffər Heydər oğlu (14.12.1908, Ordubad ş. – 8.11.1984, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – bitki fiziologiyası sahəsində ilk azərb. elmlər doktoru (1944), prof. (1950), Azərb. Milli EA akad. (1968; m. üzvü 1960). Azərb. Politexnik İn-tnunun kənd təsərrüfatı fakültəsini bitirmişdir (1930). Azərb. Kənd Təsərrüfatı İn-tunun (indiki Kənd Təsərrüfatı Akademiyası) və Azərb. Dövlət Un-tinin (indiki BDU) dosenti, Azərb. Elmi Tədqiqat Pambıqçılıq İn-tunun baş elmi işçisi, SSRİ EA Azərb. Filialı Botanika İn-tunun şöbə müdiri və direktor müavini (1935–47), Azərb. Dövlət Un-ti bitki fiziologiyası kafedrasının müdiri (1949–59), Azərb. Milli EA Genetika və Seleksiya İn-tunun (1960–62), Botanika İn-tunun (1947–49; 1962–78) direktoru vəzifələrində çalışmış, 1978–1984 illərdə Botanika İn-tunda özünün yaratdığı bitki fiziologiyası şöbəsinə rəhbərlik etmişdir.

Tədqiqatları, əsasən, pambıq, kartof və digər k. t. bitkilərinin məhsuldarlığının artırılmasına, onların mikroelementlərlə qidalandırılmasının nəzəri və əməli problemlərinin öyrənilməsinə, o cümlədən mikroelementlərin azotobakterin inkişafına və torpağın azotmənimsəyən mikroorqanizmlərinin fəaliyyətinə təsirinə, mineral maddələrin bitkilərə daxil olmasına, orqanizmdə hərəkətinə və hüceyrələrdə paylanmasına və s. həsr olunmuşdur. Bir neçə monoqrafiya və ali məktəb dərsliyinin, 220-dən çox elmi məqalənin müəllifidir. Elmi məclislərdə, o cümlədən beynəlxalq biokimya (1961), botanika (1969), biofizika (1973) konqreslərində məruzələr etmişdir. Bir sıra elmi şura və cəmiyyətlərin üzvü olmuşdur. Elmi kadrlar hazırlanmasında xidməti var.

Əsərləri: Bitki fiziologiyası, c. 1-2, B., 1957, 1960; Bitkiçilikdə mikroelementlərin əhəmiyyəti, B., 1961; Bitkilərin mineral maddələrlə qidalanması, B., 1962.

*Əd.:* М. Г. Абуталыбов. Библиография (составители Д. Д. Костина, Ю. В. Сафарова) Б., 1968.

**ABUTALIBOV** Ramiz Abutalıb oğlu (d. 27.10.1937, Gəncə) – 1-ci dərəcəli müşavir-diplomat, ictimai xadim. H. Z. Tağıyev ad. Milli mükafat laureatı (1994). Azərb. Dövlət Un-tini (indiki BDU) (1960), Moskvada Ümumittifaq Xarici Ticarət Akademiyasını (1971), Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasını (1984) bitirmişdir. Azərb. Elmi Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsində elmi katib, baş mütəxəssis (1962–65), Respublika Nazirlər Sovetinin elm və texnika şöbəsində baş referent (1965–68), YUNESKO katibliyinin əməkdaşı (Paris, 1971–79), Azərb. KP MK xarici əlaqələr şöbəsinin müdiri (1980–84), Respublika Xarici turizm baş idarəsinin rəisi (1984–85), YUNESKO katibliyinin idarə rəisi (Paris, 1985–92) vəzifələrində işləmişdir. 1993 ildən Azərb. Respublikası XİN-ndə xüsusi tapşırıqlar üzrə səfir, YUNESKO məsələləri üzrə Azərb. Milli Komissiyasının Baş katibidir. "Asiya cəmiyyəti" təşkilatının üzvüdür (Paris, 1977). Ceyhun Hacıbəylinin oğlu Timuçin Hacıbəyli və Hüseyn Azərməhd ilə birlikdə Parisdə "Azərbaycan evi" cəmiyyəti yaratmışdır (1992). Müasir dövrün mühüm ictimai-siyasi məsələlərinə dair Fransa, B.Britaniya, Almaniya və Rusiyada dərc olunmuş məqalələrin müəllifidir. Azərb. Xalq Cümhuriyyətinə (1918–20), 20-ci ildən sonra mühacirətdə yaşamış Azərb. ictimai-siyasi xadimlərinin (C.Hacıbəyli, Ə. Topçubaşov və b.) həyat və fəaliyyətinə dair sənədlərin və tarixi-ədəbi əhəmiyyətə malik materialların aşkara çıxarılmasında, Azərb.-a gətirilib nəşr olunmasında böyük xidməti var. Xarici ölkələrdə çap edilmiş "Dağlıq Qarabağ tarixi sənədlərdə" (1989, fr. və ing. dillərində), "Qafqaz bürosu, Dağlıq Qarabağ, Stalin" (1990, fr. dilində), "Qarabağ – keçmiş və gələcək arasında" (1991, fr. dilində), "Qarabağ – 4 il sonra" (1992, fr. və ing. dillərində), "M. S. Ordubadi. Qanlı illər" (1992, azərb.-ca ərəb əlifbası ilə), "Azərbaycan–Fransa. Birlikdə XXI əsrə doğru" (1998, fr. dilində) və s. kitabların tərtibçisi


*Abutalıbov Ramiz*


Abutalıbov Şirzad

və naşiridir. Jorj de Molevilin "1915-ci il erməni faciəsi" əsərini müəllifin razılığı ilə Bakıda rus dilində nəşr etdirmişdir (1990). "Beynəlxalq əlaqələr aləmində kim kimdir?" Britaniya ensiklopediyasına (1990) adı düşmüş 269 keçmiş SSRİ diplomatı arasında yeganə azərb.-lıdır. Azərb. SSR Ali Sovetinin deputatı olmuşdur (1980–84). Fransa–Azərbaycan dostluq cəmiyyətinin baş katibidir. Fransanın Fəxri Legion ordeni ilə təltif edilmişdir.

**ABUTALIBOV** Şirzad Əsəd oğlu (d.8.7.1959, Naxçıvan, ş.) – aktyor. Azərb. Respublikasının əməkdar artisti (1999). Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1982). C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Əsas rolları: Şeyx Nəim ("Şeyx Sənan", H. Cavid), Qurban ("Aydın", C. Cabbarlı), Hambal ("O olmasın, bu olsun", Ü. Hacıbəyov), Rza xan ("Nadir şah", N. Nərimanov), Mürsəlqulu ("Hələlik", R. Əhmədzadə və E. Sabitoğlu) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.

**ACIÇEŞMƏN** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsindədir. Hünd. 2099 *m*. Adı yamacındakı duzlu, acı dadlı çeşmə ilə əlaqədardır.

**AĞ AŞIQ**, A ş ı q  A l l a h v e r d i  K o s a c a n l ı (1754, Şərur mahalının Kosacan k. – 1860, Göyçə mahalının Kərkibaş k. (1989 ilədək) – aşıq. Aşıq Alının ustadıdır. Aşıqlıq sənətini atası Aşıq Qara Osmanoğludan öyrənmiş, Təbrizdə mədrəsə təhsili almışdır. 1794 ildə ailəsi ilə Göyçə mahalının Kərkibaş k.-nə köçmüşdür. Qoşma, bayatı, gəraylı, təcnis, təsnif, qıfılbənd, divani, ustadnamə və s. formalarda qoşduğu şerlər bədii sənətkarlığı ilə seçilir. "Ağ Aşıq və Keşişoğlu", "Ağ Aşığın Borçalı səfəri" dastanlarından dövrümüzədək yalnız kiçik parçalar gəlib çatmışdır. "Ağ Aşıq və Süsənbər" məhəbbət dastanı yazıya alınmışdır. "Süsənbər" aşıq havasını yaratmışdır.

Ə s ə r l ə r i: Şerlər və dastan, "Ustad aşıqlar" kitabında, B., 1983; Şerlər, "Aşıq şerindən seçmələr" kitabında, B., 1984; Bayatı və təsniflər. Ağ Aşıq və Süsənbər, "Xalqımızın deyimləri və duyumları" kitabında (toplayıb yazıya alanı, işləyib tərtib edəni M. Həkimov), nəşr 2, B., 1986.

*Əd.:* Q u l i y e v N., Naxçıvan musiqi mədəniyyəti tarixindən, B., 1999.

**AĞA MİRAĞA** (?, Naxçıvan ş. – 1906, orada) – el ağsaqqalı. Bax *Miriş ağa*.

**AĞA RƏSUL ƏTTAR** (?, Ordubad – ?, orada) – şair (19 əsr). *"Əncüməni-şüəra"* ədəbi məclisinin üzvlərindən olmuşdur. *Fəqir* Ordubadi və onun oğlu M. S. Ordubadinin əsərlərində haqqında məlumat vardır. Fars dilində də yazmışdır. Azərb. Milli EA Əlyazmalar İn-tunda saxlanan cünglərdə qəzəllərindən nümunələr mühafizə olunmuşdur.

**AĞABƏYLİLƏR** – türk tayfası. Kəngər tayfasından (bax *Kəngərlər*) olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli qol və tirələrin içərisində Ağabəyli nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı A.-ə inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Naxçıvan diyarının və Dərələyəz mahalının kəndlərində yaşayan A. maldarlıqla məşğul olmuşlar.

**AĞABƏYLİLƏR MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Kəngər mənşəli ağabəyli nəslinin (tirəsinin) adı ilə bağlıdır (bax *Ağabəylilər*). Şəhərin qədim məhəllələrindən biri kimi adı el arasında indi də yaşayır.

**AĞALAROV** Əliqulu Behbud oğlu (23.3. 1923, Ordubad ş. – 23.6.1982, Bakı; Ordubadda dəfn olunmuşdur) – neyrocərrah. Tibb elmləri doktoru (1967), prof. (1970). Azərb. Respublikasının əməkdar elm xadimi (1971). Azərb. Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir. Böyük Vətən müharibəsində (1941–45) hərbi səhra xəstəxanasında cərrahlıq etmiş, cərrahiyyə vzvodunun komandiri olmuş, tibb xidməti podpolkovniki rütbəsi almışdır. Ordudan tərxis olunduqdan sonra Azərb. Milli EA Eksperimental Tibb İn-tunda elmi işçi, tibb in-tunda assistent işləmişdir. Bir müddət Moskvada, keçmiş SSRİ EA-nın neyrocərrahiyyə in-tunda, N. N. Burdenko ad. Neyrocərrahiyyə Klinikasında çalışmış, 1971 ildən ömrünün sonunadək Azərb. Tibb İn-tunun neyrocərrahiyyə kafedrasına rəhbərlik etmişdir. Onun təşəbbüs və səyi sayəsində Cənubi Qafqaz respublikalarında ilk dəfə olaraq Bakıda neyrocərrahiyyə mərkəzi yaradılmışdır. Böyük beyin qatındakı şişlərin götürülməsinə, beynin sağalma histologiyasına dair tədqiqatların müəllifidir. Azərb. Respublikası Səhiyyə Nazirliyinin neyrocərrahiyyə üzrə baş mütəxəssisi, Ümumittifaq Neyrocərrahiyyə Cəmiyyəti Rəyasət heyətinin üzvü olmuşdur. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdur.



**AĞAVERDİ DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Keçili k.-ndən 2,5 *km* şm.-q.-dədir. Hünd. 2099 *m*.

**AĞAYEV** Həsən Vəliqulu oğlu [d. 27.3.1958, Culfa r-nunun Cuğa (indiki Gülüstan) k.] – aktyor. Azərb. Respublikasının xalq artisti (1999). Azərb. Dövlət İncəsənət İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) dram və kino aktyorluğu fakültəsini bitirmişdir (1979). Həmin vaxtdan C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorudur. Teatrın səhnəsində bir-birindən fərqli yadda qalan obrazlar yaratmışdır. Rolları: Orxan, Simon, Əşrəf bəy, Əkrəm bəy ("Ana", "Şeyx Sənan", "Şeyda", "Uçurum", H.Cavid), Səməd Vahid ("Anamın kitabı", C.Məmmədquluzadə), Xudayar bəy ("Sizi deyib gəlmişəm", Anar), Müəllif ("Atamın kitabı", Məmməd Araz), Sadıq ("Mənim nəğməkar bibim", Ə. Əylisli), Gənc aşiq ("Mənim tanrım gözəllikdir, sevgidir", Kəmalə), Rəşid ("Əlincə qalası", H. Arzulu), Nihad bəy ("Yad qızı", Orxan Kamal), Arçil Qordadze ("Yaşıl papaq", Şota Rokva) və s.


Ağayev Həsən

H. V. A ğ a y e v Nizami Gəncəvi ("Atabəylər", N.Həsənzadə) rolunda



**AĞAYEVA** Kəmalə Ağa qızı – şairə, dramaturq. Bax *Kəmalə*.

**AĞBULAQ** – Şahbuz r-nu ərazisində, Naxçıvançayın sol sahilində hündür təpənin yamacında antik dövrə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 1525 $m^2$. Kəndin c.-q. hissəsində yol çəkilərkən əmələ gəlmiş yarğanda gil qab qırıqları tapılmışdır. Burada aparılan təmizləmə işləri zamanı iki küp və sümük qırıqlarına və s. təsadüf edilmişdir. Tapıntılara əsasən, abidənin e. ə. 1 və eramızın 1–2 əsrlərinə aid olması ehtimal edilir.

**AĞBULAQ NEKROPOLU** – Şahbuz r-nu ərazisində antik dövrə aid arxeoloji abidə. Qəbirlər iri küplərdən ibarətdir. Təsərrüfat işləri görülərkən aşkar olunmuşdur. Ərazi traktorla küründüyündən qəbirlər dağılmış, iri küp qırıqları ətrafa səpələnmişdir. Dağılmış sahədə iri qaya parçalarına təsadüf edilmişdir. Qazıntılar zamanı iki qəbir tədqiq olunmuşdur. Birinci küp qəbir ağzı günbatana olmaqla şm.-q. istiqamətində idi. Ətrafı dördkünc formada bir cərgə daşla hörülmüşdü; küpün ağzına qara rəngli təkqulplu




**Ağbulaq nekropolu tapıntıları:**
1. Badyə tipli gil qab.
2–5. Şüşə muncuqlar.
6. Gil dolça.
7. Kasa tipli gil qab.
8–9. Tunc sancaqlar.
10. Tunc zınqırov.
11. Tunc üzük.
12. Şüşə muncuq.
13. Əqiq muncuq.
14. Romb şəkilli qaşı olan tunc təbəqəli üzük.



Ağəhməd. Üzərində mixi yazılı gil qab. E. ə. 8–7 əsrlər.

iri qab qoyulmuşdu. Küpün içərisi torpaqla dolmuş, skelet qalıqları çürüyərək preslənmişdir. Küp təmizlənərkən əqiq və şüşə muncuqlar, gil qab qırıqları və s. aşkar olunmuşdur. 2-ci qəbir 50 *m* aralıda olub, şm.-q. istiqamətində idi. Skelet qalıqları, tunc bəzək əşyaları, gil qab qırıqları, muncuq, tunc sancaq, üzük və zınqırov, 1 ədəd mis pul və s. maddi mədəniyyət nümunələri əldə edilmişdir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Şahbuz bölgəsinin arxeoloji abidələri, B., 1992.

**AĞDABAN** – Şərur r-nu ərazisində dağ. Zəngəzur silsiləsi ilə Dərələyəz silsiləsinin qovuşduğu bölgədə zirvə. Hünd. 3093 *m*. Naxçıvançayın mənbəyindədir. Zirvəsi günbəzvarı, konusvarı formaya malik olub, Alt Pliosen vulkanizminin əmələ gətirdiyi püskürmə mərkəzidir.

**AĞDAĞ** – Culfa r-nu ərazisində dağ. Qaradərə çayının aşağı axınında, onun sağ sahilindədir. Hünd. 1046 *m*. Paleosen yaşlı çökmə mənşəli süxurlardan ibarət olub, relyefdə konusvarı yüksəklik əmələ gətirir.

**AĞDƏRƏ** – Ordubad r-nunda vaxtilə mövcud olmuş kənd. R-n mərkəzindən təqr. 48 *km* şm.-q.-də, Ordubad–Bist avtomobil yolunun sağ kənarında, Gilançayın (A r a z ı n q o l u) sol sahilində, Zəngəzur silsiləsinin c.-q. yamacında idi. Hazırda əhali yaşamır. İlin yaz, yay və payız aylarında səma cisimlərinin müşahidə məntəqəsi kimi istifadə edilir.

**AĞDƏRƏ POLİMETAL YATAĞI** – Ordubad ş.-ndən 56 *km* şm.-q.-də, Aza d.-y. st.-ndan 25 *km* şm.-da, Zəngəzur silsiləsinin c.-q. yamacında, dəniz səviyyəsindən 2100–2550 *m* yüksəklikdədir. Yataq Qaranquş–Başkənd antiklinal qırışıqlığının tağ hissəsini tutur. Süxurlar porfiritlərdən, tuf-brekçiyalardan, tuf-konqlomeratlardan, tuf-qumdaşlardan ibarətdir; Alt Eosenin vulkanogen qatından təşkil olunmuşdur. Polimetal filizləşməsi lay, linza, damar və möhtəvi tiplidir. Sənaye əhəmiyyətli filiz lay formasındadır. Filizdə qurğuşun 6,6%, sink 8,9%, mis 1,0%-dir. Əsas filiz mineralları: pirit, qalenit, sfalerit, az miqdarda xalkopirit, misin törəmə mineralları. Yataq 1952 ildən istismara verilmiş, hazırda istismarı dayandırılmışdır.



Ağkənd karvansarası

**AĞƏHMƏD,** A x a m ə d – Şərur r-nunun Kərimbəyli k. ilə sərhəddə, Araz çayının təqr. 1 km-liyində kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* şm.-q.-də, Arazın sahilindədir. Əh. 869 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**AĞƏHMƏD,** A x a m m ə d – Şərur r-nunda eyniadlı kəndin c. q. qurtaracağında e. ə. I-ci minilliyə aid yaşayış yeri. Ərazidə əkin işləri zamanı iri tikili daşları, daş əmək alətləri (dən daşı və dəstə), həmçinin keramika məmulatı üzə çıxmışdır. Arxeoloji tədqiqatlar (2001) nəticəsində aşkara çıxarılmış üzərində bir cərgə mixi yazısı olan kiçik gil qab diqqəti cəlb edir. Narın qum qatışıqlı gildən yoğrulmuş və yaxşı bişirilmiş boz rəngli qab dulus çarxında simmetrik hazırlanmışdır. Qabın daxili tünd qırmızı rənglə şirələnmişdir. Tapıntıların tədqiqi yaşayış yerinin e. ə. 8–7 əsrlərə aid olduğunu söyləməyə imkan verir.

**AĞXƏÇ** – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Naxçıvan qəzasının Şahbuz nahiyəsinə daxil olmuş yaşayış məntəqəsi. Azərb.-a qarşı daim ərazi iddiaları irəli sürən ermənilər fürsət düşdükcə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpaqlarını da hissə-hissə öz ərazilərinə qatmışlar. Onlardan biri də A.-dir. Belə ki, 1929 il fevralın 18-də Zaqafqaziya MİK Nax. MSSR-in 9 kəndinin, o cümlədən A.-in əkin sahələri və otlaqları ilə birlikdə Erm. SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdi. *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

**AĞKƏND KARVANSARASI** – *Zəngəzur* mahalında əh. azərb.-lılardan (1897 ildə 620, 1906 ildə 918 nəfər, əksəriyyəti 1918–20 illərdə həlak olmuşdur) ibarət Ağkəndin yaxınlığında, Səlim çayının sahilində, Ağkənd–Göycə istiqamətində Böyük İpək Yolu üstündə tikilmişdir. Abidə birqapılı zaldan ibarət olub, memarlıq quruluşu *Səlim karvansarasına* uyğundur. Tamamilə yerin altında, iç üzdən yonulmuş bazalt daşlarla inşa edilmişdir. Çöl hissəsi torpaq altında qaldığından adi daşlardan hörülmüşdür. Üçnefli binanın daxili sütunlarla üç hissəyə bölünmüşdür. Sah. 12,2x25,1 *m*. Abidənin İpək yolunu



abadlaşdırmağa çalışan Elxani hökmdarları zamanı tikildiyini ehtimal etmək olar.

Əd.: Dərələyəzli K., Dərələyəz od içində, B., 2001, səh. 83–84.

**AĞQAYA** – Babək r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c. yamacında, Cəhri çayının sağ sahilindədir. Hünd. 1753 *m*.

**AĞQAYA** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Keçili k.-ndən 3 *km* şm.-dadır. Hünd. 2424 *m*. Günbəzvarı formadadır.

**AĞNAQTƏPƏ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-ş. yamacındadır. Subalp çəmənləri var. Hünd. 2321 *m*.

**AĞRI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Əylis çayı ilə Ordubadçayın suayırıcında, Nüsnüs k.-ndən 1 *km* şm.-q.-dədir. Hünd. 1851 *m*. Konusvarı formadadır.

**AĞRI** – Ordubad r-nunda kənd. Vənənd bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 15 *km* şm.-q.-də, Ordubad–Unus avtomobil yolunun sağ kənarında, Vənəndçayın (Arazın sol qolu) sol sahilindədir. Əh. 304 nəfər (2000); əsasən meyvəçilik, tərəvəzçilik, baramaçılıq və heyvandarlıqla məşğuldur. Klub, kitabxana, tibb məntəqəsi var.

**AĞSAL** – Şərur r-nu ərazisində dağ. Arpaçayın aşağı axınında, onun sol sahilindədir. Hünd. 1928 *m*. Günbəzvarı formada olub yamacları sıldırımdır.

**AĞSAL** – Culfa r-nu ərazisində, Əlincəçayın sol sahilində, Milax k.-ndən şm.-ş.-də Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Abidə strateji cəhətdən əlverişli mövqedə olub, hər tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Sah. 3600 $m^2$-dir. Yaşayış yeri 1991 ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Abidənin yerləşdiyi təpələrin üzəri uçub-dağılmış tikinti qalıqları ilə örtülmüşdür. Şm.-q.-dəki təpədə iri daşlardan hörülmüş divar qalıqları (uz. 3,5 *m*, eni 1,6 *m*) saxlanmışdır. Müdafiə məqsədilə tikilmiş divarın əsas hissəsi torpaq altında qalıb. Axtarışlar zamanı tapılmış yerüstü materiallar dən daşı, çəhrayı və boz rəngli gil qab qırıqları, daş alətlər və s.-dən ibarətdir. Tapıntılar Culfa r-n tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Culfa bölgəsinin arxeoloji abidələri, B., 1993.

**AĞSAL MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Ərəfsə k.-nin ətrafında, dəniz səviyyəsindən 1890 *m* hünd.-dədir. 20-yədək mineral su bulağı çıxıntısı var. Ərəfsə k.-ndən 2 *km* c.-da, Ağsal dərəsindəki əsas bulaq qumdaşlardan çıxır. Suyu şəffaf, iysizdir, çıxdığı yerdə qırmızımtıl dəmir oksidinin izləri görünür.

Balneoloji tərkibi:

$$CO_2\ 1{,}5\ M\ 3{,}4\ \frac{HCO_3\ 87\ CO_4\ 12}{Ca\ 47\ Mg\ 33\ (Na+K)\ 20}$$

$$D\ 22\ m^3/gün\ T\ 13^\circ C\ \ pH\ 6{,}5$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı – kalsiumlu-maqneziumlu-natriumludur; daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.

**AĞSAL NEKROPOLU** – Culfa r-nu ərazisində, Əlincəçayın sağ sahilində, Milax k.-ndən şm.-ş.-də Tunc dövrünə aid abidə. Arxeoloqlar Ə. K. Ələkbərovun və O. H. Həbibullayevin məlumatlarına görə, burada vaxtilə böyük nekropol olmuş və oradan boyalı qablar tapılmışdır. Əlincəçayın vadisi şumlanıb əkin sahəsi kimi istifadə edildiyindən nekropolun yerüstü əlamətləri tamamilə itmişdir. Torpaq işləri görülərkən qəbir abidələri dağıdılmış, buradan gil qablar aşkar edilmişdir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Culfa bölgəsinin arxeoloji abidələri, B., 1993.

**AĞYURD QIZIL YATAĞI** – Ordubad r-nu ərazisində, Misdağ-şəlalə filiz sahəsinin mərkəzi hissəsində, dəniz səviyyəsindən 2300–2750 *m* yüksəklikdədir. Geoloji quruluşunda adamellit, kvars-siyenit-diorit, qabbro-diorit süxurları, həmçinin diorit-porfirit daykaları iştirak edir. Yataqda kvars-sulfid-qızıl filizləşməsi əsasən 40–50° şm.-ş. istiqamətli pozulmalarla əlaqədar olaraq damar və damar zonaları tiplidir. Yataq Mehri–Ordubad intruziv kompleksi ilə əlaqədar əmələ gəlmişdir. Filiz cisimlərinin yatım şəraiti, morfologiyası, filiz əmələ gətirən mineralların müxtəlifliyi yatağın orta temp-rda yarandığını göstərir. Əsas filiz mineralları: pirit, xalkopirit, molibdenit, misin törəmə mineralları, xırda dispersiyalı qızıl. Filizlərdə qızıl 0,4–11,6 *q/t*, mis 0,04–1,4%, molibden 0,03–0,09%-dir. Tekstur əlamətlərinə görə filizlər brekçiya (süxur) və konsentrik zona tiplidir.

Ağsal yaşayış yerindən tapılmış gil qab məmulatı



247804
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



Axundlu Yavuz



Axundov Abdulla



Axundov Bəhmən

Axundov Qüdrət



**AXUNDLU** İbrahimxəlil Hacı Hüseyn oğlu (1897, Ordubad ş. – 8.7.1958, Naxçıvan ş.) – maarif və idman xadimi. Nax. MR-in əməkdar müəllimi (1957). "SSRİ bədən tərbiyəsi əlaçısı". Ordubadda yeni üsullu ibtidai məktəb bitirmişdir (1913). 1917 ilin sonu–1918 ilin birinci yarısında Ordubadda erməni quldurlarına qarşı yerli müdafiə dəstəsi yaratmışdı. Azərb. Xalq Cümhuriyyəti dövründə milli orduda xidmət etmiş, Gəncə hərbi məktəbini bitirib milli ordunun zabiti olmuşdur. Naxçıvanda bədən tərbiyəsi və idmanın təşkilatçılarından biri kimi səmərəli fəaliyyət göstərmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. 1945–58 illərdə Naxçıvan şəhər ümumtəhsil məktəblərində və müəllimlər in-tunda bədən tərbiyəsindən dərs demişdir.

**AXUNDLU** Yavuz İbrahimxəlil oğlu (d. 7.1.1927, Ordubad ş.) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1983), prof. (1985). Azərb. Respublikasının əməkdar müəllimi (1966). Naxçıvan Müəllimlər İn-tunun tarix-filologiya (1947) və Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1952) bitirmişdir. Naxçıvan şəhər orta məktəblərində müəllim, dərs hissə müdiri, direktor işləmişdir (1952–67). 1967 ildən Naxçıvan Dövlət Un-tində (ilk vaxtlar Azərb. Dövlət Pedaqoji İn-tunun filialı, sonralar Naxçıvan Pedaqoji İn-tu) çalışır. Filial direktorunun müavini (1967–69), tədris və elmi işlər üzrə prorektor (1974–79), tarix-filologiya fakültəsinin dekanı (1986–88) olmuşdur. 1970 ildən ədəbiyyat kafedrasının müdiridir. Azərb. ədəbiyyatında tarixi roman janrının inkişafına, nəzəri-estetik prinsiplərinə dair tədqiqatların müəllifidir. 1997 ildə Ankarada Azərb. xalqının müstəqillik uğrunda mübarizəsinə həsr edilmiş " İstiqlalın əzablı yolu" kitabı (türk dilində) çap olunmuşdur. Türkiyədə, Şimali Kipr Türk Cümhuriyyətində beynəlxalq uluslararası elmi konfranslarda məruzələr etmişdir.

Ə s ə r l ə r i: Tarix və roman, B., 1988; Məmməd Səid Ordubadi, B., 1997; Naxçıvan – yurdum mənim (məqalələr), B., 1997; Mənim ədəbi dünyam (məqalələr), B., 1998; Tarixi roman yeni mərhələdə, B., 1998.

**AXUNDOV** Abdulla Qasım oğlu (2.8.1913, Sədərək k. – 16.3.1970, Bakı) – meliorasiya və suvarma əkinçiliyi sahəsində alim. Texnika elmləri doktoru (1960). Bakıda Yer quruluşu texnikumunu (1930), Azərb. Kənd Təsərrüfatı İn-tunun hidromeliorasiya fakültəsini (1937), Moskva Hidromeliorasiya İn-tunun aspiranturasını (1947) bitirmişdir. Naxçıvanda yer quruluşu dəstəsinə başçılıq etmiş (1930–32), Balakən suvarma sistemləri idarəsinin rəisi (1937–39) olmuşdur. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. Kənd Təsərrüfatı İn-tunda müəllim (1947–49), Pambıqçılıq İn-tunda meliorasiya və suvarma şöbəsinin (1949–54), Azərb. Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İn-tunda drenaj şöbəsinin (1961 ildən) müdiri işləmişdir. Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdur.

Ə s ə r i: Şirvan düzünün duzlu torpaqlarının meliorasiyası və kənd təsərrüfatında mənimsənilməsi, B., 1965

**AXUNDOV** Bəhmən Yusif oğlu (28.12.1910, İrəvan – 2.10.1980, Bakı) – iqtisadçı. İlk azərb. iqtisad elmləri doktoru (1951), prof. (1952), Azərb. Milli EA m. üzvü (1968), Azərb.-ın əməkdar iqtisadçısı (1967). 1918 ildə ailəsi ilə Nax. MR-in indiki Şərur r-nuna köçmüş, əmək fəaliyyətinə muzdurluq və fəhləliklə başlamışdır. Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu (1929), Daşkənd Orta Asiya Dövlət Plan İn-tunun sənaye fakültəsini (1934), Moskva Plan İn-tunun aspiranturasını (1939) bitirmişdir. Moskvada Ağır Sənaye Xalq Komissarlığının Mərkəzi aparatında, Qubkin ad. Moskva Neft İn-tunda işləmişdir. 1941–45 illərdə Azərb. KP MK Partiya Tarixi İn-tunda baş elmi işçi, Azərb. EA İqtisadiyyat İn-tunda elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır (1945–59). Azərb. Dövlət Un-tində (indiki BDU) siyasi-iqtisad kafedrasının prof. (1952–66), Azərb. Xalq Təsərrüfatı İn-tunun (indiki İqtisad Un-ti) elmi işlər üzrə prorektoru (1966–74), siyasi-iqtisad kafedrasının prof. (1980 ilədək) olmuşdur. A. neft sənayesinin iqtisadi problemlərinə, iqtisadi fikir tarixinə, siyasi-iqtisadın aktual nəzəri problemlərinə dair tədqiqatlar aparmışdır. 60 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın, kitabça və elmi məqalələrin müəllifidir.

**AXUNDOV** Qüdrət Əli oğlu (5.6.1932, Ordubad ş. – 5.11.1973, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1967), prof. (1970). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika-



riyaziyyat fakültəsini bitirmişdir (1955). Azərb. EA Fizika İn-tunda baş elmi işçi (1954–68), nazik təbəqələr fizikası laboratoriyasının müdiri (1969–70) olmuşdur. 1970 ildən BDU-nun yarımkeçiricilər fizikası kafedrasının müdiri idi. Yarımkeçiricilər fizikasına, o cümlədən yarımkeçirici monokristalların alınmasına və onların fiziki xassələrinin öyrənilməsinə dair tədqiqatlar aparmış, bu kristalların alınması üçün texnoloji üsul və yarımkeçiricilərdə diffuziya proseslərini tədqiq etmək üçün radioaktiv izotoplar üsulunu təklif etmişdir. 100-dən çox elmi məqalənin və iki kitabın müəllifidir. Məqalələri xarici ölkələrdə (Paris, Moskva, Berlin, Sankt-Peterburq, Daşkənd və s.) də dərc olunmuşdur. Beynəlxalq və ümumittifaq elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r i: Yarımkeçiricilər (H. Abdullayevlə birgə), B., 1961.

**AXUNDOVA** Naimə Vəli qızı (d. 10.8.1933, Naxçıvan ş.) – memar. Azərb. Respublikası əməkdar memarı (1982). Azərb. Politexnik İn-tunu (indiki Texniki Un-t) bitirmişdir (1957). 1957 ildən "Azərdövlətlayihə" in-tunda işləyir (memar, qrup rəhbəri, 1965 ildən layihələrin baş memarı). Memar Mikayıl Hüseynovla birgə Vladiqafqaz ş.-ndə (1977) və Gəncədə ("Kəpəz", 1980) mehmanxanaların, Bakıda "Azadlıq" meydanının yaxınlığında 10 mərtəbəli 2 yaşayış binasının, 16 mərtəbəli evlərin (hamısı 1970 illər), 16 mərtəbəli "Azərbaycan" (1969, SSRİ Nazirlər Sovetinin mükafatı, 1978) və "Abşeron" (1985) mehmanxanalarının, Bakı poçtamtının yeni binasının (1982) layihəsini vermişdir.

**AXURA** (keçmiş adı Q a b a x l ı) – Şərur r-nu ərazisində çay. Şərqi Arpaçayın sol qolu. Dərələyəz silsiləsinin c.-q. yamacındakı Keçəltəpə d.-ndan (2460 *m*) başlanır. Qabaxlı və Havuş çaylarının birləşməsindən əmələ gəlir. Uz. 25 *km*, hövzəsinin sah. 122 *km*²-dir. Əsasən, aprel-iyun aylarında yağan yağışlar və yeraltı sulardan (30%) qidalanır. Sellər olur. Suyundan suvarmada istifadə edilir. A. çayının hidroenerji gücü 510 *kvt* təşkil edir.

A. çayının sağ və sol sahilləri boyunca 30-dan artıq qədim arxeoloji abidə – yaşayış yeri, nekropol, qala və ibadətgahlar qeydə alınmışdır. Elmi və tarixi əhəmiyyət kəsb



Axura çayı üzərində körpü.

edən *Albantəpə*, *Qoşatəpə*, *Axura kültəpəsi* abidələri xüsusilə seçilir.

**AXURA** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* aralı, Axura çayının (Şərqi Arpaçayın qolu) sağ sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 1436 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta və natamam orta məktəb, mədəniyyət evi, ambulatoriya, rabitə şöbəsi var. A. kəndindən şm.-ş.-də, Axura çayı ilə Havuşçayın birləşdiyi yerdə, hündür dağın yamacında antik dövrə aid *Govurqala*, ş.-də isə orta əsrlərə aid *Tana qalası* yerləşir. Qalanın yaxınlığında *Pisdər mağarası* var.

A. yaşayış məntəqəsinin adı ilk dəfə 7 əsrə aid mənbədə *Axurak* kimi çəkilir. 1840 il iyunun 20-də güclü zəlzələ nəticəsində dağılmış həmin kəndin əhalisi indiki əraziyə köçərək Y e n i A x u r a adlı yaşayış məntəqəsini salmışlar. Sonralar "yeni" sözü toponimin tərkibindən düşmüşdür.

**AXURA KÖRPÜSÜ** – Şərur r-nu ərazisində, Axura – Havuş yolunun 4 *km*-liyində, Axura çayı üzərindədir. Körpü ikiaşırımlı olub, uz. 30 paqonometrdir. A. k.-nün inşa edilib istifadəyə verilməsi (1998) nəticəsində r-nun dağ k.-lərinin r-n mərkəzi ilə fasiləsiz əlaqəsi təmin edilmişdir.

Axura kültəpəsi



**AXURA KÜLTƏPƏSİ** – Şərur r-nunda, *Qoşatəpədən* 2 *km* ş.-də, Axura çayının sağ sahilindəki təpəliklər üzərində antik dövrə aid yaşayış yeri. Sah. 7–8 *ha*. 2x2 ölçüdə 1,5 *m* dərinlikdə aparılmış qazıntılardan divar qalığı aşkara çıxarılmışdır. Qazıntı sahəsindən 20–25 *sm* qalınlığında kül təbəqəsi, osteoloji və bitki qalıqları, gil qab parçaları və s. əldə olunmuşdur.

Albantəpədən tapılmış silahlar, əmək alətləri və sütun altlığı.



**AXURA QARADAŞ OCAĞI** – Şərur r-nunda ziyarətgah. Ocağın mərkəzində nəhəng prizmatik-konusvarı formalı qara daş var; daşın ətrafına kiçik ölçülü bir neçə daş düzülmüşdür. Əfsanəyə görə, qara daş göydən zühur etmiş ana, ətrafındakı daşlar isə onun övladlarıdır. Odur ki, ocağa yalnız qadınlar və uşaqlar gedə bilər. Arzu və niyyətinin həyata keçməsini istəyən şəxslər ocağa nəzir deyir, arzularına çatdıqda oraya nəzir aparırlar. Axtarışlar nəticəsində ocağın həyətindən 13–14 əsrlərə aid saxsı qab qırıqları aşkar olunmuşdur. Görünür, ocaq da həmin dövrə aiddir.

**AXURA NEKROPOLU I** – Şərur r-nunda, Axura k.-nin ş. qurtaracağında Dəmir dövrünün sonuna aid arxeoloji abidə. Axura çayının sahilində yerləşdiyindən sel suları nekropolun bir hissəsini dağıtmışdır. Salamat qalmış hissənin sah. təqr. 150x100 *m*-dir. Başdaşıları nəhəng daşlardan ibarət olub konusvarı formalıdır. Torpaq qəbir tiplərinə aid qəbirlərin ikisinin dərinliyi 1,5 *m*-dir. Hər ikisində kişi skeleti olub, uz. 185 *sm*-dir.

**AXURA NEKROPOLU II** – Şərur r-nunda, I Axura nekropolundan 1 *km* ş.-də Axura çayının sağ sahilində antik dövrə aid arxeoloji abidə. Arxeoloji tədqiqatlar nəticəsində iki qəbir öyrənilmiş və onların torpaq qəbirlərdən ibarət olduğu müəyyənləşdirilmişdir. Qəbirlərdən kiçik ölçülü saxsı qab qırıqları və s. maddi mədəniyyət nümunələri aşkar olunmuşdur.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Şərurun arxeoloji abidələri, B., 1993.

**AXURAK** – Şərur r-nu ərazisində mövcud olmuş qədim yaşayış məskəni. Axura çayının (Arpaçayın qolu) sahilində, Ağrı dağının (Dərələyəz silsiləsi) ətəyində idi. 1840 il iyunun 20-də güclü zəlzələ nəticəsində dağılmış, əhalisi köçərək Yeni Axura adlı kənd salmışlar. Sonralar toponimin tərkibindən "yeni" sözü düşmüşdür.

**ALACIDƏRƏ** – Culfa r-nu ərazisində dağ. Arazın sol sahilində, Gülüstan (keçmiş Cuğa) k.-ndən 1,2 *km* c.-ş.-dədir. Hünd. 800 *m*.

**ALAGÖZMƏZRƏ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 16 *km* şm.-da, Naxçıvançayın (Arazın qolu) sol sahilində, Zəngəzur silsiləsinin c.-q. ətəyindədir. Əh. 805 nəfər (2000); taxılçılıq, heyvandarlıq, tərəvəzçilik, üzümçülük və quşçuluqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi, məscid var.

**ALANA** – şaftalı, armud və s.-dən hazırlanan çərəz. Əsasən, Nax. MR ərazisində geniş yayılmışdır. Meyvənin qabığı soyulub 5–6 gün günəşdə quruduldudqdan sonra saplaq tərəfdən dairəvi kəsilir, içərisi oyulur. Yenidən günəşli yerdə sərilir. İçərisinə qoz ləpəsi, şəkər, hil və ya keşniş toxumu qarışığı doldurulub, ağzı kəsilmiş hissə ilə örtülür. Bir müddət kölgədə saxlanılır.

**ALBANTƏPƏ** – Şərur r-nu ərazisində, Axura k.-nin q.-ində antik dövrə aid yaşayış yeri. Sah. 5 *ha*-dan artıqdır. Abidə hər tərəfdən dağlarla əhatələnmiş dərədə yerləşən ümumi dağ sistemindən ayrılmış uzunsov təpə üzərindədir. Arxeoloji qazıntılar (1979 ildə) nəticəsində 1,5 *m* dərinliyində mədəni təbəqə aşkar edilmiş, daş divar qalıqları, torpağa basdırılmış iki küp tapılmışdır. 6–7 *sm* qalınlığında kül təbəqəsi ilə örtülmüş mədəni təbəqədə küp və qazan tipli gil qab sınıqları, osteoloji qalıqlar (it, at, qoyun, keçi və qaramal sümükləri), bitki qalıqları (taxıl, şaftalı, ərik dənələri), dəmirdən hazırlanmış metal əşyalar (oraq, bıçaq, ox və nizə ucluqları), şüşə qab parçaları və s. əldə edilmişdir.

**ALBANTƏPƏ NEKROPOLU I** – Şərur r-nu ərazisində, *Albantəpə* yaşayış yerinin şm.-q.-ndə yastı təpə üzərində antik dövr abidəsi. Daş qutu qəbirlərdən ibarətdir. Qəbirlərin döşəməsinə iri sal daşlar, kənarlarına isə müstəvi formalı daşlar düzülmüşdür. Nekropolun ən hündür yerində yerləşən 1 saylı qəbir 40–45 yaşlı qadına məxsusdur. Skelet

Şüşə qablar və muncuqlar.





(uz. 1,8 *m*) və kəllə sümüyü yaxşı saxlanmışdır; sol əlinin ikinci barmağına şüşə üzük taxılmışdır. Qəbirdən dairəvi və uzunsov yaşımtıl muncuqlar aşkar edilmişdir. Nekropolun q. tərəfindəki 2 saylı qəbir 55–60 yaşlı kişiyə məxsusdur. Qəbirin baş tərəfindən şarşəkilli 2 ədəd şüşə qab əldə olunmuşdur. Tapıntıları əsasən, nekropol e. ə. 2 – eramızın 3 əsrlərinə aid edilir.

**ALBANTƏPƏ NEKROPOLU II** – Şərur r-nu ərazisində, *Albantəpə* yaşayış yerinin ş.-ində, Axuraçayın sol sahilində antik dövr abidəsi. Küp qəbirlərdən ibarətdir. Armudvarı formalı xumlar dik (azacıq ş.-ə meylli) vəziyyətdə basdırılmışdır. Tədqiq edilmiş qəbirlərdən biri dağıdılmış, ikincisi isə nisbətən salamat qalmışdır. Xumun içərisində insan skeleti ilə yanaşı bir ədəd kiçik ölçülü bozumtul küpə də aşkar olunmuşdur. 3 saylı qəbirdən iki ədəd saxsı qab – biri təkayaqlı vaza, ikincisi dulus çarxında səliqəli şəkildə formalaşdırılmış ördəkburun – əldə edilmişdir. Bu tip qablar tədqiq edilən dövrdə bütün Azərb.-da geniş yayılmışdı. Tapıntılar nekropolu e. ə. 3–2 əsrlərə aid etməyə imkan verir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Şərurun arxeoloji abidələri, B., 1993.

**ALÇALAN DAĞI** – Ordubad r-nu ərazisində dağ. Gilançay dərəsinin sağ yamacındadır. Hünd. 1247 *m*. Şm.-ş. və ş. yamacları sıldırımdır.

**ALÇALIDAĞ** – Culfa r-nu ərazisində dağ. Əlincəçayın yuxarı axınında, Zəngəzur silsiləsinin c.-q. yamacında, Ləkətağ k.-ndən 2 *km* şm.-ş.-dədir. Hünd. 2603 *m*. Günbəzvarı formadadır.

**ALDƏRƏ** – 1930 ilədək indiki Ordubad r-nu ərazisində yaşayış məntəqəsi. Fürsət düşdükcə Azərb.-a, o cümlədən onun ayrılmaz hissəsi olan Nax. MR-ə qarşı ərazi iddiaları irəli sürən ermənilərin təkidi ilə Zaqafqaziya MİK 1930 ildə Ordubad qəzasının Lehvaz, Astazor, Nüvədi və s. yaşayış məntəqələri ilə birlikdə A.-nın də Ermənistan SSR-ə verilməsi barədə qərar qəbul etmiş və bundan əvvəl, 1929 ildə həmin respublikaya verilmiş Qorçevan k., habelə Kilit k. torpaqlarının bir hissəsi ilə birlikdə həmin respublikanın Mehri r-nu yaradılmışdır. Zaqafqaziya MİK-in Naxçıvanın sərhədləri məsələsinə baxması, *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* sənədlərini imzalamış tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması, Azərb. xalqına qarşı xəyanət və cinayət idi.

**ALIŞAR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 5 *km* c.-q.-də, Arazın sahilində, Şərur düzündədir. Əh. 2047 nəfər (2000); heyvandarlıq və taxılçılıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var. Azərb.-nın Milli Qəhrəmanı Məhərrəm *Seyidov* bu kənddə doğulmuşdur.

**ALIŞARLILAR** – azərbaycanlıların etnogenezində iştirak etmiş kəngərlilərin (bax *Kəngərlər*) sofulu tayfasının bir qolu. Əsasən, Şərur r-nunun Alışar k.-də yaşayırlar. Kəndin adı da A.-la əlaqədardır; həmin tayfanın burada məskunlaşması ilə yaşayış məntəqəsi yaranmışdır.

**ALİ DİPLOMATİYA KOLLECİNİN NAXÇIVAN BÖLMƏSİ** – Naxçıvan ş.-ndə özəl ali təhsil müəssisəsi. Azərb. Respublikası Dövlət Ali Ekspert Komissiyasının qərarı ilə Bakıdakı Ali Diplomatiya Kollecinin filialı kimi 1996 ildə yaradılmışdır. Bölmədə beynəlxalq münasibətlər, iqtisad və gömrük işinin təşkili fakültələri, əyani və qiyabi şöbələr, 4 kafedra (hüquq və iqtisad, sosial-siyasi fənlər, jurnalistika və ədəbiyyat, xarici dillər və ümumi fənlər) fəaliyyət göstərir, 850 tələbə təhsil alır (2000). Burada çalışan 46 müəllimin 2-si elmlər doktoru, prof., 1-i əməkdar elm xadimi, 25-i elmlər namizədi, dosentdir (2000).

**ALİ MƏCLİS** – Naxçıvan MR-də qanunvericilik hakimiyyətini həyata keçirən ali dövlət hakimiyyəti orqanı. Bax *Naxçıvan MR Ali Məclisi*.

Allahverdiyev Şamil



**ALLAHVERDİYEV** Şamil İsmayıl oğlu (6.6.1930, indiki Şərur r-nunun Yengicə k. – 3.3.1998, Bakı) – geoloq. Geologiya-mineralogiya elmləri doktoru (1986). Azərb. Dövlət Un-tinin (indiki BDU) geologiya-coğrafiya fakültəsini (1952), Azərb. Milli EA Geologiya İn-tunun aspiranturasını (1959) bitirmiş, həmin in-tda elmi, böyük elmi, aparıcı elmi işçi vəzifələrində çalışmış, 1988 ildən İzotop geologiyası və geoxronologiya laboratoriyasına rəhbərlik etmişdir. Elmi fəaliyyəti ofiolit kompleksi süxurlarının petrologiyası və mi-



Allahyarov Kamil

neralogiyası ilə bağlıdır. Ofiolit kompleks süxurlarında Azərb. üçün yeni olan 30-dan çox mineralı müəyyən və təsvir etmişdir. 100-ə qədər elmi işi, 3 monoqrafiyası (2-si həmmüəllifli) çap olunmuşdur. BDU-da, Azərb. Dövlət Neft Akademiyasında pedaqoji fəaliyyət də göstərmişdir. Geologiya, maqmatizm, filizəmələgəlmə problemlərinə dair beynəlxalq və respublika konfrans və simpoziumlarında məruzələr etmişdir.

**ALLAHYAROV** Kamil Hüseyn oğlu (d.22.9.1950, indiki Babək r-nunun Uzunoba k.) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1997). Azərb. Dövlət Un-ti (indiki BDU) şərqşünaslıq fakültəsinin fars filologiyası şöbəsini (1973) və Azərb. Milli EA Əlyazmalar İn-tunun aspiranturasını (1979) bitirmişdir. Əlyazmalar İn-tunda elmi və baş elmi işçi olmuşdur (1979–90). 1990 ildən Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunun baş elmi işçisidir. Azərb. ədəbiyyatına, mədəniyyət və etnoqrafiyasına, o cümlədən şifahi xalq poeziyası və klassik yazılı şerin formalaşması və inkişafına, orta əsrlər əlyazma sənətinə, qədim türk xalqlarının mənşəyinə, türk toponim və etnonimlərinin etimologiyasına dair araşdırmaların müəllifidir. Azərb.-da, həmçinin xaricdə (Rusiya, İran, Türkiyə) 100-ə yaxın elmi məqaləsi dərc olunmuşdur.

Ə s ə r i: Azərbaycan şer mədəniyyəti (yaranma və təkamül dövrü), B., 1996.

**ALMALI** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-ş. yamacında, Küküçayın sol sahilində, Aşağı Remeşin k.-ndən 2 *km* şm.-ş.-dədir. Hünd. 2155 *m*.

**ALMALI** – inzibati-ərazi bölgüsünə əsasən, Naxçıvan qəzasının Şahbuz nahiyəsinə daxil olmuş yaşayış məntəqəsi. Azərb.-a qarşı daim ərazi iddiaları irəli sürən ermənilər fürsət düşdükcə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpaqlarını da hissə-hissə öz ərazilərinə qatmışlar. Onlardan biri də A.-dır. Belə ki, Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən Nax. MSSR-in 9 kəndi, o cümlədən A. əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* şərtlərinin, beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

**ALMƏMMƏD MAĞARASI**, Ərməmməd mağarası – Culfa r-nunun Camaldin k. ya-



Alovtəpə yaşayış yerindən tapılmış gil məmulatı.

xınlığında qədim mağara. 1974 ildə qeydə alınmışdır. Arxeoloji qazıntılar aparılmamışdır; daş əmək alətləri, Mustye mədəniyyəti üçün səciyyəvi olan müxtəlif lövhələr aşkar olunmuşdur. Tapıntıların təqr. 50–40 min il əvvəlki dövrə aid olduğu ehtimal edilir.

**ALMƏMMƏD PİRİ** – Culfa r-nunun Camaldin k.-ndən təqr. 4–5 *km* ş.-də, yüksək dağın q. tərəfində ziyarətgah. Alməmməd (Ərməmməd) mağarası yaxınlığındadır. Son orta əsrlərə aiddir.

**ALOVTƏPƏ** – Şərur r-nunda, Yurdçu k.-ndən ş.-də orta əsrlərə aid yaşayış yeri. Sah. 2. *ha*. Geniş tədqiqat işləri aparılmışdır. Axtarışlar zamanı əsasən çəhrayı rəngdə bişirilmiş saxsı məmulatı toplanmışdır. Yaşayış yeri təxminən 9–17 əsrlərə aid edilir.

**ALTUN** (?–?) – əmir, Əlincəqalanın kutvalı (qala rəisi). *Teymurun* yürüşləri dövründə qalanın müdafiəsinə başçılıq etmiş 3 əmirdən (Xacə Cövhər, Altun, Əhməd Oğulşayi) biri. 1390 ildə Əlincə kutvalı təyin olunmuş və Teymura qarşı kəskin mövqedə durmuşdur. Tarixçilər Fəsih Xəvafi (1375–1442), İbn Ərəbşah (15 əsr) və b. 14 əsrin sonlarında Azərb.-da baş vermiş hadisələrdən bəhs edərkən A. haqqında məlumat vermişlər. A. 1390 və 1391 illərdə Teymurun Azərb.-da olmamasından istifadə edərək, iki dəfə Təbrizə yürüş etmiş və şəhəri tutmuşdur. 1393 ildə Teymurun Əlincə üzərinə göndərilmiş 40.000-lik ordusuna qarşı mərdliklə vuruşmuş və onun 4 tümən (on minlik) əmirindən ikisini məhv etmişdir. A. Əlincə daxilində baş vermiş çəkişmələr nəticəsində Sultan Tahir tərəfindən qalaya buraxılmamış, Mərəndə getməli olmuş, buranın yerli hakimi onu öldürərək başını Teymura ərmağan göndərmişdir.



Teymur növbəti səfərində A. kimi qəhrəmana qıydığı üçün Mərənd hakimini qətlə yetirərək, əmlakını müsadirə etmişdir.

Əd.: P i r i y e v V. Z., Fəsih Xəvafinin "Mücməl-i Fəsihi" əsərində Azərbaycan tarixinin inikası, Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1997, № 1–4.

**ALTUNTAXT** – Babək r-nu ərazisindəki Qaraquş d.-nın ş. yamacında, Zəngəzur silsiləsinin q. yamacındakı Göygölün (ş. yamacda Qazangöl) şm.-q. istiqamətində uz. 500–600 *m*, eni 150–200 *m* olan düzənlik sahə – yastan. C.-dan Bağırsaqdərə, şm.-dan Buğackeşmə dərəsi, ş.-dən Lizbirt dərəsi ilə əhatə olunur. Buradan c.-da Çalxanqala, ş.-də Salaxanqaya, Qazan yaylağı, şm.-da Yeddibulaq, Halla-Halla, Xan yurdu və s. sahələr "əl içi" kimi görünür. Arxa tərəfdən Qaraquş d. (2600 *m*) ilə, üç tərəfdən dik yamaclarla əhatələnən bu yer ətrafa nəzarət etmək imkanı verir. Qərbi Azərb.-da (indiki Ermənistan), Göyçə gölünün q. hissəsindəki Göyəm dağlıq sahədə də A. adlı iki qədim kənd olmuşdur. Burada A. adlı dağın da olduğu məlumdur. "Kitabi-Dədə Qorqud"da A.-ın adı oğuzların əsas yaşayış mərkəzlərindən biri kimi çəkilir.

Əd.: B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası, c.2, B., 2000.

**ALÜMİNİUM QABLAR SƏHMDAR CƏMİYYƏTİ** – bax *Naxçıvan Alüminium Qablar Zavodu*.

**AMBARAS MƏHƏLLƏSİ** – Ordubad ş.-ndə qədim məhəllə. Ordubadçayın sağ sahilindədir. Aşağı və Yuxarı A. adlanan iki məhəllədən ibarətdir. 18 əsrin əvvəllərində Naxçıvan sancaqının tərkibinə daxil olan Azadciran nahiyəsi Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir. Mənbələrin məlumatına görə, məhəllənin kiçik meydandan ibarət mərkəzində məhəllə məscidi, çeşmə və bir neçə xırda dükan vardı. Meydanı bütünlüklə iri çinar ağaclarının kölgələri örtürdü. A. m.-nin meydanı indi də məhəllə mərkəzi rolunu oynayır.

**AMBARAS MƏSCİDİ** – Ordubad r-nu ərazisində tarixi-memarlıq abidəsi. Naxçıvan memarlıq məktəbinə aid edilir. Plan quruluşunun həllində, eləcə də fasad hissələrinin qurulmasında tətbiq olunan memarlıq kompozisiya üsulları binanın 17–18 əsr tikintilərinə uyğun gəldiyini göstərir.



**AMETİST DƏRƏSİ MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, Gömür k.-ndən 7 *km* aralıdadır. Andezitlərin sütunvarı ayrılmalarından çıxır. Suyun temp.-ru 12.8°C, debiti 12 $m^3$/gün, minerallaşma dərəcəsi 3,2 *q/l*; şəffafdır, dadı xoşagələndir.

Balneoloji tərkibi:

$$M\,3{,}2\,\frac{HCO_3\,72\,SO_4\,14}{Ca45\,(Na+K)\,31\,Mg24}\,pH\,6{,}5$$

$$D\,12\,m^3/gün\;T\,12{,}8^\circ C$$

Suyu az minerallaşmış, hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumludur. Adı buradakı xalsedon jeodlarında (boşluqlarında) xeyli miqdarda ametist olması ilə əlaqədardır.

**ANABAD** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin tərkibindədir. R-n mərkəzindən 4 *km* şm.-ş.-də, Ordubad–Gənzə avtomobil yolunun sağ kənarında, Gənzə çayının sol sahilindədir. Əh. 208 nəfər (2000); meyvəçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ANABAD-GƏDİK** – Babək r-nu ərazisində dağ. Dərələyəz silsiləsində, Lizbirt çayının (Cəhriçayın qolu) sağ sahilində, Çalxanqala (keçmiş Əznəbürt) k.-ndən 3 *km* şm.-ş.-dədir. Hünd. 2081 *m*.

**ANBAR MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. İndiki "Yaşıl aptek" yerləşən yaşayış binasının yerindəki bazara gələn kəndlilər və Yaxın Şərq ölkələrindən gələn tacirlər satacaqları malları bir neçə günlüyə indiki mədəniyyət sarayı ilə üzbəüz binaların

yerindəki anbarlara yığırdılar. Buna görə də ətraf ərazi A. m. adlanırdı. Burada mehmanxana, yeməkxana, çayxana, məscid və s. var idi. Məhəllə bir neçə yüz illik tarixə malikdir. Onun adı hələ 17 əsrə aid sənədlərdə çəkilir.

**ANZIRDƏRƏ** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sol qolu. Mənsəbindən 32 *km* məsafədə ona tökülür. Uz. 7 *km*, hövzəsinin sah. 10 $km^2$-dir. Əsasən qrunt və qar suları ilə qidalanır. Əlincəçayda sel əmələ gətirən qollardan biridir.

**ARACI** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsində zirvə. Hünd. 3067 *m*.

**ARAKSENA** – eramızın əvvəllərində Araz çayının orta və aşağı axını boyunda tarixi vilayət. Qafqaz Albaniyasının tərkibinə daxil idi. A. vil. Naxçıvan ərazisini də əhatə edirdi.

**ARAZ** – Cənubi Qafqazda çay. Kürün ən böyük qolu. Suyunun çoxluğuna görə Cənubi Qafqazda ikinci çaydır Uz. 1072 *km*, hövzəsinin sah. 102 min $km^2$. Türkiyədə Bingöl silsiləsinin yamaclarından (təqr. 3000 *m* hünd.-dən) başlanır. Axuryan çayı ilə birləşənədək olan hissəsi Türkiyə ərazisindədir. Həmin yerdən İmişli r-nundakı Bəhramtəpə su qovşağının yaxınlığınadək təqr. 600 *km* məsafədə Erm. Respublikası və Azərb. Respublikasının Türkiyə və İranla dövlət sərhədini təşkil edir. A. çayı boyunca Nax. MR ilə İran arasındakı sərhəd xəttinin uz. 163 km, Türkiyə ilə 11 *km*-dir. A. Bəhramtəpə su qovşağından mənsəbinədək Azərb. Respublikası ərazisində axır, Sabirabad ş. yaxınlığında (dəniz səviyyəsindən 11 *m* aşağıda) Kürlə birləşir.

A.-ın hövzəsi relyef və axım xüsusiyyətlərinə görə iki hissəyə (dağlıq və ovalıq) ayrılır. Türkiyə ərazisində A. tipik dağ çayıdır. Axuryanın mənsəbi ilə Araz su qovşağı arasında Ararat düzənliyindən, Sədərək, Şərur, Böyükdüz və Naxçıvan düzlərinin c.-undan axır. Bu hissədə çayın sürəti nisbətən azalır. Burada A.-a soldan Sevcur, Zəngi (Razdan), Azad, Vedi, Arpaçay, Naxçıvançay və s., sağdan Qarasu, Maku (Zəngimar) və s. qollar birləşir. Naxçıvançayın mənsəbi yaxınlığından Həkəri (Bərgüşad) çayının mənsəbinədək A. çox yerdə kanyonvarı dərələrlə axır; coşğun və astanalıdır. Bu hissədə A.-a soldan Əlincə, Gilan, Ordubad, Mehri, Oxçu və s., sağdan Qotur, Qırsı (Qırısu) və s. qollar qoşulur. Həkəri çayının mənsəbindən sonra A. tədricən düzənliyə və Kür-Araz ovalığına çıxır; yatağı meandr vəziyyəti alır. Həkəri çayının mənsəbindən aşağıda A.-a soldan Quru çay, Köndələnçay və s., sağdan Selin (Sələn), Qarasu və s. qollar birləşir. A.-ın Bəhramtəpə su qovşağından mənsəbinədək (Kürlə qovuşanadək) axdığı hissədə qolu yoxdur. Çayın dağlıq hissədəki fəal eroziya prosesi ovalıqda akkumulyasiya ilə əvəz olunur. A. qarışıq mənbədən qidalanır; axımını yeraltı sular, qar və yağış suları təşkil edir. A.-ın mənsəbi yaxınlığında orta illik su sərfi 279 $m^3/san$, axım həcmi 8,8 mlrd. $m^3$-dir. Son 50 ildə A.-ın ən az sulu (orta illik su sərfi 172 $m^3/san$) vaxtı 1961 ildə, ən çox sulu (499 $m3/san$) vaxtı isə 1969 ildə olmuşdur. Yazda qar sularının, payızda isə yağış sularının artması daşqınlara səbəb olur. Suvarmaya çox ehtiyac olan iyul və avqust aylarında çayın suyu azalır (illik axımın 7%-ə qədərini axıdır). Çayın suyunu artırmaq üçün Yuxarı Qarabağ kanalı vasitəsilə Kürdən A.-a əlavə su axıdılır. Suyu hidrokarbonatlı-kalsiumludur. Orta minerallaşma az sulu dövrdə 560–880 *mq/l*, çoxsulu dövrdə isə 260–400 *mq/l*-dir.

A.-ın böyük suvarma və hidroenerji əhəmiyyəti var. Suyundan səmərəli istifadə etmək məqsədilə çayın üstündə Bəhramtəpə su qovşağı, Sovet–İran müqaviləsinə əsasən isə *Araz su qovşağı* və Mil–Muğan sugötürmə qovşağı tikilmişdir. A. 20 əsrin 70-ci illərinədək Cənubi Qafqazın ən lilli çaylarından idi. İldə Kürə 17 mln. *t*-a qədər lil gətirirdi. Üstündə hidrotexniki qurğuların istifadəyə verilməsi ilə əlaqədar 1972 ildən sonra A.-ın

Araz çayı üzərində "PANTON", 1972





Kürə gətirdiyi lilin miqdarı 1–1,5 mln. *t*-a enmişdir. Gəmiçiliyə yararsızdır.

A. aşağı axınında yatağını tarix boyu bir neçə dəfə dəyişmişdir. Son dəfə 1896 ildə daşqın nəticəsində sahil bəndini (indiki Saatlı ş. yaxınlığında) uçurmuş, suyunun bir hissəsi Muğan düzündən keçərək Xəzər dənizinə axmışdır. Bununla əlaqədar, ərazidə bir neçə göl (Ağçala, Mahmudçala və s.) əmələ gəlmişdir. Sonralar bənd bərpa edilmiş və A.-ın suyu əvvəlki yatağına qaytarılmışdır.

Bir çox antik və orta əsr müəllifinin əsərində A. haqqında məlumat verilmişdir. Qədim yunan və latın mənbələrində Cənubi Qafqaz, Parsa (Fars) və Orta Asiyada A. adlı bir neçə çayın adı çəkilir. A. vadisində aşkar edilmiş arxeoloji abidələr, həmçinin materiallar burada qədim yaşayış məskənləri, ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri olduğunu sübut edir. 11 və 15 aşırımlı Xudafərin körpüləri kimi nadir tikintilər Naxçıvan memarlıq məktəbinin Arazboyu abidələrindəndir.

"Araz" (Aras) adının yaranma tarixi e. ə 3–1 əsrlərə aid edilir. Qədim qaynaqlarda onun adı Rass, Arras, ər-Ras, Rude-Aris, Araks və s. şəkillərində işlədilmişdir. Evstatın fikrincə, Arasın adı qədim yunanca mənası "qazıram" (sürətlə axaraq sahillərini dağıtdığı üçün) sözü ilə bağlıdır. Bəzi tədqiqatçılara görə "A." sözü çox güman ki, qədim dillərdən birində "su", "çay" deməkdir. Çayın adını İran mənşəli dillərin birində "çay" və "su" mənalarını verən "ar" və "as" sözləri ilə də izah edirlər. Hidronimi qədim fars dilindəki "qaçan", ərəb dilindəki "qaçmaq" sözləri ilə bağlayanlar da olmuşdur.

**ARAZ** – Babək r-nunda mövcud olmuş yaşayış məntəqəsi. 1972 ildə SSRİ–İran sərhədində, Araz çayı üstündə hidrotexniki kompleksin tikintisi ilə əlaqədar fəhlə qəs. kimi salınmışdı.

**"ARAZ" ARXEOLOJİ-ETNOQRAFİK EKSPEDİSİYASI** – Azərb. Milli EA Tarix İn-tunun Naxçıvan ş. yaxınlığında, Araz çayı üzərində SES tikintisi zamanı su altında qalacaq arxeoloji abidələri tədqiq etmək məqsədilə 1968 ildə yaratdığı kompleks ekspedisiya; üç dəstədən ibarət idi. Ekspedisiya su altında qalacaq Xarabaşəhər, Astabad, Bulqan, Təzəkənd, Qaraçuq, Qızılburun, Qaraxanbəyli, Böyükdüz, Şahtaxtı və digər abidələri tədqiq etmişdir. Azərb. mütəfəkkiri Nəiminin vətəni olan Astabad şəhərində, habelə, 19 əsrin əvvəlində İran şahzadəsi Abbas Mirzənin tikdirdiyi Abbasabad qalasında, Ölənşəhr və Muncuqtəpə yaşayış yerlərində qazıntılar aparılmışdır. Astabad şəhər qalıqlarında aparılmış arxeoloji tədqiqatlar nəticəsində şəhərin tarixinə dair bir sıra məsələlər aydınlaşdırılmış və onun istehsal mərkəzi aşkara çıxarılmışdır. Xarabaşəhərin Naxçıvandan 8 *km* c.-da yerləşən Qaraçuq k. yaxınlığındakı qalıqlarında aparılan tədqiqatlar nəticəsində yaşayış evləri, son orta əsrlərin (14–17) təsərrüfat həyatına və mədəniyyətinə aid zəngin faktlar aşkar edilmiş, dəmirçixana, 20 kvadratmetrlik emalatxana, dəmir ərintisi nəticəsində alınmış dəmir pasası, istehsalı başa çatdırılmamış kərənti, oraq, balta, dəhrə və digər əmək alətlərinin müxtəlif hissələri tapılmışdır. Ekspedisiya II Kültəpə yaşayış yerində tədqiqat işləri aparmış, e. ə. 2–1-ci minilliyin əvvəllərinə aid mədəni təbəqələrdən qala divarının bünövrəsi, tikinti qalıqları, sadə və boyalı keramika, daş və sümük alətlər aşkar olunmuşdur. Araz dəryaçası və SES tikilib qurtardıqdan sonra (1970) fəaliyyətini bir müddət dayandırmış və sonralar yenidən bərpa olunmuşdur.

**"ARAZ" ELM İSTEHSALAT BİRLİYİ** – elm-təcrübə mərkəzi. Naxçıvan kompleks zona təcrübə stansiyası, Naxçıvan elmi-tədqiqat baytarlıq stansiyası və Azərb. Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İn-tunun Naxçıvan dayaq məntəqəsinin bazasında yaradılmışdır (1988). Birliyin fəaliyyətinin əsas istiqamətlərinə muxtar respublikada meyvə, üzüm, tərəvəz, taxıl, yem və texniki bitkilərin genetik ehtiyatlarını toplayıb tədqiq etmək, onların yeni, daha perspektivli sortlarını yaratmaq, becərmə və emal texnologiyalarını işləyib hazırlamaq və təkmilləşdirmək, bitkiləri xəstəlik və ziyanvericilərdən mühafizə etmək, torpaqları eroziyadan və ətraf mühiti çirklənmədən qorumaq, heyvandarlığın cins tərkibini yaxşılaşdırmaq və məhsuldarlığını yüksəltmək üçün qabaqcıl yemləmə və yetişdirmə üsullarını işləyib hazırlamaq, mal-qaranı xəstəlikdən qorumaq və s. problemlərin həlli və əldə edilmiş nəticələrin istehsalata tətbiqi daxildir. Birliyin müasir avadanlıqla

təchiz olunmuş şöbə və laboratoriyaları, Ordubad, Culfa və Şərur dayaq məntəqələri, yardımçı təcrübə təsərrüfatı var. Burada 50-dən çox alim və mütəxəssis çalışır. Azərb.-ın bir çox bölgələrindəki təsərrüfatlara taxıl və yem bitkilərinin toxumlarını, rayonlaşdırılmış meyvə və üzüm sortlarının tinglərini göndərir. Son illərdə yeni mal-qara cinsləri yaradılmış, "balbas" qoyununun cins keyfiyyətləri daha da təkmilləşdirilmiş, yüksək məhsuldar "Kəhrəba", "Sirab" taxıl sortları yaradılmış, Dyubek və Samsun tipli ətirli tütün sortları, yerli "Şahtaxtı", "Nəxşəbi", "Nəbi üzümü", "Dağ üzümü" üzüm, "Tabağı", "Sultani" alma, "Hivili", "Mixəyi" armud, "Qasımlı", "Haqverdi" ərik sortları öyrənilmiş və istehsalata tətbiq edilmişdir. Birliyin alimləri, ümumiyyətlə, 150-yə qədər üzüm və meyvə sortlarını aşkar etmiş və öyrənmişlər. Birlik fermer təsərrüfatlarını inkişaf etdirir. Birliyin seleksiya və toxumçuluq şöbəsində akad. Cəlal Əliyevin rəhbərliyi və iştirakı ilə yetişdirilmiş buğda və arpa sortlarının yerli şəraitə uyğun toxumçuluq bazası yaradılmışdır. Birlikdə elmi kadrların hazırlanmasına da xüsusi diqqət yetirilir.

**"ARAZ" MAHNI VƏ RƏQS ANSAMBLI**, Naxçıvan Dövlət Mahnı və Rəqs ansamblı – 1959 ildən Naxçıvan ş.-ndə Dövlət konsert briqadası kimi fəaliyyətə başlamışdır. 1960 ildən indiki adını daşıyır. Ansamblın ilk bədii rəhbəri Azərb. Respublikası əməkdar incəsənət xadimi Ağası Məşədibəyov olmuşdur. Tahirə İsayeva, Həcər Seyidova, Abdulla Babayev, Qurban İsmayılov, Fikrət Qasımov, Sadıq Qulubəyov, Ayalı Zöhrabova, Vahid Axundov, Həsən Gülməmmədov, Aydın Camalbəyov, Bala Yusif, Kamal Əliyev ansamblın ilk solist və musiqiçiləri idilər. Ansambl fəaliyyəti dövründə sabiq SSRİ-nin bütün resp.-larında, Azərb.-ın əksər şəhər və r-nlarında qastrolda olmuş, konsert proqramları ilə çıxış etmişdir. Repertuarında Azərb. bəstəkarlarının əsərləri, muğam, rəqs və xalq mahnıları, eləcə də dünya xalqlarının mahnı və rəqsləri başlıca yer tutur.

**"ARAZ" (NAXÇIVAN) KOMPLEKS ZONA TƏCRÜBƏ STANSİYASI** – elm-təcrübə mərkəzi. Muxtar respublikada bitki ehtiyatlarının və əkinçiliyin texnoloji problemlərinin



tədqiqi ilə əlaqədar 1926 ildə Ümumittifaq Bitkiçilik, Üzümçülük, Şərabçılıq in-tlarının Naxçıvanda yaradılmış dayaq məntəqələri əsasında təşkil edilmişdi (1954). Bu müəssisələr taxıl, yem bitkiləri, meyvə, üzüm, tərəvəz, texniki və digər bitkilərin genetik ehtiyatlarının öyrənilməsi və əkinçiliyin mühüm problemlərinin həll edilməsi sahəsində xeyli faydalı işlər görmüşlər. 1988 ilin mayından *"Araz" Elm İstehsalat Birliyi* adı ilə fəaliyyət göstərir.

**ARAZ SU ELEKTRİK STANSİYASI** – Azərb. Respublikasında ən böyük SES-lərdən biri. 1 mln. 350 min $m^3$ su tutumu olan Araz dəryaçası (bax *Araz su qovşağı*) üstündədir. Tikintisinə 1963 ildə başlanmış, 1971 ildə tam istifadəyə verilmişdir. Hər biri 22 min *kvt* gücündə olan iki SES-dən (Azərb. və İran SES-ləri) ibarətdir. Nax. MR-in əsas enerji bazasıdır. Muxtar respublika ərazisinin Azərb.-dan təcrid olunması və Ermənistan tərəfindən blokadaya alınması enerji sistemini iflic vəziyyətinə salmışdır. Son illər Naxçıvan diyarının enerji çatışmazlığını aradan qaldırmaq və enerji təminatını sabitləşdirmək məqsədilə Araz SES-in hər iki turbini əsaslı təmir edilərək tam gücünə çatdırılmışdır.

**ARAZ SU QOVŞAĞI** – Azərb. Respublikası (Naxçıvan MR) ilə İran sərhədində, Araz çayı üzərində hidrotexniki kompleks. Naxçıvan ş. yaxınlığındadır. SSRİ ilə İran arasında iqtisadi və texniki əməkdaşlıq haqqında müqaviləyə (27.7.1963) əsasən tikilmiş və 1971 ildə istifadəyə verilmişdir. A. s. q.-na su anbarı (həcmi 1 mln. 350 min $m^3$), torpaq bənd (hünd. 35 *m*, uz. 900 *m*), eyni quruluşda tikilmiş və hər biri 22 min *kvt* gücündə olan



iki SES (Azərb. və İran SES-ləri) daxildir. Su anbarı vasitəsilə tənzimlənən su çayın yatağı ilə Araz çayı üstündə ikinci Sovet–İran birgə tikintisi olan Mil–Muğan sugötürmə qovşağına axıdılır. Həmin qovşaqdan başlanan magistral Baş Mil kanalı Azərb. Respublikası ərazisində mövcud suvarılan torpaqların su təchizatının yaxşılaşdırılmasına imkan verir; burada balıqçılıq təsərrüfatı yaradılmışdır. İran ərazisindəki magistral Muğan kanalı isə həmin ölkədə on minlərlə *ha* yeni torpaq sahəsini suvarır. Stansiyaların elektrik enerjisi Azərb. və İranın enerji sisteminə verilir. A. s. q. çayın axımını mövsümi və qismən çoxillik tənzimləyir, həmçinin vaxtaşırı daşqın təhlükəsini azaldır.

**ARAZ-TÜRK RESPUBLİKASI** – Azərb.-ın Naxçıvan bölgəsində qısa müddət ərzində (1918, noyabr – 1919, mart) fəaliyyət göstərmiş məhəlli səciyyəli siyasi-dövlət qurumu. Respublikanın yarandığı tarixi şəraiti səciyyələndirərkən Türkiyə qoşunlarının Naxçıvan bölgəsini tərk etmələri ilə əlaqədar onun ərazisi və əhalisinin taleyi üçün yaranmış təhlükə xüsusi vurğulanmalıdır. Çünki Türkiyə ordu hissələrinin bölgədən çıxdıqları, azərb.-lı əhalinin özünü və torpağını qorumaq üçün qüvvətli dövlət qurumuna, nizami hərbi qüvvələrə malik olmadığı bir vəziyyətdə ermənilərin qəsbkarlıq siyasətinin fəallaşması ağır nəticələr verə bilərdi. Belə bir şəraitdə müsəlman-türk əhalisinin başçıları məcburiyyət qarşısında qalaraq Naxçıvan, Şərur–Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edən məhəlli dövlət qurumu yaratdılar. Mərkəzi Naxçıvan ş. idi. Respublikada dövlət və idarəçilik orqanları təşkil edilmişdi. Siyasi vəziyyətin ağırlığı və digər səbəblər üzündən tam və geniş fəaliyyət göstərə bilməyən parlament (əsasən, bölgədəki müsəlman milli şuralarının üzvlərindən ibarət idi), icra orqanları – hökumətxana (nazirlər şurası, sədri Əmir bəy Əkbərzadə), iqtisadi-maliyyə məsələləri ilə əlaqədar xəzinə, milis idarəsi, hərbi nazirlik və s. yaradılmışdı. Bölgənin ermənilərdən müdafiəsinin təşkili və bu məqsədlə həyata keçirilən hərbi səciyyəli tədbirlər, digər türk cümhuriyyətləri ilə əlaqələr dövlət qurumunun fəaliyyətində xüsusi yer tuturdu. Qısa müddətdə silahlı qüvvələr təşkil olunmuşdu; bu hərbi hissələr – könüllü xalq dəstələri təqr. 20 tabordan ibarət idi və onlardan 4-ü Naxçıvanda, 3-ü Şərur–Dərələyəzdə, digərləri isə Vedibasar, Qəmərli və Zəngibasar ərazilərində yerləşdirilmişdi. A.-T.R. Azərb. Xalq Cümhuriyyəti (AXC) ilə sıx əlaqələr yaratmağa çalışmış, Azərb. parlamentinin fəaliyyətə başlamasını alqışlamışdı; A.-T.R. hökumətinin geniş səlahiyyətlərə malik nümayəndə heyəti 1919 il martın 8-də Bakıya gəlmiş, onunla birləşmək üçün yollar aramışdı. Bütün bunlar AXC tərəfindən razılıqla qarşılanmış, müəyyən tədbirlər görülmüşdü. A.-T.R. Şimali Azərb.-nın çox gərgin bir dövründə bölgənin azərb.-lı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində və bölgənin ermənilərin əlinə keçməsinə imkan verməməklə, onun toxunulmazlığının və bununla da AXC-nin ərazi bütövlüyünün təmin edilməsində əhəmiyyətli rol oynamışdır.

*Əd.*: Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər), B., 1996.

**ARAZBOYU DÜZƏNLİKLƏR** – Araz çayı boyunca Nax. MR-in Sədərək, Şərur, Babək, Culfa və Ordubad r-nlarının ərazilərini əhatə edir. Hünd. 600–1000 *m*. Nax. MR daxilində Dərələyəz və Zəngəzur d-rının meridian istiqamətində uzanan qolları və yüksəklikləri vasitəsilə Sədərək, Şərur, Kəngərli, Böyükdüz, Naxçıvan, Culfa, Ordubad və s. düzlərə ayrılır. Sah. 1700 $km^2$ (Nax. MR ərazisinin 1/3-i). Şm.-ş.-dən c.-q.-ə doğru meyllidir. Əsasən, Antropogen sisteminin kontinental çöküntülərindən təşkil olunmuşdur. Faydalı



qazıntıları duz, travertin, gil və s. Yayı quraq keçən soyuq yarımsəhra və quru çöl iqlimi var. Orta aylıq temp-r yanvarda – 4-dən – 6°C-yə qədər, iyulda 27–28°C-dir. İllik yağıntı 300 *mm*-ə çatır. A. d.-dən Arpaçay, Naxçıvançay, Əlincə, Qaradərə, Gilan, Düylün, Vənənd, Əylis və Ordubad çayları axır. Nehrəm, Uzunoba su anbarları var. Araz çayı üstündə yaradılmış su anbarı (bax *Araz su qovşağı*) A. d.-in bir hissəsini tutur. Boz və çəmən-boz torpaqları yayılmışdır. Yovşanlı, yovşanlı-şoranlı yarımsəhra, şoranlı səhra bitkiləri əsas yer tutur. Heyvanları canavar, tülkü, çölpişiyi, çölsiçanı, çöldonuzu, quşlardan kəklik, göyərçin, qaraqarın bağrıqara və s. A. d.-də taxıl, tütün və s. əkilir, meyvə, üzüm yetişdirilir. Qışlaq kimi istifadə olunur.

*Əd.:* Babayev S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**"ARAZIN SƏSİ"** – qəzet. Culfa Rayon İcra Hakimiyyətinin orqanı. 1935 ildən nəşr edilir. Müxtəlif illərdə "Bolşevik yolu" (1935), "Zərbəçi heyvandar" (1936–50), "Sovet Culfası" (1951–59), "Zəfər" (1959–91) adları ilə buraxılmışdır. 1991 ildən "A.s." adı ilə çıxır. Qəzet Nax. MR-in, o cümlədən Culfa r-nunun sosial-siyasi, iqtisadi və mədəni həyatını işıqlandırır; Azərb.-da və dünyada baş verən mühüm hadisələr haqqında xəbərlər, ədəbi-bədii yazılar da dərc edir.

**ARBATAN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Arpaçayın sağ sahilində, Şərur düzündədir. Əh. 693 nəfər (2000); heyvandarlıq, yemçilik, əkinçilik, taxılçılıq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, məişət və ticarət obyektləri var. A.-a telefon xətti çəkilmişdir.

**ARDAĞLI** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin q.-indədir. Hünd. 2229 *m*. Yüksək hissələrində subalp çəmənlikləri var.

**ARDIC** – Şərur r-nu ərazisində dağ. Bağırsaqdərəsi çayının sol sahilində, antiklinal quruluşlu Şərur silsiləsinin suayırıcındadır. Hünd. 2034 *m*. Relyefdə kəskin parçalanmış günbəzvarı yüksəklik əmələ gətirir.

**ARINC** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 3 *km* şm.-da, Şahbuz–Kükü avtomobil yolunun kənarında, Kükü çayın (Naxçıvançayın qolu) sahilindədir. Əh. 528 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, uşaq bağçası, rabitə şöbəsi var. Yaxınlığında orta əsrlərə aid *Nohur* yaşayış yeri yerləşir.

**ARINC NEKROPOLU** – Şahbuz r-nunun Arınc k.-ndə son orta əsrlərə aid arxeoloji abidə. Müsəlman qəbiristanlığında yalnız baş daşlarının bir hissəsi və bir neçə qoç fiquru qalmışdır. Baş daşlarından ikisinin yuxarı hissəsi tacvarı şəkildə yonulmuşdur. Sadə formalı iki qoç fiqurundan biri spiralvarı buynuzludur. Abidənin 15–16 əsrlərə aid olması ehtimal edilir.

**ARISU** – Ordubad r-nu ərazisində dağ. Əylis çayının sağ sahilində, Aşağı Əylis k.-ndən 1,5 *km* şm.-q.-dədir. Hünd. 1400 *m*. Relyefdə günbəzvarı yüksəklik əmələ gətirir.

**ARMUDLU MİNERAL SU BULAĞI** – Şərur r-nu ərazisində bulaq. Magistral avtomobil yolunun kənarındadır. Suyun temp-ru 25,5°C, debiti 21,6 $m^3$/*gündür*.

Balneoloji tərkibi:

$$M\,1{,}8\frac{HCO_3\,86}{Ca71\,Mg15\,(Na+K)14}\,pH\,6{,}1$$

$$D\,21{,}6\,m^3/gün\;T\,25{,}5^\circ C$$

Suyu zəif minerallaşmış, hidrokarbonatlı-kalsiumludur.

**ARPAÇAY**, Arpa, Şərqi Arpaçay – Ermənistanda və Azərb. Respublikası (Nax. MR-in Şərur r-nu) ərazisində çay. Araz çayının sol qolu. Uz. 126 *km*, hövzəsinin sah. 2630 $km^2$. Sarıbulaq silsiləsinin yamaclarından (3100 *m* hünd.-dən) başlanır. Yeraltı sular, qar və qismən yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə edildiyindən yayda suyu Araza çatmırdı. Bunu nəzərə alaraq Şərur r-nu ərazisində A.-ın üstündə su anbarı (bax *Arpaçay su anbarı*) tikildi (1977) və bununla da əkin sahələrinin suvarılmasına imkan yarandı. Erməni təxribatçıları Nax. MR-in sosial-iqtisadi inkişafına zərbə vurmaq niyyəti ilə A.-ın suyunun Göyçə gölünə axıdılmasına nail oldular. Bu məqsədlə A.-dan Göyçə gölünə tunel (uz. 48,6 *km*) çəkildi (1980). Nax. MR-in əsas k. t. rayonu olan Şərur r-nunda kəskin su qıtlığı yarandı, ərazinin ekologiyası pozuldu.

Son illər A. vadisində aparılmış arxeoloji qazıntılar nəticəsində Tunc dövrünə, antik dövrə və orta əsrlərə aid bir çox yaşayış yerləri, nekropollar və s. arxeoloji abidələr qeydə alınıb öyrənilmişdir.





**ARPAÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Şərur r-nu ərazisində, Dizə k.-ndən 0,5 *km* c.-q.-dədir. Yatağın geoloji quruluşunda Müasir dövrün çaqıl, çınqıl və gil qarışıqlı qum süxurlarından ibarət allüvial-prolüvial çöküntülər iştirak edir. Çaqıl və çınqıllar yuvarlaq və yarımyuvarlaq əhəngdaşı, qabbro-diabaz, qabbro-porfirit süxurlarından ibarətdir. Sah. 2,3 $km^2$, faydalı qatın qalınlığı 4,6–5,0 *m*-dir. Texnoloji tədqiqatların nəticələrinə görə, çınqıl-qum qarışığı yuyulduqdan sonra "300" markalı adi beton istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 9831 min $m^3$-dir. Yataq istismar olunur.

**ARPAÇAY KÖRPÜSÜ** – Şərur r-nu ərazisində, Sədərək–Naxçıvan – Ordubad avtomobil yolunun 30 *km*-liyində, Arpaçay üzərindədir. Uz. 120 paqonometr. 1996 ildə əsaslı surətdə bərpa edilib yenidən qurulmuş və istifadəyə verilmişdir.

**ARPAÇAY SU ANBARI** – *Arpaçay* üzərində su anbarı. Şərur r-nu ərazisindədir. Azərb.-da iri irriqasiya qurğularındandır. 1977 ildə istifadəyə verilmişdir. Su aynasının sah. 6,30 $km^2$-dir. Çayın üstündə 68 *m* hünd.-də tikilmiş bənd onun suyunu faydalı həcmi 140 mln. $m^3$ olan su anbarına yığaraq 20 min *ha* (bəzi məlumatlara görə isə 46 min *ha*) əkin sahəsinin suvarılmasına imkan yaradır. Su anbarından 2 böyük arx ayrılır: 1. Yuxarı s-z kanalı – c.-ş., Qıvraq k. istiqamətində əkin sahələrinin suvarılmasında istifadə olunur; 2. Sədərək qəs. istiqamətində əkin sahələrinin suvarılmasında istifadə edilir.

**ARPADƏRƏ** – Ordubad r-nu ərazisində çay. Gilançayın (Arazın qolu) sağ qolu. Uz. 10 *km*, hövzəsinin sah. 16 $km^2$-dir.

**ARPADƏRƏSİ** – Ordubad r-nu ərazisində, Qaradərə çayının orta axınının dərəsi. Toxluca silsiləsindən 2 *km* c.- ş.-dədir.

**ARVAN** – Culfa r-nu ərazisində dağ. Müasir relyefdə 2 konusvarı yüksəklik əmələ gətirir. Hünd. 1280 *m*.

**ASƏFKƏF** – Babək r-nunda qədim abidə, ziyarətgah. Bax. *Əshabi-Kəhf*.

**ASLANXAN GÖVHƏR** (1847, indiki Ordubad r-nunun Tivi k. – 1906, orada) – şair. Nəsirov soyadlı yoxsullaşmış bəy ailəsində doğulmuş, əvvəlcə Məşədi Muxtar adlı bir ruhaninin yanında oxumuş, sonra isə Ordubadda mədrəsə təhsili almışdır. Bir müddət Ordubadda və Qarabağda müəllimlik etmişdir. Gəncliyində Ordubadda Gövhər adlı bir qıza aşiq olmuş və onun adını özünə təxəllüs götürmüşdür. Ordubaddakı *"Əncüməni-şüəra"* ədəbi məclisinin fəal üzvlərindən olmuş, əsasən, aşıq şeri tərzində yazmışdır. A.G.-in lirikasında, əsasən, şairin şəxsən tanıdığı gözəllər (Mələk, Nərgiz və b.) realistcəsinə vəsf olunur. Yaradıcılığında ictimai mövzular da əhəmiyyətli yer tutur. Şair sosial ədalətsizliyi, yoxsulların ağır güzəranını hakim təbəqələrin zülmünü təsvir və tənqid etmişdir. Şerlərində bədbinlik, ümidsizlik, zəmanədən şikayət motivləri də əksini tapmışdır.

*Əd.:* Qədimov Ə., Aslanxan Gövhər, Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri (humanitar seriya), 1999, №4.

Aslanov Hamlet



**ASLANOV** Hamlet Qurbanəli oğlu (d.10.12. 1938, Ermənistan, Amasiya r-nunun Şurabad k.) – meliorasiya sahəsində alim. K. t. elmləri doktoru (1998), prof. (1999). Əslən sədərəklidir. Azərb. Politexnik İn-tunu (indiki Texniki Un-t, 1965) və Moskvada Ümumittifaq Su Təchizatı, Kanalizasiya, Hidrotexniki Qurğular və Mühəndislik Hidrogeologiyası Elmi-Tədqiqat İn-tunun aspiranturasını (1969) bitirmişdir. Texniki un-tdə müəllim, baş müəllim, dosent (1973 ildən) olmuşdur. 1975 ildən Azərb. Memarlıq və İnşaat Un-tində (keçmiş İnşaat Mühəndisləri Un-ti) çalışır;

1999 ildən un-tin hidrotexniki meliorasiya və hidrologiya kafedrasının prof.-dur. 70–80-ci illərdə Azərb.-da yaradılmış iri meliorasiya qurğularının (o cümlədən Nax. MR Vayxır su anbarının) layihələrinin tərtibində iştirak etmişdir. Meliorasiya coğrafiyaşünaslığı və hidrologiya sahəsində tədqiqatlar aparır. Azərb.-ın dağlıq əraziləri torpaqlarının meliorasiyasının elmi əsaslarını vermişdir.

Ə s ə r l ə r i: Hidrologiya, hidrometriya və axımın nizamlanması (Ş. Bağırovla birgə), B., 1982; Qapalı suvarma sistemləri, B., 1992; Meliorasiya torpaqşünaslığı, B., 1999.

**ASNI**, Ə s n i – Sədərək r-nu ərazisində mövcud olmuş kənd. 1728 il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri" adlı mənbədə qeyd edilən Sədərək nahiyəsinin tərkibindəki 24 kənddən biri idi; əhalisini azərb.-lılar təşkil edən və 29 ailədən ibarət olan A. k.-nin ildə 4.500 ağca vergi verdiyi göstərilirdi. Etnoqraf və tarixçi İ. Şopenin məlumatına görə, 19 əsrin 30-cu illərində A. kəndində 11 ailə (41 nəfər) yaşayırdı. 20 əsrin əvvəllərində Sədərəkdən təqr. 1,5 *km* q.-də yerləşən Qarasudərəli (Qarasu dərəsi) k. ilə birləşmişdi. Hazırda Sədərək k.-nin ş.-ndə məhəllə adı kimi qalmışdır.

**ASSURİYA** – indiki İraq ərazisinin şm.-ında qədim dövlət. Paytaxtı Aşşur ş. idi. E. ə. II minillikdə Babilistanı və Şimali Mesopotamiyanı istila edərək güclənmişdi. Tarix boyu gah güclənmiş, gah da tənəzzülə uğramışdır. E. ə. 8 əsrədək A., demək olar, bütün Ön Asiyanı zəbt etmişdi. Urartu və Manna dövlətlərinin gücləndiyi Urmiyayanı bölgənin xammal ehtiyatları ilə zəngin vilayətlərinin işğalına daim diqqət yetirilirdi. E. ə. 7 əsrin sonlarında A. kimmerilərlə, iskitlərlə və midiyalılarla şiddətli müharibələr aparırdı. Babilistanın və Midiyanın birləşmiş qoşunları e. ə. 605 ildə A.-nı və onun əsas şəhərlərini darmadağın etdi. A.-nın qüdrəti suvarma sisteminə əsaslanan yüksək əkinçilik təsərrüfatı səviyyəsinə, inkişaf etmiş sənətkarlığa, Cənubi Mesopotamiya ilə Kiçik Asiya arasında tranzit ticarətə nəzarətə, güclü və mütəşəkkil daimi orduya, inkişaf etmiş hərbi texnikaya söykənirdi. Geniş təsərrüfatlara malik məbədlər, daha çox Mesopotamiyanın qədim xalqlarından iqtibas edilmiş allahlara sitayiş xüsusi yer tuturdu. Assuriya dili sami dilləri qrupuna daxildir. Assuriyalılar şumerlərin kəşf etdiyi mixi yazısından istifadə edirdilər. A.-nın mövcud olduğu dövrlərdən zəmanəmizədək gəlib çatmış mətnlər və təsvirlər təkcə onun öz tarixinə deyil, həm də onunla qonşu olan ölkələrin, o cümlədən tərkibinə Naxçıvanın da daxil olduğu Mannanın tarixinə dair xeyli məlumat verir.

**ASTABAD** – Naxçıvan ş.-ndən 12 *km* c.-ş.-də, Araz çayının sahilində orta əsr şəhəri. Xarabalığı indiki *Təzəkəndin* yaxınlığındadır. A. adına 14 əsrdən başlayaraq mənbələrdə və rəsmi sənədlərdə təsadüf edilir. 18–19 əsrlərdə adı tədricən unudulmuş, yaxınlığındakı məbədin adı ilə bəzən Qızılvəng adlandırılmışdır. 1895 ildə A.-da gildən hazırlanmış kişi heykəlciyi tapılmışdır. Qədim qəbiristanlıqdakı arxeoloji qazıntılar zamanı (1926) Tunc dövrünə aid boyalı qablar, silahlar, üzərində insan təsviri olan daş və s. aşkar olunmuşdur. Orta əsrlərdə A. hürufiliyin mərkəzlərindən biri olmuşdur. Tədqiqatçılara görə, həmin hərəkatın banisi və rəhbəri Azərb. mütəfəkkiri Fəzlullah Nəimi (1339–94) A.-da yaşamış və "Astabadi" təxəllüsü daşımışdır. Şəhər feodal ara müharibələri nəticəsində dağıdılmışdır. Araz su qovşağının tikintisi (1967–71) ilə əlaqədar xarabalığı su altında qalmışdır.

**ASTABAD NEKROPOLU** – Naxçıvanda, *Astabad* yaxınlığında orta əsrlərə (12–18 əsrlər) aid qəbiristanlıq. Nekropolda müsəlman adəti üzrə dəfn edilmiş skeletlər aşkar olunmuşdur. Bəzi qəbirlərin üzərində sənduqə və daş qoç formasında abidələr olmuşdur. Baş daşlarının əksəriyyəti düşmüş və dağılmışdır; bəzilərinin üzərində ərəb qrafikası ilə kitabə saxlanmışdır. Araz su qovşağının tikintisi (1967–71) ilə əlaqədar nekropol su altında qalmışdır.

**AŞAĞI ARALIQ** (1935 ilədək X a n  A r a l ı q) – Şərur r-nunda kənd. Aralıq bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 5 *km* c.-ş.-də, Arpaçayın sağ sahilində, Azərb. Respublikasının beynəlxalq d.-y.-nun kənarındadır. Əh. 870 nəfər (2000); bağçılıq, tərəvəzçilik və maldarlıqla məşğuldur; şəkər çuğunduru yetişdirilir. Xəstəxana, klub, kitabxana var. Ərazisindəki keyfiyyətli içməli su yatağından Naxçıvan ş.-nin və r-nun kəndlərinin tələbatı təmin edilir.



**AŞAĞI AZA** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* c.-q.-də. Ordubad–Naxçıvan magistral avtomobil yolunun c.-unda, Gilançayın (Arazın qolu) sağ sahilindədir. Əh. 1033 nəfər (2000); bağçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, heyvandarlıq və quşçuluqla məşğuldur. Orta məktəb, xəstəxana, uşaq bağçası, klub var.

2000 ildə kəndi 300 *ha*-dan artıq əkin sahəsindən ayıran Gilançay üzərində 61 paqonometrlik körpü salınmışdır. Bu, əkin sahələrinə gediş-gəlişlə bağlı problemləri aradan qaldırmış, nəqliyyat vasitələrindən istifadə olunmasına imkan yaratmışdır.

**AŞAĞI BUZQOV** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 40 *km* şm.-da, Buzqov çayının (Cəhri çayının qolu) sahilində, Dərələyəz silsiləsinin c. yamacındadır. Əh. 957 nəfər (2000); heyvandarlıq, arıçılıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt şöbəsi, məscid var.

**AŞAĞI DAŞARX** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 14 *km* aralı, Naxçıvan–Sədərək avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 645 nəfər (2000); tərəvəzçilik və pazıçılıqla (şəkər çuğunduru) məşğuldur. Orta məktəb, tibb məntəqəsi, klub, kitabxana var.

**AŞAĞI DAŞARX NEKROPOLU** – Şərur r-nunda, eyniadlı kənddən şm.-q.-də ilk Dəmir dövrünə aid arxeoloji abidə. Əkin sahələri, şm. tərəfdən isə suvarma kanalı ilə məhdudlaşır. Nekropolun ərazisində təsərrüfat işləri görülərkən bir neçə torpaq qəbir dağıdılmışdır. Zəngin maddi mədəniyyət nümunələri toplanmışdır. Tapıntılar əsasən gil qab məmulatından (kasa, piyalə, küpə, parç və s.) ibarətdir. Belə gil qab nümunələri Sarıdərədən, Şahtaxtıdan, Qızılvəngdən və digər abidələrdən də məlumdur. Tapıntılar Şərur rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır.

**AŞAĞI ƏYLİS** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 3 *km* ş.-də, Əylis çayının sahilində, Ordubad–Yuxarı Əylis avtomobil yolunun kənarındadır. Əh. 959 nəfər (2000); bağçılıq, əkinçilik, heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var (bax, həmçinin *Əylis* k.).

**AŞAĞI ƏNDƏMİC** – Ordubad r-nunda kənd. Nüsnüs bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 5 *km* şm-q.-də, Dübəndi çayının sağ sahilindədir. Əh. 802 nəfər (2000); bağçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**AŞAĞI QIŞLAQ** – Şahbuz r-nu ərazisində çay. Yuxarı Qışlaq çayının (Naxçıvançayın qolu) sağ qolu. 1800 *m* hünd.-dən başlanır. Uz. 5 *km*. Yağış suları ilə qidalanır.

**AŞAĞI QIŞLAQ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* şm.–ş.–də, Yevlax–Laçın–Naxçıvan avtomobil yolundan 1 *km* aralıdır. Əh. 876 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, ambulatoriya, rabitə şöbəsi var.

**AŞAĞI NEHRƏM** – Babək r-nunda mövcud olmuş kənd. Arazboyu düzənlikdə idi. Nehrəm k. yaxınlığındakı eyniadlı d.-y. st.-nın yanında salınmışdı.

**AŞAĞI REMEŞİN** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 14 *km* şm.-da, Şahbuz–Kükü avtomobil yolunun kənarında, Küküçayın (Naxçıvançayın qolu) sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 671 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, ambulatoriya, uşaq bağçası, rabitə şöbəsi var. Yaxınlığında hündür təpə üzərində e. ə. 3–1 minilliklərə aid *Sarıdərə nekropolu*, habelə *Sarıdərə*, bir qədər aralıda isə *Remeşin* yaşayış yerləri qeydə alınmışdır.

**AŞAĞI UZUNOBA** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 18 *km* şm.-da, Naxçıvançayın (Arazın qolu) sağ sahilindədir. Əh. 431 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, məscid var.

**AŞAĞI YAYCI** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 16 *km* şm.-ş.-də, Arpaçayın sol sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 1519 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, xəstəxana, kitabxana və mədəniyyət evi var. Kəndin c.-q.-ndə, dağ silsiləsinin Arpaçaya enən yamacında Tunc və ilk Dəmir dövrlərinə aid *Qız qalası* yaşayış yeri yerləşir.

**AŞIQ ƏLİ** Xanxanım oğlu (?–?) – aşıq (19 əsr). Sədərək kəndində yaşayıb yaratmışdır. Həyat və yaradıcılığı haqqında müfəssəl məlumat olmasa da, yaddaşlarda qalmış şerləri ("Aşan yollar yar yanına gedirmi?", "Nə üzün daldalar", "Təcnis", "Gözəlin" və s.), haqqındakı söhbət və rəvayətlər onun kamil sənətkar, hazırcavab və mərd bir insan olduğunu göstərir.

*Əd.:* Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, B., 1994.

**AŞIQ FƏTULLAH** (1920, indiki Babək r-nunun Şıxmahmud k. – 1942) – aşıq. Çobankərəli Cəfərə şagirdlik etmişdir. Aşiqanə qoşmaları ("İstər könlüm", "Zülflərin", "Yan, barı", "Bənzər", "Allı qız", "Gözəl" və s.) ilə tanınmışdır. Böyük Vətən müharibəsində həlak olmuşdur.

*Əd.:* Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, B., 1994.

**AŞIQ MƏMMƏDCƏFƏR** – bax *Vayxırlı Məmmədcəfər*.

**AŞIQ NABAT** (Nabat Paşa qızı Cavadova; 1914, indiki Şərur r-nunun Parçı k. – 1973, Şərur r-nunun Siyaqut k.) – aşıq. Kiçik yaşlarında ata-anasını itirmiş, 1934 ildə Bərdə r-nuna köçmüş, bir müddət görkəmli xanəndələr Xan Şuşinski, Seyid Şuşinski, Zülfi Adıgözəlov və tarzən Qurban Pirimovla bir yerdə xanəndəlik etmiş, sonra da üç il Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın şagirdi olmuşdur. Məlahətli səsi və ifaçılıq qabiliyyəti ilə qadın həmkarları arasında seçilmişdir. Klassik və müasir aşıqların üç yüz qatardan çox şerini, bir neçə xalq dastanını bilmiş və bütün dəstgahı ilə ifa etmişdir. Qoşma və gəraylıların ("Sinəmdə", "Bahara", "Yaxşıdı", "Gözəllər", "Baxtımı", "Var" və s) müəllifi kimi də tanınmışdır. Azərb. aşıqlarının II qurultayının (1938) nümayəndəsi, Bakıda və Moskvada keçirilən ədəbiyyat və incəsənət ongünlüyü və folklor festivallarının iştirakçısı və qalibi olmuşdur. Şerləri dövri mətbuatda və toplularda dərc edilmişdir. Şərur tarix-diyarşünaslıq muzeyində A.N.-ın yaradıcılığını əks etdirən xatirə guşəsi yaradılmışdır.



*Əd.:* Paşayev S., Aşıq Nabat. "Azərbaycan qadını" jurnalı, 1968, № 7; Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, B., 1994.

**AŞIQ NƏCƏFALI** (?, Şahbuz r-nunun Kükü k. – ?) – aşıq. 19 əsrin 2-ci yarısında yaşayıb-yaratmışdır. Həyat və yaradıcılığı haqqında məlumat azdır. Qoşma, bayatı, gəraylı, müxəmməs, təcnis və s. janrlara tez-tez müraciət etmişdir. Dastan yaradıcılığında öz dəstixətti ilə seçilmişdir.

**ATABABA TÜRBƏSİ** – Azərb. memarlıq abidəsi. *Yusif ibn Küseyir türbəsinin* xalq arasında işlədilən adı.

**ATABƏY** – səlcuq sultanları vəliəhd şahzadələrinin tərbiyəçisi; titul. Səlcuqilər dövründə meydana çıxmışdır. A. adını daşıyan ilk şəxs – sultan Alp Arslanın vəziri Nizamülmülk olmuşdur. Alp Arslan onu oğlu Məlikşaha tərbiyəçi təyin etmiş, iliq, ata, xoca və A. adlandırmışdır. Məlikşah sultan olduqdan sonra Nizamülmülkə rəsmi olaraq A. adı verilmişdi (1073). Böyük Səlcuqilər dövründə A. yüksək vəzifə və titul idi. Tədricən A. ləqəbi ilkin anlamını itirərək, yeni məzmun kəsb etdi, hökmdarın ali tituluna çevrildi. Bu sözü adi mənasından fərqləndirmək üçün isə ləqəbə "ən böyük, əzəmətli" (əl-əzəm) sözü artırıldı. A. əmirlərin, iqta sahiblərinin, valilərin süzereni idi və formal olaraq sultandan sonra ikinci adam hesab edilirdi.

**ATABƏY GÜNBƏZİ** – Azərb. memarlıq abidəsi. *Möminə xatun türbəsinin* xalq arasında işlədilən adı.

**ATABƏY TÜRBƏSİ** – Azərb. memarlıq abidəsi. *Möminə xatun türbəsinin* xalq arasında işlədilən adı.

**ATABƏYLƏR** – səlcuq sülalələri. Səlcuqilər dövlətinin tənəzzülü dövründə meydana gəlmiş müstəqil sultanlıqların öz növbəsində yaratdıqları yeni tipli dövlət birliklərini idarə edirdilər. Bu dövlətlərin yaradıcıları Səlcuq sultanlarının sabiq kölələri (məmlüklər) idilər. Zaman keçdikcə A. gücləndilər və qəyyumluq etdikləri şəxslərin yalnız adda başçılıq etdikləri dövlətlərin taleyini müəyyənləşdirən faktiki hökmdarlara çevrildilər. Sultanlar isə hakimiyyətin yalnız zahiri əlamətlərini mühafizə etmişdilər; onların adları sikkələr üzərində zərb edilir, cümə xütbələrində çəkilirdi. 12–13 əsrlərdə bir neçə belə dövlət vardı: Mosul atabəyləri [Zəngilər, 1127–1262 ], Fars atabəyləri [Salqurilər, 1137–1286], İrbil atabəyləri [Beytekinlər, 1144–1233], Luristan atabəyləri [Xəzərəsplər, 1155–1424 ], Azərbaycan atabəyləri [ Eldənizlər, 1136–1225] və s. Bax, həmçinin *Azərbaycan atabəyləri dövləti.*



**ATABƏYLƏR MEMARLIQ KOMPLEKSİ** – *Əcəminin* Naxçıvan ş.-ndə yaratdığı memarlıq ansamblı. Şəhərin mərkəzini təşkil edən bu memarlıq abidələri 12 əsrin 2-ci yarısında, Azərbaycan atabəyləri dövləti dövründə inşa edilmişdir. Üzü Araza yönələn təpə və möhkəm daş divarlı qala içərisində salınan bu kompleksin tərkibində şah sarayı (*bax Eldənizlər sarayı*), *dövlətxana*, (darülmülk) Cümə məscidi, böyük mədrəsə, *Möminə xatun türbəsi, Yusif ibn Küseyir türbəsi, Qoşa minarəli baştağ*, yaşayış evləri və başqa yardımçı binalar vardı. Azərb.-ın paytaxt şəhərlərində belə tərkibli nadir memarlıq ansamblının olması orta əsrlərdə şəhərsalmanın zəruri tələbi idi.

*Əd.:* Qiyasi C., Nizami dövrü memarlıq abidələri, B., 1991.

**ATABƏYLƏR MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Naxçıvan tarixində mühüm rol oynamış Atabəylərin adı ilə sıx bağlıdır. Şəhərin qədim məhəllələrindən biri kimi adı el arasında indi də yaşayır.

**ATABƏYLƏR MƏQBƏRƏSİ** – Azərb. memarlıq abidəsi. *Möminə xatun türbəsinin* xalq arasında işlədilən adı.

**ATATÜRK** Qazi Mustafa Kamal (1881, Saloniki – 10.11.1938, İstanbul) – Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti [1923–38]. Atatürk soyadı ona Türkiyədə familiya qəbulu ilə əlaqədar 1934 ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən verilmişdir. Ali hərbi təhsil almış A. İtaliya–Türkiyə (1911–12) və İkinci Balkan (1913) müharibələrində iştirak etmişdir. Birinci Dünya müharibəsində (1914–18) göstərdiyi şücaət və sərkərdəlik



Atabəylər memarlıq kompleksi. 12 əsr. Foto 19 əsr.

məharətinə görə 1916 ildə ona general rütbəsi və paşa titulu verilmişdir. Türkiyənin gələcəyini şübhə altına alan Mudros barışığı (30.10.1918) ilə razılaşa bilməyən A. 1919 il mayın 19-da Samsunda milli qurtuluş savaşına başlamış və sonradan onun adı ilə adlanan "Kamalçılar hərəkatı"nın rəhbəri olmuşdur. Antanta orduları İstanbulu işğal edəndən (1920, 16 mart) və ingilislər "Məclisi-məbusan"ı ("Deputatlar palatası") dağıdandan sonra, A. 1920 il aprelin 23-də Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratmışdır. A. TBMM-in və onun təşkil etdiyi hökumətin (prezident seçiləndək) başçısı olmuşdur. "Ya istiqlal, ya ölüm!" şüarını rəhbər tutan A. istiqlal savaşını uğurla başa çatdıraraq, müdaxiləçilərin ölkədən qovulmasına və Türkiyənin ərazi bütövlüyünün bərpa edilməsinə nail olmuşdur. Müdaxiləçilər üzərində qələbələri təmin etdiyinə görə TBMM A.-ə marşal rütbəsi və "Qazi" ("Qalib") fəxri adını vermişdir.

A. Azərb.-ın Naxçıvan mahalına dair erməni iddialarının diplomatik vasitələrlə dəf edilməsi sahəsində də dəyərli işlər görmüşdür. Qurtuluş savaşına başladığı zaman A. Naxçıvan bölgəsinin tanınmış adamları ilə əlaqə saxlamış, Naxçıvan nümayəndələrinin Ərzurum konqresinə (1919, 23 iyul – 7 avqust) qatılması üçün səylər göstərmişdi. 1921 ilin fevralında RSFSR diplomatları ilə danışıqlar aparmaq üçün Moskvaya yola düşən Türkiyə diplomatlarına A.-ün belə bir tövsiyəsi olmuşdu: "Naxçıvan – türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni ediniz". A., həmçinin 1921 il oktyabrın 14-də Azərb. SSR-in Türkiyədəki səfiri İbrahim *Əbilov* Ankarada qəbul edərkən Azərb.-ın öz milli

Atatürk



hüdudları daxilində, o cümlədən Naxçıvan mahalında azad və müstəqil yaşamaları üçün Türkiyənin bütün tədbirləri görəcəyi barədə təminat verdiyini rəsmən bildirmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 9 mart 2001 il tarixli Sərəncamı ilə Azərb.-da Atatürk Mərkəzi yaradılmışdır.

Əsəri: Избранные речи и выступления, М., 1966.

Əd.: Hüseynov Q. H. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970; Utkan Qocatürk. Atatürk, B., 1991; Əliyev Ə., Əlincə yaddaşı: Naxçıvan – 1914–92, B., 1997.

**ATROPATENA** (qədim yun. Atropatios Media) – Azərb. ərazisində tarixi vil. və dövlət. Midiya dialektləri qrupunda mövcud olmuş Atarpat(a)kan(a) adından yaranmışdır. Bu da "Azərbaycan" adının ən qədim formasıdır. Əhəmənilərin (Haxamanişilər) Midiya satrapı olan Atropat e. ə. 4 əsrin 20-ci illərində özünü Kiçik Midiya (əsasən, Cənubi Azərb. vil.-ləri, İran Kürdüstanının bir hissəsini, Şimali Azərb.-ın bəzi bölgələrini əhatə edirdi) əyalətinin hökmdarı elan etmişdi. Naxçıvan bölgəsi də e. ə. 4 əsrin sonu – 1 əsrin birinci yarısında Midiyanın antik mənbələrdə adı Basaropeda kimi çəkilən Vaspurakan əyalətinin tərkibində A.-ya daxil idi. Yeni yaranmış dövlət, antik müəlliflərin göstərdikləri kimi, öz banisinin adı ilə adlanmağa başlandı. A. dövlətinin güclənməsi Atropatın fəaliyyəti ilə bağlıdır. Mənbələr A.-da k.t.-nın, sənətkarlığın, şəhər həyatının və mədəniyyətin inkişaf etdiyini göstərir. Burada bağçılıq, əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan, inkişaf səviyyəsinə görə qərbdəki qonşularından heç də geri qalmayan tayfalar yaşayırdı. Bunu yazılı mənbələr, həmçinin Təxti-Süleyman zonasında, Xəzər sahilinin c.-q. sahəsində və başqa yerlərdə aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş materiallar da təsdiq edir. A.-dakı mədənlərdə müxtəlif qiymətli metallar (o cümlədən qızıl), həmçinin mis və dəmir, Urmiya (Matiana, Mantiana) gölündən isə duz çıxarılırdı. Ölkədə atçılıq da inkişaf etmişdi.

Müstəqil dövlətin yaranması ölkədə təsərrüfatın canlanmasına, məhsuldar qüvvələrin, həmçinin ticarət və sənətkarlığın inkişafına xeyli təkan verdi. Sonrakı dövrün məlumatlarına görə, A.-da məbəd təsərrüfatı inkişaf etmişdi. Ən münbit torpaqlar Zərdüşti kahinlərə – maqlara məxsus idi. A.-da yeni şəhərlər salınırdı. A.-nın paytaxtlarından olan Qazaka ş.-ndə Midiya dövləti dövründən daha əvvəl müqəddəs sayılan ən mühüm atəşpərəstlik məbədlərindən biri mövcud idi. A. qonşu ölkələrlə geniş ticarət əlaqələri saxlayırdı.

A. dövlətinin möhkəmlənməsi və inkişafı ellinizm dövrünə aiddir. Şərq ölkələrində müxtəlif yunan təsisatları, yunan dili, elmi, təhsili, ədəbiyyat və incəsənəti geniş yayılırdı. Həmin dövrdə yunan dili A.-da da işlədilirdi. Ehtimal ki, e. ə. 4 əsrin sonuncu onilliklərində müstəqilliyini saxlamağa çalışan Atropat və onun yaxın varisləri, keçmiş İranın bütün satraplıqlarını ələ keçirərək "mərkəzləşdirmə" siyasəti yürüdən Selevklə kəskin mübarizə aparmalı olmuşdular. E. ə. 3 əsrin ikinci yarısında A.-nın sərhədləri xeyli genişləndirildi. Bununla belə, e. ə. 3 əsrin 20-ci illərinin sonunda görkəmli sərkərdə və dövlət xadimi olan A. hökmdarı Artabazan Selevki hökmdarı III Antioxun hakimiyyətini tanımağa məcbur olmuşdu. Lakin bu uzun sürmədi. Artıq e. ə. 2 əsrin 60-cı illərindən A. yenidən müstəqil siyasət yürütməyə başladı. E. ə. 2 əsrin təqr. ikinci yarısından A.-da parfiyalıların nüfuzu gücləndi. A. bu dövrdə Roma əleyhinə siyasət tərəfdarı kimi parfiyalılarla ittifaqda idi. A. hərbi cəhətdən qüdrətli dövlət idi. Antik müəlliflərə görə, A. döyüşə 10000 süvari və 40000 piyada çıxara bilirdi. E.ə. 36 ildə Roma sərkərdəsi Antoni 100 minlik qoşunla Kiçik Midiyaya soxuldu. Fraaspa ş.-nin (A. hökmdarlarının qış iqamətgahı) qəhrəmancasına müdafiəsi, atropatenalıların güclü müqaviməti, işğalçılara qarşı az qala partizan müharibəsinin aparılması Roma legionlarının Parfiya–A. qoşunları tərəfindən darmadağın edilməsi ilə nəticələndi. A. hökmdarı Artabaz romalılardan çoxlu hərbi qənimət, o cümlədən Antoninin sərkərdələrindən birinin döyüş bayraqlarını ələ keçirdi. E.ə. 1 əsrin son illərində ənənəvi parfiyapərəst siyasətindən əl çəkən Artabaz romalılarla dostluq əlaqəsi yaratdı. O, Antoni ilə qohum oldu. Üzərində Avqustun təsviri və "Böyük hökmdar Artavasda" (A r t a b a z a) sözləri həkk olunmuş gümüş sikkə də bu dostluq əlaqələrini təsdiq edir. Yeni müttəfiqlərinə arxalanan Artabaz A.-dan qərbdəki vil.-lərdə fəal siyasət yürüdürdü. E. ə. 1 əsrin sonu – eramızın 1 əsrinin əvvəllərində A.-nı romalılarla dostluq münasibətləri saxlayan Ariobarzan idarə edirdi. O, bir müddət Ermənistan taxtında da möhkəmlənə bilmişdi. Atropatilərdən sonuncu A. hökmdarı Ariobaz (A r i o v a s t) idi. Onun dövründə (təqr. 20 ildə) A.-da Arşakilər sülaləsinin kiçik qolunun əsasını qoymuş III Artaban hakimiyyət başına keçdi. III Artaban romalıların ən qəddar düşməni idi. O, Parfiya taxt-tacını ələ keçirdikdən sonra öz qardaşı Vanonu A.-ya hakim təyin etdi. Arşakilər Kiçik Midiyanı 3-cü əsrin əvvəlinədək idarə etmişlər.

3 əsrin əvvəlində İranda hakimiyyəti Sasanilər ələ keçirdilər. Sasanilər dövründə A. siyasi müstəqilliyini tamamilə itirib İran şahənşahının dastakertinə çevrildi. Lakin Sasanilər dövründə A.-nın mədəni və dini mərkəz kimi rolu daha da gücləndi. Eramızın ilk əsrləri A.-da feodal münasibətlərinin yaranması və möhkəmlənməsi dövrü idi. 5 əsrin son rübündə başlanmış məzdəkilər hərəkatı A.-nın, eləcə də bütün İranın daxili həyatında ən mühüm hadisə oldu. 4–6 əsrlərdə A. ərazisi dəfələrlə köçərilərin basqınlarına məruz qaldı və müharibə meydanına çevrildi. 7 əsrdə A. ərəblər tərəfindən işğal edildi.

A.-da müstəqil dövlətin meydana gəlməsi və onunla bağlı olan hadisələrin həmin ərazinin tarixi taleyində böyük rolu olmuşdur. Təkcə Azərb.-ın deyil, hətta Ön Asiyanın xeyli hissəsinin qədim dövr və erkən orta əsrlər tarixinə A.-nın təsiri şəksizdir. "Azərbaycan" məfhumunun formalaşmasının, habelə onunla əlaqədar olan digər siyasi və etno-mədəni xarakterli hadisələrin başlanğıcı məhz A. dövründə qoyulmuşdur. Burada ilk dəfə xalq təşəkkül tapmışdı. Avesta kanonu da A.-da başa çatdırılıb tamamlanmışdı. Hələ Parfiya dövründə A.-da təkcə Azərb.-ın deyil, eləcə də o dövrdə bütün İranın mənəvi həyatında mühüm rol oynayan zərdüştiliyin yeni mərkəzi yaranmış, sonralar Sasanilər dövründə onun mövqeyi daha da möhkəmlənmiş və bu vəziyyət ərəb işğalına qədər davam etmişdi.

Əd.: Azərbaycan tarixi, 7 cilddə, c.1, B., 1998; Abdulla Fazili, Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında, B., 1970; Дьяконов М. М., История Мидии, М., 1956; yenə onun., Очерки по истории Древнего Ирана, М., 1961; Кошеленко Г. А., Культура Парфии. М., 1966; Луконин В. Г., Культура сасанидского Ирана. М., 1969; Алиев И., Очерк истории Атропатены. Б., 1989.



**AYÇINQIL**, A y ç o n q a l – Ordubad r-nu ərazisində çay. Vənənd çayının (Arazın qolu) sol qolu. Ayçonqal aşırımından, 3362 *m* hünd.-dən başlanır. Uz. 7 *km*.

**AYÇINQIL**, A y ç o n q a l – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Parağaçayın mənbə hissəsindədir. Hünd. 3707 *m*. Sıldırım yamaclı, konusvarıdır. Eosenin çökmə vulkanogen süxurlarından təşkil olunmuşdur.

**AYÇINQIL AŞIRIMI** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsində aşırım. Hünd. 3362 *m*.

**AYIDAŞ SİLSİLƏSİ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Qaradərə çayı dərəsinin sağ yamacında, Kərimqulu Dizə k.-ndən 2 *km* şm.-dadır. Şm.-q. istiqamətində uzanır. Ən yüksək zirvəsinin hünd. 1224 *m*.

**AYIDƏRƏSİ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q. istiqamətdə ayrılan Xəzəryurd yan qolunun suayırıcında zirvə. Hünd. 3115 *m*.

**AZA**, A z a d – Azərb.-da qədim şəhər. Mənbələrə görə, Ordubad ş.-nin 20 km-liyində, Gilançayın sahilində idi. 11–12 əsrlərdə Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri saxlayırdı. İran tarixçisi H. Qəzvini (1281–1350) və b. A. haqqında məlumat vermişlər. H. Qəzvini "Nüzhət əl-qülub" əsərində yazmışdır: "Azad bol taxıl, üzüm, pambıq məhsulları ilə şöhrət tapmış kiçik şəhərdir. Buranın üzüm bağları çox məşhurdur. Şəhərin suyu Qafan dağlarından gəlir və artığı Araz çayına axır... Əhalisi ağbənizdir..." Tədqiqatçılar A. ilə indiki Aşağı Aza və Yuxarı Aza k.-lərinin coğrafi mövqeləri arasında əlaqə olduğunu müəyyənləşdirmişlər. Aşağı və Yuxarı Aza k.-lərinin meydana gəlməsi, ehtimal ki, A. ş.-nin tənəzzülü ilə əlaqədardır. Farsdilli sənədlərdən aydın olur ki, 18 əsrin əvvəllərində həmin kəndlərdən biri "Azadbədəli", digəri isə "Azadçayı" adlanırmış. Avropa ölkələrinə gedən mühüm ticarət yolları A.-dan keçirdi (bax *Aza körpüsü*). Orta əsrlərdə A.-da sənətkarlıq, ticarət, üzümçülük, şərabçılıq inkişaf etmişdi. Şəhər, çox güman ki, monqol hücumları zamanı dağıdılmışdır.



**AZA KÖRPÜSÜ** – Ordubad r-nunda, Aşağı Aza k.-ndə qədim körpü. Gilançayın üzərindədir. Uz. 46 paqonometrdir. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən A. k.-nün Böyük İpək Yolu ilə əlaqədar olduğu ehtimal edilir. Buradan quru meyvələr, sənətkarlıq malları, ipək ixrac olunurdu. Tarixi hadisələr nəticəsində dəfələrlə dağıdılmış, sonra təmir edilmişdir. 1997 ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur.

**AZA QƏBİRİSTANI** – Ordubad r-nunda, Aşağı Aza k.-nin şm.-ş.-ndə orta əsrlərə aid arxeoloji abidə. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı qoç formalı iki qəbirüstü daş və digər maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Qəbiristanda pir (bax *Aza piri*), minarə mövcuddur. Qoç daşın birinin üzərində hicri 1092 (1681) tarixi qalmışdır.

Aza pirinin kitabəsi.



**AZA PİRİ** – Ordubad r-nunda, Aşağı Aza k.-nin şm.-ş.-ndə orta əsrlərə aid ziyarətgah. Pirin içərisindəki kitabə və ətraf qəbiristanda qalmış kitabələr tarixi əhəmiyyətli abidə kimi diqqəti cəlb edir. Pirin keçmiş görkəmindən, yəni orada mövcud olmuş binalardan əsər-əlamət qalmamışdır. Aşkar olunmuş üç qoç daşdan ikisi yazısızdır, başı sınmış üçüncü abidənin yan tərəflərində ərəbcə kitabədə yazılmışdır: "Onun sahibi Səfərdir. Səkkiz yüz yetmiş yeddinci il (1472/73)". Pirin giriş qapısının sağ və solundakı iki məzar daşı inşaat materialı kimi işlənmişdir. Daşların çoxu hörgüdə qalmışdır. Tədqiqatlar nəticəsində vaxtilə pirin ətrafında qəbiristanlıq olduğu aydınlaşdırılmışdır. İçəridə qəbirüstü sinə daşının üzərində həkk olunmuş çatma tağlı taxça hissəsində kitabə motivi – Qur'andan ayələr, aşağı hissədə isə süls elementli nəsx xəttilə ərəbcə kitabədə "... əzəmətli ... mömin... Mövlana Şəmsəddin Məhəmməd səkkiz yüz doxsan ikinci il zilhiccə ayında fani dünyadan əbədi dünyaya köçdü...". Zilhiccə 892 (18. XI–17. XII.1487) il sözləri yazılmışdır. Kitabədəki ləqəblər həmin şəxsin görkəmli ruhani alimi, qəbrinin ziyarətə çevrilməsi isə vaxtilə onun xalq arasında böyük nüfuza malik olduğundan xəbər verir. Abidə və qəbiristanlıqda olan məzar daşları üzərindəki kitabələrdə qeyd olunmuş "əl-Azadi", yəni dəfn olunanların azadlı olduqlarını göstərən sözlər Aza (Azad) ş.-nin burada yerləşdiyini bir daha təsdiq edir.

*Əd.:* M ə ş ə d i x a n ı m N e m ə t, Azərbaycan pirləri, B., 1992.

**AZAÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Ordubad r-nu ərazisində, Aza və Baş Dizə k.-ləri arasındadır. Geoloji quruluşunda Üst Dördüncü dövrün və Müasir dövrün çaqıl, çınqıl və qum qarışığından ibarət allüvial, prolüvial və dölüvial çöküntüləri iştirak edir. Çaqıl-çınqıl qarışığı çaybasar hissədə andezit, andezit-dasit, əhəngdaşı və qumdaşıdan, çay hövzəsində isə əsasən intruziv süxur qırıntılarından ibarətdir. Yataq bənd tikintisi məqsədilə öyrənilmişdir. Yatağın sənaye ehtiyatı 4375 min $m^3$-dir.

**AZADCİRAN NAHİYƏSİ** (A z a d k i r a n) – tarixi ərazi. 16 əsrin sonlarına aid bir sənəddə A. n.-nin Ordubadın bir nahiyəsi olduğu göstərilir. 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan *Naxçıvan sancağının* 14 nahiyəsindən biri də A. n. idi. Bu dövrdə A. n. 37 kəndi əhatə edirdi. Ordubad ayrıca nahiyə təşkil etməyərək, bir qəsəbə kimi A.n.-nə daxil idi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 14 kəndində müsəlmanlar, 8 kəndində xristianlar, 8 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı; bu nahiyəyə daxil olan Ordubad ş. əhalisinin böyük əksəriyyəti müsəlmanlar idi. Nahiyənin illik gəliri 408 455 ağça idi; bu da Naxçıvan sancağının illik gəlirinin 15,5%-ni təşkil edirdi. 18 əsrin sonlarında və 19 əsrin əvvəllərində Naxçıvan ölkəsinin ş. hissəsindəki torpaqlar Azadciran adlanırdı. A. n. haqqında



Kəngərli sənədlərində (nəşri 1936) də məlumat var. İran şahzadəsi Abbas Mirzənin bir reskriptindən A. n.-nin 1820 ildə Cavanşirlər tayfasına mənsub Əbülfət bəy Cavanşir tərəfindən idarə edildiyi aydın olur. Sənədlərdən görünür ki, Abbas Mirzə sonralar A. n.-ni cavanşirlərdən alıb, bu nahiyə də daxil olmaqla, bütün Naxçıvan ölkəsinin hakimliyinə Məhəmməd bəy Kəngərlini təyin etmişdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüseynəddin Məmmədov-Qaramanlı), B., 1997.

**AZƏRBAYCAN ATABƏYLƏRİ** – Azərb.-da Eldənizlər sülaləsinin idarə etdiyi dövlətin hökmdarları. Bax *Eldənizlər*.

**AZƏRBAYCAN ATABƏYLƏRİ DÖVLƏTİ** – Azərb.-da Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövləti [1136–1225]. Azərb. (Kürdən c.-a), Şimal-Qərbi İran vilayətləri (İsfahan, Rey) və s. yerləri əhatə edirdi. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. Mühüm şəhərləri: Naxçıvan, Təbriz, Gəncə, Beyləqan, Xoy, Şəmkür və s. Əsas təsərrüfat sahələri: əkinçilik, maldarlıq, ipəkçilik, toxuculuq, sənətkarlıq və s. A. a. d.-nin əsasını Azərb.-ın da bir vilayət kimi daxil olduğu İraq Səlcuq sultanlığının başçısı II Toğrulun [1132–35] azyaşlı oğlu Arslan şahın atabəyi (tərbiyəçisi) *Şəmsəddin Eldəniz* qoymuşdur. A. a. d.-nin yaranma tarixi sultan Məsudun [1135–52] Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Səlcuqilər arasında sülalədaxili çəkişmələrin qızışdığı bu dövrdə taxt-tac uğrunda gedən mübarizədə öz mövqelərini möhkəmləndirməyə çalışan səlcuq hökmdarları hərbi iqta sistemi yaradaraq, bu iqta paylarını sədaqətli hərbi rəisləri arasında bölüşdürürdülər. Abbasi xəlifələrinin qızışdırdığı səlcuq əmirlərinin bir-biri ilə düşmənçilik edən qrupları arasında hakimiyyət uğrunda gedən vuruşmalar zamanı Bərdədə iqamətgah qurmuş Şəmsəddin, əsasən, müşahidəçi mövqeyində duraraq, əlverişli fürsət gözləyirdi. Bu zaman Gəncə, Naxçıvan və Arranın Arazdan şimala bir çox torpaqları sultan Məsudun atabəyi Qara Sunqurun idarəsində idi. Qara Sunqur öldükdən (1141) sonra onun yerini Əmir Çavlı tutdu. Tarixçi Mirxondun (1433-98) məlumatına görə, bu dövrdə Şirvanı da bir süzeren kimi öz hakimiyyətinə tabe edə bilmiş Şəmsəddin Əmir Çavlının 1146 ildə qəfil ölümündən sonrakı qarışıqlıqdan istifadə edərək, Naxçıvan vilayətini öz mülklərinə birləşdirir, iqamətgahını Bərdədən Naxçıvana köçürür və beləliklə, Azərb.-ın böyük hissəsinin sahibi olur. Əmir Çavlıdan sonra Gəncə və Arranın bir hissəsi 1147 ilin aprelinədək Əmir Fəxrəddin Toqan Yürəyin əlinə keçir. Dövrün mənbələri A. a. d.-nin yaradıcısı Şəmsəddin Eldənizin adını 1148 il hadisələri (sultan Məsudun dövlətdəki bütün real hakimiyyəti vəziri Xass bəyə verməsi) ilə əlaqədar "Gəncə və Arranın" da sahibi kimi çəkirlər. 1153 ildə yeni səlcuq sultanı Məhəmmədin hakimiyyətə gəlməsi ilə taxt-tac üçün təhlükəli sayılan vəzir Xass bəyin edam edilməsindən sonra əsas şəhəri Naxçıvan olan A. a. d. artıq Arranın xeyli hissəsini özündə birləşdirmişdi. Sultanlığın işlərinə qarışmadan Naxçıvandakı iqamətgahında qalan və yalnız öz mülklərində əmin-amanlığın bərqərar olmasına çalışan Şəmsəddin Eldəniz yenidən xəlifə, sultan və əmirlər arasında səngiməyən qanlı hakimiyyət çəkişmələrinə qoşulur. Əvvəl Rey, sonra Naxçıvan yaxınlığında baş verən vuruşmalarda sultan qoşunlarına məğlub olan Şəmsəd-



din Eldəniz Naxçıvanı və demək olar, bütün Arranı tutmuş sultandan əfv olunmasını xahiş edir. Sultan Məhəmmədin razılığı ilə atabəy Şəmsəddin Eldəniz Arran hakimi, Marağa sahibi Arslan Apa ibn Ağsunqur əl-Əhmədili isə Azərb. hakimi təsdiq edilir.

1161 ildə İraq səlcuq sultanı Süleyman şahın taxtdan salınmasından sonra Eldənizin himayəsində olan və onun bilavasitə köməyilə hakimiyyətə gəlmiş Arslanşahın sultan elan edilməsi ilə A. a. d. tarixində yeni mərhələ açılır. Bu vaxtadək yalnız Azərb. və Arranın müəyyən hissəsinə sahiblik edən feodal hakim olan Azərb. atabəyi "böyük atabəy" titulu almış Şəmsəddin Eldənizin nüfuzu sayəsində bütün İraq sultanlığının həqiqi başçısına çevrilir. İraq səlcuq sultanı Arslanşahın iqamətgahı olan Həmədan A. a. d.-nə başçılıq edən Şəmsəddin Eldənizin əsas şəhəri, dövlətin paytaxtı olur. Bu zamandan etibarən özünəməxsus diarxiyanın (ikihakimiyyətliliyin) yaradıcısına çevrilən A. a. d.-nin başçısı qoşunlara özü rəhbərlik etmiş, dövlət vəsaitləri üzərində nəzarəti öz əlində cəmləşdirmiş, vassalların gerçək süzereni olmuşdu. Daşıdığı "məlik" titulu atabəy hakimiyyətinin irsi olduğunu bildirirdi. A. a. d.-nin başçısı öz adına pul kəsilməsi, xəlifə və sultandan sonra adının xütbələrdə çəkilməsi haqqını da əldə edə bilmişdi. Ali hakimiyyət – sultanın adından fəaliyyət göstərmək imkanı qazanmış Şəmsəddin Eldəniz A. a. d.-nin sərhədlərini genişləndirməyə nail olmuşdu. 1161 ildə ələ keçirilən Rey iqta kimi Rey hakimi



*Fayans nimçə. Eldəniz hökmdarı saray əyanları ilə təntənəli hərbi qəbulda. Ermitaj (Sankt-Peterburq).*

İnancın qızına evlənmiş *Məhəmməd Cahan Pəhləvana* verildi. Qum və Qəzvin sultan mülklərinə birləşdirildi. 1162 ildə Məhəmməd ibn Ağquşun idarə etdiyi Ərdəbil vil.-nin ərazisi də ələ keçirilərək Cahan Pəhləvanın mülklərinə qatıldı. Həmin il Fars hakimi sultandan və atabəydən vassal asılılığını qəbul edərək, onların adına pul kəsdirdi. 1163 ildə Nişapur, Qumis və Mazandaran vilayətlərinin hakimi Müəyyiq Ay Apa, 1167 ildə Mosul atabəyi Qütbəddin Mədud, 1168 ildə Kirman atabəyi II Arslanşah, Xuzistan hakimi Şimlə, 1170 ildə şirvanşah II Mənuçöhr Eldənizlərdən asılı vəziyyətə düşdülər. 12 əsr tarixçisi Sədrəddin əl-Hüseyninin məlumatına görə, A. a. d.-ni idarə edən Eldənizlərin mülkləri "Tiflis qapılarından Məkranədək" uzanırdı. İraq sultanlığının həqiqi başçısına çevrilmiş Şəmsəddinin oğulları Cahan Pəhləvan sultanın hacibi, *Qızıl Arslan* isə baş komandan vəzifəsinə təyin olundular.

Dövlətin qərbdə ən güclü rəqibləri monqol hücumlarınadək Azərb. hökmdarı ilə daim münaqişədə olan gürcü hökmdarları idi. 1161 ilin avqustunda çar III Georginin [1156–84] başçılıq etdiyi gürcü qoşunları həmin dövrdə Arranın tərkibində, Eldənizlərin tabeliyində olan Ani, az sonra isə Dvin ş.-lərini qarət və talan edib, əhalisini əsir aldılar. Çox keçməmiş Gəncə də bu cür müdaxilə və talana məruz qaldı. Atabəy Eldənizin Xilat, Ərzən ər-Rum və b. yerlərin hakimləri və əmirləri ilə birlikdə yaratdığı birləşmiş qüvvələr Gürcüstana hücum edərək, uzun sürən hərbi əməliyyata başladılar. Gürcülər məğlub edildilər. Səlcuqilərin vassalı kimi hələ də Şəddadilər sülaləsinə mənsub əmirlər tərəfindən idarə olunan Ani 1164 ilin aprelində yenidən gürcülərin hücum və qarətinə məruz qalsa da, həmin ilin sonunda azad edilir. Şəmsəddin Eldəniz Anini Şəddadilərdən olan əmir Şahənşahın [1164–74] ixtiyarına verir. Gürcü qoşunlarının Gəncə (1166), Ani, Naxçıvan (1174) və b. yerlərə yeni hücumları 1175 ildə atabəy Eldənizin, sultan Arslanşahın, Xilat və Diyarbəkir hakimlərinin Cahan Pəhləvanın başçılıq etdiyi birləşmiş qoşunları tərəfindən əks-hücumla dəf edildi. A. a. d.-nin şərq sərhədləri isə tez-tez Xarəzmşah qoşunlarının hücumlarına məruz qalırdı.



1175 ilin noyabrında A. a. d.-nin yaradıcısı Şəmsəddin Eldənizin arvadı, sultan Arslanşahın anası *Möminə xatun* Naxçıvanda vəfat etdi. A. a. d.-nin təşəkkül və ilkin inkişaf mərhələsində mühüm rol oynayan bu qadının vəfatından bir ay sonra zəmanəsinin böyük siyasi xadimi olan Şəmsəddin Eldəniz özü də ömrünü başa vurur. Həmədanı tərk edərək Naxçıvana gələn, dövlət xəzinəsini (Əlincə qalasında saxlanırdı) və taxt-tacın əmlakını, eləcə də bütün qoşunları öz nəzarəti altına alan Məhəmməd Cahan Pəhləvan [1175–86] A. a. d.-nin ikinci atabəyi olur. A. a. d. tarixində mahir siyasətçi və görkəmli dövlət xadimi kimi özünəməxsus yer tutmuş Cahan Pəhləvan anabir qardaşı sultan Arslanşahın qəfil ölümündən sonra onun oğlu III Toğrulu sultanlıq taxtına əyləşdirir, özü də onun atabəyi olur. Dövlət hakimiyyəti əməli olaraq Cahan Pəhləvanın əlinə keçir. Tabe olan hakimlərdən və vassallardan heç biri buna etiraz etmir, çünki o dövr müəlliflərinin dili ilə desək, "bütün hakimlər Pəhləvandan qorxurdular". Sultanın adına pul kəsilir, onun sərəncamları dərhal yerinə yetirilirdi. Qardaşı Qızıl Arslanı Arran və Azərb.-da canişin vəzifəsinə təyin edən Cahan Pəhləvan, onu Naxçıvanda qoyaraq, özü sultanlığın paytaxtı Həmədana köçür. Cahan Pəhləvanın dövründə A. a. d.-nin siyasi dayaqlarını möhkəmlətmək üçün onun ictimai-siyasi tarixində uzun müddət aparıcı rol oynayan məmlük elitası yaradıldı. Atabəy onların hər birinə iqta payı kimi müəyyən vilayət və ya şəhər vermişdi. Cahan Pəhləvanın inzibatçılıq qabiliyyəti, mərkəzi hakimiyyəti möhkəmləndirmək səyləri və sərt tələbkarlığı nəticəsində dövlət idarəçiliyi sisteminin hər bir sahəsində möhkəm qayda-qanun yaranmışdı. Apardığı ağıllı siyasət sayəsində onun hakimiyyəti dövründə A. a. d. heç bir xarici müdaxiləyə məruz qalmadı. Cahan Pəhləvanın ən böyük uğurlarından biri Təbrizin Ağsunqurilərin əlindən alınıb, iqta kimi Qızıl Arslana verilməsi oldu. Razılığa görə, yalnız Marağa əvvəlki sahiblərinin – Ağsunqurilərin əlində qaldı. Cahan Pəhləvanın ölümündən (1186) sonra onun vəsiyyəti ilə hakimiyyətə gələn qardaşı Müzəffərəddin Qızıl Arslanın [1186–91] siyasi hadisələrlə zəngin hökmdarlığı dövründə A. a. d.-nda



*Əlincəqala*

mərkəzi hakimiyyətə qarşı çıxışlar baş verir. Cahan Pəhləvanın bütün sabiq məmlükləri Qızıl Arslanın tərəfində olsalar da, formal olaraq sultan titulu daşıyan III Toğrul, eləcə də Cahan Pəhləvanın arvadı İnanc xatun və bir sıra müxalif əmirlər Həmədana gələrək, dövlətin idarəsini üzərinə götürən yeni atabəyə qarşı çıxdılar. 1187 ildə Həmədan yaxınlığında müxalif qüvvələrlə bir neçə gün davam edən döyüşdən sonra atabəy qoşunları geri çəkilir. Lakin rəqib cəbhəsində baş qaldıran ziddiyyətlər xəlifə ən-Nasirin köməyindən istifadə edən Qızıl Arslanın təntənə ilə III Toğrulun qoyub getdiyi Həmədan ş.-nə daxil olması, xəlifə fərmanı ilə müstəqil hökmdar elan edilməsi ilə nəticələnir. Öz müxalifi, qardaşı arvadı İnanc xatuna evlənməklə onunla və qardaşı oğlanları ilə barışığa nail olan Qızıl Arslan çox çəkmədən Həmədan yaxınlığında baş verən son döyüşdə sultan III Toğrulun qoşunlarını məğlub edir, özünü isə əliqandallı Naxçıvan yaxınlığındakı Qəhrəm qalasına saldırır. Məhz bu dövrdə İsfahan, Rey və b. şəhərlərdə atabəyin tərəfdarları ilə əleyhdarları arasında baş verən toqquşmalara baxmayaraq, Qızıl Arslan İraq sultanlığının mütləq hakimi ola bilir, Azərb., Arran, Həmədan, İsfahan, Rey vilayətlərinə, onlara bitişik ərazilərə sahiblik edir, Fars və Xuzistan hakimləri vassal kimi ona tabe olur. Lakin Qızıl Arslan gerçək hakimiyyətin möhkəmləndirilməsi üçün mövcud olan bütün imkanlardan istifadə etmir, sarayında baş alıb gedən fitnə-fəsad 1191 ildə onun öldürülməsi ilə nəticələnir. A. a. d.-nin yeni başçısı Cahan Pəhləvanın Azərb. və Arrana sahib olan oğlu *Əbu Bəkr* Naxçıvana gələrək,

Əlincə qalasındakı Eldənizlər xəzinəsini ələ keçirir. A. a. d. Cahan Pəhləvanın oğulları arasında bölünür: İnanc xatunun oğulları Qutluq İnanc və Əmir Əmiran Həmədan və ona qonşu vilayətləri, İnanc xatunun özü Reyə sahib olurlar. Beləliklə, hakimiyyət uğrunda gedən daxili çəkişmələr ilk atabəylər dövründə böyük bir imperiyaya çevrilmiş A. a. d.-nin sərhədlərinin daralmasına, tənəzzülünün başlanmasına səbəb olur. Sülalədaxili ixtilaflar xarici müdaxilənin güclənməsinə, Xarəzmşahların, gürcülərin, xəlifə qoşunlarının hücumlarının artmasına səbəb olur. Əmir Əmiranla əlbir olmuş Şirvan-gürcü qoşunları ilə Əbu Bəkrin ordusu arasında Şəmkür, Beyləqan, Gəncə yaxınlığında ağır döyüşlər baş verir. 1202–03 illərdə gürcü qoşunları Gəncəni mühasirəyə alır, Dvini işğal və qarət edərək, Naxçıvana doğru istiqamət götürür. Bu zaman Naxçıvanda olan Əbu Bəkr Təbrizə çəkilir. Mənbələr (İbn əl-Əsir və b.) gürcülərin 1204–06 illərdə Azərb.-ın qərb vilayətlərinə hücumları haqqında məlumat verir. Bu hücumlar yalnız Əbu Bəkrin gürcü hökmdarının qızı ilə evlənməsindən sonra kəsilir. 1205 ildə Marağa hakimi Əlaəddin Körpə Arslan Ağsunquri İrbil hakimi Müzəffərəddin Göybari ilə birləşərək A. a. d.-nin tabeliyində olan əraziyə soxulur və Əbu Bəkrin olduğu Təbriz ş.-nə doğru hərəkət edirlər; lakin İrbil hakiminin son məqamda geri çəkilməsi onların planını pozur. Vəziyyətdən istifadə edən Əbu Bəkr öz əmiri məmlük Aydoğmuşla birlikdə Marağanı mühasirəyə alır. Qısa müddətli mühasirədən sonra imzalanmış barışığa görə Marağa hakiminin qalalarından biri Əbu Bəkrə, Əbu Bəkrin nəzarətində olan Urmiya və Uşni ş.-ləri isə Ağsunqurilərə verilir. 1208 ildə Marağa hakiminin, az sonra isə onun azyaşlı oğlunun vəfatı ilə əl-Əhmədili nəsli sona çatır. Əbu Bəkr Ruindej qalasından başqa, Ağsunqurilərə məxsus bütün torpaqları, o cümlədən Marağa ş.-ni A. a. d. ərazisinə qatır. Əbu Bəkrin ölümündən (1210) sonra ona tabe mülkləri qardaşı Müzəffərəddin *Özbək* [1210–25] idarə etməyə başlayır. Onun hakimiyyətinin ilk ilində gürcülərin Azərb.-a ən böyük hərbi yürüşlərindən biri baş verir. Əvvəlcə Naxçıvana hücum edən gürcülər şəhəri ələ keçirə bilməyərək Culfaya doğru yönəlir və Dərədüz dərəsini keçib Mərəndə yaxınlaşırlar. Oranı tutub talan etdikdən sonra Təbrizi mühasirəyə alırlar. Təbrizin hakimi, Cahan Pəhləvanın arvadı *Zahidə xatun* böyük miqdarda bac verməklə şəhəri xilas edir. Daha sonra Miyanə, Zəncan, Qəzvin, Əbhər, Ərdəbil, Mərənd və b. şəhər və kəndlər talan olunur. A. a. d.-nin tənəzzülü daha da sürətlənir. Orta əsr müəllifinin (əl-Hüseyni) yazdığına görə, gürcülər geri qayıdarkən "bir çox qalaları ələ keçirir, Naxçıvan və Beyləqan ş.-ləri üzərinə xərac qoyurlar". Özbəyin hakimiyyəti dövrü feodal çəkişmələrinin və hərbi yürüşlərin davam etməsi, mərkəzi hakimiyyətin zəifləməsi ilə xarakterizə olunur. A. a. d.-nin əsas rəqiblərindən olan Xarəzmşahın regiondakı hərbi üstünlüyü atabəy Özbəyi onun vassalı olmağa vadar edir. Ən-Nəsəvinin (?–1249) məlumatına görə, "Şirvan Dərbəndinədək Arranın və Azərb.-ın minbərlərindən sultanın şərəfinə xütbələr oxunur". A. a. d.-nin digər rəqibi olan gürcülərin ölkəyə hücumlarının qarşısı da Xarəzmşahlar tərəfindən alınır.

Xarəzmşahlar dövlətinə son qoymuş (1219) monqollar1220 ildə A. a.d.-nin ərazisinə soxularaq, Özbəyin iqamətgahı yerləşən Təbrizi böyük təzminat hesabına tərk edir, sonra isə Muğandan keçərək Arrana, oradan da Gürcüstana doğru irəliləyirlər. Özbəyin köhnə rəqibi gürcü hökmdarına, eləcə də Xilat və əl-Cəzirə hakimlərinə monqollara qarşı ittifaq çağırışı cavabsız qalır. Arran və Gürcüstanın neçə-neçə şəhər və kəndləri, Təbriz, Marağa, Həmədan, Ərdəbil, Sərab və b. yerlər monqollar tərəfindən viran və qarət edilir. Təbrizdən oğlu Xamuşun sahib olduğu Naxçıvana gələn Özbək burada yenidən monqolların hücumuna məruz qalır. Rəşidəddinin verdiyi məlumata görə, monqollar Naxçıvanı da viran və talan etməyə, əhalisini qırmağa başlayırlar; yalnız Naxçıvan hakimi Xamuşun monqollara boyun əyməsi qırğının dayandırılmasına səbəb olur. 1225 ildə xəlifə qoşunlarını darmadağın edən Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Mangburnı Azərb.-a hücum edir və çox keçmədən A. a. d.-nin torpaqlarına sahib olur. Əlincəqalada sığınacaq tapan atabəy Özbəyin 1225 ildə vəfat etməsi ilə A. a. d.-nə son qoyulur. Nə Gəncəyə gələrək, Cəlaləddinə xidmət etmək istədiyini bildirən Özbəyin oğlu Qızıl Arslan



Xamuşun (ö.1229) fəaliyyəti, nə də dövlətin bəzi əmirlərinin, ən-Nəsəvinin sözləri ilə desək, "əvvəlki sülaləni (yəni, atabəyləri) bərpa etmək" cəhdləri A. a. d.-nin siyasi dirçəlişi üçün heç bir nəticə vermir.

A. a. d. Azərb. xalqının iqtisadi, siyasi, ictimai və mədəni həyatında mühüm rol oynamışdır. Bu dövrdə şəhərlərin və şəhər sənətkarlığının inkişafı, əmtəə-pul münasibətlərinin kənd təsərrüfatına geniş surətdə daxil olması və nəhayət, əvvəlki yüzilliklərdə də coşqun fəaliyyət göstərən geniş ticarət yolları şəbəkəsinin olması Azərb.-ın ticarət-iqtisadi əlaqələrinin genişlənməsinə əlverişli şərait yaratdı. Azərb.-ın bir çox şəhərləri – Naxçıvan, Təbriz, Beyləqan, Gəncə, Ərdəbil və b. orta əsr sənətkarlığının bütün növlərinin mərkəzləşdiyi iri yaşayış məntəqələri idi.

A. a. d.-nin paytaxt şəhərlərindən olmuş Naxçıvan dövrün mənbəyində ("Əcaib əd-dünya") belə təqdim edilir: "Naxçıvan Azərb.-da böyük və gur şəhərdir, yüksək yerdədir, çox möhkəmdir. Orada çoxlu saray, köşk və eyvanlar tikilib, şəhərin yaxınlığında daşdan qala ucaldılıb, qalada isə mədrəsə və məscid tikiblər. Deyirlər ki, yer üzündə bundan abad şəhər yoxdur. Eldənizin mübarək zamanında Naxçıvan böyük həşəmət sahibi oldu". Şübhəsiz, Naxçıvanın mühüm beynəlxalq ticarət yolları qovşağında, Böyük İpək Yolunun şaxələri üzərində yerləşməsi də onun iqtisadi inkişafı üçün əlverişli şərait yaratdı. Şəhərdə müxtəlif sənət sahələrini təmsil edən çoxlu mahir ustalar – toxucular, bənnalar, çini qab və ağacişləmə ustaları, zərgərlər və b. çalışırdılar. Naxçıvanın sənətkarlıq istehsalında toxuculuq və onunla bağlı sahələr – Çin zərxarası (xətai), zərlə işlənmiş zərif örtük, xalça, keçə, çuxalıq yun parça, mələmil qətfələr, hamam fitələri üçün nazik şal və pambıq parça istehsalı mühüm rol oynayırdı. Mənbələrdən görünür ki, bu dövrdə Naxçıvanın ağacişləmə ustaları əsasən naxışlı təknə və tabaq düzəltmək üzrə ixtisaslaşmışdılar. Bu məmulatın bir qismi yerli tələbatı ödəyir, qalanı isə satış məqsədilə xarici ölkələrə göndərilirdi. A. a. d.-ndə tuncdan hazırlanan fiqurlu məmulat da geniş yayılmışdı. Bu cür fiqurlara Azərb.-ın Qəbələ, Beyləqan, Şamaxı və b. şəhərlərində olduğu kimi, Naxçıvanda da təsadüf olunur. 1190 ildə naxçıvanlı usta Osman Salman oğlunun hazırladığı bürünc dolçanın [indi Luvrda (Fransa) saxlanılır] naxışları Naxçıvandakı Möminə xatun məqbərəsinin bəzəyilə eynidir.

Mədəni həyatın yüksəklişi ilə xarakterizə edilən A. a. d. dövründə dünyaya dahilər bəxş etmiş Azərb. poetik məktəbi yaranmış və çiçəklənmişdir. Atabəylər sarayında şairlər məclisi toplanırdı. Mənbələrdə atabəylərin saray şairlərindən "Məlikəş-şüara" ləqəbli Mücirəddin Beyləqaninin, "Sultan əl-fudala" ləqəbli Məhəmməd əl-Əxsikətinin, "Məlik əl-kəlam" ləqəbli Zahirəddin əl-Fəryabinin, Qivami Mütərrizinin, Kamaləddin Naxçıvaninin və b.-nın adları çəkilir. Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki və b. şairlər bu dövrdə yaşayıb yaratmışdılar. Azərb. atabəyləri Cahan Pəhləvan və Qızıl Arslan şairlərə, memarlara, mühəndislərə, həkimlərə, alimlərə hamilik etmişlər. Bu dövrdə Naxçıvanda fəaliyyət göstərən məşhur həkimlərdən Əhməd Naxçıvani, Əkmələddin Naxçıvaninin adları məlumdur. Naxçıvan memarlıq məktəbinin ən görkəmli nümayəndəsi Əcəmi Əbu Bəkr oğlu Naxçıvani tikdiyi ən gözəl türbələrlə (Möminə xatun və Yusif ibn Küseyir türbələri) təkcə Azərb.-da deyil, bütün Müsəlman Şərqində bu gün də yaşayan sənətkarlardandır.

*Əd.:* B ü n y a d o v Z. M., *Azərbaycan atabəyləri dövləti*, B., 1985; *Azərbaycan tarixi*, 7 cilddə, c. 2., B., 1998.

**AZƏRBAYCAN BƏSTƏKARLAR BİRLİYİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKA TƏŞKİLATI** – muxtar respublika bəstəkar və musiqişünasların könüllü yaradıcılıq təşkilatı. 1978 ildə Azərb. Bəstəkarlar İttifaqı İdarə Heyətinin Naxçıvan ş.-ndə keçirdiyi səyyar plenumunda yaradılmışdır. Təşkilatın ilk sədri Azərb. Respublikasının xalq artisti bəstəkar Ramiz Mirişli, məsul katibi isə Nax. MR əməkdar incəsənət xadimi Məmməd Ələkbərov seçilmişdir. Təşkilat öz ətrafında Azərb. Bəstəkarlar Birliyinin 6 üzvünü birləşdirir (2000). Təşkilat Naxçıvanda xalq mahnı və rəqslərinin toplanması və nota salınması, aşıq yaradıcılığının tədqiqi, mahnı və musiqi janrlarının inkişafı və s. yaradıcılıq məsələləri sahəsində fəaliyyət göstərir.

**AZƏRBAYCAN BƏYLƏRBƏYİLİYİ** – bax *Təbriz bəylərbəyiliyi.*

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ İNSTİTUTUNUN NAXÇIVAN FİLİALI** – ali təhsil müəssisəsi (1967–72). 1972 ildə filialın əsasında Y. Məmmədəliyev ad. *Naxçıvan Pedaqoji İnstitutu* yaradılmışdı.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC).** Azərbaycan Demokratik Respublikası, Azərbaycan Respublikası – müsəlman Şərqində ilk dəfə demokratik respublikanın əsasını qoymuş müstəqil Azərb. dövləti. 1918 il mayın 28-də yaradılmış, cəmi 23 ay yaşamışdır (1918, 28 may – 1920, 28 aprel). Olduqca qısa müddətdə, həm də ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, AXC-nin həyata keçirdiyi tədbirlər (milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquq və azadlıqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərb. dövlətçiliyi atributlarının qəbul edilməsi, Azərb. dilinin dövlət dili elan olunması, demokratik dövlət quruculuğunun başlanması, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış uğurlu addımlar və s.) Azərb.-ın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdı.

Rusiyada mütləqiyyəti devirərək Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoymuş və demokratik azadlıqlara yol açmış 1917 il fevral inqilabı AXC-nin yaranması üçün real şəraitin təmin olunmasında mühüm

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin açılışı. 1918, dekabr.



rol oynamışdı. Yeni yaranmış, yaxud fəaliyyətlərini bərpa etmiş partiyalar arasında geniş nüfuzu ilə fərqlənən "Müsavat" partiyasının 1917 il oktyabrın 26-da Bakıda keçirilmiş I qurultayında milli muxtariyyət tələbləri qətiyyətlə irəli sürüldükdən sonra Bakıda və Azərb.-ın bütün qəzalarında "Azərb.-a muxtariyyət" şüarı altında milli hərəkat başlanmışdı (bu dövr Azərb. tarixinə "Milli Azərbaycan hərəkatı" dövrü kimi daxil olmuşdur).

1918 il aprelin 22-də Rusiya Müəssislər Məclisinə Zaqafqaziyadan seçilmiş (1917, 26 noyabr) deputatlardan ibarət Zaqafqaziya Seymi Cənubi Qafqaz ərazisində müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradıldığını elan etdi. Zaqafqaziya hökumətinə daxil olan 13 nazirdən 5-i, (o cümlədən yollar naziri X. Məlikaslanov, ədliyyə naziri F.Xoyski, maarif naziri N. Yusifbəyov, ticarət naziri M.H. Hacınski, dövlət nəzarəti naziri İ.Y. Heydərov) azərb.-lı idi. 1918 il mayın 26-da fraksiyalararası çəkişmələrə son qoya bilməyən Zaqafqaziya Federasiyası Gürcüstanın öz müstəqilliyini elan etməsi ilə süquta uğradı. Mayın 27-də seymin müsəlman fraksiyasına daxil olan partiyaların üzvlərindən ibarət Azərb Milli Şurası (AMŞ) yarandı (sədri M. Ə. Rəsulzadə, müavini H.Ağayev). Mayın 28-də Tiflisdə Rusiyanın Qafqaz canişini sarayının Mavi Salonunda AMŞ-nin iclasında AXC-nin yaradıldığı (lehinə – 24, bitərəf – 2) elan edildi və 6 bənddən ibarət "Azərbaycanın istiqlal bəyannaməsi" qəbul olundu. Mayın 30-da bitərəf F.Xoyskinin başçılıq etdiyi hökumətin tərkibi təsdiq olundu və Azərb.-ın öz istiqlaliyyətini elan etməsi barədə məlumat dünyanın böyük dövlətlərinin paytaxtlarına çatdırıldı. AXC hökuməti iyunun 16-da Gəncəyə köçdü və öz mətbu orqanını – "Azərbaycan" qəzetini nəşr etməyə başladı. Sentyabrın 15-də Bakı ş. erməni-daşnak-kommunist qüruhunun işğalından azad edildikdən sonra AXC hökuməti öz iqamətgahını buraya köçürdü.

1918 il noyabrın 19-da (noyabrın 17-də ingilislər Bakını tutmuşdular) AMŞ-nin iclasında 120 nəfərdən ibarət parlament yaratmaq haqqında Azərb. hökumətinin təqdim etdiyi qanun layihəsi qəbul olundu.



Dekabrın 7-də Azərb. parlamentinin ilk iclası keçirildi. Parlamentin ilk tədbirlərindən biri Azərb.-ın istiqlaliyyətinin tanınmasına nail olmaq üçün Ə. M. Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına nümayəndə heyəti göndərməkdən ibarət olmuşdu (nümayəndə heyətinin müstəsna səyləri sayəsində 1920 il yanvarın 11-də Paris Konfransının Ali Şurası AXC-nin müstəqilliyini de-fakto tanıdı). Ümumiyyətlə, mövcud olduğu dövrdə (1918, 7 dekabr – 1920, 27 aprel) parlamentin 140-a qədər iclası olmuşdur. Bu iclaslarda hökumətin təqdim etdiyi 315 qanun layihəsi (bunlardan 10–12-si rədd edilmiş, qalanları barədə ya qanun qəbul edilmiş, ya da onların komissiyalarda müzakirəsi davam etdirilmişdi) nəzərdən keçirilmişdi (bunların 82-si maliyyə nazirliyi, 32-si ədliyyə, 24-ü daxili işlər, 19-u xalq maarif, 12-si torpaq, 10-u sosial təminat nazirlikləri, 9-u hərbi nazirlik və b. tərəfindən təqdim edilmişdi).

AXC dövründə 5 dəfə hökumət təşkil edilmişdi. Birinci üç hökumətə (28.05. 1918–14.03.1919) F. Xoyski, 4-cü və 5-ci hökumətlərə (14.03.1919–30.03.1920) N. Yusifbəyli başçılıq etmişlər. Azərb.-ın ərazi bütövlüyünün qorunması AXC hökumətinin fəaliyyətində daim öncül yer tutmuş və ümdə vəzifələrdən biri sayılmışdır. Azərb. ərazisinin elə bir bölgəsi olmamışdır ki, ora AXC hökumətinin diqqətindən bir an belə kənarda qalsın. Bu baxımdan, Naxçıvan diyarına və Zəngəzur mahalına münasibət xüsusi qeyd edilə bilər. "Azərb. parlamentinin yaradılması haqqında qanun"da göstərilirdi ki, Azərb. ərazisini təşkil etdiyinə görə, parlamentə Zəngəzurdan iki və İrəvan quberniyasının Azərb. hissəsindən (Naxçıvan, Şərur, Ordubad nəzərdə tutulur) üç nəfər millət vəkili seçilməlidir.

Azərb. parlamentinin 1919 il yanvarın 8-də və 25-də keçirilmiş iclaslarında Naxçıvan bölgəsinin və ümumiyyətlə, keçmiş İrəvan quberniyasının azərb.-lı əhalisinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmiş, Ermənistan hökumətinin Naxçıvan və digər qəzaların azərb.-lı əhalisinə qarşı yeritdiyi etnik təmizləmə siyasəti qətiyyətlə pislənmişdi. Azərb. Fövqəladə İstintaq Komissiyasının üzvü M. Təkinskinin 1919 il yanvarın 29-da İrəvana səfir təyin olunması da orada yerli azərb. əhalinin hüquqlarının müdafiə olunması zərurətindən irəli gəlmişdi.

Azərb. hökuməti 28 fevral 1919 il tarixli qərarı ilə Naxçıvan gen.-qubernatorluğunu yaradaraq B. Naxçıvanskini ora gen.-qubernator təyin etmiş və cari xərclər üçün 2 mln. manat vəsait ayırmışdı. Araz-Türk Respublikasının süqutundan (1919, mart) sonra Naxçıvan bölgəsinin ingilislərin köməyi ilə erməni idarəçiliyinə keçəcəyi barədə xəbərlərin yayılması Azərb. hökuməti tərəfindən ciddi etirazla qarşılanmış və yerli əhalinin dəstəyi ilə bu idarəçiliyə son qoyulması üçün təsirli tədbirlər görülmüşdü. Naxçıvan bölgəsi əhalisinin fəal müqaviməti sayəsində iyul ayında erməni idarəçiliyi ləğv edildi. AXC hökumətinin Zəngəzur, Qarabağ, Muğan bölgələrinə münasibətdə də öz suveren hüquqlarını müdafiə etmək üçün qəti tədbirlərə əl atması ölkənin ərazi bütövlüyünün qorunmasında mühüm rol oynamışdı. Bütün bunların nəticəsi idi ki, AXC ərazisinin sah. 97237,67 $km^2$ mübahisəsiz, 16598,30 $km^2$ mübahisəli zonaları əhatə etməklə 113835, 97 $km^2$ təşkil etmişdi.

AXC hökuməti 1919 ilin yazında Cənubi Qafqazın başı üstündə hərlənən "vahid və bölünməz Rusiya" tərəfdarı, çar generalı Denikinin Könüllü Ordusunun hücumunun qarşısını almaq üçün bütün tədbirləri görsə də (bu məqsədlə 1919 il iyunun 27-də Gürcüstanla hərbi ittifaq da bağlanmışdı), Azərb. neftinə susamış qırmızı bolşevik Rusiyasının işğalçı XI Qızıl Ordusunun təcavüzünün qarşısını ala bilmədi. Yerli bolşeviklərin yalan vədləri də bu işdə az rol oynamadı. 1920 il aprelin 27-də Azərb. parlamenti hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə qərar çıxarmağa məcbur oldu.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 1998 il 30 yanvar tarixli Sərəncamı ilə AXC-nin 80 illik yubileyi respublikada geniş qeyd olunmuşdur. Xəritə, bax səh. 357.

*Əd.:* Rəsulzadə M., Azərbaycan Cümhuriyyəti, B.: 1990; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası. B., 1990; Mirzə Bala Məmmədzadə, Azərbaycan milli hərəkatı. B., 1992; Azərbaycan Cümhuriyyəti (məqalələr məcmuəsi). B., 1998; Балаев А. Азербайджанское националь-

но-освободительное движение в 1917-1920 гг. Б., 1990; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика (страницы политической истории), Б., 1994; Азербайджанская Республика. Документы и материалы (1918–1920 гг.), под редакцией акад. Дж.Б.Гулиева, Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** – Azərb. Xalq Cümhuriyyətinin (AXC) Ermənistan Respublikasında fövqəladə və səlahiyyətli nümayəndəliyi; keçmiş İrəvan quberniyasının türk-müsəlman əhalisinin vəziyyətinin öyrənilməsində, erməni millətçilərinin bölgədəki etnik təmizləmə – soyqırımı siyasətinin, qismən də olsa, qarşısının alınmasında mühüm rol oynamışdır. AXC hökuməti səfir vəzifəsinə əvvəlcə Məmməd Rza Vəkilovun namizədliyini irəli sürmüş, lakin məsələnin həlli obyektiv və subyektiv səbəblər üzündən yubandığından həmin vəzifəyə Azərb. Fövqəladə İstintaq Komissiyasının (AFİK) üzvü Məmməd xan Təkinski məsləhət görülmüşdü; o, hökumətin 1919 il 29 yanvar tarixli qərarı ilə AXC-nin Ermənistan Respublikasında diplomatik nümayəndəsi təyin olunmuş, tezliklə İrəvana gələrək, səlahiyyətlərinin icrasına başlamış və bu vəzifədə səmərəli fəaliyyət göstərmişdir. Onun AXC hökumətinə ünvanladığı məlumatlarda Ermənistanın daşnak hökumətinin sahibləndiyi Qərbi Azərb. ərazisində, həmçinin ələ keçirməyə can atdığı Naxçıvan mahalında yerli azərb. əhaliyə qarşı törədilən qanlı cinayətlərdən ətraflı danışılır və bunların qarşısını qismən də olsa, almaq üçün zəruri tədbirlər görülməsinə çağırışlar səslənirdi.

M. Təkinskinin səmərəli diplomatik fəaliyyətindən çox narahat olan Ermənistan hökuməti müxtəlif əsassız bəhanələrlə onun geri çağırılmasına nail olmuşdu. Bundan sonra diplomatik nümayəndəliyə Ə. Haqverdiyev və M. Mirbabayev, 1920 ilin fevralında isə Teymur bəy Makinski başçılıq etmişdir. Azərb.-da 1920 il 28 aprel çevrilişindən sonra yaradılan yeni bolşevik hakimiyyətinin qeyri-müəyyən və laqeyd münasibəti üzündən nümayəndəlik 1920 ilin mayında ləğv edildi.

**AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKA TƏŞKİLATI** – muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin könüllü yaradıcılıq təşkilatı. 1959 ildən Azərb. Jurnalistlər İttifaqının filialı kimi fəaliyyət göstərmişdir. 1991 ilin iyunundan Azərb. Jurnalistlər Birliyinin Naxçıvan Muxtar Respublikası təşkilatıdır. Naxçıvan ş.-ndə və muxtar respublikanın r-nlarında çalışan 120 üzvü var (2000). Təşkilat muxtar respublika jurnalistlərinin yaradıcılıq fəaliyyəti ilə bağlı müxtəlif səpgili problemlərin həlli sahəsində tədbirlər həyata keçirir, seminarlar, müsabiqələr, sərgilər, mətbuat konfransları və s. təşkil edir.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI** – respublikanın ali elmi idarəsi. SSRİ EA Azərb. Filialı əsasında 1945 ildə Bakıda təsis edilmişdir. 6 elmi bölmədən ibarətdir: fizika-riyaziyyat və texnika elmləri bölməsi, kimya elmləri bölməsi, Yer elmləri bölməsi, biologiya elmləri bölməsi, ictimai elmlər bölməsi, ədəbiyyat, dil və incəsənət bölməsi var. Həmin bölmələr üzrə 34 elmi-tədqiqat in-tu fəaliyyət göstərir. Azərb. Milli EA-nın fəaliyyətində Nax. MR-lə bağlı elmi problemlərin tədqiqi mühüm yer tutur. Onun ayrı-ayrı in-tlarında muxtar respublikanın təbiətinə, fiziki coğrafiyasına, geologiyasına, tarixinə, iqtisadiyyatına, maddi mədəniyyətinə, ədəbiyyat və incəsənətinə, dialekt və şivələrinə, habelə bu qədim diyarın əsrlər boyu Azərb. dövlətçiliyi, ictimai-siyasi, fəlsəfi və bədii fikir tarixinə bəxş etdiyi onlarca şəxsiyyətin – dövlət xadimlərinin, alim və mütəfəkkirlərin, şair, yazıçı, memar və digər sənət adamlarının həyat və fəaliyyətinə, elmi və bədii yaradıcılığına dair çoxsaylı tədqiqat işləri aparılmış və aparılmaqdadır.





Akademiyanın 1972 ildə yaradılmış *Naxçıvan Regional Elmi Mərkəzində* muxtar respublikanın kompleks şəkildə öyrənilməsi sahəsində mühüm işlər görülür. Şamaxı Astrofizika rəsədxanasının Batabat bölməsində (bax *Batabat rəsədxanası*), *Ordubad Xüsusi Konstruktor Texnoloji Bürosunda* da əhəmiyyətli tədqiqatlar aparılır. Azərb. Milli EA Tarix İn-tunda 1968 ildən fəaliyyət göstərən "*Araz*" *arxeoloji-etnoqrafik ekspedisiyasının* uzun illər boyu muxtar respublika ərazisində apardığı səmərəli arxeoloji tədqiqatlar nəticəsində Naxçıvan arxeoloji mədəniyyətinin öyrənilməsində diqqətəlayiq uğurlar qazanılmışdır.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında"1999 il 12 fevral tarixli Sərəncamına əsasən akademiyanın Rəyasət Heyəti nəzdində "Naxçıvan" ensiklopediyası hazırlanıb nəşr edilmişdir. Həmin sərəncamla akademiyanın tarix in-tunda Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən qurum yaradılmışdır.

Akademiyada Naxçıvan torpağının yetirməsi olan yüzlərlə elmi işçi, elmlər doktoru və namizədi çalışır. Onların bir çoxu respublika elminə böyük töhfələr vermiş, akademiyanın həqiqi və müxbir üzvü seçilmiş, yüksək fəxri elmi adlara və dövlət mükafatlarına layiq görülmüşdür.

Akademiyanın ilk 15 həqiqi üzvündən (1945) olan Yusif Məmmədəliyev və Həsən Abdullayev SSRİ EA-nın müxbir üzvü seçilmişlər. Akademiyanın ikinci prezidenti (1947) olan Y. Məmmədəliyevin Azərb. elminin inkişafında müstəsna xidməti var. Akademiklər H. Abdullayev, E. Salayev, F. Maqsudov müxtəlif vaxtlarda akademiyanın prezidenti olmuşlar. 2001 ildən akademiyanın prezidenti M. Kərimovdur. Bakının İstiqlaliyyət küçəsində, akademiyanın Rəyasət Heyəti binasının yanında Y. Məmmədəliyevin heykəli ucaldılmışdır.

*Əd.:* Azərbaycan Elmlər Akademiyası – 50., B., 1995.

**AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTUNUN NAXÇIVAN FİLİALI** – Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000 il 13 iyun tarixli Fərmanına əsasən *Naxçıvan Politexnik Texnikumunun* bazasında yaradılmışdır. Respublikanın bir sıra bölgələrindəki filiallar kimi, Naxçıvan filialının da yaradılmasından məqsəd məktəbəqədər tərbiyə müəssisələri və məktəblərin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin ixtisaslarının artırılmasını, təkmilləşdirilməsini və yenidən hazırlanmasını təmin etməkdir. İbtidai təhsilin pedaqogika və metodikası, məktəbəqədər təhsilin pedaqogika və metodikası ixtisasları üzrə 2000–2001-ci tədris ili üçün tələbə qəbulu aparılmışdır. Filial 2 ixtisas üzrə 100 müdavimlə fəaliyyətə başlamışdır.

**AZƏRBAYCAN "RABİTƏBANK" SƏHMDAR KOMMERSİYA BANKININ NAXÇIVAN "ORMAN" FİLİALI** – payçıların ümumi yığıncağının qərarı ilə 17 may 1993 ildə yaradılmışdır. "Rabitəbank" Səhmdar Kommersiya Bankının 30 iyun 1993 il tarixli 136 saylı lisenziyası ilə Azərb. Respublikası Milli Bankında qeydiyyatdan keçmişdir. İdarə, müəssisə, təşkilat və kooperativlərə kredit, hesablaşma, habelə digər bank əməliyyatları həyata keçirir. Filial hüquqi şəxs olmadığı üçün "Rabitəbank" Səhmdar-Kommersiya Bankının adından çıxış edir.

**AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ UNİVERSAL SƏHMDAR BANKININ NAXÇIVAN ŞÖBƏSİ** – Azərb. Respublikası Milli Bankının1995 il 14 dekabr tarixli 2/18 saylı lisenziyası, Azərb. Beynəlxalq Bankının 1996 il 08 yanvar tarixli 03 saylı əmri ilə Naxçıvan ş.-ndə yaradılmışdır. Azərb. Milli Bankının və beynəlxalq bankın təlimatları, göstərişləri əsasında fəaliyyətə başlayan bank kassa xidməti göstərir, depozit hesablaşmalara vəsait qəbul edir, saziş və mövcud girov müqaviləsi, kredit resursu əsasında kredit verir. Hazırda adsız depozit kartların və plastik kartların tətbiqi üçün hazırlıq işləri aparır (2000).

**AZƏRBAYCAN RESPUBLİKASI FƏXRİ ADLARI** – mədəniyyət, ədəbiyyat və incəsənət, elm, təhsil və səhiyyə sahələrinin inkişafında, ümumiyyətlə, ölkənin tərəqqisi yolunda böyük nailiyyətlər qazanmış şəxslərin, kollektivlərin əməyini qiymətləndirmək məq-

sədi ilə təsis edilmiş adlar. Vaxtilə Azərb. SSR-də 49 fəxri ad olmuşdur. Azərb. Respublikası Prezidentinin "Azərbaycan Respublikasının fəxri adları haqqında"1998 il 12 may tarixli Fərmanı və həmin sənədə əlavə edilməsi haqqında 2000 il 19 aprel tarixli Fərmanı ilə Azərb. Respublikasında xalq yazıçısı, xalq şairi, xalq artisti, xalq rəssamı, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar fəxri adları təsis edilmişdir. Naxçıvan diyarının yetirdiyi bir sıra görkəmli mədəniyyət, ədəbiyyat, incəsənət, elm, təhsil və səhiyyə xadimləri A. R. f. a.-na layiq görülmüşlər. Nax. MR-in özünün də fəxri adları vardır. Bax *Naxçıvan Muxtar Respublikası fəxri adları*.

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKININ NAXÇIVAN MUXTAR RESPUBLİKA İDARƏSİ** – Azərb. Respublikası Milli Bankının struktur bölməsi. 1997 il dekabrın 1-də üç idarənin – Milli Bankın Nax. MR İdarəsinin, Milli bankın əməliyyat idarəsinin və zona hesablaşma kassa mərkəzinin birləşdirilməsi nəticəsində yaradılmışdır. Əsasnaməsi ilə qanunla ona aid edilmiş səlahiyyətləri həyata keçirir. Bu səlahiyyətlər daxilində muxtar respublika ərazisində fəaliyyət göstərən kredit təşkilatlarının fəaliyyətinə, onlar arasında hesablaşmaları həyata keçirməklə yanaşı, hesablaşmalara nəzarət edir. Muxtar respublikada nağd pulun emissiyasını, tədavülünü təmin edir, müştərilərlə manat və xarici valyutada bank əməliyyatları aparır, xəzinədarlığa xidmət edir və büdcənin kassa icrasını həyata keçirir. Muxtar respublika ərazisində valyuta mübadiləsi məntəqələrinin fəaliyyətinə icazə verir.

**AZƏRBAYCAN RESPUBLİKASI ORDENLƏRİ** – dövlət quruculuğu və müdafiə sahəsində xüsusi xidmətlərə, əməkdə fərqlənməyə, həmçinin Azərb. dövləti və cəmiyyəti qarşısında digər xüsusi xidmətlərə görə verilən dövlət təltifləri. Azərb.-ın ilk ordeni respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərb. İnqilab Komitəsinin sərəncamı ilə təsis edilən Azərb. SSR-in Qırmızı Bayraq ordeni olmuşdur. Hazırlanmasında RSFSR-in Qırmızı Bayraq ordeni əsas kimi götürülmüş, 1920 ilin noyabrından təqdim olunmağa başlanmışdı; ikinci orden Azərb. SSR Qırmızı Əmək Bayrağı ordeni idi; hazırlanması üçün 1921 ilin iyununda müsabiqə elan edilmiş, 1922 ildə Azərb. MİK sessiyası yeni ordenin şəklinin layihəsini və Əsas Qanununu təsdiq etmişdir. Hər iki ordenlə təltif olunma 30-cu illərin ortalarından əsassız olaraq dayandırılmışdır.

Azərb. Respublikası müstəqilliyini elan etdikdən (1991, 18 oktyabr) sonra Azərb. Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərb. Respublikasının 1992 il 10 noyabr tarixli qanunu, həmçinin həmin Qanuna dəyişikliklər və əlavələr edilməsi barədə 1999 il 6 dekabr tarixli qanunla aşağıdakı ordenlər təsis edilmişdir:

1. "İstiqlal" ordeni; Azərb. Respublikasının vətəndaşlarına Azərb. Respublikasında milli azadlıq hərəkatında müstəsna xidmətlərinə, Azərb. Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə, Azərb. Respublikasının milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə verilir.

2. "Şah İsmayıl" ordeni; Azərb. Respublikasının ali hərbi ordeni olan "Şah İsmayıl" ordeni ilə Azərb. Respublikası Silahlı qüvvələrinin (ARSQ) ali rütbəli zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri ARSQ-nin təşkilində və möhkəmləndirilməsində, Azərb. Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində, respublikada fövqəladə halların aradan qaldırılmasında xüsusi xidmətlərinə görə təltif edilirlər.

3. "Azərbaycan Bayrağı" ordeni; Azərb. Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə Azərb. Respublikasında milli azadlıq hərəkatında və ictimai-siyasi fəaliyyətdə; hərb elminin və hərb texnikasının inkişafında; Azərb. Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında; dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə verilir.

4. "Şöhrət" ordeni; Azərb. Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə iqtisadi, elmi-texniki, sosial-mədəni ikişafda, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında; sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində və





Azərbaycanın Milli Qəhrəmanının "QIZIL ULDUZ" medalı



"İSTİQLAL" ordeni



"ŞAH İSMAYIL" ordeni



"AZƏRBAYCAN BAYRAĞI" ordeni



"ŞÖHRƏT" ordeni



"TƏRƏQQİ" medalı



"HƏRBİ XİDMƏTLƏRƏ GÖRƏ" medalı



"SƏRHƏDDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ" medalı

xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə, elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə verilir.

Azərb. Respublikasının yuxarıda adları çəkilən qanunlarına əsasən "Qızıl Ulduz", "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə", "Sərhəddə fərqlənməyə görə" medalları da təsis edilmişdir. Azərb. Respublikası Konstitusiyasının 109-cu maddəsinə (b.23) əsasən dövlət təltifləri Azərb. Respublikası Prezidenti tərəfindən həyata keçirilir; Nax. MR-də yaşayan, milli dövlət quruculuğu və müdafiə sahəsində xüsusi xidmətləri olan, əməkdə xüsusi fərqlənən; Azərb. dövləti və cəmiyyəti qarşısında digər xüsusi xidmətləri olan Azərb. vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər də A. R. O. və medalları ilə təltif edilirlər.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHMDAR-KOMMERSİYA AQRAR-SƏNAYE BANKININ NAXÇIVAN İDARƏSİ** – 1 yanvar 1998 ildə Naxçıvan ş.-ndə yaradılmışdır. Bank kassa xidməti göstərir, kreditləşmələr, hesablaşmalar həyata keçirir, valyuta əməliyyatları, müştərilərə digər bank əməliyyatları xidməti üzrə fəaliyyət göstərir. Nax. MR üzrə 5 filialı var.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI (ARDB)** – Azərb. Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri; təsviri Konstitusiya qanunu ilə müəyyən edilir. ARDB bərabər enli üç üfüqi zolaqdan ibarət olan düzbucaqlı qumaşdır; üst zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzununa nisbəti 1:2-dir (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 23). ARDB Azərb. Respublikası Prezident Sarayının, Azərb. Respublikası Milli Məclisinin və Nazirlər Kabinetinin, Nax. MR Ali Məclisinin və Nazirlər Kabinetinin, Azərb. Respublikası səfirlik və konsulluqlarının, gömrükxanaların binaları üzərində daimi, dövlət orqanlarının və ictimai birliklərin, idarə, müəssisə və təşkilatların binaları, yaşayış evləri üzərində, habelə d.-y. st.-larında və vağzallarda rəsmi bayram günlərində qaldırılır.

ARDB Azərb. Respublikası Prezidentinin, Milli Məclisi Sədrinin, Baş Nazirinin və ya digər rəsmi şəxslərin rəsmi şəxs sifəti ilə mindikləri hava və dəniz gəmilərində, daxili su yollarında üzən gəmilərdə və b. nəqliyyat vasitələrində həmin şəxslərin razılığı ilə, Azərb. Respublikası Prezidentinin, Milli Məclisi Sədrinin və Baş Nazirinin təqdimatı ilə dövlət orqanlarının, ictimai birliklərin və dini orqanların, idarə, müəssisə və təşkilatların keçirdikləri mərasimlər zamanı, beynəlxalq konfransların açılışı, digər təntənəli və bayram tədbirləri zamanı qaldırıla bilər.

ARDB ilk dəfə Azərb. Xalq Cümhuriyyəti (AXC; 1918–20) hökumətinin 9 noyabr 1918 il tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş və XI Qızıl Ordu Azərb.-ı işğal etdikdən (1920, 28 aprel) sonra qadağan edilərək sovet bayrağı ilə əvəz olunmuşdu. Nax. MSSR Ali Sovetinin 19 yanvar 1990 il tarixli qərarı ilə dövlət bayrağı kimi yenidən muxtar respublika Ali Sovetinin binası üzərində ucaldılmışdı; Azərb. SSR Ali Sovetinin Rəyasət Heyəti özünün 27 yanvar 1990 il tarixli qərarı ilə Nax. MSSR Ali Sovetinin həmin qərarını ləğv etmişdi. 1990 il noyabrın 17-də Muxtar Respublika Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən 1-ci sessiyasında AXC-nin üçrəngli dövlət bayrağı Nax. MR-in dövlət bayrağı kimi qəbul olunmuşdur. Bu qərarın doğurduğu güclü əks-səda sayəsində və Azərb. ictimaiyyətinin təzyiqi ilə Azərb. Respublikası Ali Soveti 1991 il fevralın 5-də ARDB haqqında Azərbaycan Respublikası Qanununu qəbul etmişdir.

ARDB Nax. MR-in də dövlət rəmzidir (Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, maddə 10).

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GERBİ (ARDG)** – Azərb. Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri; təsviri Konstitusiya qanunu ilə müəyyən edilir. ARDG palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə *Azərbaycan Respublikasının Dövlət bayrağının* rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsvir edilmişdir; ARDG-nin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

ARDG-nin qabarıq təsviri Azərb. Respublikası Prezidentinin iqamətgahına və xidməti otağına, Milli Məclisinin binasına, iclas salonuna və Milli Məclisi Sədrinin xidməti otağına, Azərb. Respublikasının bütün məhkəmələrinin binalarına, məhkəmə iclaslarının salonlarına, Azərb. Respublikası Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və İqtisad Məhkəməsi sədrlərinin xidməti otaqlarına, Azərb. Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin, konsulluq idarələrinin binalarına vurulur.

ARDG-nin təsvirindən Azərb. Respublikası Dövlət möhüründə, bütün dövlət orqanlarının möhürlərində, Azərb. Respublikası qanunlarının, Milli Məclisin qərarlarının, Prezidentin fərman və sərəncamlarının, yuxarıda sadalanan dövlət orqanlarının sənədlərinin blanklarında, binalarının lövhələrində, Milli Bankın biletlərində və metal pul vahidlərində və s. istifadə edilir. ARDG haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993 il fevralın 23-də təsdiq edilmişdir.

ARDG Nax. MR-in də dövlət rəmzidir (Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, maddə 10).








**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ (ARDH)** – Azərb. Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri; musiqisi və mətni Konstitusiya Qanunu ilə müəyyən edilir. İlk ARDH 1945 ildə Azərb. SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovundur). SSRİ dağıldıqdan (1991, dekabr) sonra Azərb. Respublikasının müstəqil dövlət kimi yeni Dövlət himni 1992 il mayın 27-də təsdiq edilmişdir. ARDH sözləri Əhməd Cavadın, musiqisi Ü. Hacıbəyovun olan "Azərbaycan marşı" adlı təntənəli mahnıdır.

ARDH Nax. MR-in də dövlət rəmzidir (Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, maddə 10).

**AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI (ARK)** – Azərb. Respublikasının siyasi, hüquqi və iqtisadi sistemini müəyyənləşdirən, dövlət quruluşu formasını, mərkəzi və yerli hakimiyyət orqanlarının, yerli özünüidarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətlərini, insan və vətəndaşın hüquqi vəziyyətini, ədalət mühakiməsini, seçki sisteminin təşkili və əsas prinsiplərini təsbit edən ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan əsas qanunu; qanunvericilik sisteminin əsası. 1995 il noyabrın 12-də keçirilmiş Azərb. Respublikasının referendumunda qəbul olunmuş, noyabrın 27-dən qüvvəyə minmişdir.

ARK 4 bölmə (ümumi müddəalar; əsas hüquqlar, azadlıqlar və vəzifələr; dövlət hakimiyyəti; yerli özünüidarəetmə), 12 fəsil (xalq hakimiyyəti; dövlətin əsasları; əsas insan və vətəndaş hüquqları və azadlıqları; vətəndaşların əsas vəzifələri; qanunvericilik hakimiyyəti; icra hakimiyyəti; məhkəmə hakimiyyəti; Naxçıvan Muxtar Respublikası (VIII fəsil, 134–141-ci maddələr); bələdiyyələr; qanunvericilik sistemi; Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər; Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr) və 158 maddədən ibarətdir.

ARK-nda Azərb. dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi xarakterizə edilir; Azərb. Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərb. Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır və hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilir; qanunvericilik hakimiyyətini Azərb. Respublikasının Milli Məclisi, icra hakimiyyətini Azərb. Respublikasının Prezidenti, məhkəmə hakimiyyətini Azərb. Respublikasının məhkəmələri həyata keçirirlər.

ARK-nda müəyyən edilmişdir ki, Azərb. Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərb. xalqıdır və öz müqəddəratını sərbəst və müstəqil həll etmək və idarəetmə formasını seçmək onun suveren hüququdur. ARK-nın demokratikliyini səciyyələndirən mühüm cəhətlərdən biri onun normalarının təqr. üçdə ikisinin insan və vətəndaşın əsas hüquq və azadlıqlarına həsr edilməsidir; hamı qanun və məhkəmə qarşısında bərabərdir. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına təminat verir.

ARK hakimiyyət bölgüsü prinsipini bəyan etməklə yanaşı, hakimiyyətin hər üç qolunun (qanunvericilik, icra, məhkəmə) səlahiyyətlərini dəqiq müəyyən etmişdir. ARK-nın mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər; təklif olunan dəyişikliklərə dair əvvəlcədən Konstitusiya Məhkəməsinin rəyi alınır. Hakimiyyətin mənbəyinə, xalqın suverenliyinə, hakimiyyətin məhdudlaşdırılmasına yol verilməməsinə, Azərb. dövlətinə, Azərb. dövlətinin başçısına, dövlət dilinə dair maddələrdə dəyişikliklər edilməsi, əsas insan və vətəndaş hüquqları və azadlıqlarına aid müddəaların məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz. ARK-na əlavələr təklif etmək hüququ Azərb. Respublikası Prezidentinə və Azərb. Respublikası Milli Məclisi deputatlarının üçdə ikisinə məxsusdur. Azərb. Respublikası Milli Məclisinin deputatları qanunvericilik hakimiyyətinə, Azərb. Respublikasının Prezidenti isə icra hakimiyyətinə dair müddəalara əlavələr təklif edə bilməzlər.

ARK-nın qüvvəyə mindiyi gündən 1978 il aprelin 21-də qəbul edilmiş Azərb. SSR Konstitusiyası qüvvədən düşmüşdür. Nax. MR-in statusu ARK ilə müəyyən edilir. ARK qa-

nunları, Azərb. Respublikası Prezidentinin fərmanları və Azərb. Respublikası Nazirlər Kabinetinin qərarları Nax. MR-in ərazisində məcburidir (ARK, maddə 134, b. II, IV)..

**AZƏRBAYCAN RƏSSAMLAR İTTİFAQININ NAXÇIVAN BİRLİYİ** – muxtar respublika rəssam və heykəltəraşlarının könüllü yaradıcılıq təşkilatı. 1970 ildə Azərb. KP MK-nın birinci katibi (hazırda Azərb. Respublikasının Prezidenti) Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Birlik Azərb. Rəssamlar İttifaqının 17 üzvünü öz ətrafında birləşdirir (2000). Moskvada (1985), Türkiyənin Qars ş.-ndə (1993), İran İslam Resp.-nın Urmiya, Xoy, Mehabad ş.-lərində (1995), Azərb. Respublikasının bir çox şəhər və r-nlarında Naxçıvan rəssamlarının əsərlərindən ibarət sərgilər nümayiş etdirilmişdir.

**AZƏRBAYCAN SƏHMDAR KOMMERSİYA ƏMANƏT BANKININ NAXÇIVAN İDARƏSİ** – 1938 ildə yaradılmışdır. Fəaliyyətinin əsas növü əhalidən əmanətlərə pulun qəbul edilməsidir. Əmanət bankı istiqrazların və digər qiymətli kağızların alqı-satqısını, əhalinin və ictimai cəmiyyətlərin ödəmələrinin inkassasiyasını həyata keçirir. Nax. MR-in şəhər və r-nlarında bankın şöbələri fəaliyyət göstərir.

**AZƏRBAYCAN SƏNAYE İNVESTİSİYA SƏHMDAR KOMMERSİYA BANKININ NAXÇIVAN MUXTAR RESPUBLİKA İDARƏSİ** – 1967 ildə keçmiş SSRİ Tikinti Bankının Naxçıvan Respublika Kontoru kimi fəaliyyətə başlamışdır. 1987 ildə SSRİ Sənaye-Tikinti Bankının Kontoru adlanmış, 1993 ildən isə Azərb. Sənaye-İnvestisiya Səhmdar Kommersiya Bankının Nax. MR İdarəsi adı ilə fəaliyyət göstərir. Bank öz Əsasnaməsinə əsasən, qanunla ona aid edilmiş səlahiyyətləri həyata keçirir, kassa xidməti və digər bank əməliyyatları xidməti üzrə fəaliyyət göstərir.

**"AZƏRBAYCAN SOVET ENSİKLOPEDİYASI" (ASE)** – Azərb.-da ilk universal-milli ensiklopediya. Azərb. SSR-in direktiv orqanlarının qərarı ilə 10 cilddə nəşr olunmuşdur (1976–87). ASE-nin nəşrində o vaxtlar da Azərb.-ın rəhbəri olan Heydər Əliyevin müstəsna rolu olmuşdur. ASE-də dünyanın bütün dövlətləri, keçmiş SSRİ-nin bütün müttəfiq və muxtar respublikaları, muxtar vilayətləri, diyarları, vilayətləri, eləcə də Nax. MR-in dövlət quruluşu, təbiəti, tarixi, əhalisi, iqtisadiyyatı, səhiyyəsi, maarif və mədəniyyət müəssisələri, mətbuat, radio və televiziyası, memarlıq və təsviri sənəti haqqında ətraflı məlumat verilən kompleks məqalə (7-ci cild) verilmişdir. Ensiklopediyanın ayrı-ayrı cildlərində Nax. MR-in inzibati r-nları, fiziki-coğrafi və inzibati obyektləri, Azərb.-ın əzəli və ayrılmaz hissəsi olan Naxçıvan diyarının zəngin tarixi, iqtisadiyyatı, maddi-mədəniyyət, arxeologiya və memarlıq abidələri, sənaye müəssisələri və mədəniyyət ocaqları, Naxçıvan torpağının ta qədimdən bu günədək yetirdiyi görkəmli şəxsiyyətlər (dövlət xadimləri, sərkərdələr, alimlər, mütəfəkkirlər, şairlər, yazıçılar, memarlar, rəssamlar, aktyorlar, digər incəsənət xadimləri, qabaqcıl əmək adamları və b.) haqqında yüzlərlə məqalə, həmçinin Nax. MR ilə bağlı xəritə, şəkil, portret və s. illüstrasiya materialları dərc olunmuşdur.

**AZƏRBAYCANI TƏDQİQ VƏ TƏTƏBBÖ CƏMİYYƏTİNİN NAXÇIVAN ŞÖBƏSİ** – Azərb.-ın təbii sərvətlərini, tarixini, iqtisadiyyatını, elm, mədəniyyət və incəsənətini öyrənmək üçün N. Nərimanovun təşəbbüsü ilə yaradılmış elmi mərkəzin (1923–1929) şöbəsi. Diyarın ərazisini planlı və hərtərəfli tədqiq etmək üçün yaradılmışdı. Akad. İ. İ. Meşşaninovun rəhbərliyi ilə cəmiyyətin ekspedisiyası Naxçıvan ərazisində (Qızılvəng qəbiristanı, Xarabagilan, Culfa, Əbrəqunis, Xanəgah, Noraşen və s.) arxeoloji tədqiqatlar aparmış, Naxçıvanın Tunc və ilk Dəmir dövrü abidələrini, antik dövrün qəbir abidələrini, orta əsr yaşayış yerlərini və şəhərlərini öyrənmişdir.

**"AZƏRDƏMİRYOLBANK" SƏHMDAR BANKININ NAXÇIVAN FİLİALI** – 1998 ildə yaradılmışdır. Nax. MR dəmiryol hissəsinin tabeliyində olan müəssisə və təşkilatlara, həmçinin kiçik müəssisə, firma, eləcə də özəl sektora aid olan digər təşkilatlara kassa əməliyyatları, bank hesablaşmalarının aparılması funksiyasını həyata keçirir.

**AZƏRMƏSCİDİ AŞIRIMI** – Zəngəzur silsiləsinin c.-unda, Ordubad r-nu ərazisində aşırım. Hünd. 3460 *m*. Səthi qayalıq və çəmənlikdir. Vənənd və Ordubad çayları A. a. yaxınlığından başlanır.



# B

**BABA NEMƏTULLAH NAXÇIVANİ** ibn Mahmud (?, Naxçıvan ş. – 1496, Türkiyə, Akşehir ş.) – ilahiyyatçı, mütəfəkkir, hüquqşünas, sufi. Şeyx "Ülvan" (ad-san rəmzi) kimi tanınmışdır. Sultan Bəyazid zamanında [1481–1512] Anadoluya getmiş, Qaraman vilayətinin Akşehir ş.-ndə yaşamış, şöhrət tapmışdır. B. N. N. şiə (ələvi) təriqətinə mənsub olsa da, təəssübkeşlik etməmiş, sünni üslubunda hüquq barədə traktatlar yazmışdır. O, Qurana "İlahi açmalar və qeybi açarlar" ("əl-Fəvatih əl-ilahiyyə və məfatih əl-qeybiyyə") adlı ikicildlik təfsirin (1496) və Abdulla Beyzavinin (ö. 1282, Təbriz) "Nazil olmuşun (Quranın) nuru və yozmaların sirləri" ("Ənvar ət-Tənzil və əsrar ət-təvil") kitabına haşiyənin müəllifidir. Birinci əsər Misirdə çap olunmuşdur. B. N. N.-nin "Təsəvvüfə dair qardaşlara düzgün yol göstərmə" ("Hidayət əl-ixvan fi-t-təsəvvüf") traktatı və məşhur sufi mütəfəkkiri İbn Ərəbinin (1165–1240) "Hikmətlərin incə mənaları" ("Füsus əl-hikəm") kitabına yazdığı şərh sufi-fəlsəfi məzmun daşıyır. Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" fəlsəfi poemasına şərhinin bir əlyazma nüsxəsi İstanbulun Həmidiyyə kitabxanasında saxlanılır. B. N. N.-nin "Nöqtənin sirlərinin şərhi" ("Şərh Əsrar ən-nüktə") adlı bir əsərini də xatırladırlar; burada, yəqin ki, Əli ibn Şihabəddin Həmədaninin (?–1384) "Hissi nöqtənin sirlərinə dair qüdsi traktat" ("Ər-Risalə əl-qüdsiyyə fi əsrar əl-nüktət əl-hissiyyə") əsəri nəzərdə tutulur. Müasirləri və sonrakı müəlliflər B. N. N.-nin həm Quranın təfsirinə, həm də təsəvvüfə dair əsərlərini yüksək qiymətləndirmişlər. Əhməd Daşköprüzadə (1495–1559) onu "Allah yolunda xidmət edən ariflərdən biri, dərvişlik və sufiliyin fəxri" kimi yad etmiş, "İlahi açmalar və qeybi açarlar" traktatı haqqında demişdir: "O, Quranın digər təfsirlərinə müraciət etmədən ona təfsir yazmış, orada bir çox şəxslərin dərk etmədiyi incəlikləri və həqiqətləri fəsahətli ibarələrlə və bəlağətli təbirlərlə aydınlaşdırmışdır". Quranın təfsirinə dair traktatlarında hüquq və ilahiyyat məsələlərini araşdıran B. N. N. sufi-fəlsəfi əsərlərində İbn Ərəbi və Mahmud Şəbüstərinin panteist mövqeyindən çıxış etmişdir.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan. B., 1987, səh. 36–37; M ə m m ə d ə l i y e v V., Nemətullah Naxçıvani və onun Quran təfsiri. "Dirçəliş–XXI əsr" jurn., 2000, № 10.

**BABATƏPƏ** – Şərur r-nunda, Yurdçu k.-ndən 1 *km* q.-də ilk Dəmir dövrünə aid yaşayış yeri. Sah. 0.5 *ha*. Aşınma nəticəsində



Babatəpə yaşayış yerindən tapılmış keramika məmulatı



Babayev Abdulla



Babayev Adil Qafar oğlu



Babayev Adil

Babayev Əbülfəz



mədəni təbəqənin üst layları tamamilə dağılmış, maddi-mədəniyyət qalıqları ətrafa səpələnmişdir. Yerüstü materiallar çəhrayı və boz rəngli gil qab (küpə, kasa və s. ) nümunələrindən, dən daşı, daş gürz, toxa və s. əmək alətlərindən ibarətdir.

**BABAYEV** Abdulla Murtuz oğlu (d. 1.4. 1924; indiki Babək r-nunun Tumbul k.) – xanəndə. Azərb. Respublikasının xalq artisti



(1998). Xanəndəliyə el şənliklərində, toy məclislərində başlamışdır. Xalq mahnılarının gözəl ifaçısı olan B. Şərq üçlükləri və ansambları heyətində çıxış edir. Repertuarına "Qatar", "Zabul-Segah" muğamları, təsniflər, xalq mahnıları və Azərb bəstəkarlarının mahnıları (C.Cahangirovun "Koroğlu" kino-filminə yazdığı "Dəli Həsənin mahnısı", M. Cavadovun "Naxçıvan", V. Axundovun " O Naxçıvandır", Ş. Əbdülkərimovun "Təki sən səslə məni" və s.) daxildir. Azərb. Respublikasının "Şöhrət" ordeni (1996) ilə təltif edilmişdir.

**BABAYEV** Adil Qafar oğlu (27.1.1925, Naxçıvan ş. – 19.8.1977, Bakı) – şair, dramaturq. Tbilisidə ikiillik müəllimlər in-tunun dil və ədəbiyyat fakültəsini (1945) və Azərb. Dövlət Teatr İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) teatrşünaslıq fakültəsini (1950) bitirmişdir. 1956–58 illərdə Azərb. Milli EA İncəsənət və Layihə İn-tunun (indiki Me'marlıq və İncəsənət İn-tu) aspirantı olmuşdur. "Şərq qapısı" qəzetində ədəbiyyat və incəsənət şöbəsinin, "İnqilab və mədəniyyət (indiki "Azərbaycan") jurnalında poeziya şöbəsinin müdiri, "Azərnəşr"də redaktor, Azərb. Dövlət Dram Teatrında ədəbi hissə müdiri (1956–64), "Ədəbiyyat və incəsənət" qəzetində tənqid şöbəsinin müdiri, məsul katib və baş redaktor müavini (1964–71) işləmişdir. Ədəbi irsi çoxcəhətlidir. "İkinci simfoniya" (1947), "İlk addımlar" (1949), "Gənclik illəri" (1950), "Ana ürəyi" (1957), "Gecikmiş bahar" (1965), "Şəhidlərin üsyanı" (1969), "Ümid sərvləri" (1977), "Mənim abidəm" (1979), "Fəsillər dəyişəndə" (1991; hər ikisi ölümündən sonra) və s. şer topluları nəşr olunmuşdur. "Dan yeri sökülür", "Ölməyə Vətən yaxşı", "Qartal qanadları" "Memarın məhəbbəti" və s. poemaları, "Açıq pəncərə", "Dağlar qızı", "Bəhruz" ("Yarımçıq şəkil"), «Qaçqınlar», «Qız görüşə tələsir», «Hicran» və s. pyesləri, hekayələri, tərcümələri var. "Lütfəli Abdullayev" (1966), "Leyla Bədirbəyli" (1970), "Şərəfli yol" (1974, şərikli), "Ağahüseyn Cavadov" (1976) teatrşünaslıq əsərlərinin müəllifidir. Naxçıvan mərkəzi uşaq kitabxanası onun adınadır. Bakıda adına küçə var.

Əsərləri: Yolda görüş, B., 1974; Təzədən doğulur şair ölən gün, B, 1981; Pyeslər, B., 1984; Ata sorağında (hekayələr), B., 1985; Anamın bayramı, B., 1987.

**BABAYEV** Adil Məhəmməd oğlu (d. 28.4. 1938, Ordubad r-nunun Dırnıs k.) – dilçi. Filologiya elmləri doktoru (1996), prof. (1997). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1962). Həmin ildən Azərb. Pedaqoji Xarici Dillər İn- tunda (indiki Dillər un-ti) çalışır. 1997 ildən un-tin Azərb. dilçiliyi kafedrasının müdiridir. Azərb. və Krım-tatar dilçisi və ədəbiyyatşünası Bəkir Çobanzadənin elmi fəaliyyətinə, Azərb. dilçiliyinin inkişaf yollarına dair elmi tədqiqatların, ali məktəb dərslik və dərs vəsaitlərinin müəllifidir. Bədii və publisistik yaradıcılıqla da məşğul olur. "Repressiya qurbanları" silsilə məqalələri var. 3 pyesi səhnədə və televiziyada oynanılmışdır. Krım Respublikasının B. Çobanzadə mükafatı laureatıdır (1992).

Əsərləri: Dilçiliyə giriş, B., 1992; Azərbaycan dilçiliyinin tarixi, B., 1996; Bəkir Çobanzadə, B., 1998.

**BABAYEV** Əbülfəz İsmayıl oğlu (d. 20.9. 1947, indiki Şərur r-nunun Qarabağlar k.) – kimyaçı. Kimya elmləri doktoru (1991), prof. (1992), Nyu-York EA-nın həqiqi üzvü (1994). Beynəlxalq Mühəndislik Akademiyasının akad. (1996; m. üzvü 1994). Azərb. Neft Kimya İn-tunun (indiki Neft Akademiyası) kimya-texnologiya fakültəsini bitirmişdir (1972). 1984 ildən Sumqayıt sintetik kauçuk z-dunun baş mühəndisi olmuşdur. Elmi işləri yüksək təmizlik dərəcəsinə malik dien



monimerləri, onların əsasında nitril lateksələrinin fasiləsiz istehsal texnologiyası, yüksək keyfiyyətli butadien-stirol kauçuku, butilkauçuk, poliizobutilen elastomerləri, onların əsasında kompozisiya materiallarının istehsalı proseslərinin işlənib hazırlanmasına həsr edilmişdir. Onun bilavasitə rəhbərliyi ilə neftkimya kompleksinin xammal mənbəyi olan bir sıra qiymətli məhsullar istehsal etməyə imkan verən EP-300 kompleksi tikilmişdir. Rusiya, ABŞ, İran, Türkiyə, İtaliya, Almaniya, Çexiya və b. ölkələrdə çap olunmuş 230-dan çox elmi məqalənin, o cümlədən onlarca ixtira və patentin müəllifidir. "Kauçuk-89" konqresi (Praqa, 1989), Kataliz üzrə XI Beynəlxalq Amerika konqresi (ABŞ, 1996), Türkdilli dövlətlərin polimer simpoziumu (İstanbul, 1996), V Təbii qazların konversiyası simpoziumu (İtaliya, 1998) və s. beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. 1980 ildən Azərb. Neft Akademiyasında, Bakı Dövlət Un-tində pedaqoji fəaliyyət göstərir.

**BABAYEV** Əli Baba oğlu (d.1910, Naxçıvan ş.) – İtaliyada partizan hərəkatı iştirakçısı. 1940 ildə Sovet Ordusu sıralarına çağırılmışdır, 1944–45 illərdə İtaliyada Qaribaldi briqadasında batalyon komandiri olmuşdur. B.-in batalyonu döyüşlərdə igidlik göstərdiyi üçün on dəfə partizan briqadası komandanlığının təşəkkürünə layiq görülmüşdür. B. İtaliyanın yüksək əsgəri mükafatı olan "Hərbi şücaətə görə" gümüş medalı ilə təltif edilmişdir.

**BABAYEV** Rafiq Təvəkkül oğlu (d. 1.8. 1953, Ordubad r-nunun Aşağı Aza k.) – yazıçı, publisist. Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) dil-ədəbiyyat fakültəsini bitirmişdir (1974). Aşağı Aza kənd orta məktəbində müəllim (1975–79) və direktor (1993–96), "Yeni Ordubad" və "El həyatı" qəzetlərində məsul katib, redaktor müavini (1980–93) işləmişdir. 1996 ildən Aşağı Aza kənd məktəbinin müəllimidir. Azərb. Yazıçılar (1988) və Jurnalistlər (1986) birliklərinin üzvüdür. "Axırıncı axşam" (1986), "Yolçu daşı" (1989), "Zühur" (1999) hekayə və povest kitablarının, publisistik məqalələrin müəllifidir. Xalq ədəbiyyatı örnəklərinin toplanması ilə məşğul olur.

**BABAYEV** Səfərəli Yaqub oğlu (d. 15.3. 1923, indiki Babək r-nunun Təzəkənd k.) – coğrafiyaşünas. Coğrafiya elmləri doktoru (1999), prof. (1998). Azərb. Respublikası əməkdar elm xadimi (1999), Nax. MR əməkdar müəllimi (1983). Nax. MSSR Maarif Nazirliyində inspektor, nazir müavini, nazir, Azərb. KP Naxçıvan Rayon Komitəsinin I-ci katibi, Nax. MSSR Nazirlər Soveti Radio Verilişləri və Televiziya Komitəsinin sədri, Nax. MSSR Nazirlər Soveti Sədrinin 1-ci müavini, Azərb. Pedaqoji İn-tu Naxçıvan filialının direktoru (1970–72), Naxçıvan Dövlət Un-tində (1972–90 illərdə Naxçıvan Pedaqoji İn-tu) coğrafiya kafedrasının müdiri, dekan işləmişdir. Hazırda un-tin coğrafiya kafedrasının müdiridir. Əsas tədqiqatları Nax. MR-in təbii şəraiti, landşaftı, təbiətinin mühafizəsi, təbii sərvətlərindən istifadə olunması, toponimiyası və s.-nin öyrənilməsinə həsr edilmişdir. Akad. B. Budaqovla birgə Nax. MR-in landşaft xəritəsini tərtib etmişdir. Bir neçə monoqrafiyanın, 80-dən artıq elmi məqalənin müəllifidir. Bir sıra beynəlxalq simpozium və konfranslarda (Türkiyə, İran, Rusiya, Ukrayna, Gürcüstan və s.) məruzələr etmişdir. B. Azərb. Coğrafiya Cəmiyyəti Naxçıvan filialının (1959 ildən) və Naxçıvan şəhər Ağsaqqallar Şurasının sədri, Azərb. Respublikası təhsil şurası idarə heyətinin üzvüdür (2000). Nax. MSSR Ali Sovetinin (üç çağırış) deputatı olmuşdur. Nax MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır.



Babayev Səfərəli

Əsərləri: Qədim diyarın təbiəti, B., 1970; Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999; Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999; Əfsanələr diyarı, B., 2001.

**BABAYEV** Vəli Allahverdi oğlu (17.2.1945, Naxçıvan – 22.1.1989, orada) — rejissor. Azərb. Respublikasının əməkdar artisti (1974). Azərb. Teatr İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti, R. Təhmasib və M. Məmmədovun sinfi) bitirmişdir (1966). 1974–76 illərdə M. Qorki ad. Moskva Akademik Bədaye Teatrında O. Yefremovun rəhbərliyi altında təcrübə keçmişdir. 1966–89 illərdə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rej. (1974–82 illərdə baş rej.) işləmiş, burada "Konsulu oğurladılar" (1966, G. Mdivani), "Od gəlini" (1970, C. Cabbarlı), "Toros canavarı" (1970, Əziz Nesin), "Nə yardan doyur, nə əldən qoyur" (1974, Lope de Veqa),

"Dəli yığıncağı", "Ölülər" (1978, 1981, C.Məmmədquluzadə), "Bayramın ilk günü" (1980, Nazim Hikmət), "Şeyx Sənan" (1982, H. Cavid), "Bir gün də insan ömrüdür" (1988, R. Rzanın eyniadlı poeması üzrə) və s. əsərlərə quruluş vermişdir. İrəvan Azərb. Teatrında, Lənkəran Dram Teatrında da bir sıra tamaşaların quruluşçu rej. olmuşdur.

**BABƏK**, B a b ə k  ə l-X ü r r ə m i – (təqr. 795, başqa məlumatlara görə 798–14.3.838) – xalq qəhrəmanı, görkəmli sərkərdə. 9 əsrin əvvəlində Azərb.-da hakim ərəb üsul-idarəsinə qarşı başlanmış və tədricən azadlıq müharibəsinə çevrilmiş hərəkatın (bax *Babək hərəkatı*) başçısı. 9–12 əsr ərəbdilli mənbələrdə B.-in Ərdəbil yaxınlığındakı Bilalabad k.-ndə doğulması, xürrəmilik təriqətinin rəhbərlərindən olan Cavidanın vasitəsilə hərəkata qoşulması, 20 ildən artıq (816–37 illər) hərəkata rəhbərlik etməsi, Azərb.-da ərəb ağalığına qarşı ardıcıl mübarizə aparması haqqında məlumat verilmişdir. 838 ilin əvvəlində Xilafətin paytaxtı Samirə ş.-ində edam edilmişdir. Nax. MR ərazisində B.-in şərəfinə adlandırılmış yer adları (Babək qalası, Babək r-nu və qəs., Babəki k.) var. Naxçıvan ş.-nin Babək meydanında at üstündə heykəli ucaldılmışdır.

*Əd.:* B ü n y a d o v  Z. M., Azərbaycan VII–IX əsrlərdə, B., 1990; N ə f i s i S., Azərbaycan qəhrəmanı Babək Xürrəmdin, B., 1990; Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998.


Babək. Fraqment. 1944. Rəssam S. Ş ə r i f z a d ə. Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyi.

**BABƏK** (1978 ilədək T ə z ə k ə n d) – şəhər tipli qəsəbə, Babək r-nunun və eyniadlı bələdiyyənin mərkəzi. Naxçıvan ş.-ndən 6 *km* c.-ş.-də, Naxçıvançayın sağ sahilində, düzənlikdədir. Əh. 2840 nəfər (2000). Daş və üzüm emalı z-dları, tikinti materialları kombinatı, yeyinti məhsulları kombinatı fəaliyyət göstərir. Şəhidlər xiyabanı salınmışdır. Orta məktəblər, uşaq-gənclər idman məktəbi, texniki yaradıcılıq mərkəzi, 3 kitabxana, mədəniyyət evi, klub, tarix-diyarşünaslıq muzeyi, mərkəzi r-n xəstəxanası, poçt, rabitə şöbəsi, məscid var. Görkəmli Azərb. sərkərdəsi Babəkin şərəfinə adlandırılmışdır.

**BABƏK GİL YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 3 *km* şm.-q.-dədir. Geoloji quruluşunda Orta Miosenin alt yarımmərtəbəsinin qəhvəyi-boz, bəzən yaşımtıl-boz rəngli gilləri və Müasir dövrün alüvial-delüvial çöküntüləri iştirak edir. Faydalı qatın kəmiyyət və keyfiyyət göstəriciləri uzanma və dərinliyə doğru dəyişməzdir; qalınlığı 3,4–4,95 *m*-dir. Laboratoriya tədqiqatlarına görə, yatağın gil süxurlarından "100" markalı kərpic istehsalında istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 1150 min $m^3$-dir.

**BABƏK HƏRƏKATI** – Azərb.-da xürrəmilərin icmasına rəhbərliyi qəbul etmiş *Babəkin* başçılığı ilə tədricən azadlıq müharibəsinə çevrilən qüdrətli hərəkat (816–37). İlk dəfə mənbələrdə 8 əsrin 2-ci yarısında qeydə alınan xürrəmilər hərəkatı Abbasilər sülaləsinin [750–1258] hakimiyyətə gəlişindən az sonra yeni vüsətlə şiddətlənən müxtəlif yönümlü dini-siyasi hərəkatların ən mühümlərindən biridir. Məzdəkilik (5 əsrin sonunda İranda yaranmış, Azərb.-da və qonşu ölkələrdə geniş yayılmış, işıqla qaranlığın, xeyirlə şərin mübarizəsini qəbul edən dini-fəlsəfi və sosial təlim) zəminində təşəkkül tapmış və ifrat şiəçiliyə yaxınlaşmış ilkin xürrəmi ideologiyası Babəkin başçılığı ilə artıq yeni siyasi rəng alır, tamamilə Xilafətə qarşı yönəldilərək yalnız ərəblərin hakimiyyətinə qarşı deyil, onların o



dövrdə Azərb.-da hələ tam möhkəmlənməmiş ideologiyasına qarşı da çevrilir. Azərb.-ın c. torpaqlarının çoxunu ərəblərdən təmizləyən B. h.-nın dalğası ölkənin şimalına, o cümlədən Naxçıvan ərazisinə də yayılır. Ərəb tarixçisi Əbu Mənsur əl-Bağdadinin (10 əsr) məlumatına görə, öz qoşunlarını Azərb.-ın hər yerinə göndərən Babəkin yalnız Azərb. və Deyləmdəki tərəfdarlarının sayı 300 mindən çox idi. Dövrün müəllifləri (əl-Məsudi və b.) Babək və onun tərəfdarlarının Arranın Sünik, Şəki, Beyləqan, Arsax, habelə Naxçıvan ərazisində hakimiyyəti ələ almaları, buradakı feodal hakimlərini qısa müddətə də olsa, ərəb itaətindən azad etmələri, Babəkin Sünik hakimi Vasaqın qızı İbnət əl-Kələndaniyə ilə evlənməsi haqqında məlumat verirlər. B. h.-nın ilk dövründə siyasi hakimiyyətlərinin mühafizəsi naminə Babəki dəstəkləyən yerli feodallar bu hərəkatın onların sinfi mənafeləri üçün ictimai təhlükə təşkil etdiyini dərk edərək, ondan uzaqlaşır və əks mövqe tuturlar. 837 il avqust ayının sonunda ərəb sərkərdəsi əl-Afşinin başçılıq etdiyi qoşun Babəkin istinadgahını – Ərdəbildən şm.-q.-də, Qaradağ vil.-də yerələşən Bəzz qalasını tutur. Çox keçmədən (15.9.837) yerli feodalın satqınlığı nəticəsində ələ keçirilən Babək Xilafətin paytaxtına aparılır və 838 ilin əvvəllərində edam edilir. Mənbələrin etirafına görə, "az qala Abbasilər dövlətini məhv edən", ərəb üsul-idarəsinə qarşı xalq azadlıq müharibəsi səviyyəsinə ucalan B. h. dövrün dini-siyasi çıxışlarından ən əzəmətlisi idi. Bu gün də Naxçıvan (Ordubad r-nu) ərazisində, Gəmiqayaya gedən yolun üstündə, Biləv k. yaxınlığında, Gilançayın sağ sahilində ucalan qədim qala *Babək qalası* adlanır. Gəmiqayada, Qaranquş yaylağında yerləşən qədim qəbiristanlıqdakı qəbirlər isə xalq arasında babəkilərin qəbirləri kimi tanınır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998; B ü n y a d o v  Z. M., Azərbaycan VII–IX əsrlərdə, B., 1990; V ə l i x a n l ı  N. M., Bir daha xürrəmilər, xürrəmdinilər, babəkilər və onların ideya sələfləri və xələfləri haqqında, Azərb. EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1997, № 1–4.

**BABƏK QALASI** – Ordubad r-nunda e. ə. 2–1-ci minilliklərə və orta əsrlərə aid abidə, Biləv k. yaxınlığında, Gilançayın sağ sahilindədir. Xalq qəhrəmanı Babəkin adı ilə bağlıdır. Yaxınlığında orta əsrlərə aid ikiaşırımlı körpü var. Əlincəqalaya gedən yolun üstündə yerləşən B. q. strateji baxımdan əlverişli mövqedə, uca zirvədə tikilmişdir. Fərdi memarlıq xüsusiyyətlərinə malik qala yonulmuş daşdan inşa edilmişdir. Qala daxilində (c.-ş.-də) dairəvi və dördkünc bina qalıqları var. Müxtəlif həcmli qaya parçalarından inşa edilmiş binalar bir-birinə bitişik tikilmişdir. Divarların salamat qalan hissəsinin hünd. 0,8–1 *m*, qalınlığı 0,5–0,8 *m*-dir. Evlərin içərisində divara bitişik ocaq qurğusu mövcuddur. Yaşayış evləri sahəsindən e. ə. 2-ci minilliyə aid dən daşları, obsidian (d ə v ə g ö z ü) lövhələri, orta əsrlərə aid boz, qırmızı, qəhvəyi rəngli keramika, tək-tək şirli qab qırıqları tapılmışdır. B. q. təbii strateji mövqeyinə, memarlıq və tikinti xüsusiyyətlərinə, arxeoloji materiallarına görə Şərur r-nu ərazisində Qalacıq, Qız qalası, Böyükqala, Kiçikqala, Gilançay vadisindəki və s. orta əsr istehkam abidələri ilə yaxın analogiya təşkil edir. Qala Cənubi Azərbaycan–Xudafərin–Gilan–Naxçıvan–Sünik–Qarabağ karvan yolu üzərində mühüm nəzarət məntəqəsi idi.


Babək qalası. E. ə. 2–1-ci minilliklər. Ordubad rayonu.

**BABƏK MEYDANI** – Naxçıvan ş.-ndə d.-y. vağzalının qarşısında, Əliqulu Qəmküsar küç. və Əlincə məhəlləsinin kəsişdiyi ərazidə yerləşir. 1989 ildən B. m. adlandırılmışdır. Meydanda *Babəkin* at üstündə abidəsi ucaldılmışdır (heykəltəraş Nax. MR əməkdar incəsənət xadimi E. Cəfərovdur). B. m.-nda



Babəkin abidəsi. 1988. Heykəltəraş E. Cəfərov. Naxçıvan şəhəri.

dəmiryol işçiləri parkı, məişət, iaşə, ticarət və s. xidmət obyektləri var.

**BABƏK RAYON DAŞ EMALI ZAVODU** – tikinti sənayesi müəssisəsi. Bax *Babək Rayon Tikinti Materialları Kombinatı.*

**BABƏK RAYON TİKİNTİ MATERİALLARI KOMBİNATI** – tikinti sənayesi müəsssisəsi. Şərur–Naxçıvan d.-y.-nun sağında, Qızılvəng st.-nın yaxınlığındadır. 1975 ildə istifadəyə verilmişdir. İldə 8 mln. ədəd kərpic, 40 min $m^2$ üzlük plitə istehsal edirdi. 1982–91 illərdə Naxçıvan üzlük plitələr z-du kimi fəaliyyət göstərmişdir. Mülki mənzil tikintisi üçün, sənaye, k.t. və digər istehsal sahələrinin inşası üçün dekorativ və tikinti materialları (əhəngdaşı, travertin) istehsalı və satışı ilə məşğul olur. 1998 ildə "Naxçıvan tikinti materialları" açıqtipli səhmdar cəmiyyətə çevrilmişdir.



**BABƏK RAYON ÜZÜM EMALI ZAVODU, 2 saylı** – yeyinti sənayesi müəssisəsi. Babək r-nunun Tumbul k.-nin şm. hissəsindədir. 1977 ildə tikilib istifadəyə verilmişdir. İldə 20 min *t* üzüm emal etmək gücünə malikdir. Z-dun tərkibinə emal sexi, spirtçəkmə sexi, doldurma sexi, bir sıra başqa əsas və yardımçı sex və sahələr daxildir. 1991 ildə z-dda yenidənqurma və bərpa işləri aparılmışdır; tünd üzüm içkisi emal edilir. 1999 ildə 9325 *dkl* tünd üzüm içkisi istehsal olunmuşdur.

**BABƏK RAYONU** (1978 ilədək Naxçıvan rayonu) – Nax. MR-də inzibati r-n. 1930 ildə təşkil olunmuşdur. Şm.-q.-də Erm. Respublikası, c.-da İranla həmsərhəddir. Sah. 1,17 min $km^2$ . Əh. 72,5 min nəfər (2001, 1 yanvar). R-nda 1 ştq., 42 kənd var. Mərkəzi Babək (1978 ilədək Təzəkənd) ştq-dir.

**Təbiət.** R-nun relyefi şm.-da və c.-ş.-də dağlıq ərazidən (Dərələyəz silsiləsinin c. yamacı, Zəngəzur silsiləsindən ayrılmış qollar, ayrı-ayrı tirələr və yüksəkliklər), c.-da və c.-q.-də maili düzənliklərdən (Naxçıvan düzü, Böyükdüz və s.) ibarətdir. Ən yüksək zirvələri Keçəltəpə d. (2740 *m*), Qaraquş d. (2617 m), Buzqov d. (2470 *m*) və s. Düzənliklərdə antropogen, dağlıq yerlərdə, əsasən, Neogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: daşduz (bax *Naxçıvan daşduz yatağı*), tikinti materialları və s. Mineral bulaqlar (Sirab, Vayxır, Qahab və s.) var. İqlimi c.-da yayı quraq keçən soyuq yarımsəhra və quru çöl, şm.-da yayı quraq keçən soyuqdur. Yayı isti, qışı soyuq keçir. Orta temp-r yanvarda –3°C-dən –10°C-yədək, iyulda 28–15°C, mütləq maks. temp-r 43°C, mütləq minimum temp-r –30°C-dir. İllik yağıntı 200–600 *mm*. Əsas çayları inzibati ərazini yarıya bölən Naxçıvançay və onun qolu Cəhriçaydır; suvarmada mühüm rol oynayırlar. Araz çayı r-nun İranla sərhədindən axır. Su anbarları (Araz su qovşağının su anbarı, Uzunoba, Nehrəm, Sirab və s.), suvarma kanalları var. Boz və çəmən-boz, şm.-da, əsasən, dağ-şabalıdı torpaqlar yayılmışdır. Yarımsəhra və səhra, dağlıq kserofit bitki örtüyü inkişaf etmişdir. Heyvanları: canavar, tülkü, ərəbdovşanı, kirpi, kələz, Radde gürzəsi, əqrəb, büvə; quşlardan dovdaq, Xəzər uları və s. Araz su qovşağının su anbarında çoxlu balıq var.








**Əhali.** R-nun əhalisi 1980 illə müqayisədə 25,6 min nəfər və ya 56,2 % artmışdır. Orta sıxlıq 1 *km*²-də 62 nəfərdir (2001). İri yaşayış məntəqələri Nehrəm və Cəhri k.-larıdır.

**Təsərrüfat.** Son illər aparılan quruculuq tədbirləri nəticəsində B.r.-nda sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuşdur. R-n mərkəzində və kənd yaşayış məskənlərində yeni inzibati və ictimai obyektlər tikilmişdir. Nehrəm və Cəhri kəndlərinin mərkəzi meydanları abadlaşdırılmış, asfalt örtük salınmış, Zeynəddin və Qahab kəndlərində yeni körpülər inşa edilmiş, bəzi kəndlərdə körpülər əsaslı surətdə təmir olunmuşdur. R-nun Cəhri, Buzqov, Paiz və digər kəndlərinin elektrik təchizatı üçün stansiya və yarımstansiyalar tikilmiş, əksər kəndlərə güclü transformatorlar qoyulmuş, quraqlığın qarşısını almaq üçün su mənbələri yaradılmışdır. Blokada şəraitində dayanmış müəssisələrin işə salınması sahəsində işlər görülmüş, Sirab mineral su z-du işə başlamış, özəl müəssisələr yaradılmışdır. 1994 ildən aqrar islahatlar keçirilmiş, əhali torpaq payları ilə təmin olunmuşdur. 1991–2001 illərdə torpaqların suvarılmasını yaxşılaşdırmaq üçün Vayxır su qovşağının 1-ci növbəsi istifadəyə verilmişdir (1999). Qahab və Sirab kəndlərində yeni nasos stansiyaları quraşdırılmış, Cəhriyə 5 və 7 *km*-lik iki suvarma xətti, Qaraçuq və Tumbul kəndlərinə suvarma kanalları çəkilmiş, Nehrəmə gələn suvarma su xətləri yenidən uzadılmış, bir sıra nasos st. və suvarma kanalı ("Cəhri-2", Qızılvəng, Nehrəm, Uzunoba, Qoşa Dizə, Hacıvar və s. st.-lar; Qaraçuq–Nehrəm kanalı) inşa və bərpa edilmişdir (1999–2001).

R-nun iqtisadiyyatında üzümçülük, taxılçılıq, bostançılıq, tərəvəzçilik mühüm yer tutur. 1997–98 illər ərzində B. r-nunda bütün təsərrüfat formaları üzrə taxıl və bostan məhsulları istehsalı müvafiq olaraq 12 və 71% artmışdır. 1998 ildə muxtar respublikada istehsal olunan taxılın 33,9%-i, tütünün 10,3%-i, tərəvəzin 20,4%-i, bostan bitkilərinin 62,7%-i, kartofun 15,8%-i, şəkər çuğundurunun 14,0%-i, meyvənin 23,5%-i, üzümün 21,9%-i B. r.-nun payına düşmüşdür.

1998 ildə heyvandarlıq məhsulları üzrə də uğurlar əldə edilmişdir. Ət istehsalı istisna olmaqla, 1970 illə müqayisədə süd istehsalı 11%, yun istehsalı 1,5 dəfə, yumurta istehsalı 3,0 dəfə artmışdır. 1998 ildə B. r-nda 0,9 min *t* ət, 6,1 min *t* süd, 13,5 min ədəd yumurta, 171,2 *t* yun istehsal olunmuşdur. Nax. MR-də istehsal olunan ətin 21,4%-i, südün 22,6%-i, yunun 30,1%-i, yumurtanın 23,9%-i B. r.-nun payına düşür. R-nda inək və camışların sayı 1970 ildəkindən 2520 baş və ya 1,5 dəfə, xırda buynuzlu heyvanların sayı 29,4 min baş və ya 38,1% artmışdır. R-nda 13111 baş qaramal, o cümlədən 7742 baş inək və camış, 105850 baş xırda buynuzlu heyvan, 69882 quş var (1998). Muxtar respublikadakı qaramalın 21,8%-i, o cümlədən inək və camışların 22,3%-i, xırda buynuzlu heyvanların 29,6%-i B. r.-nun payına düşür (2000).



Sirab su anbarı

B. r.-nda daş emalı, üzüm emalı və yeyinti məhsulları müəssisələri fəaliyyət göstərir. 1980 ildə Nax. MR-də sənaye məhsullarının 11,0%-i, 1990 ildə 8,5%-i, 1998 ildə isə 20,1%-i B. r.-nda istehsal olunmuşdur. Nax. MR-dəki kapital qoyuluşlarının 6,2%-i, istifadəyə verilmiş əsas fondların 5,3%-i, cəmi əmtəə dövriyyəsinin 0,5%-i, əhaliyə göstərilən pullu xidmətlərin 1,9%-i r-nun payına düşmüşdür (1998). 1998 ildə adambaşına əmtəə dövriyyəsi 19,7 min manat olmuşdur ki, bu da 1992 ildəkindən 69,0% yüksəkdir. Əhalinin hər nəfərinə pullu xidmətlər 1900 manat təşkil edir ki, onun da 16,9%-i məişət xidmətinin payına düşür. Bakı–Yerevan d.-y., Ordubad–Naxçıvan–Yerevan və Yevlax–Laçın–Naxçıvan avtomobil yolları, Yevlax–Naxçıvan qaz kəməri r-nun ərazisindən keçirdi; Ermənistanın təcavüzkar siyasəti nəticəsində 1992 ildən işləmirlər.

**Tarixi-arxeoloji və memarlıq abidələri**. Babək bölgəsinin təbii coğrafi mövqeyi əkinçi-maldar tayfaların bu ərazidə qədim dövrlər-

dən məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır. Təsadüfi deyil ki, Kültəpə I və Kültəpə II kimi dünya miqyaslı abidələr məhz bu ərazidədir Burada yaşamış qədim tayfalara məxsus zəngin mədəniyyət arxeoloji abidələrdə qorunub saxlanmışdır. Naxçıvan ərazisində elmə məlum olan ilk arxeoloji tapıntılar 1870 ildə B. r. bölgəsində qeydə alınmışdır. 1895 ildə Qızılburun (Qızılvəng) adlı yerdən tapılmış boyalı qablar alimlərdə böyük maraq doğurmuş və Naxçıvana arxeoloji ekspedisiyalar təşkil edilmişdir. B. r. ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrlərinə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı, həmçinin orta əsrlərə aid yaşayış yerləri, nekropollar, maddi mədəniyyət qalıqları, Çalxanqala, Vayxır, Əznəbürt, Abbasabad qalaları və onlarla digər arxeoloji, tarixi, memarlıq abidəsi, zəngin materiallar aşkara çıxarılmış və tədqiq edilmişdir.

**Mədəni quruculuq və səhiyyə**. B. r.-nda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. R-nun Nehrəm k.-ndə 604 yerlik, Kültəpədə 320 yerlik məktəb binaları tikilmiş, Qahab və Çalxanqala kəndlərindəki orta məktəb binaları əsaslı təmir olunmuşdur. 47 ümumtəhsil məktəbində 15031 şagird təhsil alır, 10 daimi məktəbəqədər müəssisədə 520 uşaq tərbiyə olunur (2000). R-nda 67 klub, 2 muzey, 54 kitabxana fəaliyyət göstərir. Babək Rayon İcra hakimiyyətinin orqanı *"Şərqin səhəri"* qəzeti nəşr olunur. Televiziya verilişlərinə baxılır.

Rayonda 285 çarpayılıq 6 xəstəxana, 25 feldşer-mama məntəqəsi, sanitar-epidemioloji st., doğum evi fəaliyyət göstərir, 54 həkim, 380 orta tibb işçisi çalışır (2000).

Babəki yaşayış yerindən tapılmış keramika məmulatı.



**BABƏKİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* c.-ş.-də, Araz çayı vadisində, düzənlikdədir. Əh. 106 nəfər (2000); maldarlıq, yemçilik, taxılçılıq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Məktəb, feldşer-mama məntəqəsi, klub var.

**BABƏKİ** – Şərur r-nunda, eyniadlı kəndin yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Sah. 3 *ha*-a yaxındır. Hazırda əkin sahələrinin altında qalmışdır. Torpaq işləri aparılarkən skelet qalıqları, gil qab sınıqları aşkar edilmişdir. Mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 2 *m*-dən artıqdır. Təbəqə torpaq qarışıq kül laylarından ibarət olub, çəhrayı və sarı rəngli saxsı məmulatı (küpə, kasa, çanaq, qazan, səhəng və s.), tikinti qalıqları ilə və osteoloji materiallarla zəngindir.

**BABİ ZƏRBXANASI** – Qızıl Orda (Qıpçaq) xanı Bərdi bəyin Azərb.-a yürüşü (h. 758/1357) zamanı onun adından və Elxanilərin hakimiyyəti dövründə Ənuşirəvanın adından (h. 756/1355) zərb olunmuş gümüş dirhəmləri ilə tanınır. Tarix elmləri doktoru, tanınmış numizmat Y. A. Paxomovun fikrincə, B. z. indiki Şahbuz r-nu ərazisində fəaliyyət göstərmişdir.

**BADAMLI** — Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 14 *km* q.-dədir. Əh. 1007 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana və xəstəxana var. Ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü qoç daş heykəllər olmuşdur.

**BADAMLI MİNERAL SUDOLDURMA ZAVODU** – yeyinti sənayesi müəssisəsi. Şahbuz r-nunun Badamlı k. yaxınlığındadır. 1947 ildə isə salınmışdır. Azərb. Mineral Sular İstehsalat Birliyinin tərkibində idi. 1952 və 1970–80-ci illərdə z-dda istehsalat prosesləri yenidən qurulmuş, yeni xətlər istismara verilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. 80-ci illərdə hər il 70 min şüşə su istehsal etmişdir. 1980 ildə mineral su bazası əsasında balneoloji müalicəxana (50 çarpayılıq) istifadəyə verilmişdir. Hazırda z-dun istehsal gücü artırılmış, ildə 150 min şüşə su doldurulması nəzərdə tutulmuşdur (2000). 1999 ildən müstəqil z-d kimi fəaliyyət göstərir.

**BADAMLI MİNERAL SU YATAĞI** – Şahbuz r-nu ərazisində, Badamlı k.-ndən 3 *km* c.-q.-də, dəniz səviyyəsindən 1274 *m* hünd.-dədir. Bir neçə bulaqdan ibarət qrup təşkil edir.

*Badamlı kəndindən görünüş.*






**Babək rayonu.** 1. Rayon mərkəzi. 2. Rayon İcra Hakimiyyətinin binası. 3. Şəhidlərə abidə. Nehrəm kəndi. 4. Şərab zavodu. Babək qəsəbəsi. 5. Heydər məscidi. Çeşməbasar kəndi.











*Babək rayonu. 1. "Heydər dəryaçası". 1999. 2. Çeşməbasar kəndi. 3. Qahab kəndi. 4. Orta məktəb. Qoşadizə kəndi. 5. Yarımstansiya. Cəhri kəndi.*



5 saylı bulağın balneoloji tərkibi:

$$CO_2 0,4 M_{0,9-1,2}\frac{HCO_3 65\, SO_4 21\, Cl 13}{(Na+K) 41\, Ca 35\, Mg 24}$$

pH6,4 D650 *m³/gün* T 17° C

4 (1) saylı bulağın balneoloji tərkibi:

$$CO_2 1,2 M_{4,7}\frac{HCO_3 71\, Cl 24\, SO_4 5}{(Na+K) 54\, Ca 34\, Mg 12}$$

pH6,5 D172 *m³/gün* T 22° C

Suyunun minerallaşma dərəcəsi 0,9–6,1 *q/l*, temp-ru 17–22°C, kimyəvi tərkibi karbon qazlı, hidrokarbonatlı-xlorlu-natriumlu-kalsiumludur. Yatağın istismar ehtiyatı 1070 *m³/gün* hesablanmışdır (1972). Yatağın 5 saylı quyusunun suyu Rusiya Federasiyasının (RF) "Arşan" bulağının suyuna yaxın olub "Narzan" (Kislovodsk) tipli, 4 saylı quyusunun suyu isə RF-in "Lastoçkin" bulağının suyuna yaxın olub "Saqveri" (Gürcüstan) tiplidir. "Badamlı" suyunu mədə-bağırsaq, sidik yolları və qara ciyərin bəzi xəstəlikləri zamanı içmək faydalıdır. Buruq quyularının bəzilərində suyun minerallaşma dərəcəsi nisbətən az olduğundan süfrə suyu sayılır.

**BADAMLI NEKROPOLU** – Şahbuz r-nunun eyniadlı k.-ndə orta əsrlərə aid arxeoloji abidə. Sah. 0,25 *ha;* müsəlman qəbiristanlığından ibarətdir. Baş və sinə daşları dağıdılmışdır; birinin üzərində mərhumun ölüm tarixi yazılmışdır. 15–16 əsrlərə aid olması ehtimal edilir.

**BADAMLISU** – Şahbuz r-nunda qəs. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-q.-də, Şahbuz–Badamlı avtomobil yolunun kənarındadır. Əh. 596 nəfər (2000); heyvandarlıq və əsasən, Badamlı mineral su istehsalı ilə məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, profilaktoriya, rabitə şöbəsi var.

**BAĞIROV** Akif Məmməd oğlu (d. 27.10. 1959, Şahbuz r-nunun Nurs k.) – həkim-uroloq. Tibb elmləri doktoru (2001). Azərb. Dövlət Tibb Un-tini bitirmişdir (1982). Un-tin urologiya kafedrasının dosentidir (1998 ildən). 50-dən artıq elmi məqalənin, 2 monoqrafiyanın, 1 elmi ixtira, 6 səmərələşdirici təklif və 2 dərs vəsaitinin müəllifidir. B. respublikamızda ilk dəfə böyrək şişlərində radikal nefrektomiya, sidik kisəsi şişlərində sistektomiya və siqmosistoplastika, prostat şişlərində radikal prostatektomiya, birmərhələli Dakıt uretroplastikası kimi cərrahi əməliyyatlar aparmışdır. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r i: Böyrək köçürülməsi, B., 1988.



*Bağırov Akif*

**BAĞIROV** Azər Sadıq oğlu (d. 16.9.1936, Naxçıvan ş.) – mətbuat-nəşriyyat işçisi. Azərb. Respublikasının əməkdar jurnalisti (1989). Azərb. Dövlət Un-tinin filologiya fakültəsini (1960) və Azərb. Milli EA Nizami ad. Ədəbiyyat və Dil İn-tunun aspiranturasını (1965) bitirmişdir. Azərb. Sovet Ensiklopediyası Baş redaksiyasında dil və ədəbiyyat redaksiyasının müdiri (1968–92). Baş direktor müavini (1992–93), Azərb. Respublikası Mətbuat və İnformasiya Nazirliyinin Baş Nəşriyyatlar İdarəsində şöbə müdiri, rəis müavini və baş redaktor (1993–96) olmuşdur. 1998 ildən Azərb. Dövlət Teleqraf Agentliyində (Azər TAc) tərcüməçi-redaktordur. İkicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin birinci cildinin (1967) müəlliflərindəndir. "Üzeyir Hacıbəyov ensiklopediyası"nın (1996) məsul katibi, ikicildlik "Kitabi-Dədə Qorqud" (2000) ensiklopediyası işçi qrupunun və "Naxçıvan" ensiklopediyası qurumunun üzvüdür. Dövri mətbuatda yazıları dərc olunmuşdur.



*Bağırov Azər*

**BAĞIROV** İbrahim Nəsib oğlu (d. 1.4.1928, indiki Şahbuz r-nunun Nurs k.) – tarixçi. Tarix elmləri namizədi (1971), dosent (1975). Naxçıvan Müəllimlər İn-tunu (1949), Bakı Ali Partiya məktəbini (1953), Azərb. Dövlət Pedaqoji İn-tunu (1955) bitirmişdir. Sov. İKP MK yanında Ali Partiya Məktəbini (1961) qurtardıqdan sonra partiya və sovet işində çalışmış. Azərb. KP Şahbuz r-n komitəsinin katibi (1953–59), Culfa r-n komitəsinin 1-ci katibi (1967–70), Naxçıvan (indiki Babək) r-n ZDS İcraiyyə Komitəsinin sədri (1963–67) və s. vəzifələrdə işləmişdir. Naxçıvan Pedaqoji İn-tunda kafedra müdiri, Naxçıvan Dövlət Un-tində müəllim (1993–97) olmuşdur. Naxçıvan xanlığının tarixinə, Azərb.-ın ictimai-siyasi həyatında mühüm xidmətləri olmuş naxçıvanlı sərkərdələrin, görkəmli şəxsiyyətlərin və ziyalıların həyat və fəaliyyətinə dair tədqiqatların müəllifidir. Nax. MSSR Ali Sovetinin (6–7-ci çağırış) deputatı seçilmiş, Nax. MR Konstitusiya Komissiyasının üzvü (1996) olmuşdur.

Ə s ə r i: Kəngərli yurdunun generalları, B., 1996.

*Bağırov Quşdan*



**BAĞIROV** Quşdan Əmikişi oğlu (25.5.1933, Şahbuz r-nunun Kükü k. – 17.10.1994, Bakı)



Bağırov Mehdi



Bağırov Mikayıl



Bağırov Mübariz



Bağırov Rüstəm

– dilçi. Filologiya elmləri doktoru (1991), prof. (1992). Naxçıvan Müəllimlər İn-tunu (1952) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil-ədəbiyyat fakültəsini (1960) bitirmişdir. Azərb. dilinin dialektologiyasına, bədii dilin üslubiyyatına həsr olunmuş tədqiqatların, o cümlədən, 5 kitabın ("Azərbaycan bədii nəsrində danışıq dilinin leksik və qrammatik xüsusiyyətləri", B., 1991; "Müasir Azərbaycan ədəbi dilinə dair praktikum", B., 1996 və s.), 40-a yaxın elmi məqalənin müəllifidir.

**BAĞIROV** Mehdi Abbas oğlu (d. 20.12.1915, Naxçıvan ş.) – həkim-cərrah. Səhiyyə əlaçısı (1955), SSRİ xalq həkimi (1984), Azərb. Respublikası əməkdar həkimi (1956). Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1941). Böyük Vətən müharibəsində (1941–45) Kiyev hərbi dairəsində xidmət etmiş, Berlinədək döyüş yolu keçmiş, minlərlə döyüşçünü həyata və cəbhəyə qaytarmışdır. Ordudan tərxis olunduqdan (1946) sonra Naxçıvanda cərrah işləmiş, muxtar respublikada cərrahiyyənin bünövrəsini qoymuşdur. Moskvada həkimləri Təkmilləşdirmə İn-tunun urologiya kafedrasında elmi axtarışlar apararaq, "Nax. MSSR-də böyrək daşı xəstəlikləri və onların müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1946–66 illərdə, eyni zamanda, Naxçıvan Tibb Məktəbində cərrahiyyədən dərs demişdir. 1959 ildən Nax. MR Səhiyyə Nazirliyinin baş cərrahı vəzifəsində işləyir. Azərb. SSR Ali Sovetinin deputatı seçilmişdir (1959). Lenin ordeni, Qırmızı Ulduz, Xalqlar dostluğu və s. ordenlərlə təltif edilmişdir.

**BAĞIROV** Mikayıl Kazım oğlu (d. 1.11. 1934, indiki Şərur r-nunun Daşarx k.) – neftçi-alim. Texnika elmləri doktoru (1999). Azərb. Sənaye İn-tunun neft-mədən fakültəsini bitirmişdir (1956). Qaradağneft NQÇİ-də operator, neft mühəndisi (1956–60) işləmişdir. 1960 ildən Azərb. Elmi-Tədqiqat Neftçıxarma İn-tunda çalışır (1971–75 və 1982–86 illərdə Əlcəzair Demokratik Respublikasında ezamiyyətdə olmuşdur). 1992 ildən İn-tun direktorudur. Tədqiqatları neft və qaz yataqlarının işlənilməsinə, istismar quyularının hasilatının intensivləşdirilməsinə, laylara və quyudibi sahəyə təsir üsullarının yaradılmasına və neft sənayesinin aktual problemlərinin həllinə yönəldilmişdir. 70 elmi əsərin, o cümlədən iki monoqrafiyanın, 35 ixtiranın müəllifidir. Beynəlxalq Neftçi Mühəndislər Cəmiyyəti Azərb. şöbəsinin vitse-prezidenti, Beynəlxalq Ekoenergetika Akademiyasının elmlər doktoru və prof.-dur (1996).

Ə s ə r i: Регулирование притока нефти к скважине, Б., 1997.

**BAĞIROV** Mübariz Məmməd Hüseyn oğlu (d. 11.8.1961, Şahbuz r-nunun Nurs k.) – iqtisadçı. İqtisad elmləri doktoru (1997). Azərb. Dövlət İqtisad İn-tunun (indiki İqtisad Un-ti) uçot-iqtisad fakültəsini bitirmişdir (1985). Bakı Baş Tikinti İdarəsinin 2 №-li evtikmə kombinatında iqtisadi məsələlər üzrə direktor müavini, Azərb. Sənaye-İnvestisiya Səhmdar Kommersiya Bankının tikinti filialının müdiri işləmişdir. 1998 ildən Azərb. İqtisadçılar İttifaqının Pul tədavülü və kredit departamentinin direktorudur. İqtisad Un-tində pedaqoji fəaliyyət göstərir. B. müstəqil milli bank sisteminin təşəkkülünün və inkişaf etdirilməsinin siyasi, iqtisadi, sosial şərtlərinin yaradılmasının nəzəri və metodoloji problemləri, postsosialist bank sisteminin bazar tipli milli sistemə transformasiyası konsepsiyası sahəsində tədqiqatlar aparır.

Ə s ə r l ə r i: Место и роль коммерческих банков в системе рыночных отношений, Б., 1997; Условие формирования национальной банковской системы, Б., 1997.

**BAĞIROV** Nəriman Fərəc oğlu (d. 16.6. 1930, Ordubad ş.) – maarif xadimi. Nax. MR əməkdar müəllimi (1980). Azərb. Respublikasının xalq maarifi əlaçısı (1984), qabaqcıl maarif xadimi (1998). Azərb. Dövlət Qiyabi Pedaqoji İn-tunun dil və ədəbiyyat fakültəsini bitirmişdir (1958). 1955 ildən Ordubaddakı M. Sidqi ad. 1 saylı orta məktəbdə dərs demiş, həmin məktəbin dərs hissə müdiri (1961–74) və direktoru (1974–77) olmuşdur. 1977 ildən şəhərdəki 2 saylı məktəbin müəllimidir. Tədris üsulları, təlim-tərbiyə məsələləri haqqında məqalələr dərc etdirmişdir.

**BAĞIROV** Rüstəm Əsəd oğlu (d. 12.11.1981, Babək r-nunun Babək qəs.) – idmançı. Naxçıvan Dövlət Un-ti bədən tərbiyəsi və idman fakültəsinin tələbəsidir (1999). Sərbəst güləş, cüdo və armrestlinq üzrə dəfələrlə Nax. MR çempionu olmuşdur. Pauerliftinq üzrə Nax. MR və Azərb. Respublikası çempionudur (2000). 2001 ildə pauerliftinq üzrə Avropa çempionatında (Finlandiya, Helsinki) qızıl medala layiq görülmüş, Avropa rekordunu təzələmişdir.





Bağırov Siyavuş



Baxşiyev Bahadur

**BAĞIROV** Siyavuş Musa oğlu (d. 17.2.1936, Naxçıvan ş.) – texniki sistemlərdə idarəetmə sahəsində alim. Texnika elmləri doktoru (1990), prof. (1992). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini (1959) və Azərb. Milli EA Energetika İn-tunun aspiranturasını (1964) bitirmişdir. Azərb. Milli EA Energetika İn-tunda baş elmi işçi (1966–78), Azərb. EA Elmi Mərkəzində şöbə müdiri (1978–81), Azərb. Dövlət Neft Akademiyasının avtomatika, telemexanika və elektronika kafedrasında dosent və prof. (1981–95), Azərb. Texniki İn-tinin nəqliyyatda avtomatika və telemexanika kafedrasının prof. (1992–97) olmuşdur. 1997 ildən Texniki Un-tin Dəmiryol nəqliyyatı fakültəsinin dekanıdır. Elektroenergetikanın respublika üçün vacib problemləri, xüsusən elektrik mühərriklərinin tezliklə idarə olunması problemi sahəsində tədqiqatlar aparmışdır. 140-dan çox elmi işin müəllifidir. Tədqiqatlarının nəticələrinə dair məruzələri bir çox elmi məclislərdə, o cümlədən IFAK-ın (Avtomatik İdarəetmə Sistemləri üzrə Ümumdünya Konqresi) Varşava (1969), Paris (1972), Boston (1975) və Helsinki konqreslərində dinlənilmiş və bu konqreslərin məcmuələrində dərc olunmuşdur. Ankarada keçirilmiş beynəlxalq konqreslərdə (1997, 1998, 1999) məruzələr etmişdir.

**BAĞIROVA** Rəfiqə Kazım qızı (d. 1929, Ordubad ş.) — mədəni-maarif işçisi. Nax. MR (1967) və Azərb. Respublikasının (1986) əməkdar mədəniyyət işçisi. Ordubad pedaqoji texnikumunu bitirmişdir (1945). Ordubad şəhər uşaq kitabxanasının, Ordubad rayon mərkəzi kitabxanasının müdiri (1950–79) olmuşdur. 1979 ildən Ordubad rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktorudur. Mədəniyyət işçiləri həmkarlar ittifaqı rayon komitəsinin sədridir (1978 ildən).

**BAĞIRSAQ DAĞI** – Sədərək r-nu ərazisində dağ. Sədərək k.-ndən 12 *km* şm.-ş.-dədir. Hünd. 1992 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**BAĞIRSAQDƏRƏ** – Şərur r-nu ərazisində çay. Arazın sol qolu. Uz. 33 *km*, hövzəsinin sah. 117 *km²*. 1860 *m* hünd.-dən başlanır. Əsasən, yağış suları ilə qidalanır. İlin çox vaxtı quruyur. Dolanbac olduğu üçün B. adlanır.

**BAHADURSU MİNERAL SU BULAQLARI** – Sədərək r-nu ərazisində, Sədərək k.-ndən 1,5 *km* c.-da, dəniz səviyyəsindən 1050 *m* hünd.-dədir. Bir neçə bulaqdan ibarət qrup təşkil edir.

Balneoloji tərkibi:

$$CO_2 1.2 M_{3,9} \frac{HCO_3 56\, Cl 30}{Mg45\,(Na+K)38} pH6.5\, D150\, m^3/gün\; T18^\circ C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu, maqneziumlu-natriumludur. Kəşfiyyat işləri aparılmamışdır.

**BAXŞİYEV** Bahadur Ələkbər oğlu (d. 26.12. 1932, Ordubad ş.) – rentgenoloq. Tibb elmləri doktoru (1969), prof. (1970). Azərb. Respublikasının əməkdar həkimi (1981). Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini (1955) və aspiranturasını (1962) bitirmişdir. Tibb Un-tinin müalicə-profilaktika fakültəsinin (1969–72), 1-ci müalicə-profilaktika fakültəsinin (1983–89) dekanı olmuşdur. 1969 ildən şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiridir. Respublikanın baş rentgenoloqu və radioloqudur. İrikadrlı flüoqrafiyanın poliklinika şəraitində tədqiqi və onun ağ ciyər xəstəliklərinin aşkara çıxarılmasında əhəmiyyətinə, qalxanvarı vəzin xəstəliklərində rentgen-radioloji metodların tətbiqinə dair tədqiqatların, o cümlədən 14 monoqrafiya, dərslik və metodik göstərişin, 200-dən çox elmi məqalənin müəllifidir. Keçmiş Ümumittifaq Rentgenologiya və Radiologiya Cəmiyyətinin üzvü, "Medisinskaya radiologiya" (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. "Şərəf nişanı" ordeni, Azərb. Respublikasının "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Ümumi rentgenologiya, B., 1976; Tibbi radiologiya, B., 1983; Лучевая диагностика, Б., 2000.

**BALLIQAYĞANAQ** – yemək növü. Naxçıvan bölgəsində geniş yayılmışdır. B. hazırlamaq üçün lazımi sayda yumurta ayrıca qabda köpüklənənə qədər çalınıb, nazik şırnaqla asta-asta dağ olmuş yağa tökülür və oxlovla qarışdırılır. Qayğanaq hazır olandan sonra üstünə bal hopdurulur. B. doğranmış halda şirniyyat kimi yeyilir. Əsasən, sərin ay-

larda və qışda istifadə olunur. B. yüksək qidalılığa və kaloriyə malik ləziz yeməkdir.

**BASFURCAN**, B a s f u r a c a n – 9–13 əsrlər ərəb mənbələrində (əl-Bəlazuri, Yaqut Həməvi və b.) Sasanilər dövlətinin tərkibində Naxçıvan bölgəsinin də daxil edildiyi tarixi vilayətin ərəbləşdirilmiş adı (bax *Vaspurakan*).

**BASOROPEDA** – Atropatena dövlətinin tərkibində Naxçıvan bölgəsinin də daxil edildiyi *Vaspurakan* tarixi vil.-nin antik mənbələrdə adı.

**BAŞ DİZƏ** – Ordubad r-nunda kənd. Aza bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 25 *km* q.-də, Arazın sol sahilindədir. Əh. 458 nəfər (2000); bağçılıq, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var. Ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü qoç daş heykəllər olmuşdur.

**BAŞ NORAŞEN** – Şərur r-nundakı *Cəlilkənd* k.-nin 1961 ilədək adı. Şərur–Dərələyəz qəzasının (1870) mərkəzi olmuşdur. C.Məmmədquluzadə 2 il 3 ay (1887 il 13 oktyabr – 1890 il 13 yanvar) B. N.-də müəllimlik etmiş, "Çay dəstgahı"alleqorik pyesini burada yazmışdır.

**BAŞBAŞI** – Naxçıvan şəhər bələdiyyəsində qəsəbə. Naxçıvan ş.-ndən 12 *km* c.-q.-də, Araz çayı sahilindədir. Bakı–Naxçıvan d.-y. xəttində st. Uluxanlı (indiki Ermənistan) – Culfa d.-y. xətti çəkilərkən (1908) yaradılmışdır. Daimi əhalisi yoxdur. Naxçıvan duz mədənindən çıxarılan duz kanat yolu vasitəsilə B. st.-na gətirilirdi. Hazırda st.-dan qatarların görüş məntəqəsi kimi istifadə olunur. Dayanacaq vardır. Qəsəbə 3,2 *ha* torpaq sahəsini əhatə edir (2000).

Batabat gölü



**BAŞKƏND** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sol qolu. 2400 *m* hünd.-dən başlanır, Uz. 14 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır; yağış sularının rolu azdır.

**BAŞKƏND MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisindədir; 2 bulaqdan ibarətdir: 1-ci bulaq Başkənd k.-ndən 1,5 *km* şm.-da, dəniz səviyyəsindən 2340 *m* hünd.-də, 2-ci bulaq isə Gilənarlıq dərəsində, dəniz səviyyəsindən 2010 *m* yüksəklikdə yerləşir. Hər ikisinin dadı eynidir, içmək üçün yararlıdır.

Balneoloji tərkibi:

$$CO_2\,1{,}3\,M_{2,0}\frac{HCO_3\,85\,SO_4\,11}{Ca49\,(Na+K)26\ Mg\,25}\cdot pH7{,}6\,D16\,m^3/gün\ T16^{\circ}C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı–kalsiumlu–natriumlu–maqneziumlu olub, "Narzan" tiplidir. Müalicə əhəmiyyəti var.

**BATABAT** – Şahbuz r-nu ərazisində şirin sulu göl. Naxçıvançayın hövzəsindədir. Sah. 16 *ha*. 1951–55 illərdə təbii gölün əsasında eyniadlı su anbarı (bax *Batabat su anbarı*) yaradılıb istifadəyə verilmişdir. Əsasən, Zorbulaq çayı, qismən isə qar, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur.

**BATABAT MİNERAL SU YATAĞI** – Şahbuz r-nu ərazisində, Naxçıvan ş.-ndən 65 *km* məsafədə, dəniz səviyyəsindən 2445 *m* hünd.-dədir. Dördüncü dövr lavalarından sızır. Sular lavaların altından andezit süxurlarının çatları vasitəsilə çıxdığından minerallarla zənginləşə bilmir. İçməlidir, dadı xoşagəlimdir. Bulaqdan çoxlu miqdarda karbon qazı ayrılır. Suyun temp-ru 8ºC-dir.

Balneoloji tərkibi:

$$CO_2\,0{,}7\,M_{1,3}\frac{SO_4\,65\,HCO_3\,30}{Ca39\,(Na+K)36\ Mg\,25}\cdot pH6{,}5\,D\,3{,}8\,m^3/gün\ T\,8^{\circ}C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, sulfatlı-hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumludur. Müalicə məqsədilə istifadə etmək olar.



**BATABAT NEKROPOLU** – Şahbuz r-nu ərazisində, Batabat yaylağında arxeoloji abidə. Bitki örtüyü ilə örtüldüyündən çətinliklə izlənilir. Sel sularının yuduğu qəbirlərdən bozumtul gilli küpə sınıqları və s. aşkar olunmuşdur. Analoji materiallar əsasında küpənin e. ə. 2–1 minilliklərə aid olması ehtimal edilir. Nekropolda orta əsrlərə aid qəbirüstü qoç daş heykəllər olmuşdur.

Batabat rəsədxanası



**BATABAT RƏSƏDXANASI**, A z ə r b. M i l l i E A Ş a m a x ı A s t r o f i z i k a R ə s ə d x a n a s ı n ı n (Ş A R) B a t a b a t b ö l m ə s i – Nax. MR ərazisində fəaliyyət göstərən elmi-tədqiqat müəssisəsi. 1970 ildə yaradılmışdır. Şahbuz r-nunun Biçənək k. yaxınlığında, dəniz səviyyəsindən 2050 *m* hünd.-də yerləşir. Dünya rəsədxanaları arasında şəffaf səması, günəşli günlərin sayının çoxluğu ilə tanınır. Coğrafi en dairəsinin nisbətən kiçik (təqr. 39,5º) olması Günəşin cənub səmasının bir çox başqa rəsədxanalardan görünməyən hissəsini müşahidə etməyə imkan verir. B. r.-nda 60 *sm*-lik ulduz teleskopu, Günəş koronoqrafı, 20 *sm*-lik teleskop fəaliyyət göstərir. 17 əməkdaşı var (2000). Rəsədxananın fəaliyyəti dövründə onun əməkdaşlarının 100-dən artıq elmi işi dünyanın, keçmiş SSRİ-nin və Azərb. Respublikasının elmi jurnallarında dərc edilmişdir. Burada 2 elmlər doktoru və 6 elmlər namizədi yetişmişdir. Əsas tədqiqatlar Günəş fizikasına, Günəş sistemindəki kiçik cisimlərin dinamik və fiziki xüsusiyyətlərinə həsr olunmuşdur.

**BATABAT SU ANBARI**, B a t a b a t s u – Şahbuz r-nu ərazisində, Naxçıvançayın hövzəsindədir. Eyniadlı üç su anbarından ibarətdir: Batabat-1 (hövzəsinin sah. 0,18 *km²*), Batabat-2 (hövzəsinin sah. 0,7 *km²*) və Batabat-3 (hövzəsinin sah. 0,18 *km²*). Ümumi sututumu təqr. 3 mln. *m³*-dir. Suyunu, əsasən, Zorbulaq çayından, qismən də qar sularından alır. Babək r-nu ərazisindəki torpaqları suvarmaq məqsədilə yayda suyu Naxçıvançaya axıdılır. Mövsümi tənzimləməyə malikdir. Ətrafı yaylaq və istirahət yeridir.

**BATABAT YAYLAĞI** – Nax. MR ərazisində, Kiçik Qafqaz dağlarında yaylaq yeri. Əsasən, dağ-çöl və dağ-çəmən landşaftı inkişaf etmişdir. Yay otlağı kimi istifadə olunur. Təbiətin gözəl guşələrindən biri olan B. y. gülçiçəkli çəmənlikləri, süni gölü, saf və təmiz dağ havası, təbii meşələri, Zorbulaq, Südlübulaq kimi şirin suları və "Narzan" tipli Batabat mineral suları ilə məşhurdur. B. y.-nin iqlimi ciyər, ürək, əsəb və s. xəstəliklərin müalicəsi üçün çox münasibdir. Gəmiqaya ilə qonşuluqda yerləşən B. y. ərazisində arxeoloji axtarışlar zamanı aşkara çıxarılmış əmək alətləri və s. maddi mədəniyyət nümunələri Naxçıvanın ən qədim zamanlardan ibtidai insanların yaşadığı ərazilərdən biri olduğunu göstərir. B. y.-nda aparılan tədqiqatlar nəticəsində Mustye mədəniyyətinə, Tunc, İlk Dəmir dövrlərinə, orta əsrlərə aid abidələr, nekropollar, yaşayış məskənləri, qalalar, ibadətgahlar, qayaüstü rəsmlər, qoç daş heykəllər və s. aşkara çıxarılmışdır.

**BATUM KONFRANSI (1918)** – Osmanlı Türkiyəsinin və Cənubi Qafqaz seymi nümayəndələrinin iştirakı ilə 1918 il mayın

Batabat yaylağı



11-dən iyunun 4-dək Batumda (Batumidə) keçirilmişdir. Cənubi Qafqaz nümayəndə heyətinə hökumətin sədri və xarici işlər naziri M. Çxenkeli başçılıq edirdi; nümayəndə heyətinə Azərb. tərəfdən M. Ə. Rəsulzadə və M. H. Hacınski daxil idilər. Türkiyə nümayəndə heyətinə ədliyyə naziri Xəlil paşa, hərbi nazir Ənvər paşa və Qafqaz cəbhəsi komandanı Vəhib paşa başçılıq edirdilər. B. k.-da müşahidəçi kimi Almaniya nümayəndələri (general Otto Fon Lossolun başçılığı ilə) də iştirak etmişdir. B. k.-nda Cənubi Qafqaz seyminin nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin (1918) şərtlərini təsdiqləyərək, Türkiyənin Qars, Ərdəhan və Batum vil.-ləri üzərində qəyyumluğunu təsdiq etsə də, Türkiyə əlavə olaraq Axalsıx, Axalkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzalarının da onun himayəsinə keçməsini, həmçinin getdikcə artan erməni təhlükəsi ilə əlaqədar Batum–Bakı və Aleksandropol-Culfa dəmir yolunun türk qoşunlarının sərəncamına verilməsini tələb etmişdi. Bütövlükdə, B. k. Tiflis quberniyasının Axalkələk və Axalsıx qəzalarını, Batum və Qars vil.-lərini, İrəvan quberniyasının, əsasən müsəlmanların məskunlaşdığı, 1 250 min nəfər əhalisi olan Sürməli qəzasını özünə birləşdirən Türkiyənin xeyrinə başa çatdı. B. k. gedişində almanlar 3 min nəfərlik qoşunla Poti limanını ələ keçirmiş, türk qoşunları isə mayın 17-də Aleksandropolu tutmuş və Culfa istiqamətinə çıxmışdılar. Cənubi Qafqaz seymi nümayəndə heyəti arasında Almaniya və Türkiyəyə münasibətdə mövqe ixtilafları və Cənubi Qafqaz seyminin süquta uğraması şəraitində Türkiyə ilə sonrakı danışıqlar Gürcüstan, Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən ayrı-ayrılıqda aparılmışdır. Bax *Batum müqaviləsi (1918)*.

Əd.: Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixindən, B., 1992; yenə onun, Azərbaycan Cümhuriyyəti (1918–1920), B., 1998.

**BATUM MÜQAVİLƏSİ (1918)** – iyunun 4-də Osmanlı imperatorluğu ilə Azərb. Xalq Cümhuriyyəti (AXC) arasında imzalanmış dostluq müqaviləsi; müqaviləni Osmanlı hökuməti tərəfindən ədliyyə naziri Xəlil paşa və Qafqaz cəbhəsinin komandanı Vəhib paşa, AXC tərəfindən isə Azərb. Milli Şurasının sədri M. Ə. Rəsulzadə və xarici işlər naziri M.H. Hacınski imzalamışdılar. 11 maddədən ibarət B m. AXC-nin xarici dövlətlə bağladığı ilk müqavilə idi. 1–3-cü maddələr Osmanlı imperiyası ilə AXC arasında daimi sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edir. Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında dövlət sərhədinin müəyyənləşdirilməsini, həm də Azərb.-la Türkiyə arasında geniş sərhəd zolağı olmasını nəzərdə tuturdu. AXC üçün ən əhəmiyyətli olan 4-cü maddədə Osmanlı hökuməti, zərurət olarsa, sülh və əmin-amanlığı möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək məqsədilə Azərb.-a hərbi yardım göstərməyi öz üzərinə götürürdü. Bunun müqabilində 5-ci maddədə Azərb. hökuməti respublikanın sərhədboyu ərazilərində quldur dəstələrini tərksilah etmək və qovmaq barədə öhdəlik qəbul edirdi. B. m.-nin sonrakı maddələrində tərəflərin dəmir yolu yüklərinin daşınması üzrə öhdəlikləri, konsulluqlar konvensiyası, ticarət müqaviləsi və digər aktların hazırlanması, sərbəst gediş-gəliş, poçt-teleqraf əlaqələri və s. barədə razılaşmalar və onların bir ay ərzində ratifikasiya olunmuş mətnlərinin İstanbulda mübadiləsi nəzərdə tutulurdu. AXC-nin beynəlxalq nüfuzunun və hərbi qüdrətinin artmasında, ərazisinin şərq hissəsinin erməni-bolşevik guruhunun işğalından azad edilməsində, ərazi bütövlüyünün qorunmasında B. m.-nin misilsiz əhəmiyyəti olmuşdur.

Əd.: Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixindən, B., 1992; yenə onun, Azərbaycan Cümhuriyyəti (1918–1920), B., 1998.

**BAYRAMOV** Hüseyn Abbas oğlu (1916, Naxçıvan ş. – 4. 11. 1982, Bakı) – dilçi. Filologiya elmləri doktoru (1970), prof. (1970). Naxçıvan Pedaqoji Texnikumunu (1935) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1948) bitirmişdir. Azərb. EA Nizami ad. Ədəbiyyat və Dil İn-tunda baş elmi işçi, Azərb. Pedaqoji Dillər İn-tunun (indiki Dillər Un-ti) Azərb. dilçiliyi kafedrasında dosent, prof. və kafedra müdiri (1960–82) işləmişdir. Müasir Azərb. dilinin sintaksisinə və frazeologiyasına dair tədqiqatların müəllifidir.

Əsərləri: Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr, B., 1960; Azərbaycan dili frazeologiyasının əsasları, B., 1978.



**BAYSAL** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 1910 *m*.

**BEHRUD** – Ordubad r-nunda kənd. Biləv bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 36 *km* şm. q.-də, Ordubad–Bist avtomobil yolunun kənarında, Gilançayın sol sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 472 nəfər (2000); bağçılıq, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**BEHRUD KÖRPÜSÜ** – Ordubad r-nu ərazisində, Behrud k.-nin yaxınlığında qədim memarlıq abidəsi. Gilançay üzərindədir. Üç aşırımlıdır. Uz. 10 paqonometr. 17 əsrin sonu – 18 əsrin əvvəllərində tikildiyi ehtimal edilir. B. k. inşaat texnikasının müstəsnalığını, memarlıq simasını saxlamışdır. Körpü 1996 ildə yenidən qurulmuş, Ordubad r-nunun Parağa–Tivi–Nəsirvaz k.-ləri arasında əlaqələr bərpa olunmuşdur.

**BEHRUDİ** Rüstəm – şair, publisist. Bax *Rüstəm Behrudi*.

**BƏDƏŞXAN** – Babək r-nunda kənd. Hacıvar bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 6 *km* şm.-da, Naxçıvançayın sol sahilində, Naxçıvan düzündədir. Əh. 272 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏHRƏMOV** Nadir Rəhim oğlu (d.15.3. 1929, Naxçıvan ş.) – tarixçi. Tarix elmləri doktoru (1979), prof. (1980). Naxçıvan Müəllimlər İn-tunu qurtardıqdan (1947) sonra Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş, ikinci kursdan M. V. Lomonosov ad. MDU-ya köçürülmüş, 1952 ildə həmin un-ti, 1953 ildə isə Moskvada ictimai elmlər üzrə müəllimlər hazırlayan kursları bitirmişdir. Azərb. Sənaye İn-tunda (indiki Neft Akademiyası) müəllim, baş müəllim, dosent və xarici tələbələrlə iş üzrə dekan müavini olmuşdur. 1965 ildən Azərb. Texniki Un-tinin (keçmiş Politexnik İn-tu) fəlsəfə və politologiya kafedrasında çalışır. Azərb. neft sənayesinin tarixinə və inkişaf perspektivlərinə, texniki tərəqqiyə, Azərb. alim və mütəxəssislərinin keçmiş SSRİ-nin müxtəlif bölgələrində neftin kəşf edilməsində xidmətlərinə dair tədqiqatların, o cümlədən 6 kitab və elmi-metodik əsərin müəllifidir.

**BƏHRUZ** Kəngərli (1892-1922) — rəssam, boyakar və qrafik. Bax *Kəngərli* Bəhruz (Şamil) Şirəlibəy oğlu.

**BƏKMƏZ**, bəhməz – bax *Doşab*.

**BƏKTAŞ ARXI** – 17–18 əsrlərdə Naxçıvanda mövcud olmuş arx. Çox ehtimal ki, türklərin (Osmanlıların) Naxçıvanda ağalığı dövründə çəkilmiş və "Bəktaşiyyə" dərviş ordeni üzvlərinə məxsus olmuşdur. Belə ki, Konyada da (Türkiyə) su təsərrüfatı Bəktaşi şeyxinin ixtiyarında idi.


Bəhrəmov Nadir

**BƏKTAŞİ** İnayət Heydər oğlu (25.3.1931, Naxçıvan ş. – 9.9.1989, Bakı) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1979), prof. (1980). Naxçıvan Müəllimlər İn-tunun dil-ədəbiyyat şöbəsini (1954), Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1959) və aspiranturasını (1963) bitirmişdir. BDU-nun Azərb. ədəbiyyatı tarixi kafedrasının baş müəllimi (1961–65), dosenti (1965–80) olmuşdur. 1980 ildən həmin kafedranın prof. idi. 20 əsr Azərb. ədəbiyyatına, A. Divanbəyoğlu, F. Köçərli və b.-nın həyat və yaradıcılığına dair tədqiqatların, dərs vəsaitinin və ədəbi-tənqidi məqalələrin müəllifidir. 1973–76 illərdə Türkiyə Respublikasında müəllim-tərcüməçi işləmişdir. Respublika, keçmiş ümumittifaq və beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Avtomobil qəzasında həlak olmuşdur.

Əsərləri: Abdulla bəy Divanbəyoğlu, B., 1985; Firidunbəy Köçərlinin yaradıcılıq yolu, B., 1986.


Bəktaşi İnayət

**BƏKTAŞİ** Məmməd Cabbar oğlu (29.3.1917, Naxçıvan ş. – 23.2.1993, orada) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1965). Naxçıvan Pedaqoji Texnikumunu (1934) və Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU) bitirmişdir (1940). Böyük Vətən müharibəsində (1941–45) iştirak etmişdir. Uzun müddət orta məktəblərdə ədəbiyyat müəllimi, dərs hissə müdiri, Nax. MR Maarif Nazirliyi sistemində inspektor, nazir müavini, Nax. MR maarif naziri işləmiş (1946—60). "Şərq qapısı" qəzetinin redaktoru (1961—74), muxtar respublika maarif nazirliyinin müəllimləri təkmilləşdirmə institutunun direktoru (1974-85) olmuşdur. 1985 ildən fərdi təqaüdçü idi. Orden və medallarla təltif olunmuşdur.


Bəktaşi Məmməd

Bəktaşi Sübhi


**BƏKTAŞİ** Sübhi Əli oğlu (d. 29.3.1929, Naxçıvan ş.) – geoloq. Geologiya-mineralogiya

elmləri doktoru (1970), prof. (1972). Azərb. Respublikasının əməkdar elm xadimi (1999). Azərb. Dövlət Un-tinin (indiki BDU) geologiya-coğrafiya fakültəsini geologiya ixtisası üzrə bitirmişdir (1951). Azərb. Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi sədrinin müavini – baş geoloqu (1976–82), BDU-da özünün təşəbbüsü ilə yaradılmış Kristallo-qrafiya, mineralogiya və geokimya kafedrasının müdiri (1974–77; 1982–88) olmuşdur. 1989 ildən həmin kafedranın prof. və Azərb. Respublikası Faydalı Qazıntılar Muzeyinin elmi rəhbəridir (1997 ildən). Petrologiya, metallogeniya, geokimya və kosmokimya sahələrində tədqiqatların, 160 elmi əsərin, o cümlədən 20 monoqrafiya, dərslik, dərs vəsaiti və elmi-kütləvi əsərlərin müəllifidir. Azərb-ın, Qafqazın, Krımın 1:500.000 miqyaslı metallogenik xəritələrinin redaktorlarındandır. Bir sıra keçmiş ümumittifaq və beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Asiya, Afrika və Latın Amerikası ölkələri üçün elmi kadrlar hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Geokimya, B., 1972; Nadir element yataqlarının geologiyası (M. Zahiri ilə birgə), B., 1974; Metallogeniya (S. Süleymanovla birgə), B., 1975; Yerin odlu qurşaqları, B., 1988.

Bəktaşi Tofiq



**BƏKTAŞİ** Tofiq Heydər oğlu (17.5.1912, Naxçıvan ş. – 5. 1.1995, Bakı) — riyaziyyatçı. Fizika-riyaziyyat elmləri doktoru (1980), prof. (1980). Nax. MR-in əməkdar müəllimi (1945). Naxçıvan Pedaqoji Texnikumunu (1929) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini (1933) bitirmişdir. Naxçıvan şəhər orta məktəblərində, ikiillik müəllimlər in-tunda dərs demiş (1933–54), M. V. Lomonosov ad. MDU-nun ali məktəb müəllimlərinin ixtisasını təkmilləşdirmə kurslarının dinləyicisi (1952–53), Azərb. Dövlət Un-tinin (indiki BDU) nəzəri mexanika kafedrasının baş müəllimi (1954–62), dosenti (1962–80) olmuşdur. 1980 ildən həmin kafedranın prof. idi. Diferensial tənliklər sisteminə, zərbə nəzəriyyəsinə, nəzəri mexanikaya dair tədqiqatların, elmi-metodik və tədris metodikası məsələlərinə dair əsərlərin, o cümlədən iki dərsliyin, bir neçə dərs vəsaitinin müəllifidir.

Ə s ə r l ə r i: Zərbə nəzəriyyəsi, B., 1981; Nəzəri mexanika, B., 1981; Основной курс теоретической механики Б., 1999.

**BƏNƏNYAR** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 25 *km* şm.-da . Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əhalisi 3069 nəfər (2000); üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi, yaxınlığında orta əsrlərə aid qəbiristan var.

**BƏNƏNYAR QƏBİRİSTANI** – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında, Əlincəçayın sağ sahilində orta əsrlərə aid abidə. 1976 ildə qeydə alınmışdır. Nekropol düzbucaqlı formalı, q.-dən ş.-ə doğru istiqamətlənmiş torpaq qəbirlərdən ibarətdir. Ərazisində qırmızı tufdan orta əsrlərə aid qoç formalı baş daşlarına təsadüf edilmişdir; üst hissəsində ərəbdilli yazılar var. Qəbiristanlıq e. ə. 13–14 əsrlərə aid edilir.

**BƏNƏNYAR SU ANBARI** — Culfa r-nunda, Bənənyar k. yaxınlığındadır. 1987 ildə istifadəyə verilmişdir. Faydalı həcmi 13 mln. $m^3$. Su anbarının hesabına 6 min *ha* sahə əkin dövriyyəsinə daxil edilmişdir. Mövsümi tənzimləməyə malikdir.

**BƏRDİK** — Culfa r-nu ərazisində dağ. Əlincəçayın sol sahilindədir. Hünd. 2053 *m*. Alt Pliosen maqmatizminin əmələ gətirdiyi intruziv kütlədir. Müasir relyefdə sıldırım yamaclı plato əmələ gətirir.

**BƏRGÜŞADLILAR** – türk tayfası. Kəngər tayfasından *(bax Kəngərlər)* olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində Bərgüşadlı nəslinin də adı çəkilir.

**BƏYDİLİ MƏHƏLLƏSİ** – Şərur r-nunun Qarabağlar k.-ndə məhəllə. Qədim türk-oğuz tayfalarından olan *bəydililərin* adı ilə əlaqədardır.

**BƏYDİLİLƏR** – türk tayfası. Oğuz tayfalarından idilər. Orta əsrlərdə digər türk tayfaları ilə birlikdə Orta Asiyadan Azərb.-a və Yaxın Şərq ölkələrinə də gəlmişdilər. Azərb.-da qalan B. öz adlarını olduğu kimi saxlamışdılar. Səfəvilər dövlətinin ictimai-siyasi həyatında fəal iştirak etmişlər. I Şah Abbas [1587–1629] dövründə B.-in bir hissəsi Kirmana və Şiraza (İran) köçürülmüşdü. Hazırda B., əsasən, Cənubi Azərb.-da, həmçinin Şiraz ətrafında, qismən də Kirmanda yaşayırlar; maldarlıq və əkinçiliklə məşğul olurlar. Azərb. Respublikasının Yevlax və Salyan r-nlarındakı Bəydili kəndlərinin adı B.-lə əlaqədardır. Bəzi tədqiqatçılar (İ. Şopen və b.) bu tayfanı kəngərli (bax *Kəngərlər*) tayfasının bir qolu saymışlar. Şərur r-nunun Qarabağlar k.-ndə B.-in yaşadıqları məhəllə var.



**BƏYƏHMƏD** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 64 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 252 nəfər (2000). Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**BƏYƏHMƏD I** – Culfa r-nunun Bəyəhməd k.-ndən şm.-q.-də, Dərəçayın sol sahilində, ilk Dəmir dövrünə aid yaşayış yeri. Abidə dağ silsiləsinin çaya enən yamacındadır. Sah. 1500 $m^2$. 1991 ildə qeydə alınmışdır. Abidənin yerləşdiyi ərazidən əkin sahəsi kimi istifadə edildiyindən yerüstü materiallar və mədəni təbəqə dağılmışdır. Yerin səthində gil qab qırıqlarına, çəhrayı və boz rəngli tuf daşından hazırlanmış dən daşlarına təsadüf edilmişdir. Bəzi qab qırıqlarının üzərinə qara boya çəkilərək yüngülcə cilalanmışdır. Tapıntılar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Abidənin e. ə. 1-ci minilliyin 1-ci yarısına aid olması ehtimal edilir.

**BƏYƏHMƏD II** – Culfa r-nunun Bəyəhməd k.-ndən c.-q.-də, Dərəçayın sağ sahilində erkən orta əsrlərə aid yaşayış yeri. Şm.-da və ş.- də dağ silsiləsi, şm.-q. və c.-q.-də dərin dərələrlə əhatə olunmuşdur. 1991 ildə qeydə alınmışdır. Sah. 1300 $m^2$. Abidənin c.-q. tərəfi tikinti qalıqları (binalar daşdan inşa edilmişdir) ilə örtülmüşdür. Bəzi binaların yerində dördkünc formalı çalalar saxlanmışdır. Buradan ağ daşdan yonulmuş, ortasında diametri 10 *sm* olan deşik açılmış dəyirman daşının qırıqları, çəhrayı və boz rəngli gil məmulatı əldə olunmuşdur. Yaşayış yerinin şm. hissəsində müasir müsəlman qəbiristanı yerləşir. Qəbiristandan bir qədər aralı yol çəkilərkən yaşayış yeri kəsilmiş, mədəni təbəqə (qalınlığı 0,5–1,5 *m*) dağılmışdır. Təbəqə tünd rəngdə olub, tikinti qalıqları, heyvan sümükləri və gil qab ( çəhrayı və boz rəngli küpə, kasa, çıraq tipli qablar) qırıqlarından ibarətdir. Orta əsrlərdə yaşayış yeri şm.-ş.-ə doğru genişlənmiş, indiki Bəyəhməd k.-nin ərazisini əhatə etmişdir. Abidənin 3– 9 əsrlərə aid olması ehtimal edilir.

**BƏYƏHMƏD III** – Culfa r-nunun Bəyəhməd k.-ndən şm.-ş.-də, hündür təpənin yamacında orta əsrlərə aid yaşayış yeri. Nekropol şm.-ş.-də hündür dağlarla, cənubda isə torpaq yolla məhdudlaşır. Sah. 1600 $m^2$. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbirlərin bir qismi torpağın aşınması nəticəsində dağılmış, əksəriyyətinin baş daşları düşmüş, sinə daşları isə çürümüşdür. Qəbirlər qiblə istiqamətindədir. Qəbirüstü daşlar kobud hazırlanaraq, əsasən, yastı olub, dördkünc formadadır. Bəzi sinə daşlarının üzərində ucları haçalanmış xətlərə təsadüf edilmiş, bəzisinin üzərində isə baş daşlarını keçirmək üçün dördkünc deşik açılmışdır. Nekropolun təqribən 14–17 əsrlərə aid olması ehtimal edilir.

**BƏYƏHMƏD AŞIRIMI** – Culfa r-nu ərazisində, Gilançayın Bəyəhmədərəsi çayının suayrıcında aşırım. Zəngəzur silsiləsinin c.-q. yamacında, Bəyəhməd k.-ndən 2,5 *km* ş.-dədir. Hünd. 2486 *m*.

**BƏYƏHMƏD NEKROPOLU I** – Culfa r-nunun Bəyəhməd k.-ndən c.-q.-də Dərəçayın




*Bəyəhməd nekropolunun tapıntıları*
*1, 3, 4, 8. Dopu tipli boz rəngli gil qablar; 2, 5. Badya tipli gil qablar; 6. Parç tipli gil qab; 7. Kasa tipli gil qab; 9, 13, 15. Asma bəzək nümunələri; 10, 12, 14. Tunc bəzək nümunələri.*



Bəyəhməd nekropolundan aşkar olunmuş tunc xəncər.

hər iki sahilində arxeoloji abidə. Hər tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Sah. 5000 $m^2$. Tikinti işləri görülərkən aşkar edilmişdir (1989). Dağılmış qəbir abidələrindən arxeoloji materialların bir qismi toplanmışdır. 1991 ildə arxeoloji ekspedisiya B. n.-da iki dağılmış və iki salamat qəbir abidəsini öyrənmiş, tapıntıların bir qismini də yerli əhalidən toplayıb Culfa r-n tarix-diyarşünaslıq muzeyinə təhvil vermişdir. Daş qutu qəbirlərdən xeyli bəzək əşyası, tunc xəncərlər, yabalar, zəncir, nizə ucluğu və s. materiallar aşkar olunmuşdur. Kəşfiyyat işləri nəticəsində qəbirlərin heç bir yerüstü əlamətə malik olmadığı qeyd edilmişdir. Qazıntı sahəsinin 1 *m* dərinliyindən başlayaraq insan skeleti qalıqlarına, qəbirin q. divarı yaxınlığında q.-ş. istiqamətində yönəldilmiş, təpəsi aşağı, üzü yuxarı olan iki kəllə sümüyünə təsadüf edilmiş, altından tunc xəncərlər tapılmışdır, üçüncü kəllə onlardan 20 *sm* aralıda dikinə qoyulmuşdur, dördüncü kəllə c. divarı yaxınlığında aşkar olunmuş, altından tunc qın tapılmışdır. Skeletlərin ətrafından bəzək şeyləri (bilərziklər, boyunbağılar, üzüklər, asmalar, muncuqlar və s.), qəbirdən isə boz rəngli gil məmulatı (küp, qədəh tipli qablar, kasa, nimçə, badya və s.) əldə olunmuşdur. Tapıntılardan B. n.-nun e. ə. 1-ci minilliyin əvvəllərinə aid olması ehtimal edilir.

*Əd.:* Bax *Bəyəhməd nekropolu II* məqaləsinin ədəbiyyatına.

**BƏYƏHMƏD NEKROPOLU II** – Culfa r-nunun Bəyəhməd k.-ndən şm.-da ilk Dəmir dövrünə aid arxeoloji abidə. Ş. və c.-ş.-də dərin dərə ilə məhdudlaşan qəbiristanlıq hündür dağın yamacında yerləşir. Nekropol 1991 ildə tədqiq edilmişdir. Qəbirlər heç bir yerüstü əlamətə malik deyil. Yol çəkilərkən dağıdılmış daş qutu tipli qəbirdən iki tunc bilərzik, tunc bıçaq və gil qab nümunələri aşkar olunmuşdur. Arxeoloji materialların təhlili abidənin e.ə. 1-ci minilliyin əvvəllərinə aid olduğunu göstərir.

*Əd.:* Novruzlu Ə. I., Baxşəliyev V. B., Culfa bölgəsinin arxeoloji abidələri., B., 1999.

**BƏYƏHMƏD DƏRƏSİ**, Bəyəhməd su – Culfa r-nu ərazisində çay. Əlincəçayın sol qolu. Mənsəbindən 52 *km* məsafədə ona tökülür. Uz. 6 *km*, hövzəsinin sah. 7 $km^2$-dir. Əsasən, bulaq suları ilə qidalanır.

**BƏYLƏRBƏYİLİK** – Səfəvilər dövlətində ən böyük inzibati ərazi vahidi. Naxçıvan diyarının çox hissəsi Azərb.-a aid dörd B.-dən biri olan *Çuxursəd bəylərbəyiliyinə* daxil idi. Yalnız Ordubad Azərb. (Təbriz) bəylərbəyiliyinə tabe idi. Naxçıvan diyarı Çuxursəd bəylərbəyiliyinin tərkibində Qızılbaş tayfasından olan ustacluların idarəsinə verilərək, onların "ölkə"sinə çevrilmişdi.

**BƏZZAZLIQ** – Azərb.-da pambıq parça (bez, cecim və s.) toxuculuğu ilə bağlı ənənəvi sənət növü. Bez istehsalı əsas yer tutduğundan belə adlanmışdır. "Naxçıvan əyalətinin statistik təsviri" (SPb, 1833) əsərindən məlum olur ki, 19 əsrin 30-cu illərində Naxçıvan və Ordubadda 271 nəfər toxucu işləyirdi; bunların da çoxu bəzzazlardan ibarət idi. Bax həmçinin *Culfaçılıq*.

**BƏZƏKLİDAĞ** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-ş. qurtaracağında, Çalxanqala (keçmiş Əznəbürt) k.-ndən 3 *km* c.-ş.-dədir. Hünd. 1878 *m*. Günbəzvarı formadadır.

**BƏZİRXANA** – Sədərəyin şm.-q.-ndə, Köhnə Kərki k. yaxınlığında orta əsrlərə aid karxana yeri. 1960 illərdə burada yerin altından nəhəng zəyərək daşı tapılmışdır. Mütəxəssislərin fikrincə, 12 əsrə aid edilən, diametri 3 *m*-dən artıq olan və dəyirman daşı formasında hazırlanmış həmin daşdan B.-da müxtəlif bitkilərin, xüsusilə zəyərəyin yağını çıxarmaq üçün istifadə edilmişdir. Bu məqsədlə B. daşı, yaxud zəyərək daşı adlanan həmin daş qoşqu heyvanı vasitəsilə hərəkətə gətirilirdi.

**BİBQƏTƏL** – Ordubad r-nu ərazisində dağ. Bax *Sırtmışan*.

**BİBQƏTƏL PİRİ** – Ordubad r-nunda, *Gəmiqaya rəsmləri* ərazisində qədim ziyarətgah. Gəmiqayanın c. yamacında, əzəmətli qayalıqdakı mağarada yerləşir. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Gəmiqaya yaylaqlarının ərazisi getdikcə müqəddəsləşmiş, burada təbii etiqad və sitayiş məbədləri meydana gəlmişdir. İlin, həyatın təzələnməsi münasibətilə B. p.-nə gələnlər məhsuldarlığın, nəslin artması diləyi ilə dini ayinlər icra etmiş, qurbanlar kəsmişlər. Gəmiqaya rəsmləri arasında aşkar olunmuş bir sıra qayaüstü təsvirlər və piktoqramlar buna misaldır.



**BİÇƏNƏK** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 24 *km* şm.-ş.-də, Yevlax–Laçın–Naxçıvan avtomobil yolunun kənarında, Naxçıvançayın hər iki sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 1107 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, kinoqurğu, ambulatoriya, rabitə şöbəsi, yaxınlığında mineral su bulaqları var. Yaxınlığında (ş.-ndə) qədim *Fərhad evi* və son orta əsrlərə aid *Xınzirək* yaşayış yeri yerləşir.

**BİÇƏNƏK AŞIRIMI** – Şahbuz r-nu ərazisində Zəngəzur silsiləsində aşırım. Dərələyəz və Zəngəzur sıra dağlarının qovşağındadır. Hünd. 2346 *m*. Yevlax–Laçın–Naxçıvan avtomobil yolu B. a.-ndan keçir. Ətrafı yaylaqdır. Tarixi qaynaqlara əsasən, B. a. qədim və orta əsrlərdə Naxçıvandan Beyləqana və oradan da Bərdəyə gedən yolun üstündə idi. 9 əsr ərəb tarixçilərinin (əl-Bəlazuri, əl-Yəqubi və b.) məlumatına görə, Azərb.-ın şm. hissəsinə hücum edən ərəb sərkərdəsi Salman ibn Rəbiə öz qoşununu Beyləqana B. a. ilə aparmışdı. Bu aşırım Naxçıvanla Arranı birləşdirən yeganə yol idi.

**BİÇƏNƏK MİNERAL SU BULAQLARI** – Şahbuz r-nu ərazisində, Biçənək k.-ndən 2 *km* aralı, meşəlik ərazidədir. Bir neçə xırda çıxışdan ibarətdir. Su Orta Eosenin qumdaşıları içərisindəki çatlardan çıxır.

Balneoloji tərkibi:

$$CO_2 0.7\, M_{4.1} \frac{HCO_3 85\, SO_4 20}{(Na+K)74\, Ca19} \cdot pH6.7\, D12.0\, m^3/gün\ T10°C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı–sulfatlı–natriumludur. Mədəbağırsaq xəstəliklərinin müalicəsində istifadə etmək olar.

**BİÇƏNƏKÇAY** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 69 *km* məsafədə ona tökülür. Uz. 7 *km*, hövzəsinin sah. 16 $km^2$-dir. Əsasən, qar və qrunt suları ilə qidalanır.

**BİKƏS** – şair (19 əsr). *"Əncüməni-şüəra"* ədəbi məclisinin fəal üzvü. Bax *Molla Hüseyn Bikəs*.

**BİLƏV** – Ordubad r-nunda kənd. Biləv bələdiyyəsinin mərkəzi. R-n mərkəzindən 35 *km* şm.-q.-də, Ordubad–Bist avtomobil yolunun



Biçənək kənd orta məktəbi. 2000 il.

üstündədir. Əh. 1188 nəfər (2000); bağçılıq, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, ATS var.

Gilançayın yuxarı axını boyunca yerləşən Biləv k. ərazisində Tunc və ilk Dəmir dövrlərinə aid maddi mədəniyyət qalıqları izlənmişdir. B. k.-ndə orta əsrlərə aid nekropol və Gilançay üzərində iki aşırımlı körpü də var.

**BİLƏV MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Biləv k.-ndən 1,5 *km* şm.-ş.-də, Uluçayın sol sahilindədir. Bir neçə çıxışdan ibarətdir.

Balneoloji tərkibi:

$$CO_2 1.5\, M_{2.0} \frac{HCO_3 75\, SO_4 14}{(Na+K)51\, Ca32} \cdot pH5.9\, D20.0\, m^3/gün\ T18.5°C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, natriumlu-kalsiumludur; soyuq sular tipinə aiddir. Müalicə əhəmiyyəti var.



Qəbirüstü daş qoç heykəlləri. 17 əsr. Biləv kəndi.



Biçənək aşırımı.

**BİLƏV NEKROPOLU** – Ordubad r-nunun eyniadlı kəndi yaxınlığında orta əsrlərə aid arxeoloji abidə. 1968 ildə aşkar olunmuşdur. Geniş bir ərazini əhatə edirdi. Nekropol düzbucaqlı formalı, q.-dən ş.-ə doğru istiqamətlənmiş torpaq qəbirlərdən ibarətdir. Baş və sinə daşları müxtəlifdir (yastı daş, sənduqə və qoç daş heykəllər), bəzilərinin üzərində ərəbdilli yazılar var. B. n. 14–16 əsrlərə aid edilir.

**BİLƏVÇAY** – Şərur r-nu ərazisində, Arpaçay hövzəsində müvəqqəti axarlı çay. Dərələyəz silsiləsinin c.-q. yamacından, 2175 *m* hünd.-dən başlanır. Uz. 10 *km*. Əsasən, yeraltı sular və yağış suları ilə qidalanır. *Şərur* düzündə torpağa hopараq itir.

**BİLƏVTƏPƏ** – Şərur r-nu ərazisində dağ. Biləvçayın orta axınında, onun sol sahilindədir. Hünd. 1631 *m*. Yaxınlığında (təqr. 750 *m* şm.-da) qədim Biləv k.-nin xarabalıqları qalmışdır.

**BİLİCİ** – türk tayfası. Kəngər tayfasının (bax *Kəngərlər*) qolu. Arazın c.-nda (Azadciranda) yaşayırdılar. İran şahzadəsi Abbas Mirzənin fərmanı ilə Məhəmməd bəy Kəngərli, kəcli və bilici qolları da daxil olmaqla, Kəngərli tayfasının ağsaqqalı və kəndxudası vəzifələrinə təyin edilmişdi (1813).

**"BİLİK" MAARİFÇİLİK CƏMİYYƏTİNİN NAXÇIVAN MR TƏŞKİLATI** – siyasi və elmi bilikləri yayan könüllü ictimai təşkilat. Azərb. SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin Naxçıvan müfəttişliyi adı ilə 1948 ildə yaradılmışdır. 1963–91 illərdə Azərb. SSR "Bilik" Cəmiyyətinin Naxçıvan Vilayət Təşkilatı adlanırdı. Təşkilatın r-n şöbələri fəaliyyət göstərir; təqr. 1500 üzvü var (2000).

**BİLLAVA** – Şərur r-nunda, Axura k.-nin c.-ş.-ndə, hər tərəfdən dağlarla əhatələnmiş dərədə son orta əsrlərə aid yaşayış yeri. Yaşayış yeri 20-ci əsrin ortalarınadək həyatın davam etdiyi eyniadlı kəndin *2 km*-liyində yerləşir. Yerüstü tədqiqatlar nəticəsində şirli gil qab parçaları əldə edilmişdir.

*Boyalı qablar mədəniyyəti tapıntıları:*
*1. Monoxrom boyalı kupə. Yaycı k.*
*2. Polixrom boyalı kupə. Şahtaxtı k.*
*3. Polixrom boyalı çaydan. Şahtaxtı k.*
*4. Monoxrom boyalı kupə. Yaycı k.*




**BİNƏDÜZ DAĞI** — Babək r-nu ərazisində dağ. Böyükdüz düzənliyinin c.-ş. hissəsindədir. Hünd. 883 *m*.

**BİST** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən şm.-q.-də, Ordubad–Nürgüt avtomobil yolunun kənarında, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 467 nəfər (2000); bağçılıq, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, xəstəxana, rabitə şöbəsi var.

**BİST MİNERAL SU BULAQLARI** — Ordubad r-nu ərazisində, eyniadlı k.-dən 350 *m* aralı, Ələhi çayının dərəsindədir. 2 çıxışdan ibarətdir.

Balneoloji tərkibi:

$$CO_2 1{,}1 M_{3,9} \frac{HCO_3 76\, SO_4 14}{Ca 61\, Mg 33} \cdot pH 5{,}6\ D\ 35\ m^3/gün\ T\ 18°C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-kalsiumlu-maqneziumludur. Digər karbon qazlı sular kimi, bəzi daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.

**BOYAQLIYER** – Şərur r-nunun Axura k.-ndən c.-q.-də, Axura çayının sol sahilində uzunsov təpələr üzərində antik dövrə aid yaşayış yeri. Uz. 1 *km*, eni 600 *m*-ə çatır. 3x3 *m* ölçüdə kəşfiyyat qazıntıları zamanı 13 ədəd müxtəlif növ saxsı məmulatı (əsasən, küp tipli qablar) aşkar edilmişdir. Qabların altısı boyalı qablara aid olub, dulus çarxında səliqəli şəkildə hazırlanmış və yaxşı bişirilmişdir. Tapıntılara əsasən, yaşayış yerinin 1–4-cü əsrlərə aid olduğu güman edilir.

**BOYALI QABLAR MƏDƏNİYYƏTİ** – boyalı rəsmlərlə bəzədilmiş gil qablarla xarakterizə olunan son Neolit və Eneolit dövrlərinə aid arxeoloji mədəniyyətlərin ümumi adı. Başqa ümumi əlamətləri (toxa əkinçiliyinin hökm sürməsi ilə yanaşı, maldarlıq, balıq ovu və ovçuluq, çaxmaqdaşıdan hazırlanmış əmək alətlərindən hələ geniş istifadə olunduğu vaxtda mis alətlərin meydana çıxması, evlərin möhrəpalçıqdan və çiy kərpicdən tikilməsi və s.) də var. B. q. m.-nə aid ən qədim yaşayış yerləri Misir və Mesopotamiyada olmuşdur. Yüksək sənətkarlıqla, bədii-estetik zövqlə hazırlanmış boyalı keramika nümunələri Naxçıvan şəhər mədəniyyəti üçün də səciyyəvidir. Azərb.-da B. q. m.-nin əsas ocaqları Nax. MR-dəki Şahtaxtı, Qızılburun, I Kültəpə, II Kültəpə, Plovtəpə, Kərki, Yaycı, Oğlanqala, Sədərək, Qazançı, Şortəpə və s. abidələrdən məlumdur.

*Əd.:* Əliyev V. H., Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977.

**BOZAĞIL** – Şərur r-nu ərazisində dağ. Bağırsaqdərə çayının sol yamacında, Sədərək düzünün c.-ş. kənarında, Dəmirçilər k.-ndən 7 *km* şm.-dadır. Hünd. 1182 *m*. Relyefdə şm.-a doğru alçalan günbəzvarı yüksəklik əmələ gətirir.

**BÖYÜK İPƏK YOLU** – beynəlxalq tarixi tranzit-ticarət yolu; e.ə. 2 əsrin sonlarından eramızın 16 əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Arxeoloji tədqiqatlar göstərir ki, ölkələr arasında iqtisadi əlaqələr və ticarət qədim zamanlardan başlanmış, zaman keçdikcə çox geniş əraziləri əhatə etmiş, böyük ictimai əmək bölgüləri – maldarlığın əkinçilikdən, sənətkarlığın əkinçilik və maldarlıqdan, ticarətin əkinçilik və sənətkarlıqdan ayrılması ilə müntəzəm əlaqələrə çevrilmişdir. Dövlətin və şəhərlərin yaranması bu əlaqələrin genişlənməsinə güclü təkan vermiş, iri şəhərlər bir qayda olaraq, ticarət yolları üzərində salınmışdır.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərb. qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur. Naxçıvanda, Xəzərin q. sahilləri boyu ərazilərdə, Qəbələ, Şamaxı, Mingəçevir və s. yerlərdə əldə olunmuş çoxlu arxeoloji tapıntılar sübut edir ki, indiki Azərb., eyni zamanda, Naxçıvan ərazisində yaşayan tayfalar hələ e. ə. 6–4-cü minilliklərdən Qafqazın qonşu vil.-ləri və Ön Asiya ölkələri ilə müxtəlif əlaqələr saxlamış, sonrakı dövrlərdə bir çox xarici ölkələrin beynəlxalq əlaqələrində vasitəçi rolu oynamışlar.

Qədim imperiyaların (Əhəmənilər, Makedoniyalı İskəndərin yaratdığı imperiya və s.) yaranması, geniş əraziləri və çoxsaylı xalqları tərkibində birləşdirməsi, daha sonra isə Şərq və Qərb mədəniyyətlərini birləşdirən Ellinizm mədəniyyətinin (e. ə. 4 əsrin sonu–1 əsrin 30-cu illəri) formalaşması ilə genişlənən iqtisadi və mədəni əlaqələr e. ə. 2 əsrin sonunda Ön Asiyanın çox qədim zamanlardan fəaliyyət göstərən ticarət yolları şəbəkəsilə Çindən keçən yolları da birləşdirərək B. İ. Y.-nu yaratdı. İlk vaxtlar bu yol o zamankı 4 imperiyanı [Roma, Parfiya, Kuşan, və Xan (Çin)], çoxlu dövlət və tayfaları birləşdirirdi. Daha sonrakı orta əsr imperiyaları (Sasanilər, Bizans, Ərəb xilafəti, Monqol, Səlcuq, Osmanlı imperiyaları) da B. İ. Y.-nun fəaliyyətində əhəmiyyətli rol oynadılar. Qədim yunan və Roma müəllifləri (Herodot, Strabon, Ptolemey, K. Elian və b.) Azərb. ərazisindən keçən tranzit-ticarət yolları haqqında maraqlı məlumatlar vermişlər.

Naxçıvan bölgəsi də ta qədim zamanlardan dünya ticarət yollarının qovşağında yerləşməklə Azərb.-ın başqa ərazilərindən keçən ticarət yolları şəbəkəsinə qoşulurdu. Orta əsrlərdə Naxçıvanda qədim ticarət yolları keçidlərində körpülər (*Aza körpüsü, Cuğa körpüsü*, Araz çayı üzərində *Xudafərin körpüləri* və s.) tikilmişdir. Naxçıvanda və Azərb.-ın müxtəlif bölgələrində arxeoloji qazıntılar, təsərrüfat tikililəri ilə əlaqədar görülən torpaq işləri zamanı ayrı-ayrı ölkələrdən gətirilmiş tapıntılar, o cümlədən qədim pullar (Makedoniyalı İskəndərin draxmaları və s.) aşkar olunmuşdur.

20 əsrin sonunda Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin B. İ. Y.-nun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün

*Xudafərin körpüləri. 11 və 15 aşırımlı. Orta əsr.*





Cuğa karvansarası, 13 əsr

dünyada, xüsusən də B. İ. Y. üstündə yerləşən ölkələrdə böyük maraqla qarşılandı. Bu məqsədlə 1998 ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – B. İ. Y.-nun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu.

*Əd.:* B a b a y e v İ., Böyük İpək Yolu və Azərbaycan, "İpək yolu" jurnalı, 1997, № 1-2; V ə l i x a n l ı N., Böyük İpək Yolu və orta əsr imperiyaları, "İpək yolu" jurnalı, 1998, № 4; Формирование и развитие трасс Великого шелкового пути в Центральной Азии в древности и средновековые. Тезисы докладов, Ташкент, 1990.

**BÖYÜK SÜRGÜN** – 1604–05 illərdə İran hökmdarı I Şah Abbasın [1587–1629] fərmanı ilə Naxçıvan əhalisinin zorla İranın mərkəzi r-nlarına köçürülməsi. Osmanlı ordusunun hücumunu (*bax Səfəvi-Osmanlı müharibələri*) dayandırmaq məqsədilə Səfəvilər ənənəvi "yandırılmış torpaq" taktikasını tətbiq etdi; "Arazın sol sahilini dağıtmaq və əhalisizləşdirmək, bütün azərb.-ları köçürmək, ərzaq və ələf, nə varsa götürüb, qalanını isə məhv edib yandırmaq" əmri verildi. Tarixdə "böyük sürgün" adı ilə məşhur olan bu köçürmə siyasəti nəticəsində geniş bir ərazi viran edildi. Naxçıvan əhalisi, başlıca olaraq, İranın Dizmar və Qaracadağ vilayətlərinə, Culfa əhalisi isə İsfahana və Mazandarana köçürüldü. Qızılbaşlar guya düşmənin əlinə keçməsin deyə yaşayış əşyalarını, əkin sahələrini yandırıb məhv edir, çeşmələri zəhərləyirdilər. Səfəvi tarixçisi İsgəndər bəy Münşi (1560/61–1634) "Tarix-i aləm arayi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərində yazırdı ki, fərman veriləndən bir neçə gün sonra şahın qərargahını yerləşdirməyə yer yox idi. Naxçıvan və ətrafındakı yaşayış məntəqələri dağıdılaraq viran qoyulmuş, Azərb. xalqının ictimai-iqtisadi inkişafına ağır zərbə vurulmuşdu. Köçürülmənin bir səbəbi də Səfəvi şahının İranın daxili vilayətlərinin məhsuldar qüvvələrini inkişaf etdirmək və dünya tranzit ticarətinin əsas yolunu Səfəvi dövlətinin c.-una köçürmək niyyəti idi.

Zəngəzur karvansarası 1312/29 il



*Əd.:* Bax *Səfəvi-Osmanlı müharibələri* məqaləsinin ədəbiyyatına.

**BÖYÜKDÜZ** – Babək r-nu ərazisində dağ. Böyükdüz düzənliyinin mərkəzində, Kor Osman tirəsinin suayrıcındadır. Hünd. 833 *m*.

**BÖYÜKDÜZ** – Babək r-nu ərazisində düz. *Arazboyu düzənliklərdən* biri. Şm.-dan c.-a doğru uz. 19–20 *km*-ə qədər, orta enliyi təqribən 10 *km*-dir. Yuxarı Dördüncü dövrün allüvial-prolüvial çöküntülərindən təşkil olunmuşdur. Səthi zəif parçalanmışdır. Torpaq örtüyü boz-ibtidai və boz torpaqlardan ibarətdir. Bitki örtüyündə şoran bitkiləri, öldürgən, dəvətikanı, yovşan üstünlük təşkil edir. Yarımsəhra landşaftına malikdir.

Tədqiqatçılar "Böyükdüz" toponiminin bu sözün müstəqim mənası (böyük, iri) ilə deyil, "Kitabi-Dədə Qorqud" eposunda dəfələrlə xatırlanan Bükdüz tayfası və onun başçısı Bükdüz Əmənin adı ilə bağlı olduğunu ehtimal edirlər. Bu düzün, əslində, qonşuluğundakı digər düzlərlə müqayisədə heç də böyük olmaması da həmin ehtimalı gücləndirir. Güman ki, zaman keçdikcə "Bükdüz" sözü xalq dilində müasir şəklinə düşmüşdür.

*Əd.:* B a b a y e v S. Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri, B., 1999.



**BÖYÜKDÜZ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 23 *km* şm.-q.-də düzənlikdədir. Əh. 1400 nəfər (2000); taxılçılıq, heyvandarlıq, yemçiliklə məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, ambulatoriya, yaxınlığında orta əsrlərə aid yaşayış yeri var.

**BÖYÜKDÜZ**, K ö h n ə B ö y ü k d ü z – Babək r-nunda son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Hazırda Araz su anbarının altında qalmışdır. 1973 ildə tədqiq edilmişdir. Buradakı uzunsov təpədən tikinti qalıqları aşkar olunmuşdur. Təpənin üzərinə müxtəlif formalı boz və qırmızı rəngli gil qab qırıqları səpələnmişdi. Mədəni təbəqə kül qarışıq gil laylarından ibarət idi; boz və qırmızı rəngli gil qab qırıqları, osteoloji qalıqlar, istehsalat tullantıları, həmçinin, çaxmaqdaşı və obsidian (dəvəgözü) qırıntıları, şüşə və dəmir məmulatı fraqmentləri aşkar olunmuşdur. Tapıntılar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Yaşayış yerinin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

**BÖYÜKDÜZ I** – Babək r-nunda, eyniadlı kəndin c.-nda, Araz çayının sol sahilində orta əsrlərə aid yaşayış yeri. 1991 ildə qeydə alınmışdır. Daşqınlar nəticəsində, demək olar ki, tamamilə yuyulub dağılmışdır. Tədqiqatlar zamanı burada 10 insan skeletinə təsadüf edilmişdir. Qəbirlər torpaqda qazıldığı üçün tamamilə yuyulmuş, skeletlər qumun üzərində qalmışdı. Onlar müsəlman adəti üzrə c.-ş. istiqamətində, sağ böyrü üstə uzadılmışdılar (ehtimal ki, bura yaşayış yerinin qəbiristanlığı olmuşdur). Orta əsrlər üçün səciyyəvi olan çəhrayı rəngli gil qab qırıqları və s. də aşkara çıxarılmışdır. Tapıntılara əsasən, yaşayış yerinin 11–18 əsrlərə aid olması güman edilir.

Böyükdüz



**BÖYÜKDÜZ II** – Babək r-nunda, Köhnə Böyükdüz k.-ndən q.-də, Böyükdüz çaylağının sağ tərəfində Antik dövr abidəsi. Yaşayış yeri, demək olar ki, yuyulub dağılmışdır. Kəşfiyyat işləri zamanı bad qırıqlarına, boz və çəhrayı rəngli gil qab sınıqlarına, şüşə qab parçalarına rast gəlinmişdir. Bə'zi yerlərdə dairəvi və dördkünc formada daş düzümləri qalmışdır.

**BÖYÜKDÜZ NEKROPOLU I** — Babək r-nunda, eyniadlı kənddən c.-ş.-də Antik dövrə aid arxeoloji abidə. Sah 320 $m^2$. 50-dən artıq sayda olan qəbirlər, əsasən, daş qutu tiplidir. Hamısı daşqın zamanı yuyulub üzə çıxmışdır. Qazıntılar zamanı qəbirlərin birindən insan skeletinin qalıqları aşkar edilmişdir. Dağıdılmış bir neçə qəbirin materiallarını 1972 ildə sərhəd gözətçi məntəqəsinin zabitləri toplamış və Naxçıvan Dövlət Tarix Muzeyinə vermişlər. Tapıntılar şüşə flakonlardan, boz və çəhrayı rəngli gil qablardan, dəmir qılınc, xəncər, bıçaq, ox ucluğu, at ləvazimatının qalıqlarından ibarətdir.

**BÖYÜKDÜZ NEKROPOLU II** – Babək r-nunda, I Böyükdüz yaşayış yerinin yaxınlığında, keçmiş sərhəd-gözətçi məntəqəsinin yerləşdiyi təpədə antik dövrə aid arxeoloji abidə. 1991 ildə qeydə alınmışdır. Qəbirlər əsasən, şm.-q. və şm.-c. istiqamətlərdə olub, baş və ayaqda bir, yanlarda isə iki iri sal daşla qurulmuşdur. Qəbiristanlıq Arazın lap yaxınlığında (5–6 *m*-liyində) yerləşdiyindən qəbirlərin çoxu daşqın zamanı yuyulub dağılmış, yalnız az bir qismi salamat qalmışdır. Qəbirlərin ikisi tədqiq edilmişdir. Onlardan insan skeletləri, kəllə sümükləri, dəmir xəncər, bıçaq, biz, çəhrayı rəngli gil qab qırıqları, tunc üzük, gildən hazırlanmış təkər modeli aşkar olunmuşdur.

Böyükdüz nekropolundan aşkar olunmuş maddi mədəniyyət nümunələri



**BULAQBAŞI** – Sədərək r-nundakı eyniadlı kəndin şm.-nda kəhriz. Sədərək əhalisi qədimdən bu içməli su mənbəyindən istifadə etmişdir. Sərhəd bölgəsində olduğundan erməni quldurları kəhrizi yararsız hala salırdılar. Kəhriz 1992 ildə onların atdığı top mərmilərindən dağıdılmışdı. 1997–98 illərdən

başlayaraq BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının xüsusi proqramının həyata keçirilməsi ilə əlaqədar B. kəhrizi əsaslı surətdə təmir və bərpa olunmuşdur. Sədərəyin müxtəlif məhəllələrini içməli su ilə təmin etmək məqsədilə 5 *km* uz.-nda yeni su kəməri çəkilmiş, nasos stansiyası qurulmuş, 10 ədəd bulaq-abidə tikilib istifadəyə verilmişdir.

**BULQAN** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Qaraçuq inzibati ərazi vahidi üzrə icra nümayəndəliyinin tərkibindədir. R-n mərkəzindən 11 *km* c.-q.-də, Arazın sahilindədir. Əh. 1097 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, musiqi məktəbi, uşaq bağçası, yaxınlığında qədim yaşayış yeri var.

**BULQAN** – Babək r-nunda, eyniadlı k.-in yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Dördkünc formalı tikinti qalıqlarının bir qismi saxlanmışdır; aşağısı çaydaşılarından, üst hissəsi isə çiy kərpicdən hörülmüşdür. Yerüstü materiallar müxtəlif dövrə aid olub, çəhrayı rəngdə bişirilmiş sadə və şirli qab qırıqlarından ibarətdir. Tapıntılar B. yaşayış yerini 12–18 əsrlərə aid etməyə imkan verir.

**BULQAN NEKROPOLU** – Babək r-nunda, eyniadlı kəndin yaxınlığında arxeoloji abidə. Burada sənduqə tipli bir neçə qəbirüstü abidəyə təsadüf edilmişdir. Qəbirlərin əksəriyyəti batmış, yerində dördkünc çalalar saxlanmışdır. Əksər qəbirlərin başdaşıları düşmüşdür. Onların bəziləri yuxarısı tağvarı formada tamamlanan başdaşılar olmuşdur. Tapıntıların 12–19 əsrlərə aid olduğu ehtimal edilir.

**BUZQOV** – Babək r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2470 *m*. Günbəzvarı formadadır. C. və c.-ş. yamacları sıldırımdır.

**BUZQOV** – Babək r-nunun Aşağı və Yuxarı Buzqov k.-ləri yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Sah. təqr. 3 *ha*. İlk dəfə Naxçıvan arxeoloji ekspedisiyası tədqiq etmişdir. 2 *m* qalınlığında olan mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir; burada xırda buynuzlu heyvan sümüklərinin qalıqlarına, müxtəlif formalı keramika məmulatı qırıqlarına təsadüf edilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində yaşayış yerindən qırmızı və boz rəngli boyalı gil qablar (bəziləri dalğalı və düz xətli cızma ornamentlərlə bəzədilmişdir), çaxmaqdaşı və obsidiandan (dəvəgözü) düzəldilmiş alətlər, sürtgəclər, həvəngdəstələr və s. maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. B. yaşayış yerindən əldə edilmiş materiallar e. ə. 2-ci minilliyə aiddir və onların xronoloji təsnifatı aydın izlənilir.

**BUZQOV NEKROPOLU** – Babək r-nunun Yuxarı Buzqov k. yaxınlığında Tunc dövrünə aid arxeoloji abidə. Daş qutu tipli qəbirlərdən ibarətdir. Bir qismi aşınma nəticəsində dağıntıya məruz qalmışdır. Qəbirlər, əsasən, ş.-dən q.-ə doğru, bəziləri isə şm.-dan c.-a doğru istiqamətlənmişdir; yanlarında 2, yaxud 3, baş və ayaqda isə 1, bəzən 2 iri sal daşla qurulmuşdur. Aşkar olunmuş materiallar boz rəngli gil qab məmulatından və monoxrom boyalı qablardan ibarətdir. Abidə e. ə. 2-ci minilliyə aid edilir.

**BUZQOV TRAVERTİN YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-dən 40 *km* şm.-q.-də, Aşağı Buzqov k.-ndən 2 *km* şm.-dadır. Geoloji quruluşunda Orta dördüncü dövr yaşlı açıq-boz, sarımtıl-boz və ağ rəngli, məsaməli travertin iştirak edir. Travertin yatağın şm. hissəsində yerləşən dərinlik qırılması boyunca çıxan isti bulaqlardan kalsium karbonatın çökməsi nəticəsində əmələ gəlmişdir. Sah. 0,6 $km^2$, faydalı qatın qalınlığı 5,7–9,0 *m*-dir. Blok çıxımı 42,8% təşkil edir. Yüksək dekorativliyə malik olduğuna görə üzlük daşı kimi istifadə olunur. Tullantıları isə birinci növ əhəng istehsalında və çınqıl kimi yol tikintisində işlədilir. Yatağın əlverişli dağ-texniki şəraiti açıq istismar üçün yararlıdır. 1983 ildən istismar olunur. Yatağın sənaye ehtiyatı 10409 min $m^3$-dir.



# C

**CABBAROV** Yunis Hüseyn oğlu (1917, indiki Şərur r-nunun Dərvişlər k. – 3. 1. 1953, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1948). Böyük Vətən müharibəsinin iştirakçısıdır. Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmişdir. 1943–52 illərdə Ağsu r-n ZDS İcraiyyə Komitəsində şöbə müdiri, Nax. MSSR kənd təsərrüfatı naziri işləmişdir. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



Cabbarov Yunis

**CABRIYAL DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Qoşa Dizə k.-ndən 6 *km* ş.-dədir. Hünd. 929 *m*.

**CAĞAZİR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən təqr. 22 *km* aralıdır. Hər tərəfdən dağlarla əhatələnmiş kənd Ermənistanla sərhəddə yerləşir. Əh. 531 nəfər (2000); əsasən, maldarlıq və bağçılıqla məşğuldur. Azərb. torpaqlarına daim göz dikən ermənilərin 1988 ildən başlayaraq ilk hədəflərindən biri C. oldu. Kəndin mərd oğulları düşmənin bütün həmlələrinə sinə gərərək qədim yurd yerlərini qorumuş, onun sinəsinə düşmən ayağı dəyməsinə imkan verməmişlər. Şərurun ən ucqar dağ kəndi sayılan C.-də quruculuq tədbirləri nəticəsində yeni məktəb binası tikilib istifadəyə verilmiş, su kəməri çəkilmişdir; tibb məntəqəsi, kitabxana, klub fəaliyyət göstərir. Yaxınlığında "Şapur bulağı" ziyarətgahı var. Xalq etimologiyasına görə kənd nəlbəki (zir) kimi haşiyələndiyindən C. adlandırılmışdır.

Cağazir kəndinə gedən yol



**CAMAL DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Şahbuz və Salvartı çaylarının mənbə hissəsindədir. Hünd. 3200 *m*.

**CAMALDİN** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R.-n mərkəzindən və d. y. st.-ndan 18 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1284 nəfər (2000); üzümçülük, əkinçilik

Camaldin kəndi və körpüsü





və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, 2 kitabxana, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi var.

**CAMALDİN** – Culfa r-nunda eyniadlı kəndin şm.-ş.-ndə orta əsrlərə (12–17 əsrlər) aid yaşayış yeri. Şm.-da quru çay vadisi, ş.-də dərə, c.-q.-də qəbiristanlıq, şm.-ş.-də dağ silsiləsi ilə əhatələnir. Sah. 96000 $m^2$. Tikinti qalıqları, çoxlu əmək alətləri, çəhrayı rəngli şirli və şirsiz gil qab qırıqları aşkar olunmuşdur.

**CAMALDİN KÖRPÜSÜ** – Culfa r-nu ərazisində, Camaldin – Ərəzin yolunun 4 *km*-liyində, Əlincəçay üzərindədir. Uz. 45 paqonometr. Əlincəçay boyu yaşayış məntəqələri ilə r-n mərkəzi arasında qısa və rahat nəqliyyat əlaqələrinin təmin olunmasını nəzərə alaraq 1997 ildə yeni körpü inşa edilib istifadəyə verilmişdir.

**CAMALDİN NEKROPOLU I** – Culfa r-nunda eyniadlı kəndin c.-unda, düzənlik ərazidə antik dövrə aid arxeoloji abidə. Tikinti işləri görülərkən aşkar olunmuşdur (1989). Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində dağıdılmış küp qəbirlərdən üç gil və bir şüşə qab əldə olunmuşdur. Küp qəbirlərin yuxarı hissəsi və oradakı skeletlər tamamilə dağıdılmışdı. Ağzı iri sal daşlarla bağlanmış küp qəbirlər c. və c.-q. istiqamətinə yönəldilmiş şəkildə idi. Axtarışlar zamanı C.n.-ndan daş qutu tipli qəbir aşkar edilmişdir. Qəbirdə kəlləsi c.-q.-ə olmaqla sağ böyrü üstdə bükülü vəziyyətdə skelet olmuşdur. Skeletin əl barmaqlarından birində tunc üzük, boyun tərəfindən isə xeyli şəvə və serdolik muncuqlar tapılmış, kəllə sümüyünün üst tərəfində bir-birinin üzərinə qoyulmuş iri balıqqulaqları aşkar olunmuşdur.



Camaldin yaşayış yerindən tapılmış keramika məmulatı.

**CAMALDİN NEKROPOLU II** – Culfa r-nunda eyniadlı kəndin şm.-ş.-ndə, uzunsov təpənin üzərində orta əsrlərə aid arxeoloji abidə. Qəbirlər q.-ş. istiqamətində olub düzbucaqlı formadadır. Əksəriyyətinin baş daşları saxlanmış, üzəri daş yığıntıları ilə örtülmüşdür. Axtarışlar nəticəsində müxtəlif ölçülü bişmiş kərpiclərə, çəhrayı rəngli şirsiz gil qab qırıqlarına təsadüf edilmişdir. Yerli əhalinin məlumatına görə, vaxtilə qəbiristanlıqda xeyli qoç daş heykəllər olmuşdur. Tapıntılara əsasən abidənin 14–18 əsrlərə aid olması ehtimal edilir.

*Əd.*: N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B., Culfa bölgəsinin arxeoloji abidələri, B., 1993.

**CAMIŞÖLƏN DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 2951 *m*. Konusvarı formaya malik olub, təkrarolunmaz coğrafi landşaft əmələ gətirmişdir.

**CANQULUTƏPƏ** – Babək r-nu ərazisində dağ. Naxçıvançayın sol sahilində, Təzəkənddən 1 *km* şm.-dadır. Hünd. 826 *m*.

**CARCAR** – bir sıra Yaxın Şərq ölkəsində, o cümlədən Azərb.-da (xüsusilə Naxçıvan diyarında) yayılmış qədim k.t. aləti. Uz. 2 *m*, eni 1,5 *m* olan iki paralel qoldan, onları birləşdirən iki taxtadan, habelə iki oxa (çarxa) geydirilən ərsinə bənzər dəmir dişlərdən ibarət idi. C.-ın qolları üzərində onu idarə edən üçün oturacaq düzəldilirdi. C.-a bir və ya iki öküz qoşulurdu. Alət hərəkətə gətirildikdə onun hər iki oxu fırlanaraq taxılı döyürdü. C. küləşin samana çevrilməsinədək işlədilir, daha sonra onu vəl əvəz edirdi.





**CAVADLI** Cavad (Cavad Ələsgər oğlu Q a s ı m o v u n ədəbi adı; d. 1926, indiki Şərur r-nunun Dəmirçidam k.) – şair, publisist. "Ustad" (1996), "Araz" (1997) və "Qızıl qələm" (2000) mükafatları laureatı. Atası 1937 ildə repressiya qurbanı olmuş, ailəsi Qazaxıstana sürgün edilmişdi. Azərb. Dövlət Un-ti (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmiş (1950), "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində ədəbi işçi, xüsusi müxbir işləmişdir (1950-57). 1960 ildən "Azərbaycan müəllimi" qəzetində şöbə müdiridir. "Dağ çiçəkləri" (1961), "Anasını axtaran qız" (1966), "İnsanlara sözüm var" (1973), "Səndən sonra", "Qara gözlər səadətdir" (hər ikisi 1997) şer və poema topluları, "Zirvələrdən ucada" (2000) mənzum romanı nəşr olunmuşdur. C. Azərb. dissident ədəbiyyatının ilk nümayəndələrindəndir; üç cilddən ibarət bu səpgili əsərlərinin "Sürgün" adlı 1-ci kitabı 1996 ildə çapdan çıxmışdır. "Qeyrət" poeması 9-cu sinfin "Azərbaycan dili" dərsliyinə sinifdənkənar oxu üçün daxil edilmişdir. "Sarı Aşıq və Yaxşı" (1975) mənzum faciəsi var. Uşaqlar üçün şer, mənzum nağıl, poema və pyeslər yazmışdır; 50-yə yaxın uşaq şerinə mahnı bəstələnmiş ("Mahnı töhfəsi" kitabı, 1982), onların bir çoxu musiqi dərsliklərinə daxil edilmiş, tədris vallarına salınmışdır. Oçerk, felyeton, publisistik və ədəbi-tənqidi məqalələrin müəllifidir ["Həmişə balacalarla" (1975), "Sabahın sorağında" (1996), "Maarifimizin ulduzları" (2000) və s. kitabları].



Cavad Cavadlı

**"CAVANLAR HƏYATI"** – qəzet. 1921 ilin noyabrından Azərb. Gənclər İttifaqı Naxçıvan Diyar Komitəsinin orqanı kimi nəşrə başlamış "C. h." bir qədər sonra "Füqəra səsi" adı ilə Naxçıvan Şura Cümhuriyyətinin orqanına çevrilmişdi. 1922 ilin aprelində "Şərq qapısı" adlandırıldı (bax *"Şərq qapısı"*).

**CAVİD**, H ü s e y n C a v i d (təxəllüsü; əsl adı və soyadı Hüseyn Abdulla oğlu R a s i z a d ə; 24.10.1882, Naxçıvan ş. – 5.12.1941, Rusiya, İrkutsk vil.) – şair, dramaturq. Ziyalı, tanınmış din xadimi Abdulla *Rasizadənin* ailəsində doğulmuş, ilk təhsilini Naxçıvanda mollaxanada, sonra isə M.T. Sidqinin "Tərbiyə" adlı yeni üsullu məktəbində almışdır (1894–98). Klassik üslubda ilk şerlərini də "Gülçin" və "Salik" imzaları ilə burada yazmışdır. 1899–1903 illərdə Cənubi Azərb.-da olmuş, Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Un-tinin ədəbiyyat şöbəsini bitirmiş (1909), Naxçıvanda, sonra Gəncədə və Tiflisdə, 1915 ildən isə Bakıda müəllimlik etmişdir. C. klassik Azərb. ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, Azərb. romantizminin banilərindən, çağdaş Azərb. ədəbiyyatının yaradıcılarından biri olmuşdur.

C. sənəti bədii növ, janr və forma cəhətdən zəngindir. O, lirik şerlərin, lirik-epik poemaların, Azərb. ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şer kitabı 1913 ildə çap olunmuşdur. Yaradıcılığının ilk dövrlərində ictimai-siyasi lirikaya daha çox diqqət vermişdir. "Öksüz Ənvər", "Çoban türküsü", "Kiçik sərsəri", "Dün və bugün", "Qadın", "Görmədim", "Vərəmli qız" və s. şerlərində sosial ədalətsizliyin hökm sürdüyü cəmiyyətdə əməkçi insanların faciəli həyatı təsvir edilir. "Məsud və Şəfiqə" şerində Bakı neft mədənlərində çalışan fəhlələrin dözülməz vəziyyəti, sahibkarların tüfeyli, firavan həyatı ilə qarşılaşdırılır. "Sən nəsin, kimsin deyən ariflərə" (1912) poemasında şair insanlara işıqlı həyat, azad gələcək yolu arayırdı. "Məzlumlar üçün" (1914), "Qürubə qarşı", "Hərb və fəlakət" (1916), "Hərb ilahı qarşısında" (1917) şerlərində imperialist müharibələrinə nifrət əksini tapmışdır.

C. daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı manerası, forma yeniliyi baxımından Azərb. dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. Mənzum "Ana" (1910) pyesində nəciblik, sədaqət, mərdlik kimi keyfiyyətlərin yalnız sadə insanlarda olduğu göstərilir. "Maral" (1912) faciəsində şəxsiyyət və qadın azadlığı məsələsi qaldırılır, ailə münasibətlərində mürtəce əxlaqi görüşlər tənqid edilir. Azərb. ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birindən ayıran dini və milli təəssübkeşlik əleyhinə üsyankar etiraz ruhu hakimdir. C. bu dövrdə

tədriclə, "Haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdı. Həmin ideya "Şeyda" (1917) dramında, "Haqqını sən mübarizə ilə ala bilərsən" (1918) poemasında daha bariz ifadəsini tapmışdır. "Şeyda"da C. yalnız ideya və mənəviyyatlardakı ziddiyyəti deyil, real sosial ziddiyyətləri də göstərir, "füqərayi-kasibə"ni, "qabarlı əllər"i istismarçılarla mübarizəyə çağırırdı. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) faciəsində dövrün bütün mürtəce qüvvələri – "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan imperalist dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. Mürtəce qüvvələrlə azadlıq, bərabərlik, sülh, beynəlmiləlçilik, maarif və mədəniyyət dostlarının toqquşması C.-in 1920 ilədək yazdığı əsərlərin başlıca konflikti idi. Bu əsərlərin bədii qayəsini bəşəriyyətin fəlakətinə ədalətsiz, istismarçı ictimai quruluşların səbəb olması fikri təşkil edir. Estetik ideyalarına sadiq qalan C. bununla yanaşı, 20–30-cu illərdə dövrün nəbzi ilə səsləşən bir sıra əsərlər yaratmışdır. "Azər" dastanı (1920–37) bu əsərlər arasında xüsusi yer tutur. 1926 ildə müalicə üçün Almaniyaya gedən və bir müddət Berlində yaşayan C. vətənə Qərb dünyasının sosial-mənəvi ziddiyyətlərini əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şerlərlə qayıtdı. "Nil yavrusu" əsərində C. müstəmləkə zülmünü qəzəb və nifrətlə damğalayırdı. 20–30-cu illərdə C. bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922), "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları C.-in tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi bir dönüş oldu. Şair bu əsərlərində istibdada qarşı üsyan edən kütləni, üsyan başçılarını və Xəyyam kimi azadfikirli bir mütəfəkkiri baş qəhrəman seçmişdir. Faşizm və İkinci dünya müharibəsi təhlükəsinin artması 30-cu illərin əvvəlində C.-i narahat edən problemlər idi ("İblisin intiqamı" dramı, 1936). Cənubi Azərb.-dakı azərb.-ların "şahənşahlıq" üsuli-idarəsinin əsarəti altında əzab çəkməsi, ən adi insan hüquqlarından məhrum edilməsi də vətənpərvər şair kimi C.-i düşündürürdü ("Telli saz" dramı, 1930; "Kor neyzən" poeması, 1930). C.-in fəlsəfi, siyasi-ictimai görüşləri "ümumi məhəbbət" ideyasından yüksək humanizmə qədər böyük bir inkişaf yolu keçmişdir. Poeziyası yüksək bədii sənətkarlığı, dərin emosionallığı, səmimiyyəti ilə seçilir.

H Cavidin cənazəsi Bakıdan Naxçıvana yola salınmazdan əvvəl vida mərasimi, 1982



Anadan olmasının 100 və 110 illik yubileyləri geniş qeyd olunmuşdur. Naxçıvanda və Bakıda ev-muzeyləri yaradılmış, Bakıda, vaxtilə yaşadığı binaya (indiki Azərb. Milli EA Əlyazmalar İn-tunun binası) barelyef-təsviri olan xatirə lövhəsi vurulmuşdur. 100 illik yubileyi ərəfəsində cənazəsi İrkutsk vil.-dən Naxçıvana gətirilib, buradakı ev-muzeyinin yaxınlığında dəfn edilmişdir. Azərb.Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir (1996). 1982 ildə Naxçıvanda "Hüseyn Cavid poeziya teatrı" açılmışdır. Adına Bakıda, Naxçıvanda və respublikanın digər şəhər və r-nlarında küçə, bağ, məktəb, kitabxana, kino-teatr və s. mədəni maarif müəssisələri var. Bakıda əzəmətli abidəsi ucaldılmışdır.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1958; Pyeslər, B., 1963; Seçilmiş əsərləri, c.1–3, B., 1968–71; Dram əsərləri, B., 1975; Seçilmiş əsərləri, 4 cilddə, B., 1982–84; Женщина Востока. Стихи и пьеса, Б., 1982; Пьесы, кн. 1-2, Б., 1982-83.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c.2, B., 1960; M ə m m ə d C ə f ə r, Hüseyn Cavid, B., 1960; y e n ə o n u n, Azərbaycan ədəbiyyatında romantizm, B.,1963; C ə f ə r o v C., Azərbaycan dram teatrı, B., 1959; İ b a d o ğ l u Ə., Hüseyn Cavidin "İblis" faciəsi, B., 1969; Ə l i o ğ l u M., Hüseyn Cavidin romantizmi, B., 1975; C a v i d M., Cavidi xatırlarkən, B., 1976; Ə k b ə r o v Z., Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi, B., 1977; X ə n d a n R., Cavid sənəti., B., 1981; Cavidi xatırlarkən (məqalələr məcmuəsi), B., 1982; M ə m m ə d l i Q., Cavid ömrü boyu, B., 1982; Ə f ə n d i y e v T., Hüseyn Cavidin ideyalar aləmi, B., 1985; H ü s e y n o v R., Cavidlər, onun "Vaxdan uca" kitabında, B., 1987; M u s t a f a H a q q i T ü r k ə g u l, H.Cavid, İstanbul, 1963; M ə m m ə d o v M., Acı fəryadlar, şirin arzular, B., 1983; T ə h m a s i b T., H.Cavid və teatr, B., 1988; İ s m a y ı l o v Ə., Hüseyn Cavid və dünya ədəbiyyatında demonizm ənənəsi, B., 1991; X ə l i l o v S., Cavid fəlsəfəsi, B., 1996; Ə l i y e v K., Hüsyen Cavidin şəxsiyyəti və poetikası, B., 1997; Ə n v ə r U z u n, H. Cavid və Türkiyə ədəbiyyatı, B., 1998; Ə b i l o v A., Hüsni-xuda şeiri..., B., 2000; М а м е д Д ж а ф а р, Гусейн Джавид, Б., 1982; Я ш а р К., Гусейн Джавид, Б., 1982;





Hüseyn Cavid



Ərtoğrol Cavid

**CAVİD** Ərtoğrol Hüseyn Cavid oğlu (22.10. 1919, Bakı – 14.10.1943, Naxçıvan ş.) – bəstəkar. Hüseyn *Cavidin* oğludur. Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU) fərqlənmə diplomu ilə bitirmişdir (1940). Azərb. Dövlət Konservatoriyasında oxumuşdur (1941–42, Ü.Hacıbəyovun sinfi). İlk böyük əsəri fp. üçün yazılmış "Doqquz variasiya"dır (1941–42, Ü.Hacıbəyova ithaf). Skripka ilə fp. üçün poema (1941), Nizaminin "...Sevgili yar gəlmiş idi" qəzəlinə, N.Rəfibəylinin "Eşq olsun!", türkmən şairi Kəminənin "Leylanın vəsfi", T.Rasizadənin "Səninlə olaydım" və s. şerlərinə romans və mahnılar bəstələmişdir. Böyük Vətən müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və marşlar yazmış. "Şeyx Sənan", "Məhsəti" operaları, bir sıra kamera və instrumental əsərləri yarımçıq qalmışdır. 1939–42 illərdə Azərb. Dövlət Konservatoriyasında Bülbülün rəhbərlik etdiyi xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetində çalışmış, burada musiqi folkloru nümunələrinin toplanmasında iştirak etmiş, 1941–42 illərdə konservatoriyanın nəzdindəki musiqi məktəbində dərs demişdir. Azərb. xalq mahnılarını nota salmış, Avropa və rus bəstəkarlarının ayrıca notlar şəklində çap olunmuş romans və mahnılarını Azərb. dilinə tərcümə etmişdir. Şerləri, pyesi və rəsmləri var. 1942 ildə tələbə olmasına baxmayaraq, ordu sıralarına çağrılmış, "xalq düşməni"nin oğlu olduğu üçün cəbhəyə deyil, Gürcüstanda yerləşən fəhlə batalyonuna işləməyə göndərilmişdi. Məzarı Hüseyn Cavidin Naxçıvandakı məqbərəsində atasının və anası M. Cavidin qəbirləri ilə yan-yanadır.

*Əd.:* A n a r, Böyük sənətkarın sənətkar oğlu, "Ədəbiyyat və incəsənət" qəzeti, 1980, 28 noyabr; H ü s e y n o v R., Cavidlər, onun "Vaxtdan uca" kitabında, B., 1987; R ə ş i d Ş ə f ə q, 24 yaş nədir ki..., "Ədəbiyyat və incəsənət" qəzeti, 1989, 24 noyabr; H a ş ı m o v a S., Ərtoğrol Cavid – şair, rəssam, bəstəkar, "Ədəbiyyat qəzeti", 1999, 29 oktyabr.



Mişkinaz Cavid

**CAVİD** Mişkinaz Molla Hüseyn qızı (1902, Naxçıvan ş. – 16.11.1976, Bakı) – Hüseyn *Cavidin* ömür-gün yoldaşı. Hüseyn Cavidin əsərlərinin ilk oxucusu olmuş, onların üzünü köçürmüşdür. "İblisin intiqamı" pyesinin onun xətti ilə köçürülmüş surəti olmasaydı, böyük şair və dramaturqun repressiya qurbanı olmuş başqa əsərləri kimi, bu əsər də itəcəkdi. Hüseyn Cavidin həbsindən sonra tikiş artelində işləmiş, mənzilləri əllərindən alınmış, məşəqqətli günlər yaşamışdır. Lakin bu qeyrətli qadın bütün əzab-əziyyətlərə mərdliklə sinə gərərək dahi ərinin şərəf və ləyaqətini uca tutmuşdur. Hüseyn Cavidlə bağlı xatirələrinin bir qismi çap olunmuş, bir qismi isə böyük şairin Bakıdakı ev-muzeyində saxlanılır. Məzarı Hüseyn Cavidin Naxçıvandakı məqbərəsində, ərinin və oğlu Ərtoğrolun qəbirləri ilə yan-yanadır.

Ə s ə r i: Cavidi xatırlarkən, B., 1976; təkrar nəşri 1982.

*Əd.:* H ü s e y n o v R., Cavidlər, onun "Vaxtdan uca" kitabında, B.,1987.

Turan Cavid



**CAVİD** Turan Hüseyn Cavid qızı. (T u r a n C a v i d) (d. 2.10.1923, Bakı) – mədəniyyət xadimi. Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1982). Hüseyn Cavid mükafatı laureatı (1997). Hüseyn *Cavidin* qızıdır. Azərb. Dövlət Teatr İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) teatrşünaslıq fakültəsini bitirmiş (1950), həmin in-tda müəllim saxlanılmış, "Azərbaycan teatrı tarixi"ndən mühazirələr oxumuşdur (1950–83). C.Cabbarlı ad. Azərb. Dövlət Teatr Muzeyində elmi işçi (1953–68) və direktor (1968–91) vəzifələrində çalışmışdır. 1991 ildən Hüseyn Cavidin Bakıdakı ev muzeyinin direktorudur. Respublikanın mədəni həyatında iştirak edir. Mətnşünaslıq sahəsində də yaxından fəaliyyət göstərir. Hüseyn Cavidin 1958–85 illərdə nəşr olunmuş bütün kitablarının tərtibçisidir.

*Əd.:* H ü s e y n o v R., Cavidlər, onun "Vaxtdan uca" kitabında, B., 1987; İ b r a h i m o ğ l u V., Turan, "Azadlıq" qəzeti, 1992, 14 noyabr; M ə m m ə d A s l a n, Zirvə xidmətində, "Ekran-efir" qəzeti, 1993, 4–10 oktyabr; H a c ı A z ə r T u r a n, Əbədi Turan, B., 2001.


Cəfərov Həmzə

**CAVİD MƏQBƏRƏSİ**, N a x ç ı v a n d a – böyük Azərb. şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində ucaldılmış məqbərə. Bax *Hüseyn Cavid məqbərəsi*.

**CAVİDABAD** – Babək r-nunda kənd. 1970 ildə *Qaraçuq* k.-nin adı dəyişdirilərək C. qoyulmuşdu. 1999 ildən tarixi adı bərpa edilmişdir.

**CƏFƏR BAĞIR** (Cəfər Səfər oğlu B a ğ ı r o v u n ədəbi adı; 5.5.1912, indiki Ordubad r-nunun Dəstə k. – 17.4.1983, Bakı) – yazıçı, nasir və tərcüməçi. Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filologiya fakültəsində təhsil almışdır. Bakıda və Gəncədə mətbuatda çalışmış, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin (1955–1960), bədii tərcümə redaksiyasının (1967–73) müdiri olmuşdur. "Zəfər səsləri" adlı ilk oçerklər kitabı 1932 ildə nəşr edilmişdir. "Xəzan" (1968), "Babamın ürəyi" (1969), "Bir ömür azdır" (1971), "Səni görəndə" (1973), "Mən yadına düşəndə" (1975), "Miniatürlər" (1977), "Bitməmiş gündəlikdən" (1979) və s. oçerk, hekayə və miniatür toplularının müəllifidir.

Ə s ə r l ə r i: Səslər, B., 1967; Xoşbəxt o adamdır ki..., B.,1986.


Cəfərxanova Roza

**CƏFƏRXANOVA** Roza Heydər qızı (d. 13. 2.1927, Ordubad ş.) – aktrisa. Azərb. Respublikası xalq artisti (2000). 1942–48 illərdə Ordubad Dövlət Dram teatrında işləmişdir. 1948 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisasıdır. Əsas rolları: Şirin ("Fərhad və Şirin", S.Vurğun), Həyat ("Həyat", M.İbrahimov), Zəhra ("Şeyx Sənan", H.Cavid), Pəri, Solmaz, Dilbər ("Solğun çiçəklər", "Od gəlini", "Sevil", C.Cabbarlı), İradə ("Göz həkimi", İ.Səfərli) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.

R. H. Cəfərxanova Fatı ("Hicran", S.Rəhman) rolunda.



**CƏFƏRQULU XAN** (?–?) – Naxçıvan xanı. 1783 ildə xoylu Əhməd xanın dəstəyi sayəsində C. x. Naxçıvan xanlığının hakimi oldu. C. x. ilk gündən xalqın hər cür etirazının qarşısını almaq üçün əhaliyə ciddi təzyiq göstərməyə başladı. Hətta iş o yerə çatdı ki, naxçıvanlıların bir çoxu doğma ocaqlarını tərk edərək, başqa yerlərə köçməyə məcbur oldu. 1785 ildə Naxçıvanın nüfuzlu feodallarından olan Şükürəli xan Naxçıvan taxt-tacının bir müddət sahibsiz qalmasından və hakim dairələrdəki qarışıqlıqdan istifadə edərək hakimiyyəti ələ keçirdi. 2 ildən sonra C. x. yenidən Naxçıvan xanlığının hakimi oldu. 1787 ildə qarabağlı İbrahimxəlil xan avarlarla ittifaqda Naxçıvan xanlığına basqın etdi. Həmin il Naxçıvan xanlığında hakimiyyətə C. x.-ın qardaşı Kalbalı xan keçdi.

*Əd.:* bax *Naxçıvan xanlığı* məqaləsinin ədəbiyyatına

**CƏFƏROV** Həmzə Rza oğlu (d. 25.9.1949, Culfa r-nunun Yaycı k.) – tarixçi. Tarix elmləri namizədi (1987), dosent (1992). Azərb. Dövlət Pedaqoji İn-tunun Naxçıvan filialını (1971) və Azərb. Dövlət Un-tinin (indiki BDU) aspiranturasını (1982) bitirmişdir. Naxçıvan Dövlət Un-tində (1972–90 illərdə Pedaqoji İn-t) müəllim (1977–91), Ümumi tarix kafedrasının müdiri (1992–97) işləmişdir. 2002 ildən Naxçıvan MR Təhsil naziridir. Azərb. və Naxçıvan tarixinin müxtəlif məsələlərinə dair tədqiqatların, o cümlədən 10 monoqrafiya, dərslik və dərs vəsaitinin, 60-a yaxın elmi məqalənin müəllifidir. Qazi Mağos (Şimali Kipr Türk Cümhuriyyəti, 1995), Naxçıvan (1996), Ankara (1996), İğdır (Türkiyə, 2001) şəhərlərində keçirilən beynəlxalq simpozium və konqreslərdə məruzələr etmişdir. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır.

**CƏFƏROV** Cabbar Qulu oğlu (d. 21.3.1924, indiki Babək r-nunun Nehrəm k.) – həkim, cərrah, səhiyyə əlaçısı (1973). Tibb elmləri namizədi (1968). Nax.MR (1964) və Azərb. Respublikası (1974) əməkdar həkimi. Böyük Vətən müharibəsi iştirakçısıdır. Naxçıvan tibb məktəbini (1950) və Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1956). 1957 ildən Naxçıvan respublika xəstəxanasının cərrahlıq şöbəsinin müdiridir. Yüksək dərəcəli cərrah adına layiq görülmüşdür (1969). Nax. MR-də endemik zob xəstəliyi və onun cərrahi müalicəsi sahəsində tədqiqat aparmışdır. 30-a yaxın elmi məqaləsi dərc olunmuşdur. Keçmiş SSRİ cərrahlar cəmiyyətinin üzvü idi (1973 ildən). Orden və medallarla təltif edilmişdir.



**CƏFƏROV** Cəfər İsmayıl oğlu (20. 2. 1938, indiki Sədərək r-nunun Sədərək k. – 20. 12. 1996, Bakı) – dilçi, türkoloq. Filologiya elmləri namizədi (1967), dosent (1974). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini İran filologiyası ixtisası üzrə bitirmişdir (1961). Türkmənistan SSR EA Dilçilik İn-tunda elmi işçi, Türkmənistan Dövlət Un-tində müəllim işləmişdir (1961–74). 1974 ildən BDU-nun türkologiya kafedrasının dosenti olmuşdur. C. türk xalqlarının, o cümlədən azərb.-ların soykökünə, paleoqrafiyasına, yazı mədəniyyətinə, qədim və çağdaş türk dillərinin qrammatika və leksikasına, Qafqaz toponimiyasına, eləcə də "Azərbaycan", "Ərsax", "Təbriz", "Gəncə", habelə "Naxçıvan", "İrəvan", "Noraşen", "Göyçə", "Ərmən" və bir çox digər yer, məskən, tayfa, şəxs adlarının etimologiyasına dair tədqiqatların müəllifidir.Bədii yaradıcılıqla da məşğul olmuş, Xatırla məni şerlər toplusu nəşr edilmişdir (1997).

Ə s ə r i: Azərbaycan xalqının ulu soykökü aslar kimdir, B., 1999.

**CƏFƏROV** Çərkəz Məmiş oğlu (d. 18.6. 1942, indiki Şərur r-nunun Dəmirçidam k.) – cərrah. Tibb elmləri doktoru (1987), prof. (1995). Azərb. Respublikasının əməkdar həkimi (2000). Azərb. Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1965). 1971–73 illərdə Leninqradda (indiki Sankt-Peterburq) Ümumittifaq Pulmonologiya İn-tunda elmi ezamiyyətdə, 1982–87 illərdə I Moskva Tibb İn-tunda doktorant olmuşdur. 1967 ildən M. Topçubaşov ad. Azərb. Elmi Tədqiqat Eksperimental və Klinik Tibb İn-tunda çalışmış, köks cərrahlığı şöbəsində baş elmi işçi (1976–82) və şöbə müdiri (1988–95) işləmişdir. 1995 ildən Azərb. Tibb Un-tinin ümumi cərrahlıq kafedrasının müdiridir. Elmi və təcrübi fəaliyyəti köks (ağ ciyərlər, yemək borusu, divar aralığı) və qarın boşluğu (mədə-bağırsaq, qara ciyər, öd yolları) orqanlarının cərrahi xəstəliklərinin diaqnostikası və müalicəsi ilə bağlıdır. 2 monoqrafiyanın, 160 elmi məqalə və tezisin, 5 ixtira və səmərələşdirici təklifin müəllifidir.

Ə s ə r i: Силиконовые протезы дыхательных путей. Б., 1999 (M. İ. Peremanla birgə).


Cəfərov Cabbar

**CƏFƏROV** Məmməd Abdulla oğlu (16.12. 1926, indiki Şərur r-nunun Şahtaxtı k. – 13.11.1997, Naxçıvan ş.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. 1941–82 illərdə keçmiş Naxçıvan r-nundakı "Azərbaycan" k-zunda briqadir, sonralar sədr, Naxçıvan ş. inkubator st.-nda direktor, Şərur r-nundakı 3 saylı tütünçülük s-zunda direktor və s. vəzifələrdə işləmişdir. 1982 ildən Babək r-nundakı Böyükdüz cins düyəyetişdirmə kompleksinin direktoru idi. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı seçilmişdir. Əmək şöhrəti ordeni ilə təltif edilmişdir.


Cəfərov Çərkəz

**CƏFƏROV** Məmməd Bəhman oğlu (24.4. 1935, indiki Şərur r-nunun Çərçiboğan k. – 27.8.1985, Bakı) – mühəndis-mexanik, kənd təsərrüfatı texnikası əlaçısı. Azərb. Respublikası əməkdar kənd təsərrüfatı mühəndisi (1984). Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmişdir (1955). Şahbuz r-n MTS-ndə baş mühəndis (1957–60), Nax. MSSR Rayonlararası Texniki Təminat Birliyinin rəisi (1960–66), Sumqayıt şəhər ərazi nəqliyyat idarəsinin rəisi (1966–69), Azərb. Dövlət Kənd Təsərrüfatı Texniki Təminat Komitəsinin 1 saylı ixtisaslaşdırılmış bazasının (Bakı) direktoru (1969 ildən ömrünün sonunadək) olmuşdur. Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

Cəfərov Məmməd



**CƏFƏROV** Məmməd Cəfər – ədəbiyyatşünas, tənqidçi. *Bax Məmməd Cəfər.*

**CƏHRİ** – Babək r-nunda kənd. R-nun ən böyük k.-lərindən biri. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 23 *km* şm.-da, *Cəhriçayın* sahilində, dağətəyi ərazidədir. Əh. 8102 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur; 2 orta məktəb, xəstəxana, 2 uşaq bağçası, uşaq musiqi məktəbi, 5 kitabxana, klub, rabitə şöbəsi, 3 məs-

cid var. C. k.-nin şm.-ş.-ndə *İşıqlar* orta əsr yaşayış yeri qeydə alınmışdır.

**CƏHRİ MİNERAL SU YATAĞI** – Babək r-nu ərazisində, Cəhri k.-ndən 5 *km* şm-dadır. Balneoloji tərkibi:

$$CO_2 1{,}3\ M4{,}1 \frac{HCO_3 53\ Cl26\ SO_4 21}{(Na+K)47\ Ca33\ Mg20} \cdot pH6{,}5\ D\,26\, m^3/gün\ T\text{-}18^\circ C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu, natriumlu-kalsiumlu-maqneziumludur. İçməyə yararlıdır.

**CƏHRİÇAY** – Babək r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Uz. 45 *km*, hövzəsinin sah. 442 $km^2$. Dərələyəz silsiləsindən (2320 *m* hünd.-dən) başlanır. Qar, yağış suları və yeraltı sularla qidalanır. Suvarmada istifadə olunur.

**CƏHRİÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Babək r-nu ərazisində, Cəhriçay hövzəsində, Cəhri k.-nin c.-q. və q. hissələrindədir. Geoloji quruluşunda Müasir dövrün allüvial-delüvial çöküntüləri – çaqıl, çınqıl və qum qarışığı iştirak edir. Çaqıl və çınqıllar əhəngdaşı, mergel, porfirit, tuf-qumdaşı və tuf-brekçiya qırıntılarından ibarətdir. Sah. 2,18 $km^2$, faydalı qatın qalınlığı 4,84 *m*-ə qədərdir. Çınqıl-qum qarışığı hidrotexniki tikinti işləri üçün öyrənilmişdir. Yatağın sənaye ehtiyatı 10094 min $m^3$ təşkil edir.

**CƏHRİÇAY MERGEL YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 25–30 *km* şm.-da, Cəhriçayın hövzəsindədir. Geoloji quruluşunda Üst Tabaşirin Kampan və Santon mərtəbələrinin, əhəngdaşı, mergel, əhəngli mergel və gilli mergel süxurları iştirak edir. Yatağın tektonik quruluşunda şm.-q. istiqamətli sinklinal qırışıqlıq qeyd olunur. Sah. 6,4 $km^2$, faydalı qatın öyrənilmiş qalınlığı 63 *m*-ə çatır. Yataqda yayılmış süxurlar sement istehsalına yararlıdır. Yataq sənaye istismarına hazırlanır. Yatağın sənaye ehtiyatı 1049 mln. *t*-dur.

**CƏLAİRİLƏR DÖVLƏTİ [1341–1431]** – orta əsrlər feodal dövləti. Tərkibinə İraq-i Ərəb, İraq-i Əcəm, Kürdüstan, Azərb. (Şirvandan başqa), Gürcüstan, Ermənistan, Deyləm, Xorasan, Cəzirə, Luristan, Xuzistan və digər ərazilər daxil idi. Paytaxtı Bağdad, sonra isə Təbriz ş.-ləri olmuşdur. Şeyx Həsən



Cəlairi 1341 ildə Bağdadda Cahan Teymuru [1339–41] taxtdan salaraq C.d.-nin əsasını qoydu. Onu əvəz edən Şeyx Üveys [1356–74] 1359 ildə Azərb.-ı C.d.-nin tərkibinə qatdı və Təbrizi paytaxt etdi. Sultan Əhməd Cəlairinin [1382–1410, fasilələrlə] dövründə C.d.-nin daxilində hakimiyyət uğrunda mübarizə gücləndi, dövlət tənəzzülə uğradı və sonra Teymurun və Qızıl Orda xanı Toxtamışın hücumlarına məruz qaldı. Teymurun yürüşləri dövründə Əlincəqala Cəlairilərin əsas müdafiə istehkamına çevrildi. 1386 ildə Teymurun qoşunu Təbrizi tutduqdan sonra Naxçıvan ərazisində onlara qarşı vuruşan Sultan Əhməd Bağdada, onun əmirlərinin bir hissəsi isə Əlincəqalaya çəkildi. Qalada Cəlairilərin xəzinəsi, Sultan Əhmədin ailəsi, oğlu Sultan Tahir (qala hakimi) və yaxın adamları, 300-ə yaxın cəngavər var idi. Teymurun yürüşləri dövründə Cəlairilərin Azərb.-da nüfuzu bilavasitə Əlincəqaladakı hökmranlıqları ilə həyata keçirilirdi. Qalanın müdafiəsinə Xacə Cövhər, Altun və Əhməd Oğulşayi başçılıq etmişlər. Qaladakı cəlairi əmirləri 1386–1391 illərdə 6 dəfə Təbrizə yürüş etmiş və hakimiyyətlərinin bərpasına cəhd göstərmişlər. 4 yürüş nəticəsində Təbriz tutulsa da, şəhərdə möhkəmlənmək mümkün olmamışdır. 1405 ildə Sultan Əhməd Azərb.-da hakimiyyətini bərpa etdi. 1410 ildə onun ölümü ilə C.d. süquta uğrasa da, başqa ərazilərdə öz fəaliyyətini bir müddət davam etdirdi.

*Əd.:* P i r i y e v V. Z., Teymur və Toxtamışın Azərbaycana yürüşləri və işğalçılara qarşı mübarizə, Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1983, № 1; А л и з а д е А. А., Социально-экономическая и политическая история Азербайджана XIII–XIV вв. Б., 1956.



**CƏLALƏDDİN MANQBURNI** (? – avqust 1231) – Xarəzmşah (1220 ildən). Monqolların 1219 ildə hücumla ələ keçirdiyi Xarəzmşahlar dövlətinin sonuncu hökmdarı II Məhəmməd Əlaəddinin oğlu. C. M. 1221 ilin sonlarınadək monqollara qarşı uğursuzluqla nəticələnən mübarizəyə başçılıq etmiş, məğlub olaraq Hindistana qaçmışdı. 1225 ildə yenidən fəaliyyətə başlamış, ilk növbədə Xarəzmşahlar dövlətinin monqollar tərəfindən məhv edilməsində günahkar saydığı Abbasi xəlifəsi ən-Nasiri cəzalandırmaq üçün Bağdada yürüş etmişdi. Xəlifə qoşunlarını məğlubiyyətə uğradan C. M. həmin ilin mayında müqavimət görmədən Marağa ş.-ni, yeddi günlük müqavimətdən sonra isə atabəy Özbəyin tərk etdiyi Təbriz ş.-ni ələ keçirir. Qafqazın bir çox yerlərini tutan C. M. öz mülklərini qorumaq xatirinə yalançı şahidlərin köməyilə atabəy Özbəyin onunla nigah kəsdirmək istəyən kəbinli arvadı Məleykə ilə evlənir (1225). Atabəy Özbəyin bacısı, Naxçıvan hakimi məlikə *Cəlaliyyə* də 1228 ildə elə bu məqsədlə C. M. ilə izdivac qurur. Bütün Azərb.-ı (Şirvandan başqa) ələ keçirmiş C. M.-nın monqollara qarşı ittifaq yaratmaq cəhdləri uğursuzluqla nəticələnir. Azərb.-ın bir çox bölgələrində, xüsusilə Gəncədə və b. yerlərdə özbaşınalıqlar törədən Xarəzm qarnizonuna qarşı qiyamlar qalxmağa başlayır. Bu qiyamlar amansızlıqla yatırılsa da, 1231 ilin yayında yenidən başlayan monqol hücumları C. M.-ya qarşı yönəldilir. 1231 ilin avqustunda monqolların mühasirəsindən çıxa bilən C. M. Məyyadariqin əyalətinin Eynbər k. yaxınlığında qətlə yetirilir. Onun köhnə rəqibi Xilat sultanının uzaqgörənliklə söylədiyi C. M.-nın məhvi "tatarların islam torpaqlarına girməsi deməkdir" sözləri çox tezliklə təsdiqləndi. Monqollar bütün ətraf yerləri, o cümlədən Naxçıvanı ələ keçirdilər.

*Əd.:* B ü n y a d o v Z. M., Azərbaycan atabəyləri dövləti. B., 1985; Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998; Шихаб ад-Дин Мухаммед ан-Насави. Сират ас-султан Джалал ад-Дин Манкбурны (Жизнеописание султана Джалал ад-Дина Манкбурны (tənqidi mətnin nəşri, ərəb dilindən tərcümə, ön söz, şərhlər, qeydlər və göstəricilər Z. M. Bünyadovundur). M., 1996.

**CƏLALİYYƏ** (?–?) – Naxçıvan hakimi, məlikə (13 əsrin 20-ci illəri). Azərb. atabəyləri dövlətinin ikinci hökmdarı atabəy *Məhəmməd Cahan Pəhləvanın Zahidə xatundan* olan qızı, atabəy *Özbəyin* bacısı. Xarəzmşah Cəlaləddin Manqburnının şəxsi münşisi (katibi). Şihabəddin ən-Nəsəvinin C. haqqında məlumatı "Məlikə Cəlaliyyə, Naxçıvanın sahibəsi" sözləri ilə başlayır. 1224 ildə monqolların dağıtdığı Xarəzmşahlar dövlətinin hökmdarı sultan Məhəmmədin oğlu Qiyasəddin Pirşah Azərb.-a yürüş edir. Hücumların qarşısını almaq iqtidarında olmayan Özbək, iqta mülkü kimi Naxçıvana sahib olan bacısı C.-ni Pirşaha ərə verməklə barışıq əldə edir. Azərbaycan atabəyləri dövlətinin süqutundan sonra da Naxçıvan C.-nin mülkü olaraq qalır. C. haqqında mənbələrdə olan sonrakı məlumat Cəlaləddin Manqburnının vəziri Şərəf əl-Mülkün 1227 ildə Naxçıvanı ələ keçirmək cəhdi ilə bağlıdır. Şərəf əl-Mülkü bu işə C.-nin oğulluğu, ona naxələf çıxmış məmlük Aytoğmış təhrik etmişdi. Naxçıvan civarında baş verən döyüş vəzirin qoşununun məğlubiyyətilə nəticələnir. Ən-Nəsəvi C.-nin sarayında, adətən, kişilərin daşıdığı "hacib" (sarayın işlər müdiri, kamergeri) vəzifəsini icra edənin o zaman qadın olması haqqında məlumat verir. 1228 ildə gürcü qoşunlarını darmadağın etmiş, ətraf yerləri ələ keçirmiş xarəzmşah Cəlaləddin Manqburnı C.-nin təklifi ilə Naxçıvana gəlir. Öz mülklərini qorumağa çalışan C. sultanla nikah kəsdirir. 1231 ildə monqolların ikinci yürüşü zamanı Naxçıvan işğal olunur. Bundan sonrakı dövr mənbələri C. haqqında heç bir məlumat vermir.

*Əd.:* Bax *Cəlaləddin Manqburnı* məqaləsinin ədəbiyyatına.

**CƏLİL MƏMMƏDQULUZADƏ** – böyük Azərb. yazıçısı, jurnalist, ictimai xadim. Bax *Məmmədquluzadə* Cəlil Məmmədqulu oğlu.

**CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİ** – Bax *Məmmədquluzadənin ev-muzeyi*, B a k ı d a.

**CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİ** – Bax *Məmmədquluzadənin ev-muzeyi*, N a x ç ı v a n ş.-ndə.

**"CƏLİLİ"** – aşıq havası. Şərur-Dərələyəzdə böyük şöhrət qazanmış ustad aşıq, qoşma, gəraylı və s. formalarda şerlər, aşıq havaları ("Dərələyəz gəraylısı", "Badamı", "Qaytarma" və s.) qoşmuş Aşıq Cəlil (1850–1923) tərəfindən yaradılmışdır. "Baş Cəlili" ("Qaragöz", yaxud "Qaragöz bala", "Çıldır çiçəyi") və



Cəlilov Afiyəddin

"Orta Cəlili" (çox vaxt "Cəlili", bəzən "Süsənbəri") adlı iki növü var. "Baş Cəlili"nin poetik mətni qoşma, məqam əsası Segah, musiqi ölçüsü 6/8, tempi mülayim-tezdir; sazda "şah pərdə" kökündə ifa olunur. "Orta Cəlili"nin poetik mətni qoşma, məqam əsası Rast, musiqi ölçüsü 6/8, tempi mülayim-cəlddir; sazda "Ürfanı" kökündə ifa olunur. "Orta Cəlili"nin instrumental variantları da var.

**CƏLİLKƏND** (1961 ilədək B a ş N o r a ş e n) – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* şm.-ş.-də, Naxçıvan–Sədərək avtomobil yolunun sol tərəfində, Şərur düzündədir. Əh. 1615 nəfər (2000); yemçilik, tərəvəzçilik, taxılçılıq, pazıçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, feldşer-mama məntəqəsi, əczaxana, uşaq bağçası, C.Məmmədquluzadənin ev-muzeyi var. 1961 ildə C.Məmmədquluzadənin şərəfinə C. adlandırılmışdır. Kənddə inşa üsulu və texnikasına görə e.ə. 2-ci minilliyin əvvəllərinə aid edilən siklop tikililəri (xalq arasında q a l a ç a deyilir) var.

**CƏLİLOV** Afiyəddin Cəlil oğlu (1.8.1946, Naxçıvan ş. – 29.9.1994, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – dövlət xadimi. Leninqrad (indiki Sankt-Peterburq) Dağ-Mədən İn-tunu (1969) və Moskvada Sov. İKP MK yanında İctimai EA-nı (1981) bitirmişdir. Naxçıvan duz mədənlərində mühəndis-mexanik işləmişdir (1969–73). Sonralar məsul komsomol, partiya və dövlət işində çalışmış, Naxçıvan Vil. Komsomol Komitəsinin 1-ci katibi və Azərb. LKGİ MK katibi (1973–79), AKP MK-nın təlimatçısı (1979–81), Bakı ş. Nəsimi r-n partiya komitəsinin 1-ci katibi (1981–89), Nax. MR Nazirlər Sovetinin sədri, Vil. Partiya Komitəsinin 1-ci katibi, Nax. MR Ali Məclisinin sədri, Azərb. Respublikası Prezidentinin müşaviri (1989–92) olmuşdur. Naxçıvanda işlədiyi dövrdə Ermənistanın təcavüzü nəticəsində blokada şəraitində yaşayan Nax. MR-in iqtisadi-sosial problemlərinin həlli, muxtar respublikada vətəndaş həmrəyliyinin yaranması və sabitliyin qorunub saxlanması sahəsində önəmli fəaliyyət göstərmişdir. 1992 ildən Azərb. Respublikası Milli Məclisi Sədrinin müavini olan C. ölkəmizin dövlət müstəqilliyinin möhkəmləndirilməsində, onun daxili və xarici siyasətinin formalaşmasında fəal iştirak etmişdir. 1994 ildə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti seçilmişdi. Azərb. SSR və Nax. MSSR Ali Sovetlərinin (bir neçə çağırış), Nax. MR Ali Məclisinin deputatı olmuşdur. 1991 ildən Azərb. Repsublikası Milli Məclisinin deputatı idi. 2 Şərəf nişanı ordeni və medallarla təltif olunmuşdur. Azərb. dövlətçiliyinin düşmənləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir.

Cənnətqaya yaşayış yerindən tapılmış keramika məmulatı



**CƏMİLLİNSKİ** Səməd bəy (?–?) – dövlət xadimi. Azərb. Xalq Cümhuriyyəti (AXC) dövründə (1918–20) bir müddət Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkil olmuşdur. 1919 ilin avqustunda Qərbi Azərb. (Naxçıvan mahalının) general-qubernatoru təyin edilmişdir; qərargahı əvvəl Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçürülmüşdü. C. bölgənin idarə olunmasında və cari problemlərinin həllində AXC hökumətinin xəttini həyata keçirməyə səy göstərmiş, qaçqınların yerləşdirilməsi və təminatı məsələlərinə böyük diqqət yetirmişdi. Bununla belə, mahalın idarəçiliyindəki digər siyasi qüvvələrin nümayəndələri (Kalbalı xan, Xəlil bəy) ilə fikir ixtilafları yarandığından 1920 ilin fevralında AXC hökumətindən başqa bir şəxslə əvəz olunmasını xahiş etmişdi.

**CƏMŞİD NAXÇIVANSKİNİN EV-MUZEYİ**, Naxçıvan ş.-ndə – bax *Naxçıvanskinin ev-muzeyi*.

**CƏMŞİDLİLƏR** – türk tayfası. Kəngər tayfalarından (bax *Kəngərlər*) olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşamış kəngər mənşəli qol və tirələrin arasında cəmşidli nəslinin də adı çəkilir.

**CƏNNƏTQAYA** – Şərur r-nu ərazisində dağ. Yuxarı Yaycı k.-ndən 1,5 *km* ş.-dədir. Hünd. 1528 *m*. Relyefdə sıldırım yamaclı çıxıntı əmələ gətirir.

**CƏNNƏTQAYA** – Şərur r-nundakı Tənənəm k.-nin ş.-ində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. "Ağ zirət" deyilən yerin yaxınlığındadır. Hər tərəfdən dağlarla əhatə olunmuş abidənin sah. 6 *ha*-a yaxındır. Aşınma nəticəsində əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin (bəzi yerlərdə 50 sm qalınlığındadır) kəsiyi alınmışdır. Yerüstü materiallar çəhrayı və üzəri cızma xətlərlə naxışlanmış boz rəngli kasa və küpə tipli gil qab qırıqlarından, boz rəngli tuf daşından hazırlanmış dən daşından ibarətdir. Saxsı qab məmulatı, əsasən, son Tunc və ilk Dəmir dövrləri üçün səciyyəvidir. Tapıntılara əsasən yaşayış yerinin e. ə. 2–1-ci minilliklərə aid olduğu ehtimal edilir.



**CIDILLI MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə urbanonim. Vaxtilə şəhərin kənarı sayılan indiki Dram Teatrının ərazisi Cıdıllı bağı adlanırmış. 20 əsrin 40–50-ci illərinə qədər burada at çapmaq və digər idman növləri üzrə yarışlar keçirildiyindən bu məhəllə Cıdırlı məhəlləsi kimi tanınırdı. Fonetik hadisə (assimilyasiya) nəticəsində "cıdırlı" sözü "cıdıllı" şəklinə düşmüşdür.

**CIĞATAY MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Məhəllənin salınma tarixi 13 əsrə təsadüf edir. Bu dövrdə monqollar Azərb.-ı işğal etmiş, Hülakular dövləti yaratmışdılar. Onların arasında bir sıra türkdilli tayfalar, o cümlədən cığataylar da olmuşlar. Monqollar Naxçıvanda və Əlincəqalada da qanlı döyüşlər aparmış və bu ərazini uzun müddət təsir altında saxlamışlar. Bu müddətdə və monqollar gedəndən sonra Naxçıvan ş.-ndə yaşayan cığataylar kəngərlərin tərkibinə daxil olmuş, şəhərin müəyyən hissəsini özləri üçün yaşayış yeri seçmiş və orada məskunlaşmışlar. Beləliklə, həmin yer C. m. adlanmışdır.

**CİQANDƏRƏ** – Ordubad r-nu ərazisində çay. Düylün çayının sol qolu. Uz. 10 *km*, hövzəsinin sah. 21 *km*²-dir. Əsasən, qar suları və yeraltı sularla qidalanır. Təsərrüfata xeyli ziyan vuran struktur və qeyri-struktur sel hadisələri olur.

**CİNDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Parağa k.-ndən 3,5 *km* c.-dadır. Hünd. 1779 *m*. Konusvarı formadadır. C. yamacı sıldırımdır.

**CİNDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin q. yamacında, Gecəzur k.-ndən 3,5 *km* c.-ş.-dədir. Hünd. 2673 *m*. Konusvarı formada subvulkandır.

**CİNDƏRƏSİ KÖRPÜSÜ** – Şərur r-nu ərazisində, Xanlıqlar–Tənənəm yolunun 4 *km*-liyində, Cindərəsindədir. Uz. 15 paqonometr. Sel daşqınları nəticəsində nəqliyyat vasitələrinin normal hərəkətində uzun fasilələr baş verdiyindən 1999 ildə inşa edilib istifadəyə verilmişdir.

**CİNLİDƏRƏ** – Şərur r-nunun Şahtaxtı k.-ndən c.-ş.-də, *Şahbağından* xeyli aralı son orta əsrlərə aid yaşayış yeri. Sah. 2500 *m*². olub, hər tərəfdən kiçik təpələrlə əhatə edilmiş düzənlikdədir. Burada dairəvi və düzbucaqlı planda iri daşlardan ibarət bircərgəli hörgü qalıqları saxlanmışdır. Dairəvi binaların diametri 5–10 *m* arasındadır; onlardan biri ortadan iri daşlar düzülməklə iki hissəyə ayrılmışdır. Axtarışlar zamanı Naxçıvanın orta əsrlər keramikası üçün səciyyəvi olan saxsı məmulatı və s. maddi mədəniyyət nümunələri əldə edilmişdir.

**CUĞA** – Culfa r-nundakı *Gülüstan* k.-nin keçmiş adı.

**CUĞA** – Culfa r-nunun Gülüstan (keçmiş Cuğa) k.-ndən şm.-q.-də, orta əsrlərə aid yaşayış yeri. Şm.-da hündür dağ silsiləsi, c.-da Araz çayı, q.-də qəbiristanlıqla (bax *Cuğa nekropolu*) məhdudlaşır. Araz çayının sol sahilində ensiz zolaq şəklində q.-dən ş.-ə doğru uzanır. Yaşayış binaları tamamilə dağıdılmış, tikinti qalıqları (xüsusilə bişmiş kərpic) ətrafa səpələnmişdir. Buradan müxtəlif kompozisiyalı ornamentlə naxışlanmış çəhrayı rəngli şirli və şirsiz saxsı məmulatı (fayansdan hazırlanmış kasalar xüsusilə diqqəti cəlb edir), mis siklələr və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılara əsasən C. -nın əsas fəaliyyət dövrü 11–17 əsrlərə aid edilir.

**CUĞA KARVANSARASI** – Azərb. memarlıq abidəsi. Culfa r-nunun Gülüstan (keçmiş Cuğa) k.-ndə, Araz çayının sol sahilindədir. C. k.-nın qalıqları 1974 ildə çöl-tədqiqat işlə-

Cuğa karvansarasının fraqmenti. 12–13 əsrlər



dir. Körpünün eni aşağı hissədə 7 *m*, hünd. daş özülə qədər 5 *m*, çaya qədər 6,5 *m*-dir. Tikinti texnikasına görə körpünün 16–17 əsrlərdə salındığı ehtimal edilir. C. k. 1998 ildə bərpa edilmiş və yenidən qurulmuşdur.

**CULFA MƏRTƏBƏSİ** – Culfa dərəsində Paleozoy çöküntülərinin geoloji kəsilişdə özünəməxsus paleontoloji qalıqların alt və üst təbəqələri. Lay dəstəsinin qalınlığı 40 *m*-ə qədərdir. Amerika tədqiqatçıları H. Şenk və digərləri tərəfindən 1941 ildə ayrılmışdır. C. m. əhəngdaşılarından və onlarla növbələşən argillitlərdən ibarətdir. Paleontoloji cəhətdən Araxoceras latissimum Ruzh., Vestcotoceras paralellum Ruzh., Pseudotoceras djoulfence (Abich) və s. ammonoidlər ilə səciyyələnir. C. m. Tetis qurşağında Paleozoy dövründə Perm sisteminin üst mərtəbəsi kimi dünyanın bir çox ölkəsində ayrılır.

**CULFA NEKROPOLU** – Culfa ş. yaxınlığında Tunc dövrünə aid qədim qəbiristan. 1939–40 illərdə Culfa d.-y. xətti çəkilərkən təsadüfən aşkar olunmuşdur. Dağıdılmış daş qutu qəbirlərdən ibarətdir. Ərazidən monoxrom və polixrom boyalı gil qablar (küpə, kasa, çaydan və qədəh tipli qab nümunələri), yüksək sənətkarlıqla hazırlanmış müxtəlif tunc bəzəklər (üzəri cızma ornamentlə naxışlanmış bilərzik və boyunbağılar), metal əşyalar (yastı tiyəli, şəbəkəli dəstəyi olan xəncər, Ön Asiya tipli dörd xəncər, ox və nizə ucluqları, sancaqlar, tunc toppuz və s.) aşkar olunmuşdur. Əldə olunmuş materiallar Gürcüstan Dövlət Tarix Muzeyində saxlanılır. Tapıntılar e.ə. 13–9 əsrlərə aid edilir.

*Əd.*: Ə l i y e v V. H., Culfa arxeoloji tapıntıları, Azərb. SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası),1968, № 3.



**Culfa nekropolu tapıntıları:**
*1, 2, 8, 9. Küpə tipli sadə və boyalı gil qablar. 3. Qədəh tipli gil qab. 4. Badya tipli gil qab. 5, 7, 13. Kasa tipli gil qablar. 6. Çəkmə formalı gil qab. 11. Gil qab altlığı. 12. Çaydan tipli gil qab. 14. Üçayaqlı gil vaza. 15, 17. Tunc bəzəklər. 16. Tunc xəncər hissəsi. 17. Tunc toppuz. 19, 20, 21. Tunc xəncərlər. 22, 23, 24. Tunc sancaqlar.*

**CULFA RAYON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ** – 1980 ildən Culfa ş.-ndə fəaliyyət göstərir. Nax.MR Mədəniyyət Nazirliyi sistemindədir. 5 şöbədən ibarətdir. Muzeydə 2 mindən çox eksponat – mis və saxsı qab nümunələri, bəzək əşyaları, bədii tikmə və milli geyimlər, toxuculuq məmulatı, məişət əşyaları r-n ərazisindəki tarixi-memarlıq abidələrinin rəsmləri, fotoşəkillər və s. toplanmışdır. R-n ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində əldə olunmuş maddi mədəniyyət nümunələri muzeydə xüsusi yer tutur.

**CULFA RAYONU** – Nax. MR-də inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şm.-ş.-də Ermənistan, c.-da İranla həmsərhəddir. Sah. 1,0 min $km^2$. Əh. 37 min nəfər (2001, 1 yanvar). R-nda 1 şəhər, 24 kənd və b. yaşayış məntəqələri var. Mərkəzi Culfa ş.-dir. Xəritə, bax səh. 57.

**Təbiət.** R-nun Ermənistan ilə sərhədi boyu Zəngəzur silsiləsinin yal hissəsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq *Arazboyu düzənliklərə* (Culfa düzənliyi və s.) keçir. R-nun ən yüksək nöqtəsi Ermənistan Respublikası ilə Ordubad r-nu arasındakı sərhəd xətlərinin kəsişdiyi yerdə olan Dəmirlidağdır (3364 *m*). Tabaşir-Neogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: mərgmüş filizləri, gips, gəc və s. Mineral sular (Darıdağ, Nəhəcir və s.) çıxır. Ərazinin çox hissəsinində yayı quraq və isti keçir. Arazboyu ərazidə yayı quru isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temp-r yanvarda –10-dan –3°C-yə qədər, iyulda 19–28°C-dir. İllik yağıntı 200–600 *mm*. Çayları (Əlincə, Qaradərə və s.) Araz hövzəsinə aiddir. Su anbarları yaradılmışdır. Əsasən, dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-şabalıdı, boz, çəmən-boz, allüvial-çəmən torpaqları yayılmışdır. Arazboyu düzənlikdə və alçaq



**Culfa rayonu.** *1. Bənənyar su anbarı. 1987. 2. Nəhəcir kəndi. 3. Şəhidlərə abidə. 4. Culfa körpüsü. 5. Darıdağ Karbon Qazı Zavodu. 1988.*



1

2



3



4



5



*Culfa rayonu. 1. İlandağ (H a ç a d a ğ) ətrafı. 2. Rayon İcra Hakimiyyətinin binası. 3. İstirahət guşəsi. Culfa şəhəri. 4. Culfa dəmiryol vağzalı. 5. Yaylaqda.*



dağlıq sahələrdə səhra və yarımsəhra, orta dağlıqda isə dağ-kserofit bitkiləri, yüksək dağlıq sahədə dağ çölləri, subalp çəmənləri var. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir. Heyvanları: muflon, qaya-keçisi, canavar, tülkü, boz dovşan, ular və s.

**Əhali.** R-nun əhalisi 1980 illə müqayisədə 2001 ildə təqr. 14400 nəfər, yaxud 65% artmışdır. Orta sıxlıq 1 $km^2$-də 37 nəfərdir. İri yaşayış məntəqələri Culfa ş., Yaycı, Əbrəqunis və Bənənyar k.-ləridir.

**Təsərrüfat.** C. r., əsasən, üzümçülük və heyvandarlıq r-nudur. K.t.-na yararlı torpaqlar təqr. 26 min *ha*-dır (1998). Suvarılan torpaqlar 4,6 min *ha*-dır. Dənli və dənli-paxlalı bitkilər, yem bitkiləri və s. əkilir. Az miqdarda tütün və tərəvəz becərilir. 295 *ha* üzümlük var. Meyvə yetişdirilir. 1998–99 illər ərzində Culfa r-nunun bütün təsərrüfat formaları üzrə istehsal edilən bitkiçilik məhsullarından taxıl istehsalı 15,5%, kartof istehsalı 62,5%, tərəvəz istehsalı 3,7 dəfə, bostan məhsulları istehsalı 144 dəfə, meyvə istehsalı 2,2 dəfə artmışdır. 2000 ildə C.r.-nunda 1970 illə müqayisədə yumurta istehsalı istisna olmaqla, heyvandarlıq məhsullarının hamısında artıma nail olunmuşdur. İnək və camışların sayı 2001 ildə əvvəlki illərə nisbətən ən yüksək göstərici olmaqla 1970 ildəkindən 31 dəfə yüksək olmuşdur. Xırda buynuzlu heyvanların sayı da əvvəlki illərlə müqayisədə xeyli artmışdır. R-nda 10930 baş qaramal, o cümlədən 5086 baş inək və camış, 68568 baş davar, 36600 quş var (2001). Muxtar respublikadakı qaramalın 16,1%-i, o cümlədən inək və camışların 13,3%-i, davarın 17,2%-i C. r.-nun payına düşür (2000).

Mədən sənayesi, karbon qazı z-du, gəc sexi, k.t. texnikası təmiri müəssisəsi və s. var. 1970 ildə muxtar respublikada sənaye məhsulunun 4,5%-i, 1980 ildə 6,1%-i, 1990 ildə isə cəmi 3,0%-i C. r.-nun müəssisələrində istehsal edilmişdisə, 1998 ildə bu rəqəm 7,1% olmuşdur. 1998 ildə muxtar respublikadakı kapital qoyuluşunun 2,3%-i, istifadəyə verilmiş əsas fondların 2,0%-i, cəmi əmtəə dövriyyəsinin 0,4%-i, əhaliyə göstərilən pullu xidmətlərin 4,3%-i C. r.-nun payına düşmüşdür. Bakı–Yerevan d.-y. [Culfadan Təbrizə xətt ayrılır], Ordubad–Naxçıvan avtomobil yolu C. r.-nundan keçir. Ermənistanın təcavüzü nəticəsində d.-y. və nəqliyyat əlaqələri pozulmuşdur.



*Miosen vulkanogen qatı. Culfa bölgəsi*

**Tarixi–arxeoloji abidələr və memarlıq**. C. r. ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində e.ə. 3-cü minilliyin ortalarından başlayaraq son orta əsrlərədək xeyli abidə qeydə alınmışdır. Tapıntılar bölgənin qədim sakinlərinin əkinçilik, maldarlıq, ovçuluqla məşğul olduğunu göstərir. E.ə. 3–2-ci minilliklərdə bu ərazidə (Ərəfsə, Bənənyar, Göydərə və s.) boyalı qablar mədəniyyəti, e. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərində Xocalı–Gədəbəy arxeoloji mədəniyyəti yayılmışdı (Bəyəhməd, Ağsal, Ləkətağ, Nəhəcir, Culfa və s.). Əlçatmaz qayaların zirvələrində inşa edilmiş və möhtəşəm qala divarları ilə əhatələnmiş Qazançı qalası e. ə. 3–1-ci minilliklər boyu yadelli işğalçılara qarşı mübarizə meydanı olmuşdur. Tədqiqatlar zamanı Bəyəhməd nekropolunda kəllənin və skeletin müəyyən hissələrinin ayrıca qoyulmasına, Camaldin antik nekropolunda qəbirə balıqqulağı qoyulması adətinə təsadüf edilmişdir. Milax k. yaxınlığındakı Zoğallı abidəsindən 6–7 əsrlərə aid orijinal tunc *qrifon* tapılmışdır.

Memarlıq abidələrindən Cuğa (indiki Gülüstan) k.-ndə türbə (*Gülüstan türbəsi*), karvansara (13 əsr), kəndin yaxınlığında, Araz çayı üzərində körpü (13 əsr), Xanağa k.-ndə Əlincəqala (12–13 əsrlər), Əlincəçay xanəgahı (12 əsrin sonu – 13 əsrin əvvəlləri), Qazançı k.-ndə körpü (1551), hamam (17 əsr), məscid (19 əsr) orta əsrlərə aid qala divarları, bürclər və s. mühafizə olunmuş, yenidənqurma və bərpa işləri aparılmışdır.

**Mədəni quruculuq və səhiyyə**. R-nun 18 məktəbəqədər müəssisəsində 767 uşaq tərbiyə olunur, 28 ümumtəhsil və 1 peşə məktəbində 8162 şagird oxuyur (2000). R-nda 45 kitabxana, 22 klub müəssisəsi, muzey fəaliyyət göstərir (2000). R-nun sosial-siyasi, iqtisadi və mədəni həyatını işıqlandıran Culfa R-n İcra Hakimiyyətinin "*Arazın səsi*" qəzeti çıxır (1935 ildən). Azərb. və Nax. MR televiziya



*Araxçın. Cülmətikmə. 19 əsr. Ordubad*

verilişlərinə baxılır. R-nda 240 çarpayılıq 5 xəstəxana müəssisəsi, 21 feldşer-mama məntəqəsi, 2 gigiyena-epidemiologiya mərkəzi fəaliyyət göstərir, 34 həkim, 243 orta tibb işçisi çalışır (2001).

**CULFAÇILIQ** – Azərb.-da, xüsusilə Naxçıvan ərazisində pambıq parça (bez, cecim və s.) toxuculuğu ilə bağlı ənənəvi sənət növü. Keçmişdə pambıq parçanın özünəməxsus istehsal texnologiyası olmuşdur. Toxuma prosesi culfa adlanan dəzgahda nirəşana və məkik vasitəsilə icra olunurdu. Cecim toxumaq üçün iplik əvvəlcədən müxtəlif rənglərə boyanırdı. Əsasən, ev peşəsi səciyyəsi daşımışdır. Ənənəvi bez istehsalında başlıca yeri şəhər karxanaları tuturdu. Naxçıvan, Culfa, Ordubad ş-lərində C. kustar sənət və əmtəə istehsalı səviyyəsinə qalxmışdı. C.-da bez istehsalı əsas yer tutduğundan, bu sənət bəzzazlıq da adlanmışdır. 19 əsrin 30-cu illərində Ordubad əhalisinin yarıya qədəri bəzzazlıqla məşğul olurdu.

**CÜLMƏTİKMƏ** – bədii tikmə növü. Bu növ tikmələrə Naxçıvan və Ordubad ş.-lərində daha çox təsadüf edilir. İşlənmə texnikasına görə piləkli tikməyə yaxındır. C.-də metal pilləyi müxtəlif rəngli ipək, pambıq, yun saplarla tikilmiş kiçik dairəciklər əvəz edir. C. üçün qırmızı rəngli tafta və ya tirmə parça üzərində ağ rəngli sapla həndəsi motivlər, nəbati naxışlar səciyyəvidir. Ən çox baş geyimlərində (araxçın, şəbkülah) tətbiq edilir. Bəzən don, tuman, küləçənin ətək və yaxalıqları da C. ilə bəzədilirdi.

*Əd.:* Ə l i y e v a G. Naxçıvan bədii tikmələri, Azərb.SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, № 8.

*Cümə məscidinin arxadan görünüşü. Ordubad şəhəri.*



**CÜMƏ MƏSCİDİ,** O r d u b a d d a – orta əsrlərə aid memarlıq abidəsi. Şəhərin mərkəzi meydanının ən hündür yerində ucalan məscid möhtəşəmliyi ilə diqqəti cəlb edir. Məscidin memarlıq görkəmi 17–18 əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır. C.m.-nin ş. qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xəttilə farsca beş sətirlik fərmanı həkk edilmişdir. 1604 ilə aid olan bu fərmanda deyilir: "Ordubad qəsəbəsinin bütün əhalisinin ...Şah Abbas sülaləsinə etimadını, onların şiə məzhəbli olduqlarını nəzərə alaraq sənətkarlardan, əsnaflardan, bağlardan, əkin yerlərindən, dəyirmanlardan toplanan ixracat, itlaqat, nüzul, əvariz, qonalqa vergilərindən ibarət olan malcəhət və vücuhatı azaldıb (tədricən) ləğv etsinlər, onları Azərbaycan boniçesindən çıxsınlar və divan itlaqatından xaric etsinlər". Bu fərman da C.m.-nin son orta əsrlərdə formalaşdığını deməyə əsas verir. Lakin məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. 17 əsrdə isə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. Bəzi mənbələrə görə, 1902/03 ildə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpicdəki yazıdan onun 12–13 əsrlərdə tikildiyi aydın olur. C.m.-nin c.-undakı meydanda vaxtilə karvansaralar, dükanlar olmuşdur. Bu meydanla məscid sahəsi o vaxtlar vahid mərkəzi kompleks təşkil edirdilər. Tədqiqatçılar C.m.-nin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şm.-ş.-ində mədrəsə, q.-ində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987 ildə əsaslı surətdə bərpa olunmuşdur.

*Əd.:* S a l a y e v a R., Ordubadın ulu daşları, "Qobustan" 1971, № 1; Н е м а т о в а М., Указ 1072/1604 г. в Соборной мечети Ордубада. "Эпиграфика Востока", Л., 1967, № XVIII.

**CÜMƏ MƏSCİDİ,** N a x ç ı v a n d a – memarlıq abidəsi. 18–19 əsrlərdə Hüseyn Təbrizi adlı şəxs tərəfindən tikilmişdir. Ümumi sah. təqr. 1000 $m^2$-dir. Bir minarəlidir. 2000 ildən Naxçıvan şəhər məscidi kimi fəaliyyət göstərir.



# Ç

**ÇAHARTAQ QƏBİRİSTANI** – Ordubad ş.-ndən 2 *km* ş.-də orta əsrlərə aid arxeoloji abidə. Torpaq qəbirlərdən ibarət olub geniş bir ərazini əhatə edir. Qəbirlər q.-dən ş.-ə doğru istiqamətlənmişdir; düzbucaqlı formadadır. Bəzi qəbirlərin ətrafı orta həcmli daşlarla əhatələnmişdir; onların əksəriyyəti torpaq çöküntüləri ilə örtüldüyündən yaxşı izlənilmir. Burada sənduqə tipli qəbirüstü abidələrə də rast gəlinir. Bəzilərinin üzərində ərəbcə kitabə var. Ç. q. 16–18 əsrlərə aid edilir.

**ÇAXMAQLIDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Bist k.-ndən 2 *km* şm.-q.-dədir. Hünd. 2018 *m*.

**ÇALXANQALA** (1990 ilədək Ə z n ə b ü r t) – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 33 *km* şm.-q.-də, Dərələyəz silsiləsinin c. ətəyindədir. Əh. 2140 nəfərdən çox (2000); taxılçılıq, üzümçülük, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, kitabxana, poçt şöbəsi, rabitə qovşağı, xəstəxana, uşaq bağçası var. Yaxınlığındakı qədim *Çalxanqala* qalasının adı ilə adlandırılmışdır.

**ÇALXANQALA** – Naxçıvan ş.-ndən 22 *km* şm.-q.-də, təbii cəhətdən əlverişli mövqedə Tunc dövrünə aid qala. Paiz k. yaxınlığında, Cəhriçayın sağ sahilində, hündür təpə üstündədir. İri qaya daşlarından bərkidici məhlul işlədilmədən hörülmüşdür. Qalaya təkcə c. tərəfdən giriş yolu var. Tunc dövrü siklop tikililərinə aid olan Ç.-nın dövrümüzədək gəlib çatmış divarının uz. 450 *m*, hünd. 2,5–3 *m*, eni 2,7–3 *m*-dir. Ehtimala görə, Ç. Naxçıvan ərazisində e.ə. 2-ci minillikdə təşəkkül tapmış iri tayfa ittifaqının əsas müdafiə qalası olmuşdur.

*Əd.:* А л и е в В. Г., Культура эпохи средней бронзы Азербайджана, Б., 1998.



*Çalxanqala abidəsinin divarları*

**ÇALXANQALA** – Babək r-nunun Çalxanqala k.-nin c.-q.-ndə son Tunc dövrünə aid yaşayış yeri. 1978 ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Tədqiqatlar zamanı qalınlığı 2 *m* olan mədəni təbəqə müəyyənləşdirilmişdir. Aşınma nəticəsində mədəni təbəqə dağılmış, zəngin arxeoloji material üzə çıxmışdır. Müəyyən edilmişdir ki, mədəni təbəqə kül qarışıq gil laylarından ibarət olub, maddi mədəniyyət qalıqları ilə zəngindir. Buradan keramika məmulatı qalıqları, xırda buynuzlu heyvan sümükləri, çaxmaqdaşı qırıntıları tapılmışdır. Gil qablar, əsasən, üzəri qara və qırmızı rənglərlə naxışlanmış monoxrom boyalı qablardan ibarətdir. Dalğalı və düz xətlərlə,

*Çalxanqalanın bərpa layihəsi*



cızma ornamentlərlə bəzədilmiş boz və qırmızı rəngli sadə gil qablara da təsadüf olunmuşdur. Tapıntılar arasında tufdan düzəldilmiş dən daşları, həvəng və dəstələr, sürtgəclər və s. var. Yaşayış yeri e. ə. 2-ci minilliyə aid edilir.

**ÇALXANQALA KURQANLARI** – Babək r-nunun Çalxanqala k. yaxınlığında, Naxçıvan ş.-ndən 40 *km* şm.-q.-də e. ə. 2-ci minilliyə (son Tunc dövrü) aid arxeoloji abidə. Kurqanlar konusvarı formada olub, diametri 8–10 *m*, hünd. 1,2 *m*.-dir. Ç. k. altında dördkünc formalı torpaq qəbir yerləşir. Kurqanlardan gil məmulatı (çəhrayı astarlı qara qablar, o cümlədən boyalı qablar, boz rəngli qablar və s., tuncdan xəncər, nizə ucları, skelet qalıqları), bəzək əşyaları (sancaq, düymə, muncuqlar və s.) tapılmışdır. Boyalı qablar Qızılvəng, Zurnabad, Nəhəcir, I və II Kültəpədən tapılmış qablarla tam oxşardır. Müxtəlif formalı qırmızı rəngli boyalı gil qabların üzəri tünd qırmızı rənglə örtülmüş, qara rənglə həndəsi naxışlarla bəzədilmişdir (bunlar çox güman ki, Kür-Araz mədəniyyətinin təsiri ilə bağlıdır). Tunc xəncər yastı tiyəli və qısa dəstəklidir. Nizə ucları iki növdür. Boruşəkilli dəstəyi olan nizə ucu orta Tunc dövrü üçün, romb formalı yastı nizə ucu isə Kür-Araz mədəniyyəti üçün səciyyəvi olub, Qobustan kurqanından tapılmış nizə uclarına oxşardar. Ç. k. -ndan Yaxın Şərq ölkələrindən gətirilmiş göy şirli muncuqlar da aşkar olunmuşdur. Tapıntılar Azərb.,-ın, o cümlədən Naxçıvanın Tunc dövrü materiallarını və Yaxın Şərq ölkələri ilə qədim iqtisadi və mədəni əlaqələrini öyrənməyə imkan verir. Ç. k. Naxçıvan ərazisində tədqiq edilmiş ilk kurqandır.

*Əd.:* Ə l i y e v V. H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; y e n ə o n u n, Новые материалы о культуре расписной керамики в Азербайджане. "Советская археология", 1967, № 1.




*Çalxanqala kurqanları tapıntıları: 1.2.7. Badya tipli gil qablar. 3.4.5.11. Küpə tipli sadə və monoxrom boyalı gil qablar. 6. Kasa tipli monoxrom boyalı gil qab. 8. Tunc xəncər. 9. Tunc sancaq. 10. Tunc nizə ucu.*

**ÇALXANQALA TUF YATAĞI** – Babək r-nu ərazisində, Çalxanqala k.-ndən 6 *km* ş.-dədir. Geoloji quruluşunda Alt Tabaşir dövrünün Alt mərtəbəsinin çəhrayımtıl-boz və çəhrayı rəngli, xırdadənəli tuflarından ibarət vulkanogen qat iştirak edir. Vulkanogen qat yuxarıdan aşağıya doğru kvars-porfirit, tuf-brekçiya, tuf-qumdaşı və tuf-lavadan ibarətdir. Qatın ümumi qalınlığı 140 *m*-ə çatır. Yataq tektonik cəhətdən Yaycı–Əznəbürt sinklinalının c.-q. qanadında yerləşir və monoklinal yatım təşkil edir. Sah. 1 $km^2$, faydalı qatın öyrənilən qalınlığı 20–25 *m*-dir. Tuflar "200"–"4400" markalı divar daşı istehsalına yararlıdır. Yataq 1977 ildən konservasiya olunub; sənaye ehtiyatı 243 min $m^3$-dir.

**ÇANAQ** – Sədərək r-nunun Sədərək k. yaxınlığında son Tunc və ilk Dəmir dövrünə aid yaşayış yeri. Arxeoloji qazıntı aparılmamışdır. Kəşfiyyat səciyyəli tədqiqatlar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinə əsasən Ç. yaşayış yerinin e.ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

**ÇAPARXANLI MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Bəzi mülahizələrə görə, Ç.m. çapar (qasid) sözü ilə bağlıdır. Deyilənlərə görə, keçmişdə çaparların, "poçt atları" saxlayanların çoxu bu məhəllədə yaşadığından məhəllə belə adlanıb. İlk adı Ç a p a r x a n a olub. Şəhərdə poçt məntəqəsi də Ç. m.-ndə yerləşirmiş. Çaparlar burada atlarını dəyişib, digər məntəqələrə məktub, xəbər aparıb- gətirirmişlər.

**ÇEŞMƏBASAR** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* aralı, Naxçıvan–Ordubad avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 883 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, poçt şöbəsi, məscid var.

**ÇEŞMƏBASAR GİL YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 12–13 *km* c.-ş.-dədir. Geoloji quruluşunda Orta Miosenin boz rəngli, bərk, zəif sementləşmiş, incə və orta dispersliliyə malik gil süxurları iştirak edir; bunlar hər yerdə Orta Dördüncü dövr yaşlı kontinental çöküntülərlə – pis sortlaşmış qumlu-çınqıllı-gilli çöküntülərlə örtülmüşdür. Sah. 0,2 $km^2$, faydalı qatın qalınlığı 17–19 *m*-dir. Laboratoriya və yarımzavod tədqiqatlarının nəticələrinə görə, gil aqloparit istehsalına yararlıdır. Yataqda aparılmış əlavə tədqiqatların nəticələrinə görə isə, gildən "125" markalı kərpic istehsalında istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 3417 min $m^3$-dir.



**ÇƏCİK** – qadınların boyunlarına bağladıqları bəzək əşyası. Naxçıvan bölgəsində geniş yayılmışdır. Formasına görə böyük Ç. və kiçik Ç. vardır. *Qarabatdaq* zərgərlik məmulatından fərqli olaraq, Ç.-də müxtəlif formalı boğazaltının aşağı hissəsindən üzərində qiymətli daşlardan bəzəyi olan ətəklər, ondan sonra isə ay-ulduz-yarpaq formalı bəzəklər asılır. Naxçıvan bölgəsinin bəzi kəndlərində çəmbərə adlanır. 19 əsr Naxçıvan zərgərlərinin hazırladıqları Ç.-lər qiymətli sənət nümunələri kimi bir çox muzeylərdə saxlanılır.

**ÇƏNƏNƏB** – Ordubad r-nunda çay. Gilançayın qolu. 1050 *m* hünd.-dən başlanır. Uz. 9 *km*. Qar, yağış suları və yeraltı sularla qidalanır.

**ÇƏNƏNƏB** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 32 *km* şm.-q.-də, dağ ətəyindədir. Əh. 486 nəfər (2000); bağçılıq, heyvandarlıq, əkinçilik və arıçılıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ÇƏNƏNƏB KÖRPÜSÜ** – Ordubad r-nu ərazisində, Çənənəb k.-nin 12 km-liyində, Düylün çayının üzərindədir. Uz. 10 paqonometr. 19 əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Yüksək inşaat texnikası səviyyəsində tikilmiş körpü milli memarlıq səviyyəsini və möhkəmliyini qoruyub saxlamışdır. Körpünün 1996 ildə yenidən qurulması və bərpası nəticəsində Çənənəb k. magistral yola çıxış əldə etmişdir.

**ÇƏNGƏL** – qadınların başlarına bağladıqları zərgərlik məmulatı. Bəzək əşyası kimi Naxçıvan bölgəsində geniş yayılmışdır. Qızıldan və gümüşdən nəfis şəkildə hazırlanan Ç. daha çox yaşlı qadınların baş örtüklərini (yaylıqlarını) saxlamaq üçün istifadə edilirdi. Hər iki ucunda baş geyiminə bərkitmək üçün qarmaq (ç ə n g ə l) olduğundan belə adlandırılmışdır. Boğazın altından keçdiyindən Azərb.-ın bəzi bölgələrində b o ğ a z a l t ı da adlanır.

**ÇƏRÇİBOĞAN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 2,5 *km* c.-dadır. Əh. 3120 nəfər (2000); heyvandarlıq, pazıçılıq (çuğundurçuluq) və yemçiliklə məşğuldur. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, klub, kitabxana, xəstəxana, ATS, məişət obyektləri, məscid var.



*Çəçik. 19 əsr. Naxçıvan. Azərb. Tarixi Muzeyi.*

**ÇƏTİRDAŞDƏRƏSİ** – Şahbuz r-nu ərazisində çay. Nurs çayının (Naxçıvançay hövzəsi) sol qolu. Şahbulaq gölündən bir qədər aşağıdan, 2375 *m* hünd.-dən başlanır. Uz. 7 *km*. Əsasən, bulaq və qar suları ilə qidalanır.

**ÇİLƏDANI** – Sədərək r-nunun Sədərək k. yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Arxeoloji qazıntı işləri aparılmamışdır. Əldə olunmuş yerüstü maddi mədəniyyət nümunələrinə əsasən Ç. yaşayış yerinin e. ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.

**ÇOBANİLƏR** – 14 əsrin 40–50-ci illərində Azərb.-da və qonşu vil.-lərdə faktiki ağalıq etmiş feodal qrupu. Türk-monqol mənşəli sulduz tayfasından törənmişlər. Çingiz xanın [1206–27] hərbi yürüşlərində fəal iştirak etmiş sulduz tayfası 13 əsrin ortalarında Hülaku xanın hərbi hissələri tərkibində Azərb.-a gəlmiş və Urmiya gölü sahilində məskunlaşmışdılar. Bu tayfadan çıxmış əmir Çoban Qazan xanın, Məhəmməd Ölcaytunun və Əbu Səidin dövründə 30 ildən çox (1295–1328) Hülakular dövlətinin baş əmiri (əmir ül-ümərə) olmuş və bir müddət Əbu Səidin azyaşlı olmasından istifadə edib, əslində, ölkənin hakiminə çevrilmişdi. Oğlanları Diməşq xacə, Teymurtaş, Mahmud, Həsən Azərb., Rum (Kiçik Asiya), Gürcüstan və Xorasan vilayətlərini idarə etmişlər. Sonralar sulduz tayfası Çobanın adı ilə Ç. adlanmışdır.

Əmir Çoban 1328 ildə öldürüldükdən sonra Ç. Rumun Qarahasar qalasında və ətrafında məskunlaşmış və 1335 ildə yenidən hakimiyyət uğrunda mübarizəyə qalxmışlar. Çobanın nəvəsi Şeyx Həsən ibn Teymurtaş (Kiçik Həsən) 1338 ildə Təbrizi tutmuş və Hülaku şahzadəsi Satıbəy xatunu [1338–40] padşah elan edib, ölkəni onun adından idarə etmişdir. 1340 ildə o, Satıbəy xatunu Süleyman xanla [1340–44] əvəz etdi. Ç.-in nüfuz dairəsinə Azərb.-dan başqa, İraq-i

Əcəm, Həmədan, Qum, Kaşan, Rey, Vəramin, Furqan, Gürcüstan və Ermənistanın xeyli hissəsi daxil idi. Həsən 1343 ildə öldürüldükdən sonra qardaşı Məlik Əşrəf hakimiyyətə yiyələnmiş və Süleyman xanı taxtdan salaraq, Ənuşirəvan-i Adili [1344–55] padşah elan etmişdi. Qəddarlığı ilə məşhurlaşmış Əşrəf soyğunçuluq və qarət hesabına 17 xəzinə toplamışdı. Əşrəf Çobani 1355 ildə Ənuşirəvanı Həsən xanla [1355–57] əvəz etdi. Əşrəfin edamı ilə (1357) Ç.-in Azərb.-dakı ağalığına son qoyuldu. Ç. Azərb.-da müstəqil, sözün əsl mənasında hüquqi dövlət təsis edə bilməmiş və faktiki hakimiyyət sürmüş feodal qrupu kimi tanınmışlar. Onlar özlərini padşah elan etməmiş, öz adlarına sikkə kəsdirməmiş, xütbə oxutdurmamış, qonşu dövlətlər tərəfindən müstəqil dövlət kimi tanınmamışlar və öz hökmranlıqlarını hüquqi cəhətdən əsaslandırmaq məqsədilə Hülaku şahzadələrini padşah (sultan) kimi mühafizə etmişlər. Ç.-in ağalığına son qoyulması ilə Hülakular dövləti süquta uğramışdır.

Naxçıvan əyaləti Ç.-in ağalığı dövründə Azərb.-ın 9 tümənindən biri idi. Həmin dövrdə Naxçıvan Teymurtaş Çobaninin qulamı Ələki Bahadır tərəfindən idarə olunurdu. O, 1343 il Təbriz yürüşündə, 1351 il Qarabağ iğtişaşının yatırılmasında fəal iştirak etmişdi. Tanınmış siyasi xadim Şərəfəddin Naxçıvani də Ç. dövründə mühüm dövlət vəzifələrində çalışmış, 1350 ildə Əşrəfin İsfahana yürüşündə iştirak etmiş və şəhərdə Hülaku hökmdarı Ənuşirəvanın adından sikkə zərb etdirib, xütbə oxutdurmuşdur.

Ç.-in qarətçilik siyasəti Naxçıvan bölgəsinə ciddi təsir göstərdi. Bütün Azərb. əhalisi kimi, Naxçıvan əhalisi də vətənlərindən didərgin düşərək, Gilana, Şirvana, Qızıl Orda dövlətinə, Şama, Ruma və s. yerlərə səpələndi.

*Əd.:* P i r i y e v V. Z., Azərbaycan Hülakulər dövlətinin tənəzzülü dövründə, B., 1978; А л и з а д е А. А., Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв., Б., 1956.

**ÇOBANKƏRƏLİ CƏFƏR** [Cəfər Məmiş oğlu C ə f ə r o v; 1883, Zəngibasar r-nunun (Qərbi Azərb.) Çobankərə k. – 1970] – aşıq. 1918 ildə daşnaklar tərəfindən deportasiyaya məruz qalmış, 1922 ildən Şıxmahmud k.-ndə (Babək r-nu) yaşamışdır. Qoşma və gəraylıları ("Kimi", "Olarmı?", "Səhnə xanım", "Gözəl" və s.) sənətkarlıq baxımından seçilir. Dastanların, saz havalarının mahir ifaçısı idi.

*Əd.:* Azərbaycan folkloru antologiyası, c.1. Naxçıvan folkloru, B., 1994.

**ÇOMAXTUR,** Ç o m a r t ı – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 1 km c.-q.-də, Şərur düzündədir. Əh. 2999 nəfər (2000); üzümçülük, yemçilik, taxılçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var. Vaxtilə kənd Ç o m ə r d i adlanırdı.

**ÇUXURSƏD BƏYLƏRBƏYİLİYİ** – Səfəvilər dövlətinin inzibati vahidlərindən biri. 16 əsrin 1-ci yarısında yaradılmışdı. Mərkəzi İrəvan ş. idi. Təbriz (Azərb.) və Qarabağ bəylərbəyilikləri, habelə Osmanlı imperatorluğu və Gürcüstanla həmsərhəd idi. 17 əsrdən Naxçıvan vil. də Ç.b.-nin tərkibinə daxil edilmişdi. Ç.b. ustaclı, bir müddət isə qacar tayfasından olan əmirlər tərəfindən idarə olunurdu. Səfəvi– Osmanlı müharibələri zamanı Ç.b. ərazisi dəfələrlə əldən-ələ keçmişdi.

Səfəvi–Osmanlı müharibələri yenidən başlayarkən (1578) Çuxursəd bəylərbəyi Məhəmməd xan Ustaclı idi. Osmanlı ordusunun ilk hücumları məhz Ç.b.-nə yönəlmişdi. 1590 il İstanbul sülhünə əsasən Ç.b. Osmanlıların hakimiyyəti altına düşmüşdü.

17 əsrin əvvəlində I Şah Abbasın Osmanlı imperatorluğuna qarşı apardığı uğurlu müharibə nəticəsində Ç.b.-nin ərazisi, o cümlədən Naxçıvan bölgəsi osmanlılardan azad edilmişdi. Həm Səfəvi–Osmanlı müharibələri, həm də I Şah Abbasın "böyük sürgün" siyasəti Ç.b.-nin təsərrüfat və mədəni həyatına ağır zərbə vurmuşdu. Ç.b. geri qaytarıldıqdan sonra bəylərbəyi Əmirgünə xan Qacarın dövründə təsərrüfat, ticarət və sənətkarlıq nisbətən dirçəlmişdi. Bu zaman Naxçıvan vil.-nin hakimi *Maqsud Sultan Kəngərli* idi. 17 əsrdə Naxçıvan ş. ölkənin iqtisadi və mədəni cəhətdən inkişaf etmiş mərkəzlərindən biri sayılırdı. Ç.b.-ndə əhali əkinçilik, maldarlıq, sənətkarlıq, bağçılıqla məşğul olurdu. Ticarət inkişaf etmişdi. Səfəvilər dövlətinin tənəzzülü ilə Ç.b. inzibati ərazi vahidi kimi əhəmiyyətini itirməyə başladı.18 əsrin ortalarında Ç.b. ərazisində İrəvan və Naxçıvan xanlıqları yarandı.

*Əd.:* Bax *Təbriz bəylərbəyiliyi* məqaləsinin ədəbiyyatına.



# D

**DABAQLI DAĞI** – Culfa r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-ş. yamacındadır. Hünd. 2046 *m*. Künbəzvarı formadadır.

**DABBAQXANA MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə sənət və peşə ilə bağlı məhəllə. Bu, naxçıvanlıların qədimdən dəri aşılamaqla məşğul olduğunu təsdiqləyir. Hazırda mövcud olmayan həmin məhəllənin yerində eyniadlı çeşmə var.

**DAĞDAĞAN AŞIRIMI** – Şahbuz r-nu ərazisində aşırım. Zəngəzur silsiləsinin suayırıcındadır. Hünd. 2958 *m*.

**DAĞÜSTÜ SİLSİLƏ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Culfa ş.-ndən 4 *km* şm.-ş.-dən başlayaraq şm.-q.-ə doğru 16 *km* məsafədə uzanır. Ən hündür zirvəsi Darıdağdır (1927 *m*). C.-q. yamacı kəskin parçalanmışdır. *Darıdağ mineral su yatağı* D. s.-nin c.-ş.-ndədir.

**DAMLAMA** – Şərur r-nunda, Qarabağlar k.-ndən 3 *km* şm.-q.-də e.ə. 4–1-ci minilliklərə aid çoxtəbəqəli yaşayış yeri. Yerüstü tapıntılar gil qab sınıqlarından, dən daşları, obsidian (d ə v ə g ö z ü) lövhələr və ox ucluqlarından ibarətdir. Qazıntılar zamanı şlak qalıqları da aşkar olunmuşdur. Mədəni təbəqə torpaq qarışıq çürüntü laylarından ibarət olub, maddi mədəniyyət qalıqları ilə zəngindir. Ən qədim tapıntılar Eneolit dövrünə (saman qarışığı olan gildən kobud hazırlanmış, pis bişirilmiş qablar), müəyyən hissəsi isə ilk Dəmir dövrünə (gil qab sınıqları, ox ucluqları) aiddir.

**DANAQALASI** – Şərur nahiyəsində mövcud olmuş kənd. *"Naxçıvan sancağının müfəssəl dəftəri"*ndə Xəlifə k. yaxınlığında yerləşdiyi və həmin vaxt (1828) orada heç kimin yaşamadığı qeyd edilir. Mənbədə bu kəndin örüşlərindən istifadə edən qonşu kəndlərin ildə 3500 ağça vergi verdikləri göstərilir. Adının və coğrafi mövqeyinin Dana qalası (bax *Tana qalası*) ilə eyniliyi Tana qalası və Tənənəm k. arasındakı "kənd yeri", "köhnə kənd" deyilən xarabalıqların məhz D. kəndinə aid olduğunu ehtimal etməyə imkan verir.

**DANAQIRT** – Ordubad r-nunda kənd. Dırnıs bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 27,5 *km* şm.-ş.-də, Ordubad–Unus yolunun kənarındadır. Əh. 440 nəfər (2000); bağçılıq, meyvəçilik və əkinçiliklə məşğuldur.

**DANZİK** – Şərur r-nu ərazisində orta əsrlərə aid yaşayış yeri. Yaxınlığındakı qəbiristanlıqda qəbir abidələrinin sinə daşları – sənduqələr dövrümüzədək qalmışdır. Düzbucaqlı formalı sənduqənin bir üzü istisna edilməklə, digər tərəfləri cızma, döymə və oyma üsulu ilə zəngin nəbati təsvirlərlə bəzədilmişdir. Yaşayış yerinin xarabalıqlarından orta əsrlər üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılar 9–17 əsrlərə aid edilir.

**DANZİK** – Şərur r-nunda mövcud olmuş kənd. Son 300–350 il ərzində geniş ərazidə –Türkiyə, Qafqaz, İran, habelə Orta Asiyada yayılmış Əlixan nəslinin əsas yaşayış məskəni olmuşdur. Şərur r-nunun Gümüşlü və Ermənistanın Arpa yaşayış məntəqələri arasında yerləşmiş D. kəndi coğrafi mövqeyinə görə Şərur mahalının son ucu, Dərələyəz yaylasının qapısı olmuşdur. Arpaçayın sağ sahilində, Qaraağac pirinin yaxınlığındakı qədim Qara Qasım qəbiristanlığının, sol sahilində Qala dağının ətrafında Yastan deyilən yerdə köhnə qəbirlərin və uçmuş yaşayış binalarının, istehkamların olması, Qara Qasım qəbiristanlığındakı böyük və uzun məzarların oğuz qəbirləri adlandırılması həmin yaşayış məskənlərinin uzaq keçmişindən xəbər verir. "Danzik" adının bir neçə yozumu mövcud-



Darıdağ

dur. Ən inandırıcısı onun "Kitabi-Dədə Qorqud" dastanında "erkən dan sökülən yer" demək olan "Dansux" sözündən əmələ gəlməsidir. Dağ ətəyində yerləşən bu kənddə dan yeri daha tez ağarır, günəş erkən çıxırdı. 1976–78 illərdə Arpaçay dəryaçasının tikilməsi ilə əlaqədar D. kəndi köçürülmüş, ərazisinin əksər hissəsi dəryaçanın altında qalmışdır. Kənd camaatı 1990 ilin qanlı yanvarında Sədərək kəndi uğrunda döyüşlərdə çoxlu itki vermiş, sağ qalanları isə mərdliklə həlak olmuş danzikli Məmməd Məmmədovun (1949–90) adını daşıyan *Şəhid Məmməd* k.-ndə (əvvəlki adı Y e n i k ə n d) yaşayır.

*Əd.*: A k i f  İ m a n. "Kitabi-Dədə Qorqud" dastanlarında "Dansux" sözü, Naxçıvan Dövlət Un-tinin Elmi əsərləri, 1999, № 4.

**DARIDAĞ** – Culfa r-nu ərazisində, Dağüstü silsilənin ən yüksək zirvəsi. Əlincəçayla Qaradərə çayının arasındadır. Hünd. 1927 *m*. Konusvarı formadadır. D. ərazisində hələ 1920–30-cu illərdə aparılmış tədqiqatlar nəticəsində çox sayda faydalı qazıntı yataqları aşkar olunmuş, fiziki və kimyəvi tərkibi öyrənilmişdir. Dağın yuxarı hissələri əkin üçün yararlı olduğundan qədimdən burada dəmyə olaraq darı əkərmişlər. Ehtimal ki, D. adı bununla əlaqədardır.

Darıdağ balneoloji müalicəxanası.



**DARIDAĞ BALNEOLOJİ MÜALİCƏXANASI** – Culfa ş.-nin 8 *km*-liyində, Darıdağ mineral su yatağı ərazisindədir. Mineral su yatağının əsasında 1978 ildə yaradılmışdır. Burada Darıdağ mineral suyu ilə müxtəlif ürək-damar sistemi xəstəlikləri, dayaq-hərəkət orqanları, periferik əsəb sistemi, dəri, ginekoloji və s. xəstəliklər, daxilə qəbul etməklə anemiya müalicə olunur.

**DARIDAĞ KARBON QAZI ZAVODU** – Culfa ş.-nin 8 *km*-liyində, Culfa–Ordubad avtomobil yolunun solunda, *Darıdağın* ətəyində, Darıdağ mineral su mənbəyi ərazisindədir. Əvvəllər Azərb. Respublikası Yeyinti Sənayesi Nazirliyinin nəzdində idi. Sonralar mineral su yatağının bazası əsasında karbon qazının alınması məqsədi ilə kəşfiyyat işləri aparılmış, 1977 ildə Azərb. Milli EA nəzdində zavod yaradılmışdır. Karbon qazından mineral suların və şampan içkilərinin qazlaşdırılmasında və digər sahələrdə istifadə olunurdu. 1970-ci illərdə z-dun istehsal gücü çox aşağı olmuşdur. Buna görə də 1980 ildə həmin ərazidə sutkalıq istehsal gücü 30 *t* olan və müasir tələblərə cavab verən yeni z-d tikilib istifadəyə verilmiş, Azərb. Mineral Sular və Naxçıvan Mineral Sular Birliyinin sərəncamına keçmişdir.

**DARIDAĞ MƏRGMÜŞ YATAĞI** – Culfa r-nu ərazisində, Culfa ş.-ndən 8–9 *km* şm.-ş.-də, Darıdağ–Kəsəndağ dağlıq zolağındadır. Yataq 19 əsrin ortalarından məlumdur və vaxtilə istismar olunmuşdur. Geoloji quruluşunda Kampan, Danimarka (əhəngdaşı, mergel), Paleosen (qumdaşı, gil), Orta və Üst Eosen (tufogen-çökmə süxurlar), Alt və Orta Oliqosen (vulkanogen-çökmə süxurlar) yaşlı süxurlar iştirak edir. Bunlar yataq r-nunda şm.-q. istiqamətli Darıdağ antiklinalını əmələ gətirir. Filiz minerallaşması meredian istiqamətli çatlar boyunca təşəkkül tapmışdır. Yataqda üç tip filizləşmə qeyd olunur: şm. hissəsində ştokverk tipli realqar auripiqment filizləri, mərkəzdə yuvacıq tipli antimunit filizləri və c.-da mərgmüşlü bulaqların səthə çıxdığı yerdə möhtəvi (püruz) tipli realqar filizlər. Yatağın əsas (şm.) hissəsi qırışığın ox hissəsindən keçən yarılma zonasına aiddir və əsas ehtiyatlar bu hissədə toplanmışdır. Filiz cismi aşağıya doğru genişlənən ştokla təmsil olunur. Yataqda 4 filiz tipi ayrılır: 1. Tərkibində az miqdarda antimonit olan realqar və auripiqment; 2. Keyfiyyətli və nisbətən az rast gəlinən, əsasən, auripiqment, qismən realqar; 3. Yüksək keyfiyyətli və az rast gəlinən, üzərində qara rəngli melnikovit örtüyü olan toz halında auripiqment; 4. Zəngin filizləri əhatə edən və sənaye əhəmiyyəti olmayan keyfiyyətsiz yan süxurlar.

İlk 3 zəngin filizləşmə tipi filiz cismini təşkil edir. Filiz kütləsi realqar, auripiqment, antimonit, mərgmüşlü melonovit, pittisit, arsenopirit mənşəli olub, turş maqmanın püskürməsi ilə əlaqədardar.



**DARIDAĞ MİNERAL SU YATAĞI** – Culfa r-nu ərazisində, Culfa ş.-ndən 8 *km* şm.-ş.-də, Darıdağın ətəyində, dəniz səviyyəsindən 800–900 *m* hünd.-dədir. 5 bulaq və 32 kəşfiyyat quyusundan ibarətdir. Sular öyrənilmişdir. Yataq Tabaşir yaşlı alevrolit, mergel və tuflu qumdaşıların tektonik qırılmaları ilə əlaqədardır. Suyu karbon qazlı, mərgmüşlü, yüksək minerallaşmış xlorlu–hidrokarbonatlı–natriumludur; Kudova (Polşa), Lya-Burbul (Fransa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür. Temp-ru 53–57°C, ehtiyatı 4507 $m^3$/*gün* təsdiq edilmişdir.

Darıdağ mineral su mənbəyi.



Balneoloji tərkibi:

$$A5\,21\,mg/l\,CO_2\,0{,}8\,M\,20-23\frac{Cl64\,HCO_3 29}{(Na+K)93}$$

$$pH\,6{,}6\;D\,4507\,m^3/gün\;T\,40-53^\circ C$$

Naxçıvan Elm və Texnika Mərkəzində kimyəvi emal yolu ilə Darıdağ termal suyunun (DTS) quru qalığı alınmışdır. Su yatağı bazasında karbon qazı istehsal edən z.-d və müalicəxana fəaliyyət göstərir.

**"DARÜLMÜLK"**, "D ö v l ə t x a n a" (Şah iqamətgahı) – Naxçıvan ş.-ndə orta əsrlərə aid Azərb. memarlıq abidəsi. *Atabəylər memarlıq kompleksinə* daxil idi. Ətraflı məlumat üçün bax *Eldənizlər sarayı*.

**DAŞ KÖRPÜ** – Culfa r-nunun Ərəfsə k.-ndən şm.-ş.-də, Əlincəçayın üstündə orta əsrlərə aid Azərb. memarlıq abidəsi (*bax Culfa körpüsü*).

**DAŞARX NEKROPOLU** – Şərur r-nunun Yuxarı Daşarx k. yaxınlığında qədim qəbiristan. Arxeoloji qazıntı işləri aparılmışdır. Yerüstü tədqiqatlar nəticəsində ərazidən e. ə. 2–1 əsrlər üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

*Əd.*: S e y i d o v A. Q., Naxçıvan Tunc dövründə, B., 2000.

**DAŞBAŞI DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Düylün çayının sağ sahilində, Çənənəb k.-ndən 3 *km* şm.-q.-dədir. Hünd. 1708 *m*.

**DAŞDUZ** – Naxçıvan ş. bələdiyyəsi tərkibində qəsəbə. Naxçıvan ş.-ndən 18 *km* şm.-q.-də, dağ ətəyindədir. Daimi əhalisi yoxdur. Naxçıvan duz mədəni buradadır. Mədəndən duzu daşımaq üçün Başbaşı d.y. st.-na 12 *km* uz.-nda kanat yolu çəkilmişdir.



Daşarx nekropolundan aşkar olunmuş tapıntılar.



Dədə Qorqud meydanı. Naxçıvan şəhəri.

**DAŞQALA MAĞARASI** – Babək r-nunun Sirab k.-ndən şm.-q.-də, Sarıdağda qədim karst mağarası. Yerli əhali arasında Sirab mağarası da adlanır. Mağaranın qədim insan məskəni olduğu ehtimal edilir.

**DAŞQIŞLAQ** – indiki Sədərək r-nu ərazisində mövcud olmuş kənd. *"Naxçıvan sancağının müfəssəl dəftəri"nə* əlavə edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Sədərək nahiyəsində D. kəndinin olduğu, lakin həmin vaxt orada heç kimin yaşamadığı, onun əkin yerlərindən, otlaqlarından istifadə edən qonşu kəndlərin isə ildə 1000 ağça vergi verdiyi göstərilir. Kəndin adını Sədərək və Şərur rayonlarının tərkibində "Daş" sözü işlənən bir sıra toponimləri kimi, Daş Oğuzla (bax *Oğuzlar*) əlaqələndirmək mümkündür.



Dədəli körpüsü

**DƏDƏ QORQUD MEYDANI** – Naxçıvan ş.-nin əsas meydanlarından biri. Azadlıq prospektində, "Təbriz" mehmanxanasının önündə ulu Dədə Qorqudun əzəmətli abidəsi (müəllifi Nax. MR əməkdar incəsənət xadimi Elman Cəfərovdur) qoyulmuşdur. Hünd. 5,3 *m*. olan heykəldə dizi üstündə qopuz tutmuş Dədə Qorqud düşüncəli halda təsvir edilmişdir. Abidə "Kitabi-dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə yaradılmışdır (1999).

**DƏDƏLİ KÖRPÜSÜ** — Arpaçay üzərində, Dərələyəz qəsəbəsi ilə Əyar k.-ni birləşdirən birtağlı körpü. Ümumi uz. 30 *m*, eni 4 *m*, mərkəzdə suyun səthindən hünd. 12 *m*-dir. Körpünün sol tərəfinin özülü sahildəki sal daşın üstündə, sol tərəfinin özülü isə 2 *m* dərinlikdə qoyulmuşdur. Kənardan baxanda körpü göyə qalxan təyyarəni xatırladır. Orta əsr körpülərinin memarlıq üslubunda inşa olunmuş körpünün 13 əsrdə tikildiyi ehtimal edilir.

**DƏHNƏ DAĞI** – Şərur r-nu ərazisində dağ. Arazın sol sahilində, Dəhnə–Vəlidağ tirəsinin c.-q. hissəsində, "Qurd qapısı" keçidindən 3 *km* c.-q.-dədir. Hünd. 1154 *m*. Günbəzvarı formadadır.

**DƏHNƏ MİNERAL SU YATAĞI** – Sədərək r-nu ərazisində, Sədərək su nasosu st.-ndan 2 *km* q.-də, Vəlidağ d. y. st.-ndan 2,5 *km* aralıdır.

Balneoloji tərkibi:

$$CO_2 1{,}1 M 7{,}1 \frac{SO_4 45\, Cl 30\, HCO_3 25}{(Na+K)40\, Ca 30\, Mg 30} \cdot pH\, 6{,}9\ D\, 120\, m^3/gün\ T\, 16^\circ C$$

Suyu karbon qazlı, orta dərəcədə minerallaşmış, sulfatlı–xlorlu–hidrokarbonatlı, natriumlu–kalsiumlu–maqneziumludur. "Batolin" (Pyatiqorsk, Şimali Qafqaz) tipli müalicə suyu olub, işlətmə dərmanı kimi istifadə olunur.

**DƏHNƏ–VƏLİDAĞ TİRƏSİ** – Nax. MR-in şm.-q. hissəsində tirə. Araz çayının dərəsindən başlayaraq şm.-ş. istiqamətdə "Qurd qapısı" keçidinə qədər uzanır. Devon yaşlı çökmə və metamorfikləşmiş süxurlardan təşkil olunmuşdur. Yüksək zirvələri Dəhnə d. (1554 *m*) və Vəlidağdır (1244 *m*).

**DƏHRİ** Abbas (?–?) – aşıq (19 əsr). İndiki Ordubad r-nunun Dəstə k.-ndə anadan olmuşdur. Aşıqlıq sənətinə yiyələndikdən sonra Naxçıvan, İrəvan, Tiflis, Gəncə, Şəmkir, Güney Azərb.-ın Ələmdar, Mərənd, Təbriz, Xoy ş.-lərini gəzib-dolaşmışdır. Yazılı və şifahi xalq poeziyasının qoşma, gəraylı, bayatı, müxəmməs, təcnis və s. janrlarında şerlər yazmışdır. Muğam sənətinə yaxından bələd olmuşdur.





Dəmirçi kəndindən tapılmış saxsı məmulatı.

**DƏLİKDAĞ,** D ə l i k d a ş – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Düylün çayının sol sahilindədir. Hünd, 1782 *m*. C. və ş. yamacları sıldırımdır.

**DƏLMƏ** – Şahbuz r-nunda Yuxarı Remeşin k.-ndən şm.-q.-də orta əsrlərə aid yaşayış yeri. Yarnıx yaşayış yerindən xeyli aralıda, hündür təpənin yamacında arxeoloji abidə. Sah. 2500 $m^2$. Tikinti qalıqları pis saxlanmış, binalar dağılmış, daşları ətrafa səpələnmişdir. Yaşayış yerinin yaxınlığında nekropol yerləşir. Qəbirlərin üstündə bütöv sal daşlara təsadüf edilir. Başdaşıların bəzisinin üzərində xaç təsvirləri vardır. Yaşayış yerinin 5–7 əsrlərə aid olması ehtimal edilir.

**DƏMİRÇİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 11 *km* şm.-q.-də, Naxçıvan–Şərur avtomobil yolunun kənarında, Şərur düzündədir. Əh. 4723 nəfər (2000); pazıçılıq (şəkər çuğunduru), bostançılıq, tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğuldur. 2 orta məktəb, kitabxana, mədəniyyət evi, uşaq bağçası, xəstəxana, rabitə şöbəsi, 18 əsrə aid "Binamaz Əhməd" piri var.

**DƏMİRÇİ** – Şərur r-nunun Dəmirçi k. ərazisində, Naxçıvan–Sədərək avtomobil yolunun 70 *km* -liyində arxeoloji abidə. Vəlidağdan (hünd. 1244 *m*) ş.-dəki təpənin üstündə, qə-





Dəmirçi kəndindən tapılmış sal daş üzərində işarələr

dim karvan yolunun yaxınlığındadır. Buradan üç qatdan ibarət müxtəlif ölçülü sal daşlar aşkar edilmişdir (1998). 3-cü qatdakı daşların yer səthində qabartma üsulu ilə təsvir edilmiş işarələr var. Bu işarələrin Azərb.-da yazı mədəniyyətinin ilkin inkişaf pillələrindən biri olan ideoqramlar (obrazlı yazı) olduğu ehtimal edilir. Bu növ işarələr *Gəmiqaya rəsmlərində* e. ə. 2–1-ci minilliyin əvvəllərində təsvir edilmişdir (fərq yalnız bu abidələrdəki işarələrin işlənmə texnikasındadır). D. abidəsindən müxtəlif formalı keramika məmulatı da toplanmışdır. Keramika nümunələrinin ilk Dəmir dövrünə (e. ə. 1-ci minilliyin əvvəlləri) aid olduğu qeyd edilir.

*Əd.:* B ə d ə l o v Ə. H., M ü s e y i b o v N. Ə., Dəmirçi arxeoloji abidəsi, Naxçıvan Dövlət Un-tinin Elmi əsərləri, 1999, № 4.

**DƏMİRÇİLƏR** – qədim türk tayfası. Tarixçi Şihabəddin Nəsəvinin (13 əsr) məlumatına görə səlcuq sultanı Məlik şahın Arrana və Muğana göndərdiyi türklər (onların içərisində D.-in də adı çəkilir və onlar Çingiz xanın soyu ilə bağlanır) "...düzənliklərdə, dağlarda, qalalarda ... yayılmışdılar". 16 əsrdə Türkiyənin Qars ş. ətrafında yaşamışlar. Azərb. tarixçisi M.M. Xəzaniyə (19 əsr) görə, D. Azərb.-a (əsasən, Qarabağa) Pənahəli xan dövründə köçmüşlər. 19 əsrdə İrəvan çuxurunda və Naxçıvanda da məskunlaşmışlar. Azərb.-ın Şuşa, Şamaxı, Kəlbəcər, Füzuli və s. r-nlarında, o cümlədən Şərur r-nundakı Dəmirçi k. ehtimal ki, D.-lə bağlıdır.

**DƏMİRÇİLƏR** – Ordubad r-nunun Tivi k. yaxınlığında erkən orta əsrlərə aid yaşayış yeri. Hər tərəfdən dərin dərələrlə əhatə olunmuşdur. Sah. 4 *ha*. 1968 ildə qeydə alınmışdır. Axtarışlar nəticəsində tikinti qalıqları, keramika məmulatı qırıqları, əmək alətləri, həmçinin obsidian (d ə v ə g ö z ü), dəmir



Dər yaşayış yeri. Sanduqənin kitabəsi.

əşyalar toplanmışdır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, çəhrayı rəngli gil qab qırıqları, çiy və bişmiş kərpic qalıqları ilə zəngindir. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan və çiy kərpicdən tikilmişdir. Bərkidici material kimi kəcdən istifadə olunmuşdur. Abidə 3–10 əsrlərə aid edilir.

**DƏMİRÇİLƏR NEKROPOLU** – Şərur r-nunun Dəmirçi k. yaxınlığında, Şərur düzündə son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Sah. 6 *ha*. 1967 ildə qeydə alınmışdır. Daş qutu tipli qəbir abidələrindən ibarətdir. Qəbirlərin bəzisi q.-dən ş.-ə doğru, digərləri isə şm.-dan c.-a doğru istiqamətlənmişdir. Torpaq işləri zamanı bir neçə qəbir dağıdılmışdır. Qəbirlərdən boz rəngli gil qab məmulatı, odadavamlı boyaqlar və s. aşkar olunmuşdur. Abidə e. ə. 2–1-ci minilliklərə aid edilir.

**DƏMİRLİDAĞ** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsinin suayrıcında zirvə. Əlinçəçayın mənbə hissəsindədir. Hünd. 3368 *m*. Konusvarı formadadır.



Dər türbəsi. 14 əsr.



Türbənin bərpa layihəsi.

**DƏMİRLİSU** – Culfa r-nu ərazisində çay. Əlincəçayın (Arazın qolu) sağ qolu. Soltanbud d.-nın ş. ətəyindən başlanır. Uz. 6 *km*. Əsasən, qar və yağış suları ilə qidalanır.

**DƏMİRLİSU** – Culfa r-nu ərazisində çay. Ləkətağ çayının (Əlincə hövzəsi) sol qolu. Zəngəzur silsiləsinin yamacından, 2950 *m* hünd.-dən başlanır. Uz. 8 *km*. Əsasən, qar suları və yeraltı sularla qidalanır.

**DƏR** – Ordubad r-nunun Aşağı Aza k. yaxınlığında orta əsrlərə aid yaşayış yeri. 1968 ildə qeydə alınmışdır. Geniş bir ərazini əhatə edən yaşayış yeri güclü dağıntıya məruz qalmışdır. Burada rast gələnən yanmış tikinti, xüsusilə kərpic qalıqları vaxtilə binaların olduğunu göstərir. Yerüstü materiallar çəhrayı rəngli sadə və şirli qab qırıqlarından ibarətdir. Mədəni təbəqə saxsı qab qırıqlarından, kərpic qarışıq gil laylarından ibarətdir. Çiy kərpicdən, daş qarışıq torpaqla hörülmüş tikinti qalıqları saxlanmışdır. Tapıntıların əksəriyyəti şirli və şirsiz qab (küpə, kasa, nimçə, badya, qapaq və s.) qırıqlarından ibarətdir. Ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü daş qoç heykəllər olmuşdur. Abidə 16–18 əsrlərə aid edilir.

**DƏR** – Ordubad r-nunda kənd. Aza bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 15 *km* c.-ş.-də, Ordubad–Naxçıvan avtomobil yolunun c.-unda, Gilançayın sağ sahilindədir. Əh. 459 nəfər (2000); bağçılıq, tərəvəzçilik, əkinçilik və meyvəçiliklə məşğuldur. Orta məktəb, tibb məntəqəsi var. Kəndin ərazisindəki zəmanəmizədək gəlib çatmayan tarixi-memarlıq abidələrinin xarabalıqları qalmışdır. Türbə, məscid minarəsinin qalıqları və s. nəzəri cəlb edir.

**DƏR KÖRPÜSÜ** – Ordubad r-nunun Dər k.-ndə, Gilançay üzərində tarixi-memarlıq abidəsi. Yonulmuş daşdan, beştağlı tikilmişdir. Culfa və Ordubad ş.-lərini birləşdirir. Eni 3,5 *m*-dir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış, tağları arasındakı məsafə müxtəlif ölçüdə tikilmişdir. 3 orta gözdə dalğakəsən var. D. k. 18 əsrə aid edilir.

**DƏR TÜRBƏSİ** – Azərb. memarlıq abidəsi. Ordubad r-nunun Dər k.-ndədir. Türbə kompozisiyası və dekorativ elementləri ilə fərqlənir. D.t. kərpicdən hörülmüş, orta hissəsi bürcvarı türbələr biçimində olub, yuxarı hissədən günbəzlə tamamlanır. Abidənin dörd tərəfində yerləşən portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərindəki tündbənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Üzərində kitabə olmadığından türbənin tarixini dürüst müəyyənləşdirmək mümkün deyildir. Lakin kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra tikildiyi mülahizəsini irəli sürməyə imkan verir. Bu mülahizəyə əsasən, D. t.-nin 14 əsrin axırlarında və ya 15 əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur.

*Əd.:* Salamzadə Ə. V., Məmmədzadə K. M., Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, B., 1985.



**DƏRƏKƏND** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 km c.-ş.-də, Naxçıvan–Şərur avtomobil yolunun kənarında, Şərur düzündədir. Əh. 1184 nəfər (2000); əsasən maldarlıqla məşğuldur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**DƏRƏLƏYƏZ** – Naxçıvan mahalında tarixi bölgə; şm.-da Basarkeçər yaylası, ş.-də Zəngəzur silsiləsi, c.-da Ələyəz d-rı, q.-də isə *Səlim aşırımı* yerləşən hündür dağlarla əhatə olunmuşdur. Ümumi sah. 2304 $km^2$.

Araşdırmalara əsasən, qədim dövrlərdən Azərb. xalqının etnogenezində iştirak etmiş türk tayfaları ilə məskunlaşmış Dərələyəz–Ələyəz dərəsi toponimi orta əsrlərdə inzibati-ərazi bölgüsü mənasında işlənməklə geniş ərazini əhatə etmişdir.

18 əsrin əvvəllərində Osmanlıların idarəsi altında olmuş Naxçıvan sancağının 14 nahiyəsindən biri də D. idi. Bu dövrdə D. nahiyəsi 102 kəndi əhatə edirdi. Xalq bölgüsünə görə üç hissəyə ayrılırdı: Şərqi D., Qərbi D. və tarixən Şərurla bağlı olub inzibati-ərazi bölgüsünə əsasən D.-ə aid edilən Şərurun dağlıq hissəsi. Rusiya ilə İran arasında imzalanmış *Türkmənçay müqaviləsindən (1828)* sonra Rusiyanın tərkibinə keçən D. bölgəsi İran və Türkiyədən buraya köçürülən ermənilərin hesabına etnodemoqrafik dəyişikliklərə məruz qalmışdır; köçürmələrə qədər bölgədəki ailələrin böyük əksəriyyətini – 94,1 faizini azərbaycanlılar, cəmisi 5,8 faizini ermənilər təşkil edirdisə, köçürmələrdən sonra erməni ailələrinin faizi 25,8-ə çatmışdı.

Çar hökumətinin Cənubi Qafqazda apardığı inzibati islahata əsasən 1870 ildə D. İrəvan quberniyasının tərkibində yaradılan Şərur–Dərələyəz qəzasına daxil edilmişdi (sah. 2972,3 $km^2$, əh.76551 nəfər; 70,5%-i azərb., 27,5%-i erməni, 1897). Ermənistanda daşnak ağalığı dövründə (1918–20) D.-in azərb. əhalisi əsl mənada soyqırımına məruz qalmış, yaxud öz doğma yerlərini tərk etməyə məcbur edilmişlər. Sovet hakimiyyəti illərində heç bir əsas olmadan D. bölgəsi Azərb.-dan qoparılıb Ermənistana verilmişdir.

Azərb.-lılara qarşı soyqırımı siyasəti bütün 20 əsr boyu davam etmiş və nəhayət, əsrin sonunda onlar Ermənistandan, o cümlədən D.-dən tamamilə və vəhşicəsinə deportasiya olunmuşlar.

D. Naxçıvan mahalının qədim mədəniyyət mərkəzlərindən olmuşdur. Qəbiristanlıqlardakı daş qoç heykəllər, memarlıq abidələri bölgənin əzəli Azərb. torpağı olduğunu bir daha sübut edir. Tarix boyu ermənilər Azərb. torpaqlarını "özününküləşdirmək" məqsədilə buradakı abidələr üzərindəki kitabələri saxtalaşdırmış, yaxud məhv etmişlər.

*Əd.:* Hacı Qədir Qədirzadə, Naxçıvanın tarixi türk diyarı–Dərələyəz. Naxçıvan Dövlət Un-tinin Elmi Əsərləri, 1999, №4; Dərələyəzli K., Dərələyəz od içində, B., 2001.

**DƏRƏLƏYƏZ NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, D. n. 102 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 27 kəndində müsəlmanlar (Azərb. türkləri), 3 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 420.846 ağca idi. Bu da Naxçıvan sancağının illik gəlirinin 16,0%-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**DƏRƏLƏYƏZ SİLSİLƏSİ** – Nax. MR ərazisində dağ silsiləsi. Arpaçay ilə Naxçıvançay



Dərələyəz silsiləsi

arasındadır. Ş.-də Zəngəzur silsiləsinə qovuşur. Uz. 70 *km*, ən hündür zirvəsi Kükü dağıdır (3120 *m*). Q. hissəsi Paleozoy və Mezozoyun çökmə süxurlarından (əhəngdaşılar, qumdaşılar, kvarsitlər, şistlər və s.), ş. hissəsi Paleogenin çökmə-vulkanogen süxurlarından və Neogen lavalarından təşkil olunmuşdur. Silsilə çox yerdə şaxələnmiş və çay dərələri ilə kəsilmişdir. Cəhri çayından (Naxçıvançayın sağ qolu) q.-dəki hissəsi qövs şəklində Araz çayına tərəf alçalır. Əsasən, dağ-çöl və dağ-çəmən landşaftı inkişaf etmişdir. Yay otlaqları var.

**DƏRƏLİK MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Culfa–Naxçıvan avtomobil yolundan 2 *km* aralı, Əlincəçayın sol sahilindədir. Su 170 *m* dərinlikdə qazılmış quyudan, Alt Miosen-Oliqosen yaşlı tuf qumdaşılardan çıxır; şəffaf, dadı xoşagəlimdir. Temp-ru 18–21°C, debiti 150 *m³/gün*.

Balneoloji tərkibi:

Rn 350 max vahidi

$$CO_2 1{,}3\,M3{,}6\,\frac{HCO_3 72\,Cl18}{(Na+K)38\,Ca\,37\,Mg25}\cdot pH\,6{,}4\,D\,150\,m^3/gün\,T\,18-21°C$$

Suyu radonlu, karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı–natriumlu–kalsiumlu–maqneziumludur. Şimali Qafqazdakı "Pyatiqorsk" suyu tiplidir. Radonlu su balneoterapiya amili kimi sinir və ürək-damar sistemi, revmatizm və dəri xəstəliklərinin müalicəsində geniş istifadə edilir.

**DƏRƏLİK TUF-QUMDAŞI YATAĞI** – Culfa r-nu ərazisində, Culfa ş.-ndən 15 *km* şm.-q.-dədir. Geoloji quruluşunda Oliqosen yaşlı tuf-brekçiya və tuf-konqlomerat laycıqlı tuf-qumdaşılar iştirak edir. Tektonik cəhətdən Yaycı–Ərəzin sinklinalının q. qanadında yerləşir. Sah. 0,2 *km²*, faydalı qatın qalınlığı 25,6–28,5 *m*-dir. Tuf-qumdaşılar daxili divarların hörgüsündə istifadə edilir. Yatağın sənaye ehtiyatı 7538 min *m³*-dir.

**DƏRƏNÜRGÜT NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndə D. n.-nin 5 yaşayış məntəqəsini əhatə etdiyi göstərilir. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; əhalinin böyük əksəriyyəti müsəlmanlar (azərb.-lar) idi. Nahiyənin illik gəliri 18.409 ağca idi. Bu da Naxçıvan sancağının illik gəlirinin 0,7%-ni təşkil edirdi.

*Əd.*: Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**DƏRƏŞAHBUZ NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndə D. n.-nin 21 yaşayış məntəqəsini əhatə etdiyi göstərilir. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; əhalinin böyük əksəriyyəti müsəlmanlar (Azərb. türkləri) idi. Nahiyənin illik gəliri 104.398 ağça idi ki, bu da Naxçıvan sancağının illik gəlirinin 3,9%-ni təşkil edirdi.

*Əd.*: Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**DƏRƏŞAM** – Babək r-nu ərazisində dağ. Araz çayının Nehrəm dərəsindədir. İki dağdan ibarətdir, 1-ci dağın hünd. 946 *m*, 2-ci dağın hünd. isə 948 *m*-dir. Hər iki dağ konusvarı formadadır, c. və c.-q. yamacları sıldırımdır.

**DƏRƏŞAM** – Babək r-nu ərazisində, Arazın sol sahilində, dərənini genişləndiyi sahədə qədim yaşayış yeri. Yaxınlığında I D. və II D. d.-y. dayanacaqları, D. mineral su bulağı var. 18 əsrin əvvəllərinə aid "*Naxçıvan sancağının müfəssəl dəftər*"*ində* D. nahiyəsinə 4 kəndin [Başkənd, Ortakənd, Dibkənd və Culfa (Cuğa)] daxil olduğu göstərilir. Arazın sağ sahilində (Cənubi Azərb.) də Qoturçayın mənsəbində D. yaşayış yerinin xarabalıqları, oradan bir qədər aşağıda D. qəsəbəsi var. "Kitabi-Dədə Qorqud"da D., habelə "Dərəşam ucu", "Dərəşam suyu"nun adları çəkilir. Türk tədqiqatçısı M.F.Kırzıoğluya görə, "Dərəşam ucu" Naxçıvandan Van gölünə qədər uzanan yerləri içərisinə alan və Daş oğuzların (bax *Oğuzlar*) vətəni olan Vaspurakan əyalətindəki Xram qəsəbəsinin yerində olmuşdur. "Dərəşam suyu" dedikdə isə, ehtimal ki, Araz çayı nəzərdə tutulur. Çünki dastanın "Uşun qoca oğlu Səkrəq boyu"nda Əlincədən qayıdan qardaşların (Əyrək və Səyrək) "üzüb keçdiyi" Dərəşam suyu ancaq Araz çayı ola bilərdi.

*Əd.*: B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası, 2 cilddə, c.2., B., 2000.



**DƏRƏŞAM** – dəmiryol keçidi. I D. Ələnşəhrdən c.-da, İran tərəfdən Araz çayına tökülən Qoturçay (Qızılçay da deyilir) vadisində, 10–15 evdən ibarət bağlı-bağatlı kənd olmuşdur. II D. birincidən sonra başlayıb, Cuğa (indiki *Gülüstan*) k.-nə qədər olan ərazini əhatə etmişdir. D. toponiminin adı "Kitabi-Dədə Qorqud" dastanlarında çəkilir.

**DƏRƏŞAM MƏRTƏBƏSİ** – Culfa dərəsində üst Permin *Culfa mərtəbəsi* laylarının üst və alt Triasın Brəhmən mərtəbəsi laylarının alt hissəsi.

1971 ildə rus geoloqu K. O. Rostovsev ayırmışdır. D. m. litoloji cəhətdən argillitlərdən və əhəngdaşılarından ibarətdir; qalınlığı 25 *m*-dir. Paleontoloji cəhətdən Uranites transcaucasius (Shev.), Dzhulfites spinosus (Shev.), Shevyrevites shevyrevi Teich et Kummel, Paratirolites kittli Stoyanov və s. ammonoidlər ilə səciyyələnir. Stratiqrafik vəziyyəti mübahisəlidir.

Bəzi tədqiqatçılar D. m.-ni Culfa mərtəbəsinin üstündə yerləşdirərək, onu Perm sisteminə aid edir, digərləri isə mərtəbəyə daxil edilmiş layları Trias sisteminin alt təbəqələri hesab edirlər.

**DƏRƏŞAM MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Araz çayının dar dərəsindədir. Bir neçə yerdə səthə çıxır. Dərəşam-1 və Dərəşam-2 bulaqlarından ibarətdir. Mineral



Dərəşam suyu

suların daha dərindən çıxan hissəsi Araz çayına qarışır. Suyun temp-ru 22°C, debiti 200 *m³/gündür*. Bir litr suda duzların miqdarı 1,9–2,5 *q*-dır. Şəffaf, dadsız və qoxusuzdur.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3\,M\,2{,}5\,\frac{HCO_3 62\,SO_4 20\,Cl\,18}{Ca\,47\,Mg\,29\,(Na+K)\,24}\cdot pH\,6{,}6\,D\,200\,m^3/gün\,T\,22°C$$

Su hidrokarbonatlı-sulfatlı, kalsiumlu-maqneziumlu-natriumludur. Kislovodsk-5 suyu kimi dolomitli "Narzan"ın analoqudur. Mədə-bağırsaq traktı, qaraciyər, xroniki qastrit, xroniki kolit və ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə oluna bilər.

**DƏRƏŞAM NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"*ndə* D. n.-nin 4 yaşayış məntəqəsini əhatə etdiyi göstərilir. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; əhalinin böyük əksəriyyəti müsəlmanlar (azərb.-lar) idi. Nahiyənin illik gəliri 47865 ağça idi. Bu da Naxçıvan sancağının illik gəlirinin 1,8 %-ni təşkil edirdi.

*Əd.*: Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**DƏRVİŞLƏR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən təqr. 5 *km* c.-da, Arpaçayın sahilində, Şərur düzündədir. Əh. 517 nəfər (2000); heyvandar-



Dərvişlər kəndi. Orta məktəb.

lıq, yemçilik, taxılçılıq, tütünçülük və üzümçülüklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var. Kənd telefonlaşdırılmışdır.

**DƏSTƏ** – Ordubad r-nu ərazisində çay. Bax *Vənənd*.

**DƏSTƏ** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-ş.-də, Ordubad–Naxçıvan avtomobil yolunun kənarında, Arazın sol sahilindədir. Əh. 4162 nəfər (2000); meyvəçilik, əkinçilik və tərəvəzçiliklə məşğuldur. 2 orta məktəb, mədəniyyət evi, 2 kitabxana, xəstəxana, uşaq bağçası, rabitə şöbəsi, məscid var.



Dəstə məscidinin kitabəsi. 16–17 əsrlər.

Mənbələrin məlumatına görə, D. kəndi siyasi-inzibati baxımdan Ordubadın inkişaf etmiş yaşayış yerlərindən biri idi. 1727 ilə aid *"Naxçıvan sancağının müfəssəl dəftəri"*ndə Azadçiran nahiyəsinə tabe olan kəndlər arasında 10763 ağça illik gəlir verən D. kəndinin adı çəkilir. 19 əsrin əvvəllərində Azərb.-ın Rusiya tərəfindən işğalından sonra yeni inzibati bölgüyə əsasən kənd D. mahalının mərkəzi oldu. Kəndin ərazisində mövcud olmuş 16–17 əsrlərə aid məscidin kitabəsi dövrümüzədək gəlib çatmışdır.

**DƏSTƏ DÜZÜ** – Ordubad r-nu ərazisində düzənlik. Arazboyu düzənliklərdən biri. C.-ş.-də Dəstə k.-ndən başlayaraq Aşağı Aza k.-nin ş. kənarınadək 6 *km* məsafədə uzanır. Zəif maili düzənlikdir. Vənənd və Düylün çaylarının gətirmə konuslarından təşkil olunmuşdur. Bitki örtüyü əsasən gəvən, yovşan, gəngiz və s. ibarətdir. D.d.-ndə yayılmış boz və çəmən-boz torpaqlarının xeyli hissəsinə Gilançaydan və Arazdan su çıxarılması burada bağçılığın və meyvəçiliyin inkişafına təkan vermişdir.

Dəvəli yaşayış yerindən tapılmış keramika məmulatı



**DƏSTƏ GİL YATAĞI** – Ordubad r-nu ərazisində, Dəstə k.-ndən 1,5 *km* q.-dədir. Geoloji quruluşunda Üst Dördüncü dövrün allüvial-prolüvial çöküntüləri-gilcələri və qırmızımtıl-boz rəngli gilləri iştirak edir. Sah. 0,14 $km^2$, faydalı qatın qalınlığı 4,7 *m*-dir. Gil süxurları kimyəvi və qranulometrik tərkibinə görə eynicinslidir və "100" markalı kərpic istehsalında istifadə etməyə yararlıdır. Yatağın sənaye ehtiyatı 1150 min $m^3$-dir.

**DƏSTƏ MİNERAL SU YATAĞI** – Ordubad r-nu ərazisində, Araz çayının sol sahilində, Dəstə d. y. st.-dan c.-q.-dədir. Su Araz çayının ləpədöyən yerində çıxaraq ona qarışır.

Balneoloji tərkibi:

$$CO_2 0.7\, M 1.4 \frac{HCO_3 61\, SO_4 32}{Ca 61\, (Na+K) 21\, Mg 18} \cdot pH\, 6.5\, D\, 15\, m^3/gün\; T\, 18^{\circ}C$$

Yataqda 1961 ildə 2 quyu qazılmış və yüksək minerallaşma dərəcəsinə malik karbon qazlı–xlorlu–hidrokarbonatlı–natriumlu su alınmışdı.

Balneoloji tərkibi:

$$CO_2 0.8\, M 18.5 \frac{Cl 66\, HCO_3 31}{(Na+K) 0.3} \cdot pH\, 6.6\, D\, 150\, m^3/gün\; T\, 20^{\circ}C$$

**DƏVƏBOYNU DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3563 *m*. Gilançayın mənbə hissəsindədir. Konusvarı formadadır. Eosenin vulkanogen çökmə süxurlarından təşkil olunmuşdur.

**DƏVƏLİ** – Şərur r-nunda Gümüşlü k.-nin aşağı yamacında orta əsrlərə aid yaşayış yeri. Sah. təqr. 2 *ha*. Axtarışlar nəticəsində çəhrayı rəngdə bişirilmiş şirsiz (kasa və başqa tipli qablar, küpələr və s.) və şirli (kasa tipli qab və kaşı sınığı) gil qab nümunələri və s. yerüstü materiallar aşkar olunmuşdur. Bəzi yerlərdə dairəvi və düzbucaqlı planda daş düzümlərinə, həmçinin dördkünc formalı çalalara təsadüf edilmişdir. Tapıntılara əsasən D. yaşayış yerinin 10–17 əsrlərə aid olduğu güman edilir.

**DƏVƏLİLƏR MƏHƏLLƏSİ** – Şərur r-nunda, Zeyvə, Xanlıqlar və Ağəhməd k.-lərində məhəllə. Naxçıvanda bu adla bağlı dəvəçilər, dəvəlilər adlı tayfa da yaşayır. Bu onomastik vahid sənət və peşə adı ilə bağlı olmaqla yanaşı, vaxtilə qədim Azərb. torpaqları olan Ermənistandakı Dəvəli k.-ndən köçüb gələn türk tayfalarının adı ilə bağlıdır.



**DƏYİRMANYERİ** – Babək r-nunun Zeynəddin k. yaxınlığında Eneolit–Tunc dövrlərinə aid yaşayış yeri. 1973 ildə aşkar olunmuşdur. Sah. 3 *ha*. Yaşayış yerində səpələnmiş halda xeyli maddi mədəniyyət qalıqları var. Mədəni təbəqənin üst hissəsi tikinti işləri zamanı dağılmışdır. Əldə olunmuş materialların əksəriyyəti gil qab nümunələrindən ibarətdir. Qabların bir hissəsi saman qarışıq palçıqdan kobud şəkildə, digərləri isə səliqəli hazırlanmışdır. Qabların üstü anqoblanmış, bəzilәri şüyrələnmişdir. Tapıntılar içərisində dən daşları, həvəng və dəstələr var. Abidə e. ə. 5–2-ci minilliklərə aid edilir.

**DIRNIS** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 29 *km* şm.-ş.-də, Ordubad–Unus avtomobil yolunun kənarında, Vənənd çayının sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 1400 nəfər (2000); meyvəçilik, tərəvəzçilik və əkinçiliklə məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi, avtomat telefon stansiyası; məscid (bax *Dırnıs məscidi*) var. Kəndin ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü daş qoç heykəllər olmuşdur.

**DIRNIS MƏSCİDİ** – Ordubad r-nunun Dırnıs k.-ndə məscid. Memarlıq kompozisiyası baxımından yığcam olub, 18–19 əsrlərə xas üslub və tipoloji xüsusiyyətləri özündə əks etdirmişdir. Məscidin mehrabı, şəbəkəli pəncərələri var; sütunlar yonulmuş ağac materialındandır.

**DİADİN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 15 *km* c.-da, düzənlikdədir. Əh. 543 nəfər (2000); əsasən, maldarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**DİAXÇAY MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Nüsnüs k.-ndən 1,5 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin c.-q. yamacında, dəniz səviyyəsindən 2000–2500 *m* hünd.-dədir. Mehri–Ordubad plutonunun iki intruziv kompleksinin, qabbro-qranodiorit və monsonit-qranodiorit-porfirin təmasında yerləşir. Geoloji quruluşunda qabbro, qabbro-diorit, diorit, qranodiorit, kvars-siyenit-diorit süxurları, həmçinin qranodiorit-porfir daykaları iştirak edir. İki texnoloji filiz tipi–əsasən, misli (ştokverk) və molibden (damar) məlumdur. Ştokverk tipli filizlərdə mis 0,06–2,25%, molibden 0,01–0,31%, damar tipli filizlərdə mis 0,01–0,85%, molibden 0,01–0,27%-dir. Əsas filiz mineralları; pirit, xalkopirit, molibdenit, misin törəmə mineralları.

**DİBƏKLİDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q. istiqamətdə ayrılan yan silsilənin suayırıcında zirvə. Hünd. 2678 *m*. Günbəzvarı formadadır.

**DİDİVAR** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* şm.-da, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə, düzənlikdədir. Əh. 1249 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, səhə xəstəxanası, poçt şöbəsi, məscid var.

**DİDİVAR** – Babək r-nunun eyniadlı k.-ndən şm.-ş.-də Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Sah. 5 *ha*; əsas hissəsi hazırda kəndin müasir evlərinin altında qalmışdır. 1978 ildə tədqiqat işləri aparılmışdır. Mədəni təbəqənin qalığı 3 *m* -dir. Mədəni təbəqə kül qarışıq gildən ibarətdir. Buradan tikinti qalıqları, davar sümükləri tapılmışdır. Yaşayış yerindən xeyli miqdarda həndəsi naxışlarla bəzədilmiş gil qab, boyalı qab qırıqları, çaxmaqdaşıdan hazırlanmış dən daşları, sürtgəclər, həvəng və dəstələr aşkara çıxarılmışdır. Tapıntılar e. ə. 2–1-ci minilliklərə aid edilir.

**DİDİVAR NEKROPOLU** – Babək r-nunda eyniadlı kəndin ş.-ndə Tunc dövrünə aid abidə. Geniş tədqiqat işləri aparılmamışdır. Buradan qırmızı rəng üzərindən qara rənglə naxışlanmış boyalı gil qab nümunələri aşkar olunmuşdur. Abidənin yaxınlığındakı II Kültəpə yaşayış yerinə, təqr. e. ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.

**DİDİVARLILAR** – türk tayfası. Kəngər tayfasından (bax *Kəngərlər*) olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində D.-ın da adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] inzibati cəhətdən Naxçıvandakı D.-a öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Nax-

Duzdağ: 1, 2. Qədim duz mədəninin sxematik planı və kəsiyi. 3, 6. Daş küzlər. 4, 5. Sümük alətlər.




alətlər daha qədim dövrün insanlarına məxsus olmuş və duz çıxarmaq üçün istifadə edilmişdir. Həmin baltalardan ikisi Naxçıvan Dövlət Tarix Muzeyində, qalanları Sankt-Peterburq və Tbilisi muzeylərində saxlanılır. Qədim duz mədənləri 1967 ildə uçqun nəticəsində təsadüfən aşkar olunmuşdur. Dağıntı yerindən xeyli daş çəkic (onlardan biri iri həcmli olub 30 *kq* ağırlığındadır) tapılmışdır. 1967 ildə müasir tuneldə aparılan partlayış nəticəsində uçqun zamanı girişi tutulmuş qədim mədənlərə yol açılmışdır. Yol 70 *m* uz.-nda tuneldən ibarət olub, eni 6 *m*, bəzi yerlərdə 20 *m*-dir. Tunelin hünd. 10 *m*-dən artıqdır, bir-birini əvəz edən 10 zaldan ibarətdir. Zalların birində duzdan yonulmuş beş sütun vardır. Tədqiqatlar nəticəsində mədəndən ocaq yerləri, divarlarda isə his izləri aşkar edilmişdir. Bəzi yerlərdə duz laylarının arasına vurulmuş ağac pazlar, döşəmədə gil qab qırıqları, maral buynuzunun qalıqları qeydə alınmışdır. Mədənin divarında bir yerdə şaquli xətlərdən ibarət işarələr var; tədqiqatçılara görə, bu, qədim say sistemi ilə bağlı olub çıxarılan duzun miqdarını bildirmişdir. Aşkar olunmuş maddi mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər qədim D. mədənlərindən hələ e. ə. 3–2-ci minilliklərdən geniş istifadə edildiyini göstərir. Çıxarılan duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır.

D.-da qədim duz mədənlərinin bazası əsasında fizioterapiya xəstəxanası təşkil olunmuşdur (1979).

*Əd.:* Ə l i y e v V. H., Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; M u s t a f a y e v Ə. İ., Naxçıvan duz yataqlarının keçmişi və gələcəyi, Azərbaycan Neft Akademiyasının Elmi Əsərləri, 1999, № 3.

**DUZDAĞ DUZ YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 12 *km* aralı, Duzdağın c. yamacındadır. Geoloji kəsimində müxtəlif rəngli gil, qumdaşı, əhəngdaşı, mergel, vulkan külü (Üst Miosen), çaqıl, konqlomerat (Antropogen) iştirak edir. Ümumi qalınlığı 8,2 *m*-dir. Duzu keyfiyyətlidir. Yaşılaçalar açıq-boz rəngli, narın dənəlidir. Kimyəvi tərkibində orta hesabla 94,35% NaCl, 0,04% $CaCl_2$, 0,06% $Mg Cl_2$ və s. olur.

**DUZDAĞ FİZİOTERAPİYA XƏSTƏXANASI** – Babək r-nunun Böyükdüz k. yaxınlığında qədim duz mədənləri (bax *Duzdağ*) bazası əsasında yaradılmış xəstəxana. 1979 (dekabr) ildə təşkil olunmuşdur. Bronxial astma (tənəffüs yollarının xəstəlikləri) və ağ ciyər bronx sisteminin digər qeyri-spesifik xəstəlikləri müalicə olunur. Müalicə üsulu çox sadədir. Yeraltı şaxtalardakı köhnə duz mədəni lağımının divarında yer qazıyıb düzəldir, oraya çarpayı qoyurlar. Xəstələr burada gecələyir və şəfa tapırlar.






Duzun nəqli və istehsalı.



**DUZDAĞ GİPS YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 10 *km* şm.-q.-də, Naxçıvan duz yatağından 3 *km* c.-ş.-dədir. Geoloji quruluşunda Sarmat mərtəbəsinin Alt, Orta və Üst yarımmərtəbələrinin tünd-qırmızı, yaşılımtıl-boz və tünd-boz rəngli əhəngdaşılarla növbələşən beş gips layı iştirak edir. Faydalı qatın lay üzrə ümumi qalınlığı 5–6 *m*; dərinliyə getdikcə qalınlıq azalır. Keyfiyyətinə görə I və II növ tikinti gipsi kimi yararlıdır. Yatağın ehtiyatı 536189 *t*-dur. Yataq istismar olunur.

**DUZDAĞ KÖRPÜSÜ** – Babək r-nu ərazisində, Sədərək–Naxçıvan–Ordubad avtomobil yolunun 73 *km*-liyində, Çalxanqala selovu üstündədir. 1964 ildə tikilmişdir. Uz. 30 paqonometr. 1998 ildə əsaslı surətdə bərpa edilmiş və yenidən qurulmuşdur.

**DUZDAĞ TİRƏSİ** – Babək r-nu ərazisində, Duzdağ platosunun ş. kənarında, Cəhriçayın sağ sahilindədir. C.-a doğru istiqamətlənmiş tirənin ş. yamacı çox meyllidir. Ən hündür zirvəsi 1342 *m*-dir.

**DUZLUÇAY** – Babək r-nu ərazisində çay. Arazın sol qolu. 1000 *m* hünd.-dən başlanır. Uz. 21 *km*. Əsasən yağış suları ilə qidalanır.

**DÜDƏNGƏ** – Şərur r-nunda kənd. Zeyvə–Düdəngə kənd icra nümayəndəliyinin tərkibindədir. R-n mərkəzinə bitişikdir. Əh. 1043 nəfər (2000); əsasən əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var.

**DÜDƏNGİNSKİ** Əbdürrəhman bəy Əli bəy oğlu (1908–1954) – hərbi və siyasi xadim. Bax *Fətəlibəyli* Əbdürrəhman bəy Əli bəy oğlu.

**DÜNBULİ**, D ü m b u l i Əbdürrəzaq bəy Nəcəfqulu xan oğlu (1762/63, Xoy ş. – 1827/28, Təbriz) – Azərb. və İran tarixçisi, təzkirəçi, şair. Naxçıvan və Şərur bölgələrində yaşamış məşhur dünbulilər nəslindəndir. Atası Təbriz bəylərbəyisi olmuşdur. 10 yaşında ikən ictimai-siyasi səbəblər üzündən girov kimi Şiraza göndərilmiş, 14 il Şirazda ev dustağı, bir müddət isə İsfahanda qalmış Ağa Məhəmmədşah Qacar İsfahanı tutduqdan sonra (1785) başqa azərb.-lı girovlarla birlikdə vətənə qayıtmışdır. Mükəmməl təhsil almış, bir müddət vəliəhd Abbas Mirzənin yanında xidmət etsə də, əsasən, elmi-ədəbi fəaliyyətlə



Duzdağ körpüsü. 1998.

məşğul olmuşdur. Ərəb və fars dillərində yazmışdır.

Avtobioqrafik səciyyəli "Hədaiq ül-cinan" ("Cənnət bağları") əsərində həyatının Şiraz dövrünü, şirazlı alim və şair müasirlərinin həyat və yaradıcılığını işıqlandırmışdır. "Hədiqə" ("Bağ"), "Rövzət ül-adab və cənnə ül-əbvab" ("Ədəb bağçası və qəlb cənnəti", 1809), "Həqayiq ül-ənvar" ("Nurun həqiqəti", 1814), "Hədaiq ül-üdəba" ("Ədiblər bağı", 1816), "Nigaristani-Dara" ("Dara sərgisi", 1825) təzkirələrində klassik və müasir ərəb, fars və Azərb. şairlərinin, o cümlədən Nizami Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Əbül-üla Gəncəvi, Mücirəddin Beyləqani və b.-nın həyat və yaradıcılığından danışılır. Fətəli şah dövründən bəhs edən "Məasiri-sultaniyyə" ("Sultan abidələri", 1826 ildə Təbrizdə nəşr edilmişdir), "Camei-xaqani" ("Şahlığın mükəmməl tarixi"). Dünbulilər sülaləsinin tarixi haqqında "Riyaz ül-cənnə" ("Cənnət bağları"), "Məftun" təxəllüsü ilə yazdığı mənzum və mənsur bədii yaradıcılıq nümunələrinin bir hissəsinin toplandığı "Təcrübət ül-əhrar və təsliyyət ül-əbrar" ("Nəcabətlilər üçün təcrübə və müqəddəslər üçün təsəlli", 1813) əsərləri, qəzəl və qəsidələrdən ibarət "Divan"ı, "Naz və Niyaz", "Hümayünnamə", "Səlim və Səlfi" məsnəviləri var. "Məasiri-sultaniyyə" əsərində 18 əsrin sonu – 19 əsrin əvvəllərində Azərb.-da baş vermiş hadisələr, o cümlədən Qarabağ, Gəncə, Şəki, Quba, Bakı, Lənkəran xanlıqları haqqında da məlumat verilir. Səfəvilər dövlətinin süqutundan bəhs edən "İbrətnamə" əsərini (əsli latıncadır) türkcədən fars dilinə tərcümə etmişdir.

*Əd.:* H ü s e y n z a d ə Ə., XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı, B., 1967; T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 204–208.





Düylün piri. Qəbirstanlıqda daş qoç heykəl.

**DÜNBULİ HEYRAN XANIM** (təqr. 1790, Naxçıvan ş. – təqr. 1860, Təbriz) – şairə. Bax *Heyran xanım*.

**DÜYLÜN** – Ordubad r-nu ərazisində çay, Arazın sol qolu. Uz. 30 *km*, hövzəsinin sah. 124 $km^2$-dir. Zəngəzur silsiləsindən (2400 *m* hünd.-dən) başlanır. Parağaçay və Mesxet çaylarının birləşməsindən əmələ gəlir və 660 *m* yüksəklikdə, Dəstə k. yaxınlığında Araza tökülür. Qar, yağış suları və yeraltı sularla qidalanır. Martın axırından iyuna qədər gur sulu olur. Güclü yaz-yay daşqınları müşahidə edilir. Aşağı axınında suvarmada istifadə olunur.

**DÜYLÜN** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-q.-də, Ordubad–Naxçıvan avtomobil yolunun kənarındadır. Əh. 779 nəfər (2000); meyvəçilik, əkinçilik və taxılçılıqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, məscid, pir var.

**DÜYLÜN PİRİ** – Ordubad r-nunun Düylün k.-ndə ziyarətgah. Kəndin c.-undakı qəbiristanlığın mərkəzində yerləşən pir çox da böyük olmayan bir otaqdan ibarətdir. Otağın içərisindəki qəbir ziyarət yeridir. Pir binasının üzərində kitabə yoxdur. Qəbiristanlıqda orta əsrlərə aid sənduqə şəkilli qəbirlər və qəbirüstü daş qoç heykəllər, üzərindəki kitabələrdə isə tarixlər qalmışdır. Ziyarətgah yerinin, müqəddəs sayılan abidənin kiminlə, hansı siyasi, sosial-mədəni hadisə ilə əlaqədar meydana çıxdığı aydınlaşdırılmayıb.

Tədqiqatçılar pirin sufiliklə əlaqədar mərkəzlərdən biri və 14 əsrdən əvvəl mövcud olduğunu ehtimal edirlər.

*Əd.:* Məşədixanım Nemət, Azərbaycanda pirlər, B., 1992; yenə onun, Корпус эпиграфических памятников Азербайджана, т. 3. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII век – начало XX века), Б., 2001.

**DÜYLÜNDİZƏ** – indiki Ordubad r-nu ərazisində, dağətəyi ərazidə mövcud olmuş kənd. Düylün k.-nin yaxınlığında idi. 19 əsrin ortalarına aid yazılı qaynaqlarda adı çəkilir. Keçmişdə Cəfərxan Dizəsi də adlanırdı. Hazırda *Dizə* adı ilə mövcuddur.



# E

**EHSAN XAN KƏNGƏRLİ** (?, Naxçıvan – ?, orada) – Naxçıvanın sonuncu xanı. *Kəlbəli xan Kəngərlinin* oğlu, İsmayıl xan *Naxçıvanskinin*, Kalbalı xan *Naxçıvanskinin* və *Qönçə bəyimin* atasıdır. 1826–28 illər Rusiya – İran müharibəsi zamanı *Abbasabad qalası* qarnizonunun hərbi rəislərindən biri, İran ordusunun sərhəngi (polkovniki) olan E. x. K. rusların tərəfinə keçmiş və qalanın alınmasında onlara kömək göstərmişdir. Tarixi mənbələrə görə, E. x. K. naxçıvanlılardan və ruslardan ibarət on minlik qoşuna başçılıq etmişdir. Azərb.-ın şimalı Rusiyaya birləşdirildikdən sonra gen.-mayor rütbəsi alan E. x. K. İrəvan və Naxçıvan xanlıqlarının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi *Türkmənçay müqaviləsini (1828)* imzalamış, xanlıq ləğv edildikdən sonra Naxçıvan əyalətinin ilk naibi təyin olunmuşdur. Ehsan xan abadlıq, quruculuq işlərinə, dünyəvi təhsilə böyük diqqət yetirirdi. Çeşməbasar k.-ndə çeşmələr qazdırmış, Ərəzin k.-nin yaxınlığındakı təpədən keçən tunel vasitəsilə Nehrəm k.-nə su gətirtmiş, Naxçıvanda ilk rus-tatar (Azərb.) qəza məktəbi açdırmışdı. 1840 ildə süvari dəstəsinə başçılıq etmək şərti ilə naiblikdən imtina etmişdir. Sonralar Krım müharibəsində (1853–56) də şücaətlə vuruşmuşdur. «Müqəddəs Georgi» ordeni ilə təltif edilmişdir. A. Bakıxanov və A. S. Qriboyedov İrana gedərkən E. x. K.-nin Xanlıkındakı evində qonaq olmuşlar. A. S. Qriboyedov "İrəvan yürüşü" yol qeydlərində bu barədə bəhs etmişdir. E. x. K.-nin adı Kremlin Georgi salonunda qızılı hərflərlə yazılmışdır.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999; Колониальная политика Российского царизма в Азербайджане, ч. 2, М.–Л., 1936; Ибрагимбейли Х. М., Россия и Азербайджан в первой трети XIX века, М., 1969.

**"EL HƏYATI"** – qəzet, Ordubad Rayon İcra Hakimiyyətinin orqanı. 1932 ildən "Ordubad işçisi" adı ilə nəşrə başlamışdır. 1956 ildə "Ordubad fəhləsi" adlandırılmış, 1959 ildə fəaliyyəti dayandırılmış, 1966 ildən "Yeni Ordubad" adı ilə nəşr olunmuşdur. 1991 ildən isə "E. h" adı ilə ayda iki dəfə çıxır. Qəzet Nax. MR-in, Ordubad r-nunun ictimai-siya-





Ehsan xanın sarayı və onun yardımçı binası. 18 əsr. Naxçıvan şəhəri.



Elçibəy Əbülfəz

sı, iqtisadi, sosial və mədəni həyatını işıqlandırır, ədəbi-bədii yazılar, ölkəmizdə və dünyada baş verən mühüm hadisələr haqqında xəbərlər və s. dərc edir.

**ELANDAĞ** – Culfa r-nunda, Əlincəçay hövzəsindəki *I l a n d a ğ ı n* adlarından biri.

**ELÇİBƏY** Əbülfəz (tam adı və soyadı Əbülfəz Qədirqulu oğlu Ə l i y e v; 24.6.1938, Ordubad r-nunun Kələki k. – 22.8.2000, Ankara; Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur) – ictimai-siyasi xadim, şərqşünas-tarixçi. Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsini (1962) və aspiranturasını (1967) bitirmişdir. Əmək fəaliyyətinə Bakı Layihələşdirmə İn-tunda başlamış, 1963 ildə Misir Ərəb Respublikasında Asuan (Ə s v a n) bəndinin tikintisində tərcüməçi işləmişdir. 1969 ildə "Tulunilər dövləti" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi adı almışdır. 1968 ildən 1975 ilədək ADU-da müəllim, baş müəllim vəzifələrində çalışmışdır. 1975 ildə siyasi baxışlarına görə həbs edilmiş, 1976 ildə həbsdən buraxılmışdır. 1976–92 illərdə Azərb. Milli EA Əlyazmalar İn-tunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, aparıcı elmi işçi olmuşdur. Ermənistanın Azərb.-a təcavüzü ilə əlaqədar geniş vüsət alan ümumxalq hərəkatında fəal iştirak etmiş, 1989 ildə yaradılan Azərb. Xalq Cəbhəsinin, sonralar isə Azərb. Xalq Cəbhəsi Partiyasının sədri seçilmişdir. 1992 ilin iyununda Azərb. Respublikasının Prezidenti seçilmiş, lakin 1993 ilin iyununda prezident kürsüsünü tərk edərək, Ordubad r-nunun Kələki k.-nə getmiş və 1997 ilədək orada yaşamışdır. Bakıya qayıtdıqdan sonra yenidən aktiv siyasi fəaliyyətə qoşulan E. ömrünün sonunadək Azərb. Xalq Cəbhəsi Partiyasına rəhbərlik etmişdir.

Ə s ə r i: Bu, mənim taleyimdir, B., 1992.

Elman Həbib



**ELDƏGƏZLƏR** – hökmdarlar sülaləsi. Bax *Eldənizlər*.

**ELDƏGƏZLƏR DÖVLƏTİ** — bax *Azərbaycan atabəyləri dövləti*.

**ELDƏNİZ ŞƏMSƏDDİN** – Azərb.-da *Eldənizlər* sülaləsinin idarə etdiyi *Azərbaycan atabəyləri dövlətinin* banisi. Bax *Şəmsəddin Eldəniz*.

**ELDƏNİZLƏR**, E l d ə g ə z l ə r, E l d ə g i z l ə r, İ l d ə n i z l ə r – *Azərbaycan atabəyləri dövləti* hökmdarları sülaləsi. Banisi *Şəmsəddin Eldənizdir*. Hökmdarları: *Şəmsəddin Eldəniz* [1136–75], *Məhəmməd Cahan Pəhləvan* [1175–86], *Qızıl Arslan* [1186–91], *Əbu Bəkr* [1191–1210], *Özbək* [1210–1225]. E. gürcü hökmdarları, Xarəzmşahlar və monqollarla müharibələr aparmışlar. E. dövründə Azərb., o cümlədən Yaxın Şərqin iri şəhərlərindən birinə çevrilmiş Naxçıvan iqtisadi, siyasi və mədəni cəhətdən yüksəliş və çiçəklənmə mərhələsi keçirmiş, burada sənətkarlıq və ticarət inkişaf etmişdi. E. sülaləsinin hakimiyyətinə xarəzmşah Cəlaləddin Mangburnı son qoymuşdur. Son tədqiqatlar nəticəsində Eldəniz adının elmi ədəbiyyatda işlənmiş Eldəgəz, Eldəgiz, İldəniz, Eldoqquz formalarının səhv olduğu sübut edilmişdir.

**ELDƏNİZLƏR DÖVLƏTİ** – Azərb.-da *Eldənizlər* sülaləsinin idarə etdiyi qüdrətli orta əsr feodal dövləti. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. Bax *Azərbaycan atabəyləri dövləti*.

**ELDƏNİZLƏR SARAYI** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Naxçıvan ş.-ndə idi. Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış *Atabəylər memarlıq kompleksinə* daxil olan bu abidə dövrümüzədək gəlib çatmamışdır. Tədqiqatlar zamanı 13 əsrin 20-ci illərində yazılmış "Əcaib əd-dünya" əsərində adı çəkilən "Darülmülk"ün ("Dövlətxana") Eldənizlər sarayı olduğu müəyyənləşdirilmişdir. Saray *Mömünə xatun türbəsinin* yaxınlığında yerləşirdi.

**ELXANİLƏR DÖVLƏTİ**, İ l x a n i l ə r d ö v l ə t i – orta əsr feodal dövləti. Əsası monqol xanı Çingizin nəvəsi Hülaku xan [1256–65] tərəfindən qoyulduğundan *Hülakulər dövləti* adlanır.

**ELMAN HƏBİB** (Elman Həbib oğlu H a c ı y e v i n ədəbi adı; d. 4.5.1949, Ordubad r-nunun Tivi k.) – şair. Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1999). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filologiya fakültəsini bitirmişdir (1970). 1971 ildən Nax. MR Dövlət Teleradio Verilişləri Komitəsində işləmiş, 1992—2000 illərdə komitənin sədri olmuşdur. 2001 ildən Nax. MR Həmkarlar İttifaqları Konfederasiyasının sədridir. "Günəş qatarı" (1981), "Yoluma çıx" (1985), "Günəş həqiqəti" (1998), "Ömrüm, günüm mənim" (1999), "Sənli, sənsiz günlərim" (2000) və s. poetik topluların müəllifidir. Nax. MR Ali Məclisinin (1-ci çağırış) deputatı olmuşdur..

Ə s ə r l ə r i: Ömrümün göy qurşağı, B., 1998; Hərənin öz işi, B., 1999; Sevən ömrü, B., 2000.



**ELTİ DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Biləv k.-ndən 1 *km* c.-dadır. Hünd. 1593 *m*. Konusvarı formalı, sıldırım yamaclıdır.

**EMİL AZƏR** (Emil İbrahim oğlu M e h d i y e v i n ədəbi adı; 2. 11. 1937, Naxçıvan ş. – 21. 2. 1991, Bakı) – şair. 1950 ildən ailəliklə Bakıda yaşamışdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir. Erkən yaşlarından görmə qabiliyyətini itirmişdir. "Gənclik" (1961), "Köçəri quşlar" (1971), "Damcılar" (1978), "Görmək istəyirəm" (1982), "Ana laylası" (1987) kitabları nəşr olunmuşdur. Uşaqlar üçün də yazmışdır: "Dörd qardaşım var" (1966), "Çörək ağacı" (1986) topluları.

**EMİNOV** Mirhəmzə Mirhəsən oğlu (18.6.1932, indiki Şərur r-nunun Yuxarı Yaycı k. – 12.12.1980, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1973). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1976). Şərur r-nundakı S. Vurğun ad. sovxozda briqadir və aqronom işləmişdir. 1972 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. AKP MK üzvü (1976 ildən) olmuş, Azərb. SSR Ali Sovetinin (8–9-cu çağırış) deputatı seçilmişdir. Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.



Eminov Mirhəmzə

**EŞŞƏKMEYDAN AŞIRIMI** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsinin suayırıcında aşırım. Hünd. 2862 *m*.

**EVLİYA ÇƏLƏBİ** – 17 əsr məşhur türk səyyahı, coğrafiyaşünas. Ömrünün 40 ildən çoxunu Yaxın və Orta Şərq, Afrika, Avropa ölkələrinə səyahətdə keçirmiş Ö. Ç. 10 cildlik "Səyahətnamə" əsərinin müəllifidir. Dəfələrlə Azərb.-da olmuşdur. Müəllifin Azərb.-ın, eyni zamanda Naxçıvan bölgəsinin şəhər və kəndləri, əhalisi, tarixi abidələri, təsərrüfat həyatı, adətləri və s. haqqında məlumatları xüsusilə qiymətlidir (ətraflı məlumat üçün bax *Övliya Çələbi*).

**EYVAZ** – Şahbuz r-nunda, Arınc k.-nın ş.-ndə orta əsrlərə aid yaşayış yeri. Arxeoloji axtarışlar zamanı daşdan düzbucaqlı planda inşa edilmiş xeyli tikinti qalıqları, bişmiş kərpic, dulus çarxında hazırlanmış çəhrayı rəngli şirsiz saxsı məmulatı (küpə və səhəng tipli qablar), möhkəm gövdəli ağac tir qalığı aşkar olunmuşdur. E. yaşayış yerinin 14-17 əsrlərə aid olduğu ehtimal edilir.

**EYNƏLİ SULTAN** – yazıçı, nasir, dramaturq, teatr xadimi (1866—1935). Bax *Sultanov* Eynəli bəy.

# Ə



Əbilov İbrahim

**ƏBİL YUSİF** (Əbil Məmməd oğlu Y u s i f o v u n ədəbi adı; 31.12.1910, Ordubad ş. – 29.3.1984, Bakı) – dramaturq, nasir. İkinci Dünya müharibəsi iştirakçısıdır (1939–45). Naxçıvan Pedaqoji Texnikumunu, Yerevan Kənd Təsərrüfatı İn-tunu (1932) bitirmiş, Moskvada K.A. Timiryazev ad. Kənd Təsərrüfatı Akademiyasında, eyni zamanda Dil və Fəlsəfə İn-tunda oxumuşdur. Azərb. Mətbuat İdarəsində baş siyasi redaktor, "Uşaqgəncnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri olmuş (1937–40), cəbhə qəzetlərində çalışmışdır. Azərb. Teleqraf Agentliyində redaktor, Azərb. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində baş redaktor işləmişdir. "Babək", "Ramiz", "Odlar içində", "Yadigar", "Məhəbbət abidəsi", "Vətən" pyesləri tamaşaya qoyulmuşdur. "Səngərdən gələn səslər", "Bir güllə", "Qızıl gül", "Şeypur səsləri" povestləri, hekayələri, cəbhə xatirələri var. 2 Qırmızı Ulduz, II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olunmuşdur.

Ə s ə r i: Seçilmiş əsərləri, B., 1973.



İ. Əbilov və Atatürk. 1922.

**ƏBİLOV** İbrahim Məhərrəm oğlu (1882, Ordubad ş. – 23.2.1923, Türkiyə, İzmir ş; Bakıda dəfn olunmuşdur) – Azərb. Respublikasının ilk diplomatlarından biri. M. T. Sidqinin Ordubadda "Əxtər" məktəbində oxumuş, atasının vəfatından sonra ailəsini dolandırmaq üçün təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. 1903 ildən Petrovsk-Portda (indiki Mahaçqala) və Bakıda fəhləlik etmiş, inqilabi hərəkata qoşulmuş, ilk Azərb. sosial-demokrat təşkilatı "Hümmət"in (menşevik) üzvü kimi fəaliyyət göstərmişdir. 1907 ildə Bakı-Xəzər Ticarət donanması dənizçilərinin tətilinin təşkilatçılarından idi. 1908 ildə Cənubi Qafqazda və Cənubi Azərb.-da iranlı zəhmətkeşlər arasında inqilabi iş aparan "İctimaiyyun–amiyyun" ("Mücahid") sosial-demokrat təşkilatının sədri N. Nərimanovun tapşırığı ilə İrana göndərilmişdir. Bakıya qayıtdıqdan (1909) sonra burada çıxan "Bakı həyatı" qəzetində redaktor vəzifəsində (1912) işləmişdir. Çar hökuməti tərəfindən dəfələrlə həbs olunan Ə. 1913 ildə Həştərxana sürgün edilmişdir. Çarizm devrildikdən sonra sürgündən qayıdan Ə. Tiflisdə menşevik "Hümmət" təşkilatının görkəmli xadimlərindən biri kimi fəaliyyət göstərmişdir. 1918 ilin axırlarında Bakıya gələn Ə. Azərb. Xalq Cümhuriyyəti parlamentinə deputat seçilmiş və onun sosialist fraksiyasına başçılıq etmişdir. 1920 ildə Bakı menşeviklərinin orqanı olan "İskra" qəzetinin redaktoru idi. Azərb.-da sovet hakimiyyəti qurulduqdan (1920) sonra Azərb. SSR daxili işlər nazirinin müavini təyin olunmuş, Şərq xalqlarının Bakıda çağırılan





I qurultayında Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının katibi seçilmişdir. 1921 ilin iyununda Azərb. nümayəndə heyətinin tərkibində Kommunist İnternasionalının 3-cü konqresində iştirak etmişdir. 1921 ildən N. Nərimanovun tövsiyəsi ilə Azərb. SSR-in, sonra isə ZSFSR-in Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuş, Sovet–Türkiyə, o cümlədən Azərb.–Türkiyə dostluq münasibətlərinin təşəkkül tapmasında və möhkəmləndirilməsində böyük rol oynamışdır. Onun təşəbbüsü ilə Türkiyənin Trabzon və Samsun ş.-lərində Azərb.-ın konsulluqları açılmışdı. Ə.-un səmərəli diplomatik fəaliyyəti və bilavasitə iştirakı sayəsində sovet respublikaları ilə Türkiyə arasında bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalanmışdır. Naxçıvan muxtariyyətinin təməlini qoymuş 1921 il Moskva və Qars müqavilələrini digər naxçıvanlı diplomat, Sovet–Türkiyə danışıqlarında Azərb. nümayəndə heyətinin başçısı Behbud ağa Şahtaxtinski ilə birlikdə Ə. da imzalamışdır. Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürk ilə Ə. arasında mehriban dostluq münasibətləri var idi. Ə. Azərb. hökuməti adından dostluq və qardaşlıq rəmzi olaraq ona qızıl xəncər hədiyyə vermiş. Atatürk Ankarada Azərb. səfirliyinin binası üzərində ölkəmizin bayrağının qaldırılması mərasimində iştirak etmişdir.

*Əd.:* Б а г и р о в Ю. А., Из истории советско-турецких отношений в 1920–22 гг., Б., 1965; А р а л о в С. И., Воспоминания советского дипломата, М., 1960.

**ƏBRƏQUNİS** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.-y. st.-ndan 22 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1880 nəfər (2000); üzümçülük, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, internat məktəbi, mədəniyyət evi, 3 kitabxana, kinoqurğu, təqaüdçülər klubu, tibb məntəqəsi, 35 çarpayılıq xəstəxana, əczaxana, çörəkxana, rabitə şöbəsi var.

**ƏBRƏQUNİS NEKROPOLU I** – Culfa r-nunda, eyniadlı kəndin q.-ində, Ərəfsə–Naxçıvan yolunun sağında, uzunsov təpənin üzərində orta əsrlərə aid arxeoloji abidə. Əkin sahələri ilə əhatə olunmuşdur. Sah. 3200 $m^2$. 1990–91 illərdə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbirlər müxtəlif dövrlərə aiddir. Ş.-q. istiqamətində olan qəbirlərin başdaşıları saxlanmışdır. Daş qutu qəbirdən aypara formalı tunc sırğalar tapılmışdır. Əksər sinə daşları dördüzlü prizma formasında olub, kobud hazırlanmışdır; bəziləri həndəsi və memarlıq ornamentləri ilə naxışlanmışdır. Birinin üzərində sxematik quş, ucları dəyirmiləşdirilmiş həndəsi xətlər, insan və ağac rəsmlərindən ibarət oyma naxışla haşiyələnmiş süjet həkk olunmuşdur. Forma verməyən, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz qab qırıqları aşkar edilmişdir. Nekropolun 14–17 əsrlərə aid olduğu ehtimal edilir.

**ƏBRƏQUNİS NEKROPOLU II** – Culfa r-nunda, eyniadlı kəndin yaxınlığında, Ərəfsə–Naxçıvan yolunun sağında, I Əbrəqunis nekropolundan bir qədər aralıda, nalşəkilli kiçik təpə üzərində orta əsrlərə aid arxeoloji abidə. Sah. 5600 $m^2$. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbirlər, əsasən, qiblə istiqamətindədir, başdaşıları saxlanmışdır. Düzbucaqlı prizma formalı sinə daşları kobud hazırlanmış, birinin üst hissəsi tağvarı tamamlanmışdır. Digərinin üzərində insan təsviri var. Qəbirüstü qoç daşları dağıdılmışdır. Nekropoldan son orta əsrlərə aid şirli və şirsiz saxsı, yüksək keyfiyyətli fayans qab sınıqlarından ibarət yerüstü materiallar aşkar olunmuşdur. Nekropol 14–17 əsrlərə aid edilir.

**ƏBRƏQUNİS NEKROPOLU III** – Culfa r-nunda, eyniadlı kəndin c.-q.-ində, Əbrəqunis çayının sol sahilində orta əsrlərə aid arxeoloji abidə. Sah. 1800 $m^2$. Yaşayış binaları ilə əhatə olunmuşdur. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbirlərin başdaşıları saxlanmamış, qiblə istiqamətində olanların sinə daşları kobud hazırlanmışdır. Bəzi qəbirlərin üzərinə yonulmamış dördkünc daşlar qoyulmuşdur. Sinə daşlarında heç bir yazıya, işarəyə təsadüf olunmamış, yalnız bir neçə qəbir daşının üzərində kiçik həndəsi xətlər cızılmışdır. Nekropolun yaxınlığında alban-xristian məbədi vardır. Abidənin 16–18 əsrlərə aid olduğu ehtimal edilir.

**ƏBRƏQUNİS RAYONU** – Nax. MR-də mövcud olmuş inzibati r-n. 1930 il avqustun 8-də təşkil olunmuş, 1949 il yanvarın 5-də ləğv edilib, Culfa r-nu ilə birləşdirilmişdir.

**ƏBU BƏKR,** Nüsrət əd-Din (?–1210) – Azərb. atabəyləri dövlətinin dördüncü hökmdarı [1191–1210]. Eldənizlər sülaləsinə mənsub *Məhəmməd Cahan Pəhləvanın* [1175–86] türk

qızı Quteybə xatundan olan oğlu. Atasının hakimiyyəti zamanı Azərb. və Arranın idarəsi ona həvalə edilmiş, əmisi *Qızıl Arslan* onun atabəyi təyin olunmuşdu. Qızıl Arslan hakimiyyətə gəldikdən (1186) sonra onu qoşun başçısı təyin etmişdi. Mənbələrin (Ravəndi, əl-Bəndari və b.) məlumatına görə, Qızıl Arslanın ölümündən sonra anası Quteybə xatunun təhriki ilə Azərb.-da hakimiyyətə yiyələnmək üçün Naxçıvana gəlmiş Ə. B. atabəylərin xəzinəsi yerləşən Əlincə qalasını ələ keçirir. Bütün yerli hakimlər onun ali hakimiyyətini tanıyırlar. Cahan Pəhləvanın İnanc xatundan olan oğlanları Qutluq İnanc və Əmir Əmiranın Həmədan və ona qonşu vilayətlərə, İnanc xatunun özünün isə Reyə hakim olması ilə Azərb. atabəyləri dövləti onun oğlanları arasında bölüşdürülür. Ara çəkişmələrinin artdığı bu dövrdə sultan III Toğrul Qəzvin yaxınlığında Qutluq İnancla apardığı uğurlu döyüşdən (1192) sonra yenidən Həmədana daxil olub sultan taxtına oturur. Əvvəlki Eldənizlərdən fərqli olaraq, Ə. B. Naxçıvanda qalıb, yalnız Azərb.-a hakimlik edir, Təbrizi tutmuş qardaşları Qutluq İnancla Əmir Əmiranın hücumlarını uğurla dəf edir. Zəncana qaçmış Qutluq İnanc Xarəzmşah Təkişlə birləşərək, Rey yaxınlığında sonuncu səlcuq sultanı III Toğrulun öldürülməsi ilə nəticələnən döyüşdə (1194) ona qalib gəlir. İraq sultanlığı ərazisinin böyük hissəsi Xarəzmşahın əlinə keçir. Ə. B.-in Şirvana qaçmış o biri qardaşı Əmir Əmiran Şirvanşah I Axsitanın qızı ilə evlənir və çox keçmədən Ə.B.-ə qarşı gürcü hökmdarı Tamara ilə ittifaqa girir. 1194 ilin iyununda birləşmiş gürcü–Şirvan ordusu, eləcə də Ə.B.-dən narazı olan bəzi Arran əmirləri və türkman dəstələri Şəmkir yaxınlığında Azərb. atabəyinin ordusunu məğlubiyyətə uğradırlar. Şəmkir, ətraf şəhər və qalalar Əmir Əmiranın əlinə keçir. Beyləqan yaxınlığında baş verən ikinci döyüşdə də məğlub edilən Ə.B. güclə canını qurtarıb Naxçıvana qaçır. Azərb.-ın şm.-nda çox yerləri ələ keçirmiş, gürcü hökmdarından vassal asılılığını qəbul etmiş Əmir Əmiranın Gəncədə möhkəmlənmək istəyi şəhər əhalisi tərəfindən narazılıqla qarşılanır. Əmir Əmiranı öldürən gəncəlilər Ə.B.-ə müraciət edirlər. Ə.B. Gəncəni öz oğlunun ixtiyarına verib Naxçıvana qayıdır. Elə bu zaman sultanlıqda Eldənizlərdən başqa heç bir hakimiyyəti tanımaq istəməyən məmlüklərin təzyiqi ilə Xarəzmşah Təkiş Ə.B.-i sultanlıq taxtında oturtmağa çalışır. Ə.B. qardaşı Özbəyi Həmədana göndərir. Sultanlığın idarəsi Özbəyə həvalə edilir. Uzun çəkişmələrdən sonra mövqelərini möhkəmlədə bilmiş Özbək və Ə.B. ataları Cahan Pəhləvanın məmlüklərinin və İraq əmirlərinin köməyi ilə Xarəzm hərbi hissələrini ölkədən qova bilirlər. Mənbələr artıq bu zaman siyasi işlərlə məşğul olmaqdansa, eyş-işrətə qurşanan Ə.B.-in öz dövlətinin təhlükəsizliyinə az fikir verdiyini qeyd edirlər. Vəziyyətdən istifadə edən gürcülər Gəncənin uğursuz mühasirəsindən sonra Dvinə hücum edib onu ələ keçirir, sonra Naxçıvana doğru hərəkət edirlər. Bundan xəbər tutan Ə.B. Naxçıvanı tərk edib, Təbrizə çəkilir. 1204–05 illərdə gürcülər Azərb.-ın içərilərinə, oradan Xilata, Ərcişə və b. yerlərə soxulub, hər yerdə talançılıq və qarətlə məşğul olur və yaşayış məskənlərini dağıdırlar. Bu hücumların qarşısını almağa çalışan Ə.B. gürcü hökmdarının qızı ilə evlənir. Mənbələrin yazdığına görə, həmin izdivacdan sonra gürcülər Ə.B.-in hakimiyyətinin sonunadək Azərb.-a hücum etmirlər. Ə.B.-in zəifliyindən istifadə edən Marağa hakimi Əlaəddin Körpə Arslan və İrbil hakimi Müzəffərəddin Göybarı Azərb. atabəylərinin tabeliyində olan torpaqlara soxulub, Ə.B.-in olduğu Təbrizə hücum edirlər. Cahan Pəhləvanın məmlükü Şəmsəddin Aydoğmuş Ə.B.-in xahişi ilə ona köməyə gələrək, atabəy qoşunları ilə birlikdə Marağanı mühasirəyə alır. Qısamüddətli mühasirədən sonra barışıq imzalanır. 1208 ildə Marağa hakimi Körpə Arslanın vəfatı ilə Ağsunqurilər sülaləsinə mənsub əl-Əhmədili nəsli sona çatır. Bundan istifadə edərək Marağanı və Ruindej qalasını tutan Ə.B., az sonra Xarəzmşahların yeni hücumunu dəf edir. 1210 ildə hakimiyyətinin çox illərini Naxçıvandakı iqamətgahında keçirən Ə.B.-in ölümü ilə onun iyirmi illik hökmdarlığı başa çatır.

**ƏBU TALIBBƏY** – (?–?) – dövlət xadimi (17 əsr). *Nəsirəddin Tusinin* nəslindəndir. Atası, məşhur dövlət xadimi, *Hatəm bəy Ordubadinin* ölümündən (1610) sonra onun yerinə Səfəvilər sarayının vəziri təyin edilmişdi. Mənbələrin verdiyi məlumata görə Ə.T. həm də istedadlı şair kimi böyük ehtiram qazanmışdı.



**ƏBUDÜLƏFİLƏR,** D ü l ə f i l ə r – 10 əsrin sonu – 11 əsrin 60-cı illərinədək Naxçıvanda hakimlik etmiş feodal nəsli. Ə. adına ilk dəfə 9–10 əsr ərəb müəlliflərinin (əl-Bəlazuri, ət-Təbəri, İbn ən-Nədim və b.) əsərlərində təsadüf edilir. Bu məlumatlara görə, 9 əsrdə Ərəb xilafəti qoşununa başçılıq edən sərkərdələrdən biri əl-Qasim ibn İsa əl-İcli Əbu Düləf olmuşdur. Şair kimi də tanınan bu şəxs Abbasilərin hakimiyyəti dövründə (9 əsrin 1-ci rübünədək) Xilafətin Şimal vil.-lərinə köçən və bu yerlərdə məskunlaşan ərəb nəsllərindən idi. Mənbələr (ət-Təbəri) "Əbu Düləfin başçılığı altında olan könüllülər"in Babəkə qarşı vuruşan ərəblərə qoşulub Bəzz qalasının alınmasında iştirak etməsi haqqında məlumat verir. Ə. xanədanı 825–898 illərdə Həmədanla İsfahan arasında iqamətgahı Kərəc olan yerlərə sahib idi. Ə. Sacilər dövlətinin hakimiyyəti dövründə (9 əsrin sonu) onlara tabe olmuş və görünür, sonrakı illər öz mülklərinin birində yaşamışlar. Təqr. 100 il sonra, 982 ildə *Qoğtən* əmiri adlandırılan və şübhəsiz, həmin məşhur nəslə mənsub Əbu Düləf Şəddadilərə məxsus Naxçıvanı və Dvini (D ə b i l i) ələ keçirir.

983 ildə Əbu Düləf erməni feodal nəsli Artsrunilərin xanədanı olan *Vaspurakan* vilayətinə hücum edir. 987–88 illərdə Əbu Duləfin qoşunu Rəvvadilər sülaləsinin görkəmli nümayəndəsi, hələ Salarilərin hakimiyyəti dövründə Cənubi Azərb. feodalları içərisində ən qüdrətlisi hesab olunan Əbülheycə ibn Rəvvad tərəfindən məğlubiyyətə uğradılır. Lakin tutulan torpaqlar geri qaytarılır.

988 ildə Vaspurakana növbəti yürüş zamanı Rəvvadi hökmdarının vəfat etməsi Əbu Düləfin yenidən Naxçıvan və Dvində möhkəmlənməsinə şərait yaradır. Mənbəyə (Asogik) əsasən, o, hətta erməni hökmdarı Sumbatla "sazişə girib, dinc yaşamaq haqqında müahidə" də bağlayır. 10 əsrin son illərində Şəddadi hökmdarı Arranşah I Fəzl [985–1031] müstəqil hakimlik etməyə çalışan bir çox feodal mülklərini – Xaçını, Gorusu, Süniki və b.-nı, o cümlədən Naxçıvanı Şəddadilər dövlətinin tərkibinə qatır, Dvini tutur, bir neçə erməni vilayətini tabe edir. 1018–21 illərdə Araz çayını adlayaraq Rəvvadilərin tabeliyində olan c. istiqamətindən Arran torpaqlarına yürüş edən oğuzlar Naxçıvana (sonra isə Dəbilə) hücum çəkərkən buradakı hakimin Ə.-dən olduğu şübhəsizdir. 1029 ildə Rəvvadi hökmdarı Vahsudanın icazəsi ilə oğuzlar Azərb.-ın c.-nda məskən saldılar və barışığı pozaraq Marağa, Urmiya və b. şəhərlərə hücum etdilər. Görünür, elə bu dövrdə Naxçıvanda yaşayan Qətran Təbrizi "Naxçıvan qalasında düşmənə qalib gələn" Əbu Düləfi mədh edir. Qətran Təbrizinin bu və başqa qəsidələrində məddahlara xas olan şişirtmələrlə Əbu Düləfin "şahi Naxçıvan" ("*Naxçıvanşah*"), "Şah Əbu Düləf", "ədalətli şahənşah", "bəndəpərvər padşah məlik Əbu Düləf" titulları ilə təriflənməsinə baxmayaraq, o, yalnız həmin dövrdə Şəddadilər dövləti tərkibində olan Naxıvanın hakimi – əmiri olmuşdur. Şəddadilərə tabe başqa mülk sahibləri kimi Ə. də onların xəzinəsinə vergilər verir, dövriyyədə olan pullarını işlədir, cümə xütbələrində öz adlarından əvvəl süzerenlərinin adlarını çəkdirirdilər. Mənbələrdə Ə.-ın Rəvvadilər və Artsrunilərlə qohumluqları haqqında məlumat vardır. 1054/55 ildə Səlcuq sultanı Toğrulun Azərb.-a yürüşü zamanı, görünür, Ə.-in hakimiyyətdən etdikləri Naxçıvan da hücuma məruz qalır.

1063 ildə ikinci səlcuq sultanı Alp Arslan [1063–72] Azərb.-da Səlcuqilərin vassalı olan feodal mülklərinin sahibləri üzərində təsir gücünü artırmaq üçün Cənubi Qafqaza yürüş edir. Reydən Mərəndə, oradan isə İbn əl-Əsirin (13 əsr) yazdığına görə, "ölkələrin dərələri və sərt dağları ilə Naxçıvana" gələn Səlcuq qoşunu sultanın əmri ilə burada "Araz çayını keçmək üçün gəmilər" hazırlayır. Həmin müəllifin məlumatına görə, Naxçıvanda olarkən "sultanın ətrafında saysız-hesabsız hökmdar və əsgər toplandı". İbn əl-Əsir səlcuqların "müsəlmanların sərhədyanı dayağı" olan iki qalanı (Sürməlini və Qarabağı) tutduqlarını və "əsgərlərlə, sursatla, pulla və silahla təmin edib, Naxçıvan əmirinin sərəncamına vermələrini" də bildirir. Bu məlumatda yerli əmirin adı çəkilməsə də, tədqiqatçıların fikrincə, sultan Alp Arslan Ə.-i hakimlikdən uzaqlaşdıraraq, Naxçıvana səlcuqlardan əmir təyin etmişdir.

*Əd.:* Ş ə r i f l i M. X., IX əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri, B., 1978; V ə l i x a n l ı N a i l ə, X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha

"Naxçıvanşahlıq" haqqında. Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası ), B., 2001, № 3; Асотик, Всеобщая история, М., 1861.

**ƏBÜLFƏT BƏY CAVANŞİR** (?–?) – *Azadciran* hakimi (19 əsrin 1-ci rübü). Sonralar Azadcirana hakimlik səlahiyyəti Cavanşir tayfa nümayəndələrinin əlindən alınıb Kəngərlilərə tapşırılmışdı. Şahzadə Abbas Mirzənin Ə. B. C.-ə ünvanlaşmış reskripti Kəngərli sənədləri kitabında verilmişdir.

*Əd.:* Персидския Акты в документах (серия, памяти Ю. Н. Марра), кн. 1. Нахичеванские рукописные документы XVII–XIX вв., Тбилиси, 1936.

**ƏBÜLFƏZ ELÇİBƏY** (1938–2000) – ictimai-siyasi xadim. Bax *Elçibəy* Əbülfəz.

**"ƏCAİB ƏD-DÜNYA"** – bir çox ölkələrin tarixi coğrafiyası barədə məlumat verən farsdilli anonim əsər. 1221–31 illər arasında yazılmışdır. Müəllifin öz dövrünün elmli şəxsiyyəti kimi tanındığı, müxtəlif ölkələrə səyahət etdiyi, həmçinin, ticarətlə məşğul olduğu güman edilir. Rusiya EA Şərqşünaslıq İn-tunda saxlanılan nüsxəsi əvvəldən və sondan naqisdir. Giriş, 2 hissə və nəticədən ibarət olduğu qəbul edilmişdir. I hissədə dünyanın bir çox möcüzələrindən bəhs olunur, II hissədə ayrı-ayrı ölkələrin və şəhərlərin əlifba sırası ilə qısa şərhi verilir. Əsərin yazılmasında əvvəlki mənbələrdən, şifahi məlumatlardan və müəllifin şəxsi müşahidələrindən istifadə olunmuşdur.

"Əcaib əd-Dünya" Azərb. barədəki məlumatının çoxluğu ilə diqqəti cəlb edir və müəllifin bu diyarla əlaqəli olduğu sezilir. Burada Ərdəbil, Arran, Dərbənd, Bərdə, Təbriz, Salmas, Şirvan, Şamaxı, Şəmkür (Şəmkir) və s. yerlər barədə məlumat var. Naxçıvan ş. haqqındakı məlumat maraq doğurur: "Naxçıvan Azərbaycanda böyük və əhalisi sıx olan abad şəhərdir. Hündür ərazidə yerləşir. Çox möhkəmləndirilmişdir. [Orada] çoxlu saraylar, köşklər, eyvanlar tikilmişdir. Şəhərin yaxınlığında daşın üstündə [daşdan?] qala tikmişlər, mədrəsələr, məscidlər inşa etmişlər. Qalada gözəl çeşmə var. Deyirlər ki, yer üzərində ondan abad şəhər yoxdur. Bütün binalar gəc və bişmiş kərpicdən tikilmişdir. Köşklərin çoxu qala kimi üçmərtəbə və dördmərtəbədir. Yaxşı [şəhərətrafı] ərazisi [savad], axar suyu, bağları və bol göy-göyərtisi, lətif meyvələri [var]. Araz çayı şəhərin hüdudlarına toxunaraq keçir. Deyirlər ki, bütün aləmdə Naxçıvan üzümündən daha yaxşı və daha xeyirli üzüm yoxdur."

[Naxçıvan] mübarək [hümayun] Eldəniz dövründə tam əzəmət kəsb etdi və paytaxt [oldu] və orada dövlətxana [tikdilər]. [Bir dəfə Eldəgəzin] atının qabaq ayağı çuxura düşür və o, bunu xoş əlamət kimi qiymətləndirir və deyir ki, burada bir ev tikəcəyəm və belə də edir. Onun [Naxçıvanın] əhalisi incə təbiətli, gözəl qiyafəli adamlardır. Sünni və şafei məzhəbdirlər, [din] qazılarıdırlar [mübarizləridirlər]. İgid, oxatan, qəribsevən [qonaqpərvər] və xoş dillidirlər.

Onun [Naxçıvanın] malları yaxşı hazırlanmış Çin paltarları, nəfis örtüklər, keçə, çuxa, fitə, çox gözəl naxışlanmış kasa, ağac tabaqçalar [və s. ibarətdir], belə ki, onlardan hədiyyə kimi bütün ölkələrə aparırlar. Orada erməni və rum malları [da] tapılır. [Naxçıvanlılar] gözəl sənətlər bilirlər və rahat həyat sürürlər.

Deyirlər, Naxçıvan qəbiristanlığına bənzər qəbiristanlıq heç yerdə yoxdur..."

*Əd.* Миклухо-Маклай Н. Д., Географическое сочинение XIII в. на персидском языке., Ученые записки Института востоковедения, т. X, М.- Л., с. 175-219.

**ƏCƏMİ** Əbubəkr oğlu Naxçıvani (12 əsrin 20-ci illəri – 12 əsrin sonu) – memar. Azərb. memarlığının görkəmli nümayəndəsi, *Naxçıvan memarlıq məktəbinin* banisi. Ə. orta əsr Azərb. memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının bir qədər ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Ə.-nin adı Azərb. ictimai fikrində intibah, humanizm ideyalarının yayıldığı 12 əsrin görkəmli simaları arasında şərəfli yer tutur. Zamanın bu meylləri Nizami Gəncəvinin və Xaqani Şirvaninin poeziyasında yüksək təzahürünü tapdığı kimi, memarlıq və sənətdə də Ə. yaradıcılığında təcəssüm etmişdir. Eyni zamanda, dövrünün memarları içərisində Ə. daha çox yaratdıqlarının elmə bəlli olması ilə seçilir. Yaratdığı abidələrin üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkarın təsviri sənəti, mühəndisliyi memarlıqda sintetik şəkildə birləşdirdiyi aydın görünür. Şərqin böyük dühaları ona "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Ə.-nin yaradıcılığı 12 əsrdə qüdrətli



Azərb. atabəyləri dövlətinin paytaxtı Naxçıvanla bağlı olmuşdur. Mühüm beynəlxalq ticarət yolları qovşağında yerləşən, Azərb.-ın siyasi, iqtisadi, mədəniyyət, sənətkarlıq mərkəzi olan Naxçıvanda geniş abadlıq və tikinti işləri aparılırdı. Ə.-nin yaratdığı ilk məlum abidə *Yusif ibn Küseyir* türbəsidir. Naxçıvan ş.-nin mərkəzində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162 ildə tikilmişdir. Səkkizbucaqlı gövdədən, qülləvarı günbəzdən, bucaqlarda qoyulmuş dayaqlardan ibarət həmin abidə kərpicdən hörülmüş, divarları quraşdırma həndəsi ornamentlərlə örtülmüşdür. Burada bədiiliklə memarlığın tektonikası (arxitektonika) ahəngdar şəkildə birləşmişdir. Abidənin giriş qapısından soldakı kitabədə memarın adı yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli". Təkcə Azərb.-da deyil, islam aləmində ən hündür və incə kompozisiyalı türbələrindən sayılan *Möminə xatun türbəsini* Ə. 1186 ildə Naxçıvanın q. hissəsində ucaltmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə tikilmişdir. Türbə özünün iri ölçüləri, monumental biçimləri, dinamik silueti ilə böyük bir memarlıq kompleksinin dominantı idi. Memarlıq prinsiplərinin təkmilləşməsi və mürəkkəbləşməsi əsasında yaradılmış ongüşəli Möminə xatun türbəsi monumental abidədir. Türbə yeraltı hissəsinin quruluşu, xarici səthlərinin və bu səthləri bir-birindən ayıran tillərin memarlıq bölgülərinin həlli, eləcə də həndəsi ornamentlərin tərtibi cəhətdən misilsiz sənət nümunəsidir. Ə. Möminə xatun türbəsinin ornamentlərini həndəsi sistemləri xatırladan mürəkkəb naxış şəbəkəsi ilə hörmüş, kufi xətli kitabələri ornament bəzəklərinə uyğunlaşdıraraq, abidənin ümumi kompozisiyasına daxil edilməsinə ustalıqla nail olmuşdur.

Ə.-nin yaratdığı tikililərdən biri də 19 əsrə aid fotodan məlum olan qoşa minarədən və bunları birləşdirən baştağdan-portaldan ibarətdir. Bu abidə, Möminə xatun türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir. Bu kompleksə daxil olan və 19 əsrə kimi dağınıq halda qalmış Naxçıvan Cümə məscidi, mənbələrdə adı çəkilən "Darülmülk" – Eldənizlər sarayı və "Dövlətxana"–hökumət binası da Ə. sənətinin nümunələridir. Tədqiqatçılar Ə.-nin bu abidələrdən başqa, Atabəylər paytaxtında–Naxçıvanda daha bir çox binalar tikdiyini qeyd edirlər. Lakin bu abidələr haqqında hələlik məlumat yoxdur.

Ə. yaradıcılığı Azərb. və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir – Marağadakı Göy günbəz (1196), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsi (13 əsr), Qarabağlar türbəsi (12–14 əsrlər), Bərdə və Səlma türbələri (14 əsr), türk memarı Sinanın (16 əsr) İstanbulda tikdiyi türbələrdə Ə. ənənələri yaşayır. 1926 ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Ə. irsindən istifadə edilmiş, Nizami türbəsi Ə. dühası ruhunda tikilmişdir. Bakıda ucaldılmış Nizami heykəlinin kürsü hissəsində, Şuşadakı Vaqif türbəsində, Naxçıvan ş.-ndəki Hüseyn Cavid məqbərəsində Ə.-nin memarlıq irsinin təsiri aydın hiss olunur. Məşhur Avstraliya sənətşünası Ernest Dits qeyd edirdi ki, Sinanın İstanbulda tikdiyi türbələr Naxçıvan türbələrinin təsiri altında yaranmışdır. E. Dits yazırdı ki, Sinan ordu mühəndisi kimi 1535–36 illərdə İran səfəri zamanı Naxçıvana gəlib, Ə.-nin memarlıq məktəbi ilə tanış olmuşdur.

Ə.-nin yaradıcılığı 12 əsr Azərb. mədəniyyəti və ictimai fikrindəki intibahın parlaq təzahürlərindəndir. Abidələrindəki zəriflik, memarlıq bölgülərinin quruluşu, ornament bəzəklərinin oynaqlığı orta əsr anlayışı çərçivəsinə sığmayan bədii təfəkkürün məhsuludur. Onun ornament kompozisiyaları bədiiliklə riyazi fikrin vəhdətinə əsaslanır.

Ə. memarlıq sənətinin başlıca problemlərindən olan tektonikliyin (arxitektonika) dünya memarlığında az təsadüf edilən parlaq həllini tapan mühəndis və sənətkar olmuşdur. Onun yüksək mühəndislik qabiliyyəti Qərbi Avropa memarlarından bir əsr əvvəl Möminə xatun türbəsinin sərdabəsində qurduğu nervürlü tağlar sistemində və onun oturacağındakı mürəkkəb ornamentlərin əvvəlcədən hazırlanmış tavalar şəklində tərtibində, Cümə məscidinin nəhəng günbəzində və qoşa minarələrdə özünü göstərir. H. İbrahimovun "Əsrin onda biri" romanı, Kəmalənin "O bizim dağların oğlu idi" pyesi Ə-yə həsr



*Memar Əcəmi Naxçıvaninin abidəsi. 1989. Heykəltəraş K. Ələkbərov. Naxçıvan şəhəri.*

edilmişdir. 1976 ildə anadan olmasının 850 illiyi geniş qeyd olunmuşdur. İllüstrasiya üçün bax *Yusif ibn Küseyir türbəsi, Möminə xatun türbəsi* məqalələrinin şəkillərinə.

*Əd.:* S a l a m z a d ə Ə. V., Əcəmi Naxçıvani, B., 1976; y e n ə o n u n, Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri, B., 1976; C ə f ə r Q i y a s i, Nizami dövrü memarlıq abidələri, B., 1991.

**ƏCƏMİ NAXÇIVANİ MEYDANI** – Naxçıvan ş.-ndə Azadlıq prospekti və Nizami küçəsinin paralelində, Respublika mədəniyyət sarayının və *"Heydər bulağı"* istirahət kompleksinin qarşısında yerləşir. Meydan 1989 ildə inşa edilmişdir. Burada böyük Azərb. memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin pyedestal üzərində qranit heykəli ucaldılmışdır (heykəltəraş Azərb. Respublikasının əməkdar rəssamı Kamal Ələkbərovdur).



*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.*

**"ƏCƏMİ" NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİ** – 1921 ildə Naxçıvan ş.-ndə yaradılmış və 1938 ilədək "Şərq qapısı" qəzeti redaksiyasının tabeliyində olan mətbəə kimi fəaliyyət göstərmişdir. 1938 ildə Naxçıvan mətbəəsi adı ilə müstəqil müəssisəyə çevrilmişdir. 1985 ildə Azərb. Nəşriyyat-Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin (Mətbuat və İnformasiya Nazirliyi) strukturuna daxil edilərək, Naxçıvan Poliqrafiya müəssisəsi adlandırılmışdı. 1997 ildən indiki adı ilə işləyir. Birlik muxtar respublika tarixində kitab nəşr edən ilk müəssisədir. Müasir avadanlıqla təchiz olunmuş birlikdə kompüter, linotip, çap və möhür-ştamp sexləri fəaliyyət göstərir. Son illərdə müəssisədə muxtar respublikanın tarix, iqtisadiyyat, elm, təhsil və mədəni həyatından kitablar nəşr edilmişdir. Burada kitab və qəzetlərlə yanaşı, digər poliqrafiya məhsulları da istehsal olunur.

**ƏCƏMİ SEYRƏNGAHI** – Naxçıvan ş.-ndə istirahət kompleksi. Nizami küçəsində, qədimdə Qala məhəlləsi adlanın ərazidə yerləşir. Kompleks 1980–82 illərdə bərpa və inşa edilmişdir. Kompleksin içərisində Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin 2 *m*-lik pyedestal üzərində büstü qoyulmuşdur (heykəltəraş, xalq rəssamı, akad. Ömər Eldarovdur). Kompleksə memar Əbubəkr oğlu Əcəmi Naxçıvaninin 12 əsrdə inşa etdiyi Möminə Xatun türbəsi, 17 əsr abidəsi Miryaqub piri, 18–19 əsrlərə aid Xan evi (hazırda xalça muzeyi) daxildir. Kompleksə daxil olan qədim tikilidə Bülbül ad. uşaq bədii sənətkarlıq məktəbi yaradılmışdır. 4 *ha* sahəni əhatə edən kompleksdə süni göl salınmış, 1000 yerlik açıq amfiteatr, qədim üslubda giriş qapısı (memar Məmməd İbrahimov) iaşə və ticarət obyektləri tikilmişdir.

**ƏCNƏVİRDƏRƏ ÇAYI** – Ordubad r-nu ərazisində çay. Gənzə çayının sol qolu. Uz. 5 *km*, hövzəsinin sah. 7 $km^2$. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır.

**ƏDƏBİYYAT MUZEYİ,** C. M ə m m ə d q u l u z a d ə ad. Nax.MR Ədəbiyyat Muzeyi – Azərb. SSR Nazirlər Sovetinin 1966 il tarixli qərarına müvafiq olaraq, 1967 il iyunun 12-də Naxçıvan ş.-ndə açılmışdır; açılış zamanı 98 eksponatı var idisə, hazırda onların sayı 18000-dən çoxdur. Muzeyin fondunda çoxəsrlik Azərb. ədəbiyyatı tarixini əks etdirən



*Əcəminin portreti. 1976. Rəssam Elmira Şahtaxtinskaya.*






qiymətli əlyazmaları, tətbiqi və təsviri sənət nümunələri, qədim və müasir kitablar (o cümlədən avtoqraflı), qəzet və jurnallar, xatirə əşyaları və digər muzey materialları mühafizə olunur. Ekspozisiyada Nizami, Əcəmi Naxçıvani, Nəsimi, Füzuli, Şah İsmayıl Xətai, M. P. Vaqif, M. F. Axundov, M. Ə. Sabir, C. Məmmədquluzadə, M. S. Ordubadi, N. Nərimanov, Hüseyn Cavid, Ə. Haqverdiyev, M. Hadi, Ü. Hacıbəyov, C. Cabbarlı, Səməd Vurğun, müasir ədəbiyyatımızın görkəmli nümayəndələri M. Müşfiq, Rəsul Rza, Süleyman Rüstəm, S. Rəhimov, Mehdi Hüseyn, M. İbrahimov, Ə. Vəliyev, Mir Cəlal, İ. Əfəndiyev, B. Azəroğlu, B. Vahabzadə, Xəlil Rza, Nəbi Xəzri və b.-na geniş yer ayrılmışdır. Naxçıvan torpağının yetirdiyi şair və yazıçılar – Heyran xanım, Qönçəbəyim, M. Sidqi, E. Sultanov, Ə. Qəmküsar, İ. Səfərli, A. Babayev, M. Nəsirli, H. İbrahimov, Məməd Araz, Ə. Əylisli, H. Razi, Kəmalə, Ə. Yusifli, H. Elsevər, filoloq-ədəbiyyatşünaslar M. Şahtaxtlı, Əziz Şərif, Ə. Sultanlı, M. H. Təhmasib, Məmməd Cəfər, A.Zamanov, L. Hüseynzadə, Y. Axundlu, F. Hüseynov, İ. Həbibbəyli və b.-larının yaradıcılığı təmsil olunmuşdur. "Torpaq, uğrunda ölən varsa, Vətəndir" ekspozisiyasında muxtar respublikanı erməni təcavüzündən müdafiə edərkən şəhid olmuş vətən övladlarının xatirəsi əbədiləşdirilmişdir. Ekspozisiyada və fondda Azərb.-ın fırça ustalarından Ə. Əzimzadə, B. Kəngərli, M. Abdullayev, O. Sadıqzadə, E. Şahtaxtinskaya, İ. Axundov, Nəcəfqulu, T. Nərimanbəyov, yerli rəssamlardan H. Əliyev, M. İsmayılov, M. Seyidov, N. Əliyev, Q. Bağırov, Ə. Axundov, P. Əliyeva və b.-larının müxtəlif janrlarda yaratdıqları



boyakarlıq və heykəltəraşlıq əsərləri, Naxçıvan teatrının tarixinə aid sənədlər – afişalar, proqramlar, tamaşa eskizləri, S. Mövləvi, İ. Musayev, İ. Həmzəyev, Z. Həmzəyeva, Ə. Haqverdiyev, M. Mirişli, F. Əlixanova, M. Quliyev, Ə. Qardaşbəyov, A. Şahsuvarov, Z. Əliyeva, V. Babayev və b. görkəmli sənətkarların yaradıcılığını əks etdirən fotoşəkillər də nümayiş etdirilir.

*Əd.:* Kəngərli S., Muzey elm və mədəniyyət toplusudur, "Qobustan" toplusu, 1999, № 2.

**ƏDİRNƏ SÜLHÜ (1829)** – Rusiya–Türkiyə müharibəsini (1828–29) başa çatdırmış sülh müqaviləsi. Sentyabrın 14-də Türkiyənin Ədirnə ş.-ndə imzalanmışdır. Ə.s. -nə əsasən Dunay çayının (adalarla birlikdə), Kuban çayının mənsəbindən Acarıstanın şm. sərhədinədək Qafqazın Qara dəniz sahili, həmçinin Anapa, Poti, Axalkalaki, Axaltsıx qalaları Rusiyaya verildi. Türkiyə Gürcüstan, İmereti, Minqreliya və Quriyanın, həmçinin Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaq olunduğunu təsdiq etdi. Türkiyə Rusiyanın və xarici ölkələrin ticarət gəmilərinə Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ, hər il xərac almaq şərti ilə Moldaviya və Valaxiyaya muxtariyyət hüququ verdi. Ə. s. Cənubi Qafqazın çox hissəsinin Rusiyaya ilhaq edilməsinin, Azərb.-ın qəti olaraq iki yerə parçalanmasının Türkiyə tərəfindən də təsbit olunmasını başa çatdırdı.

**ƏHMƏD AĞA ŞƏMİ** (?, Ordubad, – ?, orada) – şair (19 əsr). "*Əncüməni-şüəra*" ədəbi məclisinin istedadlı üzvlərindən olmuşdur. Klassik üslubda qəzəllərin və xalq-aşıq şeri tərzində qoşmaların müəllifidir. Əsərlərindən nümunələr Azərb. Milli EA M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılan cünglərdə mühafizə olunmuşdur. N. Qarayevin tərtib etdiyi "Poetik məclislər" kitabında (B., 1987) haqqında müxtəsər məlumat və iki qəzəli verilmişdir.

**ƏHMƏD İBN ƏYYUB ƏL-HAFİZ NAXÇIVANİ** (?–?) – memar (14 əsr). *Naxçıvan memarlıq məktəbinin* görkəmli nümayəndələrindəndir. Bərdə türbəsinin (1322) və *Qarabağlar türbəsinin* (14 əsrin 30-cu illəri) müəllifidir. Türbənin şm. tərəfindəki baştağının tünd-bənövşəyi rəngli kaşı yerliyi üzərində nəsx xətti ilə onun adı yazılmışdır. Binanın


Əhmədov Fikrət


Əhmədov Nazim


Əhmədov Şükür

kompozisiya həlli, ayrıntıların diqqətlə işlənməsi, həndəsi və yarımhəndəsi quruluşu, çoxrəngli kaşı ornamentlərinin tətbiqi, kitabələrdən bəzək vasitəsi kimi istifadə edilməsi Ə.-in üslubu üçün səciyyəvidir. Ümumi quruluşunun fərdi cəhətləri ilə fərqlənən Axsadanbaba türbəsinin (Bərdə r-nu) də memarı olduğu ehtimal edilir.

*Əd.*: Bretanitski L., Salamzadə Ə., Orta əsr Azərbaycan memarları və memarlıqla əlaqədar sənətkarlar, "Azərbaycan incəsənəti", c. 8, B., 1956.

**ƏHMƏD MAHMUD** (Əhməd Məmməd oğlu Mahmudovun ədəbi adı; d. 17.5.1928, Naxçıvan ş.) – şair, jurnalist. Azərbaycanın əməkdar mədəniyyət işçisi (1972). Naxçıvan Müəllimlər İn-tunun tarix-filologiya fakültəsində və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filologiya fakültəsində təhsil almışdır. "Şərq qapısı" qəzetində şöbə müdiri (1950–1967), redaktor müavini (1967–80) işləmişdir. 1980 ildən həmin qəzetdə şöbə müdiridir. "Yağış kəsir" (1964), "Qatar gedir" (1974) adlı şer topluları nəşr edilmişdir.

**ƏHMƏD OĞULŞAYİ**, Aqulşani (?–1401) – əmir, Əlincəqalanın kutvalı (qala rəisi). Əmir *Altundan* sonra qalanın müdafiəsinə başçılıq etmişdir. 1401 ildə əsir düşmüş, Bağdadda Əmir Teymurun hüzuruna aparılmış və onun əmri ilə öldürülmüşdür.

*Əd.*: Piriyev V. Z., Fəsih Xəvafinin "Mücməl-i Fəsih" əsərində Azərbaycan tarixinin inikası, Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1977, № 1-4.

**ƏHMƏDOV** Fikrət Həmid oğlu (8.5.1930, Moskva – 25.10. 1989, Kiyev; Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur) – ictimai-dövlət xadimi. SSRİ maarif əlaçısı. Tarix elmləri namizədi (1963). Nax. MR-in sərhədlərinin qorunmasına böyük əmək sərf etmiş olan hərbi qulluqçu ailəsində doğulmuşdur. Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini (1952) və Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının aspiranturasını (1963) bitirmişdir. Azərb. Xalq Təsərrüfatı İn-tunda (indiki İqtisad Un-ti) dərs demiş (1954–57), sonralar məsul partiya və dövlət vəzifələrində çalışmış, Azərb. KP Bakı Şəhər Komitəsində təbliğat və təşviqat şöbəsi müdirinin müavini, Azərb. KP MK-da təlimatçı, mühazirəçilər qrupunun rəhbəri, təbliğat və təşviqat şöbəsi müdirinin birinci müavini (1957–72), elm və təhsil müəssisələri şöbəsinin müdiri (1972–80), Azərb. SSR Nazirlər Soveti sədrinin müavini (1980–87) işləmişdir. 1987 ildən İttifaq əhəmiyyətli fərdi pensiyaçı idi. Azərb. KP-nin 28–30-cu qurultaylarında MK üzvü, Azərb. SSR Ali Sovetinin (8–11-ci çağırış) deputatı, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü (1979) seçilmişdir. 2 Qırmızı Əmək Bayrağı ordeni, 2 Şərəf nişanı ordeni ilə təltif olunmuşdur.

**ƏHMƏDOV** Nazim Nemət oğlu (25.1.1931, Bakı – 22.11.1986, Bakı) – nəşriyyat xadimi. Azərb. Respublikasının əməkdar poliqrafçısı (1979) və əməkdar mədəniyyət işçisi (1985). Şərurlu jurnalist və nəşriyyat işçisi ailəsində doğulmuşdur. İlk təhsilini Qarabağlar k.-ndə almış, Bakı kommunal-inşaat texnikumunun poliqrafiya şöbəsini (1951), Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tunu (indiki Bakı Slavyan Un-ti, 1957) və Moskva Qiyabi Poliqrafiya İn-tunu (1961) bitirmişdir. Azərb. SSR Mədəniyyət Nazirliyi Baş Nəşriyyat-Poliqrafiya İdarəsində (1956–60), keçmiş 26 Bakı komissarı ad. mətbəədə baş mühəndis (1961–66), Azərb. KP MK-nın Birləşmiş Nəşriyyatında təchizat üzrə baş mühəndis, direktor müavini (1966–69), "Kommunist" (indiki "Azərbaycan") nəşriyyatının direktoru (1970–83) vəzifələrində çalışmışdır. Nəşriyyat işinə aid məqalələrin müəllifidir. Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**ƏHMƏDOV** Şükür Əli oğlu (12.5.1926, indiki Babək r-nunun Böyükdüz k. – 5.7. 1970, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1940–70 illərdə Naxçıvan (indiki Babək) r-nundakı "Azərbaycan" k-zunun baş çobanı, Şərur r-nundakı K. Marks ad. k-zda sədr müavini, Şahtaxtı k.-ndəki baytar məntəqəsinin müdiri, H. Cavid ad. k-zda sədr, baytar həkimi, Şahbuz r-nundakı "Azərbaycan" k-zunda, Babək r-nunun Böyükdüz k.-ndəki k-zda sədr işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**ƏXİ TƏVƏKKÜL ZAVİYƏSİ**, Ələyəz zaviyəsi – Azərb.-ın tarixi Zəngəzur mahalının əhalisi azərb.-lılardan ibarət Ələyəz k.-ndə ziyarətgah. Tədqiqatlar nəticəsində (1961) zaviyənin bünövrəsi və Əxi Təvəkkülün baş daşı formasında iki abidəsi aşkar olunmuşdur. Başdaşıların üzərindəki ərəb






Əkbərov Əkbər


Əkbərov Qəzənfər

və erməni dillərində həkk olunmuş kitabələrdə Əxi Təvəkkülün h. 951 ilin məhərrəm ayında (25.3.–24.4.1544) şəhid olduğu göstərilir. Kitabənin iki dildə olması Əxi Təvəkkülün Azərb.-da 11 əsrin sonu–12 əsrin əvvəllərindən fəaliyyət göstərən və sonrakı dövrlərdə (14–16 əsrlərdə) milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq, şəhər sənətkarlarının hüquqlarını qoruyan quruma çevrilən əxi təşkilatının başçısı olduğunu ehtimal etməyə imkan verir. Vaxtilə qonşu erməni kəndləri əhalisinin də buraya ziyarətə gəlmələri həmin ehtimalı təsdiqləyir.

*Əd.*: Нейматт М. С., Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Нахичеванской Автономной Республики (XII-XX вв.), т.3, Б., 2001.

**"ƏXTƏR"** (farsca ulduz deməkdir) – M. T. *Sidqinin* 1892 ildə Ordubadda təsis etdiyi, yeni təlim-tədris üsulu ilə fəaliyyət göstərən ibtidai məktəb. Məktəbdə dərslər ana dilində aparılırdı. Lakin o zaman Azərb. dilində dərsliklər olmadığından M. T. Sidqi "Əxtər" məktəbi üçün əlyazması şəklində ana dili, coğrafiya və hesabdan dərsliklər hazırlamışdı. "Ə". əhalidən toplanan maddi vəsait hesabına fəaliyyət göstərirdi. Milli məktəb kimi fəaliyyətə başlayan bu təhsil ocağı 1896 ildə rus-Azərb. məktəbinə çevrilir. M. T. Sidqi 2 il "Ə". məktəbinə rəhbərlik etmişdir. Azərb.-ın ilk diplomatlarından İbrahim Əbilov, yazıçı M. S. Ordubadi ibtidai təhsillərini bu məktəbdə almışlar.

**ƏJDAHA DAĞI** – Sədərək r-nu ərazisində dağ. Sədərək k.-ndən 750 *m* şm.-ş.-dədir. Hünd. 1239 *m*. Konusvarı formadadır.

**ƏKBƏR MƏFTUN** (Əkbər Qurban oğlu Əkbərovun ədəbi adı; 15.4.1912, Ordubad ş. – 14.9.1990, Bakı; Ordubadda dəfn olunmuşdur) – şair, ədəbiyyatşünas. Filologiya elmləri namizədi (1968), dosent (1975). Nax. MR əməkdar müəllimi. Naxçıvan Pedaqoji Texnikumunu (1930) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1938) bitirmişdir. Uzun müddət Naxçıvan və Ordubad r-nlarında pedaqoji fəaliyyət göstərmişdir. Sonralar "Maarif" nəşriyyatında redaktor, ADU-nun (indiki BDU) filologiya fakültəsində dosent (1969-85) işləmişdir. "Kiçik heykəltəraş" (1937), "Şerlər" (1959), "Mənim baharım" (1972), "Şəfa bulağı" (1980) şer topluları nəşr olunmuşdur. M. S. Ordubadinin şer yaradıcılığını tədqiq etmişdir ("Məmməd Səid Ordubadi" monoqrafiyası, B., 1987).

**ƏKBƏROV** Əkbər Həzrətqulu oğlu (23.6. 1920, indiki Şərur r-nunun Qarabağlar k. – 25.1.1995, Bakı) – yazıçı, nasir. Azərb. Respublikasının əməkdar müəllimi (1978), SSRİ maarif əlaçısı (1985). Naxçıvan pedaqoji texnikumunu (1939) və keçmiş Ümumittifaq Qiyabi Hüquq İn-tunu (1953) bitirmişdir. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısıdır. Ordudan tərxis olunduqdan sonra Azərb. SSR Daxili İşlər Nazirliyinin tabeliyində olan idarə və şöbələrdə əməliyyatçı-rəis, islah-əmək düşərgəsində rəis (1945–64), maarif nazirliyinin çətin tərbiyə olunan uşaq və yeniyetmələr üçün xüsusi məktəbində müdir (1965–71; 1974 ildən), Bakı şəhəri Əzizbəyov R-n ZDS İcraiyyə Komitəsi sədrinin müavini (1971–74) işləmişdir. Əsasən, təlim-tərbiyə məsələlərinə həsr olunmuş hekayə və povestlərin müəllifidir. "Həyat yollarında" (1960), "Tərəddüdlər məngənəsində" (1962), "Polad sınar, əyilməz" (1984) və s. kitabları nəşr olunmuşdur. "Uğur" hekayəsi keçmiş SSRİ Daxili İşlər Nazirliyinin keçirdiyi Ümumittifaq ədəbiyyat müsabiqəsində üçüncü mükafata layiq görülmüşdür (1957). I və II dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif edilmişdir.

Əsərləri: Ürək parası, B., 1990; Незримый поединок. Б., 1966; Дело жизни, Б., 1981.

**ƏKBƏROV** Qəzənfər Qulam oğlu (1917, indiki Babək r-nunun Cəhri k. – 3.8.1944, Belorusiya, Volojin ş.) – Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra, 26. 10.1944), baş serjant. 1940 ildə Naxçıvan Müəllimlər İn-tunu bitirmiş, Qoşa Dizə kənd məktəbinin müdiri



Ələkbərov Məmməd

işləmişdir. Sovet Ordusu sıralarına çağırılmış, Tbilisi topçuluq məktəbində oxumuş, 1942 ildə Şimali Qafqaz cəbhəsinə göndərilmişdir. Ukraynanın, Belorusiyanın düşməndən azad edilməsində iştirak etmiş, 1944 ilin avqustunda Volojin ş. ətrafında alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur. Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir. Cəhri k.-ndə abidəsi qoyulmuşdur. Adına küçə və s. var.

*Əd.:* M ə m m ə d z a d ə K., Qəzənfər Əkbərov, B., 1975; Azərbaycanın qızıl ulduzları, B., 1975.

**ƏKRƏM ƏYLİSLİ** – yazıçı, dramaturq. Bax *Əylisli* Əkrəm.

**ƏLAƏDDİN ƏTAMƏLİK CÜVEYNİ** (təqr. 1225 – 6.3.1283) – İran tarixçisi, dövlət xadimi. Gənc yaşlarından monqolların yanında xidmətə başlamış, 1259 ildə Bağdad hakimi təyin olunmuşdur. Azərb.-da (Arran) ölmüşdür. 3 cildlik "Tarix-i cahangüşa" ("Dünya fatehinin tarixi") əsərinin müəllifidir. Görkəmli elm və mədəniyyət xadimi olan Ə. Ə. C. mesenat-hamilik fəaliyyəti göstərmişdir. Naxçıvanın "əs-Sahibi" nisbəsi ilə tanınmış elm və dövlət xadimləri – Səncər ibn Abdullah Naxçıvaninin oğlanları – Nəsirəddin Qutluğşah, Fəxrəddin Hinduşah, İzzəddin Dövlətşah, Hüsaməddin Toğanşah və b. Cüveyninin himayədarlığı ilə elmə yiyələnmişlər.

*Əd.:* Б у н и я т о в З. М., Сведения Камал ал-дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдуллаха ан-Нахчывани, ДАН Азерб. ССР, т. XXXIV, 1978, № 5.

**ƏLƏHİ** – Ordubad r-nunda kənd. Bist bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən q.-də, Ordubad–Xurs avtomobil yolunun yaxınlığında, Əyriçayın sağ sahilində, Qapıcıq d.-nın ətəyindədir. Əh. 128 nəfər (2000); bağçılıq, heyvandarlıq və arıçılıqla məşğuldur. Natamam orta məktəb, klub, kitabxana və tibb məntəqəsi var.

Ələkbərova Əqidə



**ƏLƏHİ MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Ələhi k.-dən 500 *m* c.-q.-də, Gilançay dərəsindədir. İki çıxışdan ibarətdir. Balneoloji tərkibi:

$$CO_2 1{,}3 M3{,}6 \frac{HCO_3 79 SO_4 12}{(Na+K)38 Ca33 Mg28} \cdot pH 6{,}1 D 21 m^3/gün T 13{,}5°C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, natriumlu-kalsiumlu-maqneziumludur. Kimyəvi tərkibi "Borjomi" (Gürcüstan) suyuna yaxındır. Bir sıra daxili xəstəliklərin müalicəsində istifadə edilə bilər.

**ƏLƏKBƏROV** Məmməd Həsən oğlu (1925, Naxçıvan ş. – 13.7.1984, orada) – bəstəkar. Nax. MR əməkdar müəllimi (1966) və əməkdar incəsənət xadimi (1980). A. Zeynallı ad. Bakı Musiqi Məktəbində kamança ixtisası üzrə təhsil almışdır (1947–1951). Müxtəlif illərdə Nax. MR Radio Verilişləri Komitəsində kamera musiqisi ansamblının rəhbəri, "Araz" Dövlət Mahnı və Rəqs Ansamblının ilk bədii rəhbəri və direktoru, Uşaq musiqi məktəbinin direktoru, C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının musiqi rəhbəri, Azərb. Bəstəkarlar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi işləmişdir. Ə. bir sıra teatr tamaşasına musiqi tərtibatı vermişdir. Lirik mahnıların, skripka ilə fp. üçün pyeslərin, marş, süita, rəqs və s. əsərlərin müəllifidir. Yallıların və xalq mahnılarının nota salınmasında fəaliyyət göstərmişdir. "Naxçıvan təranələri" (1974) not məcmuəsinin tərtibçisidir.

*Əd.:* Q u l i y e v N., Naxçıvan musiqi mədəniyyəti tarixindən, B., 1999.

**ƏLƏKBƏROVA** Əqidə Məmməd qızı (d.25.4.1956, Naxçıvan ş.) – musiqişünas. Sənətşünaslıq namizədi (1994). Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1999). M.H.*Ələkbərovun* qızıdır. A. Zeynallı ad. Bakı Musiqi Məktəbini bitirmiş (1975), Azərb. Dövlət Konservatoriyasında (1983) və Moskva Ümumittifaq Sənətşünaslıq Elmi-Tədqiqat İn-tunda (1992) təhsil almışdır. Naxçıvan Konservatoriyasının dosentidir. Tədqiqatları Naxçıvanın musiqi mədəniyyətinə, xüsusilə yallılara həsr edilmişdir. "Heyvagülü" kompakt diskinin (1992, Kanada) müəllifidir.

Ə s ə r l ə r i: Знаки общности в мелодике "Кочари", Б., 1984; Этапы развития музыкальной культуры Нахчыванской Автономной Республики, Нахчыван, 2001.

**ƏLƏKİ BAHADIR** (? – 1351) – 14 əsrin 40-cı illərində Naxçıvan hakimi. 14 əsr Azərb. tarixçisi Əbu Bəkr əl- Qütbü əl- Əhəri və İran tarixçisi Zeynəddin Qəzvini 14 əsrin 2-ci yarısında İranda və Azərb.-da baş vermiş hadisələrdən bəhs edərkən Ə. B. haqqında məlumat vermiş, onun böyük qüdrət sahibi olduğunu qeyd etmişlər. Çobani əmiri Teymurtaşın qulamlarından olan Ə. B. Çobani Məlik Əşrəf və Yağı Basdının 1343 il Təbriz yürüşündə fəal iştirak etmişdir. 1346 ildə Məlik Əşrəf tərəfindən zindana salınmış, sonra azad edilərək başqa dövlət işinə cəlb olunmuşdur. 1351 ildə Qarabağda iğtişaş qaldırmış Dəlu Bayazidin üzərinə göndərilən Ə. B. onunla ittifaqa girmiş və az sonra öldürülmüşdür.

**ƏLƏKLİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Arpaçayın sol sahilində, düzənlikdədir. Əh. 1977 nəfər (2000); əsasən, əkinçiliklə məşğuldur. Orta məktəb, tibb məntəqəsi, klub var.

**ƏLƏNGƏZDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Hünd. 2369 *m*. Günbəzvarı formadadır.

**ƏLƏSGƏROVA** Şamama Məmmədkərim qızı (8.3.1904, İrəvan – 2.4.1977, Bakı) – mama-ginekoloq. Səhiyyə əlaçısı (1958), Azərb. Respublikasının əməkdar həkimi (1960). Sosialist Əməyi Qəhrəmanı (1969). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısı olan Ə. qospitallarda ordinator, şöbə müdiri və Azərb. Xalq Səhiyyə Komissarlığında kadrlar idarəsinin rəisi olmuş, 1945 ildən ömrünün sonunadək Bakıda 5 saylı klinik doğum evinin (hazırda Ə.-nin adını daşıyır) baş həkimi işləmişdir. 30 ildən çox başçılıq etdiyi doğum evi respublikanın iri müalicə-profilaktika müssisəsinə çevrilmişdir. Tədqiqatı, əsasən, ana və uşaqların sağlamlığının qorunmasına, ginekoloji xəstəliklərin müalicə və profilaktikasına həsr olunmuşdur. Respublikada malyariya və helmintoz xəstəliklərinə qarşı mübarizə tədbirlərində fəal iştirak etmişdir. Azərb. SSR Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur. Şərəf nişanı ordeni və medallarla təltif edilmişdir.

**ƏLİ FUAD PAŞA**, C ə b ə s o y (1882, İstanbul – 1968, orada) – Türkiyə dövlət, hərbi və siyasi xadimi. Ali hərbi təhsil almış, Balkan müharibələrində (1912-13) və Birinci Dünya müharibəsində (1914–1918) iştirak etmişdir. Kazım Qarabəkir Paşa, Bəkir Sami bəy və digər türk milli azadlıq mücadiləsi xadimləri ilə birlikdə Mustafa Kamal *Atatürkün* 1919 il iyunun 20-də bəyan etdiyi Amasya təlimatını imzalamışdı. 1920 il aprelin 23-də Ankarada işə başlamış Türkiyə Böyük Millət Məclisi (TBMM) hökumətinin Moskvadakı ilk fövqəladə və səlahiyyətli səfiri olmuş və 1921 il fevralın 18-də RSFSR hökuməti ilə danışıqlar aparmaq üçün göndərilmiş Türkiyə nümayəndə heyəti ilə birlikdə Moskvaya gəlmişdir; fevral-mart aylarında Yusif Kamal bəy və doktor Riza Nuru bəylə birlikdə Moskvada RSFSR xarici işlər naziri G. Çiçerinlə və ÜRMİK üzvü C. Qorxmazovla danışıqlar aparmışdır. Ə.F.P. Moskva konfransında Azərb.-ın himayəsi altında Naxçıvana muxtariyyət verilməsi məsələsinin uğurla həll edilməsi sahəsində gərgin və səmərəli diplomatik fəaliyyət göstərmişdir. Danışıqlarda məhz Türkiyə diplomatlarının, o sıradan da Ə.F.P.-nın gərgin səyləri sayəsində "Dostluq və qardaşlıq haqqında" RSFSR – Türkiyə müqaviləsinin (Moskva, 16 mart 1921 il) 3-cü maddəsinə və I (V) əlavəsinə əsasən Naxçıvan vilayətinə Azərb.-ın himayəsi altında muxtariyyət verilməsi razılaşdırıldı. Ə.F.P. sonralar millət vəkili, 1948 ildə isə TBMM başqanı seçilmiş və Türkiyə Cümhuriyyətinin daxili və xarici siyasətinin işlənib hazırlanmasında fəal rol oynamışdı. 60-cı illərdən elmi fəaliyyətlə məşğul olmuşdur. "Sinif yoldaşım Atatürk", "Moskva xatirələri" və s. əsərlərin müəllifidir.

**ƏLİ SƏBRİ** (Əli Camal oğlu Q a s ı m o v u n ədəbi adı; 15.4.1892, indiki Babək r-nunun Nehrəm k. – 19. 2 .1983, Bakı) – yazıçı, nasir və tərcüməçi. Qori Müəllimlər Seminariyasını bitirdikdən (1913) sonra Bakıda müəllimlik etmiş, Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır (1925–30). "Maarif işçisi" jurnalının redaktoru, "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində redaktor, Azərb. Yazıçılar İttifaqı ədəbi fondunun sədri olmuşdur. Ədəbi yaradıcılığa 1914 ildən başlamış, "Molla Nəsrəddin" jurnalında "Taqiyanuszadə" imzası ilə çıxış etmişdir. "Solğun çiçək" adlı ilk kitabı 1914 ildə nəşr olunmuşdur. Povest və hekayələrin, xatirələrin müəllifidir. V. Şekspirin "Şıltaq qızın yumşalması" pyesini, L. N. Tolstoyun hekayələrini, R. Taqorun "Fəlakət", P. P. Verşiqoranın "Təmiz vicdanlı adamlar" romanlarını və s. əsərləri Azərb. dilinə, Azərb. ədəbiyyatının nümunələrini rus dilinə tərcümə etmişdir.

Ə s ə r l ə r i: Balaca və xallı, B., 1958; Povest və hekayələr, B., 1978; Ömürdən yarpaq düşür, B., 1983





Ələsgərova Şamama

Əli Səbri




Əlixanova Firuzə

**ƏLİABAD** – Naxçıvan Şəhər İcra Hakimiyyəti tabeliyində kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 11 *km* şm.-q.-də, Naxçıvan–Şərur avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 2100 nəfərdən çox (2000); tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, musiqi məktəbi, kitabxana, klub, poçt şöbəsi, feldşer-mama məntəqəsi, uşaq bağçası var. Kəndin mərkəzində "Şəhidlər" abidə kompleksi yaradılmışdır.

**ƏLİƏKBƏRLİLƏR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan bir sıra qol və tirələrin içərisində Əliəkbərli nəslinin də adı çəkilir.


Əliquluyev Ramazan

**ƏLİXANOVA** Firuzə Məmmədqulu qızı (10.9.1917, Ordubad – 1994, Naxçıvan) – aktrisa. Azərb. Respublikası xalq artisti (1974). Yaradıcılığı C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlıdır. Ə. güclü və məlahətli səsə, aydın diksiyaya malik sənətkar idi. Dram tamaşaları ilə yanaşı, musiqili əsərlərdə də yaddaqalan obrazlar qalereyası yaratmışdır. Rolları: Almaz ("Almaz", C. Cabbarlı), Şirin ("Fərhad və Şirin", S. Vurğun), Həcər ("Qaçaq Nəbi", S. Rüstəm), Kruçinina ("Günahsız müqəssirlər", A. Ostrovski), Leyli, Gülçöhrə, Asiya, Cahan xala ("Leyli və Məcnun", "Arşın mal alan", Ü. Hacıbəyov), Şahsənəm ("Aşıq Qərib", Z. Hacıbəyov), Cənnət ("Qayınana", M. Şamxalov), Beatriçe ("İki ağanın bir nökəri", K. Qoldoni), Tükəz ("Hacı Qara", M. F. Axunddov), Hafizə xanım ("Pəri cadu", Ə. Haqverdiyev), Zəhrabəyim ("Ananın kitabı", C. Məmmədquluzadə) və b. Şərəf nişanı ordeni ilə təltif olunmuşdur.


F. M. Əlixanova Kruçinina ("Günahsız müqəssirlər", A. Ostrovski) rolunda

**ƏLİKOMA** — Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Hünd. 1630 *m*.

**ƏLİQULİYEV** Ramazan İsmayıl oğlu (d.15.2.1936, Culfa r-nunun Yaycı k.) – geoloq. Geologiya-mineralogiya elmləri namizədi (1973), dosent (1983). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1980). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini dağ-mühəndisi – hidrogeoloq ixtisası üzrə bitirmişdir (1958). Sirab, Darıdağ, Vayxır, Badamlı, Naftalan hidrogeoloji partiyalarının rəisi olmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə Lənkəran r-nu mineral su yataqları (Meşəsu, İbadisu) kəşf olunmuş, ilk dəfə olaraq mineral su ehtiyatları keçmiş SSRİ Nazirlər Soveti Dövlət Ehtiyat Komissiyasında təsdiq edilmişdir. SSRİ məkanında ilk dəfə olaraq, mineral su yataqlarından sənaye üçün karbohidrogen qazı istehsalının texnologiyasının işlənib hazırlanmasında, mineral suların kimyəvi tərkibinin, əmələ gəlməsinin, yayılma qanunauyğunluqlarının öyrənilməsində iştirak etmişdir. 50-dən çox elmi məqalə və hesabatların, dərs vəsaitinin müəllifidir. Hidrotermal texnika üzrə XVII Beynəlxalq Konqresdə (İspaniya, 1981) iştirak etmişdir. Beynəlxalq Hidrotermal Texnika Cəmiyyətinin üzvüdür.

**ƏLİQULİYEV** Ramiz Məmməd oğlu (d.15.9.1937, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1982), prof. (1989). Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) həqiqi üzvü (1996; m. üzvü 1994). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini bitirmişdir (1960). Həmin ildən Azərb. Dövlət Elmi-Tədqiqat Olefinlər İn-tunda çalışır, 1992–94 illərdə direktor müavini olmuşdur. 1994 ildən isə in-tun direktoru, eyni zamanda fiziki-kimyəvi və riyazi tədqiqatlar laboratoriyasının rəhbəridir (1978 ildən). Yarımkeçiricilər və dielektriklər fizikasına, polimerlərin fizika və mexanikasına dair tədqiqatların, o cümlədən 7 monoqrafiyanın, 350-ə qədər elmi məqalənin, 60 ixtiranın müəllifidir. Əsərləri ABŞ, Avstraliya, Almaniya, Rusiya, Finlandiya, Türkiyə, İran və s. ölkələrdə çap olunmuşdur. Bir sıra beynəlxalq konqres və simpoziumlarda məruzələr etmişdir. Ali məktəblərdə pedaqoji fəaliyyət də göstərir. BMA-nın yubiley medalı ilə təltif olunmuşdur (1997).

Ə s ə r i: Релаксационная спектрометрия полимерных диэлектриков, Б., 1997.





Əliquliyev Ramiz

**ƏLİQULU QƏMKÜSAR** – şair və jurnalist. Bax *Qəmküsar Əliqulu*.

**ƏLİNCƏ** – Culfa r-nu ərazisində, eyniadlı çayın sahilində dağ. Hünd. 1811 *m*. Vulkan mənşəlidir. Təkrarolunmaz qayalıq landşaft əmələ gətirmişdir.

**ƏLİNCƏ** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d. y. st.-ndan 35 *km* şm.-da. Əlincəçayın sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 633 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. Orta məktəb, klub, iki kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**"ƏLİNCƏ"** – ictimai təşkilat, xeyriyyə cəmiyyəti. Azərb. xalqının yenilməzlik, mətinlik və mübarizə rəmzi olan *Əlincəqalanın* adındandır. Proqramı və Nizamnaməsi 1990 il aprelin 6-da keçirilmiş təsis konfransında qəbul olunmuşdur. Əsasən, resp.-nın sərhəd r-nlarında fəaliyyət göstərir. Nizamnaməsində göstərildiyi kimi, sərhəd r-nlarının sosial-iqtisadi və mədəni inkişafına yardım etmək, həmin r-nların əhalisini erməni quldur basqınından qorumaq üçün tədbirlər görmək, sərhəd kəndlərinin boşalmasının, işsizliyin qarşısını almaq, təbii ehtiyatlardan, yerli xammaldan istifadə etməklə istehsalat sahələri açmaq, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, məhsul satmaqda əhaliyə kömək etmək, erməni təcavüzündən zərər çəkənlərə, qocalara, əlillərə, ehtiyacı olanlara yardım göstərmək, müxtəlif xeyriyyə tədbirləri keçirmək, elm və texnikanın nailiyyətlərinə əsaslanmaqla sərhəd r-nlarında iqtisadiyyatın intensiv inkişafına kömək göstərmək, bu rayonlar haqqında normativ aktlar tərtib etmək və s. cəmiyyətin əsas vəzifələridir.

Cəmiyyətin "Səs" adlı qəzeti nəşr olunur. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Rəhbər orqanları cəmiyyətin məclisi, idarə heyəti və ağsaqqallar şurasıdır.

**ƏLİNCƏ NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə Ə.n. 28 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; əhalinin böyük əksəriyyəti müsəlmanlar (Azərb. türkləri) idi. Nahiyənin illik gəliri 243.164 ağça idi. Bu, Naxçıvan sancağının illik gəlirinin 9,3 %-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**ƏLİNCƏ ZƏRBXANASI** – orta əsr feodal hakimlərinin xəzinələrinin saxlanıldığı Əlincəqalada fəaliyyət göstərmişdir. 14–16 əsrin əvvəllərində Ə. z.-nda Elxanilərin və Teymurilərin adından gümüş dirhəmlər kəsildiyi məlumdur.

**ƏLİNCƏÇAY** – Culfa və Babək r-nları ərazisində çay. Arazın sol qolu. Uz. 62 *km*, hövzəsinin sah. 599 $km^2$-dir. Zəngəzur silsiləsindəki Dəmirli dağın yamacından (2800 *m* hünd.-dən) başlanır. Xəznədərə və Ləkətağsu çaylarının birləşməsindən əmələ gəlir. Gülüstan k. yaxınlığında, 695 *m* hünd.-də Araza tökülür. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Yağış suları illik axımın 15%-ni təşkil edir. Suvarmada geniş istifadə edildiyindən yayda suyu mənsəbinə çatmır. Ə. yazda və yayda qar sularından daşqınların əmələ gəldiyi çaylar qrupuna aiddir.

Ə. vadisində *Naxçıvan mədəniyyəti* üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri aşkar olunmuşdur (Ağsal, Zoğala, Qazançı, Saltax, Xanəgah, Yeycə və.s). Əzəmətli *İlandağ* (H a ç a d a ğ) Ə. vadisində vüqarla ucalır. Tapıntılar Naxçıvan ərazisinin iqtisadi,


Əlincəçay vadisi



Əlincəçay xanəgahı. Türbənin mehrabı.



Əlincəçay xanəgahı.

ictimai tarixini, mədəniyyət və sənətkarlığını öyrənmək üçün qiymətli maddi qaynaqlardır.

**ƏLİNCƏÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Culfa r-nu ərazisində, Culfa ş.-ndən 6 *km* şm.-q.-dədir. Geoloji quruluşunda Müasir dövrün allüvial-provial çöküntüləri – çaqıl və qum qarışığı iştirak edir. Çaqıl və çınqıl müxtəlif effuziv və intruziv süxurların qırıntılarından ibarətdir. Çaqıl-qum qarışığı yuyulduqdan sonra adi və hidrotexniki beton dolduruculan kimi istifadə oluna bilər. Yatağın sənaye ehtiyatları 12820 min $m^3$-dir.

**ƏLİNCƏÇAY XANƏGAHI** – Culfa r-nunun Xanağa k.-ndə, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq kompleksi. Kompleksdən dövrümüzədək türbə, məscid, naməlum abidəninin sütunları və başqa bir tikilinin xarabalığı qalmışdır. Ə. x. kompleksinin əsasını Lalabəy adlı şəxsin tikdirdiyi kvadratşəkilli türbə təşkil edir. Türbənin kitabəsində memarın adı (Cəmaləddin) qalmış, lakin inşa tarixini göstərən hissə dağıldığından, nə vaxt tikildiyi dəqiq müəyyənləşdirilməmişdir. Üslub xüsusiyyətinə görə onun 12 əsrin sonu–13 əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Türbənin yuxarı künclərindəki irihəcmli tromp (memarlıqda konus hissəsi, tağvarı konstruksiya) qurşağı onun daxilinə arxaik görkəm verir. Tromplar səkkizbucaqlıdır. Stalaktit (memarlıqda prizmavarı fiqur şəklində dekorativ detal) qurğusu isə onaltıbucaqlıya keçid təşkil edir ki, bu da çadırvarı günbəzin oturacağını əmələ gətirir. Türbənin günbəzi dağılmışdır. Xanəgahın giriş qapısının hər iki tərəfində şərti olaraq "mehrab" adlandırılan düzbücaqlı pannolar gəcdən oyulmuş qabarıq naxışlar və dini məzmunlu kitabələrlə bəzədilmişdir. Bunlar gəc üzərində plastik oymanın ən gözəl nümunələrindəndir. Türbənin giriş baştağının memarlıq elementləri *Möminə xatun türbəsinin* ayrıntılarına oxşayır. Onun inşasında kərpiclə yanaşı, firuzəyi kaşıdan da istifadə olunmuşdur. Türbənin baştağına bitişik tikilmiş məscid 2 dayaqla 6 hissəyə bölünmüş və hər hissə günbəzlə örtülmüşdür. Məscidin kitabəsində onun hicri 901 ildə (1496) naməlum qadının sifarişi ilə tikildiyi göstərilir. Əsaslı bərpa və yenidənqurma işləri aparılır.

*Əd.:* Salamzadə Ə. V., Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri, B., 1976; Ванлов С. М. и др., Ханега на реке Алинджа-чай, в кн. Архитектура Азербайджана. Эпоха Низами, М.-Б., 1947; Алескерзаде А. А., Надписи архитектурных памятников эпохи Низами, yenə orada.



**ƏLİNCƏQALA,** Əlincə, Alancik, Alıncaqala – Nax. MR-də qala. Culfa r-nunda, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Orta əsr yazılı qaynaqlarında "Alancik", "Alınca", "Alancuq" və s. kimi qeyd olunan Ə.-nın adını tədqiqatçılar qədim türk dilində "düzənlik" mənasında işlədilən "alan" sözü ilə bağlayırlar. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır.

İspan diplomatı, Kastiliya kralı III Enrikonun 1403–06 illərdə Teymurilər dövlətindəki səfiri Rüi Qonsales Klavixo Ə.-nı belə təsvir etmişdir: "Əlincəqala yüksək və sıldırım bir dağ üzərində qərar tutaraq divar və bürclərlə əhatə olunmuşdur. Divarların daxilində, dağ yamaclarının aşağı tərəflərində üzümlüklər, bağlar, zəmilər, otlaqlar, bulaqlar və hovuzlar vardır. Qəsr və ya qala dağın zirvəsində yerləşir". Xalq etimologiyasına görə isə, qalanın adı "Əlincək", yəni "əlini çək" kimi yozulur. Bu da qalanın alınmazlığı,



məğlubedilməzliyi ilə bağlıdır. Ə.-nın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı təqr. 2 min il bundan əvvələ aid edir, digərləri isə Sasani padşahları zamanından (3–7 əsrlərdə) məlum olduğunu söyləyirlər. "Kitabi-Dədə Qorqud" dastanında Ə. möhkəm istehkam kimi təsvir olunur. Orta əsr qaynaqlarında Əlincə adı qala, dağ, çay kimi nəzərdə tutulmuşdur. Ə. haqqında tarixçilərdən Asoğik (928–1019), Stepanos Orbelian (1258–1304), Nəsəvi (13 əsr), Şəraf-əd-din Əli Yəzdi (15 əsr), türk səyyahı Övliya Çələbi (17 əsr) və b. məlumat vermişlər.

Ə. özünəməxsus təbiəti olan bu yerlərin əzəmətinin, mübarizliyinin rəmzidir. Qala, hər şeydən əvvəl özünün qeyri-adi görünüşü ilə insanı heyrətə gətirir. Ə. -nın divarları Əlincə d.-nın ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qalanın qədim bəndi ətraf kəndlərdən gətirilmiş iri daşlardan və bişmiş kərpicdən hörülmüşdür. Ş. yamacda yarımdairəvi bürcləri olan üç divarın, q. yamacda isə səkkiz divarın xarabalıqları qalmışdır. Qala qapısı Xanağa k. tərəfdədir. Qalaya gedən yollar üstündə vaxtilə mühafizə məqsədilə tikilmiş qarauIxanalar, səngərlər və bürclər olmuşdur. Ə. əsasən üç geniş sahədən (ş., şm.-q. və c.-q.) ibarətdir; ş. sahəsindən şm.-q. və c.-q. sahələrinə qalxmaq üçün daş pillələr qoyulmuşdur. Qalanın möhkəm divarları və qayanın sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirmişdir. Qalanın kiçik şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış və ictimai binaların xarabalıqları və bünövrə daşları nəzərə çarpır. Qala rəislərinin və iri feodalların yaşamış olduğu bu sahə "şah taxtı" adlanır. Ə.-da feodallara məxsus gözəl saray və binaların qalıqları hələ 19 əsrə aid ədəbiyyatda təsvir olunmuşdur. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi. Qalanın müxtəlif sahələrində 7-yə qədər su hovuzu qazılmış, təpənin yuxarı hissəsində qayada xüsusi arxlar çapılmışdır. Bu arxlara qayanın zirvəsindən yağış və qar suları axıb toplanırdı. Qalada əsaslı arxeoloji qazıntı işləri aparılması və təsadüfi tapıntılar nəticəsində bir



Əlincəqala. Qərb qapısının bərpa layihəsi.

sıra maddi mədəniyyət qalıqları – saxsı qab fraqmentləri, sikkələr, inşaat materialları və s. əldə edilmişdir; şirsiz və şirli saxsı qab qırıqları başlıca olaraq 9–11 əsrlərə aiddir. Onların üzərində müxtəlif nəbati rəsmlərə və heyvan, o cümlədən quş, ceyran, maral, ilan, balıq və s. təsvirlərinə təsadüf edilir. Şirli qabların əsas naxışlarını həndəsi fraqmentlər təşkil edir. Qala ərazisindən tapılmış yüksək keyfiyyətli seladon saxsı qab parçası nəzəri cəlb edir. Tədqiqatçılara görə seladon qablar Azərb.-a Böyük İpək Yolu vasitəsilə Çindən gətirilirdi.

Azərb. atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Ə.-nın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. Naxçıvan hakimi Zahidə xatunun iqamətgahı və Eldənizlərin xəzinəsi Ə.-da yerləşirdi.

1225 ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnının Azərb.-a hücumu zamanı Eldəniz hökmdarı Özbək [1210–25] Ə.-ya sığınmış və burada döyüşlərin birində öldürülmüşdür. Ə. 13–14 əsrlərdə Hülakula-





Əlincəqala. Şərq qapısının bərpa layihəsi və planı.

rın, 14 əsrin 2-ci yarısında Cəlairilərin hakimiyyəti altında olmuşdur. Hakimlərindən Sultan Tahirin, kutvallarından (qala rəisi) Uztəmurun (1343), Xacə Cövhərin (1390), əmir Altunun (1390), Seyid Əlinin, Hacı Salehin və Əhməd Oğulşayinin (1401) adları bəllidir. 14 əsrin 80–90-cı illərində Ə. Azərb. xalqının Teymura qarşı mübarizəsinin əsas istinadgahına çevrilmiş və 14 il mərdliklə müdafiə olunmuşdur. Teymurun gəlişini eşidən cəlairi sultanı Əhməd [1382–1410] xəzinəsini, ailəsini, oğlunu, yaxın adamlarını Ə.-da yerləşdirib Bağdada çəkilir. Qalada 300-ə yaxın əsgər var idi. Teymur 1386–1401 illərdə Ə.-ya 4 dəfə yürüş etmişdir. İlk yürüş dövründə (1386) qala ətrafında şiddətli vuruşma getmişdir. Qalanın aşağı səngərləri tutulmuş, müdafiəçiləri daha yuxarı səngərlərə çəkilmişdilər. Qala mühasirəyə alınmışdı. Teymurun oğlu Miranşah tərəfindən mühasirədə saxlanılan Ə.-da su ehtiyatı tükəndiyindən müdafiəçiləri danışıqlar aparmaq və qalanı təslim etmək məcburiyyətində qalmışlar. Lakin müdafiəçilər qaladan çıxmamış güclü yağış yağmış və su qıtlığı aradan götürüldüyü üçün qala təslim olunmamışdı. 1387–92 illərdə Ə. müdafiəçiləri Teymurun Azərb.-da olmamasından istifadə edərək, 4 dəfə Təbrizə hücum etmiş və bunların üçündə (1388, 1390, 1391) şəhəri tuta bilmişlər. 1393 ildə Teymurun 40000-lik qoşunu Ə.-ya hücum edir. Bu zaman qala müdafiəçilərinin bir dəstəsi, təsadüfən, Altunun başçılığı ilə qaladan çıxmışdı. Onlar geri döndükdə qala qapılarının Teymurun qoşunu tərəfindən tutulduğunu görüb onlara hücum edirlər. Düzgün strateji mövqe tutan Altun və cəngavərləri teymurilərə böyük tələfat verir, 4 tümən (on minlik) əmirinin ikisi öldürülür və müdafiəçilər qalaya daxil ola bilirlər. 1397 ildə Şəki və gürcü qoşun birləşmələri Ə.-ya hücum edir və teymuri sərkərdəsi Sultan Səncəri məğlubiyyətə uğradaraq Sultan Tahiri mühasirədən çıxarıb Bağdada göndərirlər. Qalanın müdafiəsinə bir müddət Seyid Əli, Hacı Saleh və 3 gürcü aznauru (sərkərdəsi) başçılıq edir. Ə. Teymuru çox narahat edirdi. O, 1399 ildə Hindistandan Səmərqəndə qayıdarkən yolda Təbrizdən gəlmiş qasiddən Azərb.-da və xüsusilə Ə.-dakı vəziyyət barədə məlumat alır və Səmərqəndə çatandan cəmi 4 ay sonra təcili buraya yollanır. Ə.-ya 5–6 əmirin başçılığı ilə qoşun hissələri göndərilir. Qala öz daxilində yaranmış münaqişə nəticəsində başsız qaldığından təslim olur. Onun kutvalı Əhməd Oğulşayi tutularaq Teymurun hüzuruna aparılır və öldürülür. Teymur qalanı seyr edir və onun möhtəşəmliyinə heyran qalır. Teymurun ölümündən (1405) sonra Ə. yenidən Cəlairilərin, sonralar isə Qaraqoyunluların hakimiyyətinə keçdi. Qardaşı Cahanşahla hakimiyyət uğrunda mübarizə aparan Qaraqoyunlu hökmdarı İsgəndər Ə.-ya sığınmışdı. İsgəndər oğlu Qubad Mirzə tərəfindən öldürüldükdən sonra Cahanşah Ə.-nı ələ keçirdi. Bir müddət Ağqoyunluların, sonralar isə Səfəvilərin hakimiyyətində olan Ə. feodal çəkişmələri və müharibələr nəticəsində dağıldı.

*Əd.:* İ b r a h i m o v C., Azərbaycanın XV əsr tarixinə dair oçerklər, B., 1958; M ə m m ə d o v R. A., Əlincəqalanın orta əsrlər tarixi, Azərbaycan tarixinə dair materiallar, c. 9, B., 1973; y e n ə o n u n, Naxçıvan şəhərinin tarixi oçerki, B., 1977; M ə m m ə d o v R., P i r i y e v V., Teymurləngin "Əlincə səfəri", "Elm və həyat", 1977, № 9; P i r i y e v V., Teymurun və Toxtamışın Azərbaycana yürüşləri və işğalçılara qarşı mübarizə, Azərb. SSR EA "Xəbərləri" (tarix, fəlsəfə, hüquq seriyası), 1983, № 1; B ü n y a d o v Z. M., Azərbaycan Atabəyləri dövləti (1136–1225), B., 1985.


Əlirzayev Əli

**ƏLİRZAYEV** Əli Qənbərəli oğlu (d.30.3.1945, indiki Babək r-nunun Nehrəm k.) – iqtisadçı. İqtisad elmləri doktoru (1985), prof. (1989). Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) hesablayıcı riyazi maşınlar şöbəsini (1968) və Azərb. Milli EA İqtisadiyyat İn-tunun aspiranturasını (SSRİ EA-nın Mərkəzi İqtisadi Riyaziyyat İn-tuna ezam olunmaqla; 1973) bitirmişdir. Azərb. Milli EA İqtisadiyyat İn-tunda baş elmi işçi, şöbə müdiri (1973–86) olmuş. Azərb. Xalq Təsərrüfatı İn-tunun (indiki İqtisad Un-ti) elmi işlər üzrə prorektoru (1986–89), Naxçıvan Dövlət Un-tinin İqtisadiyyat və İdarəetmə kafedrasının müdiri (1991–93) işləmişdir. 1993 ildən İqtisad Un-tinin prof., 1997 ildən isə un-tin sosial sahələrin iqtisadiyyatı və idarə olunması kafedrasının müdiridir. Respublikanın sosial inkişafı, həyat səviyyəsi, bazar münasibətləri şəraitində islahatların nəzəri-metodoloji məsələləri sahəsində tədqiqatlar aparır. 300-ə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın (2-si



Moskvada nəşr olunmuşdur), dərslik və tədris vəsaitinin müəllifidir. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Azərb. Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı və İqtisadi siyasət daimi komissiyasının sədr müavini, Yeni Azərb. Partiyası (YAP) Siyasi Şurasının üzvüdür.

Ə s ə r l ə r i: İqtisadiyyatın dövlət tənzimlənməsinin normativ əsasları və metodologiyası, B., 1996; İqtisadi və sosial idarəetmə . Bazar iqtisadiyyatı. Metodoloji prinsiplər və qanunauyğunluqlar, B., 1997; Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, B., 1998 (şərikli).


Əliverdiyev Elman

**ƏLİVERDİYEV** Elman İbnyəmin oğlu (d. 16.5.1943, Ordubad ş.) – təsərrüfat rəhbəri. Azərb. Respublikası Dövlət mükafatı laureatı (1987). Azərb. Dövlət Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) neft-mexanika fakültəsini bitirmişdir (1965). "Bakelektroştamp" z-dunda baş mühəndis müavini, "Elektrik maşınları" təcrübə z-dunda xüsusi büronun rəisi, baş mühəndis müavini (1976–82), "Azərelektromaş" istehsalat birliyinin baş mühəndisi (1982–86) işləmişdir. 1986 ildən "Azərelektromaş" Elm-İstehsalat Birliyinin baş direktorudur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə elektronika sənayesində yüksək davamlı ştampların və press qəliblərinin hazırlanması, AİR 132, AİR 200, 4AM 280, 4AM 355 tipli elektrik mühərriklərinin, emallı mis məftillərin istehsalı sahəsində diqqətəlayiq uğurlar qazanmışdır. Üç ixtiranın, çoxlu səmərələşdirici təklifin müəllifidir. Beş sənaye nümunəsinə, o cümlədən vibrasiya ilə işləyən nasosların konstruksiyasına görə müəlliflik şəhadətnaməsi almışdır.


Əliyarova Zərifə

**ƏLİYAROVA** Zərifə Abbasqulu qızı (8.5.1935, Naxçıvan ş. – 28.6.1999, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1975), prof. (1983). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1972). Azərb. Dövlət Un-ti (indiki BDU) fizika-riyaziyyat fakültəsinin fizika şöbəsini (1956) və Azərb. Milli EA Fizika İn-tunun aspiranturasını (1959) bitirmişdir. Azərb.-da fizika-riyaziyyat elmləri namizədi (1959) və doktoru adına layiq görülmüş ilk qadın fizikdir. 1983 ilədək Azərb. Milli EA Fizika İn-tunda baş elmi işçi, laboratoriya müdiri olmuşdur. Həmin ildən Azərb. Dövlət Neft Akademiyası fizika kafedrasının prof. idi. Yarımkeçiricilər fizikasına dair tədqiqatların, o cümlədən 80-dən çox elmi məqalənin, ixtiranın, bir dərsliyin müəllifidir. 20-dən çox müəlliflik şəhadətnaməsi almışdır. Onun rəhbərliyi ilə dünyada ilk dəfə olaraq yeni növlü yarımkeçirici yaddaş elementləri alınmışdır. Əsərləri bir sıra xarici ölkələrdə dərc olunmuşdur. Bir çox beynəlxalq və keçmiş Ümumittifaq elmi məclislərində məruzələr etmişdir. Naxçıvan Dövlət Un-tinin, Elm mərkəzinin yaradılmasında xidməti var.

*Əd.:* T ə r x a n İ s m a y ı l o ğ l u, Gənc nəslə örnək ömür, "Azərbaycan" qəzeti, 6 may, 2000.

**ƏLİYEV** Aqil Əlirza oğlu (d. 10.12.1926, Naxçıvan ş.) – iqtisadçı. İqtisad elmləri doktoru (1983), prof. (1979), Azərb. Milli EA m. üzvü (2001). Azərb. Respublikasının əməkdar elm xadimi (1982). Beynəlxalq Enerji-İnformasiya EA "Azərb." bölməsinin həqiqi üzvü (1996), Azərb. Ziyalılar Cəmiyyəti İdarə Heyətinin üzvü. Azərb. Dövlət Un-tini (indiki BDU) bitirdikdən (1951) sonra Azərb. EA Tarix İn-tunda elmi işçi vəzifəsində çalışmışdır. 1953 ildən Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) siyasi iqtisad kafedrasında işləyir. 1973 ildən un-tin siyasi iqtisad kafedrasının, 1997 ildən isə eyni zamanda Azərb. Beynəlxalq Un-tinin iqtisadi nəzəriyyə kafedrasının müdiridir. Azərb.-ın və Nax. MR-in sosial-iqtisadi inkişafında islahatların rolu, bazar münasibətləri şəraitində əhalinin sosial problemləri və s. mövzular Ə.-in elmi fəaliyyətində əsas yer tutur. Ə. 1986–2005 illərdə Azərb.-da elmi-texniki inkişafın kompleks proqramının işlənilməsində yaxından iştirak etmiş, əhalinin sağlamlığının qorunması problemi komissiyasının sədri kimi həmin bölmənin tərtib edilərək, kompleks proqrama daxil olunmasında mühüm rol oynamışdır. O, həmçinin 2000-ci illərdə respublikada məhsuldar qüvvələrin yerləşdirilməsinin inkişaf sxeminin işlənib hazırlanmasının müəlliflərindən biridir. İqtisadi islahatların sosial tərəqqidə rolu, bazar münasibətləri şəraitində əhalinin sosial problemlərinə dair monoqrafiyaların ["Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu" (1998), "Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri" (2000) və s.] müəllifidir. Ali məktəblər üçün yazılmış 2 cildlik "Siyasi iqtisad" dərsliyinin müəlliflərindəndir. İqtisadçıların beynəlxalq və res-



Əliyev Aqil

publika konfrans və simpoziumlarında (Moskva, Kiyev, Sankt-Peterburq, Varşava, Praqa və s.) məruzələr etmişdir. Qırmızı Əmək Bayrağı (1976), Azərb. Respublikasının Şöhrət (2001) ordenləri və medallarla, Səhiyyə əlaçısı döş nişanı ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Şəxsi istehlakın problemləri, B., 1982; ASK-in aqrar bölməsində elmi-texniki tərəqqini sürətləndirmək problemləri, B., 1986; Tibbin iqtisadiyyatı, B., 1998; Azərbaycanın sosial inkişafında islahatların rolu, B., 1998; Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri, B., 1998; İpək yolu bəşəriyyətin tərəqqi yoludur, B., 1999; Naxçıvan Muxtar Respublikası (nailiyyətlər, problemlər), c. 1–2, B., 2001.

*Əd.*: Aqil Əlirza oğlu Əliyev – 75 (tərtib edəni iqtisad elmləri doktoru Natiq Qasımov), B., 2001.

**ƏLİYEV** Arif Əli oğlu (d. 19.10.1936, Naxçıvan ş.) – ədəbiyyatşünas. Filologiya elmləri namizədi (1970), dosent (1971). Azərb. Respublikasının əməkdar müəllimi (2001). Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı in-tunu (indiki Bakı Slavyan Un-ti) bitirmişdir (1957). 1970 ilədək Naxçıvan şəhər məktəblərində müəllim işləmiş. Naxçıvan Dövlət Un-tində (1972–90 illərdə Pedaqoji İn-t) tarix-filologiya fakültəsinin dekanı (1980–83; 1987–92) olmuşdur. 1993 ildən Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında çalışır; 1998 ildən Rus dili kafedrasının müdiridir. 20 əsrin əvvəlləri (1920 ilədək) rusdilli Azərb. mətbuatı tarixinə dair araşdırmaları, o cümlədən 2 kitabı ["Hüseyn Minasazov" (1982), "Həqiqətə və həyata sədaqət" (1999) – hər ikisi rus dilində], 100-dən artıq elmi-publisistik məqaləsi var. Bədən Tərbiyəsi və İdman Akademiyası hərbi-idman fakültələrinin tələbələri üçün "Rus dili" tədris vəsaitinin müəlliflərindəndir.

Əliyev Arif



**ƏLİYEV** Cəlal Əlirza oğlu (d. 30.6.1928, Naxçıvan ş.) – bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Biologiya elmləri doktoru (1971). Azərb. Milli EA-nın akad. (1980; m. üzvü, 1976), Əməkdar elm xadimi (1982), Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü (1995), Ukrayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü (1996). Beynəlxalq Elmi İnkişaf Şurasının – Beynəlxalq EA Azərb. Bölməsinin fəxri prezidenti (2002). Naxçıvan Müəllimlər İn-tunun təbiətşünaslıq-coğrafiya fakültəsini (1944), Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsini (1951), Azərb. Milli EA-nın aspiranturasını (1954) bitirmişdir. Azərb. Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik İn-tunun Bitki fiziologiyası şöbəsinin elmi işçisi (1954), şöbənin müdiri (1962), eyni zamanda Azərb. Milli EA Botanika İn-tunda Məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsinin müdiri vəzifəsində (1975) çalışır. Azərb. Milli EA Biologiya Elmləri Bölməsinin akademik-katibi (1981–90) olmuşdur. Azərb. Milli EA Rəyasət Heyətinin üzvüdür (1997 ildən). K. t. bitkilərinin, xüsusilə buğdanın məhsuldarlığının fotosintetik əsasları nəzəriyyəsinin tədqiqi ilə məşğul olur. Bitkilərin məhsuldarlığını artırmaq və keyfiyyətini yaxşılaşdırmaq məqsədilə onların fizioloji, biokimyəvi və molekulyar-genetik əsaslarının, bitki orqanizminin bütün inkişaf mərhələlərində məhsuldarlıq proseslərinin öyrənilməsi problemləri Ə.-in elmi fəaliyyətində mühüm yer tutur. O, Azərb.-da fiziki-kimyəvi biologiya sahəsində araşdırmaları inkişaf etdirmək, elmi kadrlar hazırlamaq və bu sahədə orijinal elmi istiqamət müəyyənləşdirməklə molekulyar biologiyanın, molekulyar genetikanın və gen biotexnologiyasının əsasını qoymuşdur. Bu tədqiqatların nəticələrinin məqsədyönlü seleksiya işlərində kompleks şəkildə həyata keçirilməsilə Ə. yüksək məhsuldarlığa və əla dən keyfiyyətinə malik, buğda əkini sahələrinin böyük hissəsini təşkil edən "Qaraqılçıq-2", "Mirbəşir-50", "Vüqar-80", "Şiraslan-23", "Tərtər", "Bərəkət-95", "Əlincə-84", "Qiymətli-2/17", "Əkinçi" və s. qiymətli sortlar yaratmışdır.

Ə.-nin başçılığı ilə respublikada genetik ehtiyatların öyrənilməsi üzrə və "Biomüxtəliflik" milli proqramları həyata keçirilir. Ə. 350-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiya və kitabın müəllifidir. Yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm xidməti var. "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri" ("Biologiya elmləri seriyası") jurnalının baş redaktoru, Fotosintez, Molekulyar biologiya, Stress beynəlxalq elmi cəmiyyətlərinin, ABŞ Bitkilərin fiziologiyası, Yaponiya Bitkilərin fiziologiyası elmi cəmiyyətlərinin üzvüdür. Ə.-in rəhbərliyi ilə yaradılmış (1998) "Bioetika, elmi biliklərin və texnologiyaların etikası" üzrə Azərb. Milli Komitəsi YUNESKO-nun Baş Assambleyasının 30-cu sessiyasında Bioetika üzrə Hökumətlərarası Komitənin üzvü seçilmişdir. Bir sıra ölkələrdə beynəlxalq elmi konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Ə.-in rəhbərlik etdiyi elmi kollektiv bioloji məhsuldarlıq proseslərinin molekulyar əsaslarının öyrənilməsində böyük nailiyyətlərə görə Beynəlxalq Soros Fondunun 8 qrantını almışdır. Ə. həm də xalqla qırılmaz tellərlə bağlı olan, onun azadlığı, suverenliyi, vətənimizin ərazi bütövlüyü, ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlət quruculuğu uğrunda fəal mübarizə aparan görkəmli ictimai xadimdir. Müstəqil Azərb. Respublikası Milli Məclisinin (1-ci və 2-ci çağırış) deputatıdır. Qırmızı Əmək Bayrağı (2 dəfə), Azərb. Respublikasının İstiqlal ordenləri ilə və medallarla təltif edilmişdir.



Ə s ə r l ə r i: Фотосинтетическая деятельность, минеральное питание и продуктивность растений, Б., 1974; Фотосинтетическая способность и развитие хлоропластов в онтогенезе пшеницы, Б.,1988 (şərikli); Карбоангидраза растений, М. 1990 (şərikli); Стронций-90 и Цезий-137 в почвенно-растительном покрове Азербайджана, М., 1983; Белковый комплекс зерна пшеницы, Б., 1992; Искусственные и естественные радионуклиды в почвенно-растительном покрове Азербайджана, М., 1996 (şərikli); Фотосинтез и урожай сои, Кишинев, 1998.

*Əd.*: Akademik Cəlal Əlirza oğlu Əliyev. Biblioqrafiya (tərtibçi Ç.N.Əhmədova), B., 1994.



Əliyev Cəlal

**ƏLİYEV** Camil Əziz oğlu (d. 30.3.1946, Bakı) — həkim. Tibb elmləri doktoru (1978), prof. (1988), Azərb. Milli EA akad. (2001), Rusiya Təbiyyat EA və Tibb EA-nın həqiqi üzvü, London Hammersmitt Un-tinin fəxri prof. Azərb. Respublikasının əməkdar elm xadimi (2000), "Səhiyyə əlaçısı" (1984), Azərb. Milli EA Y. Məmmədəliyev mükafatı (1996), SSRİ Tibb EA-nın N. İ. Petrov mükafatı laureatı. Ə. M. *Əliyevin* oğludur. Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir (1968). Ə. Əliyev adına Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tunun Onkologiya kafedrasında baş elmi işçi, Azərb. Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzində (MOM) II cərrahiyyə şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini (1978–90) olmuşdur. 1990 ildən Azərb. Respublikası Səhiyyə Nazirliyi MOM-un direktoru, 1994 ildən eyni zamanda Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tu Onkologiya kafedrasının müdiridir. Respublika Səhiyyə Nazirliyinin baş onkoloqudur. Onkologiyanın aktual nəzəri və praktik problemlərinə – bədxassəli şiş törəmələrinin (qadınlarda süd vəzi xərçəngi, dəri, qırtlaq, sümük və yumşaq toxumaların bədxassəli şişləri), epidimiologiyası, müalicəsi və reabilitasiyasına dair tədqiqatların, o cümlədən 10 monoqrafiya və dərsliyin, 250-dən çox məqalənin, 4 ixtiranın müəllifidir. Onun rəhbərliyi ilə respublikada ilk dəfə olaraq süd vəzi xərçənginin kompleks müalicəsi zamanı ifrat yüksək tezlikli termoradioterapiyadan istifadə edilmiş, onun yeni səmərəli rejimi, habelə xəstələrin cərrahi əməliyyatlardan sonra kompleks reabilitasiyası proqramı işlənib hazırlanmış və tətbiq olunmuşdur. Ə. tədqiqatlar nəticəsində, dünyada ilk dəfə olaraq, süd vəzi xərçəngi olan xəstələrdə gizli keçən B viruslu hepatitin olmasının belə xəstələrdə müalicə proqnozuna xeyli dərəcədə mənfi təsir göstərdiyini sübut etmişdir. Rusiya, İngiltərə, Almaniya, Fransa, ABŞ, Avstriya, İtaliya, Yaponiya və Türkiyədə beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Azərb. Respublikası Prezidenti yanında Tibb Elmləri üzrə Ali Attestasiya Komissiyası Ekspert Şurasının sədri olmuşdur (1994–97). Respublika Onkoloqlar Cəmiyyətinin, Səhiyyə Nazirliyinin Onkologiya üzrə Attestasiya Komissiyasının, MOM-un dissertasiya müdafiəsi üzrə ixtisaslaşdırılmış elmi şurasının sədridir. MDB ölkələri onkologiya cəmiyyətlərinin və Avropa onkologiya cəmiyyətləri assosiasiyasının, İtaliya onkoloqlar klubunun, ABŞ Andersen Xərçəng əleyhinə Mərkəzinin üzvü, "Azərbaycan Onkoloji və həmmərz elmlər" jurnalının baş redaktorudur. Elmi kadrlar hazırlanmasında xidməti var.



Əliyev Camil

Ə s ə ri: Пластические операции при злокачественных опухолях кожи, М., 1979.

**ƏLİYEV** Əbülfəz Qədirqulu oğlu (1938–2000) – ictimai-siyasi xadim. Bax *Elçibəy Əbülfəz*.

Əliyev Əli



**ƏLİYEV** Əli Həsən oğlu (d. 6.2.1938, Sədərək k.) – bioloq. Biologiya elmləri doktoru (1992), prof. (1993). Azərb. Dövlət Un-tinin biologiya fakültəsini (1966) və aspiranturasını (1970) bitirmişdir. BDU-nun insan və heyvan fiziologiyası kafedrasında müəllim, baş müəllim (1973–82), dosent (1982–83) və prof. (1993–97) olmuşdur. 1997 ildən həmin kafedranın müdiridir. Təkamülün müxtəlif pillələrində intero- və elektroreseptiv qıcıqların şəkər mübadiləsində rolu, analizatorların funksional plastikliyi və formalaşan mexa-


Əliyev Əli İbrahim oğlu


Əliyev Əli

Əliyev Əmiraslan


nizmlərinin araşdırılması, epifiziologiyanın interoreseptiv qıcıqlarla əlaqəsi problemləri tədqiqatlarının əsasını təşkil edir. 120-dən çox elmi məqalənin, 5 dərs vəsaitinin, o cümlədən orta məktəblərin 9-cu sinfi üçün "Biologiya. İnsan və onun sağlamlığı" dərsliyinin (2000, şərikli) müəllifidir.

**ƏLİYEV** Əli İbrahim oğlu (1904, indiki Şərur r-nunun Yuxarı Yaycı k. – 4.4.1997, Naxçıvan ş.) – ictimai-siyasi xadim, tarixçi, pedaqoq. Tarix elmləri namizədi (1949), dosent (1951). Azərb. Respublikasının əməkdar müəllimi (1979). İlk təhsilini əvvəlcə Yaycı kənd "üsuli-cədid" məktəbində almış, sonralar isə Mahmudkənd və Baş Noraşen (indiki Cəlilkənd) məktəblərində davam etdirmişdir. 1925 ildə Bakıda birillik kursu bitirdikdən sonra Şərur qəzasının Yengicə nahiyə komsomol komitəsinin katibi işləmiş. 1927–28 illərdə ordu sıralarında xidmət etmişdir. 1932 ildə Tiflis Zaqafqaziya Kommunist Un-tini bitirmiş, 1933 ildə N.Y.Marr ad. Moskva Şərqşünaslıq İn-tuna daxil olmuş, lakin maddi çətinliklər üzündən təhsilini yarımçıq qoyub Naxçıvana qayıtmış, Naxçıvan pedaqoji texnikumunun direktoru işləmişdir. 1938–41 illərdə Moskva Dövlət Un-tinin aspiranturasında (akad. A. M. Pankratovanın rəhbərliyi ilə) təhsil almışdır. 1941–47 illərdə Nax. MSSR Maarif komissarı, 1951–67 illərdə Nax. MSSR Ali Soveti Rəyasət Heyətinin katibi, 1967–70 illərdə Azərb. Dövlət Pedaqoji İn-tu (indiki APU) Naxçıvan filialının təşkilatçısı və ilk direktoru, sonralar Naxçıvan Pedaqoji İn-tunun kafedra müdiri olmuşdur. 1981 ildən fərdi pensiyaçı idi. 19–20 əsrlərdə Azərb.-da kəndli hərəkatı tarixinin araşdırıcısıdır. Tədqiqatlarında erməni millətçilərinin türk xalqlarına qarşı soyqırımı siyasəti, erməni terrorizmi ifşa edilmişdir. A. Şadlinski, C. Naxçıvanski, Araz-Türk Respublikası haqqında ilk elmi məlumat Ə.-ə məxsusdur. 2–7-ci çağırış Nax. MR Ali Sovetinin deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Naxçıvan MSSR-də mədəni inkişaf, B., 1958; Vedinin dəmir axını, B., 1984; Qırmızı tabor, 1990; Biz əzablı ömür yaşadıq, B., 1994; Əlincə yaddaşı, kitab 1-2, B., 1997–2002; 1905–1907-ci illərdə Azərbaycanda kəndli hərəkatı, B., 2001.

**ƏLİYEV** Əli Nağı oğlu (1932, indiki Babək r-nunun Nehrəm k. – 22.5.1995, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1982). Azərb. Respublikasının Dövlət mükafatı laureatı (1980). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1963). 30 ildən çox Babək r-nundakı "Kommunizm" k-zunda briqadir işləmiş. "Usta pambıqçı", "Usta tütünçü" və "Usta üzümçü" adlarına layiq görülmüşdür. 1976–80 illərdə yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 çağırış SSRİ Ali Sovetinin, 2 çağırış Nax. MSSR Ali Sovetinin deputatı seçilmişdir. İki dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**ƏLİYEV** Əmiraslan Rza oğlu (30.8.1960, Naxçıvan ş. – 17.3.1995, Bakı) – Azərbaycanın Milli Qəhrəmanı. Vayxır tikinti idarəsində fəhlə işləmiş, eyni zamanda Naxçıvan Pedaqoji İn-tunun tarix-filologiya fakültəsində ali təhsil almışdır. 1992 ildə ordu sıralarına çağırılmış, sərhəd qoşunlarında xidmət etmişdir. 1994 ilin oktyabrında və 1995 ilin martında Bakıda dövlət çevrilişləri cəhdlərinin qarşısının alınmasında fəal iştirak etmiş, qəhrəmancasına həlak olmuşdur. Xidmət etdiyi sərhəd zastavasına Ə.-in adı verilmişdir.

**ƏLİYEV** Əsəd Cabbar oğlu (d.1918, indiki Babək r-nunun Nehrəm k.) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1984). Naxçıvan pedaqoji məktəbini (1938) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) tarix fakültəsini (1956) bitirmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Cəbhədə ağır yaralandığından 1942 ilin may ayında ordudan tərxis olunmuşdur. 1938–94 illərdə (fasilələrlə) indiki Babək r-nunun Nehrəm, Çeşməbasar məktəblərində müəllimlik etmişdir.

**ƏLİYEV** Əziz Məmmədkərim oğlu (1.1.1897, keçmiş İrəvan qub.-nın Hamamlı k. – 27.7. 1962, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – dövlət xadimi, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru (1938), prof. (1956), Azərb. Respublikasının əməkdar həkimi (1960). İrəvan Kişi Gimnaziyasını qızıl medalla bitirmiş (1917), elə həmin il Petroqraddakı (indiki Sankt–Peterburq) Hərbi-Tibb Akademiyasına daxil olmuşdur. İkinci kursun yay tətilini evlərində keçirmək üçün İrəvana gələn Ə. daşnakların xüsusi qəddarlıqla həyata keçirdikləri antitürk, antiazərbaycan əməllərinə tab gətirməyib, ailəsini çətinliklə Şərura köçürə bilmiş, bir müddətdən sonra isə Şahtaxtı kəndinə aparmışdır. Atasının vəziyyəti və ermənilərin törətdikləri qırğınlar onun təhsilini tamamlamasına imkan verməmişdir. Daşnakların qanlı cinayətləri nəticəsində didərgin düşən digər Şahtaxtı sakinləri ilə birlikdə Ə.-in də ailəsi bir müddət Cənubi Azərb.-ın Ərəblər kəndinə sığınmış, 1921 ildə yenidən Şahtaxtıya qayıtmışdır. Bütün bu müddətdə Ə. həkim köməkçisi kimi əhaliyə tibbi xidmət göstərmişdir. 1923 ildə Bakıya köçən Ə. Azərb. SSR XKS-də iş icraçısı, ümumi şöbə müdirinin müavini, XKS katibinin müavini və katibi vəzifələrində çalışmışdır. 1923 ildən, eyni zamanda, təhsilini Bakı Dövlət Un-tinin Tibb fakültəsində davam etdirərək, 1927 ildə oranı bitirmişdir. Sonrakı illərdə Ə. Azərb. Klinik İn-tunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərb. Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərb. Dövlət Tibb İn-tunun və Azərb. Dövlət Un-tinin rektoru (1929–41), Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi, AKP MK-nın katibi (1941–42), ÜİK(b)P Dağıstan Vil. Komitəsinin birinci katibi (1942–48), ÜİK(b)P MK-nın inspektoru (1949–50), Azərb. SSR Nazirlər Soveti Sədrinin birinci müavini (1950–51), Azərb. Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İn-tunun direktoru (1951–52; 54–56) vəzifələrində çalışmışdır. 1956 ildən Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunun direktoru idi. İşlədiyi bütün vəzifələrdə Ə. xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Ə.-in Azərb.-da tibb elminin inkişafında, ali tibb təhsilinin təşəkkülündə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında, ana dilində tibb terminologiyasının və ali məktəb dərsliklərinin yaradılmasında müstəsna xidməti var. Tədqiqatları, əsasən, eksperimental nefrit zamanı qanda baş verən biokimyəvi dəyişikliklərə, allergiya problemlərinə və s. həsr edilmişdir. Onun "Klinik analizlər" (1934) kitabı Azərb. dilində ilk ali məktəb dərsliklərindəndir. 1937 ildə və 50-ci illərin əvvəllərində təqiblərə məruz qalmış, tutduğu vəzifələrindən kənarlaşdırılmışdı. SSRİ Ali Sovetinin (1-ci, 3-cü çağırış), Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. İki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı, 1-ci dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif olunmuşdur. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tu Ə.-in adınadır. Bakıda və Mahaçqalada adına küçə var.

Ə s ə r i: Klinik analizlər, B., 1934.

*Əd.:* Ömür salnaməsi və xatirələr (tərtib edəni F. İslamzadə), B., 1996; T a l ı b l ı T., Əziz Əliyev: Dövrü, həyatı, şəxsiyyəti, B., 1998; Воспоминания об Азизе Алиеве, Б., 1983; Великий сын Азербайджана и Дагестана, Б., 1997.

**ƏLİYEV** Gümrah Məmməd oğlu (d.1958, indiki Şərur r-nunun Püsyan k.) – həkim. Tibb elmləri doktoru (1995), prof. (1996). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1982). İvanovo Tibb İn-tunun elektron mikroskopiya laboratoriyasında baş elmi işçi işləmiş (1987–92), İtaliyanın FİDİA Elmi Mərkəzində elmi ezamiyyətdə (1991–92) olmuşdur. 1993–95 illərdə İngiltərə Ürək Fondunun təqaüdçü elmi işçisi kimi London Un-ti kollecinin anatomiya və inkişaf biologiyası kafedrasında işləmişdir. 1996–97 illərdə Cein (İspaniya) Un-tinin prof. vəzifəsində çalışmışdır. 1997 ildən Klivlend (ABŞ) Kliniki Fondunda işləyir. Klivlend Qərb Ehtiyatlar Un-tinin Patologiya İn-tunda (1998–99), həmin un-tin Neyrologiya və anatomiya kafedrasının elektron mikroskopiya mərkəzində (1999–2000) elmi məsləhətçi olmuşdur. 2001 ildən həmin mərkəzin direktorudur. Ürək-damar xəstəliklərinə, işemiya və reperfuziyadan sonra damar endotelinin ultrastruktur-funksional analizinə və mümkün farmakoloji müdaxiləyə, ürək-damar və neyrodegenerativ xəstəliklərin patogenezində endotelin-1 və nitrit oksidinin roluna və s. dair tədqiqatlar aparmışdır. 120-dən çox elmi əsərin müəllifidir. İtaliya, Fransa, İngiltərə, İspaniya, ABŞ və Rusiyanın tibb un-t və klinikalarında mühazirələr oxumuşdur. Rusiya Anatomiya, Histologiya və Embiriologiya Cəmiyyəti, Rusiya və İtaliya Elektron Mikroskopiya Cəmiyyəti, Amerika Nevropatoloqlar Assosiasiyası, Nyu-York Elmlər Akademiyası, Kembric (İngiltərə) Bioqrafiya Mərkəzi və s. mötəbər elmi idarələrin üzvüdür. İtaliyanın FİDİA tədqiqat qrantına, Britaniya Ürək Fondu tədqiqat məmuru qrantına, İtaliya Farmakoloqlar Cəmiyyətinin elmi mükafatına, Amerika Bioqrafiya İn-tunun məsləhətçisi mükafatına layiq görülmüşdür. Adı 20 əsrdə damar biologiyası, neyrologiya və elektron mikroskopiyası üzrə dünyanın 500 ən görkəmli aliminin sırasına daxil edilmişdir (2000).


Əliyev Əziz

Əliyev Gümrah


*XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur.*

**ƏLİYEV** Heydər Əlirza oğlu (d. 10.5.1923, Naxçıvan ş.) – görkəmli siyasi və dövlət xadimi. Azərb. Respublikasının Prezidenti (1993 ildən), Yeni Azərbaycan Partiyasının sədri (1992 ildən). Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939–41 illərdə Azərb. Sənaye İn-tunun (indiki Azərb. Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941 ildən Nax. MSSR Xalq Daxili İşlər Komissarlığında və Nax. MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. Heydər Əliyev 1944 ilin mayında Naxçıvan Vil. Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, leytenantlıqdan general rütbəsinədək yüksəlmişdir. 1957 ildə Azərb. Dövlət Un-tinin tarix fakültəsini bitirmişdir. 1964 ildə Azərb. SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967 ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

AKP MK-nın iyul (1969) plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi, MK-nın büro üzvü seçilmişdir. AKP MK-nın avqust (1969) plenumunda Heydər Əliyevin məruzəsi əsasında respublikada x. t.-na və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq xətti müəyyən olunmuşdur. Bu xətt Heydər Əliyevin məruzə və çıxışlarında inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərarlaşması uğrunda mübariz fəaliyyət proqramı olmuşdur. Heydər Əliyevin AKP 28-ci (1971, mart) və 29-cu (1976, yanvar) qurultaylarında hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm əməli rol oynamışdır. Heydər Əliyev Sov. İKP MK 24-cü (1971, mart–aprel) və 25-ci (1976, fevral–mart) qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sov. İKP MK üzvü seçilmişdir. Heydər Əliyev 1976 ilin martında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982 ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

*Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir.*

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev ölkənin yeni Konstitusiyasının hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir (1977, oktyabr). Heydər Əliyev Azərb. SSR-in yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi Azərbaycan dilinin Azərb. SSR-in dövlət dili olması haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur (1977, iyul). Azərb. SSR Ali Sovetinin sessiyasında "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə emtişdir (1978, aprel).

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, respublikada ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilməklə yanaşı, yeni-yeni istehsal istiqamətlərinin yaradılması yolunda çoxşaxəli fəaliyyətin əsası qoyulmuşdur; iqtisadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi nəticəsində Azərbaycanın iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82 illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə, norma və qaydalara ciddi əməl edilməsinə, əmək və ictimai-siyasi fəallığın artırılmasına, k. t.-nın inkişafında yüksək göstəricilər əldə edilməsinə nail olmaqla yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdü. Nəticədə, 1970–80-ci illərin birinci yarısı respublikada ictimai-iqtisadi və sosial-mədəni həyatda sürətli yüksəliş mərhələsi olmuş, müstəqil Azərb.-ın təməli qoyulmuşdur.

Heydər Əliyev Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız keçmiş SSRİ məkanında deyil, həmçinin dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10-cu çağırışlar) deputatı seçilmiş, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərb. SSR Ali Sovetinin (7, 8, 9 və 10-cu çağırış) deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuş, Lenin ordeni (4 dəfə), Qırmızı Ulduz ordeni və çoxlu



HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ






























AZƏRBAYCAN
RESPUBLİKASI


AZƏRBAYCA
RESPUBLİKASI












COUNCIL


INTERNATIONAL CONFEREN
RESTORATION OF THE HIST


BELARUS
AZERBAI
osce ISTANBUL SUMMIT















EXXON
ITOCHU
AIOC
12 NOYABR


















medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına (1979, 1983) layiq görülmüşdür.

1970-80-ci illərdə Sov. İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Almaniya, Vyetnam, KXDR, Ruminiya, Yuqoslaviya, İtaliya, Misir, Suriya və Hindistanda olmuşdur.

Heydər Əliyev 1987 ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun və şəxsən Baş katib M. S. Qorbaçovun yeritdiyi səhv xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və müxalif mövqe tutmuşdur.

Heydər Əliyev 1990 ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərb. xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləmişdi. Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991 ilin iyulunda Sov. İKP sıralarını tərk etmişdir.

Heydər Əliyev 1990 ilin iyulunda Azərb.-a qayıtmış, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərb. Ali Sovetinə deputat seçilmişdir. 1992 ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan ş.-ndə keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyev 1991–93 illərdə Nax. MR Ali Məclisinin sədri, Azərb. Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. Heydər Əliyev birinci sessiyadakı (fevral, 1991) çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərb.-da mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən mühüm prinsipial fikirlər söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları ilə bağlı qətiyyətli mövqeyini bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərərək demişdir: "Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur".

Heydər Əliyev Azərb. Ali Sovetinin 7 mart 1991 il tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa dəvət təklifi ilə bağlı referendumda iştirak edib-etməmək məsələsi barədə qətiyyətli mövqeyini belə ifadə etmişdir: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". Heydər Əliyevin rəhbərliyi altında referendum Nax. MR-də boykot edilmiş, Azərb. Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə muxtar respublikanın dövlət bayrağı kimi qəbul olunmus, rus sovet qoşun hissələri buradan çıxarılmış, 20 Yanvar faciəsinə həqiqi siyasi qiymət verilmiş, Naxçıvan müstəqillik və milli dövlət quruculuğu nümunələri göstərərək, xalqda ümid yaratmışdır.

*Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə artmaqdadır.*

Heydər Əliyev Nax. MR-də fəaliyyət göstərdiyi müddətdə, bütün Azərb. xalqı, ümumrespublika üçün taleyüklü məsələlərdə, daim qətiyyətlilik nümayiş etdirilmişdir: Nax. MR Ali Məclisinin qərarı (26 avqust 1991 il) ilə Sov. İKP-nin tərkib hissəsi kimi Azərb. KP Naxçıvan Vilayət Komitəsinin və onun bütün strukturlarının ləğv edilməsi, Azərb. Ali Sovetinin 1991 il 29 avqust tarixli sessiyasında Azərb.-da həmin il sentyabrın 8-nə təyin edilmiş prezident seçkilərinin keçirilməsinə qəti etiraz edərək Nax. MR Ali Məclisinin 1991 il 4 sentyabr tarixli sessiyasında bu seçkilərin Nax. MR ərazisində keçirilməsinin dayandırılması haqqında qərar çıxarılması və seçkilərin daha sonrakı müddətə keçirilməsinin Azərb. Respublikası Ali Sovetindən xahiş edilməsi. Nax. MR-də sabitliyin, demokratik dövlət quruculuğunun formalaşması Heydər Əliyevin siyasi təcrübəsinin və iradəsinin nəticəsində əldə olunmuşdur. Azərb. xalqı 1993 ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı, bu, əsl mənada, milli hərəkata çevrildi, Azərb.-ın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev iyunun 15-də Azərb. Ali Sovetinin sədri seçildi, iyu-

*Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, nəhayət, ictimai-siyasi intibah yolunu tutmuşdur.*

*İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi, azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər.*

nun 24-də isə Milli Məclisin qərarı ilə Azərb. Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993 il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərb. Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı; Azərb. dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994 il oktyabr və 1995 il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu; ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. Heydər Əliyevin Azərb. rəhbərliyinə qayıdışı ilə əsas dəyərini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik və s. ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Prezidentin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu və cəsarətli addımlar atması və milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərb. dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Təcavüzkar silahlı qüvvələrinin Azərb. ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994 ilin mayında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərb. dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişilməsinə nail ola bildi. ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərb.-ın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

*Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır.*

Heydər Əliyev Azərb.-ın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərir. 1994 ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" adı almış neft müqaviləsi bağlandıqdan sonra, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar yeni-yeni sazişlərin imzalanması belə müqavilələrin sayını 21-ə, iştirak edən dövlətlərin və iri şirkətlərin sayını isə müvafiq surətdə 15 və 33-ə çatdırmağa imkan verdi ki, bu da Azərb.-a yaxın illərdə qoyulacaq xarici sərmayənin 60 milyard dollardan çox olmasını nəzərdə tutur və ölkəmizin iqtisadi sistemini canlandıracaq güclü maliyyə kanalıdır. Bu müqavilələr dəyərli siyasi məna kəsb edir və Azərb.-ın beynəlxalq siyasətdə rolunu gücləndirən amil funksiyası daşıyır. Azərb. neftinin dünya bazarlarına nəqli sahəsində də uğurlu addımlar atılmış, "Bakı-Supsa" boru kəməri tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri haqqında müqavilə imzalanmış və onun həyata keçirilməsinə başlanılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpasında – ümumdünya kommunikasiya proqramının həyata keçirilməsində Azərb. aparıcı rol oynamış, 1998 ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli nümayəndələrinin Bakıda keçirilmiş beynəlxalq konfransı proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul etmişdir.

Gürcüstanı, Ukraynanı, Özbəkistanı, Azərbaycanı və Moldovanı əhatə edən GUÖAM birliyinin yaranmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin önəmli xidməti olmuşdur. 1999 ilin aprelində GUÖAM ölkələri başçılarının Vaşinqtondakı görüşündə Heydər Əliyev təşkilatın ilk sədri seçilmişdir.



*1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsi çıxdı və bununla Azərbaycan mətbuatının bünövrəsi qoyuldu. Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu.*

Heydər Əliyevin genişmiqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərb.-ın dünya iqtisadiyyatına inteqrasiyası, Azərb.-da iqtisadiyyatın ilk artım meyllərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi və inflyasiyanın qarşısının alınması, manatın alıcılıq qabiliyyətinin dayanıqlı surətdə sabit saxlanması – ardıcıl prioritet sahələrdir.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995 ilin noyabrında referendum yolu ilə Azərbaycanın ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Azərb. Respublikası Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000 illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, Azərb.-da ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında qanun"un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində 181 beynəlxalq konvensiya və sazişə qoşulmuşdur.

Heydər Əliyevin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 fevral 1998 il tarixli Fərmanı Azərbaycan Respublikasının dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratmış, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasəti səviyyəsinə qaldırmış, 1995 ilin mayında əfvetmə institutu bərpa edilmiş, 1995–2002 illərdə əfv fərmanlarına və amnistiya aktlarına əsasən minlərlə məhbus müxtəlif cəzalardan tam və ya qismən azad edilmiş, Azərb. 1996 ilin iyununda Avropa Şurasına "xüsusi qonaq" statusu almış, 2001 il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərb.-ın ərazi bütövlüyünün pozulması, ən qədim qərinələrdən özəl tərkibi olan Qarabağın işğal olunmuş torpaqlarından bir milyondan artıq soydaşımızın didərgin salınması və çadırlarda qaçqın vəziyyətində yaşamağa məcbur olması, 20 faizdən artıq Azərb. ərazisinin Ermənistan silahlı birləşmələrinin işğalı altında qalması və s. olaylar haqqında əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox böyük, ağır və gərgin iş görmüş və son həllinə qədər qətiyyətlə fəaliyyət göstərir. Heydər Əliyevin Azərbaycan prezidenti kimi, BMT-nin sessiyalarında, ATƏT-in zirvə toplantılarında çıxışları, Fransa, ABŞ, İngiltərə, Belçika, Almaniya, İran, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Misir, Rusiya, Qazaxıstan, Pakistan, Qırğızıstan, Özbəkistan, Yaponiya və b. ölkələrə rəsmi səfərləri də bu məqsədə xidmət etmişdir.

Prezident Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı-faydalı əməkdaşlıq prinsipləri təşkil edir. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də ən öncə sülh yolu ilə həll olunmasına tərəfdardır, belə olmazsa, Qarabağın silahla azad ediləcəyini əzmlə bəyan etmişdir.

Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərir. O, 1992 ildən işə başlamış türk ölkələri dövlət başçılarının zirvə toplantılarında müntəzəm olaraq fəal iştirak etmiş, türk xalqlarının birliyi naminə bir sıra dəyərli tədbirlərin həyata keçirilməsinə çalışmışdır. Türk ölkələri dövlət başçılarının 6-cı zirvə toplantısının (2000 il, aprel) Bakıda keçirilməsi və türk dünyasının böyük ədəbi abidəsinin – "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin beynəlxalq miqyasda qeyd edilməsi ilə eyni vaxta düşməsi də bu baxımdan çox əlamətdardır. Heydər Əliyevin rəhbərliyi ilə hər iki tədbirin çox yüksək səviyyədə keçirilməsi və bütün türk xalqlarının əsl bayramına çevrilməsi Azərbaycan Prezidentini həm də çağdaş türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrətləndirdi.

*Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynamayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.*

Heydər Əliyevin tarixin acı və amansız sınaq dövrlərində dünyanın ayrı-ayrı ölkələri-

*İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.*

nə səpələnərək toplum halında yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində müstəsna xidmətləri vardır. Nax. MR Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevin təşəbbüsü ilə 1991 il dekabrın 16-da Ali Məclis dekabrın 31-ni Dünya Azərbaycanlılarının birliyi və həmrəyliyi günü elan etmişdi; o, Azərb. Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı istisnasız olaraq hər bir ölkədə yaşayan soydaşlarımızın nümayəndələri ilə çox önəmli görüşlər keçirir, Azərb. diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası altında bir Vətən – Azərb. ətrafında sıx birləşməsi üçün əzmlə səy göstərir. Heydər Əliyevin təşəbbüsü, bilavasitə rəhbərliyi ilə 2001 il noyabrın 9–10-da dünya azərbaycanlılarının Bakıda keçirilən I qurultayı Azərb. diasporunun fəaliyyətinin yaxşılaşdırılması və gücləndirilməsi sahəsində çox dəyərli tarixi qərarlar qəbul etmişdir.

*Azərbaycan insanlığın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir.*

Heydər Əliyev 1998 il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərb. Prezidenti seçilmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Türkiyənin Sənaye və İş Adamları Vakfının 1997 ilin insan haqları və ilin dövlət adamı mükafatına, ən nüfuzlu televiziüa kanallarından biri – "Nərgiz TV"nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında "Dünyada ilin adamı" fəxri adına (1997), "İpək Yolu Fondu"nun təsis etdiyi "İpək Yolu Xidmət Mükafatı"na (1998), Beynəlxalq Atatürk Sülh Mükafatına (1999), müxtəlif ölkə un-tlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. Dövlətlərarası əlaqələrin inkişafında, regional münasibətlərin, siyasi sabitliyin tənzimlənməsində yorulmaz səylərinə görə Heydər Əliyev "Qızıl fortuna" Beynəlxalq Reytinq Təşkilatının ali mükafatı – "Qızıl Ulduz" ("Qloriya populi") ilə təltif olunmuşdur (2001).

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram.*

Heydər Əliyev həm də fəlsəfə, tarix, ədəbiyyat və incəsənətin gözəl bilicisi, elmin və mədəniyyətin himayəçisidir. Onun bilavasitə təşəbbüsü və iştirakı ilə neçə-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmişdir. Azərb. ədəbiyyatı və incəsənətinin inkişafında böyük xidmətləri olan qocaman sənətkarlara, istedadlı gənc şair və yazıçılara, müxtəlif yaradıcılıq sahələrində ümid verən yeniyetmələrə fərdi təqaüdlər təyin etməsi də mədəniyyətimizin inkişafına Heydər Əliyevin böyük qayğısının bariz nümunələrindəndir.

Azərb.-da latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərb. əlifbası və Azərb. dili gününün təsdiq edilməsi haqqında 2001 ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərb. xalqına müraciəti, türk xalqları və dövlətləri arasında əlifba və dil birliyinin təmin edilməsi və bir çox digər sahələrdə coşğun fəaliyyəti Heydər Əliyevə böyük şöhrət gətirmişdir. O, "Elmlər akademiyasını Azərb. xalqının tarixi nailiyyəti" adlandırmış və respublikada elmin inkişafına daim diqqət və qayğı göstərmişdir; Heydər Əliyev 15 may 2001 il tarixli fərmanı ilə EA-na Azərb. Milli Elmlər Akademiyası statusu verməklə, bu nəhəng elm təşkilatının Azərb. xalqı qarşısındakı xidmətlərini və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu faktını bir daha yüksək səviyyədə təsdiqləmişdir.

1998 ilin mayında Azərb. xalqı, mütərəqqi beynəlxalq ictimaiyyət Heydər Əliyevin anadan olmasının 75 illiyini yüksək təntənə ilə qeyd etmişdir. Respublikamızda və bir sıra xarici ölkələrdə Heydər Əliyevin Azərb.-ın dövlət müstəqilliyi və tərəqqisi naminə titanik fəaliyyətindən bəhs edən silsilə kitablar, kitab-albomlar nəşr olunmuşdur.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Nax. MR Ali Məclisinin sədri vəzifəsində çalışdığı illər (1991–93) muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda əlamətdar dövrüdür. Heydər Əliyev, birinci növbədə, Nax. MR-i Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Bu illərdə muxtar respublikanın Ali Məclisi Heydər Əliyevin təşəbbüsü ilə onun adından "sovet, sosialist" sözlərinin çıxarılması, Azərb. Xalq Cümhuriyyətinin (1918–20) üçrəngli bayrağının Nax. MR-in dövlət bayrağı qəbul olunması haqqında qərarlar qəbul etdi. Blokada şəraitində olan muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi



diqqət yetirilirdi. Bu məqsədlə qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid körpüsü", İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı–Poldəşt körpüsü inşa edildi və s. Heydər Əliyevin Azərb.-ın siyasi rəhbərliyinə qayıdışından sonra respublikanın digər bölgələrində olduğu kimi, Nax. MR-də də əmin-amanlıq, ictimai-siyasi sabitlik bərqərar edilmiş, iqtisadiyyatın dirçəlişi, sosial-mədəni problemlərin həlli sahəsində diqqətəlayiq uğurlar qazanılmışdır.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 12 fevral 1999 il tarixli sərəncamında muxtar respublikanın gələcək inkişaf perspektivləri müəyyən edilmişdir. Heydər Əliyevin yubiley şənliklərində bilavasitə iştirakı muxtar respublikanın hərtərəfli inkişaf proqramının həyata keçirilməsinə yeni güclü impuls vermişdir.

Naxçıvan ş.-ndə Heydər Əliyevin büstü ucaldılmış (1983), Heydər Əliyev muzeyi yaradılmışdır. Nax. MR-in bütün şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyev bağ və parkları, meydanları salınmış, bulaq-abidə kompleksləri, pannolar inşa edilmişdir. Onun adını daşıyan bağ, park, xiyaban və bulaq-abidə kompleksləri var. Kiyevdə Heydər Əliyev ad. Siyasi Elmlər və Beynəlxalq Münasibətlər İn-tu fəaliyyət göstərir. Heydər Əliyev məktəbləri və universitetlərində seminarlar keçirilir.

Əsərləri: Müstəqilliyimiz əbədidir, 1–9-cu kitablar, B., 1997-2000; Müstəqillik yolu (seçilmiş fikirlər), B., 1997; Azərbaycan bütün azərbaycanlıların vətənidir (Azərb. və rus dillərində), B., 2000; Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, B., 2001.

*Əd.:* Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı, B., 1994; Qayıdış. 1990—1993 (məsləhətçi və buraxılışına məsul Vasif Talıbov), B., 1996; Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993–1999-cu illərdə xarici ölkələrə səfərlərinə dair materiallar), c. 1–5, B., 1996–99; Heydər Əliyev və Bakı Dövlət Universiteti (tərtibçi Əli Əhmədov), B., 1997; Xudiyev N., Heydər Əliyev və Azərbaycan dili, B., 1997; Heydər Əliyev–75. "Azərbaycan Universiteti", B., 1998; Həbibbəyli İ., Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti, Naxçıvan, 1998; Maqsudov F., Heydər Əliyev və Azərbaycan elmi (redaktoru akad. Cəmil Quliyev), B., 1998; Abdullazadə F., Heydər Əliyev. Siyasi portret (Azərb. və rus dillərində), B., 1998; Əliyev R., Heydər Əliyev. Din və mənəvi dəyərlər, B., 1998; Hacıyev Ə., Novruzov V., Allahverdiyev H., Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, B., 1998; İsmayılov Ə., Əliyev Q., Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi, B., 1998; Əkbərov B., Heydər Əliyev milli konstitusiyamızın banisidir, B., 1998; Mirzəyev R., Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyası (ingilis və Azərb. dillərində), B., 1999; Məmmədov Z., Heydər Əliyev və Azərbaycan dəmir yolları, B., 1999; Mustafayev R., Fikir azaddır, B., 2000; Mehdiyev R., Azərbaycanın inkişaf dialektikası, B., 2000; yenə onun, Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi, B., 2001; Həsənov Ə., Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991–1996), B., 2000; Bakı Dövlət Universitentinin dünya şöhrətli məzunu (akad. Cəlal Əliyev, Abel Məhərrəmov), B., 2001; Xalqın böyük xilaskarı Heydər Əliyevin 32 illik rəhbərlik dövrünə və Azərbaycanın müstəqilliyinin 10 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları (tarixi həqiqətlər, faktlar və reallıqlar), B., 2001; Azərbaycan Respublikası. 1991–2001-ci illər, B., 2001; Аббасбейли А., Аббасбейли Э., Гейдар Алиев и мировая политика, Б., 1997; Алиев Н. А., Мирзоев М. А., Шахбазов Э. К., ОЭТ Баку-Тбилиси–Джейхан: от видения к реальности, Б., 2001.


Əliyev Həsən

**ƏLİYEV** Həsən Əlirza oğlu (15.12.1907, Sisyan r-nunun Comərdli k. – 2.2.1993, Bakı; Fəxri Xiyabanda dəfn edilmişdir) – torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Kənd təsərrüfatı elmləri doktoru, prof. (1966). Azərb. Milli EA akad. (1952). Azərb. Respublikası əməkdar elm xadimi (1974). Azərb. Dövlət mükafatı laureatı (1978). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. EA Torpaqşünaslıq və Aqrokimya İn-tunun elmi işlər üzrə direktor müavini (1944–49), eyni zamanda Azərb. Dövlət Pedaqoji İn-tunda (indiki APU) baş müəllim (1945–49), Azərb. Milli EA Botanika İn-tunun direktoru (1949–52), Azərb. Kənd Təsərrüfatı nazirinin birinci müavini və AKP MK katibi (1952), Azərb. Milli EA akademik-katibi (1952–57), Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunda laboratoriya müdiri (1957–67), Azərb. Milli



*Əliyev Hüseyn*

EA Coğrafiya İn-tunun direktoru (1968–93) vəzifələrində işləmişdir. Əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edir. O, Şərqi Zaqafqaziya torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə. Azərb.-da Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Ə.-in elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərb. təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində onun xidmətləri əvəzsizdir. O, kütlələrin ekoloji tərbiyəsinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi. Ə.-in "Həyəcan təbili" əsəri (B., 1976; 1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırışdır. Ə. coğrafiya elmləri üzrə bir sıra problem şuralarının sədri və üzvü olmuşdur. Yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidməti var. Azərb. Respublika Təbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətinin sədri və Azərb. Coğrafiya Cəmiyyətinin prezidenti (1975–90), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975 ildən) idi. Ə. Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumınіya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), AFR (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir. Azərb. SSR Ali Sovetinin (10–11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, Vətən müharibəsi, Şərəf nişanı ordenləri, SSRİ EA-nın N. İ. Vavilov ad. Qızıl medalı ilə təltif edilmişdir. Azərb. Milli EA-nın Coğrafiya İn-tu Ə.-in adınadır. Dünya Universitetinin elm və mədəniyyət üzrə doktoru (ABŞ), İngiltərə (B. Britaniya) Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olmuşdur.

Ə s ə r l ə r i: Pirsaat düzünün torpaqları və perspektivası, B., 1940; Həyəcan təbili, B., 1976; 1982; Təbiətin yaşıl libası, B., 1988 (M. Y. Xəlilovla birgə); Почвы низовий рек юго-восточного склона Большого Кавказа. Б., 1948; Почвы Азербайджанской ССР, Б., 1953; Коричневые лесные почвы, Б., 1965; Прикуринские тугайные леса Азербайджана, Б., 1976; Почвы Большого Кавказа, ч. 1, Б., 1979; Почвы Нахичеванской АССР, Б., 1988 (A. Zeynalovla birgə).

*Əd.:* Q u l i y e v V., Akademik Həsən Əliyev Azərbaycanda ekologiya və təbiəti mühafizə elminin banisidir, B., 1997.

**ƏLİYEV** Həsən Musa oğlu (d. 1952, Şərur r-nunun Axura k.) – əmək qabaqcılı. Azərb. Respublikası Dövlət mükafatı laureatı (1986). Naxçıvan kənd təsərrüfatı texnikumunu bitirmişdir (1972). 1975–90 illərdə kolxozda briqadir işləmiş, yüksək əmək göstəriciləri əldə etmişdir. Xalqlar dostluğu ordeni ilə təltif olunmuşdur.

**ƏLİYEV** Hüseyn Əlirza oğlu (22.4.1911, Sisyan r-nunun Comərdli k. – 25.5.1991, Bakı) – rəssam, qrafik və boyakar. Azərb. Respublikası xalq rəssamı (1982). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini bitirmiş (1932), Leninqrad (indiki Sankt-Peterburq) Ümumrusiya Rəssamlıq Akademiyasının qrafika fakültəsində oxumuşdur (1932–35). Yaradıcılığa qrafik rəssam kimi başlamış, "Molla Nəsrəddin" jurnalına karikaturalar çəkmişdir (1929–30). Uzun müddət (50 ildən çox) "Kommunist" ("Xalq qəzeti") qəzetində rəssam işləmişdir. 1940–45 illərdə Azərb. Dövlət Rəssamlıq Məktəbində dərs demişdir. 1940–50 illərdə siyasi təşviqat plakatları, rəsm və karikaturalar çəkmişdir. 1960–80 illərdə əsasən akvarel texnikasında mənzərə silsilələri ("Göygöl", "Sürülər yaylaqda", "Naxçıvanın dağları", "Zəngəzur dağlarında", "Cənub rayonlarında" və s.) yaratmışdır. Həmin əsərlərdə təbiətin əzəməti və füsunkar gözəlliyi ahəngdar kompozisiyada və əlvan boyalarla əks etdirilmişdir. Portret sahəsində də fəaliyyət göstərmişdir ("M. F. Axundov", 1938; "Ü. Hacıbəyov", "Nizami", 1940; "Hüseyn Cavid" (1982); "Füzuli", 1988 və s.). Bir sıra fərdi sərgiləri keçirilmiş, əsərləri xarici ölkələrdə dəfələrlə nümayiş etdirilmiş, rəssama şöhrət qazandırmışdır. Xalqlar dostluğu ordeni ilə təltif olunmuşdur.



*H. Ə. Ə l i y e v. Zəngəzur mənzərəsi. Sulu boya. 1969*

*Əd.:* Hüseyn Əliyev. Foto-albom, B., 2001.



**ƏLİYEV** Hüseynqulu Əli oğlu (d. 3.2.1949, Ordubad r-nunun Bist k.) – rəssam. Nax. MR əməkdar incəsənət xadimi (1988), Azərb. Respublikasının əməkdar rəssamı (1999). Azərb. Dövlət Rəssamlıq Məktəbini (1975) və Azərb. Dövlət İncəsənət İn-tunu (1982) bitirmişdir. 1982–88 illərdə Naxçıvan Dövlət Rəsm qalereyasında işləmişdir. 1988 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamıdır. "Koroğlu", "Bəhruz Kəngərli" heykəllərini (Naxçıvan ş.), "Ana abidəsi" (Şəhidlər xiyabanı), "Şəhidlər abidəsi" (Vənənd və Nehrəm k.-ləri), şəhidlərin büstlərini yaratmışdır. Rəngkarlıq, qrafika, karikatura janrlarında əsərləri var. Ə. teatr dekorasiyası sənəti sahəsində də fəaliyyət göstərir. "Xeyir və Şər", "Arşın mal alan", "Özümüz bilərik", "O olmasın, bu olsun", "Mənziliniz mübarək" və s. tamaşalara səhnə tərtibatı vermişdir. Azərb. Rəssamlar Birliyinin üzvüdür (1986).

**ƏLİYEV** İlham Heydər oğlu (d. 24.12.1961, Bakı) – ictimai-siyasi və dövlət xadimi, diplomat. Tarix elmləri namizədi (1985). *H.Ə. Əliyevin* oğludur. Moskva Dövlət Beynəlxalq Münasibətlər İn-tunu (MDBMİ) bitirmişdir (1982). 1982 ildən əmək fəaliyyətinə başlamış, MDBMİ-də aspirant, müəllim olmuşdur. 1991 ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru vəzifəsində işləmişdir. 1994 ildə Azərb. Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti təyin olunmuşdur; 1997 ildən ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışır. Ə.-in respublikada quruculuq işlərinin başlanmasında, iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərb.-ın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin möhkəmlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənilməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanmasında və gerçəkləşdirilməsində, ümumiyyətlə, Azərb. Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır. Neft strategiyasının həyata keçirilməsi, 21 neft müqaviləsinin imzalanması nəticəsində xarici şirkətlər 1994–2000 illərdə Azərb.-a 800 mln. ABŞ dolları məbləğində bonus vermişlər. Azərb.-ın neft sektorunda 30 mindən artıq yeni iş yeri açılmışdır. Ə. 1997 ildən Azərb. Milli Olimpiya Komitəsinin (AMOK) prezidentidir. Uşaqların, yeniyetmə və gənclərin idmana cəlb olunmasında, respublikada idmanın inkişafı üçün şərait yaradılmasında, Azərb. idmançılarının mötəbər beynəlxalq yarışlarda uğurlar qazanmasında AMOK-un prezidenti kimi onun böyük xidməti var. Bakıda idmançılar və olimpiyaçılar üçün ən yüksək dünya standartlarına cavab verən böyük idman kompleksi tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmış, Naxçıvanda, Gəncədə və Şəkidə yeni, iki salondan ibarət idman kompleksinin inşasına başlanmışdır. AMOK-un məqsədyönlü fəaliyyəti sayəsində 2000 ilin sentyabrında Sidneydə (Avstraliya) XXVII Olimpiya oyunlarında Azərb. idmançıları böyük uğur – 2 qızıl və 1 bürünc medal qazanmış, oyunlarda iştirak edən 198 dövlət arasında 34-cü yeri tutmuşdur.



*Əliyev İlham*

Siyasi xadim kimi Ə. beynəlxalq aləmdə hörmət və nüfuz qazanmışdır. O, Azərb. nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Avstraliya və s. ölkələrdə keçirilən bir çox beynəlxalq və regional konfrans və konqreslərin iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir. Ölkədə demokratik islahatlar aparılmasında, demokratik və hüquqi dövlət quruculuğunda, Azərb. Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində uğurlu xidmətlər göstərən Ə. Yeni Azərbaycan Partiyasının (YAP) I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə yeni təsis olunmuş birinci müavini vəzifəsinə seçilmişdir. Müstəqil Azərb. Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında (AŞPA)


Əliyev İsa


Əliyev Kamran


Əliyev Qurbanəli

Əliyev Məhərrəm


Azərb. Parlamenti daimi nümayəndə heyətinin başçısıdır (2001 ildən). Azərb. haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun faciəli nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin bu mötəbər beynəlxalq təşkilat vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidməti var. AŞPA məhz onun bu təşkilatın sessiyalarındakı sarsılmaz məntiqə söykənən dərin məzmunlu çıxışları əsasında Azərb.-ın ədalətli mövqeyini dəstəkləyən bir sıra mühüm qərarlar qəbul etmişdir.

Ə s ə r i: Azərbaycan nefti dünya siyasətində, c. 1–5, B., 1997–98 (A. Muradverdiyevlə birgə).

Əd.: A b d u l l a y e v V., O, böyük siyasətə hazırdır, B., 1999.

**ƏLİYEV** İsa Musa oğlu (d. 1939, indiki Şərur r-nunun Çomaxtur k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1976). Əmək fəaliyyətinə 1955 ildə başlamış, k-zda suçu, manqa başçısı, briqadir işləmişdir. 1975 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 2 dəfə Lenin ordeni, Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

**ƏLİYEV** Kamran İmran oğlu (d. 5.3.1953 indiki Şərur r-nunun Diyadin k.) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru (1990), prof. (1994). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1974) və Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunun aspiranturasını (1979) bitirmişdir. Ədəbiyyat İn-tunda kiçik elmi işçi, sonra isə böyük və aparıcı elmi işçi olmuşdur (1979–92). 1993 ildən "Naxçıvan" Un-tinin (Bakı) tədris işləri üzrə prorektoru idi. Azərb. Yazıçılar Birliyinin üzvüdür (1997 ildən). 20 əsr Azərb. ədəbiyyatına, Azərb. romantizminin nəzəri-estetik prinsiplərinə dair tədqiqatların, o cümlədən 3 kitabın, 150-yə qədər məqalənin müəllifidir. "Sədərək döyüşləri" (1992) kitabı vətən övladlarının erməni təcavüzkarlarına qarşı rəşadətli mübarizəsindən bəhs edir. Mənəvi-əxlaqi problemlərə həsr olunmuş "Yalquzaq" (1998) povesti var.

Ə s ə r l ə r i: XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri, B., 1985; Hüseyn Cavidin şəxsiyyəti və poetikası, B., 1987; Mirzə Fətəlidən Hüseyn Cavidə qədər, B., 1988.

**ƏLİYEV** Qurbanəli Məmmədsadıq oğlu (d. 8.10.1925, indiki Ordubad r-nunun Kotam k.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1969), prof. (1970). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini (1950) və Azərb. Milli EA Fizika İn-tunun aspiranturasını (1959) bitirmişdir. 1950–55 illərdə Naxçıvan müəllimlər in-tunda, Naxçıvan və Ordubad şəhər orta məktəblərində dərs demişdir. Azərb. Milli EA Fizika İn-tunda baş elmi işçi və laboratoriya müdiri (1959–69), Azərb. Dövlət Tibb İn-tunda (indiki Tibb Un-ti) tibbi və bioloji fizika kafedrasının müdiri (1969–93) olmuşdur. 1993 ildən həmin kafedranın prof.-dur. Tədqiqatları yarımkeçiricilərin, xüsusilə selenin fiziki xassələrinin araşdırılmasına həsr edilmişdir. Ölkəmizdə və xaricdə dərc olunmuş 140-dan çox elmi məqalənin, tibbi və bioloji fizikaya dair Azərb. dilində ilk ali məktəb dərsliklərinin və metodik vəsaitin müəllifidir. Keçmiş Almaniya Demo-kratik Respublikasında (1965) və Almaniya Federativ Respublikasında (1977) elmi ezamiyyətdə olmuşdur.

Ə s ə r l ə r i: Tibbi və bioloji fizika, B., 1985; təkmilləşdirilmiş 2-ci nəşri, 1993; Ali riyaziyyatın elementləri, B., 1991.

**ƏLİYEV** Məhərrəm Abış oğlu (d. 20.10.1951, indiki Şərur r-nunun Maxta k.) – hüquq-mühafizə orqanı işçisi, polis gen.-leytenantı (2002). Moskva Xüsusi Orta Milis Məktəbini (1978) və Ümumittifaq Qiyabi Hüquq İn-tunu (1985) bitirmişdir. Moskva şəhər r-nu 33-cü və 131-ci milis bölmələrinin cinayət axtarışı inspektoru (1978–82), Bakı şəhər Nizami r-n daxili işlər şöbəsi (RDİŞ) cinayət axtarışı bölməsinin baş əməliyyat müvəkkili (1982–87), Bakı şəhər Sabunçu RDİŞ cinayət axtarışı bölməsinin inspektoru, həmin bölmənin rəisi (1987–88), Bakı şəhər Xətai RDİŞ cinayət axtarışı bölmənin əməliyyat müvəkkili, həmin bölmənin rəis müavini ( 1988–92), Xətai r-n RDİŞ 36-cı milis bölməsinin və r-n polis idarəsi 37-ci bölməsinin rəis müavini (1992–93), Bakı şəhəri Səbail r-n polis idarəsinin rəisi (1993) vəzifələrində çalışmışdır. 1993 ildən Bakı Şəhər Polis İdarəsinin rəisidir. "Azərbaycan Bayrağı" ordeni (1999) ilə təltif olunmuşdur.

**ƏLİYEV** Məmməd Əli oğlu (d. 1919, indiki Babək r-nunun Tumbul k.) – idman xadimi. Azərb. Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi (1989), Nax. MR əməkdar müəllimi (1979), "Bədən tərbiyəsi




Əliyev Namiq

Əliyev Rasim


əlaçısı" (1964). Bakı Neft Texnukumunu bitirmiş (1939), Azərb. Bədən tərbiyəsi İn-tunda (indiki Bədən tərbiyəsi və İdman Akademiyası, 1939-42), Leninqradda (indiki Sankt-Peterburq) rəhbər kadrlar hazırlayan ali kurslarda (1949-50) təhsil almışdır. Böyük Vətən müharibəsinin (1941-45) iştirakçısıdır. Naxçıvan şəhər idman komitəsinin sədri (1947–50), C. Məmmədquluzadə ad. Naxçıvan Müəllimlər İn-tunda bədən tərbiyəsi müəllimi (1950–54) olmuşdur. 1956 ildən Nax. MR Gənclər və İdman Nazirliyində (keçmiş Nax. MR İdman Komitəsi) şöbə müdiridir. "Estafet ağacı" (1998), "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı" (1999) kitabları nəşr edilmişdir. 3-cü dərəcəli Şöhrət və 1-ci dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif edilmişdir.

**ƏLİYEV** Mirzə Bağır Yusif oğlu (1882, Naxçıvan ş. – 1.9.1938, orada) – Naxçıvanın erməni təcavüzündən və xarici müdaxilədən azad olunması uğrunda fəal mübariz. *Z. Həmzəyevanın* atasıdır. Gimnaziya təhsili almış, ərəb, fars və rus dillərini mükəmməl öyrənmiş, "Səyyar" təxəllüsü ilə şerlər yazmışdır. Dövrünün ziyalıları ilə ünsiyyət saxlamış, onların bir çoxu, xüsusilə Hüseyn Cavidlə dostluq etmişdir. 1918–20 illərdə Naxçıvan erməni təcavüzünə məruz qalarkən burada yaradılmış Müsəlman Milli Komitəsinin katibi olmuşdur. Sonralar Naxçıvanda müəllim və vəkil işləmişdir. 1937 ildə qardaşı Nağı Əliyevlə (xaricdə təhsil almış, Azərb. Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabiti, qoşun komandiri olmuş, 1920 il aprel çevrilişindən sonra mühacirət etmişdir) əlaqədar 2 dəfə DTK-da saxlanılan Ə. ruhi sarsıntıdan ağır ürək xəstəliyinə tutulmuş, qəflətən vəfat etmişdir. Ərəb əlifbası ilə 250 şagird dəftəri səhifəsində gündəlik şəklində yazılmış xatirələrində Ə. erməni təcavüzkarlarının Azərb.-a qarşı törətdikləri fitnəkarlıqlarla, habelə xarici dövlətlərin (İran, Rusiya, İngiltərə, Fransa və Amerika) Naxçıvanda baş verən hadisələrə müdaxiləsi, eyni zamanda Türkiyənin Naxçıvana köməyə gəlməsi ilə bağlı iştirakçısı və şahidi olduğu hadisələri təfərrüatı ilə qələmə almışdır.

Ə s ə r i: Qanlı günlərimiz (1918–1920-ci illər), B., 1993.

**ƏLİYEV** Namiq Adil oğlu (d. 25.3.1963, Naxçıvan ş.) – idmançı, karateçi. Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) tarix fakültəsini bitirmişdir (1984). Azərb. Respublikası Karate-do Federasiyası tərəfindən II Nidan qara kəmərə, H. Kanadzava tərəfindən I Şodan qara kəmərə, Beynəlxalq Şotakan Karate-do Federasiyası tərəfindən Diplom-Budo pasporta layiq görülmüşdür. 1989 ildən karatenin aparıcısı olmuş, "Çovkan" hərbi-idman klubunda karate-do idmanından məşğələ aparmış, yarışlar keçirmişdir. 1993 ildə Azərb. Karate-do Federasiyasında məşqçi-hakim kimi qeydiyyata götürülmüşdür. Karate üzrə beynəlxalq turnir və seminarlarda iştirak etmişdir. Nax. MR Şərq Döyüş Sənəti Federasiyasının sədri (1993 ildən) və baş katibi (2000 ildən), Naxçıvan MR Gənclər, İdman və Turizm nazirinin müavinidir (2001 ildən).

**ƏLİYEV** Rasim Həsən oğlu (d. 16.7.1934, Gəncə) – memar. Azərb. Respublikası əməkdar memarı (1979). Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının (Bakı) həqiqi üzvü (1992). Rusiya Memarlıq Akademiyasının fəxri üzvü (1994). Azərb. Respublikası Dövlət mükafatı, həmçinin H. Cavid ad. və bir sıra mükafatlar laureatı. Akad. *H. Ə. Əliyevin* oğludur. Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) memarlıq şöbəsini bitirmişdir (1958). 1958–65 illərdə "Azərdövlətlayihə" İn-tunda və Azərb. Milli EA Memarlıq və İncəsənət İn-tunda fəaliyyət göstərmişdir. Sonralar Bakı ş. baş memarının 1-ci müavini (1965–74) və Baş memarı (1974–88) olmuşdur. Bakının və resp.-nın digər şəhərlərinin planlaşdırılması və tikintisi, o cümlədən Bakı şəhərinin "Baş planı", "İçərişəhərin" regenerasiya planı layihələrinin müəllifidir: Bakıda yaşayış binaları, resp. nazirlər kabinetinin qonaq evi, "Xalqlar dostluğu" metro stansiyası (müştərək layihə), Xırdalan mədəniyyət sarayı, Quba ş.-nin mərkəzi meydanı və burada tikilmiş 600 yerlik mədəniyyət sarayı və s. Naxçıvanda H. Cavidin məqbərəsinin (mərmər, qranit, 1996; heykəl-fiqurun müəllifi Ö. Eldarovdur), Bakıda bir sıra xatirə abidələrinin (R. Zorge, heykəltəraş V. Siqal) və s. memarlıq layihəsini vermişdir. Binə beynəlxalq hava limanı (müştərək) və Azərb.-ın Türkiyədəki səfirliyi binası layihələrinin müəllifidir.

Azərb. Memarlar İttifaqının katibi idi (1980–88). Qırmızı Əmək Bayrağı və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur. Azərb. Memarlar İttifaqının vitse-prezidentidir.


Əliyev Seyfəddin

**ƏLİYEV** Seyfəddin Vəli oğlu (d. 30.5.1930, indiki Şərur r-nunun Alışar k.) – zooloq-entomoloq. Biologiya elmləri doktoru (1977), prof. (1998). Naxçıvan tibb texnikumunu (1947), Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU) bitirmişdir (1951). 1952 ildən Azərb. Milli EA Zoologiya İn-tunda çalışır. Baş elmi işçi (1964–78), pambıq sovkasının bioloji inkişafı (1978–86), entomologiya (1986–88) laboratoriyalarının rəhbəri olmuşdur. 1988 ildən entomologiya laboratoriyası və şöbəsinin rəhbəridir. Ə. faydalı cücülərin say meyarını işləyib hazırlamış və bu inteqrasiya pambıq sovkasına qarşı mübarizə metodu kimi tətbiq olunmuşdur. Respublikada pambıq sovkasının yayılma dərəcəsini əks etdirən, texniki və bostan ziyanvericiləri üzrə xəritələr hazırlamışdır. 148 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifi, orta məktəb üçün "Zoologiya" dərsliyinin müəlliflərindən biridir. Beynəlxalq və regional elmi məclislərdə məruzələr etmişdir. C. Soros qrantına və diplomuna layiq görülmüşdür.

Əsərləri: Azərbaycanın zərərli sovkaları, B., 1964; Pambığın bar orqanlarına zərər verən sovkalar, B., 1981; Düşmənlərin düşmənləri, yaxud bizim dostlarımız, B., 1995; Совки Азербайджана, B., 1984.


Əliyev Tamerlan

**ƏLİYEV** Tamerlan Əziz oğlu (3.10.1921, indiki Şərur r-nunun Şahtaxtı k. – 1997, Bakı) – həkim. Tibb elmləri doktoru (1969), prof. (1970). "Səhiyyə əlaçısı", Azərb. Respublikası əməkdar elm xadimi (1985), Dövlət mükafatı laureatı (1981). *Ə. M. Əliyevin* oğludur. Azərb. Tibb İn-tunun müalicə-profilaktika fakültəsini bitirmiş (1944), Azərb. Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İn-tunda işləmiş, 1945 ildən ömrünün sonunadək Tibb Un-tinin daxili xəstəliklər kafedrasında çalışmışdır (1969 ildən dosent, 1970–90 illərdə prof. və kafedra müdiri). Azərb. Respublikası Səhiyyə Nazirliyinin baş terapevti idi. Endokrinologiya, diaqnostika və s. sahələrdə 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiya və dərsliklərin müəllifidir. İstisu, Darıdağ minarel sularından, Naftalan neftindən və respublikanın digər balneoloji ehtiyatlarından istifadənin müalicə üsulları sırasına daxil edilməsində böyük əməyi var. Elmi-metodik işlərinin nəticələrinə görə Elmi kəşflər üzrə SSRİ Dövlət Komitəsinin 3 şəhadətnaməsini almışdır. Azərb.-da kardeoloji xidmət sisteminin elmi təşkili sahəsində də mühüm xidməti olmuşdur. ABŞ, Fransa, İngiltərə, Almaniya, İsveçrə və b. ölkələrdə Azərb. elmini təmsil elmişdir. Respublika Endokrinologiya Cəmiyyətinin, Tibb Un-tinin doktorluq dissertasiyası müdafiəsi üzrə ixtisaslaşdırılmış şurasının, Azərb. Respublikası Səhiyyə Nazirliyinin terapiya üzrə Attestasiya Komissiyasının sədri olmuşdur. Oktyabr inqilabı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

Əsərləri: Kliniki-diaqnostik laboratoriya tədqiqat üsulları, B., 1974 (İ.Hüseynovla birgə); Biokimyəvi tədqiqat üsulları və onların klinik əhəmiyyəti, B., 1979 (İ.Hüseynovla birgə); Şəkərli diabet, B., 1980 (Ə.Abdullayevlə birgə).


Əliyev Vasif

**ƏLİYEV** Vasif İsmayıl oğlu (7.11.1929, Naxçıvan ş. – 25.1.1982, Bakı) – geoloq. Geoloiya-mineralogiya elmləri doktoru (1976), prof. (1977). Azərb. Dövlət Un-ti (indiki BDU) geologiya-coğrafiya fakültəsinin geologiya şöbəsini (1952) və Azərb. Milli EA Geologiya İn-tunun aspiranturasını (1956) bitirmişdir. Azərb. Milli EA Geologiya İn-tunda elmi və baş elmi işçi (1952–72), BDU-nun faydalı qazıntılar kafedrasının dosenti və prof. (1972–78) olmuşdur. 1978 ildən un-tin kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının müdiri idi. Ə. filiz yataqlarının geologiyası, mineralogiyası və geokimyasına, metallogeniyaya, xüsusən Çiragidzor–Toğanalı filiz sahəsinin filizətrafı dəyişilmələrinə və kolçedan filizlərinin struktur-tekstur xüsusiyyətlərinə, Kiçik Qafqazın (Azərb. hissəsi) kolçedan-filiz formasiyasına dair tədqiqatlar aparmış, habelə Kiçik Qafqazın kolçedan yataqlarının genezisini, Tutqun çayı (Kəlbəcər r-nu) hövzəsindəki qızıl yatağının əmələgəlmə şəraitini, mineralogiya və geokimyasını, Daşkəsən skarn-maqnetit yatağı filizlərinin tekstur-struktur xüsusiyyətlərini öyrənmişdir. 80-dən çox elmi əsərin, o cümlədən iki monoqrafiyanın müəllifidir.

Əsərləri: Околорудные гидротермальнометасоматические изменения в Чирагидзор-Тоганалинском рудном поле, Б., 1965; Петрология и металлогения магматических пород бассейна реки Тутгун, Б., 1967.


Əliyev Vəli

**ƏLİYEV** Vəli Hüseyn oğlu (d. 20.7.1936, Şəki ş.) – tarixçi-arxeoloq. Tarix elmləri doktoru (1984), prof. (1998). Əslən naxçıvanlı ailəsində anadan olmuşdur. Ailəsi bir müddət Zəngəzur mahalının Şıxlar k.-ndə yaşamış, sonra Şəki ş.-nə köçmüşdür. Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir (1959). Azərb. Milli EA Tarix İn-tunda elmi və baş elmi işçi, Tunc və ilk Dəmir dövrü şöbəsinin müdiri (1990–97) olmuşdur. 1997 ildən APU-nun ümumi tarix kafedrasının müdiridir. Ə. Nax. MR ərazisindəki ilkin şəhər mədəniyyətini də əhatə edən qədim şəhər mədəniyyətinə, ilk Tunc dövrü Kür–Araz mədəniyyətinə, orta Tunc dövrü boyalı qablar mədəniyyətinə, son Tunc və ilk Dəmir dövrü mədəniyyətinə, qədim tayfa ittifaqlarının təşəkkülünə və s. problemlərə dair tədqiqatlar aparmışdır. O, Nax. MR-in maddi mədəniyyət abidələrinin əsas tədqiqatçısı və Naxçıvan arxeoloji ekspedisiyasının rəhbəridir. Bu sahədə 40 ilə yaxın elmi iş aparan Ə. Nax. MR ərazisində 500-dən çox tarixi abidə aşkara çıxarmışdır. 6 monoqrafiyanın, 200-ə qədər elmi məqalənin müəllifidir. Əsərləri bir sıra ölkələrdə (Rusiya, Ukrayna, Gürcüstan, Özbəkistan, Pakistan və s.) dərc olunmuşdur. Beynəlxalq və regional elmi məclislərdə məruzələr etmişdir. Pakistan və Mərkəzi Asiya Elmi Assosiasiyasının üzvüdür.

Əsərləri: Azərbaycan Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; Qədim Naxçıvan, B., 1979; Культура эпохи средней бронзы Азербайджана, Б., 1998.

**ƏLİYEV** Vəliyəddin Firad oğlu (23.3.1917, indiki Erm. Respublikası Sisyan r-nunun Qızıl Şəfəq k. – 14.4.1999, Naxçıvan ş.) – dilçi. Filologiya elmləri namizədi (1977), prof. (1993). Azərb. Dövlət Pedaqoji İn-tunun dil-ədəbiyyat fakültəsini bitirmiş (1940), əvvəlcə Kəlbəcər r-nunda, 1943 ildən isə Şahbuz r-nunun kənd Şahbuz, Kolanı, Nurs kənd məktəblərində direktor, Naxçıvan ş-indəki 5 və 7 saylı məktəblərdə direktor müavini işləmişdir. 1979 ildən Naxçıvan Dövlət Un-tinin (1991 ilədək Pedaqoji İn-t) Azərb. dilçiliyi kafedrasında çalışmışdır. Dilçiliyə, o cümlədən Nəsiminin dilinə dair tədqiqat və kitabların, 50-yə yaxın elmi məqalənin müəllifidir.




Əliyev Vilayət

**ƏLİYEV** Vilayət Hüseyn oğlu (d. 23.8.1938, Şəki ş.) – filoloq, dilçi. Filologiya elmləri doktoru (1990), prof. (1992). Ailəsi bir müddət Zəngəzur mahalının Şıxlar k.-ndə yaşamış, sonra Şəki ş.-nə köçmüşdür. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1962). Azərb. Milli EA Nəsimi ad. Dilçilik İn-tunda elmi işçi, Azərb. Xarici dillər İn-tunda (indiki Dillər Un-ti) müəllim, Naxçıvan Pedaqoji İn-tunda (indiki Naxçıvan Dövlət Un-ti) müəllim, dosent işləmişdir (1965–77). 1977 ildən Azərb. Dövlət Pedaqoji İn-tunda (indiki APU) çalışır. 1997 ildən un-tin elmi işlər üzrə prorektorudur. Azərb. və özbək dillərində feli sifətə, Azərb. dilində felin təsriflənməyən və perifrastik formalarına, feli bağlamaya, toponimiyaya dair tədqiqatlar aparmışdır. Bir neçə kitabın, 100-dən artıq elmi məqalənin müəllifi, Azərb. Milli EA-nın nəşr etdiyi üçcildlik "Müasir Azərbaycan dili"nin ikinci cildinin əsas müəlliflərindəndir. Türk dövlətləri və topluluqlarının 7-ci qurultayının (1999, Türkiyə) iştirakçısıdır.

Əsərləri: Azərbaycan dilində felin təsriflənməyən formaları. Məsdər, B., 1986; Feli bağlama, B., 1990; Azərbaycan toponimiyası, B., 1999.


Əliyeva Gülarə

**ƏLİYEVA** Gülarə Əziz qızı (17.11.1933, Bakı – 27.7.1991, orada) – musiqiçi, pianoçu. Sənətşünaslıq namizədi (1966). Azərb. Respublikası əməkdar incəsənət xadimi (1977). *Ə. M. Əliyevin* qızıdır. Azərb. Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası, 1955; fp., musiqi nəzəriyyəsi üzrə) və Azərb Milli EA Memarlıq və İncəsənət İn-tunun aspiranturasını bitirmişdir. Azərb. Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (indiki Televiziya və Radio Verilişləri Şirkəti) S.Rüstəmov ad. xalq çalğı alətləri ork.-ndə və Əhsən Dadaşov ad. xalq çalğı alətləri ansamblında fəaliyyət göstərmişdir. 1966–91 illərdə özünün təşkil etdiyi "Dan ulduzu" kamera-instrumental ansamblının rəhbəri olmuşdur. "Şüştər" rapsodiyası, "Hümayun" süitası, "Bayatı-kürd" və "Şur" fantaziyalarının müəllifidir. Bir sıra xalq mahnısını ansambl üçün aranje etmişdir. Ansambl ilə dünyanın 20-dən çox ölkəsində qastrolda olmuş, Azərb. musiqi mədəniyyətini ləyaqətlə təmsil etmişdir. Azərb. Mədəniyyət və İncəsənət Un-tində pedaqoji fəaliyyət göstərmişdir (1966–68 illərdə musiqi nəzəriyyəsi kafedrasının müdiri, 1969 ildən dosent). Azərb. və xarici ölkə xalqlarının musiqisinə dair elmi əsər və məqalələri var. "Dan ulduzu" ansamblına Ə.-nın adı verilmişdir. Faciəli surətdə həlak olmuşdur.



Əliyeva Rəfiqə

**ƏLİYEVA** Rəfiqə Əlirza qızı (d. 20.9.1932, Naxçıvan ş.) – kimyaçı. Kimya elmləri doktoru (1998), prof. (1998). Azərb. Respublikası əməkdar elm xadimi (2000), Azərb. Milli EA Y. Məmmədəliyev mükafatı laureatı (2000). Azərb. Dövlət Un-tinin kimya fakültəsini (1956) və aspiranturasını (1963) bitirmişdir. 1963 ildən BDU-nun analitik kimya kafedrasında assistent, baş müəllim,1976 ildən isə dosent vəzifəsində işləmişdir. Hazırda həmin kafedranın professoru və kafedrada fəaliyyət göstərən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" laboratoriyasının müdiridir. Ə.-nın elmi tədqiqatları üzvi reaktivlərin köməyi ilə elementlərin təyini üsuluna həsr olunmuşdur. Nadir elementlərdən olan germaniumu, bir sıra yeni üzvi reaktivlərlə əmələ gətirdiyi rəngli kompleksləri spektrofotometrik üsulla tədqiq etmiş, alınmış nəticələrin köməyi ilə tərkibində germanium saxlayan minerallarında germanium təyin edilmişdir. 110 elmi əsərin, o cümlədən bir neçə monoqrafiya və dərsliyin, 12 patentin müəllifidir. "Vəsfi analiz kursu" (h. 1–2 ), "Vəsfi kimyəvi yarımmikroanaliz" kitablarını tərcümə etmişdir. Əsərləri bir çox ölkələrin elmi jurnallarında çap olunmuşdur. ABŞ, Türkiyə, Rusiya, Yaponiya, Avstraliya və s. ölkələrdə keçirilmiş beynəlxalq konfrans və simpoziumlarda məruzələr etmişdir. Dünya Azərb. Qadınlar Birliyinin fəxri sədridir. ABŞ Bioqrafiya İn-tu Ə.-nı "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" adlarına layiq görmüşdür.

Ə s ə r l ə r i: Azərbaycan kimyaçıları, B., 1998 (şərikli); Fiziki-kimyəvi analiz metodlarının nəzəri əsasları, B., 2001.



Əliyeva Sevil

**ƏLİYEVA** Sevil Heydər qızı (d. 12.10.1955, Bakı) – şərqşünas, musiqiçi, ictimai xadim. Tarix elmləri namizədi (1981). *H. Ə. Əliyevin* qızıdır. 1961–71 illərdə orta ümumtəhsil, eyni zamanda musiqi məktəbində təhsil almışdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsini (1977) və Moskvada SSRİ EA Şərqşünaslıq İn-tunun aspiranturasını (1980) bitirmişdir. 1981-86 illərdə həmin in-tun elmi işçisi olmuş, eyni zamanda musiqi təhsilini təkmilləşdirmişdir. Bəstəkarlıq fəaliyyəti göstərir; bir sıra musiqi əsərlərinin müəllifidir. Ə. 1990-cı illərin birinci yarısından həm də fəal ictimaiyyətçi, müstəqil Azərb.-da qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. "Sevil" Azərb. Qadınlar Məclisinin sədridir (1995); Azərb. Respublikasının 1995 il iyunun 30-da "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT konvensiyasına qoşulmasında, respublika hökumətinin həmin məsələ ilə bağlı BMT-yə ilkin məruzəsinin təqdim olunmasında, Azərb. Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 14 yanvar 1998 il və "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000 il tarixli fərmanlarının uğurla həyata keçirilməsi üçün tədbirlərin işlənib hazırlanmasında, müstəqil Azərb. Respublikası qadınlarının I qurultayının (1998, 25 sentyabr) müvəffəqiyyətlə keçirilməsində Ə.-nın önəmli xidmətləri var.

Ə. 1949 ildən dünyanın 130-dan çox ölkəsində uşaq məskənləri ("kəndləri") inşa etməklə on minlərlə uşaq və yüzlərlə qadın üçün rahatlıq yaratmış beynəlxalq "SOS Kinderdorf İnterneşnl" təşkilatının 1997 ildlə Azərb.-da da fəaliyyətə başlaması təşəbbüsünün rəğbətlə qarşılanmasının fəal tərəfdarlarındandır. Ə. bu məqsədlə yaradılan "SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası"nın (1999, 16 iyul) prezidentidir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev Bakının Xətai r-nunun ərazisində inşa edilən birinci "Bakı SOS uşaq kəndi"nin təntənəli açılış mərasimində iştirak və çıxış etmişdir (2000, 2 noyabr).

Ə. bir sıra ölkələrdə rəsmi səfərlərdə olmuşdur. İngiltərə–Azərb. ictimai-mədəni əlaqələrinin genişləndirilməsində xidmətləri var.

**ƏLİYEVA** Tamam Əziz qızı (d.1903, indiki Şərur r-nunun Yengicə k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1948). Şərur r-nunun Yengicə k.-ndəki k-zda manqa başçısı (1938–72) işləmişdir. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail omuşdur. 1973 ildən fərdi pensiyaçıdır.

**ƏLİYEVA** Teyyubə Hüseyn qızı (d.6.6.1933, Ordubad ş.) – əmək qabaqcılı. Azərb. Respublikası Dövlət mükafatı laureatı (1980). 1950 ildən Ordubad konserv z-dunda fəhlə işləmiş, yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni, 2-ci və 3-cü dərəcəli Əmək şöhrəti ordenləri ilə təltif edilmişdir. Hazırda fərdi pensiyaçıdır.





Əliyeva Zərifə

**ƏLİYEVA** Zərifə Əziz qızı (28.4.1923, indiki Şərur r-nunun Şahtaxtı k. – 15.4. 1985, Moskva) – oftalmoloq. Tibb elmləri doktoru (1979), prof. (1979), Azərb. Milli EA akad. (1983), Rusiya Tibb EA-nın akad. (1981), Azərb. Respublikasının əməkdar elm xadimi (1980). *Ə. M. Əliyevin* qızı, *Heydər Əliyevin* həyat yoldaşıdır. Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir (1947). Azərb. Elmi-Tədqiqat Oftalmologiya İn-tunda elmi işçi, 1969 ildən isə Ə. Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda göz xəstəlikləri kafedrasının dosenti, prof., görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982–85) vəzifələrində çalışmışdır. Ə.-nın Azərb.-da oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərb.-da geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Ə. Azərb. iridologiyasının banisi idi və bu sahədə elmi məktəb yaratmışdır. Ə.-nın doktriologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqlar tərəfindən deyil, həm də fizioloqlar tərəfindən rəğbətlə qarşılanmışdır. Onun zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" (prof. N. B. Şulpina və L. F. Moşetova ilə birgə) monoqrafiyasında əksini tapmışdır; kitab oftolmoloq və həkimləri təkmilləşdirmə fakültəsinin müəllimləri üçün əvəzsiz vəsaitdir. Ə. yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərb. Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M. İ. Averbax ad. mükafatına layiq görülmüşdür (1981). 1994 ildə cənazəsi Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur. Məzarı üstündə tuncdan heykəli ucaldılmışdır (heykəltaraş Ö. Eldarov). Bakıda Göz xəstəlikləri İn-tu, Naxçıvan şəhər poliklinikası Ə.-nın adını daşıyır. Bakının Binəqədi r-nu ərazisində adına istirahət parkı salınmışdır.



Akademik Zərifə Əziz qızı Əliyevanın abidəsi. Tunc. 1995. Heykəltəraş akademik Ö. E l d a r o v.

Ə s ə r l ə r i: Профессиональная патология глаз в шинном производстве, Б., 1980; Анатомо-физиологическая характеристика гидродинамической системы глаза (N.B. Şulpina ilə birgə), Б., 1980; Возрастные изменения глаза и зрительно-нервного пути (P.S. Məlik-Aslanova ilə birgə), B., 1980; Офтальмология при хронической йодовой интоксикации, Б., 1981; Актуальные проблемы офтальмологии (müəlliflərdən biri), M., 1988; Туберкулез зрительного органа, Б., 2001 (N. B.Şulpina ilə birgə).

Əd.: Zərifə xanım Əliyeva (layihənin müəllifi və rəhbəri Fatma Abdullazadə). B., 1998.

**"ƏMƏK BAYRAĞI"** – qəzet. Babək Rayon İcra hakimiyyətinin orqanı olan *"Şərqin səhəri"* qəzetinin keçmiş adı.

**ƏMİRƏDDİN MƏSUD NAXÇIVANİ** (?–?) – memar (12 əsr). *Naxçıvan memarlıq məktəbinin* nümayəndələrindəndir. Naxçıvanda Eldənizlər sarayında yaşamışdır. Əcəminin memarlıq üslubunun davamçısı olmuş, dini və xatirə memarlığı ilə yanaşı, ictimai binaların inşasında və bərpasında da iştirak etmişdir. Müasiri Nizami Gəncəvi kimi Ə. M. N.



Əmirov Əli

Ərəbyengicə yaşayış yerindən tapılmış gil qab qırığı, gil qəlib və daş dəstək. E. ə. 4–3-cü minilliklər



də ulduzların Yerdə baş verən hadisələrə müdaxiləsi barədə saray münəccimlərinin fikirlərini qəbul etməmiş, onlar atabəyi guya 40 gəz (42 *m*) torpağı sovurub aparacaq qasırğa qopacağına inandırmağa cəhd göstərərkən buna etirazını bildirmişdir. Təkzibində haqlı olan Ə. M. N. bunu şerlə də ifadə etmişdir. Bu barədə "Əcayib əl-buldan" əsərində bəhs olunur.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani -Azərbaycan, B., 1987, səh. 129–130.

**ƏMİRXANLILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan bir sıra qol və tirələrin içərisində əmirxanlı nəslinin də adı çəkilir.

**ƏMİROV** Cəmşid Cabbar oğlu (10. 2. 1918, Naxçıvan ş. – 29. 12. 1982, Bakı) – yazıçı, nasir. Azərb Sənaye İn-tuna (indiki Neft Akademiyası) daxil olmuş, lakin son kursda in-tu tərk etmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Uzun müddət dövri mətbuatda çalışmış, "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Azərneftnəşrdə" baş redaktor, "Azərbaycan neft təsərrüfatı" jurnalında redaktor müavini, "Bakı" qəzetində şöbə müdiri işləmişdir. Bakı Maliyyə-Kredit Texnikumunun direktoru (1969–72) olmuşdur. Ədəbi yaradıcılığa 40-cı illərdən oçerk, felyeton və hekayələrlə başlamışdır. Hüquq-mühafizə orqanları işçilərinin həyatından bəhs edən "Sahil əməliyyatı" (1958), "Brilyant məsələsi" (1963), "Qara Volqa" (1969), "Şəhər yatarkən" (1982) adlı roman və povest kitabları nəşr olunmuşdur. Bəzi əsərləri ekranlaşdırılmışdır.

**ƏMİROV** Əli Cabbar oğlu (25.3.1915, Naxçıvan ş. – 12.2. 1979, Bakı) – neftçi alim. Texnika elmləri doktoru (1972), prof. (1977). SSRİ Dövlət mükafatı laureatı (1969), SSRİ-nin fəxri neftçisi (1970). Azərb. Sənaye İn-tunu (indiki Neft Akademiyası) bitirdikdən (1939) sonra "Türkmənneft"də mühəndis, neftçıxarma ustası vəzifələrindən (1940–42) trest rəisi vəzifəsinə qədər yüksəlmişdir (1955 ilədək). Azərb. neft sənayesi nazirinin müavini (1955–59), "Azərneft" istehsalat birliyinin rəisi (1959–62) işləmişdir. 50-ci illərdə Ə.-un bilavasitə iştirakı ilə "Qum adası" neft-qaz yatağının mənimsənilməsinə başlanmışdır. 1962–71 illərdə Azərb. KP MK-nın katibi, 1971–77 illərdə "Azərneft" istehsalat birliyində baş mühəndis və rəis vəzifələrində çalışmışdır. Dərin neft və qaz yataqlarının işlənilməsi və şaxta üsulu ilə neftçıxarma sahəsində tədqiqat işləri aparmışdır. Bir neçə monoqrafiyanın, 140-dan çox elmi məqalənin müəllifidir. "SSRİ–Kanada" neft simpoziumunda (Moskva, 1976) məruzə etmişdir. Azərb. SSR Ali Sovetinin (5–7-ci və 9-cu çağırış) deputatı olmuşdur. 2 Qırmızı Əmək Bayrağı ordeni, 2 başqa ordenlə təltif olunmuşdur. Adına Neft və Qazçıxarma İdarəsi (Qaradağ r-nu), küçə var.

Ə s ə r l ə r i: Добыча нефти, Б., 1963; Техника и технология освоения и эксплуатации сверхглубоких скважин, М., 1970; Капитальный ремонт нефтяных и газовых скважин, М., 1973.

**"ƏNCÜMƏNİ-ŞÜƏRA"** (şairlər məclisi deməkdir) – ədəbi məclis. 1838 ildə Ordubad ş.-ndə "Naib" təxəllüsü ilə şerlər yazan *Şeyxəli bəy Kəngərli* tərəfindən təşkil olunmuşdu. Uzun müddət məclisə Hacağa Fəqir (M.S.Ordubadinin atası), sonralar isə M. T. Sidqi rəhbərlik etmişdir. M. T. Sidqinin səyi ilə məclis Naxçıvanda da fəaliyyət göstərmişdir. Qüdsi Vənəndi, Molla Hüseyn Bikəs, Möhtərəm Ordubadi, Molla Məhəmməd Ordubadi, Müznib, Kəblə Əliqulu, Əhməd ağa Şəmi, Usta Zeynal Nəqqaş, Salik Ordubadi, Məşədi Həsən Dəbbağ, Ağa Rəsul Əttar, Canı Ordubadi, Nadim Naxçıvani, Mirzə Mehdi Naxçıvani və b. məclisin fəal üzvləri idilər. Məclis üzvləri bədii yaradıcılıqda həyatla, tarixi inkişafla ayaqlaşa bilməsələr də, klassik irsi yaşatmaq və yaymaq sahəsində müəyyən iş görürdülər. Burada məclis üzvlərinin şerləri müzakirə olunur, Firdovsi, Xəyyam, Nizami, Xaqani, Sədi, Hafiz, Nəvai, Füzuli və b. klassik şairlərin əsərləri oxunur, onların şerlərindən seçilmiş gözəl nümunələrə nəzirələr yazılır, yaxşı nəzirə yazmaq üstündə yarış keçirilirdi.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə c. 2, B., 1960; Q a s ı m z a d ə F., XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, B., 1974; Q a r a y e v N., Poetik məclislər, B., 1987.

**ƏRƏBYENGİCƏ** – Şərur r-nunun eyniadlı k.-nin c. qurtaracağında, Araz çayından təqr. 200 *m* şm.-da qədim yaşayış yeri. Sah. təqr. 0,8 *ha*. Təsərrüfat işləri nəticəsində abidə güclü dağıntıya məruz qalmış, yalnız 80–90 *sm* hünd.-də mərkəzi hissəsi salamat qalmışdır. Toplanmış materiallar burada Eneolit və Kür-Araz mədəni təbəqələrinin mövcudluğunu göstərir. Saman qatışıqlı gildən hazırlanmış Eneolit keramikası kiçik fraqmentlərdən ibarət olduğundan qab formalarını təyin etmək mümkün deyil. Yalnız qabların ağız kənarının düz kəsilməsi faktını qeyd etmək olar. Həm yaxşı, həm də zəif bişirilmiş nümunələr vardır, səthləri yüngülcə hamarlanmışdır. Bütövlükdə keramika daha çox I Kültəpə materiallarına yaxındır. Yaşayış yerində işlənmiş dəvəgözü (o b s i d i a n) qalıqlarına da təsadüf edilmişdir. Yaşayış yeri e. ə. 4-cü – 3-cü minilliklərə aid edilir.

*Əd.:* Ə l i y e v N. H., Naxçıvan eramızdan əvvəl, "Azərbaycan tarixində Naxçıvan" kitabında, B., 1996; S e y i d o v A. Q., Naxçıvan Tunc dövründə, B., 2000; А ш у р о в С. Г., Новые памятники эпохи ранней бронзы в Нах. АССР, Труды научной конференции "Великий Октябрь и развитие археологической науки в Азербайджане", Б., 1988.

**ƏRƏBYENGİCƏ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-da, Arpaçayın sol sahilində, onun Araza töküldüyü yerdədir. Əh. 871 nəfər (2000); əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb var.

**ƏRƏFSƏ** – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında, Əlincəçayın (Arazın qolu) sağ sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Sah. 5 *ha*. Arxeoloji tədqiqatlar zamanı (1926, Ə. Ələkbərov) e. ə. 2-ci minilliyə aid monoxrom boyalı gil qab nümunələri aşkar edilmişdir. Sonralar (1974, V. Əliyev) Ə.-də e. ə. 2-ci minilliyə aid yaşayış yeri olduğu müəyyənləşdirilmişdir. Buradan obsidian (d ə v ə g ö z ü) qəlpələri, monoxrom boyalı və cilalı qara gil qab qırıqları, daşdan əmək alətləri (dən daşları, sürtgəclər, həvəng və dəstələr) və s. əldə edilmişdir.

**ƏRƏFSƏ** – Culfa r-nu ərazisində çay. Ləkətağ çayının (Əlincəçay hövzəsi) sağ qolu. Zəngəzur silsiləsinin yamacından, 2700 *m* hünd.-dən başlanır. Ərəfsə k.-ndən aşağıda, 1563 *m* hünd.-də Ləkətağ çayına tökülür. Uz. 9 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır.

**ƏRƏFSƏ** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 55 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 925 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, 2 kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var. Ə. k.-ndən şm.-ş.-də orta əsrlərə aid tağvarı formada inşa edilmiş *Daş körpü* və *Xarabalıq* yaşayış yeri mövcuddur.



Ərəfsə körpüsü. 1997.

**ƏRƏFSƏ KÖRPÜSÜ** – Culfa r-nu ərazisində, Qızılvəng–Ərəfsə avtomobil yolunun 54 *km*-liyində, Əlincəçay üzərindədir. Uz. 30 paqonometr. Ə. k.-nün inşa edilib istifadəyə verilməsi (1997) nəticəsində Ləkətağ və Boyəhməd k.-lərinin magistral avtomobil yolu, həmçinin sərhəd məntəqələri ilə əlaqəsi ilin bütün fəsillərində təmin olunmuşdur.

**ƏRƏFSƏ MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Əlincəçayın sağ sahilində, Ağsal bulağının yaxınlığındadır.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3\,M\,4{,}3\,\frac{HCO_3 87}{(Na+K)58\,Cu22\,Mg21}\cdot pH\,6{,}3\,D25\,m^3/gün\,T\,14{,}5^\circ C$$

Suyu az minerallaşmış, karbon qazlı, hidrokarbonatlı–natriumlu-kalsiumlu–maqneziumludur. "Borjomi" (Gürcüstan) tipli sudur; bir sıra daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.

**ƏRƏFSƏ PİRİ** – Culfa r-nunun Ərəfsə k.-ndə orta əsrlərə aid ziyarətgah. Əlincəçayın sol sahilindəki təpənin üstündə yerləşir. İki böyük otağı, c. və ş. tərəfə eyvanları var. Əsas ziyarət obyekti nisbətən böyük ölçüyə malik mərkəzi otaqdakı qəbirdir. Buranın pir olmasının səbəbi barədə dəqiq məlumat yoxdur. Lakin yerli əhali arasındakı rəvayətə görə, nə vaxtsa üç ərəb burada məskən salıb yaşamışdır. Sonradan kənd meydana gəlmişdir.



Ərəfsə piri. Orta əsr.

Ərəblər öləndən sonra yanaşı dəfn edilmiş və onların qəbirləri ziyarətgaha çevrilmişdir. Yerli əhalinin fikrincə, kəndin adı məhz "üç ərəb" mənasında "ərəb" və farsca "sə" (üç) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Pirin yerində xanəgah olması barədə də mülahizələr mövcuddur.

**ƏRƏFSƏLİLƏR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində ərəfsə nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı Ə.-ə inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Naxçıvan diyarının və Dərələyəz mahalının bir sıra kəndində yaşamış Ə. maldarlıqla məşğul olmuşlar. Culfa r-nundakı Ərəfsə k.-nin adı Ə.-lə əlaqədardır.

**ƏRƏZİN** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.-y. st.-ndan 20 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1742 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, 2 kitabxana, tibb məntəqəsi, uşaq bağçası, rabitə şöbəsi, gəc sexi var.

Qədim yerli əhalisi azərbaycanlılar olmuşdur. A.S. Qriboyedovun gen. V.Paskeviçə məktubunda 1827 ildən sonra buraya İran və Türkiyədən erməni ailələrinin köçürüldüyü qeyd olunur.

Ərazisindən tapılmış mixi yazıda (*bax İlandağ mixi yazısı*) urartulara müqavimət göstərən "Arsini şəhəri" toponiminə təsadüf olunur. Tədqiqatçılar "Arsini" toponiminin İlandağın ətəyi yaxınlığındakı Ərəzin kənd adı ilə bağlı olduğunu ehtimal edirlər.

Ərəzin yaşayış yerindən tapılmış şirli və şirsiz keramika məmulatı. Orta əsr.



**ƏRƏZİN** – Culfa r-nunda eyniadlı kənddən q.-də, Naxçıvan–Ərəfsə avtomobil yolunun sağ tərəfində orta əsrlərə aid abidə. Ərazisi şm.-ş.-də və c.-q.-də quru çay vadisi ilə məhdudlaşır. Tikinti işləri zamanı aşkar olunan (1989) abidənin bir hissəsi dağıdılmışdır. Yaşayış yerinin mərkəzi hissəsi 360 $m^2$ sahədə qismən salamat qalmışdır. Kəşfiyyat xarakterli tədqiqat işləri nəticəsində (1991) yerüstü materiallar (əmək alətlərinin qırıqları, çəhrayı rəngli şirli və şirsiz saxsı qab parçaları, bişmiş kərpic, istehsalat tullantıları və s.) aşkar olunmuşdur. Abidənin bu hissəsində mədəni təbəqə 2 *m* qalınlığında saxlanmışdır. Dağıdılmış hissələrdə qara rəngli kül dolu ocaq yerlərinə təsadüf olunmuşdur. Tapıntılar arasında misdən hazırlanmış bir ədəd qarmaq var.

**ƏRƏZİN GİPS YATAĞI** – Culfa r-nu ərazisində, Naxçıvan ş.-ndən 20 *km* c.-q.-də, Ərəzin k.-ndən 3 *km* şm.-q.-də, Əlincəçayın sol sahilindədir. Geoloji quruluşunda Orta Miosenin tarxan-çokrak horizontunun qumdaşı, alevrolit, gil və əhəngdaşı iştirak edir. Bunların arasında gips laylarına və linzalarına rast gəlinir. Tünd-boz gipsin qalınlığı 2,6–5,3 *m*-dir. Sah. 0,05 $km^2$-dir və kiçik dərə vasitəsilə yatağın uzanma istiqamətində iki sahəyə ayrılır. Süxurda gipsin miqdarı 62–87% təşkil edir. Gips I və II növ tikinti gipsi üçün yararlıdır. Yataq 1956 ildən istismar olunur; sənaye ehtiyatı 1323 min *t*-dur. C. istiqamətində məhsuldarlığı artırmaq və bunun hesabına muxtar respublikada yerli tikinti işləri üçün gipsolit lövhələr, plitələr istehsalını təşkil etmək mümkündür.

**ƏRƏZİN NEKROPOLU** – Culfa r-nunda eyniadlı kənddən şm.-ş.-də, Ərəzin–Camaldin avtomobil yolunun solunda orta əsrlərə aid arxeoloji abidə. Hündür təpənin üstündədir. Arxeoloji axtarışlar zamanı qəbirlərin ş.-q. istiqamətinə yönəldiyi müəyyənləşdirilmişdir. Qəbirlərin üzərinə dördkünc formalı yonulmamış sal daşlar qoyulmuşdur, başdaşılar saxlanmamışdır. Ə. n.-nun 16–18 əsrlərə aid olması ehtimal edilir.

**ƏRİNDƏRƏ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Hünd. 1360 *m*.

**ƏRMƏMMƏD MAĞARASI** – Culfa r-nunun Camaldin k. yaxınlığında mağara. Bax *Alməmməd mağarası*.



**ƏRMƏMMƏD PİRİ** – bax *Alməmməd piri*.

**ƏRZİNCAN BARIŞIĞI (1917)** – hərbi əməliyyatların dayandırılması haqqında Türkiyə hökuməti ilə Zaqafqaziya Komissarlığı (ZK) nümayəndələri arasında dekabrın 5(18)-də Türkiyənin Ərzincan ş.-ndə imzalanmış barışıq sazişi; barışıq imzalandıqdan sonra onun şərtlərinin müzakirəsi zamanı ZK-nın nümayəndəsi gen. Vışinski danışığa müstəqil Qafqaz hökuməti adından gəldiyini Türkiyənin Qafqaz cəbhəsi komandanı Vəhib paşaya bildirmişdi. Hərbi nazir Ənvər paşa Vəhib paşaya göndərdiyi təlimatda "müstəqil Qafqaz hökuməti ilə bir siyasi əlaqə qurmanın necə və hansı şəkildə mümkün ola biləcəyinin ..." öyrənilməsini istəmişdi. Rusiya Müəssisələr Məclisinin toplanması və qərarları gözlənildiyindən ZK-nın cavabı xeyli təxirə salınmışdı. 1918 il yanvarın 5(18)-də Petroqradda işə başlayan Rusiya Müəssislər Məclisi bolşevik hökuməti tərəfindən dağıdılandan sonra isə ZK hökuməti bolşeviklərlə yanaşı oturmamaq naminə Brest-Litovsk sülh konfransında iştirakdan imtina etmiş və yanvarın 14 (27)-də türk komandanlığının separat müqavilə bağlamaq üçün danışıqlara başlamaq təklifinə müsbət cavab verməyi qərara almışdı.

Ə. b. Qafqaz cəbhəsində hərbi əməliyyatların dayandırılmasında, rus və türk əsgərlərinin qardaşlaşmasında, rus əsgərlərinin işğal altında saxladıqları Şərqi Anadolu torpaqlarını kütləvi surətdə tərk edərək evlərinə dönməsində mühüm rol oynamışdı [bax həmçinin *Trabzon konfransı (1918)*].

Əd.: Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Azərbaycan Cümhuriyyəti (1918–1920), B., 1998.

**ƏRZÜMAN KÜFTƏSİ** – milli xörək növü. Naxçıvan bölgəsində geniş yayılmışdır. Ə. k.-ni bişirmək üçün qoyun ətinin bud hissəsindən baş soğanla qiymə hazırlanır, duz və istiot vurulub soyudulur. Qiyməyə bir qədər düyü, noxud və mərzi (göyərti) əlavə olunur. Qiymədən iri küftələr hazırlanır, içərisinə 1 ədəd bişmiş yumurta, bəzən isə cücə qoyulur. Küftə çox iri olduğundan onu tənzifə bükürlər. Küftələr bulyonda zəif alov üzərində bişirilir. Xörək hazır olanda küftə parça-parça bölünür, hər kasaya bir pay çəkərək, üstünə suyundan əlavə edirlər. Süfrəyə verildikdə üstünə quru nanə səpilir və yanına ayrıca qabda sumax qoyulur.



Əsgərov Məmməd

**ƏSƏDULLAYEV** İsfəndiyar Mir İsmayıl oğlu (d. 1924, Naxçıvan ş.) – mədəniyyət xadimi. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1982). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Ordudan tərxis olunduqdan (1950) sonra Leninqradda (indiki Sankt-Peterburq) ikiillik siyasi məktəbi bitirərək, Azərb. SSR və Nax. MR daxili işlər nazirliyində çalışmışdır. 1959 ildən mədəniyyət sahəsində fəaliyyət göstərir. 1964 ildə Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir. Nax. MR Mədəniyyət Nazirliyinin baş inspektoru, C. Məmmədquluzadə ad. Nax. MR Ədəbiyyat Muzeyinin direktoru (1965–82) işləmişdir. Nax. MR Dövlət Tarix Muzeyinin direktoru (1982–95) olmuşdur. Orden və medallarla təltif edilmişdir.

**ƏSGƏROV** Məmməd Həsən oğlu (25.12.1918, indiki Culfa r-nunun Yaycı k. – 27.7.1988, Bakı) – Sosialist Əməyi Qəhrəmanı (1973). Kənd təsərrüfatı elmləri namizədi (1968). Azərb. Respublikası əməkdar aqronomu (1981). MTS direktoru (1944–54), Bərdə r-n Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin Sədri (1954–58), Nax. MSSR Nazirlər Sovetinin Sədri (1959–64), Azərb. KP Ağcabədi r-n komitəsinin birinci katibi (1965–68), Azərb. SSR Yüngül Sənaye nazirinin müavini (1968-70), Azərb. KP Şamxor (indiki Şəmkir) r-n komitəsinin birinci katibi (1970–77) vəzifələrində işləmişdir. 1977–85 illərdə Azərb. SSR kənd təsərrüfatı naziri idi. SSRİ Ali Sovetinin (6-cı çağırış) və Azərb. SSR Ali Sovetinin (4–11-ci çağırış) deputatı, Azərb. KP MK-nın üzvü (1960–86) olmuşdur. 4 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Əsgərov Vasif



**ƏSGƏROV** Vasif Fətulla oğlu (d. 15.4.1929, Naxçıvan ş.) – həkim. Tibb elmləri doktoru (1969), prof. (1970). Səhiyyə əlaçısı. N. İ. Piroqov ad. 2-ci Moskva Tibb İn-tunu (1952) və həmin in-tun aspiranturasını (1956) bitirmişdir. 1959 ildən Azərb. Tibb Un-tində çalışır; 1969 ildən uşaq-yoluxucu xəstəlikləri kafedrasının müdiridir. Tədqiqatları, əsasən, diri virus vaksinlərinin (qızılca, poliomielit və təbii çiçək əleyhinə), qızılca infeksiyasının


Əsgərova Münəvvər


Əsgərova Roza

uşaq orqanizminin qeyri-spesifik və postvaksional spesifik immunoloji reaktivliyinə təsirinə və s. məsələlərə həsr edilmişdir. 250-dən çox elmi əsərin, tədris-metodiki vəsaitin müəllifi, "Yoluxucu xəstəliklər" (B., 1993) dərsliyinin müəlliflərindəndir. Virusoloqların 2-ci Ümumdünya (Budapeşt, 1971), pediatr-infeksionistlərin Ümumdünya (Filippin, 1999) konqreslərində və s. qurultay və konranslarda məruzələr etmişdir.

**ƏSGƏROVA** Münəvvər Mehbalı qızı (d. 6.3. 1914, indiki Culfa r-nunun Kırna k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə Kırna k.-ndəki k-zda başlamış, manqa başçısı işləmişdir (1938–68). 1947 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1968 ildən fərdi pensiyaçıdır.

**ƏSGƏROVA** Roza Qasım qızı (d. 15.8.1929, indiki Babək r-nunun Qahab k.) – botanik. Biologiya elmləri doktoru (1979). Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsini bitirmişdir (1950). Azərb. Milli EA-nın Botanika İn-tunda baş elmi işçi olmuş, hazırda isə ali bitkilərin sistematikası şöbəsinin müdiridir. Sistematika, floristika, florogenezis, palinologiya sahələrində çalışır. Respublikada ilk dəfə müasir bitkilərin tozcuqlarının morfologiyası (palinomorfologiya) və onun sistematikada tətbiqi ilə məşğul olmuşdur. Bir monoqrafiyanın, 80-ə qədər elmi məqalənin müəllifidir. III Beynəlxalq palinologiya (Novosibirsk, 1971), 12-ci Beynəlxalq Botanika (Leninqrad, 1973) konqreslərində, mürəkkəbçiçəklilər fəsiləsinə dair beynəlxalq konfransda (London, 1994) məruzələr etmişdir. Çoxcildlik "Azərbaycan florası"nın (c. 7–8, B., 1959–61), "Azərbaycanın qırmızı kitabı"nın (B., 1989) müəlliflərindəndir.

Ə s ə r i: Палинология. Труды III Международной палинологической конференции. Л. 1973. "Палинология цикориевых Compositae Cicharioideae.", Б., 1987.

**ƏSHABİ-KƏHF** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarındadır. Şm.-q. yamacı sıldırımdır. Hünd. 1665 *m*. *Əshabi-kəhf* ziyarətgahı bu dağdadır.

**ƏSHABİ-KƏHF** – Naxçıvan ş.-ndən təqr. 12 *km* aralı, İlandağ ilə Nəhəcir d. arasındakı təbii mağarada ziyarətgah. Ərəb dilində "mağara adamları" deməkdir. Eyniadlı yerin Kiçik Asiya və ya Fələstin ərazisində olması haqqında müsəlman və xristian ədəbiyyatında, o cümlədən Quranda məlumat var. Xristian əfsanəsinə görə, bütpərəst hökmdarın təqib etdiyi yeddi gənc mağarada gizlənmiş, orada 300 (və ya 372) illik yuxuya getmişdir. Xristian siryanilərdən müsəlmanlara keçmiş və Quranın "Kəhf"












Əshabi-kəhf mineral su bulağı

("Mağara") surəsində əksini tapmış əfsanəyə görə isə, Allaha inanan gənclər təqiblərdən yaxa qurtarmaq üçün bir itlə birlikdə mağarada gizlənmişdilər. Allah onları yatırtmış, bir neçə yüz ildən sonra oyatmış, lakin gənclər özlərinə yad dünyanı görüb yenidən əbədi yuxuya getmişlər. Naxçıvan ərazisində yayılmış əfsanə də təqr. eyni məzmunludur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə Ə.-k.-də abadlıq-bərpa işləri aparılmış, zəvvarlar üçün yaxşı şərait yaradılmış, 13 *km* məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur.

**ƏSHABİ-KƏHF KÖRPÜSÜ** – Babək r-nu ərazisində, Pircivar selovu üzərində, Əshabi-kəhf ziyarətgahına gedən avtomobil yolunun 2 *km*-liyindədir. Uz. 15 paqonometr. Ziyarətgaha gedənlərin rahatlığını təmin etmək məqsədilə 1998 ildə inşa edilmişdir.

**ƏSHABİ-KƏHF MİNERAL SU YATAĞI** – Babək r-nu ərazisində, Qahab k.-ndən 6 *km* c.-ş.-də, Naxçıvan ş.-ndən 12 *km* aralı, Əshabi-Kəhf d.-nın ətəyindədir. Hər 15 dəqiqədən bir qaynayıb köpüklənir. Suyu radonlu, karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu-sulfatlı, natriumlu-kalsiumludur. 200 *m* dərinlikdə qazılmış quyunun balneoloji tərkibi:

$$CO_2\,1{,}0\ Rn\,300\ \text{Maxe vahid},$$
$$M4.7\,\frac{HCO_3\,38\,Cl\,33\,SO_4\,32}{(Na+K)\,56\,Ca\,28\,Mg\,16}\cdot$$
$$\cdot\,pH\,6{,}3\ D\,259\ m^3/gün,\ T\,22^{\circ}C$$

Rusiya Federasiyasındakı "Pyatiqorsk" suyunun analoqudur. Revmatizm xəstəliklərinin müalicəsində istifadə olunur.

**ƏTİQ ORDUBADİ** (?–?) – xəttat (16 əsr). Şah İsmayıl Xətainin sarayında münşi olmuşdur. Tuğrayi-şahi xəttini icad etmişdir. Sonralar Məşhəd məqbərəsi ziyarətgahının işlər müdiri olmuş, uzun müddət orada yaşayaraq, Şahrux mədrəsəsi yanında özünə məqbərə tikdirmişdir.

*Əd.*: T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 135.

**ƏVƏZ SADIQ** (Əbülfəz Əli oğlu S a d ı q o v u n ədəbi adı; 1898, Ordubad ş. – 27.8.1956, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – yazıçı, nasir, publisist. 1920 ildən Ordubadda və Naxçıvanda müəllimlik etmişdir. Sonralar jurnalistika sahəsində çalışmış, "Şərq qapısı" qəzetinin redaktoru (1925–27), "İnqilab və mədəniyyət" (indiki "Azərbaycan") jurnalında məsul katib (1927–33; 1938–41; 1946–51), "Kirpi" jurnalının redaktoru (1952–56) işləmişdir. İlk yazıları 20-ci illərdə "Kommunist", "Yeni fikir", "Şərq qapısı" və s. qəzetlərdə dərc olunmuşdur. "Xatirələr" (1933), "Yeni gün" (1938), "Qərənfil" (1945), "Bəsti" (1953), "Sabahı yaradanlar" (1953), "Bizim adamlar" (1951) adlı oçerk və hekayə kitablarının, "Mingəçevir" (1951) romanının müəllifidir. Satirik əsərlər də yazmışdır: "Nadürüstov və başqaları" (1955) toplusu. Felyetonları keçmiş SSRİ-nin mərkəzi mətbuatında ("Pravda" qəzetində) dərc olunmuşdur. Esxil, Sofokl, E. Zolya, L. N. Tolstoy və b.-nın bəzi əsərlərini tərcümə etmişdir. Adına küçə və məktəb var.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1958; Seçilmiş əsərləri, B., 1971.

Əvəz Sadıq



**ƏYLİS** – Ordubad r-nu ərazisində çay. Arazın sol qolu. Uz. 24 *km*, hövzəsinin sah. 58 *km*². Zəngəzur silsiləsindəki Xoşlu d.-ndan (3100 *m* hünd.-dən) başlanır. Əsasən qar su-



Əylis nekropolu. Başdaşı kitabəsi. 16 əsr.

ları və yeraltı sularla qidalanır. Sel və daşqınlar olur. Suvarmada istifadə edilir. Ə. çayının üzərində müxtəlif vaxtlarda yüksək inşaat texnikası səviyyəsində dörd körpü tikilmişdi. Orta əsr Əylis yaşayış məntəqəsi çayın hər iki sahilində yerləşirdi.

**ƏYLİS** – orta əsr yaşayış məntəqəsi. İndiki Ordubad r-nu ərazisində, Arazın sol sahilindən 10–12 *km* məsafədə, Əylis çayının hər iki sahilində, dağlar qoynunda yerləşirdi. 16–17 əsrlərdə sənətkarlıq və ticarət mərkəzi kimi Şərqin və Qərbin bir çox ölkəsində tanınmışdı. Xüsusilə ipəkçilik nəsildən-nəslə keçən sənətkarlıq sahəsi idi. Ə. tacirləri Avropa ölkələri (Portuqaliya, Hollandiya, İspaniya, İtaliya və s.) ilə ipək ticarəti edirdilər. 17–18 əsrlərdə Ə. Səfəvi – Osmanlı müharibələri nəticəsində dağılmış, 1752 ildən sonra kiçik kəndə çevrilmişdir. 19 əsrdə yenidən dirçəlmişdir. Həmin əsrin 60-cı illərində burada 50 dəzgahdan ibarət ilk ipəksarıma f-ki fəaliyyət göstərirdi. Ə.-də qala divarları, məscid, karvansara, dükan, hamam xarabalıqları indi də qalmaqdadır. Ə. vaxtilə bir neçə məhəllədən (Xanlar məhəlləsi, Meydan məhəlləsi, Aşağı məhəllə və s.) ibarət idi. Kanalizasiya sistemi də 17 əsrdən məlumdur. Ə. dadlı süfrə suyu olan çoxsaylı çeşmələri, şəfa bulaqları,



kurort iqlimi, meyvə bağları, süfrə üzümləri, qoz ağacları, müalicə bitkiləri, şah çinarları ilə də məşhur olmuşdur. 19 əsrin ortalarında Aşağı Ə. və Yuxarı Ə. kəndlərinə ayrılmışdır. Hazırda onların arasında 3 *km*-lik məsafədə yeni yaşayış evləri və ictimai binalar inşa edilir, iki Ə. yenidən birləşir.

**ƏYLİS MƏSCİDİ** – Ordubad r-nunun Əylis k.-ndə orta əsrlərə aid memarlıq abidəsi. Tədqiqatçılara görə, məscid 16 əsrdə İran şahı I Şah Abbas tərəfindən inşa edilmişdir (el arasında Şah Abbas məscidi də adlanır). Məscidin əvvəllər mövcud olmuş mədrəsəsi son zamanlara qədər qalmışdı. Sonralar dağılmış, hazırda bərpa edilmişdir.

**ƏYLİS SÜRMƏ TƏZAHÜRÜ** – Ordubad r-nu ərazisində, dəniz səviyyəsindən 900–1500 *m* hündürlükdədir. Geoloji quruluşunda Paleosen–Aşağı Eosen yaşlı qumdaşılar, argillitlər, andezitlər, onların tufları və diorit, porfirit daykaları iştirak edir. Sürmə filizləşməsi damar zonaları tiplidir. Yataq Qoruqlar antiklinalının tağ hissəsində yerləşir və eyniadlı qırılma filizdaşıyıcı rolunu oynayır. Sürmə filizi hidrotermal yolla əmələ gəlir, orta tempraturludur və diorit-porfirit daykaları ilə əlaqədardır. Filizləşmə 3 damar-zonadan ibarətdir. Qalınlıqları 1,0–5,0 *m* olmaqla 200–1000 *m* məsafəyə izlənilir. Əsas filiz mineralları antimonit və onun törəmə minerallarıdır. Filizdə sürmənin miqdarı 0,2–10,0%-dir. Tekstur əlamətlərinə görə filizlər damarcıq və möhtəvi tiplidir.

Əylis kəndindən görünüş.



Mədəniyyət sarayı. 1997. Əylis.





**ƏYLİSLİ** Əkrəm (Əkrəm Nəcəf oğlu N a i b o v u n ədəbi adı; d. 6.12.1937, Ordubad r-nunun Yuxarı Əylis k.) – yazıçı, dramaturq. Azərb. Respublikasının xalq yazıçısı (1998) və əməkdar incəsənət xadimi (1987). M.F.Axundov ad. ədəbi mükafat laureatı (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsində təhsil almış, Moskvada M.Qorki ad. Ədəbiyyat İn-tunun nəsr şöbəsini bitirmişdir. "Gənclik" nəşriyyatının baş redaktoru (1968–70), "Mozalan" satirik kino-jurnalının baş redaktoru (1970–71), Azərb. Dövlət Kinematoqrafiya Komitəsinin baş redaktoru (1974–78), "Azərbaycan" jurnalının baş redaktoru (1978–83), Azərb. Yazıçılar İttifaqının katibi (1987–91) işləmiş, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü olmuşdur. 1992 ildən "Yazıçı" ədəbi nəşrlər evinin direktoru idi. Ədəbiyyata insan və onun taleyi problemlərini gətirmiş 60-cı illər ədəbi nəslinin görkəmli nümayəndələrindən olan Ə.-nin povestlərində ("Gilas ağacı", "Dağlara çən düşəndə", "Atalar və atasızlar", "Tənha narın nağılı", "Kür qırağının meşələri", "İşığını əsirgəmə", "Söyüdlərin sarı işığı", "Güllü paltar mövsümü" və s.) və romanlarında ("Mənim nəğməkar bibim", "Adamlar və ağaclar", "Gilənar çiçəyinə dediklərim", "Ağ dərə") müasirlərimizin mənəvi-əxlaqi aləmi araşdırılır. "Quşu uçan budaqlar", "Bağdada putyovka var" (eyniadlı povestin motivləri əsasında), "Vəzifə", "Anamın pasportu", "Ata mülkü", "Ömür tez keçdi, qardaş", "Bu kənddən bir qatar keçdi", "Bir cüt bədmüşk ağacı", "Yastı təpə" və s. pyesləri Bakı, Naxçıvan, Gəncə və İrəvan teatrlarında tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında "Gilas ağacı", "Ürək yaman şeydir", "Sürəyya" filmləri çəkilmişdir. Ədəbi-tənqidi və publisistik yazıları var. Əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. K.Paustovskinin hekayələrini ("Qızıl qönçə" kitabı), Ç.Aytmatovun "Əlvida, Gülsarı", alman yazıçısı H.Böllün "O illərin çörəyi", Əlcəzair yazıçısı H.Məlikin "Çevrə", Kolumbiya yazıçısı Q.Qarsia-Markesin "Gözlənilən bir qətlin tarixçəsi" povestlərini və b. yazıçıların əsərlərini tərcümə etmişdir. Şərəf nişanı və Azərb. Respublikasının Şöhrət ordenləri ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, 2 cilddə, B., 1987; Səbət yanğısı (məqalələr), B., 1989.



Əylisli Əkrəm

**ƏYRİDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Gilançayın yuxarı axınındadır. Hünd. 3126 *m*. Günbəzvarı formadadır.

**ƏZİZBƏYOV** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* aralı, Naxçıvan–Laçın–Yevlax avtomobil yolunun kənarında, Naxçıvançayın (Arazın qolu) sahilindədir. Əh. 386 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**ƏZİZ ŞƏRİF** (Əziz Qurbanəli oğlu Ş ə r i f z a d ə n i n ədəbi adı; 28.3.1895, Naxçıvan ş. – 28.5.1998, Moskva; Naxçıvanda dəfn edilmişdir) – tənqidçi, ədəbiyyatşünas, tərcüməçi. Filologiya elmləri doktoru (1958), prof. (1962). Azərb. Respublikasının əməkdar elm xadimi (1963). Uşaqlıq və ilk gənclik illəri Tiflisdə C. Məmmədquluzadənin himayəsində keçmiş, "Molla Nəsrəddin" jurnalı redaksiyasının otaqlarında qalmış, burada dövrün görkəmli şəxsiyyətləri, o cümlədən M. Ə. Sabirlə görüşmüş, Ə. Haqverdiyev və Hüseyn Cavidlə dostluq etmişdir. Tiflisdə orta təhsil almış, Moskva Kommersiya İn-tunda oxumuş (1915–17), M. Qorki ad. Ədəbiyyat İn-tunu (Moskva) bitirmişdir (1943). Ədəbi fəaliyyətə 1906 ildə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Naxçıvandan məktublar"la başlamışdır. 20–30-cu illərdə Tiflisdə mətbuat və nəşriyyat sahəsində çalışmış, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi olmuşdur (1925–35). Sonralar Tiflis Müəllimlər İn-tutunda dərs demiş, SSRİ EA Şərqşünaslıq İn-tu və M. Qorki ad. Dünya Ədəbiyyatı İn-tunda baş elmi işçi (1950–61), M.V.Lomonosov ad. MDU-nun SSRİ xalqları ədəbiyyatı kafedrasının müdiri (1960–64) və prof. (1962–88) olmuşdur. Ə. Ş. Azərbaycan ədəbiyyatı tarixinə, klassiklərimizin həyat və yaradıcılığına, müasir ədəbi prosesə,

Əziz Şərif



ədəbi əlaqələrə, teatr və tərcümə problemlərinə dair ədəbi-tənqidi məqalələrin, tədqiqat əsərlərinin müəllifidir. M.P.Vaqif, M. Ə. Sabir və C. Məmmədquluzadənin ədəbi irsinin, "Molla Nəsrəddin" jurnalının nəşri tarixinin araşdırılmasında xidməti xüsusilə mühümdür. Ə. Ş.-in gündəlik xarakterli xatirələri ("Keçmiş günlərdən", 1977; "Atam və mən", 1983 kitabları) həm də 20 əsr Azərb. ədəbiyyatının, mədəniyyətinin, klassiklərimizin həyat və yaradıcılığının öyrənilməsində mühüm məxəzdir. Tərcümə sahəsində də səmərəli fəaliyyət göstərmiş, M. F. Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, Ə. Haqverdiyev, C. Cabbarlı, S. Rəhimov, M. İbrahimov, Mir Cəlal və b. Azərbaycan yazıçılarının əsərlərini rus dilinə, N.V.Qoqol, A.N.Ostrovski, M.Qorki, A.Fadeyev və K.Simonovun, habelə gürcü yazıçıları E. Ninoşvili və N. Mijsişvilinin bəzi əsərlərini (orjinaldan) Azərb. dilinə çevirmişdir. Pedaqoji və elmi kadrlar hazırlanmasında mühüm xidməti var.

Ə s ə r l ə r i: Molla Nəsrəddin (C. Məmmədquluzadə), B., 1946; Molla Nəsrəddin necə yarandı?, B., 1986; Жизнь и поэтическое творчество Сабира, М., 1951; Рождение Молла Насреддина, Б., 1968; Вагиф - певец любви и красоты, М., 1968.

**ƏZNƏBÜRT** – Babək r-nundakı *Çalxanqala* k.-nin 1990 ilədək adı.



# F

**FAİQ KƏRİM** (Kərim Əliqulu oğlu Q u l i y e v i n ədəbi adı; d. 7.7.1925, Ordubad r-nunun Unus k.) – şair. Üç yaşından dünya işığından məhrum olmuşdur. Bakıda korlar üçün xüsusi məktəb və Azərb. Dövlət Un-ti (indiki BDU) filologiya fakultəsinin jurnalistika şöbəsini bitirmişdir (1957). "İlk sınaq" (1957), "Sənin qüdrətin" (1960), "Səni düşünürəm" (1967), "Həyat eşqi" (1970), "Səndən doymadım" (1977), "Necə sevməyim"(1983), "Ana ürəyi" (1988) və s. topluları nəşr edilmişdir. Uşaqlar üçün də yazmışdır: "Kiçik dostlarıma" (1959), "Balaca bənnalar" (1964), "Rəfiqələr" (1980) kitabçaları.

**FƏQİR**, F ə q i r O r d u b a d i (Hacıağa Məhəmməd oğlunun təxəllüsü; 1836, Ordubad – 1886, orada) – şair. *M.S.Ordubadinin* atasıdır. Uşaq yaşlarından ticarətlə məşğul olan atası ilə İranın müxtəlif şəhərlərinə səfər etmiş, 25 yaşında Ordubada qayıdaraq məktəbdarlıq və şairliklə məşğul olmuş, yeni üsullu məktəb açmışdır. *"Əncüməni-şüəra"* ədəbi məclisinin ən fəal üzvlərindən və rəhbərlərindən olan F. klassik Şərq poeziyası ənənələri səpgisində lirik şerlərlə ("Gülşəniürəfa" divanı) yanaşı, ictimai məzmunlu, tənqidi-satirik əsərlər də yazmışdır. "Kürdün çul satması" ("Fatı" adı ilə də məşhurdur) şerində, vilayətin vəzifəli şəxslərinə mənzum məktublarında şair sosial ədalətsizliyi, çar məmurlarının rüşvətxorluğunu, şöhrətpərəst mənsəb sahiblərini, fırıldaqçı din xadimlərini satira atəşinə tutduğuna görə təqibə məruz qalmış, bir müddət Türküstanda yaşamağa məcbur olmuşdur.

Ə s ə r i: Ağlar qələm əlimdə (tərtib, müqəddimə və lüğət Ə.Qədimovundur), B., 1989.

*Əd.:* Q a s ı m z a d ə F., XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, B., 1974; K ö ç ə r l i F., Azərbaycan ədəbiyyatı, c. 2, B., 1981; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**FƏRƏCOV** Əliqulu Səttar oğlu (15.3.1898, Ordubad ş. – 20. 1. 1981, Bakı) – iqtisadçı. İqtisad elmləri namizədi, prof. (1939). Azərb. Respublikasının əməkdar iqtisadçısı (1967). 1915 ildə Tiflis ticarət kurslarını, 1927 ildə Azərb. Politexnik İn-tunu bitirmişdir. Uzun müddət respublikanın ali məktəblərində dərs demişdir. Elmi-pedaqoji fəaliyyətilə yanaşı, Azərb. Dövlət Un-tinin (indiki BDU) prorektoru (1943–44), Azərb. Xalq Təsərrüfatı İn-tunun (AXTİ; indiki İqtisad Un-ti) direktoru (1944–50), bir sıra kafedraların, o cümlədən ADU-nun mühasibat uçotu və təsərrüfat fəaliyyətinin analizi kafedrasının (1959–60) müdiri, ADU-nun (1962–66) və AXTİ-nin məsləhətçi prof. (1966 ildən) olmuş, Azərb. Milli EA İqtisadiyyat bölməsində (indiki İqtisadiyyat İn-tu) baş elmi işçi, şöbə müdiri (1951–58) işləmişdir. F. Azərb.-da iqtisadi təhsilin təşkilatçılarından idi. O, Azərb. dilində mühasibat uçotunun nəzəri və əməli məsələlərinə dair dərsliklər yazmış, konkret iqtisadiyyata dair elmi terminlər işləyib hazırlamış, mühasibat uçotunun nəzəri, texniki və tarixi məsələlərinə, k. t. iqtisadiyyatına, x. t. və iqtisadi fikir tarixinə dair tədqiqatlar aparmışdır. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Sənayedə qənaət və yığcamlıq haqqında, B., 1954; Nizami Gəncəvinin iqtisadi görüşləri haqqında, B., 1956; Ордубад: Историко-экономический очерк, Б., 1970; Зарождение и развитие экономической мысли в Азербайджане в эпоху феодализма, Б., 1986.

Fərəcov Əliqulu



**FƏRƏCOV** Fərəc Səttar oğlu (27.1.1912, Ordubad ş. – 7. 9. 1990, Bakı) – memar. Azərb. Respublikasının əməkdar memarı. Azərb. Sənaye İn-tunu (indiki Neft Akademiyası)



Fərəcov Fərid

bitirmişdir (1940). Nax. MSSR Kommunal Təsərrüfat naziri (1941–46), Azərb. SSR Kənd Tikinti İdarəsi Trestinin rəisi (1946–50), Ümumittifaq Pambıq Sənayesi İn-şaat İn-tu Bakı filialının direktoru (1950–53), Azərb. SSR Kənd Təsərrüfatı Dövlət Layihə İn-tunda kənd tikintisi şöbəsinin rəisi (1953–62), Azərb. SSR Şəhər və Kənd Tikintisi Dövlət Layihə İn-tunun direktoru (1962–68), Moskvada SSRİ Kənd Tikinti Nazirliyi aparatında məsul vəzifədə (1968–86) işləmişdir. Elmi-pedaqoji fəaliyyət də göstərmiş, Azərb. Politexnik İn-tu (indiki Texniki Un-t) sənaye və mülki inşaat kafedrasının dosenti olmuşdur (1959–62). 50-dən çox elmi, elmi-publisistik məqalənin, 11 kitabçanın müəllifidir. Orden və medallarla təltif edilmişdir.

**FƏRƏCOV** Fərid Əliqulu oğlu (23.6.1927, Bakı – 19.4.2000, orada) – iqtisadçı. İqtisad elmləri doktoru (1971), prof. (1977). Azərb. Respublikası əməkdar iqtisadçısı (1972). *Ə. S. Fərəcovun* oğludur. Azərb. Dövlət Xalq Təsərrüfatı İn-tunu (indiki İqtisad Un-ti) (1949) və Azərb. Milli EA İqtisadiyyat bölməsinin (indiki İqtisadiyyat İn-tu) aspiranturasını (1953) bitirmiş, həmin vaxtdan burada kiçik və baş elmi işçi (1953–57), Bakı Ali Partiya Məktəbində konkret iqtisadiyyat kafedrasının müdiri (1957–76), Azərb. SSR Dövlət Plan Komitəsi Elmi Tədqiqat İqtisadiyyat İn-tunun direktoru (1976–81), Respublika Dövlət Plan Komitəsi sədrinin müavini və birinci müavini (1981–93), İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Mərkəzində baş elmi işçi (1993 ildən) vəzifələrində çalışmışdır. Sənayenin iqtisadiyyatına, onun inkişafı və sahə quruluşu, iqtisadi islahatların, texniki tərəqqinin, işin keyfiyyətinin ictimai istehsalın səmərəliliyinə təsiri, sənayenin idarə edilməsi problemlərinə dair tədqiqatların, o cümlədən bir neçə monoqrafiya və kitabın müəllifidir.

Ə s ə r l ə r i: Texniki tərəqqi və yeni texnika tətbiqinin iqtisadi səmərəlildiyi, B., 1963; Təsərrüfat islahatı və sənayenin idarə edilməsi problemləri, B., 1967; Темпы развития и отраслевые пропорции промышленности Азербайджана, Б., 1975; Качество работы как фактор роста социально-экономической эффективности общественного производства, Б., 1980.

Fərəcov Zülfüqar



**FƏRƏCOV** Zülfüqar Həsən oğlu (d. 7.7.1951, Bakı) – həkim-dermatoloq. Tibb elmləri doktoru (1990), prof. (1992). Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini (1973) və Moskvada Mərkəzi Dəri-Zöhrəvi Elmi-Tədqiqat İn-tunun aspiranturasını (1985) bitirmişdir. Sumqayıt ş. dəri-zöhrəvi xəstəliklər dispanserində həkim-dermatoloq (1975–82), Azərb. Dövlət Tibb Un-ti nəzdindəki mərkəzi elmi-tədqiqat laboratoriyasında baş elmi işçi (1986–87) olmuşdur. 1992 ildən un-tin dəri-zöhrəvi xəstəlikləri kafedrasının prof.-dur. 1999 ildən Azərb. Respublikası Səhiyyə Nazirliyinin dəri-zöhrəvi xəstəlikləri üzrə baş mütəxəssisidir. Əsas tədqiqatları dərinin bədxassəli xəstəliklərinə, zöhrəvi xəstəliklərin patogenetik və epidemioloji aspektlərinə həsr edilmişdir. 80-ə yaxın elmi əsərin, o cümlədən 5 ixtiranın, 2 monoqrafiyanın, 2 dərsliyin və 2 metodik tədris vəsaitinin müəllifidir. "Dərinin bədxassəli limfomaları" (B., 1996; rus dilində), "Ağızın selikli qişasının və dodaqların xəstəlikləri" (B., 1999) əsərləri nəşr olunmuşdur.

**FƏRHAD EVİ** – Şahbuz r-nunun Biçənək k.-ndən ş.-də, Batabat yaylağında arxeoloji abidə. Naxçıvan–Laçın–Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan təqr. 1 *km* ş.-dədir. Liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşirlər. Tavanlar tağ şəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır. Divarların dibində səki düzəldilmişdir; birinci otağın sağ küncündə quyu ocaq yeri var. Giriş qapısının hünd. 2,20 *m*, eni 1,30 *m*-dir. F. e.-nin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi







Fərhad evinin planı və kəsiyi.

başı, solunda qadın rəsmi həkk olunmuşdur. Qayanın şm.-ş. yamacında buradan keçən qədim karvan yolunun səviyyəsindən 2,0 *m* hünd.-də uz. 5 *m*, eni 80 *sm*, dərinliyi 30 *sm* olan səki qazılmışdır; səki boyunca 3 sətirlik qədim yazı (çox güman ki, mixi yazı) həkk olunmuşdur (məzmunu oxunmaz vəziyyətə salınmışdır). Yaxınlıqdakı kurqan tipli abidə üzərindəki vişap oğurlanmışdır. Naxçıvan ş.-ndən F. e.-nə bir mənzil karvan yolu var. Naxçıvan–Laçın–Yevlax yolu Yaxın Şərqi Cənubi Qafqazla əlaqələndirən ən əlverişli yollardan sayılırdı. Batabat yaylağında F. e. adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan–Batabat yolunda gediş-gəliş artdığından F. e.-ndən bir qədər şm.-da iri karvansara tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar F. e. abidələrinin e. ə. 1-ci minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir. F.e. ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır.

*Əd.:* Ə l i y e v V., A l l a h v e r d i y e v S., Fərhad evi, Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları, B., 1992.

**FƏTƏLİBƏYLİ** Əbdürrəhman bəy Əli bəy oğlu D ü d ə n g i n s k i (1908, indiki Şərur r-nunun Düdəngə k. – 1954, AFR, Münxen) – hərbi və siyasi xadim. Atası əsilzadə ailəsindən çıxmış hərbçi olmuş, yüksək rütbəli zabit kimi əvvəlcə Türküstan sərhəd dairəsinin, sonra isə Rusiya–İran sərhədinin Naxçıvan qəzası üzrə rəisi olmuş, 1910 ildə erməni və rus şovinistlərinin əli ilə zəhərlənərək öldürülmüşdür. F. Tiflisdə təhsil almış, 1939 ildə Moskvada M.V.Frunze ad. Hərbi Akademiyanı bitirmiş, Sovet–Finlandiya müharibəsində (1939–40) iştirak etmiş, "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu. Böyük Vətən müharibəsi (1941–45) başlayanda F. mayor rütbəsində Riqada (Latviya) gen. Vlasovun ordusunun tərkibində qərargahda, qardaşı Seyfulla hərbi hissələrin birində, həyat yoldaşı Leyla isə hərbi həkim kimi şəhər qospitalında xidmət edirdi. Təqr. 1941 ilin sentyabrında F. Leninqrad ətrafında hərbi tapşırığı yerinə yetirərkən Vlasovun ordusunun almanların tərəfinə keçdiyindən xəbər tutur və özü də almanlara əsir düşür. 1941 ilin noyabrında Almaniya Xarici İşlər Nazirliyinə müraciət edərək əsir azərb.-lılardan ibarət hərbi legion yaratmağa razılıq alır. 1942 ildə Almaniya dövləti onun yaratdığı və başında durduğu mühacir Azərb. hökumətini tanımışdı (1944 ilin payızınadək fəaliyyət göstərmişdi). 1943 ildə "Milli Birlik Məclisi" təşkil edilmiş, Almaniyada Azərb. siyasi müxalifətinin rəhbəri M.Ə.Rəsulzadə və b. ilə sıx əlaqələr yaradılmışdı. 1943 ilin mayında Berlində F.-nin də iştirakı ilə Azərb. İstiqlalının 25-ci ildönümü qeyd olunmuş, noyabrda keçirilmiş Milli Azərb. qurultayı onun məruzəsi əsasında qətnamə qəbul etmişdi. Müharibədən sonra bir müddət İtaliyada, Misirdə və Türkiyədə yaşamış, 1953 ildə Münxen ş.-də yerləşən "Azadlıq" radiosunun Azərb. şöbəsinin baş redaktoru olmuşdu. DTK qatili tərəfindən qətlə yetirilmişdir. Mərhumun dəfn mərasimində çıxış edən M.Ə.Rəsulzadə onu "hərarətli bir vətənsevər və qorxmaz bir mücahid" adlandırmışdı.



Fətəlibəyli Əbdürrəhman

**FƏTƏLİYEV** Əyyub Cəfər oğlu (d. 7.11.1925, İrəvan) – teatr rəssamı. Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1964). Ə. Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1944) və V. İ. Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1952) bitirmişdir. SSRİ Böyük Teatrında (Moskva) işləmiş (1952–55), Azərb. Dövlət Opera və Balet Teatrının tərtibatçı rəssamı (1955–57) olmuşdur. 1957 ildən həmin teatrın baş rəssamı idi. "Daisi" (1956, Z. Paliaşvili), "Azad", "Xanəndənin taleyi" (1957, 1979, C. Cahangirov), "Sevil" (1959, F. Əmirov), "Koroğlu" [1959, (1975, T. Salahovla birgə), Ü. Hacı-

bəyov], "Aida", "Traviata", "Otello" (1961, 1972, 1982, C. Verdi), "Knyaz İqor" (1964, 1975, A. Borodin), "Boris Qodunov" (1966, M. Musorqski), "Qaratoxmaq qadın" (1968, P. Çaykovski), "Aygün" (1973, Z. Bağırov) və b. operalara səhnə tərtibatı vermişdir. Şərəf nişanı ordeni ilə təltif olunmuşdur.

**"FİKİR"** – qəzet. Naxçıvan Dövlət Un-tinin orqanı. İlk nömrəsi 1991 il oktyabrın 15-də çapdan çıxmışdır. Adı Qori Müəllimlər Seminariyası Azərb. şöbəsinin inspektoru, məşhur pedaqoq A.O.Çernyayevskinin vaxtilə Tiflisdə nəşr etdirmək istədiyi "Fikir" qəzetinin adından götürülmüşdür. Cəmi 44 nömrəsi çıxmışdır. Qəzetdə un-tin 1991–97 illər tarixi, bu dövrdə baş vermiş mühüm elmi-ədəbi və maarifçi tədbirlər, un-t həyatına dair əsas fakt və məlumatlar əksini tapmışdır. 1998 ildən eyniadlı elmi-informasiya dərgisinə çevrilmişdir.

**"FİKİR"** – elmi-informasiya dərgisi. Naxçıvan Dövlət Un-tinin xəbərləri. Un-tin eyniadlı qəzetinin (1991–97) varisidir. İlk sayı 1998 ildə un-tin "Qeyrət" nəşriyyat-mətbəəsində çap olunmuşdur. Dərgidə un-tin elmi-maarifçi həyatından alınmış xəbərlər, məlumatlar, habelə zəruri tarixi və müasir informasiyalardan ibarət elmi məqalələr, Azərb. və dünyanın digər ölkələrinin ali məktəblərinə dair maraqlı xəbər və məlumatlar dərc edilir. Beləliklə, "F." dərgisi həm də elmi nəşr kimi fəaliyyət göstərir.

**"FÜQƏRA SƏSİ"** – 1922 ilin əvvəlində Naxçıvanda nəşr olunmuş qəzet (bax *"Şərq qapısı"*).



# G

**GAL** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-dan 20 km şm.-da, İlandağın ətəyindədir. Əh. 466 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, iki kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var. Kəndin şm.-ş.-ndə orta əsrlərə aid *İlandağ* yaşayış yeri qeydə alınmışdır.

**GECƏZUR** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 16 *km* şm.-ş-də, orta dağlıq ərazidədir. Əh. 446 (2000); əsasən, heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**GENDƏRƏ** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Nəcəfalı Dizə k.-ndən 1 *km* şm.-q.-dədir. Hünd. 1089 *m*.

**GƏDİKDAĞ** – Culfa r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında. Qavaxlısu çayının mənbə hissəsindədir. Hünd. 2705 *m*. Konusvarı formadadır.

**GƏDİKDAĞ AŞIRIMI** – Culfa r-nu ərazisində aşırım. Zəngəzur silsiləsinin suayırıcında. Gədikdağdan 500 *m* ş.-dədir. Hünd. 2563 *m*.

**GƏLİNQAYA** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında. Zərnətün çayının mənbə hissəsindədir. Hünd. 2876 *m*. Andezit-dasit tərkibli subvulkanik çıxıntıdır.

**GƏLİNQAYA** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcındadır. Salvartı gölünün ş.-ndədir. Hünd. 2769 *m*. Günbəzvarı formadadır.

**GƏMİQAYA** – Ordubad r-nu ərazisində, Tivi və Nəsirvaz k.-lərindən şm.-ş.-də dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3725 *m*. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan təşkil olunmuşdur. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən G. yaylaqlarının ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir (bax *Bibqətəl piri*). Adı Nuh əfsanəsi ilə bağlıdır. Yalçın, şiş qayalı zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Görünür, belə zahiri oxşarlığa əsasən Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq d.-na (3904 *m*) xalq arasında G. adı verilmişdir. Qədim dünyanın müqəddəs panteonlarından sayılan G. özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Burada e. ə. 3–1-ci minilliklərə aid qayaüstü rəsmlər – piktoqramlar (qədim yazılar) var (bax, həmçinin *Gəmiqaya rəsmləri*).

**GƏMİQAYA QƏBİRİSTANI** – *Qapıcıq* dağının (Kiçik Qafqaz) c.-q. ətəyində, Qaranquş yaylağında (Tunc dövrünə aid qayaüstü





*Gəmiqayanın görünüşü.*







rəsmlərlə zəngin ərazi) orta əsrlərə aid arxeoloji abidə. Qəbiristanda qəbirüstü və dik daşlar var. Bəzi qəbirlərin üstü kurqanları xatırladan müxtəlif daşlarla örtülmüşdür. Qəbirüstü daşlarda kitabə yoxdur. Gəmiqaya qəbir abidələri sahəsindən göy şirli gil qab qırıqları əldə edilmişdir. Abidə 10–14 əsrlərə aid edilir.

**GƏMİQAYA RƏSMLƏRİ** – Kiçik Qafqazın Ordubad dağlarında, *Qapıcıq* d.-nın c. və ş. yamaclarındakı Nəbi yurdunda, Qaranquş yaylaqlarında qayaüstü təsvirlər. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə qədim Azərb. (Naxçıvan) tayfalarının yurd yerlərinin qalıqlarını aşkara çıxarmış, müəyyənləşdirmişlər ki, Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya–Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri idi. Sonralar isə buralar Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış tayfaların yaylaq yerləri olmuşdur. Elə həmin dövrlərdən buradakı qayalar üzərində insan və müxtəlif heyvan (keçi, maral, öküz, quş və s.) rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, ayrı-ayrı işarələr və s. təsvirlər həkk edilmişdir.

Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5–6 min il yaşı var. Tədqiqatlar nəticəsində orada yaşamış əhalinin həyat tərzini və mədəni inkişaf yollarını izləmək mümkündür. Batabat yaylağı, Şərur dağları və yaylaqları, Nəsirvaz çayı, neçə-neçə cana məlhəm bulaqlar Gəmiqaya ilə qonşuluqdadır. Burada qədim daş dövrünə aid *Qazma mağarası* aşkar olunmuş, əmək alətləri tapılmışdır.



G. r. 1968 ildən öyrənilir. Tədqiqatlar nəticəsində Naxçıvanın qədim memarlığı üçün səciyyəvi olan dairəvi planlı yurd yerləri (tikililərin divarlarının diametri 5–12 *m* olub iri və orta həcmli qaya parçalarından qurulmuşdur) və qayaüstü təsvirlər (həmin yurd yerlərinin ətrafındakı qayalar üzərindədir) aşkara çıxarılmışdır. Bu qədim təsviri sənət əsərlərinin böyük əksəriyyətini heyvan rəsmləri – keçi, öküz, maral, it, bəbir, canavar və s. təşkil edir. Heyvan rəsmləri bir qayda olaraq, tək-tək, qoşa və sürü halında təsvir olunmuşdur. Onların çoxu keçi rəsmləridir. G. r. kompozisiyalarının sadə və mürəkkəbliyinə, eləcə də, süjetlərinə görə bir-birindən seçilir. Öküz rəsmləri realist üslubda, buynuzları uzun və qövsvarı əyilmiş şəkildədir. Öküz qoşulmuş araba təsvirləri də vardır. İnsan rəsmləri tək halda və kompozisiyalı səhnələrdə verilmişdir. Bəzi insan rəsmləri zoomorfik əlamətlərlə fantastik şəkildə təsvir edilmişdir. Aşkar olunmuş rəsmlər arasında ovçuların ox və kamanla, kəməndlə və s. ilə silahlandığı ov səhnələri, rəqs səhnələri diqqəti cəlb edir. Gəmiqayada çox maraqlı piktoqrafik səciyyəli rəmzi işarələr – dairələr, dördbucaqlı, üçbucaqlı, çarxifələk (svastika) nişanı və s. həkk olunmuşdur. Bu cür işarələr Naxçıvanda *I Kültəpənin* e.ə. 2-ci minilliyə aid orta Tunc dövrü təbəqəsindən əldə edilmiş gil lövhə üzərində, boyalı qablar üzərində də cızılmışdır.

Gəmiqaya petroqliflərinin analoji abidələrlə müqayisəli təhlili Azərb.-ın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında elmi nəticələr söyləməyə imkan verir və onların qədim Azərb. təsviri sənətinin Naxçıvan mədəniyyətinə aid olduğunu göstərir.

Nax. MR Ali Məclisi "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq olunması barədə" 26 aprel 2001 il tarixli Sərəncam qəbul etmişdir.

*Əd.*: Əliyev V. H., Gəmiqaya abidələri, B., 1993; Müseyibov N., Qobustan və Gəmiqaya işarələrindəki bir qrup işarə haqqında, "Azərbaycanın qədim və orta əsrlər tarixi problemləri" kitabında, B., 1992; yenə onun, Gəmiqaya işarələri (Ə.Bədəlovla birgə), Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 1999, № 5; yenə onun, Gəmiqayada aşkar edilmiş yeni qayaüstü rəsmlər, "Azərbaycanın qədim və orta əsrlər tarixi problemləri" № 2, 2001.

















*Gəmiqaya rəsmləri.*



Gəmiqaya rəsmləri.





**"GƏNC QƏLƏMLƏR"** – 1925–26 illərdə Naxçıvanda fəaliyyət göstərmiş ədəbi dərnək. Dərnəyin təşkilində Vahab Həsənzadə, Əvəz Sadıq, Abbas Gülməmmədov, Əyyub Abbasov, Məşdi Babayev yaxından iştirak etmişlər. Naxçıvanda ədəbi gəncliyin inkişafında *"Şərq qapısı"* qəzeti də mühüm rol oynayırdı. Lətif Hüseynzadə, Məmməd Əkbər, Seyid Səbri, Nemət Hüseynov, Əli Zəbun, Məmmədəli Tarverdiyev, Məmmədhüseyn Təhmasib və b. gənc şairlərin şerləri müntəzəm olaraq həmin qəzetdə dərc olunurdu.

**GƏNCLİK XALQ TEATRI** — bax *Naxçıvan xalq teatrı.*

**GƏNZƏ** – Ordubad r-nunda kənd. Ordubad ş. bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 12 *km*. şm.-ş.-dədir. Əh. 1264 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana və tibb məntəqəsi var.

**GƏNZƏ MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Ordubad ş.-ndən 6 *km* şm.-ş.-də, Anabad k. yaxınlığında, Gənzəçayın məcrasındadır. Su çayın kənarındakı qum-çınqıllardan çıxır. Bir neçə çıxışdan ibarətdir. Debiti 160 $m^3$/*gün*, temp-ru 15°C-dir. Suyu iysiz, şəffaf, turşməzə, xoş tamlı, içməyə yararlıdır.

Balneoloji tərkibi:

$$CO_2\ 0{,}22\ M\ 5{,}6\ \frac{HCO_3\ 53\ SO_4\ 30\ Cl\ 17}{(Na+K)41\ Mg38\ Ca21}\cdot$$

$$\cdot pH7{,}5\ D\ 160\ m^3/gün\ T\ 15^\circ C$$

Suyu orta dərəcədə minerallaşmış, hidrokarbonatlı-sulfatlı, natriumlu–maqneziumlu–kalsiumludur. Rusiya Federasiyasındakı "Jeleznovodsk" suyu kimi müalicə məqsədilə istifadə etmək olar. Gənzə bulağının suyu tərkibinə və minerallaşmasına görə Ordubad r-nunun digər bulaqlarının suyundan əsaslı surətdə fərqlənir.

**GƏNZƏÇAY** – Ordubad r-nu ərazisində çay. Arazın sol qolu. Zəngəzur silsiləsinin c.-q. yamaclarından (2700 *m* hünd.-dən) başlanır; 620 *m* hündürlükdə, Ordubad ş. yaxınlığında Araza tökülür. Uz. 17 *km*, hövzəsinin sah. 45 $km^2$-dir. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Yaz-yay daşqınları və güclü sellər müşahidə olunur. Suvarmada istifadə edilir.

**GƏNZƏÇAY ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Ordubad r-nu ərazisində, Ordubad d.-y. st.-ndan 5 *km* c.-ş.-dədir. Geoloji quruluşunda Müasir dövr yaşlı allüvial-prolüvial çöküntülər – çaqıl, çınqıl və qum qarışığı iştirak edir. Sah. 1,2 $km^2$, faydalı qatın qalınlığı 5 *m*-dir. Çınqıl-qum qarışığı tikinti işlərində istifadə olunan "300" markalı beton və asfalt-beton istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 5261 min $m^3$-dir.

**GƏVİK** – Culfa r-nu ərazisində çay. Əlincəçayın (Arazın qolu) sağ qolu. Qavaxlı d.-ndan başlanır. Əlincəçayın mənsəbindən 49 *km* məsafədə ona tökülür. Uz. 12 *km*, hövzəsinin sah. 24 $km^2$-dir. Əsasən, qar və yağış suları ilə qidalanır. Yaz-yay daşqınları olur.

**GİLAN**, G i r a n – Azərb.-da orta əsr şəhəri. Xarabalığı Ordubad ş.-ndən 16–17 *km* q.-də, Naxçıvan–Ordubad avtomobil yolunun şm.-nda, Gilançayın sol sahilindədir. İbn əl-Əsir (13 əsr), Yaqut əl-Həməvi (13 əsr), Zeynəddin Qəzvini (14 əsr), Məhəmməd ibn Həmdullah Naxçıvani (14 əsr) və b.-nın əsərlərində G.-ın vaxtilə Azərb.-ın qədim və əzəmətli şəhərlərindən biri olması haqqında məlumat var. Karvan yolu üstündə yerləşən şəhərdə sənətkarlıq, ticarət, əmtəə-pul əlaqələri geniş inkişaf etmişdi. "Giran" adı ilə gümüş və mis sikkələr kəsilmişdir. 14 əsrin sonunda əmir Teymur G.-ı dağıtmış, I Şah Abbas [1587–1629] dövründə isə şəhər tamamilə tənəzzülə uğramış, əhalisi Aşağı və Yuxarı Aza, Dər kəndlərinə köçmüşdür. Hinduşah *Naxçıvani*, Məhəmməd *Naxçıvani* və b. görkəmli Azərb. alim, mütəfəkkir və dövlət xadimləri G.-dan çıxmışlar. G.-ın xarabalığı xalq arasında *Xarabagilan* adı ilə tanınmışdır.

**GİLAN TÜRBƏSİ** – Ordubad r-nunda orta əsrlərə aid memarlıq abidəsi. 1979 ildə Xarabagilan şəhəri yerində aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. G. t.-nin sərdabəsi Azərb. və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvarı – yuxarıya doğru

Gilan sərdabəsinin planı





Gilan türbəsi.

genişlənən sütuna dayanır. Sütun da planda səkkizbucaqlıdır. Buna bənzər mərkəzi dayaq sütunu Azərb. ərazisində indiyədək yalnız iki abidədə – Marağadakı qırmızı günbəz (1148) və Naxçıvandakı Möminə xatun (1186) türbələrinin sərdabələrindən bəllidir. G. t. Marağa–Naxçıvan memarlıq zonasında olmasına baxmayaraq, memarlıq quruluşu, konstruksiya baxımından Şərqi Anadolunun (Türkiyə), Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsinin (12 əsrin əvvəlləri) alt qatı ilə, demək olar ki, eynidir. Hər iki sərdabənin həcmi və hündürlüyü də bir-birinə çox yaxındır. Kemahdakı türbənin də Marağa–Naxçıvan memarlıq məktəbi nümayəndəsi tərəfindən tikilməsi ehtimalı güclüdür. Çünki həmin illərdə Menqucuqların əsas tikililərini iki azərb. memar yerinə yetirirdi. Onlardan birinin – memar Əhməd Əbubəkr oğlu Mərəndinin Sivasda ucaltdığı Keykavus türbəsi görünüşcə Gilan və Kemah türbələrinə bənzərdir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. İnteryerdə tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bütövlükdə, sərdabə interyerinin ifadəliliyi biçimlərin təmiz həcm quruluşuna əsaslanır, estetik tələblərə uğurla cavab verməklə fəzalı plastik arxitektonikası ilə gözəl təsir bağışlayır. Bayırda sərdabə qatının üstündə kubvarı tutumlu gövdə ucalırmış. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gövdənin künclərini silindrik kərpic sütunlar qapayırmış. Sütunlardan birinin alt bölümü qalmışdır. Bəzək işlərində göy rəngli kaşı lövhələr də işlədilmişdi. G. t.-nin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin 12 əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

*Əd.*: Salamzadə Ə. V., Məmmədzadə K. M., Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, B, 1985; Qiyası C., Nizami dövrü memarlıq abidələri, B., 1991.

**GİLAN ZƏRBXANASI** – Ordubad r-nunda *Xarabagilan* adı ilə tanınan ərazidəki şəhərdə mövcud olmuşdur. Əldə edilmiş numizmatika materiallarına əsasən burada Sasanilər dövlətinin hökmdarı IV Hürmüzün [579–90] adından sikkə zərb edildiyi məlum olur. Ordubad ş. Şərq ilə Qərb arasında gedən ticarət əlaqələrində əhəmiyyətli rol oynadığından G. z. 14-cü yüzilliklə fəaliyyətini bərpa etmiş və burada Elxani gümüş dirhəmləri kəsilmişdir.

**GİLANÇAY** – Ordubad r-nu ərazisində çay. Arazın sol qolu. Uz. 53 *km*, hövzəsinin sah. 426 $km^2$. Zəngəzur silsiləsindən, təqr. 2700 *m* hünd.-dən başlanır. Əsas qolu Parağaçaydır. İllik axım həcmi təqr. 122 mln. $m^3$-dir.

Türbənin divar naxışları.





Türbənin sərdabəsi.





Gilançay dərəsi.

Qapıcığ d.-nın zirvəsindəki daimi qar örtüyü, yamaclarındakı buz bulaqlar, xüsusilə, bu ərazidəki Göygöl G.-ın su mənbələridir. Suvarmada istifadə olunur. G. vadisi hələ qədim zamanlardan əhalinin məskunlaşdığı əsas ərazilərdən olmuşdur. Çayın minillər boyu yuyub gətirdiyi çöküntülər bu ərazidə əkinçilik, bağçılıq, bostançılıq, maldarlıq üçün əlverişli şərait yaratmışdır. Şərqlə Qərbi birləşdirən tarixi İpək Yolu G. vadisindən keçmişdir. G. vadisinin Arazboyu düzənliklə qovuşduğu ərazidə – Sabirkənd, Plovdağ, Xarabagilan ərazisində e. ə. 2–1-ci minilliklərə aid arxeoloji mədəniyyət qalıqları ilə zəngin yaşayış yerləri və nekropollar (Muncuqlu, Sabirkənd) mövcuddur. Aşkar olunan qazıntı materialları G. vadisinin yüksək mədəniyyətə sahib olan Tunc dövrü tayfalarının şumerlərlə sıx iqtisadi-mədəni əlaqədə olduğunu göstərir.

**GİLANÇAY** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 31 *km* şm.-q.-də, Gilançayın sol sahilində, Ordubad–Xurs avtomobil yolunun sol tərəfindədir. Əh. 275 nəfər (2000); bağçılıq, meyvəçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**GİRDƏNİ** – Ordubad r-nu ərazisində çay. Vənənd çayının sağ qolu. Mənsəbindən 21 *km* məsafədə, 1800 *m* hünd.-də ona tökülür. Uz. 8 *km*, hövzəsinin sah. 16 $km^2$-dir. Yaz-yay fəsillərində qar suları hesabına (41%) daşqınlar olur. Yeraltı (44%) və yağış (15%) suları ilə qidalanır.

**GİRDƏSƏR MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, Badamlı mineral su bulağından 1,5 *km* c.-q.-dədir.

Balneoloji tərkibi:

$$CO_2\,1{,}2\,M3{,}7\,\frac{SO_4\,47\,HCO_3\,45}{Mg\,47\,Ca31\,(Na+K)21}\cdot pH\,6{,}4\,D\,10\,m^3/gün\,T\,16{,}6^{\circ}C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, sulfatlı-hidrokarbonatlı, maqneziumlu–kalsiumlu–natriumludur. Ərazidə tədqiqat işləri aparılmamışdır.

**GİRDƏSƏR SİLSİLƏSİ** – Babək və Şahbuz r-ları ərazilərində dağ silsiləsi. Naxçıvançayın sağ sahilindən, Sələsüz k. yaxınlığından başlayaraq şm.-q. istiqamətində Tirkeş k.-nədək uzanır. Uz. 5 *km*. Şm. yamacı sıldırımdır. Ən yüksək zirvəsi 1409 *m*.

**GOVURQALA** – Şərur r-nu Axura k.-nın şm.-ş.-ndə, Axuraçayın Havuşçayla birləşdiyi yerdə, hündür dağın sinəsində antik dövrə aid yaşayış yeri. Qala uzunsov planlı olub, hörgü üsulu ilə iri ölçülü daşlardan inşa edilmişdir. Divarının eni bəzi yerlərdə 2 *m*-ə çatır; bürc izləri aydın görünür. Arxeoloji qazıntılar nəticəsində müdafiə tikintisi qalıqları (küp, küpə, qazan tipli qablar, müxtəlif növ saxsı qab qırıqları) əsaslı şəkildə çürümüş nizə, ox ucları aşkar edilmişdir. Tapıntılar e. ə. 2 – eramızın 3-cü əsrləri üçün səciyyəvidir. Orta əsrlərə aid şirsiz və şirli saxsı məmulatına da təsadüf edilmişdir.

*Əd.*: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Şərurun arxeoloji abidələri, B., 1993.

**GOVURQALA**, Qarabağlar Govurqalası – Şərur r-nunun Qarabağlar k.-ndən şm.-q.-də, *Damlama* yaşayış yeri yaxınlığında e.ə. 2-1-ci minilliklərə aid qala. Üç tərəfdən – şm., c. və q.-dən sıldırım qayalarla əhatələnmiş dağın üstündədir. 1968 ildə qeydə alınmışdır. İri qaya daşlarından, bərkidici məhlul işlədilmədən ətraf ərazinin relyefinə uyğun hörülmüşdür. Tunc dövrü siklop tikililərinə aid edilir.

*Əd.*: Seyidov A. Q., Naxçıvan Tunc dövründə, B., 2000.

**GOVURQALA**, Şahtaxtı Govurqalası – Şərur r-nunun Şahtaxtı k.-ndən şm.-q.-də, hündür təpənin üstündə son Tunc – ilk

Govurqala yaşayış yerinin planı və divarlarının kəsiyi.



Dəmir dövrlərinə aid yaşayış yeri (bax *Şahtaxtı* yaşayış yeri).

**GÖMÜR** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 58 *km* məsafədə ona tökülür. Uz. 13 *km*, hövzəsinin sah. 36 $km^2$-dir. Qar, qrunt və yağış suları ilə qidalanır. Yay aylarında yağan leysan yağışları daşqınlara səbəb olur. Tez-tez baş verən sel hadisələri nəticəsində yaşayış məntəqələrinə, yollara və əkin sahələrinə böyük ziyan dəyir. Suvarmada istifadə edilir.

**GÖMÜR** – Şahbuz r-nu ərazisində göl. Gömür çayı hövzəsində, Cindağın (2673 *m* ) şm. yamacında, 2000 *m* hünd.-dədir. Əsasən, qar suları ilə qidalanır.

**GÖMÜR** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* ş.-də, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 438 nəfər (2000); əsasən, heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**GÖMÜR KÜKÜRD YATAĞI** – Şahbuz r-nu ərazisində, Gömür k.-nin yaxınlığındadır. Yataq 19 əsrin 60-cı illərindən məlumdur. Müxtəlif geoloji quruluşa və genezisə malik olan beş sahədə qeyd edilir. Bunlardan ikisi (üst, alt) sənaye əhəmiyyəti kəsb edir. Üst filizsaxlayan sahədə Oliqosen yaşlı andezit və andezit-bazalt süxurları içərisində piritlə birlikdə qeyri-bərabər paylanmış yarımkristallik kükürd möhtəvilərinə rast gəlinir. Gömür–Zəngəzur dərinlik qırılması boyunca kükürd möhtəvilərindən əlavə kiçik yuvacıqlarda opal minerallaşmasına da təsadüf edilir. Alt filizsaxlayan sahədə kükürd buzlaq fəaliyyəti nəticəsində əmələ gəlmiş çaqıl-çınqıl çöküntülərinin içərisindədir. Kükürd buraya kükürdlü və piritli andezitlərdən hidrotermal məhlullar vasitəsilə daşınmış və əlverişli geokimyəvi şəraitdə çökmüşdür. Kükürdün ehtiyatı hesablanmamışdır.

**GÖMÜR MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, Gömür kəndindən 3 *km* c.-q.-də, Gömür çayının sol sahilində, dəniz səviyyəsindən 2000 *m* hünd.-dədir. 7 bulaqdan ibarətdir. Bulaqdan intensiv surətdə hidrogen-sulfid qatışığı ilə birlikdə karbon qazı ayrılır. Suyun temp-ru 15,4–20°C, debiti 230 $m^3$/*gün*, sərbəst karbon qazının miqdarı 1,3 *q/l*-dir. Yeraltı sular qədim karst süxurlarını, kükürdlü süxurları yuyaraq hidrogen-sulfid ionları ilə zənginləşir. Ona görə də buradakı mineral sular büzücü xarakterlidir və xoşagəlməz dada malikdir.

Balneoloji tərkibi:

$$CO_2 1,3\,M3,9\,\frac{HCO_3 74\,Cl13}{Ca33(Na+K)32\,Mg30}\cdot$$

$$\cdot pH\,6,6\,D\,230\,m^3/gün\,T\,20^{\circ}C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumludur. Sudan vannalar şəklində revmatizm, dəri və s. xəstəliklərin müalicəsində istifadə olunur.

**GÖYDAĞ MİS-PORFİR YATAĞI** – Culfa r-nu ərazisində, Zəngəzur silsiləsinin c.-q. yamacında, Başkənddən 2 *km* c.-ş.-də, dəniz səviyyəsindən 2050–2600 *m* hünd.-dədir. Geoloji quruluşunda Üst Eosenin vulkanogen-çökmə süxurları iştirak edir. Göstərilən kompleks süxurlar andezit-dasit intruziyası ilə yarılmış, andezit-dasitlər öz növbəsində qranodiorit intruziyası ilə yarılaraq parçalanmışlar. Yatağın geoloji quruluşunda həmçinin diorit-porfirit və qranodiorit-porfir daykaları iştirak edir. Mis-porfir filizləşməsi eyniadlı intruziyanın apikal və təmas hissələrində təşəkkül tapır. Əsas filizdaşıyıcı struktur şm.-q. istiqamətlidir. Metasomatik süxurlar 2 *km*-dən çox məsafədə izlənilir. Filizlərdə misin və molibdenin yayılması qeyri-bərabərdir və mis 0,1–2,7%, molibden 0,01–0,08%-dir. Yataqda möhtəvi və damarcıq minerallaşma tipi qeyd olunur. Əsas filiz mineralları: pirit, xalkopirit, sfalerit, qalenit, molibdenit, misin törəmə mineralları.

**GÖYDƏRƏ** (1991 ilədək N o r a ş e n) – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 32 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1294 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, təqaüdçülər klubu, tibb məntəqəsi, rabitə şöbəsi var.

**GÖYDƏRƏ NEKROPOLU** – Culfa r-nunun Göydərə k.-ndən şm.-q.-də, hündür dağ yamacında orta əsrlərə aid arxeoloji abidə. Q.-də dərə, şm.-da dağ silsiləsi, ş.-də və c.-da Göydərə kəndi ilə əhatələnmişdir. Kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır



(1990–91). Qəbirlərin hamısı q.-ş. istiqamətindədir. Baş daşıları saxlanmamışdır. Sinə daşları dördkünc prizmatik formadadır. Qəbirlərdən birinin yan tərəfində Azərb. üçün səciyyəvi olan tüfəng və qılınc təsvir edilmişdir. Qoç daşların birinin üzərində ox işarəsi vardır. Abidənin 13–17 əsrlərə aid olması ehtimal edilir.

**GÖYGÖL** – Ordubad r-nu ərazisində çay. Bax *Sağarsu*.

**GÖYGÖL** – Ordubad r-nu ərazisində şirin sulu, axarlı göl. Zəngəzur silsiləsinin c. yamacında, 3065 *m* yüksəklikdədir. Sah. 1,5 *ha*, dərinliyi 6,5 *m*-ə qədərdir. Qış aylarında tamamilə donur. Sahəsi heç vaxt sabit qalmır, çox qarlı illərdə genişlənir, yayda kiçilir. Göldə balıq yaşamır. Ətrafı sıldırım dağ tirələri, çox yerdə çılpaq qayalardan ibarətdir. Ot örtüyü zəif olduğundan çobanlar qoyun sürülərini daha aşağı yaylaqlarda otarır, göldən istirahət yeri və su götürmək üçün istifadə edirlər. *Sağarsu* çayı G.-dən başlanır.

**GÖYGÖL MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Nürgüt k.-ndən 8 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin suayırıcında, dəniz səviyyəsindən 2800–3554 *m* hünd.-dədir. Geoloji quruluşunda lokal Göygöl antiklinalının Üst Eosen–Alt Oliqosen andezit porfiritləri və onların piroklastitləri iştirak edir. Vulkanogen süxurlar Sağarsu qranitoid intruziyası və qranodiorit-porfir, porfirgörünüşlü siyenit-diorit, diorit-porfirit və spessartit daykaları ilə yarılmışlar. Yataq ştokverk tiplidir və Sağarsu qranitoid intruziyasında, Dəbəkli-Ləkətağ və Sağarsu-Göydağ qırılmalarının kəsişdiyi sahədə intişar etmişdir. Ştokverk tipli zonaların qalınlığı 60–140 *m* olub, 900 *m*-dən 1700 *m*-ə qədər məsafədə izlənilir. Filizlərdə misin miqdarı 0,4–1,6%, molibdeninki 0,01–0,05%-dir. Əsas filiz mineralları: pirit, xalkopirit, bornit, kovellin, misin törəmə mineralları və molibdenit. Tekstur əlamətlərinə görə filizlər zolaqvarı və brekçiya tiplidir.

**GÖYHÜNDÜR MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Pəzməri k.-ndən 2 *km* şm.-ş.-də, Vənəndçayın yuxarı axınında, dəniz səviyyəsindən 2150–2600 *m* hünd.-dədir. Eyniadlı filiz sahəsinin mərkəzi hissəsini tutur. Geoloji quruluşunda diorit, qabbro-diorit, qranodiorit, kvars-siyenit-diorit intruziv



Göygöl.

süxurları, həmçinin qranodiorit porfir daykaları iştirak edir. Mis-molibden filizləşməsi damar və damar zonaları tiplidir; 300–3300 şm.-q. istiqamətli pozulmalarla əlaqədardır. Yataqda 6 kvars-mis-molibden damarı və damar zonası aşkar edilmişdir; onların qalınlığı 5,6–15 *m*-dir və 550–1050 *m* məsafədə izlənilir. Damarlarda və damar zonalarda misin və molibdenin yayılması qeyri-bərabərdir və mis 0,44–1,33%, molibden 0,001–0,5% təşkil edir.Əsas filiz mineralları: pirit, xalkopirit, molibdenit, kovellin, bornit, kuprit və malaxit. Tekstur əlamətlərinə görə filizlər xallı və zolaqvarı tiplidir.

**GÖYNÜK** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d. y. st.-ndan 44 *km* şm.-da, dağlıq ərazidədir. Əh. 187 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var.

**GÖYNÜK NEKROPOLU** – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında Tunc dövrünə aid arxeoloji abidə. Arxeoloji qazıntılar aparılmamışdır. Toplanmış zəngin yerüstü maddi mədəniyyət materiallarına əsasən, abidənin e. ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.

**GÖYNÜKSU** – Babək r-nu ərazisində çay. Qahab çayının (Naxçıvançay hövzəsi) qolu. 1120 *m* hünd.-dən başlanır. Uz. 10 *km*. Yeraltı sular, qar və yağış suları ilə qidalanır.

**GÜLEYMAR MİNERAL SUYU** – Culfa r-nu ərazisində, keçmiş Güleymar k.-ndən 1,5 *km* aralı, Əlincəçayın sol qolunun məcrasında, dəniz səviyyəsindən 1820 *m* hünd.-dədir. Bir

neçə bulaqdan ibarətdir. Bulaqlar tektonik qırılmalar boyunca yerləşən çatlardan çıxır. Suların axdığı istiqamətdə dəmir oksidinin qalıqlarından ibarət tünd-narıncı örtük şəklində iz qalır. Suyun debiti 120 $m^3/gün$, temp-ru 18°C-dir.

**GÜLƏBƏTİNTİKMƏ** – Naxçıvan diyarında yayılmış bədii tikmə növü. Xüsusi hazırlanmış qızılı, eləcə də gümüşü saplarla parçanın üzərində örtmə üsulu ilə işlənir. Qədim ənənəyə malik olan G. sənəti Azərb. qadınlarının sevimli məşğuliyyəti idi. 20 əsrin əvvəllərinə kimi güləbətinli geyimlər, xüsusilə varlı ailələr arasında dəb halını almışdı. G.-lər ən çox cehiz əşyalarında – üst geyimi, papaq və araqçın, taxt örtükləri, yastıq və mütəkkələrin, ətriyyat, daraq qabı, güzgü asmalar və s.-nin bəzədilməsində işlədilirdi. G.-lərdə nəbati, həndəsi və zoomorf motivlərə, müxtəlif rəmzi işarələrə, ərəbdilli yazılara və s. təsvirlərə rast gəlinirdi. Naxışlar, əsasən, tünd rəngli, bahalı parçalar (məxmər, tirmə, mahud və s.) üzərində işlənirdi. Azərb.-ın tarixən sənətkarlıq mərkəzləri olan Təbriz, Gəncə, Şuşa, Bakı, Şamaxı və digər ş.-lərində də G. ilə geniş məşğul olmuşlar. Azərb. Tarixi Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, eləcə də rayon tarix-diyarşünasılq muzeylərində G. sənətinin zəngin kolleksiyası toplanmışdır.

*Əd.:* Ə l i y e v a G., Naxçıvanın bədii tikmələri (XIX əsrin sonu – XX əsrin əvvəlləri), Azərb. EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, №8; y e n ə o n u n, Azərbaycanın bədii parça və tikmələri, B., 1990.

**GÜLLÜDAĞ**, K ü l l ü d a ğ – Şahbuz r-nu ərazisində dağ. Naxçıvançayla Şahbuzçayın suayırıcında, kənd Şahbuzdan 500 *m* şm.-dadır. Hünd. 1415 *m*. C. yamacı sıldırımdır.

**GÜLMƏMMƏDOV** Abbas Əli oğlu (19.11.1902, Naxçıvan ş. – 16.3.1969, Bakı) – peşəkar tərcüməçi. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1967). Əmək fəaliyyətinə 1918 ildə başlamış, "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində tərcüməçi redaktor, Azərb. KP MK yanında Partiya Tarixi İn-tunda tərcümə bölməsinin baş elmi işçisi və bölmə müdiri (1941–69) işləmişdir. Marksizm klassiklərinin əsərlərinin, o cümlədən K. Marksın "Kapital" əsərinin bütün cildlərinin, F. Engelsin "Təbiətin dialektikası" əsərinin tərcüməçilərindən biri olmuş, V. İ. Leninin əsərlərinin 4-cü nəşrinin bir neçə cildini təklikdə, bəzilərini isə müştərək tərcümə etmişdir.

**GÜLÜMEY**, G ü l ü m h e y – folklor janrı; adətən, toy və el şənliklərində ifa olunan qədim mahnı-oyun. D i l y a l l ı s ı oyunu da adlanır. Naxçıvan bölgəsi üçün səciyyəvi olan və əsasən, xınayaxdı mərasimində ifa olunan bu oyunda qız-gəlinlər hər bəndi dörd misralı və bütün misralarının sonunda "gülümey" sözü təkrarlanan mahnı oxuyurlar.

*Əd.:* Azərbaycan folkloru antologiyası, c. 1. Naxçıvan folkloru, B., 1994.

**GÜLÜSTAN** (keçmiş adı C u ğ a) – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d. y. st.-dan 5 *km* şm.-q.-də, Araz çayının sol sahilində, düzənlikdədir. Əh. 466 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, 2 kitabxana, tibb məntəqəsi, klub, rabitə şöbəsi, yaxınlığında türbə (bax *Gülüstan türbəsi*) var.

**GÜLÜSTAN DÜZÜ** – Culfa r-nu ərazisində düzənlik. *Arazboyu düzənliklərdən* biri. Ətraflı məlumat üçün bax *Culfa düzü*.

**GÜLÜSTAN MİNERAL SUYU** – Culfa r-nu ərazisində, Gülüstan (keçmiş Cuğa) k.-ndən 2,5 *km* aralı, Əlincəçayın məcrasındadır. Mineral su 1962 ildə qazılmış və dərinliyi 135 *m* olan quyudan çıxır. Suyun temp-ru 21°C, debiti 250 $m^3/gün$.

Balneoloji tərkibi:

$$CO_2\,2{,}0\,M3{,}4\,\frac{HCO_3\,71\,Cl\,16}{(Na+K)38\,Ca37\,Mg25}\cdot$$

$$\cdot pH6{,}4\,D\,250\,m^3/gün\,T\,21^{\circ}C$$

Su karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-natriumlu-kalsiumlu-maqneziumludur. Rusiya Federasiyasındakı "Kislovodsk", Babək r-nundakı "Sirab" suları tiplidir. Mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə oluna bilər.

**GÜLÜCTAN MÜQAVİLƏSİ (1813)** – birinci Rusiya–İran müharibəsinə son qoymuş "əbədi sülh və dostluq müqaviləsi". Oktyabrın 12 (24)-də Qarabağın Gülüstan (adı buradandır) k.-ndə bağlanmışdır.

1812 il oktyabrın 19-dan 20-nə keçən gecə



Aslandüz təpəsində İran qoşunu Rusiya ordusuna məğlub olduqdan sonra İran dövləti Rusiyadan sülh bağlamağı xahiş etmişdi. Səlahiyyətli nümayəndələrin (İran tərəfdən şahın vəkili Mirzə Əbdülhəsən xan, Rusiya tərəfdən Qafqazın yeni Baş komandanı Nikolay Rtişşev) apardığı danışıqlar nəticəsində əvvəlcə barışıq aktı, sonra isə on bir maddədən ibarət sülh müqaviləsi imzalanmışdı. G. m. -nə əsasən hər iki dövlət arasında yeni sərhəd xətləri müəyyən edilirdi. Şimali Azərb. xanlıqlarının (Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış), həmçinin, Dağıstan, Gürcüstan, İmeretiya, Quriya, Minqreliya və Abxaziyanın Rusiyaya birləşdirilməsi təsdiqlənirdi; hər iki dövlətin ticarət gəmilərinə Xəzər dənizində sərbəst üzmək və sahillərə yan almaq, tacirlərə isə sərbəst ticarət etmək ixtiyarı verilirdi; rus tacirləri İranın daxili gömrük vergilərindən azad olunurdu. Müqavilə Xəzərdə hərbi donanma saxlamağı Rusiyanın müstəsna hüququ elan etdi.

1814 il sentyabrın 15-dən qüvvəyə minən G. m. müqaviləsi vahid Azərb.-ın iki işğalçı dövlət tərəfindən bölüşdürülməsinin başlanğıcını qoydu, Naxçıvan və İrəvan, habelə Cənubi Azərb. xanlıqları üzərində İranın hakimiyyətini bərpa etdi.

**GÜLÜSTAN TÜRBƏSİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Culfa r-nunun Gülüstan (keçmiş Cuğa) k. yaxınlığındadır. *Möminə xatun türbəsinin* təsiri ilə 13 əsrin əvvəllərində tikilmiş G. t. Azərb.-ın qülləvarı





Türbənin ornament bəzəkləri

türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşıdan, orijinal qurulušlu kürsülüyü (küncləri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilmişdir. Azərb.-ın digər türbələrindən fərqli olaraq, G. t.-nin sərdabəsi yerüstü hissədə (kürsülüyündə) yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. Gövdənin oturacaqla birləşən hissəsi, eləcə də günbəzə keçid yeri stalaktit şəkilli oyma qurşaqla əhatə edilmişdir. Ornamentlərlə digər bəzək elementlərinin üzvi surətdə birləşdirilməsi və əlaqələndirilməsi abidəyə qabarıq və elastik görkəm verir. Şəkil, bax səh. 226.

*Əd.:* S a l a m z a d ə Ə.V., Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri, B., 1976; Q i y a s i C., Nizami dövrünün memarlıq abidələri, B, 1991.

Türbənin planı.



**GÜLŞƏNABAD** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 25 *km* şm.-da, Cəhri çayının (Naxçıvançayın qolu) sahilində, orta dağlıq ərazidədir. Əh. 475 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana, məscid var.

**GÜMRÜ MÜQAVİLƏSİ (1920)** – Türkiyə ilə Ermənistan Respublikası arasında müharibəni dayandırmaq və uzunmüddətli sülh ya-



Gümüşlü qəsəbəsindən görünüş.

ratmaq məqsədilə bağlanmış müqavilə; 1920 il dekabrın 2-də imzalanmışdır. G. m. Türkiyə ilə Ermənistan arasındakı müharibəyə son qoyulduğunu elan edir və bu iki dövlət arasında sərhəd zolağını müəyyənləşdirirdi. Müqavilənin 2-ci maddəsində Naxçıvan mahalının idarəçiliyinə dair aşağıdakı razılaşma ifadə edilmişdi: "Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Kömürlü dağı, Saraybulaq, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistan qarışmayacaq, həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır".

G. m.-nin 12-ci maddəsinə əsasən Türkiyə hökuməti həmçinin Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürürdü. Ən başlıcası isə bu idi ki, 10-cu maddəyə əsasən Ermənistan hökuməti Antanta dövlətlərinin Türkiyə Böyük Millət Məclisi tərəfindən qəti surətdə rədd edilmiş qarətçi Sevr müqaviləsini (1920, 10 avqust) etibarsız saydı və bununla da özünün 1918 il 4 iyun tarixli Batum müqaviləsi ilə nəzərdə tutulan ərazilərin hüdudlarında mövcudluğu ilə razılaşdı. G. m.-nin Naxçıvan mahalına münasibətdə müəyyən ədalətsiz istisnaları (qədim türk torpaqları Uluxanlı, Qəmərli kəndlərinin və ən başlıcası isə, Böyük Vedi ətrafındakı bir çox kəndlərin Ermənistana verilməsi) nəzərə alınmazsa, bu müqavilə Naxçıvan Muxtar Respublikasının indiki sərhədlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı.

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni tarix elmləri doktoru İ.Hacıyev), B., 1999.

**GÜMÜŞLÜ** – Şərur r-nunda qəsəbə. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 km şm.-ş.-də, Arpaçayın sol sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Yaşayış məntəqəsi Gümüşlü polimetal yatağının yaxınlığında salınmışdır (1954). Əh. 243 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi var. Arpaçay dəryaçası kəndin ərazisindədir. Kəndin şm.-nda, dağ silsiləsinin Arpaçaya enən yamacında orta əsrlərə aid *Dəvəli* yaşayış yeri aşkar olunmuşdur.

**GÜMÜŞLÜ POLİMETAL YATAĞI** – Şərur r-nu ərazisində, Arpaçayın aşağı axınındadır. 7 əsrdən məlumdur. Yataq eyniadlı antiklinalın nüvə hissəsində və c.-q. qanadında yerləşir. Geoloji quruluşunda Sədərək (Üst Jivet mərtəbəsi) və Danzik (Fran mərtəbəsinin aşağı hissələri) layları (əhəngdaşı, gilli şist, qumdaşı) iştirak edir. Antiklinalın c.-q. qanadı törəmə qırışıqlıqla və bir çox pozulmalarla mürəkkəbləşmişdir. Filizləşmə törəmə antiklinalların eninə pozulmalarla kəsilmiş tağ hissələri ilə əlaqədardır; qalenit və sfalerit minerallarının möhtəvi və bütöv filiz yuvalarından təşkil olunmuşdur. Layvarı filiz cisimləri daha çox əhəmiyyətlidir. Sədərək lay dəstəsinin əhəngdaşıları iki horizont təşkil edir. Filizlərdə qurğuşun 4,5%, sink isə 0,5%-dir. Filizin mineraloji tərkibi qalenit, serusit, sfalerit, smitsonit və kalamindən ibarətdir. Yataq 1954 ildən istismara verilmiş, hazırda istismarı dayandırılmışdır.

**GÜNNÜT** – Şərur r-nunda kənd. R-n mərkəzindən 22 *km* aralı, Naxçıvan–Sədərək avtomobil yolunun sağ tərəfində, düzənlikdədir. Kənd 1992 ildə erməni işğalçıları tərəfindən tamamilə dağıdılmış, əhalisi Mahmudkənd k.-nə köçmüşdür.

**GÜNNÜT-QAPICIQ FİZİKİ-COĞRAFİ RAYONU** – Nax. MR ərazisində fiziki-coğrafi r-n. Naxçıvan fiziki-coğrafi vilayətinin bir hissəsi. 1000 *m*-dən yüksəkdə yerləşən dağlıq əraziləri əhatə edir. Coğrafi ədəbiyyatda Naxçıvan dağlıq ərazisi rayonu da adlanır. Çox hissəsini Zəngəzur və Dərələyəz silsilələri, həmçinin onların Araz çayına tərəf ayrılan qolları tutur. Ərazinin ən yüksək sahəsi Zəngəzur silsiləsidir. Burada hünd. 3000 *m*-dən çox olan bir neçə zirvə (Qapıcıq d., 3904 *m*; Yağlıdərə d., 3827 *m*; Qazangöl d., 3829 *m*; Sarıdərə d., 3754 *m* və s.) var. Dərələyəz silsiləsi nisbətən alçaqdır (maks. hünd. 3120 *m*, Kükü d.). Bu silsilənin Cəhri çayından q.-dəki hissəsi qövs şəklində c.-a doğru uzanaraq alçalır. R-nun geoloji quruluşunda Paleozoydan başlamış Neogenə qədər olan bütün çöküntü kompleksləri iştirak edir. Faydalı qazıntıları: polimetallar, molibden, mis filizləri, müxtəlif növ tikinti materialları. Mineral su bulaqları (Badamlı, Sirab, Vayxır və s.) var. Yayı quraq keçən soyuq iqlim, 3000 *m*-dən yüksəkdə dağlıq tundra iqlimi hakimdir. Orta temp-r yanvarda –6-dan –10°C-yədək və daha aşağı, iyulda 10–22°C-dir. İllik yağıntı 500–800 *mm*. Naxçıvançay və onun qolları (Cəhri, Şahbuz və s.), Əlincəçay, Gilançay, Vənənd, Əylis, Ordubad çayları bu r-ndan başlanır. Çoxlu kiçik göl var. Bir neçə su anbarı (Arpaçay, Batabat, Qanlıgöl və s.) yaradılmışdır. Torpaqları əsasən, dağ-şabalıdı, qəhvəyi, dağ-meşə, çimli dağ-çəmən tiplidir. Bitki örtüyündə dağ-kserofit bitki qruplaşmaları (alçaq və orta dağlıqda), dağ çölləri, subalp və alp çəmənləri (yüksək dağlıqda) üstündür. 1800–2400 *m* hünd.-də kiçik meşə (palıd, göyrüş, yemişan, ağcaqayın, ardıc və s.) sahələrinə rast gəlinir. Qaya keçisi, muflon, çöldonuzu, tülkü, süleysin, ayı, canavar, daşlıq dələsi, boz dovşan, Xəzər uları, kəklik, dovdağ, göyərçin və s. var.

*Əd.:* B a b a y e v S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası. B., 1999.

**GÜZNÜT** – Babək r-nunda kənd. Çeşməbasar bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 10 *km* aralı, Naxçıvan–Culfa avtomobil yolunun sol kənarında, düzənlikdədir. Əh. 1480 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, ambulatoriya, məscid var.





Günorta daşı

**GÜNORTA DAŞI**, G ü n o r t a c – Babək r-nu ərazisində, Çalxanqala və Paiz k.-ləri arasındakı Çalxandağın q. yamacında hünd. 1500 *m*-ə çatan dik və enli qaya. Xalq arasında Günortacı da deyilir. G. d. günortaya qədər kölgəyə bürünmüş olur, düz günorta vaxtı isə kölgə tamamilə çəkilir. Ətrafdakı Çalxanqala, Təzəkənd, Xıncab və Sust kəndlərinin camaatı ta qədimdən ilin bütün fəsillərində əkin-biçin, sağın və s. təsərrüfat işləri zamanı günortanı səhfsiz göstərən G. d.-ndan "saat" kimi istifadə etmişlər. "Günortac" toponimi "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı, Təpəgözün gözünü çıxaran Basatın yurdu kimi xatırlanır. Bu yer isə, ehtimala görə, Təpəgözün məskən saldığı, camaata qan uddurduğu Salaxana (Salaxan) dərəsindəki mağaranın yaxınlığında olmalıdır. Salaxananın Babək r-nunun dağlıq sahəsində, Qazan yaylağının q. ətəklərndə oldbuğu nəzərə alınarsa, G. d.-nın "Kitabi-Dədə Qorqud"da adı çəkilən "Günortac"la (prof. M.Seyidov, akad. V.V. Bartolda istinadən onu "Günün doğduğu uca zirvə" hesab edir) bilavastə bağlılığını söyləmək mümkündür.

*Əd.:* B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası, c. 2, B., 2000.

# H



Hacılı Raiq

**HACI XAN KƏNGƏRLİ** (?–?) – Naxçıvan xanı. Heydərqulu xan Kəngərlinin ölümündən (1763/64) sonra taxta çıxmışdı. Onun hakimiyyəti dövründə Naxçıvan xanlığı zəifləmişdi. İran hökmdarı Kərim xan Zənddən [1760–79] asılılığı qəbul etmişdi. Sonralar Kərim xan onu Şiraza dəvət edib kiçik bir günah üstündə əsir almış, yerinə Heydərqulu xanın oğlu Rəhim xan keçmişdi.

*Əd.:* Bax *Naxçıvan xanlığı* məqaləsinin ədəbiyyatına.

**HACI MOLLA ABDULLA** (1843, indiki Şərur r-nunun Şahtaxtı k. – ?, Naxçıvan) – ziyalı, din xadimi. Hüseyn *Cavidin* atasıdır. Bax *Rasizadə* Abdulla Məşədi Qulu oğlu.

**HACIQIR DAĞLARI** – Babək r-nu ərazisində alçaq sıra dağlar. Naxçıvançayın sağ sahilində, Nəzərabad k.-ndən 1 *km* ş.-dən başlayaraq, c.-a doğru uzanır. Uz. 4 *km*. Ayrı-ayrı yüksəkliklərdən ibarətdir. Ən yüksək zirvəsinin hünd. 1058 *m*.

**HACILAR** – türk tayfası. Kəngər tayfalarından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli qol və tirələrin içərisində hacılar nəslinin də adı çəkilir.

Hacılı Ramiz



**HACILI** Raiq Əli oğlu (d. 13.4.1940, Naxçıvan ş.) – kimyaçı. Kimya elmləri doktoru (1995). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) kimya fakültəsini (1963) və Azərb. Milli EA indiki Polimer Materialları İn-tunun aspiranturasını (1971) bitirmişdir. Naxçıvan Zona Təcrübə Stansiyasında elmi işçi və laboratoriya müdiri (1963–65), Polimer Materialları İn-tunda baş elmi işçi (1975–84) işləmişdir. 1984 ildən həmin in-tda laboratoriya müdiridir. Tədqiqatları polifunksional ketonların alınmasının səmərəli üsullarının işlənib hazırlanmasına, quruluşlarından asılı olaraq, reaksiyaya girmə qabiliyyətlərinin öyrənilməsinə, onların əsasında təbii bioloji fəal maddələrin sintetik analoqlarının alınmasına, bioloji fəallıqla quruluş arasındakı asılılıqların və praktik tətbiq sahəsinin öyrənilməsinə həsr olunmuşdur. Respublikada və xaricdə (ABŞ, Avstriya, İspaniya, Türkiyə, MDB ölkələri) dərc olunmuş 110-dan çox elmi məqalənin, 40-dan çox ixtira və patentin müəllifidir. Bir sıra elmi məclislərdə məruzələr etmişdir.

**HACILI** Ramiz Əli oğlu (d. 5.9.1937, Naxçıvan ş.) – mülki və sənaye tikintisi sahəsində mütəxəssis, alim. Texnika elmləri doktoru (1992), prof. (1999), Beynəlxalq Mühəndislik Akademiyasının m. üzvü (1999). Azərb. Politexnik İn-tunu (1960) və Azərb. Elmi-Tədqiqat Tikinti Materialları və Qurğuları İn-tunun aspiranturasını (1968) bitirmişdir. Həmin in-tda baş elmi işçi (1968–72) olmuş, Azərb. Sənaye Tikintisi Nazirliyinin 8 saylı dəmir-beton zavodunun (1972–76), Baş Bakı Tikinti İdarəsinin 3 saylı evtikmə kombinatının (1976–80) direktoru, "Aqrotikintitəşkil" trestinin müdiri (1980–87), Azərb. Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İn-tunda bölmə müdiri (1987–91) vəzifələrində çalışmışdır. 1995 ildən Qaradağ sement zavodunun direktor müavinidir. Yeni sinif kimyəvi səthi-aktiv əlavələrin tədqiqinə, nəzəri işlənməsinə və onların təsir mexanizminin kolloid kimyanın müddəalarına istinadla əsaslanmasına, ən səmərəli əlavələrin seçilməsinə, alınmış nəticələrin dəmir-beton məmulatları istehsalında tətbiqinə, kaolin gilləri əsasında odadavamlı materialların istehsalının nəzəri əsaslarına, sementin və betonun xassələrinin tənzimlənməsinə həsr olunmuş 135-dən çox əsərin, o cümlədən 3 kitabın (2 monoqrafiya,



1 dərs vəsaiti), 21 ixtiranın (5-i istehsalatda tətbiq edilmişdir) müəllifidir. Bir sıra ümumittifaq, regional və beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r l ə r i: Mineral yapışdırıcı maddələrin texnologiyası, B., 1999; Поверхностно-активные вещества в строительстве, Б., 1981; Использование продуктов и отходов нефтехимии в строительстве, Б., 1987.

**HACINİYYƏT** – Babək r-nunda kənd. Tumbul bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 12 *km* q.-dədir. Əh. 207 nəfər (2000); taxılçılıq, heyvandarlıq, quşçuluq və tərəvəzçiliklə məşğuldur. Feldşer-mama məntəqəsi var.

**HACIVAR** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-ş.-də, Naxçıvançayın sol sahilində, Naxçıvan–Sirab avtomobil yolunun kənarında, dağətəyi ərazidədir. Əh. 677 nəfər (2000); taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğuldur. Orta məktəb, klub, məscid var.



Hacıyev Asəf

**HACIYEV** Asəf Hacı oğlu (d. 29.5.1951, Gəncə) – riyaziyyatçı. Fizika-riyaziyyat elmləri doktoru (1992 ), prof. (1996), Azərb. Milli EA m. üzvü (2001). Azərb. komsomolu mükafatı laureatı (1981). *H. M. Hacıyevin* oğludur. Moskva Dövlət Un-tinin mexanika-riyaziyyat fakültəsini (1973) və aspiranturasını (1978) bitirmişdir. Azərb. Milli EA Kibernetika İn-tu ehtimal nəzəriyyəsi və statistik üsullar laboratoriyasının (1996; 1999 ildən şöbə), eyni zamanda Bakı Dövlət Un-ti ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının ( 1996 ildən) müdiridir. Ehtimal nəzəriyyəsi və riyazi statistika sahəsində tədqiqatların müəllifidir. Dünyanın tanınmış elm mərkəzlərində mühazirələr oxumuş, tədqiqat işləri aparmış, İsveçdə (1984), Almaniyada (1985, 1992), ABŞ-da (1989, 1999, 2000), Portuqaliyada, Fransada (1989), Türkiyədə (1993) və s. ölkələrdə çalışmışdır. Məqalələri dünyanın mötəbər elmi jurnallarında dərc olunmuşdur. Azərb. Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatıdır.



Hacıyev Əsgər

**HACIYEV** Əsgər Bayraməli oğlu (10.5.1938, Ordubad r-nunun Behrud k. – 1998, orada) – istehsalat qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1976). Əmək fəaliyyətinə 1955 ildə Sumqayıtdakı 1 saylı tikinti trestində başlamış, 1957 ildən Bakıda sənaye obyektlərinin tikintisində çalışmışdır. 1982 ildən orta texniki peşə məktəbində təlim ustası idi. 1981 ildə ona Gənclərin hami tərbiyəçisi fəxri adı verilmişdi. AKP 30-cu qurultayında (1981) MK üzvü seçilmişdir. İki dəfə Lenin ordeni və medallarla təltif edilmişdir.



Hacıyev Hacı

**HACIYEV** Hacı Məmmədbağır oğlu (21.3. 1919, indiki Culfa r-nunun Yaycı k. – 15.4.1988, Gəncə) – baytar həkimi, baytarlıq elmləri doktoru (1967), prof. (1967). Azərb. Kənd Təsərrüfatı İn-tunun (indiki Kənd Təsərrüfatı Akademiyası) baytarlıq fakültəsini bitirmişdir (1941). Həmin in-tun k. t. heyvanlarında daxili yoluxmayan xəstəliklər, klinik diaqnostika və cərrahiyyə kafedrasında müəllim, dosent, prof., sonralar kafedra müdiri (1962–78), elmi işlər üzrə prorektoru (1978 ildən) olmuşdur. H.-in təşəbbüsü ilə Naftalan neftinin tərkibinin ardıcıl surətdə öyrənilməsi və baytarlıqda tətbiqi üzrə problem laboratoriyası təşkil edilmişdi (1962). 3 monoqrafiyanın, 5 dərsliyin, 150-dən çox elmi məqalənin, "Baytarlıq terminləri lüğəti"nin müəllifidir. Naftalan nefti ilə müalicə sahəsində elmi işləri 1971 ildə Meksikada beynəlxalq konqresin materiallarına daxil edilmişdir.

Ə s ə r l ə r i: Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəlikləri, B., 1977; Kənd təsərrüfatı heyvanlarının müayinəsi, B., 1984; Klinik diaqnostika (yenidən işlənmiş və əlavə edilmiş 3-cü nəşri), B., 1985.

Hacıyev Hümmət



**HACIYEV** Hümmət Ələkbər oğlu (d. 10.10. 1935, Babək r-nunun Nehrəm k.) – neftçi-geoloq. Geologiya-mineralogiya elmləri namizədi (1970). Azərb. Respublikasının əməkdar geoloqu (1985). Naxçıvan Müəllimlər İn-tunun fizika-riyaziyyat fakültəsini (1952), Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini (1958) bitirmişdir. 1970–81 illərdə "Salyanneft"in baş geoloqu olmuşdur. 1981 ildən Azərb. Respublikası Dövlət Neft Şirkətinin Ə.Əmirov ad. Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin baş geoloqudur. 30-a qədər elmi məqalənin, 3 ixtiranın müəllifidir. Azərb.-da fəaliyyət göstərən bir sıra xarici neft şirkətlərinin ekspertidir. Beynəlxalq elmi simpoziumlarda məruzələr etmişdir. H.-in təşəbbüsü ilə Naxçıvanda neft yataqlarının proqnozlaşdırılmasına başlanmışdır. "Hümmət Ələkbəroğlu" təxəllüsü ilə bədii yaradıcılıqla da məşğuldur. "Geoloqun poeziyası" (B., 2000; "Qızıl qələm" mükafatı) kitabı nəşr olunmuşdur.



Hacıyev İsmayıl



Hacıyeva Ninel

Hacıyeva Sürəyya



**HACIYEV** İsmayıl Muxtar oğlu (d. 21.1.1951, Culfa r-nunun Xanağa k.) – tarixçi. Tarix elmləri doktoru (1999). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) tarix fakültəsini bitirmiş (1974). Culfa r-nunun Xoşkeşin kənd məktəbində müəllimlik etmişdir (1977 ilədək). 1978 ildən Naxçıvan Dövlət Un-tində müəllim, baş müəllim, dosent, eyni zamanda ictimai peşələr fakültəsinin dekanı (1983–84), tarix-filologiya fakültəsinin dekan müavini (1984–85), Naxçıvan Özəl Un-tində (1994–96), Naxçıvan Dövlət Un-tində (1996–97) elmi işlər üzrə prorektor olmuşdur. 1997 ildən un-tin tədris işləri üzrə prorektorudur. Azərb.-ın milli dövlətçilik tarixində Nax. MR-in yeri mövzusu H.-in elmi fəaliyyətində mühüm yer tutur. Böyük Vətən müharibəsində (1941–45) Azərb. qadınlarının arxa cəbhədə ictimai-siyasi və mədəni fəaliyyəti, Naxçıvan bölgəsinin ərazi taleyi, sosial-iqtisadi və tarixi məsələlərinə dair tədqiqatlar da aparmışdır. İngilis dilində "Naxçıvan Muxtar Respublikası" (1998) soraq-məlumat kitabının müəllifidir. Türkiyədə (1995, 1998, 1999, 2000), Qazaxıstanda (2000) və Naxçıvanda (1996) tarixçilərin beynəlxalq simpozium və konqreslərində məruzələr etmişdir. ABŞ Bioqrafiya İn-tu tərəfindən "İlin adamı" adına layiq görülmüşdür (2001).

Ə s ə r l ə r i: Böyük Vətən müharibəsi illərində Azərbaycan qadınlarının ictimai həyatda iştirakı, B, 1990; Bilsin ana torpaq... (Naxçıvan zəhmətkeşləri Böyük Vətən müharibəsi illərində), B., 1991; Tarixdə və günümüzdə Naxçıvan (türk dilində), Ankara, 1998; Türk dünyasının alim və şair hökmdarları B., 1998; Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtibçi), B., 1999; Naxçıvan və naxçıvanlılar, B., 2001.

**HACIYEVA** Ninel Zeynal qızı (d. 4.12.1926, Ordubad r-nunun Əylis k.) – dilçi, türkoloq. Filologiya elmləri doktoru (1970), prof. (1980). 1937 ildə atası repressiya qurbanı olduqdan sonra anası ilə birlikdə Leninqrada (indiki Sankt-Peterburq), 1939 ildə isə Moskvaya köçmüşdür. MDU-nun Şərq bölməsini (1948), SSRİ EA Dilçilik İn-tunun aspiranturasını (1952) bitirmişdir. 1954–79 illərdə həmin in-tda baş elmi işçi olmuş, 1979 ildən müxtəlif ailələrə mənsub dillərin müqayisəli-genetik tədqiqi şöbəsinə rəhbərlik etmişdir. Azərb. dilinə, türk dillərinin sintaksisinə və müqayisəli-tarixi qrammatikasına, türkologiyanın nəzəri problemlərinə dair tədqiqatların müəllifidir. Beynəlxalq türkoloji konfrans və simpoziumlarda məruzələr etmişdir. Elmi kadrlar hazırlanmasında xidməti var. SSRİ XTNS-nin gümüş və bürünc medalları ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Синтаксис сложноподчиненного предложения в азербайджанском языке, М., 1963; Основные пути развития синтаксической структуры тюркских языков, М.1973; Проблемы ареальной лингвистики, М., 1975; Тюркоязычные ареалы Кавказа, М., 1979; Сравнительно-историческая грамматика тюркских языков (совм. с Б.А.Серебренниковым), М. 1979.

**HACIYEVA** Sürəyya Xəlil qızı (d. 21.3.1938, Ordubad r-nunun Əndəmiç k.) – istehsalat qabaqcılı. SSRİ Dövlət mükafatı laureatı (1982). Əmək fəaliyyətinə 1954 ildə Y.Məmmədəliyev ad. Ordubad baramaaçan f-kində başlamışdır. 1966 ildən Bakıda Volodarski ad. tikiş f-kində (indiki "Bakı Tikiş evi" açıq tipli səhmdar cəmiyyəti) tikişçi işləyən H. yüksək əmək göstəricilərinə nail olmuşdur. Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, II və III dərəcəli Əmək şöhrəti ordenləri ilə təltif edilmişdir.

**HAÇADAĞ** – Culfa r-nu ərazisindəki *İlandağın* xalq arasında adı. Şumer mənşəli qədim əfsanəyə görə, Nuh peyğəmbərin gəmisi Gəmiqayadan Ağrı dağına yola düşərkən İlandağın zirvəsinə elə güclü toxunmuşdur ki, dağ haçalanmışdır. Ehtimal ki, dağın adı da bu əfsanə ilə bağlıdır.

**HADİQAİB** – Şərur r-nunda, Axuraçayın sol sahilində hündür dağlarla əhatələnmiş dərədə orta əsrlərə aid yaşayış yeri. Sah. 150x60 *m*. Əksəriyyəti dördbucaqlı formada olan evlərin qalıqları (hünd. 50–80 *sm*) dövrümüzədək saxlanmışdır. Yaşayış yerində orta əsrlər üçün səciyyəvi olan bir neçə təndir qalığı, əllə, bəziləri isə dulus çarxında səliqə ilə hazırlanmış saxsı məmulatı (küp, qazan, küpə



Hadiqaib yaşayış yerindən tapılmış şirli saxsı məmulatı.



və s.) aşkar olunmuşdur. Qabların bəziləri (kasa və boşqab tipli qablar) ağ anqob üzərindən yaşıl, digərləri mavi, həmçinin göyümtül rəngli şirlə örtülmüşdür. Tapıntılara əsasən, H. yaşayış yerinin 10–18 əsrlərə aid olması ehtimal edilir.

**HADİQAİB MAĞARASI** – Şərur r-nunda Hadiqaib yaşayış yeri yaxınlığında, sıldırım qayaların yanında mağara. Uz. 10 *m*-dən artıq, hünd. 2, bəzi yerlərdə 3 *m*-ə çatır. Ağız hissəsi aşağıdan daşlarla hörülmüşdür. Ağız hissədən 2 *m* içəriyə doğru qazılmış hissədə itiuclu obsidian (d ə v ə g ö z ü) qəlpələri səpələnmişdir. Mağarada arxeoloji tədqiqat işi aparılmamışdır. Əldə olunan silah nümunəsinə əsasən mağaranın daş dövründə ibtidai insanların yaşayış məskəni olması ehtimal edilir.

**HADİQAİB PİRİ** – Şərur r-nunda ziyarətgah. Rəvayətə görə, 18 əsrin sonlarına yaxın Hadiqaib yaşayış yeri basqın nəticəsində yandırılmış, sonralar burada bitən qol-budaqlı armud ağacı sitayiş yerinə çevrilmişdir. Yerli camaat arasında yaranmış adətə görə dilək ağacı sayılan bu ağaca əski parçaları bağlayar, altında dini ayinlər icra edər, qurban kəsərdilər.

**"HAXIŞTA"** – 1) mərasimlərlə (toy, bayram və s.) bağlı oyun-mahnı. Naxçıvanda geniş yayılmış folklor janrlarındandır. "H."-da, adətən, qadınlar dəstə tutur, solist reçetativ-deklomasiya üslubunda həyat, məişət, məhəbbət mövzularında şerlər (daha çox bayatı formasında) deyir, dəstə isə hər misradan sonra "haxışta" sözünü təkrar edərək, əl çala-çala oynayırlar. 2) əsasən, qadınların ifa etdikləri yallı rəqs melodiyası; məqam əsası şur, musiqi ölçüsü 6/8, tempi mülayimdir.

M ə t n: Azərbaycan folkloru antologiyası, c.1. Naxçıvan folkloru, B., 1994.

**HAQQIXLIQ NEKROPOLU** – Şahbuz r-nunun Külüs k. yaxınlığında, Külüsçayın sol sahilində e.ə. 2–1-ci minilliyin əvvəllərinə aid qəbir abidələri. Hündür təpənin üzərində yerləşən nekropol şm.-ş. və c.-ş. tərəfdən uca dağlarla əhatə olunmuşdur. Daş qutu qəbirlərdən ibarətdir. 1990 ildə tədqiqat işləri aparılmış və dağıdılmış iki qəbir təmizlənmişdir. Qəbirlərdən insan skeleti qalıqları, ətrafından isə heyvan və quş fiqurları, çəhrayı və boz rəngli gil qab qırıqları aşkar olunmuş, tunc




Haqqıxlıq nekropolu tapıntıları: 1, 3. Vaza tipli gil qablar. 2. Parç tipli gil qab. 4, 6. Kasa tipli gil qablar. 5. Dopu tipli gil qab. 7, 8. Tunc xəncər və əşya.

xəncər, nizə ucu, heyvan sümükləri, xeyli miqdarda əqiq muncuqlar, bilərzik, sırğa, tuncdan üzük və pilək, asmalar (cızma, çərtmə naxışlarla bəzədilmiş) küpə, kasa, qədəh və parç formalı gil qablar tapılmışdır.

*Əd.*, S e y i d o v A. Q., Naxçıvan Tunc dövründə, B., 2000.

**HAQVERDİYEV** Əyyub Məmmədəli oğlu (15.3.1911, Naxçıvan ş. – 12.6.1996, orada) – aktyor. Azərb. Respublikası xalq artisti (1964). 1930–96 illərdə C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir. Komik rollar ifaçısı kimi tanınmış, lakin dramatik və faciəvi obrazlar da yaratmışdır. Rolları: Məşədi İbad, Vəli ("O olmasın, bu olsun", "Arşın



Haqverdiyev Əyyub



Ə.M.Haqverdiyev Məmiş ("İtirilən sağlıq", H.İbrahimov) rolunda.

mal alan", Ü.Hacıbəyov), Dursun ("Durna", S.Rüstəmov), Mirzə Səməndər, Aqşin ("Almaz", "Od gəlini", C.Cabbarlı), Surxay ("Toy", S.Rəhman), Məmiş ("İtirilmiş sağlıq", H.İbrahimov), Laert ("Hamlet", U.Şekspir), Kürd Musa, Xosrov ("Vaqif", "Fərhad və Şirin", S.Vurğun) və s.

*Əd.:* V ə z i r o v C., Güldürən-ağladan, Naxçıvan, 1998.

**HARAMI**, H ə r ə m i – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsinin c.-q.-ndə dağ. Hünd. 1316 *m*. Biləv k.-ndən 4 *km* c.-q.-dədir.

**HARAMI AŞIRIMI** – Ordubad r-nu ərazisində aşırım. Zəngəzur silsiləsinin c.-q. yamacında, Biləv k.-ndən 4 *km* c.-q.-dədir. Hünd 1290 *m*.

**HATƏMBƏY ORDUBADİ** Məlik Bəhrambəy oğlu (?, Ordubad ş. – 25.5.1610, Məşhəd) – dövlət xadimi, mədəniyyət himayəçisi. Nəsirəddin Tusinin nəslindəndir. Atasının ölümündən sonra onun yerinə Ordubadın kələntəri vəzifəsinə təyin olunmuş, sonralar Xoy, Yəzd və Şiraz hakimlərinin yanında xidmət etmişdir. I Şah Abbasın [1587–1629] hakimiyyətinin ilk illərində Səfəvilər sarayında maliyyə işlərinə nəzarət etmiş, 1592 ildə vəzir ( (etimadüd-dövlə) təyin olunmuş, Səfəvilər dövlətinin siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. I Şah Abbas 1606 ildə Ordubada ziyarətindən sonra şəhəri soyurqal olaraq H. O.-yə bağışlamışdı. O, şəhərdə geniş abadlıq işləri aparmış, ictimai binalar tikdirmişdir. Elm və mədəniyyət xadimlərinə himayəçilik etmişdir. H. O. bədii yaradıcılıqla da məşğul olmuş "Safi" təxəllüsü ilə türk (Azərb.) və fars dillərində şerlər yazmışdır. Qəflətən vəfat etmiş H. O.-nin cənazəsi Təbrizə, sonra isə Məşhədə aparılmış, İmam Rza məqbərəsinin aşağı hissəsində dəfn olunmuşdur.

**HAVUŞ**, A v u ş – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2338 *m*.

**HAVUŞ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 35 *km* ş.-də, dəniz səviyyəsindən təqr. 2000 *m* hünd.-də, Dərələyəz silsiləsinin yamacında, Ermənistanla sərhəddədir. 1992 ilin mayında Ermənistanın silahlı təcavüzü ilə əlaqədar əhalisinin bir hissəsi köçürülmüşdür. Məktəb, klub, kitabxana var. Ərazisində orta əsrlərə aid *Tamaşalı* yaşayış yeri və qəbiristanlıq yerləşir.

**HAVUŞ QIZ QALACI** – Şərur r-nunun eyniadlı kəndinin ş.-ndə, sıldırım qayalar üzərində abidə. Qayanın içərisində oyulmuş tacvarı sonluqdan ibarətdir. Xalq arasında "Qız evi", "Qız qayası" da deyirlər. Abidənin orta əsrlərə aid olması ehtimal edilir.

**HAVUŞ NEKROPOLU** – Şərur r-nunun eyniadlı kəndi yaxınlığında, dağ yamacında qədim qəbiristan. Kəşfiyyat xarakterli yerüstü tədqiqatlar nəticəsində maddi mədəniyyət nümunələri (xüsusilə, saxsı qab qırıqları) toplanmışdır. Tapıntılara əsasən H.n.-nun eramızın 2–4 əsrlərinə aid olması ehtimal edilir.

**HAVUŞ PİRİ** – Şərur r-nunun eyniadlı kəndinin şm.-ş. qurtaracağında, sıldırım qayalar arasında mağara. Dərinliyi 15 *m*-dən artıqdır. Eni 3, bəzi yerlərdə 4 *m*-dir. Giriş hissəsi tacvarı formada oyulmuş, içərisində cızma və qazma üsulu ilə həkk edilmiş əli nizəli bir neçə döyüşçü rəsmi var. Mağarada 1x1 *m* ölçüdə təmizləmə işi aparılmış, 40 *sm* dərinlikdə insan skeletləri aşkar edilmiş, 1 *m* dərinlikdən iti uclu qara rəngli silah sınığı tapılmışdır. Qədim insan məskəni olması ehtimal edilən mağaranın pirə çevrilməsi əcdadlara və onların ruhlarına olan inamlarla bağlıdır. Buradakı tək armud ağacından da pir kimi istifadə edilir; övladı olmayan qadınlar ağacın budaqlarından nənni asır və arzularını diləyirlər.

**HAVUŞÇAY** – Şərur r-nu ərazisində çay. Axura çayının sağ qolu. Uz. 12 *km*, hövzəsinin sah. 31 $km^2$-dir. Dərələyəz silsiləsinin c.-q. yamaclarından, Havuş dağının ətəklərindən (2338 *m* hünd.-dən) başlanır. Mənsəbindən 11 *km* məsafədə, 1100 *m* hünd.-də Axuraya tökülür. Əsasən, yağış və qrunt suları ilə qidalanır.

**HEYDƏR BAĞI VƏ PARKLARI** – Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə salınmış bağ və parklar. Ölkəmizin hər yerində olduğu kimi, Heydər Əliyevin ömrünün bir hissəsini keçirdiyi Nax. MR-in bir çox şəhər və r-nlarında da belə bağ və parklar salınmışdır. Hər il prezidentin anadan olduğu gün – may ayının 10-da muxtar respublikanın sakinləri də həmin bağ və parklarda kütləvi iməciliklər keçirir, ağac



əkirlər. Bu bağ və parklarda insanların səmərəli istirahəti üçün müxtəlif xidmət sahələri fəaliyyət göstərir.

**HEYDƏR BULAĞI** – Naxçıvan şəhər ictimaiyyətinin arzusu ilə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən (1991–93) burada həyata keçirdiyi böyük abadlıq işlərinin şərəfinə 1996 ildə inşa edilmişdir (layihənin müəllifi Azərb. Memarlar İttifaqının üzvü Adil Məhərrəmov). Naxçıvan ş.-ində, Mədəniyyət Sarayının q. tərəfində yerləşir. Bulaq-abidə kompleksinin uz. 20 *m*, hünd. 3,5 *m*.-dir. 800 $m^2$ sahəni əhatə edən kompleks milli ornamentlərlə, barelyef və mozaika ilə tamamlanmışdır. Kompleks körpü vasitəsilə "Əcəmi seyrəngahı" mədəniyyət və istirahət parkı ilə birləşir. Muxtar respublikanın digər şəhər və r-nlarında da Heydər bulaqları abidə-kompleksləri inşa edilmişdir.

**HEYDƏR ƏLİYEV MUZEYİ** – Nax. MR Ali Məclisinin 18 fevral 1999 il tarixli sərəncamı ilə yaradılmışdır. 1999 il mayın 10-dan fəaliyyət göstərir. Naxçıvan şəhərində Azadlıq prospektində yerləşir. Muzeydə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Nax. MR Ali Məclisinin sədri işlədiyi dövrə (1991–93) aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar, Türkiyə Cumhuriyyəti və İran İslam Respublkiası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərb. Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır. Burada "Xalqımla həmrəyəm", "Qayıdış", "Naxçıvan yaşayır və döyüşür" bölmələri yaradılmışdır. Muzeyin kitabxanasında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

**HEYDƏRABAD** – Sədərək r-nunda, qəsəbə. Sədərək r-nunun mərkəzi. Erm. Respublikası ilə sərhəddədir. Əh. 1601 nəfər (2000). Qəsəbə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə salınmışdır. Nax. MR Ali Məclisinin 2000 il 23 mart tarixli qərarı ilə Sədərək k.-nin tərkibindən ayrılaraq, müstəqil inzibati vahidə – qəsəbəyə çevrilmişdir. Sərhəddə yerləşdiyindən dəfələrlə erməni quldurlarının silahlı təcavüzünə məruz qalmışdır. 1992 ildə ermənilərin atdığı top mərmilərindən dağıdılmış, əhalisi köçkün vəziyyətində Sədərək k.-ndə və digər bölgələrdə məskunlaşmışdı. 1997–98 illərdən başalayaraq yenidən bərpa olunmuş, tikinti-quruculuq və abadlıq işləri aparılmış, yeni inzibati binalar və ictimai obyektlər, ticarət mərkəzi və s. inşa edilmişdir. Ermənilər tərəfindən dağıdılmış 75 yaşayış binası Hedər Əliyevin anadan olmasının 75 illiyi ərəfəsində yenidən təmir və bərpa olunmuş, yerli əhalinin təşəbbüsü ilə qəsəbəyə "Heydərabad" adı verilmişdir. Burada 35/10 kilovatlıq yarımstansiya quraşdırılmış, *Bulaqbaşı* kəhrizinin suyunu qəsəbəyə yönəltmək məqsədilə nasos stansiyası qurulmuş və elektrik xətti çəkilmişdir. Şərab z-du, orta məktəb, məktəbəqədər müəssisə, xəstəxana və s. var.

**HEYDƏRQULU XAN KƏNGƏRLİ** (?–1763/64) – Naxçıvan xanı [1763–1764]. Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən (1747) sonra kəngərli tayfa başçısı H.x.K. şahın naibi Ağahəsəni haki-



*Heydər bulaq-kompleksi. 1996. Naxçıvan şəhəri*



*Heydər Əliyev Muzeyi. 1999. Naxçıvan şəhəri*



Həmzəli kənd körpüsü.

dur. 1997 ildə H. su nasos stansiyası istifadəyə verilmişdir. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**HƏMZƏYEV** İbrahim Tağı oğlu (15.12.1908, Gəncə – 5.2.1982, Naxçıvan) – aktyor və rejissor. Azərb. Respublikası xalq artisti (1965). Bakı Teatr Texnikumunu bitirmişdir (1933). Səhnə fəaliyyətinə 1924 ildən Gəncə fəhlə klubunda başlamış, Bakı Türk İşçi Teatrında (1930–32), Gəncə Dram Teatrında (1933–37) işləmişdir. 1937 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. Rolları: Abbas ("Həyat", M.İbrahimov), Balaş, Elxan, Aydın, İmamyar ("Sevil", "Od gəlini", "Aydın", "Yaşar", C.Cabbarlı), Heydər bəy ("Hacı Qara", M.F.Axundov), İskəndər, Fazil ("Ölülər", "Dəli yığıncağı", C.Məmmədquluzadə), Vaqif ("Vaqif", S.Vurğun), Fəxrəddin ("Müsibəti-Fəxrəddin", N.Vəzirov), Altay ("Səyavuş", H.Cavid), Filbert ("Məzəli hadisə", K.Qoldoni) və s. H. 1940 ildən rej. kimi də fəaliyyət göstərmişdir (1941–67 illərdə baş rej.). Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

*Əd.:* Q a z ı b ə y o v R., V ə z i r o v C., İbrahim Həmzəyev, B., 1982.



Həmzəyev İbrahim



İ. T. H ə m z ə y e v Nizami ("Nizami", M.Hüseyn) rolunda.

**HƏMZƏYEV** Nizami İbrahim oğlu (d.12.9. 1943, Naxçıvan ş.) – aktyor, mədəniyyət xadimi. Nax. MR (1980) və Azərb. Respublikasının (1999) əməkdar incəsənət xadimi, "Qabaqcıl maarif xadimi" (1977). *İ. T. Həmzəyevin* və *Z. M. Həmzəyevanın* oğludur. Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1968). 1969–71 illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. Əsas rolları: Elxan, Bəhram ("Od gəlini", "Solğun çiçəklər", C.Cabbarlı), Kor padşah ("Kiçik oğul", Nazim Hikmət və V. Tulyakova), Fabrissio ("Mehmanxana sahibəsi", K. Qoldoni) və s. Naxçıvan ş. Mədəniyyət şöbəsinin müdiri (1981–83), Naxçıvan Dövlət Musiqili Dram Teatrının (1983–84), Naxçıvan Respublika Mədəniyyət Sarayının (1984–91) direktoru işləmiş, pedaqoji fəaliyyət göstərmişdir. 1996 ildən Nax. MR Mədəniyyət naziridir. Dövlət əhəmiyyətli tədbirlərin quruluşçu rejissoru və bədii rəhbəri olmuşdur. Ssenariləri ("Hardan başlanır vətən?", "Tanrıya qovuşanlar" və s.) var.

**HƏMZƏYEVA** Zəroş Mirzəbağır qızı (d. 22. 3.1925, indiki Babək r-nunun Nehrəm k.) – aktrisa. Azərb. Respublikası xalq artisti (1967). M. *Əliyevin* qızı, *İ. T. Həmzəyevin* həyat yoldaşıdır. Səhnə fəaliyyətinə 1942 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında başlamışdır. 1940–50 illərdə (bu illəri "Həmzəyevlər dövrü" adlandırırlar) muxtar respublikanın mədəni həyatının canlanmasında mühüm rol oynamışdır. Azərb. dramaturqlarının, xüsusilə C. Cabbarlının, habelə dünya klassiklərinin əsərləri H.-nın repertuarında xüsusi yer tutur. Rolları: Yetər ("Yağışdan çıxdıq,





Z. M. H ə m z ə y e v a Məhsəti ("Məhsəti", K.Ağayeva) rolunda.

yağmura düşdük", N.Vəzirov), Şirin, Xuraman ("Fərhad və Şirin", "Vaqif", S.Vurğun), Gültəkin, Solmaz, Sevil, Almaz ("Aydın", "Od gəlini", "Sevil", "Almaz", C.Cabbarlı), Süsən ("Namus", A.Şirvanzadə), Məhsəti ("Məhsəti", Kəmalə), Bojena ("Rus məsələsi", K.Simonov), Dezdemona ("Otello", U.Şekspir), Mirandolina ("Mehmanxana sahibəsi", K. Qoldoni), Leyli, Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm", Ü.Hacıbəyov), Xumar ("Şeyx Sənan", H.Cavid) və s. Azərb. Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur (2000).

*Əd.:* İ s m a y ı l o v a A., Nehrəmli qız, B., 1985.

**HƏSƏN ELSEVƏR** (Həsən Mehdi oğlu F ə t u l l a y e v i n ədəbi adı; d. 25.5.1925, Naxçıvan ş.) – şair, nasir, dramaturq. Naxçıvan MR əməkdar mədəniyyət işçisi (1995). Böyük Vətən müharibəsinin (1941-45) iştirakçısıdır. Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu (indiki Bakı Slavyan Un-ti) bitirmiş (1957), pedaqoji fəaliyyət (1957–72) göstərmişdir. Nax. MR Televiziya və Radio Verilişləri Komitəsində redaktor və böyük redaktor işləmişdir (1972–84). 1984 ildən M.S.Ordubadi ad. Naxçıvan Respublika Kitabxanasının direktorudur. "Ürəklər bir vuranda" (1964), "Gözəllik bulağı" (1974), "Mən əsir doğulmamışam" (1978), "Ürək daşdan deyil" (1982), "Zəlzələ" (1987), "Qaçmaq igidlik deyil" (1998) hekayə və povest kitablarının, "Yaralıdır Azərbaycan" "Məhəbbəti daşa toxunan gözəl" (hər ikisi 1998) şer toplularının müəllifidir. "Vüqarlı gözəl" (1966), "Alınmaz qala" (1976) "Koroğlu nəsli" (1998), "Təhlükəli oyun" pyesləri tamaşaya qoyulmuşdur. Birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur.

**HƏSƏN NAXÇIVANİ** (1206, Naxçıvan ş. – 1298, Təbriz) – alim və mütəfəkkir. Geniş biliyə malik şəxsiyyət olmuşdur. On beş yaşında ikən atası vəfat etdiyindən anası və qardaşı ilə Xoy ş.-nə getmişdir. Qıpçaqlar Xoy ş.-nə basqın edərkən əsir alınmış, 7 il qıpçaqların arasında qalmışdır. Təsəvvüf təriqətinə meyl göstərmiş, 9 il Volqaboyu bulqarları arasında, 3 il Buxarada, 27 il Kirmanda, 1 il Marağada yaşamış, qalan ömrünü isə Təbrizdə keçirmişdir. Şeyx Həsən Naxçıvani Bulqari və ya Təbrizi kimi də tanınmışdır. Qəbri Təbrizdə, Surxab qəbiristanlığındadır. Sinə daşında yazılmışdır: "Bu qəbir şeyx, alim, arif, tədqiqatçı, aləmin qütbü, peyğəmbərlər varisi, qeybdən danışan, rəhmli Tanrını təcəssüm etdirən, hər iki dünyada Allahın sirrinə vaqif olan, ariflərin yardımçısı, şeyxlər sülaləsinin sonuncusu, haqq, millət və dinin xeyirxahı Həsən ibn Ömər Naxçıvaninin qəbridir. Allah onun qəbrini nurani etsin".

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987.

**HƏSƏN VALEH** (Həsən Əli oğlu Ə l i y e v i n ədəbi adı; d. 6.11.1938, Ordubad ş.) – şair. Ordubad pedaqoji məktəbini (1956) və ADU-nun (indiki BDU) filologiya fakültəsini (qiyabi) bitirmişdir (1967). "Yeni Ordubad" qəzetində şöbə müdiri, məsul katib, redaktor müavini işləmişdir (1966–1980). "Bir budağın qönçələri" (1978), "Günəşin vətəni" (1980), "Ana inamı" (1983), "Ocaq" (1988) toplularının müəllifidir.

**HƏSƏNLİ** Hacı Sabir Hüseyn oğlu (d. 12.10. 1945, indiki, Şərur r-nunun Mahmudkənd k.) – din xadimi, ilahiyyat elmləri namizədi (1994). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini (1968) və Daşkənd İslam Un-tini (1982) bitirmişdir. 1974 ildən Qafqaz Müsəlmanları İdarəsində işləyir (1986 ildən sədr müavini). Bakı İslam Un-tinin rektoru (1992 ildən). Beynəlxalq "Simurq" Mədəniyyət Assosiasiyasının vitse-prezidenti (1991), Qafqaz Müsəlmanları Dini-Elmi Şurasının üzvüdür (1997). Respublikada ilk dəfə olaraq ilahiyyat üzrə alimlik dərəcəsi almışdır. Din tarixi və islam fəlsəfəsinə dair kitabların ("101 hədis", 1989; "Adəmdən Xatəmə", 1992; "Haqqa doğru", "İslam



Həmzəyeva Zəroş



Həsən Elsevər

Həsənli Hacı Sabir




Həsənov Ağamalı

mədəniyyətində elm", "İman və elm", hər üçü 1998; "Peyğəmbərlər tarixi", 2000) və elmi məqalələrin müəllifidir. 1985 ildə ABŞ-da olarkən televiziya və mətbuatda vicdan azadlığı haqqında sovet gerçəkliyinin iç üzünü açdığı üçün H.-yə ABŞ-ın fəxri vətəndaşı adı verilmişdir. Azərb. milli televiziyası ilə nümayiş etdirilən silsilə verilişlərinə görə "Humay" mükafatına layiq görülmüşdür (1993).

**HƏSƏNOV** Ağaməli Qulu oğlu (1.7.1925, Gəncə – 31.3.1981, Bakı) – dilçi. Filologiya elmləri namizədi (1954), dosent (1956). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1974). Atası keçmiş Zəngəzur mahalının Əldərə kəndindən olub, 20-ci illərin əvvəlində Gəncəyə köçmüşdü. H. 1929 ildə ailəsi ilə birlikdə Ordubada köçmüş, 10 ilə yaxın burada yaşadıqdan sonra yenidən Gəncəyə qayıtmışdır. H.Zərdabi ad. Gəncə Pedaqoji İn-tunu (1948) və Azərb. Dövlət Un-tinin (indiki BDU) aspiranturasını (1951) bitirmişdir. 1954 ildən ömrünün sonunadək Azərb. Dövlət Un-tinin Azərb. dilçiliyi kafedrasının müəllimi olmuşdur. Müasir Azərb. dilinin sintaksisinə, o cümlədən zərflik kateqoriyasına, türkologiyanın aktual problemlərinə dair tədqiqatların, habelə ədəbiyyat, tarix, toponimika və mədəniyyət məsələlərinə dair elmi məqalə və yazıların müəllifidir. Ordubadla və ətraf bölgələrlə bağlı məqalələri ("Ordubad dialektinin bəzi xarakter leksik və morfoloji xüsusiyyətləri haqqında", "Azərbaycan dilinin Nüvədi (Zəngəzur) şivəsinin xarakter fonetik və leksik xüsusiyyətləri", "Hatəmbəy Ordubadi", "Gilan qədim Azərbaycan şəhəridir" və s.) var.

Ə s ə r l ə r i: Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası, B., 1970; Müasir Azərbaycan dili. Sintaksis (Ə.Abdullayev və Y.Seyidov ilə birgə), B., 1972.


Həsənov Cabir

**HƏSƏNOV** Cabir Qurban oğlu (d. 19.9. 1957, Ordubad ş.) – gömrük xidməti polkovniki. İqtisad elmləri namizədi (1998). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1979), Moskvada Rusiya Federasiyası Gömrük Akademiyasını və aspiranturasını (1998), Azərb. Respublikası Silahlı Qüvvələri Akademiyasının "Strateji tədqiqatlar və dövlət müdafiəsini idarəetmə" kurslarını (2000) bitirmişdir. Azərb. Dövlət Təchizat Komitəsində (sonralar Material Ehtiyatları Nazirliyi) məsul vəzifələrdə işləmiş (1979–92), "Azərağackağız" Baş idarəsinin rəisi (1992–95) olmuşdur. 1995 ildən Azərb. Dövlət Gömrük Komitəsində çalışır; xarici əlaqələr şöbəsinin rəisi (1995–97), Bakı Baş Gömrük İdarəsi rəisinin birinci müavinidir (1997 ildən). Respublikada gömrük işi sahəsində ilk elmi mütəxəssisdir. Gömrük xidmətinə, gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və səmərəli tətbiqi problemlərinə dair tədqiqatları var. Gömrük işinə dair beynəlxalq konfranslarda [Brüssel (1997), Kil (Almaniya, 1998) və s.] məruzələr etmişdir.

Ə s ə r l ə r i: Azərbaycan gömrük xidməti yeni dünya-təsərrüfat münasibətləri şəraitində (K.F.Heydərovla birgə), B., 1998; Gömrük xidməti Azərbaycan Respublikasının xarici-iqtisadi fəaliyyətinin dövlət tənzimləməsi sistemində, B., 1999.

Həsənov Əli



**HƏSƏNOV** Əli Məhəmmədəli oğlu (d. 10.3. 1960, indiki Şərur r-nunun Tənənəm k.) – tarixçi, ictimai-siyasi xadim. Tarix elmləri doktoru (2001). YUNESKO-nun Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü (1999). 1982–85 illərdə Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsində oxumuş, sonra təhsilini əlaçı tələbə kimi göndərildiyi M.V.Lomonosov ad. Moskva Dövlət Un-tində davam etdirmiş, həmin un-ti (1988) və onun aspiranturasını (1991) bitirmişdir. 1988 ildən Moskvada baş verən siyasi proseslərdə iştirak etmiş, həmin vaxtdan fəal siyasətlə məşğul olmuşdur. 1992 ildən Naxçıvan Dövlət Un-tində elmi-pedaqoji işlə yanaşı, önəmli ictimai-siyasi fəaliyyət də göstərmişdir. Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri kimi təsis konfransında (21 noyabr 1992) onun siyasi şurasının üzvü, 1-ci qurultayında (1999) İdarə Heyətinin üzvü seçilmiş, 1993–95 illərdə partiyanın ideologiya şöbəsinin müdiri işləmişdir. 1995 ildən Azərb. Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinə, eyni zamanda, Azərb. Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasında Politologiya və sosial idarəetmə kafedrasına rəhbərlik edir. London Bioqrafiya Akademiyası H.-u "İlin görkəmli ictimai-siyasi və elm xadimi" seçmişdir (2000). Müstəqil Azərb. Respublikasının daxili və xarici siyasəti, ictimai-siyasi və milli münasibətlər, Azərb. və beynəlxalq aləm, dövlət və cəmiyyət, partiya və informasiya məsələləri ilə bağlı tədqiqatların, o cümlədən 7 monoqrafiya-



nın, 100-dən artıq elmi-siyasi məqalənin müəllifi, bir sıra dövlət əhəmiyyətli mühüm nəşrlərin tərtibçisi və elmi redaktorudur.

Ə s ə r l ə r i: Azərbaycan və ATƏT: Ermənistan–Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda, B., 1997; Azərbaycan–ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru, B., 1997; Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991–1996-cı illər), B., 1998; Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991–1996), B, 2000; Азербайджан в системе международных и региональных организаций (A. Abbasbəyli ilə birgə), B., 1999.


Həsənov Kərim

**HƏSƏNOV** Kərim Hüseyn oğlu (10.4.1935, indiki Şərur r-nunun Danzik k. – 26.4.1996, Bakı) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1988), prof. (1992). Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1995). Azərb. Dövlət Un-tinin (indiki BDU) kitabxanaçılıq fakültəsini bitirmişdir (1961). Un-tin Əsaslı kitabxanasının, nəşriyyatının direktoru olmuşdur. 1963 ildən BDU-da pedaqoji fəaliyyət göstərmiş, müəllim, baş müəllim, dosent işləmişdir. 1992 ildən Azərb. ədəbiyyatı tarixi kafedrasının prof. idi. Çağdaş Azərb. ədəbiyyatına dair monoqrafik tədqiqatların, məlumat-biblioqrafiya vəsaitinin, 100-dən çox elmi məqalənin müəllifidir.


Həsənov Nəriman

**HƏSƏNOV** Nəriman Əllamə oğlu (3.2.1934, Ordubad r-nunun Nüsnüs k. – 2.2.1993, Bakı) – tarixçi. Tarix elmləri doktoru (1974), prof. (1978). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini (1957) və aspiranturasını (1964) bitirmişdir. 1957–61 illərdə Ordubad r-nunda müəllimlik etmişdir. BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi, dosenti və prof. olmuşdur. 1985 ildən Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri idi. 20 əsrin əvvəllərində İranda və Cənubi Azərb.-da inqilabi azadlıq hərəkatına, İranın yeni tarixinə dair tədqiqatların müəllifidir.

Ə s ə r l ə r i: İranın yeni tarixi, B., 1982; Oyanmış Təbriz və Səttarxan, B., 1986.


Həsənov Rəşid

**HƏSƏNOV** Rəşid Həsən oğlu (d. 25.12.1935, Ordubad ş.) – kimyaçı. Kimya elmləri doktoru (1984). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini (1954) və SSRİ EA A. Nesmeyanov ad. Elementüzvi Birləşmələr İn-tunun aspiranturasını (1965) bitirmişdir. 1966 ildən Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunun Keçid elementlərinin r-kompleksləri laboratoriyasının aparıcı elmi işçisi vəzifəsində çalışır. H. maye fazada elementüzvi birləşmələr kimyasının fundamental məsələlərinin həllində paramaqnit rezonans üsulunun spin toru texnikasından ilk istifadə edənlərdəndir. Onun araşdırdığı nəzəri problemlər içərisində radikalların yenidən qruplaşması xüsusi yer tutur. 150 elmi, o cümlədən bir neçə icmal məqalənin müəllifi, Moskvanın "Nauka" nəşriyyatında çıxmış "Elementüzvi kimya, xlor. Alifatik birləşmələr" monoqrafiyasının müəlliflərindəndir.


Həsənov Sayavuş

**HƏSƏNOV** Səyavuş Həsən oğlu (20.1.1964, indiki Şərur r-nunun Yengicə k. – 25.6.1992, Ağdərə k. yaxınlığında; Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur) – Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra). Bakıdakı 54 saylı texniki-peşə məktəbini bitirdikdən sonra Bakı Baş Tikinti İdarəsində rəngsaz olmuş, 1984–90 illərdə Tümendə Azərb. inşaat dəstəsinin tərkibində işləmişdir. 20 Yanvar faciəsindən sonra Bakıya qayıdaraq, xalq hərəkatına qoşulmuşdur. 1990 ildə yaradılan Qarabağı müdafiə taborunun ilk əsgərlərindən olan H. Qazaxda, Goranboyda, Gədəbəydə, Şuşada erməni təcavüzkarları ilə vuruşmuş, Ağdərə k.-nin azad edilməsi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş və şəhid olmuşdur. Şərur r-nunun Yengicə k.-ndə abidəsi ucaldılmışdır.

**HƏSƏNOV** Şəmsi Rəhim oğlu (15.6.1930, Şahbuz r-nunun Kükü k. – 7.5.1988, Bakı) – həkim, səhiyyə əlaçısı, Tibb elmləri namizədi (1965), dosent (1969). Azərb. Respublikasının əməkdar həkimi (1981). Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir (1958). Tibb Un-tinin yoluxucu xəstəliklər kafedrasının müəllimi, 1978 ildən həm də un-t həmkarlar ittifaqı komitəsinin sədri olmuşdur. Tədqiqatları, əsasən, Nax. MR-in müxtəlif landşaft zonalarında epidemiya törədiciləri ilə mübarizə üsullarına həsr olunmuşdur. Azərb. Epidemiologiya, mikrobiologiya və yoluxucu xəstəliklər elmi cəmiyyətinin üzvü idi.

**HƏSƏNOVA** Südabə Cəmşid qızı (d. 5.2. 1947, Şərur r-nunun Yengicə k.) – II dərəcəli Dövlət Ədliyyə müşaviri (gen.-leytenant). Bakı Dövlət Un-tini bitirdikdən (1971) sonra



Həsənova Südabə

Bakı ş. Binəqədi r-n xalq məhkəməsi hakimi (1973–79), Bakı ş. Məhkəməsi (1979), Azərb. SSR Ali Məhkəməsi (1980) Rəyasət Heyətinin üzvü seçilmiş. AKP MK inzibati orqanlar şöbəsində işləmişdir (1980–87). Bakı Ali Partiya Məktəbini bitirmiş (1987), həmin ildən Azərb. Respublikası Ədliyyə nazirinin 1-ci müavini olmuş, 1995–97 illərdə nazir vəzifəsini icra etmiş. 1998–2000 illərdə ədliyyə naziri vəzifəsində işləmişdir. 2000 ildən Azərb. Respublikası Ali Məhkəməsinin sədridir. Azərb. Prezidentinin verdiyi səlahiyyət əsasında Gürcüstan, Qırğızıstan, Belarus, İran ilə Azərb. arasında hüquqi informasiya mübadiləsi, mülki, cinayət və ailə məsələləri üzrə hüquqi yardım, təslimetmə, məhkumların verilməsi və s. haqqında hökumətlərarası ikitərəfli müqavilələri imzalamışdır. Azərb. Prezidenti yanında Məhkəmə-Hüquq Şurasının sədri, Azərb. Respublikası Konstitusiya layihəsi, hüquq-islahat, əfv və s. dövlət komissiyalarının üzvü, "Qanunçuluq" jurnalının baş redaktoru olmuşdur. Almaniya, B. Britaniya, Fransa, Misir, Macarıstan, Türkiyə, ABŞ və s. ölkələrdə rəsmi səfərlərdə olmuş, BMT-nin, Avropa Şurasının konqres, konfrans və forumlarında Azərb.-ı təmsil edərək çıxış etmişdir.

**HƏSƏNZADƏ** Vahab Salman oğlu (1890, indiki Ordubad r-nunun Əylis k. – 14. 1. 1960, orada) – maarif xadimi. İlk təhsilini Əylisdə, sonra isə valideynləri ilə birlikdə köçdüyü (1905) Şəki şəhərində mədrəsədə almışdır. Gəncə Ruhani Seminariyasını bitirmiş (1912), ərəb və fars dillərini, islam tarixini, məntiq, kəlam, fiqh, üsul və s. elmləri mükəmməl öyrənmişdir. Həmin vaxtdan Əylisə qayıdaraq, üsuli-cədid məktəbi açmış, əlifba, dil, ədəbiyyat, habelə təbiiyyat, zoologiya, coğrafiya, astronomiya və s. dünyəvi fənləri təlim etmişdir. H.-nin vaxtilə tərtib etdiyi ərəb dili dərsliyinin əlyazması Azərb. Milli EA Füzuli ad. Əlyazmalar İn-tunda mühafizə olunur. Az bir vaxtda məşhurlaşmış məktəbi el arasında "Vahabın müəllimlik küpü" adlandırırdılar. Ordubad qəza inqilab komitəsinin sədri (1921–23), Nax. MSSR Xalq Maarif Komissarı (1923–29) vəzifələrində çalışmış, 1929–34 illərdə Ordubad konserv z-dunun direktoru olmuşdur. SSRİ EA Azərb. Filialı Şərq şöbəsinin müdiri işlədiyi illərdə (1939–42) H. respublikanın rayonlarından, şəhər və kəndlərindən Şərq, o cümlədən Azərb. ədəbiyyatına, tarixinə, elm və mədəniyyətinə, ictimai-fəlsəfi fikrinə, islamiyyətə aid qədim əlyazmalarının və kitabların akademiyaya toplanmasına nail olmuşdur. Sonralar həmin xəzinə, yaradılmasında H.-nin böyük xidməti olan Azərb. Milli EA Əlyazmalar Fonduna (indiki Əlyazmalar İn-tu) verilmişdir.

**HƏSRƏT KÖRPÜSÜ** – Araz çayı üzərində körpü. Bax *"Ümid" körpüsü.*

Həşimov Arif



**HƏŞİMOV** Arif Məmməd oğlu (d. 28.9.1949, Şahbuz r-nunun Şahbuz qəs.) – fizik. Texnika elmləri doktoru (1993). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1978). Azərb. Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) energetika fakültəsini bitirmişdir. Azərb. Dövlət Neft Akademiyasının Yüksək gərginliklər texnikası və elektrotermik qurğular kafedrasında işləyir (1978 ildən). Əsas tədqiqatları energetikanın fiziki-texniki problemlərinə – mürəkkəb elektrik şəbəkələrində dissipativ amilləri, elektrotexniki avadanlıqları ifrat gərginlikdən mühafizə edən və qısa qapanma cərəyanlarını məhdudlaşdıran qurğuları tam nəzərə almaqla, elektromaqnit dalğa proseslərini hesablamaq üçün riyazi modellərin işlənib hazırlanmasına həsr edilmişdir. İfrat gərginliklərin və qısa qapanma cərəyanlarının məhdudlaşdırılması üçün betel rezistorları əsasında qurulmuş qurğuların işlənib hazırlanmasında və tətbiqində bilavasitə iştirak etmişdir. Bu, keçmiş SSRİ-də cərəyan məhdudlaşdırıcı tədbirlərin kütləvi tətbiqinə şərait yaratmışdır. H.-un bilavasitə iştirakı ilə respublikada yeni texniki tədbirlər işlənib hazırlanmışdır.

**HƏVİ MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisindədir. İki bulaq fəaliyyət göstərir. Bir saylı bulaq Ərəfsə k.-ndən 6 *km* məsafədə, dəniz səviyyəsindən 2050 *m* hünd.-də yerləşir. Suyu turşməzə olub, axdığı yerdə dəmir oksidindən ibarət qırmızımtıl iz qoyur.

Balneoloji tərkibi:

$$CO_2 1,7\,M 2,0 \frac{HCO_3 79\, SO_4 14}{Ca 42\,(Na+K) 38\, Mg 18}\, pH\, 6,6\; D\, 70\, m^3/gün\; T\, 11,5^{\circ}C$$

Suyu karbon qazlı, minerallaşmış hidrokarbonatlı-kalsiumlu-natriumludur. Bəzi daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.



**HƏZRƏTİ-ZƏHRA MƏSCİDİ** – Naxçıvan ş.-nin Sarvanlar məhəlləsində (İslam Səfərli küç.) ibadətgah və memarlıq abidəsi. Xalq arasında "Heydər Məscidi" kimi tanınır. Məscidin həyətində qoyulmuş xatirə qraniti üzərindəki kitabədə onun tikilmə tarixi belə qeyd olunmuşdur: "Heydər Məscidi" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən (1991–93) möhtərəm Heydər Əliyevlə İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti ağayi Mohsen Rəfiq Dust arasında 24 avqust 1992 il tarixdə Tehran şəhərində imzalanmış protokola əsasən Ayətulla Xamenei həzrətlərinin və Zatialiləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir". Ümumi sah. 6 min $m^2$-dir. Məscidin böyük ibadət salonu (3300 $m^2$) günbəzlə örtülmüşdür; hücrələri var. Bu möhtəşəm abidənin layihəsində Şərq memarlıq ənənələrindən istifadə edilmişdir.

Məscid binasının tikintisi, xaricə açılan dərin həcmli baştağ eyvanları, oyma bəzəkləri, şəbəkələri, xüsusilə minbərdə aparılmış bəzək işləri, həmçinin ümumi quruluşu memarlıq həllinə görə diqqəti cəlb edir. Bu müqəddəs ocaqda eyni vaxtda min nəfər dini ayinləri yerinə yetirə bilər. Burada müqəddəs Quran-i-Kərim öyrədilir, islami dəyərlər təbliğ edilir. Məsciddə mədrəsə və kitabxana da fəaliyyət göstərir. Məscidin təntənəli açılış mərasimi 1999 il oktyabrın 10-da olmuşdur.



Mərasimdə Azərb. Respublikasının Prezidenti Heydər Əliyev böyük nitq söyləmişdir.

**HİNƏDƏLİ DAĞI** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin şm.-q. yamacında zirvə. Tənənəm k.-ndən 3,5 *km* şm.-ş.-dədir. Hünd. 2101 *m*. Günbəzvarı formadadır.

**HORADİZ** – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Şərur qəzasına daxil olmuş kənd. Azərb.-a qarşı daim ərazi iddiaları irəli sürən ermənilər fürsət düşdükcə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpaqlarını da hissə-hissə öz ərazilərinə qatmışlar. Onlardan biri də H.-dir. Belə ki, Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən Nax. MSSR-in 9 kəndi, o cümlədən H. əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin (1921)* şərtlərinə zidd olub, beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

**HÜLAKULAR DÖVLƏTİ**, Elxanilər, İlxanilər dövləti (1256–1357) – Yaxın və Orta Şərqdə feodal dövləti. Azərb., İran, Gürcüstan, Kiçik Asiya (Qızıl İrmaq çayınadək), Kürdüstan, İraq-i Ərəb, Əfqanıstan və Türkmənistanın çox hissəsini əhatə edirdi. Trabzon imperatorluğu, Konya sultanlığı, Kilikiya çarlığı və s. H. d.-nin vassalı idi. Əsas mərkəzi vilayəti Azərb., paytaxt şəhərləri müxtəlif vaxtlarda Marağa, Təbriz, Sultaniyyə olmuşdur. Böyük şəhərləri: Təbriz, Bağdad, Marağa, Sultaniyyə, İsfahan, Naxçıvan, Gəncə, Qəzvin, Ərdəbil və s. Hökmdarları: Hülaku xan [1256–65], Abaqa xan [1265–82], Əhməd Təkudar [1282–84], Arqun xan [1284–91], Keyxatu xan [1291–95], Baydu xan [1295], Qazan xan [1295–1304], Məhəmməd Xudabəndə Ölcaytu [1304–16] Əbu Səid [1316–35], Arpa xan [1335–36], Musa xan [1336], Məhəmməd xan [1336–38], Toğa Teymur xan [1338–39], Satıbəy xatın [1339–40], Cahan Teymur xan [1339–40, Bağdadda], Süleyman xan [1340–44], Ənuşirəvan [1344–55], Həsən xan [1356–57]. H. d.-nin mövcudluğu dövründə 4 mərhələ fərqləndirilir: 1. 1256–80 illər – güclü inkişaf; 2. 1282–95 illər—tənəzzül; 3. 1295–1320 illər – yeni dirçəliş və inkişaf; 4. 1320–57 illər – tənəzzül, parçalanma və süqut mərhələləri.

H. d.-nin yaranması Çingiz xanın nəvəsi Hülaku xanın adı ilə bağlıdır. Monqolların

hələ 1220–22 illərdə Azərb.-a kəşfiyyat xarakterli basqını zamanı Marağa, Ərdəbil, Naxçıvan, Beyləqan, Şamaxı ş.-ləri dağıdılmışdı. 1231 ildə Çormoğonun başçılığı ilə 30 minlik monqol qoşunu Azərb.-a soxulmuş,1239 ildə Dərbəndin tutulması ilə Azərb.-ın istilasını başa çatdırmışdı; 1239–56 illərdə Azərb. və qonşu vilayətlər böyük monqol xanının canişini tərəfindən idarə olunmuşdu.

1254 ildə qardaşı, böyük monqol xanı Menqunun göstərişi ilə Ön Asiyaya yürüş edən Hülaku xan İsmaililərin (1256) və Abbasilər xilafətinin (1258) hakimiyyətinə son qoyaraq, geniş ərazidə yeni monqol ulusunun – H. d.-nin əsasını qoydu. Coğrafi və strateji cəhətdən əlverişli mövqedə olan Azərb. H. d.-nin siyasi və inzibati mərkəzi, Marağa ş. isə onun paytaxtı oldu. Hülaku xan və Abaqa xanın hakimiyyəti dövründə H. d. iqtisadi, hərbi, siyasi və inzibati cəhətdən möhkəmləndi. Bu dövrdə mənafe birliyini və əldə etdikləri saysız-hesabsız sərvəti itirmək qorxusu köçəri monqol feodallarını mərkəzi hakimiyyətə qarşı fəal çıxışlardan çəkindirmişdi. Lakin zaman keçdikcə güclənən və öz qüvvələrinə inamı artan köçəri feodallar arasında ziddiyyətlər kəskinləşdi və onların mərkəzi hakimiyyətin işlərinə müdaxilə etmək cəhdləri çoxaldı. Qazan xan tənəzzül və parçalanma ərəfəsində olan dövlətin daxili və beynəlxalq vəziyyətini tənzimləmək, eyni zamanda mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün tədbirlər həyata keçirdi. O, ilk əvvəl islam dinini qəbul etdi və bütün gəlmə monqol-türk qəbilə və tayfalarının bu dinə keçməsinə nail oldu və bununla da yerli müsəlman əhalisinin timsalında özünə güclü iqtisadi və siyasi dayaq yaratmış oldu. Qazan xanın vəziri F. Rəşidəddinin təşəbbüsü və yaxından iştirakı ilə hərbi, torpaq, vergi, məhkəmə, ticarət və s. sahələrdə həyata keçirdiyi islahatlar H. d.-nin labüd tənəzzülünün qarşısını aldı, onun yenidən güclənməsinə və çiçəklənməsinə gətirib çıxardı. Bu vəziyyət Məhəmməd Xudabəndə Ölcaytunun hakimiyyəti dövründə də davam etdi. 1316 ildə 12 yaşlı Əbu Səidin taxta çıxması ilə H. d.-ndə yenidən ara müharibələri, iğtişaşlar baş verdi; xarici hücumlara şərait yarandı. 1318/19 ildə Cağatay Yasavur Xorasanda Əbu Səidə qarşı çıxdı; Qızıl Orda xanı Özbək Azərb. ərazisini ələ keçirmək məqsədi ilə şm.-dan hücuma keçdi və Kür çayınadək irəlilədi. Misir sultanı da H. d.-nə müharibə elan etdi. Eyni vaxtda baş vermiş üçtərəfli hərbi təhlükənin qarşısının alınmasında baş əmir Çoban mühüm rol oynadı. H. d.-nin hərbi qüvvələrinin səfərbərliyə alınaraq hər üç düşmənə qarşı göndərilməsi həmin təhlükə ocaqlarını ləğv etməyə imkan verdi. Lakin hakimiyyətin Çobanın əlində cəmləşməsi feodalların müəyyən hissəsini narazı saldığından Gürcüstanda, Kiçik Asiyada və s. yerlərdə feodal qiyamları, qəsdlər baş verdi. Əbu Səid Çobanın qəyyumluğundan xilas olmaq məqsədilə 1328 ildə onun öldürülməsinə nail olduqdan sonra vəziyyət heç də yaxşılaşmadı. 1329 ildə Xorasanda, 1334 ildə Sultaniyyədə feodalların mərkəzi hakimiyyətə qarşı çıxışlarının qarşısını çətinliklə ala bilən Əbu Səidin Qızıl Orda xanı Özbəyin Azərb.-a yeni yürüşünün (1335) qarşısını almaq üçün Qarabağa keçməsi və orada vəfat etməsi H. d.-nin parçalanması və tənəzzülünü sürətləndirdi. H. d. 1357 ildə Qızıl Orda xanı Canı bəyin Azərb.-a yürüşü dövründə süqut etdi.

Naxçıvan inzibati-ərazi bölgüsü baxımından H. d.-ndə Azərb.-ın 9 tümənindən biri idi; Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla həmsərhəd olub, Göyçə gölünə qədər uzanırdı. Naxçıvan tüməninin ərazisi Arazın hər iki sahilini əhatə etməklə qərbdə Maku, şərqdə Qafan ərazilərini də tərkibində birləşdirdi. Naxçıvan, Ordubad, Azad, Əncan və Maku şəhərləri Azərb.-ın 27 iri şəhəri siyahısına, Naxçıvan və Ordubad isə Azərb.-ın illik hasilatının (260 tümən) toplandığı 21 iri şəhəri sırasına daxil idi. Naxçıvan tüməni H. d.-nin iqtisadi, siyasi, mədəni və dini həyatında mühüm rol oynayırdı. Naxçıvandan dövlətə 10000 nəfər əsgər toplanırdı. Hülakuların hakimiyyəti dövründə Naxçıvandan bir çox görkəmli dövlət və elm xadimi çıxmışdır. Bunlardan Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, İzzəddin Naxçıvani, Nəsirəddin Naxçıvani və b. daha çox tanınmışdılar. H. d.-də Naxçıvanı idarə etmiş hakimlərdən Məlik Ziyaəddinin (14 əsrin əvvəlləri) və Ələki Bahadırın (1351) adları bəllidir.

*Əd.:* M ə m m ə d o v R. A., Naxçıvan şəhərinin tarixi oçerki, B., 1977; P i r i y e v V. Z., Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə, B., 1978; А л и - з а д е А. А., Социально-экономическая и политическая история Азербайджана XIII–XIV вв., Б., 1956.



**HÜMBƏTOV** Həsən Həşim oğlu (d. 20.5.1937, indiki Babək r-nunun Uzunoba k.) – neftçi-alim. Texnika elmləri doktoru (1996), Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü (1999; m. üzvü 1997). Azərb. Respublikasının əməkdar neft və qaz sənayesi işçisi (1989 ). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsini bitirmişdir (1959). Əmək fəaliyyətinə "Neft daşları"nda başlamış, usta köməkçisi, usta, sahə rəisinin müavini və rəisi, böyük mühəndis işləmiş (1959–72). "Nərimanovneft" Neft və Qazçıxarma İdarəsinin qaz emalı üzrə rəis müavini (1972–76) və rəisi (1978–92) olmuşdur. 1994 ildən Azərb. Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin baş mühəndisidir. Neft yataqları emulsiyasının tədqiqi və onların termokimyəvi üsulla susuzlaşdırılması, dəniz neft yataqlarında mürəkkəb şəraitdə neftin yığılması, nəqli və hazırlanması proseslərində səmərəliliyin artırılması və s. mövzularda tədqiqatlar aparmışdır. 17 monoqrafiya və dərsliyin, 100-dən çox elmi məqalənin, müxtəlif çöküntülərin, parafinli çökmələrin qarşısının alınması üsullarının tətbiqinə və s. dair bir çox ixtira və səmərələşdirici təklifin müəllifidir. Beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələr etmişdir. 2000 ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən 20 əsrin görkəmli adamı adına və diplomuna layiq görülmüş, həmin mərkəzin ordeni ilə təltif olunmuş və Avropa üzrə Baş direktor müavini təyin edilmişdir. ABŞ Bioqrafiya İn-tu da onu Beynəlxalq Fəxri diplomla mükafatlandırmış (2000), "İlin adamı" (2001) elan etmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur (2001). Haqqında sənədli film çəkilmiş (1967), kitablar (A. Sadıqoğlu, "Dəniz kimi məğrur insan", B., 2000; A. Babayev, "Ömürdən səhifələr", B., 2001) yazılmışdır.

Ə s ə r l ə r i: Защита окружающей среды при добыче, хранении и транспорте нефти с применением композиционных композиций, Б., 1998 (R.A. Daşdiyevlə birgə), Применение ПАВ для ликвидации аварийных разливов нефти на водной поверхности, Б., 1998 (R.A. Daşdiyevlə birgə).

**HÜMBƏTOV** Məmməd Tahar oğlu (d. 14.6.1946) – aktyor, mədəniyyət və teatr xadimi. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (2000). Azərb. İncəsənət İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) kinodram aktyorluğu fakültəsini bitirmişdir (1970). 1964 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. Naxçıvan şəhər 1 saylı mədəniyyət evinin (1971–78), "Araz" mahnı və rəqs ansamblının (1978–85), Naxçıvan Dövlət Filarmoniyasının (1985–97) direktoru işləmişdir. 1997 ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktorudur.



Hümbətov Həsən

**"HÜMMƏT"**, T i f l i s "H ü m m ə t" t ə ş k i l a t ı n ı n Naxçıvan şöbəsi – N.Nərimanovun rəhbərliyi ilə 1904 ilin axırlarında əvvəlcə Tiflisdə təsis edilmiş, sonralar isə həm də Azərb.-ın, həmçinin Cənubi və Şimali Qafqazın əksər şəhərlərində, o cümlədən Naxçıvanda şöbələri yaradılmış s.-d. qrupu. Müsəlman fəhlələri (azərb.-lar, habelə dağıstanlılar, Volqaboyu tatarları və b.) arasında inqilabi-demokratik ideyaları yayan və onları çar Rusiyasının müstəmləkə rejiminə qarşı mübarizəyə hazırlayan "H."-in Naxçıvan şöbəsi iki şəhərdə – Naxçıvan və Culfada öz təşkilatlarını yaratmışdı. "H."-in Naxçıvan qrupunun yaradılmasında 1903 ildən orada işləyən Ə.Əzimov, M.B. Mir Heydərzadə, M.Bəktaşov, K.Şərifov, N.Şeyxov və b. mühüm rol oynamışdılar. Naxçıvan hümmətçiləri kəndli və yarımproletarlar arasında qızğın təbliğat işi apardıqlarına görə çar hökuməti orqanları tərəfindən təqiblərə məruz qalırdılar.

1905 ildə bir sıra bölgələrdə kəndlilər torpaqsızlığa qarşı mübarizəyə qalxmış, Culfa fəhlələri oktyabrın 16-da İrəvan–Culfa dəmir yolunda tətil etmişdilər. Naxçıvan hümmətçiləri Cənubi Azərb. inqilabçıları ilə də sıx əlaqələr yaratmışdılar. 1906 ildə Naxçıvanda "H."-in 50 nəfərdən çox üzvü var idi; onlar Rusiyada 1905–07 illər inqilabının məğlubiyyətindən sonra da öz fəaliyyətlərini gizli şəkildə davam etdirmiş, Naxçıvan əhalisinin milli-demokratik hərəkatının təşkilində, erməni millətçilərinə qarşı mübarizədə fəal iştirak etmişdilər. 1911 ildə fəaliyyəti dayandırılmış, 1917 ilin fevralından bərpa edilmişdi; bəzi üzvləri (Nəcəfov, Bəktaşov və Əzimov) sovet hakimiyyəti illərində məsul vəzifələr tutmuşdular.

**HÜSEYN CAVİD** (1882–1941) – şair, dramaturq. Bax *Cavid* Hüseyn.



H.Cavid məqbərəsinin açılışı. 29 oktyabr 1996.

**HÜSEYN CAVİD MƏQBƏRƏSİ** – Naxçıvanda böyük Azərb. şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq xatirə kompleksi. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilmişdir. Əcəmi Naxçıvani memarlıq üslubunun təsiri aydın hiss edilən məqbərə üst və aşağı – sərdabə hissələrindən ibarətdir. Hüseyn Cavidin ömür-gün yoldaşı Mişkinaz xanımın və oğlu Ərtoğrolun qəbirləri də sərdabədədir (hər iki qəbir 1996 ildə, sərdabə tikilərkən buraya köçürülmüşdür). Burada Hüseyn Cavidin büstü qoyulmuşdur. Abidənin layihəsinin müəllifi Azərb. Respublikasının əməkdar memarı Rasim Əliyev, heykəltəraşı xalq rəssamı Ömər Eldarovdur. Məqbərə Türkiyə Respublikasının "Start" inşaat şirkəti tərəfindən tikilmişdir. Abidənin açılışı Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibətilə 1996 il oktyabrın 29-da olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev açılış mərasimində nitq söyləmişdir.

**HÜSEYN CAVİD POEZİYA TEATRI** – Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar olaraq, C.Məmmədquluzadə ad. Naxçıvan Musiqili Dram Teatrının ikinci səhnəsi kimi yaradılmışdır (1981). Böyük dramaturqun "Ana", Kəmalənin "Mənim tanrım gözəllikdir, sevgidir" pyeslərinin tamaşaları ilə açılmışdır. İlk vaxtlar köhnə "Zaviyə" məscidinin binasında yerləşirdi. Hazırda C. Məmmədquluzadə ad. Naxçıvan Musiqili Dram Teatrının binasında fəaliyyət göstərir.

**HÜSEYN CAVİDİN EV MUZEYİ**, B a k ı d a – Hüseyn Cavidin 1920–37 illərdə yaşadığı evdə (İstiqlaliyyət küç., 8; indiki Azərb. Milli EA M. Füzuli ad. Əlyazmalar İn-tunun binası) yerləşir. Azərb. hökumətinin "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" (1981) qərarı ilə yaradılmışdır. 1991 ildə Hüseyn Cavidin yaşadığı mənzildə deyil, onun vaxtilə həmin binada yerləşən "Darülmüəllimin"də dərs dediyi otaqlarda yerləşdirilmişdi. Yalnız 14 ildən sonra, 1995 ildə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin bilavasitə göstərişi ilə muzey Mədəniyyət Nazirliyindən Azərb. Milli EA-nın tabeliyinə verilərək Hüseyn Cavidin yaşadığı mənzildə yerləşdirildi. Ekspozisiyası 4 otaqdan ibarət olan muzeyin ümumi sah. 245 $m^2$-dir. Muzeyin əsas fondunda 4000, elmi-köməkçi fondunda isə 200 eksponat var. Ekspozisiyada 600-dən çox eksponat, o cümlədən, məişət və geyim əşyaları, Hüseyn Cavidin nəşr olunmuş kitabları, səhnə əsərlərinin proqram və afişaları, tamaşalardan və ailəvi fotoşəkil-

H.Cavidin, ömür-gün yoldaşı Mişkinaz xanımın və oğlu Ərtoğrolun sərdabədəki məzarları.



Hüseyn Cavid Poeziya Teatrı. "Mənim tanrım gözəllikdir, sevgidir". V. Əsədov Cavid rolunda.






Hüseyn Cavidin məqbərəsi. 1996. Naxçıvan şəhəri. Memar akad. Ö. E l d a r o v

*Hüseyn Cavidin abidəsi. 1993. Bakı.*
*Heykəltəraş akad. Ö. E l d a r o v.*







lər, Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinin maketi, böyük şairə həsr olunmuş rəssamlıq və digər təsviri sənət əsərləri, oğlu Ərtoğrol Cavidin bəstələdiyi musiqi əsərlərinin notları, istifadə etdiyi kitablar, rəsm əsərləri, patefon valları, məktublar və digər sənədlər nümayiş etdirilir. Muzeyin otaqlarından biri repressiya otağı kimi ayrılmışdır. Otaqda asılmış "Qara yazı" (O.Sadıqzadə) və "Zordan üstün" (V.Ucatay) rəsm əsərləri həm Hüseyn Cavidə, həm də repressiya qurbanı olmuş bütün Azərb. yazıçılarına rekviyem təsiri bağışlayır.

Muzeyin mövzu-ekspozisiya planının müəllifi filologiya elmləri doktoru, prof. R.Hüseynov, tərtibatçı rəssamı A.Kərimovadır.

**HÜSEYN CAVİDİN EV MUZEYİ**, Naxçıvanda – Azərb. hökumətinin qərarı ilə 1981 ildə Hüseyn Cavidin doğulduğu Əlixan məhəlləsindəki evdə təşkil olunmuş, 1984 il iyunun 9-da açılmışdır. Muzeyin fondunda 6000-ə yaxın eksponat toplanmışdır. Onların arasında Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri, üzərində müəllifin avtoqrafı olan, 1926 ildə nəşr edilmiş "İblis" və 1934 ildə çapdan çıxmış "Səyavuş" əsərləri, böyük sənətkarın yubileylərinin, müxtəlif teatrlarda tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları və s. var. Hüseyn Cavidin İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi və ədibin yaxın dostu Əziz Şərifin şəxsən üzünü köçürüb muzeyə bağışladığı məktublardan ibarət dəftər, şairin qızı Turan Cavidin hədiyyə etdiyi "Knyaz"ın əlyazması da buradadır. Hüseyn Cavidin Naxçıvan həyatı ilə bağlı sənədlər, muzeyin ekspozisiyasında nümayiş etdirilən qiymətli əşyaların böyük əksəriyyəti də Turan Cavidin hədiyyələridir (o, muzeyin yaranmasında və təşəkkülündə yaxından iştirak etmişdir). Ekspozisiyada cavidşünasların – Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Mehdi Məmmədov, Yaşar Qarayev, Rafael Hüseynov, Yavuz Axundlu, İsa Həbibbəyli, Zahid Əkbərov, Əjdər İsmayılov və b.-nın muzeyə bağışladığı kitablar, Hüseyn İbrahimov, Anar, Ənvər Uzun (Türkiyə) və digər cavidsevərlərin xatirələri layiqli yer tutur.



Muzey Hüseyn Cavid yaradıcılığının tədqiqi ilə də məşğul olur. Hüseyn Cavidin əsərlərinin səhnə və nəşr tarixlərini, onun adı ilə bağlı müəssisə, idarə və təşkilatları, yaşayış məntəqələrini əks etdirən kataloqlar tərtib edilmişdir. "Hüseyn Cavid və teatr", "Hüseyn Cavid və Naxçıvan teatrı", "Hüseyn Cavidin dramaturgiyası", "Hüseyn Cavidin həyat və yaradıcılığı", "Naxçıvan MR-75" mövzularında səyyar sərgilər yaradılmış, Nax. MR-in mədəni-maarif müəssisələrində, "Hüseyn Cavid və teatr" sərgisi isə Minskdə (Belarus) nümayiş etdirilmişdir. Muzey əməkdaşları Hüseyn Cavidin yaradıcılığı haqqında mühazirələr oxuyur, ədəbi irsini təbliğ edirlər. Muzeydə təşkil olunmuş "Hüseyn Cavid poeziya klubu" müxtəlif yaradıcı kollektivlərlə, Cavidşünas alimlərlə, şair və yazıçılarla görüşlər və disputlar keçirir. Muzeyin ekspozisiyasının tematik planını teatrşünas Tamilla Təhmasib tərtib etmişdir.

*Əd.* H ü s e y n o ğ l u Ə., Naxçıvanda Hüseyn Cavidin ev muzeyi, "Qobustan" toplusu, 1999, № 2.



Hüseyn Razi

**HÜSEYN ƏZİM** (Hüseynqulu Qurban oğlu Əzimovun ədəbi adı; 5.7.1913, indiki Ordubad r-nunun Dəstə k. – 8.2.1987, Naxçıvan ş.) – şair. Nax. MR əməkdar mədəniyyət işçisi (1974). Ordubad Pedaqoji məktəbini, Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir (1960). Mətbuat və mədəni-maarif sahələrində çalışmış, Ordubad rayon mədəni-maarif şöbəsinin müdiri, "Sovet Culfası" qəzetinin redaktoru (1949–57), Ordubad rayon mədəniyyət şöbəsinin müdiri (1965–74), "Ordubad işçisi" qəzetinin şöbə müdiri (1974–84) işləmişdir. "Şerlər" (1957), "Dübəndi çayı" (1973), "Gəncliyimdən yadigar" (1980), "Mən günəşə borcluyam" (1985) şer toplularının müəllifidir. Buhenvald ölüm düşərgəsində antifaşist təşkilatın rəhbərlərindən biri olan *Əkbər Ağayevə* həsr olunmuş "Əkbər kimdir?" pyesi var.

**HÜSEYN RAZİ** (Hüseyn Məmməd oğlu Rzayevin ədəbi adı; 24.10.1924, indiki Ordubad r-nunun Dəstə k. – 27.2.1998, Naxçıvan ş.) – şair, dramaturq. Nax. MR (1984) və Azərb. Respublikasının (1985) əməkdar incəsənət xadimi. Ordubad pedaqoji məktəbini bitirdikdən (1941) sonra müəllimlik etmişdir. Böyük Vətən müharibəsinin (1941-45) iştirakçısıdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1960). "Şərq qapısı" qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1962 ildən) işləmişdir. "Ana məhəbbəti" (1960), "Ömür yolları" (1964), "Səslənən dağlar" (1970), "Həmişə bahar" (1974), "Canlı tonqal" (1977), "Ayrılmarıam" (1981) və s. şer və poema toplularının, "Buludlar arasında" (1961), "Həyəcanlı gecə" (1966) povestlərinin müəllifidir. "Odlu diyar" (1963), "Günəş" (1968), "Arxalı dağlar" (1971), "Haray səsi" (1978), "Şirinliyin acısı" (1981) pyesləri tamaşaya qoyulmuşdur.

Ə s ə r l ə r i: Sahil həsrəti, B., 1985; Gözün aydın, B., 1996.



Hüseynov Bahadur

**HÜSEYNOV** Bahadır Məmmədqulu oğlu (d.15.12.1921, Naxçıvan ş.) – gen.-mayor (1978). Dövlət Təhlükəsizliyi orqanlarının fəxri əməkdaşı (1960). Azərb. Respublikasının əməkdar hüquqşünası (1982). Azərb. Dövlət Un-tinin (indiki BDU) hüquq fakültəsini bitirmişdir (1967). Böyük Vətən müharibəsində (1941–45) iştirak etmiş, 1948–63 illərdə Azərb. sərhəd qoşunlarında məsul vəzifələrdə işləmişdir. 1963–68 illərdə Azərb. Respublikası Dövlət Təhlükəsizliyi Komitəsi (DTK) orqanlarında çalışmış, 1969–76 illərdə Nax. MR DTK-nın sədri, 1976–86 illərdə Azərb. Respublikası DTK sədrinin müavini olmuşdur. Nax. MR Ali Sovetinin (8–9-cu çağırış) deputatı seçilmişdir. 1986 ildən istefaya çıxmışdır. H. 1987 ildə Azərb. Respublikası Veteranlar Şurasının məsul katibi, 1994 ildə isə sədri seçilmişdi. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**HÜSEYNOV** Əyyub Müseyib oğlu (3.9.1916, indiki Şərur r-nunun Xok k. – 17.4.1998, Bakı) – boyakar. Azərb. Respublikası əməkdar incəsənət xadimi (1980). Azərb. Rəssamlıq Texnikumunu (1935) və Tbilisi Rəssamlıq Akademiyasını (1941) bitirmişdir. 1948–98 illərdə Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbində (indiki Rəssamlıq akademiyası) dərs demişdir (1956–65 illərdə direktor). Məişət janrında və əmək mövzusunda tabloların ("Naxçıvan duz mədənində", 1947; "Yaylaqda. Axşam çağı", 1982), mənzərələrin ("Şahbuz çayının mənzərəsi", 1957; "Yağışdan sonra", 1972; "Neft daşları", 1979), süjetli ("Araz vadisində", 1984; "Sərhəddə", 1985) və tarixi-inqilabi kompozisiyaların, eləcə də portretlərin müəllifidir.



Hüseynov Firidun

**HÜSEYNOV** Firidun Cəlal oğlu (15.11.1933, Şahbuz r-nunun Nurs k. – 31.8.1986, Bakı) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1973), prof. (1979). Naxçıvan Müəllimlər İnstitutunun dil-ədəbiyyat (1954), Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültələrini (1959) və aspiranturasını (1962) bitirmişdir. BDU-nun filologiya fakültəsinin dekanı (1977–80), Azərb. ədəbiyyatı tarixi kafedrasının müdiri (1978–86) olmuşdur. Azərb. Yazıçılar Birliyinin üzvü idi (1973 ildən). 20 əsr Azərb. ədəbiyyatına, o cümlədən C.Məmmədquluzadə və Əli Nəzminin yaradıcılığına dair monoqrafik tədqiqatların, dərslik və proqramların, 200-dən çox elmi-tənqidi məqalənin müəllifidir.

Ə s ə r l ə r i: XX əsr Azərbaycan ədəbiyyatı (Mir Cəlalla birgə), nəşr 3, B., 1982; Əli Nəzmi, B., 1970; Adi əhvalatlarda böyük həqiqətlər, B., 1977; Satirik gülüşün qüdrəti, B., 1982; Molla Nəsrəddin və mollanəsrəddinçilər, B., 1986.





Hüseynov Qasım Zülfəli oğlu

**HÜSEYNOV** Qasım Rəsul oğlu (17.4.1925, indiki Babək r-nunun Sust k. – 15.11.1958, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1948). 1942–58 illərdə r-nun "26 Bakı komissarı" ad. k-zunda kolxozçu, ferma müdiri, çoban işləmişdir. 1947 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**HÜSEYNOV** Qasım Zülfəli oğlu (d. 25.5. 1940, Şahbuz r-nunun Yuxarı Remeşin k.) – kimyaçı. Kimya elmləri doktoru (1991), prof. (1996). Azərb. Milli EA Aşqarlar Kimyası İn-tunda işləmiş (1966–77), 1977 ildən pedaqoji işə keçərək, Naxçıvan Dövlət Pedaqoji İn-tunda (indiki Naxçıvan Dövlət Un-ti) baş müəllim, dosent, 1984 ildən kafedra müdiri vəzifələrində çalışmış, 1989–96 illərdə həmin un-tin rektoru olmuşdur. 1996 ildən BDU-nun Neft kimyası və kimya texnologiyası kafedrasının prof.-dur. Əsas tədqiqatları sürtgü yağlarının, yanacaqların keyfiyyətini yaxşılaşdıran aşqarların, metalları korroziyadan qoruyan inhibitorların və analitik reagentlərin sintezinə həsr olunmuşdur. 120 elmi əsərin, o cümlədən 1 dərsliyin müəllifidir. 15 müəlliflik şəhadətnaməsi var. "Şərəf nişanı" ordeni, D.İ.Mendeleyev ad. Ümumittifaq Kimya Cəmiyyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.



Hüseynov Mustafa

**HÜSEYNOV** Mustafa Məmməd oğlu (22.3. 1928, indiki Şərur r-nunun Mehrab k. – 3.2.1991, Bakı) – kimyaçı (üzvi kimya). Kimya elmləri doktoru (1964), prof. (1965), Azərb. Milli EA m. üzvü (1980). Azərb. Respublikası əməkdar elm xadimi (1979). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1952) və Azərb. Milli EA Kimya İn-tunun aspiranturasını bitirmişdir. Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda (NKPİ, 1959–68) və onun Sumqayıt filialında (1968–73) xlor üzvi birləşmələrin sintezi laboratoriyasının müdiri işləmiş, həmin filialın (1973–78), onun əsasında yaradılmış Xlor Üzvi Sintez İn-tunun direktoru (1978–86), Azərb. Milli EA Y.H.Məmmədəliyev ad. NKPİ-də zərif üzvi sintez laboratoriyasının müdiri (1986-91) olmuşdur. Əsas tədqiqatları "qaynar" təbəqədə xlor üzvi birləşmələrin sintezi və onların əsasında yüksək istiliyə və odadavamlı polimer maddələrin alınması və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqi problemlərinə həsr edilmişdir. Tədqiqatlarında tullantısız texnoloji proseslərin yaradılmasına və sənaye tullantılarından korroziya əleyhinə örtüklərin, səthi-aktiv maddələrin, neftçıxarmaya kömək edən maddələrin və s. alınmasına xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi ilə 10 proses sənayedə tətbiq edilmişdir. 1 monoqrafiyanın, 500-dən çox elmi məqalənin müəllifidir; 260 müəlliflik şəhadətnaməsi var. Beynəlxalq və ümumittifaq simpozium, konfrans və konqreslərində məruzələr etmişdir.

**HÜSEYNOV** Rövşən Maqsud oğlu (d. 6.2. 1954, Naxçıvan ş.) – aktyor. Azərb. Respublikası əməkdar artisti (1997). Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-tini bitirmişdir (1982). Həmin vaxtdan C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Əsas rolları: Şeyda, Özdəmir ("Şeyda", "Şeyx Sənan", H.Cavid), Şmaqa ("Günahsız müqəssirlər", A.N.Ostrovski), Bəhram ("Solğun çiçəklər", C.Cabbarlı), Şirinbala ("Şirinbala bal yığır", S.Qədirzadə), Əthəm xan ("Nadir şah", N.Nərimanov), Həsənqulu bəy ("O olmasın, bu olsun", Ü.Hacıbəyov) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.



Hüseynova Sofiya

**HÜSEYNOVA** Sofiya Həsən qızı (d. 17.2. 1926, Bakı) – aktrisa. Azərb. Respublikası xalq artisti (1982). 1942 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisasıdır. H. müxtəlif səpgili zəngin səhnə obrazları yaratmışdır. Ən yaxşı rolları: Gülçöhrə ("Arşın mal alan", Ü.Hacıbəyov), Zalxa ("Toy", S.Rəhman), Ana ("Ana", H.Cavid), Xuraman ("Vaqif", S.Vurğun), Sara ("Solğun çiçəklər", C.Cabbarlı), Kruçinina, Larisa ("Günahsız müqəssirlər",



S.H.Hüseynova Kruçinina ("Günahsız müqəssirlər", A.N.Ostrovski) rolunda.



*Hüseynzadə Lətif*

"Cehizsiz qız", A. N. Ostrovski), Diana ("Nə yardan doyur, nə əldən qoyur", Lope de Veqa), Xanuma ("Xanuma", A.Saqareli), Tərgül ("Məhsəti", Kəmalə) və s. "Şöhrət" ordeni ilə təltif olunmuşdur (1999).

**HÜSEYNZADƏ** Lətif Talıb oğlu (d. 25.4. 1903, Naxçıvan ş.) – maarif xadimi, ədəbiyyatşünas. Filologiya elmləri namizədi (1950), dosent (1950). Azərb. Respublikası əməkdar müəllimi (1943). Naxçıvan məscidi yanında ruhani məktəbdə, şəhərdə açılmış "Xeyriyyə" və "Rüşdiyyə" adlı yeni üsullu məktəblərdə, sonralar isə Naxçıvan Müəllimlər Seminariyasında (1922–25) oxumuş, təhsilini Azərb. Ali Pedaqoji İn-tunda davam etdirmiş, in-tun bağlanması ilə əlaqədar Bakı Dövlət Un-tinin şərqşünaslıq fakültəsinə dəyişilərək 1930 ildə oranı bitirmişdir. İrəvan Türk Müəllimlər Seminariyasında Azərb. dili və ədəbiyyatı müəllimi (1930–36), Naxçıvan Pedaqoji Texnikumunda müəllim, dərs hissə müdiri (1936–40), C.Məmmədquluzadə ad. Naxçıvan Müəllimlər İn-tunda müəllim, kafedra müdiri, dosent, direktor (1940–54). Azərb. Milli EA-nın Naxçıvan Elmi Bazasında elmi işçi, daha sonra direktor vəzifəsində çalışmışdır (1950-51). Azərb. Elmi-Tədqiqat Pedaqogika İn-tunda dil-ədəbiyyat metodikası şöbəsinin müdiri (1954–57), İrəvan Dövlət Pedaqoji İn-tunun Azərb. şöbəsində dosent (1957–68), Azərb. Pedaqoji Xarici Dillər İn-tunda (indiki Dillər Un-ti) dosent (1968–76) vəzifələrində çalışmışdır. 1950 ildə, Naxçıvanda ilk dəfə olaraq, "Ə.Qəmküsarın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. H. orta əsrlər Azərb. ədəbiyyatına dair əsərləri, qədim əlyazmalarını, tarixi sənədləri, o cümlədən 15 əsr Qaraqoyunlu hökmdarı, "Həqiqi" təxəllüsü ilə Azərb. və fars dillərində şerlər yazan Cahanşahın divanını aşkara çıxarıb nəşr etdirmişdir. Qazi Bürhanəddin, Nəimi, Nəsimi, Heyran xanım, Qönçabəyim və b.-nın ilk tədqiqatçılarından biri kimi də tanınır. 100-dən çox elmi məqalənin, 7 kitabın müəllifidir. İran və Türkiyədə elmi məclislərdə məruzələr etmişdir. Azərb. Respulikasının Prezidenti Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunda təhsil aldığı illərdə ona dərs demiş müəllimlər arasında H.-nin də adını hörmətlə xatırlamışdır. Fəxri təqaüdçüdür (2000).

**HÜŞTƏRƏNGİ** – Ordubad ş.-nin qədim *Üçtərəngi* məhəlləsinin xalq arasında işlədilən digər adı.



# X

**XACƏ CÖVHƏR** (?–1390) – əmir, Əlincəqalanın kutvalı. 14 əsrin 80-ci illərində Əlincəqalanın müdafiəsinə başçılıq etmiş, 1387 ildə Teymurun Əlincə qalasına ilk yürüşü zamanı ona ciddi müqavimət göstərmişdi. Ramazan bayramı günü vəfat etmişdir. Onu əmir Altun əvəz etmişdir.

*Əd.:* P i r i y e v V.Z., Fəsih Xəvafinin "Mücməl-i Fəsihi" əsərində Azərbaycan tarixinin inikası, Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1997, № 1–4.

**XAÇAPARAQ** – Culfa r-nunun Nəhəcir k.-ndən 2 *km* ş.-də orta əsrlərə aid yaşayış yeri. Sah. təqr. 3 *ha*. Ərazidə tikinti qalıqlarının dağılması ilə əlaqədar ovalvarı təpələr əmələ gəlmişdir. Yerüstü materiallar keramika məmulatının fraqmentlərindən və bişmiş kərpic qalıqlarından ibarətdir. Gil qarışıq torpaq laylarından ibarət olan mədəni təbəqədən çiy və bişmiş kərpic qalıqları, müxtəlif texnoloji üsullarla hazırlanmış şirsiz və şirli gil qab qırıqları tapılmışdır. Tikintilər, əsasən, düzbucaqlı planda olub daş bünövrə üzərində inşa edilmişdi. X. yaşayış yeri 3–16 əsrlərə aid edilir.

**XAÇAPARAQ NEKROPOLU** – Culfa r-nunun Nəhəcir k.-ndən 2 *km* ş.-də orta əsrlərə aid arxeoloji abidə. 1967 ildə aşkar olunmuşdur. Sah. 5 *ha*. Müxtəlif dövrlərə aid qəbir abidələrinə rast gəlinir. Ən qədim abidələr şm.-c. istiqamətində olub düzbucaqlı formadadır; çaydaşıları ilə əhatələnmişdir. Başdaşıları yoxdur. Son dövr qəbir abidələri q.-ş. istiqamətində olub, başdaşıları müxtəlifdir (onlardan biri düzbucaqlıdır). Qoyun formalı qəbirüstü kitabə ərəbcədir. Abidə 3–16 əsrlərə aid edilir.

**XAÇİK** – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Şərur qəzasına daxil olmuş kənd. Naxçıvan torpağının tərkib hissəsi olan X. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin* (1921) şərtlərinə zidd olub, beynəlxalq hüquq normalarının kobud surətdə pozulması idi.

**XALXAL** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 19 *km* şm.-da, Naxçıvançayın sol sahilində, dağətəyi ərazidədir. Əh. 538 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik və quşçuluqla məşğuldur. Orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, məscid var.

**XALIKEŞAN NEKROPOLU** – Ordubad r-nunun Sabirkənd və Kələntər-Dizə k.-lərinin yaxınlığında arxeoloji abidə. Ş.-q. istiqamətində daşdan hörülmüş bir sıra trapesiya formalı sərdabədən və şm.-q. tərəfdə yerləşən dördkünc formalı qurbangahlardan ibarətdir. Sərdabələrdən qara-boz və çəhrayı rəngli keramika məmulatı, tunc silah, tuncdan və daşdan hazırlanmış bəzək əşyaları tapılmışdır. Geniş yayılmış boyalı qablar mədəniyyəti bu dövrdə tənəzzülə uğrayır. Bunu X.n.-ndan tapılan tək-tək boyalı qablar da təsdiq edir. Əldə olunmuş materialların tədqiqi abidəni e. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəlinə aid etməyə imkan verir.

**XAN EVİ** – Naxçıvan ş.-ndə 18–19 əsrlərə aid tarixi-memarlıq abidəsi. Şərq memarlıq üslubunda tikilmiş abidə Naxçıvan xanı Rəhim xanın yaşayış evi olmuşdur. Bina zirzəmidən və 8 üst otaqdan ibarətdir. Qədim Qala məhəlləsində, Mömünə xatun türbəsinin 50–60 *m*-liyində inşa edilmişdir. Bişmiş kərpicdən tikilmiş, pəncərələrdə şəbəkə üslubundan, otaqlarda qədim Naxçıvan yaşayış evlə-



Xanağa kəndindən görünüş. Culfa rayonu.

rinə xas taxça formalarından geniş istifadə olunmuşdur. Binanın yüksək təpə (Xan diki) üzərində inşa edilməsi onu son dərəcə əzəmətli və gözəl göstərir. "Əcəmi seyrəngahı" istirahət kompleksinə daxil olan X. e. hazırda Nax. MR Dövlət Xalça Muzeyidir.

**XAN GÜNBƏZİ** – *Möminə xatun türbəsinin* adlarından biri. 1834 ildə Qafqaza gələn məşhur fransız səyyahı Dübua de Monperenin əsərində Atabəy günbəzi kimi təqdim edilən bu abidə X.g. də adlandırılır.



Xanağa nekropolu. Qəbirüstü abidənin kitabəsi.

**XANAĞA** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R.-n mərkəzindən və d.-y. st.-ndan 37 *km* şm.-da, Zəngəzur silsiləsinin yamacında, Əlincəçayın hər iki sahilindədir. Əh. 1108 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, uşaq bağçası, 3 kitabxana, klub, tibb məntəqəsi, rabitə şöbəsi, orta əsrlərə aid məscid(bax *Xanağa məscidi*), türbə (bax *Xanağa türbəsi*) var. X. k-ndən ş.-də, Əlincəçayın sol sahilində son orta əsrlərə aid *Əlincəçay xanəgahı* memarlıq kompleksi, *Qıtqın* yaşayış yeri yerləşir.

Xanağa körpüsü. Culfa rayonu.



**XANAĞA** – Culfa r-nunda, eyniadlı kəndin q.-ində, Əlincəçayın sağ sahilində orta əsrlərə aid yaşayış yeri. Bina və tikili qalıqları aşkar olunmuşdur. Yerüstü materiallar şirsiz və şirli gil qab sınıqlarından ibarətdir. Şirsiz qabların (küp, küpə, qazan, aftafa tipli qablar) səthi anqob təbəqəsi ilə örtülmüş, xaricdən cızma həndəsi xətlərlə bəzədilmişdir. Şirli qablar (kasa, boşqab və s.), bir qayda olaraq, daxildən zəngin həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Tapıntılara əsasən, X. yaşayış yerinin 13–18 əsrlərə aid olması ehtimal edilir.

**XANAĞA** – Ordubad r-nunda kənd. Vənənd bələdiyyəsinin daxilindədir. R-n mərkəzindən 14 *km* şm.-q.-də, Arazın sol sahilində, Ordubad–Vənənd avtomobil yolunun kənarındadır. Əh. 650 nəfər (2000); bağçılıq, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, tibb məntəqəsi, klub, kitabxana, pir (bax *Xanağa piri*) var.

**XANAĞA DAĞI** – Culfa r-nu ərazisində dağ. Əlincəçay dərəsinin sol yamacında, Xanağa k.-ndən 2 *km* ş.-dədir. Hünd. 1916 *m*. Andezit-dasit tərkibli intruziyadır. Günbəzvarı formadadır.

**XANAĞA KÖRPÜSÜ** – Culfa r-nu ərazisində, Xanağa k.-nin mərkəzində, Əlincəçayın üstündədir. Körpü iki aşırımlı olub, uz. 80 *m*-dir. R-nun iri yaşayış məntəqələrindən olan Xanağa k.-nı ilin bütün fəsillərində magistral avtomobil yoluna birləşdirmək məqsədilə 1997 ildə əsaslı surətdə bərpa edilmiş və yenidən qurulmuşdur.

**XANAĞA MƏSCİDİ** – Culfa r-nunun Xanağa k.-ndə, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq abidəsi. Orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Əlincəçay memarlıq kompleksinə daxil olan məscid *Xanağa türbəsinin* baştağına bitişik tikilmiş, 2 dayaqla 6 hissəyə bölünmüş və hər hissə günbəzlə örtülmüşdür. Məscidin kitabəsində onun hicri 901 (1496) ildə naməlum qadının sifarişi ilə tikildiyi göstərilir. Ətraflı məlumat üçün bax *Əlincəçay xanəgahı.*

**XANAĞA NEKROPOLU** – Culfa r-nunda eyniadlı kəndin q.-ində, Əlincəçayın sağ sahilində orta əsrlərə (14–17) aid arxeoloji abidə. Hazırda ərazisi əkin sahəsinə çevrilmişdir. Kəşfiyyat xarakterli tədqiqatlar (1991) nəticəsində aşkara çıxarılmış qəbirlərin əksəriyyətinin baş daşları düşmüşdür. Sinə daşları düzbucaqlı prizma şəklində hazırlanmışdır. Bəzi qəbirlər düzbucaqlı əsas üzərindədir; bir qisminin baş tərəfi tacvarı formada tamamlanmışdır. Vaxtilə buradakı qəbirlərin üstündə daşdan qoç heykəllər olmuşdur.



**XANAĞA PİRİ** – Ordubad r-nun Xanağa k.-ndə ziyarətgah. Kəndin ş. tərəfində iki otaqlı binadan ibarətdir. Böyük otağın mərkəzində üstünə qara örtük çəkilmiş bir qəbir var. Qəbirin üstü daşla təqr. 20 *sm* hünd.-də hörülmüşdür. Üzərində kitabə olmadığından kimin qəbri olduğu müəyyənləşdirilməmişdir. Pirin c. divarındakı pəncərənin sağ və sol tərəfində, yerdən təqr. 1 *m* hünd.-dəki iki taxçada Ordubad ərazisi üçün səciyyəvi olan yaşımtıl daşdan başdaşıları qoyulmuşdur. Sağ tərəfdəki başdaşı (70x40 *sm*) üzərindəki ərəbcə kitabədə Quran ayəsi, mərhumun adı və vəfat tarixi həkk olunmuşdur: "Bu qəbir Seyyid Əlinin oğlu mərhum Seyyid Tahirindir. Yeddi yüz yeddi tarixdə" (1308). Sol tərəfdəki başdaşının (59x37 *sm*) üzərindəki 7 sətirlik ərəbcə kitabədə onun Şeyx Nurəddinin oğlu Şeyx İslamın qəbri olduğu göstərilir. Başdaşılardan məlum olur ki, üstü hörülüb suvanaraq tək şəklə salınmış qəbir əslində vaxtilə iki qəbirdən ibarət olmuşdur. Bunu rus alimi V.M. Sısoyevin (1926 ildə) pirin böyük otağında bir-birindən 20 *sm* aralı 3,25x1,25 *m* ölçüdə iki qəbir olduğu barədə məlumatı təsdiqləyir. Bu, pirin yerində vaxtilə hansısa sufi təriqətinə məxsus xanəgah olduğunu ehtimal etməyə imkan verir.

*Əd.:* Səfərli F., Cəfərov H., Naxçıvan ziyarətgahları, B., 1998.

**XANAĞA TÜRBƏSİ** – Culfa r-nunun Xanağa k.-ndə, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq abidəsi. Orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Əlincəçay xanəgahı memarlıq kompleksinin tərkibinə daxildir. Türbə binasında qapı yerinin üstündən düşmüş kitabəli daş lövhə *Xanağa məscidində* saxlanılır. Kitabədə türbə binasının şəhid əmir Seyyid Əhməd əl-uc-l-Şaminin oğlu böyük sahib əl-əzəm (vəzir) Hacı Məhəmmədin Qaraqoyunlu Cahan şah dövründə [1435–67] oğlu Əmirxan üçün tikdirdiyi göstərilir. Türbənin günbəzi dağılmışdır. Giriş baştağının memarlıq elementləri Möminə xatun türbəsinin ayrıntılarına oxşayır. Türbə sərdabə planında düzbucaqlı formada olub, daş və kərpicdən tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış kəc məhlulundan istifadə edilmişdir. İçərisi kəclə suvanmışdır. Türbə yuxarıda tacvarı formada tamamlanmışdır. Uz. 3,5 *m*, eni 2,85 *m*, hünd 2 *m*-dir. İnşasında firuzəyi kaşıdan da istifadə olunmuşdur. Ətraflı məlumat üçün bax *Əlincəçay xanəgahı*.





Xanbabayev Əjdər

**XANBABAYEV** Əjdər Rza oğlu (25.8.1931, Ordubad ş. – 30.5.1990, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – naşir və ictimai xadim. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1989). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini bitirmişdir (1956). Həmin vaxtdan nəşriyyat işi sahəsində çalışmış, korrektorluqdan respublikada kitab nəşrinin rəhbərlərindən biri səviyyəsinədək yüksəlmişdir. Azərb. Milli EA "Elm" nəşriyyatının (1960–72), Azərb. Dövlət Nəşriyyatı – "Azərnəşr"in (1972–78; 1989 ildən), "Yazıçı" nəşriyyatının (1978–86) direktoru, Azərb. SSR Dövlət Mətbuat Komitəsi Sədrinin birinci müavini (1986–89) olmuşdur. Nəşriyyat işi sahəsində görkəmli mütəxəssis olan X.-in resp.-da kitab mədəniyyətinin inkişafında mühüm xidmətləri var. 100 cildlik "Dünya ədəbiyyatı kitabxanası" və bir çox digər sanballı çoxcildli nəşrlər onun bilavasitə yaxından iştirakı və təşkilatçılıq səyləri sayəsində yüksək poliqrafik səviyyədə çapdan çıxmışdır. 1990 il yanvarın 19–20-də sovet ordusunun Azərb. xalqına qarşı törətdiyi qanlı cinayəti həmin günlərdə dünya ictimaiyyətinə çatdıran "Qara yanvar" (Azərb. və rus dillərində, B., 1990) kitabı da məhz X.-in fədakar fəaliyyəti sayəsində işıq üzü görmuşdür. X.-in nəşriyyat kadrları ha-

Xanağa pirinin daş kitabəsi.



zırlanmasında böyük xidmətləri var. 80-ci illərin sonlarından Heydər Əliyevin respublikaya qayıdışı uğrunda fəal mübarizə aparan X. sovet imperiyasının respublikadakı cinayətkar əlaltıları tərəfindən faciəli surətdə qətlə yetirilmişdir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin 1995 il 18 dekabr tarixli Sərəncamı ilə xatirəsi əbədiləşdirilmişdir. Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulmuş, şəhərin küçələrindən birinə onun adı verilmiş, haqqında kitablar nəşr olunmuşdur.

*Əd.*: Sifarişli qətl (toplayanı və tərtib edəni Nəriman Həsənəli, buraxılışına məsul Afət Xanbabayeva), B., 1996; Məmmədov T., Qurbanov A., Gələcəyi görən insan, B., 1999; Nəcəfov İ., Axundova E., Naşirin ölümü, B., 2000.

**XANƏGAH** – Culfa r-nunda 2000 ilədək mövcud olmuş kənd. Bax *Əlincə k.*

**XANƏGAH** – Culfa r-nunun şm.-ş.-ndə, Əlincəçayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. Hər tərəfdən dağlarla əhatə olunmuş dərədədir. 1969 ildə qeydə alınmışdır. Sah. 6 *ha*. Tamamilə dağılmış yaşayış yerində oval və ya dördkünc çalalar qalmışdır. Yerüstü materiallar tikinti qalıqlarından (daşdan, bəzən isə daş özül üzərində möhrədən inşa olunmuşdur), çəhrayı rəngli gil qab qırıqlarından ibarətdir. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar zamanı q. tərəfdə təpənin üzərində mədəni təbəqə müəyyənləşdirilmişdir. Bu sahə aşınma nəticəsində dağıldığından təbəqənin kəsiyi alınmış, buradan möhrə, kül, sümük, gil qab qırıqları və s. toplanmışdır. Yaşayış yerinin mərkəzində hazırda bərpa edilməkdə olan nadir memarlıq kompleksi yerləşir (bax *Əlincəçay xanəgahı*). Abidə 11–18 əsrlərə aid edilir.



Xanəgah yaşayış yerindən tapılmış keramika məmulatı.

**XANƏGAH MEMARLIQ KOMPLEKSİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi (bax *Əlincəçay xanəgahı*).

**XANƏGAH NEKROPOLU** – Culfa r-nunda, Xanəgah yaşayış yerinin şm.-ş.-ində orta əsrlərə aid arxeoloji abidə. Nekropol hazırda memarlıq kompleksinin (bax *Əlincəçay xanəgahı*) ətrafına çəkilən daş divarla 2 hissəyə bölünmüşdür. Qəbirlər demək olar ki, dağıdılmışdır; əksəriyyəti yalnız başdaşılarına görə seçilir (bəzilərində ərəbcə kitabə var). Vaxtilə bir neçə qəbirin üzərində mərmərin xüsusi növündən – oniksdən sənətkarlıqla hazırlanmış sinə daşları var idi; Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Orta əsrlər üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri əldə olunmuşdur. X. n. 12–16 əsrlərə aid edilir.

**XANƏLİYEV** Sadıq Şahsuvar oğlu (d. 8.3.1936, Ordubad r-nunun Bist k.) – maarif xadimi, şair. Nax. MR əməkdar müəllimi (1999). Azərb. Respublikasının maarif xadimi (1982), SSRİ-nin maarif əlaçısı (1984). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1970). 1960 ildən Bist kənd orta məktəbində Azərb. dili və ədəbiyyatı müəllimi işləyir. Görkəmli sənət, elm və maarif xadimləri ilə sıx əlaqə saxlamış, məktəbdə "Dostluq klubu" yaratmışdır. "Qan qohumluğundan yaxın" sənədli filmində X.-in pedaqoji iş təcrübəsindən də bəhs edilir. "Yada sal məni" (2001) adlı şerlər kitabı nəşr olunmuşdur. Görkəmli elm və sənət adamları (Y. Məmmədəliyev, S. Rüstəm, M. İbrahimov, B. Vahabzadə, R. Həmzətov, M. Stelmax və b.) X.-in pedaqoji və ədəbi fəaliyyətini dəyərləndirmişlər. Ukraynanın "Klişkovo" k.-nin fəxri sakini seçilmiş, SSRİ–Fransa Cəmiyyətinin "Normandiya-Neman" medalı ilə təltif olunmuşdur.

**"XANIM QIZLAR" PANSİONU,** Həmidə xanım Məmmədquluzadə ad. – təhsil ocağı. 1992 ildə Naxçıvan ş.-ndə təşkil





Xarabagilan və onun bərpa layihəsi.

olunmuşdur. Ölkəmizin, xalqımızın gələcəyi üçün dərin bilikli, müasir dünyagörüşlü, milli adət-ənənələrə sadiq, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə və davranış mədəniyyətinə malik xanımlar tərbiyə etmək məqsədilə yaradılmış məktəb Azərb.-da milli zəminlə bağlı dünya təhsil sisteminə uyğun fəaliyyət göstərən yeganə qız pansionudur. Məktəbdə ümumtəhsil fənlərindən əlavə, bütün siniflərdə xüsusi proqramla mənəviyyat, təbabət, evdarlıq, kulinariya, dərzilik fənləri də tədris olunur. Pansionda 160 şagird təhsil alır (2000). Burada ali təhsilli, yüksək pedaqoji təcrübəyə malik ixtisas müəllimləri, tərbiyəçilər çalışır. Üç buraxılışı olmuşdur (2000).

**XANLIQLAR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* c.-ş.-də, Şərur düzündədir. Əh. 1257 nəfər (2000); üzümçülük və maldarlıqla məşğuldur. Üzüm emalı z.-du, orta məktəb, klub, kitabxana var. Kənddə "İmamzadə" adlanan ziyarətgah mövcuddur.

**XARABAGİLAN,** *Kiran, Gilan* – Ordubad ş. yaxınlığında orta əsr şəhər yeri. 1926–29 illərdə və 1976 ildən tədqiq olunur. Sah. 100 *ha*-dan çoxdur. Abidənin q. tərəfində e. ə. 2-1-ci minilliklərə aid yaşayış məskəni və nekropol aşkar edilmişdir. X.-in Narınqa-



Xarabagilan. Dairəvi bürcü və Narınqalası.

ləsı (sah. 10 *ha*-dan çox) və məhəllələri qala divarları ilə əhatə olunmuşdu. Qala divarları dördkünc və dairəvi bürclərlə möhkəmləndirilmişdi. Daş, çiy və bişmiş kərpicdən yaşayış evləri, karvansaralar, türbələr, məscid, habelə sənətkarlıq ocaqları və s. tikinti qalıqları aşkar edilmiş, çoxlu maddi mədəniyyət nümunəsi (şirli və şirsiz gil qablar, şüşə və metal məmulatı, sikkələr, o cümlədən, Roma qızıl pulları və s.) tapılmışdır. Tapıntılar arasında 12–14 əsrlərə aid gil qab və memarlıq fraqmentləri üzərində kufi, nəsx xəttlərilə yazılara rast gəlinib. X. ərazisində ilk antik dövrdə (e. ə. 5–4 əsrlərdə) şəhər mədəniyyəti yaranmış, orta əsrlərdən isə bu şəhər Azərb.-ın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Tədqiqatlar nəticəsində monqol istilaları zamanı dağıdılmış Kiran ş.-nin xarabalığı olduğu aydınlaşdırılmışdır.

**XARABAGİLAN ARAMİ YAZISI** – Ordubad r-nu ərazisində aşkar olunmuş qədim yazı. *Xarabagilan* qala divarının c.-ş.-ində, divarın xarici tərəfində 2–3 əsrlərə aid qəbirdən tapılmışdır. Arami yazısı Ərəbistan y-a-nda yaşamış və e. ə. 2-ci minilliyin sonlarında Ön Asiyada yayılaraq, Suriyada və Şimali Mesopotamiyada kiçik dövlətlər yaratmış sami tayfaları aramilərin əlifbası olub, e. ə. 1-ci minilliyin əvvəlində Finikiya yazısı əsasında yaradılmışdı. Qəbirdən aşkar olunmuş tək-



Xarabagilandan tapılmış keramika məmulatı.





*Xarabaqıvraq yaşayış yerindən tapılmış keramika məmulatı.*

qulp saxsı qabın üzərindəki arami yazısında qara rənglə dualar yazılmışdır.

**XARABAQIVRAQ** – Şərur r-nunun Qıvraq k.-ndən q.-də, Qıvraq yaylasından Araz çayına enən ərazidə son orta əsrlərə aid yaşayış yeri. Axtarışlar nəticəsində dairəvi (diametri 3,5 *m*) və dördkünc (3x4; 5x4 *m*) planda yerləşən daş düzümlərinə, dördkünc formalı çalalara təsadüf olunmuşdur. Yaşayış yerindən Naxçıvanın orta əsrlər keramikası üçün səciyyəvi olan çəhrayı və sarı rəngli saxsı məmulatı toplanmışdır.

**XARABALIQ** – Culfa r-nunun Ərəfsə k.-ndən şm.-ş.-də orta əsrlərə aid yaşayış yeri. Şm.-q.-də Gəvik çayı, c.-ş.-də Əlincəçayın axdığı dərin dərə ilə məhdudlaşır. Sah. 1600 $m^2$. Yaşayış yerinin ş. hissəsində uçub tökülmüş tikinti qalıqları aydın nəzərə çarpır. Q. tərəfi nisbətən salamat qalmışdır (burada orta əsrlər üçün səciyyəvi olan çəhrayı rəngli gil qab qırıqlarına təsadüf olunmuşdur). Mədəni təbəqə olduqca az saxlanmışdır (bəzi yerlərdə qalınlığı 0,5 *m*-ə çatır)). Yerüstü materiallar cüzidir; kasa və küpə tipli gil sınıqlarına təsadüf edilmişdir. X. yaşayış yeri 12–17 əsrlərə aid edilir.

**XARABALIQ** – Şahbuz r-nunda, Ağbulaq k.-nin şm.-ş.-ində erkən orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 7 *ha*. Ərazi daşlı olub, bir-birinin üzərində yerləşən bir neçə terrasdan ibarətdir. Terraslar boyunca iri daşlardan tikilmiş divar qalıqları saxlanmışdır. Çox güman ki, bu divarlar yaşayış yerini müdafiə məqsədilə çəkilmişdir. Ərazi uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən yaşayış binaları tamamilə dağıdılmışdır. Kəşfiyyat işləri zamanı X. yaşayış yerindən orta əsrlər üçün səciyyəvi olan gil qab qırıqları aşkar olunmuşdur.

**XARABAŞƏHƏR** – Babək r-nunda Qaraçuq k. yaxınlığında orta əsrlərə (12–17 əsrlər) aid yaşayış yeri. Sah. təqr. 40 *ha*. Araz su qovşağının tikintisi ilə əlaqədar aparılmış qazıntılar zamanı (1969) aşkar edilmiş yaşayış kompleksindəki məhəllədən divar qalıqları, metal məmulatı (mismar, nal, bıçaq və s.), sənətkarlar məhəlləsindən isə dəmirçixana, körük, məişət və təsərrüfat əşyaları, Elxani sikkələri, bəzək şeyləri, şirli və şirsiz gil qablar, şüşə, dəri, ağac, sümük və parça məmulatı qalıqları və s. tapılmışdır. Gil qablar İran və digər Yaxın Şərq keramikası ilə yaxınlıq təşkil edir.

**XARXAT DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Hünd. 2378 *m*. Kilit k.-ndən 2 *km* şm.-dadır. Sıldırım yamaclı və konusvarı formadadır.

**XAŞLIDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. hissəsinin suayırıcında zirvə. Hünd. 2686 *m*. Konusvarı formadadır. C. yamacı sıldırımdır.

**XƏLƏC** – Şərur r-nunda, Xələcdağın yaxınlığında kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* şm.-q.-də, Şərur düzündə, Araz çayının sahilindədir. İranla həmsərhəd bölgədə yerləşir. Əh. 1250 nəfər (2000); əsasən əkinçiliklə məşğuldur. Orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub, kitabxana var. Yaxınlığında mərmər yatağı mövcuddur. Adı türk (oğuz) tayfası *xələclərlə* bağlıdır.

**XƏLƏC** – Şərur r-nunun eyniadlı k.-ndən 200 *m* c.-da, Arazın sol sahilində, eyniadlı dağın şm. yamacında Eneolit dövrünə aid yaşayış yeri. Yerli əhali həmin ərazidən qəbiristanlıq kimi istifadə edərkən ətrafa çoxsaylı maddi mədəniyyət nümunələri səpələnmişdir. Buradan saman və qum qatışıqlı gildən əldə hazırlanmış qırmızı rəngli keramika məmulatı (küpə, xeyrə, kasa tipli qablar) toplanmışdır. Qabların bir qisminin xarici səthində daraqvarı alətlə işlənmiş izlər var, digər

*Xələc yaşayış yerindən tapılmış keramika məmulatı.*





qisminin xarici, bəzən də daxili səthi müxtəlif çalarlı qırmızı və çəhrayı rəngli boya ilə örtülmüşdür. Bəzi nümunələr yapma, çərtmə və cızma üsulu ilə bəzədilmişdir. Yaşayış yerindən dən daşları, obsidian (d ə v ə g ö z ü) və çaxmaqdaşı lövhələri tapılmışdır. Çaxmaqdaşı lövhələrinin kürək hissəsinin daraqvarı alətlə işlənməsi diqqəti cəlb edir. Tapıntılar *Ovçular təpəsi* materiallarına yaxındır. Üzəri boyalı keramika nümunələri Urmiya gölünün (Cənubi Azərb.) ş.-ndəki Eneolit abidələrinin keramikası ilə analogiya təşkil edir. Dağın ətəyindən çəkilən suvarma kanalının kənarlarında isə ilk Tunc dövrünə (Kür–Araz mədəniyyəti) aid keramika nümunələrinə rast gəlinmişdir. Yaşayış yerindən azacıq aralı orta Tunc dövrünə aid bütöv boyalı qab nümunələri də tapılmışdır. Həmin qablar həm ornamentlərinə, həm də formalarına görə *Kültəpə I* qablarının eynidir. Bütövlükdə, X. yaşayış yeri e. ə. 4–3-cü minillikləri əhatə edir.

*Əd.:* Ə l i y e v N. H., Xələc Eneolit yaşayış yeri, Azərb. ali məktəb aspirantlarının VIII elmi konfransı (tezislər), B., 1985; С е й и д о в А. Г., Памятники куро-аракской культуры Нахичевани, Б., 1993.

**XƏLƏCDAĞ** – Şərur r-nu ərazisində dağ. Arazın sol sahilində, Xələc k.-ndən 1 *km* c.-q.-dədir. Hünd. 812 *m*. Sıldırım yamaclıdır.

**XƏLƏCLƏR** – erkən orta əsrlərdə Amudərya çayının c. sahilində yaşamış türk tayfası. Səlcuq-oğuz tayfa birliyinə daxil idi. Yazılı qaynaqlardan məlum olur ki, X. ərəb xəlifələrinin ordularında xidmət etmişlər. Səlcuqlar dövründə bir qismi İrana, oradan isə Azərb.-a gəlmişdir. Bir sıra tirə və qollardan (nəsl) ibarət olan X. 19 əsrin axırında Cavad qəzasında yaşayırdılar. Əsasən, maldarlıqla məşğul olmuşlar. Şərur r-nundakı eyniadlı yaşayış yerinin, dağ və kəndin adları X.-lə əlaqədardır.

**XƏLİLLİ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 16 *km* şm.-da Naxçıvançayın sağ sahilində, düzənlikdədir. Əh. 591 nəfər (2000); taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və quşçuluqla məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**XƏLİLOV** Əliməmməd Məşədi Musarza oğlu (1862, Naxçıvan ş. – 1896, orada) – ziyalı, maarif və teatr xadimi. Qori Müəllimlər Seminariyasını 5 il əvəzinə 2 ilə bitirmiş (1881). Naxçıvan şəhər ibtidai məktəbinə təyinat almış, burada bir il C.Məmmədquluzadəyə dərs demiş, onu Qoridə oxumağa təşviq etmişdir. 1885–88 illərdə Baş Noraşen (indiki Cəlilkənd) zemstvo məktəbinin müdiri olmuş, C.Məmmədquluzadənin Uluxanlıdan Baş Noraşen məktəbinə dəyişilməsinə ciddi səy göstərmişdir. X. Naxçıvan teatrının yaradılmasında yaxından iştirak etmiş, müxtəlif tamaşaların rej. olmuş, evinin böyük zalını tamaşa göstərmək üçün teatr həvəskarlarının ixtiyarına vermişdir. M. F. Axundovun "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyasında zərgər Hacı Kərim rolunu oynamışdır. Tiflisdə nəşr olunan "Kavkaz" qəzetinin Naxçıvan üzrə müvəkkili olmuşdur; 80–90-cı illərdə həmin qəzetdə Naxçıvan vil. haqqında dərc olunmuş imzasız məqalələrin böyük əksəriyyəti onun qələmindən çıxmışdır. Məşhur pedaqoq, Qori seminariyası Azərb. şöbəsinin inspektoru A.O.Çernyayevski 1893 ildə keçmiş tələbəsi X.-u Tiflisdə nəşr etmək istədiyi "Fikir" qəzetində əməkdaşlığa çağırmış, lakin qəzetin nəşri baş tutmamışdır.

*Əd.:* X ə l i l o v Ə., Naxçıvan teatrının tarixi, B., 1964; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**XƏLİLOV** Sadıq Cəfər oğlu (20.12.1864, Naxçıvan ş. – 3.11.1905, orada) – ziyalı, maarif və teatr xadimi. İrəvan Müəllimlər Seminariyasını bitirmiş (1886). Yengicə ictimai məktəbində (1886–88; 1892–97), Nehrəm məktəbində (1888–92; 1897–1902), Naxçıvan şəhər ibtidai məktəbində (1901–05) ikinci müəllim, müəllim və nəzarətçi (müdir) vəzifələrində çalışmışdır. 1890–92 illərdə C.Məmmədquluzadə ilə birlikdə Nehrəm məktəbində pedaqoji fəaliyyət göstərmiş, bir evdə kirayənişin qalmış, hələ Naxçıvan ibtidai məktəbində şagirdlik illərindən bir-birini tanıyan gənc maarifçilər burada dostlaşmışlar. Onların hər ikisi müəllimliklə yanaşı, Naxçıvan teatrının yaranmasında yaxından iştirak edirdilər. C.Məmmədquluzadə həmin dövrdə yazdığı "Danabaş kəndinin əhvalatları" povestində dostundan prototip kimi istifadə etmiş, əsərin "Bir yüngülvarı müqəddimə" hissəsində onun adını lağlağı "Sadığa", soyadını isə "qəzetçi Xəlilə" vermişdir.

X. 1902 ildən Naxçıvan ş.-nin rəisi Cəfərqulu xanın köməkçisi işləmiş, milli münaqişə zəminində faciəli şəkildə öldürülmüşdür.

*Əd.* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**XƏTAİ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* şm.-da, dağətəyi düzənlikdədir. Əh. 3088 nəfər (2000); tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, gənc turistlər st., ekoloji tərbiyə mərkəzi, feldşer-mama məntəqəsi var. Kənddə r-n şəhidlərinə abidə-bulaq kompleksi tikilmişdir.

**XƏTAİ** – Şərur r-nunda keçmiş *Sovetabad* kəndinin adı.

**XƏZƏRLƏR** – erkən orta əsrlərdə Şimali Qafqazın ş.-ndə və Volqa (qədim türk xalqlarında İ t i l) çayının aşağı axarlarında yaşamış türk tayfa birliyi. X.-in Şimali Qafqaza nə vaxt gəlmələri haqqında müxtəlif mülahizələr mövcuddur. İlk dəfə tarixçi Movses Xorenlinin (5–6 əsrlər) "Ermənistan tarixi" əsərində 3 əsrin 1-ci yarısında Dərbənd keçidindən keçərək Qafqaz Albaniyasına (qədim Azərb.) hücumları, habelə alban (Qafqaz) tarixçisi Movses Kalankatlının "Alban tarixi" əsərində Sasani hökmdarı II Şapurun dövründə [309–79] baş vermiş hadisələrlə əlaqədar adları çəkilir. X. dəfələrlə Sasanilərin və Bizansın tabeliyində olan Cənubi Qafqaz torpaqlarına hərbi yürüşlər etmiş, onların müəyyən bir hissəsi Azərb. ərazisində məskunlaşmışdır. Mənbələrin məlumatına görə, Sasani hökmdarı Xosrov Ənuşirəvan [531–79] 10 min xəzər ailəsini Azərb.-a köçürtmüşdü. 6 əsrin son rübündən X. Türk xaqanlığının tərkibinə daxil oldular. 7 əsrin 20-ci illərinin sonunda İran–Bizans müharibələrində Bizansın müttəfiqi kimi Cənubi Qafqaza yürüş etmiş türk qoşununun əsas hərbi qüvvəsini X. təşkil edirdi.

7 əsrin ortalarında Qərbi Türk xaqanlığının süqutundan sonra Aşina türk nəslinin başçılıq etdiyi xəzər tayfa birliyi Cənub-Şərqi Avropa çöllərində erkən feodal dövləti olan müstəqil Xəzər xaqanlığının əsasını qoydu. Bu dövrdən Cənubi Qafqaz, xüsusilə Azərb. uğrunda təqr. yüz ildən çox davam edən xəzər-ərəb müharibələri başlandı. Azərb. torpaqları dəfələrlə əldən-ələ keçdi. Ərəb canişinləri əsir alınmış X.-i ailələri ilə birlikdə Azərb.-da yerləşdirirdilər. 965 ildə Kiyev knyazı Svyatoslavın X.-in paytaxtı İtili dağıtması və oğuzların hücumu Xəzər xaqanlığını zəiflətdi və onun süqutuna səbəb oldu. X.-in əsas məşğuliyyətləri köçəri maldarlıq idi. 8-ci əsrdən əhalinin bir hissəsi oturaq həyata keçərək, əkinçilik və bağçılıqla məşğul oldu. Xəzər xaqanlığı dağıldıqdan sonra X. müxtəlif türk xalqları ilə qaynayıb-qarışdılar. Xəzər dənizinin adı X.-lə əlaqədardır. Ordubad r-nundakı Xəzəryurd dağ adından görünür ki, Xəzər ailələri bu bölgədə də yaşamışlar.

*Əd.:* B ü n y a d o v Z. M., Azərbaycan VII–IX əsrlərdə, B., 1989; у е н э о н и н, О длительности пребывания хазар в Албании в VII–VIII вв., Изв. АН Азерб. ССР (серия общественных наук), 1961, № 1.

**XƏZƏRYURD DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Nəsirvaz çayı ilə Parağaçayın suayırıcında zirvə. Nəsirvaz k.-ndən 4,5 *km* ş.-dədir. Hünd. 3173 *m*. Günbəzvarı formadadır. *Xəzərlərin* adı ilə bağlıdır.

**XƏZNƏDƏRƏ** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sağ qolu. Mənsəbindən 48 *km* məsafədə ona tökülür. Uz. 10 *km*, hövzəsinin sah. 30 $km^2$. Başlanğıcını Dibəklidağın yamacından götürür. Əsasən, qrunt və qar, qismən də yağış suları ilə qidalanır. Əlincəçayın selli qollarından biridir.

**XINCAB** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 26 *km* şm.-q.-də, dağətəyi ərazidədir. Əh. 604 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, poçt şöbəsi var.

**XINCOV MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə məhəllə. Sovet hakimiyyəti illərində "Oraq kolxozu" adlanırdı. Buranın əhalisi, əsasən, kəndlərdə dolana bilməyən və ya yaşamaq istəməyənlərdən ibarət idi. Onların çoxu xüsusilə Böyük Vətən müharibəsi (1941–45) illərində Naxçıvan (indiki Babək) və Şahbuz r-nlarının kəndlərindən köçüb burada məskunlaşmışlar.

**XINZİRƏK** – Şahbuz r-nunda mövcud olmuş kənd. Biçənək çayının q. sahilində idi. Əhalisi 1920 ildə Biçənək k.-nə köçüb. Yaxınlığında orta əsrlərə (14–17 əsrlər) aid yaşayış yeri var; sah. 2000 $m^2$. Burada evlərin xarabalıqları və tikinti qalıqları izlənilir. Yerüstü tədqiqatlar nəticəsində ərazidən xeyli miqdarda gil məmulatı (şirli və şirsiz qab qırıqları) və s. maddi mədəniyyət nümunələri toplanmışdır.



**XOK** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 31 *km* c.-ş.-də, Naxçıvan–Şərur avtomobil yolunun kənarında, Şərur düzündədir. Əh. 4723 nəfər (2000); taxılçılıq, yemçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**XOK DAĞI** – Şərur r-nu ərazisində dağ. Böyükdüzün şm. kənarındadır. Hünd. 1063 *m*.

**XOKGÖL SU ANBARI** – Şərur r-nunun Xok k. yaxınlığındadır. 1966 ildə istifadəyə verilmişdir. Sah. 0,26 $km^2$, faydalı həcmi 1,2 mln. $m^3$. Anbara su kəhrizlərdən kanalla axıdılır. Suvarmada və qışlaqların su təchizatında istifadə edilir. Mövsümi tənzimləməyə malikdir.

**XOŞAB** – Naxçıvan bölgəsində, xüsusilə Ordubadda geniş yayılmış içki, meyvə suyu. Sərinlədici və iştahaçma xüsusiyyətinə malikdir. Əsasən, gilənar (albalı), alça, şaftalı, ərik qurusundan hazırlanır. Bunun üçün meyvə qurularını yuyub isti suyun içərisinə tökür, bir qədər şəkər tozu əlavə edib qaynadırlar. Xoş ətirli, dadlı, ləzzətli turşməzə süfrə içkisi sayılır. Xoşagəlim və ətirli olmaqdan ötrü ona bir qədər gülab da əlavə edirlər.

**XOŞKEŞİN** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sol qolu. Mənsəbindən 30 *km* məsafədə ona tökülür. Uz. 16 *km*, hövzəsinin sah. 28 $km^2$-dir. Əsasən qrunt, qismən də qar və yağış suları ilə qidalanır. İlin çox vaxtı quru olur.

**XOŞKEŞİN** – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında orta əsrlərə (14–18 əsrlər) aid yaşayış yeri. Xarabalıqları və qəbiristan aşkar edilmişdir. Arxeoloji qazıntılar aparılmamışdır. Yerüstü maddi mədəniyyət nümunələri əldə olunmuşdur.

**XOŞKEŞİN** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.-y. st.-ndan 34 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 372 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. Orta məktəb, klub, 2 kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var. Kəndin yaxınlığında mixi yazılı kitabə qeydə alınmışdır (*bax İlandağ mixi yazısı*).

**XOŞKEŞİN MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Xoşkeşin k. yaxınlığındadır. Travertinlərdən çıxır. Suyunun temp-ru 25°C, debiti 35 $m^3$/*gün*.

Balneoloji tərkibi:

$$CO_2 1{,}45\,M8{,}6\,\frac{Cl37\,HCO_3 34\,SO_4 29}{(Na+K)71\,Mg15\,Ca13}\cdot pH\,6{,}4\,D\,35\,m^3/gün\,T\,25°C$$

Suyu karbon qazlı, orta dərəcədə minerallaşmış, xlorlu, hidrokarbonatlı-sulfatlı-natriumludur. Bəzi daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.

**XOŞKEŞİN NEKROPOLU** – Culfa r-nu ərazisində, Xoşkeşin k.-nin ş.-ndə, Əlincəçay vadisindən təqr. 100 *m* yüksəklikdə arxeoloji abidə. Nekropolun q. hissəsi təsərrüfat işləri zamanı dağıdılmış, buradan insan skeletləri ilə yanaşı qırmızı və boz rəngli gil qab nümunələri aşkar olunmuşdur. Saxsı məmulatı e. ə. 1-ci minillikdən eramızın əvvəllərinə qədər olan dövrü əhatə edir.

*Əd.:* S e y i d o v A. Q., Tarixdən səhifələr, B., 1999.

**XOŞKEŞİN SİLSİLƏSİ** – Ordubad r-nu ərazisində dağ silsiləsi. Zəngəzur silsiləsinin c.-q. yamacındadır; Parağaçayla Düylünçayın suayırıcısını təşkil edir. C.-q. istiqamətində uzanır. Uz. 4,5 *km*. Ən yüksək zirvəsinin hünd. 2677 *m*.

**XOŞKƏRİ KÖRPÜSÜ** – Culfa r-nu ərazisində, Xoşkəri çayının üstündədir. Yaycı k.-nin 2 *km*-də olan X. k. Culfa ilə Ordubad r-nlarını birləşdirir. Ümumi uz. 50 *m*-dir. Sel daşqınları nəticəsində magistral yolda hərəkət günlərlə dayandığından 1998 ildə yeni körpü inşa edilib istifadəyə verilmişdir.







15 və 11 aşırımlı Xudafərin körpüləri.

**XOYLU MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə məhəllə. 18 əsrin axırlarında İranın Xoy ş.-ndən köçüb gələrək, indiki "Əcəmi seyrəngahı"nın bazar səmtində məskunlaşanlar tərəfindən salınmışdı. Adı da buradandır.

**XUDAFƏRİN KÖRPÜLƏRİ** – Araz çayı üzərindən salınmış iki körpü. Azərb. Respublikası Cəbrayıl r-nu ilə İranın sərhədindədir. Bir-birindən 800 *m* aralı olan körpülərdən biri 15, digəri 11 aşırımlıdır. Araz çayı yatağında Xudafərin dərəsi ən əlverişli keçidlərdən biri olmuş, ehtimal ki, hələ Böyük İpək Yolunun fəaliyyətə başladığı dövrdə burada salınan körpülər Azərb.-ın şm., o cümlədən Naxçıvan torpaqlarını c.-dan gələn ölkələrarası yollarla əlaqələndirmişdi. Həmin antik körpü qalıqları üstündə yenidən tikildiyi güman edilən X. k. Naxçıvandan və onun vasitəsilə Cənubi Qafqazın digər yerlərindən gələn karvanları Şərq-Qərb transkontinental ticarət yolu olan Böyük İpək Yolunun ana qolu ilə qovuşdururdu.

Kərpicdən tikilmiş 15 aşırımlı körpü təbii şəraitlə üzvi əlaqələndirilmiş, dayaqları süni oturacaqlar əvəzinə çayın axarındakı qayalar aralarındakı məsafəyə görə müxtəlif ölçülüdür. 15 aşırımlı körpünün 7 əsrin 1-ci yarısında Azərb.-ı istila edən ərəblər tərəfindən əski körpünün yerində yenidən qurulub, dəfələrlə bərpa və təmir olunduğunu göstərir, dövrümüzədək çatan bu abidəni 12 əsrə aid edirlər.

11 aşırımlı körpü tamamilə başqa quruluşa və memarlıq kökəminə malikdir. Bütünlüklə daşdan tikilmiş və yaxşı yonulmuş iri



15 aşırımlı Xudafərin körpüsünün bərpa layihəsi.



daş lövhələrlə üzlənmiş bu körpünün də dayaqları təbii qayalar üzərindədir; aşırımların ölçüsü müxtəlifdir. Araşdırıcıların fikrincə, antik körpü qalıqları üstündə yenidən inşa olunmuş 11 aşırımlı körpü 13 əsrdə Elxanilərin hakimiyyəti dövründə yenidən bərpa edilərək, 20 əsrin 30-cu illərinədək Naxçıvanı və ona qonşu əraziləri c.-la birləşdirmişdi. 30-cu illərin sonlarında Azərb.-ın şm.-ı ilə c.-u arasında bu körpü vasitəsilə davam edən gediş-gəlişi kəsmək üçün o vaxtadək salamat qalmış tağlar dağıdılmışdı (3 orta tağı indiyədək salamat qalmışdır). Həmin vaxtdan 11 aşırımlı körpü "Sınıq körpü" də adlanmışdır.

Tikinti materialı və memarlıq biçimlərinə görə monumental görünən və güclü bədii ifadəliliyi ilə diqqəti cəlb edən X. k. Yaxın və Orta Şərqin ən əzəmətli körpüləri sırasına daxildir.

*Əd.:* Salamzadə Ə. B., Məmmədzadə K. M., Arazboyu abidələr, B., 1979; Qiyasi C., Nizami dövrü memarlıq abidələri, B., 1991.

**XUDİYEV** Nizami Manaf oğlu (d. 1.4.1949, Şahbuz qəs.) – dilçi, ictimai xadim. Filologiya elmləri doktoru (1990), prof. (1990). Azərb. Respublikasının əməkdar elm xadimi (2001). Nyu-York EA-nın həqiqi üzvü (2001). "Qızıl qələm" mükafatı laureatı (2001). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filologiya fakültəsini bitirmiş (1970), in-tun Azərb. dilçiliyi kafedrasında müəllim saxlanmışdır. APU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri (1979–91), birinci prorektoru (1991–94) və rektoru (1994–96) olmuşdur. 1996 ildən Azərb. Dövlət Teleradio Verilişləri Şirkətinin sədridir. Azərb. yazıçılar və jurnalistlər birliklərinin üzvüdür. Müasir Azərb. dilinə dair tədqiqatların, o cümlədən bir neçə monoqrafiyanın, orta və ali məktəblər üçün dərslik və dərs vəsaitinin, 200-dən çox məqalənin müəllifidir. Azərb.-da və xaricdə (Moskva, Ankara, İstanbul, Almatı, Aşqabad, Bişkek, Daşkənd və s.) keçirilmiş türkoloji qurultay və simpoziumlarda məruzələr etmişdir. İctimai-siyasi mövzularda bir sıra sənədli televiziya filminin ssenari müəllifidir. Azərb. Respublikası Milli Məclisinin (1-ci və 2-ci çağırış) deputatıdır. İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi X.-i "2001-ci ilin ziyalısı" adına və Mərkəzin Qızıl medalına layiq görmüşdür.

Əsərləri: Azərbaycan ədəbi dilinin Sovet dövrü, B., 1989; Azərbaycan ədəbi dili tarixi, B., 1995; Heydər Əliyev və Azərbaycan dili, B., 1998; Radio, televiziya və ədəbi dil, B., 2001.



Xudiyev Nizami

**XUDİYEVA** Nəzakət Əli qızı (d. 20.6.1955, Culfa ş.) – aktrisa. Nax.MR-in (1987) və Azərb. Respublikasının əməkdar artisti (1999). Azərb. Dövlət İncəsənət Un-tini bitirmişdir. 1974 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Əsas rolları: Nazlı ("Ölülər", C.Məmmədquluzadə), Əzra ("Şeyx Sənan", H.Cavid), Kamilə ("Toy", S.Rəhman), Gülnar ("Vaqif", S.Vurğun), Çarliston



N. Ə. Xudiyeva Çarliston ("Hicran", S.Rəhman, E.Sabitoğlu) rolunda.

("Hicran", S.Rəhman, E.Sabitoğlu), Gülcahan ("Nadir şah", N.Nərimanov), Arvad ("Mənim ərim dəlidir", Elçin) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.



Xudiyeva Nəzakət

**XURS** – Ordubad r-nunda kənd. Bist bələdiyyəsinin tərkibinə daxildir. R-n mərkəzindən şm.-q.-də, Ordubad-Nürgüt avtomobil yolunun kənarındadır. Əh. 150 nəfər (2000); maldarlıq, bağçılıq və arıçılıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var.

# İ

**İBADULLA** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 *km* c.-da, Arpaçayın sahilində, düzənlikdədir. Əh. 1257 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var. Ərazidə Tunc dövrünə aid *Şortəpə* yaşayış yeri aşkar edilmişdir.

**İBN ƏL-FUVATİ** Kamaləddin Əbu-l-Fəzl Əbdürrəzzaq ibn Əhməd ibn Məhəmməd (1244–1326) – ərəb alimi və biblioqrafı. 10 il (1270–80) Nəsirəddin Tusi tərəfindən yaradılmış Marağa kitabxanasının xəzini (mühafizi) olmuşdur. Kitabxanada Hülaku xanın [1256–65] göstərişi ilə bir çox ölkələrdən toplanmış və elmin müxtəlif sahələrinə aid ərəb, fars, suriya və s. dillərdə 400.000 əlyazması mühafizə olunurdu. İ. əl-F. kitabxananın zəngin materialları əsasında 50 cilddən ibarət əsər yazmış, lakin onun "Təlxis məcmə əl-adab fi müə'cəm əl-əlqab" adlı cüzi bir hissəsi dövrümüzədək gəlib çatmışdır. Lüğət xarakterli bu hissədə Naxçıvanın bir sıra görkəmli elm, mədəniyyət və dövlət xadimləri – Səncər ibn Abdulla Naxçıvaninin övladları, Fəxrəddin Naxçıvani, Naxçıvan hakimi İmadəddin əl-Qəzvini və b. barədə müfəssəl məlumat verilir.

*Əd.:* Б у н и я т о в З. М., Сведение Камал ад-дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдуллаха ан-Нахичевани, ДАН Азерб. ССР, т. XXXIV, 1978, № 5; С е й д б е й л и М. Г., Научно-культурная жизнь Азербайджана (Второй половины XIII – начала XIV вв.) Б., 1999.

**İBN SAVƏCİ** Əbülməhasin Məhəmməd ibn Səd ibn Məhəmməd (?, Naxçıvan–?) – şair və ədib (14 əsr). "Bədrətül-məani fi tərcümətil-ləali" ("İnciləri müəyyənləşdirmək üçün məna kisəsi"; 1331) əsərində Əli ibn Əbu Talibin kəlamlarının izahını vermişdir. Əsər 1897 ildə İstanbulda çap edilmişdir.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 160.



İbrahim Səfi

**İBRAHİM SƏFİ** (əsl adı və soyadı İbrahim Qafar oğlu S ə f i y e v; 1898, indiki Şərur r-nunun Cəlilkənd k. – 1983, İstanbul) – rəssam. İlk təhsilini Baş Noraşen (indiki Cəlilkənd) kənd məktəbində almış, sonra İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. 1913 ildə Moskva Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq Məktəbinin hazırlıq şöbəsinə daxil olmuş, lakin müəyyən səbəblərə görə təhsilini yarımçıq qoymuşdur. Birinci dünya müharibəsindən sonra Türkiyəyə getmiş, 1923 ildə İstanbul Gözəl Sənətlər Akademiyasını bitirmişdir. Bədii yaradıcılığa erkən başlamış, 12 yaşında ikən "Araz balıqçıları" adlı ilk rəsmini çəkmişdir. 1920 ildə Türkiyədə keçirilən Avropa rəssamları müsabiqəsinin mükafatını almışdır. Müxtəlif sənət cərəyanlarına, təzadlı rəssamlıq üslublarına yaxından bələd olan İ. S. yaradıcılığında realizmə üstünlük vermiş, dünya incəsənətinin mütərəqqi ənənələrini davam etdirmişdir. Boyakarlığın müxtəlif janrlarında çoxlu tablo, o cümlədən mənzərələr ("Otel" parkı tərəfdən Bursa şəhərinin görünüşü", "Anadolu sahilinin görünüşü", "Qarxana rayonu", "Sultaniyyə məscidindən bir görünüş", "Mənzərə" və s.), natürmortlar ("Gül vazası", "Natürmort" və s.), portretlər ("Qadın portreti", "Portret", "Gəzərgi musiqiçi Hafizin portreti", "Zərrux xanımın portreti" və s.) yaratmışdır. Bəzi mənzərə və natürmortların şux, şəffaf koloriti, rənglərin oynaqlığı onu fransız impressionistlərinə yaxınlaşdırır, impressionizmin naturaya gətirdiyi işığa, parlaqlığa, kolorit gözəlliyinə aludəçiliyini göstərir ("Burqaz adası tərəfdən Anadolu sahillərinin görünüşü", "Bursa dağında düzənlik", "Bosfordan bir mənzərə", "Qış mənzərəsi", "Anadolunun görünüşü" və s.). Əsərlərində bir çox ölkələrə səfər təəssüratları əksini tapmışdır. Türkiyədə, həmçinin Fransa, Avstriya, ABŞ, İsveçrə və s. ölkələrdə fərdi sərgiləri nümayiş etdirilmişdir. Mənzərə, portret və natürmortlarından ibarət bəzi əsərlərini Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyinə bağışlamış, bir neçə əsəri 1989 ildə Bakıda keçirilən "Əzizim vətən yaxşı..." sərgisinin ekspozisiyasına daxil edilmişdir. Əsərləri Türkiyədə və dünya muzeylərində, o cümlədən şəxsi kolleksiyalarda, R. Mustafayev ad. Azərb. İncəsənət Muzeyində saxlanılır.



İbrahim Səfi. Natürmort. 1967. Kətan. Yağlı boya.

*Əd.:* Z a m a n o v A., N ə c ə f o v M., Rəssam İbrahim Səfi, "Ədəbiyyat və incəsənət" qəzeti, 1969, 15 mart; "Əzizim vətən yaxşı...". Sərginin kataloqu. B., 1989.

**İBRAHİM YUSİFOĞLU** (İbrahim Yusif oğlu Y u s i f o v u n ədəbi adı; d.30.9.1954, indiki Şərur r-nunun Axura k.) – müəllim, şair. Azərb.-ın xalq maarifi əlaçısı (1987). Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) filologiya fakültəsini bitirmişdir (1981). 70-ci illərin əvvəllərindən pedaqoji fəaliyyət göstərir. "Araz bayatıları" (1991), "Bu həyat mənimlə yola getmədi" (1997), "Futbolçu, topçu, gopçu" (1998), "Mənim inamımı güllələdilər", "Arxamca boylanan baxışların var" (hər ikisi 1999), "Sulara danışdım yuxularımı" (2000) şer və poema toplularının, "Safdır, müqəddəsdir müəllim ömrü" (1997–98), "Ölüm tanrıdan gələndə" (1999) oçerk kitablarının müəllifidir. "Şərur qönçələri" ədəbi birliyinin rəhbəridir. Azərb. Yazıçılar Birliyinin (1998) və Jurnalistlər Birliyinin (1991) üzvüdür. Nax. MR televiziyasında İ. Y. haqqında "Dağların şair oğlu" adlı film çəkilmişdir (1994).







İbrahimli Fikriyyə

**İBRAHİMLİ** Fikriyyə İbrahim qızı (d. 6.6. 1955, Naxçıvan ş.) – kliniki farmakoloq. Tibb elmləri doktoru (1993), prof (1996). *İ. İ. İbrahimovun* qızıdır. Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir (1978). Naxçıvan ş. psixonevroloji dispanserində həkim-ordinator (1978–81). Azərb. Dövlət Tibb Un-ti nəzdindəki elmi tədqiqat mərkəzində elmi işçi (1982–87) işləmişdir. 1988 ildən həmin mərkəzin patoloji proseslərin modelləşdirilməsi və onların eksperimental terapiyası şöbəsinin müdiri, 1996 ildən isə eyni zamanda Tibb un-tinin kliniki farmakologiya kafedrasının professorudur. Əsas tədqiqatları limfologiya sahəsinə – müxtəlif patoloji proseslər zamanı limfa sistemində baş verən pozuntular və onların aradan qaldırılması, terapiyası yollarının öyrənilməsinə həsr olunmuşdur. 1 monoqrafiyanın, 4 tədris vəsaitinin, 100-dən artıq elmi məqalənin, 7 müəlliflik şəhadətnaməsinin müəllifidir.



İbrahimov Akif

**İBRAHİMOV** Akif İsmayıl oğlu (d. 30.10. 1952, Bakı) – riyaziyyatçı (tətbiqi riyaziyyat). Fizika-riyaziyyat elmləri doktoru (1988). Akad. *İ. Ə. İbrahimovun* oğludur. Azərb. Neft-Kimya İn-tunun (indiki Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini bitirmişdir (1976). Moskvada SSRİ EA (indiki Rusiya EA) Qubkin ad. Neft İn-tunun elmi işçisi, xarici neft şirkətinin əməkdaşı olmuşdur. 2000 ildən ABŞ-ın Texas ştatı un-tinin prof.-dur. Neft sənayesinə dair elmi əsərləri xarici ölkələrdə dərc olunmuşdur.



İbrahimov Aydın

**İBRAHİMOV** Aydın İsmayıl oğlu (d. 27.5. 1949, Bakı) – coğrafiya elmləri doktoru (1991). Akad. *İ. Ə. İbrahimovun* oğludur. Azərb. Dövlət Un-tinin (indiki BDU) geologiya-coğrafiya fakültəsini bitirmişdir (1971). Həmin un-tin xarici ölkələrin iqtisadi coğrafiyası kafedrasının dosenti və müdiri olmuşdur. 1989 ildən Türkiyə un-tlərində professor vəzifəsində çalışır. Xarici ölkələrin, xüsusilə Türkiyənin iqtisadi coğrafiyasına dair tədqiqatların müəllifidir.

Ə s ə r i: Региональная политика развивающихся стран (на примере Турции), Б., 1989.


İbrahimov Hüseyn


İbrahimov İsmayıl


İbrahimov İbrahim

İ.İbrahimovun həlak olduğu Sumqayıt yolunda abidə



**İBRAHİMOV** Hüseyn Məmmədəli oğlu (d. 23.5.1919, indiki Şərur r-nunun Şahtaxtı k.) – yazıçı. Azərb. Respublikasının xalq yazıçısı (1998). Azərb. Dövlət Un-tinin (indiki BDU) jurnalistika fakültəsini bitirmişdir (1958). Əmək fəaliyyətinə 1940 ildə Sədərək kənd orta məktəbində müəllim kimi başlamışdır. Sonralar Azərb. LKGİ Noraşen (indiki Şərur) r-n komitəsinin 1-ci katibi (1941–43) Naxçıvan Vilayət Komitəsinin katibi (1943–47), "Şərq qapısı" qəzetinin redaktor müavini (1947–49), Nax. MSSR Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri (1954–60), "Şərq qapısı" qəzetinin redaktoru (1961–65), Azərb. KP Naxçıvan Vilayət Komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri (1965–70), Nax. MSSR Mədəniyyət naziri (1970–75) olmuşdur. 1980 ildən Azərb. Yazıçılar Birliyi Naxçıvan şöbəsinin məsul katibi idi. Hazırda Naxçıvan Yazıçılar Birliyinin sədridir. İ. tarixi və müasir mövzularda romanların müəllifidir. İlk irihəcmli əsəri olan "Sabahın sorağında" (1966) romanı müəllimlərin həyatından bəhs edir. Romanda mənəvi kamilliyin qələbəsi təsdiq və tərənnüm olunur. "Günəş doğan yerdə" (1976) romanında 1918–19 illərdə Naxçıvanda baş verən hadisələr qələmə alınmışdır. "Bahar yağışı" (1983) romanı müasirlərimizin həyatından bəhs edir. "Əsrin onda biri" (1987) romanında Əcəminin, "Böhtan" (1998) romanında Hüseyn Cavidin, "Ölməz mahnılar" (1963) kino-povestində Üzeyir Hacıbəyovun ömür və sənət yolu canlandırılır. Hekayə ["Gülzar" (1958), "Zərifənin çiçəkləri" (1960), "Şirin xatirə" (1963), "Nəciblik" (1979)] və povest ["Baharın hekayəsi" (1958), "Göyərçinin məhəbbəti" (1964), "Səhv edəndə" (1985), "Qu quşları öləndə oxuyurlar" (1998)] kitabları nəşr edilmişdir. "Torpağın övladları" (1953), "İtirilən sağlıq" (1968) pyesləri tamaşaya qoyulmuşdur. Nax. MSSR Ali Sovetinin (4, 7, 8-ci çağırış) deputatı, Nax. MSSR Ali Sovetinin sədri (1963, 1967) seçilmişdir. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır. Azərb. Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur (1999).

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1974; Seçilmiş əsərləri, B., 1998.

**İBRAHİMOV** İbrahim İsmayıl oğlu (10.10.1928, Naxçıvan ş. – 24.1.1990, Bakı) – kimyaçı. Kimya elmləri doktoru (1983), prof. (1984). M. V. Lomonosov ad. Moskva Dövlət Un-tini (1952) və Azərb. Milli EA Kimya İn-tunun aspiranturasını (1959) bitirmişdir. SSRİ Baş Tikinti Komitəsinin Ural texniki təchizat şöbəsində kimyaçı mühəndis (1955 ildək), Naxçıvan ət kombinatında və şərab trestində kimyaçı mühəndis, laboratoriya müdiri vəzifələrində çalışmışdır (1955–56). 1963–66 illərdə indiki Azərb. Dövlət Neft Akademiyasının Ümumi və qeyri-üzvi kimya kafedrasında assistent, baş müəllim, 1966–74 illərdə Azərb. Milli EA Polimer Materialları İn-tunda böyük elmi işçi, 1974–90 illərdə isə laboratoriya rəhbəri işləmişdir. Tədqiqatları polifunksional karbonil birləşmələrin sintezinə, onların əsasında heterotsiklik birləşmələrin alınmasına, kimyəvi xassələrinin və mümkün praktiki tətbiq sahələrinin öyrənilməsinə həsr edilmişdir. 200-dən çox elmi əsərin, o cümlədən 48 müəlliflik şəhadətnaməsinin müəllifidir. Tehran, Varşava, Moskva, Bakı, Riqa və s. beynəlxalq və ümumittifaq konqres və simpoziumlarında məruzələr etmişdir. Qanlı yanvar faciəsinin (1990) qurbanlarındandır. Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

**İBRAHİMOV** İsmayıl Əli oğlu (d. 31.12.1915, Ordubad ş.) – avtomatika sahəsində alim. Texnika elmləri doktoru (1968), prof. (1964). Azərb. Milli EA akad. (1980; müxbir üzvü 1968). Sosialist Əməyi Qəhrəmanı (1986). Azərb. Respublikasının əməkdar elm xadimi (1981), SSRİ-nin fəxri neftçisi (1985). SSRİ Dövlət mükafatı laureatı (1983). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) energetika fakültəsini bitirmişdir (1941). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır; rabitə taqımı və batalyonunun komandiri olmuşdur. Moskvada nəşr edilən çoxcildlik "XX əsrin əsgərləri" kitabının (c.1) "Böyük Vətən müharibəsinin iştirakçıları – müasir dövrün 200 görkəmli xadimi" bölməsində haqqında məqalə verilmiş 3 azərb.-dan biridir. Azərb. Dövlət Neft Akademiyasının nəzarət-ölçü cihazları (indiki İstehsal proseslərinin avtomatlaşdırılması) kafedrasında müəllim, dosent, prof. və kafedra müdiri (1946–88) işləmiş, 1960–70 və 1978–88 illərdə həmin akademiyanın rektoru olmuşdur. 1970–78 illərdə Azərb. SSR



Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır. Əsas elmi işləri neftayırma, neft-kimya emal qurğu və proseslərinin kompleks avtomatlaşdırılması üzrə sxemlərin işlənib hazırlanması və sənaye istehsalına tətbiqinin nəzəri tədqiqinə aiddir. 140-dan çox elmi əsərin, o cümlədən 17 monoqrafiya və dərsliyin müəllifidir. Yüksək ixtisaslı elmi və mühəndis kadrlarının hazırlanmasında xidməti var. 7-ci (Mexiko, 1967), 9-cu (Tokio, 1975) ümumdünya neft konqreslərində, 13-cü ümumdünya qaz konqresində (London, 1976), Avtomatik İdarəetmə üzrə Beynəlxalq Federasiyanın 5-ci (Paris, 1972), 7-ci (Helsinki, 1978) konqreslərində məruzələr etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin neft bölməsinin elmi-texniki şurasının sədri (1961–88), "Neft və qaz" jurnalının baş redaktoru (1961–70; 1978–88) olmuşdur. Azərb. Milli EA Rəyasət Heyəti nəzdində informatika, hesablama texnikası, avtomatlaşdırma və idarəetmə problemləri üzrə elmi şuranın sədridir.

İ. 1988 ildən Azərb. Uşaq Fondu İdarə Heyətinin sədri, Uşaq Fondları Beynəlxalq Assosiasiyasının vitse-prezidentidir. Azərb. Dövlət Neft Akademiyasının 50 illiyinə həsr olunmuş "Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Neft və Kimya İnstitutunun şanlı 50 illiyi" (A.N. Abbasovla birgə, 1972, rus dilində), 30-cu illərdən dövrümüzədək baş vermiş hadisələri əhatə edən "Dövrüm haqqında ..." (rus və Azərb. dillərində, 1993, 1995), Azərb. Uşaq Fondunun 10 illik fəaliyyətindən bəhs edən "Azərbaycan Uşaq Fondu" (2000) kitabları nəşr olunmuşdur.

Azərb. KP MK-nın (1971–91) və MK Bürosunun (1971–78) üzvü, Azərb. SSR və SSRİ Ali Sovetlərinin deputatı (1963, 1967, 1980, 1985) seçilmişdir. Respublika müharibə və əmək veteranları şurası və MDB ölkələri veteranlar şurasının üzvüdür. Lenin ordeni, Oktyabr İnqilabı ordeni, 3 Qırmızı Əmək Bayrağı ordeni, Qırmızı Ulduz, I və II dərəcəli "Vətən müharibəsi" ordenləri, bir neçə digər orden və medallarla təltif olunmuşdur.

Ə s ə r l ə r i: Nəzarət ölçü cihazları, B., 1952 (İsmayılovla birgə); Avtomatik tənzimləmə nəzəriyyəsinin əsasları və istehsal proseslərinin avtomatlaşdırılması, B., 1972 (şərikli); Элементы и системы пневмоавтоматики, M., 1984 (şərikli), Методы оптимального управления нефтехимическими технологическими процессами. Теория и применне. Б., 1997 (İ.R.Əfəndiyevlə birgə).

*Əd.*: Akademik İsmayıl İbrahimov. Bibilioqrafiya (tərtibçilər M.N.Nuriyev, Ə.Ə.İbrahimov). B., 1995.


İbrahimov Məmmədbağır

**İBRAHİMOV** Məmmədbağır Əli oğlu (1905, Ordubad ş. – 12.12.1979, Bakı) – gigiyenist. Tibb elmləri doktoru (1964), prof. (1965). Azərb. Respublikasının əməkdar elm xadimi (1967). Azərb. Tibb İn-tunun (indiki Tibb Un-ti) stomatologiya fakültəsini bitirmişdir (1930). Bir müddət Azərb.-da işlədikdən sonra Qazaxıstana ezam olunmuş, Cənubi Qazaxıstan vilayət apteklər idarəsinin rəisi, Alma-Ata (indiki Almatı) vilayət səhiyyə şöbəsi müdirinin müavini, Cambul vilayət səhiyyə şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1941 ildən Monqolustanda işləmiş, Monqolustan Xalq Respublikası Səhiyyə nazirinin müşaviri olmuşdur. 1946 ildən Moskvada aspiranturada oxumuş, görkəmli səhiyyə təşkilatçısı N. A. Semaşkonun rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə etdikdən sonra Bakıya qayıtmış, Ə. Əliyev ad. Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda sosial-gigiyena və səhiyyənin təşkili kafedrasının müdiri vəzifəsində çalışmışdır. Tədqiqatları Azərb.-da və Monqolustanda səhiyyənin tarixi və inkişafına həsr olunmuşdur.

Ə s ə r l ə r i: Здравоохранение Монгольской Народной Республики, М., 1963; Здравоохранение Советского Азербайджана, М., 1967.

İbrahimov Namiq



**İBRAHİMOV** Namiq İbrahim oğlu (d. 19.10.1932, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1980). Leninqrad (indiki Sankt-Peterburq) Politexnik İn-tunu fiziki elektronika ixtisası üzrə bitirmişdir (1956). 1971 ildən Azərb. Milli EA Fizika İn-tunda elektrofotoqrafiya laboratoriyasının müdiridir. Talliumun selen, tellur və germaniumda elektrik keçirməsinin və diffuziyasının, selendə molekulyar və üstmolekulyar strukturun yaranması və onun strukturu ilə xassələri arasında qarşılıqlı əlaqənin tədqiqinə dair araşdırmalar aparmışdır. 80-dən çox elmi əsərin müəllifidir. 16 müəlliflik şəhadətnaməsi var. Selenin və tellurun fizikası üzrə I beynəlxalq simpoziumda (Kanada, Monreal, 1967), Avrofizika konfransında (Fransa, Pont-e Musson, 1971) və s. elmi konfranslarda məruzələr etmişdir.

**İQAN-KİT** – Ordubad r-nu ərazisində çay. Düylün çayının (Arazın qolu) sol qolu. 2350 *m* hünd.-dən başlanır. Uz. 11 *km*. Yeraltı sular, qar və yağış suları ilə qidalanır.

**İLANDAĞ** – Culfa r-nu ərazisində, Əlincəçay vadisində dağ. Hünd. 2415 *m*. Vulkan (maqma) püskürməsi nəticəsində yaranmış, andezit-dasit tərkibli süxurlardan təşkil olunmuşdur. Yamacları sıldırımdır. Dağlıq bitki örtüyü yoxsuldur. Kserofit kolluq və quru çöl landşaftı var.

İ.-ın zirvəsinə 3 və ya 4 cığır qalxır. Kırna və Şurud k.-ləri tərəfdən gələn cığırların birləşdiyi yerdə tikinti izləri aydın görünür. Dağ yamacındakı daşları üst-üstə qoymaqla ucaldılmış bu müdafiə qurğusu, görünür, daşların arasına gil, əhəng, palçıq və s. bərkidici məhlul vurulmadığından uçmuşdur. Sağ tərəfdə isə divarı xatırladan hünd. 300–500 *m* olan qayalar ucalır. Burada salamat qalmış divarın–hasarın iç tərəfində 10–12 $m^2$-lik yaşayış binalarının izləri (güman ki, müdafiəçilərin "mənzil qərargahı" olmuşdur) qalmışdır; divar quzey və mərkəzdə bir qat, güneydə isə üç qatdır. Zirvəyə qalxanadək 7 yerdə siklop tikililərinin (q a l a ç a l a r ı n) divar-hasarına (hünd. 10–15 *m*) rast gəlinmişdir. İ.-ın zirvəsində iki haça arasında qalın gil təbəqəsi var. Ocaq yerində gilin içərisindən orta əsrlərə aid saxsı qalıqları aşkar edilmişdir. Müşahidələrdən aydın görünür ki, İ.-da qədim gözətçi məntəqəsi olmuşdur: yaxınlaşan təhlükə barədə gecələr tonqalın işığı, gündüzlər tüstü ilə *Əlincəqalaya*, oradan da Çalxanqala və Şapurqalaya əvvəlcədən xəbər verilirmiş. Etimoloji mənası haqqında bax *İnandağ*.



Əzəməti və möhtəşəmliyi ilə ətrafdakı dağ və təpələrdən seçilən İ. Naxçıvan bölgəsinin yenilməzlik, ucalıq rəmzinə, embleminə çevrilmişdir. Romantik bir əfsanədə bu dağ müzəffər sərkərdənin başından düşən daş-qaşla bəzədilmiş dəbilqəyə bənzədilir. Daha müdrik görünən başqa bir əfsanədə isə İlandağ "Alın dağı" kimi yozulur: Nuhun gəmisinin zərbəsindən ikiyə bölünmüş ləkəsiz geniş alına bənzəyən zirvəsində Naxçıvanın keçmişi və indisi ağ kağızdakı sehrli misra kimi həkk olunmuşdur.

**İLANDAĞ** – Culfa r-nunun Gal k.-ndən şm.-ş.-də, İlandağın ş. yamacında, sıldırım qayalarla əhatə olunmuş orta əsrlərə aid yaşayış yeri. Yerli əhali arasında "Nəbi qalası" da adlandırılır. Kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır (1991). Qalanın ətrafı möhrədən tikilmiş divarlarla əhatə edilmişdir. Mədəni təbəqənin qalınlığı 0,5 *m*-dən 1 *m*-ə çatır. Yerüstü materiallar, əsasən, gil qab qırıqlarından (çəhrayı rəngdə küpə, kasa tipli qablar) ibarətdir. İ. yaşayış yerinin 11–18 əsrlərə aid olması ehtimal edilir.

**İLANDAĞ MİXİ YAZISI** – İlandağda aşkar olunmuş e. ə. 820–810 illərə aid qədim yazı. Mixi yazının mənbəyi ideoqrafik yazı (işarələri, səsləri və hecaları deyil, bütöv sözləri və ya morfemləri əks etdirən yazı növü) olmuşdur. E. ə. 4-cü minilliyin sonundan etibarən şumerlilər müəyyən anlayışları bildirmək üçün daş və ya çiy gil üzərində basma üsulla çəkilmiş mıxabənzər xətlərin kombinasiyalı şəkillərindən (mixi yazının adı da buradandır) istifadə etmişlər. İ. m. y.-ndan məlum olur ki, Urartu çarları İşpuini və onun oğlu Minua dövləti birlikdə idarə etdikləri dövrdə bu əraziyə basqın etmişlər. Yazıda üç şəhərin, ölkənin (yaxud yerin) adı çəkilir və qələbə naminə öz allahlarına qurban gətirilməsi haqqında məlumat verilir. Aşkar olunmuş bu abidə haqqında məlumat ilk dəfə 1989 ildə İtaliya jurnalında dərc olunmuşdur.

**İLDƏGƏZLƏR** – bax *Eldənizlər*.

**İLDƏNİZLƏR** – bax *Eldənizlər*.

**İLDƏNİZLƏR DÖVLƏTİ** – bax *Azərbaycan atabəyləri dövləti*.

**İLXANİLƏR DÖVLƏTİ** – bax *Hülakular dövləti*.

**İLİÇ** – *Şərur* ş.-nin 1964 – 1991 illərdə adı.



**İLİÇ RAYONU** – *Şərur rayonunun* 1964 – 1991 illərdə adı.

**İMADƏDDİN QƏZVİNİ**, Ə b u  M ə h ə m m ə d  Ö m ə r  i b n  M ə h ə m m ə d  ə l - M ə k k i  ə l - Q ə z v i n i (?–?) – qazı. 13 əsrin 2-ci yarısında Naxçıvan qazısı olmuşdur. 1267–68 illərdə Təbrizdə onunla rastlaşmış və haqqında yazmış məşhur ərəb alimi və biblioqrafı *İbn əl-Fuvatinin* məlumatına görə, İ. Q. "qazılar, ədalətli qanunşünaslar və ləyaqətli rəislər nəslindən" idi. Ədəbiyyatı, şer sənətini dərindən bilir və tədris edirdi. Mənbədəki məlumata görə, şəhər hakimi Şəmsəddin Məhəmməd ibn Məhəmməd əl-Cüveyni ədəbiyyat elmini və ərəb müəllifi əl-Həririnin "Məqamat"ını ondan öyrənmişdir.



*İmamquliyeva Fatma*

**İMAMQULİYEVA** Fatma Məhərrəm qızı (d. 15.6.1923, indiki Şahbuz r-nunun Şahbuz k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1950). 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Şahbuz k.-ndəki k-zda sədr, manqa başçısı, Nizami ad. k-zda manqabaşçısı, indiki Şərur r-nu Dəmirçi kənd sovetinin sədri (1950–73), 1973 ildən Nizami ad. k-zda briqadir işləmişdir. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı seçilmişdir. Hazırda fərdi pensiyaçıdır.

**İMAMQULUÇAY** – Şahbuz r-nu ərazisində çay. Şahbuz çayının (Naxçıvançayın qolu) sol qolu. Uz. 9 *km*. Zəngəzur silsiləsinin ətəyindən (2960 *m* hünd.-dən) , bulaqlardan başlanır. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır.

**İMAMZADƏ KOMPLEKSİ** – Naxçıvan ş.-ndə, Araz çayına yaxın sahədə memarlıq abidəsi. 16–17 əsrlərdə formalaşmışdır. İ. k.-nın özəyini planda kvadrat şəkilli, xarici görünüşünü isə kubik formalı qülləvarı türbələrdən gələn dairəvi gövdənin qovuşduğu kompozisiya təşkil edir. Silindrik gövdənin səthi naxçıvanlı memar *Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin* hələ 14 əsrdə tətbiq etdiyi üsulla üfiqi qırmızı bişmiş və şaquli bənövşəyi rəngli kaşılı kərpiclərlə düzülmüş kitabə ilə örtülmüşdür. İ. k.-nə daxil olan binalar bir-biri ilə uyarlıqda olub, bitkin memarlıq ansamblı yaratmışdır. İ. k.-nin ətrafı orta əsr qəbiristanlığıdır; bir hissəsi tikinti işləri zamanı dağılmış, bir hissəsi isə indiyədək qalmaqdadır. Burada bişmiş kərpicdən hörülmüş tağvarı sərdabələrə təsadüf olunmuşdur. Zaman keçdikcə nekropolun yeri dəyişmiş və abidənin yaxınlığındakı təpəyə keçmişdir. Memarlıq kompleksi 1997 ildə əsaslı şəkildə təmir olunaraq yenidən bərpa edilmişdir.

*Əd.:* S a l a m z a d ə Ə. V., M ə m m ə d z a d ə K. M., Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, B., 1965; y e n ə  o n l a r ı n, Arazboyu abidələr, B., 1979.

**İMAMZADƏ TÜRBƏSİ** – Naxçıvan ş.-nin c.-ş. hissəsində *İmamzadə kompleksinə* daxil olan memarlıq abidəsi. Yerli əhali arasında "Köhnəqala" adlanan ərazidədir. Səkkizbucaqlı "soğanvarı" günbəzlə örtülmüş türbəsərdabə bu sahənin keçmişdə əhəmiyyətli məqbərələr yerləşən ərazi olduğunu ehtimal etməyə əsas verir. İ.t. yaxınlığında Naxçıvan ş.-nin antik və orta əsrlərdə də mövcud olmuş ikinci qala divarının qalığı aşkar edilmiş, sənətkarlıq nümunələri tapılmışdır.





**İMANOV** Əhməd Cəfər oğlu (d. 24.5.1948, Naxçıvan ş.) – rejissor, əməkdar incəsənət xadimi (1990). Azərb. Dövlət İncəsənət İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) mədəni-maarif fakültəsini bitirmiş (1969), Moskvada təkmilləşdirmə kurslarında oxumuşdur (1988–89). 1965 ildən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışır; 1976 ildən baş rejissordur. C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, Ə.Haqverdiyev, Anar, Ə.Əylisli, R.İbrahimbəyov və b.-nın əsərlərinin televiziya tamaşalarına quruluş vermişdir.

**İNANDAĞ** – Culfa r-nu ərazisindəki *İlandağın* xalq arasında adı. Şumer mənşəli qədim əfsanəyə görə, Nuh peyğəmbərin gəmisi yolda *Gəmiqayadan* başqa bir dağın da zirvəsinə toxunmuş və onu yarıb keçərkən bərk yırğalanmış, bu zaman Nuh peyğəmbər demişdir: "İnan, dağdır". Ehtimal ki, adı da bu əfsanə ilə bağlıdır. Sonralar İnandağ sözü xalq təfəkküründə İlandağ (*Elandağ*) şəklinə düşmüşdür. İ.-a zirvəsinin formasına görə *Haçadağ* da deyilir.

**İRƏVAN** (R ə v a n, E r i v a n, Y e r e v a n) – orta əsrlərdə və yeni dövrdə (1918 il mayın 29-dək) Azərb. şəhəri. 16 əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır; şəhərin c.-nda, ondan bir qədər aralı *İrəvan qalası* tikilmişdi. Türk tarixçisi *Övliya Çələbi* (17 əsr) yazır: "1407–08 illərdə Teymurun sevimli əmirlərindən biri, tacir Xoca xan Ləhicani İrəvan torpağına qədəm qoydu. O, burada münbit torpaqlar görüb, öz ailə üzvləri ilə burada məskən saldı, çəltikçiliklə məşğul olub günbəgün varlandı və bu şəhəri saldırdı. Sonralar, 1509–10-cu ildə I Şah İsmayıl bu yerdə qala tikməyi vəziri Rəvanqulu xana tapşırdı. O, yeddi il ərzində Zəngi çayının şərq sahilində kərpic və daşdan bir mərtəbəli qala tikdirdi, ona Rəvan adı verdi" (Övliya Çələbi, Səfərnamə, c. 3, M., 1983, səh. 150). Akad. V. V. Bartold yazır: "İrəvan kənd kimi Teymurun vaxtında (14 əsrin sonu) meydana gəlmişdir. 16 əsrdə Şah İsmayılın vaxtında isə şəhərə çevrildi. Elə bu vaxt da öz adını almışdı" (Əsərləri, c. 7, M., 1971, səh. 212). 19 əsrin 1-ci yarısına aid qaynaqlarda İ. haqqında deyilir: "İrəvanın xarici görünüşü İran şəhərlərini xatırladır. Bütün evlər birmərtəbəlidir. Hündür, palçıq divarlarla əhatə olunmuşdur. Küçələr dar, əyri və natəmiz olduğundan şəhər həddindən artıq miskin görünür." Şəhərin mərkəzində dördkünc şəkildə bazar var idi, burada üç karvansara yerləşmişdi. Sayı 138-ə çatan iri-lixırdalı dükanların hamısı bazarda mərkəzləşmişdi; burada memarlıq baxımından sadə, Asiya üslubunda tikilmiş dörd məscid var idi. Ümumiyyətlə, şəhərdə 8 məscid fəaliyyət göstərirdi. Hər məscidin öz mədrəsəsi vardı. Təkcə Hüseynəli xan [1762–83] məscidində 200 şagird təhsil alırdı. *İrəvan xanlığı* Rusiya tərəfindən işğal edildiyi dövrdə şəhərdə 5 min nəfərdən artıq əhali yaşayırdı, milli tərkibinə görə şəhər əhalisinin əksəriyyəti azərb.-lardan ibarətdi. İ.-ı və ərazisini əsrlər boyu türklər, ilk növbədə, azərb. hakimlər idarə etmişlər. Ermənistan ensiklopediyasında tarixçi K.O.Şahxatunyan xronologiya üzrə 1390 ildən 1828 ilədək (438 il) İ. ərazisinə Naxçıvanın azərb.-lı hakimlərinin başçılıq etdiyini xəbər verir. Əmir Səiddən [1390–1410] və ya Çuxursəd bəylərbəyiliyindən başlamış Hüseyn xan və Həsən xan [1807–28] qardaşlarına qədər həmin xanların hakimiyyət dövrlərinin ardıcıl, fasiləsiz verilməsi məlumatın dəqiqliyini sübut edir. Bu məlumatdan bir daha aydın olur ki, İ. orta əsrlərdə Azərb.-ın nüfuz dairəsində olmuş, onun idarəsində azərb.-lar – Naxçıvan hakimləri yaxından iştirak etmişlər. İ.-ın iqtisadiyyatının özəyini sənətkarlıq təşkil edirdi. Bir çox sənət və peşə növləri (dərzilik, papaqçılıq, başmaqçılıq, zərgərlik, sərraclıq, dəmirçi-misgərlik, toxucu-boyaqçılıq, qəssablıq, çörəkçilik, bənnalıq, dülgərlik, şüşəsazlıq, keçəçilik, dabbaqlıq, bəzzazlıq və s.) inkişaf etmişdi.

İ. şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. 1604 ildə I Şah Abbas İ.-ı tutaraq, şəhər əhalisinin bir hissəsini İrana köçürmüşdü. Nadir şahın ölümündən (1747) sonra İ. müstəqil İrəvan xanlığının mərkəzi olmuşdu. İkinci Rusiya–İran müharibəsi (1826–28) dövründə 1827 il oktyabrın 1-də rus qoşunu İrəvan qalasını tutdu. *Türkmənçay müqaviləsinə (1828)* əsasən, şəhər İrəvan xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1828–40 illərdə əhalinin milli tərkibi nəzərə alınmadan yaradılmış Erməni vilayətinin mərkəzi, sonra qəza şəhəri, 1849 ildən isə İrəvan qub.-nın mərkəzi olmuşdur. 19 əsrin 20–30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni ailəsi İ.-da da yerləşdirilmişdi. İ.-ın Tiflis (1902) və Culfa (1908) d.-y. ilə birləşməsi şəhərin iqtisadi həyatının inkişafında mühüm rol oynadı. Şəhər əhalisi köçürülən ermənilərin hesabına sayca artsa da, burada azərb.-lılar əksəriyyət təşkil etməkdə idi. 19 əsrin sonlarından yaradılan millətçi erməni partiyaları ("Daşnaksütyun", "Hnçak" və s.) erməni gənclərini milli şovinizm ruhunda tərbiyə etmək, onları silahlandırmaq, azərb. əhaliyə qarşı silahlı basqınlar təşkil etmək işini genişləndirdilər. 1905 ilin fevralında erməni millətçilərinin təhriki və təqsiri üzündən Bakıda başlamış erməni-azərbaycanlı toqquşmaları tezliklə Naxçıvana və İ.-a da gəlib çıxdı. Mayın 24-də İ.-da milli zəmində baş vermiş erməni-azərbaycanlı toqquşmalarında onlarla azərb. həlak oldu, çoxlu Azərb. kəndləri dağıdıldı və yandırıldı. 1918 ilin mayında Daşnaksütyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918 il mayın 28-də yaradılmış Azərb. Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İ. şəhərini "paytaxtı olmayan" Ermənistan Respublikasına güzəştə getdi.

*Əd.:* Центральный Госархив политических партий и общественных движений Азерб. Республики, Ф. 276, оп. 9, дело 1, л. 47; А в а л о в З., Независимость Грузии в международной политике, Париж,1924, с. 57.

**İRƏVAN XANLIĞI** – 18 əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyiliyi ərazisində yaranmış müstəqil Azərb. feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından c.-q.-ə doğru uzanan ərazini əhatə edirdi. Azərb.-ın şm.-q.-ndə yerləşən bu xanlıq paytaxtı İrəvan ş. olmaqla inzibati cəhətdən naiblərin idarə etdiyi 15 mahala bölünürdü (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Karpi, Abaran, Dərəçiçək, Göyçə). İ. x. 1747–97 illərdə müstəqil dövlət olmuş, 1797–1828 illərdə burada İranın hakimiyyəti bərpa olunmuşdu. Dövlətin başçısı xan idi; xandan sonra vəzir (yaxud baş mirzə), müxtəlif vəzifə daşıyan bəylər (divan bəyləri, sərkərdələr, əmirlər və s.) gəlirdi. Qoşuna xan özü başçılıq edirdi. Əhalisi, əsasən azərbaycanlılardan, qismən erməni və kürd-



İrəvan şəhərinin görünüşü. Səyyahın rəsmi. 1796.




İrəvan şəhərində məscid. Foto. 19 əsr.







İrəvan xanlığının bayrağı. 19 əsrin əvvəli. Azərbaycan Tarixi Muzeyi.

lərdən ibarətdi; əkinçilik, bağçılıq, tərəvəzçilik və maldarlıqla məşğul olurdular. İ. x.-nda dövlət (divan), xalisə (xana və ailə üzvlərinə məxsus), mülk, vəqf və camaat torpaq mülkiyyəti formaları mövcud idi. Kəndlilər onlarca vergi verir və müxtəlif mükəlləfiyyətlər daşıyırdılar. Ağır feodal istismarı nəticəsində xanlıqda kəndli həyəcanları və çıxışları baş verirdi.

18 əsrin 2-ci yarısında yaranmış nisbi sabitlik şəraitində xanlığın iqtisadi həyatında müəyyən canlanma nəzərə çarpsa da, bu, uzun sürmədi. İ. x. Həsənəli xanın dövründə [1756–64] gürcü Kartli-Kaxeti çarlığından asılı vəziyyyətə düşdü, Hüseynəli xanın hakimiyyəti illərində [1764–83] isə xanlıq feodal ara vuruşmaları nəticəsində daha da zəiflədi. Bundan istifadə edən Kartli-Kaxeti çarı II İrakli 20 minlik qoşunla qəflətən hücuma keçərək İrəvan şəhərini işğal etməyə cəhd göstərdi, lakin ciddi müqavimətə rast gəldi, bir çox kəndləri qarət edib, çoxlu əsir və qənimətlə geri döndü; İ. x. Kartli-Kaxeti çarlığı ilə sazişə girməyə məcbur oldu. Georgiyevsk traktatına (1783) əsasən Kartli-Kaxeti çarlığının Rusiya dövlətinin himayəsinə keçməsi İ. x.-nda Rusiyaya və gürcü çarlığına münasibəti xeyli dəyişdirdi. 80-ci illərin sonlarına doğru İ. x. Kartli-Kaxeti çarlığının asılılığından tamamilə xilas oldu. 1795 ildə Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşü zamanı İran qoşununun bir hissəsi İ.x.-na hücum etdi; 35 günlük mühasirədən sonra İrəvan qalası təslim oldu. 1796 ildə general V.Zubovun başçılığı ilə Rusiya qoşununun Cənubi Qafqaza yürüşü zamanı İrəvan hakimi Məhəmməd xan Rusiyanın himayəsinə keçmək istədiyini bildirdi. II Yekaterinanın ölümündən (noyabr, 1796) sonra rus qoşunu Cənubi Qafqaz ərazisini tərk etdi. Ağa Məhəmməd xan Qacar (1796 ildən İran şahı idi) İrəvan xanını Tehrana çağıraraq həbs etdi və ailəsi ilə birgə Qəzvinə göndərdi; İ. x.-nın idarəsi Əliqulu xana tapşırıldı. 1797 ilin sonunda İranın yeni hökmdarı Fətəli şah Məhəmməd xanı həbsdən azad edərək, yenidən İrəvan xanı təyin etdi. Müstəqil siyasət yeritməyə səy göstərən Məhəmməd xan gen. P. Sisianovun komandanlığı altında rus qoşununun İrəvan qalasını mühasirəyə alaraq ələ keçirmək cəhdlərinin heçə endirilməsində xüsusi şücaət və sərkərdəlik məharəti nümayiş etdirmişdi. İ. x. *Gülüstan müqaviləsinə (1813)* görə İranın tərkibinə keçmiş, *Türkmənçay müqaviləsinə (1828)* görə isə Rusiyaya ilhaq edilmişdi. Müharibədən sonra İ. x. ərazisində 420-dən çox kənd (o cümlədən Qırxbulaq mahalında 32, Zəngibasarda 8, Gərnibasarda 48, Dərəkənddə 8, Vedibasarda 33, Saatlıda 5, Talində 35, Sərdərabadda 9, Karpıdə 12, Abaranda 60, Dərəçiçəkdə 33, Göyçədə 90, Dərələyəzdə 46 kənd ) dağıdılmış, 10 minlərlə azərb. əhali məhv edilmişdi (mənşəcə fransız etnoqrafı və tarixçisi İ.İ. Şopen).

*Əd.:* Əliyev F., Həsənov U., İrəvan xanlığı, B., 1997; Петрушевский И. П., Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX в., Л., 1949; Шопен И. И., Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852.

**İRƏVAN QALASI** – orta əsrlərdə qala-şəhər; Səfəvilər dövlətinin banisi I Şah İsmayılın göstərişi ilə 1509–10 illərdə vəzir Rəvanqulu xanın rəhbərliyi ilə Zəngi çayının ş. sahilində inşasına başlanılmış və 7 il ərzində tikintisi başa çatdırılmışdır. Səfəvilər dövlətinin sərhədlərini xarici basqınlardan qorumalı olan qala onu tikdirənin adı ilə "Rəvan qalası" kimi tanınmış, sonralar "Rəvan" sözü dialektdə "İrəvan" kimi işlədilmişdi.

Fransız səyyahı Jan Şarden (17 əsrin 2-ci yarısı) İ.q.-nı müstəqil şəhərə bənzətmişdi. Onun yazdığına görə, qalada 800 ev var idi; əhalisi ancaq azərb.-lardan ibarətdi; ermənilər bura gündüzlər ticarətə gəlir, axşamlar isə onu tərk edirdilər. Qaladaxili şəhərsalma Şərq üslubunda idi; küçələr dar, evlərin divarları hündür olduğuna görə, küçədən evlərin həyətlərini müşahidə etmək mümkün deyildi. Qalada iki, bəzi məlumatlara görə isə dörd məscid vardı. Bunlardan ən qədimi 1510 ildə tikilmişdi, ən möhtəşəmi isə Sərdar sarayının yaxınlığında əsası I Şah Abbas [1587–1629] dövründə qoyulmuş Cümə məscidi idi. Sərdar sarayının təməli qala tikildiyi vaxtdan qoyulsa da, sonrakı illərdə əsaslı surətdə təkmilləşdirilmiş və əsl memarlıq incisinə çevrilmişdi. Uzunmüddətli mühasirəyə davam gətirmək üçün qalanın daxilinə gizli yolla su kəməri çəkilmişdi. Qalanın şm.-nda və c.-nda olmaqla iki böyük darvazası var idi (Şirvan və Təbriz darvazaları). Qala divarları







*İrəvanda Sərdar sarayı.*

*Divarlarında Fətəli Şah Qacarın və Abbas Mirzə Qacarın portretləri (yağlı boya) çəkilmiş güzgülü zal. 19 əsr. Rəssamı Mirzə Qədim İrəvani.*

çox qalın olduğundan, hətta top mərmilərinə belə davam gətirirdi. 1804 ilin iyun–avqustunda gen. P. Sisianovun, 1808 ilin iyun–avqustunda isə gen.-feldmarşal İ. Qudoviçin komandanlığı altında çoxsaylı rus qoşununun İ. q.-nı mühasirəyə alaraq ələ keçirmək cəhdləri qala müdafiəçilərinin müqaviməti sayəsində boşa çıxmışdı. İ. q. uğrundakı döyüşlərdə 1804 ildə İrəvan xanı Məhəmməd xan və mühasirədə olanlara köməyə gəlmiş Naxçıvan xanı Kəlbəli xan, 1808 ildə isə İrəvan xanı Hüseynqulu xan və qardaşı Həsən xan yüksək sərkərdəlik məharəti, xalqı yadelli işğalçılara qarşı mübarizəyə səfərbər etmək bacarığı və şəxsi şücaət nümayiş etdirmişdilər. Bu şanlı qələbələrdən sonra qala əhalisi 20 ilə yaxın müddətdə müharibəsiz həyat sürmüşdü; yalnız ikinci Rusiya–İran müharibəsi (1826–28) gedişində Paskeviçin komandanlığı altında rus qoşunu İ. q. müdafiəçilərinin müqavimətini qıraraq, 1827 il oktyabrın 1-də qalanı ələ keçirə bilmişdi.

İ. q.-nın işğal edilməsi şərəfinə 1827 il noyabrın 8-də Sankt-Peterburqdakı Qış sarayının kilsəsində I Nikolayın iştirakı ilə dua mərasimi keçirildi, İ. q.-nı zəbt edən gen. Paskeviçin titullarına "İrəvan qrafı" titulu da əlavə olundu.

*Əd.:* Bax *İrəvan xanlığı* məqaləsinin ədəbiyyatına.

**İSAYEV** Abasət İsa oğlu (d. 7.10.1948, Ordubad r-nunun Kotam k.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1992). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini bitirmişdir (1971). Azərb. Milli EA Fizika İn-tunun aparıcı elmi işçisidir (1992 ildən). Tədqiqatları yarımkeçirici və dielektriklərin fizikasına həsr olunmuşdur. Selen və onun əsasında olan yarımkeçirici sistemlərdə elektron proseslərinin xüsusiyyətlərini və onların idarə olunması üsullarını müəyyənləşdirmişdir. 50-dən çox elmi məqalənin (20-si xarici ölkələrdə çap olunmuşdur) müəllifidir. 2 müəlliflik şəhadətnaməsi var. Amorf və mikrokristal yarımkeçiricilərə həsr olunmuş beynəlxalq simpoziumda (Sankt-Peterburq, 1998) məruzə etmişdir.



*İsayev Abasət*

**İSAYEV** Heydər İsa oğlu (1936, Naxçıvan ş. – 18.10.1999, Bakı) – ictimai-siyasi və dövlət xadimi. Texnika elmləri namizədi. Azərb. Sənaye İn-tunu (indiki Neft Akademiyası) bitirmişdir (1959). Əmək fəaliyyətinə "Şirvanneft" Neft və Qazçıxarma İdarəsində başlamışdır. Azərb. Dövlət Neft Akademiyasında mühəndis, elmi işçi, fakültə dekanı, prorektor olmuşdur (1962-80). Azərb. SSR Ali və Orta İxtisas Təhsili nazirinin birinci müavini, Azərb. KP 26 Bakı komissarı (indiki Səbail) r-n komitəsinin 1-ci katibi, Azərb. KP MK Elm və təhsil müəssisələri şöbəsinin müdiri, Azərb. SSR Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri, Azərb. KP Naxçıvan Vilayət Komitəsinin 1-ci katibi vəzifələrində çalışmışdır (1980–91). 1991 ildən Azərb. Respublikası İqtisadiyyat Nazirliyində sosial siyasət, sonra isə xüsusi razılıq (lisenziya) verilməsi şöbələrinin rəisi işləmişdir. Azərb. SSR və SSRİ Ali Sovetlərinin deputatı, SSRİ Ali Sovetinin, Azərb. KP MK-nın üzvü seçilmişdir. Qırmızı Əmək Bayrağı və Xalqlar dostluğu ordenləri ilə təltif olunmuşdur.

*İsayev Heydər*




İsayev Mürsəl


İsayeva Mənijə


İsmayılov Əjdər

İsmayılov Əli


**İSAYEV** Mürsəl Məmmədhüseyn oğlu (d. 1.1.1949, indiki Şərur r-nunun Xok k.) – hüquq-mühafizə orqanı işçisi. Polis gen.-mayoru (1995). "SSRİ-nin əməkdar çekisti" (1986), Azərb. Respublikasının "əlaçı polis işçisi". Y. Məmmədəliyev ad. Naxçıvan Dövlət Pedaqoji İn-tunun tarix fakültəsini (1973) və SSRİ DİN Ali Milis Akademiyasının Rostov filialını (1986) bitirmişdir. 1976 ildən Nax. MR DİN sistemində bir sıra məsul vəzifələrdə, o cümlədən 1988 ildən Naxçıvan ş. daxili işlər şöbəsinin rəisi, 1989 ildən Nax. MR DİN cinayət axtarış şöbəsinin rəisi, 1993 ildən Nax. MR Daxili İşlər Nazirinin müavini vəzifələrində çalışmışdır. 1994–2000 illərdə Nax. MR Daxili İşlər naziri olmuşdur. 2001 ildən istefadadır.

**İSAYEVA** Mənijə İsa qızı (d.17.10.1942, Naxçıvan ş.) – geoloq. Geologiya-mineralogiya elmləri doktoru (1990). Azərb. Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini (1964) və Moskva Dövlət Un-tinin aspiranturasını (1977) bitirmişdir. Azərb. Milli EA "Geofizika" mərkəzinin elmi katibi olmuşdur (1978–80). 1980 ildən Azərb. Milli EA Geologiya İn-tunda Yer maqnetizmi və paleomaqnetizm laboratoriyasının rəhbəridir. Əsas tədqiqatları süxurların maqnetizm və paleomaqnetizminin, yer qabığının dərinlik quruluşunun öyrənilməsinə və zəlzələlərin susmaqnit müjdəçilərinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Azərb.-ın kontinental və dəniz kaynozoy çöküntüləri üzrə regional istinad paleomaqnit şkalasını tərtib etmiş, regional və lokal strukturların neftli-qazlı perspektivliyini qiymətləndirmək üçün maqnit və paleomaqnit meyarlarını müəyyən etmişdir. 100-dən çox elmi əsərin müəllifidir. 2 müəllif-lik şəhadətnaməsi var.

**"İSMAYILXAN" HAMAMI** – 18 əsrə aid Azərb. memarlıq abidəsi. Naxçıvan ş.-ndə, Azadlıq prospektində, "Təbriz" mehmanxanasının qarşısındadır. Vaxtilə Naxçıvan ş.-nin içərisindən axan Bazar çayının yaxınlığında inşa edilmişdir. Şərq hamamları üslubunda tikilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə (su çəni) və ocaqxanadan ibarətdir. Kəhriz suları vasitəsilə işləmişdir. Uzun müddət təsərrüfat işləri məqsədilə istifadə olunmuşdur. Hazırda əsaslı təmir və bərpa edilmişdir. Tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

**İSMAYILOV** Cəbi Əziz oğlu (d. 20.3.1949, Şahbuz r-nunun Aşağı Qışlaq k.) – həkim, cərrah. Nax. MR (1991) və Azərb. Respublikasının (1999) əməkdar həkimi, ali dərəcəli cərrah. Azərb. Tibb İn-tunun (indiki Tibb un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1975). 1977 ildən Naxçıvan Respublika Xəstəxanasının cərrahiyyə şöbəsində çalışır. Naxçıvan Dövlət Un-ti Tibb fakültəsinin cərrahiyyə kafedrasının müdiri (2000), 2001 ildən həm də fakültə xəstəxanasının baş həkimidir. 20-yə yaxın elmi məqalənin müəllifidir. Onların bəziləri xaricdə (Türkiyə, İran və s.) dərc olunmuşdur. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır.

**İSMAYILOV** Əjdər Tağı oğlu (d.23.4.1938, indiki Şərur r-nunun Çomaxtur k.) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1990), prof. (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1961). Uzun müddət (1961–77) doğma kəndlərində müəllim, məktəb direktoru işləmişdir. 1977–94 illərdə Naxçıvan Dövlət Un-tinin ədəbiyyat kafedrasında müəllim, baş müəllim, dosent və prof. olmuşdur. Azərb. romantizminə, onun ən böyük nümayəndəsi Hüseyn Cavidin yaradıcılığına, dünya romantizmi, xüsusilə demonizm ənənəsi ilə əlaqəsinə ("Hüseyn Cavidin tarixi dramları", 1975; "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi", 1991), müasir Azərb. ədəbiyyatında, xüsusən C. Cabbarlı və Səməd Vurğun yaradıcılığında Hüseyn Cavid ənənələrinə dair monoqrafik tədqiqatların müəllifidir.

Ə s ə r l ə r i: Dünya romantizm ənənələri və Hüseyn Cavid, B., 1983; Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi, B., 1991.

**İSMAYILOV** Əli Qurbanəli oğlu (1909, indiki Şərur r-nunun Mahmudkənd k. – 5.10.1969, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1950). Şərur r-nundakı H. Aslanov ad. k-zda manqa başçısı (1938-68) işləmişdir. 1949 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Pambıq üzrə "1-ci dərəcəli usta" adına layiq görülmüşdür.

**İSMAYILOV** Fikrət İsmayıl oğlu (d. 3.1. 1935, Naxçıvan ş.) – fizik, ictimai xadim. Fizika-riyaziyyat elmləri doktoru (1995). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1982). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini bitirmişdir (1960). Həmin ildən Azərb. Milli EA Fizika İn-tunda, 1973 ildən isə Elmi-Tədqiqat Tətbiqi Fizika İn-tunun Bakı filialında (indiki Azərb. Milli EA Fotoelektronika İn-tu) baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. Hazırda Fotoelektronika İn-tunda şöbə müdiridir. Elmi araşdırmaları, əsasən, fotoelektronika üçün yarımkeçirici materialların işlənməsinin, onların monokristallarının alınmasının tədqiqinə və tətbiqinə həsr olunmuşdur. 100-dən çox elmi əsərin, 20-yə qədər ixtiranın müəllifidir. Azərb. Respublikası Milli Məclisinin (1-ci çağırış) deputatı, təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyası sədrinin müavini olmuşdur. Yeni Azərb. Partiyası (YAP) Siyasi Şurasının üzvü və Yasamal r-n təşkilatının sədridir (1993 ildən).



**İSMAYILOV** Həbib Ələkbər oğlu (21.2.1906, Naxçıvan ş.–31.12.1966, Bakı) – kinorejissor. Azərb. Respublikası əməkdar incəsənət xadimi (1960). Azərb. Dövlət Teatr İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) rej.-luq və aktyorluq fakültəsini bitirmişdir (1931). Bakı, Gəncə, Mahaçqala teatrlarında bədii rəhbər, rej. və baş rej. işləmişdir (1941–43). 1943 ildən kino sahəsində fəaliyyət göstərmişdir. "Naxçıvan", "Dağıstan MSSR-in 25 illiyi," "Pambıqçılıqda qabaqcıl metodların tətbiqi" və s. sənədli filmlərin, "Ögey ana" (1959; həmin il Kiyevdə keçirilən Ümumittifaq kinofestivalında mükafata layiq görülmüşdür.), "Böyük dayaq" (1963) bədii filmlərinin rej. olmuşdur. Pedaqoji fəaliyyət göstərmişdir.

**İSMAYILOV** Kərim bəy (?–?) – maarif xadimi. Qori Müəllimlər Seminariyasını bitirmiş (1890), 1892–93 illərdə C. Məmmədquluzadənin müdir olduğu Nehrəm məktəbində müəllimlik etmişdir. İrəvan quberniyası xalq məktəbləri müəllimlərinin 1893 ildə Naxçıvan ş.-ndə keçirilmiş qurultayında çıxış etmişdir. Sonralar "Molla Nəsrəddin" jurnalında iştirak etmiş, "Hesab" dərsliyi hazırlamışdır. Onun "Nehrəm kəndi" adlı tarixi-etnoqrafik oçerki Tiflisdə çıxan "Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza" (SMOMPK) məcmuəsində dərc olunmuşdur (1900).


İsmayılov Fikrət


İsmayılov Rza

İsmayılov Yusif


**İSMAYILOV** Rza Paşa oğlu (1905, indiki Şərur r-nunun Qıvraq k. – 28.11.1967, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qıvraq k.-ndəki N. Nərimanov ad. k-zda briqadir (1956–66) işləmişdir. Nax. MSSR Ali Sovetinin (2-ci çağırış) deputatı seçilmişdir.

**İSMAYILOV** Tağı Mahmud oğlu (1885, indiki Şərur r-nunun Çomaxtur k. – 1958, orada) – inqilabçı. İlk gəncliyindən inqilabi görüşlərinə görə Şimali Qafqaza sürgün olunmuşdu. 1902 ildə Naxçıvan–İrəvan d. y.-nun inşasında iştirak etmişdir. Rusiyanın hərbi qüvvə və texnikasını daşımaq üçün çəkiləcək Şahtaxtı–Maku–Bayazit d.y.-nun tikintisində işləyərkən əsgərlər arasında təbliğat işi apararaq, "Şahtaxtı fəhlə, kəndli və əsgər soveti" yaratmışdır (1917). 1918–19 illərdə Şərur mahalına basqın edən daşnaklara qarşı döyüşçü dəstələrinin təşkilatçılarından olmuşdur. 1920 ildə Nuru paşanın komandanlığı ilə Şərur mahalının kəndlərini erməni quldurlarından təmizləyən türk hərbi hissələrinin tərkibində həmkəndlilərindən ibarət döyüşçü dəstəsində vuruşmuşdur. İ. Xok altında daşnak ordusuna son zərbənin endirilməsində göstərdiyi igidliyə görə Nuru paşa tərəfindən "Türk çapı" adlanan silah və qəbzəsi daşlarla bəzədilmiş gümüş xəncərlə təltif edilmişdi. İ.-un komandir olduğu partizan dəstəsi 1920 il, iyulun 28-də Dərələyəz dərəsindən Şərur mahalına hücum edən daşnak quldur dəstəsinə qarşı döyüşlərdə xüsusilə fərqlənmişdi. 1920–22 illərdə İ. Abbasqulu bəy Şadlinskinin "Qırmızı tabor"unun komandirlərindən olmuşdur. Sovet dövründə Şərurda bank və kooperasiya strukturlarının təşkilatçılarından olmuş, 1932 ildən ömrünün sonunadək Şərur r-n taxıl tədarükü idarəsinin rəisi işləmişdir. Orden və medallarla təltif edilmişdir.

**İSMAYILOV** Yusif Abbas oğlu (d. 15.2.1927, indiki Şərur r-nunun Çomaxtur k.) – əmək qabaqcılı, təsərrüfat başçısı. Sosialist Əməyi Qəhrəmanı (1981). Moskvada Ali Həmkarlar İttifaqları Məktəbini bitirmişdir (1959). Şərur r-nunun Maxta kəndi k-zunun

sədri (1961–64), r-n XDS İcraiyyə Komitəsi təşkilat şöbəsinin müdiri (1965-68), "SSRİ-nin 50 illiyi" ad. k-zun sədri (1968-88), Çomaxtur k-zunun sədri (1989–91) işləmişdir. 1980 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur. Nax. MSSR (9-cu çağırış) və Azərb. SSR (10-cu çağırış) Ali Sovetinin deputatı seçilmişdir. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı, Şərəf nişanı ordenləri və medallarla təltif olunmuşdur.

**İŞIQLAR** – Babək r-nunda, Cəhri k.-nin şm.-ş.-ndə orta əsr yaşayış yeri. Təbii cəhətdən əlverişli mövqedə yerləşmişdir. Sah. 46000 $m^2$. Təbii aşınma nəticəsində ərazidə əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin qalınlığı 3–5 *m*-dir. Yaşayış yerinin böyük bir hissəsi (təqr. 16000 $m^2$) kül yığınları ilə örtülmüşdür; içərisində gil qab qırıqlarına təsadüf edilir ki, bu da görünür, dulusçuluq fəaliyyəti ilə bağlıdır. Aşkar olunmuş materiallar iki dövrə bölünür; boz, qara, çəhrayı rəngdə bişirilmiş gil qab qırıqları erkən orta əsrlərə, əsasən çəhrayı rəngdə bişirilmiş, həndəsi və nəbati ornamentlərlə naxışlanmış qablar isə orta əsrlərin inkişaf etmiş mərhələsinə aiddir. Yaşayış yerinin müsəlman qəbirlərindən ibarət nekropolu c.-da, kiçik təpənin üzərində olmuşdur. Qəbirlərin əksəriyyəti dağılmışdır. Ərazinin mərkəzində "Xərtənli bulaq" adlanan çeşmə var. Son vaxtlaradək istifadə edilmiş qədim suvarma şəbəkəsinin izləri qalmaqdadır.

**"İŞIQLI YOL"** – qəzet. Şərur Rayon İcra Hakimiyyətinin orqanı olan *"Şərurun səsi"* qəzetinin 1966–91 illərdə adı.

**İTQIRAN** – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Naxçıvan qəzasının Şahbuz nahiyəsində yaşayış məntəqəsi. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən İ. Nax. MSSR-in 9 kəndi, onların əkin sahələri və otlaqları ilə birlikdə qanunsuz olaraq Ermənistana birləşdirilmişdir. Dərələyəz sıra dağlarının ən hündür yeri olan Mailxan dağının arxasında yerləşən İ.-ın ərazisində müsəlmanlara (azərb.-lılara) məxsus orta əsrlərə (9–17 əsrlər) aid düzbucaqlı formalı evlərin xarabalıqları qalmaqdadır.

**İTQIRAN NEKROPOLU** – *İtqıran* yaşayış məntəqəsinin 1 *km*-liyində orta əsrlərə aid arxeoloji abidə. Qəbirlər qiblə istiqamətindədir. Başdaşılar hündür olub, əksəriyyətinin bir üzündə aypara təsvirləri var. Cızma üsulu ilə daş üzərinə Əli, Həsən, Fatma, Zeynəb və b. adlar həkk edilmişdir. Bu qədim müsəlman qəbiristanlığı ermənilər tərəfindən dağıdılmışdır. Nekropolun 9–17 əsrlərə aid olması ehtimal edilir.

**İZZƏDDİN NAXÇIVANİ**, Əbulfəzl Dövlətşah ibn Səncər Abdulla əs-Sahibi ən-Naxçıvani (?–1300) – ədib, xəttat, riyaziyyatçı. "Tarixi-cahangüşay" ("Dünya fatehinin tarixi") əsərinin müəllifi Əlaəddin Cüveyniyə (1225–1283) hörmət əlaməti olaraq əs-Sahibi nisbəsi qəbul etmişdir. Məşhur ərəb alimi və biblioqrafı *İbn əl-Fuvatinin* verdiyi məlumata görə, İ. N. yaxşı ədəbiyyatçı olmuş və bir sıra əsərlər yazmışdır. Zəngin kitabxanası var idi. 13 əsrin 80–90-cı illərində Bağdadda yaşamışdır. Hillə ş.-nə getmiş və oranın icarədarı olmuşdur. Lakin icarə məbləğini ödəyə bilmədiyindən Luristana (Qərbi İran) getmiş və orada ölmüşdür. Cənazəsi qardaşı Nəsirəddin Qutluğşahın Salmas əl-Farisi ziyarətgahındakı məqbərəsində basdırılmışdır.

*Əd.*: Буниятов З. М., Сведения Камал ад-дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдуллаха ан-Нахичевани, ДАН Аз. ССР, т. XXXIV, 1978, № 5.



# K

**KABLA (KALBA) MUSA** (Musa Məşədi İsmayıl oğlu Musayev; 1856, Naxçıvan ş. – 1924, orada) – xeyriyyəçi. K.M. 19 əsrin sonlarında ailəsi və qohumlarının köməyi ilə icarəyə götürdüyü torpaqlarda təsərrüfat yaradaraq tezliklə varlanmış, xeyriyyəçiliklə məşğul olmuşdur. Sudan qıtlıq çəkən Naxçıvana "Kabla Musa çeşməsi" adı ilə məşhur olan çeşmə çəkdirmişdir. K.M. bu məqsədlə İrandan mütəxəssislər dəvət edərək, 1901 ildə Naxçıvandan 12 *km* aralıdakı Şıxmahmud k. yaxınlığındakı dağlardan şəhərə su çəkdirməyə başlamışdır. Külli vəsait hesabına görülən bu iş 8 ilə başa çatmış, 1909 ildə çeşmənin gözü açılmışdır. Çeşmənin axarında dəyirman da tikdirmişdi. K. M. çox sadə həyat tərzi sürmüş, təsərrüfatlarında çalışanlara daim qayğı göstərmişdir. Özü savadsız olsa da, elm və təhsilə yüksək qiymət vermişdir. B. Bağırovun "Çeşmə suyu duru olur" (Gəncə, 1998) kitabında K. M.-nın həyat və fəaliyyətindən, ailəsindən bəhs edilir.

**KAHA** – Sədərək r-nu ərazisində çay. Çanaqçı çayının sağ qolu. Uz. 15 *km*, hövzəsinin sah. 35 $km^2$-dir. Yağış və qrunt suları ilə qidalanır.

**KAMALƏDDİN NAXÇIVANİ**, Əbu-l Fədail Məhəmməd ibn Əbu-l Fədail ən-Naxçıvani (?–?) – məşhur həkim, sufi (13 əsr). Tibb sahəsində, xüsusilə müayinə və müalicə üzrə zəngin biliyi ilə fərqlənirdi. Azərb.-ın Əhər ş.-ndə dövrünün məşhur sufi filosofu şeyx Qütbəddin əl-Əhərinin yanında təhsil almış və ixtisasını təkmilləşdirmişdir. K. N. haqqında məlumat verən məşhur ərəb alimi və biblioqrafı *İbn əl-Fuvati* 1260 ildə Əhərdə onunla birlikdə xidmətdə olduğunu, Qütbəddin əl-Əhərinin zaviyəsində yaşadığını qeyd etmişdir. *İbn əl-Fuvati K. N.*-nin həkimlik qabiliyyəti ilə yanaşı, insani keyfiyyətlərini də yüksək qiymətləndirmişdir.

**KAMALƏDDİN NAXÇIVANİ**, ibn Məhəmməd ibn Hinduşah ibn Səncər ibn Abdulla-ən-Naxçıvani (?–?) – katib (14 əsr). Atası *Məhəmməd Naxçıvaninin* "Sihah əl-fors" lüğətinin Əfqanıstan nüsxəsinin K. N. tərəfindən köçürüldüyü güman edilir. Əlyazmanın sonunda onun "Mövlana Məhəmmədin oğlu Kamaləddinin əli ilə yazıldı" sözlərinin göstərilməsi bunu söyləməyə əsas verir.

**KARÇEVAN** – inzibati-ərazi bölgüsünə əsasən vaxtilə Ordubad qəzasına daxil olmuş kənd. Bax *Qorçevan*.

**KARQAYA** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Biləv k.-ndən 2 *km* ş.-dədir. Hünd. 1372 *m*. Günbəzvarı formadadır.

**KARVANSARA MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, Gömür k.-ndən 7 *km* şm.-ş.-də, dəniz səviyyəsindən 2260 *m* hünd.-dədir. İki bulaq fəaliyyət göstərir. Muxtar respublika ərazisində ikinci hidrogen-sulfidli bulaqdır. Gömürçayın mənbəyində Neogen çöküntülərindən çıxır. Hidrogen-sulfidin miqdarı 600 *mq/l*-ə qədərdir.

Balneoloji tərkibi:

$$H_2S\,600\,mq/l\ \ M\,1{,}4\,\frac{SO_4\,78\,HCO_3\,21}{Ca58\,(Na+K)21\,Mg21}\cdot pH\,8{,}0\ \ D\,50\,m^3/gün\ \ T\,80^\circ C$$

Ultra bərk qatılığa malik, zəif minerallaşmış, sulfatlı-hidrokarbonatlı kalsiumlu-natriumlu-maqneziumlu soyuq sudur. Müalicəvi əhəmiyyətə malikdir.

**KAZIM QARABƏKİR PAŞA** (1882, İstanbul – 1948, orada) – Türkiyənin görkəmli hərbi

*Kazım Qarabəkir Paşa*





Kazım Qarabəkir Paşa Məscidi. 1999. Naxçıvan şəhəri.

və dövlət xadimi, *Atatürkün* yaxın silahdaşlarından biri. Ali hərbi təhsil almış. Balkan və Birinci dünya müharibələrində iştirak etmişdir. Hərbi sahədə xidmətlərinə görə 1918 ildə diviziya generalı, sonra isə ordu generalı rütbəsinə yüksəlmiş, Paşa fəxri tituluna layiq görülmüşdür. K.Q.P. Azərb.-ın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafiəsi Osmanlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuşdu; K.Q.P.-nın qərargahı 1918 il avqustun 7-də Naxçıvan ş.-ndə qurulmuşdu. Naxçıvanı türk dünyasına açılan "Şərq qapısı" adlandıran K. Q. P.-nın komandanlıq etdiyi türk qoşun hissələri Naxçıvan mahalını erməni silahlı dəstələrinin Zəngəzur və s. yerlərdən etdikləri hücumlardan qətiyyətlə qoruya bilmişdi. *Mudros barışığının (1918)* Osmanlı ordu hissələrinin Qafqazdan, o cümlədən Azərb.-dan çəkilməsini nəzərdə tutan 11-ci maddəsinə əsasən K.Q.P. da Naxçıvanı tərk etmişdir. K.Q.P. Türkiyənin istiqlal savaşında (1918–23) fəal iştirak etmiş, Şərq cəbhəsinin komandanı kimi bir sıra əzəli türk torpaqlarının geri qaytarılması, daşnakların sülh bağlamağa məcbur edilməsi sahəsində əvəzsiz xidmətlərinə görə "İstiqlal" medalına layiq görülmüşdü. 1920–21 illərdə Azərb.-da baş verən hadisələrlə daim yaxından maraqlanan K.Q.P. Qars konfransında (26.9. – 13.10.1921) onun ərazi bütövlüyünün qorunub saxlanması üçün olduqca səmərəli diplomatik fəaliyyət göstərmişdi. Onun da imzaladığı *Qars müqaviləsinin (1921)* 5-ci maddəsinə və 3-cü əlavəsinə əsasən, Naxçıvan bölgəsinin Azərb.-ın himayəsi altında muxtar ərazi kimi təşkil edilməsi dövlətlərarası səviyyədə razılaşdırıldı. Türk xalqının istiqlal mücadiləsi başa çatdıqdan az sonra ordudan tərxis olunan K.Q.P. millət vəkili kimi fəaliyyət göstərmiş, 1946 ildə Türkiyə Böyük Millət Məclisinin başçısı seçilmişdi. K.Q.P.-nın şərəfinə Naxçıvan ş.-ndə memarlıq abidəsi – məscid inşa edilmişdir (1999). Yazıçı Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" tarixi-sənədli romanı (B., 2001; ön sözün müəllifi tarix elmləri doktoru İsmayıl Hacıyev) görkəmli sərkərdənin həyat və döyüş yolundan, eləcə də 1918–20 illərdə Naxçıvanda baş vermiş hadisələrdən, Naxçıvan torpaqlarının erməni təcavüzündən qorunmasında K. Q. P.-nın xidmətlərindən bəhs edir.

**KAZIM QARABƏKİR PAŞA MƏSCİDİ** – ibadətgah və memarlıq abidəsi. Naxçıvan ş.-ndədir. 1918–19 illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsində böyük şücaət və mərdlik göstərmiş, 1921 il Qars müqaviləsini imzalamış, Mustafa Kamal Atatürkün silahdaşı, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanın şərəfinə Türkiyə Diyanət İşləri Vəqfi tərəfindən inşa edilmişdir. Açılışı 1999 il oktyabrın 13-də olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev, Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir abidənin açılış mərasimində çıxış etmişlər.

Kazım Ziya



**KAZIM ZİYA** (K a z ı m z a d ə Kazım Cəfər oğlunun təxəllüsü; 21.3.1896, indiki Ordubad r-nunun Yuxarı Əylis k. – 20.11.1956, Bakı) – aktyor. Azərb. Respublikasının xalq artisti (1943). Aktyorluq fəaliyyətinə 1916 ildə Bakıda başlamışdır. 1920—38 illərdə Azərb. Milli Dram Teatrı, Bakı Türk İşçi Teatrı, İrəvan və Tiflis Azərb. teatrlarında oynadığı Arif, Dəli dərviş ("İblis", "Şeyx Sənan",



H. Cavid), Şeyx Nəsrullah, Səməd Vahid ("Ölülər", "Anamın kitabı", C. Məmmədquluzadə), Rayçaran ("Hind qızı", Ə. Hamid) və s. rollar ona geniş şöhrət qazandırmışdır. Yaradıcılığının yetkin dövrü1938 ildən fəaliyyət göstərdiyi Azərb. Milli Dram Teatrı ilə bağlı olmuşdur. K. Z. bu teatrın səhnəsində Söhbət, Vaqif ("Xanlar", "Vaqif", S. Vurğun), Xaspolad, İmamyar ("Oqtay Eloğlu", "Yaşar", C. Cabbarlı,), Usta Segah ("Xoşbəxtlər", S. Rəhman), Tomson ("Şərqin səhəri", Ə. Məmmədxanlı) və s. yaddaqalan obrazlar yaratmışdır. Kinofilmlərə ("Bismillah", "Səbuhi", "Fətəli xan" və s.) çəkilmişdir. Bədii qiraət ustası kimi də tanınmışdır. K. Z. 1939 ildən Bakı Teatr Texnikumunda (sonralar Azərb. Teatr İn-tu; indiki Mədəniyyət və İncəsənət Un-ti) dərs demişdir (1945 ildən dosent). "Canlı meyit" (L. Tolstoy), "Müfəttiş" (N. Qoqol), "Cəmiyyət sütunları" (H. İbsen), "İkinci cəbhə arxasında" (V. Sobko), "Qanlı qala" (Düma-ata) və s. pyesləri Azərb. dilinə tərcümə etmişdir.

Ə s ə r i: Səhnə dili, B., 1949.

Əd.: K a z ı m o v T., Kazım Ziya, B., 1968.



Kazım Ziya Arif "İblis" (H.Cavid) rolunda.



Kazımov Əli

**KAZIMOV** Əli İmran oğlu (d.17.2.1956, Ordubad r-nunun Nürgüt k.) – hərbi xadim, gen.-mayor (1998). Xəzər Ali Hərbi-Dəniz Məktəbini (Bakı) bitirdikdən (1978) sonra Şimal Donanmasına göndərilmiş, on bir il müxtəlif vəzifələrdə (atom sualtı raket kreyserində qrup komandiri, əlahiddə gəmilər divizionu komandirinin müavini və gəmi komandiri) xidmət etmişdir. 1989–92 illərdə Leninqrad (indiki Sankt-Peterburq) Arxa Cəbhə və Nəqliyyat Hərbi Akademiyasında təhsil almışdır. 1992 ilin sentyabrından 1993 ilin dekabrınadək Azərb. Respublikası Hərbi Dəniz Qüvvələri qərargahının təşkilat-səfərbərlik və komplektləşdirmə bölməsi rəisi, qərargah rəisinin müavini vəzifələrində çalışmışdır. Ermənistanın Azərb. Respublikasına təcavüzünün güclənməsi ilə əlaqədar K. 1993 ilin dekabr ayında motoatıcı briqada komandirinin arxa cəbhə üzrə müavini təyin olunmuş və atəşkəs elan edilənədək (1994, 12 may) Ağdam və Füzuli bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994 ilin avqustundan 1995 ilin iyulunadək Bakı Ali Hərbi-Dəniz Məktəbində kafedra rəisi olmuş, 1995 ilin iyulunda Azərb. Respublikası Müdafiə Nazirliyinin Təşkilat-Səfərbərlik İdarəsinin rəis müavini təyin edilmişdir. 1995 ilin oktyabrından həmin idarənin rəisi – Baş qərargah rəisinin müavinidir.

Kazımzadə Aydın



**KAZIMZADƏ** Aydın Həsən oğlu (d.8.8.1950, Ordubad ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1987), prof. (1988). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini bitirmişdir. 1973 ildən BDU-nun yarımkeçiricilər fizikası kafedrasında çalışır. 1996 ildən həmin kafedranın müdiridir. Elmi fəaliyyəti, əsasən, mürəkkəb yarımkeçiricilərdə və yarımkeçirici diod quruluşlarında elektron proseslərinin tədqiqi ilə bağlıdır. Yerli və xarici mətbuatda dərc edilmiş 180 elmi məqalənin müəllifidir. Bir sıra beynəlxalq elmi məclislərdə (Almaniya, 1995; İngiltərə, 1997 və s.) məruzə etmişdir. Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü (1995), Amerika Milli Coğrafiya Cəmiyyətinin üzvü (1996) seçilmişdir. Beynəlxalq Elm Fondunun mükafatına layiq görülmüşdür.

**KEÇƏL ÇƏRKƏZ DAĞI** – Culfa r-nu ərazisində dağ. Dağüstü silsilənin şm.-ş. yamacında, Kırna k.-ndən 3 *km* c.-ş.-dədir. Hünd. 1360 *m*.

**KEÇƏLDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin ən yüksək zirvələrindən biri. Naxçıvançayın mənbə hissəsindədir. Hünd. 3118 *m*. Pliosenin vulkan lavalarından



təşkil olunmuşdur. Alp çəmənləri var. Sürüşmə olur. Q. yamacı sıldırımdır.

K. yaylaqlarında Tunc dövrünə və orta əsrlərə aid bir sıra qiymətli arxeoloji abidələr, siklop tikililəri, istehkamlar, torpaq və daş qutu qəbirlər, kurqanlar aşkar olunub öyrənilmişdir. Qəbiristandakı daş sənduqə və qoç fiqurlarının bəzisinin üzərində dairəvi bəzəklər və arəbcə kitabələr var.

**KEÇƏLDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2740 *m*. Alt Pliosen yaşlı püskürmə mərkəzidir. Günbəzvarı formadadır. Alp çəmənləri var. Yaylaqdır.

**KEÇƏLTƏPƏ** – Babək r-nu ərazisində dağ. Arazın sol sahilində, Naxçıvan ş.-ndən 7 *km* q.-dədir. Hünd. 818 *m*.

**KEÇİLİ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-da, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1611 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, rabitə şöbəsi var. Yaxınlığında kiçik dağ çayının sağ sahilində erkən orta əsrlərə aid *Kolluq* yaşayış yeri qeydə alınmışdır.

**KEÇİLİ** – Şahbuz r-nunda, eyniadlı kəndin ş.-ndə orta əsrlərə aid yaşayış yeri. Sah. 1400 $m^2$. Daşdan inşa edilmiş dördbucaqlı planlı otaqların qapı yerləri izlənir. Evin ş. tərəfində badlardan hörülmüş və yaxşı bişirilmiş təndir qalığı aşkar edilmişdir. Yerüstü tədqiqatlar nəticəsində xeyli miqdarda şirsiz və şirli saxsı məmulatı (küp, küpə, qazan, qapaq, səhəng tipli qablar), tikinti materialları, çıraq, dəmir əşya qalığı toplanmışdır. Yaşayış yerinin 9–13 əsrlərə aid olması ehtimal edilir.

**KEÇİLİLƏR** – qədim türk tayfası. Mənşəcə oğuzların kayı (q a y ı) tayfasından idilər. 11 əsrdə Səlcuq oğuzlarının tərkibində Azərb.-a gəlmişlər. Orta əsrlərdə Arazın sağ sahilində (indiki Cənubi Azərb.-da) yaşamış K. Səfəvilər dövründə Naxçıvanda məskunlaşaraq kəngərlilərlə qaynayıb-qarışmışlar. Şahbuz r-nundakı Keçili k.-nin adı *K.-lə* bağlıdır.

**KEŞTAZ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Arpaçayın sağ sahilində, düzənlikdədir. Əh. 802 nəfər (2000); heyvandarlıq, yemçilik, əkinçilik, taxılçılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var. Kənd telefonlaşdırılmışdır.

**KƏBLƏ ƏZİZ MİNERAL SU YATAĞI** – Babək r-nu ərazisində, Cəhri k.-ndən 5 *km* şm.-dadır (bax *Cəhri mineral su yatağı*).

**KƏCLİ** – kəngərli tayfalarının bir qoluna mənsub nəsil. Araz çayından c.-dakı torpaqlarda yaşayırdılar. Nadir şahın hakimiyyəti dövründə [1736–47] nəsil rəisi (Əbülcəm) K.-lər arasında şah ordusu üçün qoşun toplayırdı. Nadir şahın ölümündən sonra Qarabağ hakimi olmuş Azad xan Əfqanın K.-lərdən döyüşçü dəstəsi saxladığı məlumdur. K.-lər tədricən əkinçiliklə məşğul olmağa və oturaq həyat tərzinə keçməyə başlamışdı. Lakin kəngərli bəyləri İran hökmdarına daha layiqli xidmət göstərmək üçün tayfalarının bu qolunun torpağa tam bağlanmalarına deyil, elat – yarımköçəri olmalarına çalışırdılar ki, zərurət zamanı əskəri xidmətə cəlb olunsunlar.

**KƏHRİZ** – Şahbuz r-nunda Mahmudoba k.-nin c.-q. qurtaracağında, quru çay vadisinin sağ sahilində erkən orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 4500 $m^2$. Abidənin saxlanmış hissəsindən daş tikinti qalıqlarına, çaydaşından hazırlanmış dən daşlarına təsadüf olunmuşdur. Quru çay vadisinin əmələ gətirdiyi yarğanda mədəni təbəqənin əlamətləri izlənir. Mədəni təbəqə kül yığını, heyvan sümükləri və gil qab qırıqlarından ibarətdir. Qazıntı zamanı çəhrayı rəngli gildən hazırlanmış dairəvi formalı təndir yeri aşkar olunmuşdur. Təndirin içərisi küldən təmizlənərkən çəhrayı rəngli gil qab və bad qırıqları, qaramal sümükləri tapılmışdır. K. yaşayış yerinin yaxınlığında, vadinin o tayında orta əsr müsəlman qəbiristanlığı var. Abidənin 3–7 əsrlərə aid olması ehtimal edilir.



**KƏHRİZ** – qrunt sularını toplamaq və yer səthinə çıxarmaq üçün yeraltı hidrotexniki qurğu. Maili lağım (hünd. 1,2–1,4 *m*, eni 0,6–0,8 *m*) şəbəkəsindən ibarətdir. K. lağımları bir-birilə şaquli quyular vasitəsilə birləşdirilir. K.-ı peşəkar kankanlar qazır. Əvvəlcə baş quyu (g ü m a n a q u y u s u), sonra isə qalan quyular qazılır. K. lağımı daş və ya bişmiş kərpiclə tağbəndvarı hörülür. K. su mənbəyi kimi minillər boyu məişət və təsərrüfatda böyük əhəmiyyət kəsb etmişdir. Əhalini içməli su ilə təmin edən kəhrizlərdən dəyirmanları işlətmək, əkinləri, bağ və bostanları suvarmaq üçün, habelə soyuducu kimi istifadə etmiş, yay zamanı içərisində üzüm, yemiş, qarpız, ət-süd məhsulları və s. saxlamışlar.

K. Yaxın Şərq, Orta Asiya və Azərb. üçün daha səciyyəvidir. Arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, Azərb.-da K. sistemi eramızdan əvvəl 1-ci yüzillikdən mövcuddur. Onlardan Təbriz, Zəncan, Gəncə, Qarabağ, Naxçıvan, Ordubad və Bakıda geniş istifadə edilmişdir. İran tarixçisi Həmdullah Qəzvini (14 əsr) Azərb.-ın suvarma sistemindən danışarkən Təbrizdə və onun ətrafında 900 K. olduğunu göstərir. Orta əsr Şahbuz yaşayış yerindən vaxtilə Naxçıvan ş.-nin su təchizatında mühüm rol oynamış K. bulaqlarının qalıqları aşkara çıxarılmışdır. 19 əsrin sonlarında Ordubadda 40-a yaxın K. olmuşdur. K. suyu təmiz və safdır; fəsillərdən asılı olmayaraq müntəzəm su verir. 20 əsrin əvvəlində Nax. MR ərazisində 407 K. qeydə alınmışdı ki, bu da Azərb.-dakı bütün K.-ların (812) yarısına bərabərdir. Lakin onların bir qismi baxımsızlıq üzündən sıradan çıxmışdır. Hazırda 353 K. fəaliyyətdədir; 151-i Şərur, 80-i Babək, 71-i Ordubad, 28-i Culfa, 8-i Şahbuz r-nlarında, 15-i isə Naxçıvan ş.-dədir. Bu hidrotexniki qurğularda quyuların sayı 3671-ə, tunellərin ümumi uz. 142362 *m*-ə, ümumi su sərfi isə 2003 *l/san.* çatır. Mövcud K.-lərin suyu ilə 1800 *ha*-dan artıq əkin sahəsini su ilə təmin etmək mümkündür.



Kəhriz quyusu. Naxçıvan şəhəri.

*Əd.:* Q u l i y e v Ş., Azərbaycan kəhrizləri. "Elm və həyat" jurn., 1972, № 10; B a b a y e v S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999; Q u l i y e v Ə., Naxçıvan Muxtar Respublikasında kəhrizlərin vəziyyəti və onlardan səmərəli istifadə yolları. Beynəlxalq simpozium materialları, Naxçıvan, 2000. Р у с т а м о в Я. А. Этнографические данные о кягризной системе водоснабжения в Азербайджане в XIX – начале XX вв., М., 1964.

**KƏLBƏLİ XAN NAXÇIVANSKİ** (?–1883) – hərbi xadim. Gen.-mayor. Bax *Naxçıvanski Kəlbəli xan*.

**KƏLBƏLİ XAN KƏNGƏRLİ** (?, Naxçıvan – 1823, Təbriz) – Naxçıvan xanı. Ehsan xan, Nəzərəli bəy, Şeyxəli (Şıxəli) bəy və Lütfəli Sultan Kəngərlilərin atasıdır. Rusiyadan hərbi yardım istədiyi üçün 6 il Tehranda həbsdə saxlanılmış, gözünün biri çıxardılmışdı. Fətəli şah hakimiyyətə gəldikdən sonra İrəvan xanlığında yaşamışdı. İran vəliəhdi və sərkərdəsi Abbas Mirzə tərəfindən Naxçıvana vali təyin olunan K. x. K. İran hökumətinə xidmət etmək istəmədiyindən Məkkəyə ziyarət bəhanəsi ilə yerinə oğlu Ehsan xanı qoyub hakimiyyətdən uzaqlaşmışdır.

Kəlbəliyev Faiq



**KƏLBƏLİYEV** Faiq İsfəndiyar oğlu (d.17.2.1937, indiki Babək r-nunun Şəkərabad k.) – energetik. Texnika elmləri doktoru (1985), prof. (1987). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) energetika fakültəsini (1959), keçmiş SSRİ EA Energetika İn-tunun



Kəlbəliyev Qüdrət

aspiranturasını (1964) bitirmişdir. Azərb. Milli EA Energetika İn-tunda baş elmi işçi olmuşdur (1965–68). 1968 ildən Azərb. Dövlət Neft Akademiyasında çalışır. 1983 ildən buxar və qaz turbinləri və istilik elektrik stansiyaları kafedrasının müdiridir. Tədqiqatları maddələrin kritikdən yüksək parametrlərində işləyən qurğularda istilik mübadiləsinin və temperatur rejimlərinin öyrənilməsinə həsr olunmuşdur. Bu sahədə elmi məktəbin yaradıcısıdır. 100-ə yaxın elmi-metodik əsərin, o cümlədən 10-dan çox dərslik və dərs vəsaitinin müəllifidir. Elmi məqalələri müxtəlif nüfuzlu jurnallarda dərc edilmişdir. Elmi məclislərdə məruzələr etmişdir.

**KƏLBƏLİYEV** Qüdrət İsfəndiyar oğlu (d.13.11.1946, indiki Babək r-nunun Şəkərabad k.) – kimyaçı. Kimya elmləri doktoru (1987), prof. (1993). Azərb. Milli EA m. üzvü (2001). Azərb. Neft-Kimya İn-tunun (indiki Neft Akademiyası) neft mexanikası fakültəsini bitirdikdən (1969) sonra Sumqayıtda Dövlət Xlor Sənaye Layihə İn-tunda texnik və mühəndis (1969–71), Neft-Kimya Avtomatlaşdırma və Layihələşdirmə İn-tunda mühəndis (1971–76), Azərb. Milli EA M. F. Nağıyev ad. Kimya Texnologiyasının Nəzəri Problemləri İn-tunda mühəndis, kiçik və böyük elmi işçi (1976–88) vəzifələrində çalışmışdır. 1988 ildən həmin in-tda istilik və kütlə mübadiləsi proseslərinin nəzəriyyəsi laboratoriyasının rəhbəridir. Tədqiqatları kimya texnologiyası proseslərinin optimallaşdırılması metodlarına həsr olunmuşdur. K.-in rəhbərliyi ilə yaradılmış bərk fazanın çökün-tüsü ilə əlaqələnən qeyri-stasionar çoxfazalı sistemlərdə istilik, kütlə mübadiləsi və hidrodinamikanın kimya texnologiyasında müstəsna əhəmiyyəti vardır. Elmi tədqiqat işlərinin nəticələri 150 elmi əsərdə, bir neçə monoqrafiyada, 6 müəlliflik şəhadətnaməsində əksini tapmışdır. Beynəlxalq konfrans və simpoziumlarda məruzələr etmişdir.

**KƏLƏK** – ənənəvi su nəqliyyatı vasitəsi, ibtidai qayıq növü. Hazırda tamamilə izi itmiş xalq nəqliyyat vasitəsinin bu növü yalnız Naxçıvan bölgəsi üçün səciyyəvi idi. 20 əsrin əvvəllərinədək burada yayılmış *pələ* adlı nəqliyyat vasitəsi ilə eyni üsulla hazırlanırdı. K. həcmcə daha böyük və kvadratşəkilli olur, tuluqların sayı 10-12-yə (bəzən daha çox) ça-



tırdı. Çən vasitəsilə hərəkətə gətirilirdi. 2–2,5 tona yaxın yük götürə bilən K. qayıqlar üzərində qurulmuş iri bərələr yaranana qədər yeganə nəqliyyat vasitəsi olmuşdur. 20 əsrin əvvəllərinə qədər Araz çayı üzərindəki Abbasabad, Bulqan və s. keçidlərdə istifadə edilmişdir.

*Əd.:* K ə r i m o v T. M., Naxçıvan MR-in ənənəvi nəqliyyat vasitələri haqqında, Naxçıvan Dövlət Un-tinin Elmi əsərləri, 2000, № 7.

**KƏLƏKİ** – Ordubad r-nunda kənd. Unus bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 45 *km* şm.-ş.-də, Ordubad–Unus avtomobil yolunun üstündədir. Əh. 442 nəfər (2000); bağçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**KƏLƏKİ KÖRPÜSÜ** – Ordubad r-nunun Kələki k. ərazisində, Vənəndçayın üzərində, Dəstə–Dırnıs–Rumus avtomobil yolunun 21 *km*-liyindədir. İki aşırımlıdır. Uz. 30 paqonometr. 19 əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Milli memarlıq simasını və möhkəmliyini qoruyub saxlamışdır.

1998 ildə bərpa edilmiş və yenidən qurulmuşdur. K. k. vasitəsilə Ordubad r-nunun Pəzməri, Unus, Kələki k.-lərinin Dırnıs–Vənənd yolu ilə magistral yola çıxışı təmin olunmuşdur.





**KƏLƏKİ QIZIL TƏZAHÜRÜ** – Ordubad r-nu ərazisində, Kələki k.-ndən 300 *m* ş.-də, dəniz səviyyəsindən 1450–1550 *m* hünd.-dədir. Geoloji quruluşunda Orta Eosenin vulkanogen süxurları, diorit-porfirit intruziyası, həmçinin diorit-porfirit daykaları iştirak edir. K. q. t. Kilit-Kələki-Qaradərə pozulması ilə əlaqədardır. Törəmə kvarsitlərlə diorit-porfirit intruziyasının şm.-ş. təmasında antiklinal qırışıqlığın tağ hissəsini əhatə edir. Filizləşmə damar və damar zonası tiplidir. Xırda dispers halında qızıl saxlayan damar və damar zonaları 300–3200 şm.-q. istiqamətində (qalınlıqları 0,2–1,5 *m*) 200–1000 *m* məsafədə izlənilir. Hematitləşmə və kvarslaşma olan sahələrdə qızılın miqdarı yüksəkdir. Əsas filiz mineralları: pirit, hematit, xalkopirit, misin törəmə mineralları, xırda dispersiyalı qızıl. Tekstur əlamətlərinə görə filizlər zolaqvarı tiplidir.

**KƏLƏKLİ I** – Şahbuz r-nunda, Yuxarı Remeşin k. yaxınlığında, dərənin içərisində orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 1250 $m^2$. Hündür təpənin yamacında yerləşərək, c.-ş. tərəfdən düzənlik sahə, şm.-ş.-dən isə azsulu dağ çayı ilə sərhədlənir. Tikinti binaları, əsasən, daşdan olub güclü dağıntıya məruz qalmışdır. Arxeoloji axtarışlar zamanı çəhrayı rəngli gil qab qırıqları və saxsı məmulatı tapılmışdır. Yaxınlığında, çayın o biri tayında nekropol var. Yaşayış yeri 5–8 əsrlərə aid edilir.

**KƏLƏKLİ II** – Şahbuz r-nunda Aşağı və Yuxarı Qışlaq k.-ləri arasında orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 41500 $m^2$. Hər tərəfdən dərin dərələrlə əhatə olunmuş dağın yamacındadır. Yaşayış yerinin əsas hissəsi traktorla kürənərək terraslaşmış və əkin sahəsi kimi istifadə edilmişdir. Yerüstü materiallar, əsasən, çəhrayı və boz rəngdə bişirilmiş gil qab (küpə, bərni, kasa, çölmək tipli qablar və s.) qırıqları və s.-dən ibarətdir. Yaşayış yerinin yaxınlığında pir, həmçinin məbəd yeri (hazırda tamamilə dağılmışdır) var. Yaşayış yeri 8–13 əsrlərə aid edilir.

*Əd.:* N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B., Şahbuz bölgəsinin arxeoloji abidələri, B., 1992.

**KƏLƏNTƏR-DİZƏ** – Ordubad r-nunda kənd. Aza bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 21 *km* şm.-da, Ordubad–Naxçıvan avtomobil yolunun kənarındadır. Əh. 226 nəfər (2000). Klub, kitabxana, tibb məntəqəsi var.

**KƏLFİRLİLƏR** – türk tayfası. Kəngərlilərdən (bax *Kəngərlər*) olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində kəlfirli nəslinin də adı çəkilir.



Kəmalə

**KƏMALƏ** (tam adı və soyadı Kəmalə Ağa qızı A ğ a y e v a; d.10.7.1936, Naxçıvan ş.) – şairə, dramaturq. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1984). Azərb. Pedaqoji Xarici Dillər İn-tunun (indiki Dillər Un-ti) fransız dili fakültəsini bitirmiş (1957), orta məktəblərdə müəllimlik etmişdir (1957–68). 1968 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında ədəbi hissə müdiridir. "Baharın sözü" (1962), "Gül yarpağı" (1967), "Sən olmasaydın" (1974), "Arpaçayın nəğməsi" (1978), "Apardı sellər Saranı" (1997) və s. toplulardakı şerlərdə müasirlərimizi düşündürən sosial-mənəvi problemlər bədii əksini tapmışdır. Bir neçə poemanın, tarixi və müasir mövzularda 11 pyesin müəllifidir. "Məhsəti" (1964) pyesi Məhsəti Gəncəviyə, "O, bizim dağların oğludur" (1976) pyesi Əcəmiyə, "Mənim tanrım gözəllikdir, sevgidir" (1982) pyesi Hüseyn Cavidə həsr olunmuşdur. Fransız poeziyasından (P. Elüar, P. Verlen və b.) tərcümələri var. Keçmiş SSRİ məkanında və xarici ölkələrdə (ABŞ, 1979; Fransa, 1984; Türkiyə, 1988, 1989) keçirilən ədəbi-mədəni tədbirlərdə iştirak etmişdir.

Ə s ə r l ə r i: Daş piyalə, B., 1979; O dağlarda gözüm qaldı, B., 1988; Tanrıya heyranam mən, B., 1997.

**KƏMÇİ** (K ə m k i) – Ordubad r-nu ərazisində dağ. Şumer mənşəli qədim əfsanəyə görə, guya dünya daşqını baş vermiş, Nuh peyğəmbər gəmisi ilə üzüb *Gəmiqaya* dağı ərazisinə çatmışdır. Burada suyun səviyyəsi çox hündürə qalxdığı üçün Gəmiqayanın zirvəsi belə görünməz olduğundan gəmi zirvədən ötüb keçərkən ona toxunub bərk silkələnmişdir. Lakin Nuh peyğəmbər bundan narahat olmayıb demişdir ki, bu, kəmçi qaya, yəni kəm, kiçik qayadır. Ordubaddan c.-da, Arazın sağ sahilində (Cənubi Azərb.-da) də Kəmçi adlı dağ var.

**KƏNDTƏPƏ** — Babək r-nunun Cəhri k.-ndən q.-də orta əsrlərə aid yaşayış yeri. Sah. 10 ha-dan artıqdır. Arxeoloji abidənin qalan


Kəngərli Bəhruz

hissəsi ş.-q.-ə doğru uzanan təpə şəklindədir. Ərazidə vaxtilə saxsı borularla çəkilmiş su kəməri olmuşdur. Yaşayış yerindən şm.-da torpaq kurqan (qədim süni təpə) var. Ərazidən xeyli arxeoloji material, xüsusilə zəngin keramika məmulatı toplanmışdır.

**KƏNGƏRLƏR**, K ə n g ə r l i l ə r – qədim türk tayfası. "Kəngər" sözü Aral və Balxaş gölləri arasında yerləşən qədim Kənq ("Avesta"da – K ə n q x o y, Çin mənbələrində – K ə n q y u y) dövlətinin 3 əsrdə hunlar tərəfindən işğalından sonra ortaya çıxmışdır; həmin dövrdən yerli əhali ilə hunların qaynayıb qarışmasından təşəkkül tapmış hundilli etnos özünü kəngər adlandırmışdır. K.-in şimal qonşuları olan pəçəng qəbilələri də hunlarla qaynayıb qarışdıqlarına və K.-lə eyni dövlətdə birləşdiyinə görə sonuncularla tayfa ittifaqı yaratmışdılar. 8 əsrdən sonrakı mənbələrdə bu tayfa ittifaqına daxil olan etnoslar daha çox peçeneq (yunanlarda–pazsınaq) adlandırılırdılar. Onlarla Ural çayı ətrafında yaşayan quzlar (oğuzlar) arasında tez-tez münaqişə yaranırdı. 9 əsrin sonlarında ruslarla ittifaqa girən quzlar K.-i özlərinə tabe etmiş, peçeneqləri isə öz yerlərindən qərbə, Don çayı sahillərinə doğru qovmuşdular. Çox güman ki, K.-in bir hissəsi hələ 4–5 əsrlərdə Şimali Qafqazdan Azərb.-a gələn hunlara qoşulmuşdur; K.-in həmin dövrdən sonra Azərb.-da, xüsusilə də Naxçıvan ərazisində yaşamaları barədə məlumatlar vardır. 9–10 əsrlərdə Avrasiyanın çöl hissəsini quraqlıq bürüdüyü zaman indiki Cənubi Qazaxıstan ərazisində yaşayan K. xarəzmşahların icazəsi ilə bu ölkəyə köçüb burada islam dinini qəbul etdikdən sonra müsəlman mənbələrində daha çox "kənqli" adı ilə tanınmışlar. 11 əsrdə səlcuqlar İranı və Cənubi Qafqazı işğal edərkən kənqli tayfaları da bu yürüşlərdə iştirak etmiş və oğuz-səlcuqların tərkibində Azərb.-a gəlmişlər.

K.-lər Azərb. xalqının etnogenezində iştirak etmiş. Səfəvilər dövründə ustaclı tayfasının tərkibində ölkənin siyasi həyatında fəal rol oynamışlar. 17 əsrdə Azərb. vilayətinə daxil olan Naxçıvan ulkası K.-in irsi torpağı idi. 18 əsrin 2-ci yarısından etibarən Kəngərli hakimləri yüksək titullar daşımış və Azərb.-ın ən güclü xanlarından olmuşlar. Tayfanın xan nəslindən olan nümayəndələri Naxçıvan tüməninin hakimi, bəy nəslindən olanları isə hakimin vəkili kimi fəaliyyət göstərirdilər. İrsi başçı olan xan eyni zamanda Naxçıvanın xanı olmuşdur. Yüksək səlahiyyətli məmur olan vəkil isə xanın adından tayfa köçərilərinin daxili işlərini tənzimləyirdi. Xanlıqlar dövründə K.-in bir qismi Qarabağa köçürülmüşdü. Ağdam və Tərtər r-nlarındakı Kəngərli kənd adları bununla bağlıdır. 1828 il Türkmənçay müqaviləsinə görə Naxçıvan xanlığı Rusiyanın himayəsinə keçsə də, K.-in ən nüfuzlu nümayəndələri 1840 ilədək "Naib" titulu ilə vəzifədə qalmışdılar. Çar hökuməti həmin vaxtdan kəngərli naib və varislərini mülkədarlıq hüququndan məhrum etmişdi. 19 əsrin ortalarında bir sıra qol və tirələrdən ibarət idilər. K. arasından bir sıra görkəmli ictimai-siyasi və hərbi xadimlər, elm və mədəniyyət xadimləri yetişmişdir.

*Əd.:* A l l a h y a r o v K. H., Turan-türk və qunquz etnonimləri, "Çıraq" jurnalı, B., 1999, № 6; Б и ч у р и н Н. Я., Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т.2, М.-Л., 1952; Л и т в и н с к и й В. А., Кангюйско-сарматский фарн, Душанбе, 1968.

**KƏNGƏRLİ** Ayaz Mahmud oğlu (d.11.11.1930, Naxçıvan ş.) – mexanika sahəsində alim. Texnika elmləri namizədi (1969), prof. (1990). Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) mexanika fakültəsini bitirmişdir (1952). Naxçıvan avtobazasının baş mühəndisi işləmişdir (1952–57). 1957 ildən Azərb. Texniki Un-tində çalışır. Un-tin maşın və mexanizmlər nəzəriyyəsi kafedrasının müdiri (1970–81), avtonəqliyyat fakültəsinin dekanı (1978–83), beynəlxalq əlaqələr üzrə prorektoru (1994–99) vəzifələrində işləmişdir. Mexanizmlərin kinematik və dinamik analizi və sintezinə, maşınları idarə sistemlərinin sintezinə, avtomobillərin hərəkət dinamikasına, dərinlik nasos qurğularının mexanikasına dair tədqiqatların, o cümlədən 70-ə qədər elmi məqalənin, dərs kitablarının müəllifidir. Türkiyənin Qazi Un-tinin (Ankara) mühəndislik fakültəsində və Erciyəz Un-tinin Yozqat filialında seminar aparmışdır (1998).

**KƏNGƏRLİ** Bəhruz (Şamil) Şirəlibəy oğlu (22.1.1892, Naxçıvan ş. – 7.2.1922, orada) – rəssam, boyakar və qrafik. Azərb. rəssamlığında realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr


Gülüstan türbəsi. 13 əsr. Gülüstan kəndi (Culfa rayonu)



B. K ə n g ə r l i. Yamxana kəndinə gedən yol. 1920. R. Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyi.



kimi formalaşması K.-nin adı ilə bağlıdır. Uşaq ikən ciddi xəstələndiyindən ağır eşidən K. məktəbə gedə bilmir, meylini rəsmə salır, gördüklərini uşaq təxəyyülü ilə kağıza köçürürdü. Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltəraşlıq Məktəbində oxumuşdur (1910–15). K.-nin rəssamlıq sənətinin professional yetkinlik zirvəsinə qalxmasında Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının böyük təsiri olmuşdur. Yaradıcılığının ilk dövründə mollanəsrəddinçi rəssamlar – müəllimi O. Şmerlinqin və tələbə yoldaşı L. D. Qudiaşvilinin portretlərini çəkmiş, karikatura və satirik rəsmlər, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və boyakarlıq əsərləri yaratmışdır ("Qoca kişi", "Toy", "Elçilik"və s.). 1914 ilin iyununda rəssamın Naxçıvandakı ilk böyük sərgisi və orada göstərilən rəsmləri həmyerlilərini heyran etmişdi. O vaxt "İqbal" qəzeti yazırdı: "Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır".

K.-nin zəngin bədii irsi qalmışdır. O, realist ifadəliliyi, yüksək bədii-estetik dəyəri ilə diqqəti cəlb edən çoxlu portret, mənzərə, natürmort və s. çəkmişdir. Dövrünün qabaqcıl ziyalılarının, sadə adamların portretləri ("Yaşlı kişi", "Gürcü" və s.), mövzu aktuallığına və ideya məzmununa görə bu günün ictimai-siyasi hadisələri ilə səsləşən "Qaçqınlar" silsiləsinə daxil olan kişi, qadın, oğlan, qız portretləri canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Rəssamın yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Onun mənzərələrində təbiət gözəllikləri ("Şəlalə", "Dağlıq mənzərə", "İlanlıdağ ay işığında", "Günəş batarkən", "Ağrıdağ", "Köhnə qala", "Əliabad kəndində darvaza", "Yamxana kəndinə gedən yol", "Əshabi-kəhf dağı" və s.), mədəniyyət abidələri ("Möminə xatun türbəsi"), ilin fəsilləri ("Payız", "Bahar") əks olunmuşdur. 1921 ildə Azərb.-da açılan ilk böyük sərgidə K.-nin 500-dən çox əsəri nümayiş etdirilmişdir. Əsərləri R. Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskvada Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır.

K. həm də milli teatr rəssamlığının banilərindəndir. 1910 illərdə Naxçıvan teatrında



Bəhruz Kəngərlinin qəbirüstü abidəsi.

"Ölülər" (C. Məmmədquluzadə), "Hacı Qara" (M. F. Axundov), "Pəri cadu" (Ə. Haqverdiyev) tamaşalarına bədii tərtibat və geyim eskizləri vermişdir. Qəbirüstü abidəsi ucaldılmışdır. A. Babayevin "Yarımçıq şəkil" pyesi K.-yə həsr olunmuşdur. Naxçıvan Dövlət Tarix Muzeyi K.-nin adınadır. Nax. MR Ali Məclisinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" (2001, 22 may) qərarına müvafiq olaraq Naxçıvan ş.-ndə muzeyi yaradılmışdır.

Əd.: N ə c ə f o v M., Bəhruz Kəngərli, B., 1957; K ə r i m o v K., Bəhruz Kəngərli, B., 1963.

**KƏNGƏRLİ DÜZÜ** – Şərur r-nu ərazisində maili düzənlik. Arazboyu düzənliklərdən biri. Şm.-q.-dən c.-ş.-ə doğru 14 *km* məsafədə uzanır. Hünd. 800–1300 *m*, ən enli yeri 5 *km*-dir. Səthi mərkəzi hissədə zəif, kənarlarda nisbətən çox parçalanmışdır; burada əhəngdaşılar, travertinlər üzə çıxmışdır. Bu süxurlar muxtar respublikada mövcud olan tikinti materiallarının əsasını təşkil edir. Şahtaxtı və Xok daş karxanaları buradadır. Bitki örtüyü, əsasən, yovşandır, əhəngdaşıların üzə çıxdığı sahələrdə yovşanla yanaşı üzərlik, efemerlər, taxılkimilər və s. də rast gəlinir. Şumlanmış ərazilərdə süddüyən geniş yayılmışdır. K. d.-ndə k.t. bitkilərindən yüksək məhsuldarlıq

əldə edilməsi burada yeganə suvarma mənbəyi olan kəhrizlərin və bulaqların suyunun bolluğundan asılıdır. Muxtar respublikada fəaliyyətdə olan 353 kəhrizin 151-i Şərur r-nunda, bunların da 145-i K.d.-ndədir. Əsasən əhəngli boz torpaqlarda hələ qədimdən tütün becərilirdi. Hazırda da burada təsərrüfat tütünçülük üzrə ixtisaslaşmışdır və hər il yüksək məhsul əldə edilir. Taxıl, yem bitkiləri, bostan-tərəvəz bitkiləri əkilir. Meyvə bağları salınmışdır. Yuxarı sovxoz kanalının yenidən qurulması ilə bu ərazilər də su ilə təmin ediləcəkdir.

*Əd.:* B a b a y e v S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**KƏNGƏRLİ EHSAN XAN** (?–?) – Naxçıvanın sonuncu xanı. Bax *Ehsan xan Kəngərli*.

**KƏNGƏRLİ** Əli Məhəmməd ağa (? – ?) – Kəngərli tayfasının ağsaqqalı (rişsefid). Bu vəzifəyə 19 əsrin əvvəllərində Naxçıvan hakimi *Kəlbəli xan Kəngərli* tərəfindən təyin olunmuşdu.

**KƏNGƏRLİ** Əsgər Aslan bəy oğlu (8.5.1911, Naxçıvan ş. – 7.3.1998, Bakı) – nevropotoloq. Azərb. Respublikasının əməkdar həkimi (1971). Bakıda tibb texnikumunu bitirib (1929) diş həkimi kimi fəaliyyətə başlamış, sonralar rentgeneloq kimi ixtisaslaşmışdır. Azərb. Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirdikdən (1939) sonra Qubada, Gəncədə və s. şəhərlərdə səhiyyə şöbələrinin müdiri işləmişdir. Böyük Vətən müharibəsində (1941–45) iştirak etmiş, tibb xidməti polkovniki rütbəsi almışdır. Bakı şəhər əsəb xəstəlikləri və Azərb. SSR Səhiyyə Nazirliyinin ruhi xəstəliklər üzrə Tibbi Əmək Ekspert Komissiyasının sədri vəzifələrində çalışmışdır. Gəncliyində ədəbi fəaliyyət göstərmiş, "Qızıl qələmlər" cəmiyyəti Naxçıvan şöbəsinin üzvü olmuş, "Əsgər Yılmaz" təxəllüsü ilə şerlər yazmışdır. "Ötən günlərə vida", "Köçəri bəylər", "Fəlakətdən səadətə" səhnə əsərləri Naxçıvan teatrında tamaşaya qoyulmuşdur.

**KƏNGƏRLİ** İldırım Səttar oğlu (7.8.1936, İrəvan – 21.1.1993, Bakı) – mühəndis, radiotexnik. Televiziya və radio əlaçısı (1981), SSRİ fəxri radisti (1986), Azərb. Respublikasının əməkdar mühəndisi (1990). Bakı Ali Dənizçilik Məktəbini və Azərb. Politexnik İn-tunu (indiki Texniki Un-t) bitirmişdir (1966). Bakı radio zavodunda baş texnoloq müavini, "Azərradiorabitəinşaat" trestinin rəisi, Azərb. Radio-Televiziya Mərkəzinin (RTM) direktor müavini, Azərb. Milli EA "Kaspi" elm mərkəzinin baş mühəndisi vəzifələrində çalışmışdır. 1977 ildən RTM-in direktoru, 1983 ildən isə Azərb. Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini işləmişdir. Azərb. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin ərazisindəki istirahət guşələrindən biri "İldırım bağı" adlandırılmışdır.

**KƏNGƏRLİ** Maqsud Sultan Ustaclı (? – ?) – 16 əsrin sonu – 17 əsrin əvvəllərində kəngərli tayfasının başçısı, Naxçıvan hakimi (bax *Maqsud Sultan Kəngərli*).

**KƏNGƏRLİ MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə adı. Eramızın ilk əsrlərindən başlayaraq Naxçıvanda məskunlaşan qədim türk kəngər tayfasının (bax *Kəngərlər*) adı ilə bağlı yaranmışdır. Vaxtilə indiki Qala məhəlləsinin bir hissəsi K. m. adlanırmış. Hazırda bu məhəllə adı unudulmuşdur.

**KƏNGƏRLİ** Məhəmməd Sultan (? – ?) – Kəngərli tayfasının ağsaqqalı. Bu vəzifəyə 19 əsrin əvvəllərində əmisi Əli Məhəmməd ağa *Kəngərlidən* sonra təyin olunmuşdu.

**KƏNGƏRLİ** Məmmədqulu bəy Şəfi ağa oğlu (1864, Naxçıvan ş. – 25.8. 1905, Gürcüstan, Batum ş.) – ziyalı, maarif xadimi və hüquqşünas. İlk təhsilini rus ordusunun mayoru, mükəmməl savada və dünyagörüşünə malik atasından almış, sonra Tiflis hərbi məktəbində və Peterburq Ali Topçu Məktəbində oxumuş, tələbə ikən unter-zabit rütbəsi qazanmışdır. 1893 ildə ştabs-kapitan rütbəsində istefaya çıxmış, hüquqşünaslıq və məktəbdarlıqla məşğul olmuşdur. K. bu məqsədlə Tiflis Dairə Məhkəməsində ekstern yolu ilə imtahan verərək, vəkillik hüququ qazanmış, xalqın mənafeyini müdafiə etmişdir. K.-nin fəaliyyətində məktəbdarlıq da mühüm yer tutur. O, vəkilliklə yanaşı, 1901 ildə Qafqazda qızlar üçün ilk Rus–Azərb. məktəbi ( pansion) açmışdır. İrəvan quberniya xalq məktəbləri direktorluğu tərəfindən 1901 ildə ona müəllimlik vəsiqəsi verilmişdir. K.-nin məktəbində təhsil alan şagirdlərin hamısı azərb. idi. Məktəbdə K.-nin özündən başqa, əvvəlcə 3, sonra isə 5 müəllim çalışırdı. 1903 ilin sentyabrından fəaliyyətini İrəvanda davam etdirən məktəb 1905 ilin iyununda K.-nin xaricə getmək niyyəti ilə əlaqədar bağlanmışdır. K.-nin xaricə getmək istəyi isə ermənilərlə müqayisədə ayrı-seçkiliyə məruz qalan millətinin hüquqlarını daha yaxşı müdafiə etmək məqsədi ilə bağlı idi. K.-ni aradan götürmək üçün daim onu izləyən erməni terrorçuları Məmmədqulu bəyi Batumdan Parisə yola düşəcək fransız gəmisinə minməsinə bir saat qalmış küçədə xaincəsinə qətlə yetirmişlər.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.




Kəngərli Nəsrulla

**KƏNGƏRLİ** Nəsrulla Yaqub oğlu (25.11. 1913, Naxçıvan ş. – 25. 2. 1991, Bakı) – memar. Azərb. Respublikasının əməkdar inşaatçısı (1960), SSRİ Dövlət mükafatı laureatı (1972). Naxçıvan Pedaqoji Texnikumunu (1929) və Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) memarlıq-inşaat fakültəsini (1939) bitirmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. 1945 ildən "Azərdövlətmemarlayihə", "Bakışəhərbaşlayihə", "Azərdövlətlayihə" in-tlarında çalışmış. Bakıda bir çox yaşayış evlərinin və ictimai binaların (Mərkəzi univermaq, Tibb Un-tinin fizika-kimya korpusu və idman kompleksi və s.), habelə Gəncə dəmiryol vağzalının, Xankəndidə (keçmiş Stepanakert) inzibati binanın layihələrini vermişdir. K.-nin yaradıcılığında Sumqayıt ş. xüsusi yer tutur. 1968–85 illərdə şəhərin baş planı, yaşayış məhəllələrinin, ictimai və digər təyinatlı binaların layihələri "Azərdövlətlayihə" İn-tunda onun başçılıq etdiyi emalatxanada işlənib hazırlanmışdır. K. pedaqoji sahədə də səmərəli fəaliyyət göstərmiş, 1951 ildən respublikanın orta ixtisas təhsili və ali məktəblərində dərs demiş, 1968–90 illərdə Azərb. Politexnik İn-tundakı, sonralar isə İnşaat Mühəndisləri İn-tundakı (indiki Memarlıq və İnşaat Un-ti) memarlıq konstruksiyaları kafedrasının dosenti olmuşdur. Qırmızı Ulduz ordeni, digər orden və medallarla təltif edilmişdir.


Kəngərli-Sultanov Paşa

**KƏNGƏRLİ-SULTANOV** Paşa (Cümşüd paşa) İsmayıl oğlu (1845, Naxçıvan ş. – 1902, orada) – hüquqşünas. General-leytenant *İsmayıl xan Naxçıvanskinin* oğludur. Orta təhsilini Naxçıvanda almış, ərəb, fars və rus dillərini mükəmməl öyrənmişdir. Paris Un-tinin hüquq şöbəsini bitirmiş, bir müddət burada hüquqşünas işləmiş, fransız dili ilə yanaşı, alman dilini də mənimsəmişdir. Vətənə qayıtdıqdan sonra uzun müddət doğma şəhərində hüquqşünaslıq fəaliyyəti göstərmiş, zəhmətkeş xalqın mənafelərini müdafiə edən ədalətli və alicənab hüquqşünas, haqsızlığı, cəhalət, mövhumat və fırıldaqçılığı cəsarətlə ifşa edən əsl ziyalı kimi şöhrət qazanmışdır. Məhz buna görə hakim dairələr, xüsusilə mürtəce ruhanilər tərəfindən daim hədə-qorxuya, təhqirlərə məruz qalan K.-S. dövlət qulluğundan uzaqlaşaraq, bildiyi dillər əsasında lüğət tərtib etmişdir. Taleyi uzun müddət məlum olmayan bu lüğəti prof. A. Zamanov Tbilisi kitabxanalarının birində tədqiqat apararkən təsadüfən tapmışdır. Ədəbiyyatşünasların (Ə. Sultanlı, A. Zamanov, İ. Həbibbəyli və b.) fikrincə, Paşa ağa C. Məmmədquluzadənin "Ölülər" dramındakı İskəndərin prototipidir.

**KƏNGƏRLİ SÜVARİLƏRİ** – bax *Naxçıvan süvariləri*.


Kəngərli Ulduz

**KƏNGƏRLİ** Ulduz Səttar oğlu (d. 28.9.1924, İrəvan) – radioelektronika sahəsində alim. Texnika elmləri doktoru (1969), prof. (1970). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) energetika fakültəsini (1952) və Azərb. Milli EA Energetika İn-tutunun aspiranturasını (1958) bitirmişdir. Elmi-Tədqiqat "Neftkimyaavtomat" Layihə İn-tunda (Sumqayıt) şöbə müdiri və Elmi-Tədqiqat Neft İn-tunda laboratoriya rəhbəri işləmişdir (1958–61). 1961 ildə Azərb. Politexnik İn-tunda (indiki Texniki Un-t) onun rəhbərliyi ilə radiotexnika, elektronika və rabitə kafedrası təşkil edilmişdir; hazırda un-tin radiotexnika kafedrasının müdiridir. Radioelektronika sahəsində tədqiqatlar aparmışdır. 12 dərslik və dərs vəsaitinin, 185 elmi məqalənin, "Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti"nin (1983; Cəmilə Kəngərli ilə birgə) müəllifidir. Elmi araşdırmaları neft sənayesində – neft quyularını qazma və neft emalı proseslərinin avtomatlaşdırılmasında və başqa sənaye sahələrində geniş tətbiq edilmişdir.

Ə s ə r l ə r i: Radiotexniki dövrələr və siqnallar, h.1–2, 1978–82; Siqnalların verilmə nəzəriyyəsi, h. 1–2, B., 1981–83; Qeyri-xətti elektron dövrələri nəzəriyyəsi, B. 1990.

**KƏNGƏRLİLƏR** – qədim türk tayfası. Bax *Kəngərlər*.

**KƏNİZDAĞ** – Babək r-nu ərazisində dağ. Nehrəm k.-ndən 3 *km* c.-q.-dədir. Hünd. 806 *m*.

**KƏRBƏLAYİ ZEYNALABDİN** (1839–1904) – şair və nəqqaş. Bax *Usta Zeynal Nəqqaş*.



Kərimov Kərim Cabbar oğlu

**KƏRDİVAR** – Azərb.-ın bəzi zonalarında, xüsusilə Naxçıvanda torpaq işlərinin görülməsində istifadə edilən k. t. aləti (bax *Marğız*).

**KƏRİMBƏYLİ** (keçmiş adı L e n i n a b a d) – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 11 *km* şm.-ş.-də, Naxçıvançayın sol sahilində, düzənlikdədir. Əh. 1450 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, xəstəxana, poçt şöbəsi, məscid var.

**KƏRİMBƏYLİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 9 *km* şm.-q.-də, Arazın sahilindədir. Əh. 1657 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**KƏRİMLİ** Xanəli Abbasəli oğlu (d. 27.11.1948, Şahbuz r-nunun Mahmudoba k.) – şair, ədəbiyyatşünas. Filologiya elmləri namizədi (1992). Azərb. Dövlət Pedaqoji İn-tunun filologiya fakültəsini bitirmiş (1973). Şahbuz r-nunda pedaqoji fəaliyyət göstərmişdir. 1988 ildən Naxçıvan Dövlət Un-tində çalışır. Un-tinin "Fikir" qəzetinin redaktoru (1991–96), beynəlxalq əlaqələr şöbəsinin rəisi (1996–98) olmuşdur. 1998 ildən ədəbiyyat kafedrasının baş müəllimi, eyni zamanda xarici tələbələrlə iş üzrə dekandır. "Ay işığında" (1998), "Anamdan məktub" (2001) şer və poema topluları nəşr olunmuşdur. Şerləri İranda və Türkiyədə də dərc edilmişdir. 20 əsr Cənubi Azərb. ədəbiyyatına dair tədqiqatların, 30-dan çox elmi məqalənin müəllifidir. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır.

**KƏRİMOB** Bəxtiyar (1909, Babək r-nunun Şıxmahmud k. – yanvar, 1942, Krım) – Böyük Vətən müharibəsi qəhrəmanı. Krım cəbhəsindəki döyüşlərdə igidlik göstərmişdir. Döyüş tapşırığını yerinə yetirərkən 11 faşist kəşfiyyatçısı ilə rastlaşan K. düşmənin 10 nəfərini silahla öldürmüş, yaralı olmasına baxmayaraq, son nəfəsində faşist zabitini dişləri ilə boğmuş, özü də həlak olmuşdur. K.-a oçerk və şerlər həsr olunmuş, haqqında kino-novella ("Bəxtiyar", 1942) çəkilmişdir.

Kərimov Kərim



**KƏRİMOV** Kərim Cabbar oğlu (20.9.1921, Naxçıvan ş. – 26.7.1995, Bakı) – sənətşünas. Sənətşünaslıq doktoru (1971), prof. (1975), Azərb. Milli EA m. üzvü (1980). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1951). 1951–95 illərdə Azərb. Milli EA Memarlıq və İncəsənət İn-tunda işləmiş, 1972 ildən təsviri sənət şöbəsinin müdiri, 1979 ildən eyni zamanda direktor müavini, 1993 ildən isə həmin in-tun direktoru olmuşdur. K. Azərb. təsviri sənətinin inkişafının müxtəlif dövrləri və problemləri, Azərb. miniatür sənətinin yaranması və inkişafı, orta əsr Azərb. rəssamları Sultan Məhəmməd, Məhəmmədi, Mir Seyid Əli, Sadiq bəy Əfşar, həmçinin Mir Möhsün Nəvvab və b.-nın yaradıcılığı haqqında tədqiqatların, monoqrafiyaların, habelə rus rəssamlarının (V.V. Vereşşagin və b.) yaradıcılığında Azərb. həyatının təsvirinə dair elmi məqalələrin və s. əsərlərin müəllifidir. Azərb. Rəssamlar İttifaqı İdarə Heyətinin katibi (1983–92) olmuşdur. 1954 ildən indiki Azərb. Mədəniyyət və İncəsənət Un-tində dərs demişdir. Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Bəhruz Kəngərli, B., 1963; Miniatürlər. Albom, B., 1980; Nizami. "Xəmsə". Miniatür, B., 1983; Sadiq bəy Əfşar, B., 1987; Sultan Məhəmməd və onun məktəbi, B., 1993; Азербайджан в произведениях русских художников, в кн., Искусство Азербайджана, т. 6, Б., 1959; Султан Мухаммед и его школа, М., 1970; Изобразительное искусство XIV-XVII вв, в кн. История искусства народов СССР, т. 3, М., 1974; Стенная роспись Азербайджана, Б., 1983; Миниатюрная живопись Азербайджана, Б., 1983; Лятиф Керимов, Б., 1983; Миниатюры к "Хамсе" Низами, Б., 1991.

**KƏRİMOV** Kərim Məhəmməd oğlu (2.7.1971, Şərur r-nunun Qarahəsənli k. – 5.5.1992, Goranboy r-nunun Tapqaraqoyunlu k.; Qarahəsənli qəbiristanlığında dəfn olunmuşdur) – Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra). 1988 ildə Tümen Ali Hərbi Mühəndis Komandirləri Məktəbinə daxil olmuşdur. Azərb.-da milli azadlıq hərəkatının güclənndiyi, torpaqlarımıza erməni təcavüzünün genişləndiyi bir şəraitdə 1992 ilin fevralında raport verərək, hərbi məktəbdən azad edilmiş və Bakıya gələrək Ümumqoşun Komandirləri Məktəbinə daxil olmuşdur. Bacarıqlı istehkamçı kimi döyüş cəbhəsinə göndərilmişdi. 1992 il aprelin 30-da düşmənin sərhəd boyu basdırdığı 40-dan çox minanı zərərsizləşdirmiş və əsl qəhrəmanlıq nümunəsi göstərmişdi. K. düşmən snayperinin gülləsindən şəhid olmuşdur. Qarahəsənli k.-ndə büstü ucaldılmışdır. Goranboy və Şərur r-nlarında adına məktəb və küçə var.



**KƏRİMOV** Mahmud Kərim oğlu (d. 18.10.1948, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1989), prof. (1999). Azərb. Milli EA-nın akad. və prezidenti (2001). *K.C. Kərimovun* oğludur. Azərb. Dövlət Un-tinin fizika fakültəsini (1971) və Azərb. Milli EA Radiasiya Tədqiqatları Sektorunun (RTS) aspiranturasını (1978) bitirmişdir. RTS-in elmi katibi (1980–83) və direktoru (1984–2001) olmuşdur. Molekulyar bərk cisimlər əsasında informasiya çeviriciləri fizikası ilə bağlı elementar elektron və molekulyar proseslərin yeni tipli əsaslarının yaradılması, habelə molekulyar elektronika və informatikanın aktual istiqamətlərininin formalaşdırılması sahəsində araşdırmalar aparmışdır. İlk dəfə olaraq, yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektron və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Bu tədqiqatların nəticəsində tamamilə yeni prinsip əsasında idarə olunan yaddaş elementlərinin, informasiyanın ötürülməsi və çevrilməsi sistemlərinin perspektivləri müəyyən olunmuşdur. 120-dən çox elmi məqalənin və bir çox ixtiranın müəllifidir. K.-un rəhbərlik etdiyi laboratoriya 1995 və 1997 illərdə INTAS Beynəlxalq qrantlarını almışdır. 2001 ildə NATO-nun "Sülh naminə elm" proqramının qrantına layiq görülmüş və həmin layihənin həmdirektorudur. Onun bir sıra ölçü cihazları respublika sənaye və iqtisadiyyatının müxtəlif sahələrində tətbiq olunmuşdur. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Bir çox ixtisaslaşdırılmış elmi şuraların üzvüdür; SSRİ EA Radiasiya və Fotokataliz üzrə əlaqələndirmə şurasının üzvü idi. Beynəlxalq Ekoenergetika Akademiyasının vitse-prezidenti, Atom Enerjisindən Sülh Məqsədilə İstifadə üzrə MDB komissiyasında Azərb. Respublikasının səlahiyyətli nümayəndəsidir (1997 ildən). Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası İdarə Heyətinin sədridir (2001 ildən).

Ə s ə r l ə r i: Кинетика светорассеяния при электрическом нагружении пленок полиэтилена. ЖТФ, 1988, т.58, №8 (B.A.Süleymanovla birgə); Электрополевая зависимость магнитного спинового эффекта в фотопроводимости полидиацетилена. ФТТ, 1998, т.40, № 9 (E.Z.Əliyevlə birgə); Спиновый обмен в допированном полом полидиацетилене, ФТТ, 1999, т. 41, №10.



Kərimov Mahmud

**KƏRİMOV** Rəfail Musa oğlu (d. 15.6.1949, Naxçıvan ş.) – xor dirijoru. Əməkdar incəsənət xadimi (2000). A.Zeynallı ad. Bakı Musiqi Texnikumunun xor-dirijorluq fakültəsini (1974) və Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu (indiki Bakı Slavyan Un-ti; 1980) bitirmişdir. Şahbuz musiqi məktəbində müəllim (1974–76), Naxçıvan şəhər musiqi məktəbində müəllim və direktor müavini (1981–89) işləmişdir. 1989 ildən Naxçıvan şəhər 1 saylı Uşaq musiqi məktəbinin direktorudur. Azərb. Respublikası Xor Cəmiyyəti Nax. MR təşkilatının sədridir (1982 ildən). Ümumittifaq bədii özfəaliyyət festivalının 1-ci dərəcəli diplomuna layiq görülmüşdür (1976).



Kərimov Sabit

**KƏRİMOV** Sabit Qəhrəman oğlu (d. 10.4.1940, Ordubad ş.) – informatika və hesablama texnikası sahəsində alim. Texnika elmləri doktoru (1987), prof. (1989), Azərb. Milli EA m. üzvü (2001). Azərb. Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini (1961) və Moskva Energetika İn-tunun aspiranturasını (1967) bitirmişdir. 1968 ildən elmi-pedaqoji fəaliyyətini Neft Akademiyasında davam etdirir. 1989 ildən hesablama maşınları və proqramlaşdırma kafedrasının müdiridir. Elmi tədqiqatlarının əsas istiqaməti informasiya və ekspert sistemlərinin yaradılması və tətbiqi ilə bağlıdır. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə respublikanın elmi-texniki potensialı və elmi kadrlar üzrə, bitkilərin ekoloji təmiz mühafizə vasitələri üzrə, bank işi üzrə informasiya sistemi, dərman bitkiləri üzrə intellektual informasiya sistemi, qarın boşluğu nahiyəsində cərrahi xəstəliklərin, qara ciyər və öd yolları xəstəliklərinin diaqnostikası üçün ekspert sistemləri yaradılmış və tətbiq edilmişdir. 3 monoqrafiyanın, 100-dən çox elmi məqalənin müəllifidir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə kompüterlə idarə olunan rusca-ingiliscə-azərbaycanca-türkcə izahlı informatika terminləri lüğəti hazırlanıb nəşr edilmişdir.

Ə s ə r l ə r i: Alqoritmik dillər və proqramlaşdırma (T. Əsgərovla birgə), B., 1984; Fərdi kompüterlər və proqramlaşdırma (şərikli), B., 1992.

Kərimov Vilayət



**KƏRİMOV** Vilayət Hidayət oğlu (d. 8.9.1948, Bakı) – sənətşünas. Memarlıq doktoru (1992), prof. (1999). Şərq Ölkələri Beynəlxalq



Kərimova Sənubər

Memarlıq Akademiyasının müxbir üzvü (1993). Azərb. Dövlət İnşaat Mühəndisləri İn-tunu (indiki Memarlıq və İnşaat Un-ti) bitirmişdir (1973). 1983 ildən Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunda Azərb. arxeoloji abidələrinin bərpası və konservasiyası şöbəsində işləyir (1997 ildən həmin şöbənin müdiridir). Eyni zamanda Azərb. Dövlət Memarlıq və İnşaat Un-tinin professorudur. Memarlıq irsindən istifadə, memarlıq-arxeoloji abidələrin bərpasının nəzəri məsələləri sahəsində fəaliyyət göstərir. Naxçıvanın müdafiə istehkamları, "Naxçıvan MR ərazisində Tunc dövrü memarlıq arxeoloji abidələri", "Azərb. memarlığında müdafiə qurğularının inkişaf tarixi" və s. mövzular K.-un tədqiqatlarının başlıca istiqamətidir. Qafqaz Albaniyasının xristian memarlığı, orta əsrlərdə Azərb. islam memarlığının formalaşması, Qarabağ memarlığı, Nizami dövründə Azərb. müdafiə istehkamları və s. mövzulara dair elmi məqalələrin müəllifidir.

Ə s ə r l ə r i: Qarabağ (tarixi-etnoqrafik oçerklər), B., 1999; (Azərb., ing., rus dillərində); Оборонительные сооружения Азербайджана (историко-архитектурный очерк). Б., 1998.

**KƏRİMOVA** Sənubər Ağa qızı (d. 13.1.1935, Naxçıvan ş.) – jurnalist. Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1981). Azərb. Dövlət Un-ti (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir (1959). "Şərq qapısı" qəzetində şöbə müdiri (1965–75), redaktor müavini (1975–76) və redaktor (1976–85) işləmiş, eyni zamanda Azərb. Jurnalistlər Birliyinin katibi və Naxçıvan vilayət təşkilatının sədri (1976–85) olmuşdur. Nax. MR sosial təminat naziri (1985–93), Nax. MR əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini (1993–2000) vəzifələrində çalışmışdır. Muxtar respublika qadınlar şurasının sədri olmuşdur (1975–90). 2000 ildən Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tu "Folklor sarayı"nın nəşri olan "Dədə Qorqud" almanaxının əməkdaşıdır. Nax. MSSR Ali Sovetinin (10—11-ci çağırış) deputatı seçilmişdir.

**KƏRKİ** – Sədərək r-nunda. Tejkar dağının ətəyində, Arpaçayın sahilində kənd. İrəvan–Cermuk avtomobil yolunun 25–30 *km*-liyində, Ermənistanla sərhəddədir. Sah. 950 *ha*. Adının türk qıpçaq tayfası *kərkilərlə* bağlı olduğu ehtimal edilir. Mənbələrə görə, kərkilər Azərb.-a erkən orta əsrlərdə qıpçaqların tərkibində gəlmişlər. 19 əsrin əvvəllərində qazax etnik birliyinin kərkibaşı tirəsi (nəsli) olmuşdur. Özbəkistanda və digər bölgələrdə də kərki tayfaları qeydə alınmışdır. Azərb.-da Kərkicahan şəhəri (Dağlıq Qarabağ), Göyçə mahalında Kərkibaşı k., Türkmənistanda K. r-nu, şəhəri və Kərkiçi d.-y. st. (Cərco vil.), Kərkidağ toponimi mövcuddur.

Erməni millətçilərinin Azərb.-a qarşı ərazi iddiaları ilə bağlı törətdiyi qanlı cinayətlər K.-dən də yan keçməmişdir. Hələ 1938 il mayın 5-də K. torpaqlarının bir hissəsi Azərb. hökumətinin razılığı ilə Ermənistana verilmişdi. Bu barədə protokola Azərb. MİK-in işçiləri – ermənilər Qadakçiyan və İsaakyan qol çəkmişdilər. Kənd ərazisinin digər bir hissəsi isə 1969 ilin mayında Azərb.-ın o zamankı rəhbərliyinin "səxavəti" üzündən bu respublikaya "bağışlanmışdı". Bununla da, erməni qəsbkarlarının K.-ni bütünlüklə və asanlıqla işğal etməsinə əlverişli şərait yaranmışdı. 1980-ci illərin ortalarından K.-də vəziyyət xüsusilə gərginləşməyə başladı. Ermənilər müxtəlif təxribatlar törədir, Sədərəkdən çəkilmiş işıq və rabitə xətləini tez-tez kəsir, otlaq və örüş yerlərindən mal-qaranı oğurlayır, mənəvi-psixoloji təzyiq göstərməklə 350 nəfərə yaxın kənd əhalisini sıxışdırırdılar. K. ilə əlaqə, gediş-gəliş kəsilmiş, kənd tam mühasirə vəziyyətində qalmışdı. 1988–90 illərdə ermənilərin daimi hücumlarına məruz qalan K., nəhayət, 1990 il yanvarın 15-də 2–3 minlik erməni silahlı birləşmələri tərəfindən işğal edildi. İşğalçılarla qeyri-bərabər döyüşdə qəhrəmanlıqla vuruşan kənd əhalisi xeyli şəhid verərək, Sədərək r-nunun digər kəndlərinə və ayrı-ayrı bölgələrə köçməyə məcbur oldu.

**KƏRKİ** – Sədərək r-nunun Kərki k.-ndən c.-da, dağın üzərində Tunc dövrünə aid yaşayış yeri. Kobud yonulmuş iri qaya parçalarından hörülmüş divar qalıqları saxlanmışdır. Geniş tədqiqat işləri aparılmamışdır. Yerüstü materiallar dən daşları, sürtgəclər, çəhrayı və boz rəngdə bişirilmiş gil məmulatından (əsasən, kasa və küpə tipli qab qırıqları) ibarətdir. Çəhrayı qablar qırmızı anqobla örtülərək qara rənglə naxışlanmışdır. Boz rəngli gil qab qırıqları çölmək tipli qablarla təmsil olunmuşdur. Tapıntıların e. ə. 3–1-ci minilliklərə aidliyi və yaşayış yerindən uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğu ehtimal edilir.

Kərki nekropolu. E. ə. 3-cü minilliyin sonu – 2-ci minilliyin əvvəlləri. Boyalı kasa.





**KƏRKİ DÜZÜ** – Sədərək r-nu ərazisində, Arazboyu düzənliklərdən biri. Qədimdə Sədərəkdən yaylaqlara gedən obaların yolu buradan keçirdi. Sədərəkli *Aşıq Əli* Xanxanım oğlu axar suyu, yüz hektarlarla bərəkətli torpağı olan bu yerin adını məşhur şerində əbədiləşdirmişdir (ətraflı məlumat üçün bax *Sədərək düzü*).

**KƏRKİ NEKROPOLU** – Kərki k.-ndən q.-də Tunc dövrünə aid arxeoloji abidə. Sah. 2 *ha*-a yaxındır. Daş qutu qəbirlərin kənarları iri sal daşlardan qurulmuş, üzəri iri daş plitələrlə örtülmüşdür. Bəzi qəbirlərin ətrafında kromlexlərə təsadüf olunur. K.n. ərazisində təsərrüfat işləri zamanı (1979) bir neçə qəbir dağıdılmış, əldə olunmuş qəbir materialları (əsasən monoxrom boyalı küpə və kasalar) Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Bu tip boyalı qablar Nax. MR-dəki Əznəbürt, Nəhəcir, Yaycı, II Kültəpə və s. arxeoloji abidələr üçün səciyyəvidir. Tapıntılar K.n.-nun e. ə. 3-cü minilliyin sonu – 2-ci minilliyin əvvəllərinə aid edilməsinə imkan verir.

**KƏRMƏÇATAX** – Babək r-nu ərazisində çay. Cəhri çayının sol qolu. Uz. 20 *km*, hövzəsinin sah. 66 $km^2$-dir. Əsasən, yağış və qrunt suları ilə qidalanır.

**KƏRMƏÇATAX** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 41 *km* şm.-da, Kərməçatax çayının sahilində, orta dağlıq ərazidədir. Əh. 488 nəfər (2000); heyvandarlıq, arıçılıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, klub, feldşer-mama məntəqəsi var.

**KƏRMƏÇATAX** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c. yamacında, Kərməçatax k.-ndən 750 *m* q.-dədir. Hünd. 1614 *m*. Günbəzvarı formada olub, şm. və q. yamacları sıldırımdır.

**KƏSƏNDAĞ** – Culfa r-nu ərazisində dağ. Dağüstü silsilənin c.-ş. hissəsindədir. Hünd. 1102 *m*. Konusvarı formadadır.

**KƏSİK GÜNBƏZ** – orta əsrlərə aid (13 əsr) Azərb. memarlıq abidəsi *Gülüstan türbəsinin* xalq arasında adı.

**KIRNA** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.y. st.-ndan 30 *km* şm.-da, Əlincəçayın sol sahilində, Zəngəzur silsiləsinin yamacındadır. İlandağın ətəyində yerləşir. Əh. 1270 nəfər (2000); üzümçülük, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, uşaq bağçası, 2 kitabxana, təqaüdçülər klubu, tibb məntəqəsi, rabitə şöbəsi var.

**KIRNA** – Culfa r-nunun Kırna k.-ndən ş.-də orta əsrlərə aid yaşayış yeri. Ərazi girintili-çıxıntılı olub, ş.-dən hündür dağ silsiləsi, q.-dən Əlincə çayı, şm. və c.-dan dərələrlə sərhədlənir. Sah. 3700 $m^2$-dir. Kəşfiyyat xarakterli tədqiqat aparılmışdır (1991). Hazırda böyük bir hissəsi yeni tikintilərlə örtülmüşdür. Saxlanmış hissəsi hündür təpəni və onun ətəklərini əhatə edir. Təpənin üzərində orta əsrlərə aid məscid var. Yerüstü materiallar, əsasən, gil qab məmulatından (şirli və şirsiz saxsı qab sınıqlarından), kərpic hissələrindən, dən daşlarından ibarətdir. Tapıntılara əsasən K. yaşayış yerini 11–17 əsrlərə aid etmək olar.



Kərki nekropolundan tapılmış keramika məmulatı.

**KIRNA CÜMƏ MƏSCİDİ** – Culfa r-nunun Kırna k.-ndə memarlıq abidəsi. Plan-məkan quruluşu, yerləşmə tərzi və s. məscidin yüksək memarlıq keyfiyyətinə malik dini bina olduğunu göstərir. Bəzi tədqiqatçılar abidəni türbə hesab etmiş, ilk vaxtlar onun bayırdan çadırvarı günbəzlə örtüldüyü fikrini irəli sürmüşlər. Lakin məscidin ölçü və nisbətləri,





Məscidin daxili görünüşü.



ələlxüsus məkan quruluşu onu xatirə tikilisi saymağa heç bir əsas vermir. Azərb. xatirə memarlığı təcrübəsində bu tip tikiliyə rast gəlinmir. Abidənin dam örtüyü tamam dağılsa da, iç və xarici quruluşu onun kubvarı gövdəsinin çadırvarı deyil, sferokonik biçimli günbəzlə tamamlandığını sübut edir. Məscidin hifz olunmuş məqsurəsi (günbəzaltı fəza boşluğu) planda kvadrat biçimlidir. Giriş hissəsi üç sivri tağ (ortadan enli) aşırımı şəklində, günbəzə keçid hissəsi isə kubdan səkkizüzlüyə, səkkizüzlüdən onaltıüzlüyə və oradan da günbəzə keçmə prinsipi üzrə həll edilmişdir. Belə pilləli keçid məscidin tutum kompozisiyasına məntiqi və ifadəli görkəm vermək məqsədi güdürdü. Daxildə isə bu, ikiqatlı keçid tağlar və tromplarla son dərəcə zərif işlənilmişdir. Abidə konstruktiv ayrıntılarına görə səlcuq memarlığının şah əsərlərindən sayılan İsfahandakı Günbədi Xaki məscidinə oxşayır. Kitabəsi qalmasa da, müvafiq səlcuq abidələri ilə müqayisədə məscidin 12 əsrdə tikildiyi ehtimal olunur.

*Əd.:* Q i y a s i C., Nizami dövrü memarlıq abidələri, B., 1991.

**KIRNA NEKROPOLU I** – Culfa r-nu ərazisində eyniadlı k.-dən şm.-da orta əsrlərə aid arxeoloji abidə. Q.-də Əlincə çayı, c.-da torpaq yol, şm.-ş.-də dərin dərə ilə sərhədlənir. Kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır (1991). Nekropol hazırda yerli əhali tərəfindən istifadə edilir. Orta əsr qəbirləri və müasir məzarlar bir-birinə qarışmışdır. Qədim qəbirlərin baş daşları saxlanılmamışdır. Sinə daşları, əsasən, düzbucaqlı və prizma formasında olub, bəzən yuxarıda tacvarı şəkildə tamamlanmışdır. Bəzi qəbirlərin üzərində quş və haça təsvirləri vardır. Qəbirlər qrup halında iri daşlarla dövrələnmişdir. Daş düzmələr, əsasən, düzbucaqlı plandadır. Nekropolun mərkəzində çiy kərpicdən hörülmüş 5x5 *m* sahəni əhatə edən türbənin qalıqları saxlanmışdır. Abidənin 14–18 əsrlərə aid olması ehtimal edilir.

**KIRNA NEKROPOLU II** – Culfa r-nu ərazisində eyniadlı k.-dən ş.-də orta əsrlərə aid arxeoloji abidə. Şm., ş. və c. tərəflərdən hündür dağlarla əhatə olunmuş dərədə, düzənlik sahədədir. Kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır (1991). Əhalinin məlumatına görə, nekropolda xeyli qoç-daş olmuş, lakin onların əksəriyyəti aparılmışdır. Hazırda boz rəngli daşdan yonulmuş üç ədəd qoç-daş qalmışdır ki, onların da baş tərəfi sınmışdır; biri düzbucaqlı əsas üzərində hazırlanmışdır. Abidəni 14–16 əsrlərə aid etmək olar.

**KIRNA TUF-BREKÇİYA, TUF-KONQLOMERAT YATAĞI** – Culfa r-nu ərazisində, Kırna k.-ndən 0,25 *km* c.-ş.-də, Naxçıvan–Ərəfsə avtomobil yolunun kənarındadır. Geoloji quruluşunda Üst Oliqosen və Alt Miosen yaşlı tuf-brekçiya və tuf-konqlomeratlar iştirak edir. Sah. 0,7 $km^2$, faydalı qatın qalınlığı 27–58 *m*-dir. Tuf-brekçiya və tuf-konqlomerat divar daşı istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 14070 min $m^3$-dir.

**KİLİT** – Ordubad r-nu ərazisində çay. Arazın sol qolu. Zəngəzur silsiləsinin ətəyindən (2340 *m* hünd.-dən) başlanır. Uz. 7 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Suyu Araza çatmır, Kilit k. yaxınlığındakı kiçik su anbarına tökülür.

**KİLİT** – Ordubad r-nunda kənd. R-n mərkəzindən 16 *km* c.-ş.-də, Naxçıvan–Bakı d.y.-nın sol tərəfində, Zəngəzur silsiləsinin ətəyindədir. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən Ordubadın Qorçevan k. də Nax. MSSR-in 9 kəndi sırasında əkin yerləri və otlaqları ilə birlikdə qanunsuz olaraq Erm. SSR-ə birləşdirildi. Bundan əlavə, Qorçevan ermənilərinin hələ 1921 ildən icarəyə götürdükləri, 1923 ildən isə zorakılıqla sahibləndikləri K. kəndi torpaqlarının bir hissəsi də bu respublikaya qatıldı. 1992 ildə erməni silahlı quldurlarının basqınları nəticəsində əhalisi Ordubad r-nunun müxtəlif yerlərinə köçmüşdür. Hər tərəfdən sıldırım yamaclı dağ və dərələrlə əhatə olunan K.-in c.-ş.-ində karst mağarası mövcuddur (mağaranın dəhliz və salonlarında stalaktit və stalaqmitlər var). Mağaraların girəcəyində aşkar edilmiş mədəni təbəqə qalıqları onların qədim insan məskənləri olduğunu göstərir. K. yaxınlığında Ül dərəsi adlı yerdə orta əsrlərə aid yaşayış yerinin qalıqları və qəbir abidələri aşkar edilmişdir.



**KİLİT MAĞARASI** – Ordubad r-nunun ərazisində Kilit k.-dən 6 *km* şm.-ş.-də, Arazın sol sahilində karst mağarası. Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunun Paleolit arxeoloji ekspedisiyası qeydə almışdır (1983). Mağara olduqca möhtəşəmdir; qabaq hissəsi və salonu torpaq çöküntüsü ilə doludur. İlkin müşahidələr əsasında K. m.-nda daş dövrü insanlarının yaşadığı ehtimal edilir.

**KİLİT MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Kilit k. yaxınlığındadır. Su iki yerdə səthə çıxır.

Balneoloji tərkibi:

$$CO_2\,07\,M2{,}2\,\frac{HCO_3\,87}{Ca60\,Mg30}\cdot pH\,6{,}5\,D\,20\,m^3/gün\,T\,16^\circ C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı, kalsiumlu-maqneziumludur. Rusiya Federasiyasındakı "Darasun" (Çita vilayəti) tipli su olub, müalicə məqsədilə istifadə edilə bilər.

**KİLİT MONSONİT YATAĞI** – Ordubad r-nu ərazisində, Kilit k.-ndən 2 *km* şm.-ş.-də, Kilit çayının sağ sahilindədir. Geoloji quruluşunda Mehri-Ordubad plutonunun monsonit fazasının süxurları iştirak edir. Faydalı qat xırda və orta dənəli, boz və tünd-boz rəngli kvarslı monsonitdən təşkil olunmuşdur. Sah. 0,03 $km^2$, faydalı qatın öyrənilmiş qalınlığı 50–90 *m*-dir. Monsonit yüksək dekorativliyə malik olub, üzlük daşı kimi köbə (bordyur) və binaların fasad hissələrinin tikintisində, abidələrin hazırlanmasında istifadə oluna bilər. Yatağın sənaye ehtiyatı 1260,1 *min* $m^3$-dir.

**KİŞMİŞ** – Naxçıvan bölgəsində geniş yayılmış tumsuz ağ və qara kişmişi üzümün qurusu. Qurudulma müddəti 4–12 gündür. K.-in tərkibində şəkərin miqdarı 76–80%-ə qədərdir. Naxçıvanın məşhur qırmızı K.-inin tərkibində 80%-dən çox şəkər, 5,5%-dək C vitamini vardır. 100 *qr* K.-in qidalılığı 270–290 kalori, 100 *qr* üzümün qidalılığı isə 70 kaloridir. Tumsuz ağ üzümdən s ə b z ə, qara üzümdən ş a h a n ə K. hazırlanır. İri giləli tumlu üzüm qurusu m ö v ü c adlanır.

Qaynaqlardakı məlumatlara görə, orta əsrlərdə K. həm də xarici ölkələrə ixrac olunurdu. İran tarixçisi Rəşidəddinin yazmalarından məlum olur ki, 14 əsrin əvvəllərində təkcə Təbriz yaxınlığındakı ona məxsus bağlardan min *kq*-larla K. qurudulurdu. K. bəzi plov növləri üçün xuruş, həmçinin ləvəngi hazırlanmasında və şirniyyat məmulatlarında geniş işlədilir.

**"KİTABİ-DƏDƏ QORQUD"** – qəhrəmanlıq dastanı. Oğuz türklərinin (bax *Oğuzlar*), o cümlədən Azərb. xalqının ən qədim və möhtəşəm ədəbi abidəsi. "K.-D. Q" müştərək ədəbi abidə olsa da, o, istər dastanda təsvir edilən hadisələrin tarixi coğrafiyası, istərsə də dil baxımından Azərb.-la daha çox bağlıdır. Dastanda islam dininin təsiri duyulsa da, islamdan əvvəlki inancların, məişət və adət-ənənələrin izləri, mətnin dərin qatlarında gizlənmiş çox uzaq keçmişlərin əks-sədası, ərəb-fars leksikasının təsirinin zəifliyi, qəhrəmanların adlarının türkcə olması, qədim türk heca şerinin vəzn və qafiyə sisteminin mövcudluğu onun daha qədim zamanlarla, miladdan əvvəlki son əsrlərlə bağlı olduğunu göstərir.

"K.-D. Q". dastanı Naxçıvan diyarı ilə xüsusilə bağlıdır. Dastanda təsvir edilən bir



Dastanın əlyazmasından fraqmentlər.



sıra hadisələr bilavasitə Naxçıvan ərazisində baş verir. Bunu dastanda adı çəkilən coğrafi obyektlərin əsasən Naxçıvanda və onunla qonşu olan ərazilərdə olması da sübut edir. Məlumdur ki, oğuzların bir qolu Azərb.-ın e.-unda, o cümlədən Naxçıvan ərazisində məskunlaşmışdı. Qədim oğuz ellərinin, bir növ, mərkəzində yerləşən Naxçıvan diyarında "K.-D.Q." boyları və onların personajları ilə bağlı 50-dən çox toponim müəyyənləşdirilmişdir. Onları üç qrupa bölmək olar:

1. Adları birbaşa göstərilən coğrafi obyektlər. Belə toponimlərin sayı 16-dır – Ağqaya, Altunqala, Qaradərə, Qaraçuq, Qaraquç (Qaraquş) dağı, Əlincə qalası, Dərəşam, Şəruk (Şərur) və s.

2. Dastan qəhrəmanlarının və oğuz tayfalarının adlarından törəndiyi güman edilən toponimlər – Böyükdüz, Qaraçoban, Sədərək, Şərur düzləri, Daşarx, Daşqışlaq, Əyrək, Oğuzdaşı kəndləri, Buğaçeşməsi və s.

3. Mikrotoponimlər.

İkinci qrupa daxil olan toponimlər içərisində dastanın baş qəhrəmanı, Oğuzun məşhur sərkərdəsi Salur Qazanın adı ilə bağlı coğrafi obyekt adları xüsusilə çoxdur (20-yə qədər): Qazançı, Qazançılı, Qazançılar kəndləri, Qazançı qalası, Qazançı yaylağı, Qazangöl, Qazangöl dağı, Qazangöl aşırımı və s. Naxçıvan ərazisindəki orta əsrlərə aid nekropollar da, Keçəldağ, Batabat və Ordubad yaylaqlarındakı qoç daş heykəllərdən ibarət abidələr də maldarlıqla, o cümlədən qoyunçuluqla məşğul olan oğuzlara məxsusdur. Keçəldağda aşkar edilmiş qoç daş heykəlin bir üzündə türk antropoloji tipli qadın (barelyef) təsvir olunmuşdur. Başqa bir qəbirüstü sənduqənin üzərində ərəb qrafikası ilə "Bulqar bahadır" sözləri həkk edilmişdir ki, bu da tarixi məlumata görə, Venexdur Bulqar Vənd adlı bir sərkərdənin miladdan əvvəl ikinci yüzillikdə Cənubi Qafqazda yerləşdiyi və dastanda "Bulqar bir ər" etnonimi ilə xatırlanan protobulqarların (protooğuzların) Naxçıvan ərazisində məskunlaşdıqlarını göstərir. Xalq arasında oğuz qəbirləri adlandırılan qəbir abidələrə ən çox Naxçıvanın qala şəhərlərinin, Əlincəqalanın, Oğlanqalanın yerləşdiyi ərazilərdə rast gəlinir. Təpəgöz haqqında əfsanə ilə bağlı Çalxanqala, Çovurqala, Oğlanqala siklop istehkamları, habelə onların ətrafındakı kurqanlar və daş qutu qəbirlər də türkdilli etnoslara məxsusdur. Nəhayət, dastanın dili də Nax. MR-in Şərur bölgəsi əhalisinin dili ilə səsləşir. Bütün bunlar akad. V. V. Bartoldun göstərdiyi kimi, "K.-D.Q."-un Qafqazda, məhz Azərb.-da təşəkkül tapdığını bir daha təsdiq edir.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında "20 aprel 1997 il tarixli fərmanına əsasən dastanın yubileyi beynəlxalq miqyasda keçirilmişdir.

Naxçıvan ş.-ndə "Dədə Qorqud" meydanı salınmış, "Təbriz" mehmanxanasının önündə Dədə Qorqudun əzəmətli abidəsi (müəllifi heykəltəraş, əməkdar incəsənət xadimi E. Cəfərovdur) ucaldılmışdır; bu, Azərb.-da Dədə Qorquda ucaldılan ilk heykəldir.



Kolanı kəndindən görünüş.

M ə t n: Kitabi-Dədə Qorqud (tərtib edəni, ön sözün və lüğətin müəllifi Samət Əlizadə), B., 1999.

*Əd.:* "Kitabi-Dədə Qorqud" ensiklopediyası, 2 clddə, B., 2000; B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999.

**KOLA MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Kolasu çayının mənbə hissəsindədir. Suyu karbon qazı ilə birlikdə bir neçə çıxışdan ibarət olub, debiti 30 *m*³/*gün*, temp-ru 13°C-dir.

**KOLANI** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 *km* şm.-ş.-də, Yevlax–Laçın–Naxçıvan avtomobil yolunun kənarında, Naxçıvançayın (Arazın qolu) sahilindədir. Əh. 1607 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur.



Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, kitabxana, xəstəxana, uşaq bağçası, rabitə şöbəsi var. Kənddən bir qədər aralıda *Söyüdlü*, c.-q.-ndə isə *Qızey* orta əsr yaşayış yerləri və qəbiristanlar aşkar olunmuşdur.

**KOLANI** – Şahbuz r-nunda eyniadlı kəndin içərisində orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 9500 *m*². Axtarışlar zamanı dağıdılmış tikinti qalıqları, boz və çəhrayı rəngli gil məmulatı (küpə və kasa tipli qab qırıqları) və s. aşkar edilmişdir. Hazırda yaşayış yerindəki təpənin üstündə böyük məscid tikilmişdir. Tapıntılar 5–8 əsrlərə aid edilir.

**KOLANI NEKROPOLU** – Şahbuz r-nunda eyniadlı kəndin yaxınlığında, Naxçıvançayın sol sahilində, dağ silsiləsinin çaya enən yamacında e.ə. 1-ci minilliyin əvvəllərinə aid arxeoloji abidə. 1986 ildə qeydə alınmışdır. Tədqiqat işləri nəticəsində sal daşlardan qurulmuş 16 daş qutu qəbir öyrənilmişdir. Qəbirlərin torpaq örtüyündən və içərisindən xeyli çəhrayı gil məmulatı, tunc silah və bədii tərtibatda hazırlanmış bəzək şeyləri (boyunbağı, üzük, sırğa, bilərzik, muncuq, düymə, quş fiqurları və s.), obsidian (d ə v ə g ö z ü) lövhələr, ox ucluqları, əqiq və balıqqulağından hazırlanmış muncuqlar aşkar edilmişdir. Son Tunc və ilk Dəmir dövrlərinə aid bir daş qutu qəbirin yan hörgü daşları üzərində sxematik şəkildə çəkilmiş atlı rəsmi və müxtəlif piktoqrafik işarələr sənətkarlıq xüsusiyyətlərinə görə *Qəmiqaya rəsmləri* ilə eyniyyət təşkil edir. Tapıntılar Şahbuz tarix-diyarşünaslıq muzeyində və Naxçıvan Dövlət Tarix muzeyində saxlanılır. Materiallar Naxçıvan ərazisi üçün səciyyəvi olub, Xocalı–Gədəbəy mədəniyyəti abidələrində analogiya tapır.

*Əd.:* N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B., Şahbuz bölgəsinin arxeoloji abidələri, B., 1992.

**KOLANILAR** – türk tayfası. Tədqiqatçıların ehtimalına görə, K.-ı xanlıqlar dövründə (18 yüzilliyin 1-ci yarısında) İran hökmdarı Nadirşah Əfşar Xorasandan köçürmüşdür. Qarabağ xanlığının tərkibində Kolanı mahalı vardı. Naxçıvanda, Qarabağda, Şirvanda və Azərb.-ın digər bölgələrində yaşamış K., əsasən, maldarlıqla məşğul olmuşlar. Nax. MR-in Şahbuz r-nundakı Kolanı k.-nin adı K.-la əlaqədardır.




Kolanı nekropolundan aşkar olunmuş materiallar: 1, 3. Küpə tipli gil qablar. 2, 4, 6. Qədəh tipli gil qablar. 5, 7. Kasa tipli gil qablar. 8–11. Tunc bəzəklər, əqiq, pasta və balıqqulağı muncuqlar. 12. Ox ucluğu. 13, 14. Silah nümunələri.



Tunc spiral.



Daş qutu qəbirin yan daşı üzərində təsvir.

**KOLANISU** – Culfa r-nu ərazisində çay. Ləkətsu çayının (Əlincə hövzəsi) qolu. Zəngəzur silsiləsinin yamacından, 2925 *m* hünd.-dən başlanır. Uz. 7 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Hövzəsində mineral bulaqlar var.

**KOLASU** – Culfa r-nunun Ləkətağ k.-ndən şm.-ş.-də Kolanısu və Dəmirlisu çaylarının qovşağında ilk orta əsrlərə aid yaşayış yeri. Sah. 2500 *m*². 1991 ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Abidə bir-birindən üstdə yerləşən üç terrası əhatə edir. Üzəri uçub-tökülmüş inşaat qalıqları ilə örtülmüş, tikintilər tamamilə dağılmışdır. Mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar qırılmış dən daşlarından, çəhrayı rəngli bişirilmiş gil qab sınıqlarından və s. ibarətdir. Abidənin 6–8 əsrlərə aid olduğu ehtimal edilir.

**KOLASU NEKROPOLU** – Culfa r-nunun Ləkətağ k.-ndən şm.-ş.-də, eyniadlı yaşayış yerinin şm.-ında orta əsrlərə aid arxeoloji abidə. 1991 ildə qeydə alınmış, kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Ensiz zolaq şəklində q.-dən ş.-ə doğru uzanır. Qəbirlər q.-ş. istiqamətinə yönəldilmişdir. Müşahidələrə əsasən, qəbirlər daş qutu tipli olmuşdur. Nekropolun 6–8 əsrlərə aid olması ehtimal edilir.

**KOLLUQ** – Şahbuz r-nunda, Keçili k. yaxınlığında, kiçik dağ çayının sol sahilində erkən orta əsrlərə aid yaşayış yeri. Sah. 160 *m*². 1990 ildə qeydə alınmışdır. Yaşayış yerinin

hər tərəfi biçənəklərdən ibarətdir. Ərazidə tikinti qalıqlarına, çəhrayı rəngli gil qab qırıqlarına və s. təsadüf edilmişdir. Yaşayış yerinin əks tərəfində, çayın sağ sahilində məbəd qalıqları saxlanmışdır. Tapıntılar K. yaşayış yerinin 5–8 əsrlərə aid olduğunu göstərir.

**KOMAYIL MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə məhəllə. Sarvanlar məhəlləsinin sol tərəfində kiçik bir ərazini əhatə etmişdir. Məhəllə sakinlərinin İrəvan çuxurundan köçüb gəlmələri ehtimal olunur. 1937 il siyahıyaalmasında bu məhəllədə yaşayanların 70–75 faizinin "İsmayılov" familiyalı olduqları müəyyən edilmişdir ki, bu da onların bir tayfaya mənsub olmaları ehtimalını gücləndirir.

**KORA-KÖZƏ** – Babək r-nunun keçmiş Sust k.-nin c.-q.-ndə orta əsrlərə aid yaşayış yeri. 1979 ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Sah. təqr. 3 *ha*. Yaşayış yerində tikinti qalıqlarının bir qismi saxlanılmışdır. Mədəni təbəqə keramika məmulatı ilə zəngindir. Yerüstü materiallar çəhrayı rəngli sadə və şirli qab qırıqlarından ibarətdir. Tapıntılar 15–17 əsrlərə aid edilir.

**KOROĞLU QALASI** – Sədərək r-nunun eyniadlı kəndi yaxınlığında son orta əsrlərə (17–18 əsrlər) aid qala. Arxeoloji qazıntı işləri aparılmamışdır. Yerli əhalinin məlumatına görə, mərdlik, igidlik, sədaqət, ləyaqət rəmzi olan xalq qəhrəmanı Koroğlunun adı ilə bağlıdır.

**"KOROĞLU" MEYDANI** – Naxçıvan ş.-ndə, Naxçıvançayın sahilində, Əziz Əliyev küç.-ndədir. 1988 ildə salınmışdır. Meydanda xalq qəhrəmanı Koroğlunun at üstündə heykəli ucaldılmışdır (heykəltəraş Azərb. Respublikasının əməkdar rəssamı, əməkdar incəsənət xadimi Hüseynqulu Əliyevdir).



**KOSACAN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* c.-ş.-də, düzənlikdədir. Əh. 1205 nəfər (2000); isti şitillik təsərrüfatı ilə, tərəvəzçilik, taxılçılıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi, məscid var.

**KOTAM** – Ordubad r-nu ərazisində dağ. Kotam k.-ndən 4 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Hünd. 2821 *m*. Sıldırım yamaclı konusvarı zirvədir.

**KOTAM** – Ordubad r-nunda kənd. Ordubad ş. bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 5 *km* c.-ş.-də, Naxçıvan–Bakı d.y.-nun şm. tərəfindədir. Əh. 382 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**KOTAM MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Ordubad ş.-ndən 8 *km* ş.-də, Kotamçayın dərin dərəsində, Kotam k.-ndən 5 *km* aralıdır. Bulağın debiti 25 $m^3/gün$, tempru 14,5°C-dir.

Balneoloji tərkibi:

$$CO_2 1{,}0\ M1{,}8\frac{HCO_3 91}{Ca85(Na+K)10}\cdot pH\,7{,}7\ D\,25\,m^3/gün\ T\,14{,}5^\circ C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, kalsiumludur. Müalicə məqsədləri üçün istifadə etmək olar.

**KOTAM MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Kotam k.-ndən 6 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin c.-q. yamacında, dəniz səviyyəsindən 1300–2000 *m*. hünd.-dədir. Geoloji quruluşunda Mehri-Ordubad plutonunun ekzokontaktındakı skarn süxurları iştirak edir. Mis-kobalt filizləşməsi zona tiplidir və Mehri-Ordubad intruziyası ilə əlaqədardır. Zonanın eni 20–80 *m*, uz. 2,5 *km*-dir. Filizlərdə 0,1–1,5% mis, 0,01–0,2% kobalt var. Əsas filiz mineralları pirit, xalkopirit, kobaltin, qlaukodat, şmaltin, linneit və zigenitdir. Tekstur əlamətlərinə görə filizlər möhtəvi və damarcıq tiplidir.

**KOTAMÇAY** – Ordubad r-nu ərazisində çay. Arazın qolu. Zəngəzur silsiləsinin c.-q.



yamaclarından (1640 *m* hünd.-dən) başlanır, 617 *m* hünd.-də, Kotam k. yaxınlığında Araza tökülür. Uz. 8 *km*, hövzəsinin sah. 22 $km^2$-dir. Əsasən, yağış suları ilə qidalanır. Tez-tez daşqınlar və güclü sellər olur. Əkin sahələrinin suvarılmasında istifadə edilir.

**KÖÇÜRMƏ SİYASƏTİ**, K ö ç ü r m ə – Çar Rusiyasında 18 əsr–20 əsrin əvvəlində mərkəzi əyalətlərdən rus əhalisinin, həmçinin İran və Türkiyədən xristian əhalinin (ermənilər, aysorlar, yunanlar və s.) işğal olunaraq Rusiya imperiyasına qatılmış geniş ərazilərə (Krım, Şimali və Cənubi Qafqaz, Mərkəzi Asiya, Sibir və s.) köçürülməsi. Bu tədbir yerli türk, müsəlman və digər xristian olmayan xalqları sıxışdırmaq, zorla ruslaşdırmaq və xristianlaşdırmaqla onların əzəli torpaqlarına sahiblənmək, həmçinin daxili iğtişaşları qismən də olsa azaltmaq kimi sırf müstəmləkəçi imperialist məqsədlər güdən qatı irticaçı dövlət siyasəti idi. Rusiya imperiyası yarandıqdan (1721) və I Pyotrun İran yürüşündən (1722–23) sonra əsası qoyulmuş, II Yekaterinanın hakimiyyəti illərində (1762–96) əməli surətdə həyata keçirilməsinə başlanılmış, Rusiya–İran (1804–13; 1826–28) və Rusiya—Türkiyə (1828–29; 1877–78 və s.) müharibələrindən və Rusiyada kəndli islahatından (1861) sonra xeyli sürətləndirilmişdi.

K. s.-ndə Cənubi Qafqaz, xüsusən də onun qədimdən azərb.-ların məskunlaşdığı Şimali Azərb. hissəsi mühüm yer tuturdu. Hələ 1724 ilin oktyabrında I Pyotrun erməni xalqı haqqında fərmanına görə, Rusiyanın işğal etdiyi torpaqlara ermənilərin köçürülməsi və məskunlaşdırılması nəzərdə tutulmuşdu; bu siyasət onun varisləri tərəfindən ardıcıllıqla davam etdirilmişdi. Türkmənçay müqaviləsi (1828) ilə, İrəvan və Naxçıvan xanlıqları da daxil olmaqla, bütün Şimali Azərb. torpaqları Rusiyaya birləşdirildikdən sonra bu siyasəti hüquqi cəhətdən təmin etmək üçün tədbirlər görüldü və erməni katalikosu Nerses Aştaraksi ermənilərin Azərb.-a köçürülməsi planına dair layihə hazırladı; onun hazırlanmasında və həyata keçirilməsində A. S. Qriboyedov mühüm rol oynadı. Bu məqsədlə hələ Rusiya ilə İran arasında müharibə davam edərkən – 1827 ilin noyabrında ermənilərin köçürülməsinə rəhbərlik etmək üçün polkovnik Yegidzor Lazaryan (Lazarev) xüsusi olaraq Təbrizə dəvət edilmişdi. Bu məsələ Türkmənçay müqaviləsinin ayrıca bir maddəsində öz əksini tapmışdı. Ermənilərin Azərb.-a köçürülməsini təşkil etmək üçün Naxçıvan və İrəvanda köçürmə komitələri yaradıldı. Köçürülənlərə mühüm imtiyazlar verildi və onlar 6 il müddətində vergi və mükəlləfiyyətlərdən azad edildilər. İrandan alınan təzminat hesabına onlara vəsait ayrıldı və s. K. s.-ni həyata keçirmək üçün İran sərhədinə 80 min kazak yeridildi. 1828–30 illərdə İrandan 40–50 min, Türkiyədən isə 90 minə yaxın erməni köçürülmüşdü. Ermənilərin Cənubi Qafqaza, xüsusilə Şimali Azərb.-a köçürülməsinə ciddi əhəmiyyət verilirdi. Onlar erməni əhalisinin cüzi olduğu Naxçıvan, İrəvan və Qarabağ vil.-lərinin ən yaxşı torpaqlarında yerləşdirilirdi. Rus tarixçisi V.Q.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsərində yazdığına görə, təkcə 1828 ilin yayında İrandan Naxçıvan mahalına 2551 erməni ailəsi (12755 nəfər) köçürülmüşdür. Bunlardan 416-sı (2080 nəfər) Naxçıvan ş.-ndə, 1869-u (9345 nəfər) Naxçıvan əyalətində, 266-sı (1330 nəfər) isə Ordubad dairəsində yerləşdirilmişdi. Naxçıvan əyalətinə köçürülmüş 1869 erməni ailəsindən 1127-si Naxçıvan əyalətinin tabeliyindəki kəndlərdə, 362-si Əlincəçay əyaləti kəndlərində, 369-u Dərələyəz əyaləti kəndlərində məskunlaşdırılmışdı. Mənşəcə fransız olan etnoqraf və tarixçi, İ. İ. Şopenin məlumatına görə, 1829/30 ildə Ordubad əhalisinin 3444 nəfərindən 3260-ı müsəlman (azərb.-ı) idi. Ermənilərin Azərb.-a köçürülməsi siyasəti 19 əsrin sonunadək davam etdirilmiş, nəticədə 20 əsrin əvvəllərində İrandan, Türkiyədən, digər Şərq ölkələrindən Cənubi Qafqaza 1 mln. nəfərdən artıq erməni köçürülmüş və yerli erməni əhalisi ilə birlikdə onların sayı 1 mln. 300 min nəfərə çatmışdı.

Ermənilərin Şimali Azərb.-a köçürülməsi nəticəsində Naxçıvan, İrəvan və Qarabağ bölgələri əhalisinin etnik tərkibi əsaslı dəyişikliyə məruz qalmışdır. Əgər köçürülməyədək Naxçıvan bölgəsində cəmi 434 erməni ailəsi yaşayırdısa, köçürülmədən sonra bütövlükdə Naxçıvan vil.-inə (Ordubad dairəsi daxil olmaqla) köçürülən erməni ailələrinin sayı 2551-ə çatmışdı. Rusiya işğalından əvvəl ermənilər İrəvan xanlığı əhalisinin 20%-dən

bir qədər çoxunu təşkil edirdisə, 1834–35 illərdə bu, 48% olmuşdu. 1823 ildə Qarabağ vilayətində yaşayan 20 minədək ailənin ancaq 1,6 mini (8,4%) erməni ailəsi idisə, 1832 ilin məlumatına görə, burada ermənilərin sayı 34,8%-ə çatmışdı. Ermənilərin İrəvan, Naxçıvan, Qarabağ ərazilərinə köçürülməsi yerli əhali ilə münasibətlərin pozulması, hətta yerli azərb.-lı evlərinin, torpaq sahələrinin zorla alınıb köçürülənlərə verilməsi ilə müşayiət olunurdu ki, bu da milli ədavət və münaqişə üçün zəmin yaradırdı.

Ermənilərin məqsədyönlü şəkildə Şimali Azərb. torpaqlarında yerləşdirilməsi prosesi, müəyyən forma dəyişikliyinə uğramaqla, 20 əsrdə də davam etdirildiyindən, bu yerlərdə onların sayı artdıqca, ərazi iddiaları da güclənmiş, əsrin sonuna doğru isə Ermənistanın Azərb. Respublikasına silahlı təcavüzü və torpaqlarımızın 20%-nin işğal olunması ilə nəticələnmişdir.

19 əsrdə rusların Şimali Azərb.-a köçürülməsi K. s.-nin ayrılmaz tərkib hissəsi olmuşdur. İlk köçürülənlər təriqətçilər və bidətçilər (malakan və duxoboyarlar) olmuşdular. Bu barədə Rusiya hökumətinin ilk sərəncamı 1830 ildə verilmiş və Şimali Azərb.-da ilk rus məskənlərinin yaranması da bu dövrə təsadüf etmişdi. 19 əsrin 30–40-cı illərində Cənubi Qafqazda salınmış 34 rus kəndindən çoxu (30-dək) Şimali Azərb.-da idi; 1844 ildə Cənubi Qafqaza köçürlən 8618 təriqətçi və bidətçidən 7 min nəfərə qədəri burada məskunlaşmışdı. 90-cı illərdə Bakı quberniyasında 21, Yelizavetpol quberniyasında 14



Köhnəqala. Qala divarı və bürc.

rus kəndi salınmışdı. 1899–1905 illərdə bu quberniyalarda 28 yeni rus kəndi yaranmışdı. 1907 ilin əvvəlində Qafqazda vahid köçürmə idarəsi təşkil olunmuş, 1908–12 illərdə Qafqaza köçürülən 8326 ailənin 4 mindən çoxu Şimali Azərb.-da yerləşdirilmişdi. Çarizm yerli kəndlilərin torpaqlarını zəbt etmək hesabına köçürmə torpaq fondu yaradır, rus kəndlilərini silahlandırırdı. Muğanda və Mildə təkcə 4 kəndin 2 mindən çox azərb. ailəsi öz ata-baba yurdlarından qovulduqları halda, 1912 ildə Rusiyadan müxtəlif vaxtlarda Muğana köçürülmüş 20 min nəfər əhalinin yaşadığı 49 kənd salınmışdı. Yerli əhalinin torpaq hüquqlarının kobudcasına pozulması nəticəsində aztorpaqlı və torpaqsız kəndlilərin sayı ildən ilə artırdı.

20 əsrin əvvəllərində ermənilərdən və ruslardan əlavə Şimali Azərb.-da 17226 polyak, 4561 latış, 2724 moldavan, 82043 nəfər yunan və s. yerləşdirilmişdi ki, onların da əksəriyyəti münbit torpaqlara sahiblənə bilmişdilər.

K. s. Azərb. xalqının doğma vətəni və milli mövcudluğu üçün təhlükə törətdiyindən onda milli mənlik şüurunun təşəkkül tapmasına ciddi təkan verdi, millət kimi təşkil olunaraq, hüquqları uğrunda mübarizəyə qalxmaq əzmini gücləndirdi.

*Əd.*: Sədi Koçam M., Tarixdə ermənilər və türk–erməni münasibətləri, B., 1998; Глинка С., Описание переселения армян азербайджанских в пределы России, М., 1831, Б., 1990; Григорев В. Г., Статистическое описание Нахичеванской провинции, СПб, 1883.



Köhnəqala yaşayış yerinin qala divarları.

**KÖHNƏKƏND** – Şərur r-nunun Siyaqut k. yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Arxeoloji qazıntı işləri aparılmamışdır. Kəşfiyyat xarakterli yerüstü tədqiqatlar nəticəsində maddi mədəniyyət nümunələri (xüsusilə saxsı qab qırıqları) aşkar edilmişdir. Tapıntılara əsasən K. yaşayış yerinin 9–17 əsrlərə aid olması ehtimal edilir.



**KÖHNƏQALA** – orta əsr Naxçıvan ş.-nin *Narınqala* hissəsinin xalq arasında geniş yayılmış adı. Hazırda Naxçıvan ş.-nin c.-ş. ərazisindədir. İki hissədən–kiçik qala və böyük qaladan ibarətdir. Rəvayətə görə, əfsanəvi peyğəmbər *Nuhun* qəbri K.-da, şəhər qəbiristanlığının yaxınlığında olmuşdur. Görkəmli Azərb. rəssamı Bəhruz Kəngərli Nuhun K.-dakı qəbrinin yağlı boya ilə rəsmini çəkmişdir; əsər Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

**KÖHNƏQALA** – Şahbuz r-nunda, Şahbuz k. yaxınlığında, *Şapurqaladan* xeyli yuxarıda orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 10 *ha*-dan artıqdır. Hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Arxeoloji kəşfiyyat işləri zamanı gil qab qırıqları tapılmışdır. K.-nın c.-ş. hissəsində daş divar qalıqları 150 *m* məsafədən izlənilir. Yerüstü materiallar dəmir əşyalardan (çox güman ki, bıçaq tiyəsi), şirsiz (küp, qazan tipli qablar və s.) və şirli (kasa, boşqab tipli qablar, çıraq və s.) saxsı məmulatından, şüşə qab hissələrindən ibarətdir. Yaşayış yeri 14–18 əsrlərə aid edilir.

**KÖMÜRDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3364 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**KÖMÜRLÜDAĞ** – Sədərək r-nu ərazisində dağ. Hünd. 2064 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**KÜKÜ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-da, Kükücayın sahilində, Dərələyəz silsiləsinin c.-q. yamacındadır. Əh. 1387 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, kənd səhə xəstəxanası, uşaq bağçası, rabitə şöbəsi var.

**KÜKÜ I** – Şahbuz r-nunda, eyniadlı kəndin girəcəyində, Kükücayın sağ sahilində qədim yaşayış yeri. İki hündür təpəni və onların ətəyini əhatə edir. Sah. 74 *ha*-dan artıqdır. Aparılan kəşfiyyat işləri mədəni təbəqənin dağıldığını göstərir. Yaşayış yerinin bəzi hissələrində uçub-tökülmüş daş yığınlarına təsadüf edilir. Binalar dağın relyefinə uyğun olaraq ensiz səkilərdə yerləşmişdir. Divar qalıqları bəzi yerlərdə 50 *m* məsafədən izlənilir. Yaşayış yerindən çəhrayı və boz rəngli gil küpə, kasa və badya qırıqları tapılmışdır. Ərazidə qədim qəbirlərin olması güman edilir. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış yerinin şimal hissəsində torpaq işləri görülərkən qəbirlər aşkar edilmiş, lakin onların yeri tamamilə dağıdılmış, materialları isə saxlanılmamışdır. Yaşayış yerindən toplanmış yerüstü materiallar e. ə. II–I minilliklər, şurfdan aşkar olunmuş materiallar isə e. ə. I minilliyin əvvəlləri üçün səciyyəvidir.

**KÜKÜ II** – Şahbuz r-nunda Kükücay ilə Zırnel çayının qovuşduğu yerdən bir qədər aşağıda ilk Dəmir dövrünə aid arxeoloji abidə. Kükücayın sağ sahilində, hündür təpə üzərində olub, hər tərəfdən dərin dərə ilə əhatələnmişdir. Sah. 6400 $m^2$-dir. Yaşayış yerində iri daşlardan tikilmiş bina qalıqlarına rast gəlinir. Otaqların saxlanmış qalıqlarına əsasən, demək olar ki, onlar dördbucaqlı formada olmuşdur. Saxlanmış divar qalıqları bir cərgə iri daşlardan ibarətdir. Cənub-qərb tərəfdə iki cərgə daşdan hörülmüş divar qalıqlarına təsadüf edilmişdir. Bəzən bitişik, bəzən isə bir-birindən aralı yerləşən otaqlar iri həcmli olub, sah. 35 $m^2$-ə çatır. Yaşayış yerindən çəhrayı rəngli gil qab qırıqları tapılmış, Kükücayın sağ sahilində qaval daşına təsadüf olunmuşdur. Abidənin e. ə. 2-ci minilliyin sonu və 1-ci minilliyin əvvəlinə aid olması ehtimal edilir.

**KÜKÜ KÖRPÜSÜ** – Şahbuz r-nu ərazisində, Şahbuz – Kükü avtomobil yolunun 14 *km*-liyində, Kükücay üzərindədir. Uz. 20 paqonometr. K.k.-nün inşa edilib istifadəyə verilməsi (1997) nəticəsində Arınc, Aşağı və Yuxarı Remeşin, Kükü k.-lərinin r-n mərkəzi, həmçinin magistral avtomobil yolu vasitəsilə Naxçıvan ş. ilə əlaqəsi təmin edilmişdir.

**KÜKÜ NEKROPOLU** – Şahbuz r-nundakı eyniadlı kəndin içərisində Tunc dövrünə aid arxeoloji abidə. Tikinti işləri zamanı abidənin qədim qəbirlər olduğu müəyyənləşdirilmişdir. Tədqiqatlar nəticəsində birinci qəbirdən iri monoxrom boyalı küpə və boz rəngli qablar, həmçinin iribuynuzlu heyvan sümükləri aşkar edilmişdir. Bəzi yerlərdə nazik kül təbəqəsinə, daha dərinliklərdə isə iri daşlara təsadüf olunmuşdur. Tapıntılara əsasən, 3 *m*




**Kükü nekropolundan tapılmış materiallar:** 1, 2, 6, 7. Sadə və naxışlı gil qablar. 3, 4. Küpə tipli monoxrom boyalı gil qablar. 5. Parç tipli gil qab (Tunc dövrü).

dərinlikdə yerləşən qəbrin (uz. 2,5 *m*) salamat qalan hissəsinin eni 0,6 *m* idi. İkinci qəbir tamamilə dağılmışdır. Salamat qalan hissəsinin uz. 4 *m*, eni 0,6 *m* olub, birinci ilə eyni istiqamətdə idi. Dağılmış qəbrin boz rəngli gil qablardan (küpə, kasa, badya tipli qab qırıqları) ibarət avadanlığının üzərini örtən kül qalıqlarına təsadüf edilmişdir. Qəbir boyu heyvan sümükləri səpələnmişdir. Qəbirdən tunc nizə ucluğu və tunc sancaqlar da tapılmışdır. Maddi mədəniyyət nümunələrinin təhlilindən K. n.-nun e.ə. 3-cü minilliyin sonu – 2-ci miniliyin əvvəllərinə aid olduğu ehtimal edilir.

*Əd.:* S e y i d o v A. Q., Naxçıvan Tunc dövründə, B., 2000.



Küləcə. 19 əsr. Naxçıvan.




**Kültəpə I. Eneolit dövrü keramika məmulatı:** 1, 2, 4. Çəllək tipli gil qablar. 3, 5. Küpə tipli gil qablar. 6–12. Boyalı gil qablar.

**KÜKÜÇAY** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Mənsəbindən 46 *km* məsafədə ona tökülür. Uz. 20 *km*, hövzəsinin sah. 105 $km^2$-dir. Əsasən qar, qrunt və yağış suları ilə qidalanır.

**KÜKÜDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin ən yüksək zirvəsi. Hünd. 3120 *m*. Neogenin vulkanogen süxurlarından təşkil olunmuşdur. Dağ çöllərindən subalp çəmənlərinə keçid təşkil edən bitki örtüyü geniş sahə tutur. Yay otlağıdır. Küküçay (Naxçıvançayın sağ qolu) buradan başlanır.

Naxçıvan arxeoloji ekspedisiyası K. yaylaqlarında qədim dövrlərdən (e. ə. 3-cü minillikdən) başlayaraq, erkən orta əsrlərə qədər bir çox qədim abidələri qeydə almışdır. Qədim yaşayış yerlərinin və qəbir abidələrinin topoqrafiyası bu ərazilərdə həyatın bütün tarixi dövrlərdə ardıcıl davam etdiyini göstərir.

**KÜLƏCƏ** – qadın üst geyimi; biçim etibarı ilə qadın arxalığının bir növü. Naxçıvan bölgəsində geniş yayılmışdı. Bahalı qalın parçadan (məxmər, tirmə, şal, xara, zərxara və s.) tikilən K.-yə sətin və ya çitdən astar çəkilirdi. K.-nin yaxası, bel calağı, ətəyi və biləkağzı çox vaxt güləbətin, muncuq, pilək və s. tikmə ilə bəzədilirdi. Əhali arasında 19–20 əsrin əvvəllərinədək qalmışdı.

*Əd.:* И з м а й л о в а А. А., О народной одежде Нахичеванской зоны в XIX–начале XX века, Azərb. SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriysı), 1981, №2.

**KÜLLÜK** – Şərur r-nunun Kosacan k.-ndə orta əsrlərə aid yaşayış yeri. Geniş arxeoloji axtarışlar və qazıntılar aparılmamışdır. Əldə olunmuş maddi mədəniyyət qalıqlarına əsasən K. yaşayış yerinin 9–17 əsrlərə aid olması ehtimal edilir.

**KÜLTƏPƏ** – Sədərək r-nunun Sədərək k. yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Sah. təqr. 5 *ha*. 1970 ildə qeydə alınmışdır. Oval formalı təpədən ibarətdir. Üzərində keramika məmulatı fraqmentlərinə və daş əmək alətlərinə rast gəlinmişdir. Mədəni təbəqə kül qarışıq gil laylarından, çaxmaqdaşı və obsidian (d ə v ə g ö z ü) qırıntılarından ibarətdir; kül yığınlarına, ocaq qalıqlarına da təsadüf edilmişdir. Təbəqədən çiy kərpic sınıqları, çay daşıları, digər tikinti qalıqları əl-



də edilmişdir. Xeyli miqdarda keramika məmulatı – xüsusilə boz və qırmızı rəngdə bişirilmiş gil qab nümunələri, üzəri qırmızı anqobla örtülərək qara rənglə naxışlanmış boyalı qablar və s. tapılmışdır. Aşkar olunmuş materiallara əsasən K. yaşayış yeri e. ə. 3–1-ci minilliklərə aid edilir.

**KÜLTƏPƏ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 13 *km* şm.-da, Naxçıvançayın sol sahilində, dağətəyi düzənlikdədir. Əh. 1796 nəfər (2000); taxılçılıq, heyvandarlıq, quşçuluq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, ambulatoriya, məscid var.

**KÜLTƏPƏ I** – Naxçıvan ş.-ndən 8 *km* şm.-ş.-də, Babək r-nunun Kültəpə k. ərazisində, Naxçıvançayın sol sahilində Eneolit – ilk Dəmir dövrünə aid (e. ə. 4-cü minillik – e. ə. 1-ci minilliyin əvvəli) aid yaşayış yeri. Dövrümüzədək salamat qalmış hissəsinin sah. 1,5 *ha*-dır. İlk dəfə 1904 ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, əldə olunmuş materialların bir qismi Tiflis Qafqaz Muzeyinə verilmişdir (1905). Qazıntılar zamanı (1951) 22,2 *m* qalınlığında 4 mədəni təbəqə öyrənilmişdir. Qalınlığı təqr. 9 *m* olan alt təbəqədən Eneolit dövrünə (e. ə. 4-cü minillik) aid dairəvi planlı, bünövrəsi çay daşları və gil məhlulu, divarları möhrəpalçıqla hörülmüş yaşayış binaları, təsərrüfat tikililəri, ocaq və kürələrin qalıqları, 85 qəbir aşkar edilmişdir. Ölülər, əsasən, bükülü və arxası üstə uzadılmış vəziyyətdə tək, qoşa və kollektiv dəfn olunmuşdur. Qəbirlərə məişət avadanlıqları, əmək alətləri, bəzək əşyaları qoyulmuşdur. Obsidian (d ə v ə g ö z ü) və çaxmaqdaşıdan nukleuslar, bıçaq, oraq dişləri, toxa, həvəngdəstə, küpə, biz, toppuz, dəndaşı, sadə və boyalı saxsı qablar, mis məmulatı, həmçinin Yaxın Şərq ölkələrindən gətirilmiş boyalı qablar tapılmışdır. Qalınlığı 9,5 *m* olan 2-ci təbəqədən Tunc dövrünə (e.ə. 3-cü minillik) aid yaşayış binaları və təsərrüfat tikililəri, gil sobalar, manqallar, daşdan qurulmuş dairəvi ocaq yeri aşkar olunmuş, əmək alətləri, tunc əşyalar (silah və bəzək şeyləri), yapma naxışlı və cızma bəzəkli cilalanmış boz və qara saxsı qablar, gildən öküz, qoyun, keçi fiqurları, kömürləşmiş arpa, buğda, darı qalığı əldə edilmişdir. Ta-





Kültəpə I. Manqal. Nalşəkilli ocaq qurğusu İlk Tunc dövrü.

pıntılar Kür-Araz mədəniyyəti üçün səciyyəvidir. 3-cü təbəqə orta və son Tunc dövrünə (e.ə. 2-ci minillik) aiddir. Qalınlığı 2 *m* olan mədəni təbəqədən daş, sümük və tuncdan əmək alətləri, tunc bəzək əşyaları, boz, qara, qırmızı rənglərlə həndəsi rəsmlər və quş təsvirləri ilə bəzədilmiş boyalı qablar və s. tapılmışdır. K.-də e. ə. 2-ci minillikdə ibtidai icma quruluşu zəifləmiş, mülki bərabərsizlik yaranmışdı. Qalınlığı 1,5 *m* olan 4-cü təbəqə ilk Dəmir dövrünə (e. ə. 1-ci minilliyin əvvəlləri) aiddir. Buradan bazalt və tufdan dən daşıları, sürtgəc, qırmızı və boz rəngli boyalı qablar, heyvan sümükləri aşkar edilmişdir. Polixrom boyalı qablar bədii tərtibatına görə nəinki Azərb.-ın, eləcə də qədim dünyanın ən nadir incəsənət nümunələri sayıla bi-




**Kültəpə I. Kür-Araz mədəniyyəti tapıntıları:** 1, 2. Küpə tipli gil qablar. 3. Silindrik formalı gil qazan. 4. Tava tipli gil qab. 5, 6. Kasa tipli gil qablar. 7, 8. Gil ocaq qurğuları. 9–11. Bədii tərtibatlı gil qab qırıqları. 12, 13. Gil öküz fiqurları. 14. Daş dəstək. 15, 16. Daş baltalar. 17. Üst dən daşı. 18. Toppuz. 19. Daş gürz.

Kültəpə I. Monoxrom və polixrom boyalı gil qablar.



lər. K. I Cənubi Qafqazın Eneolit və Tunc dövrləri abidələrinin stratiqrafiya və xronologiyasının ardıcıllıqla öyrənilməsində böyük əhəmiyyətə malikdir.

Əd.: H ə b i b u l l a y e v O. H., Kültəpədə arxeoloji qazıntılar, B., 1959; Ə l i y e v V. H., Qədim Naxçıvan, B., 1979; А б и б у л л а е в О., Энеолит и бронза на территории Нахичеванской АССР, Б., 1982.

**KÜLTƏPƏ II** – Naxçıvan ş.-ndən 12 *km* şm.-da, Yuxarı Uzunoba k. yaxınlığında, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə e.ə. 4–1-ci minilliklərə aid yaşayış yeri. Sah. 3 *ha*-dan çoxdur. 12 *m* qalınlığında 4 mədəni təbəqə öyrənilmişdir. Kür-Araz mədəniyyətinə aid alt təbəqədən dairəvi yaşayış binaları, müdafiə divarı, təsərrüfat tikiləlləri, daş, tunc və sümükdən əmək alətləri (belə alətlər K. II ilə həmdövr olan duz mədənlərində də tapılmışdır), boz, qara, çəhrayı rəngli gil qablar, kömürləşmiş taxıl qalığı, heyvan sümükləri və s. aşkar



Kültəpə II. Kür-Araz mədəniyyəti tapıntıları: 1, 2. Dən daşları. 3, 4. Daş gürzlər. 5. Daş həvəng – dibək. 6. Gil araba təkəri modeli. 7. Çaxmaqdaşıdan oraq dişi. 8. Daş asma. 9, 10. Obsidian ox ucları. 11. Tunc nizə ucu. 12, 13. Tunc bəzəklər. 14. Sümük biz.



Kültəpə II. İlk Tunc dövrünə aid tikinti qalıqları və nalşəkilli ocaq qurğusu.

edilmişdir. 2-ci təbəqədən (qalınlığı 4 *m*) orta Tunc dövrünə aid qala divarları (uz. 35 *m*, hünd. 1,4 *m*), yaşayış binaları, dulusçuluq emalatxanaları, dulus kürələri, metaləritmə sobasının qalığı, metal emalı ilə bağlı əmək alətləri, təsərrüfat tikililəri, məbəd qalıqları və s. üzə çıxarılmışdır. Qala divarları dördkünc bürclərlə möhkəmləndirilmişdir. Qazıntı zamanı daş heykəl, əmək alətləri (vəl, dən daşları, bıçaq, gürz, balta, iskənə, biz və s.), tunc əşyalar, bəzək şeyləri, taxıl qalıqları, müxtəlif heyvan sümükləri, gil qablar və s. tapılmışdır. Qırmızı və sarı fonlu boyalı qablar insan, quş, heyvan təsvirləri və s. rəsmlərlə bəzədilmişdir. Boyalı qab parçasının birinin üzərində bir-birinə yaxın dayanmış iki adam fiqurunun yuxarı hissəsi qalmış, birinin başında küləkdən dağılmış saç, yaxud ləläkdən düzəldilmiş çələng vardır. Onların əlləri yuxarıya qalxmışdır. Ola bilsin ki, bu səhnə Naxçıvanın Tunc dövrü tayfalarının dini ayinlərini əks etdirir. Bu mərhələdə K. II böyük tayfa birliyinin iqtisadi, dini mərkəzinə, şəhər tipli yaşayış yerinə çevrilmişdi. 3-cü (son Tunc dövrü) və 4-cü (ilk Dəmir dövrü) təbəqələrdən qala divarları və yaşayış evlərinin qalıqları, ocaqlar, dən daşları, daş gürzlər, boz və qırmızı rəngli sadə və polixrom boyalı gil qablar, heyvan sümükləri və s. aşkar olunmuşdur. 4-cü təbəqənin monoxrom boyalı qabları sadə qırmızı rəngli rəsmlərlə naxışlanmışdır. Əkinçilik, maldar-

Kültəpə II. Boyalı keramika məmulatı.





lıq, dulusçuluq, toxuculuq, metalişləmə və s. ilə məşğul olmuş K. II əhalisinin arasında əmlak bərabərsizliyi yaranmış, ilk sinifli cəmiyyətə məxsus patriarxal quldarlıq rüşeymləri meydana gəlmişdi. K. II abidələri və onunla bilavasitə əlaqədar olan qədim duz mədəni Azərb.-da Tunc dövründə ilk şəhərlərin yarandığını göstərir və Azərb.-ın Yaxın Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələr saxladığını sübut edir.

Əd.: С е й д о в А. Г. Памятники куро-араксской культуры Нахичевани, Б., 1993; Bax. həmçinin *Kültəpə I* məqaləsinin ədəbiyyatına.

**KÜLTƏPƏ NEKROPOLU** – Babək r-nunun Didivar k. yaxınlığında, Naxçıvançayın sağ sahilində Tunc dövrünə aid arxeoloji abidə. 1964 ildə torpaq işləri zamanı aşkar olunmuşdur. Qəbiristanlıq q.-ş. istiqamətində bir cərgə düzülmüş daş qutu tipli qəbirlərdən ibarətdir. Tədqiqatlar nəticəsində qırmızı yerliyində qara xətlərlə bəzədilmiş boyalı gil qablar (dolça, kasa, küpə və s.) aşkar olunmuşdur. Tapıntılar *Kültəpə* I və *Kültəpə* II yaşayış yerlərindən tapılmış maddi mədəniyyət nümunələri ilə oxşardır.

**KÜLÜS** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 13 *km* c.-ş.-də, Şahbuz–Keçili yolunun kənarında, Zəngəzur silsiləsinin c.-q. yamacındadır. Əh. 1138 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**KÜLÜS** – Şahbuz r-nunda eyniadlı kəndin c.-ş.-ndə, Külüsçayın sol sahilində , hündür və uzunsov dağın c.-ş.-ndə qədim yaşayış yeri. Sah. 14800 *m2*-dir. Yaşayış yeri 1990 ildə qeydə alınmışdır. Hər tərəfdən dərin dərələrlə əhatə olunmuş, şm.-ş.-də ümumi dağ silsiləsi ilə əlaqələnən yaşayış yerinin şm.-ş.-və c.-ş. tərəfində uçub tökülmüş tikinti qalıqları saxlanmışdır. Mədəni təbəqənin əlamətlərinə təsadüf olunmamışdır. Yaşayış yeri daimi olmadığından mədəni təbəqə yuyulub dağılmışdır. Abidənin üzərində dən daşlarına, çəhrayı və boz rəngli gil qab qırıqlarına təsadüf olunmuşdur. Yaşayış yerinin şm.-q. hissəsində qədim nekropol qeydə alınmışdır. Qəbirlərin bir qrupu traktorun açdığı yarğana düşdüyündən dağıdılmışdır. Dağıdılmış sahədə kül yığınına, insan skeletinin qalıqlarına



Kültəpə II. Orta Tunc dövrü daş məmulatları: 1. Daş heykəl (büt). 2. Dən daşı. 3. Çaxmaqdaşıdan quraşdırma oraq dişləri. 4, 5. Obsidian lövhələr. 6. Daş körük ucluğu. 7. Həvəng və dəstə. 8. Obsidian ox ucluğu. 9. Daş toppuz.

və boz rəngli gil qab qırıqlarına rast gəlinmişdir. Yaşayış yerindən toplanmış arxeoloji materialların təhlili onları e. ə. 11–6 əsrlərə aid etməyə imkan verir.

Əd., S e y i d o v A. Q. Tarixdən səhifələr, B., 1999.

**KÜLÜS NEKROPOLU** – Şahbuz r-nunun Külüs k. yaxınlığında, Külüsçayın sol sahilində, qədim yaşayış yerinin şm.-q.-ndə son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Torpaq işləri zamanı nekropol dağılmış, mədəni təbəqəyə təsadüf olunmuş, iri və xırda dağ daşlarına, boz rəngli kül yığınına, gil qab hissələrinə və skelet qalıqlarına rast gəlinmişdir. Aşkar olunmuş daş qutu qəbir-

Kültəpə II. Arxeoloji qazıntı sahəsi.



lərdən tunc xəncər, nizə ucu, bədii tərtibatla hazırlanmış tunc bilərzik, sırğa, üzük, diskvarı asmalar, əqiq və pasta muncuqlar (bəzək əşyaları Naxçıvanda Tunc dövrü incəsənətinin yüksək inkişafını göstərir), cızma, çərtmə naxışlarla bəzədilmiş küpə, cam, kasa, qədəh və parç formalı gil qablar tapılmışdır. Abidə e. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərinə aid edilir.

**KÜLÜSÇAY** – Şahbuz r-nu ərazisində çay. Şahbuz çayının (Naxçıvançayın qolu) sol qolu. Zəngəzur silsiləsinin c.-q. yamacından, 1975 *m* hünd.-dən başlanır. Uz. 3,2 *km*. Qar və yağış suları ilə qidalanır.

**KÜRDƏTAR MƏHƏLLƏSİ** – Ordubad ş.-ndə qədim yaşayış məhəlləsi. Ordubadçayın sol sahilindədir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və s. yerləşir. Məlumata görə, K. məhəlləsinin meydanındakı çinar çox qədimdir. Mənşəcə fransız olan tarixçi-etnoqraf İ.İ.Şopen (19 əsr) məhəllədəki meydanlardan dördbucaqlı Kürdmeydanını (K ü r d ə t a r) şəhərin "ən yaxşı meydanı" adlandırmışdır.

**KÜRDÇÜLÜ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 5 *km* c.-q.-də, Azərb. beynəlxalq d.y.-ndan 1 *km* aralı, Şərur düzündədir. Əh. 792 nəfər (2000); əkinçilik, tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var.

**KÜRDKƏND** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 3 *km* c.-q.-də, Azərb. beynəlxalq d.y.-dan 1 *km* aralı, Şərur düzündədir. Əh. 830 nəfər (2000); tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**KÜRNİZOR** – Babək r-nu ərazisində dağ. Nehrəm platosunda, Camaldin k.-ndən 1,5 *km*. c.-q.-dədir. Hünd. 1276 *m*. Q. yamacı sıldırım olan günbəzvarı formaya malikdir.



# Q

**QABAXLI** – Şərur r-nu ərazisindəki Axura çayının (Arpaçayın qolu) qədim adı.

**"QABAQCIL"** – qəzet. Şahbuz Rayon İcra Hakimiyyətinin orqanı olan *"Oğuz səsi"* qəzetinin 1966–92 illərdə adı.

**QABAQLI QƏBİRİSTANI** — Azərb.-ın tarixi Zəngəzur mahalının Dərələyəz k.-ndə mövcud olmuş azərb.-lara məxsus qəbiristanlıq. Ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Ancaq qoç heykəlli bir məzar daşının fotosu məlumdur. Məzar daşının üzərindəki kitabədən onun Haqverdi bəy adlı bir şəxsə aidliyi məlum olur. Formasına, həkkolunma texnikasına əsasən abidənin 14-15 əsrlərə aid olması ehtimal edilir. Azərb. Dövlət Tarix Arxivində (fond 290–291) Dərələyəz k.-ndə yaşamış azərb.-ların sayı, məktəblər, məscidlər, imamzadə və digər müsəlman abidələri haqqında məlumat var.

*Əd.*: D ə r ə l ə y ə z l i K., Dərələyəz od içində, B., 2001, səh. 76.

**QABAQTƏPƏ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-ş. yamacında, Badamlı k.-ndən 4 *km* şm.-ş.-dədir. Hünd. 2175 *m*.

**QABAQYAL** – Şərur r-nu ərazisində dağ. Yuxarı Yaycı k.-ndən 2,5 *km* c.-ş.-dədir. Hünd. 1824 *m*.

**QABULLU** – Şərur r-nu ərazisində dağ. Hünd. 1125 *m*. Dərələyəz silsiləsinin c.-q. yamacından dağətəyinə keçid hissəsində, Qabullu k.-ndən 3,5 *km* şm.-ş.-dədir.

**QABULLU**, Q a r a b u l l u – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 27 *km* aralı, Şərur–Naxçıvan avtomobil yolunun kənarındadır. Əh. 1006 nəfər (2000); heyvandarlıq, yemçilik, taxılçılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi var. Ərazisində poliqorskit gil yatağı var.

**QABULLU POLİQORSKİT GİL YATAĞI** – Şərur r-nu ərazisində, Şərur ş.-dən 26 *km* c.-ş.-də, Qabullu k.-nin ş.-indədir. Geoloji quruluşunda Üst Miosenin Sarmat mərtəbəsinin sarımtıl-boz, açıq-qəhvəyi rəngli poliqorskit gilləri və Dördüncü dövrün gil və gilcələri iştirak edir. Yataq tektonik cəhətdən orta Araz törəmə muldasının şm.-q. hissəsində yerləşir. Sah. 4 $km^2$, faydalı qatın qalınlığı 161 *m*-dir. Poliqorskit gilləri kərpic, kirəmit, məsaməli bloklar, drenaj trubaları, üzlük plitələr və aqloparit istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 992 min $m^3$-dir.

**QACAR** Xurşid (1894, Naxçıvan ş. – 1963) – müğənni (lirik soprano). Azərb. Respublikası əməkdar incəsənət xadimi. Moskva konservatoriyasını (prof. U. Mozettilinskinin sinfi) bitirmişdir (1915). Moskvada Xalq Maarif Komissarlığının incəsənət şöbəsində işləmiş, Moskva estrada ansamblının solisti (1919–24) olmuşdur. 1924–34 illərdə Azərb. Opera və Balet Teatrında fəaliyyət göstərmiş, Gülzar ("Şah İsmayıl", M. Maqomayev), Xurşidbanu, Gülçöhrə, Asya, Gülnaz ("Şah Abbas və Xurşidbanu", "Arşın mal alan", "O olmasın, bu olsun", Ü. Hacıbəyov), Mikoela ("Karmen", J. Bize) və s. partiyalarda çıxış etmişdir. 1934 ildən "Azərnəşr"də özünün təşəbbüsü ilə yaradılmış musiqi şöbəsinin müdiri işləmiş, eyni zamanda 1935 ildə Azərb. Opera və Balet Teatrı nəzdində studiya yaratmış, tələbələrin ifasında "Demon" (A. Rubinşteyn), "Çar gəlini" (N. Rimski-Korsakov) operalarını tamaşaya hazırlamışdır. "Düğah", "Rast", "Segah-Zabul" muğamlarının nota salınmasında xidməti var.

**QAÇAQ NƏBİ** [Nəbi Alı oğlu; təqr. 1854, Zəngəzur qəzasının Aşağı Mollu k. (indiki Qubadlı r-nunda) – 12.3.1896, Cənubi



Qaçaq Nəbi

Azərb., Larni k.] – xalq qəhrəmanı, qaçaq hərəkatının başçısı. Kəndlilərin torpağını tutmaq istəyən mülkədarlara müqavimət göstərdikdən sonra ( təqr. 1875) qaçaq düşmüş, 20 ildən çox yerli zülmkarlara və çar məmurlarına qarşı mübarizə aparmışdır. Q. N.-nin dəstəsi, əsasən, Zəngəzur və Naxçıvanda, habelə Cənubi Azərb.-da fəaliyyət göstərmişdir. Nəbinin qaçaq dəstəsinin hərəkət istiqamətləri haqqında Naxçıvan qəza rəisliyinin tərtib etdiyi xəritədə (1885, 6 oktyabr) dəstənin ən çox Zəngəzur, Naxçıvan, İrəvan, Təbriz və Xoy mahallarında fəaliyyət göstərdiyi qeyd olunmuşdur. Tiflisdə çıxan "Qafqaz" qəzeti də Nəbinin dəstəsinin Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz, İrəvan qəzalarında, Cənubi Azərb.-ın Təbriz, Səlmas, Xoy, Maku mahallarında vuruşduğunu yazmışdır. Q. N. həmin yerlərdə yoxsul kəndlilərin havadarı kimi böyük şöhrət qazanmışdı. Naxçıvanın Mahmudabad kəndinin sakini, Q.N.-ni görmüş Əkbər Nurməmmədov Nəbinin dəstəsi ilə kəndə gələrək, "Yarğan başı" deyilən yerdə camaata qənd, çay, çit, hətta çoxlarına pul payladığını xatırlamışdır. Zülmə məruz qalan yoxsul kəndlilər Q. N.-yə pənah aparmışlar.

Q. N.-ni ələ keçirə bilməyən hakim dairələr onu öldürmək üçün müxtəlif məkrli hiylələrə əl atırdılar. 1895 ilin sentyabrında Naxçıvan qəza rəisi Urmiyada ticarətlə məşğul olan Ordubad sakini Paşa Hacı Fərəc oğluna Q. N.-ni İranda olarkən öldürtməyi tapşırmışdı. Ehtimala görə, Paşa Hacı Fərəc oğlu qaçaqlardan ikisini sui-qəsdə cəlb edə bilmişdi. Pula satılmış Şahhüseyn və Kərbəlayı İman Q. N.-ni Kərbəla ziyarətindən qayıdarkən öldürmüşlər (bəzi müəlliflər isə Q. N.-nin İrandakı çar konsulu və İran inzibati idarələrinin birgə tədbiri ilə Araz çayını keçərkən İran sərbazları tərəfindən öldürüldüyünü göstərmişlər).

Haqqında dastan, mahnılar qoşulmuş, Süleyman Rüstəm "Qaçaq Nəbi" pyesini yazmış, "Azərbaycanfilm" studiyasında "Atları yəhərləyin" adlı bədii film (ssenari müəllifləri Süleyman Rüstəm və Əhmədağa Qurbanov) çəkilmişdir. Qubadlıda Q. N.-yə abidə qoyulmuşdur.

M ə t n: Qaçaq Nəbi (tərtib edəni Ə. Axundov), B., 1961.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 4, B., 2000; Əliyev Ə., Qaçaq Nəbi, "Azərbaycan" jurnalı, 1958, № 11; H ə s ə n o v İ., Azərbaycanda kəndli hərəkatının bəzi məsələləri (XIX əsrin sonu – XX əsrin əvvəlləri), "Azərbaycan kommunisti", 1967, № 3; R ü s t ə m z a d ə R., El qəhrəmanları xalq ədəbiyyatında, B., 1984; Г а с а н о в И., К вопросу об убийстве Качага Наби, ДАН Азерб. ССР, 1960, № 8.

**QAFAN** – 13–14 əsrlərdə Naxçıvan tüməninə daxil olmuş ərazi. Fəzlullah Rəşidəddin k. t.-na həsr olunmuş "Asar və əhya" ("Təsir və dirçəliş") əsərində iki yerdə Q.-ın Naxçıvana aid olduğunu vurğulayır. Müəllif yazır: "Zoğal Naxçıvana aid Qafanın bəzi yerlərində bitir, arğavan çiçəyi də Naxçıvan vilayətində olan Qafan dağlarında çox bitir". Q. ərazisi k. t. bitkilərinin bolluğu ilə seçilirdi.

*Əd.:* P i r i y e v V. Z., XIII–XIV əsrlər Naxçıvanının tarixi coğrafiyası, Naxçıvan Dövlət Un-tinin "Elmi əsərləri" (humanitar seriya), 1999, № 5.

**"QAFQAZ ƏRAZİLƏRİ VƏ XALQLARININ TƏSVİRİNƏ DAİR MATERİALLAR TOPLUSU"** – Qafqaz xalqları və ölkələrinin tarixindən, etnoqrafiyasından, folklorundan, coğrafiyasından və s. bəhs edən məcmuə. Bax *"Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza"*.

**QAĞARGƏRDİK** – Sədərək r-nu ərazisində dağ. Günnüt k.-ndən 4,5 *km* ş.-dədir. Hünd. 2055 *m*. Günbəzvarı formadadır.

**QAHAB** – Babək r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 16 *km* məsafədə, Yarımca k. yaxınlığında ona tökülür. Uz. 21 *km*, hövzəsinin sah. 79 $km^2$-dir. Əsasən, yağış və qrunt suları ilə qidalanır. Suyu bütünlüklə suvarmada və eyniadlı su anbarının doldurulmasında istifadə edildiyindən, Naxçıvançayın axımının formalaşmasında rolu cüzidir.

**QAHAB** – Babək r-nunun eyniadlı k.-ndə antik dövrə aid yaşayış yeri. Sah. təqr. 4 *ha*. 1970 ildə qeydə alınmışdır. Hazırda yaşayış yeri çox da hündür olmayan oval formalı təpədən ibarətdir. Mədəni təbəqə maddi mədəniyyət nümunələri ilə zəngin olub, gil qab qırıqları, daş əmək alətləri, həmçinin şüşə məmulatından ibarətdir. Aşkar olunmuş materialların bir hissəsi Nax. Dövlət Tarix Muzeyində saxlanılır. Tapıntılara əsasən, abidə e. ə. 5–1-ci əsrlərə aid edilir.

**QAHAB** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 15 *km* şm.-ş.-də, Naxçıvan–Sirab avtomobil yolundan 2 *km* aralı, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 2988 nəfər (2000); taxılçılıq, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, ambulatoriya, məscid var.



**QAHAB KÖRPÜSÜ** – Babək r-nunun Qahab k. ərazisində, Qahab çayının üzərindədir. Uz. 10 paqonometr. Sel daşqınları zamanı nəqliyyat vasitələrinin hərəkəti dayandığı, Qahab k. ilə r-n mərkəzi və Naxçıvan ş. arasında əlaqə kəsildiyi üçün körpü 1999 ildə əsaslı surətdə təmir olunub istifadəyə verilmişdir.

**QAHAB SU ANBARI** – Babək r-nunda, Naxçıvançay hövzəsində, Qahab k. yaxınlığındadır. Qahab təbii gölünün əsasında yaradılmışdır. Qahab çayının suyu ilə qidalanır. 1043 *m* hünd.-dədir. Sah. 0,18 $km^2$, faydalı həcmi 1 mln. $m^3$-dir. Dövri tənzimləməyə malikdir.

**QAXSAN** – Şərur r-nunda, Arbatan k.-nin c.-nda qədim yaşayış yeri. Ərazidən dən daşları, sürtgəclərlə yanaşı, çoxsaylı saxsı məmulatı hissələri aşkar olunmuşdur. Materialların təhlilinə əsaslanaraq Q. yaşayış yerinin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir. Nisbətən sonrakı tarixi dövrlərdə Q. sakinləri yaşayış yerini zərurət üzündən tərk edərək Aşağı Arbatan adlı ərazidə məskunlaşmışlar (yaşayış yerinin arxeoloji materialları, əsasən, şirli saxsı qablarının hissələrindən ibarət olub, orta əsrlərə aid edilir.

**QALA MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. *Möminə xatun türbəsinin* yaxınlığında, Xoylu məhəlləsi ilə qonşuluqda olub, indiki Yay teatrının və mədəniyyət sarayının ətrafındakı ərazini əhatə etmişdir.

**QALACIQ** – Şərur r-nunun Aşağı Yaycı k. yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Arxeoloji qazıntı işləri aparılmamışdır. Kəşfiyyat səciyyəli tədqiqatlar nəticəsində orta əsrlər üçün xarakterik olan maddi mədəniyyət nümunələri toplanmışdır. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış yerindəki bir qayanın üzərində farsca kitabə olmuşdur.

**QALACIQ** – Naxçıvan ş.-ndən 30 *km* şm.-q.-də, Qarabağlar k.-nin şm.-ş.-ndə e.ə. 2-ci minilliyə — 1-ci minilliyin əvvəlinə aid yaşayış yeri. Sah. 30 *ha*. Qalınlığı 3 *m*-dən artıq olan mədəni təbəqə hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Burada dən daşları, daş gürzlər, həvəngdəstələr, tunc bəzək şeyləri, monoxrom naxışlı boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və oval şəkilli bina qalıqları aşkara çıxarılmışdır. Yaşayış binaları və qala divarlarının qalınlığı tikinti texnikasının yüksək səviyyədə olmasından xəbər verir.

**QALACIQ ARXI** – Şərur r-nunda qədim süni suvarma şəbəkəsi. *Oğlanqala* yaşayış yerinin şm.-ndan, qalanın yaxınlığından çəkilmişdir. Başlanğıcını Arpaçaydan götürür. Yaşayış yerindən c.-da və q.-də olan əkin sahələrini suvarmaq üçün istifadə edilmişdir. Arxın bəzi yerlərində iri qaya parçalarından hörülmüş tikinti qalıqları saxlanmışdır. Tədqiqatçıların fikrincə, Q. a. uzun müddət fəaliyyət göstərmiş, e. ə. 2–1-ci minilliklərdə və erkən orta əsrlərdə də öz əhəmiyyətini itirməmişdir.

**QALADAĞ** – Ordubad r-nu ərazisində dağ. Gilançayın sağ sahilində, Biləv k.-ndən 3 *km* c.-q.-dədir. Hünd. 1349 *m*. Sıldırım yamaclı və konusvarı formadadır.

**QALADƏRƏ** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sağ qolu. Mənsəbindən 55 *km* məsafədə ona tökülür. Uz. 7 *km*, hövzəsinin sah. 13 $km^2$-dir. Bulaq və qar suları ilə qidalanır.

**QALAİÇİ** – Babək r-nu ərazisində dağ. Hünd. 1362 *m*. Zirvəsi orta əsrlərə aid qala divarları ilə əhatə olunmuşdur.

**QAMIRQALA DAĞI** – Ordubad r-nu ərazisində dağ. Düylünçayın sağ sahilində, Çənənəb k.-ndən 2 *km* c.-q.-dədir. Hünd. 1479 *m*. Q. və c.-q. yamacları sıldırımdır.

**QANLIGÖL** – Şahbuz r-nu ərazisində göl. Küküçayın (Naxçıvançayın sağ qolu) hövzəsində, Dərələyəz silsiləsinin ətəyində, 2420 *m* hünd.-dədir. Küküçayının bəzi qolları Q.-dən başlanır. Əsasən bulaq suları ilə qidalanır.

*Qalacıq yaşayış yerinin (e. ə. 2-ci –1-ci minillik) bərpa layihəsi.*



1965 ildə Q.-ün əsasında eyniadlı su anbarı yaradılmışdır (bax *Qanlıgöl su anbarı*).

**QANLIGÖL NEKROPOLU** – Şahbuz r-nunun Kükü k. ərazisində son orta əsrlərə aid arxeoloji abidə. Müsəlman qəbiristanlığında bir neçə başdaşı yaxşı saxlanmışdır. Əksəriyyəti təbii olub işlənməmişdir. Bəzilərinin sonu taevarı şəkildə formalaşdırılmışdır. Qəbiristanlığın yaxınlığından bir ədəd dar boğazlı, nazik divarlı zərif gülabdan tapılmışdır. Abidənin 15–16 əsrlərə aid olduğu ehtimal edilir.

**QANLIGÖL SU ANBARI** – Şahbuz r-nu ərazisindədir. Eyniadlı təbii gölün əsasında yaradılmışdır (1965). Sah. 0,10 *km*$^2$, faydalı həcmi 1,0 mln. *m*$^3$-dir. Qar, yağış suları və yeraltı sularla qidalanır. Noyabrdan aprelin axırlarına, bəzən isə mayın əvvəllərinədək donmuş olur. Suvarmada istifadə edilir. Suyu yayda Küküçay (Naxçıvançayın sağ qolu) vasitəsilə Naxçıvançaya axıdılır. Mövsümi tənzimləməyə malikdir.

**QANLIQUZEY** – Babək r-nu ərazisində dağ. Sirab çayının sol sahilində, Sirab mineral su bulağından 2,5 *km* ş.-dədir. Hünd. 1538 *m*.

**QAPICIQ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin və eyni zamanda Kiçik Qafqazın ən yüksək zirvəsi. Hünd. 3904 *m*. Oxçuçay ilə Gilançayın suayırıcındadır. Eosenin vulkanagen çökmə süxurlarından təşkil olunmuşdur. Yamaclarında qədim buzlaq relyefi formaları (troq, kar, moren), zirvəsində daimi qar (3–4 *m* qalınlığında) var. Q.-ın c. və c.-q. yamaclarındakı yaylaqlarda (*Qaranquş yaylağı*, *Nəbi yurdu*) saysız-hesabsız qaya parçaları üzərində Gəmiqaya qədim təsviri sənət nümunələri həkk olunmuşdur (*bax Gəmiqaya rəsmləri*). Gəmiqayadan ş.-ə gedən yolun qapısı burada olduğundan, görünür, ulu nəsillər buna əsasən dağı Q. adlandırmışdır.

**QAPICIQ ƏNDƏLİSİT YATAĞI** – Ordubad r-nunda, Culfa d.-y. st.-nın 70 *km*-liyindədir. Yatağın geoloji quruluşunda Eosen yaşlı vulkanogen süxurlar və tuflar iştirak edir. Kontakt-metasomatik proseslər nəticəsində vulkanogen süxurlar buynuz daşına (roqovik) və törəmə kvarsitlərə çevrilmişlər. Bu süxurların tərkibində əndəlisit, rutil, muskovit, serisit, kvars var. Əndəlisitin miqdarı 10–60%-dir. Əndəlisit yüksək oda və turşuya davamlı, elektrik keçirməyən materiallar və s. istehsalında əsas xammaldır.

**QAPIDAŞQAYA ÇAYI** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Mənsəbindən 49 *km* məsafədə ona tökülür. Uz. 15 *km*, hövzəsinin sah. 29 *km*$^2$-dir. Əsasən qar, qrunt və qismən yağış suları ilə qidalanır. Yaz-yay daşqınları olan çaylar qrupuna aiddir.

**QAPIDAŞQAYA SİLSİLƏSİ** – Şahbuz r-nu ərazisində dağ silsiləsi. Dərələyəz silsiləsinin c. yamacında, Küküçayla Naxçıvançayın suayırıcısıdır. Şm.-ş.dən c.-q.-ə doğru uzanır və Naxçıvançayın dərəsinə doğru alçalır. Ən yüksək zirvəsinin hünd. 1782 *m*.

**QAPLANÇAY** – Ordubad r-nu ərazisində kiçik çay. Vənənd çayının sağ qolu. Zəngəzur silsiləsinin q. ətəklərindən, 2350 *m* yüksəklikdən başlanır. Pəzməri k. yaxınlığında Vənənd çayına tökülür. Uz. 2 *km*. Əsasən, qar suları və yeraltı sularla, qismən yağış suları ilə qidalanır.

**QARAAĞAC** – Sədərək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Sədərəyin şm.-ş.-ində, mühüm strateji mövqedə yerləşir. Adı Cəhənnəmdərə boğazının Sədərəyə tərəf qurtaracağındakı Qaraağac meşəliyi ilə bağlıdır. Əh. 3684 nəfər (2001, 1 yanvar); üzümçülük, taxılçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının Azərb.-da həyata keçirdiyi tikinti-quruculuq proqramı çərçivəsində qəsəbədə 5 subartezian quyusu qazılıb istifadəyə verilmişdir. Orta məktəb, feldşer-mama məntəqəsi var. Q. Nax. MR Ali Məclisinin qərarı ilə 1997 ildə Sədərək k.-nin tərkibindən ayrılmışdır. Şəhidlər Xiyabanı salınmış, xatirə-bulaq abidəsi tikilmişdir.

**QARAAĞAC MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə məhəllə. İndiki tikinti-quraşdırma idarəsinin ətrafında yerləşirdi. 1918 ildə burada bir neçə yüz gənc silahlanıb, torpaqlarının bir qarışını da xarici düşmənlərə, erməni təcavüzkarlarına verməyəcəklərinə and içmişdilər. 1990–93 illər Sədərək döyüşləri bunu bir daha sübut etdi.

**QARAARANA DAĞI** – Culfa r-nu ərazisində dağ. Dağüstü silsilənin c.-q. yamacındakı Qarayoxuş silsiləsinin c. qurtaracağındadır. Cuğa (indiki Gülüstan) k.-ndən 2,5 *km* şm.-ş.-də Əlincəçayın sol sahilindədir. Hünd. 896 *m*.



**QARABABA** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 2 *km* şm.-ş.-də, Naxçıvançayın sahilində, Yevlax–Laçın–Naxçıvan avtomobil yolunun kənarındadır. Əh. 848 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi var.

**QARABAĞ MEYDANI** – Naxçıvan ş.-ndə 1980–81 illərdə inşa edilmiş mövcud meydanın yerində salınmışdır. 1988 ilin əvvəllərindən Azərb.-ın əzəli torpağı olan Qarabağa qarşı ərazi iddialarını açıq şəkildə irəli sürən erməni millətçilərinin separatçılıq əməlləri ilə əlaqədar olaraq 1989 ildən Q. m. adlandırılmışdır. Meydan 1990 ildə yenidən qurulmuş, ətrafında xidmət obyektləri, mərkəzində fəvvarəli hovuz yaradılmışdır.

**QARABAĞ NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə Q. n. 15 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 4 kəndində müsəlmanlar (Azərb. türkləri), 1 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı. Nahiyənin illik gəlirini 293430 ağca təşkil edirdi. Bu da Naxçıvan sancağının illik gəlirinin 11,2%-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**QARABAĞLAR** – türk tayfası. Qədim kəngər tayfasının (bax *Kəngərlər*) bir qolu. Eramızın əvvəllərində Azərb. ərazisində məskunlaşan kəngərlər həm Albaniyanın (Qafqaz) q.-ndə (indiki Qazax–Ağstafa bölgəsi), həm də Naxçıvan bölgəsində yaşamışlar. Onların bir qolu da qarabağlar adlanmışdır. Bu, 10 əsr müəllifi Konstantin Baqryanarodnının Cənubi Rusiya çöllərində yaşayan peçeneq-kəngərlərin bir tayfasının qarabay adlanması barədə məlumatı ilə uzlaşır. 18 əsrin ortalarında Qarabağ xanı Pənahəli xan döyüşkən tayfa kimi ad çıxarmış kəngərlərin bir hissəsini Naxçıvandan Qarabağa köçürmüşdü. Ehtimal ki, qarabağ tayfası da onların arasında olmuşdur. Azərb.-ın müxtəlif r-nlarındakı, o cümlədən Şərurdakı



*Qarabağ meydanı. Naxçıvan şəhəri.*

Qarabağlar kəndlərinin adı bu tayfanın adı ilə bağlıdır.

*Əd.:* Q e y b u l l a y e v Q., Qarabağ (etnik və siyasi tarixinə dair), B., 1990.

**QARABAĞLAR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 30 *km* c.-ş.-də, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 5787 nəfər (2000); taxılçılıq, tütünçülük və heyvandarlıqla məşğuldur. Orta və səkkizillik məktəb, kitabxana, klub, xəstəxana, rabitə şöbəsi var. Kəndin şm.-ş.-ndə bir neçə terrasdan ibarət təpənin üzərində son Tunc və ilk Dəmir dövrlərinə aid *Qalacıq* yaşayış yeri yerləşir. Q. kənd camaatının bir qismi özünü bəydili (bax *Bəydililər*) adlandırır.

Kəndin müasir tikililəri altında qalmış orta əsrlərə aid yaşayış yerində aparılmış kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində ərazidən eramızın ilk əsrlərinə və orta əsrlərə aid gil məmulatı, xüsusilə tikinti keramikası aşkara çıxarılmışdır. Orta əsrlərdə Q. Azərb.-

*Qarabağlar kəndindən görünüş.*



Qarabağlar daş qutu qəbirlərinin materialları:
1, 2. Cızma naxışlı gil küpələr. 3, 4, 5. Tunc sancaqlar. 7–12. Tunc bilərziklər.




ın qədim şəhərlərindən biri olmuşdur. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdi. Şəhər, adından da göründüyü kimi çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü. Dağlardan axan kiçik çaylardan və bulaqlardan arxlar çəkilmişdi. Şəhər meyvələri, üzüm növləri ilə məşhur olmuşdur.

Türk səyyahı Övliya Çələbi (17 əsr) "Səyahətnamə" əsərində Q.-ı meyvə bağları arasında yerləşən böyük bir şəhər kimi təsvir etmişdir. Onun məlumatına görə, 17 əsrdə Q.-da təqr. 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, çoxlu karvansara, bazar, hamam və s. var idi. 17–18 yüzillərdə feodal ara müharibələri və daxili çəkişmələr nəticəsində şəhər tənəzzül etmişdir. 20 əsrin əvvəllərində Q.-da 2 min nəfər əhali yaşayırdı. Təkcə Azərb.-ın deyil, Ön Asiyanın memarlıq incilərindən sayılan Qarabağlar memarlıq kompleksi (bax *Qarabağlar türbəsi*) kəndin şm.-q.-ndədir.

*Əd.:* Əliyev V., Tarixin izləri ilə, B.,1975; Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə dair materiallar), B., 1997.

**QARABAĞLAR DÜZÜ** – Şərur r-nu ərazisində maili düzənlik. *Arazboyu düzənliklərdən* biri. Qarabağlar k.-ndən başlayaraq c.-q. istiqamətində genişlənir və Qıvraq k.-nədək davam edir. C.-da Xok k.-nədək uzanır. Səthi zəif parçalanmışdır. Qış otlaqlarıdır.

**QARABAĞLAR GOVURQALASI** – Şərur r-nunun Qarabağlar k. yaxınlığında son Tunc – ilk Dəmir dövrlərinə (e. ə. 2–1-ci minilliklər) aid qala (bax *Govurqala*).

**QARABAĞLAR QƏBİRİSTANI I** – Şərur r-nunun *Qarabağlar* k.-ndə *Qalacıq* yaşayış yerindən şm.-da orta və son Tunc dövrünə aid arxeoloji abidə. Kurqan tipli qəbir abidələri xarakterikdir. Kurqanaltı qəbirlər, əsasən, daş qutulardan ibarət olub iri sal daşlarla dördkünc formada qurulmuş və eyni formalı daşlarla örtülmüşdür. Tədqiqat işləri nəticəsində çəhrayı və boz rəngdə bişirilmiş gil qab (kasa, küpə, çaydan və s.) qırıqları, tuncdan hazırlanmış bəzək şeyləri və silahlar aşkar olunmuşdur.

**QARABAĞLAR QƏBİRİSTANI II** – Şərur r-nunun Qarabağlar k.-ndə, *Qalacıq* yaşayış yerindən c.-da son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Daş qutu tipli və torpaq qəbirlər xarakterikdir. Tədqiqatlar zamanı nekropolda insan skeletinin qalıqlarına, at və qoç formalı qəbirüstü abidələrə təsadüf edilmişdir. Axtarışlar nəticəsində gil məmulatı (kasa, küpə, çaydan tipli qablar), tuncdan hazırlanmış bəzək şeyləri (bilərzik, üzük, boyunbağı, sancaq) tapılmışdır. Tapıntılar içərisində ucları və yuxarı hissəsi qoç başı ilə tamamlanan yüksək sənətkarlıqla hazırlanmış tunc sancaq diqqəti cəlb edir.

**QARABAĞLAR MEMARLIQ KOMPLEKSİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Kompleks iki qoşa minarədən, 16 *m* hünd.-də olan kərpic türbədən ibarətdir. Minarə və türbənin üst qatı kaşı naxışlarla bəzədilmişdir. Bax *Qarabağlar türbəsi*.

**QARABAĞLAR TRAVERTİN YATAĞI** – Şərur r-nu ərazisində, Qarabağlar k.-ndən 1 *km* şm.-ş.-dədir. Geoloji quruluşunda Üst Dördüncü dövr yaşlı möhkəm, ağ, sarımtıl-ağ, çəhrayımtıl-boz rəngli, məsaməli travertinlər iştirak edir. Tektonik cəhətdən yataq monoklinal quruluşa malikdir və 5–10° bucaq altında c.-q. istiqamətində yatır. Sah. 1 $km^2$, faydalı qatın qalınlığı 15–40 *m*-dir. Yataqda blok çıxımı 58% olub, 1 $m^3$ blokdan 17,2 $m^2$ üzlük plitə alınır. Travertin üzlük daşı kimi, layarası travertinləşmiş konqlomerat-brekçiyalar isə tikinti işlərinə yararlı çınqıl kimi öyrənilmişdir. Tullantılardan yüksək keyfiyyətli əhəng



istehsalında istifadə etmək olar. Yataq 1984 ildən istismar olunur. Yatağın sənaye ehtiyatları 4031 min $m^3$-dir.

**QARABAĞLAR TÜRBƏSİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Şərur r-nunun Qarabağlar k.-ndədir. Türbə memarlıq kompleksinə daxildir. Q. t. -dən savayı, burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin 12 əsrin sonu – 13 əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə 14 əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatunun adı yazıldığından, onun Quti xatunun şərəfinə tikildiyi güman edilir.

Sərdabə və yerüstü hissədən ibarət Q. t.-ndə qülləvarı türbələrin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Q. t.-nin yerüstü kompozisiyasını əmələ gətirir. Çıxıntılar divarın ümumi həcmini azaltmaqla yanaşı, türbəyə qala əzəməti verir. Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Q. t. -nin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş, həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Türbənin yuxarısındakı kitabə qurşağı nəsx xətti ilə işlənmişdir. Yerliyi göy kaşıdan olan kitabə ağ hərflərlə yazılmışdır. Q. t.-nin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şm., c., q. və ş. istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şm. tərəfdəki əsas baştağdır. Q. t.-nin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin 14 əsrin əvvəllərində tikildiyini göstərir. Q.t. ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin 14 əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq abidələri olduğu ehtimal edilir. Hazırda əsaslı bərpa işləri aparılır.

*Əd.:* Salamzadə Ə. V., Azərbaycanın memarlıq abidələri, B., 1958; Kərimzadə S., Qarabağlar türbəsinin kitabələri haqqında mülahizələr, Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1969, №2; Усейнов М. А., Бретаницкий Л. С., Саламзаде А. В., История архитектуры Азербайджана, М., 1963.



Qarabağlar türbəsi. 12 əsrin sonu – 13 əsrin əvvəlləri.

**QARABATDAQ** – qadınların boyunlarına taxdıqları zərgərlik məmulatı. Bəzək əşyası kimi Naxçıvan bölgəsində qədimdən geniş yayılmışdır. Muxtar respublika ərazisində bəzək şeylərinin hazırlanması və istifadə edilməsi tarixi e. ə.-dən başlayır.

Aparılmış qazıntılar nəticəsində qədim və orta əsrlərə aid yaşayış məskənlərindən və arxeoloji abidələrdən müxtəlif muncuqlar, gümüş, qızıl və s. metallardan hazırlanmış bəzək əşyaları (boyunbağı, silsilə, qarabatdaq, bilərzik, sırğa, qolbaq və s.) tapılmışdır. Q. boyun bəzəyinin sadə, həmçinin ətəkli növləri geniş yayılmışdı. Sadə Q. müxtəlif rəngli muncuqları ipə düzməklə hazırlanır və boğaza bağlanır. Ətəkli Q.-ın əsas hissəsini qızıl və gümüşdən nəfis şəkildə hazırlanmış ay-ulduzyarpaq formalı ətəklər (bəzəklər) təşkil edirdi. Ətəklərin sayına uyğun olaraq, birətək, ikiətək, üçətək Q.-lar olur. Ətəkli Q. keçmişdə kübar geyiminin zəruri bəzəyi idi. Ordubadda a r a ş q ı n adı ilə yayılmışdır. Naxçıvan zərgərlərinin hazırladıqları



Qarabatdaq. Qızıl. 19 əsr. Azərbaycan Tarixi Muzeyi.

Q.-lar qiymətli sənət nümunələri kimi bir çox muzeylərdə saxlanılır.

*Əd.:* И з м а й л о в а А. А., О народной одежде Нахичеванской зоны в XIX – начале XX века. Известия АН Азерб. ССР (серия истории, философии и права), 1981, № 2.

**QARABOYA** – Şahbuz r-nunda Ov dağının ətəyində mövcud olmuş kənd. Əhalisi 1960 ildə Şada və Badamlı k.-lərinə köçürülmüşdür.

**QARABULAQ QƏBİRİSTANLIĞI** – Şərur r-nunun Maxta k.-ndən şm.-da, dağ ətəyində qədim arxeoloji abidə. Şm-dan başlanğıcını Arpaçaydan alaraq Sədərək k.-nədək uzanan qədim suvarma arxı *(bax Fərhad arxı)* buradan keçir. Meliorasiya və tikinti işləri ilə əlaqədar burada bir neçə kurqan tipli abidə dağıdılmışdır. Diqqəti cəlb edən kurqanlardan birində dəfn kamerasının daş qutudan ibarət olduğu və onun dördkünc xəndək qazılmaqla divarlarının bərkidici məhlul istifadə edilmədən kiçik daşlardan hörüldüyü müəyyənləşdirilmişdir. Kameranın uz. 4 *m*, eni 1,25 *m*, hünd. 1,30 *m*-dir. Qəbrin daxilində at skeletinə rast gəlinmiş, tunc xəncər, əhəngdaşı, əqiq, mavi rəngli pastadan hazırlanmış 4 ədəd muncuq, iri və orta həcmli 3 ədəd küpə, 3 ədəd kasa, badya, vaza, parç və çaydan tipli gil qablar aşkar olunmuşdur. Naxçıvanın son Tunc və ilk Dəmir dövrü üçün səciyyəvi olan tapıntılar *Qarabulaq, Şahtaxtı, Şortəpə, Oğlanqala* abidələrinin arxeoloji materialları ilə eyniyyət təşkil edir.



Qarabulaq qəbiristanlığı. Kurqanın qazıntısından görünüş.



Tunc xəncər və kurqanda saxsı qabların yerləşdiyi forma.

*Əd.:* A ş u r o v S. H., Qarabulaq qəbiristanlığı, Azərbaycan Dövlət quruluşunun bərpa olunması gününə həsr olunmuş elmi konfransın əsərləri, B., 1991.

**QARABULAQLILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində qarabulaq nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı Q.-a inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdi. Naxçıvan diyarının və Dərələyəz mahalının bir sıra kəndində yaşamış Q. maldarlıqla məşğul olmuşlar.

**QARABURUN DAĞI** – Sədərək r-nu ərazisində dağ. Arazdəyən st.-ndan ş.-dədir. Hünd. 945 *m*.

**QARABÜRC** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 6 *km* aralı, Arazın sahilindədir. Əh. 453 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Məktəb, tibb məntəqəsi var.

**QARACALAL DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş.-indən keçən Qaracalal–Qızılboğaz ekstruziv tirəsinin suayırıcındadır. Hünd. 1478 *m*. Konusvarı yüksəklik əmələ gətirir. Vulkanik süxurlardan (andezit-dasit) ibarətdir.

**QARACALAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). Yazılı qaynaqlarda 5 əsrdən Naxçıvan ərazisində yaşamış Kəngərlərin içərisində Q. tayfasının da adına rast gəlinir. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan bir sıra qol və tirələrin arasında qaracalı nəslinin də adı çəkilir.

**QARAÇOBAN DÜZÜ** – Şərur r-nu ərazisində, Sədərək kəndinin c.-q.-ndə, Bozağıl, Qaradaş, Düz, Həsənqulubağ dağlarının arasında maili düzənlik. Mütləq yüksəkliyi 950–1000 *m*. Səthi Bağırsaqdərə və bir sıra digər dərələr vasitəsilə zəif parçalanmışdır. Daimi axına malik olmayan Bağırsaqdərəsi çayı Q. d.-nün şm.-ş.-ndə iki qola ayrılır. Ərazidən qış və yay otlağı kimi istifadə olunur. Qoyunçuluğun inkişafı üçün əlverişli şəraitə





Möminə xatun türbəsi. 1187.
Memar Əcəmi. Naxçıvan şəhəri.





malik olan Q. d.-nün "Kitabi Dədə Qorqud" eposunun qəhrəmanı Qaraca Çobanın adı ilə bağlı olduğu ehtimal edilir (Babayev S., Naxçıvanda "Kitab-i Dədə Qorqud" toponimləri, B., 1999).

**QARAÇUQ** (1970–99 illərdə C a v i d a b a d) – Babək r-nunda kənd. Qaraçuq bələdiyyəsinin mərkəzi. R-n mərkəzindən 9 *km* şm.-q.-də, Naxçıvan ş.-ndən 3 *km* c.-da, düzənlikdədir. Əh. 2547 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, klub, kitabxana, tibb məntəqəsi, poçt şöbəsi, məscid var.

Sovet–İran müqaviləsi (1963) əsasında Araz su qovşağının tikintisi ilə əlaqədar əhalisi yeni əraziyə köçürülmüşdür. Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İntunun "Araz" arxeoloji-etnoqrafik ekspedisiyasının 1969 ildə Q. yaxınlığındakı orta əsrlərə aid Xarabaşəhər və Muncuqtəpə yaşayış yerlərində apardığı tədqiqatlar zamanı zəngin maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır. "Kitabi-Dədə Qorqud" dastanında Q.-un adı çəkilir. Əsərin qəhrəmanı Qazan xan "Qaraçuqun qaplanı" adlanır.

*Qaraçuq nekropolu I. Boyalı keramika məmulatı. E. ə. 2100–1900-cü illər.*



**QARAÇUQ NEKROPOLU I** – Naxçıvan ş.-ndən 3 *km* ş.-də, Qaraçuq k. yaxınlığında Tunc dövrünə aid arxeoloji abidə. 1985 ildə təsadüfən aşkar olunmuşdur. Araz daşarkən nekropolun ərazisi ada şəklində suyun ortasında qalmış, qumsal təpədə yerləşən qəbirlərin bir hissəsi yuyulub dağılmış, boyalı gil qab nümunələri (əsasən kasa, badya, küpə və s.) çəhrayı rəngli, iri qum və saman qarışığı olan gildən hazırlanmış kasa tipli qablar, tuf daşından yonulub hazırlanmış çəhrayı rəngli vaza tipli qab və s. aşkar olunmuşdur. Tapıntıların Orta Tunc dövrünün ilk mərhələsi üçün xarakterik olub, e. ə. 2100–1900-cu illərə aidliyi ehtimal edilir.

**QARAÇUQ NEKROPOLU II** – Naxçıvan ş.-ndən 3 *km* ş.-də, Qaraçuq k. yaxınlığında orta əsrlərə aid arxeoloji abidə. Araz su qovşağının tikintisi ilə əlaqədar su altında qalıb dağılmışdır. Məlumata görə, nekropolda sənduqə tipli və qoç formalı daşlardan ibarət qəbirüstü abidələr olmuşdur. Bu abidələrin baş daşları, əsasən, yastı daş plitələrdən hazırlanaraq, bəzilərinin baş tərəfi tağvarı formada tamamlanmışdır. Bir neçəsinin üzərində ərəbcə kitabə var. Nekropoldakı ölülərin hamısı müsəlman adəti üzrə dəfn olunub. Abidənin 12–19 əsrlərə aid olması ehtimal edilir.

**QARADAĞ** – Şahbuz r-nu ərazisində dağ. Naxçıvançayın sol sahilində, Külüs k.-ndən 750 *m* c.-dadır. Hünd. 1756 *m*. Günbəzvarı formaya malikdir. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilir (Babayev S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999).

**QARADAĞ QƏBİRİSTANI** – Ordubad ş. ərazisində son orta əsrlərə aid arxeoloji abidə. Təbii aşınma nəticəsində torpaq örtüyü dağıldığından, qəbirlər bəzi hallarda çətin izlənilir. Bəzi qəbirlərin (q.-dən ş.-ə doğru istiqamətlənmişdir) dövrəsinə düzbucaqlı formada xırda daşlar düzülmüşdür; bəzilərinin isə baş tərəfi tağvarı formada tamamlanmışdır. Qəbirüstü abidələr müxtəlif daşlardan hazırlanmışdır; yastı mərmər plitələrə də rast gəlinir; ərəbdilli yazıları var. Q.q. 16–18 əsrlərə aid edilir.

**QARADAŞ** – Şərur r-nu ərazisində dağ. Naxçıvan–Sədərək avtomobil yolundan 3,5 *km* şm.-da, Dəmirçi k.-ndən 5 km şm.-q.-də, Qurd qapısı keçidindən 4 *km* şm.-ş.-dədir. Hünd. 1213 *m*. Günbəzvarı formada olub, c. yamacı sıldırımdır.

**QARADAŞ TEŞENİT YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 15 *km* c.-ş.-ndə, Babək qəs.-dən 10 *km* şm.-ş.-dədir. Geoloji quruluşunda Alt Miosen yaşlı nazik laylı, silisli, xırda dənəli əhəngdaşı, çəhrayımtıl-boz rəngli argillit Erkən Miosen yaşlı teşenit və Üst Dördüncü dövrün çöküntüləri iştirak edir. Faydalı qat teşenitdən ibarət olub, əhəngdaşı və argillit layları arasında yerləşir və c.-ş. istiqamətli layarası yatım təşkil edir. Teşenit iri, orta və xırda dənəli, boz rəngli olub, zəif kvarslıdır. Yatağın sah. 0,2 *km*², faydalı qatın qalınlığı 13,5–29,3 *m*-dir. Teşenitdən binaların xarici və daxili divarlarında, metro tikintisində üzlük materialı kimi, tullantılarından isə tikinti işlərində yüksək möhkəmliyə malik çınqıl kimi istifadə etmək olar. Yatağın sənaye ehtiyatları 1750 min *m*³-dir. Yataqdan 16 *km* aralı Naxçıvan üzlük plitələr z-du fəaliyyət göstərir.

**QARADƏRƏ** – Culfa və Ordubad r-nları ərazisində çay. Arazın sol qolu. Uz. 40 *km*, hövzəsinin sah. 312 *km*². Zəngəzur silsiləsinin c.-q. yamacından (2100 *m* hünd.-ndən) başlanır. Yaycı k.-ndən ş.-də, 686 *m* hünd.-də Araza tökülür. Yaz-yay, qismən də payız aylarında yağan yağışlardan daşqın əmələ gətirən çaylar qrupuna daxildir. Hövzəsinin çox hissəsi alçaq dağlıqda yerləşdiyindən qar suları çayın formalaşmasında rol oynamır. Əsasən, yeraltı sular və yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə olunduğundan yayda mənsəbinə çatmır. Aşağı axınında Y a y c ı çayı da adlanır. Qaradərə adlı dərədən axdığına görə belə adlandırılmışdır.

**QARADOLAQLAR** – türk tayfası. Kəngər tayfasının (bax *Kəngərlər*) tərkibində olmuş, 20 əsrin əvvəllərinədək, əsasən, yarımköçəri həyat sürmüşlər. Keçmişdə Kür çayı sahillərində yaşamışlar.

**QARAHƏSƏNLİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 *km* aralı, Arpaçayın Araza töküldüyü yerdədir. Əh. 792 nəfər (2000); heyvandarlıq, yemçilik, əkinçilik, taxılçılıq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, feldşer-mama məntəqəsi var. Araza yaxın yerdə əhalini su ilə təmin edən nasos st. qurulmuşdur.

Qarahəsənli körpüsü. 1999. Şərur rayonu.



**QARAHƏSƏNLİ KÖRPÜSÜ** – Şərur r-nu ərazisində Arpaçayın üstündədir. Uz. 60 paqonometr. 1999 ildə inşa edilmişdir. Körpünün istifadəyə verilməsi nəticəsində Qarahəsənli k.-nin r-n mərkəzi və digər yaşayış məntəqələri ilə əlaqələri yaxşılaşdırılmışdır.

**QARAHİNDİLƏR MƏHƏLLƏSİ** – Babək r-nunun Cəhri k.-ndə məhəllə. İndiyədək tədqiqata cəlb olunmamış bu urbanonim, ehtimala görə, qədim türk Hun imperiyasının adı ilə bağlıdır. Çox güman ki, q a r a və h u n sözlərindən ibarətdir. Qara sözü qədim türk anlamında böyük, qüvvətli, qüdrətli mənalarında Hun imperiyasının böyüklüyünə işarə kimi dərk oluna bilər. Onu ayama, nişan, rəmz mənasında da açıqlamaq olar (məsələn, "qara hun" şəklində). Ehtimal ki, Qarahindilər ifadəsi "qarahindular" sözünün fonetik dəyişikliyə uğramış formasıdır.

**QARAXANBƏYLİ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Naxçıvan ş.-nin c.-unda, ona bitişikdir. Azərb. beynəlxalq d.-y. xətti kəndin içərisindən keçirdi. Əh. 2273 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, poçt şöbəsi, feldşer-mama məntəqəsi, ATS var.

**QARAXANBƏYLİLƏR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrlərə aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində qaraxanbəyli nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı Q.-ə inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Naxçıvan diyarının və Dərələyəz mahalının bir sıra kəndində yaşayan Q. maldarlıqla məşğul olmuşlar. Babək r-nundakı Qaraxanbəyli k.-nin adı Q.-lə əlaqədardır.

**QARAKƏMƏR DAĞI** – Ordubad r-nu ərazisində dağ. Gilançayın sağ sahilində, Gilançay k.-ndən 4 *km* şm.-q.-dədir. Hünd. 1153 *m*.



**QARAKÖVSƏRLİLƏR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində qarakövsər nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı Q.-ə inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdi. Naxçıvan diyarının və Dərələyəz mahalının bir sıra kəndində yaşamış Q. maldarlıqla məşğul olmuşlar.

**QARAQALA** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 15 *km* şm.-da, düzənlikdədir. Əh. 538 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik və quşçuluqla məşğuldur. Orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, məscid var.

**QARAQALA** – Babək r-nunun eyniadlı kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1954 ildə qeydə alınmışdır. Sah. 3 *ha*. Təpəyəoxşar yüksəklikdə yerləşən yaşayış yerindən xeyli boz və qırmızı rəngli gil qab fraqmentləri, obsidian (d ə v ə g ö z ü) və çaxmaqdaşı qırıqları, çay daşları və s. toplanmışdır. Tapıntılara əsasən evlərin daş bünövrə üzərində çiy kərpicdən tikildiyini demək olar. Mədəni təbəqə kül qarışıq torpaq laylarından və müxtəlif arxeoloji materiallardan ibarətdir. Buradan gil qab qırıqları, dən daşları, həvəng və dəstələr, sürtgəclər aşkar olunmuşdur. Materiallar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Tapıntılara əsasən, abidə e. ə. 2–1-ci minilliklərə aid edilir.

**QARAQALA KÖRPÜSÜ** – Babək r-nunun Qaraqala k. ərazisindədir. Uz. 20 paqonometr. Yeniyol körpüsü də adlanır. 1997 ildə əsaslı surətdə təmir olunub istifadəyə verilmişdir.

**QARAQALA NEKROPOLU** – Babək r-nunun Qaraqala k. yaxınlığında orta əsrlərə (10–19 əsrlər) aid arxeoloji abidə. Nekropoldan Naxçıvanın orta əsrlər dövrü üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır.

**QARAQAYA** – Şərur r-nu ərazisində dağ. Arpaçayın sol sahilində, Mehri dərəsindən 500 *m* q.-dədir. Hünd. 1490 *m*. Şm.-ş. və şm. yamacları sıldırımdır.



**QARAQUŞ DAĞI** – Babək r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2595 *m*.

**QARAQUT**, Q a r a q u r d – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2527 *m*.

**QARANQUŞ DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Tiviçayın mənbə hissəsində, Ağdərə filiz yatağından 1,75 *km* ş.-dədir. Hünd. 3147 *m*. Sıldırım yamaclı, konusvarı formadadır. Eosen və Oliqosen yaşlı vulkanogen süxurlardan təşkil olunmuşdur.

**QARANQUŞ YAYLAĞI** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsində, Gəmiqayanın c. yamacında yaylaq yeri. Dəniz səviyyəsindən təqr. 3000 *m* yüksəklikdədir. Bol otlaqlarla zəngin olan alp və subalp çəmənlikləri qoyunçuluğun əsas yem mənbələridir. Q. y. hələ Mezolit, Neolit dövrlərində Naxçıvanın qədim sakinlərinin əsas ov məskənləri olmuşdur. Eneolit, Tunc və ilk Dəmir dövrlərində (e. ə. 6–1-ci minilliklərdə) Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində yaşamış qədim əkinçi-maldar tayfalar yaz-yay fəsillərində öz qoyun-quzu sürülərini Q. y.-na köçürmüşlər. Q. y. minillər boyu Naxçıvan bölgəsi əhalisinin iqtisadi həyatında mühüm rol oynamışdır. Tədqiqatlar nəticəsində 1969 ildən Q. y.-nda 5 iri sahədə qaya parçaları üzərində həkk olunmuş saysız-hesabsız süjetli rəsmlər qeydə alınmışdır. (Bax *Gəmiqaya rəsmləri*). Buradan qədim Naxçıvan tayfalarının dairəvi və ovalvarı yurd qalıqları aşkara çıxarılmışdır. Q. y.-nın qayaüstü təsvirləri və yurd yerləri Naxçıvan ərazisində e. ə. 6–1-ci minilliklərdə


Qardaşbəyov Əkbər

yaşamış qədim insanların həyat tərzini və mədəni inkişaf yollarını izləməyə imkan verir.

*Əd.:* Ə l i y e v V., Gamiqaya abidələri, B., 1992.

**QARAPİR** – Ordubad şəhər qəbiristanlığında qədim ziyarətgah. Yerli əhali tərəfindən ölü yumaq, həmçinin meyiti müvəqqəti saxlamaq üçün sərdabə sayılır. Kiçik tikilidən ibarət bina yarımqazma formasında qayada çapılmışdır. Ön hissəsi hörülən binanın giriş qapısının baş tərəfində sarımtıl rəngli mərmər lövhə (38x30 *sm*) üzərində süls xətti qarışıq nəsx xətti ilə farsca kitabə var. Kitabənin mətnində deyilir, "Allahın rəğbətini qazanmaq məqsədi ilə bu şərəfli və mübarək bina cəmadi-yülaxir ayının 2-ndə (6 may) mərhum, rizvan məkan (cənnət məkan) Hacı Ağacan Ordubadinin oğlu, yaranmışların ən kiçiyi Hacı Zeynalabdinin səyi və təşəbbüsü ilə 1264 ildə (1848) tamamlanmışdır".

**QARAPİR DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q. istiqamətdə ayrılan Xəzəryurd yan silsiləsinin suayırıcında zirvə. Nəsirvaz k.-ndən 3 *km* c.-ş.-də, Tivi çayının sağ sahilindədir. Hünd. 2674 *m*. Sıldırım yamaclı və konusvarı formadadır.

**QARASU QALASI** – Şərur r-nunun Gümüşlü qəs.-ndən şm.-da, hündür təpə üstündə e. ə. 2–1-ci minilliklərə aid qala. Sah. 5 *ha*. Terraslarda salınmış möhtəşəm qala divarları ilə iki hissəyə ayrılır. Aşağı terrasdakı hissəsinin iri daşlardan tikilmiş qala divarları var. İçqala (Narınqala) 50–60 *m* aralıda dağdadır; divarı kiçik daşlarla hörülmüşdür. Qalanın daxilində yonulmuş daşdan tikilmiş bina divarlarının qalıqları qalır. Qafqazın qədim siklop tikililərinə aid olan qalanın daxilində qayada bir neçə yerdə su hovuzu qazılmışdır. Arxeoloji qazıntılar nəticəsində qaladan əmək alətləri (dən daşı, daş gürzlər), obsidian (d ə v ə g ö z ü), çaxmaqdaşı lövhələri, gil qablar (kasa, küpə, çaydan tipli qablar), tunc bilərzik, ilk Dəmir dövrünə aid ox ucları tapılmışdır. Materiallar *Naxçıvan mədəniyyəti* üçün səciyyəvidir. Toplanmış gil məmulatının bir hissəsi antik dövrə aiddir.


Qarasu qalasından tapılmış keramika məmulatı. E. ə. 2–1-ci minilliklər.

**QARATƏPƏ** – Şərur r-nu ərazisində dağ. Arpaçayın sağ sahilində, Oğlanqala k.-nin şm.-ş. hissəsindədir. Hünd. 1000 *m*. Müasir relyefdə günbəzvarı yüksəklik əmələ gətirir. Dağ bir neçə terrasdan ibarətdir. Üst hissədəki terraslar iri qaya parçalarından hörülmüş divarla əhatə olunan Narınqalanı əmələ gətirir. *Oğlanqala* qədim yaşayış yeri Q. dağının üzərindədir.

**QARATORPAQ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2903 *m*. Günbəzvarı formadadır.

**QARAVULXANA** – Şahbuz r-nu ərazisində dağ. Badamlı k.-ndən 1,2 *km* şm.-dadır. Hünd. 1840 *m*. Günbəzvarı formadadır.

**QARAVULXANA** – Şərur r-nu ərazisində dağ. Arpaçayın sol sahilində, Yuxarı Yaycı k.-ndən 1 *km* şm.-ş.-dədir. Hünd. 1703 *m*.

**QARAVULTƏPƏ** – Babək r-nu ərazisində dağ. Duzdağ tirəsindədir. Hünd. 919 *m*.

**QARAVULTƏPƏ** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-q. yamacındadır. Hünd. 1587 *m*.

**QARAYOXUŞ SİLSİLƏSİ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Dağüstü silsilədən c.-a, Culfa r-nuna doğru ayrılan qoldur. Uz. 6 *km*. Ən yüksək zirvəsinin hünd. 1152 *m*.

**QARDAŞBƏYOV** Əkbər Hacı oğlu (15.3.1923, Naxçıvan ş. – 26.3.2001, orada) – aktyor. Azərb. Respublikası xalq artisti (1987). Səhnə fəaliyyətinə 1942 ildə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında başlamışdır. Müxtəlif xarakterli obrazlar yaratmışdır. Təlxək, Azər baba ("Vaqif", "Fərhad və Şirin", S.Vurğun), Çingiz ( "Eşq və intiqam", S.S. Axundov), Knyaz ("Xanuma", A.Saqareli), Əsgər ("Arşın mal alan", Ü.Hacıbəyov), Şeyx Əhməd, Molla Abbas ("Ölülər", "Dəli yığıncağı", C.Məmmədquluzadə), Şeyx Sənan, Kərimvəz ("Şeyx Sənan", "Səyavuş", H.Cavid), Dudkin ("Cehizsiz qız", A.Ostrovski), Filbi ("Elektra", Sofokl), Nüsrət ("Mənim nəğməkar bibim", Ə.Əylisli) və s.



**QARĞALIQ** – Naxçıvan şəhər bələdiyyəsində qəsəbə. Naxçıvan ş.-ndən c.-q.-də, Araz çayı sahilindədir. Bakı–Naxçıvan d.-y. xəttində st. Uluxanlı (indiki Ermənistan ərazisi) – Culfa d.-y. xətti çəkilərkən salınmışdır (1908). Daimi əhalisi yoxdur. Hazırda st.-dan qatarların görüş məntəqəsi kimi istifadə olunur. Dayanacaq vardır.

**QARXUN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 3 *km* arğlı, Şərur–Naxçıvan avtomobil yolunun kənarında, Arpaçayın sağ sahilində, düzənlikdədir. Əh. 1835 nəfər (2000); taxılçılıq, pazıçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Dəmir-beton məmulatı və çınqıl ayıran z-dlar, orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, rabitə şöbəsi, uşaq bağçası var. Adı qədim türk tayfalarından olan *qarkınların* (qarxunların) adı ilə əlaqədardır.

**QARXUN KÖRPÜSÜ** – Şərur r-nu ərazisində, Qarxun–Aralıq –Dəmiryol keçidi arasındakı yolun 2 *km*-liyində, Arpaçay üzərindədir. Uz. 120 paqonometr. Q. k.-nün əsaslı surətdə bərpası və yenidən qurularaq istifadəyə verilməsi (1996) nəticəsində yaşayış məntəqələrinin dəmir yolundan aşağıdakı kəndlərlə birbaşa əlaqələri təmin edilmişdir.

**QARKINLAR,** Q a r x u n l a r – türk-oğuz tayfası. Tədqiqatçılara görə 11–12 əsrlərdə Naxçıvan bölgəsində yerləşmişdilər. Fəzlullah Rəşidəddinin (13 əsr) "Cami ət-Təvarix" əsərində adı K a r k ı n kimi çəkilir. Şərur r-nundakı Qarxun k.-nin adı Q.-larla bağlıdır.

**QARNIYARIQ** – Şahbuz r-nu ərazisində, Naxçıvançayın sol sahilində, Kiçik Qafqaz dağ silsiləsinin çaya doğru uzanan hündür çıxıntısı üzərində arxeoloji abidə. Sah. 6200 $m^2$. 1987 ildə qeydə alınmışdır. Hər tərəfdən dərin dərə ilə əhatə olunmuş, şm.-ş. tərəfdə ensiz zolaqla dağ silsiləsi ilə əlaqələnir. Sahəsi girintili-çıxıntılıdır. Mədəni təbəqə təbii aşınmaya məruz qaldığından tamamilə dağılmışdır. Yaşayış yerindən çəhrayı və boz rəngli gil qab qırıqları, əsasən, tufdan və obsidiandan (d ə v ə g ö z ü ) hazırlanmış əmək alətləri – dən daşı, dəstə, oraq dişi, qaşov, boz rəngdə gil əyirəcək və silahlar tapılmışdır. Abidədən aşkar edilmiş materiallar, onunla yanaşı yerləşən nekropolun materialları ilə həmdövr olub, e. ə. 1-ci minilliyin əvvəllərinə aiddir.

**QARS MÜQAVİLƏSİ (1921)** – Azərb., Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə Türkiyə Böyük Millət Məclisi hökuməti arasında, RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Türkiyə Cənubi Qafqaz sovet respublikaları ilə münasibətlərin nizamlanmasına, xüsusən ərazi məsələlərinin həllinə dair ikitərəfli müqavilələr bağlamağa çalışırdı. Bununla əlaqədar RSFSR-lə Türkiyə arasınrda martın 16-da imzalanmış *Moskva müqaviləsinin (1921)* müddəa və şərtlərini daha da konkretləşdirmək, müəyyən mənada tamamlamaq və gerçəkləşdirmək, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq zərurəti yaranmışdı. Konfrans 26 sentyabr – 13 oktyabr arasında keçirilmişdir. Konfransda Türkiyə tərəfdən Böyük Millət Məclisinin deputatı, Şərq cəbhəsi komandanı Kazım Qarabəkir Paşa, millət vəkili Vəli bəy, ictimai işlər üzrə stats katibin sabiq katibi Muxtar bəy və Türkiyənin Azərbaycandakı nümayəndəsi Məmduh Şövkət bəy, Ermənistan tərəfdən xarici işlər komissarı A. Mravyan, daxili işlər komissarı B. Makinzyan, Azərb. tərəfdən dövlət nəzarət komissarı Behbud ağa Şahtaxtinski, Gürcüstan tərəfdən hərbi və dəniz qüvvələri komissarı M. Eliava, xarici işlər komissarı A.Svanidze və Rusiya tərəfdən RSFSR-in Latviyada nümayəndəsi Y. Qanetski iştirak edirdi. 18 gün davam edən və işinə altı dəfə fasilə verilən konfrans tərəflər arasında müqavilə imzalanması ilə nəticələndi. Q. m. bəzi dəyişikliklər nəzərə alınmazsa, *Moskva müqaviləsinin (1921)* demək olar ki, eyni idi. 20 maddə və 3 əlavədən ibarət olan Q. m.-nin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: "Türkiyə hökuməti və Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında





muxtar ərazi təşkil edir". Müqavilənin 3-cü əlavəsində bölgənin sərhədləri belə müəyyən edilirdi: Urmiya kəndi, sonra düz xətlə Arazdəyən stansiyasına (onu Ermənistan SSR-də saxlamaqla), Qərbi Daşburun dağına və daha sonra suayırıcı xətlə Şərqi Daşburun dağı və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı suayırıcıları xətti ilə buradan keçmiş İrəvan, Şərur–Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6629-cu yüksəklikdən keçərək Kömürlüdağ dağına və daha sonra 3080-ci yüksəkliyə keçir – Sayatdağ yüksəkliyi ilə Qurdqulaq kəndi, Həməsür dağı, 8022-ci yüksəklik, Kükündağ və keçmiş Naxçıvan dairəsinin şərq inzibati sərhədi. Müqaviləyə görə Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 *km* uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 *km* uzunluğunda, yəni *Türkmənçay müqaviləsində (1828)* müəyyən olunduğu kimi dəyişmədən saxlanmışdır. Q. m.-nin təsdiq etimadnaməsi mübadiləsi 1922 il sentyabrın 22-də İrəvan ş.-də olmuşdur. Q.m. beynəlxalq müqavilə kimi Naxçıvanın Azərb.-ın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-ın təhlükəsizliyi hədələnəndə Q. m. mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir.

*Əd.:* Q a s ı m o v A., Naxçıvanın muxtar ərazi taleyi və müasir dövr, Naxçıvan tarixinin səhifələri (məqalələr toplusu) kitabında, B., 1996; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi-hərbi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər), B.,1996; Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ. Hacıyev), B., 1999; Документы внешной политики СССР, М., 1960.

**QASIMBƏYOV** Həmid Həbib oğlu (d.3.5. 1923, Naxçıvan ş.) – hərbi xadim, vitse-admiral (1976). 1942 ildə Sovet Ordusu sıralarına çağırılmışdır. Böyük Vətən müharibəsi (1941–45) dövründə Qara dəniz və Xəzər dənizi hərbi donanmaları tərkibində alman faşistlərinə, Sakit Okean Hərbi Donanması tərkibində isə yapon militaristlərinə qarşı döyüşlərdə iştirak etmişdir. Xəzər Ali Hərbi Dənizçilik Məktəbini (1945, Bakı) və Hərbi Dənizçilik Akademiyasını (1957, Leninqrad) bitirmişdir. 1945–76 illərdə Sakit Okean, Şimal və Baltik hərbi dəniz donanmalarında gəmi komandiri, qərargah rəisi, gəmilər briqadasının komandiri, hərbi dəniz bazasının qərargah rəisi və komandiri vəzifələrində işləmişdir. 1977–88 illərdə Qırmızıbayraqlı Xəzər Donanmasının komandanı olmuşdur. 1988 ildən istefaya çıxmışdır. Qırmızı Əmək Bayrağı ordeni, 2 Qırmızı Ulduz ordeni və medallarla, habelə Polşanın hərbi ordeni ilə təltif edilmişdir.



Qasımbəyov Həmid

**QASIMOV** Abutalıb Ağa oğlu (d.25.5.1956, Culfa r-nunun Saltax k.) – tarixçi. Tarix elmləri namizədi (1988). Naxçıvan Dövlət Pedaqoji İn-tunu (1979) və Azərb. Milli EA Tarix İn-tunun aspiranturasını (1988) bitirmişdir. Culfa r-nunun Saltax kənd orta məktəbində tarix müəllimi və direktor (1979–90), Azərb. KP Culfa r-n partiya komitəsində şöbə müdiri (1990–91), Naxçıvan Dövlət Un-tində elmi katib, Azərb. tarixi kafedrasında baş müəllim (1991–94) işləmişdir. 1995 ildən həmin kafedranın dosentidir. Nax. MR-in Təhsil naziri (1994-95), Naxçıvan MR Ali Məclisi sədrinin müavini (1995-2000) vəzifələrində çalışmışdır. Tədqiqatlarında Azərb.-ın, xüsusən Naxçıvan tarixinin müasir problemləri işıqlandırılır, Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri olarkən imzaladığı 16 dekabr 1991 il tarixli fərmanı ilə əsası Naxçıvanda qoyulmuş dünya azərb.-larının həmrəyliyi günü (31 dekabr) ilə əlaqədar problemlərin öyrənilməsinə önəmli əhəmiyyət verilir, bu prosesdə ümummilli liderin rolu Azərb. tarixində ilk dəfə olaraq araşdırılır. Q. Tehranda (1996), İqdırda (1997), Vaşinqtonda, Moskvada, Vanda (Türkiyə, 1998), Qarsda, Tbilisidə (1999) və s. yerlərdə beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələr etmişdir. Naxçıvan MR Ali Məclisinin (1–2-ci çağırış) deputatıdır.

Ə s ə r l ə r i: Heydər Əliyevə qarşı ermənilərin mübarizəsi tarixindən və Naxçıvanın muxtariyyəti haqqında, "Qayıdış" kitabında, B., 1994; XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri, "Naxçıvan Azərbaycan tarixində" kitabında, B., 1996; "Naxçıvanın ərazi taleyi və müasir dövr, "Naxçıvan tarixinin səhifələri" kitabında, B., 1996.

Qasımov Abutalıb



**QASIMOV** Adil Möhsün oğlu (d.12. 3. 1938, Naxçıvan ş.) – şair. Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) pedaqogika və ibtidai təhsil metodikası fakültəsini bitirmiş (1962), müəllimlik etmişdir. 1971 ildən Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri



Qasımov Cəlal

Komitəsində böyük redaktor vəzifəsində işləyir. "Pıçıltılar", "Biz görüşəndə" (1974), "Dağlar, qalalar, babalar" (1981), "Qaranquş ömrü" (1988) adlı şer və poema topluları nəşr olunmuşdur. "Aylı gecənin qaranlığında" pyesi tamaşaya qoyulmuşdur.

**QASIMOV** Cəlal Əbil oğlu (d. 15.1.1959, indiki Şərur r-nunun Püsyan k.) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (2000). Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) tarix-filologiya fakültəsini bitirmişdir (1984). Sabirabad r-nunda dil-ədəbiyyat müəllimi (1984–91), Naxçıvan Dövlət Un-tinin tədris şöbəsində inspektor (1991–93) işləmişdir. 1993 ildən Azərb. Respublikası Milli Təhlükəsizlik Nazirliyində çalışır. Görkəmli tənqidçi və ədəbiyyatşünas Abdulla Surun həyat və yaradıcılığı, 30-cu illər siyasi repressiyası qurbanlarının faciəli taleyi haqqında tədqiqatların, o cümlədən 7 kitabın ["Abdulla Sur və əsərləri" (1995, M. Cəfərovla birlikdə), "Əsrin qiyamət çağı", "Yaddaşın repressiyası" (hər ikisi 1997), "Yaddaşın bərpası" (1999) və s.] müəllifidir.

Ə s ə r i: Repressiyadan deportasiyaya doğru, B., 1998.



Qasımov Əbülfəz

**QASIMOV** Elxan Məmməd oğlu (d. 24.4.1945, Naxçıvan ş.) – aktyor və rejissor. Azərb. Respublikasının əməkdar artisti (2000). Azərb. Dövlət Teatr İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) kino aktyorluğu fakültəsini (1966) və Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İn-tunun kino rejissorluğu fakültəsini (1978, qiyabi) bitirmişdir. 1966–68 illərdə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. 1974 ildən C. Cabbarlı ad. "Azərbaycanfilm" kinostudiyasının rej.-dur. Teatr rolları: Nizami ("Məhsəti", Kəmalə), Yaşar ("Yaşar", C. Cabbarlı), Çiko ("Konsulu oğurladılar", G. Mdivani), Kapitan Şarf ("Ağır cəza", R. Kauqver). Kinofilmlərdə çəkilmişdir: şofer Əhməd ("Əhməd haradadır"), Seyfi ("Kimi daha çox sevirik"), Vəli ("Axırıncı aşırım"), Rauf ("Otel otağı"). "Köhnə bərə" bədii, "Qocalar qocalmır" televiziya filmlərinin, sənədli filmlərin rej.-dur.

Qasımov Ələsgər



**QASIMOV** Əbülfəz Cəbrayıl oğlu (d. 20.12.1931, Ordubad ş.) – iqtisadçı, iqtisad elmləri doktoru (1970), prof. (1970). Azərb. Respublikasının əməkdar iqtisadçısı (1982), əməkdar elm xadimi (1987), "Qızıl qələm" mükafatı laureatı (2000). Azərb. Dövlət Xalq Təsərrüfatı İn-tunu bitirmiş (1953), keçmiş SSRİ EA İqtisadiyyat İn-tunda aspirant (1953–56) və elmi işçi (1956–59) olmuşdur. Azərb. Ali Partiya Məktəbinin kənd təsərrüfatı (1967–84) və sənaye (1986–89) kafedralarının müdiri işləmişdir. 1989 ildən Bakı Sosial İdarəetmə və Politologiya İn-tunda (Azərb. Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) makroiqtisadiyyat kafedrasının prof.-dur. Kənd təsərrüfatının iqtisadiyyatına dair tədqiqat və dərsliklərin ["İctimai heyvandarlığın iqtisadiyyatı" (1972), "Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili" (1977) və s.] müəllifidir. "Mənim çörəkli dünyam" adlı ədəbi-publisistik kitabı nəşr olunmuş (1988), ssenarisi (şərikli) əsasında eyniadlı film çəkilmişdir. "Anamın gəlinlik paltarı" pyesi var. Şöhrət ordeni ilə təltif olunmuşdur (2001).

**QASIMOV** Ələsgər Ramazan oğlu (23.1.1901, indiki Babək r-nunun Bulqan k. – 1.8.1985, Bakı) – iqtisadçı. İqtisad elmləri namizədi (1948), prof. (1961). Tbilisidə Zaqafqaziya Kommunist Un-tini (1929) və onun aspiranturasını (1932) bitirmiş, ali məktəblərdə dərs demişdir. Qırmızı Professura İn-tunun (Moskva) iqtisadiyyat şöbəsini bitirdikdən sonra Moskva və Bakının ali məktəblərində işləmiş, 1937 ilin fevral–avqust aylarında Azərb. Dövlət Un-tinin (indiki BDU) tədris işləri üzrə prorektoru, həmin vaxtdan Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU), 1940 ildən isə Ali Kənd Təsərrüfatı Məktəbinin siyasi iqtisad kafedrasının müdiri olmuşdur. 1942 ildə könüllü surətdə cəbhəyə getmiş, 223-cü Azərb. atıcı diviziyası siyasi şöbəsi rəisinin müavini olmuşdur. Müharibədən sonra Moskva İqtisadiyyat İn-tunda namizədlik dissertasiyası müdafiə etmiş, uzun müddət respublikanın ali məktəblərində müəllim, 1966 ildən isə Azərb. Xalq Təsərrüfatı İn-tu siyasi iqtisad kafedrasının müdiri işləmişdir. Siyasi iqtisad problemlərinə dair tədqiqatların, dərs vəsaitlərinin müəllifidir. Keçmiş ümumittifaq "Voprosı ekonomiki" (Moskva) jurnalı redaksiya heyətinin, respublikanın bir sıra ali məktəbləri elmi şuralarının üzvü olmuşdur.



Qırmızı Əmək Bayrağı, I dərəcəli Vətən müharibəsi ordeni və medallarla təltif edilmişdir.



Qasımov Həsən

**QASIMOV** Həsən Allahyar oğlu (14.1.1940, indiki Babək r-nunun Qaraçuq k.–13.1.1994, Bakı) – iqtisadçı. İqtisad elmləri doktoru (1986), prof. (1987). Azərb. Dövlət Un-tinin (indiki BDU) iqtisad fakültəsini bitirmişdir (1962). Azərb. Milli EA İqtisadiyyat İn-tunda elmi işçi, baş elmi işçi, şöbə müdiri (1962–87), Azərb. Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İn-tunun direktoru (1987–92) olmuşdur. 1992 ilin oktyabrından Azərb. Dövlət İqtisad İn-tunun (indiki İqtisad Un-ti) rektoru idi. İctimai istehsalın intensivləşdirilməsinin iqtisadi problemlərinə, k. t.-nın intensivləşdirilməsinin nəzəri əsaslarına, aqrar sahənin maddi-texniki bazasının yaradılması və inkişafının elmi əsaslarının öyrənilməsinə və s. dair tədqiqatlar aparmışdır. Bir neçə monoqrafiyanın, 200-dən çox elmi məqalənin müəllifidir.

Ə s ə r l ə r i: Azərbaycan SSR kənd təsərrüfatının inkişafının problemləri, B., 1972; Проблемы развития материально-технической базы сельского хозяйства Азербайджанской ССР, Б., 1982.



Qasımov Himalay

**QASIMOV** Himalay Ənvər oğlu (d. 21.2.1939, Naxçıvan) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1995), prof. (1996). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) tarix-filologiya fakültəsini bitirmişdir (1966). 1969 ildən həmin ali məktəbdə çalışır. 1996 ildən Azərbaycan və dünya ədəbiyyatı kafedrasının prof.-dur. Çağdaş Azərb. şerində süjetli lirika, roman janrlarının poetika və tipologiya problemlərinə həsr olunmuş tədqiqatların, ədəbiyyat nəzəriyyəsinə dair dərs vəsaitləri və proqramların müəllifidir.

Ə s ə r l ə r i: Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası, B., 1997; Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meylləri, B., 1998; Şəhriyarın lirikası və etiqadı, B., 1999.



Qasımov İmran

**QASIMOV** İmran Haşım oğlu (25.11.1918, Bakı — 20.4.1981, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – Azərb. yazıçısı, dramaturq, publisist və ictimai xadim. Azərb. Resp. xalq yazıçısı (1978), Azərb. Resp. əməkdar incəsənət xadimi (1960). Azərb. Dövlət mükafatı laureatı (1980). Azərb. Jazıçılar İttifaqı İdarə heyətinin katibi (1961—75), birinci katibi (1975—81). Sabiq SSRİ Jazıçılar İttifaqı İdarə heyətinin katibi (1976 ildən) olmuşdur. Moskvada kino ssenariçiləri kursunu bitirmişdir (1938). Ədəbi fəaliyyətə 1938 ildən kinossenarist və dramaturq kimi başlamışdır. İlk kino əsəri "Jeni horizont" filminin ssenaristidir (1940). "Dənizi fəth edənlər" (1958, R.Karmenlə birgə), "Xəzər neftçiləri haqqında dastan" (1959; Q.Osipovla birgə), "Onun böyük ürəyi" (1959), "Əsl dost" (1960), "Bizim küçə" (1963) və s. filmlərin ssenari müəllifidir. Q. yaradıcılığında istehsalat və fəhlə həyatı mövzusu aparıcı yer tutur. "Arzu" (1938), "Xəzərin şəfəqləri" (1950), "Dəniz cəsurları sevir" (1954) və "Sən niyə yaşayırsan" (1959; hər ikisi H.Seyidbəyli ilə birgə), "İnsan məskən salır" (1965), "Nağıl başlananda" (1972), "Ömrümüz çox qısadır" (1973), "Dairəni genişləndirin" (1974) pyeslərinin mühüm məziyyəti insan xarakterlərinin reallığı və həyatiliyi, fəhlə obrazının təkamülüdür. H.Seyidbəyli ilə birgə Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadənin igidliyinə həsr olunmuş "Uzaq sahillərdə" (1953), Azərb. fəhlə sinfinin üç nəsli haqqında "İllər keçir" (1955) romanlarını yazmışdır. Avropa ölkələrinə səfərlərin təəssüratı əsasında "Fransız qobeleni" (1970) və "İtaliya mozaikası" (1972) sənədli povestlərini qələmə almışdır. "Ceyran" (1975) sənədli povesti azərb. qızının Fransa Müqavimət hərəkatında iştirakından bəhs edir. İctimai və ədəbi problemlərə dair oçerk, publisistik məqalə və esselərin müəllifidir. Əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərb. KP 29-cu qurultayında (1976) Azərb. KP MK üzvü seçilmiş, Azərb. SSR Ali Sovetinin (7-8-ci çağırış), SSRİ Ali Sovetinin (9-cu çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və medallarla təltif edilmişdir.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, 2 cilddə, B., 1988; Человек бросает якорь. Пьесы, М., 1969; Мы так недолго живем. Избр. пьесы, проза, публицистика, Б., 1978; Высокое назначение. Публицистика разных лет, М., 1979;

*Əd.:* Q i y a s b ə y l i Z., İmran Qasımov, B., 1985; A b a l k i n N. A., Dialoq c dramaturqom, M., 1976; И с р а ф и л о в И., Зачем ты живешь...? Б., 1995.

Qasımov Qasım



**QASIMOV** Qasım Səftər oğlu (18.1.1925, indiki Şərur r-nunun Qarabağlar k. – 2.11.1991, Naxçıvan ş.) – "Azərb. SSR qabaqcıl maarif xadimi", tarixçi. Tarix elmləri

namizədi (1981). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini (1951) bitirmişdir. Böyük Vətən müharibəsinin iştirakçısıdır (1943–45). Müharibədən əvvəl və sonra Qarabağlar k.-ndə və Naxçıvanda müəllim işləmiş. Nax. MR Maarif Nazirliyinin inspektoru (1958–69), Nax. MR Müəllimləri Təkmilləşdirmə İn-tunun baş müəllimi, dosenti və kafedra müdiri (1970–91) vəzifələrində çalışmışdır. 30-dan çox elmi məqalənin müəllifidir. I dərəcəli Vətən müharibəsi ordeni və medallarla təltif edilmişdir.



*Qasımov Mayis*

**QASIMOV** Mayis Ələkbər oğlu (d. 6.5.1939, Naxçıvan ş.) – botanik. Biologiya elmləri doktoru (1999), resp. komsomolu mükafatı laureatı (1974). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1967). Azərb. Milli EA Xüsusi konstruktor bürosunda laboratoriya müdiri olmuşdur (1981–99). 1999 ildən Azərb. Milli EA Botanika İn-tunda aparıcı elmi işçidir. Tədqiqatları, əsasən, Azərb.-ın boyaq, ədviyyat, aşı və qida bitkilərinin öyrənilməsinə həsr edilmişdir. "Azərbaycanın boyaq bitkiləri" (1987), "Azərbaycanın ədviyyat bitkiləri" (1992) kitablarının, 100-dən çox elmi məqalənin, habelə 15-dən artıq ixtira və patentin müəllifidir. Beynəlxalq konqres və simpoziumlarda məruzələr etmişdir. Elmi və praktiki işlərinin nəticələrinə görə Moskvada keçmiş SSRİ XTNS-nin qızıl medalına (1987) layiq görülmüşdür.

Ə s ə r i: Azərbaycanın faydalı bitki sərvətləri, B., 1992.



*Qasımov Mehbalı*

**QASIMOV** Mehbalı Məhəmməd oğlu (18.5.1906, Culfa r-nunun Xoşkeşin k. – 1962, Bakı) – fəlsəfəşünas. Fəlsəfə elmləri doktoru (1956), prof. (1957). Azərb. Respublikasının əməkdar elm xadimi (1960). Moskva Tarix-Fəlsəfə İn-tunu bitirmişdir (1937). Azərb. Dövlət Un-tinin (indiki BDU) fəlsəfə kafedrasının müdiri (1953–1962) olmuşdur. Azərb. fəlsəfi, ictimai-siyasi və estetik fikir tarixi sahəsində sanballı tədqiqatlar aparmışdır. 6 cildlik "Fəlsəfə tarixi"nin müəlliflərindəndir.

Ə s ə r l ə r i: Материализм Омара Хайяма по его рубайятам, Изв. АН Азерб. Респ. 1947, т. 1; М. Ф. Ахундов и русская революционно-демократическая эстетика XIX века, Б., 1954; Очерки по истории передовой философской и общественно-политической мысли азербайджанского народа в XIX веке, Б., 1959.



*Qasımov Natiq*

**QASIMOV** Natiq Əbülfəz oğlu (d. 19.3.1960, Bakı ) – iqtisadçı. İqtisad elmləri doktoru (1998), prof. (1999). *Ə. S. Qasımovun* oğludur. Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmişdir (1982). Azərb. Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İn-tunda böyük elmi işçi işləmişdir (1988 ilədək). Azərb. İqtisadçılar İttifaqı sədrinin müavini (1988–93), Azərb. Elmi Tədqiqat Yeyinti Sənayesi İn-tunun direktoru (1993–94), Azərb. Dövlət İqtisad İn-tunun (indiki İqtisad Un-ti) dosenti (1994–98) olmuşdur. 1998 ildən Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin direktorudur. 6 monoqrafiyanın, 80-dən çox elmi məqalənin, 9 kitabçanın müəllifidir. Tədqiqatları, əsasən, Azərb.-da bazar münasibətlərinə keçid şəraitində sosial islahatlar və cəmiyyət, sosial-iqtisadi inkişaf və demoqrafik proses problemlərinə həsr edilmişdir. İqtisadçıların simpozium və konfranslarında məruzələr etmişdir. Beynəlxalq İqtisadçılar İttifaqının üzvüdür (1992).



*Qasımov Nemət*

**QASIMOV** Nemət Abbasəli oğlu (d. 27.1.1940, Babək r-nunun Didivar k.) – bioloq. Biologiya elmləri doktoru (1975), prof. (1980). Azərb. Milli EA Botanika İn-tunun elmi işçisi (1967–70), Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsinin dekanı (1978–88) olmuşdur. 1975 ildən bitki fiziologiyası kafedrasının müdiridir. Əsas araşdırmaları ionların (xüsusilə xlor) hüceyrəyə daxil olmasının genetik qanunauyğunluqlarının, bitki toxumalarında sərbəst radikal reaksiyaların və onların tənzimləyici sistemlərinin – antioksidantların tədqiqinə, duzlu şəraitdə bitkilərdə tənəffüs dövrəsinin funksional vəziyyətləri və ferment sistemlərinin öyrənilməsinə həsr olunmuşdur. 100-dən çox elmi əsərin, o cümlədən monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Beynəlxalq simpozium və konqreslərdə məruzələr etmişdir. ABŞ-ın İllinoys EA-ın həqiqi üzvü (1986) seçilmişdir. "XX əsrin 2000 görkəmli adamı"-nın diplomu və gümüş medalı (1997), İngiltərə–Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi Avropa üzrə baş direktorunun (1998) və ABŞ-ın Bioqrafiya İn-tunun səlahiyyətli nümayəndəsinin diplomu və gümüş medalı (1999), ABŞ-ın Bioqrafiya İn-tunun "Qızıl heykəl" (1998), Kembric Beynəlxalq Bioqrafiya mərkəzinin "Qızıl Ulduz" (1998) mükafatları ilə təltif olunmuşdur.



Ə s ə r l ə r i: Fotosintez, 1–2 hissə, B., 1982-83; Bitki fiziologiyası, B., 1986; Физиолого-биофизические аспекты механизма действия солей на растительный организм, Б., 1983;

**QASIMOVA** Elmira Məmməd qızı (d.1.12.1942, Naxçıvan ş.) – şairə. Azərb. Dövlət Pedaqoji Xarici Dillər İn-tunun (indiki Dillər Un-ti) alman dili şöbəsini bitirmişdir (1964). Pedaqoji fəaliyyət göstərmiş, partiya işində çalışmış, Azərb. KP Naxçıvan şəhər komitəsinin katibi (1978–79), birinci katibi (1980–83), Naxçıvan MR Maarif naziri (1979–80) olmuşdur. "Sevdalı könül" (1973), "Axtar məni" (1979), "Zəriflik" (1985), "Analar zərif olurlar" (1999) şer topluları nəşr edilmişdir. Xalqlar dostluğu ordeni ilə təltif olunmuşdur.

**QAŞIM DAĞI** – Babək r-nu ərazisində dağ. Sirab k.-ndən 500 *m* c.-q.-dədir. Hünd. 1125 *m*. Günbəzvarı formadadır.

**QAVAXLI,** Q a v a h l u – Culfa r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Ərəfsə çayı ilə Xəznədərə (Qavaxlısu) çayının suayırıcında zirvə. Hünd. 2239 *m*.

**QAVAXLISU** – Culfa r-nu ərazisində çay. Əlincəçayın sağ qolu. Bax *Xəznədərə*.

**QAYAÜSTÜ RƏSMLƏR** – ayrı-ayrı mağaraların divar və tavanlarında təbii daşla, qaya üzərində mineral rənglərlə (əsasən, oxra ilə) oyma, döymə, sürtmə üsulları ilə çəkilmiş qədim şəkillər. Rəngarəng süjetli bu rəsmlər Daş dövründən başlayaraq (ən qədimlərinin yaşı 20 min ildən çoxdur) orta əsrlərə qədər uzun tarixi dövrün mənəvi mədəniyyətini özündə əks etdirir. Qədim qayaüstü təsvirlər – şəkli yazılar dünyanın bir çox ərazisində aşkar olunub öyrənilmişdir. Paleolit, Mezolit dövrlərinə aid qaya təsvirləri Cənubi Fransada, Şimali İspaniyada (Altamira, Kastilyo), Uraldakı Kap mağarasında, Ural dağları ətəklərindən Uzaq Şərqə qədərki ərazidə (Altayda Minusa çökəkliyində, Tuvada, Anqara və Lena çayları dərələrində, Zabaykalyedə), Qafqazda, Krımda, Orta Asiyada, Kareliyada, Ağ dəniz və Oneqa gölü sahillərində və s. yerlərdə müəyyən edilmişdir. Sibirin qədim türk torpaqlarındakı qayaüstü təsvirlərdə türk runi yazılarına təsadüf olunmuşdur. Bu təsvirlər tarixin müxtəlif dövrlərində insanların qədim mədəniyyət və etiqadlarını, məşğuliyyətlərini, arzu və istəklərini öyrənmək üçün böyük əhəmiyyətə malik maddi mədəniyyət abidələridir.

Azərb.-ın ayrı-ayrı bölgələrində aşkar olunmuş qədim Q. r. qədim insanların bu ərazidə hələ neçə min illər bundan əvvəl yaşadıqlarını və öz maddi mədəniyyətlərini yaratdıqlarını bir daha sübut edir. Qobustanda, Abşeronda, Kəlbəcər r-nundakı Dəlidağda, Gədəbəydə, Ordubad dağlarında qaya və daşlar üzərində zəngin qayaüstü rəsmlər qeydə alınmışdır (bax *Gəmiqaya rəsmləri*).

**QAZAN XAN** – "Kitabi-Dədə Qorqud" eposunun baş qəhrəmanı, Oğuz elinin başçısı, xanlar xanı Bayındır xanın "göygüsü" (kürəkəni), Burla xatunun əri. Oğuzun bütün dövlət işini Q. x. aparır. O, xalqın arxası, yenilməz sərkərdədir. Buna görə də xalq ona inanır, arxasınca döyüşə gedir. Q. x. səxavəti, təmiz əxlaqı, pak ürəkli ər, ailə başçısı olması ilə də seçilir. Tədqiqatçıların fikrincə, eposda təsvir edilən hadisələrin bir çoxu Naxçıvan ərazisində cərəyan edir. Bunu Azərb.-ın müxtəlif bölgələrndə, habelə indiki Ermənistanda, Gürcüstan və Dağıstanda olduğu kimi, buradakı onlarca toponimin dastanda adı çəkilən yer adları və qəhrəmanların adı ilə səsləşməsi də təsdiqləyir. Nax. MR-in, demək

*Gəmiqaya qayaüstü rəsmləri.*



*Qazan xan yaylağına gedən yol.*



olar ki, bütün r-nlarında digər belə toponimlərlə yanaşı, Q. x.-ın adı ilə bağlı olduğu ehtimal edilən 20-yə yaxın toponim ( Qazangöl, Qazanköç, Qazanxan, Qazançı, Qazançı qalası və s.) var. Q. x.-ın adı ilə bağlı toponimlər Naxçıvanla qonşu olan indiki Ermənistan ərazisində (Zəngəzur) də mövcuddur. Bax həmçinin *"Kitabi-Dədə Qorqud"*.

Əd.: B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999.

**QAZAN XAN**, Q a z a n M a h m u d (4.11.1271–1304) – Hülaku hökmdarı [1295–17.5.1304] Bax *Hülakular dövləti*.

**QAZAN XAN İSLAHATLARI** – *Hülakular dövlətinin*, o cümlədən Azərb. iqtisadiyyatının, bir çox ticarət-sənətkarlıq mərkəzləri kimi, Naxçıvan ş.-nin də iqtisadi həyatının dirçəlməsi, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi, xəzinənin gəlirinin nizama salınması məqsədilə Qazan xanın keçirdiyi islahatlar.

**QAZANÇI** – Naxçıvan sancağının Şərur nahiyəsində mövcud olmuş kənd. *"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə* adı çəkilir, kənddə 48 ailə yaşadığı və onların ildə 15700 axça vergi verdiyi qeyd edilir. Q.-in adının "Kitabi Dədə Qorqud" eposunun baş qəhrəmanı Qazan xanın adı ilə əlaqədar olduğu ehtimal edilir (Babayev S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999).

**QAZANÇI** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 43 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 666 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, iki kitabxana, xəstəxana, uşaq bağçası, rabitə şöbəsi var.

**QAZANÇI** – Culfa r-nunun eyniadlı kəndi ərazisində və onun şm. hissəsində orta əsrlərə aid yaşayış yeri. Abidənin əksər hissəsi müasir tikintilərin altında qalmışdır. Dağın ətəyində yaşayış yerinin salamat qalan sahəsində mədəni təbəqə yol maşınları ilə kürənib dağılmış, şirli və şirsiz gil qab qırıqları ətrafa səpələnmişdir. Bəzi yerlərdə yonulmamış qaya daşlarından divar qalıqları saxlanmışdır. 2–3 *m* qalınlığında olan təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, osteoloji qalıqlar və gil qab qırıqları ilə zəngindir. Ərazidən heyvan fiqurları və gil çıraqlar tapılmışdır. Tapıntılar Q. yaşayış yerinin 9–18 əsrlərə aid olduğunu göstərir.

**QAZANÇI KÖRPÜSÜ** – Culfa r-nunun Qazançı k.-ndə tarixi memarlıq abidəsi. Tikinti texnikasına görə 15–16 əsrlərə aid edilir. Biraşırımlı, xalq arasında "Qozbel körpü" adlanan bu abidə nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Q. k. yonulmuş, üstəlik hamarlanmış daş parçalarından tikilmişdir. Tağının parapeti (sipər) və arxivoltu (tağı çərçivəyə alan çıxıntılı haşiyə) xalis yonulmuş daşlardan hörülmüşdür. Q. k. Azərb. Respublikası ərazisində biraşırımlı körpülərin ən yaxşı nümunələrindəndir.

**QAZANÇI QALASI** – Culfa r-nunun Qazançı k.-ndən şm.-da, Əlincəçayın hər iki sahilində e. ə. 2–1-ci minilliyin əvvəllərinə aid abidə. Qalanın solsahil və sağsahil hissəsi bir-birindən sıldırım qayalardan ibarət dərin dərə ilə ayrılır; sağsahil hissəsi hündür konusvarı təpə formasındadır. Məlumatlara görə, təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala olmuşdur. Abidənin sol sahili iki hissədən ibarət olub, hər tərəfdən sıldırım qayalarla əhatələnmişdir. Bu hissədə yarımdairəvi bürclərin qalıqları saxlanmışdır. Qala çoxpilləli möhtəşəm müdafiə sistemin-

*Qazançı körpüsü. 15–16 əsrlər.*









dən ibarətdir. Sədlərdən bir-birinə keçid yolu var. Müdafiə divarları (eni 2–2,5 *m*) yonulmuş iri daşlardan yetkin memarlıq üslubunda tikilmişdir. Q. q. ehtimal ki, e.ə. 2-ci minilliyin əvvəlində Əlincəçay vadisində yaşamış iri tayfa birliyinin mərkəzi olmuşdur. Arxeoloji qazıntılar zamanı Q. q.-ndan tapılmış boz və çəhrayı rəngli gil qab nümunələri, daşdan əmək alətləri, dən daşı və s. *Naxçıvan mədəniyyəti* üçün səciyyəvidir Qala divarının tikinti texnikası *Oğlanqalanı* təkrar edir. Q. q.-ndan toplanmış yerüstü materiallar dən daşları, boz və çəhrayı rəngli gil qab (küpə, kasa, çölmək tipli qablar və s.) nümunələrindən ibarətdir. Tapıntılar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Q.q. "Kitabi -Dədə Qorqud" dastanının baş qəhrəmanı Qazan xanın adı ilə də əlaqələndirilir ( Babayev S., Naxçıvanda "Kitabi - Dədə Qorqud" toponimləri, B., 1999).

*Qazançı qalasından tapılmış boyalı keramika məmulatı. E. ə. 2-ci minillik.*



Əd.: S ə y i d o v A. Q. Naxçıvan tunc dövründə, Bakı, 2000.

**QAZANÇI MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Qazançı k.-ndən 2,5 *km* c.-ş.-də, Əlincəçayın hövzəsindədir. 2 bulaqdan ibarətdir. Su axdıqca dəmir oksidinin qırmızımtıl-sarı çöküntüləri iz buraxır. Suda 31 *mq/l* dəmir var. Temp-ru 19°C, debiti 15 $m^3$/*gün*.

Balneoloji tərkibi:

$$CO_2 1{,}5\,M4{,}5\,\frac{HCO_3 71\,SO_4 20}{(Na+K)38\,Ca36\,Mg27}\cdot pH\,6{,}4\,D\,15\,m^3/gün\,T\,19^\circ C$$

Suyu az minerallaşmış, karbon qazlı, hidrokarbonatlı-sulfatlı-natriumlu-maqneziumludur. Mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur.

**QAZANÇI NEKROPOLU I** – Culfa r-nunun Qazançı k.-ndən şm.-ş.-də, uzunsov təpənin üstündə orta əsrlərə aid arxeoloji abidə. 1991 ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, planı çıxarılmışdır. Qəbirlər qiblə istiqamətindədir; əksəriyyətinin baş daşları yoxdur, sinə daşları kobud hazırlanmış uzunsov və dördkünc formadadır (bir qrupu sandıq şəkillidir). Ərazidən gil qab qırıqları tapılmış, bir neçə qoç daşa təsadüf edilmişdir. Abidənin 13–17 əsrlərə aid olması ehtimal edilir.

**QAZANÇI NEKROPOLU II** – Culfa r-nunun Qazançı k.-ndən c.-ş.-də, Əlincəçayın sağ sahilində orta əsrlərə aid arxeoloji abidə. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbirlər qiblə istiqamətindədir; baş daşları saxlanmamışdır, sinə daşları kobud hazırlanmış dördkünc və uzunsov formadadır. Bəzi sinə daşları yastıdır. İki qəbirin üzərində həndəsi xətlərin olduğu müəyyən edilmişdir. Məlumata görə, qəbiristanda xeyli qoç fiqurlu qəbirüstü daşlar olmuşdur (hazırda yalnız biri saxlanmışdır). Abidə, çox güman ki, 14–18 əsrlərə aiddir.

**QAZANGÖL** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Nə-



Qazangöl–Ağdağ silsiləsi.

sirvaz çayının mənbə hissəsindədir. Hünd. 3829 *m*. Sıldırım yamaclıdır və kəskin parçalanmışdır. Eosenin vulkanogen süxurlarından təşkil olunmuşdur.

**QAZANGÖL** – Zəngəzur silsiləsi suayırıcının ş.-ində, təxm. 3070 *m* hünd.-də, 1,5 *ha* sahəyə malik şirin sulu bulaq gölü. 1920 ildə Erm. SSR yaradılarkən həmin respublikaya verilmişdir. Suayırıcının q.-indəki eyni mənşəli göldən Qazangöl aşırımı ilə ayrılır. Xalq arasında bu göllər "bir-birindən ayrı düşmüş əkiz bacı" adlandırılır. Q.-ün "Kitabi-Dədə Qorqud" eposunun baş qəhrəmanı Qazan xanın adı ilə bağlı olduğu ehtimal edilir (Babayev S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999).



A. Q a z ı y e v. "İntizar". 1967.

**QAZANXAN** – Şərur r-nunun Arbatan k. yaxınlığında son orta əsrlərə aid yaşayış yeri. Arxeoloji qazıntı işləri aparılmamışdır. Kəşfiyyat səciyyəli tədqiqatlar zamanı maddi mədəniyyət nümunələri toplanmışdır. Orta əsrlər üçün xarakterik olan tapıntılar Q. yaşayış yerini 9–17 əsrlərə aid etməyə imkan verir.

**QAZANKÖÇ** – Ordubad r-nunun Tivi və Nəsirvaz k.-ləri arasında yaylaq yeri. Tivi camaatı əsasən heyvandarlıqla məşğul olduğundan yaz-yay aylarında mal-heyvanla bu yaylağa qalxırdı. "Köç yeri", "yurd yeri" kimi başa düşülən Q. toponiminin "Kitabi-Dədə Qorqud" eposunun baş qəhrəmanı Qazan xanın adı ilə bağlı olduğu ehtimal edilir (Babayev S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999).

**Qazıyev Adil**



**QAZIYEV** Adil Yusif oğlu (26.3.1906, Naxçıvan ş. – 1.1.1973, Bakı) – sənətşünas. Sənətşünaslıq doktoru (1968), prof. (1972). Moskva Toxuculuq İn-tunu bitirmişdir (1937). 1937–40 illərdə həmin in-tun aspirantı olmuş, eyni zamanda bədii parça kafedrasında dosent əvəzi işləmişdir. 1941 ildən Bakı kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyət göstərmişdir.

1945–72 illərdə Azərb. Milli EA Memarlıq və İncəsənət İn-tunda təsviri sənət şöbəsinin müdiri, 1946–1952 illərdə eyni zamanda Azərb. Dövlət Un-tində (indiki BDU) incəsənət kafedrasının müdiri vəzifəsində işləmişdir. Q. Azərb. təsviri və dekorativ-tətbiq sənətlərinin tarixinə və inkişaf problemlərinə, o cümlədən xəttatlıq sənəti və əlyazmaların bədii tərtibatına dair elmi tədqiqatların müəllifidir.

Ə s ə r l ə r i: Xalq rəssamı Əzim Əzimzadə, B., 1953; Миниатюры и рукописи "Хамсе" Низами, Б., 1964; Художественно-технические материалы и терминология средневековой книжной живописи, каллиграфии и переплетного искусства Б., 1966; Художественное оформление азербайджанской рукописной книги XIII–XVII вв., М., 1977.

**QAZIYEV** Arif Şamil oğlu (d.2.1.1937, İrəvan) – heykəltəraş. *Ş. H. Qazıyevin* oğludur. Ə. Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini (indiki Rəssamlıq Akademiyası, 1958) və Moskvada V. Surikov adına Rəssamlıq Akademiyasını (1965) bitirmişdir. Müxtəlif janrlarda və mövzularda yaradılmış "Babək", "Hüseyn Cavidin büstü" (H. Cavidin Naxçıvandakı ev-muzeyi), "Qırat bizi gözləyir", "Qafqaz qartalları", "Cəngi", "Canlı qala", "Dəhşət", "Soyuq", "İki bumeranq" və s. əsərlərin müəllifidir. 1957 ildən respublika, ümumittifaq və beynəlxalq sərgilərdə iştirak etmişdir. Əsərləri müxtəlif muzeylərdə ["Bakılı qız", "Məhəmməd Nəsirəddin Tusi" – R. Mustafayev adına Azərb. Dövlət İncəsənət Muzeyi; "Tarla gözəli" – Şərq Sənətləri Muzeyi (Moskva) və s.], habelə ABŞ, Almaniya, Avstriya və Türkiyədəki şəxsi kolleksiyalarda saxlanılır.

**QAZIYEV** Heydər Əhməd oğlu (28.5.1909, indiki Şərur r-nunun Şahtaxtı k. – 3.3.1988, Bakı) – baytar həkimi. Baytarlıq elmləri namizədi (1949). Azərb. Respublikası əməkdar baytar həkimi (1955). Zaqafqaziya Zoobaytarlıq İn-tunu (İrəvan) bitirmişdir (1932). Nax. MSSR Xalq Torpaq Komissarlığında, Azərb. SSR Xalq Torpaq Komissarlığının



baş baytarlıq idarəsində məsul vəzifələrdə çalışmışdır (1932–60). 1961–66 illərdə Nax. MSSR Nazirlər Soveti sədrinin birinci müavini – kənd təsərrüfatı naziri olmuşdur. 1966 ildən Azərb. Elmi Tədqiqat Baytarlıq İn-tunun elmi katibi işləmişdir. Nax. MSSR Ali Sovetinin deputatı seçilmişdir (1962–66). Orden və medallarla təltif edilmişdir.

**QAZIYEV** Məmməd bəy [1867, İrəvan – 30. 3. 1909, Uluxanlı k. (indi Ermənistan ərazisindədir)] – maarif xadimi. İrəvan Müəllimlər Seminariyasını bitirmiş (1886), Uluxanlı məktəbinə müəllim təyin olunsa da, 1887 ildə xəstəliyinə görə tutduğu vəzifədən azad edilmişdir. 1888 ildə Baş Noraşen (indiki Cəlilkənd) ikisinifli məktəbinə müdir əvəzi təyin olunmuş, az sonra həmin məktəbin müdiri vəzifəsinə keçirilmişdir. Burada 1 il 7 aydan çox C. Məmmədquluzadə ilə birlikdə fəaliyyət göstərmiş və onların birgə səyi nəticəsində məktəbə cəlb edilən şagirdlərin sayını xeyli artırmaq mümkün olmuşdur. Məktəbdə müəllim və şagirdlərin iştirakı ilə teatr tamaşaları hazırlanıb göstərilmiş və bundan əldə edilən vəsait yoxsul şagirdlərin ehtiyacına sərf edilmişdir. 1896 ildən pedaqoji fəaliyyətini Uluxanlı məktəbində davam etdirən Q. Uluxanlı d.-y. st.-nda faciəli surətdə həlak olmuşdur.

Əd.: H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**QAZIYEV** Şamil Həsən oğlu (30.3.1908, İrəvan – 13.7.1980, Bakı) – rəssam. Əməkdar incəsənət xadimi (1944). Bakı Rəssamlıq Məktəbini bitirmişdir (1929). Naxçıvan Pedaqoji Texnikumunda müəllim (1929–32), "Kommunist" (Bakı) qəzetində rəssam (1932–34) işləmişdir. 1934 ildən "Şərq qapısı" qəzetinin baş rəssamı, eyni zamanda C.Məmmədquluzadə ad. Naxçıvan Musiqili Dram Teatrının baş rəssamı (1934–48) olmuş, burada 120-dən çox tamaşaya ("Şeyx Sənan", H.Cavid; "Leyli və Məcnun", Ü.Hacıbəyov; "Aydın", "Od gəlini", C.Cabbarlı; "Vaqif", "Fərhad və Şirin", S.Vurğun; "Qaçaq Nəbi", S.Rüstəm; "Həyat", M. İbrahimov; "Otello", "Hamlet", U.Şekspir və s.) bədii tərtibat vermişdir. SSRİ Rəssamlar İttifaqının üzvü idi (1940 ildən). 1940–41 illərdə Naxçıvan Rəssamlıq Məktəbinin direktoru olmuşdur. 1948 ildən ömrünün sonunadək "Azərbaycan gəncləri"



Q a z ı y e v Ş. Qaçqınlar. Yağlı boya. 1977.

qəzetində rəssam işləmişdir. Qrafik əsərlərin, etüd, natürmort, portret və s. əsərlərin müəllifidir. Q.-in "Çoban" portreti Tretyakov qalereyasında (Moskva) saxlanılır (1931; SSRİ rəssamlarının 1931 ildə Tiflisdə keçirilən səyyar sərgisində nümayiş etdirilmişdir). Yaradıcılığında Naxçıvanın tarixi, təbiəti, həyat və məişəti ilə bağlı əsərlər əsas yer tutur ("Köhnə Naxçıvan", "Əlincəqala", "Qaçqınlar", "Xıncov məhəlləsi", "Beş qardaş dağı", "Çörəkbişirənlər", "Qalayçılar", "Hamam", "Çarıq tikənlər", "Nalbənd" və s.). Əsərlərinin çoxu Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Naxçıvanda fərdi sərgisi keçirilmişdir (1978).

Əd.: Шамил Казиев. Каталог, Б., 1978.

**QAZIYEVA** Xədicə Bahəddin qızı (15.2.1909, Kazan – 7.6.1991, Naxçıvan ş.) – aktrisa. Azərb. Respublikasının əməkdar artisti (1964). 1926–68 illərdə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir. Q. burada dolğun və mənalı obrazlar silsiləsi yaratmışdır: Sirab ("Qaçaq Kərəm", V. Mçedlişvili), Pəri, Şamama qarı ("Pəri cadu", Ə. Haqverdiyev), Solmaz, Gülüş ("Od gəlini", "Sevil", C. Cabbarlı), Xumar ("Şeyx Sənan", H. Cavid), Həyat ("Həyat", M. İbrahimov), Gertruda, Dezdemona ("Hamlet", "Otello", U. Şekspir) və s.

**Qazıyeva Zəhra**



**QAZIYEVA** Zəhra Kərim qızı (d. 2.5.1912, Naxçıvan ş.) – terapevt. Azərb. Respublikası əməkdar həkimi (1960). Sosialist Əməyi Qəhrəmanı (1969). Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirdikdən (1942) sonra Bərdə r-nundakı Otuzikilər k.-nin tibb məntəqəsində həkim işləmişdir. 1959 ildən həmin r-nun Kolayır kənd xəstəxanasının baş həkimi idi. SSRİ Ali Sovetinin (6-cı çağırış) deputatı olmuşdur.



*Qazma mağarası. Əmək alətləri. Mustye mədəniyyəti.*

**QAZMA MAĞARASI** – Şərur r-nunun Tənənəm k.-ndən 3 *km* c.-ş.-də, Arpaçayın sol sahilində Paleolit dövrünə aid düşərgə. Dəniz səviyyəsindən təqr. 1500 *m* yüksəklikdədir. Mağaranın uz. 22 *m*, eni 1,0–6,5 *m*-dir. 1987–90 illərdə tədqiq edilərək 6 mədəni təbəqə qeydə alınmışdır. Düşərgədə çöküntünün ümumi qalınlığı 3 *m*-ə bərabərdir. 20 $m^2$ sahədə aparılan arxeoloji qazıntılar nəticəsində 12 mindən artıq ovlanmış heyvan sümüyü və 1000-ə qədər obsidian (d ə v ə g ö z ü), çaxmaqdaşı və daşlı şistdən hazırlanmış əmək alətləri (əsasən levallua və Mustye itiucluları, limas, 1 və 2 işlək ağızlı qaşovlar, belli qaşov və s.) aşkar edilmişdir. IV təbəqədən daş alətlərlə yanaşı, sümükdən biz, bıçaq, kəsici və oyucu alətlər də aşkar olunub; V və VI təbəqələrdə bir neçə ocaq yeri qeydə alınıb. Düşərgənin IV təbəqəsində çapılıb doğranmış fauna qalıqlarının çoxluğu ovçuluğun o dövrdə ibtidai insanların əsas təsərrüfat forması olduğunu göstərir. Q. m.-nda tapılmış daş məmulatının hazırlanma texnikası və tipoloji xüsusiyyətləri bu ərazidə qədim insanların hələ Mustye mədəniyyəti dövründə, yəni 80–90 min il bundan əvvəllərdən məskunlaşıb yaşadıqlarını göstərir.

*Əd.:* C ə f ə r o v Ə., Naxçıvan Paleolit düşərgəsi, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 1999, № 4; y e n ə o n u n, Средний Палеолит Азербайджана, Б., 1999.



*Qədimov Arif*

**"QEYRƏT"** – nəşriyyat-mətbəə. Naxçıvan Dövlət Un-tinin tərkibində fəaliyyət göstərir. 1997 il avqustun 12-də yaradılmışdır. Təsisçiləri Naxçıvan Dövlət Un-ti və prof. İ. Həbibbəylidir. Adı 1905 ildə C. Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və maarifpərvər tacir M. Bağırzadənin Tiflisdə yaratdıqları eyniadlı mətbəə-nəşriyyatın adından götürülmüşdür. Universal nəşriyyat– mətbəədir. Tədris-metodiki, elmi-pedaqoji, ədəbi-tarixi, ictimai-siyasi ədəbiyyat, dərslik, dərs vəsaiti və proqramlar, jurnal və s. materiallar nəşr etmək hüququ var. "Q".-də Nax. MR-in 75 illiyi ilə əlaqədar yubiley nəşrləri, müxtəlif siyasi, elmi-kütləvi kitab və monoqrafiyalar, broşür və bukletlər buraxılmışdır.

**QEYSƏRİYYƏ** – 17 əsr Azərb. memarlıq abidəsi. Ordubad ş.-ndədir. Böyük günbəzdən və ona bitişik səkkiz kiçik günbəzdən ibarətdir. Gözəl memarlıq üslubunda inşa edilmişdir. İlk vaxtlar örtülü ticarət mərkəzi kimi nəzərdə tutulmuşdu. Sonralar pəhləvanların güləşdiyi yer kimi xalq arasında *Zorxana* adı ilə tanınmışdır. 19 əsrin ortalarında *"Əncüməni-şüəra"* ədəbi məclisinin yığıncaqları burada keçirilirdi. 1985 ildə əsaslı bərpa olunmuşdur. 1990 ildən Ordubad tarix-diyarşünaslıq muzeyi burada yerləşir. Ərdəbil, Təbriz və b. şəhərlərdə zərgərlik məmulatı satılan örtülü bazarlar da Q. adlanır.

**QƏDİMOV** Arif Firudin oğlu (d.1.8.1940, Naxçıvan ş.) – tərtibatçı rəssam. Nax. MR (1989) və Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1999). 1965 ildə Moskvada Hərbi Xarici Dillər İn-tuna daxil olmuş, lakin obyektiv səbəbdən təhsilini davam etdirə bilməmişdir. Bakı Yüngül Sənaye Texnikumunu bitirmiş (1969). Bakı və Xankəndi ayaqqabı f-klərində modelyer, baş modelyer-konstruktor (1969–74), C. Məmmədquluzadə ad. Nax. MR Ədəbiyyat Muzeyində tərtibatçı rəssam (1975–85) işləmişdir. 1985–95 illərdə Nax. Dövlət Tarix Muzeyinin baş rəssamı olmuş, burada "Qanlı Yanvar", "30-cu illərin maarif xadimləri", "Bəhruz Kəngərli", "Heydər Əliyev" və s. guşələr yaratmışdır. Tarixi-sənədli filmlərin ("Qədim diyar", "Mənim Naxçıvanım", "Köhnə qala haqqında ballada" və s.) müəllifidir. "Gəmiqaya" filmi ABŞ, Kanada, Argentina və Avstraliyada nümayiş etdirilmiş, beynəlxalq kataloqa düşmüşdür. Q. 1998 ildən "Azərbaycan xalçası" Nax. MR Dövlət Muzeyinin direktorudur; özünün yaratdığı "Mömünə xatun" türbə-muzey kompleksinə də rəhbərlik edir. "Ağ yolun yolçusu", "Müqəddəs qəbirlər sorağında", "Sirli xalçalar", "Bir ömür yaşadım Adəmli, Nuhlu" tarixi tədqiqat əsərlərinin müəllifidir.



**QƏLEYLİ MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, dağlıq yerdə, Batabat bulağından 150 *m* ş.-dədir.

Balneoloji tərkibi:

$$CO_2\,1{,}7\,M2{,}6\,\frac{HCO_3\,93}{Ca52\,Mg24}(Na+K)23\cdot$$

$$\cdot pH\,6{,}5\,D\,28\,m^3/gün\;\;T\,12^{\circ}C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-kalsiumlu-maqneziumlu-natriumludur. Müalicə əhəmiyyətinə malikdir.

**QƏLƏMKARLIQ** – pambıq parçaya naxışvurma sənəti. Yaxın Şərq ölkələrində qədimdən geniş yayılmış Q. orta əsrlərdə Azərb.-da, xüsusən Naxçıvanda daha çox inkişaf etmişdi. Məşhur türk səyyahı Övliya Çələbinin (17 əsr) məlumatına görə, Naxçıvanın qələmkar (üzərinə qəliblə basmanaxış vurulub, sonradan gəzmələri qələm ilə işlənən) bədii parçaları (süfrə, boxça, canamaz, pərdə, müxtəlif örtüklər və s.) Azərb. -dan xaricdə də məşhur idi. Q. 19 əsrdən tədricən aradan çıxmışdır.

**QƏLƏNDƏRXANA** – Nehrəm k. yaxınlığında mövcud olmuş arx. Orta əsrlərin bəzi dövrlərində İran, Azərb. və Türkiyədə su təsərrüfatı dərviş-şeyxlərin ixtiyarında olduğundan Q. arxının da "Qələndəriyyə" dərviş ordeninə məxsusluğunu ehtimal etmək olar.

**QƏLƏNDƏRLİ** Baxşı Həsən oğlu (20.7.1903, Xankəndi – 14.9.1985, Naxçıvan; İrəvanda dəfn edilmişdir) – teatr rejissoru. Ermənistan (1939) və Azərb. Respublikası (1974) əməkdar incəsənət xadimi. Bakı Teatr Texnikumunda (1926–30) və Leninqrad (indiki Sankt-Peterburq) Səhnə Sənəti İn-tunda (1930–34) təhsil almışdır. 1934–51 illərdə C.Cabbarlı ad. İrəvan Azərb. Dram Teatrında baş rej. işləmiş, 1964–85 illərdədə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir. "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F. Axundov), "Od gəlini" (C. Cabbarlı), "Otello (U. Şekspir), "Mehmanxana sahibəsi" (K. Qoldoni),"Cehizsiz qız" (A. Ostrovski), "Dördüncü" (K. Simonov), "Məhsəti" (Kəmalə), "Səadət nəğməsi" (Ə. Yusifli), "Koroğlunun səhvi" (İ. Şıxlı), "Qəmli günlər" (N. Əliyev) və s. tamaşalara quruluş vermişdir. 2 "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.



*Əliqulu Qəmküsar*

**QƏMKÜSAR** (Əliqulu Ələkbər oğlu N ə c ə f o v u n təxəllüsü; 1880, Naxçıvan ş. – 14.3.1919, Tiflis) – şair, jurnalist, ictimai xadim. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərini öyrənmişdir. Sonralar M. T. Sidqinin Naxçıvanda açdığı yeni üsullu "Tərbiyə" ("Məktəbi-tərbiyə") məktəbində oxumuşdur. Q.-ın ilk qələm təcrübələri də bu dövrə təsadüf edir. Atasının vəfatından (1896) sonra Q. məktəbi buraxmağa və başçısız qalan ailəni dolandırmaq üçün Culfaya köçərək, işləməyə məcbur olur. Dövrün mütərəqqi ictimai-siyasi həyatına qoşulan Q. burada Tiflis "Hümmət" təşkilatının yerli özəyində çalışır, Səttarxan hərəkatı, İran Azərb.-ı inqilabçıları ilə əlaqə saxlayır, onlara yardım göstərir. Polis tərəfindən təqib olunmasına baxmayaraq, Q. azadlıq hərəkatında fəal iştirak edirdi. 1912 ildə C. Məmmədquluzadənin dəvəti ilə Tiflisə köçən Q. "Molla Nəsrəddin" jurnalının nəşrində onun yaxın köməkçisi olur. 1913–14 illərdə jurnalda məsul mühərrir kimi, C. Məmmədquluzadə ilə yanaşı, Q.-ın da imzası getmişdir. C.Məmmədquluzadə Q.-ın adını jurnalın ən fəal, ən mübariz mühərrirlərindən biri kimi xüsusi hörmətlə yad etmişdir. 1916–17 illərdə C. Məmmədquluzadə ilə birlikdə ədibin "Ölülər" komediyasının Bakıda, Orta Asiyada və Volqaboyu vilayətlərində tamaşaya qoyulmasında fəal iştirak etmiş, Şeyx Nəsrullah rolunun ilk ifaçısı olmuşdur. 1917 ildə bir müddət Naxçıvanda yaşamış, burada "El güzgüsü" adlı dram dərnəyi təşkil etmişdir. Həmin il yenidən Tiflisə köçən Q. "Molla Nəsrəddin" jurnalı ilə yanaşı, digər mətbuat orqanlarında da şer, məqalə və felyetonlar dərc etdirmişdir. Tiflisdə qaragüruhçular tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Ə. Haqverdiyev Q.-ın öldürülməsinin beş illiyi münasibətilə yazdığı məqalədə ona dəyən güllənin "Molla Nəsrəddin"in ürəyinə dəydiyini qeyd edirdi.

Q. Azərb. ədəbiyyatı tarixinə mollanəsrəddinçi şair kimi daxil olmuşdur. Məhz "Molla Nəsrəddin" ədəbi mühitinin ən qabaqcıl nümayəndələrindən olan Q. 1906 ildən "Cüvəllağı", "Cüvəllağıbəy", "Sarsaq-


Qənbərli Əli

qulubəy", "Simurq", "Xadimi-millət", "O taylı" və s. imzalarla dərc etdirdiyi satirik şer və felyetonlarda fanatizmi, gerilik və cəhaləti, fırıldaqçı ruhaniləri, çarizmin müstəmləkəçilik siyasətini, İran əks-inqilabını, Şərq, xüsusən İran istibdadını, beynəlxalq imperializmi kəskin satira atəşinə tutmuşdur. Onun satirası həm ideya məzmunu, həm də bədii ədası və üslubu ilə M. Ə. Sabir satirasının davamı idi. Q. "Molla Nəsrəddin" jurnalının Azərb. dilinin saflığı və xəlqiliyi uğrunda apardığı mübarizədə fəal iştirak edirdi.

Q.-ın həyat və yaradıcılığı geniş tədqiq olunmuşdur. Haqqında ilk dissertasiyanı isə Naxçıvanın qocaman maarif xadimi, filologiya elmləri namizədi *Lətif Hüseynzadə* yazmışdır (1950). M. Tarıverdiyevin "Qəmküsar" pyesi şairin ömür yolundan bəhs edir.

Ə s ə r i: Seçilmiş əsərləri, B., 1959.

*Əd.:* H a c ı y e v C., XX əsr Azərbaycan ədəbiyyatı tarixi, B., 1955; Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c. 2, B., 1960; M i r C ə l a l, H ü s e y n o v F., XX əsr Azərbaycan ədəbiyyatı, nəşr 3, B., 1982; A ğ a y e v İ., Əliqulu Qəmküsar, B., 1976; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**QƏNBƏRLİ** Əli Həsənəli oğlu (5.2.1907, Ordubad ş. – 26. 8. 1987, orada) – müəllim. Azərbaycanın əməkdar məktəb müəllimi (1943). Naxçıvan Müəllimlər Seminariyasını (1928) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) biologiya fakültəsini (1939) bitirmişdir. Ömrünün yarım əsrdən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Q. Ordubad məktəblərində müəllim, direktor, Ordubad pedaqoji məktəbinin dərs hissə müdiri və direktoru (1939–43), rayon xalq maarif şöbəsinin müdiri (1936–37; 1954–57) vəzifələrində işləmişdir. Şərəf nişanı ordeni və medallarla təltif edilmişdir. Respublika əhəmiyyətli fərdi pensiyaçı idi.

**QƏVAMƏDDİN NAXÇIVANİ**, A b d u l l a h i b n Ə h m ə d ə t - T u s i ə n N a x ç ı v a n i (?–?) – 13 əsrdə yaşamış məşhur vəkil. Ərəb alimi və biblioqrafı *İbn əl-Fuvatinin* məlumatına görə Q. N. "yaxşı həmsöhbət, insanların xahişini yerinə yetirməyə çalışan, xoşxasiyyət, imamlar və alimlər nəslindən olan şəxs idi".

*Əd.:* С е и д б е й л и М. Г. Научно-культурная жизнь Азербайджана (Второй половини XIII – начала XIVв.в.), Б., 1999.

**QILINCYURD DAĞI** – Culfa r-nu ərazisində dağ. Hünd. 2455 *m*. Şm.-a doğru tədricən alçalır və relyefdə tirə əmələ gətirir. Günbəzvarı formadadır.

**QIRXLARDAĞ** – Culfa r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q. istiqamətində ayrılan yan silsilənin suayrıcında zirvə. Hünd. 3175 *m*. Əlincəçayın mənbə hissəsindədir. Konusvarı formadadır.

**QIRXLARDAĞ** – Culfa r-nu ərazisində dağ. Əlincəçayın sağ sahilində, Qazançı k.-ndən 4 *km* c.-q.-dədir. Hünd. 1742 *m*.

**QIRLAR QƏBİRİSTANI** – Şərur r-nu ərazisində son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Daşarxdan Dizəyə gedən yolun ikinci döngəsində yol genişləndirilərkən nəhəng xumlar tapılmışdır (1987). İçərisində insan skeleti, qab qırıqları aşkar edilmişdir. Armudvarı və şarşəkilli gövdəli, kiçik yastı oturacaqlı və geniş ağızlı xumlar dulus çarxında hazırlanmışdır; bəziləri əldə formalaşdırılmışdır. Xaricdən 2–3 yerdən enli relyefli kəmərlərlə əhatələnmişdir. Hünd. 1,5 *m* olan küplərin gövdəsi olduqca genişdir ( diametri bəzi yerlərdə 80 *sm*). Abidənin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

**"QIRMIZI TABOR"** – 1918–22 illərdə Naxçıvan, İrəvan, Dərələyəz Zəngəzur və s. ərazilərdə fəaliyyət göstərmiş könüllü partizan birləşməsi. *A. Şadlinskinin* başçılığı ilə 1918 ilin yayında Vedi k.-ndə yaradılmış və ilk vaxtlar 1917–18 illərdə Cənubi Qafqazda hökm sürən hərc-mərclik şəraitində erməni-daşnak quldur dəstələrinin törətdikləri qanlı cinayətlərdən, yerli bəy və xanların zülmündən əzab-əziyyət çəkən kəndliləri birləşdirirdi. 1918 ilin iyulunda daşnakların Vediyə birinci hücumu zamanı "Q. t." hissələri onlara ciddi müqavimət göstərmiş, düşməni canlı qüvvə və texnika sarıdan çoxlu itki verərək qaçmağa məcbur etmişdilər; çoxlu silah və sursat qənimət kimi ələ keçirilmişdi. 1919 ilin iyulunda daşnakların Vediyə ikinci hücumu zamanı "Q. t." dəstələri yenə də qəhrəmancasına müqavimət göstərmiş, lakin düşmənin üstün qüvvələri qarşısında vuruşa-vuruşa öz mövqelərini tərk etməyə və İrəvan ş.-nə doğru geri çəkilməyə məcbur olmuşdular. Bundan sonra Vedibasar, Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçən "Q. t." hissələri əvvəlcə Xoy ş. yaxınlığındakı Qəzənfərdağ adlı yerdə, sonra isə



Mərənd ş. ətrafında mövqe tutmuşdular. Naxçıvanda sovet hakimiyyəti elan edildikdən (1920, 28 iyul) sonra Naxçıvan Hərbi İnqilab Komitəsinin dəvəti ilə A. Şadlinskinin başçılığı altında 200 nəfərlik "Q. t" dəstəsi sentyabrın 17-də Naxçıvana gəlmişdi. Buradakı qırmızı qvardiya dəstələri "Q. t."-la birləşmişdilər. "Q. t."-a əvvəlcə Naxçıvan sərhədlərinin qorunması tapşırılır, sonra isə onun döyüşçüləri Zəngəzur istiqamətində daşnaklara qarşı döyüş əməliyyatları aparırlar. 1921 ilin fevralında Ermənistanda sovet hakimiyyətinə qarşı qiyam qaldıran daşnaklar İrəvanda yenidən hakimiyyətə gəlirlər. Həmin qiyamın yatırılmasında Erm. SSR hökumətinin dəvətilə köməyə gəlmiş "Q. t." hissələri də fərqlənmişdilər. Döyüşlərdə göstərdikləri şücaətə görə A. Şadlinski başda olmaqla "Q. t".-un 19 üzvü Erm. SSR-in "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu. "Q. t." hissələri Zəngəzurun daşnaklardan təmizlənməsində də böyük hünər göstərmişdilər. Ermənistanda və Zəngəzurda sovet hakimiyyəti bərqərar olduqdan sonra "Q.t." Naxçıvanda saxlanılmış və onun sərhədlərinin mühafizəsində fəal iştirak etmişdi. 1986 ilin oktyabrında Naxçıvan MR-in Şərur r-nunda "Q. t." partizan dəstəsinə həsr olunmuş "Şöhrət muzeyi" açılmışdır. Yazıçı F. Kərimzadənin "Qarlı aşırım" romanı və onun əsasında çəkilmiş "Axırıncı aşırım" bədii filmi Q. t.-un fəaliyyətindən bəhs edir.

*Əd.:* Ə l i y e v Ə., Qırmızı tabor, B., 1990; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər), B., 1998.

**QIŞLAĞAT NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə Q. n. 11 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 11 kəndində müsəlmanlar (Azərb. türkləri) 3 kəndində xristianlar, 1 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 261–371 ağça idi.Bu da Naxçıvan sancağının illik gəlirinin 9,9%-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.


Qıtqın yaşayış yerindən tapılmış keramika məmulatı. Antik dövr

**QIŞLAQ ABBAS** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 *km* c.-da, Arpaçayın sahilində, düzənlikdədir. İbadulla k. ilə qarışıq olmuş, son zamanlar ondan ayrılmışdır; inzibati binaları müştərəkdir. Əh. 1643 nəfər (2000); əsasən əkinçiliklə məşğuldur. Orta məktəb, ambulatoriya, klub, mədəniyyət evi yaxınlığında *Şortəpə* qədim yaşayış məskəni var.

**QIŞLAQSU** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Mənsəbindən 57 *km* məsafədə ona tökülür. Uz. 7 *km*, hövzəsinin sah. 11 $km^2$-dir. Əsasən, qar və qrunt suları ilə qidalanır.

**QITQIN** – Culfa r-nunda Xoşkeşin k.-ndən şm.- ş.-də, Əlincəçayın sol sahilində antik dövrə aid yaşayış yeri. Ş.-də kiçik çay axan dərin dərə ilə, şm.-da hündür dağlarla, c. və q.-də Əlincəçay boyunca uzanan kiçik təpələrlə əhatələnir. Sah. 17600 $m^2$. Abidənin böyük bir hissəsi şumlanıb əkilmiş, mədəni təbəqə dağıdılmışdır. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı çaydaşından hazırlanmış dən daşları, çəhrayı rəngli şirsiz və şirli gil qab qırıqları, bişmiş kərpic və s. aşkar olunmuşdur.

Tapıntılar Culfa tarix-diyarşünaslıq muzeyində saxlanılır. Yaşayış yerinin e. ə. 1-ci minilliyin 2-ci yarısı – eramızın ilk əsrlərinə aid olduğu ehtimal edilir.

*Əd.:* S e y i d o v A. Q., Tarixdən səhifələr, B., 1999.

**QIVRAQ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 28 *km* c.-ş.-də-, Şərur–Naxçıvan avtomobil yolunun kənarında, Arazın sahilindən 6 *km* aralıdır. Əh. 4112 nəfər (2000); heyvandarlıq, yemçi-

lik, taxılçılıq və tərəvəzçiliklə məşğuldur. 2 orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, 2 uşaq bağçası, xəstəxana, məişət evi, ATS var. Ərazisindəki orta əsrlərə aid yaşayış yerindən (hazırda müasir tikintilərin altında qalmışdır) şirli və şirsiz saxsı qab qırıqları toplanmışdır. 18 əsrə aid məscid, 19 əsrdə inşa edilmiş hamam qalmaqdadır. E. ə. 3–1-ci minilliklərə aid *Qulamlıtəpə* arxeoloji abidəsi kəndin yaxınlığındadır.

**QIVRAQ NEKROPOLU** – Şərur r-nunda, Qıvraq k.-ndən c.-da, Qıvraq yaylasından Asnı çayına enən düzənlik ərazidə Tunc dövrünə aid arxeoloji abidə. Sah. 2 *ha*. Burada diametri 3–5 *m*-ə çatan yonulmamış iri daşlardan qurulmuş kromlexlərə təsadüf olunmuşdur. Qəbiristanda üzərində müxtəlif məişət əşyaları və heyvan təsvirləri həkk edilmiş qoç və sənduqə formalı qəbir daşları vardır. Təsərrüfat işləri zamanı bir neçə daş qutu tipli qəbir abidəsi dağıdılmışdır. Əldə olunmuş materiallar (əsasən, monoxrom boyalı küpə və kasa tipli qablar) Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir.

**QIVRAQ SU ANBARI** – Şərur r-nu ərazisində, Qıvraq k.-nin şm.-ş.-ində çay yatağından kənar yaradılmış su anbarı. 921 *m* hünd.-dədir. Arpaçaydan çəkilmiş Yuxarı sovxoz kanalının, bulaqların və müvəqqəti axarlı çayların suyu ilə qidalanır. Fəsli tənzimləməyə malikdir. Suvarmada istifadə edilir.

**QIVRAQ TİRƏSİ** – Şərur r-nu ərazisində dağ tirəsi. Dərələyəz silsiləsindən c.-q. istiqamətdə alçaq dağlıqdan ayrılan qoldur. Uz. 6 *km*. Tirənin suayırıcında hünd. 1004, 1023, 1058, 1066 *m* olan günbəzvarı yüksəkliklər var.

**QIZ QALALARI** – Şərur r-nunda, Aşağı Yaycı k.-nin c.-q.-ndə Tunc və ilk Dəmir dövrlərinə (e. ə. 2–1-ci minilliklər) aid arxeoloji abidə. Uzunqaya silsiləsinin Arpaçaya endiyi yerdədir. Ş.-də Arpaçay dərəsi və su anbarı, c.-da düzənlik sahə, şm.-da və q.-də dağlarla əhatələnmişdir. Abidənin c.-q.-ndə hörgü texnikasına görə *Oğlanqala* tikililərini xatırladan divar qalıqları saxlanmışdır. Geniş tədqiqat işləri aparılmamışdır. Yerüstü axtarışlar nəticəsində çəhrayı və boz rəngli gil qab (kasa və küpə tipli qablar) hissələri, dən daşları, əmək alətləri və digər maddi mədəniyyət nümunələri tapılmışdır.

Şərur r-nu Havuş k.-nin ş. tərəfində orta əsrlərə aid abidə. Sıldırım qayaların içərisində oyulmuş tağvarı sonluq abidənin orta əsrlərə aid olması fikrini irəli sürməyə imkan verir. El-oba arasında " Qız evi", "Qız qayası" adı ilə də tanınır.

Babək r-nunun Paiz k.-ndən şm.-da, Çalxanqala ilə üz-üzə e. ə. 2-ci minilliyə aid yaşayış yeri. Qalıqları təbii qayanın üzərini kəmər kimi dövrələyən ensiz zolaqda qalmışdır. Abidənin üzərindən toplanmış keramika məmulatı orta, son Tunc və erkən Dəmir dövrlərinə aiddir. Burada orta əsrlərə aid 3,5x1,6 *m* ölçüdə otaq qalığı da var. Qalanın üzərində yaşayış sahəsi az olduğundan onun gözətçi məntəqəsi kimi istifadə olunma ehtimalı mövcuddur.

*Qız qalası yaşayış yerindən tapılmış keramika məmulatı, E. ə. 2–1-ci minilliklər. Şərur rayonu.*





**QIZ-GƏLİN DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q.-ə doğru ayrılan yan silsilənin suayırıcında zirvə. Hünd. 3017 *m*. Tiviçayın mənbə hissəsindədir. Konusvarı formadadır. Gilançay və Əlincəçay vadilərində yaşamış qədim əkinçi-maldar tayfaların əsas yaylaq yeri olmuşdur.

**QIZIL ARSLAN,** M ü z ə f f ə r ə d d i n O s m a n i b n E l d ə n i z (?–1191) – Azərbaycan atabəyləri dövlətinin üçüncü hökmdarı. *Şəmsəddin Eldəniz* və *Mömünə xatunun* oğludur. Hakimiyyətə gəlməmişdən əvvəl atasının, sonra isə qardaşı Cahan Pəhləvanın zamanında dövlətin siyasi həyatında fəal iştirak etmişdir. İraq Səlcuq sultanı, Mömünə xatunun oğlu Arslanşahın hakimiyyətə gəlməsilə (1161), əslində, bütün sultanlığın başçısına çevrilən Şəmsəddin Eldəniz sultan qoşunlarının baş komandanı (əmir sipəhsalar əl-kəbir) vəzifəsini Q. A.-na həvalə edir. Q. A. atabəy *Məhəmməd Cahan Pəhləvanın* zamanında [1175–86] Azərb. və Arranın canişini olmuş, bölgədə baş verən hərbi münaqişələrdə həlledici rol oynamışdı. Qardaşı oğlu *Əbu Bəkrin* atabəyi təyin olunmuşdu. Cahan Pəhləvan ölümqabağı oğlanlarına əmiləri Q. A.-na tabe olmağı vəsiyyət etmişdi. Cahan Pəhləvanın ölümündən sonra onun arvadı İnanc xatunun tərəfdarlarının müqavimətinə baxmayaraq, Q. A. iqamətgahının yerləşdiyi Naxçıvandan Həmədana gələrək dövlətin idarəsini öhdəsinə götürür. Formal olaraq sultan titulu daşıyan 18 yaşlı III Toğrul Q. A.-ın nüfuzundan ehtiyat edərək, onu özünün atabəyi təyin etməli olur. Cahan Pəhləvanın bütün sabiq məmlükləri Q. A.-ın tərəfində idilər. Çox keçmədən III Toğrul İnanc xatunla və onun tərəfdarları ilə birləşərək Q. A.-a qarşı hərbi əməliyyatlar aparır. Xəlifədən kömək alan Q. A. yalnız 1188 ilin sonunda bir neçə uğursuz döyüşdən sonra sultanlığın paytaxtı Həmədan ş.-ni tuta bildi. Xəlifə xüsusi fərmanla onu öz canişini təyin edərək, adına xütbə oxutdurdu. Bu, Q. A.-ın müstəqil hökmdar olduğunun etiraf edilməsi idi. Xəlifə qoşunları Q. A.-ın tabeçiliyinə keçir, o özü isə Həmədanda sultan taxtına oturur. Q.A.-ın Azərb.-da olmamasından istifadə edən sultan III Toğrul öz qoşunu ilə Urmiya gölü ətrafındakı şəhərlərə (Uşnu, Urmiya, Xoy, Səlmas) hücum edərək, onları talan edir. Misir sultanı Səlahəddin Əyyubinin III Toğrulu əmisi Q. A.-la barışdırmaq cəhdləri boşa çıxır. Q. A. səlcuq əmirləri arasında mövqeyini möhkəmlətmək, özünü rəqibi olan İnanc xatun tərəfdən təhlükəsizləşdirmək məqsədilə onunla evlənir. Yalnız bundan sonra sultana qarşı çıxış edən Q. A. Həmədan yaxınlığında onun qoşunlarını məğlub edir, Nişapurinin yazdığına görə, onu əliqandallı Naxçıvan yaxınlığındakı Qəhram qalasına saldırır. Bundan sonra Həmədana qayıdan Q. A.-ın adına yenidən xütbə oxunur. O, İraq sultanlığının mütləq hakiminə çevrilir, Azərb., Arran, Həmədan, Rey və ona bitişik ərazilərə sahiblənir, Fars və Xuzistan hakimləri isə bir vassal kimi ona tabe olurlar. Q. A.-ın siyasi hadisələrlə zəngin hakimiyyəti zamanı Azərbaycan atabəyləri dövləti ciddi sarsıntıya məruz qalır. Onun sarayında özbaşınalıq hökm sürür, fitnə-fəsad baş alıb gedirdi. 1191 ilin sentyabr ayında İnanc xatunun fəal rol oynadığı qəsd nəticəsində Q. A. öldürülür. Q. A.-ın dövründə Azərb.-ın hərbi-siyasi uğurları artdı, ərazi bütövlüyü qorundu. Ölkənin iqtisadi qüdrətinə əsaslanan hakimiyyətinin ilk ilində Şirvanşah I Axsitanın hücumuna qarşı əks-hücuma keçən Q. A. Şamaxının və Dərbəndin torpaqlarını tutdu. Sultanlığın vassalına çevrilmiş Şirvanşahların dövrümüzə yetişmiş pulları üzərində Q. A.-ın hakimiyyətinin sonunadək şirvanşah və xəlifənin adları ilə yanaşı, İraq səlcuq sultanlarından Arslan şahın [1161–76] və III Toğrulun [1176–94] adları zərb edildi. Şirvanşahlar yalnız Q. A. öldükdən sonra Azərb. atabəylərinin vassallığından xilas ola bildilər. Q. A. qardaşı Cahan Pəhləvan kimi elm və mədəniyyətin tərəqqisinə xüsusi əhəmiyyət vermiş, şairlərə, memarlara, mühəndislərə, həkimlərə, elm xadimlərinə hamilik etmişdi. Məşhur şairlər onun sarayında məclislər təşkil edirdi. Q. A.-a həsr edilmiş mədhiyyələr vardır. Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində Q. A.-nı vəsf edərək, ona xidmət etdiyini bildirmişdi. Q. A.-ın dövründə Gəncə, Naxçıvan, Beyləqan, Təbriz və b. şəhərlərin qüdrəti daha da artmışdı.

*Əd*: B ü n y a d o v Z. M., Azərbaycan Atabəyləri dövləti, B, 1985; Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998; А н - Н а с а в и, Жизнеописание султана Джалал ад-Дина Манкбурны (пер. с арабского, комментарии, примечания и указатели, З. М. Буниятова), Б., 1973; Рашид ад-Дин. Сборник летописей, т. 1, кн. 1-2, т. 2-3, М.-Л., 1946-60.

**QIZIL ARSLAN,** M ə l i k X a m u ş (?–?) – Eldənizlər sülaləsinin son nümayəndələrindən biri. Atası atabəy *Özbəyin* vaxtında Naxçıvan hakimi olmuşdur. Ən-Nəsəvinin (ö.1249) məlumatına görə, anadangəlmə lalkar olduğu üçün ona "Xamuş" – "laldinməz" deyirdilər. Əsl adının Toğrul olduğu güman edilir. Ağsunqurilərdən olan Marağa hakimi atabəy Əlaəddin Körpə Arslanın [1174–1208] nəvələrindən biri, Ruindej qalasının sahibəsi Sülafə xatunla evlənmişdi. Monqollar Naxçıvana hücum edib (1221), talan və qırğına başladıqda Q. A. onlara tabe olmaqla şəhəri və onun əhalisini bəladan xilas edir. Rəşidəddinin məlumatına görə, monqollar Q. A.-a tamğa və taxta patzı vermişdi. Azərb.-ın Xarəzmşah Sultan Cəlaləddin Manqburnı tərəfindən işğalı zamanı (1225) Q. A. Gəncəyə, onun iqamətgahına gəlmiş, uzun müddət xidmətində olmuşdur. Ən-Nə-

səvinin məlumatına görə, Q. A. əfsanəvi İran hökmdarı Key-Kavusa məxsus ləl-cəvahirlə bəzənmiş çox qiymətli kəməri bəxşiş olaraq Cəlaləddinə təqdim etmişdi. Mənbələrdə (Cüveyni) Sülafə xatunla Q. A.-ın oğlu Nüsrətəddinin adı monqol əmiri Arqunun Azərb.-dakı fəaliyyəti ilə əlaqədar çəkilir. Ən-Nəsəvinin yazdığına görə, Q. A.-ın arvadı Sülafə xatun (ona Dejbanu da deyirdilər) sahiblik etdiyi torpaqların (Marağa və onun yaxınlığındakı qalaların) əlindən çıxmaması üçün Cəlaləddin Manqburnıya ərə getmişdi. Q. A. Gəncədə olduğu müddətdə sultana xidməti müqabilində heç bir diqqət görmədiyi üçün xəbər etmədən ismaililərin istinadgahı olan Ələmut qalasına getmiş, lakin bir ay sonra orada ölmüşdür.

*Əd.:* Bax *Qızıl Arslan* Müzəffərəddin məqaləsinin ədəbiyyatına.

**"QIZIL QƏLƏMLƏR"** – ədəbi təşkilat. 1925 ilin dekabrında Bakıda yaradılmışdı. Respublikanın bir neçə bölgəsində olduğu kimi, Naxçıvan ş.-ndə də cəmiyyətin filialı təşkil olunmuşdu (1927). Üzvləri, əsasən, gənc şair və yazıçılar idi [Ə. Şəkili (Abbasov), M. H. Təhmasib, Ə. Kəngərli, M. Tarıverdiyev, M. Nəsirli, B. Mərdanlı, H. Baqi, R. Quluzadə, Ə. Rasizadə və b.]; fəaliyyətində yaşlı nəslin nümayəndələri də iştirak edirdi. Cəmiyyət üzvlərinin qələm təcrübələri "Şərq qapısı" qəzetində müntəzəm dərc olunurdu. Cəmiyyət muxtar respublikanın ədəbi-mədəni həyatının canlanmasında əhəmiyyətli rol oynamışdır.

**QIZIL QIŞLAQ** – Şahbuz r-nunda mövcud olmuş kənd. Küküçayın sahilində, Naxçıvan–Kükü yolunun kənarında, Aşağı Remeşin k.-nin c.-nda idi. 1910 ildə əhalisi Aşağı Remeşin k.-nə köçürülmüşdür

**"QIZIL ŞƏRQ"** – "Şərq qapısı" qəzetinin 1924 ildə adı.

**QIZILBOĞAZ DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarındakı şm.-q. istiqamətli ekstruzivlərdən təşkil olunmuş tirənin suayırıcında, Naxçıvançayın sol sahilindədir. Hünd. 1179 *m*. Konusvarı yüksəklik əmələ gətirir. Alt Pliosen yaşlı andezit-dasit tərkibli ekstruzivdir.

**QIZILBOĞAZ DAĞLARI** – Babək r-nu ərazisində sıra dağlar. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Xalxal k. -ndən 1 *km* ş.-dədir. Şm.-q. istiqamətində uzanır. Uz. 3,5 *km*. Ən yüksək zirvəsi Qızılboğaz d.-dır (hünd. 1179 *m*.)

**QIZILBULAQ NEKROPOLU** – Şahbuz r-nunun Batabat yaylağı ərazisində erkən orta əsrlərə aid arxeoloji abidə. Sel sularının yuması nəticəsində bir neçə qəbir dağılmışdır. Qəbiristanlıqda axtarışlar nəticəsində çəhrayı rəngli saxsı qab qırıqları tapılmışdır. Abidənin 3–6 əsrlərə aid olması ehtimal edilir.

**QIZILBURUN,** Q ı z ı l v ə n g – Zəngəzur və Qaradağ silsilələrinin Araz vadisinə uzanaraq əmələ gətirdiyi dar dərə. Burada torpaq və qayalar qırmızı (qızılı) rəngdədir. Yəqin elə buna görə də bu ərazi yerli əhali tərəfindən Q., yaxud Q ı z ı l b o ğ a z adlanır.

**QIZILBURUN** – Naxçıvan ş.-ndən 18 *km* c.-da, Təzəkənd yaxınlığında e. ə. 2–1-ci minilliyə aid yaşayış yeri. Abidə coğrafi cəhətdən əlverişli mövqedə, Araz çayının sol sahilində, Zəngəzur silsiləsinin Araz vadisinə enən burnunda salınmışdır. 1926 ildə qeydə alınmışdır. 1969 ildə Q. yaşayış yerində 100 $m^2$ sahədə arxeoloji tədqiqatlar aparılmışdır. Mədəni təbəqənin qalınlığı 2 *m* olub, kül qarışıq torpaq laylarından ibarətdir. Burada tikinti qalıqları, keramika, davar sümükləri, həmçinin gildən hazırlanmış ocaq qalıqları, daş məmulatı (çaxmaqdaşıdan oraq dişləri, obsidiandan (d ə v ə g ö z ü) ox ucluqları, sürtgəclər və s.) aşkar edilmişdir. Əldə olunmuş çəhrayı, bəzən isə boz və qara rəngli keramika məmulatı (küpə, çaydan, vaza və s.), ornamentlərinin rəngarəng süjetli olmaları ilə diqqəti cəlb edən bir sıra polixrom boyalı qablar öz bədii tərtibatına görə nəinki Azərb.-ın, eləcə də qədim dünyanın ən nadir incəsənət nümunələrindən sayıla bilər. Maraqlı tapıntılardan biri də gildən hazırlanmış kişi fiqurudur. Fiqurun başında şiş papaq, əynində arxalıq vardır. Üzəri qırmızı və qara rənglərlə naxışlanmışdır.

**QIZILBURUN NEKROPOLU** – Naxçıvan ş.-ndən 18 *km* aralı, Arazın sahilində, eyniadlı qədim yaşayış yerinin yaxınlığında Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Bir hissəsi Naxçıvan–Culfa d.-y. xəttinin çəkilişi ilə əlaqədar dağıdılmışdır. Ş.-də dağ silsiləsi, şm.-da dərin xəndək, q.-də yaşayış məskəni və Araz çayı ilə hüdudlanır. Nekropol 1895 ildə aşkar olunub. Açılmış qəbirlərdə qızıl






*Qızılburun nekropolundan tapılmış arxeoloji materiallar:*
*1. Polixrom boyalı çaydan tipli qab. 2–5, 8. Polixrom boyalı küpələr. 6. Xeyrə. 7. Tunc quş fiquru. 9. Tunc aypara. 10. Tunc boyun bəzəyi. 11–12. Tunc bilərziklər. 13. Badamşəkilli ox ucluğu. 14. Tunc asma bəzək. 15. Tunc sancaq. 16. Yastı tiyəli tunc xəncər. 17. Ön Asiya tipli tunc xəncər. 18. Ox ucluğu. 19. Gil insan fiquru.*

əşyaların olduğunu görən keşişlər onları qarət etməyə başlamışlar. Sərhəd–gözətçi məntəqəsinin rəisi bunun qarşısını almış, əldə olunmuş materialların bir qismini toplayaraq Moskvaya, İmperator Arxeoloji Komissiyasına göndərmişdir. 1896 ildə arxeoloji komissiyanın göstərişi ilə qəbiristanda qazıntı işləri aparılmış, tapıntılar Moskva Dövlət Tarix



*Qızılburun daş qutu qəbri və arxeoloji materiallar: gil qablar, tunc xəncər və bəzək nümunələri.*

Muzeyinə göndərilmiş, 1909 ildə nəşr olunmuşdur. Q. n.-nda aparılan arxeoloji qazıntılar nəticəsində daş qutu qəbirlərində meyitlərin bükülü, bəzən isə oturdulmuş halda basdırıldığı aşkar edilmişdir. Qəbirlərdən küpə, çölmək, kasa, vaza, çaydan tipli qablar, tunc xəncərlər, ox ucluqları, toppuzlar, dəmir alət və silahlar, gözəl bədii tərtibatda hazırlanmış qızıl bəzək əşyaları (tunc bilərzik, asmalar, sancaqlar və s.), əqiq və pasta muncuqlar və s. tapılmışdır. Tunc dövrünün qırmızı rəngli qabları qara və qəhvəyi, yaxud qara və qırmızı boyalarla çəkilmiş həndəsi naxışlarla, bəzən də insan və heyvan təsvirləri ilə bəzədilmişdir. İlk Dəmir dövrünə aid qablar qırmızı boya ilə, nisbətən enli xətlərlə naxışlanmışdır. Qızılvəng boyalı qabları *Naxçıvan mədəniyyətinə* aiddir. Bu mədəniyyətin sahibləri patriarxal-icma quruluşunda yaşamış, əkinçilik və maldarlıqla məşğul olmuşlar. Qızılvəng boyalı qabları ilə oxşar keramika nümunələri Türkiyədə (Boğazköy, Əlişarhöyük), İranda (Sialk, Göytəpə, Təpəhissar), Ermənistanda (Təzəkənd) aşkar edilmişdir. Nekropolda xristian məbədi var (bax *Qızılvəng məbədi*).

**QIZILCA** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.-y. st.-ndan 22 *km* şm.-da, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 420 nəfər (2000); üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul-

dur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**QIZILQAYA** – Şərur r-nu ərazisində dağ. Arpaçayın sağ sahilində, onun dərəsindən 2,5 *km* şm.-q.-dədir. Hünd. 1693 *m*. Sıldırım yamaclıdır.

**QIZILQAYA SİLSİLƏSİ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Nehrəm platosunun şm.-ş.-indədir. Şm.-ş.-dən c.-q.-ə doğru uzanır. Uz. 4 *km*. Ən yüksək zirvəsinin hünd. 1073 *m*.

**QIZILLILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrlərə aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində qızıllı nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şah Əfşarın hakimiyyəti illərində [1736–47] Naxçıvandakı Q.-a inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər. Naxçıvan diyarının və Dərələyəz mahalının ayrı-ayrı kəndlərində qızıllı nəslinin qızılqışlaq, qızıllı-Pirhəsən qolları məskunlaşmışdı. Maldarlıqla məşğul olmuşlar.

**QIZILTAPILAN** – Şahbuz r-nunda, Ağbulaq k.-nin şm.-q.-ində, Naxçıvançayın sol sahilində, uzunsov təpənin üstündə orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 3500 $m^2$. Ərazidə arx çəkilərkən abidənin şm.-ş. tərəfi dağıdılmış, tikinti qalıqları üzə çıxmışdır. Buradan çəhrayı rəngli gil qab qırıqları tapılmışdır. Kəşfiyyat qazıntıları (3x3 ölçüdə) zamanı sahə çay daşlarından təmizlənmiş, mədəni təbəqədə kiçik daşlara və narıncı rəngli gil qablara, 1 *m* dərinlikdə isə tikinti qalığına təsadüf edilmişdir. Tikinti qalıqlarından aşağıda zəngin mədəni təbəqədən küllə dolu ocaq yeri, çəhrayı rəngli gil qab qırıqları, dəmir mıxlar, at nalının bəzi hissələri aşkar olunmuşdu. Tapıntılar Q. yaşayış yerinin 5–8 əsrlərə aid olduğunu göstərir.

**QIZILVƏNG** – Babək r-nu ərazisində mövcud olmuş qəsəbə. 1963 ildə Araz çayı üzərində hidrotexniki kompleksin inşası ilə əlaqədar tikintidə çalışan fəhlə, mühəndis və texniki işçilər üçün salınmışdı. 1971 ildə Araz su qovşağının istifadəyə verilməsi ilə əlaqədar qəsəbədəki quraşdırma evlər sökülmüşdür.

**QIZILVƏNG DAĞI** – Babək r-nu ərazisində dağ. Arazın sol sahilində, Nehrəm k.-nin q.-də, Araz çayı dərəsinin sol yamacındadır. Hünd. 957 *m*.

**QIZILVƏNG MƏBƏDİ** – orta əsrlərə aid xristian məbədi. Arazın sahilində, Naxçıvandan 18 *km* aralı *Qızılburun nekropolu* ərazisindədir. Məbəd yaxşı yonulmuş qırmızı daş və bişmiş kərpicdən tikilmişdir. Salamat qalmış əsas kilsə binasının daxilində dini məzmunlu 18 şəkil var; bunlardan 8-i böyük dördkünc sütunlar üzərində, 10-u isə günbəzdə çəkilmişdir.

**QIZILVƏNG MƏDƏNİYYƏTİ** – Nax. MR ərazisində yayılmış Tunc və ilk Dəmir dövrlərinə (e. ə. 2-1-ci minilliklər) aid arxeoloji mədəniyyətin vaxtilə erməni arxeoloji ədəbiyyatında işlədilmiş qondarma adı. Naxçıvan ərazisində təşəkkül tapmış bu qədim mədəniyyət elmi ədəbiyyatda *Naxçıvan mədəniyyəti* adlanır.

**QIZILVƏNG MİNERAL SU BULAQLARI** – Babək r-nu ərazisində, Qızılvəng d.-y. st.-ndan 2 *km*. Araz su anbarının bəndindən 300 *m* aralıdır. Araz su qovşağının tikintisi ilə əlaqədar bulaqların bir hissəsi su altında qalmışdır.

Suyu karbon qazlı, az minerallaşmış, sulfatlı–xloridli, natriumlu–maqneziumlu–kalsiumludur. Acı-şor dadı var.

Balneoloji tərkibi:

$$CO_2 0,7\,M5,2\frac{SO_4 80\,Cl20}{(Na+K)35\,Mg35\,Ca\,30}\cdot pH\,6,8\,D\,4,0\,m^3/gün\;\;T\,18^\circ C$$

Rusiya Federasiyasındakı "Batolin" (Pyatiqorsk) suyu tiplidir və bəzi daxili xəstəliklərin müalicəsində istifadə edilə bilər.

**"QIZLAR BULAĞI"** – Naxçıvan ş.-ndə təbii abidə-bulaq. Qala məhəlləsindədir. Qayaların arasından süzülüb gələn göz yaşı kimi dumduru sərin su yaxınlığındakı yaşıl vadi-





dən axan Bazarçayın suyuna qarışırdı. Son illərdə təbiətin füsunkar "möcüzə"si olan bu abidə, ətrafı abadlaşdırılaraq, *"Əcəmi seyrəngahı"* memarlıq kompleksinə daxil edilmiş, şəhər sakinlərinin ən dilbər istirahət guşələrindən birinə çevrilmişdir. 20 əsrin 30–40-cı illərində bulağın yerləşdiyi ərazi xalq arasında Q. B. məhəlləsi kimi də tanınırdı.

**QOÇALTI MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Adı türk xalqlarının totem, onqon saydıqları qoyunla – ağ və qara qoçla bağlıdır. Burada daşdan düzəldilmiş qədim qoç-qoyun heykəlləri var imiş. Şəhər əhalisi əlamətdar günlərdə, bayramlarda buraya yığışıb şənliklər keçirərmişlər.

**QOÇULUDAĞ** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin şm.-q. yamacında, Tənənəm k.-ndən 1 *km* şm.-ş.-dədir. Hünd. 1676 *m*. Relyefdə günbəzvarı yüksəklik əmələ gətirir.

**QOÇÜSTÜ** – Naxçıvan ş.-nin şərqində, Naxçıvançayın sağ sahilində 11–18 əsrlərə aid yaşayış yeri. Hazırda şəhərin yeni tikintiləri ilə örtülmüşdür. Tikinti zamanı əmələ gəlmiş kəsiklərdə kül qarışıq torpaq laylarından ibarət 0,5–1 *m* qalınlığında mədəni təbəqə saxlanmışdı. Burada çiy və bişmiş kərpic qırıqlarına təsadüf edilmişdir. Arxeoloji kəşfiyyat işləri (1994) nəticəsində gil qab (küpə və kasa) parçaları tapılmışdır.

**QOÇÜSTÜ NEKROPOLU** – Qoçüstü yaşayış yeri yaxınlığında orta əsrlərə aid qəbiristanlıq. Qəbirlərin bəzisinin üstündə boz və çəhrayı daşlardan yonulmuş qoç fiqurları olmuşdur. Qoç fiqurları hələ 19 əsrin axırlarında sındırılıb dağıdılmış, bir qismi isə naməlum adamlar tərəfindən aparılmışdır. Tarixçi V. M. Solovyov 1926 ildə Naxçıvanda olarkən burada salamat qalan bir çox daş qoç fiquru haqqında məlumat vermişdir. Yerli əhalinin məlumatına görə, son vaxtlaradək daş qoçun yerləşdiyi əraziyə və daş qoça sitayiş olunmuş, uşağı olmayan qadınlar niyyət edib daş qoçun altından keçmişlər. Hazırda Q. N.-nun ərazisi tamamilə dağıdılmışdır.

**QOGİ DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında, Kükü çayın mənbə hissəsində zirvə. Hünd. 3120 *m*. Yamaclarında alp çəmənlikləri var.



Qoçüstü yaşayış yerindən aşkar olunmuş arxeoloji materiallar. Orta əsr.

**QOĞTƏN** – Qafqaz Albaniyasının *Sünik* vilayəti tərkibində tarixi yer. İndiki Ordubad r-nu ərazisini əhatə edirdi. Erkən orta əsrlər erməni mənbələrinə görə, Q. əhalisi Albaniyada yaşayan utilər (udinlər), girdimanlılar və b. üçün ümumi eponim olan Sisakdan törəmələrdir. Sünik tarixini qələmə alan Stepanos Orbelyanın məlumatına görə, həvari Varfolomey Sünikdə (Sisakanda) xristianlığı onun vilayətlərindən biri olan Q.-da yaymağa başlamış, burada kilsə tikmiş, öz şagirdlərindən birini burada yepiskop qoyub, oradan Ermənistana – Dəbil (Dvin) ş.-nə getmişdi. Erkən orta əsrlərin erməni müəllifləri (Koryun, M Xorenli) Cənubi Qafqazın hər üç ölkəsində – Ermənistanda, Gürcüstanda və Albaniyada xristianlığın yayılmasında fəaliyyət göstərmiş Mesrop Maştosun Q.-ın hakimi Şabitin köməkliyi ilə burada bütpərəstliyə son qoyması haqqında məlumat verirlər. 591 il İran–Bizans müqaviləsinə əsasən Q. Sünikin başqa vilayətləri və Naxçıvanla birlikdə Vaspurakanın tərkibinə qatılaraq, siyasi baxımdan Sasanilərə tabe edildi. Albaniyada dövlətçiliyin bərpası ilə (VII əsrin 30-cu illəri) Q. yenidən Naxçıvanla birlikdə Albaniya dövlətinin tərkibinə daxil olur. Bu məlumat 9 əsr Vaspurakan tarixçisi Foma Artsruninin 7 əsr Vaspurakan vilayətləri sırasında Naxçıvanın və Q.-in adını çəkməməsi ilə də təsdiq olunur. Ərəb istilası dövründə Xilafətin Arran vilayətinə daxil olmuş Q. mənşəcə ərəb olsalar da, artıq 10 əsrdə yerliləşmiş *Əbudüləfilərin* tabeliyində olmuşdur.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998; M ə m m ə d o v a F. Azərbaycanın siyasi tarixi və


Qondarmatikmə. 19 əsr. Ordubad şəhəri

tarixi coğrafiyası. B., 1994; Степанос Орбелян. Из истории рода Сисакан. Azərb. EA TİEA, №1274.

**QONDARMATİKMƏ** – bədii tikmə növlərindən biri. Xırda və rəngarəng parçalar (Naxçıvanda baramadan da istifadə etmişlər) istənilən təsvirdə, yaxud şəkildə kəsilib başqa bir parça üzərinə qoyulur, ətrafı saya tikişlə gedilir. Qondarmalar bəzən qabarıq şəkildə olur. Q., əsasən, güləbətin, pilək, təkəldüzlə qarışıq hazırlanırdı. Keçmişdə Q. balışüzü, qadın paltarları və s. yayılmışdı; divar bəzəyi, dekorativ mahiyyətli tikmələr də hazırlayırdılar. Naxçıvan və Ordubad Q.-ləri əlvanlığı və fərdi xarakteri, realistik tikmə üslubu ilə diqqəti cəlb edir. 19–20 əsrlərə aid ən yaxşı nümunələri Azərb. Tarixi Muzeyində, Naxçıvan Tarix Muzeyində nümayiş etdirilir.

*Əd.:* Ə l i y e v a G. Naxçıvan bədii tikmələri (XIX əsrin sonu –XX əsrin əvvəlləri), Azərb. SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, № 8.

**QORÇEVAN** – inzibati-ərazi bölgüsünə əsasən, Ordubad qəzasının tərkibində olmuş kənd. Azərb.-a qarşı daim ərazi iddiaları irəli sürən ermənilər fürsət düşdükcə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpaqlarını da hissə-hissə öz ərazilərinə qatmışlar. Onlardan biri də Q.-dır. Belə ki, Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarı ilə Q. Nax. MSSR-in 9 kəndi ilə birlikdə qanunsuz olaraq Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin (1921)* şərtlərinə, eyni zamanda, beynəlxalq hüquq normalarına zidd olub, xalqımıza qarşı xəyanətkar qəsd və cinayət idi.


Qorçulu kənd orta məktəbi.

**QORÇULU** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 5 *km* aralı, Şərur düzündədir. Əh. 670 nəfər (2000); heyvandarlıq, taxılçılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**QORİ MÜƏLLİMLƏR SEMİNARİYASI**, Z a q a f q a z i y a M ü ə l l i m l ə r S e m i n a r i y a s ı – əsasən, Cənubi Qafqazın yerli əhalisindən ibtidai məktəb müəllimləri hazırlayan orta pedaqoji təhsil müəssisəsi. Məşhur rus pedaqoqu K. D. Uşinskinin layihəsi əsasında 1875 ildə Qori ş.-ndə (Gürcüstan) açılmışdı. Seminariyada hesab, həndəsə, tarix, coğrafiya, təbiət, ana dili, pedaqogika, psixologiya fənləri ilə yanaşı, ilahiyyat, hüsnxət, rəsm, musiqi, səhiyyə və tibb də tədris edilirdi. Seminariyanın Azərb. şöbəsi 1879 ildə fəaliyyətə başlamışdı. Onun yaradılmasında M. F. Axundovun böyük rolu olmuşdur. Şöbənin şagirdləri Azərb. dili və şəriət dərslərindən başqa, bütün fənləri xristian uşaqları ilə bir yerdə keçirdilər. Azərbaycanlı uşaqların seminariyaya cəlb edilməsində Azərb. şöbəsinin ilk inspektoru, görkəmli pedaqoq A. O. Çernyayevskinin (1840–94) mühüm xidməti olmuşdur. Seminariyanın məzunları C. Məmmədquluzadə, N. Nərimanov, F. Köçərli, Ü. Hacıbəyov, M. Maqomayev, R. Əfəndiyev, S. M. Qənizadə və b. Azərb.-da maarif, elm, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafında müstəsna rol oynamışlar. Onların sırasında Naxçıvan diyarının yetirmələri də az deyil. Seminariyanı bitirmiş *Ə. Xəlilov, M. Ə. Süleymanov, Ə. Sultanov, Əli Səbri (Qasımov), Ə. Abbasov* və b. Naxçıvanda milli maarifçilik hərəkatının aparıcı qüvvələrini təşkil etmiş, yeni təhsil sisteminin, teatr sənətinin əsasını qoymuşlar.

*Əd.:* S e y i d o v F. Ə., Azərbaycan müəllimlərinin hazırlanmasında Zaqafqaziya (Qori) müəllimlər seminariyasının rolu, B., 1960.

**QORUQLAR** – Ordubad r-nunda kənd. Vənənd bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 27 *km* şm.-q.-də, Ordubad–Unus avtomobil yolunun sağ kənarında, Vənənd çayının sahilindədir. Əh. 170 nəfər (2000); bağçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var.



**QOŞA DİZƏ** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 2 *km* şm.-da, Naxçıvan–Culfa avtomobil yolundan 2 *km* aralı, Naxçıvançayın (Arazın qolu) sol sahilində, Naxçıvan çökəkliyindədir. Əh. 1232 nəfər (2000); taxılçılıq, heyvandarlıq, quşçuluq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi, məscid var.

**QOŞA DİZƏ** – Ordubad r-nunda kənd. Aza bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 22 *km* şm.-da, Gilançayın sağ sahilindədir. Əh. 450 nəfər (2000); meyvəçilik, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Klub, tibb məntəqəsi, kitabxana var.

**QOŞA DİZƏ NEKROPOLU** – Babək r-nunda eyniadlı kəndin yaxınlığında antik dövrə aid arxeoloji abidə. Qazıntılar nəticəsində iki qəbir aşkar edilmişdir. İçərisində yaşlı qadın skeleti olan birinci qəbir qapaqla örtülü idi. İkincisində gənc oğlan basdırılmışdır. Skeletlər küpün içinə qoyulmuş, dizləri çənəsinə sıxdırılmış vəziyyətdədir. Küplər qırmızı gildən olub, dulus kürəsində hazırlanmışdır. Belə küplər məişətdə də işlədilirdi. Tapıntılar (saxsı qab qırıqları, muncuqlar, dəmir bıçaq, şüşə qab qulpu və s.) qəbirlərin 1–3 əsrlərə aid olduğunu göstərir.

**QOŞA MİNARƏLİ BAŞTAĞ** – orta əsrlərə




Qoşa Dizə kənd orta məktəbi. Babək rayonu.

aid Azərb. memarlıq abidəsi. 1187 ildə Naxçıvan ş.-ndə tikilmişdir. Qoşa minarədən və bunları birləşdirən baştağdan – portaldan ibarət bu abidənin portal hissəsinin üzərindəki kitabədə Əcəminin adının olduğunu 19 əsrin ortalarında Naxçıvana gəlmiş rus şərqşünası, tarixçi N. V. Xanıkov oxumuş, onun *Atabəylər memarlıq kompleksinə* daxil olduğu müəyyənləşdirilmişdir. Abidənin ümumi görünüşü 19 əsrdə çəkilmiş fotosənəddən məlumdur. İri giriş tağı yanlardan dayaz və uca taxçalarla, yuxarıdan yazı qurşağı ilə qapanan mütənasib biçimli baştağın künclərindən silindrik gövdəli minarələr ucalırmış. Çox güman ki, baştağ müxtəlif tikililərlə (hücrələr, qalereyalar) Came məscidinə birləşirmiş. Tədqiqatçılar Q.m.b.-ı Atabəylər memarlıq kompleksi tərkibindəki ictimai və dini xatirə tikililərinin (*Divanxana, Cümə məscidi, Möminə xatun türbəsi, mədrəsələr*) cəmləşdiyi iri həyətin ala qapısı olduğunu ehtimal edirlər. Belə baştağ kompozisiyası sonrakı dövrlərdə islam ölkələrinin çoxunda aparıcı bədii memarlıq üslubuna çevrildi.

*Əd.:* C ə f ə r Q i y a s i, Nizami dövrü memarlıq abidələri, B., 1991.

**QOŞATƏPƏ** – Şərur r-nunda, Albantəpədən 1 *km* ş.-də, Axura çayının sağ sahilində son Tunc dövrü – Dəmir və antik dövrlərinə aid yaşayış yeri. Dağ silsiləsindən ayrılmış iki təpəni və onun ətraf sahəsini (4 *ha*) əhatə edir. Təpənin üstünə səpələnmiş yerüstü materiallar içərisində qövsvarı dən daşlarına, müxtəlif formalı çaydan tipli qab hissələrinə və s. boyalı qab sınıqlarına təsadüf edilmişdir. Belə tapıntılara təpənin ətəklərində təsərrüfat işləri nəticəsində qazılmış arxın içərisində də rast





Qrifon.
Nizami ad. Azərbaycan Ədəbiyyatı Muzeyi. 6–7 əsrlər.
Naxçıvan Dövlət Tarix Muzeyi. Orta əsrlər.

gəlinir. Alt mədəni təbəqələrdən (8–10 *m*) toplanmış materiallara əsasən təbəqənin son Tunc dövrü – Dəmir dövrünə aid olması ehtimal edilir. Q.-nin üst hissəsində e. ə. 4–2-ci əsrlərə aid maddi mədəniyyət nümunələri (küp, küpə, qazan tipli qablar və s.) də tapılmışdır.

**QOŞUNDAŞ DAĞI** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Hünd. 1842 *m*. Gilançayla Nəsirvaz çayının suayırıcında, Bist k.-ndən 1 *km* şm.-ş.-dədir.

**QOTURDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsnin. c.-ş. yamacındadır. Hünd. 2046 *m*. Günbəzvarı formadadır.

**"QÖNÇEYİ-ÜLFƏT"** – ədəbi məclis. 19 əsrin 30-40-cı illərində Naxçıvan hakimi Ehsan xan Kəngərlinin sarayında onun qızı şairə Qönçəbəyimin şərəfinə təşkil olunmuşdu. Burada, əsasən, Naxçıvanda yaşayıb-yaratmış şairlərin əsərləri oxunub, müzakirə olunmuşdur. A. A. Bakıxanov, romantik gürcü şairi N. Barataşvili "Q.-ü"lə əlaqə saxlamış, məclisin məşğələlərində iştirak və çıxış etmişlər.

Qönçəbəyim



**QÖNÇƏBƏYİM** (1827, Naxçıvan ş. – ?) – şairə. Sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin qızıdır. Naxçıvan qəza məktəbində təhsil almış, rus və fars dillərini öyrənmiş, Şərq ədəbiyyatına maraq göstərmişdir. "Qönçeyi-ülfət" ədəbi məclisinin iştirakçılarından olmuşdur. "Bəyim" təxəllüsü ilə, əsasən, nakam məhəbbət, qadın hüquqsuzluğu mövzularında lirik şerlər yazmışdır. "Şahzadə İbrahim" dastanındakı Bəyimin dilindən söylənilən şerlərin bir qisminin Q.-ə aidliyi ehtimal olunur. Gürcü şairi N. Barataşvili Naxçıvanda olarkən həyatını "gözəl bir romana" bənzətdiyi Q.-in şerlərini yüksək qiymətləndirmiş, gürcü əlifbası ilə köçürərək tərcümə edilmək üçün Tiflisə göndərmiş, onların məclislərdə oxunmasını məsləhət görmüşdü. Fransız yazıçısı və tənqidçisi Sent-Böv Q. haqqında yazmışdır, "Bu qadın təkcə şairə deyildir, onun bütün varlığı poeziyadır". Şerlərindən nümunələr "Azərbaycanın aşıq və şair qadınları" kitabında (1974; toplayanı və tərtib edəni Ə. Cəfərzadə) verilmişdir. Naxçıvan MR Ədəbiyyat muzeyində Q. guşəsi yaradılmışdır.

*Əd.:* N ə s i r l i M., Barataşvili və Qönçəbəyim, "Kommunist" qəzeti, 1945, 21 oktyabr, M ə m m ə d o v Ə., N. Barataşvili Azərbaycanda, "Ulduz", 1968, № 9; M i r ə h m ə d o v Ə., Xalqımızın dostu, "Kommunist", 1968, 10 sentyabr; Ə l i y e v a D., Ürək bir, dilək bir, B., 1981.

**QRİFON** – qədim Şərq, o cümlədən türk xalqlarının mifologiyasında aslan bədənli, qartal qanadlı şir, yaxud qartal başlı əfsanəvi heyvan. Q. təsvirləri qədim Şərqdə (o cümlədən türk dünyasında) və antik incəsənətdə geniş yayılmışdı. Sonrakı dövr incəsənətində Q. dekorativ və heraldik (gerbşünaslıq) məzmun kəsb etmişdir. Culfa r-nu ərazisində, Əlincəçayın sağ qolu Zoğala çayının yaxınlığında təqr. 6–7 əsrlərə aid orijinal formalı 2 tunc Q. fiquru tapılmışdır (Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyində saxlanılır).

**QUBADOV** Hüsnü Baba oğlu (4.1.1922, indiki Ordubad r-nunun Disər k.–13.8.1991, Bakı) – müğənni. Nax. MR-in əməkdar artisti (1962). 1938 ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, təhsil illərində *İbrahim Həmzəyevin* yaratdığı dram dərnəyində iştirak etmiş, "Vaqif" tamaşasında xanəndə rolunu oynamışdır. O vaxtdan uşaqlıqdan həvəs göstərdiyi müğənnilik sənətinə bağlanmış, özfəaliyyət olimpiadalarında uğur qazanmış, 1958 ildə isə respublika özfəaliyyət müsabiqəsinin laureatı olmuşdur. Həmin il M. F. Axundov ad. Opera və Balet Teatrına dəvət edilmiş, onun səhnəsində yaddaqalan obrazlar yaratmışdır. Məlahətli səsi



və təbii ifa tərzi ilə seçilirdi. Əsas rolları: İbn Səlam, Məcnunun atası, Kərəm ( "Leyli və Məcnun", Əsli və Kərəm", Ü. Hacıbəyov,), Çapqınçı, Rəmmal ("Şah İsmayıl", M. Maqomayev) və s. Teatrın tərkibində Tiflisdə, Gəncə, Naxçıvan, Şəki və respublikanın digər şəhər və r-nlarında qastrol səfərlərində olmuşdur. Onun ifasında "Şuşa yaylağı", "Üçtelli durna", "Bəh-bəh", "Dilin can incidəndir" və digər mahnılar, habelə Ü. Hacıbəyovun "Leyli və Məcnun" operası (YUNESKO xətti ilə) qrammofon valına yazılmışdır.

**QULALITƏPƏ** – Şərur r-nunda, Qıvraq və Yurdçu k.-ləri arasında e. ə. 3–1-ci minilliklərə aid arxeoloji abidə. Ərazi ətrafı düzənlik sahələrlə əhatə olunmuş konusvarı formalı təpədən ibarətdir. Mədəni təbəqə qalıqlarına təsadüf edilməmişdir. Yerüstü materiallar içərisində müxtəlif dövrlərə aid gil qabların olması Q.-dən mövsümi yaşayış məskəni, yaxud gözətçi məntəqəsi kimi istifadə olunduğunu göstərir.



Quliyev Abbas

**QULİYEV** Abbas Şahbaz oğlu (15.9.1916, indiki Babək r-nunun Şəkərabad k. – 30.12. 1998, Naxçıvan ş.) – Sovet İttifaqı Qəhrəmanı (25.2.1945), qvardiya kapitanı. Böyük Vətən Müharibəsinin (1941–1945) iştirakçısı. Sumı (Ukrayna) topçuluq məktəbini qurtarmışdır (1942). Q. Dneprdən Visla çayına qədər döyüş yolu keçmiş, Poltava–Xarkov ətrafındakı döyüşlərdə igidlik və qəhrəmanlıq göstərmişdir. 1945 ildə müharibə əlili kimi ordudan tərxis olunmuşdur. Fərdi təqaüdə çıxana qədər (1971) Nax. MR-də müxtəlif vəzifələrdə (Naxçıvan şəhər sovetinin sədri, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin katibi) işləmişdir. Qırmızı Bayraq, Aleksandr Nevski, 1-ci dərəcəli "Vətən müharibəsi" ordeni və medallarla təltif edilmişdir.



Quliyev Abdulla

**QULİYEV** Abdulla Abbasqulu oğlu (d. 25. 12.1929, Ordubad ş.) – rəssam. Ə.Əzimzadə ad. Bakı Rəssamlıq Məktəbini (indiki Rəssamlıq Akademiyası, 1953) və Moskva Ali Sənaye Rəssamlıq Məktəbini (1960) bitirmişdir. Həmin vaxtdan Moskvada yaşayıb-yaradır. Rusiya Federasiyasının Moskva, Kazan. Ufa, Vladimir, Suzdal və s. ş.-lərindəki bir sıra nəhəng tikililəri bəzəyən müxtəlif mövzulu, biçimli və texnikalı monumental mozaika pannolarının ("Qardaşlıq dünyası", "Dostluq", "Gənclik", "Ana səadəti", "Ailə" və s.), habelə Bakının Yasamal r-nundakı, İnşaatçılar prospektindəki "İdman sağlamlıqdır", "Xoşbəxt qadın anadır" monumental kompozisiyalarının müəllifidir. Bakı Poçtamtı binasının da bədii tərtibatını Q. vermişdir (1980). Q. həm də boyakarlıq sahəsində çalışır ("Sübh nəğməsi", "Toy", "Durna qatarı", "Oğul xatirəsi", "Əsgər anaları", "Dəyanət", "Qürub çağı" və s.). Portret ("Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev", "Anam", "Atam", "Əjdər İbrahimov", "Bacıqızı" və s.) və natürmort janrlarında əsərləri var. Yaradıcılığında doğma yurdu olan Ordubad mövzusu əhəmiyyətli yer tutur: 200-dən çox mənzərə əsəri ("Evimiz", "Həyatimiz", "Qarabağlar" və s.) daxil olan "Ordubadım mənim" silsiləsi.

*Əd.:* B a ğ ı r o v A., Monumental rənglər, onun "Moskvalı azərbaycanlılar" kitabında, B., 1989, səh. 136–143; H ə s ə n ə l i y e v N., Bu günün rəssamları. Abdulla Quliyev, "Qobustan" toplusu, 1979, № 2.

**QULİYEV** Arif Cəmil oğlu (d. 2.8.1949, Naxçıvan ş.) – musiqiçi. Əməkdar incəsənət xadimi (2000). A.Zeynallı ad. Bakı Musiqi Məktəbinin tar şöbəsini bitirmişdir (1971). 1968 ildən "Dan ulduzu" instrumental ansamblında solist, 1969–75 illərdə Sumqayıt şəhər uşaq musiqi məktəbində tar müəllimi işləmişdir. 1975 ildən Naxçıvan orta ixtisas musiqi məktəbində işləmişdir; məktəbin nəzdində yaratdığı "Nəqşi Cahan" xalq çalğı



A. A. Q u l i y e v. Rusiya EA Şüşə İnstitutu foyesinin divar rəsmi. Moskva şəhəri.


Quliyev Əyyub

alətləri ansamblı bir sıra xarici ölkələrdə Azərb. musiqisini təmsil etmişdir. 2001 ildən Naxçıvan Dövlət Filarmoniyasının direktorudur.

**QULİYEV** Əyyub Salah oğlu (d. 1.6.1954, Şahbuz r-nunun keçmiş Zirnel k.) – astronom. Fizika-riyaziyyat elmləri doktoru (1993), Azərb. Milli EA m. üzvü (2001). Azərb. Dövlət Un-tinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsini bitirmişdir (1975). 1975–78 illərdə Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) Batabat bölməsində işləmişdir. 1978–90 illərdə Kiyevdə uzunmüddətli ezamiyyətlərdə olmuşdur. 1993–95 illərdə ŞAR Batabat bölməsinin rəhbəri vəzifəsində çalışmışdır. 1997 ildən ŞAR-ın direktorudur. Əsas tədqiqatları böyük planetlərin komet ailələrinin tədqiqinə həsr edilmişdir. Naməlum planetlərə, planetlərin halqalarına, Günəş sisteminin tədqiq olunmamış rayonlarına dair kosmik proqnozların və 60-a yaxın elmi əsərin müəllifidir. Beynəlxalq Astronomiya Şurasının (BAŞ), Avropa və Avrasiya Astronomiya cəmiyyətlərinin üzvüdür. "ŞAR sirkulyarı" jurnalının baş redaktorudur. Q.-in təşəbbüsü ilə BAŞ bir sıra yeni planetlərə Azərb. şairlərinin (Nizami, Cavid) adını vermişdir.

**QULİYEV** Hüseyn Səttar oğlu (1.5.1913, Ordubad ş. – 22.8.1942) – ilk azərb. paraşütçü. Ordubad ipək z-dunda əyirici işləmiş, Bakıda Azərb. Toxuculuq Sənayesi Birliyinin fabrik-zavod məktəbində, Zaqafqaziya Qırmızı Professurasının Bakıdakı məktəbində oxumuş, 1933–34 illərdə Ordubad r-n komsomol komitəsində şöbə müdiri işləmişdir. 1935 ildə ordu sıralarına çağırılmış, Azərb. dağ-atıcı diviziyasında xidmət etmiş, burada mahir paraşütçü və siyasi rəhbər olmuşdur. Yüksək hərbi hazırlığı nəzərə alınaraq Xarkov Hərbi Dairəsinin Hərbi Siyasi məktəbinə göndərilən Q. oranı bitirəndən (1939) sonra Sovet–Finlandiya müharibəsində (1939-40) iştirak etmiş, o zaman üçün rekord sayılan 5 min metrlik məsafədən paraşütlə tullanmışdır. Sonralar Böyük Vətən müharibəsində kəşfiyyatçı kimi şücaətlə vuruşan baş leytenant Q. Velikiye Luki ş. ətrafında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, SSRİ Xalq Müdafiə Komissarı K. Y. Voroşilov tərəfindən qızıl saatla mükafatlandırılmışdır.

Quliyev Kamran


**QULİYEV** Xudayar Abdulla oğlu (25.10.1910, indiki Şahbuz r-nunun Kükü k. – 5. 4. 1985, orada) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1954). Naxçıvan Pedaqoji Texnikumunu (1932), Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) kimya-biologiya fakültəsini (1948) bitirmişdir. Böyük Vətən müharibəsinin iştirakçısıdır (1942–43). Yaralandığına görə ordudan tərxis edilmişdir. 50 ildən çox gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, Naxçıvan (indiki Babək) r-nunun Sovetabad (indiki Xətai), Şahbuz r-nunun Tirkeş, Keçili, Yuxarı Remeşin k.-lərində müəllim, 1941–64 illərdə (1942–43 illərdə fasilə ilə) Kükü kənd məktəbinin direktoru olmuşdur. Orden və medallarla təltif olunmuşdur. Respublika əhəmiyyətli fərdi təqaüdçü idi (1975 ildən).

**QULİYEV** Kamran Məmmədqulu oğlu (d.9.9.1958, indiki Babək r-nunun Zeynəddin k.) – aktyor. Azərb. Respublikasının xalq artisti (1999). Azərb. İncəsənət İn-tutunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1986). 1981 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorudur. Rolları: İosif Tatayeviç ("Fudzi dağında qonaqlıq", Ç. Aytmatov), Keşiş, Səlim ("Şeyx Sənan", "Uçurum" H. Cavid), Əmir Altun ("Əlincə qalası", H. Arzulu), Yusif paşa ("Dəli İbrahim", T. Oflazoğlu), Qızıl Arslan ("Atabəylər", N. Həsənzadə), Nadir şah ("Nadir şah", N. Nərimanov), Neznamov ("Günahsız müqəssirlər", A. Ostrovski), Qəhrəman yüzbaşı ("Kamança", C.Məmmədquluzadə) və s.

K. M. Quliyev Əmir Altun ("Əlincə qalası", Həmid Arzulu) rolunda





**QULİYEV** Məmməd Allahverdi oğlu (15.3. 1914, Naxçıvan ş. – 11.9.2001, orada) – aktyor. Azərb. Respublikasının xalq artisti (1974). 1943 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. Səhnə fəaliyyətinin ilk illərində dram tamaşaları ilə yanaşı opera və musiqili komediyalarda da çıxış etmişdir. Rolları: Təhmas şah ("Nadir şah", N. Nərimanov), dərviş, Rüstəm ("Şeyx Sənan", "Səyavuş", H. Cavid), İbrahim xan, Fərhad ("Vaqif", "Fərhad və Şirin", S. Vurğun), Rippafrata ("Mehmanxana sahibəsi", K. Qoldoni) və s.

**QULİYEVA** Narı Əbülfəz qızı (d. 10.7.1928, indiki Culfa r-nunun Kırna k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1944–56 illərdə k-zda işləmiş, manqa başçısı olmuşdur. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1956 ildən Naxçıvan sovxoz-texnikumunda laborant işləmişdir.

**QULİYEVA** Növrəstə Bağır qızı (1906, indiki Şərur r-nunun Qarabağlar k. – 3.2.1982, orada) – əmək qabaqcılı, K. t. əlaçısı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1933–58 illərdə k-zda sıravi kolxozçu, manqa başçısı işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**QURBANOV** Həsənağa Əli oğlu (d. 20.7. 1955, Naxçıvan ş.) – pianoçu, dirijor. Azərb Respublikası əməkdar incəsənət xadimi (1998). A.Zeynallı ad. Bakı Musiqi Məktəbini (1976) və Azərb. Dövlət Konservatoriyasını (1981, C.Cahangirovun sinfini) bitirmişdir. Əmək fəaliyyətinə 1968 ildə C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında pianoçu kimi başlamışdır. 1973 ildən xalq çalğı alətləri ansamblında fəaliyyət göstərmişdir, "Oxu tar" müsabiqəsinin laureatıdır (1978). 1979–83 və 1986–96 illərdə Ş. Qurbanov ad. Azərb. Musiqili Komediya Teatrında dirijor işləmişdir. 1983–85 illərdə Naxçıvan filarmoniyasının bədii rəhbəri və baş dirijoru olmuşdur. 1991 ildən G. Əliyeva ad. "Dan ulduzu" instrumental ansamblının bədii rəhbəridir. Musiqili komediyaların, xor və instrumental əsərlərin, bir sıra mahnıların müəllifidir.


M. A. Quliyev Gəncə hökmdarı ("Məhsəti", Kəmalə) rolunda.


Quliyev Məmməd


Quliyeva Narı


Quliyeva Növrəstə

**QURBANOV** Hikmət Tofiq oğlu (d.18.3. 1954, Naçıvan ş.) – maarif xadimi. Azərb. Respublikası əməkdar müəllimi (1990). Naxçıvan Pedaqoji İn-tinin fizika-riyaziyyat fakültəsini bitirmişdir (1976). İmişli ş-ində (1976–78), Babək r-nu Çeşməbasar k. orta məktəbində (1979–82), 12 saylı Naxçıvan ş. məktəbində (1987–2000) müəllim, Naxçıvan Müəllimləri Təkmilləşdirmə İn-tunda kabinet müdiri (1982–87) işləmişdir. 2001 ildən Bakının Xətai r-nundakı 191 saylı məktəbin direktor müavinidir. "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuşdur (1988).

Qurbanov Maqsud


**QURBANOV** Maqsud Rüstəm oğlu (d.9.5. 1941, indiki Şərur r-nunun Qarabağlar k.) – botanik. Biologiya elmləri doktoru (1985). Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsini bitirmişdir (1970). Azərb. Milli EA Botanika İn-tunda baş elmi işçi olmuşdur (1977–88). 1988 ildən həmin in-tun aparıcı elmi işçisi, toxumçuluq yaradıcı qrupunun rəhbəridir (1981 ildən). Elmi tədqi-



*Qurbanov Namiq*

qatları bitkilərin introduksiyası, ekologiyası, biologiyasına və toxumşünaslığın genetik-seleksiya əsaslarına həsr edilmişdir. 2 monoqrafiyanın və 100-ə yaxın elmi məqalənin müəllifidir. MDB ölkələri üzrə toxumşünaslıq və toxumçuluq komissiyasının üzvü, Cənubi Qafqazın analoji komissiyasının sədridir. Beynəlxalq elmi simpozium, konqres, konfrans və müşavirələrin iştirakçısıdır. Türkiyənin Giresun ş.-nin fəxri vətəndaşıdır.

Ə s ə r i: Экспериментальные методы повышения качества семян древесных растений при интродукции. Б., 1989.

**QURBANOV** Namiq Qurban oğlu (d. 29.4. 1932, Naxçıvan ş.) – geoloq. Geologiya-mineralogiya elmləri doktoru (1982), prof. (1985). Beynəlxalq Filiz Yataqlarının Genezisi Akademiyasının (ABŞ, Vaşinqton, 1989), Beynəlxalq Mineral Ehtiyatlar Akademiyasının (Moskva–Paris–London, 1994) və Rusiya Təbiiyyat Elmləri Akademiyasının (1995) həqiqi üzvü, Rusiya Federasiyasının əməkdar elm və texnika xadimi (1998). "Yeraltı sərvətlərin fəxri kəşfiyyatçısı" (1982). SSRİ Dövlət mükafatı laureatı (1987). *Q. Ə. Qurbanovun* oğludur. Moskva Dövlət Un-tinin geologiya fakültəsini (1954) və aspiranturasını (1959) bitirmişdir. Mərkəzi Geoloji Kəşfiyyat Elmi Tədqiqat İn-tunda baş elmi işçi (1961–82) olmuşdur. 1983 ildən həmin in-tun nəcib metallar şöbəsinin müdiridir. Əlvan və nəcib metal yataqlarının proqnozu və axtarışı, metallogeniya, qızıl, platinoid, mis, qurğuşun və sink yataqlarının formalaşmasının axtarış, proqnoz və geoloji-genetik modellərinin işlənib hazırlanması sahəsində tədqiqatlar aparmışdır. Dünyanın bir sıra regionları (o cümlədən Azərb.) üçün əlvan və nəcib metal yataqlarını proqnozlaşdırmaq, axtarmaq və qiymətləndirmək məqsədilə struktur-formasiya təhlilinin və rayonlaşdırmanın prinsip və metodlarını işləyib hazırlamış, bununla əlaqədar müvafiq proqnoz xəritələri, kompleks proqramlar tərtib etmişdir. Bütün bunların nəticəsində dünyanın bir çox ölkə və bölgələrində nəcib və əlvan metal yataqları kəşf olunmuşdur. 260-dan çox elmi əsərin, o cümlədən 23 monoqrafiyanın, 2 yataq modelləri atlasının müəllifidir. Bir neçə müəlliflik şəhadətnaməsi var. Əsərləri dünyanın bir çox ölkəsində (ABŞ, Almaniya, B. Britaniya, Fransa, Yaponiya, Kanada, Avstraliya, Türkiyə, Suriya və s.) dərc olunmuşdur. Beynəlxalq elmi konqreslərdə (Praqa, 1968; Sidney, 1976; Paris, 1980; ABŞ, 1988; Yaponiya, 1992; Pekin, 1996 və s.) və simpoziumlarda (Praqa, 1963; Edinburq, 1966; Tokio, 1970; Ottava, 1990; İzmir, 1991; Pekin, 1994; London, 1999 və s.) məruzələr etmişdir. Suriya (1960), Çexiya (1990), ABŞ (1991), ÇXR (1993), Argentina (1999), Çili (1999) geologiya elmi cəmiyyətlərinin, bir sıra elmi şuraların, Moskvada nəşr olunan "Oteçestvennaya geologiya" və "Rudı i metallı" jurnalları redaksiya heyətlərinin üzvüdür (1991). Elmi kadrlar (o cümlədən Azərb. üçün) hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Некоторые вопросы методики геологических исследований при детальных съемках колчеданных месторождений Южного Урала. М., 1965; Колчеданные месторождения СССР, т. 1-2, М., 1983; Прогнозирование и поиски месторождений золота, М., 1989; Гетерогенность и конвергентные ряды золоторудных месторождений рудноэнергетических систем, М., 1996.

**QURBANOV** Qurban Əli oğlu (1912, indiki Şərur r-nunun Qarabağlar k. – 1944) – yazıçı. *Şeyx Əli Qurbanzadənin* oğludur. Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş (1929) müəllimlik etmiş, Naxçıvan Dram Teatrının direktoru olmuşdur. 1934 ildə Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş, lakin ailə vəziyyətinə görə 3-cü kursdan təhsilini yarımçıq qoyaraq, Naxçıvanda dil və ədəbiyyat müəllimi işləmişdir. Ədəbi yaradıcılığa 20-ci illərdən başlamış, ilk hekayələri ("Bəzəkli dərə", "Güllər") 1927 ildə dərc olunmuşdur. "İntiqam", "Qurtuluş", "Ayrım", "Xosrov və Şirin" və s. pyeslərin müəllifidir. Azərb. Yazıçılar İttifaqının üzvü idi (1939 ildən). Böyük Vətən müharibəsində itkin düşmüşdür.

*Qurbanov Telman*



**QURBANOV** Telman Xudam oğlu (6.11. 1936, Naxçıvan ş. – 17.10.1990, Bakı ). – kimyaçı, kimya elmləri doktoru (1982), prof. (1983), Azərb. Milli EA m. üzvü (1989). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini bitirdikdən (1960) sonra Respublika Nazirlər Soveti (NS) yanında Neftayırma və Neft-Kimya Sənayesi İdarəsinin baş mütəxəssisi (1960–61), Sumqayıt Superfosfat z-dunda istehsalat rəisi (1962–63), Respublika Nazirlər Soveti yanında Dövlət Nəzarət



Komitəsinin inspektoru (1965–67) olmuşdur. 1967 ildən Azərb. Milli EA Rəyasət Heyəti aparatında, "Tətbiq və elmi təşkilat" şöbəsinin müdiri və akademik-katibinin müavini, Qeyri-Üzvi və Fiziki Kimya İn-tunda elmi işlər üzrə direktor müavini (1970–85), laboratoriya rəhbəri (1985–90) vəzifələrində işləmişdir. Əsas tədqiqatları keçid elementlərinin kompleks birləşmələrinə aiddir. Yeni üzvi liqandlı kompleksləri araşdıraraq, onların yeni fiziki-kimyəvi xüsusiyyətlərini aşkar etmişdir. Q.-un rəhbərliyi ilə metal rabitəli kompleks birləşmələr sintez edilmiş, onların xassələri tədqiq olunmuşdur. 135 elmi əsərin, bir neçə monoqrafiyanın, 45 müəlliflik şəhadətnaməsinin müəllifidir. SSRİ XTNS-nin qızıl (1978) və gümüş (1980, 1982) medallarına layiq görülmüşdür. Xaincəsinə qətlə yetirilmişdir.

**QURBANZADƏ** Şeyx Əli Qurbanəli oğlu (1885, indiki Şərur r-nunun Qarabağlar k. – iyun, 1952, Naxçıvan) – ziyalı, din və maarif xadimi. Təbrizdə və Nəcəfdə (İraq) ali dini təhsil almış, ərəb, fars dillərini, dini elmlərlə yanaşı, dünyəvi fənləri də mükəmməl mənimsəmiş, habelə fransız dilini öyrənmişdir. Təhsil illərində gizli surətdə demokratik dərnəklərdə iştirak etmişdir. 1913 ildə vətənə "Şeyx" rütbəsi ilə qayıtsa da, açıqfikirliliyinə görə layiq olduğu ruhani vəzifəsi ala bilməmiş, doğma kəndində mollalıq etmişdir. Lakin 1916 ildə mollalıqdan imtina edərək, kənddə mədrəsə açmış, yoxsul uşaqlarını buraya cəlb etmiş, yaşlılar üçün savad kursları yaratmışdır. Sonralar Xıncab (indiki Babək r-nu), Sələsüz, Tirkeş (indiki Şahbuz r-nu) kəndlərində, Naxçıvan şəhər məktəblərində, Müəllimlər İn-tunda dərs demiş, 1947 ildən Naxçıvan şəhər və Rayon Xalq Maarif şöbələrində metodist, inspektor işləmişdir.

**QURD QAPISI** – Şərur r-nu ərazisində, Dəhnə–Vəlidağ tirəsində keçid. Uz. 1 *km* (şm.-dan c.-a). Şərur və Sədərək düzlərini birləşdirir.

**QURDDAĞ** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarındakı Qaracalal–Qızılboğaz ekstruziv tirəsinin suayırıcındadır. Hünd. 1319 *m*. Andezit-dasit tərkibli ekstruzivdir.

**QURDQULAQ** – inzibati-ərazi bölgüsünə əsasən, Şərur qəzasına daxil olmuş kənd. Azərb.-a qarşı daim ərazi iddiaları irəli sürən ermənilər fürsət düşdükcə onun ayrılmaz



*Quşqayası*

tərkib hissəsi olan Naxçıvan torpaqlarını da hissə-hissə öz ərazilərinə qatmışlar. Onlardan biri də Q.-dır. Belə ki, Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarı ilə Q. Nax. MSSR-in 9 kəndi ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin (1921)* şərtlərinə, eyni zamanda beynəlxalq hüquq normalarına tamamilə zidd olub, xalqımıza qarşı xəyanətkar qəsd və cinayət idi.

**QURDLAR MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Qədim türklərin özlərinin müqəddəs əcdadı, bələdçisi, qoruyucusu, xilaskarı, qələbə, xeyir-bərəkət, hakimiyyət gətirən ilahi qüvvə kimi tapındıqları qurdun (Boz qurd) adı ilə bağlı olduğu ehtimal edilir. Qurd obrazı müsbət mənada mifologiya və folklorumuzda geniş yayılmışdır. "Kitabi-Dədə Qorqud" dastanında Oğuzun Alp Ərəni Qazan xan öz kökünü, soyunu qurdla bağlayır. Bu baxımdan Q. m. şəhərin ən qədim məhəlləsi sayıla bilər.

**QURDTƏPƏSİ** – Ordubad r-nu ərazisində dağ. Vənənd çayının sağ sahilində, Düylün ilə Vənənd çaylarının suayırıcındadır. Hünd. 1438 *m*. Abşeron yaşlı flüvioqlyasial çöküntülərlə (qədim buzlaqların əriməsi nəticəsində çayların gətirdiyi çay daşları) örtülmüşdür. Müasir relyefdə günbəzvarı formaya malikdir.

**QUŞDAŞ DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsindən c.-q. istiqamətdə ayrılan yan silsilənin suayırıcında zirvə. Nəsirvaz çayının sol sahilindədir. Hünd. 1845 *m*. Günbəzvarı formadadır.

**QUŞQAYASI** – Şahbuz r-nu ərazisində dağ. Şahbuz çayı ilə Sirab çayının suayırıcındadır. Hünd. 1757 *m*.

**QUTİ XATUN,** Kuti xatun, Kutuy xatun – Elxanilər dövlətinin [1256–1357] siyasi, iqtisadi və mədəni həyatının dirçəlişində mühüm rol oynamış qadın. *Elxanilər* sülaləsinin və dövlətinin banisi Hülaku xanın arvadı, Hülakunun yeddinci oğlu, Elxanilərin üçüncü hökmdarı Əhməd Teykudarın [1282–84] anasıdır. Konkurat (monqol) qəbiləsindəndir. İran tarixçisi və dövlət xadimi Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix" (1310–11) əsərindən məlum olur ki, Q. x. çox ağıllı, bacarıqlı şəxsiyyət kimi tanınmış, dövlətin idarəsində yaxından iştirak etmiş, yüksək məqama malik olmuşdur. *Qarabağlar türbəsi* onun şərəfinə inşa edilmişdir.

**QUTİ XATUN MƏQBƏRƏSİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. 14 əsrdə Qarabağlar memarlıq kompleksində inşa edilmişdir. Tədqiqatçıların fikrincə, kompleksin qoşa minarələrini bağlayan baştağın (monqol hökmdarı Sultan Əbu Səidin [1316–35] dövründə tikilmişdir) üzərində *Elxanilər* sülaləsinin və dövlətinin banisi Hülaku xanın arvadı *Quti xatunun* adının yazılması məqbərənin onun şərəfinə inşa olunduğunu göstərir. Bax *Qarabağlar türbəsi*.

**QUYULUDAĞ QALASI** – Babək r-nunun Məzrə k.-ndən şm.-da, sıldırım qayalarla əhatələnmiş dağın üstündə antik dövrə və orta əsrlərə aid qala. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, 20–50 *sm* qalınlığında saxlanmışdı. Antik dövrün materialları boz və çəhrayı rəngli gil qab (kasa və küpə) və şirli qab qırıqlarından ibarətdir. Orta əsrlərə aid keramika, əsasən, çəhrayı rəngdə bişirilmişdir. Qalanın ş. tərəfində, strateji cəhətdən əlverişli yerdə çapılmış kiçik meydançada iki quyu qazılmışdır. Quyulara qayalarda oyulmuş gözətçi məntəqələrindən nəzarət edilmişdir Ehtimal ki, qalanın yeraltı hissəsi zindan, yaxud hökmdarların xəzinə yeri olmuşdur. Quyuludağın aşağısında şirin sulu bulaq var.

**QUYULUDAĞ MİNERAL SU BULAĞI** – Babək r-nu ərazisində, Sirab k. yaxınlığında, Sirab mineral su yatağından 4 *km* q.-dədir. Eosen və Oliqosen çöküntülərinin çatları ilə yer səthinə çıxır.

Balneoloji tərkibi,

$$CO_2 0.8\, M 5.5 \frac{HCO_3 43\, Cl 29\, SO_4 27}{(Na+K)78\, Mg 15} \cdot pH\, 6{,}6\; D\, 172-80\, m^3/gün\; T\, 18^{\circ}C$$

Suyu karbon qazlı, orta dərəcədə minerallaşmış, hidrokarbonatlı-xlorlu-sulfatlı, natrium tiplidir. Bəzi mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə oluna bilər.

**QUZEY NEKROPOLU** – Şahbuz r-nunun Kolanı k. ərazisində orta əsrlərə aid abidə. Yağış sularının yuması nəticəsində qəbirlərin xeyli hissəsi dağılmışdır. Qəbirlərin istiqamətindən müsəlman qəbiristanlığı olduğu müəyyənləşdirilmişdir. Abidənin təxminən 11–12 əsrlərə aid olması ehtimal edilir.

**QÜDSİ VƏNƏNDİ** (Hacı Mirzə Ağarəhimin təxəllüsü; ?–?) – şair (19 əsr). İndiki Ordubad r-nunun Vənənd k.-ndə doğulmuşdur. Nəsirəddin Tusinin nəslindəndir. 19 əsrin 80-ci illərində, 75-80 yaşlarında vəfat etmişdir. Klassik Şərq poeziyası və aşıq şeri tərzində yazmışdır.

Ordubadda fəaliyyət göstərən "*Əncüməni-şüəra*" ədəbi məclisinin fəal üzvlərindən olmuşdur. Əlyazma divanındakı şerlərindən ömrünün çoxunu səyahətdə keçirdiyi məlum olur. Şerlərində M. Füzuli, M. P. Vaqif, Q. Zakir və Ə. Nəbatinin təsiri duyulur. Divanının iki avtoqraf nüsxəsi Azərb. Milli EA M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılır. Burada şairin Azərb. və fars dillərində yazdığı qəzəl, qəsidə, qoşma, gəraylı, müxəmməs, müstəzad və təxmisləri, səfərnamələri, müasirlərinə mədhiyyə və mənzum məktubları, M. Füzuliyə, M. P. Vaqifə, Q. Zakirə, Heyran xanıma nəzirələri toplanmışdır. Şerləri bədii məziyyətləri ilə seçilir. Şerlərindən nümunələr "Poetik məclislər" kitabında (1987, toplayanı və tərtib edəni N. Qarayev) dərc olunmuşdur.

*Əd.:* Q ə d i m o v Ə., Bir qəzəlin izi ilə, "Elm və həyat", 1984, № 5.



# L

**LAPÇIN** – uzunboğaz ayaqqabı növü. Naxçıvan bölgəsinin dağlıq hissəsində geniş yayılmışdı. Üzlüyü tumac və keçədən, altı göndən tikilirdi. Boğazının (quncuğun) kəsik hissəsini bir-birinin üstünə qoyur, xüsusi qaytanla dolayıb bağlayırdılar. L.-ın ucu şiş və nisbətən yuxarı qatlanmış olurdu. Dağ kəndlərinin əhalisi arasında 19 əsr 20 əsrin əvvəllərinədək qalmışdı.

*Əd.:* И з м а й л о в а А. А., О народной одежде Нахичеванской зоны в XIX-начале XX века, Azərb. SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1981, №2.

**LƏKƏTAĞ** – Culfa r-nu ərazisində çay. Əlincəçayı əmələ gətirən qollardan biri. Kolanısu və Dəmirlisu çaylarının birləşməsindən yaranır. Zəngəzur silsiləsinin c.-ş. yamaclarından başlayır. Uz. 15 *km*. Əsasən bulaq, qar, qismən yağış suları ilə qidalanır.

**LƏKƏTAĞ** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 60 *km* şm.-da, Əlincəçayın sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 409 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, 2 kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

*Lapçın. 19 əsr. Naxçıvan Dövlət Tarix Muzeyi*



Kəndin girəcəyində e. ə. 1-ci minilliyin əvvəllərinə aid olması ehtimal edilən nekropol (bax *Ləkətağ nekropolu*), c.-q.-ndə, orta əsrlərə aid *Zərişdərə* yaşayış yeri və nekropolu, şm.-ş.-ndə Kolanısu və Dəmirli çaylarının qovşağında isə *Kolasu* yaşayış yeri və nekropolu qeydə alınmışdır.

**LƏKƏTAĞ MİNERAL SUYU** – Culfa r-nu ərazisində, dəniz səviyyəsindən 2350 *m* hünd.-dədir. Bir-birinin yaxınlığındakı dörd bulaqdan və bir quyudan ibarət qrup təşkil edir.

Balneoloji tərkibi:

$$CO_2 2{,}3\; M 1{,}7 \frac{HCO_3 92}{Sa 76\; Mg 21} \cdot pH\, 6{,}7\; D\, 400\, m^3/gün\; T\, 17^{\circ}C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı-kalsiumlu-maqneziumludur. Müalicə əhəmiyyətlidir.

**LƏKƏTAĞ NEKROPOLU** – Culfa r-nunda eyniadlı kəndin girəcəyində, Əlincəçayın sahilində, ilk Dəmir dövrünə aid arxeoloji abidə. Şm.-da həyətyanı sahə, q.-də isə dərə ilə sərhədlənir. Çox da hündür olmayan təpənin üstündədir. Ş. tərəfdən torpaq yol keçir. Yol çəkilərkən (1975) nekropol dağıdılmış, lakin aşkar olunmuş materiallar yığılıb saxlanmamışdır. Müşahidələrə əsasən qəbirlər daş qutu tipli olmuşdur. Ərazidə forma verməyən, Bayəhməd nekropolundan aşkar edilmiş materiallara oxşar gil qab qırıqlarına təsadüf edilmişdir. Abidənin e. ə. 1-ci minilliyin əvvəllərinə aid olması ehtimal edilir.

**LİZBİRT** – Şərur r-nu ərazisində çay. Cəhri çayının sağ qolu. Mənsəbindən 21 *km* məsafədə ona tökülür. Uz. 13 *km*, hövzəsinin sah. 68 $km^2$-dir. Əsasən, yaz və payız yağış suları

ilə qidalanır. Rejiminə görə yağışlardan gursulu olan çaylar qrupuna aiddir. Nadir hallarda qar əriməsindən daşqınlar baş verir. Arabir sellər müşahidə edilir.

**LİZBİRT** – Babək r-nunda, Cəhri–Buzqov avtomobil yolunun solunda, Lizbirt dərəsi adlanan ərazidə orta əsrlərə (14–17) aid yaşayış yeri. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində çəhrayı rəngli şirsiz və şirli qab qırıqları (üzəri yaşıl, göy və firuzəyi rəngli nəbati və həndəsi ornamentlərlə naxışlanmışdır) toplanmışdır. Bəzi yerlərdə dördkünc və dairəvi formalı daş düzümlərinə rast gəlinmişdir. Yaxınlığında, dağın altında dördkünc, yuxarısı tacşəkilli kahalar var; bəzisinin divarlarında his qalıqları, döşəmədə isə ocaq yerləri izlənilir. L. yaşayış yerinin və kahaların mövsümi səciyyə daşıdığı və maldarlara məxsus olduğu ehtimal edilir.

**LİZBİRT MERGEL YATAĞI** – Şərur r-nu ərazisində, Naxçıvan ş.-ndən 30 *km* şm.-q.-də, Lizbirt çayının orta axınındadır. Geoloji quruluşunda Üst Tabaşirin Kampan mərtəbəsinin mergel, əhəngli mergel və gilli mergel tərkibli karbonat-terrigen süxurları iştirak edir. Yatağın tektonik quruluşunda yerli əhəmiyyət daşıyan şm.-q. istiqamətli antiklinal və sinklinal qırışıqlıq qeyd olunur. Sah. 3,5 $km^2$, faydalı qatın orta qalınlığı 20,5 *m*-dir. Mergel, bəzi əlavələr edilməklə, sement istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 169 mln. *t*-dur.

**LÜTFƏLİ SULTAN KƏNGƏRLİ** (?–?) – 19 əsrin əvvəllərində Kəngərli tayfasının rəisi. Kəlbəli xan Kəngərlinin oğlu, Ehsan xan, Şeyxəli (Şıxəli) bəy və Nəzərəli bəy Kəngərlilərin qardaşıdır. 1806 ildə Naxçıvan hakimi olan atasının əmri ilə Kəngərli süvarilərini ruslara və osmanlılara qarşı vuruşmaq üçün səfərbər etmişdi.



# M

**MAHMUDBƏYOV** Şamil Fərəməz oğlu (5.12.1924, Naxçıvan ş. – 18. 6. 1997, Bakı) – kinorejissor. Azərb. Respublikası əməkdar incəsənət xadimi (1976). Azərb. Dövlət mükafatı laureatı (1969). Ümumittifaq Dövlət Kinematoqrafiya İn-tunu bitirmişdir (1954, Moskva). "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərmişdir. İlk vaxtlar sənədli və qısametrajlı, sonralar isə tammetrajlı bədii filmlər çəkmişdir. "Romeo mənim qonşumdur" (1963), "Qaraca qız" (1965), "Torpaq. Dəniz. Od. Səma" (1967), "Şərikli çörək" (1969), "Həyat bizi sınayır" (1971), "Skripkanın sərgüzəşti" (1972), "Dərviş Parisi partladır" (1976; K. Rüstəmbəyovla birgə), "Bayquş gələndə" (1978), "Od içində" (1978) M.-un ən yaxşı bədii filmlərindəndir.

**MAHMUDBƏYOVA** Məryəm Fərəməz qızı (d. 2.1.1921, Naxçıvan ş.) – mikrobioloq-immunoloq. Tibb elmləri doktoru (1966). Azərb. Respublikasının əməkdar həkimi (1973). 1953 ildən Azərb. Elmi–Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İn-tunda işləmiş, 1976–79 illərdə Azərb. Elmi-Tədqiqat Qanköçürmə və Hematologiya İn-tunda immunhematologiya şöbəsinin müdiri olmuşdur. Tədqiqatları müasir təbabətin aktual məsələlərinin (bioloji aktivliyi yüksək olan makromolekulların, zülalların, nuklein turşusunun həll olunan antigen fraksiyalarının) öyrənilməsinə həsr olunmuşdur. M.-nın antigen quruluşa aid tədqiqatlarından immun preparatların istehsal texnologiyası sahəsində, habelə xəstəliklərin profilaktika və diaqnostikasında geniş istifadə edilir.

**MAHMUDKƏND** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* ş.-də, Naxçıvan–Sədərək avtomobil yolunun sağ tərəfində, düzənlikdədir. Əh. 3720 nəfər (2000); üzümçülük, yemçilik, tərəvəzçilik, taxılçılıq, pazıçılıq (şəkər çuğunduru) və maldarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, uşaq bağçası var.

**MAHMUDOBA** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-ş.-də, dağətəyi ərazidədir. Əh. 789 nəfər (2000); əkinçilik, üzümçülük və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, uşaq bağçası, ambulatoriya var. Kəndin c.-q. qurtaracağında, quru çay vadisinin sağ sahilində *Kəhriz*, şm.-q.-ndə *Ordu yurdu*, şm.-ş.-ndə isə *Mahmudoba* və *Məzrə* orta əsr yaşayış yerləri var.

**MAHMUDOBA** – Şahbuz r-nunda eyniadlı kəndin şm.-ş.-ndə 13–17 əsrlərə aid yaşayış yeri. Sah. 1400 $m^2$. Tikinti qalıqları və düzbucaqlı planlı ev qalıqları çətinliklə izlənilir. Kəşfiyyat qazıntıları (5x5 *m* ölçüdə) nəticəsində dərinliyi 1,5–2 *m* olan mədəni təbəqə müəyyənləşdirilmiş, şirsiz və şirli saxsı məlumatı (qazan, səhəng, çıraq və s.), maddi mədəniyyət nümunələri aşkar olunmuşdur.

**MAHMUDOBA KÖRPÜSÜ** – Şahbuz r-nu ərazisində, Şahbuz–Nurs avtomobil yolunun 4 *km*-liyində, Nurs çayı üzərində körpü. M. k.-nün istifadəyə verilməsi (1997) nəticəsində Nurs, Mahmudoba, Qarababa k.-lərinin r-n mərkəzi, həmçinin magistral avtomobil yolu ilə əlaqəsi təmin edilmişdir.

**MAHMUDOBA NEKROPOLU** – Şahbuz r-nundakı eyniadlı kəndin c.-nda Dəmir dövrünə aid arxeoloji abidə. Yerüstü tədqiqatlar zamanı qəbiristandan gil qab parçaları (çəhrayı, bozumtul rəngli küpələr, təkayaqlı vaza tipli qab hissələri və s.) və digər maddi mədəniyyət nümunələri tapılmışdır. Materi-

*Mahmudbəyova Məryəm*




*Mahmudov Əhməd*


*Mahmudov Malik*

alların təhlilindən qəbiristanın e. ə. I-ci minilliyə aid olması ehtimal edilir.

**MAHMUDOV** Əhməd Əkbər oğlu (25.5.1928, indiki Şərur r-nunun Şahtaxtı k. – 8.5.1989, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – iqtisadçı. İqtisad elmləri doktoru (1968), prof. (1969), Azərb. Milli EA akad. (1983; m. üzvü 1972). Azərb. Dövlət Xalq Təsərrüfatı İn-tunun (indiki İqtisad Un-ti) uçot-statistika fakültəsini (1950) və Azərb. Milli EA İqtisadiyyat bölməsinin (indiki İqtisadiyyat İn-tu) aspiranturasını (1954) bitirmişdir. Azərb. Milli EA İqtisadiyyat İn-tunda baş elmi işçi (1956–58), direktor müavini (1958–64) və direktor (1964 ildən ömrünün sonunadək) olmuşdur. Azərb. Milli EA Tarix, İqtisadiyyat, Fəlsəfə və Hüquq bölməsi akademik katibinin müavini (1981–85) işləmişdir. Siyasi iqtisad, aqrar-sənaye komplekslərinin iqtisadiyyatı, ictimai istehsalın intensivləşdirilməsinin iqtisadi problemləri, Azərb-da, o cümlədən Naxçıvan MR-də k. t.-nın intensivləşdirilməsinin mahiyyəti və nəzəri əsasları, intensivləşdirmənin səviyyəsini müəyyən edən metodika və göstəricilər sistemi, onun əsas yolları, mənbə və xüsusiyyətləri sahəsində tədqiqatlar aparmışdır. Bir neçə kitab və monoqrafiyanın, 150-dən çox elmi məqalənin müəllifidir. Bir sıra mötəbər elmi şuraların, elm və texnika üzrə Respublika Dövlət Mükafatları Komitəsinin üzvü, Azərb. Milli EA İqtisadiyyat İn-tunda İqtisad elmləri namizədi və doktoru alimlik dərəcəsi üzrə ixtisaslaşdırılmış şuranın sədri (1976–88) olmuşdur. Elmi kadrlar hazırlanmasında xidməti var. Keçmiş SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına layiq görülmüşdür. II dərəcəli Vətən müharibəsi ordeni, digər orden və medallarla təltif edilmişdir.

Ə s ə r l ə r i: Noraşen rayonu kolxozlarının ictimai təsərrüfatının inkişafına dair, B., 1956; Dağlıq Şirvan rayonu kolxozlarının torpaq fondu və ondan istifadə edilməsi yolları, B., 1961; Kənd təsərrüfatının intensivləşdirilməsinin iqtisadi səmərəliliyi (V. Səmədovla birgə), B. 1974; Экономические проблемы интенсификации земледелия в колхозах Азербайджанской ССР, Б., 1969.

*Əd.:* Ə h m ə d M a h m u d o v. Biblioqrafiya (tərtibçi Ç. N. Əhmədova), B., 1997.


*Maxta kəndi yolunda körpü.*

**MAHMUDOV** Malik Rüstəm oğlu (5.11.1938, Ordubad ş. – 3.6.1991, Bakı) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1975), prof. (1977). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsini bitirmişdir (1961). Bağdad Un-tində oxumuşdur (1963). Azərb. Milli EA Şərqşünaslıq İn-tunda elmi işçi (1963–72) olmuş, 1972 ildən ömrünün sonunadək BDU-nun şərqşünaslıq fakültəsində dərs demişdir. Ərəbdilli Azərb. ədəbiyyatına, o cümlədən Xətib Təbrizi, İsmayıl ibn Yəsar, Musa Şəhəvat və b.-nın həyat və yaradıcılığına dair tədqiqatlar aparmışdır. "Xətib Təbrizinin həyat və yaradıcılığı" (1972), "Piyada... Təbrizdən Şama qədər" (1982), "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII–XII əsrlər)". (1983) monoqrafiyaları nəşr edilmişdir. Bir sıra məqalələri İranda və Türkiyədə dərc olunmuşdur.

**MAHMUDOV** Mehdi Abdulla oğlu (5.5.1911, indiki Şərur r-nunun Muğanlı k. – 4.4.1984, Bakı) – Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, polkovnik. 1932 ildən ordu sıralarında xidmət etmişdir. Tiflisdə hərbi məktəb bitirdikdən (1936) sonra batereya komandiri, divizion komandirinin müavini olmuşdur. Böyük Vətən müharibəsi illərində 416-cı Azərb. diviziyasında polk komandiri olan M. Berlinədək döyüş yolu keçmişdir. Leninqrad (indiki Sankt-Peterburq) Ali Artilleriya Zabitləri Məktəbini (1946) və Moskvada M.V.Frunze ad. Hərbi Akademiyanı (1952) bitirmişdir. 1956 ildə ordudan buraxılmışdır. 3 Qırmızı Bayraq ordeni, 3-cü dərəcəli Suvorov ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni və Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdur.

*Əd.:* B o k o v F. Y., Azərbaycan övladlarının ölməz igidliyi, B., 1975; y e n ə o n u n, Весна победы, M., 1979.

**MAXTA** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* şm.-q.-də, düzənlikdədir. Əh. 1657 nəfər (2000); əkinçilik, üzümçülük və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana var. Böyük Vətən müharibəsində (1941–45) həlak olmuş həmyerlilərin şərəfinə abidə qoyulmuşdur. Kəndin şm.-ş.-ndə, Naxçıvan–Sədərək avtomobil yolunun sağ tərəfində Dəmir dövrünə aid *Qarabulaq nekropolu,* sol tərəfdə isə antik dövrə aid Maxta nekropolu yerləşir.





***Maxta Kültəpəsi I yaşayış yerindən tapılmış arxeoloji materiallar:*** *1. Tunc balta. 2. Obsidian (dəvəgözü) və çaxmaqdaşından ox ucluqları. 3. Daş bütlər. 4. Dən daşları. 5. Gil heyvan fiqurları. 6. Saxsı qab qırığı.*

**MAXTA KÜLTƏPƏSİ I** – Şərur r-nunun Maxta k. yaxınlığında ilk Tunc dövrünə aid yaşayış yeri. 1985 ildə qeydə alınmışdır. Yer səthindən 2 *m* hündürlükdəki təpədən ibarət olub əkin sahələri, q. tərəfdən kanalla məhdudlaşır. Arxeoloji qazıntılar (100 $m^2$ sahədə) nəticəsində daş və çiy kərpicdən hörülmüş tikinti qalıqları, boz rəngli qab nümunələri, dən daşları, həvəng və dəstələr, obsidian (d ə v ə g ö z ü) və çaxmaqdaşından hazırlanmış oraq dişləri, obsidian ox ucluqları, sürtgəclər, ocaq qurğusunun qalıqları və s. əldə olunmuşdur. Kəşfiyyat səciyyəli tədqiqatlar zamanı yaşayış yerindən daşdan tikilmiş qədim məbəd, onun içərisindən isə daş bütlər aşkar olunmuşdur. Tapıntılara əsasən, abidə e. ə. 4-cü minilliyin 2-ci yarısı – e. ə. 3-cü minilliyə aid edilir.

*Əd.:* S e y i d o v A. Q., Naxçıvan tunc dövründə, B., 2000.

**MAXTA KÜLTƏPƏSİ II** – Şərur r-nunun Maxta k.-ndən ş.-də ilk Tunc dövrünə (e.ə. 4-cü minilliyin 2-ci yarısı – e. ə. 3-cü minillik) aid yaşayış yeri. Yerli əhali arasında Qortçulu yeri adlanır. Tədqiqatlar nəticəsində çaxmaqdaşı və boz rəngli gil qab sınıqları, ocaq qurğularının hissələri və dən daşlarından ibarət yerüstü materiallar toplanmışdır. Aşkar olunmuş maddi mədəniyyət nümunələri Kür-Araz mədəniyyəti üçün səciyyəvi olub *Maxta Kültəpəsi* I ilə eyniyyət təşkil edir.

*Əd.:* A ş u r o v S. H., Maxta tunc dövrü yaşayış yerləri. Azərbaycan EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1991, № 4; A ş u r o v S. H, Ə l i y e v V. H., Maxta tunc dövrü abidələri, "Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları", B., 1992.

**MAXTA NEKROPOLU** – Şərur r-nunun Maxta k.-nin şm.-ş.-də, Naxçıvan–Sədərək avtomobil yolunun sol tərəfində antik dövr abidəsi. Nekropola aid küp qəbirlər su hovuzunun yerləşdiyi təpədə aşkar olunmuşdur (1988). Təəssüf ki, küp qəbirlərdən əldə edilən qablardan yalnız birinin (qum qarışığı


*Maxta Kültəpəsi I. İlk Tunc dövrü. Kür-Araz mədəniyyəti keramika məmulatı: küpə, çölmək və dopu tipli qablar.*



*Maqsudov Fəraməz*

olmayan gildən hazırlanaraq boz rəngli, hər iki üzdən çəhrayı boya ilə örtülmüş küpə tipli qab) sınığı saxlanmışdır. Abidənin 2–3 əsrlərə aid olduğu ehtimal edilir.

**MAQSUD SULTAN KƏNGƏRLİ** (?–?) – kəngərli tayfasının başçısı və Naxçıvan hakimi (16 əsrin sonu – 17 əsrin əvvəlləri). Azərb.-ın və İranın siyasi həyatında mühüm rol oynamış ustaclı (bax *Ustaclılar*) türk tayfasından idi. I Şah Abbasın [1587–1629] fərmanı ilə Naxçıvan valisi təyin edilmişdi. I Şah Abbas Vedi çayı kənarında düşərgə salarkən Səfəvi–Osmanlı vuruşmalarında Naxçıvan əhalisinin zərər çəkməməsi üçün M. S. K.-yə Naxçıvan əhalisini Dizmara və Qaracadağa (indiki Cənubi Azərb.-dadır) köçürmək barədə əmr vermişdi. Əmri yerinə yetirən M. S. K. divan hesabına köçürülmüş əhalini ərzaq və s. zəruri mallarla təmin etmişdi. M. S. K.-nin xələfləri uzun müddət Naxçıvanda hakim olmuşlar. Səfəvi tarixçisi İskəndər Münşinin "Tarixi-aləm-arayi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərində yazdığına görə, Səfəvi sarayının nüfuzlu əmirlərindən olan M. S. K. eyni zamanda Xorasanın Nisa şəhərinin hakimi vəzifəsini də daşımışdır.

**MAQSUDOV** Fəraməz Qəzənfər oğlu (20.3.1930, Naxçıvan ş. – 30.7.2000, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – riyaziyyatçı, elm təşkilatçısı, ictimai xadim. Fizika-riyaziyyat elmləri doktoru (1974), prof. (1976). Azərb. Milli EA akad. (1980; m.üzvü 1976). Azərb. Respublikasının əməkdar elm xadimi (2000). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini (1954) və Azərb. EA Riyaziyyat İn-tunun aspiranturasını bitirmişdir. Azərb. Milli EA Riyaziyyat və Mexanika İn-tunun direktor müavini (1964–74), direktoru (1974 ildən). 1981–97 illərdə eyni zamanda Azərb. Milli EA fizika-mexanika və riyaziyyat elmləri bölməsinin akademik-katibi, 1997–2000 illərdə Azərb. Milli EA-nın prezidenti olmuşdur. M.-un elmi maraq dairəsi geniş idi (funksional analiz, diferensial tənliklər, tətbiqi riyaziyyat və mexanika, riyaziyyat tarixi və s.). O, kompleks qiymətli birölçülü Şredinger operatorunun spektrinin diskretliyi, ixtiyari cüt tərkibli özünə qoşma olmayan sinqulyar diferensial operatorların spektrləri nəzəriyyəsini işləyib hazırlamış, kompleks qiymətli potensiala malik çoxölçülü Şredinger operatorunun məxsusi və qoşma funksiyaları sisteminin tamlığı və spektrin diskretliyi barədə bir sıra mühüm teoremləri isbat etmişdir. Spektral analizin tərs məsələlərinin həlli elmi yaradıcılığında xüsusi yer tutur. Diferensial tənliklər nəzəriyyəsi sahəsində – dəyişən potensiallı Şredinger tənliyinin həllinin asimptikasına dair əsərləri var. Bir sıra araşdırmaları xüsusi törəməli tənliklər sistemi üçün qoyulmuş başlanğıc – sərhəd məsələlərinin korrektliyi və qlobal həlli probleminə həsr edilmişdir. Bütöv mühit mexanikasının riyazi problemlərinə dair əsərlərində özlü-elastikiyyət nəzəriyyəsinin dinamik məsələlərini həll etmək üçün effektli metodlar işləyib hazırlamış, xətti özlü-elastikiyyət nəzəriyyəsinin qeyri-stasionar dinamik məsələlərinə həsr olunmuş əsərlərində mühüm nəticələr əldə etmişdir. M.-un ikinci və daha yüksək qeyri-xətti hiperbolik tənliklər üçün başlanğıc-sərhəd məsələlərinin həllinə dair araşdırmaları bu sahədə tədqiqatların təməlini qoymuşdur. Bu əsərlər içərisində dissipasiyalı qeyri-xətti dalğa tənliyinin hamarlığı probleminin həlli xüsusi yer tutur. Onun fəal iştirakı ilə deformasiya olunan bərk cisim mexanikası, qaz və maye mexanikası sahəsində tədqiqatlar aparılmışdır. 200-dən çox elmi əsərin, 11 monoqrafiyanın və dərsliklərin müəllifidir. Böyük enerji avadanlıqlarının davamlılığının hesablanması üsullarının işlənib hazırlanmasına görə 1983 ildə SSRİ Nazirlər Sovetinin mükafatına, keçmiş SSRİ XTNS-nin bürünc (1975) və gümüş (1978) medallarına layiq görülmüşdür. ABŞ, İngiltərə, Fransa, Rusiya, Yaponiya, Polşa, Macarıstan, Türkiyə və s. ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda Azərb. elmini ləyaqətlə təmsil etmişdir. O, Amerika Bioqrafiya Cəmiyyəti İdarə Heyəti sədrinin müavini, İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzi Baş direktorunun müavini, Amerika Riyaziyyat Cəmiyyətinin üzvü, Azərb.–Amerika Təhsil, İqtisadiyyat və Mədəniyyət Mərkəzinin həmsədri, NATO-nun elm komitəsinin üzvü, Atatürk Kültür Mərkəzinin (Türkiyə) fəxri üzvü, İslam Elmlər Akademiyasının üzvü seçilmişdi. Ədəbiyyat və incəsənət sahəsində də dərin biliyə malik idi. Elmi kadrlar hazırlanmasında mühüm xidməti var. M. həm də görkəmli ictimai xadim. Azərb. Respublikası Milli Məclisinin 1-ci çağırış deputatı, Yeni Azərb. Partiyasının (YAP) yaradıcılarından biri və İdarə Heyətinin üzvü olmuşdur. Azərb. Respublikasının İstiqlal ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Azərbaycanda riyaziyyat (Ə. İ. Hüseynovla birgə), B., 1978; Müasir həyatda riyaziyyat, B., 1980.

*Əd.:* F ə r a m ə z  M a q s u d o v, B., 2000.



**MALİK İBRAHİM QƏBİRİSTANI** – Ordubad ş.-ndə, Qaradağın ətəyində orta əsrlərə aid arxeoloji abidə. Cənuba doğru uzanan qəbiristanlığın sah. 2 *ha*-a yaxındır. İndi də istifadə olunmaqdadır. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində bir sıra maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Abidə ziyarətgah kimi məşhurdur. Bax *Malik İbrahim piri*.

**MALİK İBRAHİM PİRİ** – Ordubad ş.-nin ş.-ndə, Qaradağın ətəyində eyniadlı qəbiristanlıqda ziyarətgah. Pir kimi ziyarət olunan qəbrin üzərində qoyulmuş mərmər sənduqənin ərəbcə yazılarından məlum olur ki, orada hicri 962/1554–55 ildə vəfat etmiş Fərruxzad bəy dəfn olunmuşdur. Məqbərədən bir qədər aralıda əsl ziyarətgah olmalı sufi xanəgahı şeyxinin də məzarı vardır. Başdaşına süls xətti ilə həkk olunmuş ərəbcə kitabədə yüksək ruhani və alim ləqəbləri qeyd olunmuş və sufiliyin banisi xorasanlı Şeyx Əbu Səidin övladlarından və davamçılarından olması haqqında məlumat verilmişdir.

*Əd.:* M ə ş ə d i x a n ı m  N e m ə t, Azərbaycan pirləri, B., 1992; S ə f ə r l i  F., C ə f ə r o v  H., Naxçıvan ziyarətgahları, B., 1998.





*Malik İbrahim piri və qəbirüstü abidənin kitabəsi.*

**MANNA** (Aşşur mənbələrində M u n n a, M a n n a, M a n n a s; Urartu kitabələrində M a n a, Bibliyada, güman ki, M i n n i) – e. ə. 1-ci minilliyin əvvəllərində Azərb. ərazisində (Urmiya gölünün c.-ş.-i) yaranmış ən qədim dövlət. Urmiya gölünün c.-undakı vil.-lər uzun müddət *Zamua* adı ilə məşhur olmuşdur. E. ə. 1-ci minilliyin əvvəlində həmin ərazidə ayrı-ayrı xırda "hökmdarlıq"lar birləşməyə başladı. M.-nın adı ilk dəfə e. ə. 843 ildə Assuriya hökmdarı III Salmanasara müqavimət göstərmiş "hökmdarlıq"lar arasında çəkilir. Birləşmə prosesi M. hökmdarlığının hegemonluğu ilə nəticələndi. E. ə. 829 ildə M. hökmdarı Udaki assuriyalılara müvəffəqiyyətlə müqavimət göstərdi. *Urartu* dövləti e.ə. 820–810 illərdə Urmiya gölünün şm.-ndakı əraziləri işğal etməyə çalışırdı. Bu haqda Culfa r-nunda, İlandağda tapılmış mixi yazıda məlumat verilir. M. e.ə. 8 əsrin axırlarında İranzunun hakimiyyətinin əvvəllərində və onun xələfləri zamanında çiçəklənmə dövrü keçirirdi. M.-nın sərhədləri c.-da Diyala və Kiçik Zab çaylarının yuxarı axarlarına, ş.-də təqr. Xəzər dənizinə, şm.-da isə Araz çayına çatırdı. Güman ki, Naxçıvan ərazisini də əhatə edir (bunu Naxçıvanda aşkar edilmiş və Urmiyaətrafı ərazilərdə yayılmış maddi mədəniyyətlə eynilik təşkil edən tapıntılar təsdiqləyir). Urmiya gölü sahilinədək uzanırdı. Paytaxtı İzirtu (Ziroa) ş. idi. Dövlətin başında irsi hakimiyyətə malik olan hökmdar dururdu. Ağsaqqallar şurası olmasına baxmayaraq, M. hökmdarlarının hakimiyyəti qeyri-məhdud idi. Dövlət hökmdarın təyin və ya təsdiq etdiyi canişinlərin (çox vaxt irsi hakimiyyətə malik olurdular) idarə etdiyi vil.-lərə bölünürdü. Canişinlər müstəqilliyə və mərkəzi hakimiyyətə tabe olmamağa çalışırdılar. Assuriya və Urartu onların bu cəhdlərindən vaxtaşırı istifadə edirdi. İranzunun ölümündən sonra, e. ə. 719–716 illərdə onun övladları arasında hakimiyyət uğrunda mübarizə başladı. Atasının siyasətini davam etdirən və Assuriya tərəfdarı olan Ada tezliklə Urartunun müttəfiqləri – mannalı canişinlər tərəfindən məğlub edildi və öldürüldü; taxta qardaşı Ullusunu çıxdı. Urartulular Urmiya gölünün q. və şm.-ındakı vil.-ləri tutaraq, M. dövlətinin içərilərinə doğru irəlilədilər. E. ə. 714 ildə aşşur hökmdarı II Sarqon Urartuya yürüş etdi, hökmdar I Rusanı məğlubiyyətə uğratdı. II Sarqon və Ullusunu arasında müqavilə bağlandı. Bu müqaviləyə


Mehdiyev Əqil

əsasən. Ullusunu M.-nın sərhədlərini genişləndirməyə nail oldu. Zikirtu, Andiya və Qizilbunda vil.-lərindəki üsyanlar yatırıldı, urartulular tərəfindən tutulmuş qalalar, Uişdiş, Subi və Sanqibutu vil.-ləri geri qaytarıldı. Olduqca qüvvətlənmiş M. II Sarqonun varisləri dövründə Assuriyanın vassallığından çıxaraq, hətta onun bəzi yaşayış məntəqələrini işğal etdi. M. hökmdarı Ahşeri assuriyalılara qarşı mübarizədə skif (i s k i t) və kimmerlərin köməyindən istifadə edirdi. Sonralar daxili ziddiyyətlər nəticəsində zəifləyən M. e. ə. 660/59 ildə Assuriya tərəfindən məğlub edildi. Bu, "ölkə əhalisinin" Ahşeriyə qarşı üsyanı və onun öldürülməsi ilə nəticələndi. Ahşerinin oğlu Ualli Assuriyanın vassallığını qəbul etməyə və xərac verməyə məcbur oldu. M. e. ə. 616 il Assuriya–Babil müharibəsi zamanı Assuriyanın müttəfiqi idi. E. ə. 615–610 illərdə M. Midiyaya tabe edildi. M.-nın adı son dəfə Bibliyada e.ə. 593 il hadisələri ilə əlaqədar çəkilir.

Yazılı mənbələr və arxeoloji materiallar (Həsənlu, Ziviya, Göytəpə və s.) M.-nın iqtisadi cəhətdən yüksək inkişafını sübut edir. Təsərrüfatın əsas növləri əkinçilik və maldarlıq olmuşdur. Atçılıq mühüm yer tuturdu. Geniş süni suvarma şəbəkəsi bağçılıq və üzümçülüklə məşğul olmağa şərait yaradırdı. M. sənətkarları metalişləmə (Ziviya dəfinəsi, Həsənludakı qızıl, gümüş və bürünc əşyalar), dulusçuluq (qara rəngli şüyrələnmiş keramika) və şəhərsalma texnikasında (Assuriya relyefləri və Həsənluda aşkar olunmuş saray kompleksi) yüksək ustalığa nail olmuşdular. M.-da çoxlu şəhər və müdafiə qalaları mövcud idi. Ehtimal ki, M.-da Assuriya mixi yazısına bənzəyən yazıdan da istifadə olunmuşdur.

*Əd.:* Q a ş q a y S. M., Manna dövləti, B., 1993; М е л и к и ш в и л и Г. А., Некоторые вопросы истории Маннейского царства, "Вестник древней истории", 1949, №1; е г о ж е, Урартские клинообразные надписи, М., 1960; Д ь я к о н о в И. М., Ассиро-вавилонские источники по истории Урарту, "Вестник древней истории", 1951, №2–4; е г о ж е, История Мидии, М.–Л., 1956; А л и е в И. Г., История Мидии, Б., 1960.

**MAPARAX** – Culfa r-nu ərazisində dağ. Qaradərə çayının aşağı axınında, onun dərəsinin sol yamacındadır. Hünd. 1105 *m*. Q. və c. yamacları sıldırımdır.

**MARALIQ**, M ə r ə l ı k – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* q.-də. Yevlax–Laçın–Naxçıvan avtomobil yolunun kənarındadır. Əh. 225 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**MARĞIZ** – qədim əkinçilik aləti. Bax *Mərküz*.

**MASNİS** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Parağaçay dərəsinin sol yamacındadır. Hünd. 2081 *m*. Günbəzvarı formadadır.

**MEHDİYEV** Əqil Səftər oğlu (d. 20.7.1920, indiki Babək r-nunun Nehrəm k.) – həkim-terapevt. Səhiyyə əlaçısı (1973). Nax. MR (1974) və Azərb. Respublikası (1981) əməkdar həkimi. 1939 ildə Azərb. Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsinə qəbul olunmuş, Böyük Vətən müharibəsinin (1941–45) başlanması ilə əlaqədar təhsili yarımçıq qalmışdır. 1943–52 illərdə Nehrəm kənd məktəbində müəllim və direktor işləmişdir. Azərb. Tibb İn-tunu bitirdikdən (1959) sonra Babək r-nu Qahab və Nehrəm kənd xəstəxanalarında baş həkim, N. Nərimanov ad. Respublika xəstəxanasında baş həkim (1973–84; 1993–95) işləmişdir. 1995 ildən Nax. MR-ın səhiyyə naziridir. Muxtar respublikada səhiyyənin inkişafında xidmətləri var. Kənd xəstəxanalarının, doğum mərkəzinin tikilib istifadəyə verilməsi, Naxçıvan respublika xəstəxanasında naftalanla müalicə şöbəsi üçün yeni binanın inşası, cərrahiyə mərkəzinin yaradılması və s. M.-in adı ilə bağlıdır. Nax. MR Ali Məclisinin (1-ci çağırış) deputatı seçilmişdir. 1997 ildən Nax. MR Ağsaqqallar şurasının sədridir. "Şöhrət" ordeni və medallarla təltif olunmuşdur. C.Vəzirovun "Pəncərəmi açdım sabaha" (B., 2000) kitabında M.-in həyat yolundan bəhs edilir.

**MEHDİYEV** Həsən Musa oğlu ( 5.5.1925, indiki Babək r-nunun Yeniyol k. – 21.8.2001, Bakı) – yazıçı, nasir, publisist. Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş (1941). Bakıda ikiillik partiya məktəbinin müdavimi (1947–49) olmuşdur. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Ordudan tərxis edildikdən sonra Şahbuzda, Naxçıvanda sovet, komsomol və partiya işində çalışmışdır.



1952 ildə Bakıya köçmüş, nəşriyyat və mətbuat sahəsində fəaliyyət göstərmiş, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri (1967–72), "Elm və həyat" jurnalının baş redaktoru (1975–93) olmuşdur. "Naxçıvan" adlı ilk kitabı 1959 ildə nəşr edilmişdir. "Mənim Gülgəz bacım" (1971), "Dağ çiçəyi" (1980) povestlərinin, "Əlvida deməדik" (1969), "Oxşar talelər" (1982), "Sənsiz keçən günlərim" (1985), "Dünyamı qaytar mənə" (1989) romanlarının müəllifidir. Hekayələri ("Sevgi rapsodiyası" toplusu, 1969), publisistik yazıları var.


Mehdiyev İmran

**MEHDİYEV** İmran Əzim oğlu (d. 21.1.1936, Ordubad ş.) – iqtisadçı. İqtisad elmləri doktoru (1989), prof. (1997). Beynəlxalq Mühəndislik Akademiyasının (1998) və Rusiya Maliyyə və İqtisadiyyat Akademiyasının (1989) həqiqi üzvü, Azərb. Memarlar İttifaqının (1988) üzvü. Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) tikinti fakültəsini (1958) və keçmiş SSRİ Dövlət Tikinti Komitəsinin Beton və Dəmir–Beton Elmi-Tədqiqat İn-tunun aspiranturasını (1967) bitirmişdir. Azərb. SSR Nazirlər Sovetinin tikinti və kommunal təsərrüfatı şöbəsində böyük referent (1962–63; 1968–71), Bakı Mərmər Məmulatları zavodunun direktoru (1971–76), Nax. MSSR Nazirlər Soveti sədrinin birinci müavini (1976–79) və sədri (1979–82), Azərb. Dövlət Qiymət Komitəsi sədrinin birinci müavini (1982–83), Azərb. KP İsmayıllı rayon komitəsinin birinci katibi (1983–89), Azərb. Respublikası sənaye tikinti materialları nazirinin birinci müavini və "Azərsənayetikinti" Dövlət Konserninin birinci vitse-prezidenti (1991–98) vəzifələrində çalışmışdır. 1998 ildən Azərb. Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinin direktorudur. İdarəçilik və təşkilatçılıq işi ilə yanaşı, elmi-pedaqoji fəaliyyət də göstərir. Üç monoqrafiyanın, üç dərsliyin, 90-dan çox elmi məqalənin, bir neçə ixtiranın müəllifidir. Bir sıra elmi-tədqiqat və tədris in-tları elmi şuralarının üzvü, Azərb. Dövlət Memarlıq və İnşaat Un-tində tikintinin təşkili və idarə olunması kafedrasının prof.-dur. Bir sıra mötəbər elmi-texniki konfrans, simpozium və seminarların təşkilatçısı və iştirakçısıdır. 1996–97 illərdə Almaniyanın Bonn və Frankfurt Un-tlərində məruzələr etmişdir. Azərb. KP Naxçıvan Vilayət Komitəsinin büro üzvü (1979–83), Azərb. KP MK üzvü (1981–90), Nax. MSSR Ali Sovetinin (1977–85) və Azərb. SSR Ali Sovetinin (1980–90) deputatı olmuşdur. İki dəfə Şərəf nişanı, Qırmızı Əmək Bayrağı ordenləri və medallarla təltif olunmuşdur.


Mehdiyev Mehdi

**MEHDİYEV** Mehdi İmran oğlu (d.10.9.1969, Bakı ş.) – iqtisadçı. İqtisad elmləri doktoru (2001). *İ. Ə. Mehdiyevin* oğludur. Azərb. İnşaat Mühəndisləri İn-tunun inşaat fakültəsini bitirdikdən (1991 sonra S. M. Dadaşov ad. Tikinti Materialları Elmi Tədqiqat İn-tunda işləmişdir. Moskvada Rusiya Dövlət İdlarəetmə Akademiyası nəzdində Ali İdarəetmə Məktəbinin dinləyicisi olmuş (1992–93), Moskva Dövlət İnşaat Un-tinin aspiranturasını qurtarmışdır (1996). 1996–2000 illərdə Azərb. Respublikası Vergilər Nazirliyi sistemində məsul vəzifələrdə işləmiş, 2001 ildən Azərb. Respublikası Maliyyə Nazirliyində Vergi Siyasəti və Dövlət Gəlirləri İdarəsinin aparıcı iqtisadçısı vəzifəsində çalışır. Tədqiqatları Azərb.-da tikinitinin, xüsusən yaşayış inşaatının bazar iqtisadiyyatı şəraitində mövcud problemlərinə, onların demoqrafik, maliyyə, tikintinin material-texniki bazası və s. amillərin təhlili yollarına həsr olunmuşdur. 40-dək elmi məqalənin müəllifidir.

Ə s ə r i: Yaşayışın iqtisadiyyatı, B.,2000.


Mehdiyev Məmməd

**MEHDİYEV** Məmməd Əzim oğlu (1.3.1937, Ordubad ş. – 29. 3. 1987, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1986). Moskva Dövlət Un-tinin fizika fakültəsini (1961) və Moskva Energetika İn-tunun aspiranturasını bitirmişdir. SSRİ EA Spektroskopiya və Fizika İn-tlarında çalışmış, Azərb. Milli EA-nın indiki Fotoelektronika İn-tunda böyük elmi işçi (1974–80), laboratoriya müdiri (1980–87) işləmişdir. Elmi tədqiqatları bərk cisimlərdə eksitonlar nəzəriyyəsinə, darzolaqlı yarımkeçiricilərdə və polimetallarda aşqar səviyyələrinin və səth hallarının nəzəriyyəsinə aiddir. Elmi nəticələri infraqırmızı fotoqəbuledicilərin yaradılması və xassələrinin yaxşılaşdırılmasında tətbiq edilmişdir. 60-a qədər elmi məqalənin müəllifidir. Əsərləri ABŞ-da, Almaniyada, Rusiyada dərc olunmuşdur. Bir sıra beynəlxalq elmi məclislərdə məruzə etmişdir.



Məmməd Araz

təyin edərək, özü Həmədandakı sultan sarayında qalır, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün mühüm tədbirlər görür. M. C. P.-ın dövründən başlayaraq Azərb. atabəyləri dövlətinin idarə edilməsi məqsədilə, başda vəzir olmaqla, ali idarə (divan əl-alə) yaradılmışdı. M. C. P. 70-ə yaxın şəxsi məmlükünü ən mühüm dövlət vəzifələrinə təyin edir, onların köməyilə dövlət idarəçiliyinin özünəməxsus sistemini meydana çıxararaq, məmlük elitasını yaradır. M. C. P.-ın ölümündən 30 il sonra da bu elita ictimai-siyasi hadisələrdə aparıcı rol oynayırdı. M.C.P.-ın inzibatçılıq qabiliyyəti və tələbkarlığı sayəsində dövlət idarəçilik sisteminin hər sahəsində möhkəm qayda-qanun yaranmışdı. Hakimiyyətdə olduğu 10 il müddətində dövlət heç bir xarici müdaxiləyə məruz qalmadı. Daim Azərb.-a hücum edən gürcülərlə sülh bağlanmış, təhlükəli şərq qonşusu Xarəzmşahlarla və Xilafətlə dostluq münasibətləri yaradılmışdı. Ən böyük uğurlardan biri Ağsunqurilərin əlində olan Təbrizin alınması idi. Dövrün mənbələrində M.C.P.-ın dörd oğlu və bir neçə qızının olduğu haqqında məlumat var. Öz sağlığında türk qızı Qüteybə xatundan olan oğlu Əbu Bəkri Azərb.-na və Arrana hakim qoymuş, qardaşı Qızıl Arslanı onun atabəyi etmişdi. Rey, İsfahan və İraqın qalan hissələrini Rey hakiminin qızı İnanc xatundan olan oğlanları Qutluğ İnanc Mahmud və Əmir Əmiran Ömər üçün nəzərdə tutmuş, Həmədan vilayətini kənizdən olan oğlu Özbəyə vermişdi. *Zahidə xatundan* olan qızı *Cəlaliyyə* sonralar Naxçıvan hakimi olmuşdu. Eldənizlər dövlətinin xarici siyasi mövqelərini möhkəmlətməyə nail olmuş təcrübəli siyasətçi M. C. P. bu yolla oğlanları arasında gələcəkdə ola biləcək daxili çəkişmələrin qarşısını almağa çalışmışdı. Müasiri – tarixçi İbn əl-Əsir M.C.P. haqqında yazırdı, "O, xoş xasiyyətli, ədalətli, müdrik və səbrli hökmdar idi. Onun hakimiyyəti dövründə ölkələr sülh şəraitində, rəiyyət isə əmin-amanlıqda yaşayırdı".

*Əd.*: Bax *Azərbaycan atabəyləri dövləti* məqaləsinin ədəbiyyatına.

**MƏHƏMMƏD KƏRİM BƏY KƏNGƏRLİ** (?–?) – 18 əsrin ortalarında irsi tayfa rəisi. Ümumiyyətlə, Kəngərli camaatına rəhbərlik tayfa rəisinin əlində olsa da, bəzi hökmdarların zamanında rəisin səlahiyyət və vəzifələri məhdudlaşdırılırdı. Kərim xan Zəndin hakimiyyəti dövründə [1749–79] M. K. K. irsi hüquqlarının bərpası xahişi ilə şahın iqamətgahı olan Şiraza getmiş, ixtiyarındakı tayfa üzvlərinin bir hissəsinin mərkəzi hökumət tərəfindən tayfanın hüquqi rəisindən icazə alınmadan yaşadıqları yerlərdən zorla çıxarılıb, İrana hərbi xidmətə aparıldığını cəsarətlə şahın nəzərinə çatdırmışdı.

**MƏHƏMMƏD NAXÇIVANİ İBN HİNDUŞAH** – 13 əsrin sonu – 14 əsrin əvvəllərində yaşayıb yaratmış Azərb. alimi və dövlət xadimi. Bax *Naxçıvani* Məhəmməd.

**"MƏKTƏBİ-TƏRBİYƏ"** – bax *"Tərbiyə"*.

**MƏLİK BƏHRAM BƏY** (?–?) – dövlət xadimi. 15 əsrin 2-ci yarısı – 16 əsrin 1-ci yarısında yaşamışdır. Nəsirəddin Tusinin nəslindəndir. Mənbələrin verdiyi məlumata görə, uzun illər Ordubadın kələntəri (şəhər inzibati və mülki idarələrinin başçısı) olmuşdur. Ölümündən sonra yerinə oğlu *Hatəm bəy Ordubadi* təyin olunmuşdu.

**MƏLİK ZİYAƏDDİN** (?–?) – Naxçıvan hakimi (14 əsr). 1318 ildə Gürcüstanda Sultan Əbu Səidin [1316–35] əleyhinə iğtişaş qaldırmış Əmir Qurumişiyə qarşı çıxmışdır. Mənbələrin verdiyi məlumata görə, M.Z. Qurumişinin kömək göstərmək barədə xahişini rədd edib, təcili mərkəzə tərəf çəkilmiş, lakin iğtişaşçıların əlinə keçərək, 100000 dinar ödəməklə canını xilas edə bilmişdir.

**MƏMMƏD ARAZ** (Məmməd İnfil oğlu İ b r a h i m o v u n ədəbi adı; d. 14.10.1933, Şahbuz r-nunun Nurs k.) – şair. Azərb.-ın xalq şairi, Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1979) və əməkdar incəsənət xadimi (1984). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1988). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) coğrafiya fakültəsini (1954) və Moskvada M.Qorki ad. Ədəbiyyat İn-tunu (1961) bitirmişdir. Azərb. Dövlət Nəşriyyatında ("Azərnəşr") bədii ədəbiyyat şöbəsinin müdiri (1963–67), baş redaktor müavini (1972–74), "Ulduz" jurnalının məsul katibi (1967–70), "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor müavini (1970–72) işləmişdir. 1975 ildən "Azərbaycan təbiəti" jurnalının baş redaktorudur. 1971–81 illərdə Azərb. Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik etmişdir. Vətənə məhəbbət, doğma torpağa bağlılıq, vətəndaşlıq hisslərinin və nəciblik duyğularının tərənnümü "Sevgi nəğməsi" (1959), "Anamdan yadigar nəğmələr" (1966), "Ömür karvanı" (1967), "Qanadlı qayalar" (1973), "Oxucuya məktub" (1978), "Aylarım, illərim" (1979), "Dünya sənin, dünya mənim..." (1983), "Daş harayı" (1992), «Yol ayrıcında söhbət» (1997) və s. toplularının, "Əsgər qəbri haqqında ballada", "Araz axır", "Üç oğul anası", "Atamın kitabı", "Qayalara yazılan səs", "Paslı qılınc" və s. poemalarının başlıca mövzularıdır. Yaradıcılığında Naxçıvan mövzusu əhəmiyyətli yer tutur ("Mənim Naxçıvanım", "Qədim, təzə Naxçıvanım" və s.). M. A.-a görə Vətən şairin doğulub, boya-başa çatdığı Nurs kəndindən başlayaraq, bu taylı-o taylı bütöv Azərb. qədər böyüyür. "Vətən qızı", "Salamat qal", "Yəqin, dağlar küsüb məndən", "Əlvida, dağlar", "Dağlar məni tanımadı", "Ata ocağı" şerləri də doğma diyara ünvanlanmışdır. Publisistik yazıları var ("Həyatın və sözün rəngləri" toplusu, 1974). Əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Balkar şairi Q. Quliyevin ( "Yaralı daş" toplusu, 1966), rus şairi M. Svetlovun ("Şerlər" toplusu, 1975), dünya xalqları şairlərinin ("Ocaq başında" toplusu, 1988) şerlərini tərcümə etmişdir. Azərb. Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Adına "Məmməd Araz" ədəbi mükafatı təsis edilmişdir.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1986; Qayalara yazılan səs, B., 1994; Sənətdə son mənzil olmur (Publisistika), B., 2001.

Əd.: H ə b i b b ə y l i İ., Məmməd Araz (albom-monoqrafiya), B., 1993; Y u s i f l i V., Məmməd Araz dünyası, B., 1994.

**MƏMMƏD CƏFƏR** (Məmməd Zeynalabdin oğlu C ə f ə r o v u n ədəbi adı; 9.5.1909, Naxçıvan ş. – 11.5.1992, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – tənqidçi, ədəbiyyatşünas, nasir. Filologiya elmləri doktoru (1961), prof. (1963), Azərb. Milli EA akad. (1976; m. üzvü 1968). Azərb. Respublikasının əməkdar elm xadimi (1982). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1976). Naxçıvan Pedaqoji Texnikumunu (1932) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1935) və aspiranturasını (1938) bitirmişdir. 1935–59 illərdə müxtəlif ali məktəblərdə və Azərb. Dövlət Un-tində (indiki BDU) müəllim, dekan, kafedra müdiri, "Ədəbiyyat qəzeti"nin redaktoru, Azərb. Yazıçılar İttifaqı Tənqid və ədəbiyyatşünaslıq bölməsinin müdiri olmuşdur. Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunun müasir ədəbiyyat (1959–63) və ədəbiyyat nəzəriyyəsi (1963–1982) şöbələrinin müdiri, in-tun direktoru (1980–81) vəzifələrində çalışmışdır. 1981 ildən Azərb. Milli EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi idi. M. C. çağdaş Azərb. yazıçılarının yaradıcılığı haqqında ədəbi tənqidi məqalələrin, Azərb. ədəbiyyatının tarixi və nəzəriyyəsinə həsr olunmuş əsərlərin ["Klassiklərimiz haqqında" (1948), "M. F. Axundovun ədəbi tənqidi görüşləri" (1950), "Füzuli düşünür" (1959), "Hüseyn Cavid" (1960), "XX əsr Azərbaycan ədəbiyyatında romantizm (1963), "Cəlil Məmmədquluzadə" (1966), "Səməd Vurğun" (1966), "Nizaminin fikir dünyası" (1981) kitabları], rus ədəbiyyatına, Azərb.-rus ədəbi əlaqələrinə dair tədqiqatların ["Rus ədəbiyyatı tarixi oçerkləri" (1939), "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən" (1964), "Rus klassikləri" (1964) kitabları və s.], aktual ədəbi, estetik və pedaqoji problemlərə aid araşdırmaların ["Estetik zövq, ailə və məktəb" (1954), "Ədəbi düşüncələr" (1958), "Estetik zövq haqqında" (1965), "Mütəfəkkirin şəxsiyyəti" (1966) kitabları və s.] müəllifidir. Üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957–60) müəlliflərindəndir. Bədii yaradıcılıqla da məşğul olmuşdur: "Əntiqə adamlar" (1981) hekayə toplusu və s.. Qırmızı Əmək Bayrağı, iki Şərəf nişanı orden və medallarla təltif olunmuşdur. "Azərbaycan SSR EA Xəbərləri"nin (ədəbiyyat, dil və incəsənət seriyası) baş redaktoru, "Dünya ədəbiyyatının inkişaf problemləri üzrə Resp. Əlaqələndirmə Şurasının sədri idi.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, c. 1–2, B., 1973–74; XIX əsr rus ədəbiyyatı, h. 1–3, B., 1970–75; Sənət yollarında, B., 1975; Həmişə bizimlə, B., 1980.

*Əd.*: Məmməd Cəfər Cəfərov. Biblioqrafiya. B., 1973; Q a r a y e v Y. Tənqidçinin şəxsiyyəti, onun "Tənqid, problemlər, portretlər" kitabında, B., 1975;

**MƏMMƏD ƏKBƏR** (Məhəmməd Həmzə oğlu Ə k b ə r o v u n ədəbi adı; 5.5.1909, Ordubad ş. – 10.11.1974, Bakı) – yazıçı, na-





Məmməd Cəfər


Məmmədəliyev Həbib

sir, publisist. Uşaq yaşlarından yetim qalmışdır. 1923 ildə Ordubad ipək z-dunda usta şagirdi olmuşdur. İki il Ordubad fəhləgənclər məktəbində oxumuş, sonra Naxçıvan Pedaqoji Texnikumuna göndərilmişdir. Texnikumda təhsil illərində kəndli müxbiri kimi "Şərq qapısı", "Kommunist", "Yeni yol" və "Kəndli" qəzetlərində, "Molla Nəsrəddin" jurnalında fəal iştirak etmişdir. Texnikumu bitirdikdən sonra Bakıya, "Kəndli" qəzetinə dəvət olunan M. Ə. müxtəlif qəzet və jurnallarda əməkdaşlıq etmişdir. "Şadman" adlı ilk oçerk və hekayələr kitabı 1932 ildə "Azərnəşr"də çap olunmuşdur. Təhsilini Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsində qiyabi davam etdirmiş, hərbi xidmətə çağırıldığından yalnız iki kurs bitirə bilmişdir. 1944 ildə Azərb. Yazıçılar İttifaqı İdarə Heyətinin təklifi ilə "Ədəbiyyat qəzeti"nə məsul katib dəvət olunmuş, ömrünün sonunadək bu vəzifədə çalışmışdır. "Həyatımızdan səhifələr" (1963), "Dostlar və tanışlar" (1965), "Yeni həyat yaradanlar" (1968) və s. oçerk və hekayə topluları nəşr edilmişdir.

Ə s ə r i: Hekayələr, oçerklər, xatirələr, B.,1978.

**MƏMMƏDƏLİYEV** Həbib Mehdi oğlu (20.3. 1912, Ordubad ş. – 14.5.1975, Moskva; Bakıda dəfn edilmişdir) – kimyaçı (neft kimyası). Texnika elmləri doktoru (1954), prof. (1955), Azərb. Milli EA m. üzvü (1967). *Y. Məmmədəliyevin* qardaşı oğludur. Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) texnologiya fakültəsini bitirmişdir (1937). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. SSRİ EA Azərb. filialının elmi əməkdaşı (1938–41), Azərb. Milli EA Neft İn-tunun motor yanacaqları laboratoriyasının müdiri (1945–55) olmuşdur. 1955 ildə Moskvaya köçərək, keçmiş SSRİ EA Neft-Kimya Sintezi İn-tunda baş elmi işçi, 1960 ildən isə aromatik monomerlər laboratoriyasının müdiri işləmişdir. M.-in başçılığı ilə işlənib hazırlanmış katalitik riforminq prosesi piroliz qurğularında aromatik karbohidrogen istehsalını 1,5–2 dəfə artırmağa imkan vermişdir. M. aromatik karbohidrogenlərin alkilləşdirilməsi, alkilsizləşdirilməsi və izomer çevrilməsi reaksiyalarını öyrənmiş, fenolları tədqiq etmiş, nəticədə əsas və əlavə məhsulların əmələgəlmə reaksiyalarının ümumi sxemlərini müəyyənləşdirmiş və onların kinetik qanunauyğunluqlarını aşkara çıxarmışdır. Elmi tədqiqatlarının nəticələri 180 məqalədə, 12 müəlliflik şəhadətnaməsində və bir monoqrafiyada əksini tapmışdır.

*Əd.:* Н а м е т к и н Н. С., К у р а ш е в М. В., Л о к т е в С. М., Габиб Мехтиевич Мамедалиев, "Нефтехимия", т. 15, 1975, №6.

Məmmədəliyev Vasim



**MƏMMƏDƏLİYEV** Vasim Məmmədəli oğlu (d.27.8.1942, Bakı) – şərqşünas, dilçi, ilahiyyatçı. Filologiya elmləri doktoru (1974), prof. (1979), Azərb. Milli EA m. üzvü (2001), Azərb. Respublikası əməkdar elm xadimi (1992), İraq EA-nın m.üzvü (1989), İslam Konfransı Təşkilatı Müsəlman Hüququ Akademiyasının (Ciddə ş.) həqiqi üzvü (1994), Suriyanın Ərəb Filologiyası və İslam Elmləri Akademiyasının həqiqi üzvü (1995). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini (1964) və aspiranturasını (Tiflisə ezam olunmaqla, 1967) bitirmişdir. 1968 ildən BDU-nun ərəb filologiyası kafedrasında müəllim, dosent (1970–78), prof. (1979–91), şərqşünaslıq fakültəsinin dekanı (1981–91), un-tin humanitar fakültələr üzrə prorektoru (1991–92) vəzifələrində çalışmışdır. 1991 ildən ərəb filologiyası kafedrasının müdiri, 1993 ildən eyni zamanda ilahiyyat fakültəsinin dekanıdır. Azərb. Respublikası Təhsil Nazirliyi şərqşünaslıq üzrə elmi-metodik şurasının sədri (1983–97), Bakı Un-ti "Xəbərləri"nin (1992–97) redaktoru olmuşdur. Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədridir (1997 ildən). M. ərəb filologiyası və islamşünaslıq sahəsində görkəmli mütəxəssisdir. İlk dəfə olaraq, ərəb qrammatika məktəblərinin təşəkkül və inkişaf mərhələlərinə, nəzəri əsaslarına, fel kateqoriyalarına, onların Azərb. və ərəb dillərində müqayisəli-tipoloji təhlilinə, ərəb ədəbiyyatına dair sanballı tədqiqatların, o cümlədən 10-dan çox monoqrafiya, dərslik və kitabın, 250-dən çox elmi məqalənin müəllifidir. Akad. Z.Bünyadovla birlikdə "Qurani Kərim"i ilk dəfə müasir Azərb. dilinə çevirmiş, onun ilk nəşrinə (1991) geniş ön söz yazmışdır (indiyədək 6 dəfə nəşr edilmişdir; yenidən işlənmiş variantı 1997 ildə Türkiyədə çapdan çıxmışdır). C.Məmmədquluzadənin "Saqqallı uşaq" hekayələr toplusunu, digər əsərləri ərəb dilinə




Məmmədəliyev Yusif

çevirmişdir. Əsərləri ərəb ölkələrində (Misir, İraq, Suriya, Səudiyyə Ərəbistanı, Mərakeş və s.), Türkiyədə, İranda, Pakistanda, Rusiyada, Gürcüstanda da nəşr olunmuşdur. Misir, İraq, İran, Türkiyə, Səudiyyə Ərəbistanı, ABŞ, Rusiya, Polşa, İndoneziya və s. ölkələrdə beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Elmi kadrlar hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Bəsrə qrammatika məktəbi, B., 1983; Ərəb dilçiliyi, B., 1985; Kufə qrammatika məktəbi, B., 1988; Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları, B., 1992; Azərbaycan dilinin ərəb qrafikası ilə ifadəsi, Rabat, 2000 (ərəb dilində); Категории времени, лица и наклонения в современном арабском языке, Б., 1979.

**MƏMMƏDƏLİYEV** Yusif Heydər oğlu (31. 12.1905, Ordubad ş. – 15.12.1961, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – kimyaçı. Kimya elmləri doktoru (1942), prof. (1942), Azərb. Milli EA akad. (1945) və prezidenti (1947–51 və 1958–61), SSRİ EA m. üzvü (1958). SSRİ Dövlət mükafatı laureatı (1946). Akad. N. D. Zelinskinin tələbəsidir. Azərb. Ali Pedaqoji İn-tunu (indiki APU) bitirmiş (1926), Gəncə Pedaqoji Texnikumunda və Yerevan Pedaqoji İn-tunda kimya müəllimi olmuş, iki il Lomonosov ad. MDU-da təhsilini davam etdirdikdən sonra Azərb. Kənd Təsərrüfatı İn-tunda (1932–33) və Azərb. Elmi-Tədqiqat Neft Emalı İn-tunda (1933–45) işləmişdir. Azərb. Milli EA yarandıqdan (1945) sonra Neft İn-tuna rəhbərlik etmişdir. 1954–58 illərdə Azərb. Dövlət Un-tinin (indiki BDU) rektoru olmuşdur.



M.-in əsas elmi işləri, neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla, karbontetra-xlorid, metilxlorid, metilen-xlorid və s. qiymətli məhsullar alınması yollarını göstərmişdir. Aromatik parafin və sikloparafin karbohidrogenlərini doymamış karbohidrogenlərlə katalitik alkilləşdirmə sahəsindəki tədqiqatı aviasiya yanacaqlarının yüksək keyfiyyətli komponentlərinin sənaye miqyasında sintezinə imkan vermişdir. M. benzolu propilenlə alkilləşdirilmək yolu ilə izopropilbenzolun sintezi üsulunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsi illərində aviasiyanın yüksək oktanlı yanacaqla təmin olunmasına kömək etmişdir. M. Bakı neftlərinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisium-üzvi birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüşdür. 200-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir. Yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında böyük xidməti olmuşdur. O, SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, Polşa, Macarıstan və başqa ölkələrdə keçirilən qurultay, konqres və simpoziumlarda respublikamızı dəfələrlə təmsil etmişdir. D.İ. Mendeleyev ad. Ümumittifaq Kimyaçılar Cəmiyyəti Azərb. İdarəsi Rəyasət Heyətinin (1957–61) və Azərb. "Bilik" Cəmiyyəti Rəyasət Heyətinin sədri (1948–50 və 1958–61) olmuşdur. SSRİ Ali Sovetinin (5-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı seçilmişdir. Lenin ordeni, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və medallarla təltif edilmişdir. Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tuna (NKPİ), Ordubad ipək kombinatına və Şamaxı rəsədxanasının yerləşdiyi elmi qəsəbəyə və Bakı küçələrindən birinə onun adı verilmiş, adına mükafat təsis olunmuş, NKPİ-də və Ordubad ş.-ndə muzeyi açılmış, büstü qoyulmuş,



Y.H.Məmmədəliyevin ev-muzeyi. Ordubad şəhəri.

Bakıda yaşadığı evdə xatirə lövhəsi vurulmuşdur. Bakının İstiqlaliyyət küçəsində, Azərb. Milli EA Rəyasət Heyəti binasının yanında heykəli ucaldılmışdır.

Ə s ə r l ə r i: Azərbaycan təbii qazları və onlardan kimyəvi istifadə, B., 1936; Синтез толуола алкилированием и деалкилированием ароматических углеводородов, Б., 1943; Развитие науки в Азербайджане, Б., 1960; Избр. произв., в 3-х томах, т.1-2, Б., 1964-67.

*Əd.:* M ə m m ə d ə l i y e v a S., Akademik Yusif Məmmədəliyev, B., 1996; M ə h ə r r ə m o v A., A l l a h v e r d i y e v M., Ə l i y e v a R. Ə., Azərbaycan kimyaçıları, B., 1998; M ə h ə r r ə m o v A., Q i y a s b ə y l i M., Tarixin canlı salnaməsi, B., 2000; Ю.Г. Мамедалиев. Библиография (Деятели науки и культуры Азербайджана), Б., 1965; П л а т о н о в Б. Р., Мамедалиев. Страницы жизни, Б., 1966.

**MƏMMƏDƏLİYEVA** Sevda Yusif qızı (d.14.11.1946, Bakı) – kimyaçı, fəlsəfəşünas. Kimya elmləri namizədi (1972), fəlsəfə elmləri doktoru (1994), prof. (1994), Azərb. Milli EA m. üzvü (2001), Beynəlxalq Ekoenergetika Akademiyasının (1996), Rusiya Ekologiya Akademiyasının (1997) və Beynəlxalq Noosfera Akademiyasının (2000) həqiqi üzvü. Akad. *Y. H. Məmmədəliyevin* qızıdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1967) və Azərb. Milli EA Y.Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tunun (NKPİ) aspiranturasını (1970) bitirmişdir. NKPİ Sumqayıt filialının və keçmiş Ümumittifaq Elmi-Tədqiqat Qaz Lahiyə İn-tunun baş elmi işçisi (1974–83), Azərb. Memarlıq və İnşaat Un-tinin (keçmiş İnşaat Mühəndisləri İn-ti) dosenti (1984–94) və prof. (1994 ildən) olmuşdur. 1999 ildən həmin un-tin ekologiya kafedrasının müdiri, eyni zamanda Azərb. Respublikası Mədəniyyət nazirinin müavinidir. Ekoloji mədəniyyət, etika və estetika məsələlərinə dair tədqiqatlar aparmışdır. 100-dən çox elmi əsərin, o cümlədən 5 monoqrafiya və broşürün, tədris və metodik vəsaitin müəllifidir. "Bilik" Azərb. Maarifçilik Cəmiyyətinin Y. Məmmədəliyev ad. mükafatı və medalı ilə təltif olunmuşdur (1996).

Məmmədəliyeva Sevda



Ə s ə r l ə r i: Akademik Yusif Məmmədəliyev, B., 1996; Mədəniyyət, ekologiya, təhsil (Nizami Məmmədovla birgə), B., 1999; Ekologiya və texnika (N. Məmmədovla birgə), B., 1999; Экологическая проблема и пути ее решения, Б., 1997.

**MƏMMƏDƏLİYEVİN EV-MUZEYİ,** Y u s i f M ə m m ə d ə l i y e v i n e v - m u z e y i, O r d u b a d d a – 1975 ildə akad. Y. Məmmədəliyevin anadan olduğu evdə yaradılmışdır. Muzeydə alimin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid 1160 eksponat, o cümlədən müxtəlif sənədlər, çap olunmuş əsərləri, fotoşəkillər, habelə xatirə əşyaları və s. materiallar nümayiş etdirilir. Muzeyin əməkdaşları buraya gələnlər qarşısında, muzeydənkənar tədbirlərdə Y. Məmmədəliyevin çoxcəhətli həyat və fəaliyyətinin müxtəlif mərhələlərinə dair mühazirələrlə çıxış edirlər.

**MƏMMƏDXANOV** Ələkbər (1875, Naxçıvan ş. – 1920, Bakı) – ziyalı. 1884 ildə Qori Müəllimlər Seminariyasına daxil olmuş, lakin təhsil haqqını ödəyə bilmədiyindən seminariyadan çıxarılmışdır. Sonralar Xarkov Un-tində təhsil almış, mühəndislik ixtisası qazanmış, Bakıda Musa Nağıyevin şirkətində neft mühəndisi işləmişdir. Bəhailik təriqətinin tarixi və fəlsəfəsini öyrənmiş, bu sahədə Qafqazda çap olunmuş əsərləri, o cümlədən Atropet adlı müəllifin "İmamat" kitabını avtoqrafla L. N. Tolstoya göndərmişdir. Ümumiyyətlə, L. N. Tolstoyun şəxsiyyətinə, irsinə və fəlsəfi görüşlərinə rəğbət bəsləmiş, onunla məktublaşmışdır. Şeyx Bəhaullanın "İşıq" əsərini, bir sıra digər əsərləri rus dilinə tərcümə edərək, Yasnaya Polyanaya göndərmişdir.

*Əd.:* M ə m m ə d l i Q., Molla Nəsrəddin (salnamə), B., 1984; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.






*Cəlil Məmmədquluzadənin abidəsi. 1974. Naxçıvan şəhəri. Heykəltəraş M. M i r q a s ı m o v.*



**MƏMMƏDQULİYEV** Yusif Məmmədqulu oğlu (1863, Naxçıvan ş. – 1904, orada) – *Məmmədqulu Məşədi Hüseynqulu* oğlunun ilk övladı, C. Məmmədquluzadənin böyük qardaşı. Naxçıvanda ibtidai məktəbi bitirmişdir. İrəvan Müəllimlər Seminariyasına daxil olmaq üçün ərizə versə də (1881), ailənin maddi vəziyyətini nəzərə alaraq, bu niyyətindən əl çəkmişdir. Saatsazlıq sənətini öyrənmiş, atasına və qardaşlarına maddi yardım göstərmişdir. Fars dilini yaxşı bilən M. Şərq ədəbiyyatını dərindən mütaliə etmiş, şerlər də yazmışdır. C. Məmmədquluzadənin elm və təhsilə həvəsləndirilməsində, onun bədii zövqünün və mütaliə vərdişlərinin formalaşmasında M.-in mühüm rolu olmuşdur.

*Əd.:* M ə m m ə d l i Q., Molla Nəsrəddin (salnamə), B., 1984; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**MƏMMƏDQULU** Məşədi Hüseynqulu oğlu (?, Naxçıvan ş. – ?, orada) – Cəlil Məmmədquluzadənin atası. 19 əsrin 40-cı illərində doğulmuş, 1860-cı illərin əvvəlində Naxçıvan sakini Sara Məşədi Baba qızı ilə evlənmişdir. Bu izdivacdan beş övlad – Yusif, Cəlil, Ələkbər, Səkinə və Xəlil dünyaya gəlmişdir. Təhsil almasa da, müstəqil yolla ərəb əlifbasını öyrənmşdir. İmam Rza ziyarətinə gedərək, Məşədi adı almışdır. Naxçıvan duz mədənlərində gözətçi işləmiş, kiçik məhəllə dükanı açmış, burada duz satmaqla ailəsini dolandırmışdır. Maarifçilik ideyalarına rəğbət bəsləmiş, Q. Şərifzadə, M. T. Sidqi, M. C. Şürbi və b. ziyalılarla həmsöhbət olmuşdur.

**MƏMMƏDQULU SALİK**, S a l i k O r d u b a d i (1806, indiki Ordubad r-nunun Xanağa k. – ?, orada) – şair. Ordubaddakı "Mədrəseyi-irşadiyyə"də oxumuş, təhsilini Təbrizdə ali ruhani mədrəsəsində tamamlamışdır. Həm klassik üslubda, həm də xalq şeri tərzində yazmışdır. Yaradıcılığına M. Füzuli və M. P. Vaqifin təsiri olmuşdur. "Gülşən" adlı əlyazma divanı var. Klassik üslubda yazdığı əsərlərdə eşq mənəvi kamillik kimi mənalandırılır. Lirikasında real məhəbbət, təbii insani hisslər tərənnüm edilir. Yaradıcılığında ictimai mövzulara meyl üstündür. Şerlərində sosial ədalətsizliyə, zəmanəyə etiraz motivləri əksini tapmış, cəhalət və mövhumat, riyakar və fırıldaqçı ruhanilər kəskin satira atəşinə tutulmuşdur. Klassik Şərq şairlərinin əsərlərini dərindən öyrənmiş, onların şerlərinə bənzətmə və nəzirələr yazmışdır. Gəncəni, Tiflisi, İrəvanı, habelə İran və Türkiyənin bir sıra yerlərini gəzmiş, "Səfərnamə" əsərində şahidi olduğu hadisələri nəzmə çəkmişdir. Külliyyatı ("Divani-Salik Ordubadi", Təbriz, 2001) nəşr olunmuşdur (tərtib edəni və müqəddimənin müəllifi Ə.Qədimov).



*Məmmədquluzadə Cəlil*

**MƏMMƏDQULUZADƏ** Cəlil Məmmədqulu oğlu (ədəbi təxəllüsü Molla Nəsrəddin; 22.2.1869, Naxçıvan ş. – 4.1.1932, Bakı) – yazıçı, dramaturq, jurnalist, ictimai xadim. İlk təhsilini əvvəlcə mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almışdır. 1887 ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, İrəvan qub.-nın Uluxanlı, Naxçıvan mahalının Baş Noraşen (indiki Şərur r-nunun Cəlilkənd k.), Nehrəm kəndlərində müəllimlik etmişdir (1887–97). Kəndlərdə müəllim işlədiyi illər ədibin gələcək yaradıcılığı üçün zəngin material vermişdir. Baş Noraşendə yazdığı "Çay dəstgahı" (1889) alleqorik mənzum dramı M.-nin ilk əsərlərindəndir. Bir sıra kiçik hekayələrini, "Kişmiş oyunu" komediyasını və "Danabaş kəndinin əhvalatları" (1894; 1936 ildə nəşr olunmuşdur) povestini də bu dövrdə yazmışdır. 1895 ilin yayında Moskvaya və Peterburqa getmiş, bu şəhərlərin mədəni həyatı ilə tanış olmuşdur. Naxçıvanda və İrəvanda müxtəlif hüquq idarələrində çalışmışdır (1897–1903).

1903 ildən Tiflisdə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında işləmişdir. M.-nin yazıçı və jurnalist kimi püxtələşməsində "Şərqi-Rus" qəzeti və onun redaktoru *M. A. Şahtaxtlının* mühüm rolu olmuşdur. "Poçt qutusu" adlı ilk mətbu əsəri, "Kişmiş oyunu", L. N. Tolstoydan tərcümə etdiyi "Zəhmət, ölüm və naxoşluq" hekayələri ilk dəfə bu qəzetdə dərc edilmişdir. 1904 ilin noyabrında M. "Şərqi-Rus" qəzetinin müvəqqəti redaktoru olmuşdur. 1905 ilin əvvəlində "Şərqi-Rus" bağlandığı zaman M., jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə ilə şərikli bu qəzetin mətbəəsini alıb, ona "Qeyrət" adı vermişdir. M.-nin ilk kitabçaları, ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy"; "İranda hürriyyət"1905–07) "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. Həmin ildə M. Tiflisdə uşaqlar üçün məktəb və pansion açmışdı.



C.M.Məmmədquluzadə ailə üzvləri ilə İsa bulağında. Şuşa. 1926, iyun.

M. "Kavkazski raboçi listok" qəzetində Cənubi Azərb.-dan gəlmiş fəhlələrin ağır həyatını təsvir edən "Binəsiblər" və "Xeyirdua" məqalələri ilə çıxış etmişdir (1905). M. "Novruz" adlı gündəlik qəzet çıxarmağa icazə alsa da (1905), azadlıq hərəkatının təsiri ilə mübariz satira orqanı nəşr etməyi daha münasib bildi.

İlk nömrəsi 1906 il aprelin 7-də (20-də) çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla M. Azərb.-da, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. Həmin vaxtdan M. Molla Nəsrəddin adı ilə tanındı. M. Ə. Sabir, N. Nərimanov, Ə. Haqverdiyev, M.S. Ordubadi, Ö. F. Nemanzadə, Əli Nəzmi, Ə. Qəmküsar kimi yazıçı və jurnalistlərlə M. arasında möhkəm ideya-yaradıcılıq əlaqəsi yarandı. M.-nin təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. M.-nin rəhbərliyi ilə mollanəsrəddinçilər Yaxın və Orta Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat və ədəbiyyat məktəbi yaratdılar. "Molla Nəsrəddin" "Suri-İsrafil" (Azərbaycan), "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yəşen" (Tatarıstan), "Tokmaq" (Türkmənistan), "Sinək" (Krım) və s. satirik jurnallar üçün örnək oldu. Ə. Lahuti, A. Tukay, M. Dehxuda, Ə. Gilani "Molla əmi"ni özlərinə müəllim və ustad seçmişdilər. Jurnalın Rusiyadan başqa Asiya, Avropa və Amerikanın bir sıra ölkəsində də abunəçiləri var idi. Başqa mollanəsrəddinçilər kimi, M. də irtica və qaraguruhçuların arasıkəsilməz təqib və təzyiqinə məruz qalırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, bəzən də "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920 ilin iyun ayında M. ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921 ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini çapdan buraxmışdır. 1921 ildə Azərb. hökumətinin dəvəti ilə Bakıya qayıtmış, 1922 ildən "Molla Nəsrəddin"in nəşrini burada davam etdirmişdir. "Yeni yol" qəzetinin redaktoru, Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü, Bakı Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olmuş, "Maarif və mədəniyyət", "Yeni kənd", "Şərq qadını" (indiki "Azərbaycan qadını") və s. mətbuat orqanlarında fəaliyyət göstərmişdir.

20-ci illərin ikinci yarısından etibarən M.-nin həyatında ciddi sarsıntılar dövrü başlanmışdır. Onun baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalına ciddi senzura nəzarəti qoyulmuş, jurnalın nəşri üçün ayrılan dövlət vəsaiti (dotasiya) azaldılmışdır. Hətta "Molla Nəsrəddin" jurnalının Mübariz Allahsızlar Cəmiyyətinin orqanı kimi fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilmişdir. Bir çox dövlət səviyyəli toplantılara, ədəbi-mədəni tədbirlərə dəvət edilməməsi, dövri mətbuatda haqqında çap olunan yersiz tənqidi məqalələr də böyük demokrat ədib üçün gözlənilməz mənəvi zərbələrə çevrilmişdir. Bütün bunlar yazıçının sağlamlığını ciddi surətdə sarsıtmışdır.

M.-nin ictimai-ədəbi fəaliyyəti keçən əsrin 80-ci illərinin axırından 20 əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda (dram, hekayə, povest, şer, publisistika, ədəbi tənqid, xatirə və s.) yazdığı əsərləri ilə M. realist Azərb. ədəbiyyatının yeni, yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. M. ədəbi və estetik görüşlərində realizmin ardıcıl tərəfdarı, mübariz təbliğatçısı və nəzəriyyəçisi idi. M. F. Axundov ənənələrinə əsaslanan M. sənətdə mücərrədliyə, formalizm təzahürlərinə, bitərəflik və ideyasızlıq meyllərinə qarşı kəskin mübarizə aparırdı. Ədəbiyyatı və mətbuatı bütün xalqın, hətta sadə, savadsız, avam adamların malı etmək onun əsas yaradıcılıq qayələrindən idi. O, "qələmlə təşəxxüs satan" məsləksiz yazıçıları – "şer bülbülləri"ni hiddətlə tənqid edirdi.

Hələ "Danabaş kəndinin əhvalatları" povesti və ilk hekayələri ilə M. tənqidi realizm yolunu tutmuşdu. Bu əsərlərdə o zamankı



Azərb. kəndində hökm sürən feodal-patriarxal münasibətlər, çar məmurlarının və din xadimlərinin özbaşınalığı, şüurlarda və məişətdəki gerilik, mövhumat və xürafat, qadınların acınacaqlı taleyi,tərəqqi və dirçəlişə çağıran böyük vətəndaş yanğısı ilə qələmə alınmışdı. M. öz qələm və məslək dostları ilə birgə Azərb. satirasını daha da inkişaf etdirərək, ona demokratik məzmun verdi. Onun "Poçt qutusu" (1905), "Usta Zeynal", "İranda hürriyyət" (1906), "Qurbanəli bəy" (1907) kimi hekayələri, məşhur "Ölülər" (1909) tragikomediyası Azərb. realizmi və satirası tarixində şərəfli yer tutur. Bu əsərlərdə M. "Ölülər" mühitinin rəzalətlərini nifrətlə damğalamış, işıqlı həyat haqqında arzuların tərcümanı olmuşdur. İlk dəfə 1916 ildə Bakıda tamaşaya qoyulan "Ölülər" komediyası "baltanı dibindən vuran" (Ü. Hacıbəyov), "İdeyası inqilabi" (N. Nərimanov) bir əsər kimi hərarətlə qarşılanmışdı. M.-nin yaradıcılığında milli şüur, mənsub olduğu xalqın müstəqilliyi və taleyi ("Anamın kitabı", 1919), ailə və məktəb tərbiyəsi, ümumiyyətlə, maarifçilik ideyaları ("Danabaş kəndinin məktəbi", 1921) və s. problemlər də geniş yer almışdı. Erməni və Azərb. münaqişəsi mövzusunda yazılmış birpərdəli "Kamança" (1920) pyesində M. xalqımızın dərin humanizmini böyük sənətkarlıqla təcəssüm etdirmişdir. "Dəli yığıncağı" (nəşri 1936) komediyasında feodal-patriarxal münasibətləri, fanatizm kəskin tənqid atəşinə tutulur. Son illərdə prof. İ. Həbibbəyli ədibin Azərb. Milli EA Əlyazmalar İn-tunda saxlanılan şəxsi arxivindən onun üç dram əsərinin – "Lənət", "Oyunbazlar" və "Ər" pyeslərinin avtoqraf əlyazmalarını tapmışdır. Əlyazmalarında əsərlərin yazılma tarixi göstərilməmişdir. Lakin aparılan araşdırmalardan görünür ki, mövzu baxımından "Danabaş kəndinin məktəbi" (1921) pyesi ilə səsləşən birpərdəli "Lənət" həmin pyesin yazılması ərəfəsində qələmə alınmışdır. Pyesin əsas tənqid hədəfi öz işinin öhdəsindən gələ bilməyən, qumara qurşanan kənd müəllimidir. "Oyunbazlar" səhnəciyində mövhumatın tənqidi ön plana çəkilmişdir. Dördpərdəli "Ər" pyesində 20-ci illərdə cəmiyyətdə gedən mürəkkəb sosial-mənəvi proseslərdən bəhs edilir.

M. realizmi böyük bədii ümumiləşdirmə və tipikləşdirmə gücünə malikdir. Onun yaratdığı Məhəmmədhəsən əmi, Xudayar bəy ("Danabaş kəndinin əhvalatları"), Novruzəli ("Poçt qutusu"), Qurbanəli bəy ("Qurbanəli bəy"), İsgəndər, Şeyx Nəsrullah ("Ölülər"), Gülbahar ("Anamın kitabı") və b. klassik bədii obrazlar silsiləsinə daxildir.

Bədii yaradıcılığında olduğu kimi, publisistikasında da M., əsasən, satirik janrlardan istifadə etmişdir. O, çarizm, sosial ədalətsizlik, fanatizm, xurafat, cəhalət və nadanlıq, Qərb imperializmi və Şərq istibdadı əleyhinə çevrilmiş yüzlərcə publisistik məqalə, felyeton və satirik miniatürün müəllifidir. M. müxtəlif satirik təsvir üsulları ilə II Nikolay, Məmmədəli şah, Sultan Əbdülhəmid, Kayzer Vilhelm və b. "böyüklər" ifşa edirdi. Digər dünya demokrat yazıçıları və M. F. Axundov kimi, M. də ustalıqla, eyhamlar vasitəsilə məzlumları ələ "dəyənək" almağa, zalımlara qarşı qəti mübarizə aparmağa çağırırdı. "Cümhuriyyət" (1917) adlı əsərində xalq hakimiyyəti, demokratik respublika tələbi irəli sürülürdü. M.-nin publisist əsərlərində milli məsələdən, İran və Türkiyə inqilablarından, qadın azadlığı, maarif, ədəbiyyat, incəsənət, ana dili və s. ictimai-mədəni tərəqqi problemlərindən bəhs edilir, qabaqcıl fikirlər yürüdülür. Çoxcəhətli, dərin bilik sahibi olan ədib Darvin, Epikür və Sokrat, Şekspir və Şiller, Kant və Spinoza, Holbax və Leybnits, Qlinka və Bethoven, Derjavin və Puşkin, Zərdüşt və Mani, müxtəlif siyasi, fəlsəfi, dini, sosioloji cərəyanlar haqqında yazmış, mürtəce ideyaları rədd etmiş, bəşər dühasının mühüm nailiyyətlərini təbliğə çalışmışdır. 1922–30 illərdə M. "Molla Nəsrəddin"i mübariz mətbuat orqanlarından birinə çevirmək üçün səylə çalışır, gənc yazıçı və rəssamların böyük bir nəslini satirik jurnalistika sahəsində işləməyə hazırlayırdı. Jurnalın bu illərdə çıxan nömrələrində M. satiraya yeni ictimai məzmun vermək məqsədi ilə ciddi yaradıcılıq axtarışları aparırdı.

S. Ağamalıoğlu, N. Nərimanov, M. Ə. Rəsulzadə və b. M.-nin fəaliyyətinə yüksək qiymət vermişlər.

M. yaradıcılığı sənətkarlıq cəhətdən də novator və demokratik mahiyyətdədir. O, publisistikası, nəsr və dram əsərləri ilə Azərb. ədəbiyyatını janr və formaca da zənginləş-


Məmmədov Abdulla

qızı, Cəlil Məmmədquluzadənin arvadıdır. Ata mülkü olan Kəhrizlidə ilk məktəb və toxuculuq emalatxanası açmış (1907). Tiflisdə Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1908–17) yaradılmasının təşəbbüsçülərindən biri və sədr müavini olmuş, "Molla Nəsrəddin" jurnalının nəşrində ərinə kömək göstərmişdir. Atasının tərcümeyi-halını, C. Məmmədquluzadə və M. Ə. Sabir haqqında xatirələr yazmış, C. Məmmədquluzadənin bir çox hekayəsini, Mir Cəlalın " Dirilən adam" romanını rus dilinə çevirmişdir. C. Məmmədquluzadə ilə məktublaşmalarının böyük yazıçının həyat və fəaliyyətinin öyrənilməsində mühüm əhəmiyyəti var. Qarabağ folklorunun toplanması və öyrənilməsi ilə də məşğul olmuşdur.

Ə s ə r i: Mirzə Cəlil haqqında xatirələrim, B., 1961; təkrar nəşri, 1981; Həmidə və Cəlil Məmmədquluzadə. Məktublar (tərtib edəni Ə. Mirəhmədov) B., 1994.

**MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİ**, C ə l i l M ə m m ə d q u l u z a d ə n i n e v - m u z e y i, B a k ı d a – Azərb. Respublikası hökumətinin qərarı ilə 1978 ildə C. Məmmədquluzadənin 1920–32 illərdə yaşayıb-yaratdığı mənzildə [Süleyman Tağızadə (köhnə Poçt) küçəsi, 56] təşkil edilmiş, 1994 il dekabrın 28-də, C. Məmmədquluzadənin anadan olmasının 125 illiyi ərəfəsində açılmışdır. Açılış mərasimində Azərb. Respublikasının Prezidenti Heydər Əliyev iştirak və çıxış etmişdir. Muzeydə C. Məmmədquluzadənin və digər mollanəsrəddinçilərin həyat və fəaliyyətini əks etdirən 3000-ə yaxın eksponat toplanmışdır. Onların 500-ə yaxını muzeyin ekspozisiyasında nümayiş etdirilir. Ekspozisiya 5 otaqda (ümumi sah. 185 $m^2$) yerləşir. Muzeydə gələcək ədibin uşaqlıq, gənclik və təhsil illərini, məktəbdarlıq fəaliyyətini, ilk yaradıcılıq addımlarını və mühitini, onun ilk jurnalistlik və ədəbi fəaliyyətini əks etdirən eksponatlar, habelə əsərləri mövzusunda yaradılmış təsviri sənət nümunələri, yazıçının şəxsi əşyaları və ailə həyatı ilə bağlı materiallar, "Molla Nəsrəddin" jurnalının nəşrinin Tiflis və Təbriz dövrlərini əks etdirən eksponatlar nümayiş etdirilir. Ədibin iş otağı, "Molla Nəsrəddin" jurnalının redaksiyası – xatirə otağında isə C. Məmmədquluzadənin həyat və fəaliyyətinin 1922–32 illər dövrünü əks etdirən, habelə yaradıcılığının tədqiqi ilə bağlı materiallar toplanmışdır. Burada ədibin dünya şöhrətini əks etdirən xəritə tərtib olunmuşdur.

Muzey C.Məmmədquluzadənin və digər mollanəsrəddinçilərin irsinin toplanması, tədqiqi və təbliği sahəsində fəaliyyət göstərir. 2000 ildə muzeyin ekspoziziyasına 8 minədək tamaşaçı baxmış, 500-dən çox ekskursiya aparılmışdır. Muzey idarə və müəssisələrdə, təhsil ocaqlarında ədəbi gecələr, görüşlər, xatirə günləri, disputlar, müsabiqələr və s. tədbirlər keçirir.


C.Məmmədquluzadənin ev-muzeyi. Naxçıvan şəhəri.

**MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİ**, C ə l i l M ə m m ə d q u l u z a d ə n i n e v - m u z e y i, N a x ç ı v a n d a – Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə 1998 il dekabrın 31-də C.Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi evdə (hazırda İ.Məmmədov küçəsi) yaradılmışdır. Açılışı 1999 il oktyabrın 13-də olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev muzeyin açılış mərasimində nitq söyləmişdir. Muzeydə böyük ədibin həyat və yaradıcılığına dair ekspozisiya nümayiş etdirilir. C.Məmmədquluzadəyə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının naxçıvanlı müasirlərinə aid sənədlər, onun mütaliə etdiyi klassiklərin əsərləri muzeyin eksponatları sırasındadır.

**MƏMMƏDOV** Abdulla Məhəmməd oğlu (d. 10.3.1905, indiki Şərur r-nunun Yuxarı Aralıq k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1951). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. 1929–78 illərdə Şərur r-nundakı M. Hüseynzadə ad. k-zda kolxozçu, briqadir, ferma müdiri, manqa başçısı işləmişdir. 1950 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1968 ildən fərdi pensiyaçıdır.




Məmmədov Əli Cəlil oğlu


Məmmədov Əli Əhməd oğlu


Məmmədov Əli Hüseyn oğlu

**MƏMMƏDOV** Əli Cəlil oğlu (1898, indiki Şərur r-nunun Şahtaxtı k. – 1968, Naxçıvan ş.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1928–53 illərdə Naxçıvan (indiki Babək) r-nunun "Azərbaycan" k-zunda sədr işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Nax. MSSR Ali Sovetinin (2-ci çağırış) deputatı, Azərb. və Zaqafqaziya MİK-in, Azərb. KP Naxçıvan Vilayət Komitəsinin üzvü seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**MƏMMƏDOV** Əli Əhməd oğlu (d.1931, Şərur r-nunun Dəmirçi k.) – neft-mədən mexanikası sahəsində alim. Texnika elmləri doktoru (1973), prof. (1986). Naxçıvan Müəllimlər İn-tunun fizika-riyaziyyat (1951) və Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) mexanika (1959) fakültələrini bitirmişdir. 1951–54 illərdə Şərur r-nunun kənd məktəblərində müəllim işləmişdir. 1959–85 illərdə Azərb. elmi-tədqiqat neft-maşınqayırma, neft və qaz quyularının qazılması, neft sənayesi və layihə in-tlarında mühəndis, böyük elmi işçi, laboratoriya və şöbə müdiri, 1985–90 illərdə Azərb. Texniki un-tində kafedra müdiri vəzifələrində işləmişdir; 1990 ildən un-tin prof., eyni zamanda Azərb. Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunda aparıcı elmi işçidir. Tədqiqatları neft-mədən mexanikası problemlərinin öyrənilməsinə həsr olunmuşdur. Bir neçə monoqrafiya və dərs vəsaitinin müəllifidir; ixtiraları var. Ədəbi-bədii yaradıcılıqla da məşğuldur; "İki dünya" və "Qanlı-qadalı dünya" kitablarının müəllifidir.

**MƏMMƏDOV** Əli Hüseyn oğlu (11.8.1955, Naxçıvan ş. – oktyabr, 1992, Laçın r-nundakı Qızartı yüksəkliyi; Naxçıvan ş.-nin Şəhidlər Xiyabanında dəfn olunmuşdur) – Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra). Bakıda N. Rizayev ad. orta xüsusi polis məktəbini bitirdikdən (1978) sonra Binəqədi r-n polis idarəsində sahə müvəkkili işləmiş, polis kapitanı rütbəsi almışdır. Təhsilini M. F. Axundov ad. Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunda (indiki Bakı Slavyan Un-ti) davam etdirmiş, 1987–92 illərdə əməliyyat müvəkkili işləmişdir. Laçın r-nunda erməni təcavüzkarları ilə döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.


Məmmədov Firudin

**MƏMMƏDOV** Firudin İbrahim oğlu (d.1936, indiki Şərur r-nunun Şahtaxtı k.) – informasiya nəzəriyyəsi sahəsində mütəxəssis. Texnika elmləri doktoru (...), prof. (1996). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) energetika fakültəsini (1958) və "Neftkimyaavtomatika" Elmi-Tədqiqat Layihə İn-tunun (Sumqayıt) aspiranturasını bitirmiş, həmin in-tda mühəndis, baş elmi işçi (1958–68), Azərb. Neft və Kimya İn-tunun Sumqayıt filialında baş müəllim, dosent (1968–70), dekan (1971–74) və kafedra müdiri (1974–85) vəzifələrində çalışmışdır. 1996 ildən Azərb. Sənaye İn-tunda (indiki Sumqayıt Dövlət Un-ti) kafedra müdiridir. İnformasiya nəzəriyyəsinə, idarəetmə sistemlərinin hesablama və məlumat-ölçü texnikasının ilkin vericilərinin nəzəriyyəsi, işlənilməsi və tətbiqinə, neftçıxarma dərinlik nasosları üçün elektromaqnit vericilərlə işləyən tezlik teleölçü nəzəriyyəsinə dair tədqiqatlar aparmışdır.


Məmmədov Hamid

**MƏMMƏDOV** Həmid Cəfər oğlu (d. 3.5.1923, indiki Şərur r-nunun Xok k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1941–74 illərdə Şərur r-nunun M. Əzizbəyov ad. s-zunda manqa başçısı, ferma müdiri, briqadir olmuş, 1974 ildən isə həmin s-zda sanitar-texnik işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

Məmmədov Həsən


**MƏMMƏDOV** Həsən Hacıməmmədhüseyn oğlu (5.6.1912, indiki Şərur r-nunun Şahtaxtı k. – 16.6.1985, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). Böyük Vətən müharibəsinin iştirakçısıdır. 1942–71 illərdə Şərur r-nunun H. Cavid ad. k-zunda kolxozçu, manqa başçısı, sədr və briqadir işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



Məmmədov Hüseyn Abdulla oğlu



Məmmədov Hüseyn



Məmmədov İbrahim Əhməd oğlu

Məmmədov İbrahim



**MƏMMƏDOV** Hüseyn Abdulla oğlu (15.5. 1906, indiki Şərur r-nunun Şahtaxtı k. – 31.5.1972, Naxçıvan ş.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1934–72 illərdə Şərur r-nunun Kalinin ad. k-zunda zootexnik, ferma müdiri və s. vəzifələrdə işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**MƏMMƏDOV** Hüseyn Qurban oğlu (15.5. 1906, Ordubad r-nunun Dırnıs k. – 24.11.1970, Bakı ş.) – dövlət xadimi. Sosialist Əməyi Qəhrəmanı (1948). Gəncliyində Bakı neft mədənlərində fəhləlik etmişdir. Bakıda hərbi siyasi məktəbi bitirdikdən sonra 1925 ilədək orduda siyasi rəhbər işləmişdir. 1925–51 illərdə Azərb. KP İsmayıllı, Kürdəmir rayon komitələrinin katibi, Qonaqkənd (hazırda Quba r-nunun ərazisindədir), Qaryagin (indiki Füzuli), Ağsu r-n komitələrinin 1-ci katibi, 1951–53 illərdə Azərb. KP Naxçıvan Vilayət Partiya Komitəsinin 2-ci katibi, 1953–67 illərdə Nax. MSSR Ali Soveti Rəyasət Heyətinin sədri – Azərb. SSR Ali Soveti Rəyasət Heyəti Sədrinin müavini olmuşdur. 1947 ildə Ağsu r-nu üzrə planların yerinə yetirilməsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (4-cü çağırış), Azərb. SSR Ali Sovetinin (1–6-cı çağırış) deputatı olmuş, dəfələrlə Azərb. KP MK üzvü seçilmişdir. 3 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir. Dırnıs kənd məktəbi M.-un adınadır.

**MƏMMƏDOV** İbrahim Əhməd oğlu (d. 22. 12.1934, Culfa r-nunun Bənənyar k.) – aktyor. Azərb. Respublikası xalq artisti (2000). 1955 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Əsas rolları: Yaşar, Rəbi ("Yaşar", "Od gəlini", C.Cabbarlı), Hacı Qara ("Hacı Qara", M.F.Axundov), Bəxtiyar ("Komsomol poeması", S. Vurğun), Vahan ("Nakam qız", A. Şirvanzadə), Nər oğlan ("Qız atası", Ə. Əsgərov), Məşədi İbad, Mərcan bəy ("O, olmasın, bu olsun", "Ər və arvad", Ü. Hacıbəyov), Kərəmov ("Toy", S. Rəhman), Dadaşbala ("Hicran", S. Rəhman, E. Sabitoğlu), Əli Paşa ("Nadir şah", N.Nərimanov) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.

**MƏMMƏDOV** İbrahim İsmayıl oğlu (18.12. 1958, Naxçıvan ş. – yanvar, 1994, Kəlbəcər, Murovdağ; Naxçıvan ş.-nin Şəhidlər Xiyabanında dəfn olunmuşdur) – Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra). Hərbi xidmətdən sonra (1979) göndərişlə Moskvada Lixaçov ad. Avtomobil z-dunda işləmiş, eyni zamanda, Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsində qiyabi təhsil almışdır. Vətənimizin ağır günlərində respublikaya qayıtmış və torpaqlarımızın erməni təcavüzkarlarından müdafiəsi uğrunda mübarizəyə qoşulmuşdur. 1994 ilin yanvarında Kəlbəcər uğrunda şiddətli döyüşlər gedəndə könüllü ön cəbhəyə yollanmışdır. Murovdağ uğrunda döyüşlərdə xüsusilə fərqlənmiş və şəhid olmuşdur. Naxçıvan ş.-ndə adına orta məktəb var.

**MƏMMƏDOV** İsa Əli oğlu (d.11.7.1925, indiki Şərur r-nunun Yuxarı Aralıq k.) – maarif xadimi. Psixologiya elmləri namizədi (1987). Azərb. Respublikasının əməkdar müəllimi (1964). Sosialist Əməyi Qəhrəmanı (1976). 1944–70 illərdə indiki Şərur r-n komsomol komitəsinin katibi və 1-ci katibi, Naxçıvan Vilayət Komsomol komitəsinin katibi və 1-ci katibi, Naxçıvan Şəhər və Rayon Xalq Maarif şöbələrinin müdiri, Naxçıvan MR-in mədəniyyət naziri, 1970–81 illərdə Azərb. KP Lənkəran Şəhər Komitəsinin 1-ci katibi, 1981—91 illərdə Azərb. KP MK-nın katibi olmuşdur. 1991 ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlama İn-tunun direktorudur. AKP 28–30-cu qurultaylarında MK üzvü, 30-cu qurultayında (1981, yanvar) AKP MK Büro üzvü seçilmişdir. Azərb. SSR Ali Sovetinin (8–10-cu çağırış) deputatı, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin üzvü (1975–81) olmuşdur. 3 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

İ. Ə. M ə m m ə d o v Məşədi İbad ("O olmasın, bu olsun", Ü.Hacıbəyov) rolunda.







Məmmədov İsa



Məmmədov İsmayıl



Məmmədov İsrafil

Məmmədov Qulam



**MƏMMƏDOV** İsmayıl Məmməd Rəhim oğlu (4.5.1909, indiki Şərur r-nunun Çomaxtur k. – 29.11.1981, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – hərbi xadim, polkovnik. Bakıda hərbi-siyasi məktəb, Moskvada yuxarı və ali rütbəli siyasi rəhbərləri təkmilləşdirmə kursunu bitirdikdən sonra Azərb. diviziyasının siyasi şöbəsində təlimatçı, baş təlimatçı (1932–38), Bakı ş. və r-nları Hava Hücumundan Müdafiə qərargahının komissarı, Azərb. KP Bakı Şəhər Komitəsi hərbi şöbəsinin müdiri işləmişdir. Böyük Vətən müharibəsi (1941–45) illərində respublika hərbi komissarlığı və 402-ci Azərbaycan diviziyası siyasi şöbələrinin rəisi, 223-cü Azərb. diviziyası 818-ci artilleriya polkunun hərbi komissarı, 73-cü Stalinqrad qvardiya diviziyası siyasi şöbəsinin rəisi, 1945 ilin martından isə 3-cü Ukrayna cəbhəsi siyasi idarəsinin baş inspektoru vəzifələrində işləmişdir. Hərbi xidmətdən buraxıldıqdan (1954) sonra Azərb. Milli EA kadrlar şöbəsinin müdiri, akademiyanın Fəlsəfə və Hüquq İn-tunda elmi işçi çalışmışdır. Fəlsəfə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi mövzularında məqalələri var. Lenin ordeni, Qırmızı Bayraq, 2-ci dərəcəli Vətən müharibəsi, 2 Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdur. Şərur r-n tarix-diyarşünaslıq muzeyində həyat və fəaliyyətindən bəhs edən guşə təşkil edilmişdur. Çomaxtur kənd orta məktəbi M.-un adınadır.

**MƏMMƏDOV** İsrafil Allahverdi oğlu (25. 6. 1927, Ordubad ş. – 28. 10. 1995, Bakı) – kimyaçı. Kimya elmləri doktoru (1965), prof. (1972). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1951) və Azərb. Milli EA Kimya İn-tunun aspiranturasını (1955) bitirmiş, burada kiçik və böyük elmi işçi vəzifələrində çalışmış (1951–71), korroziya prosesinin inhibitorlaşdırılması laboratoriyasına rəhbərlik etmişdir (1971–72). 1972–78 illərdə Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) rektoru olmuşdur. 1978–80 illərdə Azərb. Milli EA Qeyri-Üzvi və Fiziki Kimya İn-tunda böyük elmi işçi, 1980–86 illərdə dispar sistem və səthi hadisə laboratoriyasının müdiri, 1986–91 illərdə Kosmik Tədqiqatlar İn-tunun Elm İstehsalat Birliyində (indiki Azərb. Milli Aerokosmik Agentliyi) laboratoriya müdiri, 1991–92 illərdə Ordubadda Xüsusi Konstruktor Bürosunun direktor müavini və Baş mühəndisi, 1992–95 illərdə Azərb. Milli EA Y. Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tunda aparıcı elmi işçi vəzifələrində işləmişdir. Tədqiqatları mürəkkəb çoxfazalı sistemlərdə metalların korroziyası, korrroziyaya qarşı inhibitorların yaradılması və onların təsir mexanizminin öyrənilməsinə həsr edilmişdir. 200-dən çox elmi işin, 4 monoqrafiyanın, 30 müəlliflik şəhadətnaməsinin müəllifidir. Bir sıra beynəlxalq konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

**MƏMMƏDOV** Qulam Kərim oğlu (1904, indiki Ordubad r-nunun Əylis k. – 1985, Bakı) – maarif xadimi, pedaqoq, maarif əlaçısı. Pedaqogika elmləri namizədi (1959), dosent. Bakı Xalq Təhsili İn-tunu bitirmiş (1924). Bakının Ramana və Balaxanı məktəblərində müəllim və direktor (1920–30), indiki Sabunçu r-n Xalq Maarif şöbəsinin müdiri (1930–31), Bakı şəhər xalq maarif şöbəsi müdirinin müavini (1931–33), Azərb. Elmi Tədqiqat Pedaqogika İn-tunun direktoru (1934–35), Azərb. SSR Xalq Maarif Komissarlığı ali təhsil müəssisələri və pedaqoji məktəblər idarəsinin rəisi (1935–36), Nax. MSSR Xalq Maarif komissarı (1936–39), Azərb. SSR Xalq Maarif komissarlığı məktəblər idarəsi rəisinin müavini (1939–41) vəzifələrində çalışmışdır. Böyük Vətən müharibəsi (1941–45) illərində ordu sıralarında xidmət etmiş, 1945–46 illərdə Azərb. SSR Maarif Nazirliyi məktəblər idarəsinin müdiri olmuşdur. 1946 ildən pedaqoji fəaliyyət göstərmiş, Azərb. Dövlət Müəllimlər İn-tunun direktor müavini (1946–52), M. F. Axundov ad. Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunun (indiki Bakı Slavyan Un-ti) elmi işlər üzrə prorektoru (1952–59) və rektoru


Məmmədov Nəriman

(1959–68) işləmiş, 15 il pedaqogika və psixologiya kafedrasına rəhbərlik etmişdir. Pedaqogikaya dair 40-dan çox elmi məqalənin, respublikanın rus məktəblərinin 6, 9–10-cu sinifləri üçün Azərb. dili dərsliklərinin müəllifidir.

**MƏMMƏDOV** Məmməd Qəzənfər oğlu (28.4.1920, Naxçıvan ş. – 28.1.1987, orada) – bəstəkar, dirijor və pedaqoq. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Müharibədən sonra Naxçıvan Pedaqoji texnikumunu, 1961 ildə isə Moskva Xalq Musiqisi Məktəbinin xor dirijorluğu şöbəsini bitirmişdir. Naxçıvan Musiqi Məktəbində truba və akkordeon siniflərinin açılmasının təşəbbüsçüsü, vokal ansambllarının, xor kollektivlərinin yaradıcısıdır. Musiqiçi kadrların yetişməsində xidməti olmuşdur. Naxçıvan Mərkəzi Pionerlər və Məktəblilər Evi nəzdində "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı yaratmış və ona rəhbərlik etmişdir. C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı səhnəsində 30-dan çox tamaşaya musiqi tərtibatı vermiş, uzun müddət teatrın musiqi hissə müdiri vəzifəsində çalışmışdır. Bir çox mahnı və romansların, nəfəs alətləri üçün marş və pyeslərin, truba, fortepiano və xor üçün əsərlərin müəllifidir. Azərb. xalq mahnı və rəqslərini toplamış, nota salmış, lentə yazmışdır. Naxçıvan Musiqi Məktəbində pedaqoji fəaliyyət göstərmişdir. Naxçıvan şəhər 1 saylı uşaq Musiqi Məktəbinə M.-un adı verilmişdir.

**MƏMMƏDOV** Nəriman Həbib oğlu (d. 28.12.1928, Naxçıvan ş.) – bəstəkar. Naxçıvan MR (1974) və Azərb. Respublikası (1982) əməkdar incəsənət xadimi. Ü. Hacıbəyov ad. Azərb. Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) musiqi nəzəriyyəsi (1956) və bəstəkarlıq (1961, prof. C.Hacıyevin sinfi) şöbələrini bitirmişdir. 7 simfoniya (4-cü simfoniya Hüseyn Cavidə, 7-ci simfoniya Xocalı faciəsinə həsr olunmuşdur), 7 konsert (4 fp., 1 tar, 1 skripka, 1 fleyta və simfonik ork. üçün), xalq çalğı alətləri üçün bir neçə süita, "Azərbaycan" oratoriyası (sözləri A. Zeynallınındır), iki kantata, 3 musiqili komediya ("Altı qızın biri Pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir" – hər üçü T. Bakıxanovla birgə), "Humay" (Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında), "Şeyx Sənan" (Hüseyn Cavidin eyniadlı faciəsinin motivləri əsasında) baletləri, 500-dən çox mahnı, romans və s. əsərlərin müəllifidir. Yaradıcılığında Naxçıvan mövzusu da əhəmiyyətli yer tutur: "Naxçıvan" (sözləri İ. Səfərlinindir), "Araz üzərində Çənlibel qalası" (sözləri Hüseyn Razinindir), "Çiçəklənən Naxçıvan" (sözləri Ramiq Muxtarındır), "Qızlar bulağı" (sözləri Fikrət Qocanındır) vokal-instrumental süitaları. C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının 10-dan çox tamaşasına musiqi bəstələmişdir. M. həm də elmi- pedaqoji fəaliyyət göstərir; Azərb. Milli EA Memarlıq və İncəsənət İn-tunun elmi işçisidir. Azərb muğamlarını yaradıcı şəkildə nota almış və Tofiq Quliyevin redaktorluğu ilə Bakıda və Moskvada 6 topluda çap etdirmişdir. Azərb.-ın bir sıra bölgələrinin, eləcə də Nax. MR-in xalq yaradıcılığı örnəklərinin toplanıb nəşr edilməsində də xidməti var ("Azərb. xalq mahnıları və rəqs melodiyaları" toplusu, 1975; Ə. İsazadə ilə birgə). 60-cı illərin əvvəllərindən (fasilələrlə) Bakı Musiqi Akademiyasının müəllimi, dosentidir. Elmi məclislərdə, o cümlədən Səmərqənddə keçirilmiş beynəlxalq musiqişünaslıq simpoziumunda (1978) məruzələr etmişdir.

*Əd.:* Фархадова Р., Нариман Мамедов, Б., 1982.


Məmmədov Nəsir

**MƏMMƏDOV** Nəsir Nəsirzadə (10.5.1907, indiki Ordubad r-nunun Dəstə k. – 25.8.1982, Bakı) – dilçi. Filologiya elmləri doktoru (1966), prof. (1966). Nax. MR əməkdar müəllimi (1944). Azərb. Dövlət Un-tinin (indiki BDU)) filologiya fakültəsini bitirmişdir. Azərb. Ali məktəb və Elmi İdarə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Bakının sabiq Keşlə rayon partiya komitəsinin katibi vəzifələrində çalışmış, C. Məmmədquluzadə ad. Naxçıvan Müəllimlər İn-tunun direktoru (1942–45) işləmişdir. 1937–65 illərdə Azərb. Dövlət Un-tində dərs demiş, 1967 ildən Azərb. Pedaqoji Xarici Dillər İn-tutunun (indiki Azərb. Dillər Un-ti) Azərb. dilçiliyi kafedrasının müdiri olmuşdur. Dilçiliyə giriş fənni üzrə xüsusi kursun və bu sahədə Azərb. dilində ilk dərslik və dərs vəsaitinin yaradıcılarındandır. Azərb. dilçiliyinə, dil tarixinə, o cümlədən M. F. Axundovun dilinə, leksikologiyaya və ümumi dilçiliyə dair tədqiqatları var.



Ə s ə r l ə r i: Dilçiliyin əsasları, B., 1961; Dilçiliyə giriş (A. Axundovla birgə), B., 1966; Azərbaycan dilçiliyinin nəzəri əsasları, B., 1970.

**MƏMMƏDOV** Nizami İmaməli oğlu (d. 25.3.1940, indiki Şərur r-nunun Qarabağlar k.) – idman xadimi. SSRİ idman ustası (1962). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası) bitirmişdir (1962). Həndbol üzrə Azərbaycan (1959–64) və SSRİ yığma komandalarının tərkibində Polşa (1964, 1968), Macarıstan (1965), Çexoslavakiya (1966), Bolqarıstan (1967) və Rumıniyada (1969) keçirilən beynəlxalq yarışlarda iştirak etmiş, SSRİ-nin ən güclü hücumçularından sayılmışdır. 1962 ildən məşqçilik fəaliyyəti də göstərir. 1984–86 illərdə Mali Respublikasının həndbol üzrə yığma komandasının baş məşqçisi olmuşdur. 1986 ildən Naxçıvan Dövlət Un-tinin Bədən tərbiyəsi və idman kafedrasının müdiri, 1990 ildən dosentdir. Azərb. Milli Olimpiya Komitəsinin üzvüdür (1998).

**MƏMMƏDOV** Rafiq Hüseyn oğlu (d.13.6.1933, Ordubad r-nunun Dırnıs k.) – coğrafiyaşünas. Coğrafiya elmləri namizədi (1965), prof. (1985). Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU, 1957) və M. V. Lomonosov ad. Moskva Dövlət Un-tinin aspiranturasını (1964) bitirmişdir. 1966–70 illərdə Respublika Dövlət Plan Komitəsinin İqtisadiyyat İn-tunda bölmə müdiri, 1970–80 illərdə Azərb. Dövlət Un-tinin iqtisadi coğrafiya kafedrasının dosenti olmuşdur. 1980 ildən indiki Azərb. Dövlət İqtisad Un-tində iqtisadi coğrafiya kafedrasının müdiridir. Tədqiqatları məhsuldar qüvvələrin yerləşdirilməsi məsələlərinə həsr olunmuşdur. M. Azərb.-da məhsuldar qüvvələrin inkişafının Baş sxeminin tərtibində fəal iştirak etmişdir. 100-dən artıq elmi əsərin, o cümlədən 8 dərsliyin və tədris vəsaitinin müəllifidir.

**MƏMMƏDOV** Rauf Ağabala oğlu (26.2.1932, Bakı – 29.9.1988, Bakı) – tarixçi. Tarix elmləri namizədi (1965). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir (1956). Azərb. Milli EA Tarix İn-tunda elmi katib (1968–70), baş elmi işçi (1970–71) olmuş, Azərb. Tarixi Muzeyində qədim və orta əsrlər şöbəsinin müdiri (1972–1988) işləmişdir. Əsas tədqiqatları Naxçıvan ş.-nin orta əsrlər tarixinə həsr olunmuşdur ("Naxçıvan şəhərinin qədim və orta əsrlər tarixindən", "Naxçıvan şəhərinin X–XII əsrlər tarixindən", "Əlincənin orta əsrlər tarixindən" və s.). Araşdırmalarında Naxçıvanın mənşəyi, arxeoloji və memarlıq abidələri, buradan çıxmış elm və mədəniyyət xadimləri haqqında ətraflı məlumat verilir.


Məmmədov Rauf

Ə s ə r i: Naxçıvan şəhərinin tarixi oçerki, B., 1977.

**MƏMMƏDOV** Rəşid Rza oğlu (d. 2.2.1936, Naxçıvan ş.) – bəstəkar. Nax. MR əməkdar mədəniyyət işçisi (1973), Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1999). A. Zeynallı ad. Bakı Musiqi Texnikumunu (1957), Azərb. Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq çalğı alətləri şöbəsini (1967) bitirmişdir. Naxçıvan ş. 1 saylı Uşaq Musiqi Məktəbində müəllim (1957–61), sonra isə direktor (1961–76), Nax. MR xalq yaradıcılığı evinin direktoru (1976–78), Şahbuz r-n Uşaq Musiqi Məktəbinin direktoru (1978–82), Naxçıvan Musiqi Texnikumunun direktoru (1982 ildən) vəzifələrində işləmişdir. 1996 ildən Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin müdiridir. Bir neçə süitanın, mahnıların və xor əsərlərinin müəllifidir. C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının bir sıra tamaşalarına ("Səyavuş", H.Cavid; "Od gəlini", C.Cabbarlı; "Odlu diyar", Hüseyn Razi; "Alınmaz qala", Həsən Elsevər; "İtilənən xəncərlər", Həmid Arzulu və s.) musiqi bəstələmişdir.


Məmmədov Rəşid

**MƏMMƏDOV** Şirəli Nəsirzadə (25.12.1904, indiki Ordubad r-nunun Dəstə k. – 1984, Bakı) – mədən işləri sahəsində alim. Texnika elmləri doktoru (1948), prof. (1948), Azərb. Milli EA akad. (1968; m. üzvü. 1959). Moskva Dağ-Mədən Akademiyasını bitirmişdir (1930). Maqnitoqorsk mədənlər idarəsinin əsaslı tikinti şöbəsinə rəhbərlik etmiş (1932–33), "Soyuzmışyak"ın Culfa mərgmüş kombinatının rəisi vəzifəsində çalışmışdır (1934–36). 1938–39 illərdə Moskva Dağ-Mədən İn-tunda dosent və filiz yataqlarının işlənilməsi kafedrasının müdiri işləmişdir. Böyük Vətən müharibəsi (1941-45) illərində Naxçıvan duz mədəninin baş mühəndisi və direktoru, Azərb. KP Naxçıvan Vilayət Komitəsinin ikinci katibi (1944–45) olmuş, 1950–53 illərdə Daşkəsən dağ-mədən kompleksinin tikintisinə rəhbərlik etmişdir. Azərb. Dövlət

Məmmədov Şirəli




Məmmədov Tofiq


Məmmədov Vaqif

Məmmədov Yahya


Un-tinin (indiki BDU) geofizika kafedrasının müdiri, elmi işlər üzrə prorektoru (1948–50; 1953–59), Azərb. SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri (1959–61) işləmiş, Azərb. Milli EA Geologiya İn-tunda mədən işləri bölməsinə rəhbərlik etmişdir (1958 ildən ömrünün sonunadək). Elmi tədqiqatları filiz yataqlarının yeraltı və açıq üsullarla işlənilməsi sistemlərinin və texnologiyasının təkmilləşdirilməsi məsələlərinin həllinə həsr edilmişdir. 169 elmi əsərin, o cümlədən 13 monoqrafiyanın, 5 dərslik və dərs vəsaitinin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

Əsərləri: Разработка нефтяных месторождений шахтным способом, Б., 1956; Классификация систем подземной разработки рудных месторождений, Б., 1979

**MƏMMƏDOV** Tofiq Məhəmməd oğlu (d. 5.8.1935, indiki Şərur r-nunun Cəlilkənd k.) – tarixçi. Tarix elmləri doktoru (1985). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərq şöbəsini (1958) və Azərb. Milli EA Tarix İn-tunun aspiranturasını (1963) bitirmişdir. Azərb. Milli EA Tarix İn-tunda baş elmi işçi olmuşdur (1968–86). 1986 ildən həmin in-tun aparıcı elmi işçisidir. Qafqaz Albaniyasının ilkin orta əsrlər tarixinə dair tədqiqatların müəllifi, çoxcildli "Azərbaycan tarixi"nin müəlliflərindəndir. Beynəlxalq və keçmiş ümumittifaq elmi məclislərdə iştirak etmişdir.

Əsəri: Албания и Атропатена по древнеармянским источникам (IV–VII вв.), Б., 1977.

**MƏMMƏDOV** Vaqif Cəfər oğlu (d. 28.6.1948, Sədərək r-nunun Sədərək k.) – şair, publisist, tarix elmləri namizədi (2001). Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) tarix fakültəsini bitirmiş (1975), 25 il Sədərək kənd məktəbində müəllim işləmişdir. 2001 ildən Naxçıvan Dövlət Un-ti "Qeyrət" nəşriyyatının direktorudur. Azərb. Yazıçılar Birliynin üzvüdür (1996). "Yaşadacaq bu yol məni" (1987), "Sədərək harayı" (1994), "Salam, oğuz elləri" (2001) şer toplularının, "Sədərək şəhidləri" (1998), "Qeyrət qalası" (1999), "Unutsaq unudularıq" (2000), "Erməni xəyanəti" (2001) tarixi-publisistik kitabların müəllifidir. "Daşkənd təranələri" beynəlxalq poeziya müsabiqəsinin (1983) qalibidir. Nax. MR Ali Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**MƏMMƏDOV** Yəhya Cəfər oğlu (10.10.1930, Naxçıvan ş. – 26.1.2000, Bakı) – riyaziyyatçı. Fizika-riyaziyyat elmləri doktoru (1966), prof. (1967). Azərb. Milli EA-nın müxbir üzvü (1983), Azərb. Respublikasının əməkdar elm xadimi (1981). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1976). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini (1954) və aspiranturasını (1957) bitirmiş və un-tin mexanika-riyaziyyat fakültəsində pedaqoji fəaliyyətə başlamışdır. 1960–65 illərdə Voronej İnşaat Mühəndisləri İn-tunun, eyni zamanda Voronej Dövlət Un-tinin dosenti olmuşdur. 1965 ildən ömrünün sonunadək BDU-da çalışmış, un-tin hesablama riyaziyyatı kafedrasının müdiri (1965 ildən), eyni zamanda elmi işlər üzrə prorektoru (19711–87) və rektoru (1987-89) işləmişdir. Diferensial və inteqral tənliklər, qeyri-xətti funksional analiz, təqribi hesablama və s. sahələrdə tədqiqatlar aparmışdır. 100-dən çox elmi əsərin, monoqrafiya və dərsliklərin müəllifidir. Beynəlxalq elmi simpozium, konfrans və konqreslərdə (Moskva, 1966; Varşava, Krakov, 1974 və s.) Azərb. riyaziyyat məktəbini təmsil etmişdir. Elmi-pedaqoji kadrların hazırlanmasında xidməti var. Xalqlar dostluğu ordeni və medallarla təltif olunmuşdur.

Əsərləri: Одностронние оценки в условиях исследования решений дифференциальных уравнений, Б., 1971; Приближенные методы решения обыкновенных дифференциальных уравнений, Б., 1974; Нелинейные уравнения Вольтерра, Ашхабад, 1976.

**MƏMMƏDOV** Yuran Əli oğlu (15.4.1934, Naxçıvan ş. – 18.6.1984, orada) – rəssam. Ə.Əzimzadə ad. Bakı Rəssamlıq Məktəbini (indiki Azərb. Rəssamlıq Akademiyası, 1955) və Leninqradda İ.Y.Repin ad. Rəssamlıq Akademiyasını (1960) bitirmişdir. SSRİ Rəssamlar İttifaqının üzvü idi (1970 ildən). Portret, natürmort və tematik kompozisiyalı tablolar ("Haçadağ", "Batabat", "Əlincə qalası", «Vayxır kəndi»,"Araz", "Şahbuz mənzərələri", "Naxçıvanda bahar", "Bizim ailə", "Vətən uğrunda" və s.) yaratmışdır. 18 ildən çox C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rəssam işləmiş, onlarla tamaşaya ["Ölülər",





"Dəli yığıncağı" (C.Məmmədquluzadə), "Oqtay Eloğlu" (C.Cabbarlı), "Yağışdan çıxdıq, yağmura düşdük" (N.Vəzirov), "Sənsiz" (Ş.Qurbanov), "Günəş" (Hüseyn Razi), "Alınmaz qala" (Həsən Elsevər), "Toros canavarı" (Əziz Nesin), "Ağır cəza" (R.Kauqver) və s.] bədii tərtibat vermişdir. Naxçıvanda, Bakıda, Leninqradda (indiki Sankt-Peterburq), Baltikyanı respublikalarda fərdi sərgiləri keçirilmişdir. Əsərləri R. Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində və s. muzeylərdə saxlanılır.

**MƏMMƏDOV** Yusif Şıxməmməd oğlu (d.1896, indiki Culfa r-nunun Göydərə k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1935–71 illərdə Culfa r-nunun C. Cabbarlı ad. s-zunda fəhlə işləmişdir. 1948 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1968 ildən fərdi pensiyaçıdır.

**MƏMMƏDOV** Zəkəriyyə Məhərrəm oğlu (d.29.6.1937, Ordubad ş.) – zooloq-entomoloq. Biologiya elmlər doktoru (1994). 1960 ildən Azərb. Milli EA Zoologiya İn-tunda çalışır. 1972 ildən baş elmi işçidir. Azərb.-da meyvə zərərvericilərinin entomofaqları, Mil-Muğan zonasında pambıq sovkasının sayının tənzimlənməsində entomofaqların və entomopatogen mikroorqanizmlərin rolu, Böyük Qafqaz zonasında bağ və meşə bitkilərinə zərər verən sovkalar, onlara qarşı mübarizə tədbirlərinin elmi əsaslarının işlənib hazırlanması, Azərb.-ın meşə senozlarında ksilofaqların sayının biotənzimlənməsində parazit və yırtıcı cücülərin rolu mövzularında tədqiqatların müəllifidir. Ümumittifaq və respublika simpozium və konqreslərində məruzələr etmişdir..

Əsərləri: Naxçıvan MR şəraitində meyvə bitkilərinə zərər verən cücülərin parazitləri, B., 1969; Azərbaycanda meyvə ağaclarına zərər verən cücülərin təbii düşmənləri və onlardan bioloji mübarizədə istifadə olunma yolları, B., 1994.

**MƏMMƏDOVA** Səidə Müslüm qızı (d. 25.5.1942, Naxçıvan ş.) – xormeyster. Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1988). Nax. MR əməkdar incəsənət xadimi (1977). Azərb. Bəstəkarlar İttifaqının üzvüdür (1978 ildən). A. Zeynallı ad. Bakı Musiqi Texnikumunu (1960) və Azərb. Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xor dirijorluğu fakültəsini (1969) bitirmişdir. Naxçıvan şəhər musiqi məktəbində müəllim (1969–75) və orta ixtisas musiqi məktəbinin direktoru (1975–94) olmuşdur. 1994 ildən Naxçıvan Dövlət Un-tində ifaçılıq kafedrasının müdiridir (1999 ildən dosent). Muxtar respublikada xor kollektivlərinin yaranması və inkişafında xidməti var. Bir sıra el şənliklərinin bədii rəhbəri və onlarca mahnının müəllifidir.

**MƏMMƏDOVA** Siddiqə Rza qızı (d. 8.3.1925, indiki Şərur r-nunun Şəhriyar k.) – bioloq. Biologiya elmləri doktoru (1971), prof. (1973), Azərb. Milli EA akad. (2001; m. üzvü 1983). Azərb. Respublikasının əməkdar elm xadimi (1981). Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmiş (1950), orada assistent, dosent olmuşdur (1950–63). 1963 ildən Azərb. Elmi-Tədqiqat Bitki Mühafizəsi İn-tunun direktorudur. Tədqiqatları kənd təsərrüfatı və meşə bitkilərini zərərvericilərdən mühafizə etməkdə effektiv və ətraf mühitə təhlükəsiz təsir göstərən inteqrir mübarizə probleminə həsr olunmuşdur. 170-dən çox elmi əsərin müəllifidir. M. entomoloqların 13-cü Beynəlxalq konqresində (Moskva) məruzə etmiş,


Məmmədov Yuran


Məmmədov Yusif


Məmmədov Zəkəriyyə

Məmmədova Saidə




Məmmədova Siddiqə

konqresin Böyük medalı və diplomu ilə təltif olunmuşdur. 1976–90 illərdə Ümumittifaq Kənd Təsərrüfatı EA-nın Zaqafqaziya şöbəsi bitki mühafizəsi bölməsinin sədri idi. 2 dəfə Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri, Azərb. Respublikasının, Şöhrət ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Kənd təsərrüfatı entomologiyası, B., 1964; 1986; Azərbaycanda kənd təsərrüfatı bitkilərinin ziyanvericiləri və xəstəlikləri, B., 1965; Meyvə və subtropik bitkilərin zərərverici xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri, B., 1974.



Məmmədova Svetlana

**MƏMMƏDOVA** Svetlana Həmid qızı (18.12.1939, Naxçıvan ş. – 24.1.1990, Bakı) – kimyaçı. Kimya elmləri doktoru (1988), prof. (1989). Azərb. Sənaye İn-tunu (indiki Neft Akademiyası) bitirdikdən (1962) sonra Sumqayıt Sintetik Kauçuk z-dunda işləmişdir (1965 ilədək). 1968 ildə Azərb. Milli EA Y.Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tunun aspiranturasını qurtarmış, həmin in-tda kiçik və böyük elmi işçi vəzifələrində çalışmışdır (1987 ilədək). 1987 ildən Azərb. Milli EA Polimer Materialları İn-tunda (Sumqayıt ş.) laboratoriya rəhbəri idi. M.-nın elmi tədqiqatlarında işığa həssas və kompleks radikal sopolimerləşmə reaksiyalarında məqsədyönlü sopolimerlərin tətbiqinin prinsipial imkanları göstərilmiş və əsaslandırılmışdır. 130-dan çox elmi əsərin, o cümlədən 44 ixtira və patentin müəllifidir. Bir sıra beynəlxalq və ümumittifaq konfrans və simpoziumlarında məruzələr etmişdir. 1990-cı ilin Qanlı Yanvar günlərində faciəli şəkildə həlak olmuşdur. Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir.



S.Məmmədovanın həlak olduğu Sumqayıt yolunda abidə

Məmmədova Venera



**MƏMMƏDOVA** Venera Yusif qızı (d.14.3.1954, indiki Şərur r-nunun Ərəbyengicə k.) – pedaqoq, maarif əlaçısı. Azərb. Respublikasının əməkdar müəllimi (1987). Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tunu (indiki Bakı Slavyan Un-ti, 1978) və Bakı Dövlət Un-tinin nəzdində təşkil olunmuş praktik psixoloqlar kursunu (1991) bitirmişdir. Sədərək k.-ndə rus dili müəllimi (1978–90), Şərur r-nu qadınlar şurasının sədri (1985–90) olmuşdur. 1992 ildən Bakının Xətai r-nundakı 48 saylı orta məktəbdə müəllim-psixoloq işləyir. SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı seçilmişdir.

**MƏMMƏDSABİR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Əh. 923 nəfər (2000); tərəvəzçilik və pazıçılıqla (şəkər çuğunduru) məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**MƏMMƏDYAROV** Məhərrəm Əli oğlu (d.17.10.1924., indiki Culfa r-nunun Yaycı k.) – kimyaçı. Kimya elmləri doktoru (1971), prof. (1972), Azərb. Milli EA akad. (2001; m. üzvü 1989). Azərb. Respublikası Dövlət mükafatı (1980), akad. Y. H. Məmmədəliyev mükafatı (1998) laureatı. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Naxçıvan Pedaqoji Texnikumunu (1941), Azərb. Dövlət Un-tini (1949) və Leninqrad (indiki Sankt-Peterburq) Texnologiya İn-tunun aspiranturasını (1953) bitirmişdir. Azərb. Milli EA Kimya İn-tutunda elmi katib (1953–55), N. D. Zelinski ad. SSRİ EA Üzvi Kimya İn-tunda (1955–59), Azərb. EA Y. H. Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tunda (1959–69) baş elmi işçi vəzifəsində çalışmışdır. 1969 ildən həmin in-tutda sintetik yağların sintezi və texnologiyası laboratoriyasının müdiridir. Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzinin rəhbəri olmuşdur (1973–79). Nax. MR-in təbii sərvətlərindən istifadə yollarının elmi əsaslarının hazırlanması sahəsində tədqiqatlar aparmışdır. Naxçıvanın termal mənbələrindəki təbii karbon qazından istifadənin sənaye texnologiyasının işlənib hazırlanmasına görə Azərb. Respublikası Dövlət mükafatına layiq görülmüşdür (1980). 1975–78 illərdə Naxçıvan Dövlət Pedaqoji İn-tunda (indiki Naxçıvan Dövlət Un-ti) dərs demişdir. 1981 ildən Azərb. Milli EA Mikrobiologiya İn-tunun (1994 ilədək bölmə) direktorudur. Üzvi kimya, neft kimyası, neftkimya biotexnologiyası və s. sahələrində tədqiqatlar M.-un elmi fəaliyyətində mühüm yer tutur. Onun rəhbərliyi ilə etilen və propilenin yüksək temperaturda katalizatorun "qaynar" təbəqəsində xlorlaşma reasksiyasına aid geniş tədqiqatlar aparılmış və onun texnologiyası yaradılıb, yarımsənaye miqyasında vinilxloridin alınma üsulu kimi sınaqdan keçirilmişdir. Sintez olunmuş perxlorolefinlərin dien adduktlarının alınması, onların müxtəlif oksigenli və silisiumlu birləşmələrinin və norbornen cərgəsindən olan efirlərin sintezinin və çevrilmələrinin öyrənilməsi sahəsində də tədqiqatlar aparılmışdır. M.-un rəhbərliyi ilə texniki mikrobiologiya sahəsində (neft mik-



robiologiyası, səthi aktiv maddələrin biosintezi, nadir elementlərin filizdən mikrobioloji üsulla ayrılması) də əhəmiyyətli işlər görülmüş, layların neft çıxımının artırılmasının biotexnoloji üsulu işlənib hazırlanmış və Abşeronun neft yataqlarında geniş tətbiq olunmuşdur. 250-dən çox elmi əsərin, 3 monoqrafiyanın və 40 müəlliflik şəhadətnaməsinin müəllifidir. Keçmiş SSRİ EA Rəyasət Heyəti yanında "İncə üzvi kimya sintezi" ixtisası üzrə elmi şuranın üzvü olmuşdur (1974–79). Bir sıra beynəlxalq məclislərdə məruzələr etmişdir. Orden və medallarla təltif edilmişdir.

Ə s ə r l ə r i: Vinilxlorid, B., 1964; Texniki mikrobiologiyanın xalq təsərrüfatında əhəmiyyəti, B., 1985; Химия синтетических масел, Л., 1989; Микробное окисление нефтяных углеводородов, Azərb. EA Xəbərləri (biologiya elmləri seriyası), 1998, №1–6; Микробиологическая химия, состояние и перспектива, "Azərbaycan kimyası" jurnalı, 1998, № 3.

**MƏRDANGÖL NEKROPOLU** – Ordubad r-nunun Sabirkənd və Kələntər Dizə k.-ləri yaxınlığında arxeoloji abidə. Xarabagilanın tutduğu hündür dağ massivinin q. yamacındadır. Dəfn tikililəri düzbucaq və trapesiya şəkilli sərdabələr və qurbangahlardan ibarətdir; üstü iri daş lövhələrlə örtülmüşdür. Əsasən, boz və çəhrayı gildən düzəldilmiş keramika aşkar olunmuşdur. Qabların üzəri cızma üsulu ilə naxışlanmış, tək-tək hallarda boya naxışlı qablar tapılmışdır. Sərdabələrdən tunc silah, tunc və dəmirdən hazırlanmış bəzək əşyaları, müxtəlif muncuqlar və s. əldə edilmişdir. Tapıntılar M.n.-nu e.ə. 9–8 əsrlərə aid etməyə imkan verir.

**MƏRDANOV** Əmir Əkbər oğlu (2.5.1928, indiki Şərur r-nunun Muğancıq k.–17.6.1995, Bakı) – bioloq. Biologiya elmləri doktoru (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsini bitki fiziologiyası ixtisası üzrə bitirmişdir (1953). Azərb. Milli EA Botanika İn-tunda baş elmi işçi (1958–70), bitki fiziologiyası şöbəsində laboratoriya müdiri (1970 ildən) olmuşdur. Müxtəlif fermentlərin fəaliyyətinin, şəkər və azot mübadiləsinin, köklərin formalaşmasının molekulyar, hormonal və trofik aspektlərinin öyrənilməsinə dair tədqiqatlar aparmışdır. 150-dən çox elmi əsərin müəllifidir. Orden və medallarla təltif olunmuşdur.



Məmmədyarov Məhərrəm

**MƏRƏNDİ** – qədim əkinçilik aləti. Taxıl biçinində istifadə edilirdi. Oval şəkilli dişsiz tiyədən (uz. 1 *m*-ə qədər) və ağac sapdan ibarət olan M., əsasən, "seyitmə biçin" üsulunda tətbiq olunurdu. M.-nin adı "Koroğlu" dastanında və s. folklor nümunələrində də çəkilir. Azərb.-da (xüsusilə Naxçıvan bölgəsində) 20 əsrin əvvəllərinədək təsərrüfatda M.-dən istifadə olunmuşdur.

**MƏRKƏZ** – Babək r-nu ərazisində, Paız k.-nin şm.-ndakı Çalxanqala ilə üzbəüz dağın yamacında orta əsrlərə aid yaşayış yeri. Şm.-a doğru uzanan dar keçidlə Cəhriçayla birləşir. Ərazidə çay daşı və möhrədən inşa edilmiş, gil məhlulla bir-birinə bərkidilmiş dairəvi və dördkünc planlı tikinti qalıqları vardır. Yaşayış yerinin üzərindən boz və çəhrayı rəngli zəngin keramika məmulatı və s. toplanmışdır.

**MƏRKÜZ**, M a r ğ ı z – qədim əkinçilik aləti. Tarlanın əkinə hazırlanmasında, arx və ləklər arasında tirələrin çəkilməsində işlədilirdi. Əsasən, dördkünc, qismən oval formalı dəmir tiyədən, ağac sapdan və tiyənin üz tərəfindəki iki dəmir halqadan ibarətdir. Dəmir halqalara kiçik ağac parçasına bağlanmış kəndir keçirilir və iki nəfər tərəfindən işlədilirdi. Azərb.-da (xüsusilə Naxçıvan diyarında) qədimdən geniş yayılmış M.-dən hazırda həyətyanı təsərrüfatlarda istifadə edilir.

*Əd.:* C a v a d o v Q. C., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın əkinçilik alətləri, B., 1979.

**MƏŞƏDİ HÜSEYNQULU** (?, Cənubi Azərb., Xoy ş.–?; təqr. 19 əsrin ortaları, Naxçıvan ş.) – Cəlil Məmmədquluzadənin ata tərəfdən babası. 19 əsrin 40-cı illərində Naxçıvana gəlmiş, burada evlənmişdir. Bənnalıqla məşğul olmuşdur. Dindar olmuş, Məşhəddə (İran, Xorasan) imam Rzanın qəbrini ziyarət etmişdir.

*Əd.:* M ə m m ə d l i Q., Molla Nəsrəddin (salnamə), B., 1984; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

Mərəndi. 19 əsr. Naxçıvan.



**MƏŞKUR** Əkbər (Məşkur Qurban oğlu Ə k b ə r z a d ə n i n ədəbi adı; d. 9.5.1929, Ordubad ş.) – şair. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1954). "Şərq qapısı" qəzeti redaksiyasında şöbə müdiri, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor iş-

ləmişdir. 1982 ildən Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzinin əməkdaşıdır. "Qaynar bulaqlar" (1964), "Mənim arzum" (1967), "Ömrümüzün baharı" (1989) topluları nəşr edilmişdir.

**MƏVAZİYİ-XATUN NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə M.-X. n. 9 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 4 kəndində müsəlmanlar (Azərb. türkləri), 2 kəndində xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 44431 ağça idi ki, bu da Naxçıvan sancağının illik gəlirinin 1,7%-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**MƏZRƏ** – Şahbuz r-nunda, eyniadlı kəndin şm.-ş.-ndə 13–17 əsrlərə aid yaşayış yeri. Keçmiş Məzrə k.-nin xarabalıqlarından bir qədər yuxarıdadır. 1986 ildə qeydə alınmışdır. Sah. 5200 $m^2$. Tikinti qalıqlarına, bəzi yerlərdə dördkünc qalalara təsadüf edilmişdir. Ərazi əkin sahəsi kimi istifadə edildiyindən mədəni təbəqə tamamilə dağılmışdır. Yerüstü materiallar şirsiz (küp, küpə, səhəng tipli qablar və s.) və şirli (kasa və boşqab tipli qablar) saxsı məmulatından, həmçinin ağ anqob üzərində fırça ilə işlənmiş, həndəsi və nəbati naxışlarla bəzədilmiş qablardan ibarətdir. M. yaşayış yerinin c.-ş.-ndə təpənin yamacında müsəlman nekropolu var.

**MƏZRƏ** – Ordubad r-nunda kənd. Üstüpü bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 40 *km* şm.-q.-dədir. Əh. 122 nəfər (2000); bağçılıq, əkinçilik və heyvandarlıqla məşğuldur. Məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**MƏZRƏ** – Şahbuz r-nunda, mövcud olmuş kənd. Əhalisi 1959 ildə Nurs və Mahmudoba k.-lərinə köçmüşdür.

**MƏZRƏ KÖRPÜSÜ** – Ordubad r-nu ərazisində, Düylün çayı üzərindədir. Uz. 5 paqonometr. 1996 ildə inşa edilmişdir. Körpünün tikilməsi ilə Məzrə, Düylün k.-ləri magistral yola çıxış əldə etmişdir.

**MİXİ YAZI** — qədim yazı növlərindən biri. Vətəni Cənubi Mesopotamiyada (indiki İraqın c.-u) qədim tarixi vilayət olan Şumerdir. Rəsmli yazıdan əmələ gəlmişdir. E. ə. 4-cü minilliyin sonundan etibarən şumerlilər müəyyən anlayışları bildirmək üçün daş və ya çiy gil üzərində basma üsulla çəkilmiş mıxabənzər xətləri kombinasiyalı şəkillərindən (M. y.-nın adı da buradandır) istifadə etmişlər. İlk zamanlar mindən çox olan belə işarələrin sayı assuriyalıların və babillərin dövrəndə 300-ə endirilmişdir. M. y.-dan təkcə şumerlilər və akkadlılar deyil, Yaxın və Orta Şərqin digər xalqları (hürrilər, urartulular, elamlılar, farslar və b.) da istifadə etmişlər (eramızın 1-ci minilliyinin sonunadək). Fonetik əlifbalar yarandıqdan sonra M. y. əhəmiyyətini itirdi. M. y. kitabələrinin oxunmasına ilk dəfə alman alimi Q.Qrotefend başlamış (1802), sonralar ingilis alimi Q. Roulinson, irland alimi E. Xinks, fransız alimi J. J. Oppert, alman alimi X. Bauer və b. davam etdirmişlər. Şumer rəsmli yazısının oxunmasının əsasını rus alimləri V. K. Afanasyeva, İ. T. Kaneva, A. A. Vayman qoymuşlar. M. y.-nın öyrənilməsində V. V. Struve, İ. İ. Meşşaninov, K. V. Sereteli, İ. M. Diakonov, Q. A. Melikişvili və b.-nın xidməti var.




Naxçıvan ərazisində İlandağda M. y. (bax *İlandağ mixi yazısı*) aşkar olunmuşdur.

**MİLAX** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa



d. y. st.-ndan 55 *km* şm.-da, Əlincəçayın (Arazın qolu) sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 860 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi var. Kənddən şm.-q.-də antik və orta əsrlərə aid *Zoğala* yaşayış yeri və nekropolu aşkar olunmuşdur.

**MİNGİS**, M ə n g i s – Ordubad ş.-ndə qədim məhəllə. Ordubad çayının sol sahilindədir. Adı mingislilərlə, yəni, müəyyən tarixi, iqtisadi əlaqələr nəticəsində Mingis adlanan yerdən köçüb gələnlərlə əlaqədardır. 18 əsrin əvvəllərində Naxçıvan sancağının tərkibinə daxil olan Azadciran nahiyəsi Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir. Mənbələrin yazdığına görə, məhəllənin kiçik meydandan ibarət mərkəzində məhəllə məscidi, kəhriz, xırda dükanlar yerləşirdi. M. meydanı orta əsr məhəllə meydanının gözəl örnəyi kimi keçmiş cəhətlərini qoruyub saxlamaqla, buradakı məscid və bazar bitkin, vahid kompleks təşkil edir.

**MİRİŞ AĞA** (əsl adı Ağa Mirağa; ?, Naxçıvan ş. –1906, orada) – el ağsaqqalı. Ulu babası orta əsrlərdə Yaxın Şərqdən Naxçıvana gəlmiş Şəms İbn Min əl-Əms adlı müqəddəs bir şəxs olmuşdur. Miriş ağa onun nəslinin son görkəmli nümayəndəsidir. "Mirişli" soyadı da onun adı ilə bağlı yaranmışdır. Xalqın inam və etiqad yeri olan M. a. şəhərin erməni və rus icmalarının da hörmətini qazanmışdı. Deyilənə görə, M. a. rəhmətə gedənə qədər Naxçıvan xanı Cəfərqulu və rus keşişi hər il Novruz bayramında ağanın evinə gəlib, onu təbrik edərlərmiş. Naxçıvan Dövlət Arxivində saxlanan bir sənəddə deyilir ki, 1905 ilin ortalarında Cəhri k.-ndə qanlı erməni-müsəlman qırğınının qarşısı məhz M. a. tərəfindən alınmışdır. M. a.-nın övladları Mir Cəfər, Mir Həsən və Mir Aqilin Naxçıvanda maarif və mədəniyyətin inkişafında mühüm xidmətləri olmuşdur.

**MİRİŞLİ** Adil Mir Cəfər oğlu (d.25.8.1938, Naxçıvan ş.) – həkim. Səhiyyə əlaçısı (1980), Azərb. Respublikasının əməkdar həkimi (1989). *Mir Cəfər Mirişlinin* oğludur. Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirdikdən (1962) sonra Babək r-nunun Nehrəm k., Naxçıvan ş. xəstəxanalarında, N. Nərimanov ad. Respublika Xəstəxanasının yoluxucu xəstəlliklər şöbəsində həkim işləmişdir. Moskvada SSRİ Tibb EA Pediatriya İn-tunun aspiranturasını bitirmiş və orada "Uşaqlarda raspirator virus-mikoplazma infeksiyasının immunokliniki xarakteristikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1973). 1973 ildən Nax. MR Səhiyyə Nazirliyinin baş pediatrı vəzifəsində çalışır.

**MİRİŞLİ** Adilə Yusif qızı (1913, Naxçıvan ş. – 23.5.1987, orada) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1960). Naxçıvan Pedaqoji Texnikumunu (1929) və C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İn-tunun fizika-riyaziyyat fakültəsini (1950) bitirmişdir. 1929-31 illərdə Ordubad şəhər yeddillik məktəbində və savad kurslarında dərs demişdir. 1931 ildən Naxçıvan şəhərinin müxtəlif məktəblərində müəllim, dərs hissə müdiri, direktor işləmişdir. 1971 ildən fərdi pensiyaçı idi. Lenin ordeni ilə təltif olunmuşdur.

**MİRİŞLİ** Mir Aqil Miriş ağa oğlu (1905, Naxçıvan ş. – 4.4.1945, orada) – pedaqoq. İlk təhsilini Naxçıvanda almış, uzun müddət Naxçıvan şəhər orta məktəbində coğrafiyadan dərs demiş, Şərur, Ordubad və Şahbuz r-n maarif şöbələrinin müdiri işləmişdir. Təhsilini Leninqradda (indiki Sankt-Peterburq) davam etdirərkən ordu sıralarına çağırılmış, Böyük Vətən müharibəsində (1941–45) iştirak etmişdir. Sonralar Naxçıvan MR Maarif Nazirliyində inspektor olmuşdur.

**MİRİŞLİ** Mir Cəfər Miriş ağa oğlu (1899, Naxçıvan ş. – 1979, orada) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1943). Naxçıvan came məscidi nəzdindəki ibtidai məktəbi, Bakı pedaqoji texnikumunu və Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir. 1916 ildən müəllimlik etmiş, ömrünün sonunadək Naxçıvan şəhər 3 saylı orta məktəbində "Ana dili"ndən dərs demişdir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevə, görkəmli şəxsiyyətlərə – elm xadimləri Həsən Əliyevə, Məmməd Cəfər Cəfərova, Əli Sultanlıya və b.-na dərs demişdir. Lenin ordeni ilə təltif edilmişdir..

**MİRİŞLİ** Mir Həsən Miriş ağa oğlu (1903, Naxçıvan ş. – 1973, orada) – aktyor. Azərb. Respublikasının əməkdar artisti. Naxçıvanda



M. H. Mirişli Şahqulu ("Günəş doğur", Ə.Abbasquliyev) rolunda.

təhsil almış, burada ilk əczaçılardan olmuş, uzun müddət bu sahədə fəaliyyət göstərmişdir. Sonralar həyatını bütünlüklə gənc yaşlarından böyük həvəs göstərdiyi teatr sənəti ilə bağlamış, C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. M. bu teatrın səhnəsində müxtəlif səpgili bir sıra yaddaqalan obrazlar yaratmışdır. Əsas rolları: Kərəmov ("Toy", S. Rəhman), Rüstəm bəy ("O olmasın, bu olsun", Ü. Hacıbəyov), Platon ("Şeyx Sənan", H. Cavid), Vəzir (" Vaqif", S. Vurğun), Şahqulu ("Günəş doğur", Ə.Abbaquliyev), Kərbəlayi Həsənağa ("Beş manatlıq gəlin", M.S.Ordubadi, S. Rüstəmov) və s. Nax. MSSR Ali Sovetinin deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Mirişli Ramiz



**MİRİŞLİ** Ramiz Aqil oğlu (d. 16.4.1934, Naxçıvan ş.) – bəstəkar. Azərb. Respublikasının xalq artisti (1990), prof. (1993). *Mir Aqil Mirişlinin* oğludur. A. Zeynallı ad. Bakı Musiqi Texnikumunu (1954) və Azərb. Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakültəsini (1962; C. Hacıyevin sinfi) bitirmişdir. 1962 ildən Azərb. Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Musiqi Baş Redaksiyasında böyük redaktor işləmişdir. 1963 ildən Bakı Musiqi Akademiyası xalq çalğı alətləri kafedrasının müəllimidir (1993 ildən prof). 1996 ildən eyni zamanda Azərb. Dövlət Teleradio Verilişləri Şirkətində musiqi redaksiyasının baş redaktoru vəzifəsində çalışır. 1987–95 illərdə Azərb. Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri olmuşdur. M. fp. üçün 12 prelüd, fp. triosu, simli kvartet, 2 simfonik poema, tar və simfonik orkestr üçün konsert, kamera orkestri üçün simfoniya, onlarca kinofilmə və teatr tamaşasına musiqi, xalq çalğı alətləri orkestri üçün konsertlər və süitalar, 3 balet süitası, 500-dən çox mahnı və romans, "Qaçırılmış qız" və "Gəl, qohum olaq" operettaları, 9 simfonik süita, uşaqlar üçün musiqi və s. əsərlərin müəllifidir.

M. 1978–98 illərdə Azərb. Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsinə rəhbərlik etmişdir. Yaradıcılığında Naxçıvan mövzusu əhəmiyyətli yer tutur: xalq çalğı alətləri orkestri üçün "Naxçıvan lövhələri" süitası, Məmməd Arazın sözlərinə "Doğma diyar" vokal-orkestr süitası, İ.Səfərli, Məmməd Araz, F.Qoca və b.-nın sözlərinə mahnılar və s. Bir sıra Şərur yallısını nota almışdır.

*Əd.:* İ s m a y ı l o v a G., Bəstəkar Ramiz Mirişli, B., 2000

*R. Mirişli Ş. Ələkbərova ilə məşq zamanı.*





**MİRZƏ SADIQ ORDUBADİ** (?–?) – şair (16 əsr). Həyatı haqqında məlumat çox azdır. 1562 ildə Hindistana getmiş, biliyi və istedadı, şirin söhbəti, gözəl rəftarı, xoş xisləti və təmiz əxlaqı ilə şöhrət qazanmışdır. Fars dilində yazmışdır. Rübai janrına daha çox meyl göstərmiş, bu janrda aşiqanə və fəlsəfi məzmunlu əsərlər, o cümlədən Cəlaləddin Dəvvani və Əbdürrəhman Caminin rübailərinə cavab və nəzirələr yazmış, onların şerlərini şərh etmişdir. Sadıq bəy Əfşar (S a d i q i) "Məcməül-Xəvas" (1599) təzkirəsində M. S. O.-nin həcv deməkdə də mahir olduğunu qeyd etmişdir. Bəzi mənbələrə görə ("Həft iqlim" təzkirəsi və s.) Böyük moğol hökmdarı Əkbər Cəlaləddin şah [1556–1605] Dəkkəni aldıqdan sonra burada dövlət qulluğunda çalışan M. S. O. Qəribguş qəsəbəsində öldürülmüşdür.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 278–79.

**MİRZƏYEV** Yusif Vəli oğlu (23.5.1958, indiki Babək r-nunun Böyükdüz k. – 19.2.1992, Ağdərə) – Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra). Azərb. Xalq Təsərrüfatı İn-tunu (indiki İqtisad Un-ti) bitirdikdən (1987) sonra 1990 ilədək Bakı Mərkəzi Əmanət Bankında baş müfəttiş vəzifəsində işləmişdir. Xalq hərəkatında iştirakına və 20 yanvar faciəsi günlərində fəaliyyətinə görə Bakı şəhər komendantı tərəfindən həbs edilmiş və vəzifəsindən uzaqlaşdırılmışdı. 1991 ilin noyabrında hərbi xidmətə çağırılan böyük leytenant M. Goranboy və Ağdərə uğrunda gedən döyüşlərdə şəxsi igidlik nümunələri göstərmiş, Ağdərənin müdafiəsində, Vəng k.-nin alınmasında xüsusilə fərqlənmiş və döyüşlərin birində qəhrəmanlıqla həlak olmuşdur. Naxçıvan ş.-ndə büstü qoyulmuş, Bakı ş.-ndəki 44 saylı məktəbə M.-in adı verilmişdir.

**MİSDAĞ** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Qaracalal–Qızılboğaz tirəsinin suayırıcındadır. Hünd. 1270 *m*. Andezit-dasit tərkibli ekstruzivdir.

**MİSDAĞ MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsinin c.-q. yamacında, Ayçınqıl çayının yuxarı axınında, dəniz səviyyəsindən 3000–3850 *m* yüksəklikdədir; eyniadlı filiz sahəsinin mərkəzi hissəsini əhatə edir. Geoloji quruluşunda Mehri-Ordubad plutonunun monsonit fazasının süxurları, həmçinin qranodiorit-porfir daykaları iştirak edir. Ordubad dərinlik qırılmasından ayrılan şm. istiqamətli qırılma bütün intruziv kompleksini kəsərək, yatağın q. hissəsindən Ermənistana keçir. M. m.-p.y. həmin qırılmanın asılan tərəfi ilə yatağın ş.-ində izlənən qranodiorit–porfir daykasının arasında, 1,3–1,5 *km* enində təşəkkül tapmışdır. Mis-porfir filizləşməsi möhtəvi və damar tiplidir. Filizdə mis 0,2–2,0%, molibden 0,001–0,02% təşkil edir. Əsas filiz mineralları: pirit, xalkopirit, azurit, kovellin, kuprit, malaxit, az miqdarda molibdenit. Tekstur əlamətlərinə görə filizlər brekçiya tiplidir.



Mirzəyev Yusif

**MİYANPUR** – Naxçıvanda, xüsusilə Ordubad bölgəsində geniş yayılmış çərəz. Əsasən, ərik və şaftalı qaxından hazırlanır. Qurudulmuş meyvələrin çəyirdəyi çıxarılaraq arasına qoz və ya badam ləpəsi qoyulur, sonra onlar sapa düzülür. Xalq arasında M.-dan ümumi zəifliyin, başgicəllənmənin, qanazlığının qarşısını almaq üçün müalicə vasitəsi kimi də istifadə edilir. Cənubi Azərb.-da əncirdən də M. hazırlanır.

**MOLLA HÜSEYN BİKƏS** (?, Ordubad – ?, orada) – şair (19 əsr). *"Əncüməni-şüəra"* ədəbi məclisinin istedadlı üzvlərindən olmuşdur. Məclisin rəhbəri Fəqir Ordubadi ömrünün sonlarına yaxın gözləri tutulduğundan şerlərini məclis üzvlərindən M. T. Sidqiyə və Bikəsə yazdırmışdır. Dini məzmunlu qəzəl və növhələrin, aşiqanə qəzəllərin, aşıq şeri tərzində lirik qoşmaların müəllifidir. Şerlərindən nümunələr Azərb. Milli EA M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanan cünglərdə mühafizə olunmuşdur.

**MOLLA NƏSRƏDDİN** – böyük Azərb. yazıçısı Cəlil *Məmmədquluzadənin* ədəbi təxəllüsü.

**"MOLLA NƏSRƏDDİN"** – həftəlik, illüstrasiyalı ilk Azərb. satirik jurnalı. Birinci nömrəsi 1906 il aprelin 7-də (20-də) Tiflisdə çapdan çıxmışdır. 1906–17 illərdə Tiflisdə, 1921 ildə Təbrizdə, 1922–31 illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan "M. N." zəhmətkeş xalq və demok-




"Molla Nəsrəddin" jurnalının birinci nömrəsinin üz qabığı (1906).

ratiya cəbhəsində duraraq, azadlıq düşmənlərini – çar mütləqiyyətini, hakim təbəqələrin ağalığını, imperializmin müstəmləkəçilik siyasətini, geriliyi, mövhumat, cəhalət və xurafatı amansız satira atəşinə tuturdu. Jurnal eyni zamanda maarif və mədəniyyətin tərəqqisi, qadın azadlığı, Azərb. dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, "acı həqiqətləri" söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çar senzurası tərəfindən tez-tez dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru dəfələrlə məhkəmə məsuliyyətinə cəlb olunmuş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, "M. N."-in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, Yaxın və Orta Şərqdə eşidilmişdi. Jurnalın Orta Asiyada, Krımda, Bakı, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlkətə və s. şəhərlərdə, habelə Naxçıvanda çoxlu oxucusu var idi.

C. Məmmədquluzadənin dediyi kimi, zəmanənin yaratdığı "M. N." dövrünün mühüm ictimai-siyasi hadisələrinə səs verir, onları inqilabi-demokratik baxımdan şərh edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. "M. N."-in yazıları və dərin mənalı karikaturaları Orta Asiya və Tatarıstanda, bir sıra qonşu Şərq ölkələrində bilavasitə onun təsiri ilə nəşr edilən satirik jurnallar üçün örnək olmuşdur. "M. N." İran, Türkiyə və Şərq ölkələrində genişlənən milli azadlıq hərəkatını diqqətlə izləyir, beynəlxalq irtica qüvvələrini, yerli istibdadı ifşa edirdi. Cənubi Azərb. və İran xalqlarının Səttarxan, Bağırxan, Xiyabani kimi azadlıq mücahidlərinin başçılığı ilə apardığı fədakar mübarizə haqqında jurnalın yazıları və rəsmləri yüksək vətənpərvərlik nümunələri idi. "Sabirin əsərləri İran məşrutəsinə... bir ordudan ziyadə xidmət etmişdir" (Abbas Səhhət) sözləri eynilə "M. N."-ə də aid edilə bilər. "M. N." Azərb. xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Ö. F. Nemanzadə, M. Ə. Sabir, Ə. Haqverdiyev, Ə. Nəzmi, Ə. Qəmküsar, M. S. Ordubadi, M. Möcüz və b. şair, yazıçı və jurnalistlər, O. Şmerlinq, İ. Rotter, Ə. Əzimzadə kimi rəssamlar fəaliyyət göstərirdilər. "M. N."-in realist-demokratik ədəbiyyat, zəhmətkeş xalqın mənafeyi uğrunda mübarizəsi, onun inqilabi satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də "Mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı. Mollanəsrəddinçilər klassik Azərb., Şərq, rus və dünya bədii publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərb publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirmişdir.

Sovet hakimiyyəti illərində ciddi təzyiq və qadağalara baxmayaraq, "M. N." öz mütərəqqi ənənələrini davam etdirmiş, ictimai tərəqqiyə, elmin, mədəniyyətin inkişafına maneçilik törədən qüvvələri satira atəşinə tutmuşdur. "M. N." beynəlxalq məsələlərə geniş yer vermiş, imperializmin təcavüzkar təbiətini damğalamış, müstəmləkə və asılı ölkə xalqlarının milli azadlıq hərəkatını alqışlamışdır. Bu dövrdə Ə. Haqverdiyev, Ə. Əzimzadə və b. ilə yanaşı, jurnalda C. Cabbarlı, Ə. Vahid, B. Talıblı və digər şair və yazıçılar da əməkdaşlıq edirdilər. Jurnal 1926 ildən "Heyəti-təhririyyə" imzası ilə buraxılmışdır.



"M. N."-in yalnız Azərb.-ın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. Mübaliğəsiz demək olar ki, "Kolokol", "Sovremennik", "Oteçestvennıye zapiski" jurnallarının Rusiyada oynadığı rolu, Azərb.-da və bütün Yaxın Şərq ölkələrində "M. N." oynamışdır. Müasir Azərb. satirik publisistikasının təşəkkülü və inkişafı da bilavasitə "M. N."-in adı ilə bağlıdır. 20-ci illərdə çıxmış "Əqrəb", "Tikan", "Damğa", "İdarəmizin güzgüsü" kimi jurnallarda, sonralar "Kirpi" jurnalında, "Mozalan" satirik kino-jurnalında və eyniadlı telejurnalda "M. N." ənənələrini aydın görmək olar. Mollanəsrəddinçilərin böyük istedadla yaratdıqları, yüksək xəlqilik nümunəsi olan poetik, publisist və qrafika əsərləri bu gün də satirik sənətkarlar üçün yaradıcılıq nümunəsidir. Nəşrə başlamasının 75, 80 və 90 illiyi qeyd olunmuşdur. Kitab şəklində 12 cilddə nəşr edilir (2 cildi çapdan çıxmışdır).

*Əd.:* A x u n d o v N., "Molla Nəsrəddin" jurnalının nəşr tarixi, B., 1959; M ə m m ə d l i Q., "Molla Nəsrəddin", B., 1966; A ğ a y e v İ., "Molla Nəsrəddin"in tarixi hünəri, B., 1976; Ə z i z Ş ə r i f, "Molla Nəsrəddin" necə yarandı, B., 1986; К а с у м о в М., Боевой революционно-демократический журнал "Молла Насреддин", Б., 1966. Bax həmçinin C. *Məmmədquluzadə* məqaləsinin ədəbiyyatına.

**MOLLAYEV** İbrahim Abbas oğlu (1.4. 1930, Naxçıvan ş. – 25.2. 1997, orada) – pedaqoq. Pedaqogika elmləri doktoru (1986), prof. (1988). Azərb. respublikasının qabaqcıl maarif xadimi. Naxçıvan Müəllimlər İn-tunu və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) Rus dili və ədəbiyyatı fakültəsini (1953) bitirmişdir. Naxçıvan şəhər orta məktəblərində müəllim, tədris işləri üzrə direktor müavini, Nax. MSSR Maarif Nazirliyində məktəb inspektoru işləmişdir (1953–67). 1968 ildən ömrünün sonunadək Naxçıvan Dövlət Un-tində (1990 ilədək Pedaqoji İn-t) çalışmış, pedaqogika və psixologiya kafedrasının müdiri olmuşdur. M. Azərb.-da məktəb və pedaqoji fikir tarixinə dair tədqiqatların, o cümlədən 2 monoqrafiyanın, 4 kitabın, 100-ə yaxın elmi məqalənin, 8 metodik vəsaitin müəllifidir.

Ə s ə r i: M. T. Sidqinin pedaqoji görüşləri, B., 1997.



Mollayev İbrahim



Faal mollanəsrəddinçilərdən Ə.Haqverdiyev, R.Nəcəfov, S.Mümtaz, Z.Məmmədov, Ə.Qəmküsar.

**MOSKVA MÜQAVİLƏSİ (1921)** – RSFSR ilə Türkiyə arasında bağlanmış müqavilə. 1921 ilin fevralında Ankara hökumətinin xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad Cebesoy və doktor Riza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gəldikdən sonra danışıqlara başlanmışdı. Rusiya tərəfdən danışıqları xalq xarici işlər komissarı G.V. Çiçerin və RSFSR MİK-in üzvü C. Qorxmazov aparırdı. Danışıqlarda Azərb.-ın Türkiyədəki səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski də iştirak etmişdir. Bir ay davam etmiş danışıqların yekunu martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR–Türkiyə müqaviləsində öz əksini tapdı. M. m. 16 maddədən və əlavələrdən ibarətdir. Müqavilənin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin I (V) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərb.-ın himayəsi altında, həmin protektoratı Azərb.-ın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. Bölgənin sərhədləri belə müəyyənləşdirilirdi: Ararat stansiyası – Sarıbulaq dağları – Kömürlüdağ – Sayatdağ – Qurdqulaq kəndi – Həməsür dağı – 8022-ci yüksəklik – Kükudağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi.

Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilmədisə də, regionun türklərin əlində qalması təmin edilmiş-

dı. Naxçıvan Azərb.-ın himayəsinə verildi. Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirildi.

M. m.-nin RSFSR MİK (20 mart 1921) və Türkiyə Böyük Millət Məclisi (21 iyul 1921) tərəfindən təsdiqlənmişdi. M. m.-nin 3-cü maddəsində qeyd olunmuşdur: "Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət Komissiya tərəfindən dəqiqləşdiriləcəkdir" (bax həmçinin *Qars müqaviləsi (1921)*, *Naxçıvan məsələsi* məqalələrinə).

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ. Hacıyev), B., 1999.

**MÖHSÜNOV** Möhsün Şərif oğlu (10.5.1937, Naxçıvan ş. – 6.1.1995, orada) – yazıçı, nasir, publisist. Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsinin fars filologiyası şöbəsini bitirmişdir (1961). Mətbuatda çalışmış, "Şərq qapısı" qəzeti redaksiyasında felyeton və publisistika şöbəsinin müdiri (1985 ildən) olmuşdur. "Süd haqqı" (1970), "Baş tutmadı" (1979), "Leyləklər yenə gəldi" (1988) hekayə və felyeton topluları, "Səadət özü gəlmir" (1984), "On bir qərənfil" (1988) povestləri nəşr olunmuşdur. "Dəlləyin duası", "Orijinal pir" satirik telepyesləri var. "Kirpi" satirik jurnalının mükafatını almışdır (1978).

**MÖHTƏRƏM ORDUBADİ** (?, Ordubad ş. – ?, orada) – şair (19 əsr) "*Əncüməni-şüəra*" ədəbi məclisinin fəal üzvlərindən olmuşdur. Fars dilində də yazmışdır. Azərb. Milli EA Əlyazmalar İn-tunda saxlanan bəzi cünglərdə şerlərindən nümunələr mühafizə edilmişdir.

**MÖMÜNƏ XATUN** (?–30.9. 1175, Naxçıvan) – Azərbaycan atabəyləri dövlətinin ilk dövründə mühüm rol oynamış qadın. 1132–1135 illərdə Azərb.-ın da daxil olduğu İraq Səlcuq sultanlığının başçısı sultan II Toğrulun arvadı olmuş, ondan Arslan adlı oğlu doğulmuşdur. Azərbaycan atabəyləri dövlətinin [1136–1225] yaradıcısı, o dövrdə artıq əmir rütbəsinədək yüksəlmiş *Şəmsəddin Eldəniz* M. x.-un azyaşlı oğlu Arslan şahın atabəyi (tərbiyəçisi) təyin edilmişdi. II Toğrulun ölümündən sonra yeni sultan Məsud [1135–1152] M. x.-la *Şəmsəddin Eldənizi* evləndirmiş, 1136 ildə Arranı ona iqta vermişdi. Əvvəl Bərdədə, daha sonra isə Naxçıvanda iqamətgah qurmuş Şəmsəddin Eldənizin M. x.-dan *Məhəmməd Cahan Pəhləvan* və *Qızıl Arslan* adlı oğlanları olmuşdur. Dövrün qaynaqlarının məlumatına görə, hələ sultan oğlunun atabəyi olan zaman M. x.-un xüsusi etimadını qazanmış Şəmsəddin bütün ömrü boyu bu ağıllı qadının məsləhətlərini, dəyərli tövsiyələrini nəzərə almış, məhz onun sözlərinə qulaq asaraq, heç bir saray çəkişməsinə qarışmamışdır. Sonralar da dövlətin siyasi həyatında fəal surətdə iştirak edən M. x. 1161 ildə İraq sultanlığının başçısı olmuş böyük oğlu sultan Arslan şahla atabəy Şəmsəddin arasında normal münasibətlərin yaranmasına nail ola bilmiş, beləliklə, ara iğtişaşlarına yol verməmişdi. Sədrəddin əl-Hüseynin "Əxbar əd-daulət əs-Səlcuqiyyə" ("Səlcuqilər dövləti haqqında məlumatlar") əsərində M. x.-un öz oğlu sultan Arslan şaha dediyi belə sözlər vardır: "Sən sultan taxtındasan, o (yəni, Şəmsəddin Eldəniz) və onun hər iki oğlu da sənin qulluğunda durub, sənin düşmənlərinlə vuruşur, sənin rəqiblərinə qalib gəlirlər, sənin canın isə bütün bunlardan azaddır. Atabəy nə eləyirsə-eləsin, bağışlasın, ya tutub alsın, bütün bunlar sənin məmləkətini möhkəmlətmək, sənin hakimiyyətini bərkitmək üçündür..." Belə diplomatik danışıqlarla M. x. oğlundan xeyli bacarıqlı və qüdrətli olan atabəy Şəmsəddin Eldənizin, əslində, bütün sultanlığın gerçək sahibinə çevrilməsinə müvəffəq olmuşdu; M.x.-un oğlu sultan Arslan isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxsə çevrilmişdi. Bu vaxtdan başlayaraq ərinin iqamətgahını, əsasən, sultanlığın paytaxtı Həmədana köçürməsinə baxmayaraq, M. x. ömrünün sonunadək Naxçıvanda yaşamışdı. Mənbələr M. x.-un 1174 ilin əvvəlində gürcülərin Naxçıvana yeni hücum xəbərini Həmədana çatdırması haqqında məlumat verir. Şəmsəddin Eldəniz qurduğu dövlətin həm daxili, həm də xarici siyasətində xüsusi rol oynamış sevimli qadınının şərəfinə Naxçıvan şəhərində onun qəbri üzərində məqbərə tikdirməyə başlamış, lakin M.x.-dan sonra cəmi bir ay yaşadığı üçün, məqbərənin tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan 1186 ilin aprelində başa çatdırmışdır (bax *Mömünə xatun türbəsi*).

*Əd.:* Bünyadov Z. M., Azərbaycan Atabəyləri dövləti, B., 1985; Azərbaycan tarixi, 7 cilddə, cild 2, B., 



1998; Садраддин-Хусейни, Ахбар ад-даулат ас-Селджукийа (зубдат ат-таварих), изд. текста, пер., введение, прим. З. М. Буниятова, М., 1980.

**MÖMÜNƏ XATUN TÜRBƏSİ** – Azərb. milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri. 1186 ildə Naxçıvan ş.-nin q. hissəsində tikilmişdir (memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərb. Atabəylər dövlətinin banisi *Şəmsəddin Eldəniz* arvadı Mömünə xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582 ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Ümumi hünd. 34 *m* olmuş, sonralar 8 *m* hünd.-də xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda 10 bucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Mömünə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabada dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır; hazırda qiymətli daşdan nəfis şəkildə əsaslı bərpa işləri aparılır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır. Türbə sərdabəsindəki bu quruluş sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş M.x.t.-nin bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada həll edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uz. 500 *m*-ə çatır. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin q. hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ



Mömünə xatun türbəsi səthinin fraqmenti.

şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adı və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər



Sərdabə dirəyinin konstruksiyası.



Mömünə xatun türbəsi səthlərin ornament elementləri.

memarlıq sənətinin şah əsərlərindən sayılır. Məşhur incəsənət tarixçisi, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M. V. Alpatov türbə haqqında yazır: "12 əsr Azərb. ustalarının Naxçıvanda yaratdığı Mömünə xatun türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Mömünə xatun türbəsi Şərqin ən gözəl klassik əsərləri – Firdovsinin "Şahnamə"si və Nizaminin "Leyli və Məcnun"u kimi əbədidir". Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında da belə gözəl abidəyə rast gəlmək olmur. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərb.-ın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir. 19 əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, M.x.t.-nin yanında monumental tikililər, o cümlədən came məscidi yerləşmişdi. Şəkil, bax səh. 255.

*Əd.:* Salamzadə Ə. V., Əcəmi Naxçıvani, B., 1976; yenə onun, Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri, B., 1976.

Mövləvi Səməd



**MÖMÜNƏ XATUN TÜRBƏSİ MUZEYİ** – "Azərbaycan xalçası" Nax. MR Dövlət Muzeyi nəzdində ictimai əsaslarla yaradılmışdır. Muzeyin 110 $m^2$ sahəni əhatə edən ekspozisiyasının eksponatlarında Azərb. atabəyləri dövləti [1136–1225] dövründən və Əcəmi memarlıq məktəbi ənənələrindən bəhs edən ətraflı məlumatlar əksini tapmışdır. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev Nax. MR-in 75 illik yubileyi ilə əlaqədar muxtar respublikada olarkən muzeyin ekspozisiyası ilə tanış olmuşdur.

**MÖVLƏVİ** Səməd Məmməd oğlu (20.2.1900, Təbriz – 3.2.1962, Naxçıvan) – aktyor. Azərb. Respublikası xalq artisti (1960). Təbrizdə "Rüşdiyyə" məktəbində oxumuş, burada ilk dəfə Gülcahan ("Nadir şah", N. Nərimanov) rolunda çıxış etmişdir. 1921 ildə Naxçıvana köçmüş, həmin ildən Naxçıvan Dram Teatrının (sonralar C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı) aktyoru və rej. olmuşdur (1924–26 illərdə İrəvan və Tiflis Azərb. teatrlarında işləmişdir). Rolları: Nadir şah ("Nadir şah", N. Nərimanov), Şeyx Nəsrullah ("Ölülər", C.Məmmədquluzadə), Heydər bəy, Məstəli şah ("Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", M. F. Axundov), Aydın, Mirzə Səməndər ("Aydın", "Almaz", C. Cabbarlı), Şeyx Sənan ("Şeyx Sənan", H. Cavid), Otello ("Otello", U. Şekspir), Şapur ("Fərhad və Şirin", S.Vurğun) və s. M. "Oqtay Eloğlu", "Sevil", "Aydın" (1927, 1928, 1940, C.Cabbarlı), "Özgə uşağı" (1931, V. Şkvarkin), "Ər və arvad", "Leyli və Məcnun (1937, 1938, Ü.Hacıbəyov), "Günahsız müqəssirlər" (1945, A. Ostrovski), "Xeyirxah adamlar" (1951, G. Mdivani), və s. tamaşaların quruluşçu rej. olmuşdur.

*Əd.:* Unudulmaz səhnə ustaları, B., 1981.

*S. M. Mövləvi dərviş Məstəli şah ("Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadugüni-məşhur", M.F.Axundov) rolunda.*







Mövləvi Tofiq

**MÖVLƏVİ** Tofiq Cəməd oğlu (d. 21.12.1938, Naxçıvan ş.) – aktyor. Nax. MR əməkdar artisti (1987), Azərb. Respublikası əməkdar artisti (1999). 1954 ildən C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Əsas rolları, Heydər ("Qız atası", Ə. Əsgərov), Serqo ("Şeyx Sənan", H.Cavid), Çərkəz Murad ("Ana", H. Cavid), Rza bəy ("O olmasın, bu olsun", Ü. Hacıbəyov), Müküş ("Mənim nəğməkar bibim", Ə.Əylisli) və s. Azərb. Teatr Xadimləri İttifaqının üzvüdür.

**MÖVSÜMOV** Zeynalabdin Rəsul oğlu (d. 21.12.1925, Ordubad r-nunun Dırnıs k.) – aqrokimyaçı. Kənd təsərrüfatı elmləri doktoru (1969), prof. (1980). Böyük Vətən müharibəsi (1941–45) iştirakçısıdır. Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunda baş elmi işçi (1957–70), Azərb. Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi Tədqiqat Əkinçilik İn-tunda şöbə müdiri, direktor müavini və direktor əvəzi (1970–90) vəzifələrində çalışmışdır. 1990 ildən Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunda işləyir; 1995 ildən in-tun elmi işlər üzrə direktor müavinidir. Tədqiqatları, əsasən, bitkilərin azotla qidalanma rejimlərinə (azotun torpaqda dinamikası və balansı, atmosfer azotunun funksiyası və s.) həsr edilmişdir. Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvüdür (1999).

**MUDANYA BARIŞIĞI (1922)** – oktyabrın 11-də Mudanyada (Türkiyənin Mərmərə dənizi sahilində yaşayış məntəqəsi) Türkiyə Böyük Millət Məclisi (TBMM) hökuməti (İsmət paşa) ilə B. Britaniya (gen. Harrinqton), Fransa (gen. Şarpi) və İtaliya (gen. Mombelli) nümayəndələri arasında imzalanmış barışıq sazişi (oktyabrın 13-də Yunanıstan da M. b.-na qoşulmuşdu); M. b. türk xalqının Antanta dövlətlərinin təcavüzünə qarşı milli azadlıq müharibəsinin uğurla başa çatdığı və türk ordusunun İstanbula və Frakiyaya həlledici hücuma hazırlaşdığı bir şəraitdə bağlanmışdı. İlk əvvəl danışıqların üç günə başa çatacağı gözlənilirdi. Lakin Mudanyada aparılan danışıqlar oktyabrın 3-dən 10-dək davam etmiş, bəzən isə kəsilmək təhlükəsi qarşısında qalmışdı (hətta bir dəfə Antanta nümayəndələri Türkiyənin Frakiyanı bir ay ərzində boşaldaraq türklərə qaytarmaq tələbini öz hökumətləri ilə razılaşdırmaq üçün Mudanyanı tərk etmiş, İsmət paşa isə türk ordusuna İstanbul və Frakiya üzərinə irəliləmək əmri vermişdi). M. b.-na görə yunan qoşunları Maritsa çayına qədər Şərqi Frakiyanı (Ədirnə ş. də daxil olmaqla) boşaldıb türklərin ixtiyarına verməli, Maritsanın sağ sahili (Qaraağac da daxil olmaqla) isə sülh müqaviləsi bağlanana qədər müttəfiqlərin ixtiyarında qalmalı idi. M. b.-nda Türkiyə tərəfi güzəştə gedərək, "qarşıdakı sülh konfransının qəti qərarınadək İstanbul və Boğazlar zonasına" qoşun yeritməmək barədə təəhhüd götürmüşdü. M. b. türk xalqının yadelli işğalçılara qarşı mübarizədə qazandığı böyük qələbənin beynəlxalq səviyyədə ilkin olaraq tanınması və təsdiqi idi. M. b.-nı imzalamaqla Antanta dövlətləri həm də TBMM hökumətini ölkənin yeganə qanuni hökuməti kimi tanıdılar. M. b. *Lozanna sülh müqaviləsi (1923)* bağlanana qədər qüvvədə olmuşdur.

*Əd.:* Hüseynov Q. H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970; Орешкова С. Ф. и др., Очерки истории Турции, М., 1983.

Mövsümov Zeynalabdin



**MUDROS BARIŞIĞI (1918)** – oktyabrın 30-da B. Britaniya (admiral Kaltorn) və Türkiyə (Rauf Hikmət və Sədulla bəy) nümayəndələri arasında İngiltərənin Mudros limanında (Egey d., Lemnos a.) dayanmış "Aqamemnon" kreyserində Türkiyənin Birinci Dünya müharibəsində (1914–18) məğlub olması haqqında barışıq sazişi. İngiltərənin diktəsi ilə hazırlanmışdı. M. b.-nın şərtləri türk ordusunun danışıqsız təslim olmasını, Antanta dövlətləri silahlı qüvvələrinin Qara dəniz boğazlarını tutmasını, onların hərbi gəmilərinin boğazlarda sərbəst gediş-gəlişinin təmin edilməsini, Türkiyə hərbi hissələrinin İran, Kilikiya, Cənubi Qafqaz və Dağıstandan çı-

xarılmasını, habelə "fövqəladə vəziyyət yaranarsa", Türkiyənin bütün strateji məntəqələrinin Antanta qoşunları tərəfindən işğalını nəzərdə tuturdu. Barışıq sazişinin 6 və 9-cu maddələrinə əsasən Türkiyə özünün bütün hərbi donanmasını, gəmi təmiri emalatxanalarını və hərbi-dəniz cəbbəxanalarını müttəfiqlərin ixtiyarına verməli idi. M. b.-nın 11-ci maddəsinə əsasən Azərb. İngiltərənin nüfuz dairəsi elan edilir, 15-ci maddəyə əsasən isə Azərb.-ın yolları və neft mənbələri ingilis komandanlığının ixtiyarına keçir, Bakının işğalına Türkiyənin etiraz etməməsi tələb olunurdu. M. b. təkcə Osmanlı imperiyasının varlığına son qoymur, eyni zamanda Türkiyənin müstəqil dövlət kimi yaşamasını da təhlükə altına alırdı. M. b. imzalandıqdan az sonra Antanta qoşunlarının Türkiyəni işğal etməyə başlaması (noyabrın 9-da ingilis desant qoşunlarının Dardanel sahilindəki portları tutması, noyabrın 13-də isə 10 min nəfərədək ingilis qoşununun fransız və italyan qoşunlarının köməyi ilə İstanbuldakı hərbi qışlaları və bir çox yaşayış binalarını tutması və s.) onların məhz bu niyyətindən xəbər verirdi. Türk xalqının milli azadlıq mübarizəsi (1918–23 illər) və dünyanın mütərəqqi ictimaiyyətinin həmrəyliyi M. b. şərtlərinin həyata keçirilməsinə imkan vermədi ( Bax *Mudanya barışığı, 1922*)

*Əd.:* H ü s e y n o v Q. H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, Bakı, 1970.

**MUFLON,** K i ç i k A s i y a m u f l o n u – qoyunlar cinsinin bir növü. Yaşlı erkəklərin



bədəninin uz. 132–147 *sm*, süysününün hünd. 82–98 *sm*, çəkisi 50–60 kq, dişləri kiçik, çəkisi 36–46 kq-dək olur. Rəngi fəsillərə görə dəyişir. Kiçik Asiyada, İranda, Əfqanıstanda, Kəşmirdə, Pəncabda yaşayır. Azərbaycanda yalnız Nax. MR-də yayılmışdır. Dağ çəmənliklərində (1000–1200 baş) yaşayan dağ qoyunu qışda alçaq dağlıq sahələrə enir. Bəzən 10–12 fərddən ibarət kiçik sürü ilə gəzir. Aprel-may aylarında 1–2 bala doğur. Ev qoyunları ilə cütləşdirilməsindən məhsuldar nəsil alınır. "Qırmızı kitab"a daxil edilmişdir.

**MUĞANCIQ-MEHRAB** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 1,5 *km* aralı, Sədərək–Naxçıvan avtomobil yolunun yaxınlığında, düzənlikdədir. Əh. 586 nəfər (2000); əkinçilik, tərəvəzçilik və pazıçılıqla (şəkər çuğunduru) məşğuldur. Məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var.

**MUĞANCIQ-MÜSLÜM** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Sədərək–Naxçıvan avtomobil yolunun yaxınlığında, düzənlikdədir. Əh. 704 nəfər (2000); maldarlıq, pazıçılıq (şəkər çuğunduru), tütünçülük, tərəvəzçilik və ovçuluqla məşğuldur. Məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var.

**MUĞANLI** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* aralı, düzənlikdədir. Əh. 1045 nəfər (2000); üzümçülük, tütünçülük, taxılçılıq, tərəvəzçilik, yemçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, klub, ambulatoriya, məscid var.

**MUĞANLI NEKROPOLU** – Şərur r-nunun Muğanlı k. yaxınlığında orta əsrlərə aid abidə. Hazırda abidənin yerüstü əlamətləri itmiş, yerləşdiyi sahə əkin yerinə çevrilmişdir. Yerli əhalinin məlumatına görə, burda vaxtilə qəbirüstü qoç daşlar olmuşdur; onlardan biri Şərur r-n tarix-diyarşünaslıq muzeyindədir. Qoç daşlara əsasən M.n. 15–16 əsrlərə aid edilir.

**MUĞANLILAR** – türkdilli tayfa. Qədim zamanlardan Muğanda yaşamaları məlumdur. 19 əsrin ortalarında 8 tirədən (nəsildən) ibarət olan M., əsasən, Cavad qəzasında məskunlaşmışdılar. Şərur r-nundakı Muğanlı k.-nin adı M.-la əlaqədardır.





*Muncuqlutəpə nekropolu arxeoloji abidəsinin ümumi görünüşü.*

**MUNCUQLUTƏPƏ** – Şərur r-nunda, Billava orta əsr yaşayış yerinin 3 *km*-liyində arxeoloji abidə. Tədqiqatlar nəticəsində ərazinin nekropol qalığı olduğu müəyyənləşdirilmişdir. Yerli məlumatlara görə, qəbirlərdən tez-tez muncuq tapıldığından abidə M. adlandırılmışdır. Tapıntıların təhlili abidənin 1–3-cü əsrlərə aid olduğunu göstərir.

**MUNCUQLUTƏPƏ NEKROPOLU** – Ordubad r-nunun Sabirkənd və Kələntər Dizə k.-ləri yaxınlığında arxeoloji abidə. 60x40 *m* ölçülü təpə üzərində yerləşir. Nekropolda düzbucaq formalı 33 sərdabə aşkar edilmişdir. Daşdan tikilmiş sərdabənin əsasən q. və bəzi hallarda ş. divarında səliqə ilə işlənmiş giriş yolu və ayrıca tikilmiş qurbangah yerləşir. Onların üstü daş lövhələrlə örtülmüşdür. Hər sərdabə bir neçə dəfn üçün nəzərdə tutulmuşdu. Dəfn zamanı əvvəlki skeletlərin vəziyyəti hər dəfə dəyişdirilirdi. Toxunulmamış skelet sümükləri göstərir ki, dəfn olunan sağ böyrü üstə, bükülü vəziyyətdə qoyulur, əlləri üzü bərabərində qatlanırmış. Sərdabələrdən qara-boz və sarı-çəhrayı rəngdə keramika məmulatı, silah nümunələri tunc və dəmirdən hazırlanmış bəzək əşyaları və müxtəlif muncuqlar aşkar edilmişdir. Qurbangahlardan ancaq gil qabların (15–30-a qədər) dəsti tapılmışdır. Əldə olunmuş materialların yaxın əlaqələrinə, daha doğrusu, bir çox parametrlərinə görə Urmiya hövzəsi abidələrindən tapılmış materiallarla mədəni ümumiliyini izləmək olar. Materialların tədqiqi abidəni e.ə. 8–6 əsrlərə aid etməyə imkan verir.

*Əd.:* А с л а н о в Г., К а ш к а й С., Погребения некрополя Мунджуглутепе, "Советская археология", 1991, № 3.



*Muncuqlutəpə nekropolu sərdabələrindən tapılmış maddi mədəniyyət nümunələri.*

**MUNCUQLUTİKMƏ** – Naxçıvan diyarında yayılmış bədii tikmə növlərindən biri. Xırda və rəngarəng muncuqlar say üzrə adi sapa düzüb parça üzərinə bənd edilir, müxtəlif kompozisiya və təsvirlər yaradılır. Rəngli muncuqlarla işlənən naxışların əksəriyyəti həndəsi və nəbati (gül, çiçək, yarpaq və s.) motivli olur. Belə tikmələrdə muncuqların rəng uyuşması, bədii bəzək tərtibatı əsas şərtdir. M. ilə qadın paltarlarının yaxası, qollarının ağzı, başmaq üzü, eləcə də yelpik, pul kisəsi, daraqqabı və s. bəzədilirdi. Bəzən muncuq əvəzinə mirvaridən də istifadə edilirdi. Azərb.-ın Qarabağ, Abşeron, Gəncə və digər yerlərində də M. ilə məşğul olmuşlar.

*Əd.:* Ə l i y e v a G., Naxçıvanın bədii tikmələri (XIX əsrin sonu – XX əsrin əvvəlləri), Azərb. EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, №8; y e n ə o n u n, Azərbaycanın bədii parça və tikmələri, B., 1990.

**MUNCUQTƏPƏ** – Naxçıvan ş.-nin təqr. 3 *km*-liyində, *Qaraçuq* k. yaxınlığında orta əsr yaşayış yeri. Araz su qovşağının tikintisi ilə əlaqədar 1969 ildə arxeoloji qazıntılar aparılmış, tikinti qalıqları, dəmir əşyaları, şirli və şirsiz saxsı məmulatı aşkar olunmuşdur. Tapıntılara əsasən M. yaşayış yerini 12–17 əsrlərə aid etmək olar.

**MURADAĞA NAXÇIVANLI** (?–?) – musiqiçi (17 əsr). Zəmanəsinin məşhur çahargah ifaçısı olmuşdur. Məşhur türk səyyahı və coğrafiyaşünası Övliya Çələbi (1611–79, yaxud 82/85) "Səyahətnamə" əsərində o dövrün musiqi mədəniyyəti haqqında məlumat verərkən vaxtilə Türkiyə sultanlarının Azərb.-ın görkəmli incəsənət ustalarını – ən yaxşı çalıb-oxuyanları və rəqqasları Türkiyəyə köçürdüklərini, o cümlədən sultan IV Muradın M. N.-nı saray musiqiçisi kimi İstanbula



Mustafayev Kərəm



Musayev İsmayıl

Musayev İsa



apardığını göstərmişdir. Bəstəkarlıq qabiliyyəti də olmuşdur.

*Əd.:* Q u l i y e v N., Naxçıvan musiqi mədəniyyəti tarixindən, B., 1999.

**MURADOV** Babaxan Sultan oğlu (d. 21.3. 1927, indiki Ordubad r-nunun Nəsirvaz k.) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1960). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir (1950). Əmək fəaliyyətinə 1947 ildə Nəsirvaz kənd natamam orta məktəbində müəllim kimi başlamışdır. Nax.MR maarif nazirinin müavini (1950–52), maarif naziri (1952–54), Bakı ş. indiki Xətai rayon maarif şöbəsinin müdiri (1955–71), Nərimanov r-nundakı 82 saylı orta məktəbin direktoru (1972–96) işləmişdir. Azərb. Respublikası Müəllimlər Şurasının sədridir (1991 ildən). Azərb. Respublikası Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**MUSAYEV** İsa Həsən oğlu (27.11.1912, Naxçıvan ş. – 8.2.1976, orada) – aktyor. Azərb. Respublikası xalq artisti (1960). Bakı Teatr Texnikumunda oxumuşdur (1927–29). Səhnə fəaliyyətinə 1929 ildən indiki C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında başlamışdır. Əsas rolları, Elxan, Oqtay ("Od gəlini", "Oqtay Eloğlu", C. Cabbarlı), Otello ("Otello", U. Şekspir), Karl Moor ("Qaçaqlar", F. Şiller), Nadir şah ("Nadir şah", N. Nərimanov), Vaqif ("Vaqif", S. Vurğun), Polad Qartal ["Platon Kreçet" (Azərb. səhnəsində "Polad Qartal") A. Korneyçuk], Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah", M. F. Axundov), Şah ("Ədalət", B. Vahabzadə) və s. M. 1940–43 illərdə A. Bakıxanov ad. Quba Dövlət Dram Teatrının aktyoru və rej. olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.



İ. H. M u s a y e v Şah ("Ədalət", B.Vahabzadə) rolunda.

**MUSAYEV** İsmayıl Məhərrəm oğlu (d. 9.6. 1954, Ordubad r-nunun Yuxarı Əylis k.)– tarixçi. Tarix elmləri doktoru (1997), prof. (1998). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini (1976) və aspiranturasını (1981) bitirmişdir. 1982 ildən un-tdə müəllim, baş müəllim, dosent işləmiş. 1992–93 illərdə tədris işləri üzrə prorektor olmuşdur. 1998 ildən Beynəlxalq münasibətlər kafedrasının prof.-udur. 20 əsrin əvvəlləri Azərb.-ın siyasi və diplomatiya tarixinə dair əsərlərin ["Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–21-ci illər)"; "Azərbaycan–Türkiyə münasibətləri (1917–22-ci illər)" (1998) monoqrafiyaları və s.] müəllifidir. Türkiyə, Fransa və İtaliya un-tlərində elmi axtarışlar aparmış, mühazirələr oxumuşdur. Elmi məqalələri xarici ölkələrdə (Türkiyə, İsveç) dərc olunmuş, bir sıra beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

**MUSTAFAYEV** Kərəm Nəriman oğlu (d. 1.7. 1962, indiki Şərur r-nunun Sarxanlı k.) – hərbi xadim, gen.-leytenant (2002). 1983 ildə Bakı Ali Ümumqoşun Məktəbini (BAÜM) bitirib, zabit kimi SSRİ Silahlı Qüvvələrində xidmətə başlamışdır; 1989–92 illərdə taqım, bölük komandiri, tabur komandirinin müavini və tabur komandiri olmuşdur. 1992 ilin martından Azərb. Respublikasının Silahlı Qüvvələrində tabur komandiri, motoatıcı briqadanın qərargah rəisi–komandir müavini, briqada komandiri, diviziyanın qərargah rəisi- komandir müavini, diviziya komandiri vəzifələrində xidmət etmişdir. 1998 ildən korpus komandiridir. Azərb. Respublikasının müdafiəsi və ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarının iştirakçısıdır.

**"MÜCAHİDİN"** – 1915–16 illərdə Naxçıvan və Culfa ş.-lərində fəaliyyət göstərmiş milli təşkilat; islamçılıq və türkçülük ideyalarını təbliğ edir, xalqın nicatını Türkiyə ilə birləşməkdə görürdü. Təşkilat 60 nəfərdən çox üzvü birləşdirirdi; rəhbəri Tiflis "Hümmət" təşkilatının fəallarından olan Hacı Mir Bağır Mir Heydərzadə, fəal üzvləri İsmayıl bəy Camalbəyov, Seyid Əli Abdullayev, İran təbəələri Qafar və Rauf bəy Səfərəlibəyovlar



və b. idi. Məscidlərdə, çayxanalarda, ictimai yerlərdə təşviqatla və mümkün olan bütün başqa vasitələrlə Rusiya ilə müharibə aparan Türkiyəyə kömək göstərmək təşkilatın fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. Onlar cəbhə xəttinə göndərilən rus qoşunlarının sayı və hərbi texnikası barədə əldə etdikləri məlumatları türklərə çatdırır, türk qoşunları üçün silah alır, pul toplanmasını təşkil edirdilər. "M"-in fəaliyyəti təkcə Naxçıvan diyarında deyil, Cənubi Azərb.-da (Xoy, Təbriz) da antirus əhvali-ruhiyyəsinin güclənməsində mühüm rol oynamış və Rusiya hakimiyyəti üçün ciddi təhlükəyə çevrilmişdi. Təşkilatın izinə düşmüş rus polis-xəfiyyə orqanları, nəhayət, 1916 ilin dekabrında onun 61 üzvünü həbs etmiş və onların daha təhlükəli sayılan 30 nəfərini mühafizə dəstəsinin müşayiəti ilə Naxçıvan qəza həbsxanasından İrəvan həbsxanasına köçürmüşdü.

*Əd.:* Б а г и р о в а И. С., Политические партии и организации Азербайджана в начале XX века, 1910–1917 гг., Б., 1997.

**MÜFİDZADƏ** Cəmil Mir Yusif oğlu (d. 24.2. 1934, Ordubad ş.) – rəssam. Azərb. Respublikasının əməkdar rəssamı (1982). Ə.Əzimzadə ad. Bakı Rəssamlıq Məktəbini (indiki Azərb. Rəssamlıq Akademiyası, 1955) və Xarkov Dövlət Rəssamlıq İn-tunu (1962) bitirmişdir. Əsasən, qrafik rəssam kimi tanınan M. bu sahədə bir sıra silsilə əsərlərin [Bakı (İçərişəhər), Abşeron nefti, Xınalıq, xarici səfərlərin təəssüratları əsasında yaradılmış Şimal, Monqolustan, Türkiyə silsilələri)] müəllifidir. Kitab illüstrasiyası və ekslibris sahəsində də çalışmışdır. 1957 ildən respublika, 1961 ildən isə ümumittifaq və beynəlxalq sərgilərdə iştirak etmişdir. Bakıda, Təbrizdə, Moskvada, İstanbulda, habelə Polşa və Fransada 9 fərdi sərgisi olmuşdur. 80-dən çox beynəlxalq sərgidə (Avstriya, Kanada, Kuba, Yaponiya, Fransa, AFR, İtaliya, Ərəb ölkələri və s.) iştirak etmişdir. Əsərləri Köln (Almaniya), Moskva, Ulan-Bator (Monqolustan) və s. şəhərlərin muzeylərində nümayiş etdirilir. 15 ölkənin (ABŞ, Fransa, Yaponiya, İtaliya, Türkiyə, AFR, İran, Finlandiya və s.) şəxsi kolleksiyalarında əsərləri var. "Neft" silsiləsinə görə Beynəlxalq Tələbələr İttifaqının iki mükafatından birinə layiq görülmüşdür.





Müfidzadə Cəmil

C. M ü f i d z a d ə. "İçərişəhər" silsiləsindən. Namaz Mete Duzdağ kolleksiyasından. İstanbul.

*Əd.:* П е т р о в С т р о м с к и й В. Ф., Муфидзаде. Связь времен. Альбом, М., 1988.

**"MÜHÜMMƏ DƏFTƏRİ" (1590)** – tarixi sənəd, III Sultan Muradın hökmü. 1590 il İstanbul sülhünün nəticələrinə görə, Azərb. Osmanlılar və Səfəvilər arasında bölüşdürüldükdən sonra verilmişdir. Həmin sənədə əsasən Gəncə–Qarabağ ərazisindəki qıtlığı aradan qaldırmaq üçün Naxçıvandan çıxarılan hər bir davara görə İrəvan yaxınlığında bir səmimi (pul vahidi), Göyçənin Balıqlı adlı yerində isə daha bir səmimi alınmasına yol verilmirdi. Çünki kasıb camaat çətinliyə düçar olur və bahalıq artırdı. Sənəddə göstərilirdi ki, İrəvan və Göyçə bəyləri bu pulun alınmasına görə "dəfələrlə tənbeh olunmalarına baxmayaraq", həmin "bac" yenə də yığılmaqda davam edir. Hökmün sonunda hər bir davara görə qədim qanun əsasında vergi alınması barədə Osmanlı sultanının qəti tapşırığı nəzərə çarpdırılır.

*Əd.:* Ə f ə n d i y e v O., F ə r z ə l i b ə y l i Ş., 1590-cı və 1724-cü illərə aid Naxçıvanla əlaqədar iki tarixi sənəd haqqında, Naxçıvan tarixinin səhifələri (məqalələr toplusu), B., 1996.

**MÜHYİƏDDİN NAXÇIVANİ** Ə b u A b d u l l a h M ə h ə m m ə d i b n A b d u l -

l a h i b n Ə h m ə d ə n-N a x ç ı v a n i (?-?) – fəqih (hüquqşünas; 13–14 əsrlər). Əsli Tusdandır. Yaxın adamlarına bağlı və onların bütün işlərinə yardımçı olmuşdur. M. N. haqqında məlumat verən məşhur ərəb alimi və biblioqrafı İbn əl-Fuvati 1305–06 ildə onu Arranda gördüyünü, şəfiilərlə yaxınlığını xüsusi qeyd etmişdir. Şeyxlər nəslinə mənsub idi. Naxçıvanda əsaslı mövqeyə və var-dövlətə malik olmuşdur.

*Əd.:* С е и д б е й л и М. Г., Научно-культурная жизнь Азербайджана (второй половины XII – начала XVI вв.), Б., 1999.

**MÜLKİ-ARSLAN NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. *"Naxçıvan sancağının müfəssəl dəftəri"ndən* aydın olur ki, bu dövrdə M.-A. n. 8 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 6 kəndində müsəlmanlar (Azərb. türkləri), 1 kəndində xristianlar, 1 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**MÜNHBALAOĞLU DAĞI** – Şərur r-nu ərazisində dağ. Arpaçay dərəsinin sağ yamacında, Aşağı Yaycı k.-ndən 1,2 *km* şm.-q.dədir. Hünd. 1430 *m*. Konusvarı formada olub sıldırım yamaclıdır.

**"MÜSƏLMAN ŞİƏ İNCƏSƏNƏTİ VƏ DRAM CƏMİYYƏTİ"** – sənət ocağı. 1883-cü ildə Eynəli bəy Sultanov tərəfindən Naxçıvanda yaradılmışdı. Naxçıvan teatrının bünövrəsini təşkil edən cəmiyyət M. F. Axundovun "Molla İbrahim Xəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Vəziri-xani-Lənkəran", "Hacı Qara", N. Vəzirovun "Müsibəti-Fəxrəddin", Ə. Haqverdiyevin "Dağılan tifaq", "Pəri cadu", C. Məmmədquluzadənin "Ölülər", N. Nərimanovun "Nadir şah", E. Sultanovun "Tatarka" ("Azərbaycan qızı") və başqa əsərləri tamaşaya qoymuşdur. Onların tamaşaya qoyulmasında E. Sultanov, C. Məmmədquluzadə, habelə teatr həvəskarlarından M. Xəlilov, Q. Şərifov, P. Sultanov, M. Mirzəyev (Şürbi), M.T. Sidqi və b.-nın mühüm xidməti olmuşdur. Tamaşalardan yığılan pul yoxsul şagirdlərə paylanırdı. C. Məmmədquluzadə xatirələrində yazırdı: "Miladi 1894–95-ci illər idi. Naxçıvan həvəskarları, mən də onların içərisində, teatr oynayırdıq. Bu oyunun mənfəəti kasıb uşaqlar üçün idi".

**MÜTƏLLİMOV** Təhsin Mütəllim oğlu (d. 18.1.1932, Naxçıvan ş.) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru (1977), prof. (1985). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1990). Bakı Rəssamlıq Məktəbini (indiki Azərb. Rəssamlıq Akademiyası, 1951), Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1956) və aspiranturasını (1961) bitirmişdir. Həmin vaxtdan un-tin Azərb. ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent və prof. işləmişdir. 1994 ildən bu kafedranın müdiridir. 20 əsr Azərb. ədəbiyyatına, o cümlədən ədəbi məktəblərə, çağdaş yazıçıların yaradıcılığına, poetika və sənətkarlıq məsələlərinə dair tədqiqatların, elmi və ədəbi-tənqidi məqalələrin müəllifidir.

Ə s ə r l ə r i: Ə. Əbülhəsənin yaradıcılığı, B., 1969; Sənət qayğıları, B., 1981; Əbdürrəhim bəy Haqverdiyevin poetikası, B., 1988.

**MÜTƏLLİMOV** Tofiq Mütəllim oğlu (13.4.1929, Naxçıvan ş. – 30.10.1992, Bakı) – şair. Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1989). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1963). "Pioner" jurnalının məsul katibi, "Azərbaycan gəncləri" qəzetində ədəbiyyat, incəsənət və mədəniyyət şöbəsinin müdiri, Azərb. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, böyük redaktor və baş redaktor işləmişdir. "Görüş" (1960), "Mehriban baxışlar", "Kəkliklər oxuyanda" (hər ikisi 1965), "Sevənlərçün" (1967), "Gözəllikdən doymur ürək" (1973), "Sənin xətrinə" (1976), "Görüş yerimiz" (1985), "Qövsi-qüzeh" (1990), "Durnaların qanadında" (1992) və s. lirik şer toplularının müəllifidir. 150-dən çox şerinə mahnı (o cümlədən məşhur "Cücələrim" mahnısı) bəstələnmişdir. Uşaq şairi kimi də tanınmışdır: "Vüqarın nəğmələri" (1987) və s. topluları, "Meşə nağılı", "Danışan qayalar", "Cücələrim" pyesləri.

Ə s ə r l ə r i: Mənim əzizlərim, B., 1979; Sevənlərin ürəyi, B., 1991.



# N

**NABATDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Gilançayın mənbə hissəsindədir. Hünd. 3393 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**NADİM NAXÇIVANİ** (Hüseyn Abdulla oğlu M e h d i y e v i n təxəllüsü; 1882, indiki Babək r-nunun Nehrəm k. – 1927, orada) – şair. İlk təhsilini mollaxanada almış, sonra C.Məmmədquluzadənin müəllim olduğu məktəbdə oxumuşdur. Atasını erkən itirdiyindən təhsilini davam etdirə bilməmiş, şəxsi mütaliə yolu ilə ərəb və fars dillərini, islam tarixini və Şərq klassiklərinin əsərlərini öyrənmişdir. 1918–20 illərdə Azərb.-da milli azadlıq hərəkatında iştirak etmiş, partizan dəstəsində daşnaklara qarşı vuruşmuş, Ələngəz d. ətrafında ağır yaralanmış və sonralar həmin yaradan da vəfat etmişdir.

N. N.-nin ədəbi irsinin xeyli hissəsi itsə də, qalan şerləri onun 19 əsrin sonu–20 əsrin əvvəllərində Azərb. şerinin inkişafına töhfə vermiş sənətkarlardan olduğunu göstərir. Əsərlərinin böyük bir qismi klassik üslubda yazılmış dini məzmunlu şerlərdən (mərsiyə, növhə, sinəzən, qəsidə) ibarətdir. Aşiqanə qəzəl və qoşmaları, ictimai məzmunlu didaktik və satirik şerləri də var. Bəzi qəzəllərində tərənnüm olunan mücərrəd eşqdən fərqli olaraq, əsasən, real, həyati gözəl və gözəllikləri vəsf etmişdir. Bu cəhət onu M.P.Vaqif və Q.Zakirin realist üslubuna yaxınlaşdırır. İctimai məzmunlu şerlərində xalq, vətən məhəbbəti başlıca yer tutur. "Yox bircə kəs xilas edə bu naridan bizi" misrası ilə başlayan qəzəli bu baxımdan xüsusilə diqqətəlayiqdir.

Ə s ə r i: Seçmə şerlər (tərtib edəni və "Yaddaşlarda yaşayan şair" adlı müqəddimənin müəllifi Ə. Qədimov), B., 1993.

**NADİROV** Abbasqulu Allahverdi oğlu (1904, Şərur r-nunun Cəlilkənd k. – 28.3.1981, orada) – təsərrüfat rəhbəri. Əlixanlılar tayfasına mənsub Nadir şah nəslindəndir. A. Şadlinskinin *"Qırmızı tabor"* dastasında Şərur-Dərələyəzin daşnak quldurlarından təmizlənməsində yaxından iştirak etmişdir. Əmək fəaliyyətinə 1921 ildə başlamış, Noraşen (indiki Şərur) və Şahbuz r-nlarında, Naxçıvan MSSR MİK-ndə, xalq təsərrüfatının müxtəlif sahələrində məsul vəzifələrdə işləmişdir. 1936 ildən partiya və sovet işinə irəli çəkilmiş, Azərb. KP Noraşen (1942–46) və Ordubad (1946–49) r-n komitələrinin birinci katibi işləmiş, r-nların, dağ kəndlərinin sosial-iqtisadi yüksəlişi, maarif və mədəniyyətinin inkişafı, tikinti-abadlaşdırma [suvarma arxlarının (*"Zəvvar arxı"*), su kəmərlərinin, elektrik xətlərinin çəkilməsi, yollar salınması] sahəsində dəyərli işlər görmüş, xalq arasında böyük hörmət qazanmışdır. Nax. MSSR Ali Sovetinin deputatı seçilmişdir. Qırmızı Əmək Bayrağı, II dərəcəli Vətən müharibəsi ordenləri və medallarla təltif olunmuşdur. Respublika əhəmiyyətli fərdi pensiyaçı idi.



*Nadirov Abbasqulu*

**NADİROV** Asəf Abbasqulu oğlu (d. 13.3.1930, indiki Şərur r-nunun Cəlilkənd k.) – iqtisadçı. İqtisad elmləri doktoru (1968), prof. (1970). Azərb. Milli EA akad. (1989; m. üzvü 1980). Azərb. Respublikasının əməkdar elm xadimi (1990). Azərb. Dövlət Un-tini (indiki BDU, 1951), SSRİ EA İqtisadiyyat İn-tunun aspiranturasını (1956) bitirmişdir. Azərb. Milli EA İqtisadiyyat İn-tunda şöbə müdiri (1958–64), elmi işlər üzrə direktor müavini (1964–81), Azərb. Milli EA Rəyasət Heyətinin baş elmi katibi və akademik-katibi (1981–97) işləmişdir. 1997 ildən Azərb. Milli EA Rəyasət Heyətinin müşaviri və 2001 ildən

*Nadirov Asəf*




Nağıyev Əli

üzvüdür. N. iqtisad elminin müxtəlif sahələrində tədqiqat işləri aparır. O, respublika iqtisadiyyatının kompleks inkişafını əsaslandıran, onun böyük imkanlarını düzgün qiymətləndirən, məhsuldar qüvvələrin əsas istiqamətlərini müəyyən edən Azərb. iqtisadçılarındandır. Hər bir ölkənin yüksək iqtisadi inkişafı ilə onun mükəmməl ərazi nisbətlərinin təşəkkülünün qarşılıqlı əlaqəsi ideyasını ilk dəfə N. irəli sürmüşdür. İqtisadiyyatın, o cümlədən sənayenin ərazi üzrə təşkilinin nəzəri və metodoloji problemləri, Azərb.-da məhsuldar qüvvələrin inkişafı və səmərəli yerləşdirilməsi sahəsində tədqiqatları var. Azərb. iqtisadiyyatının əsas sahələrini, habelə iqtisadi r-n-larının yüksək inkişaf potensialını elmi cəhətdən əsaslandırmış, dəyərli tövsiyələr vermişdir. Elmi fəaliyyətində Nax. MR-in iqtisadi coğrafiyasına həsr olunmuş tədqiqatları da əhəmiyyətli yer tutur. Respublikada Heydər Əliyev iqtisadi idarəetmə məktəbinin yaradıcılarından biri və elmi-metodik şurasının sədridir. 20-yə yaxın monoqrafiya, dərslik və elmi-kütləvi kitabçanın, 400-ə qədər elmi məqalənin müəllifidir. Əsərləri Moskvada, MDB ölkələrində, Almaniya, Türkiyə, Hindistan və s. ölkələrdə nəşr olunmuşdur. Almaniya, Fransa, ÇXR, Türkiyə, Hindistan, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan, İran və s. ölkələrdə keçirilmiş beynəlxalq, həmçinin ittifaq əhəmiyyətli konqres və simpoziumlarda məruzələr etmişdir. SSRİ EA-nın Regional iqtisadiyyat elmi problem şurasının (1986–92), Ümumittifaq "Bilik" Cəmiyyəti idarə heyətinin (1982–92), Sovet Sülhü Müdafiə Komitəsinin (1985–92), Azərb. Dövlət Mükafatları Komitəsinin (1983–92) üzvü olmuşdur. "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri" (iqtisadiyyat seriyası) jurnalının baş redaktoru, "Obşestvo i ekonomika" beynəlxalq elmi jurnalın redaksiya heyətinin, bir sıra elmi şuraların üzvüdür. Yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm xidməti var. Orden və medallarla, habelə nüfuzlu beynəlxalq elm mərkəzlərinin diplom və fəxri fərmanları ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Naxçıvan MSSR, B., 1959; Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri, B., 1976; Naxçıvan iqtisadiyyatı XX əsrdə, B., 2000; Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri, B., 2001; Вопросы экономического развития городов Азербайджана, Б., 1966; Азербайджан, М., 1970; Экономика Советского Азербайджана на современном этапе, Б., 1980.

**"NAĞDA"**, m ə l i l ə – bədii tikmə növü. 20 əsrin əvvələrinədək Naxçıvan və Ordubad ş.-lərində geniş yayılmışdı. İstər motivləri, istərsə də kompozisiya quruluşu cəhətdən sadə olub, qadın geyimləri, balış üzü, habelə müxtəlif xırda məişət əşyası üzərində bəzədilirdi. Narıncı şal parça üzərində (85x50 *sm*) ornamental kompozisiyaya malik balış üzü dörd tərəfdən stilizə olunmuş güllərlə haşiyələnir. Ara sahədə – mərkəzdə mürəkkəb bitki motivlərindən ibarət dairə, bucaqlarda isə uzunsov formada gül təsvirli balışüzünü gözəlləşdirir. Tikmə məmulatının üzərini boşluqdan qurtarmaq və motivi zənginləşdirmək məqsədilə balışüzünün küncələrindəki iri yarpaqşəkilli ləçəklərin içərisi güllərlə doldurulur. Dekorativ məmulat üçün stilizə olunmuş nəbati ornamentlərin bacarıqla tətbiqi səciyyəvidir. "N". tikmə üsuluna bəzən piləK, muncuq da tətbiq olunurdu. Sənətkarlıqla işlənmiş bu tikmə növünün ən yaxşı nümunələri Azərb. Tarixi Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

*Əd.:* Ə l i y e v a G., Naxçıvan bədii tikmələri, Azərb. SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, № 8.

**NAĞIYEV** Əli Teymur oğlu (d. 15.3.1954, Naxçıvan ş.) – riyaziyyatçı. Texnika elmləri doktoru (1995), prof. (1995). Azərb. Dövlət Un-tinin (indiki BDU) tətbiqi riyaziyyat fakültəsini (1976) və Leninqrad (indiki Sankt-Peterburq) Aqrofizika İn-tunun aspiranturasını (1982) bitirmişdir. Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində (indiki Azərb. Milli Aerokosmik Agentliyi) baş elmi işçi (1985–88), BDU-da baş müəllim, dosent, prof., kafedra müdiri vəzifələrində çalışmışdır (1988–95). 1996 ildən Azərb. Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. Ekoloji-riyazi sistemlərin, iqtisadi-riyazi sistemlərin modelləşdirilməsi problemlərinə dair tədqiqatlar aparmışdır. 5 monoqrafiyanın, ali məktəblər üçün 4 dərs vəsaitinin və 50-yə yaxın elmi məqalənin müəllifidir. Yeni Azərb. Partiyasının (YAP) sədr müavinidir (1992 ildən). Azərb. Respublikası Milli Məclisinin (1-ci çağırış) deputatı olmuş, Azərb. parlamenti nümayəndə heyətinin tərkibində Avropa Şurası Parlament Assambleyasının işində iştirak etmişdir (1996).



Ə s ə r l ə r i: Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, B., 1998; Элементы экономической теории, Б., 1992; Введение в современную экономику, Б., 1999.


Nağıyev Qəzənfər

**NAĞIYEV** Qəzənfər Piri oğlu (13.8.1915, indiki Babək r-nunun Sust k. – 11.4.1991, Naxçıvan ş.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1948). 1932–63 illərdə Sust k.-ndə kolxozçu, ferma müdiri, sədr, kərpic z-dunda direktor müavini, avtobaza müdiri olmuş, 1963 ildən kooperativ malları ticarətində tədarükçü işləmişdir. 1948 ildə yüksək əmək göstəricilərinə nail olmuşdur.


Nağıyev Möhsün

**NAĞIYEV** Möhsün Zeynalabdin oğlu (d. 1.7.1946, indiki Şərur r-nunun Xok k.) – şərqşünas. Filologiya elmləri doktoru (1994). Azərb. Dövlət Un-ti (indiki BDU) şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsini bitirmişdir (1971). 1972 ildən Azərb. Milli EA M. Füzuli ad. Əlyazmalar İn-tunda çalışır. Həmin in-tda böyük elmi işçi (1980–88), mənbəşünaslıq və elm tarixi şöbəsinin müdiri (1988–92) olmuşdur. 1993 ildən in-tun farsdilli əlyazmalar şöbəsinin müdiridir. 15–16 əsrlər Azərb. tərcümə abidələrinə, farsdilli əlyazmalarda, orta əsr türkdilli yazılı abidələrdə dil, tərcümə və mətnşünaslıq məsələlərinə dair tədqiqat, dərslik və dərs vəsaitlərinin müəllifidir. Farscadan tərcümələri var. M.Füzulinin "Hədiqətüs-süəda" və 18 əsr nəsr abidəsi – Möhsün Nəsirinin "Lisanüt-teyr" əsərlərinin (şərikli), farsdilli əlyazma kataloqlarının (cild 1–2, 1994–2000) və b. əsərlərin tərtibçisidir. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r i: Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti, B., 2000.


Nağıyev Nağı

**NAĞIYEV** Nağı Kərim oğlu (13.7.1910, indiki Culfa r-nunun Yaycı k. – 13.5.1981, Bakı) – yazıçı, nasir, dramaturq. Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş (1930), Ordubad və Naxçıvan (indiki Babək) r-nlarının kənd məktəblərində müəllimlik etmiş (1930–41), Azərb. Qiyabi Pedaqoji İn-nun dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1935–38). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. KP Naxçıvan Vilayət Komitəsində mətbuat bölməsinin müdiri (1942–45), Azərb. Yazıçılar İttifaqı Naxçıvan filialının məsul katibi (1945–51), Naxçıvan mətbuat idarəsinin rəisi (1946–49), Naxçıvan Dövlət Radio Verilişləri Komitəsinin müdiri (1949–51), "Azərnəşr"in bədii ədəbiyyat şöbəsinin müdiri (1952–54) olmuşdur. "Yer altında" (1954) povestinin, "Həsrət" (1965) romanının müəllifidir. "Nişanə" (1956), "İki talə" (1961), "Yaralı qız" (1966) hekayə kitabları nəşr edilmişdir. Oçerkləri, səhnə əsərləri ("Səadət", "Polad", "Dostlar") var. İ. K. Oqulçanskinin "Həzi Aslanov" povestini, özbək yazıçısı M. Aybəkin "Müqəddəs qan", fransız yazıçısı A. Stilin "İlk zərbə" romanlarını və b.-nın bəzi əsərlərini, "Min bir gecə" nağıllarını (c.4) tərcümə etmişdir. N. həm də teatr rəssamı olmuşdur.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1967; Seçilmiş əsərləri, B., 1974.

**NAĞIYEVA** Telan Talıb qızı (d. 1924, indiki Ordubad r-nunun Aşağı Əndəmiç k.) – aktrisa, Nax. MR-in əməkdar artisti (1980). Bakı mədəni-maarif texnikumunu bitirmişdir (1955). Ordubad şəhər klubunun müdiridir (1967 ildən). Ordubad Dövlət Dram Teatrı və Ordubad Xalq Teatrının səhnəsində Leyli, Əsli, Sənəm, Telli ("Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan", Ü. Hacıbəyov), Pəri ("Solğun çiçəklər", C. Cabbarlı), Naznaz ("Beş manatlıq gəlin", M. S. Ordubadi) və s. rollarda oynamışdır. Keçmiş SSRİ Mədəniyyət Nazirliyinin diplomunu almışdır (1967).

**NAXÇIVAN** – Azərb. Respublikasında şəhər, Nax. MR-in paytaxtı. İri sənaye, elm və mədəniyyət mərkəzi. Mühüm d.-y. və hava nəqliyyatı qovşağıdır. Naxçıvan düzündə, Naxçıvançayın sahilindədir. Naxçıvandan Bakı ş.-nə olan məsafə 536 *km*-dir. Ərazisi 0,013 min *km*$^2$. Əhalisi 67 min nəfərdən çoxdur (2001, 1 yanvar; 34 min – 1970; 42,2 min – 1980; 63,4 min – 1995); kişilər 48,8%, qadınlar 51,2%-dir; azərb.-lılardır. Əhalinin hər 1000 nəfərinə doğulanların sayı 1980 ildəki 26,6 nəfərdən 1998 ildə 12,4 nəfərə, ölənlərin sayı 4,9 nəfərdən 4,5 nəfərə, təbii artım 21,7 nəfərdən 7,9 nəfərə düşmüşdür. İqlimi kontinentaldır. Orta temp-r yanvarda – 3,8°C, iyulda 26,9°C-dir. İllik yağıntı 236 *mm*.

N. Azərb.-ın ən qədim şəhərlərindəndir. Müasir N. qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. İlk

arxeoloji tədqiqat işi Araz arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Strateji cəhətdən əlverişli ərazidə salınan qədim şəhərin qalıqlarının və onun nekropolunun N.-nın şm. hissəsində yerləşdiyi ehtimal olunur. Nekropoldakı dağıdılmış qəbir abidələrindən 100-dən artıq müxtəlif gil qab nümunələri, tunc bilərziklər, üzüklər, sırğalar və muncuqlar əldə edilmişdir.

Ən qədim yer adlarından olan "Naxçıvan" toponiminin müxtəlif etimoloji yozumları mövcuddur. Qədim rəvayət və miflərə əsaslanan bir sıra antik və orta əsr tarixçi və coğrafiyaşünasları N.-ın e. ə. 1539 ildə salındığını göstərmişlər. Şəhər haqqında ən erkən məlumat tarixçi İosif Flaviyə (e. ə. 1 əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın 2 əsri) məxsusdur. K. Ptolemeyin "Coğrafiya" əsərində N.-ın adı ilk dəfə *Naksuana* şəklində qeyd olunmuş və coğrafi mövqeyi göstərilmişdir. Orta əsrlər ərəb-fars mənbələrində (Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, Qudama ibn Cəfər, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut Həməvi, F.Rəşidəddin, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi, Mirxond, Həsən Rumlu, İskəndər Münşi və b.) şəhərin adı Nəşavə, Nəqçuan (N ə x ç u a n, N ə x ç u v a n, N ə x ç ə v a n) şəkillərində işlənmişdir. Bir sıra qaynaqlarda (Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və b.) Naxçıvan toponimi kimi təqdim edilən "Nəqşi-cahan" təşbeh olub, dünyanın bəzəyi mənasını bildirir. Naxçıvan toponimi əfsanəvi Nuh peyğəmbərlə bağlı "dünya tufanı" ilə də əlaqələndirilir. Bu el mülahizəsinə görə, "Naxçıvan" sözü üç hissədən – "Nax" (Nuh), türk dillərində isim düzəldən "çı" şəkilçisindən və yer, məkan bildirən "van" toponimik formantından ibarət olub, "Nuhçuvan" – "Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "Nuhun diyarı" deməkdir. V. A. Nikonov isə Naxçıvan sözünün "Naxuç" şəxs, yaxud tayfa adından və yer, qəsəbə bildirən "avan" sözlərindən əmələ gəlməsini ehtimal edir. Lakin bu yozumların elmi əsası yoxdur. C. Cəfərov şəhərin adının türk mənşəli olub, eramızdan əvvəl yarandığını və ilkin variantında dörd hissədən (ak+üç+eb+on) ibarət "Akçiban" (qədim türklərin, ağ asların – oğuzların adı) olması fərziyyəsini irəli sürmüşdür. Prof. A. Axundov isə "Naxçıvan" toponimini elamlarla əlaqələndirərək, onun elamların Nahhunte adlı allahının adı ilə bağlı "Nahhuntevan" olub, sonradan yerli türk əhali tərəfindən "Naxçıvan" şəklinə düşə bilməsini ehtimal edir. Bəzi tədqiqatçıların (f.e.d. K. Allahyarov) fikrincə, "Naxçıvan" toponimi Turan mənşəli Parfiya imperiyası dövründə yaranmışdır; "Nəxçir" (ov heyvanı, dağ keçisi) sözündən və məkan, yer bildirən "van" şəkilçisindən ibarət olub, ovlaq deməkdir. Bu fərziyyəyə görə, dağ keçilərinin indi də çox olduğu Naxçıvan ərazisi vaxtilə Cənubi Qafqazdakı Parfiya hakimləri sülaləsinin ov yeri olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında oğuz bəylərinin əsas əyləncəsinin "ov ovlamaq" olduğu da buraya əlavə edilsə, həmin yozumun həqiqətə uyğunluğu ehtimalı daha da artar.

E. ə. 9–6 əsrlərdə N. qədim Manna və Midiyanın tərkibində olmuşdur. Midiya dövləti dövründə N. tanınmış şəhərlərdən biri idi. E. ə. 633 ildə N. skiflərin hücumuna məruz qalaraq xeyli zərər çəkmişdi. E. ə. 6 əsrin ortalarından (e. ə. 550 ildə Midiya dövləti tənəzzülə uğradıqdan sonra) 4 əsrin 30-cu illərindən Əhəmənilər (H a x a m a n i ş i l ə r) dövlətinin hakimiyyətində idi. Əhəmənilər imperiyası süquta uğradıqdan sonra N. və onun daxil olduğu Basoropeda 4 əsrin sonlarından e. ə. 1 əsrin 1-ci yarısınadək Atropatenanın (Kiçik Midiyanın) tərkibində olmuşdur. Bu dövrdə N. Yaxın Şərqin bir sıra şəhərləriylə iqtisadi və mədəni əlaqələri xeyli genişləndirmiş, antik dövlətlər ilə sıx ticarət əlaqələri yaratmışdı. Eramızın əvvəllərində



Naxçıvan şəhərinin planı. 1827.



N. Albaniyada (Qafqaz) şəhər və vilayət olmuşdur. Qafqaz Albaniyasının Araksena (Arazın orta və aşağı axarı boyunda yerləşirdi) vil. N. ərazisini də əhatə edirdi. N. 4 əsrdən Sasani dövlətinin tərkibində olmuşdur. Sasani hökmdarı II Şapur [309–379] yürüşü zamanı (364–367 illər) N.-ı dağıtmış, şəhərdən 18 min ailə əsir aparmışdı. Albaniyanın bəzi vaxtlarda Sasanilərin nüfuz dairəsində olması N.-ın da Sasani canişinləri – mərzbanlar tərəfindən idarə edilməsinə səbəb oldu. Sasani mərzbanlarının iqamətgahı Dəbildən (Dvin) N.-a köçürüldü. N. Sasani hökmdarlarının hərbi strateji mövqelərindən birinə çevrildi; burada Sasani qoşun dəstələri saxlanılırdı. N. Şərqi Roma imperiyası ilə İran arasında müharibə meydanı oldu. 591 il İran–Bizans müqaviləsinə görə N. *Sünik* və *Vaspurakan* vilayətləri tərkibində bilavasitə İrana tabe edildi. İlk orta əsrlərdə N. inkişaf edir və getdikcə böyüyürdü. N.-dakı *Yezdabad* qalasının Sasani şahı III Yezdəgird [632–651] tərəfindən tikdirildiyi güman edilir. Şəhərdə 30 minə yaxın yaşayış evi və 150 min əhali var idi. N. Ekbatandan (Həmədan) Artaşata (indiki Ermənistan) gedən yollar üzərində mühüm ticarət və sənətkardıq mərkəzi hesab olunurdu. N. İranın, Gürcüstanın (xüsusilə Msxeti) bir sıra şəhərləri ilə, Qara dəniz limanları, Kiçik Asiya və Beynəlnəhreyndəki şəhərlərlə sıx ticarət əlaqəsi saxlayırdı. 6 əsrin 1-ci yarısından N.-da Sasanilərə məxsus zərbxana olmuşdur. Bu, Azərb.-da ən qədim zərbxanalardan biri sayılır. Tarixçi-numizmat Y. A. Paxomovun fikrincə, Sasani hökmdarları adından kəsilmiş "naxç" işarəli gümüş dirhəmlər N. zərbxanasına məxsusdur.

625 ildə Bizans imperatoru İrakli [619–641] N.-ı dağıtdı. 654 ildə N.-ı ərəblər tutdu. Ərəb əmiri Həbib ibn Məsləmə ilə N. əhalisi arasında bağlanmış sülh müqaviləsinə görə N. əhalisi Xilafətə hər il cizyə və xərac verməyi öhdəsinə aldı. 656 ildə N. qala divarları ətrafında ərəb və Bizans qoşunları arasında güclü döyüş baş verdi. Bizansa qarşı əsas dayaq nöqtələrindən biri olan N. Ərəb xilafətinin Azərb.-da hərbi və inzibati mərkəzi və ərəb əmirlərinin əsas iqamətgahı idi. 9 əsrdə Xilafət əleyhinə yüksələn xürrəmi-babəkilər hərəkatı N. şəhərini də bürümüşdü. N. inzibati baxımdan üçüncü əmirliyin tərkibinə daxil idi. 10 əsrdə N. Basfurracan vilayəti ilə birlikdə Xilafət xəzinəsinə 100 min dirhəm xərac verirdi. 9 əsrin sonlarında N. Sacilər dövlətinin tərkibinə daxil edildi və 10 əsrin 30-cu illərinədək onun hakimiyyətində qaldı. Sacilər dövləti süquta uğradıqdan sonra N. bir müddət hələ də onların əmirlərindən Deysəm ibn İbrahimin [932–937] ixtiyarında idi. Sonra isə N. Salarilər dövlətinin tərkibinə daxil oldu. 10 əsrin sonundan başlayaraq N. təqr. 1 əsr ərzində Azərb.-ın tarixində mühüm rol oynamış Rəvvadilər dövlətinin tərkibində



**Orta əsr keramika məmulatı:**
1. Təsərrüfat küpü.
2–4, 8. Qlazurlu və sadə badyalar.
5. Çıraq.
6. Xeyrə tipli qab.
7. Sferokonus tipli qab.
9. Kuzə.
10. Dopu.
11. Kürədə qab altına qoyulan üçayaq.
12, 13. Xeyrələr.
14. Küpə.



Açıq səma altında muzey. Naxçıvan şəhəri.

idi. Səlcuq sultanı Alp Arslan [1063–72] Azərb.-ın c. vilayətlərində Rəvvadilər dövlətinin hakimiyyətinə son qoyduqdan sonra N.-a yiyələnmiş və burada özünə iqamətgah tikdirmişdi. Səlcuqların Azərb. üzrə canişini N.-da əyləşirdi. N. 12 əsrin 30-cu illərindən 70-ci illərin ortalarınadək *Azərbaycan atabəyləri dövlətinin* paytaxtı olmuşdur. "Əcaib əd-dünya" əsərində göstərilir ki, "Naxçıvan Eldənizin dövründə yüksək tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı yaratdılar və dövlətxana təsis etdilər". Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılırdı; əsas xəzinə isə N. yaxınlığındakı Əlincəqalada mühafizə olunurdu. Şəmsəddin Eldənizin hakimiyyəti dövründən başlayaraq dövlətin bütün gəlirləri burada toplanırdı. Dövrün mötəbər alimləri atabəylərin N.-dakı sarayında toplaşmışdılar. Onlar riyaziyyat, təbiətşünaslıq, kimya, fəlsəfə, memarlıq, məntiq, hüquq, astronomiya, ərəb və fars ədəbiyyatları sahəsində böyük uğurlar qazanmışdılar. Bu dövrdə N. müxtəlif məzhəblərdən olan fiqh və hədis alimləri ilə məşhur olmuşdur.

Feodal tipli şəhərə çevrilmiş N. qala divarları içərisində yerləşən Şəhristandan, geniş bazar və karvansaraları olan rəbatdan ibarət idi. Yaxşı möhkəmləndirilmiş Şəhristan hissəsində gözəl memarlıq xüsusiyyətlərinə malik çoxlu bina tikilmişdi. Sənətkarlıq və ticarətlə məşğul olan əhalinin əksəriyyəti isə rəbatda yaşayırdı. 12 əsrdə N.-da 150–200 min əhali var idi. N.-da mahir ustalar – dulusçular, memarlar, bənnalar, toxucular, dabbaqlar, həkkaklar, xalçaçılar, zərgərlər, dəmirçilər və b.-rı məskən salmışdı. Burada yaraşıqlı xalı və zili, ipək parça toxunur, şirli və şirsiz qablar, ağac, şüşə məmulatı istehsal olunurdu. Yerli sənətkarlar üç-dörd mərtəbəli yaşayış evləri, məqbərələr, saraylar, məscidlər, körpülər, karvansaralar, dəyirmanlar tikmişdilər. *Naxçıvan memarlıq məktəbi* xüsusilə inkişaf etmişdi. Şəhər bağlarla əhatə olunmuşdu. N.-da üzüm, taxıl, pambıq becərilirdi. Başqa şəhərlərə zərif parçalar, zinət əşyaları, naxışlı ağac məmulatları, saxsı məişət qabları, duz, mis, pambıq, taxıl, quru meyvə, balıq və s. ixrac edilirdi. N. Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit-ticarət yolu üzərində yerləşirdi. 13–14 əsrlərdə N. Azərb.-da və ümumiyyətlə, Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslərin mərkəzlərindən birinə çevrildi. Hülakuların, Çobanilərin, Cəlairilərin nüfuz dairələrində olan N. onların siyasi həyatında yaxından iştirak edirdi. Şəhər həmin dövlətlərin təyin etdikləri nümayəndələr tərəfindən idarə olunurdu. N. 1221 ildə monqollar tərəfindən dağıdıldı. Şəhərin əhalisi qarət və talan edildi. 1225 ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnı N.-ı işğal etdi. N.-da onun əleyhinə üsyan baş verdi. 13 əsrin 30-cu illərində N. Qızıl Ordanın tərkibinə daxil edildi. 1257 ildən isə Hülakular dövlətinin tərkibində idi. 1253 ildə N.-da olmuş flamand səyyahı Vilhelm de Rubruk N.-ı təsvir edərək yazırdı ki, monqollar şəhəri dağıdaraq boş səhraya çevirdilər. 13 əsrdə N.-ın 5/6 hissəsi tamamilə dağıdılmışdı. 13 əsrin sonlarında N. Elxani hökmdarı Qazan xanın hakmiyyətindəki şəhərlər sırasına daxil oldu. Qazan xanın həyata keçirdiyi iqtisadi və siyasi islahatlar, Azərb.-ın başqa şəhərləri kimi, N.-ın da yenidən bərpa olunub dirçəlməsinə imkan yaratdı. Dövrün mənbələrindən məlum olur ki, Azərb. inzibati-ərazi baxımından 9 tümənə bölünmüşdü. Onlardan biri də Naxçıvan bölgəsi idi. N. tüməni müasir N. ərazisini əhatə etmişdir (bax *Naxçıvan tüməni*). Azərb.-ın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə şəhərləri buraya daxil idi. N. tüməninin təbii-coğrafi şəraiti, əhalisinin sıxlığı, islamın şəfai təriqətinə etiqad etməsi, bədii oyma sənətində, ağac emalında mahirliyi, qorxmazlığı, qonaqpərvərliyi, xoş xasiyyətləri ilə seçilməsi, dilinin xoşagələn olması və bir çox dillərdə danışa bilməsi, N.-da möhtəşəm tikililərin mövcudluğu, torpağının münbitliyi, havasının saf, suyunun tamlı olması və s. barədə ilkin mənbələrin məlumatları maraqlı və əhəmiyyətlidir. Bu dövrdə N. zərbxanasında yenidən sikkələr kəsilməyə başlandı. Burada Hülaku elxanları Əbu Səid [1316–1335], Arpaxan [1335–1336], Məhəmməd xan [1336–1338], Satıbəy xatun [1339–1340], Süleyman xan [1340–1344] və Ənuşirəvanın [1344–1355] adından müxtəlif nominallı sikkələr kəsilmişdi. Qazan xanın vəziri və sahib divan olan Rəşidəddinin Azərb.da olan 940 fəddak torpaq mülkündən 100 fəddakı (təqr. 1000 *ha*) N.-da idi. N. əhalisindən müxtəlif vergilər alınırdı: sənətkar və tacirlərdən – tamğa, daxili ticarət üçün – bac, meyvə bağları üçün – bağe-şümare, ev üçün – xaneyi-şümare, monqol şahzadələrinin xərci üçün ixracat və rüsum, qoşun xərci üçün – təğar və s. 14 əsrin 40-cı illərində Hülakuların N. nahiyəsindən yığdıqları vergilərin ümumi məbləği ildə 113000 dinar idi. 14 əsrin axırı – 15 əsrin əvvəllərində hərbi əməliyyatlar nəticəsində ticarət-sənətkarlıq mərkəzlərində və sənətkarlıq xammalının cəmləşdiyi bölgələrdəki böyük dağıntılar, tranzit yollarında təhlükənin artması Azərb.-ın bir çox ticarət-sənəkarlıq mərkəzlərində, o cümlədən N.-da iqtisadiyyatın tənəzzülünə səbəb olmuşdu.



N. 14 əsrin 50-ci illərindən çobani, cuci, cəlairi və müzəffərilərin hakimiyyəti altında olmuşdur. 1386 ildə N. Qızıl Orda hökmdarı Toxtamış tərəfindən tutulmuş və dağıntıya məruz qalmışdı; 1387 ildə N.-ı Teymurləngin qoşunları ələ keçirdilər. Əlincəqalada Teymur qoşunlarına 14 il (1387–1401) inadlı müqavimət göstərilmişdi.

N.-da hürufilik təriqəti geniş intişar tapmışdı. Həmin təriqətin banisi Fəzlullah Nəimi 1395 ildə Miranşah tərəfindən N.-da edam olunmuşdu.

N. 1412 ildən Azərb.-ın türk mənşəli Qaraqoyunlu, 1468 ildən isə Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. 16 əsrdə N. Azərb. Səfəvi dövlətinin tərkibində idi. 1501 ildə Şərur düzündə səfəvi-qızılbaş və ağqoyunlu qoşunları arasında toqquşma baş verdi (bax *Şərur döyüşü*). Səfəvi qoşunları qalib gələrək N.-ı tutdular. 16–17 əsrlərdə Osmanlı–Səfəvi müharibələri (1514, 1553, 1554, 1579, 1585, 1590, 1605, 1635 ) zamanı N. dəfələrlə əldən-ələ keçərək dağıdılmış, qarət edilmişdi. 1603 ildə I Şah Abbas N.-ı hakimiyyəti altına alıb hərbi düşərgəyə çevirdi. Onun idarəsi Maqsud Sultan Kəngərliyə həvalə olunmuşdu. 1605 ildə Osmanlı qoşunları N.-ı zəbt etdilər; ərazi Osmanlı imperiyasına qatıldı. 17 əsrə aid bir salnaməyə görə, Naxçıvanda bir bina da olsun salamat qalmamışdı. Fransız səyyahı Can Batist Tavarnye, alman səyyahı Adam Oleari N.-ın xarabazarlığa çevrildiyini xəbər verirlər. N. 16 əsrdə Azərb., 17 əsrin 2-ci yarısından Çuxursəd bəylərbəyiliklərinə daxil idi. 16–17 əsrlərdə N. hakimləri kəngərli tayfa başçılarından təyin olunurdu. N.-da Nadir bəy, Rzaəddin xan [1647], Əliqulu xan [1668–1669], Şərəf xan [1669–1678], Məhəmmədrza xan [1678–1691] hakimlik etmişlər. 18 əsrin əvvəllərində şəhər Nadir şahın qoşunları tərfindən tutulmuşdu. Nadir şah öldürüldükdən (1747) sonra kəngərli tayfa başçısı Heydərqulu xan şahın naibi Ağa Həsəni N.-dan qovaraq özünü xan elan etdi. N. şəhəri xanlığın paytaxtı oldu. 1826–28 illər Rusiya–İran müharibəsi dövründə Kəlbəli xanın övladları Ehsan xan və Şeyxəli bəy Rusiya tərəfinə keçmiş və N. yaxınlığındakı Abbasabad qalası düşmənə təslim olunmuşdu [bax *Rusiya–İran müharibələri (1804–13; 1826–28)*]. 1828 il Türkmənçay müqaviləsinə görə N. Rusiya imperiyasına birləşdirildi.

Çar hökuməti İrandan və Türkiyədən minlərlə erməni ailəsini Naxçıvan xanlığı ərazisinə köçürmüş və N.-ın demoqrafik durumu kəskin surətdə dəyişmişdi. Bu, özgə torpaqlarında süni surətdə xristian "erməni dövləti" yaratmaq istəyənlərin məkrli niyyətlərinin başlanğıcı idi. 1841 ildə N. qəza mərkəzinə çevrildi (bax *Naxçıvan qəzası*). Çarizmin həyata keçirdiyi şəhər islahatı (1870) Azərb.-da (Bakı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və Ordubad) da tətbiq olundu. Əsasən, şəhərin abadlaşdırılması, ticarət, sənaye, səhiyyə və s. məsələlərlə məşğul olan şəhər özünüidarəçiliyi orqanları yaradıldı. N.-ın Ümumrusiya bazarına cəlb edilməsi şəhərin iqtisadi və mədəni inkişafında mühüm rol oynadı. N. duz mədənlərində muzdlu əməyin tətbiqi duz istehsalının xeyli artmasına səbəb oldu. 1882 il-



*Yaşayış evi. 19 əsr. Naxçıvan şəhəri.*

də N.-da ilk pambıqtəmizləmə z-du tikildi. İpək sənayesi inkişaf etdi; şəhərin ipəkçilik müəssisələrində dəzgahların sayı artdı. 19 əsrin sonunda dünyəvi təhsil ocaqlarının yaradılmasında mühüm addımlar atıldı. 1894 ildə ilk rus-tatar, 1896 ildə isə dünyəvi qız məktəbləri açıldı. 80-ci illərin əvvəllərində N.-da "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" və "Ziyalı məclisi" kimi mədəni maarif ocaqları təşkil olundu, 1886 ildə isə M. F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" pyesinin tamaşası ilə N. teatrının əsası qoyuldu.

20 əsrin əvvəllərində N.-da çar mütləqiyyətinin müstəmləkəçilik siyasətinə qarşı mübarizə gücləndi. M. B. Mirheydərzadə, K. Camalbəyov, Ə. Yüzbaşov, Əli Tağızadə və b.-nın fəaliyyəti nəticəsində N.-da və Culfada yaradılmış "Hümmət" təşkilatı əhalini çar mütləqiyyətinə qarşı mübarizəyə hazırlayırdı.

1917 ilin sonlarından ermənilərin N.-a qarşı ərazi iddialarının xüsusilə güclənməsi 1918 ilin əvvəllərində real təhlükəyə çevrildi, nizami daşnak silahlı dəstələri türklərlə mübarizə adı altında N.-nın bir çox kəndlərini dağıdaraq, dinc əhaliyə divan tutdu (bax *Soyqırımı*).

1918 il mayın 26–28-də Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmək siyasəti yeritməyə başladı. O, İngiltərə və ABŞ-ın hakim dairələri tərəfindən müdafiə olunurdu. Yalnız türk əsgərlərinin bölgəyə göndərilməsi və yerli əhalinin fəal müqaviməti N.-ın ermənilərin hakimiyyəti altına düşməsinin qarşısını aldı. *Mudros barışığına (1918)* əsasən, Türkiyə öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu. 1918 ilin noyabrında bölgədə *Araz–Türk Respublikası* yaradıldı. Lakin 1919 ilin əvvəlində N.-ı tutan ingilislər gənc respublikanı tanımadılar, xalqın rəyini soruşmadan N. və Şərur bölgəsinin Ermənistan ərazisi olduğunu elan etdilər. Araz–Türk Respublikası süquta uğradı. 1919 ilin iyulunda daşnaklar ingilislərin köməyi ilə N.-ı tutdular. Çox keçmədən ingilislərin N.-ı tərk etməsindən istifadə edən Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu N.-dan qovdu.

1920 il aprelin 28-də Bakıda, iyulun 28-də isə N.-da sovet hakimiyyəti elan edilməsi və Azərb. SSR-in yaradılması, *Zəngəzurun* Ermənistana verilməsi ilə N.-ın Azərb.-dan ayrı düşməsi N.-ın muxtariyyəti məsələsini gündəliyə gətirdi (bax *Naxçıvanın muxtariyyəti məsələsi*). 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921 ilin yanvarında N. əhalisinin 90 faizi muxtariyyət statusunda Azərb. SSR-ə birləşməyə səs verdi. N. yeni yaradılan Nax. SSR-in, N.-ın muxtariyyət statusunu qəti müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan [bax *Moskva müqaviləsi (1921)*, *Qars müqaviləsi (1921)*], sonra 1924 il fevralın 9-da Nax. MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu (bax həmçinin *Naxçıvan Muxtar Respublikası* (tarixi oçerk), *Naxçıvan MSSR Konstitusiyaları*, *Naxçıvan Muxtar Respublikası Konstitusiyası* məqalələrinə).

Totalitar rejim şəraitinə baxmayaraq, N. şəhəri sovet hakimiyyəti illərində sosial-iqtisadi və mədəni inkişaf sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Sənayesi, əsasən, bu dövrdə yaranmışdır; sənaye şəhəri kimi inkişafında muxtar respublikanın zəngin yeraltı və yerüstü faydalı qazıntı yataqlarının, mineral bulaqlarının da əhəmiyyətli rolu olmuşdur. N. sənaye kompleksinin əsas istiqaməti energetika, elektrotexnika (elektrotexnika z-du), tikinti materialları (tikinti materialları kombinatı, dəmir-beton məmulatı, kərpic z-dları, qum-çınqıl karxanası, iripanelli evtikmə z-du, üzlük plitələr kombinatı və s.), mebel sənayesi müəssisələri, həmçinin şüşə və metal qablar z-dları, yerli istehsal və tədris istehsal kombinatları, duz mədənləri və s.-dir. Burada paytaxt şəhərlərinə məxsus yüngül (alt və üst trikotaj f-kləri, tikiş f-ki, xalça kombinatı və s.) və yeyinti (ət-süd, taxıl məhsulları kombinatları, çörək, pivə, şərab, balıq z-dları və s.) sənaye müəssisələri, digər istehsal sahələri var.

80-ci illərin sonundan muxtar respublikanın blokada şəraitində yaşamasına, respublikaya qaz verilməməsinə, d.-y.-nun tamamilə dayanmasına, xammal və materialların daşınmasının çətinləşməsinə baxmayaraq, quruculuq və bərpa işləri nəticəsində bir çox müəssisələr öz fəaliyyələrini bərpa etmişlər. Sənaye və tikinti sahələrinin, aqrar-sənaye



kompleksinin və onun istehsal infrastrukturunun yüksək inkişafı müşahidə edilir. N. ş.-nin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqın rifah halının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi üçün müvafiq qanunlar qəbul edilmişdir. N.-a xarici sərmayə axını davam edir, güclü iqtisadiyyatın yaradılması, irimiqyaslı quruculuq tədbirlərinin gerçəkləşməsi sahəsində konkret işlər görülür.

Orta əsrlərdə Şərqin mühüm şəhərlərində olduğu kimi, N.-da da məktəb və mədrəsələr mövcud idi. 19 əsrin 1-ci yarısında N.-da mədrəsələrlə yanaşı, ibtidai rus məktəbləri də açıldı. 1837 il martın 15-də N.-da ilk qəza məktəbi fəaliyyətə başladı. Burada şəriət, rus dili, coğrafiya, tarix, rəsm, hesab və s.tədris olunurdu. 1894 ildə M.T.Sidqi N.-da "Tərbiyə" ("Məktəbi-tərbiyə") məktəbini təsis etdi. Məktəbdə dövrün qabaqcıl ziyalıları dərs deyirdi.

N. muxtar respublikanın paytaxtı kimi Azərb.-ın mühüm maarif, elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Ümumtəhsil məktəbləri, uşaq bağçaları, məktəbdənkənar uşaq tərbiyə müəssisələri, musiqi məktəbləri tikilib istifadəyə verilmişdir. Şahmat məktəbi, "Dinamo" cəmiyyətinin idman kompleksi və stadionu fəaliyyət göstərir, Olimpiya Mərkəzi tikilir. Şəhərdə 14 daimi məktəbəqədər müəssisə (1610 uşaq), 15 ümumtəhsil məktəbi (11450 şagird), 3 ali məktəb – Naxçıvan Dövlət Un-ti, özəl in-t, Azərb. Müəllimlər İn-tunun Naxçıvan Filialı (4129 tələbə), 4 orta ixtisas məktəbi (1083 tələbə), C. Naxçıvanski adına Hərbi Litseyin filialı, İncəsənət kolleci var (2001). Azərb. Milli EA-nın elmi mərkəzi, Respublika Dövlət Elm və Texnika Komitəsinin Naxçıvan elm və texnika mərkəzi, klub və kitabxanalar (o cümlədən Nax. MR mərkəzi kitabxanası), 3 teatr (C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Kukla Teatrı, H. Cavid poeziya teatrı), filarmoniya, Heydər Əliyev muzeyi, Nax. MR tarix, ədəbiyyat və xalça muzeyləri, C. Məmmədquluzadə, H.Cavid, B. Kəngərli və C. Naxçıvanskinin ev-muzeyləri, Rəsm qalereyası, Rəssamlar Birliyinin sərgi salonu fəaliyyət göstərir. Nax. MR Ali Məclisinin və Nazirlər Kabinetinin orqanı "Şərq qapısı" (1921 ildən), Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı "Nuh yurdu" (1996 ildən) qəzetləri nəşr edilir, Naxçıvan Şəhər Poliqrafiya Müəssisəsi (1997 ildən *"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi*) var. N-da radio verilişləri 1926 ildən, yerli radio verilişləri isə 1930 ildən başlamışdır, 1963 ildən televiziya mərkəzi işə salınmışdır.

N.-da respublika xəstəxanası, şəhər mərkəzi xəstəxanası, doğum mərkəzi, yoluxucu xəstəliklər mərkəzi, göz, uşaq, fizioterapiya xəstəxanaları (Duzdağ, Badamlı), kardiologiya, vərəm, psixo-nevrologiya, onkologiya, dəri-zöhrəvi, endokrinologiya, müalicə bədən tərbiyəsi dispanserləri, poliklinikalar, qanköçürmə, diaqnostika və reabilitasiya, təcili





Saadət sarayı. Doğum mərkəzi. 2001. Naxçıvan şəhəri.



*8 saylı orta məktəb. 2001. Naxçıvan şəhəri.*

yardım st. və mərkəzləri və s. səhiyyə müəssisələri var. Xəstəxana çarpayılarının sayı 1730-dan çoxdur. Şəhərdə bütün ixtisaslardan olan 440-dan çox həkim, 1200-ə yaxın orta tibb işçisi çalışır (2000).

N. antik və orta əsrlərdə istehkamlı müdafiə sisteminə və qiymətli memarlıq abidələrinə malik şəhər olmuşdur. Azərb. atabəyləri dövlətinin paytaxtı olduqdan sonra N. Azərb.-ın siyasi, iqtisadi mədəniyyət və sənətkarlıq mərkəzinə çevrildi, möhtəşəm memarlıq abidələri və əzəmətli ansambllarla zənginləşən ərazisi Araz çayına qədər genişləndi. Araz üzərindən salınmış körpü N.-ı beynəlxalq ticarət yolları – Uzaq və Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolu ilə bağlayırdı. Memar Əcəmi Naxçıvaninin başçılığı ilə Möminə xatun türbəsinin yerləşdiyi ərazidə Atabəylər memarlıq ansamblı yaradılmışdı. Ansambla Atabəylər sarayı, Cümə məscidi, mədrəsə, dövlətxana, Möminə xatun türbəsi, qoşa minarəli baştağ və s. daxil idi. Şəhərdə 3-4 mərtəbəli yaşayış evləri, əsilzadə sarayları, çoxlu məscid, dini ziyarətgahlar, zəngin tərtibatlı hamamlar, ictimai binalar olmuşdur. N.-ın xatirə abidələrindən İmamzadə türbəsi kompleksi və onun yaxınlığındakı digər türbə, Yusif ibn Küseyir türbəsi (1162), buzxana (14 əsr) dövrümüzədək qalmışdır. Osmanlı–Səfəvi müharibələri dövründə dəfələrlə dağıdılmasına baxmayaraq, N. 17 əsrədək memarlıq baxımından qiymətli tikililərə malik idi. Türk tarixçi-səyyahı Övliya Çələbinin məlumatına görə 17 əsrdə N.-da 10200 "örtülü böyük ev", 40 məscid, 20 karvansara, 7 hamam və bazarlar olmuşdur.

*Azadlıq küçəsi. Naxçıvan şəhəri.*



Son illər milli-memarlıq abidələri – Möminə xatun türbəsi (12 əsr), İmamzadə kompleksi (17 əsr), Zaviyə məscidi (17–18 əsrlər), Cümə məscidi, İsmayıl xan hamamı (hər ikisi 18–19 əsrlər), Xan evi (19 əsr), onlarla tarixi binalar bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Məscid və dini ziyarətgahların tikintisinə və bərpasına da diqqət və qayğı göstərilmişdir. N. ş. baş plana əsasən genişlənmiş, boş sahələrdə yeni yaşayış massivləri salınmış, yenidənqurma və abadlıq işləri aparılmışdır. Dram teatrı, Muxtar Respublika Ali Məclisi və Nazirlər kabinetinin binaları, Respublika Mədəniyyət Sarayı, Z. Əliyeva ad. şəhər poliklinikası, Naxçıvan Dövlət Un-tinin yeni tədris korpusu, "Təbriz" mehmanxanası, çoxmərtəbəli yaşayış evləri, "Yeni Naxçıvan" yaşayış massivi, "Əcəmi seyrəngahı" memarlıq kompleksi, "Şəhidlər xiyabanı", Dədə Qorqud, Babək, Əcəmi Naxçıvani, Koroğlu, Qarabağ meydanları, uşaq və gənclər istirahət parkı, bulaq-abidə kompleksləri, bağ və xiyabanlar N.-ın müasir şəhərsalma simasını kökündən dəyişdirmişdir.

N.-da Heydər Əliyevin büstü, C. Məmmədquluzadənin, Babəkin, Koroğlunun, Əcəmi Naxçıvaninin abidələri ucaldılmış, H. Cavidin möhtəşəm məqbərəsi tikilmişdir.



***Naxçıvan şəhəri.*** *1. Yeni yaşayış massivi. 1984. 2. Şəhər İcra Hakimiyyətinin binası. 1980. 3. Respublika Mərkəzi Kitabxanası. 4. Cümə məscidi. 18 əsr. 5. Şəhidlərə abidə.*








***Naxçıvan şəhəri.*** *1. Şəhərdən görünüş. 2. "Təbriz" mehmanxanası. 1984. 3. "Qızlar bulağı". 4. "İsmayılxan" (Şərq) hamamı. 18 əsr. 5. Çörək zavodu. 1985. 6. Asfalt zavodu.*



N. gündən-günə gözəlləşir, simasını sürətlə dəyişir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev demişdir: "Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir... Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir. Naxçıvanda quruculuq prosesləri gedir".

**"NAXÇIVAN"** – ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Təsisçisi Nax. MR Ali Məclisidir. Jurnalda Nax. MR-in ictimai-siyasi, sosial, ədəbi-mədəni, elmi həyatını əks etdirən materillar dərc edilir. Prezident Heydər Əliyevə həsr edilmiş ilk nömrəsi 1998 ildə çapdan çıxmışdır. Jurnalda muxtar respublikanın tanınmış söz ustalarının və gənc qələm sahiblərinin ictimai-siyasi, ədəbiyyat, sənət, elm və mədəniyyət tariximizdə müstəsna xidmətləri olan Heydər Əliyevə ithaf etdikləri poetik nümunələr, onun ədəbiyyat və incəsənətimiz haqqında müdrik, hikmətli kəlamları, habelə dünyanın görkəmli siyasətçilərinin Heydər Əliyev haqqında fikirləri toplanmışdır. Yüksək poliqrafik səviyyədə çap olunan jurnalda zəngin rəngli illüstrasiyalar verilir. 5 nömrəsi çıxmışdır (2001).

**NAXÇIVAN ALT TRİKOTAJ FABRİKİ** – yüngül sənaye müəssisəsi. 1976 ildə inşasına başlanılmış, 1982 ildə işə salınmışdır. Layihə üzrə ümumi işçi sayı 1500 nəfərdir. Fabrikin illik istehsal gücü 9,0 mln. ədəddir. Əsasən kişi, qadın və uşaq alt trikotaj məhsulları istehsal olunur. Fabrik 1988 ilə qədər tam gücü ilə işləmişdir; burada 500 nəfərə yaxın işçi çalışır. Son illər alt trikotaj məhsulları ilə yanaşı, üst paltarların da istehsalına başlanmışdır. 2000 ildə məhsul istehsalı əvvəlki ildəkindən 2,4 dəfə artmışdır.

**NAXÇIVAN ALÜMİNİUM QABLAR ZAVODU** – yüngül sənaye müəssisəsi. 1965 ildə istifadəyə verilmişdir. Fəaliyyətə məişət qabları istehsalı ilə başlamışdır. İl ərzində 300 *t* alüminium məhsulu istehsal etmək gücünə malikdir. 1968–75 illərdə z-dda 1500 *t* məhsul istehsal olunmuşdur. 1996 ildən Alüminium Qablar Səhmdar Cəmiyyətinə çevrilmişdir.

**NAXÇIVAN ARAZ-TÜRK CÜMHURİYYƏTİ** – bax *Araz-Türk Respublikası.*

**NAXÇIVAN AVTOMOBİL MƏKTƏBİ KOMPLEKSİ** – 1953 ildə "Avtomotoklub" adı ilə fəaliyyətə başlamışdır. OADKYC yarandıqdan sonra "Avtomotoklub"un adı dəyişdirilərək, Naxçıvan Avtomobil Məktəbi olmuşdur. 1977 ildə Cəmiyyətin (OADKYC) vəsaiti hesabına avtomobil məktəbinin yeni kompleksi tikilib istifadəyə verilmişdir. Kompleksə 2 mərtəbəli tədris binası, 60 yerlik avtoqaraj, laboratoriya dərsləri keçirilməsi üçün tədris korpusu, idman meydançası daxildir. Tədris binasında avtomobilin quruluşu, yol hərəkəti qaydaları, təcrübi dərslər keçirilməsi üçün kabinələr və iclas zalı var. Əsasən, xalq təsərrüfatı və milli ordu üçün motosikl, minik avtomobili, yük avtomobili, avtobus, qoşqu-nəqliyyat vasitələri sürücüsü ixtisasları üzrə kadrlar hazırlayır. Məktəb göstəricilərinə görə SSRİ dövründə Cənubi Qafqaz üzrə 3 dəfə, Azərb. Respublikası üzrə isə 5 dəfə birinci yer tutmuş nümunəvi məktəb adına layiq görülmüşdür (1986).






Naxçıvan buzxanası. 12–14 əsrlər.



Naxçıvan Cümə məscidi. 19 əsr. Foto.

**NAXÇIVAN BUZXANASI** – Azərb. Respublikasında ən böyük buzxanalardan biri. Naxçıvan ş.-ndə, İmamzadə kompleksinin yaxınlığındadır. Planda düzbucaqlı formada olan buzxananın uz. 20 *m*, eni 9 *m*, indiki halda hünd. 9,6 *m*-dir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması N. b.-nın səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 *m*-dən bir qurulan çatmavarı tağlararası boşluq çatma tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin dağılmasına baxmayaraq, kərpic hörüklərindən görünür ki, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və çox güman ki, balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Azərb. ərazisində buna oxşar buzxana Ordubad ş.-ndə vardır (bax *Ordubad buzxanası*). N. b.-nın yüksək memarlıq həlli bu abidənin *Naxçıvan memarlıq məktəbinin* inkişafı dövründə (12–14 əsrlər) tikildiyini göstərir.

*Əd.*: Salamzadə Ə. V., Məmmədzadə K. M., Arazboyu abidələr, B., 1979.

**NAXÇIVAN CÜMƏ MƏSCİDİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Atabəylər memarlıq kompleksinin monumental tikililərindən idi. 19 əsrə kimi uçulmuş halda mühafizə olunmuşdu. 13 əsrin 20-ci illərində anonim müəllif tərəfindən yazılmış "Əcaib əd-dünya" əsərində adı çəkilir. 19 əsrdə çəkilmiş rəsmlər və foto təsvirlər abidənin plan-məkan quruluşu haqqında aydın təsəvvür yaradır. Məscidin günbəzlə örtülən kubvarı gövdəsinin güney üzündən başqa, qalan üzlərinin hər birində iki sivri aşırım vardı. Fotolara əsasən N. c. m.-nin məqsurəsinin üç yandan yerləşmələrlə dövrələndiyi də bəlli olur. 19 əsr müəllifi V. A. Engelqardtın yazdığına görə, bu "türk məscidi yonulmuş daşdan qurulmuş tağları olan tikilidir və onun içərisində yüksək işləməli müxtəlif yapma naxışların izləri görünür. Binanın bir bölümü artıq uçmuşdur, qalanı isə hər an uçulmaq təhlükəsindədir. Ondan 50 sajen aralıda, vaxtilə bu məscidə aid olan və yanlarında hər biri 10 sajen ucalıqda qoşa minarəli qapı var".

*Əd.*: Qiyası C., Nizami dövrü memarlıq abidələri, B., 1991.

**NAXÇIVAN ÇINQIL-QUM QARIŞIĞI YATAĞI-I** – Naxçıvan ş.-nin c. hissəsindədir. Geoloji quruluşunda Müasir dövrün çaqıl, çınqıl, qayma və qum qarışığından ibarət allüvial çöküntüləri iştirak edir. Çaqıl-çınqıl qarışığı yuvarlaqlaşmış əhəngdaşı, qumdaşı, andezit-dasit və diorit süxurlarından ibarətdir. Yatağın sah. 1,33 $km^2$, faydalı qatın qalınlığı 9,7–9,8 *m*-dir. Texnoloji tədqiqatların nəticələrinə görə, çaqıl-çınqıl qarışığı "200–250" markalı beton, asfalt-beton istehsalına və hidrotexniki qurğuların tikintisinə yararlıdır. Yatağın $V+S_1$ kateqoriyaları üzrə ehtiyatı 27957 min $m^3$-dir.



**NAXÇIVAN ÇINQIL-QUM QARIŞIĞI YATAĞI-II** – Naxçıvan ş.-ndən 10 *km* şm.-ş.-dədir. Geoloji quruluşunda Müasir dövrün çaqıl, çınqıl və qum qarışığından ibarət allüvial-prolüvial çöküntüləri iştirak edir. Sah. 2 $km^2$, faydalı qatın qalınlığı 4,5–6,2 *m*-dir. Texnoloji tədqiqatlara görə, çınqıl-qum qarışığı "250" markalı adi və hidrotexniki beton istehsalına yararlıdır. Yatağın $V+S_1$ kateqoriyaları üzrə ehtiyatı 11047 min $m^3$-dir. Yataq 1979 ildən istismar olunur.



Naxçıvan çınqıl-qum karxanası. 1978.

**NAXÇIVAN ÇÖRƏK ZAVODLARI** – yeyinti sənayesi müəssisələri. Naxçıvan d.y. vağzalı yaxınlığında, Ə. Qəmküsar küçəsində yerləşən 1 saylı çörək z-du mexanikləşdirilmiş çörək z-du kimi 1958 ildə istifadəyə verilmişdir. Z-d gün ərzində 35 *t* çörək və çörək məmulatı istehsal etmək gücünə malikdir. 2 saylı çörək z-du 1991 ildən işləyir. Vaqif küçəsindədir. Bu z-dun gündəlik istehsal gücü 45 *t*-dur. Hər iki zavodda təndir çörəyi, lavaş, yuxa, səngək çörəyi, çıppa və s. milli çörək növləri də bişirilir. Muxtar respublikanın digər şəhər və rayonlarında da çörək z-dları fəaliyyət göstərir.

**NAXÇIVAN DAĞLIQ ƏRAZİSİ RAYONU** – Nax. MR ərazisinin fiziki-coğrafi r-nlarından biri. Bax *Günnüt–Qapıcıq fiziki-coğrafi rayonu*.

**NAXÇIVAN DAŞDUZ YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 12 *km* şm.-q.-də, Duzdağın c. yamacındadır. Geoloji quruluşunda Üst Miosen və Dördüncü dövr yaşlı çöküntülər iştirak edir. Üst Miosen çöküntüləri tərkibində əhəngdaşı, mergel, alevrolit və vulkan külü layçıqları olan gil, qumdaşı və müxtəlif dənəvər qumlardan ibarətdir. Yataqda 5 daşduz layı aşkar edilmişdir və yalnız üst hissədəki iki lay sənaye əhəmiyyətlidir. I lay yer səthindən 105–178 *m* aşağıda yerləşir və duzun qalınlığı 4,4–10,3 *m* (orta qalınlıq 6,0 *m*) təşkil edir. II lay I laydan 6–9 *m* qalınlığında gil layı ilə ayrılır və duzun qalınlığı 6,3–10,8 *m* təşkil edir. Duzun rəngi gilli-qumlu törəmələrin miqdarından asılı olaraq ağ və açıq-bozdur. Yataq 1926 ildən istismar olunur. NaCl-un miqdarı 92–98,5%-dir. Yatağın sənaye ehtiyatı 124506 min *t*-dur.

**NAXÇIVAN DİYAR İCRAİYYƏ KOMİTƏSİ (NDİK)**, Naxçıvan Ölkə İcraiyyə Komitəsi – *Naxçıvan Muxtar Diyarında* səlahiyyətli hakimiyyət orqanı. 1923 il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər Qurultayının (ÜNSQ) qərarı ilə yaradılmışdı; Naxçıvan MİK, XKS və bütün xalq komissarlıqları buraxılmış və diyarı idarə etmək üçün 17 üzv və 7 namizəddən ibarət NDİK seçilmişdi. 1923 il iyunun 16-da Azərb. MİK-in üçüncü sessiyası ÜNSQ-nın həmin qərarını bəyənərək, Naxçıvan Muxtar Diyarı haqqında Əsasnamə qəbul etmişdi. Əsasnaməyə uyğun olaraq bütün hakimiyyət NDİK-ə məxsus idi. Ali qanunvericilik orqanı ildə bir dəfə çağırılan diyar sovetlər qurultayı sayılırdı. Ləğv edilmiş xalq komissarlıqlarının əvəzinə NDİK-in şöbələri yaradıldı.Azərb. SSR MİK-in 9 fevral 1924 il tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı Naxçıvan MSSR-ə çevrildikdən sonra fəaliyyəti dayandırılmışdır.

**NAXÇIVAN DİYAR İNQİLAB KOMİTƏSİ** – 1921 il yanvarın 21-dən 1922 il yanvarın 25-dək Naxçıvan MR-də fəaliyyət göstərmiş ali hakimiyyət orqanı. Bax *Naxçıvan İnqilab Komitəsi*.

**NAXÇIVAN DÖVLƏT FİLARMONİYASI** – 1983 ildə yaradılmış, Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının bazası



əsasında fəaliyyətə başlamışdır. Burada xalq çalğı alətləri ansamblı, rəqs kollektivi, instrumental ansambl, simfonik heyət fəaliyyət göstərir. Filarmoniyanın yaradıcı kollektivləri, solistləri Rusiya, Özbəkistan, Türkiyə, İran, İsveçrə, Finlandiya, Almaniya və s. ölkələrdə qastrol səfərlərində olmuş, konsert proqramları ilə çıxış etmişlər.

**NAXÇIVAN DÖVLƏT KUKLA TEATRI** – Azərb. hökumətinin 14 sentyabr 1989 il tarixli qərarı ilə yaradılmışdır. Teatrda Ə. Abbasovun "Keçinin qisası" (A. Şaiqin "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılının motivləri əsasında), T. Ağayevin "Cırtdanın kələyi" (1990), Ç. Ələsgərovun "İbrət dərsi" (Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasının motivləri əsasında), C. Məmmədquluzadənin alleqorik "Çay dəstgahı" (1991), Ə. Qasımovun "İnanmayaq tülkülərə" (A. Şaiqin "Tülkü həccə gedir" əsərinin motivləri əsasında, 1992), K. Ağayevanın "Göyçək Fatma" (1993), "Tıq-tıq xanım" (1994) və "Məlik Məmməd" (1995; xalq nağıllarının motivləri əsasında), C. Kərimovun "Nəğməkar bülbül" (1997, xalq nağılının motivləri əsasında), A. Ağaqızının eyniadlı xalq nağılının motivləri əsasında səhnələşdirdiyi "Tənbəl Əhməd" (1999), V. Rzayevin "Cəsur dovşan" (2000) əsərləri tamaşaya qoyulmuşdur. Teatr uşaq və yeniyetmələrin milli mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyəsində, dünyagörüşlərinin formalaşmasında mühüm rol oynayır. Bakıda (1991), Türkiyə Respublikasının Ərzurum vilayətində (1994), İzmir ş.-ndə (1995) və Van vilayətində (1997), İran İslam Respublikasının Urmiya ş.-ndə (1994) qastrol səfərlərində olmuşdur.

**NAXÇIVAN DÖVLƏT MÜƏLLİMLƏR İNSTİTUTU (NDMİ)**, C. Məmmədquluzadə ad. – ali-orta təhsil müəssisəsi. 1922 ilin sonlarında Naxçıvanda müəllimlər seminariyası açılmışdı. 1923–24 dərs ilində seminariya pedaqoji texnikuma çevrildi. 1927–30 illərdə texnikumu müvafiq olaraq 18, 24, 55 və 52 (cəmi 149) nəfər gənc bitirmişdir. Nax. MSSR Xalq Komissarları Sovetinin 1939 il 14 avqust tarixli qərarı ilə texnikum əsasında 5–7 siniflər üçün müəllimlər hazırlayan C.Məmmədquluzadə ad. ikiillik NDMİ yaradıldı. Onun açılması muxtar respublikanın pedaqoji kadr potensialının yaranmasında mühüm rol oynadı. İlk fəaliyyəti Böyük Vətən müharibəsi (1941–45) dövrünə təsadüf etsə də, çətinliklərə baxmayaraq, in-t işini dayandırmadı. Həmin illərdə in-tun 4 fakültəsini (dil-ədəbiyyat, fizika-riyaziyyat, tarix, təbiət-coğrafiya) 166 nəfər bitirmişdi. Onlar təkcə Nax. MSSR-in deyil, respublikanın digər r-nlarında, habelə Erm. SSR-in tarixən azərb.-lar yaşayan Sisyan, Vedi, Qəmərli və digər r-nlarında da çalışırdılar. İn-tda 6 kafedra (dil-ədəbiyyat, pedaqogika, fizika-riyaziyyat, təbiət-coğrafiya və s.), 5 kabinet, 5 dərnək, həmçinin qiyabi bölmə fəaliyyət göstərirdi. 1943–47 və sonrakı tədris illərində yüzlərlə adam qiyabi təhsilə cəlb olunmuşdu. Müxtəlif illərdə NDMİ-nin əyani və qiyabi şöbələrini 1159 məzun bitirmişdir. Onların bir çoxu sonralar Azərb. elm, maarif və mədəniyyətinin görkəmli simaları kimi tanınmışlar. İn-t 1954 ildən fəaliyyətini dayandırmışdır.

*Əd.:* M ə m m ə d o v V., Cəlil Məmmədquluzadə ad. Naxçıvan Dövlət Müəllimlər İnstitutu, B., 2001.

**NAXÇIVAN DÖVLƏT PEDAQOJİ İNSTİTUTU,** Y. M ə m m ə d ə l i y e v  a d. – ali təhsil müəssisəsi. 1967–72 illərdə Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filialı olmuş, 1972 ildən müstəqil in-ta çevrilmişdi. Üç (tarix-ədəbiyyat, fizika-riyaziyyat və təbiət-coğrafiya) fakültəsi və 14 kafedrası var idi. 1990 ildə NDPİ əsasında *Naxçıvan Dövlət Universiteti* yaradılmışdır.

**NAXÇIVAN DÖVLƏT RƏSM QALEREYASI** – 1982 ildə Naxçıvan ş.-ndə açılmışdır. Muzeydə Azərb.-ın görkəmli təsviri sənət ustalarının əsərləri mühafizə olunur, təbliğ və nümayiş etdirilir. Muzeyin ekspozisiyasında B. Kəngərlinin, xalq rəssamları M. Abdullayev, T. Salahov, O. Sadıqzadə, M. Rəhmanzadə, T. Nərimanbəyov, E. Şahtaxtinskaya, yerli rəssamlardan Ş. Qazıyev, H. Əliyev, Ş.Mustafayev, S. Qədimov, M. İsmayılov, M.Qasımov, Y. Məmmədov, M. Şirzadov, M. Seyidov və b.-nın boyakarlıq, qrafika, tematik tablo, portret və s. janrlarda yaratdıqları əsərlər əsas yer tutur. Qalereya Azərb.-ın müxtəlif ş.-lərində və İran İslam Respublikasında sərgilər təşkil etmişdir.

**NAXÇIVAN DÖVLƏT TARİX MUZEYİ** – elmi-tədqiqat və mədəniyyət müəssisəsi. 1924 ildə tarix-etnoqrafiya muzeyi kimi təşkil edilmişdir. İlk vaxtlar muzeyin maddi bazası əsasən qədim və orta əsrlərə aid məişət əşyalarından, toxuculuq məmulatlarından, silahlardan, saxsı qablardan (bardaq, kuzə) və digər əşyalardan ibarət idi. 1932 ildə Naxçıvan Tarix və Ölkəşünaslıq Muzeyinə çevrilmiş və yenidən qurulmuşdur. 1968 ilin dekabrından indiki adını daşıyır. Muzeyin təşkilində Naxçıvan şəhər sakinləri Balabəy Əlibəyov, Mirbağır Mirheydərov və b.-nın böyük əməyi olmuşdur. 9 şöbəsi, fondunda və ekspozisiyasında 40 minə yaxın eksponat saxlanılır (2001). Muzeydə Nax. MR ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış maddi mədəniyyət, tətbiqi sənət nümunələri, qədim numizmatika materialları, həmçinin milli geyimlər, bədii tikmə nümunələri və xalça məmulatları, qiymətli metallardan hazırlanmış zinət, məişət əşyaları, rəssamlıq əsərləri və s. nümayiş etdirilir. Muzeydə elmi-tədqiqat işləri aparılır, xüsusi sərgilər, görüşlər, xatirə gecələri və s. tədbirlər keçirilir.

**NAXÇIVAN DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ KOMİTƏSİ** – Nax. MR-in ən böyük kütləvi informasiya orqanlarından biri. Naxçıvanda yerli radio 1930 ildən fəaliyyət göstərir. 1963 ildə onun bazası əsasında Nax. MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi yaradıldı. Komitə müstəqillik və demokratik inkişaf yolu seçmiş Azərb. Respublikasının və onun ayrılmaz hissəsi olan Nax. MR-in ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatını əks etdirən rəngarəng televiziya və radio verilişləri hazırlayaraq, tamaşaçı və dinləyicilərə təqdim edir. Gündə 3 saat televiziya və 2 saat 30 dəqiqə radio verilişləri aparılır. Komitə müasir televiziya və radio avadanlığı ilə təchiz edilmişdir.







Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NDU-nun yeni tədris korpusunun açılış mərasimində. 1999.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ (NDU)** – ali təhsil məktəbi, Nax. MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərb. Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990 il tarixli qərarı ilə Y. Məmmədəliyev ad. Naxçıvan Dövlət Pedaqoji İn-tu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix-filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, mühəndis-pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi, fəaliyyət göstərir (2000). Un-tin əyani və qiyabi şöbələrində 3600-dən çox tələbə təhsil alır (2001). Onların 340 nəfəri Türkiyə vətəndaşıdır. 31 kafedrası, tibb fakültəsi-xəstəxanası, internet mərkəzi, problem laboratoriyası və "İnformatika mərkəzi", konservatoriyası (bax *Naxçıvan konservatoriyası*), tələbə teatr və opera studiyaları, şən və hazırcavablar klubu, muzeyi var. Un-t beynəlxalq INTERNET sisteminə qoşulmuşdur. 1997 ildən un-





tin nəzdində ictimai əsaslarla "Heydər Əliyev Universiteti" fəaliyyət göstərir. Un-tdə 300-dən çox müəllim çalışır. Onların 6-sı elmlər doktoru, professor, 140-ı isə elmlər namizədi, dosentdir (2000). NDU-nun respublikanın nüfuzlu ali məktəbləri sırasına çıxarılması istiqamətində həyata keçirilən dövlət tədbirləri burada təhsillə yanaşı, elmin də inkişafına təkan vermişdir. Aspiranturası, filologiya və tarix ixtisasları üzrə namizədlik dissertasiyası müdafiə şurası var. "Elmi əsərlər"i, "Fikir" informasiya jurnalı nəşr olunur. Un-tin "Qeyrət" nəşriyyatında monoqrafiyalar, dərsliklər, proqramlar çap edilir. Un-tin Avropa standartları əsasında yenidən qurulmuş elmi kitabxanası, idman bazası, botanika bağı var. Un-tdə Atatürk Araşdırma Mərkəzi, Soyqırım və Deportasiya Elmi Tədqiqat Mərkəzi, İctimai Təşkilatlar Mərkəzi, Tələbə İnformasiya Bölməsi mövcuddur.

NDU bir çox ölkələrin (ABŞ, Almaniya, İngiltərə, Fransa, Türkiyə, İran və s.) ali məktəbləri ilə sıx əlaqə saxlayır. Un-tin "Ali məktəbdə idarəetmənin və beynəlxalq əlaqələrin təşkili" adlı layihəsi Avropa Şurasının Tempus proqramı (müəllifi un-tin rektoru, Azərb. Milli EA m. üzvü İ.Həbibbəylidir) çərçivəsində müsabiqə yolu ilə qəbul olunmuş, Braunşveyq (Almaniya), "Paris-8" (Fransa) və Preston Mərkəzi Lankaşir (İngiltərə) un-tləri ilə əlaqəli şəkildə həyata keçirilmişdir (1999–2001). ABŞ-ın "Açıq cəmiyyət" in-tu – Soros fondunun Azərb. təmsilçiliyi ilə də qarşılıqlı əlaqə mövcuddur. Müxtəlif illərdə Əli Əliyev, Səfərəli Babayev, İsrafil Məmmədov, İsaq Məmmədov, İsgəndər Cəfərov, Q. Hüseynov un-tin rektoru olmuşlar. 1996 ildən un-tin rektoru İ. Həbibbəylidir.

*Əd.:* Həbibbəyli İ. Ə., Əsrin dörddə biri, B., 1997; yenə onun Naxçıvan Dövlət Universiteti (Azərb., ingilis, fransız, alman və rus dillərində), Naxçıvan, 1999.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN "ELMİ ƏSƏRLƏRİ"** – elmi jurnal. İlk nömrəsi 1997 ildə işıq üzü görmüşdür. İndiyədək 9 nömrəsi çap olunmuşdur (2001). Jurnalda, əsasən, un-t alimlərinin Naxçıvan diyarının tarixi, muxtar respublikanın ictimai-siyasi həyatı, iqtisadiyyatı, elm, mədəniyyət, ədəbiyyat və incəsənəti, tarix boyu yetirdiyi görkəmli şəxsiyyətlər haqqında elmi tədqiqatların nəticələrinə, habelə texniki elmlərə dair məqalələri dərc edilir. Baş redaktoru, filologiya elmləri doktoru, Azərb. Milli EA m. üzvü İsa *Həbibbəylidir*.

**NAXÇIVAN DRAM TEATRI**, C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı – ölkəmizin ilk peşəkar teatrlarından biri. 19 əsrin 80-ci illərinin əvvəllərində E. Sultanovun təşəbbüsü ilə Naxçıvanda yaradılmış "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" və "Ziyalı məclisi"nin üzvləri tərəfindən 1986 il avqustun 12-də mütərəqqi ziyalılardan Hacı Nəcəf Zeynalovun "Zaviyə" məhəlləsindəki evində M. F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah..." komediyası oynanıldı. Bu tamaşa ilə Naxçıvan teatrının təməli qoyuldu. Bunun ardınca M. F. Axundovun "Molla İbrahimxəlil kimyagər", "Lənkəran xanının vəziri", "Hacı Qara", "Xırs quldurbasan" komediyaları, sonralar isə N. Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Müsibəti- Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər"), Ə. Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", N. Nərimanovun "Nadir şah", C. Məmmədquluzadənin "Ölülər" pyesləri və s. əsərlər səhnə təcəssümü tapdı. Naxçıvan teatrının təşəkkülündə E.Sultanovla, yanaşı, C. Məmmədquluzadə, M. T. Sidqi, C. P. Sultanov, Q. Şərifov, Ə.Sultanov, M. S. Qulubəyov, Ə. Xəlilov, S.Xəlilov, M. Ə. Süleymanov, N. Ə. Şeyxov, M. Qazıyev, M. C. Şürbi, sonralar isə B.Naxçıvani, Ə. Qəmküsar, R. Təhmasib, R.İsfəndiyarlı və b.-nın mühüm xidməti olmuşdur. Azərb. teatrının müqtədir ustadları H. Ərəblinski, M. Əliyev, S. Ruhulla və b.-nın tez-tez Naxçıvana gələrək, yerli aktyor və rej.-larla birlikdə tamaşalar göstərməsi, dəyərli məsləhətləri teatrın peşəkarlıq səviyyəsinin artmasına və püxtələşməsinə güclü təsir göstərmişdir.

20 əsrin 20-ci illərində Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoydu, aktyorlar vahid truppada birləşdi. 1922 ildə dövlət dram teatrı yaradıldı. Teatr həm romantik, həm də realist istiqamətdə inkişaf edirdi. 20–30-cu illərdə teatrda H. C.-in "Şeyx Sənan", C. Cabbarlının "Aydın", "Sevil", "Od gəlini", "Almaz", "Yaşar", M. İbrahimovun "Həyat",



S. Vurğunun "Vaqif", S. Rəhmanın "Toy" pyesləri və b. əsərlər tamaşaya qoyuldu.

Böyük Vətən müharibəsi (1941–45) illərində teatrda qəhrəmanlıq və vətənpərlik ruhunda yazılmış əsərlər ("Babək, O Sarıvəlli, "Fərhad və Şirin", S. Vurğun, "Aslan yatağı", M. H. Təhmasib, "Vəfa," R. Rza, "İntiqam", Z. Xəlil və s.) əsərlər oynanılmışdır.

Sonrakı dövrlərdə Azərb. dramaturgiyasının ən yaxşı nümunələri, o cümlədən C.Məmmədquluzadə, H. Cavid, C. Cabbarlı, S. Vurğun, S. Rəhman, M. İbrahimov, M. Hüseyn, Ə. Abbasov, İ. Əfəndiyev, İ. Qasımov, İ. Səfərli, Ə. Əylisli, Anar, Elçin, N. Həsənzadə və R. İbrahimbəyovun, yerli müəlliflərin (H. İbrahimov, M. Tarıverdiyev, Hüseyn Razi, Həsən Elsevər, Ə. Yusifli, Kəmalə, H. Arzulu, Ramiq Muxtar və b.) əsərləri tamaşaya qoyulmuşdur.

Teatrın repertuarında dünya klassiklərinin (Sofokl, U. Şekspir, F. Şiller, K. Qoldoni, Lope de Veqa, N. V. Qoqol, A. N. Ostrovski, A. P. Çexov, M. Qorki, Nazim Hikmət, R.Taqor və b.) də əsərləri əhəmiyyətli yer tutmuşdur.

Müxtəlif illərdə teatrın səhnəsində dram əsərləri ilə yanaşı, musiqili əsərlər (Ü. Hacıbəyovun "Leyli və Məcnun", "Ər və arvad", Z. Hacıbəyovun "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evliykən subay", S. Rüstəmovun "Beş manatlıq gəlin", "Durna", F. Əmirovun "Gözün aydın"; S. Ələsgərovun "Ulduz", "Özümüz bilərik" opera və musiqili komediyaları və s. də uğurla oynanılmışdır.

120 ilə yaxın yaşı olan teatrda istedadlı aktyor (S. Mövləvi, İ. Musayev, M. Mirişli, İ. Həmzəyev, Z. Həmzəyeva, Ə. Haqverdiyev, X.Qazıyeva, F. Əlixanova, M. Quliyev, Ə. Qardaşbəyov, S. Hüseynova, A. Şahsuvarov, Z. Əliyeva, R. Cəfərxanova, İ. Məmmədov, H. Ağayev, K. Quliyev, Y. Haqverdiyev, K. Hüseynov, T. Məmmədova, P. Məmmədova, İ. Bənənyarlı, T. Mövləvi, M. Səfərov, N. Həmzəyev və b.) və rejissorların (Yusif Ulduz, B. Qələndərli, V. Babayev, V. Əsədov, Ə. Lalayev və b.), teatr rəssamlarının (B. Kəngərli, Ş. Qazıyev, N. Nağıyev, M.Qasımov, Y. Məmmədov və b.) bir neçə nəsli yetişmişdir. 1965 ildə teatra C. Məmmədquluzadənin adı verilmişdir.

*Əd.:* Hüseynzadə L., Naxçıvan teatrının tarixindən, "Azərbaycan incəsənəti", c. 3, B., 1950; Xəlilov Ə., Naxçıvan teatrının tarixi, B., 1964; Kərimov İ., Azərbaycan peşəkar teatrının inkişafında Naxçıvan teatrının mövqeyi, Naxçıvan Muxtar Respublikası, "Bakı Dövlət Universitetinin Xəbərləri", Xüsusi buraxılış, 1999.

**NAXÇIVAN DÜZÜ** – Babək r-nu ərazisində maili düzənlik. *Arazboyu düzənliklərdən* biri. Naxçıvançayın aşağı axınında, 750–1050 *m* hünd.-də, əsasən, Babək r-nu ərazisindədir. Uz. 26 *km*, ən geniş yerdə eni 22 *km*. Nax. MR-də sahəsinə görə ən böyük düzənlikdir. Şm.-ş.-də Nəhəcir, Əshabi-Kəhf ekstruziv dağlarına və Qaracalal-Qızılboğaz tirəsinə söykənir. Şm.-da Xalxal k.-nədək davam edir. Q.-də Böyükdüzə qovuşur, ş.-də Ərəzin k.-nədək uzanır və c.-ş.-də Nehrəm platosu ilə sərhədlənir. Düzənlik azmeyllidir, k. t.-da istifadə edilir. Naxçıvan dəryaçası istifadəyə verildikdən sonra N. d.-nün landşaftı dəyişmiş, su təchizatı yaxşılaşmış, balıqçılıq təsərrüfatı inkişaf etdirilmişdir. Düzənliyin ərazisində olan 47 kəhrizin və onlarda qazılmış 22 subartezian quyusunun suyundan məişətdə və suvarmada istifadə olunur. Görülən suvarma tədbirləri nəticəsində düzənlik tamamilə əkin yerinə çevrilmiş və hazırda muxtar respublikanın başlıca əkinçilik r-nu hesab edilir.

*Əd.:* Babayev S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**NAXÇIVAN ELEKTROTEXNİKA ZAVODU** – elektrotexnika sənayesi müəssisəsi. Naxçıvan Radiotexnika Məmulatları zavodu adı ilə 1961 ildə yaranmış və 1965 ildən indiki adını daşıyır. 1961–65 illərdə müxtəlif radiotexniki hissə və məmulatlar istehsal edilmişdir. Həmin dövrdə z-dda 40 nəfərədək işçi çalışmışdır. Zavod 1965 ildən lüminessent lampaları üçün işəsalıcı-tənzimləyici aparatların istehsalına başlamış və 1977 ilədək bu məmulatlar z-dun istehsal etdiyi yeganə məhsul olmuşdur. 1977 ildən bu məhsulların istehsal həcminin artırılması ilə bərabər, elektrik-quraşdırıcı məmulatların və sənaye işıqlandırıcılarının istehsalı və mənimsənilməsinə də başlanmışdır. 1965–82 illər ərzində bu ,məhsulun konstruksiyasında və istehsal texnologiyasında 5 dəfə ciddi dəyişikliklər aparılmışdır. 1989 ildə z-dun ümumi məhsulunun 87,6%-ni lüminessent lampaları üçün işəsalıcı-tən-



zimləyici aparatlar, 5,6%-ni tikiş maşınları üçün işıqlandırıcılar, 0,3%-ni k. t. üçün işıqlandırıcılar, 6,5%-ni müxtəlif elektrik quraşdırıcı məmulatların istehsalı təşkil edirdi. Həmin dövrlərdə z-dda işləyənlərin sayı 480 nəfərə çatmışdı. SSRİ-nin dağılması, iqtisadi əlaqələrin pozulması, respublikada işıq texnikası avadanlıqlarına ehtiyacın xeyli azalması səbəbindən z-d 1992 ilin avqustundan 1994 ilin mart ayınadək işləməmişdir. Azərb. Respublikası Nazirlər Kabinetinin qərarı ilə (1994) N. e. z. Bakı İstehsalat Birliyinin tərkibindən çıxarılaraq Azərb. Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tərkibinə verilmişdir. 1994 ilin mart ayından z-dda Nax. MR-in daxili tələbatına uyğun mallar istehsal edilir.

**NAXÇIVAN ELM VƏ TEXNİKA MƏRKƏZİ** – Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi Naxçıvan Elm və Texnika Mərkəzi – muxtar respublikanın təbii sərvətlərinin tədqiqi və onların emalı üçün yeni texnologiyaların işlənib hazırlanması məqsədi ilə Azərb. Respublikası Nazirlər Kabinetinin 1999-cu il 22 yanvar tarixli qərarı ilə yaradılmışdır. Mərkəzdə bölgənin dərman bitkilərinin, yabanı bitkilərin toplanması, öyrənilməsi, yayılması və tədarükü sahəsində geniş tədqiqatlar aparılmış, 50-dən çox dərman bitkisinin xüsusiyyətləri, ayrı-ayrı xəstəliklərin müalicəsində istifadə yolları (dəmləyib içmək və vanna qəbul etməklə) müəyyənləşdirilmişdir. Bəzi dərman bitkilərindən cövhər, krem və yağlar almaq məqsədilə aparılan tədqiqatlar nəticəsində 14 adda cövhər alınmış, bölgənin xammal ehtiyatlarından kimyəvi emal yolu ilə 8 adda duz, Darıdağ termal suyunun (DTS) quru qalığı, natrium-xlorid duzu alınmasının yeni istehsal texnologiyası və s. işlənib hazırlanmışdır.

**NAXÇIVAN ƏLYAZMA SƏNƏDLƏRİ** – Kəngərli sülaləsinə məxsus sənədlər (17–19 əsrlər). Sülalənin ayrı-ayrı üzvləri tərəfindən yazılan və onlara ünvanlanan məktub, reskript, fərman, qəbalə və s.-dən ibarətdir. Sənədlərin mövcudluğu məlum olan kimi (1935) Gürcüstandan Naxçıvana dərhal elmi heyət göndərilmiş, onlar başqa sənədlərlə birlikdə Tiflisə aparılmış, qısa müddətdə araşdırılmış və 1936 ildə kitab halında çap olunmuşdur. Kitabın redaktoru məşhur şərqşünas, akad. N.Y.Marrın oğlu Y.N. Marrdır. Burada təkcə Azərb.-ın deyil, İran, Türkiyə və Rusiyanın da ictimai-iqtisadi və siyasi tarixinə dair materiallar vardır. Təəssüf ki, gətirilmiş 300-dən çox sənədin yalnız 25-i şərqşünas K. N. Smirnovun tərcüməsi və şərhləri ilə üzə çıxarılmış, qalanlarının taleyi isə hələlik naməlumdur. Kitab 2 hissədən ibarətdir. Birinci hissəyə 3 fəsil – Kəngərli tayfası (1–7 saylı sənədlər); naxçıvanlıların İran şahı Kərim xan Zəndə iki ərizəsi (8–9 saylı sənədlər); Naxçıvanda tərəflər arasında bağlanmış iki qəbalə (10–11 saylı sənədlər), ikinci hissəyə isə 2 fəsil – feodal münasibətləri, torpaq mülkiyyəti və maliyyə məsələləri (12–21 saylı sənədlər); Səfəvi dövrü sənədləri (22–25 saylı sənədlər) daxildir.

*Əd.:* Fərzəlibəyli Ş., Naxçıvanın XVII–XIX əsrlər tarixinə dair qiymətli sənədlər, Naxçıvan (məqalələr toplusu), B., 1999.

**NAXÇIVAN ƏT-SÜD KOMBİNATI** – yeyinti sənayesi müəssisəsi. 1956 ildə istifadəyə verilmişdir. Kombinatın tərkibinə ət emalı sexləri, soyuducu, yarımfabrikatlar sexi, bir sıra başqa əsas və yardımçı sexlər, anbar və digər sahələr daxildir. Kombinatda geniş çeşiddə süd məhsulları (yağ, pendir, kəsmik, xama, qaymaq, qatıq, ayran və s.) da hazırlanır. Son illər kombinat genişləndirilmiş, yüksək məhsuldar aqreqat və texniki avadanlıqla təchiz edilmişdir. 1998 ildən səhmdar cəmiyyətinə çevrilib.

**NAXÇIVAN ƏYALƏTİ** – 1828 il Türkmənçay müqaviləsinin şərtlərinə görə *Naxçıvan xanlığının* Rusiya hakimiyyəti altına keçdikdən sonrakı adı.

**NAXÇIVAN FİZİKİ-COĞRAFİ VİLAYƏTİ**, Naxçıvan təbii vilayəti, Orta Araz fiziki-coğrafi vilayəti – Azərb. Respublikası ərazisinin fiziki-coğrafi vilayətlərindən biri. Nax. MR hüdudlarındakı Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları ilə Araz çayı arasındakı əraziləri əhatə edir. Hünd. 600 *m*-lə (Araz çayı sahili) 3904 *m*. (Qapıcıq d.) arasında dəyişir. Bu ərazi adətən *Şərur–Ordubad fiziki-coğrafi rayonuna* və *Günnüt–Qapıcıq fiziki-coğrafi rayonuna* ayrılır. Lakin muxtar respublika ərazisində landşaft xüsusiyyətələrini nəzərə alaraq, bəzi coğrafi ədəbiyyatda buranı üç təbii r-na ayırırlar: 1. Şərur–Ordubad yarımsəhra maili düzənlik r-nu; 2. Günnüt–Kilit dağ bozqırları (çölləri) orta dağlıq r-nu; 3. Kükü–Qapıcıq yüksək dağlıq çəmənlikləri r-nu.

*Əd.:* Babayev S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**NAXÇIVAN GENERAL-QUBERNATORLUĞU**, Azərbaycan Xalq Cümhuriyyətinin Əlahiddə Naxçıvan general-qubernatorluğu – Azərb. Xalq Cümhuriyyətinin (AXC) Naxçıvan bölgəsində yaratdığı idarəçilik orqanı; yerli azərb. əhalinin qəti tələbinə uyğun olaraq AXC hökumətinin 28 fevral 1919 il tarixli qərarı ilə yaradılmışdı (sənədlərdə, həmçinin "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu", yaxud "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının general-qubernatorluğu" da adlanır). Həmin qərarla Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski hərbi hissə üzrə, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə onun müavinləri təyin olunmuşdular. N.g.-q.-nun nəzdində 7 nəfərdən ibarət şura yaradılmışdı; martın 16-da istefa verən B.Naxçıvanskini Haşımbəyov, o, AXC Daxili İşlər Nazirliyinin sərəncamına çağırıldıqdan sonra isə onu Əhməd bəy Cəmillinski əvəz etmişdi. Siyasi şəraitin mürəkkəbliyi, ilk növbədə isə Ermənistanın daşnak hökumətinin fitnəkar hərəkətləri üzündən qubernatorluğun yüksək vəzifəli şəxslərinin Naxçıvana gələrək vaxtında öz vəzifələrinin icrasına başlaya bilməmələri general-qubernatorluğun işində ciddi çətinliklər yaratmışdı. Bütün bunlara baxmayaraq, AXC hökuməti general-qubernatorluğun fəaliyyətinin bir an da olsun dayanmasına yol verməmişdi; 1919 ilin avqustunda az müddət Ordubadda fəaliyyət göstərməyə məcbur olan general-qubernatorluğun iqamətgahı sonra yenidən Naxçıvana köçürülmüşdü. N. g.-q. obyektiv və subyektiv səbəblərə görə daha geniş və səmərəli fəaliyyət göstərə bilməsə də, bölgənin erməni təcavüzündən müdafiəsində və AXC hökuməti ilə daha sabit əlaqələrin yaradılmasında və möhkəmlənməsində mühüm rol oynadı.

**NAXÇIVAN GENERAL-QUBERNATORLUĞU**, Amerika general-qubernatorluğu – Qafqazda nüfuz dairəsi qazanmağa çalışan ABŞ-ın əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdikləri amerikalı polkovnik V. Haskel tərəfindən irəli sürülmüş, 1919 ilin sentyabrında "Haskel layihələri" adlandırılan sənəddə öz əksini tapmışdı. Layihədə Naxçıvan və Şərur–Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazidə N. g.-q.-nun yaradılması nəzərdə tutulurdu. Bu dəfə də ABŞ-ın himayəsi altında Naxçıvana yiyələnməyə çalışan Ermənistanın daşnak hökuməti "Haskel layihələri"nin gerçəkləşməsinə canfəşanlıq göstərirdi.

Azərb. Xalq Cümhuriyyəti (AXC) hökuməti Azərb. xalqının, o cümlədən Naxçıvan əhalisinin mənafeyinə zidd olan bu layihələri rədd etdi və onların gerçəkləşməsinə imkan verməyəcəyini bildirdi. Buna məhəl qoymayan Haskel 1919 il oktyabrın 25-də bəyanat verərək, qubernatorluğun yaradıldığını və ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L. Dellinin ona başçı təyin olunduğunu elan etdi. Ermənistan hökumətinin razılıqla qarşıladığı bu bəyanat AXC hökumətinin qəti etirazı və Naxçıvan əhalisinin ciddi müqaviməti ilə üzləşdi. Bu müqavimət 1920 ilin yanvarında sonuncu amerikalı əskərin Naxçıvan torpağını tərk etməsi ilə nəticələndi. Beləliklə, bölgə əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, AXC hökumətinin isə ciddi diplomatik səyləri bu növbəti təxribat aktının qarşısını vaxtında aldı və ermənilərin Naxçıvanı ələ keçirmək niyyətini bir daha puça çıxardı.

**NAXÇIVAN GİL YATAĞI-I** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 3 *km* c.-da, Naxçıvançayın sağ sahilindədir. Geoloji quruluşunda müasir dövrün tünd-boz rəngli gilləri iştirak edir. Az miqdarda qum qarışığı




Naxçıvan Hava limanı.

var. Sah. 0,07 $km^2$, faydalı qatın qalınlığı 5 $m$-dir. Naxçıvan kərpic z-dunda aparılan tədqiqatlara görə "50" markalı kərpic istehsalında istifadə edilməyə yararlıdır. Yatağın $A+V+S_1$ kateqoriyaları üzrə ehtiyatı 289 min $m^3$-dir.

**NAXÇIVAN GİL YATAĞI-II** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 2,5 *km* ş.-də, Naxçıvan gil yatağı-I-dən 3 *km* ş.-də, Naxçıvançayın sol sahilindədir. Geoloji quruluşunda Müasir dövrün boz, çəhrayımtıl-boz rəngli gilləri iştirak edir. Sah. 0,06 $km^2$, faydalı qatın qalınlığı 2,8–5,4 $m$-dir. Yarımzavod tədqiqatlarının nəticələrinə görə, gil süxurları "75" markalı kərpic istehsalına yararlıdır. Yataq 1976 ildən istismar olunur. Yatağın $A+V+S_1$ kateqoriyaları üzrə ehtiyatı 1513 min $m^3$ -dir.

**NAXÇIVAN HAVA LİMANI** – Azərb. Respublikasında ən böyük hava limanlarından biri. Bu hava yolu ilə sərnişin, poçt və yük daşınır. Azərb.-dan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayan Nax. MR-in əhaliləri yeganə olaraq təyyarə nəqliyyatı vasitəsilə həyata keçirilir. Bu məqsədlə N.h.l. 1993–95 illərdə genişləndirilərək yenidən qurulmuş, ağır yüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən ilk növbəsi işə salınmışdır. N.h.l.-ndan 3 istiqamətdə – Bakı–Naxçıvan–Bakı, Naxçıvan–Gəncə–Moskva–Naxçıvan və Naxçıvan-Samara-Moskva–Naxçıvan reysləri həyata keçirilir. 2000 il ərzində N.h.l.-ndan təyyarə vasitəsilə 204,8 min sərnişin, 4,3 min *t* yük daşınmışdır.

**NAXÇIVAN HƏRBİ QARNİZONU** – Azərb. Silahlı Qüvvələrinin qoşun birləşməsi. 1991 il sentyabrın 7-də erməni təcavüzünün gücləndiyi şəraitdə Nax. MR Ali Məclisinin sədri Heydər Əliyevin imzaladığı qərarla Nax. MR Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. Nax. MR Ali Məclisinin 1992 ilin iyul-avqustunda qəbul etdiyi qərarlara əsasən keçmiş SSRİ Silahlı Qüvvələrinin Nax. MR ərazisində yerləşən hərbi hissələri əmlakı ilə birlikdə DMK-ya verildi. Ermənistanın silahlı təcavüzünün xüsusilə güclənməsi ilə əlaqədar 1992 il sentyabrın 19-da DMK-nın bazasında Azərb. Milli Ordusunun 705 saylı motoatıcı briqadası yaradıldı. Azərb. Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin təşəbbüsü ilə Azərb. Milli Ordusunun yenidən qurulması sahəsində həyata keçirilən tədbirlər Nax. MR-dən də yan ötmədi; 1995 il iyunun 21-də 705 saylı motoatıcı briqadası 705 saylı motoatıcı diviziyasına, 1998 il dekabrın 8-də isə həmin diviziya N. h. q.-na – korpusa çevrildi.

**NAXÇIVAN HƏRBİ LİTSEYİ**, Cəmşid Naxçıvanski ad. Hərbi Litseyin Naxçıvan Filialı – hərbi ali məktəblər üçün kadr hazırlayan ixtisaslaşdırılmış orta məktəb. Azərb.-da peşəkar hərbi təhsilin əsasının qoyulması, milli zabit kadrları hazırlamaq məqsədilə 1971 ilin iyulunda o vaxtlar respublikanın rəhbəri olan Heydər Əliyevin təşəbbüsü ilə Bakıda gen. C. Naxçıvanski ad. ixtisaslaşdırılmış hərbi məktəb yaradılmışdı. Həmin dövrdən minlərlə yüksək ixtisaslı gənc hərbi kadrlar yetişdirilmişdir. Nax. MR-in ərazicə Azərb.-dan aralı düşməsi, blokada şəraitində yaşaması, bir çox sahələrdə əlaqələrin, Bakıya gediş-gəlişin çətinliyi ilə əlaqədar yaranmış problemlər naxçıvanlı gənclərin hərbi təhsil almasına ciddi çətinliklər yaradırdı. Bunu nəzərə alaraq Azərb. Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı Heydər Əliyev "Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına hərbi litseyin filialının yaradılması haqqında" 1998 il 13 mart tarixli sərəncam imzalamışdır. Məktəb yeni avadanlıqla təchiz olunmuş müasir tipli hərbi təhsil ocağına çevrilmişdir. Litsey tədris və yataq korpuslarından, təlim və idman meydançalarından, yeməkxanadan ibarətdir. Tədris korpusunda kompüter sinfi, hərbi, ədəbiyyat, tarix, riyaziyyat fənn kabinələri, fizika, kimya laboratoriyaları, kitabxana fəaliyyət göstərir. Təhsil müddəti 3 ildir və pulsuzdur. Heydər Əliyev 1999 il oktyabrın 13-də N. H. L.-nin və onun tədris korpusunun təntənəli açılış mərasimində nitq söyləmiş və litsey onun xeyir-duası ilə fəaliyyətə başlamışdır.

Naxçıvan Hərbi Litseyinin binası. 1999.









**NAXÇIVAN XALÇA KOMBİNATI** – yüngül sənaye müəssisəsi. Azərb. Respublikası "Xalq üçün mallar" Dövlət konserninə daxildir. Tikintisinə 1979 ildə başlanmışdır. Ümumi sahəsi 50000 $m^2$, istehsal sah. 3000 $m^2$, yardımçı bina və tikililərin sah. isə 10000 $m^2$-ə yaxındır. Layihə gücü ildə 2,5 mln. $m^2$ xalça və xalça məmulatı istehsalı olacaq kombinatda üçnövbəli iş rejimində 2500 nəfərdən artıq fəhlə və qulluqçunun çalışması nəzərdə tutulub. Kombinat, əsasən, iki f-kdən – əyirici (sah. 15000 $m^2$) və toxucu (sah. 15000 $m^2$) f-klərdən ibarətdir. Boyaqxana, hazırlayıcı, aparat-darayıcı, əyirici sexlərindən ibarət əyirici f-k istifadəyə verilmişdir (yanvar, 1988). Nax. MR-in blokada vəziyyətilə əlaqədar toxucu f-kinin tikintisi hələlik tamamlanmamışdır.

**NAXÇIVAN XALÇA MUZEYİ**, "Azərbaycan xalçası" Nax. MR Dövlət Muzeyi – mədəni-maarif müəssisəsi. 1998 ilin aprelində Naxçıvan xalça muzeyi kimi yaradılmış, az sonra "Azərbaycan xalçası" Nax. MR Dövlət Muzeyi adlandırılmışdır. Xan dikindəki (Qala məhəlləsi) 200 illik tarixə malik "Xan evi"ndə yerləşir. "Əcəmi seyrəngahı" istirahət kompleksinin daxilindədir. Muzey 8 zaldan ibarətdir. Yaradıldığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların sayı 1800-ü (241 xalça) ötmüşdür (2000). Burada, demək olar, bütün xalça növlərinin (xovlu və xovsuz kilim, sumax, vərni, şəddə, palaz, cecim və s.) və xalçaçılıq məmulatlarının (məfrəş, heybə, çanta, torba, xurcun, örkən və s.) nümunələri nümayiş etdirilir. Muzeydə Gəncə–Qazax, Quba–Şirvan, Qarabağ, Təbriz–Naxçıvan xalçaçılıq məktəblərinə məxsus 18–19 əsrlərə aid xalça nümunələri saxlanılır. Çeşnilərinə görə "Qollu çiçi", "Pirəbədil", "Alpan", "Qədim əfşan", "Ovçuluq", "Zili", "Köhnə buta", "Naxçıvan", "Qasımuşağı" və s. xalçalarla yanaşı, süjetli xalçalar [Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin portreti toxunmuş xalça (xalq rəssamı K.Əliyev), "Leyli və Məcnun", "Qarabağ mənzərəsi", "Boz qurdlar", "Gəncə gözəli" və s.)] da əhəmiyyətli yer tutur. Muzeydə məişət əşyaları – mis məcməyilər, saxsı və çini qablar, qədim

Naxçıvan Xalça Muzeyi. Cəhrə. 19 əsr.



kişi və qadın milli geyimləri də nümayiş etdirilir. Burada respublika xalçaçılarının sərgiləri təşkil olunur, sənət adamları ilə görüşlər keçirilir və video lentə alınıb muzeyin fondunda saxlanılır. N.x.m. nəzdində Mömünə xatun türbə-muzeyi də fəaliyyət göstərir. Respublikada yeganə olan bu muzeydə xalqımızın Atabəylər dövrü tarixinə dair dəyərli məlumatlar verilir. Hər iki muzeydə geniş maarifçilik və tədqiqat işləri də aparılır. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev Nax. MR 75 illik yubileyi ilə əlaqədar Naxçıvanda olarkən (1999, oktyabr) muzeyin eksponatlarına baxmışdır.

**NAXÇIVAN XALQ TEATRI** – 1970 ildə Naxçıvan ş. 1 saylı mədəniyyət evi nəzdində fəaliyyət göstərən dram kollektivi əsasında yaradılmışdır. Kollektivin formalaşmasında Azərb. Respublikasının xalq artistləri İ.Həmzəyev, Z. Həmzəyeva; rej.-lar – Azərb. Respublikası əməkdar incəsənət xadimi B. Qələndərli, Azərb. Respublikası əməkdar artisti V. Babayev və b.-nın mühüm xidməti olmuşdur. C. Cabbarlının "Solğun çiçəklər" əsərinin uğurlu tamaşasına görə 1971 ildə kollektivə Azərb. Mədəniyyət Nazirliyi, Azərb. xalq yaradıcılığı və metodiki mərkəzi tərəfindən xalq teatrı statusu verilmişdir. Repertuarında Ə.Haqverdiyevin "Bəxtsiz cavan", B. Vahabzadənin "Yollara iz düşür", N. Hikmətin "Unudulan adam", C. Cabbarlının "Aydın", M. İbrahimovun "Həyat", C. Məmmədquluzadənin "Ölülər", "Kamança", G. Figeyeredonun "Ezop" əsərləri əsas yer tutur. 1980 ildə "Ezop" tamaşasına görə respublika xalq teatrları baxış-müsabiqəsində qalib gəlmişdir. Respublikanın bir çox şəhər və r-nlarında qastrolda olmuşdur.



Naxçıvan xanlarının gerbi. "Qafqaz gerbləri toplusu". Moskva. 2000. №44.

**NAXÇIVAN XANLIĞI** – Azərb.-da 18 əsrin ortalarında yaranmış feodal dövləti; 1747 ilin iyununda Nadir şah Əfşar əyanlarının suiqəsdi nəticəsində öldürüldükdən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan İran naibi Ağa Həsəni Naxçıvandan qovmuş və özünü xan elan etmişdi. Xanlıq Zəngəzur dağlarından Araz çayı dərəsinədək olan ərazini əhatə edirdi. Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə, Bəllav mahallarına bölünürdü. Mahalları mirzəbəyilər, onlara daxil olan kəndləri isə kəndxudalar idarə edirdi. Xanlığın ərazisində iki şəhər – Naxçıvan və Ordubad ş.-ləri mövcud idi. N. x.-nın inzibati, həm də başlıca ticarət mərkəzi Naxçıvan ş. idi. Şəhərlərdə polis funksiyasını darğa yerinə yetirirdi.

N.x.-nda natural təsərrüfat hökm sürürdü; əsas istehsal sahələri heyvandarlıq və əkinçilik idi. Torpaq üzərində aşağıdakı 5 mülkiyyət forması mövcud idi: 1) dövlət (xəzinə) torpaqları; 2) xan ailəsinə məxsus olan xalisə torpaqları; 3) şəxsi mülkiyyətdə olan mülk torpaqları; 4) dini təsisatların sərəncamında olan vəqf torpaqları; 5) kənd icmalarına məxsus icma torpaqları. Kəndlilər rəiyyətlərə, rəncbərlərə və elatlara bölünürdü. Heydərqulu xan xanlığı möhkəmlətmək, ticarət və sənətkarlığı inkişaf etdirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirdi. Lakin hərbi qüdrəti zəif olan N. x. bu tədbirləri daha güclü Azərb. xanlarının köməyinə arxalanmaqla həyata keçirmək istəyirdi. Bu məqsədlə də Heydərqulu xan qarabağlı Pənahəli xanın hakimiyyətini qəbul etmiş, onunla və gürcü çarları ilə birlikdə 1752 ildə şəkili Hacı Çələbi xana qarşı uğursuz yürüşdə iştirak etmişdi. Heydəqulu xanın ölümündən (1763/64) sonra taxta çıxmış Hacı xan Kəngərli Şiraz hakimi Kərim xan Zəndin hakimiyyətini qəbul etsə də, sonralar Şiraza çağırılaraq həbs olunmuşdu. 1770 ildə Kərim xanın köməyi ilə taxta çıxmış Rəhim xanı da üç ildən sonra






# NAXÇIVAN XANLARININ ŞƏCƏRƏ CƏDVƏLİ

## 18 ƏSRİN AXIRI – 20 ƏSRİN ƏVVƏLİ




*Tərtib edəni tarix e.n. Ə.İ.Əliyev, 1967*

Vəliqulu xan Kəngərli əvəz etmişdi. 80-ci illərin əvvəllərində irəvanlı Hüseynqulu xan, qarabağlı İbrahimxəlil xan və Kartli-Kaxeti çarı II İraklinin yardımı ilə N. x.-nda Abbasqulu xan Kəngərli hakimiyyətə gəldi. Lakin Kərim xan Zəndin ölümündən (1779) sonra Xoy hakimi Əhməd xan Mərkəzi İranda hakimiyyəti ələ keçirmiş Əlimurad xanın yardımı ilə 1783 ildə Abbasqulu xanın əmisi oğlu Cəfərqulu xanı Naxçıvan taxtına əyləşdirdi. Abbasqulu xanın Tiflisə qaçmasından istifadə edən II İrakli onun hakimiyyətini bərpa etmək pərdəsi altında Naxçıvanda möhkəmlənməyə cəhd göstərdi. 1785 il mayın əvvəlində qarabağlı İbrahimxəlil xanın qoşunu Naxçıvan qalasını ələ keçirib Abbasqulu xanı yenidən hakimiyyyətə gətirdi. 1787 ildə Cəfərqulu xanın əmisi oğlu Kəlbəli xan Abbasqulu xanı hakimiyyətdən kənarlaşdırıb özünü xan elan etdi; o, fasilələrlə 1820 ilədək hakimiyyətdə olmuşdur. 1792 ildə İbrahimxəlil xan avar Ümmə xanla ittifaqa girərək Naxçıvana yeni yürüş etdi. Naxçıvan ətrafında baş vermiş vuruşmada Kəlbəli xan Xoy və İrəvan xanlarının köməyi ilə qalib gəldi. Vuruşmada xeyli dağıstanlı həlak olduğundan, döyüşün getdiyi yer "Ləzgiqıran" adlanır. Lakin İran təhlükəsinə qarşı mübarizə aparmaq zərurəti Kəlbəli xanı yenidən İbrahimxəlil xanla yaxınlışmağa məcbur etdi. 1795 ildə İranda hakimiyyəti ələ keçirmiş, Azərb.-ın cənub xanlıqlarını özündən asılı vəziyyətdə saxlamış və Cənubi Qafqaza 1-ci hücuma başlayan Ağa Məhəmməd xan Qacar Kəlbəli xandan da itaət göstərməyi və girovlar verməyi tələb etdi. Kəlbəli xan nifrət bəslədiyi Abbasqulunu girov kimi Ağa Məhəmməd xan Qacarın yanına göndərdi. Sonuncunun bundan xəbər tutması Kəlbəli xana münasibətdə xeyli gərginlik yaratdı. 1796 ildə gen. V. Zubovun komandanlığı ilə Rusiya qoşunlarının Cənubi Qafqaza yürüşü zamanı Kəlbəli xan N. x.-nın Rusiyanın himayəsinə qəbul olunmasına cəhd göstərdi. Bundan xəbər tutan Ağa Məhəmməd şah Qacarın (o, 1796 ildə özünü şah elan etmişdi) 1797 ildə Azərb.-a 2-ci yürüşü zamanı Kəlbəli xan tutularaq bir gözü çıxarıldı və Tehrana göndərildi. Xanlığın idarəsi Abbasqulu xana tapşırıldı. 1797 ilin yayında Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetirildikdən sonra İranda hakimiyəti ələ almış Fətəli şah Kəlbəli xanı İrəvanda yaşamaq şərtilə azad etdi və o, yalnız 1804 ildə yenidən Naxçıvan xanı təyin edildi. Birinci Rusiya–İran müharibəsi illərində (1804–13) 1806 ildən ruslara meyl edən Kəlbəli xan qohumu irəvanlı Hüseynqulu xan tərəfindən hiylə ilə həbs edilərək Tehrana göndərildi; Abbasqulu xan yenidən Naxçıvan taxtına gətirildi. Bu vaxtlar Kəlbəli xanın oğlu Şeyxəli (Şıxəli) bəy rus ordusunun tərkibində vuruşurdu. 1808 il oktyabrın sonlarında gen. Nobelinin tərkibində Şeyxəli bəyin dəstəsinin də olduğu rus qoşunu Qarabağdan Naxçıvana tərəf hərəkət edərək, Qarababa adlı yerdə İran vəliəhdi Abbas Mirzənin qoşunlarını məğlub etdi. Şeyxəli bəy rus qoşunlarının önündə getdiyindən Naxçıvan qalası döyüşsüz təslim oldu. Müharibənin sonlarına doğru İran hökuməti Kəlbəli xanı həbsdən azad etməyə məcbur oldu; o, 1812 ildən yenidən Naxçıvan taxtına sahibləndi. *Gülüstan müqaviləsindən (1813)* sonra N. x. İranın tərkibində idi. 1820 ildə Kəlbəli xan N. x.-nın idarəçiliyini oğlu Ehsan xana tapşırıb Məkkəyə ziyarətə getdi. Onun ziyarətdən qayıdarkən yolda vəfat etməsi ilə Naxçıvanda siyasi sabitlik pozuldu və N. x.-nda Kərim xan, Hüseyn Mirzə, Məhəmməd Bağır xan bir-birinin ardınca taxta əyləşdilər. İkinci Rusiya–İran müharibəsi (1826–28) gedişində 1827 ilin iyununda rus qoşunları Naxçıvanı zəbt etdilər; iyulda Abbasabad qalası ələ keçirildi. Rusiya hökuməti Ehsan xanı Naxçıvan hakimi təyin etdi. *Türkmənçay müqaviləsinə (1828)* əsasən N. x. İrəvan xanlığı ilə birlikdə Rusiyaya birləşdirildi. 1828 il martın 21-də I Nikolayın fərmanı ilə ləğv edilmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində süni şəkildə "erməni vilayəti" yaradıldı.

*Əd.:* Ə l i y e v F., Ə l i y e v U., Naxçıvan xanlığı, B., 1996; B u d a q o v a S., Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci – XIX əsrin birinci qərinəsi), B., 1995; M u s t a f a z a d ə T. Naxçıvan vilayəti XVIII əsrdə, Naxçıvan (məqalələr toplusu), B., 1999.

**NAXÇIVAN İXTİSASLAŞDIRILMIŞ MEBEL İSTEHSALI VƏ TƏMİRİ BAZA MÜƏSSİSƏSİ (NİMİTBM)** – meşə və ağac emalı müəssisəsi. 1950 ildə mebel kombinatı kimi yaradılmışdır. 1964 ildə Nax. MR-in 40 illiyi ad. Naxçıvan Mebel Fabriki adlandırılmışdır. Nax. MR Nazirlər Kabinetinin



14 mart 1997 il tarixli 57 saylı qərarı ilə NİMİTBM kimi fəaliyyət göstərir. Müəssisənin ağacyonqarlı tava, yığma və faner sexləri, ağac anbarı və s. əsas və yardımçı sexləri var. Burada mebel və yarımfabrikatların axın üsulu ilə istehsalı üçün müasir avadanlıqlar quraşdırılmışdır. Müəssisənin məhsulları, əsasən, muxtar respublikanın r-n və ş.-lərinə göndərilir.

**NAXÇIVAN İNCƏSƏNƏT KOLLECİ** – 1996 ildə yaradılmışdır. Kollecdə fortepiano, simli alətlər, nəfəs və zərb alətləri, xalq çalğı alətləri, musiqi nəzəriyyəsi, nəqqaşlıq və heykəltəraşlıq şöbələri fəaliyyət göstərir. Kollec Nax. MR-in musiqi məktəbləri və mədəniyyət müəssisələri üçün musiqiçi kadrları, incəsənət işçiləri hazırlayır. Əyani və qiyabi şöbələri var.

**NAXÇIVAN İNQİLAB KOMİTƏSİ (NİK)**, N a x ç ı v a n D i y a r İ n q i l a b K o m i t ə s i – Naxçıvanda sovet hakimiyyəti qurulması və Nax. SSR yaradılması elan edildikdən (1920, 28 iyul) sonra fəaliyyət göstərmiş ali hakimiyyət orqanı; tərkibinə M. Bəktaşov, A. Qədimov, Q. Əsgərov, F. Mahmudbəyov, Q. Babayev və b. daxil idilər. NİK yaradıldığı gün (29 iyul) Naxçıvanı Azərb.-ın ayrılmaz hissəsi elan edərək Ermənistanın daşnak hökumətinə müraciətində sülh danışıqlarına başlamağı və qan axıdılmasına son qoymağı təklif etmiş (lakin təhqiramiz şəkildə rədd cavabı almışdı), iyulun 30-da diyarın bütün əhalisinə müraciət edərək milliyyətindən və əmlak vəziyyətindən asılı olmayaraq qaçqınların hamısını doğma kənd və şəhərlərinə qayıtmağa çağırmış (onları mütəşəkkil qaydada yerləşdirmək məqsədilə avqustun 23-də NİK nəzdində geniş səlahiyyətli qaçqınlar komitəsi yaradılmışdı), avqust ayında torpaqların milliləşdirilməsini həyata keçirmişdi. Sovet hakimiyyətinin ilk aylarında NİK-in səlahiyyət dairəsi yalnız Naxçıvan qəzasını əhatə edirdi. 1920 ilin oktyabrında Ordubad qəzası, dekabrında isə Şərur qəzası daşnaklardan təmizləndikdən sonra həmin qəzalarda da qəza və dairə inqilab komitələri yaradılmış və beləliklə, NİK-in səlahiyyəti bütün Naxçıvan diyarına yayılmışdı. Görünür, məhz elə bu amil NİK-in 1921 il yanvarın 21-dən Naxçıvan Diyar İnqilab Komitəsi (DİK) adlandırılmasında əsaslı rol oynamışdı.

1920 ilin oktyabrında Azərb. SSR Daxili İşlər Komissarlığının təlimatına əsasən NİK yanında daxili işlər, kommunal, ərzaq, səhiyyə, torpaq, maliyyə, maarif, sosial təminat şöbələri, XTŞ və s. yaradılmış, noyabrda maarif şöbəsi Xalq maarif komissarlığına çevrilmişdi. Lakin diyarda totalitar sovet rejiminin möhkəmləndiyi şəraitdə qanunsuz repressiv tədbirlərə də əl atılmış, hələ 1920 ilin sentyabrında qeyri-məhdud səlahiyyətli fövqəladə istintaq komissiyası yaradılaraq fəaliyyətə başlamış, nəticədə Azərb.-ın istiqlaliyyət qazanmasında və erməni təcavüzünün dəf edilməsində mühüm xidmətləri olmuş bir çox görkəmli şəxslər (o cümlədən Azərb.da sovet təqiblərindən yaxa qurtarmaq üçün Naxçıvana gəlmiş və bir müddət hətta NİK sədrinin müavini işləmiş, Həbibbəy Səlmiov, Naxçıvan Milli Komitəsinin sədri Cəfərquluxan Naxçıvanski, onun qardaşı Rəhimxan və b.) amansız təqiblərə məruz qalmış, edam, yaxud sürgün edilmişdilər.

NİK 1921 ilin senyabrınadək yoxsul komitələri və sovetlərin təşkili dövründə tam səlahiyyəti ilə fəaliyyət göstərmiş, sentyabrın 10-da Naxçıvan MİK və XKS təşkil edilərək fəaliyyətə başladıqdan sonra isə onlarla paralel fəaliyyət göstərməkdə davam etmişdi. 1922 ilin əvvəlində yerli Sovetlərə seçkilər başa çatdırıldı; yanvarın 25-də Naxçıvan ş.-ndə işə başlayan Naxçıvan Respublikasının I Sovetlər qurultayında NİK ləğv edildi, Naxçıvan MİK və onun 7 üzv və 2 namizəddən ibarət rəyasət heyəti, həmçinin XKS-nin heyəti seçildi.

*Əd.:* S a d ı q o v S., Naxçıvan Muxtar Respublikası tarixindən. B., 1995.

**NAXÇIVAN İRİPANELLİ EVTİKMƏ KOMBİNATI** – 1980 ildə 3 saylı Sumqayıt Evtikmə Kombinatının sifarişi ilə inşasına başlanılmış,



1984 ildən "135" saylı seriya ilə ümumi həcmi 58 min $m^2$ olan blok seksiya evlər tikilməsi üçün 5 saylı Naxçıvan tikinti trestinin nəzdində evtikmə kombinatı kimi fəaliyyət göstərmişdir. İlk əvvəl Naxçıvan ş.-nin Qoçüstü məhəlləsində, Yeni Naxçıvan yaşayış kompleksində (Çənlibel məhəlləsi), 141-ci məhəllədə 9 və 5 mərtəbəli binalar inşa etmişdir. Ukrayna Respublikasında baş vermiş Çernobıl qəzasının nəticələrini aradan qaldırmaq üçün həmin respublikanın Slavutiç ş.-nin salınmasında iştirak edərək, liftlərlə təchiz olunmuş 9 və 5 mərtəbəli binalar tikmişdir. Nax. MR Ermənistan tərəfindən blokadaya alındığından (1991) kombinatda işlər zəifləmiş və onun fəaliyyəti 1995 ilədək, demək olar ki, tam dayanmışdı. 1 aprel 1997 ildən Naxçıvan Dövlət "Tikintiquraşdırma" Şirkətinin nəzdində keçmiş dəmir beton məmulatı zavodunun bazasında sənaye kombinatı yaradılmış, evtikmə kombinatının z-d hissəsi sənaye kombinatına verilmişdir. Kombinatın dəmir beton məmulatı zavodu yüksək keyfiyyətli məhsul istehsal edir.

**NAXÇIVAN İSTİLİK ELEKTRİK STANSİYASI** – Naxçıvan ş. yaxınlığında, Duzdağ ərazisində elektrik enerjisi istehsal edən İES-lərdən biri. Blokada şəraitində yaşayan Naxçıvan diyarının düşdüyü çətinlikləri aradan qaldırmaq, sosial obyektlərin, o cümlədən elektrik enerjisinin bərpası və yenidən qurulması məqsədilə 1992 ildə tikilmişdir. Naxçıvan əhalisinin elektrik enerjisinə olan tələbatının daha intensiv və yüksək səviyyədə ödənilməsi üçün İES-nın ayrı-ayrı aqreqatlarının gücü artırılmış, elektrik qurğularının istismarı səviyyəsi yüksəldilmişdir. İES-nda tutumu 1000 $m^3$ olan yanacaq çəni quraşdırılmış, qaz-turbin generatorlarının işləməsi üçün zəruri yanacaq ehtiyatı yaradılmışdır (1999).






**NAXÇIVAN KƏND TƏSƏRRÜFATI TEXNİKUMU** – orta ixtisas təhsili məktəbi. 1925 ildə yaradılmışdı. 1972 ildə indiki Babək r-nunun Şıxmahmud kənd toxumçuluq təsərrüfatı ilə birləşdirilərək sovxoz-texnikum adlandırılmış və Şıxmahmud k.-nə köçürülmüşdür. 1975 ildə texnikuma onun məzunu, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin adı verilmişdir. Texnikum indiyədək aqronomluq, k. t.-nın mexanikləşdirilməsi, avtonəqliyyat, mühasibat uçotu ixtisasları üzrə minlərlə kadr hazırlamışdır. Akademiklər Həsən Əliyev, Həsən Abdullayev, professorlar Yunis Səfərov, Hacı Hacıyev, Paşa Zamanov, Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov, Sosialist Əməyi Qəhrəmanları Məmməd Əsgərov, Narı Quliyeva onların arasındadır.

**NAXÇIVAN KONSERVATORİYASI** – musiqi sahəsində ali təhsil müəssisəsi. Naxçıvan Dövlət Un-tinin incəsənət fakültəsinin nəzdində yaradılmışdır (1998, 27 fevral). Fakültədaxili bölmə statusuna malikdir. Konservatoriyada fortopiano, xalq çalğı alətləri, simli alətlər, musiqişünaslıq, ifaçılıq və dirijorluq üzrə ali təhsilli mütəxəssislər hazırlanır. Tədris prosesində ənənəvi Avropa musiqi təhsili sistemi ilə yanaşı, klassik milli musiqi irsinin öyrənilməsinə xüsusi diqqət yetirilir.



N. k.-nın ayrıca tədris korpusu, musiqi kabineti, konsert salonu var. Konservatoriyanın müdavimləri Azərb.-da və Türkiyədə konsert proqramları ilə çıxış etmişlər.

**NAXÇIVAN QƏZASI** – çar Rusiyası hökumətinin Qafqazda inzibati islahat haqqında qanununa (1840, 10 aprel; 1841 il yanvarın 1-dən qüvvəyə minmişdi) əsasən yaradılmış Gürcüstan-İmeretiya quberniyasının tərkibində təşkil edilmiş inzibati ərazi vahidi. Sah. 4378 $km^2$, əh. 86.878 nəfər idi (1896). Naxçıvan, Ordubad, Dərələyəz, Culfa, Şahbuz və s. məntəqələri əhatə edirdi. Mərkəzi Naxçıvan ş. idi. Çar Rusiyasının geosiyasi məqsədlərinə müvafiq olaraq 1849 il 9 iyun tarixli fərmanla N. q. Qərbi Azərb.-dakı İrəvan qub. ilə birləşdirildi; lakin Naxçıvana tam müstəqil idarəçilik statusu verilmişdi. Hakimiyyət qəza rəisinə həvalə edilmişdi. Əsas sərəncamverici, icraedici və nəzarətedici orqan sayılan qəza rəisinin müstəqil xəzinəsi, polis idarəsi, müdafiə qüvvələri, yerli idarə orqanları var idi.

N. q.-nın təsərrüfatında əkinçilik, bağçılıq, maldarlıq, daş duz istehsalı, ipəkçilik, üzümçülük əsas yer tuturdu. 50-ci illərdə və 60-cı illərin əvvəllərində Yevlax–Şuşa–Gorus–Naxçıvan–İrəvan şose yolunun çəkilməsi və işə salınması N. q.-nın ticarət əlaqələrinin genişlənməsində böyük rol oynamışdı. 50–80-ci illərdə qəzada duz istehsalı xeyli artmış, 1841 ildəki 113,8 min puddan 1889 ildə 312 min puda çatmışdı; burada istehsal olunan duz Cənubi Qafqazdan başqa İran, Türkiyə və Mərkəzi Rusiya quberniyalarına da aparılırdı. 1864 ildə Tiflisdən Naxçıvana Azərb.-da ilk teleqraf xətti çəkilmişdi. Sənədlərdə ticarət əlaqələrinin inkişafında Naxçıvan və Ordubad şəhərlərinin rolu xüsusi qeyd olunur və başlıca olaraq duz, bağçılıq məhsulları və xam ipək, habelə qab-qacaq, boyadılmış ipək və s. ixrac edildiyi, kənd təsərrüfatı məhsulları satışından böyük gəlir götürüldüyü göstərilirdi. 1875 ildə N. q.-nda xırda əmtəə tipli onlarla ipəksarıma müəssisəsi fəaliyyət göstərirdi. 80-ci illərdən Naxçıvan və Ordubadda istehsal olunan şərab məşhurlaşmışdı. Görkəmli ictimai xadim Məhəmməd ağa Şahtaxtlı 1907 ildə İrəvan qub.-dan Rusiyanın 2-ci Dövlət Dumasına deputat seçilmişdi.



Naxçıvan qəzasının gerbi. 1840. Azərbaycan Tarixi Muzeyi.

40-cı illərin əvvəllərində Naxçıvanda ilk qəza məktəbi açıldı. 1879 ildən həmin məktəb üçsinifli şəhər məktəbinə çevrildi. 1892 ildə N. q.-ın Cəhri k-ndə ilk xəstəxana (4 çarpayılıq) təşkil edildi. 1905 ildə həmin xəstəxana Naxçıvan ş.-nə köçürüldü. 1905–08 illərdə N.q.-nda 14 çarpayılıq iki xəstəxana (Naxçıvan ş.-ndə 8, Çənənəb k.-ndə 6 çarpayılıq), onların tabeliyində iki aptek və feldşer məntəqəsi olmuşdur.

N. q.-nda çarizmin müstəmləkə siyasətinə, yerli feodalların zülmünə qarşı dəfələrlə xalq həyəcanları baş vermişdi. 1917–20 illərdə N. q. erməni quldur dəstələrinin təcavüzünə məruz qalmış, onlarla kənd viran və yerlə-yeksan edilmiş, minlərlə adam qırılmışdı. 1920 il aprelin 28-dən sonra N. q.-nın ərazisi daşnak quldur dəstələrindən təmizləndi. N. q. 1923 il fevralın 27-dən Naxçıvan Muxtar Diyarının tərkibinə daxil edildi. 1924 il fevralın 9-dan isə Nax. MSSR-in tərkibində qaldı. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən, Azərb.-ın rayonlaşdırılması ilə əlaqədar qəza ləğv edildi və tərkibindəki Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy k.-ləri torpaqları ilə birlikdə Ermənistana birləşdirildi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 4, B., 2000.

**NAXÇIVAN MEBEL FABRİKİ** – meşə və ağac emalı sənayesi müəssisəsi. Bax *Naxçıvan İxtisaslaşdırılmış Mebel İstehsalı və Təmiri Baza Müəssisəsi.*

**NAXÇIVAN MEMARLIQ MƏKTƏBİ** – orta əsr Azərb. memarlıq məktəblərindən biri.

11 əsrdən formalaşmağa başlamış, orta əsr Azərb. memarlığının üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir. Naxçıvan ş.-nin Azərb. atabəylərinin [1136–1225] iqamətgahına çevrilməsi nəticəsində N. m. m. yüksəliş dövrünə çatmış, *Əcəminin* fəaliyyəti ilə Yaxın Şərq memarlığında əhəmiyyətli rol oynamışdır. Əcəminin yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir. Onun memarlıq üslubu, memarlıq məktəbi Şərq aləminin böyük bir hissəsində davam edib, kompozisiyalı abidələr yaratmışdır. N. m. m.-nin üslub xüsusiyyətlərinin müəyyələşməsində və nüfuzunun artmasında 12 əsrdə Azərb.-ın mədəni həyatındakı ümumi yüksəliş, yerli dövlət hakimiyyətinin möhkəmlənməsi, şəhərlərin iqtisadi vəziyyətinin yaxşılaşması, ölkədə ədəbiyyatın və fəlsəfi fikrin inkişafı, humanizm ideyalarının yayılması mühüm rol oynamışdır. N. m. m. dövrün ən mükəmməl inşaat quruluşlarının tətbiqi, binanın texniki quruluşu ilə onun bədii həllinin tektonikliyinə nail olunması baxımından ən yüksək səviyyəyə qalxmışdı. Azərb. xatirə memarlığının təkamül prosesində N.m.m.-nin, özəlliklə Əcəmi Əbubəkr oğlu və *Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin* böyük xidmətləri olmuşdur. İkiqatlı quruluşu (yeraltı sərdabə və yerüstü qüllə) olan türbələrin üst bölümü silindr, kub və ya prizma biçimli gövdədən ibarət olub ikiqatlı günbəzlə örtülürdü. Əcəmi Naxçıvaninin dövrümüzədək gəlib çatmış iki əsəri prizmatik gövdəli türbələrdir. Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani isə yuvarlaq (silindrik) gövdəli türbələr yaratmışdır. N. m. m.-nə məxsus tikililər *(Yusif ibn Küseyir türbəsi, Möminə xatın türbəsi və s.)* ümumi quruluşunun abidəviliyi, ayrıntılarının zərifliyi, memarlıq bölgülərinin nikbinlik doğuran görkəmi, ornament bəzəklərinin oynaqlığı ilə səciyyələnir.

N. m. m. dəqiq riyazi hesablama metodlarına əsaslanırdı. Abidələr dəqiq hesablanma və ölçülmələr, planlaşma, yerləşmə, ornamentlərin və kitabələrin dəqiq düzülməsi əsasında tikilirdi. Abidələrin modul sistemi, mütənasiblik sxemləri, tağların və günbəzlərin quruluşu, səkkizkünc səthlərin dəqiq ölçüsü riyazi hesablamasız mümkün deyildi. Memar Əcəmi dərin riyazi biliyi sayəsində abidələrin mütənasibliyi, tağ, günbəz, ornamentlərin və bəzəklərin mürəkkəb strukturu problemlərini zərgər dəqiqliyi ilə həll edirdi. Yaxın Şərq və Asiya ölkələri memarları N. m. m.-ndən və Əcəmi dühasından bəhrələnmiş, milli memarlıq məktəbləri yaratmışlar.

*Əd.:* S a l a m z a d ə Ə. V., Əcəmi Naxçıvani, B., 1976; Q i y a s i C., Azərbaycan xatirə memarlığının təkamül prosesində Naxçıvan memarlığının rolu, Naxçıvan Dövlət Un-tinin "Elmi əsərləri", 1999, № 4.

Naxçıvan mədəniyyəti tapıntıları:
1. Monoxrom boyalı küpə (Kültəpə II).
2. Monoxrom boyalı tək qulplu küpə (Kültəpə II).
3. Polixrom boyalı çıraq (Culfa).




**NAXÇIVAN MƏDƏNİYYƏTİ** – əsasən, Nax. MR ərazisində yayılmış Tunc və ilk Dəmir dövrlərinə (e. ə. 2-ci minillik –1-ci minilliyin əvvəlləri) aid arxeoloji mədəniyyət. 1896, 1904 və 1926 illərdə *Qızılvəng məbədi* yaxınlığında N. m.-nə aid daş qutu qəbir abidələri aşkar olunmuşdur. N. m.-ni səciyyələndirən əsas saxsı məmulatı həndəsi naxışlarla, insan, heyvan, quş rəsmləri, müxtəlif piktoqrafik işarələrlə bəzədilmiş və yüksək sənətkarlıqla hazırlanmış boyalı qablardır. N. m. üçün erkən şəhər mədəniyyəti (Kültəpə, qədim Naxçıvan, Oğlanqala, Qız qalası, Qazançı, Govurqala, Qalacıq), yaşayış yerləri (Şortəpə, Nəhəcir, Meydantəpə, Kərki, Əznəbürt, Vayxır, Dəmirçilər və s.), siklop tikililəri, istehkamlar, torpaq və daş qutu qəbirlər, kurqanlar xarakterikdir.

N. m. dörd inkişaf mərhələsi keçirmişdir: 1-ci m ə r h ə l ə (e. ə. 20–17 əsrlər) üçün qırmızı rəngli monoxrom naxışlı (qara rəngli) qulpsuz küpə, çölmək, kasa və xeyrə tipli qablar səciyyəvidir. Qara və boz rəngli, qismən cilalı, cızma, çərtmə, basma və yapma naxışlı sadə saxsı nümunələrinə də təsadüf edilmişdir. Boyalı qablar dalğalı, sınıq və düz xətlər, bucaq, üçbucaq, trapesiya, romb və dairələrlə bəzədilmişdir. Bəzi qabların (Nəhəcir, Yaycı) üzərində insan, keçi, maral və quş təsvirləri var. 2-ci m ə r h ə l ə d ə (e. ə. 17–15 əsrlər) mürəkkəb həndəsi motivlər, insan, heyvan və quş rəsmləri (Kültəpə II, Şahtaxtı, Qızılvəng) ilə zövqlə naxışlanmış boz və sarı



rəngli polixrom qablar yayılmışdır. Qabların üzəri açıq çəhrayı və sarı rənglə örtülmüş, tünd qırmızı, qəhvəyi, qara və ağ rənglərlə bəzədilmişdir. 3-cü m ə r h ə l ə y ə (e. ə. 14–11 əsrlər) nisbətən səliqəsiz naxışlanmış çaydan, vaza, qədəh, küpə tipli polixrom boyalı qablar, eləcə də boz və qara rəngli sadə saxsı məmulatı aiddir. 4-cü m ə r h ə l ə y ə (e. ə. 10–7 əsrlər) aid qablar əvvəlki mərhələnin materiallarından fərqlənmir, lakin daha kobud və bəsit naxışlanmışdır.

N. m. abidələrindən daş toppuzlar, tunc xəncər, ox ucluğu, biz, sancaq, quş və s. formalı girdə asmalar, bilərzik, sırğa və üzüklər, qızıl sırğa, əqiq və pastadan müxtəlif formalı muncuqlar, həmçinin dəmir bilərzik, xəncər, ox ucluqları da tapılmışdır. Əkinçi-maldar tayfalara aid N. m. əhalisi sənətkarlıq (metaləritmə, dulusçuluq, toxuculuq), duz, mis, dəmir və s. istehsalı ilə məşğul olmuşdur. N. m. tayfaları Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə sıx iqtisadi, mədəni əlaqə saxlamışlar. N. m. abidələri Azərb.-ın qədim əhalisinin təsərrüfat, ictimai və mənəvi həyatını, incəsənətini öyrənmək üçün qiymətli mənbələrdir.

*Əd.:* H ə b i b u l l a y e v O. H., Kültəpədə arxeoloji qazıntılar, B., 1959; Ə l i y e v V. H., Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977.

**NAXÇIVAN MƏDRƏSƏLƏRİ** – orta əsrlərdə mövcud olmuş dini məktəblər (bax *Mədrəsələr*).

**NAXÇIVAN MƏSƏLƏSİ** – tarixi qaynaqlardan aydın olur ki, bugünki Ermənistan ərazisinin 80 faizindən çoxu Azərb. torpaqları olmuşdur. Bu torpaqlar Gülüstan müqaviləsi (1813) və Türkmənçay müqaviləsi (1828) ilə Azərb.-ın şm. hissəsinin Rusiya tərəfindən işğalının başa çatmasından, İrəvan xanlığının ləğvindən sonra ermənilərə verilmişdir. Naxçıvan, Zəngəzur, Qarabağ ərazilərinə göz dikən ermənilərin əcdadları bu qədim yurda 1828 ilin mart ayında Rusiyanın yaratdığı xüsusi komissiya tərəfindən köçürülmüş, 2 il içərisində Naxçıvana əvvəlcə 434, sonra 2285 ailə (10 mindən çox adam) gətirilmişdi. Köçürmə kampaniyası çarizmin zorakılıq siyasəti nəticəsində baş tutmuşdu. "Dənizdən-dənizə" "Böyük Ermənistan" xülyası ilə yaşayan üzüdönük məkrli erməni qəsbkarları ərazi iddialarına başladılar. Bu proses 20 əsrdə daha da genişləndi. Ermənilərin təqsiri üzündən istər 20 əsrin əvvəllərində, istərsə də 1918–20 illərdə Naxçıvan, Şərur, Dərələyəz, Culfa və Ordubadda baş verən ictimai-siyasi hadisələr, ermənilərin azərb.-lılara qarşı soyqırımı cinayətləri dəhşətli, faciəli şəkil almışdı. Bunlar Cənubi Qafqaz sərhədləri çərçivəsindən çıxaraq, beynəlxalq aləmi düşündürən mühüm bir problemə çevrilmişdi. N. m. 1918 ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918–20 illərdə dəfələrlə Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasında və parlamentində, erməni Milli Şurasında, Ermənistanın, Türkiyənin parlamentlərində, Təbriz bələdiyyə idarəsində, Maku xanlığında, Parisdə Versal Sülh konfransında (1919), 1919–20 illərdə ABŞ-ın Ermənistan və Naxçıvandakı nümayəndəliklərində, 1920–21 illərdə Azərbaycan Sovet Respublikası və Ermənistan Sovet Respublikasının inqilab komitələrində, 1921 il martın 16-da RK(b)P-nin siyasi bürosunda, 1920–21 illərdə RSFSR Xalq Komissarları Sovetində müzakirə olunsa da, Naxçıvanın əsl mənada tarixi taleyini – Azərb.-ın tərkibində muxtar respublika statusunu yalnız *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* təsbit etdi. Moskva və Qars müqavilələrində Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan dövlətləri Naxçıvanı Azərb.-ın tərkibində muxtar qurum kimi tanıdılar və ona beynəlxalq hüquqi təminat verdilər.

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ. Hacıyev), B., 1999.

**NAXÇIVAN MUXTAR DİYARI**, N a x ç ı v a n M u x t a r Ö l k ə s i – Nax. SSR-in Azərb. SSR tərkibində muxtariyyəti statusunun rəsmiləşdirilməsinin növbəti mərhələsində (1923, 27 fevral – 1924, 9 fevral) totalitar sovet rejiminin təzyiqi altında yaradılmış muxtar qurum; *Moskva müqaviləsinin* (1921) və *Qars müqaviləsinin (1921)* şərtlərinin ziddinə olaraq Nax. SSR muxtariyyətinin məhdudlaşdırılmasını, onun Nax. SSR muxtariyyətinin Azərb. SSR-in protektoratlığı altında təşkil edilməsini deyil, diyarın məhdud muxtar vilayət hüququnda ona birləşdirilməsini nəzərdə tuturdu. İlk dəfə 1922 ilin dekabrında Cənubi Qafqaz (Z a q a f q a z i y a) I Sovetlər qurultayında irəli sürülmüş və müvafiq qərar qəbul edilmiş, 1923 ilin yanvarında isə RK(b)P Cənubi Qafqaz Diyar Komitəsi hə-

min məsələni müzakirə edərək Cənubi Qafqaz I Sovetlər qurultayının qərarına əsasən Nax. SSR-i muxtar vilayətə çevirməyi AK(b)P MK-ya tövsiyə etmişdi. Bundan sonra nəhəng təbliğat maşını işə salınmış, AK(b)P Naxçıvan Diyar Komitəsinin 1923 il 5 fevral tarixli qərarı ilə həmin məsələ "ümumxalq müzakirəsinə" verilmiş və "zəhmətkeşlər tərəfindən yekdilliklə bəyənildikdən" sonra AK(b)P Naxçıvan Diyar Komitəsinin Rəyasət Heyətində (20 fevral) və AK(b)P Naxçıvan diyar təşkilatının III qurultayında (23 fevral) təsdiq edilmişdi. III Ümumnaxçıvan Sovetlər qurultayı (1923, 27 fevral) partiya orqanlarının həmin qərarını "müzakirə edərək" Nax. SSR-in muxtar diyar hüququnda Azərb. SSR-in tərkibinə daxil edilməsi barədə müvafiq qətnamə və bəyannamə qəbul etmişdi. Qurultayın qərarı ilə Naxçıvan MİK-i, XKS-i və bütün komissarlıqları buraxılmış, diyarı idarə etmək üçün 17 üzv və 7 namizəddən ibarət Naxçıvan Diyar İcraiyyə Komitəsi (NDİK) seçilmişdi; Naxçıvan, Şərur və Ordubad qəzaları ləğv edilmiş və N.M.D-nın bütün ərazisi altı dairəyə – Tumbul, Cəhri, Əbrəqunis, Şahtaxtı, Noraşen və Ordubad dairələrinə bölünmüşdü.

1923 il iyunun 16-da Azərb. MİK-in sessiyası Naxçıvan Sovetlər qurultayının Naxçıvan diyarının muxtariyyət hüquqları əsasında Azərb. SSR-in tərkibinə daxil edilməsi haqqında xahişini bəyənərək N.M.D. haqqında Əsasnamə qəbul etmişdi. Diyarda ali hakimiyyət orqanı NDİK tərəfindən ildə bir dəfə çağırılan Naxçıvan Diyar Sovetlər Qurultayı (NDSQ) idi. Ali icraedicilik və sərəncamvericilik orqanı sayılan NDİK NDSQ qarşısında hesabat verirdi. Nax. SSR-in ləğv edilmiş xalq komissarlıqları əvəzinə NDİK-in torpaq, daxili işlər, səhiyyə, maarif, sosial təminat, ticarət və s. şöbələri yaradıldı.

N.M.D. daha çox inzibati-ərazi muxtariyyəti prinsiplərinə uyğun idi və yüksək milli-ərazi muxtariyyəti tələblərinə az cavab verirdi. Halbuki ərazicə Azərb.-dan ayrı salınmış Naxçıvan diyarına geniş səlahiyyətli siyasi hüquqlar verilməsi bilavasitə 1921 il Moskva və Qars müqavilələrinin şərtlərindən irəli gəlirdi. Naxçıvanın muxtariyyəti məsələsinə yenidən baxılması, görünür, elə məhz bu zərurətdən doğmuşdu. 1923 il dekabrın 31-də Azərb. MİK N.M.D.-nın Azərb. SSR tərkibində Nax. MSSR-ə çevrilməsi haqqında qərar qəbul etdi; qərar Cənubi Qafqaz MİK-in yanvar 1924 il tarixli birinci plenumunda təsdiq edildi. Azərb. SSR MİK-in 9 fevral 1924 il tarixli dekreti ilə N.M.D-nın Naxçıvan MSSR-ə çevrilməsi təsbit edildi.

*Əd.:* M ə d ə t o v Q. Ə., Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili, B., 1958; S a d ı q o v S., Naxçıvan Muxtar Respublikası tarixindən, B., 1995.

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI** (1920–23 illərdə Naxçıvan Sovet Sosialsit Respublikası, 1923–24 illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90 illərdə Naxçıvan Muxtar Sovet Sosialsit Respublikası, 1990 ildən Naxçıvan Muxtar Respublikası) – Azərb. Respublikasının tərkibində muxtar dövlət. Şm.-da və ş.-də Ermənistan Respublikası (sərhəd xəttinin uz. 246 *km*), q.-də və c.-da Türkiyə (11 *km*) və İran İslam Respublikası (204 *km*) ilə həmsərhəddir. Nax. MR-in Ermənistan ilə təbii sərhədini, əsasən, Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şm.-q.-dən c.-ş.-ə. doğru 158 *km* məsafədə uzanır. Muxtar respublikanın şm.-da ən ucqar nöqtəsi Saraybulaq silsiləsinin Şərur r-nu ərazisindəki Kömürlü dağı (2064 *m*), ən c. nöqtəsi isə Arazın sol sahilində 600 *m* yüksəklikdə yerləşən Zerəni d.-y. st.-dır. Şm.-dan c.-a doğru ən böyük məsafəsi 75 *km*-ə bərabərdir. Qədim Azərb. torpağı Zəngəzurun 1920 ildə "sovet rəhbərliyi" tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44–45 *km* enində zolaq Araza doğru uzanaraq, Nax. MR-i Azərb. Respublikasının qalan ərazisindən ayırmışdır. 1924 ildə Nax. MSSR-də 3 qəza və 12 dairə təşkil olunmuş, 1925 ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdi: Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunis, Nərimanov, Culfa, Parağa və Ordubad. 1930 ilin birinci yarısında Şahbuz r-nu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa, Ordubad, Əbrəqunis r-nları yaradıldı. 1948 ildə Əbrəqunis r-nu Culfa r-nu ilə birləşdirildikdən sonra Nax. MSSR inzibati cəhətdən beş rayona [Naxçıvan (1978 ildən Babək), Şərur, Şahbuz, Culfa və Ordubad] bölünmüşdür. 1990 il avqustun 28-də Azərb. SSR Ali Sovetinin fərmanına əsasən Türkiyə ilə həmsərhəd bölgənin sosial-iqtisadi inkişafını da-



ha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq, Sədərək k. və ona məxsus ərazilər əsasında Sədərək r-nu yaradılmışdır. 1929 il fevralın 18-də Zaqafqaziya MİK totalitar inzibati-amirlik şəraitində Nax. MSSR-in 9 kəndinin – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran k.-lərinin, Ordubad dairəsinin Qorçevan k.-nin, habelə Kilit k. torpaqlarının bir hissəsinin, əkin sahələri və otlaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Zaqafqaziya MİK-in Naxçıvanın sərhədləri məsələsinə baxması, Moskva müqaviləsi (1921) və Qars müqaviləsi (1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması, Azərb. xalqına qarşı əsl xəyanətkarlıq və cinayət idi.

Muxtar respublika ərazisinin sah. 5,5 min $km^2$ (Azərb. Respublikası ərazisinin 6,4%-i), əh. 361,2 min nəfərdir (2001, avqust). Hazırda 6 inzibati r-na (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur) bölünmüşdür; 4 şəhəri (Azərb. Respublikası tabeliyindəki Naxçıvan ş., Nax. MR tabeliyindəki Ordubad və Culfa ş.-ləri, rayon tabeliyindəki Şərur ş.), 4 ştq. (Babək, Şahbuz, Parağaçay, Heydərabad), 207 kənd və qəs. var (2001). Paytaxtı Naxçıvan ş.-dir.

**İdarəetmə quruluşu.** Nax. MR Azərb. Respublikasının tərkibində muxtar dövlətdir. 1995 il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərb. Respublikasının Konstitusiyasına əsasən Nax. MR Azərb. Respublikasının ayrılmaz tərkib hissəsidir və onun statusu bu Konstitusiya ilə müəyyən edilir.

Nax. MR-də qanunvericilik hakimiyyətini Nax. MR-in parlamenti – Ali Məclisi, icra hakimiyyətini Nax. MR-in Nazirlər Kabineti, məhkəmə hakimiyyətini muxtar respublikanın məhkəmələri həyata keçirir.

Konstitusiyaya əsasən, Nax. MR Ali Məclisinin sədri muxtar respublikanın ali vəzifəli şəxsidir. O, Ali Məclisdə seçilir. Nax. MR Ali Məclisi 45 deputatdan ibarətdir. Muxtar respublikanın şəhər və rayon ərazi vahidləri icra hakimiyyətləri tərəfindən idarə edilir. İcra hakimiyyətlərinin başçıları Nax. MR Ali Məclisi sədrinin təqdimatı ilə Azərb. Respublikası Prezidenti tərəfindən təyin olunur. Naxçıvan MR-də yerli idarəetmə orqanları – bələdiyyələr fəaliyyət göstərir.

**Təbiət.** Nax. MR Kiçik Qafqazın c.-q.-ində yerləşir. Azərb. Respublikası ərazisinin geomorfoloji rayonlaşdırılması bölgüsündə Nax. MR-in ərazisi Kiçik Qafqaz geomorfoloji vilayətinin Arazyanı dağlar və Naxçıvan (Orta Araz) çökəkliyi yarımvilayətlərinə aid edilir. Arazyanı dağlar yarımvilayəti muxtar respublika ərazisində Dərələyəz və Zəngəzur silsilələrini, Naxçıvan çökəkliyi geomorfoloji yarımvilayəti isə, əsasən, Arazboyu düzənlikləri əhatə edir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 *m*-dir. Ərazinin üçdə iki hissəsi hünd. 1000 *m*-dən yuxarı olan dağlıq sahələrdir. Ərazinin üçdə bir hissəsini isə bir-birindən dağ qolları və tirələrilə ayrılan maili Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa, Yaycı, Kəngərli, Dəstə, Ordubad və s.) tutur. Bu düzənliklərin ümumi sah. 10 min *ha*-a qədərdir. Arazboyu düzənliklərin ən geniş yeri Şərqi Arpaçayın mənsəb hissəsində olub, bu ərazidə bir tərəfdən tektonik çökmənin, digər tərəfdən isə akkumulyasiya prosesinin getməsi nəticəsində yaranmışdır.

**Relyef**. Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların Araz çayının dərəsinə doğru uzanan və müasir relyefdə orta və alçaq dağlıq yaradan qolları əhatə edir. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsilələrindəndir; ən hündür zirvəsi Qapıcıq d. (3906 *m*) eyni zamanda Kiçik Qafqazın Azərb. Respublikası ərazisində ən yüksək zirvəsidir və daimi qar xəttindən 41 *m* yuxarıda yerləşir. Alt Pliosen yaşlı kiçik intruzivlər və ekstruzivlər silsilənin c.-q. yamacında konusvarı, günbəzvarı çıxıntılar yaradaraq, təkrarolunmaz relyef əmələ gətirirlər. Hündür zirvələri: Yağlıdərə d. – 3827 *m*, Qazangöldağ – 3814 *m*, Sarıdərə d. – 3754 *m*, Dəvəboynu d. – 3560 *m* və s. Dağ aşırımlarının mütləq hünd. 2346 *m*-lə (Biçənək aşırımı), 3362 *m* (Ayçonqal aşırımı) arasındadır.

Dərələyəz silsiləsi muxtar respublika ərazisinin şm.-q. hissəsində yerləşir və Zəngəzur silsiləsinə nisbətən alçaqdır (ən uca zirvəsi





Kükückdağ – 3120 *m*). Silsilənin Cəhri çayından q.-dəki hissəsi qövs şəklində c.-a doğru uzanaraq alçalır. Burada ən hündür zirvə Keçəltəpə d.-dır (2740 *m*). Silsilənin muxtar respublika ərazisinə daxil olan hissəsi mürəkkəb oroqrafik quruluşa malikdir. Bu mürəkkəblik relyefdə, xüsusilə Keçəltəpə d.-ndan c.-da daha aydın nəzərə çarpır. Silsilədən Qaranquş, Cəhri, Qaraultəpə, Rəmlər və Buzqov qolları ayrılır. Dərələyəz silsiləsinin Cəhri çayından ş.-dəki əsas hissəsi ş.-ə və c.-q.-ə doğru uzanır. Burada mütləq yüksəklik 2900–3110 *m*-dir (Sipər d. – 3117 *m*, Keçəldağ – 3118 *m*, Kükückdağ ). Silsilənin suayırıcısı bəzən ensiz, bəzən də geniş və hamardır. Dərələyəz silsiləsinin şm.-ş. qurtaracağı hünd. 3087 *m* olan adsız zirvənin yaxınlığında Zəngəzur silsiləsi ilə birləşir. Silsilənin c.-q. hissəsi isə Cəhri və Naxçıvan çaylarının arası ilə uzanır.

Muxtar respublika ərazisinin şm.-q. qurtaracağı mürəkkəb oroqrafik quruluşa malikdir. Buradakı dağ zirvələrinin hünd. 2000–2100 m-dən artıq deyil (Kömürlü – 2064 *m*, Ardıc – 2034 *m*, Mehridağ – 1869 *m*, Qabaqyal – 1824 *m*); əsasən alçaq və orta dağlıqdan ibarətdir. Respublikanın orta və alçaq dağlıq zonalarında müasir relyefdə tam əksini tapmış Miosen-Alt Pliosen yaşlı qalxmalar (Ağqaya, Darıdağ, Qaraquzey) və çökəkliklər (Paradağ, Nurs, Tirkeş) inkişaf etmişdir.

**Geoloji quruluş və faydalı qazıntılar**. Nax. MR ərazisində Yerin müxtəlif yaşlı geoloji qatlarının aydın çıxışları, təkrarolunmaz və cazibədar intruziv süxurların mövcudluğu geoloqların və səyyahların diqqətini hələ 18 əsrin ortalarından cəlb etmişdir. Bu, istər Qərbi Avropa, istərsə də Rusiyanın geoloji ədəbiyyatında Alp qurşağının stratiqrafik məsələlərinin həllində öz əksini tapmışdır. Alp qurşağında bənzəri olduqca az tapılan Naxçıvan lakkolitləri və Culfa dərəsində Paleozoyun ardıcıl qatları dünya şöhrəti qazanmış və bu günədək klassik qiymətini itirməmişdir. Faydalı qazıntı sahələrində (Duzdağ, Darıdağ,





Şəkərdərə, Gömür, Quyuludağ, Qızılqaya və s.) mağaraların, quyuların aşkar olunması, ibtidai əmək alətlərinin tapılması Naxçıvan ərazisində hələ qədim vaxtlardan duz, mərgmüş, mis, qızıl, kükürd və s. çıxarıldığını göstərir; orta əsrlərdə Azərb.-da elmi-təsviri mineralogiya traktatları – "Cavahirnamə" yaranmışdır. Ərazidə ilk geoloji tədqiqatlar və mineral sərvətlərin öyrənilməsi 18 əsrin 2-ci yarısından başlanmış, planauyğun surətdə müntəzəm öyrənilməsi isə Nax.MR yarandıqdan sonrakı dövrə aiddir.

Muxtar respublikanın ərazisi geoloji cəhətdən Kiçik Qafqazın Naxçıvan qırışıqlıq tektonik zonasında yerləşir. Digər tektonik zonalardan fərqli olaraq, geoloji quruluşu ümumi qalınlığı 14 *km*-ə qədər Kaynozoy (Yerin geoloji tarixinin son 65 mln. ili), Mezozoy (65–248 mln. ili), Paleozoy (248–540 mln. ili) dövrlərinin çökmə, vulkanogen-çökmə, yerüstü vulkanların püskürmə qatlarından və intruziv, metamorfik komponentlərindən təşkil olunmuşdur. Bunların yer üzərində çıxışları ərazinin 400 mln. illik geoloji tarixini bərpa etməyə imkan verir. Naxçıvan qırışıqlıq zonasının tektonik quruluşunda Hersen qırışıqlığını təmsil edən Şərur–Culfa antiklinoriumu, Alp qırışıqlığında yaranmış Ordubad sinklinoriumu və Naxçıvan çuxuru iştirak edir. Tektonik quruluşun özülü isə Baykal tektonik siklində (600 mln. il bundan əvvəl) yüksək dərəcədə metamorfizmə uğramış müxtəlif mənşəli və tərkibli (çöküntü, maqmatik və s.) süxur qatları təbəqələrindən, Yer qabığının "qranit" qatından ibarətdir. Onların Yer səthinə yaxın yatımlarına Devon-Trias çöküntülərinin çıxışları sahəsində təsadüf olunur və Dəhnə dayaq quyusunda 331 *m* dərinlikdə 1414 *m*-ə qədər kəsiliblər. Dəhnə qalxıntısının Arazın sağ sahilində metamorfik süxurlar Yer səthinə çıxır. Ərazinin dərinlik quruluşunda Yer qabığının qalınlığı 48–54 km olaraq, "qranit" qatı 15–20 *km*-ə, "bazalt" qatı 20–25 *km*-ə çatır.

Ş ə r u r–C u l f a  a n t i k l i n o r i u m u terrigen-karbonat və karbonat fasiyası və qalınlığı 3000–3600 m-ə çatan Devon, Alt Karbon, Perm və Triasın lay qatları Dərələyəz qitəkənarı açıq dəniz hövzəsinin (400–211 mln. illər arasında) çökmə süxurlarıdır. Dərələyəz dənizi ərazidə uzun sürən kontinental quru paleocoğrafi şəraiti əvəz etmişdi. Orta və Üst Karbon dövründə hövzənin geotektonik inkişafını təmsil edən boksit təzahürləri Yer qatının laterit aşınmasının məhsuludur. Dərinlik qırılmalarında yerləşən kvarslı qabro-dolerit kiçik intruziyaları ilə Gümüşlü sink-qurğuşun yatağı və təzahürləri əlaqədardır (Gümüşlü mədəni uzun müddət istismar olunmuşdur). Paleozoy və Triasın çökmə süxurlar qatında geniş yayılmış məmulat daşları (çəhrayı dolomit, araqonit), tikinti daşları (qara mərmər, mozaika lövhələri üçün rəngli üzlük daşlar) və şüşə məmulatı (kvarsitlər, kvarsitli qumdaşılar) yerli sənaye üçün əhəmiyyət kəsb edir.

O r d u b a d  s i n k l i n o r i u m u muxtar respublika ərazisinin ş. və şm.-ş. sahələrini əhatə edərək, kənar sərhədləri q.-də Culfa-Əznəbürt qırılması, ş.-də isə Zəngəzur silsilə-





### DÖRDÜNCÜ DÖVR

- $Q_{IV}$ Müasir şöbə — allüvial çöküntüləri: qaya və çaqıl daşları, qumlar, qumluca.
- $Q_{III}$ Üst şöbə — allüvial-prolüvial çöküntüləri: gilcə, qumluca, gillər, alevritlər, qumlar.
- $Q_{III}$ Üst şöbə — allüvial çöküntüləri: qaymalar, çınqıl, çaqıl daşları, qumlar.
- $Q_{II}$ Orta şöbə — allüvial-prolüvial çöküntüləri: qayma daşları, çaqıl, çınqıl, qumlar.
- $Q_{II}$ Orta şö'bə — travertinli və əhəngdaşlı konqlomeratlar.
- Alt şöbə — travertinli əhəngdaşları və travertinlər.
- $Q_{I}$ Alt şöbə — moren və flüvioqlyasial çöküntülər.
- Alt şöbə — əhəngdaşlı konqlomeratlar.

### NEOGEN SİSTEMİ

- $N_2^1$ Alt pliosen — biçənək qatı: andezit, andezit-bazalt, bazalt, andezit-dasit lavaları və piroklastları.
- Üst miosen, üst sarmat- alt meotis, gipsli qumdaşları, gillər, mergellər, alevritlər.
- Üst miosen,alt və orta sarmat: gipsli-duzlu gillər, alevritlər, qumdaşları.
- $N_1^2$ Orta miosen: gipsli-duzlu qumdaşları,alevritlər, gillər, konqlomeratlar və vulkanitlər.
- Orta miosen, tarxan və çokrak — kaşırdağ qatı: traxiandezit və latit vulkanik brekçiyaları, tufları və avtoklastitləri.
- Alt miosen, akvitan və burdiqal — əlvan qat: gillər, qumdaşları, silisli əhəngdaşları.
- Üst oliqosen — alt miosen — qırmızı rəngli qat: tuflu qumdaşları, alevritlər, gillər və əhəngdaşları.

### PALEOGEN SİSTEMİ

- $P_3$ Oliqosen — əbrəqunis kobud dənəli molass qatı: tuflu vulkanitlər,tuffitlər,qravelitlər, qayma konqlomeratlar və brekçiyalar.
- Üst eosen, priabon — piradaş qatı: tufogen-terrigeneral flişoidlər və mergelli əhəngdaşları.
- Orta — üst eosen:qumdaşları, alevritlər, gillər, əhəngdaşları və mergellər əsasında bazal konqlomeratları
- Orta eosen, üst lüutet — piroklastik qatı: şoşonit, latit, traxit, traxiandezit, traxidasit,andezit və andezibazalt alqomerat tufları,vulkanik brekçiyaları, yanmış tuflar, bə'zən lavalar.
- Orta eosen, lüutet — vulkanogen çökmə, tufogenterrigen fliş qatı, vulkanit, əhəngdaşı və orta hissəsində bazal konqlomerat layları ilə.
- Alt eosen, ipr-vulkanogen qatı: bazalt, andezit, andezidasit, liparit və onların subqələvi fərqlərinin lavaları, piroklastları və tufovulkanitləri.
- Paleosen — alt eosen: siklli karbonatlı qumdaşlı gilli fliş.

### TƏBAŞİR SİSTEMİ

- $K_2m$ Üst təbaşir, maastrixt: karbonat-terrigen fliş.
- $K_2cp$ Üst təbaşir, kampan: əhəngdaşları və qumlu əhəngdaşları, mergellər və gillər.
- Üst təbaşir, santon və kampan: silisləşmiş əhəngdaşları, çəp laylanmış əhəngdaşları və gillər.
- Üst təbaşir, üst konyak və santon: gillər, əhəngdaşları, mergellər, qumdaşları və qravelitlər.
- Üst təbaşir, üst turon — alt konyak vulkanogen qatı: bazalt və liparit — dasit lavaları, lava brekçiyaları və tufovulkanitləri.
- Üst təbaşir,turon və konyak:silistli argelitlər,qumdaşları, tuflu qumdaşları, tuflu brekçiyalar və mərmərləşmiş əhəngdaşları.
- Üst təbaşir, senoman — turon: kvarslı qumdaşları,qravelitlər, konqlomeratlar və növbələnən argillitlər, tuffitlər, tuflu konqlomeratlar.

### YURA SİSTEMİ

- Orta və üst yura, aalen-kellovey: gillər, qumdaşları, mergellər, kvarslı qravelit qumdaşları.
- $J_1$ Alt yura: vulkanogen qatı — subqələvi yüksək titanlı bazalt lavaları, tufovulkanitləri və subvulkanları.

### TRİAS SİSTEMİ

- $T_3$ Üst trias: silistli çəhrayı dolomitlər.
- $T_2$ Orta trias: mergelli əhəngdaşları və onların dolomitləşmiş fərqləri.
- $T_1$ Alt trias: fukoid və gilli-bitumlu əhəngdaşları.

### PERM SİSTEMİ

- $P_2u\text{-}d$ Üst perm, ufa-culfa: kütləvari və orta laylı üzvi-bitumlu, qumlu əhəngdaşları və bəzən nazik qatlı alanslar və pelitomorf əhəngdaşları.
- $P_1s\text{-}k$ Alt perm, sakmar-kunqur: gilli-bitumlu nazik və qalın laylı əhəngdaşları.

### DAŞKÖMÜR SİSTEMİ

- Alt karbon,turne-alt vize: əhəngdaşları, kvarsitlər və gilli şistlər.

### DEVON SİSTEMİ

- Üst devon, famen: əhəngdaşları, gilli şistlər, kvarsitlər, bəzən qumdaşları və argillitlər.
- Üst devon, fran: əhəngdaşları, gilli-mergelli şistlər, kvarsitli qumdaşları, kvarsitlər.
- Orta devon, eyfel-jivet: müxtəlif əhəngdaşları, gilli şistlər, kvarsitlər, qumdaşları, argillitlər.
- Alt və orta devon, emss-jivet: müxtəlif əhəngdaşları, kvarsitlər, qumdaşları, şistlər, argillitlər.

### İNTRUZİV KÜTLƏLƏRİ

- Orta miosen: teşenitlər.
- Alt miosen: diorit və kvarslı diorit- profirlər.
- Alt miosen-üst oliqosen: profirvari-kvarslı siyenitdioritlər, qranosiyenitlər, qranodioritlər.
- Həmçinin, qranodiorit-profir, kvarslı diorit-profir və lamprofir daykaları və dayka qurşaqları.
- Üst eosen: subqələvili qabbro və qabbro-dioritlər, monsodioritlər, monsonitlər, qranosiyenitlər, monsoqranodioritlər və lamprofir daykaları.
- Orta eosen: qranodioritlər, adamellitlər, qranitlər və onların metabazit ksenolitləri və aqmotitləri ilə hibrid müxtəlifliyi, kvarslı monsolitlər, monsolitlər və qranodiorit - profirlərin daykaları, kvarslı və kvarssız diabazların lamprofirləri.

### SUBVULKANİK İNTRUZİYALAR VƏ EKSTRTUZİYALAR

- Alt pliosen: doleritlər, andezitlər, andezidasitlər.
- Oliqosen: andezit və kvars andezit avtoklastitləri.
- Alt eosen: andezitlər, dasitlər, liparitlər, diabazlar.
- Permdən əvvəlki qabbrodoleritlər və doleritlər.
- Amfibollaşmış olivinli piroksenitlərin qayma ksenoliti.
- Metabazitlər və amfibolitlər.
- Qırılmalar.








sindən sonra Giryataq qırılması ilə izlənir. Sinklinoriumun müstəqil geotektonik inkişafı Mezotetisin dərya qabıqlı Zəngəzur troqunun Üst Tabaşirdə bağlanmasından sonra davam etmişdi. Onun quruluşunda iştirak edən Mezokaynozoy qatları müxtəlif geodinamik şəraiti təmsil edir. Sinklinoriumun q. kənarındakı Alt Yura yaşlı bazalt vulkanizmi ərazidə riftogen proseslərin başlanğıcından və Zəngəzur dərya qabıqlı dərin hövzənin əmələ gəlməsindən xəbər verirsə, Yura dövrünün aalen-kellovey mərtəbələrinin ardıcıl gilli-qumlu qatları dərin dəryavarı hövzənin passiv kontinental ətəyinin çöküntüləridir. Mezozoy substratda ofiolitlərin ekzotik kütlələri Mehri–Ordubad batolitinin intruziyalarının arasında və ofiolit-olistolitləri Üst Tabaşir qatlarında tapılmışdır. Sabit tektonik şəraitdə əmələ gələn Üst Tabaşirin əhəngdaşı və mergelli qatından sonra Ordubad sinklinoriumu təkamülü kollizion geodinamik mərhələdə intensiv tektonik-maqmatik proseslər yaratmışdır. Paleosen dövründə Zəngəzur qırılması boyunca hövzənin qrabenvarı riftogen dərinləşməsi və qalın (2000 *m*-dan çox) terrigen fliş qatının əmələ gəlməsi nəticəsində intensiv maqmatizm prosesləri başlayır. Vulkanizmin daha intensiv fəaliyyəti Alt Eosendə və Orta Eosenin sonunda aşkar olunmuşdur. Nax. MR-də ən çox vulkanogen (2500 *m*) və Piroklastik (1400 *m*) qatları, onları ayıran tuflu flişoid tipli vulkanogen çöküntü qatı (960 *m*) və hövzənin Eosen kəsilişini tamamlayan Üst Eosenin flişvarı qatı yayılmışdır. Vulkanizmin hər iki mərhələsi vulkan-tektonik struktkrlarda (Zəngəzur, Əlləngəz, Ləkətağ və s.) çoxfazalı qranitoid intruzivləri ilə tamamlanır. Ərazidə kollizion-orogen prosesləri nəticəsində Ordubad sinklinoriumu inversiyaya məruz qalır, dəniz hövzəsi Üst Eosenin ortalarından tamamilə reqressiyaya uğrayır, xətti antiklinal və sinklinal qırışıqlığı yaranır, bloklara parçalanma daha sərrast qeyd olunur.

Oliqosen dövründən başlayaraq Naxçıvan dağarası çuxurunun təməli qoyulur. Zəngəzur dərinlik qırılma zonasında isə sonuncu intensiv maqmatizm nəticəsində Mehri–Ordubad batolitinin ən məhsuldar üçfazalı porfirvarı qranitoidləri (23–25 mln. il) əmələ gəlir. Mehri–Ordubad batoliti Qafqazda ən iri intruziv massivdir. Ordubad metalogenik bölməsində batolitin intruziv kompleksləri ilə əlaqədar olan mis-molibden (Parağaçay), polimetal (Ağdərə, Kvanus, Nəsirvaz), qızıl (Piyazbaşı, Ağyurd) yataqları və çoxlu təzahürləri yerləşir. Bölgənin metallogeniyası mis-porfir (Ayçınqıl, Yaşıllıq, Fəhlə dərəsi), mis-kobalt (Ketam), volfram (Qızılçınqıllı), nadir və radioaktiv elementlərin təzahürləri ilə səciyyələnir. İntruziv komplekslər, bütün yataq və təzahürlər Eosen vulkanizmin fəaliyyəti nəticəsində yaranmış vulkan-tektonik strukturlarda yerləşərək, filiz maqmatik sistemləri təşkil edirlər.

N a x ç ı v a n ç u x u r u Ordubad sinklinoriumu və Şərur–Culfa antiklinoriumunun üstünü örtür və bu prosesdə q.-ə doğru miqrasiya qeyd olunur. Dağarası çuxurun əmələ gəlməsi bir neçə qırılmanın, əsasən, onun şm.-ş. kənarı boyu izlənən Naxçıvan dərinlik qırılmasının Oliqosen və Miosen dövrlərində aktiv fəaliyyəti ilə əlaqədardır. Naxçıvan çuxuru ətrafında baş verən zəlzələlər bu qırılma ilə bağlıdır. Həmin qırılma çöküntü qatlarının qalınlığına nəzarət etməklə bərabər, maqmatik proseslərin fəaliyyət mərkəzi olmuşdur. Oliqosenin ekstruziv avtoplastik kütlələri (Qaracəlal, Qurddağ, Xalxal, Qutandağ, Quyuludağ və s.) qırılma boyu nüfuz etmiş və Miosenin vulkanogen qatı (14,8–15,9 mln. il) Əsədkəf, Kaşırdağ və Qırxlardağ sahələrini əhatə edir. Ərəzin massivi Kiçik Qafqazda yeganə teşenit intruziyasıdır. Naxçıvan dərinlik qırılmasının şaxələnməsi iki geostrukturun qovuşma zonasına təsadüf edir və burada kvarslı diorit-porfir tərkibli lakkolit, bismolit, sfenolit və sill morfologiyalı çoxlu intruziyalar (Bərdik, İlandağ, Əlincə, Paradaşı və s.) Miosen dövründə (16,3–18,0 mln. il) nüfuz etmişlər. Naxçıvan çuxurunun geoloji quruluşu, əsasən, Oliqosen-Miosen yaşlı qaba və incə molass çöküntülərindən təşkil olunmuşdur. Onların evaporitli, tuflu və əhəngdaşılı terrigen qatları epikontinental, laqun, qapalı hövzə və dayaz dəniz şəraitində əmələ gəlmişdir. Dəniz ərazini meotis mərtəbəsinin əvvəlində (təqr. 7,1 mln. il) tərk etmişdir. Antropogendə isti mineral bulaqlar gölündə travertinlər əmələ gəlmişdir. Travertinlərdən başqa, Naxçıvan çökəkliyinin təbii sərvətlərindən zəngin duz (Duzdağ, Püsyan, Nehrəm), palı-

qorskit gili (Yurdçu, Kabullu) gips-anhidrit-qaja və teşenit üzlük daşı yataqları və onun şm.-ş. kənarı boyu səpələnmiş filiz (uran, mis, bor) təzahürləri aşkar olunmuşdur. Darıdağ sürmə-mərgmüş yatağı bu dövrdə əmələ gəlmişdir.

Naxçıvan qırışıqlıq zonasının sonrakı təkamülü tektonik sıxılma və blokların müxtəlif miqyasda qalxması şəraitində davam etmiş və Pliosen dövründə Zəngəzur və Dərələyəz silsilələrinin qovuşduğu sahədə yerüstü vulkanlar fəaliyyət göstərmişdir. Cindərə vulkan mərkəzi sahəsində manqan, mərgmüş, qızıl, kükürd, ametist və xalsedon təzahürləri tapılmışdır. Uyğun yaşlı vulkan mərkəzi (Kəmçidağ) Ordubadın qabağında Arazın sağ sahilində yerləşir. Ən cavan dördüncü dövrdə fəaliyyət göstərən kiçik bazalt vulkanı Ayıçonqal aşırımına yaxın Zəngəzur silsiləsinin yalında və batolitin daxilində aşkar olunmuşdur.

M i n e r a l s u l a r. Mineral su bulaqlarının rəngarəngliyinə görə Nax. MR dünyanın ən diqqətəlayiq bölgələrindəndir. Muxtar respublikanın 5,5 min *km²*-lik sahəsində 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır. Bu bulaqların böyük əksəriyyəti Şərqi Arpaçay, Naxçıvançay, Əlincəçay, Gilançay, Ordubadçay, Qaradərə və Əylis çaylarının vadilərində və yaxınlıqlarındadır. Onlar kimyəvi tərkibinə görə müxtəlif tipli olub təsərrüfatda, içməli su təchizatında, müalicə məqsədi ilə və sənayedə istifadə edilir. Ərazidə suların təbii formalaşmasında relyefin, çay şəbəkəsinin, yarandıqları geoloji mühitin, iqlimin böyük əhəmiyyəti vardır. Naxçıvanın müalicə suları müxtəlif tərkibli və yaşlı çöküntülərdən çıxır və bu onların kimyəvi-balneoloji xassələrini müəyyənləşdirir. Ərazidə ən qədim su daşıyan süxurların yaşı 400 mln. illə 500–700 mln il arasında dəyişir. Tarixi qaynaqlardan məlum olur ki, həmişə dirilik suyu, şəfa suyu olan bulaqlardan bəhrələnib, onların müalicə qüdrətinə "Tanrı ocağı", - deyə inanmışlar; onlara qotur suyu, yel suyu, mədə suyu, dəri suyu, şor su, vayxır və s. adlar vermişlər.



Naxçıvan mineral suları ta qədim zamanlardan insanların diqqətini cəlb etmişdir. Nax. MR-də mineral su bulaqlarının və onların formalaşdığı mühitin – geologiyası və tektonikasının öyrənilməsinə 1843 ildən başlanılmışdır. Lakin bu sahədə planlı kəşfiyyat işləri 20-ci yüzillikdən aparılmışdır. Müəyyən edilmişdir ki, Naxçıvanda mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların 98%-i karbon qazlı olub, hidrokarbonat tipli sulara aid edilir. Yer səthinə təbii çıxışları olan mineral su bulaqlarından yüksək hərarətlisi, demək olar ki, yoxdur. Mineral suların əksəriyyətinin temp-ru 8°C – 22°C-dir. Sirabda və Darıdağda buruq quyularından hərarəti 50°C və daha yuxarı olan sular aşkar edilmişdir. Azərb.-da olan karbon qazlı suların 35%-i Nax. MR ərazisindədir. Mineral-müalicə su bulaqlarının ion tərkibinin əsas komponentlərini kalsium – Ca, qələvilər – Na+K və maqnezium – Mg kationları və hidrokarbonat – $HCO_3$, sulfat – $SO_4$ və xlor – Cl anionları təşkil edir. Muxtar respublikanın mineral su mənbələri gün ərzində yer səthinə 24 mln. *l* su axıdır. Əsas mineral su mənbələri ərazi üzrə aşağıdakı şəkildə yerləşmişdir:

Ordubad r-nunda təqr. 1000 *km²* sahədə 29 mineral su bulağı var. Onların tərkibində suların müalicə xassələrini müəyyənləşdirən qələvilər mühüm rol oynayır. R-nun qələvili-hidrokarbonatlı sularının bir qismi məşhur "Narzan"dan geri qalmır, digərləri isə müalicə qabiliyyətinə görə daha üstündür.

Culfa r-nunda 900 *km²* sahədə 85 mineral su bulağı qeydə alınmışdır; onlardan 42-si buruq quyuları vasitəsilə aşkar edilmişdir. Bu sular qiymətli karbonat-mərgmüşlü olub, mineral suların karbonatlı-mərgmüşlü-dəmirli xlorlu-hidrokarbonatlı-natriumlu tipinə aid edilir. Burada 37 mənbə, o cümlədən 32 quyu vardır. Darıdağ mineral sular qrupunun debiti üst-üstə 3125783 *l/gün*, temp-ru 17-dən 52°C-dəkdir. Mənbələrin bir çoxu qaynayır və fontanla yer səthinə çıxır. Su yer səthinə çıxdıqda külli miqdarda qaz ayrılır. Hələ qədim zamanlardan Darıdağ mineral sularından müalicə vasitəsi kimi istifadə edildiyi məlumdur. Bu sular vasitəsilə müxtəlif əzələ, oynaq, sümük və dəri xəstəlikləri müalicə olunur. Darıdağ mərgmüşlü suyu bu qəbildən dünyada məşhur olan İtaliyadakı "Cənubi Tirol", "Ronçenyo", Fransadakı "Lya-Bulbul" mərgmüşlü sularından həm keyfiyyətinə, həm də gündəlik debitinə görə xeyli üstündür.



Şahbuz r-nu ərazisindəki çay vadiləri boyu 40 *km²* sahədə 50-dək mineral su mənbəyi kəşf olunmuşdur. R-nun mineral bulaqları arasında məşhur Badamlı mineral sular qrupu xüsusi yer tutur. Bu sular olduqca şəffaf, iysiz və rəngsizdir. İçmək üçün çox dadlıdır. Debiti üst-üstə 2750640 *l/gün*-dür. Kimyəvi tərkibinə görə, əsasən, karbon turşulu-hidrokarbonatlı-natriumlu, xloridli-kalsiumludurlar. Onların müalicə əhəmiyyəti tədqiq edilmiş və müəyyənləşdirilmişdir ki, "Badamlı" suyu qaraciyər və öd kisəsi xəstəliklərinə müsbət təsir göstərir və müalicə xüsusiyyətləri Kislovodskdakı (Şimali Qafqaz) "Narzan" sularının xüsusiyyətlərinə oxşardır.

Babək r-nunun 1200 *km²* ərazisi daxilində 50 mineral-müalicə su mənbəyi öyrənilmiş, onların 27-si buruq quyuları vasitəsilə aşkar edilmişdir. Sirab mineral sular qrupunun debiti 2247265 *l/gün*-dür. Temp-ru 16–24°C-dir. Müalicə əhəmiyyətinə görə Sirab, Qahab, Vayxır, Cəhri və Qızılvəng bulaqları üstündür. Sirab-12 az minerallaşmış, soyuq, karbon qazlı, hidrokarbonatlı-maqneziumlu-natriumlu-kalsiumlu, dolomitli "Narzan" tipli müalicəvi-süfrə suyu kimi xarakterizə edilir. Karbon qazlı, orta minerallaşmış, hidrokarbonatlı-kalsiumlu-natriumlu Sirab-8 mineral suyu "Borjomi" tipli mineral suyun analoqudur. Vayxır-7 daha çox mədənin xroniki xəstəlikləri, qara ciyərin və öd yollarının xəstəlikləri zamanı məsləhət görülür. Cəhri bulağı-1 "Slavyanskaya" mineral müalicəvi-süfrə suyunun, Cəhri bulağı-2 Badamlı-4 müalicə suyunun, "Əshabi-Kəhf" mineral suları Pyatiqorsk (Şimali Qafqaz) radonlu suyunun analoqudur.

Şərur r-nu mineral su bulaqları baxımından çox zəngin deyildir.

1316 *km²* ərazidə cəmi 7 mineral su mənbəyi öyrənilmişdir; suların ümumi ixracı r-n üzrə 1,5 mln. *l*-dən çox deyil.

Bahasu mineral su bulağı Sədərək r-nunda eyniadlı k.-dən c.-da, Araz çayının sahilindədir. Bahasu bulağının Nax. MR-də yeganə hidrokarbonatlı-maqneziumlu mineral su olduğu ehtimal edilir. Yerin təkində maqnezitli çöküntülər daxilindən başlayaraq səthə çıxır.

Mineral sular içərisində məşhur müalicə əhəmiyyətli olanları, həmçinin süfrə suyu kimi istifadə olunanlardan Badamlı, Sirab, Vayxır, Darıdağ, Qızılvəng, Nəhəcir, Qahab, Ordubadın "Narzan" tipli bulaqlarını göstərmək olar. Bulaqlar əsasında Badamlı, Darıdağ balneoloji müalicəxanaları fəaliyyət göstərir. Sənaye üsulu ilə mineral su istehsalına 1947 ildən başlanmışdır. Hazırda muxtar respublikada 3 mineral su z-du vardır. Bunlardan ikisi – "Badamlı" və "Sirab" mineral su z-dları bir başa mənbələrin yanında, digəri isə Naxçıvan ş.-ndədir. Son illərdəki iqtisadi durum və blokada şəraiti bu z-dların fəaliyyətini iflic vəziyyətinə salmışdır. Hazırda z-dların yenidən qurulması, yeni texnoloji avadanlıqlarla təchizi zərurəti meydana çıxmışdır.

**İqlim.** Muxtar respublikanın iqliminə onun coğrafi mövqeyi – ərazinin hər tərəfdən dağ silsilələri (Koqnur–Alangöz, Zəngəzur və Dərələyəz) ilə əhatə olunması və iri su hövzələrindən (Qara dəniz, Xəzər dənizi) uzaqda yerləşməsi çox təsir göstərir. Ərazinin iqlimi 5 tipə ayrılır:

1. Yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi – Arazboyu düzənlikləri və qismən alçaq dağlıq sahələri (600–1100 *m*) əhatə edir. Burada orta illik temp-r 10–14°C, orta illik yağıntı 300 *mm*-dək, mümkün buxarlanma 1200–1400 *mm*-dir. Ən isti ayın (iyul) orta temp-ru 29°C, ən soyuq ayın (yanvar) orta temp-ru isə -3 -6°C-dir. İl ərzində qar örtüyü 20–40 gün davam edir.

2. Qışı quraq keçən yarımsəhra və quru çöl iqlimi – alçaq dağlıq qurşağın yuxarı, orta

dağlıq qurşağın aşağı hissəsini (1100–1600 *m*) əhatə edir. Orta illik temp-r 8–10°C, orta illik yağıntı 300–350 *mm*, mümkün buxarlanma 800–1100 *mm*-dir. Ən isti ayın (iyul) orta temp-ru 21–26°C, ən soyuq ayın (yanvar) orta temp-ru –4 –6°C-dir.

3. Yayı quraq keçən soyuq yarımsəhra və quru çöl iqlimi – orta dağlıq qurşağın yuxarı, yüksək dağlıq qurşağın isə aşağı hissəsini (1600–2600 *m*) əhatə edir. Orta illik temp-r 6–10°C, ən isti ayın (iyul) orta temp-ru 15–20°C, ən soyuq ayın (yanvar) orta temp-ru –6 –10°C-dir. Orta illik yağıntının miqdarı 400–800 *mm* arasında dəyişir; bunun 300–400 *mm*-i ilin isti yarısında, 200–400 *mm*-i soyuq yarısında düşür.

4. Yayı quraq və sərin keçən soyuq iqlim – yalnız Zəngəzur silsiləsinin c.-q. yamacında, yüksək dağlıq qurşağın mərkəz zolağında, 2600–3200 *m* yüksəkliklərdə yayılmışdır. Burada yağıntının orta illik miqdarı 600–700 *mm*-dir. Havanın orta illik temp-ru 1–3°C, ən isti ayın (avqust) orta temp-ru 8–12°C, ən soyuq ayın (yanvar) orta temp-ru –10 –13°C -dir.

5. Dağlıq tundra iqlimi – ərazinin yüksək dağ zirvələrini (3200 *m*-dən yuxarı) əhatə edir, qışın və yayın soyuq keçməsi, yağıntının isə özündən əvvəlki tipə nisbətən az olması və ifrat rütubətlənmə ilə səciyyələnir. Orta illik temp-r –3–8°C, ən isti ayın orta temp-ru 2–8°C, ən soyuq ayın orta temp-ru –13 –16°C-dir.

4-cü və 5-ci iqlim tiplərinin hakim olduğu ərazilərdəki günəş radiasiyasının ümumi miqdarı (150–160 *k/kal sm²*) bütün Cənubi Qafqaz regionu üçün maks. miqdar hesab edilir.

Ərazidə yüksəklik artdıqca havanın temp-ru azalır. Ən aşağı temp-r yanvar ayında müşahidə olunur. Temperatur fevraldan marta doğru artmağa başlayır. Gilançaydan q.-də temp-r 7,3–8,3°C, ş.-də (Ordubad–Bist) 6,7–6,8°C təşkil edir. Martdan aprelə doğru artım 7,1–7,5°C-yə çatır. Yayda temp-r daha müntəzəm dəyişir. Havanın maks. temp-ru avqust ayında olur; sentyabrdan başlayaraq temp-r intensiv surətdə aşağı düşür. Mütləq minimum temp-r – 31°C, (Dərvişlər), mütləq maks. temp-r 44°C-dir (Culfa); bu, eyni zamanda Azərb. resp. ərazisində ən alçaq və ən yüksək temp-rlardır.

Muxtar respublikanın ərazisi, xüsusilə Araz dərəsi böyük su hövzələrindən uzaq düşdüyündən buraya rütubətli hava kütlələri daxil olmur, ona görə də Azərb.-ın digər regionları ilə müqayisədə bu ərazi atmosfer yağıntılarının məhdudluğu ilə səciyyələnir. Yağıntının çox hissəsi yaz mövsümündə, az hissəsi isə yay mövsümündə düşür; iyul, avqust və sentyabr ayları demək olar ki, tamamilə yağıntısız olur. Güclü leysan yağışları çox təsadüfi hallarda baş verir. Əsasən yerli, dağ-dərə küləkləri əsir. Onların istiqaməti çox vaxt relyef xüsusiyyətlərindən asılı olur. Küləyin orta illik sürəti 2–4 *m/san*-dir. Küləklər, əsasən, yayda ş. və c.-ş., qışda q. istiqamətli olur.

Muxtar respublika ərazisinin 1500 *m*-dən yüksəkdə yerləşən dağlıq hissəsində qar oktyabr-noyabrda düşür və martadək yerdə qalır, 2000 *m*-dən yüksək yerlərdə isə aprelin axırı – mayın ortalarınadək qalır. Dağlıq hissədə qar örtüyünün qalınlığı 0,2–1 *m* olur. Ərazinin düzənlik hissəsində qar dekabrda yağmağa başlayır və martadək yerdə qalır; burada qar örtüyünün qalınlığı 0,15–0,20 *sm*-dir. Qar örtüyünün qalınlığı və davamlılığı k. t. bitkilərinin inkişafında, səth və yeraltı suların artmasında, torpağın nəmliyinin çoxalmasında mühüm əhəmiyyət kəsb edir.

İllik yağıntı Arazboyu düzənliklərdə 200–300 *mm*, yüksək dağlıq yerlərdə 500–800 *mm*-dir.

**İsti dövrdə yağıntının ayrı-ayrı aylar üzrə paylanması (mm)**

| | Yuksəklik, *m*-lə | 1000 | 1500 | 2000 | 2500 | 3000 | 3500 |
|---|---|---|---|---|---|---|---|
| Aylar | Aprel | 45 | 60 | 100 | 115 | 125 | 120 |
| | May | 50 | 80 | 110 | 125 | 135 | 130 |
| | İyun | 25 | 40 | 50 | 65 | 75 | 70 |
| | İyul | 7 | 13 | 18 | 20 | 20 | 12 |
| | Avqust | 8 | 14 | 18 | 23 | 23 | 20 |
| | Sentyabr | 10 | 15 | 25 | 32 | 40 | 38 |
| | Oktyabr | 22 | 30 | 40 | 50 | 58 | 56 |

**Daxili sular.** Nax. MR hidroqrafik cəhətdən Araz çayı hövzəsinə aiddir. Ərazinin mərkəzi və c.-ş. hissəsində çaylar başlanğıcını Zəngəzur və Dərələyəz silsilələrindən götürür. Muxtar respublikanın hidroqrafik şəbəkəsi (çayları, gölləri və s.) uzun geoloji dövrdə yaranmış və bu müddətdə xeyli dəyişikliyə uğramışdır. Zəngəzur silsiləsinin c.-q. ya-




NAXÇIVAN MUXTAR RESPUBLİKASI
Torpaq xəritəsi
Miqyas 1: 600 000
Azərbaycan Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2002-ci il
© Müəllif AMEA-nın müxbir üzvü Q.Ş.Məmmədov
© Bakı kartoqrafiya fabriki
ERMƏNİSTAN
İRAN
TÜRKİYƏ
Sədərək
Şərur
Şahbuz
NAXÇIVAN
Babək
Culfa
Ordubad
Ağgöl
Arpaçay
Arpaçay su anb.
Naxçıvançay
Araz
Araz qovşağının su anb.
Gilançay
TORPAQLAR
1 İbtidai və torflu dağ - çəmən
2 Çimli dağ - çəmən
3 Bozqır dağ - çəmən
4 Yuyulmuş qəhvəyi dağ - meşə
5 Tipik qəhvəyi dağ - meşə
6 Karbonatlı və qismən bozqırlaşan qəhvəyi dağ-meşə
7 Mədəniləşmiş tünd və adi dağ şabalıdı
8 Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ şabalıdı
9 Açıq dağ şabalıdı
10 Suvarılan tipli boz
11 Açıq və ibtidai boz
12 Çəmən boz
13 Yüksək humuslu boz-çəmən
14 Orta və az humuslu boz-çəmən
15 Suvarılan subasar-allüvial-çəmən
16 Tipik və şoranlı şorakətlər
Dağ-mədən tullantıları ilə pozulmuş torpaqlar
Çaqıldaşlı çay yataqları
Çılpaq qayalıqlar və səthə çıxmış gilli suxurlar
QRANULOMETRİK TƏRKİB
Gilli
Ağır gillicəli
Orta gillicəli
Yüngül gillicəli
Qumsal
TORPAQLARIN SUVARILMA ( BECƏRİLMƏ ) DƏRƏCƏSİ
Suvarılan, (qədimdən və yeni) bəzən becərilməyən torpaqlar
TORPAQLARIN EROZİYAYA UĞRAMASI
Eroziyaya uğramamış
Zəif eroziyalı
Orta eroziyalı
Şiddətli eroziyalan
TORPAQLARIN ŞORLAŞMASI
Şorlaşmamış
Zəif şorlaşmış
Orta şorlaşmış
Şiddətli şorlaşmış


BİTKİ ÖRTÜYÜ
BİTKİÇİLİYİN TİPOLOJİ VAHİDLƏRİ
I. ALP ÇƏMƏN VƏ XALILARI
II. CUBALP ÇƏMƏNLƏRİ VƏ HÜNDÜROTLUĞU
III. DAĞ ÇƏMƏNLƏRİ VƏ ÇƏMƏN BOZQIRLARI
IV. MEŞƏLƏR
V. KSEROFİT SEYRƏK MEŞƏLİK
VI. DÜZƏN GÖLMƏÇƏLİK VƏ SUBASAR ÇƏMƏNLƏR
VII. BOZQIRLAR
VIII. SƏHRALAR
IX. EFEMERLİ SUBTROPİK BİTKİLİK
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
Miqyas 1:600 000
Müəllif AMEA-nın akad. V.C. Hacıyev
Şərur
Şahbuz
NAXÇIVAN
Naxçıvançay
Araz
Culfa
Ordubad
Arpaçay su anb.
Araz qovşağının su anb.
2600
2346
1927
3147






macında Naxçıvan çökəkliyinə doğru istiqamətlənən qədim çay dərələrinin qalıqları izlənilir. Zəngəzur silsiləsində – Sağarsuyun yuxarı axarlarında, Göygöl, Qazangöldağ, Qapıcıq, Gəmiqaya bölgələrində qədim buzlaq relyefi formaları (troq, kar, moren), həmçinin zirvələrdə yayda əriməyən qar topaları var. Süni su arxları (kanallar) və su anbarları da hidroqrafik şəbəkəyə aid edilir. Çayların bir çoxundan suvarmada və su təchizatında geniş istifadə edildiyindən aşağı axarında onların suyu mənsəbə çatmır, tam quruyur.

Ç a y l a r. Muxtar respublika ərazisində ümumi uz. 1,8 min *km* olan təqr. 400 böyük və kiçik çay var. Bunlardan 334-nün uz. 5 *km*-ədək, 31-ninki 6–10 *km*, 24-nünkü 11–25 *km*, 7-ninki 26–50 *km*, 3-nünki (Naxçıvançay, Əlincəçay, Gilançay) 51–100 *km*, 1-ninki (Şərqi Arpaçay) isə 100 *km*-dən artıqdır.

| Ç a y l a r | uzunluğu (km) | hövzəsinin sah. (kv. *km*) |
|---|---|---|
| Şərqi Arpaçay | 126 | 2630 |
| Naxçıvançay | 81 | 1630 |
| Əlincəçay | 62 | 599 |
| Gilançay | 53 | 426 |
| Bağırsaqdərə | 33 | 117 |
| Düylünçay | 30 | 124 |
| Vənəndçay | 29 | 91 |
| Parağaçay | 21 | 48 |
| Kükü̈çay | 20 | 105 |
| Ordubadçay | 19 | 42 |

Çay şəbəkəsinin inkişafına və dəyişməsinə müxtəlif fiziki-coğrafi amillər – iqlim, relyef, geoloji quruluş, torpaq və bitki örtüyü təsir göstərir. Ərazidə çay şəbəkəsi bərabər inkişaf etməmişdir; Naxçıvançaydan q.-də son dərəcə zəif, ondan ş.-də, Zəngəzur silsiləsindən axan çaylar isə sıx şəbəkə təşkil edir. Ərazinin şm.-q.-ndən c.-ş.-nə doğru dağlar Araza yaxınlaşdığından bu istiqamətdə çayların uz., sutoplayıcı sahələri və axımları azalır. Dağlıq hissədə çay şəbəkəsi daha çox inkişaf etmişdir ki, bu da yağıntının artıq olması ilə əlaqədardır. Çaylar yeraltı sular və qar-yağış suları ilə qidalanır. Çay hövzələrində əsas rütubət ehtiyatı (35–50%) qış dövründəki yağıntılar hesabına yaranır. Ərazidən axan çayların əsas xüsusiyyəti onların qidalanmasında yeraltı suların nəzərə çarpacaq dərəcədə (35–45%) iştirakıdır. Çaylar ilin 6–8 ayı ərzində, başlıca olaraq, yeraltı sular hesabına qidalanır. Yazda və yayda daşqınlar olur. Azərb. Respublikasında baş verən sellərin 33–35%-i Nax. MR-in payına düşür. Muxtar respublika çaylarının ehtiyatları həm suvarma, həm də enerji mənbəyi kimi istifadədə böyük əhəmiyyət kəsb edir. Bu çayların ümumi enerci gücü 183,4 min *kvt*-dır. Onların suyundan isə mənbəyindən başlamış mənsəbinədək bütün çaylar boyunca suvarma məqsədilə istifadə edilir. Ərazidə bitki örtüyünün zəif inkişafı, çay hövzələrinin dağlıq relyefə malik olması, kəskin kontinental iqlimin təsiri nəticəsində dağ suxurlarının intensiv surətdə aşınması, şiddətli torpaq eroziyası və aşınmış materialların toplanması, vaxtaşırı gur leysan yağışlarının yağması və dolu düşməsi tez-tez sel hadisələrinin baş verməsinə səbəb olur.


*Naxçıvançay dərəsi.*

G ö l l ə r. Muxtar respublikanın ərazisi quraq iqlimə malik olduğundan burada göllərin sayı az, sahəsi və həcmi kiçikdir. Əksər


*Batabat gölləri.*

göl çalalarının formalaşmasında tektonik hərəkətlərin və bulaqların rolu olmuşdur. Ərazinin təbii gölləri, əsasən, Naxçıvançayın və Gilançayın hövzələrinə aiddir. Qanlıgöl və Salvartı gölü eyniadlı çayların mənbələrində, Göygöl isə Sağarsu çayının (Gilançayın sol qolu) mənbəyində, 3065 *m* yüksəklikdə yerləşir. Nax. MR ərazisində 20-yədək göl (əksəriyyətinin sah. 10 *ha*-dan azdır) var.

| Göllər | Dəniz səviyyəsindən hündürlüyü (m) | Tutumu (mln. $m^3$) |
|---|---|---|
| Göygöl | 3065 | - |
| Salvartı | 2843 | 1,0 |
| Qanlıgöl | 2424 | 1,0 |
| Batabat | 2113 | 1,8 |

Bir neçə su anbarı (Arpaçay, Uzunoba, Nehrəm, Heydər dəryaçası, Qahab, Xok və s.) yaradılmış, suvarma kanalları çəkilmişdir. Araz su qovşağı su anbarının bir hissəsi Nax. MR ərazisindədir. Araz çayı üzərində hidrotexniki kompleksin, su anbarlarının, suvarma sisteminin tikilməsi və geniş miqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində k.t.-nın suvarma imkanları və təchizatı xeyli yaxşılaşmışdır.

| Sututarlar | Dəniz səviyyəsindən hündürlüyü (*m*) | Tutumu (*mln. $m^3$*) |
|---|---|---|
| Araz | 777 | 1254 |
| Arpaçay | 959 | 150 |
| Heydər dəryaçası | 1147 | 100 |
| Bənənyar | 1200 | 15 |
| Uzunoba | 1000 | 9 |
| Sirab | 1077 | 9 |
| Nehrəm | 900 | 6 |
| Xok-1 | 800 | 3 |

**Torpaq örtüyü.** Nax. MR ərazisində torpaq tipləri, yarım tipləri və s. taksonomik vahidlər relyef xüsusiyyətlərinin, torpaqəmələgətirən proseslərin təsiri altında formalaşmışdır. Müəyyən edilmiş torpaq tipləri fiziki-coğrafi şəraitə uyğun olaraq bir-birindən aydın şəkildə fərqlənməklə, bütün səciyyəvi zonal əlamətlərə malikdirlər. Bölgədə yayılmış dağ və düzən torpaqlarını əsasən aşağıdakı torpaq tiplərinə bölmək olar:

1. İbtidai və torflu dağ-çəmən; 2. Çimli dağ-çəmən; 3. Bozqırdağ-çəmən; 4. Yuyulmuş qəhvəyi dağ-meşə; 5. Tipik qəhvəyi dağ-meşə; 6. Karbonatlı və qismən bozqırlaşan qəhvəyi dağ-meşə; 7. Mədənləşmiş tünd və adi dağ-şabalıdı; 8. Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ-şabalıdı; 9. Açıq dağ şabalıdı; 10. Suvarılan tipik boz; 11. Açıq və ibtidai boz-çəmən; 15. Suvarılan subasar-allüvial-çəmən; 16. Tipik və şoranlı şorakətlər.

Nax. MR ərazisində dağ-mədən tullantıları ilə pozulmuş torpaqlar, çaqıldaşlı çay yataqları, həmçinin çılpaq qayalıqlar və səthə çıxmış gilli süxurların arealları da mövcuddur.

Torpaqların mexaniki tərkibi, yüngül mexaniki tərkibdən (qumsal), ağır mexaniki tərkibə (gilli) qədər dəyişir. Suvarılan tipik boz, açıq və ibtidai boz, çəmən-boz, yüksək humuslu boz-çəmən, orta və al humuslu boz-çəmən torpaqları müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır. Şorakət torpaqların şiddətli dərəcədə şorlaşması da xəritədə aydın göstərilmişdir.

Torpaqların eroziyaya uğraması prosesinə görə Naxçıvan MR ərazisi Azərb. Respublikasının digər bölgələrindən fərqlənir.











*Eyxler dağlaləsi.*

*Qafqaz süsəni.*

Burada minlərlə *ha* sahə bitki örtüyündən məhrumdur. Dağlıq ərazilərdə torpaqların şiddətli eroziyası əsasən, bozqır dağ-meşə, yuyulmuş qəhvəyi dağ-meşə, tipik qəhvəyi dağ-meşə, karbonatlı və qismən bozqırlaşan qəhvəyi dağ-meşə, mədənləşmiş tünd və adi dağ-şabalıdı, açıq dağ-şabalıdı torpaqlarda baş verir.

Muxtar respublikanın ərazisi qədim əkinçilik r-nlarından hesab olunur; düzən hissənin torpaqları uzun illər ərzində suvarılaraq becərildiyindən müəyyən dəyişikliklərə uğramış, antropogen təsirlər altında formalaşmışdır. Suvarılan subasar-allüvial çəmən torpaqlarına və dağ-mədən tullantıları ilə pozulmuş torpaqlara texnoloji amillər də təsir göstərmişdir.

**Bitki örtüyü.** Nax. MR-in ərazisi zəngin floraya və rəngarəng bitki örtüyünə malikdir. Bu, ilk növbədə burada təbii şəraitin, geoloji və geomorfoloji quruluşun son dərəcə mürəkkəb olması ilə əlaqədardır. Bitki örtüyünün formalaşmasında fiziki amillərdən başqa, antropoloji amillər də müəyyən rol oynayır. Muxtar respublikada iqlimin quraqlığı və kontinentallığı ilə əlaqədar bitki örtüyü və onun şaquli və üfqi zonallığı Azərb.-ın digər rayonlarından kəskin şəkildə fərqlənir. Belə ki, bitki örtükləri eynilik təşkil etdiyi halda, Kür-Araz ovalığında səhralar hünd. -28 *m*-lə +350 *m* arasındakı əraziləri, muxtar respublikada isə 600–700 *m*-lə 1100 *m* arasındakı əraziləri əhatə edir. 1100–1200 *m*-lə 1500 *m* arasında friqana tipli kserofit bitkiliyi, 1500–1700 *m*-lə 1900 *m* arasında dağ-bozqır bitkiliyi, 1900–2350 *m*-də qarika, yaxud çəmən-bozqır bitkiliyi, kserofit kollu çəmənliklər, bəzən kiçik meşələr (Biçənək meşəliyi), 2350–2400–2500 *m*-də subalp bitkiliyi (çəmənlər, yaxud çəmənli-bozqırlı sahələrin bitkiliyi), 2400–3000 *m* və 3500 *m* hündürlüklərdə isə subalp və xırda boylu Alp çəmənliyi və Alp xalıları geniş ərazilərdə öz müxtəlifliyi ilə fərqlənir.

Muxtar respublikanın florası Azərb.-ın digər botaniki-coğrafi r-nlarına nisbətən zəngindir. Ərazi cəhətdən çox da geniş olmayan bu regionda ali bitkilərin 2782 növünə rast gəlinir; onlar da 773 cins və 134 fəsilədə cəmləşmişdir (T.H.Talıbov, 2001). Bu növlərdən 68-i mədəni halda becərilir. Yabanı bitki-

*Böyükdüz.*

*Sumaq meşəsi.*





lərin 123 fəsiləsi və 697 cinsi mövcuddur. Floristik bolluğuna görə ərazi 3 regiona bölünür: Arazboyu düzənliklər, orta dağlıq və yüksək dağlıq qurşaqları. Ən çox bioloji müxtəliflik orta dağlıq qurşağa mənsubdur. Belə ki, Arazboyu düzənliklərdə 732 növ, orta dağlıqda 1326 növ, yüksək dağlıqda isə 640 növ floraya rast gəlinir (T.Talıbov, Ə. İbrahimov).

L.İ.Prilipko, M.Q.Abutalıbov, V.C.Hacıyev, Ə. Ə. İbrahimov, E. Qurbanov, R. Nuriyev, S. İbadullayeva, T.H.Talıbov, F.Mövsümova, Z.Sultanova və b-rının tədqiqatlarına əsasən muxtar respublika ərazisində aşağıdakı bitki örtüyü və onun tipləri ayrılır: səhralar və yarımsəhralar; friqanoid və bozqır bitkiliyi; dağ çəmənləri və bozqırları; hündür otluq, subalp və Alp çəmənləri, Alp xalıları; meşələr, oazislər, çaykənarı meşəciklər; çöküntü və qaya bitkiliyi, su-bataqlıq bitkiliyi.

Göstərilən bitki örtüklərinin taksonomik vahidləri, rolu, quruluşu və mənası müxtəlif tərkiblidir; bəzisi böyük sahələrdə yayılaraq mikrozonallıq, digərləri isə kiçik sahələrdə yayılaraq mikrosenozlar əmələ gətirir, zonallığın daxilində lokal (talalar) şəkildə rast gəlir və formalaşırlar.

S ə h r a l a r  v ə  y a r ı m s ə h r a l a r iqlimin kontinentallığı, relyefin və torpaq örtüyünün müxtəlifliyi, Arazboyu düzənliklərin mövcudluğu, kiçik dərə-təpəliklərdə sadə tərkibli bitki senozlarının, yəni səhranı əmələ gətirən edifikator kolcuqların yeraltı və yerüstü vegetativ orqanlarının bir-birilə əlaqələnməsi, yalnız qısa ömürlü birillik bitkilər – efemerlər və efemeroidlər hesabına yaz-payız aylarında yaranan əlaqələrlə səciyyələnir. Ərazinin səhra bitkiliyi tipi, onu əmələ gətirən yovşanlıq (Artemisieta), şorangəlik (Salsoleta) Kür–Araz ovalığında olduğu kimi burada da zonallıq təşkil edir.

Səhra edifikatorlarının, yəni senozu yaradan birinci bitkilərin komponentləri səhra senozlarında kolcuqlardan başqa qısaömürlü efemerlər və efemeroidlər, yarımsəhralarda isə senozun tərkibində kolcuqlardan başqa uzunömürlü cim əmələ gətirən taxıl və müxtəlif çoxillik otlardır. Yüksəkliyə qalxdıqca səhra və yarımsəhra edifikatorları azalır, çoxillik taxıllar, müxtəlif çoxillik otlar və kolcuqlar artır.

Son 50–70 ildə ərazinin səhra və yarımsəhra bitkiliyi kəskin şəkildə azalmışdır. 20 əsrin 40-cı illərindən bu sahələrdə suvarılan mədəni bitkilər pambıq, taxıl, sonralar isə tütün, tərəvəz bitkiləri, o cümlədən meyvə bağlarından və plantasiyalardan ibarət idi. Çay dərələrində isə süni meşələr və oazislər bu yerlərin aborigen bitkiliyinə çevrilmişdi. Səhralarda suvarma şəbəkəsindən geniş istifadə olunur.

F r i q a n o i d  v ə  b o z q ı r  b i t k i l i y i əsasən Aralıq dənizi sahili ölkələrində və Ön Asiyada geniş yayılmışdır. Friqana senozlarının tərkibində çoxillik quru kserodit bitkilərin olmasına baxmayaraq, onlar bozqır senozlarından kəskin şəkildə fərqlənir. Bozqırlarda çoxillik cim əmələ gətirən taxıl və ot bitkiləri daha çox olduğu halda, friqanalarda kserofit kollar və kolcuqlar üstünlük təşkil edir; muxtar respublikanın ərazisində, Qafqazın digər regionlarında olduğu kimi, orta dağlıq qurşağın quru, torpağı kasıb, çınqıllı yamaclarında rast gəlinir və fitosenotik quruluşuna görə Ön Asiya (İran) friqanalarına daha yaxındır. Burada tikanlı gəvənlər (Astragalus aureus, A. microcepalus) və onların müxtəlif növləri (Acontolimon, Onobrychis cornuta və b.) geniş yayılmışdır. Ərazidə rast gəlinən kəkotu (Thymys) senozları da Aralıq dənizi sahili ölkələrində təsadüf olunan floristik tərkibli müxtəlif (dodaqçiçəklilər fəsiləsinin efiryağlı bitkilik variantları) senozlarla oxşarlıq təşkil edir.

D a ğ  ç ə m ə n l ə r i  v ə  b o z q ı r l a r ı n d a topal, şiyav və onlarca başqa bitki növləri müxtəlif dağ bozqır senozları yaradırlar. Bu taxıl nümayəndələrilə birlikdə Thymus (kəkotu) kotschyanus, Teucrium polium, scutellaria Sevanensis, Nepeta trau tvetteri, Onobrychis transcaucasica, Allium woronowii, Astragalus sp. div., Ajyga sp. div. və s. onlarca quru bozqır bitkilərini göstərmək olar. Meşəkənarı çəmənlərdə və bozqırlarda olduğu kimi, burada çox müxtəlif çəmən və bozqır senozları mövcuddur. Ərazinin 1700–2100 *m* hünd.-lərində, meşə talalarında dağ bozqırlarına, yaxud meşəkənarı çəmənlərə rast gəlinir. Belə yüksəkliklərdə dağ bozqırlarına sərt daşlı, çılpaq qayalıqlarda, meşəkənarı çəmənliklərə isə meşəli dağların şm. yamaclarında lokal formada təsadüf edilir.

H ü n d ü r  o t l u q,  s u b a l p  v ə  A l p



***Minerallar:*** *1. Qranosiyenit üzlük daşı. Yağlıdərə. 2. Polimetal filizi. Ağdərə. 3. Kvars-molibdenit filizi. 4. Bazalt konqlomeratı. Culfa qalxıntısı. 5.Realqar filizi. Darıdağ mədəni. 6. Əqiq bəzək daşı. Ordubad r-nu. 7. Konqlomerat. Culfa yatağı. 8. Daşduz druzası. Duzdağ mədəni. 9. Rutil kristalları. Parağaçay dərəsi. 10. Kvars druzası. Parağaçay mədəni. 11. Travertinli araqonit. Buzqov yatağı.*



**Heyvanlar aləmi:** *1. Bəbir. 2. Canavar. 3. Qonur ayı. 4. Çöl donuzu. 5. Vaşaq. 6. Dövşan. 7. Bezoar keçisi. 8. Çöl pişiyi. 9. Kərkəs. 10. Berkut. 11. Xəzər uları. 12. Oxlu kirpi.*



çəmənləri 2350–3000 *m* hünd.-ləri əhatə edir və zonallıq əmələ gətirir. Subalp qurşağında hündür otluq və həqiqi subalp çəmənlər lokal şəkildə rast gəlinir və özünəməxsus formasiyalar yaradırlar. Bunlar nəmli və çökək yamaclarda 25–30 növə qədər ali hündür boylu bitkiləri özündə cəmləşdirir. Burada baldırqan bitkisinin müxtəlif növlərinə xüsusilə Heracleum sosnovskyi və baldırqanla birlikdə Trisetum pratense, Carum carvi, Festuca gigantea, Dactylis glomerata, Telekia speciosa, Delphinium caucasicum, Rumex acetosa, həmçinin Unula, Centaurea, Silene, Rheum, Vicia və onlarca başqa cinslərin növlərinə də rast gəlmək olur.

Muxtar respublikanın Alp yüksəkliyində 2 tip bitkilik mövcuddur: a) Alp çəmənləri, b) Alp xalıları. Hər ikisi çox nəmli və soyuq regionlar, xüsusilə Kükü, Salvartı, Qapıcıq və Soyuq d-rı üçün səciyyəvidir. Bitkilər alçaq boylu (3–5 *sm*), çiçəkləri rəngarəng (xüsusilə sarı, göy və bənövşəyi), gövdə və yarpaqları sulu, ətli, vegetasiya dövrü qısa olur.

Alp xalıları Carum caucasicum (Careta) Alchimilla caucasica (Alchmilleta), Plantago saxatiliś (Plantagoeta), Taraxacum steveni, daşlı qayalarda isə Sibblaldia parviflora, Campanula tridentata, Minuartia aizoides kimi xırda formasiyalar yaradırlar.

Alp çəmənləri xalılardan bir qədər aşağılarda geniş sahələrdə Alp zonallığı yaradırlar. Xalılara nisbətən fitosenoloji strukturları mürəkkəb olur və əsasını çoxillik mezofil tərkibli taxıl, müxtəlif otlu Alp bitkiləri təşkil edir. Hər bir Alp formasiyasında 20–25 növ Alp bitkisinə rast gəlinir.

Meşə bitkiliyi, oazislər, çaykənarı meşəciklər. Muxtar respublika ərazisinin yüksək dağlıq sahələrində gedən aşınmalar, kəskin və daimi eroziya prosesləri, buradakı torpaq qatının formalaşmasının meşə bitkiliyi üçün səciyyəvi olmasına baxmayaraq, regionda təbii meşəliklərə talalar şəklində və lokal formada təsadüf edilir. Meşəliklər ərazinin bütün qurşaqlarında kiçik sahələrdə interzonallıq təşkil edir və həmin yerlərdə özünəməxsus meşə formasiyası yaradır. N.A.Sokolski (1933) regionda 3016 *ha* (muxtar respublika ərazisinin 0,5%-i) təbii meşə olduğunu, L.İ.Prilipko (1939) isə Biçənək, Ərəfsə, Xurs və Nəsirvaz k.-ləri ətrafında təbii meşələrin olduğunu, bunlardan təkcə Biçənək meşəsinin 2550 *ha* təşkil etdiyini göstərmişlər. Ədəbiyyatdan məlumdur ki, 1959–70 illərdə ərazidə 327 *ha* meşə sahəsi salınmışdır. Alp qurşağı istisna olmaqla, demək olar ki, bütün qurşaqlarda meşəliklər, az da olsa, formalaşmışdır. 2500–2700 *m* hünd.-lərdə, çay dərələrində isə 1500–1700 *m* hünd.-lərdə meşələrə təsadüf edilir. Burada palıd, göyrüş-palıd, yemişan-palıd, arçalıq, çaykənarı meşəlik, tozağacı, çaytikanı meşəlikləri və sonradan əmələ gələn kolcuqlar təşəkkül tapmışdır.



*Nalbənd ağacı.*

Palıd –Quercus macranthera–meşəliyi digər meşə formasiyalarına nisbətən daha geniş yayılmışdır. O, həm xalis halda, həm də qarışıq (xüsusilə yemişan, göyrüş, ağcaqayın və s. ilə birlikdə) enliyarpaqlı meşə formasiyaları yaradır. Palıd meşəliyində adi göyrüş (Fraxinus excelsior), ağcaqayın (Acer iberica), Pyrus sp. div., Amygdalus, fenzliana, Lonicera iberica, Evonymus latifolia, Sorbus sp. div. Mespilus germanica, Prunus divaricata, Crataegus pentogyna və s., ot bitkilərindən isə ən çox Polygonatum, Buplerum, Vicia, Poa, Dactylis və onlarca başqa mezofil tipli cinslərin bir çox növünə təsadüf edilir ki, bunlar da çoxkomponentli meşə bitki örtüyü yaradır.

Azkomponentli meşələrdə ardıclıq (Juniperetum) və çaykənarı söyüd (Salixetum) meşələrini göstərmək olar. Ardıcın 3–4 növü sadə meşəlik və kol cəngəlliyi yaradır. Söyüd meşələri isə çayların kənarında, rütubətlə təmin olunmuş çökəkliklərdə əraziyə xas olan

oazis əmələ gətirir. Bu tip meşələrdə Salix caprea, Rhamnus cathardica, Cerasus avium, Berberis orientalis, Spirea crinata, Rosa sp. div növlərinə rast gəlinir.

Çökəklik və qaya bitkiliyi, su-bataqlıq bitkiliyi. Kükü k. və Batabat gölü,Gəmiqaya, Qapıcıq, Soyuqdağ ətrafında, həmçinin başqa yüksəkliklərdə talalar şəklində hidrofit-sucaq sahələrdə cil, əvəlik və çəmənliçəyə, kiçik mikrosenozlarda rast gəlinir. Yağış suyu yığılan çökəkliklərdə əvəlik (Rumex) cəngəlliyi bu yüksəkliklər üçün səciyyəvidir. Regionda, həmçinin alaq bitkilərinə (Cirsium, Stahys, Artemisia, Polygonum, Urtica) cinslərinin bir çox növlərinə rast gəlinir.

Daşlı-qayalıqlı bəsit sahələrdə səhra tipli bitkilik də formalaşır. Qayalıqlarda şibyə və mamırlardan başqa, Alp bitkiləri də tək-tək, yaxud xırda mikrosenozlar yaradırlar. Qayalıqlarda ən çox xasmofit və litofit bitkilərə rast gəlinir. Burada nəzərə çarpan pioner bitkilərdən (Draba bruniaefolia, Minuartia oreina, Campanula tridentata, Festuca ovina, Elyna schoenoides, Cerastium szowitis və b.) həm torpağın bitkilərlə örtülməsini təmin edir, həm də formalaşaraq xırda mikrosenozlar yaradırlar. Qayalıq bitkilərinin əksəriyyəti dağ-kserofit bitkilərinə oxşadığı üçün ən kserofit şəraitdə də inkişaf edə bilir.

**Heyvanlar aləmi.** Muxtar respublikanın ərazisi təbii şəraitinə görə Azərb.-ın digər bölgələrindən kəskin surətdə fərqlənir və bu bölgənin heyvanlar aləminin son dərəcə zənginliyində öz əksini tapır. Burada olan heyvanların növ tərkibi və miqdarı Azərb. faunasının 60–80%-ni təşkil edir. Muxtar respublikanı endemik və yeni növlər məskəni adlandırmaq olar; yalnız bu əraziyə xas olan çoxsaylı endemik və relikt, hətta elm üçün yeni olan heyvan növləri mövcuddur. Belə çoxsaylılıq ərazidə rast gəlinən bütün heyvan qruplarında nəzərə çarpır. Buna görə də Nax. MR ərazisi



hələ qədimdən bir sıra xarici və yerli alimlərin marağına səbəb olmuşdur. Muxtar respublikanın heyvanlar aləmi 19 əsrin 2-ci yarısından başlayaraq tədqiq olunur. Bir sıra xarici və rus alimlərinin Cənubi Qafqazda cücülərin öyrənilməsi ilə əlaqədar apardıqları tədqiqatlar nəticəsində toplanmış materiallarda Naxçıvan bölgəsinə, xüsusilə Ordubad r-nuna daha çox diqqət yetirilirdi. Sonralar, 1911 ildə alman alimi Y.Miller Ordubad r-nundan xeyli kəpənək növü toplamışdır. Bu alimlər bölgədə 117, Azərb. alimləri isə əlavə olaraq 813 kəpənək növü aşkar etmişlər; bunların 150 növü yalnız Nax. MR ərazisi üçün səciyyəvidir. S.Ə.Əliyev Azərb.-da yayılan 716 növ sovkadan 134 növünün Naxçıvan ərazisində yayıldığını qeyd etməklə onların geniş təhlilini vermişdir (1975). Ərazidə 4 növ qulağagirən, 3 növ yüyürük (1 növü elm üçün yeni), 4 növ dəvədəlləyi, 67 növ düzqanadlı (4 növü elm üçün yeni) və 75 növ cırcırama, 480 növ yarımsərtqanadlı (7 növü endemik) qeydə alınmışdır. Burada yayılmış 2250 böcək növünün 25 növü Cənubi Qafqaz üçün, 51 növü isə Naxçıvan bölgəsi üçün endemikdir. Böcəklər içərisində faydalı sayılan 46 pərəbüzən növündən 39-una Naxçıvan ərazisində rast gəlinir. Ərazidə k.t. heyvanları və insanlar arasında bir sıra qorxulu yoluxucu xəstəliklər yayan 42 növ nəm milçəyi qeydə alınmışdır; bunun 5 növü elm üçün yeni, 10 növü endemikdir. Z.M.Məmmədov muxtar respublika ərazisində yayılan faydalı həşəratların təbii balansını və zərərvericilərə qarşı bioloji mübarizədə onların rolunu öyrənmişdir (1969). Müəllif tərəfindən 120 növə qədər








***Bitki örtüyü:** 1. Qarabağ dağlaləsi. 2. Şrenk dağlaləsi. 3. Yuliya dağlaləsi. 4. Felipeya. 5. Qaraquş zəngçiçəyi. 6. Güləbətin. 7. Tıs-tıs. 8. Komarov şaqqıldağı. 9. Çoxrəngli dağlaləsi.*



*Bitki örtüyü: 1. Tıs-tıs cəngəlliyi. 2. Gəngizlik formasiyası. 3. Otvarı gəngizlik. 4. Alaq bitkiləri. 5. Koropodium. 6. Süddüyən. 7. İris. 8. Çaytikanı. 9. Boymadərən. 10. Dovşan alması. 11. Gülxətmi.*



faydalı cücü aşkar edilmişdir; bunların 8 növü elm üçün yeni, 6 növündən isə k.t. zərərvericilərinə qarşı bioloji mübarizədə istifadə olunması tövsiyə edilmişdir.

Muxtar respublikanın çay və göllərində sümüklü balıqlar sinfinə daxil olan 29 növ balıq aşkara çıxarılmışdır ki, onlar da 4 dəstə, 8 fəsilə və 24 cinsdə cəmləşmişlər. Həmin növlərə: Kür altağızı, Kür qumlaqcası, Araz xramulyası, Kür şirbiti, Cənubi Qafqaz gümüşcəsi, qaraqaş, şərq qıjovcusu, Cənubi Qafqaz yastıqarını, anqor çılpaqcası, zərtəpər, qızılxallı, h ə ş ə m, mursa, çəki, naxa və s. aiddir.

Nax. MR-də suda-quruda yaşayanların (amfibilərin) 6 növü: Suriya sarımsaq iyli qurbağası, adi ağac qurbağası, yaşıl quru qurbağası, göl qurbağası, Cənubi Qafqaz qurbağası və Kiçik Asiya qurbağası; sürünənlərin 19 növü (Xəzər tısbağası, Aralıq dəniz tısbağası, Qafqaz kələzi, yovşanlıq girdəbaşı, zolaqlı kərtənkələ, ilangöz kərtənkələ, ştraux, Cənubi Qafqaz kərtənkələsi, koramal, cılız koramal, kor ilan, kiçik yatağan, adi suilanı, İran suilanı, suilanı, xaltalı kontiya, kələz ilan, gürzə, Naxçıvan gürzəsi) qeydə alınmışdır.

Azərb. Respublikasında qeydə alınmış 366 növ quşun yarıdan çoxuna (218 növ) muxtar respublika ərazisində rast gəlinir. Ərazinin belə zəngin aviofaunaya malik olması, hər şeydən əvvəl onun landşaft quruluşunun rəngarəngliyi, yəni burada yarımsəhra, dağ səhra, meşə, qayalıq və dərələrin, quru çöl və Arazboyu kolluqların, bağların və vahələrin, subalp və alp çəmənlərinin mövcudluğu ilə əlaqədardır. Burada səciyyəvi quşlardan qırmızıbaş alacöhrə, iri zəvzək, oxuyan silvi, dovdaq, bala dovda (cek), çillər, Suriya ağacdələni, səhra muymulu kəkliyi, Xəzər uları, quzuqapan və s. göstərmək olar. Ərazidə məməlilərin 61 növü məlumdur. Bunlar 4 qrupa bölünür: cücülərlə qidalanan məməlilər – adi kirpi, kiçik qonurdiş, ağqarın ağdiş, uzunquyruq ağdiş, kiçik ağdiş, su kutoru; y a r a s a l a r – böyük nalburun, nalburun, blazaus, uzunqanad yarasa, palazqulaq yarasa, cırtdan yarasa, payız palazqulağı; y ı r t ı c ı m ə m ə l i l ə r – çaqqal, canavar, tülkü, qonur ayı, çöl donuzu, gəlincik, ağdiş dələ, bəbir, porsuq, qamış pişiyi, manul, vaşaq; cütdırnaqlı məməlilər – cüyür, bezoar keçisi, muflon, (dağ qoyunu); g ə m i r i c i m ə m ə l i l ə r – meşə süleysini, kiçik ərəb dövşanı, qara siçovul, boz siçovul, siçovul, Qafqaz siçanı, meşə siçanı, Asiya dağ siçanı, Vinoqradov qum siçanı, adi korca, dağ korcası, tirəndaz.

Muxtar respublikada yayılan 350 növ onurğalı heyvanlardan 45 növü Nax. MR-in "Qırmızı kitab"ına salınmışdır.

Əd.: M u s a y e v a M. Ə., Ə l i y e v S. V., Naxçıvan MR-in heyvanat aləmi, "Naxçıvan MR-in 50 illiyi münasibəti ilə" kitabında, B., 1975; M ə m m ə d o v Z. M., Naxçıvan MR-in ərazisində meyvə bitkilərinin zərərvericiləri və onların parazitləri, B., 1969; Talıbov T., Nax. MR-də nadir heyvan növləri və onların genofondunun qorunması, B., 1999.

**Əhali.** Nax. MR-in əhalisi (99,1%-i), azərb.-lardan ibarətdir. Burada həmçinin ruslar, gürcülər, kürdlər və s. xalqların nümayəndələri də yaşayır. Nax. MR Azərb. Respublikasının özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik regionlarından biridir.

**Nax MR-in rayonları üzrə inzibati-ərazi vahidlərinin sayı**

| | Rayonların sahəsi *min kv.km* | Əhalisi *min nəfər* | İnzibati mərkəzin adı | Şəhər tipli qəsəbələr | Kənd yaşayış məntəqələri |
|---|---|---|---|---|---|
| Naxçıvan MR | 5,5 | 360 | Naxçıvan ş. | 4 | 208 |
| o cümlədən: | | | | | |
| Şərur r-nu | 1,2 | 112 | Şərur ş. | – | 72 |
| Babək r-nu | 1,2 | 73,003 | Babək stq | 1 | 43 |
| Ordubad r-nu | 1,0 | 41,347 | Ordubad ş. | 1 | 42 |
| Culfa r-nu | 1,0 | 36,6 | Culfa ş. | – | 24 |
| Şahbuz r-nu | 0,9 | 20,587 | Şahbuz stq | 1 | 24 |
| Sədərək r-nu | 0,2 | 12,2 | Heydərabad qəs. | 1 | 3 |

Muxtar respublikanın 361,2 min nəfər əhalisi var (2001, avqust). Əhalinin 96,2 min nəfəri, yaxud 26,6%-i şəhər, 265 min nəfəri, yaxud 73,4%-i isə kənd əhalisidir; 178,1 min nəfəri, yaxud 49,3%-i kişilərdən, 183,1 min nəfəri, yaxud 50,7%-i isə qadınlardan ibarətdir. Nax. MR-in yarandığı 1924 ildən keçən dövr ərzində bütünlükdə Azərb.-da olduğu kimi, burada da əhalinin doğum, ölüm və təbii artım göstəricilərində, həmçinin miqrasiyası prosesində tədricən müəyyən müsbət dəyişikliklər yaranmağa başlamış və bu dəyişikliklər əhalinin artımına zəmin yaratmışdır.











Muxtar respublikanın mövcud olduğu dövrdə əhalinin ən sürətli orta illik artımı bütünlükdə Azərb.-da əhalinin demoqrafik inkişaf səviyyəsinin ən yüksək göstəricisə malik olduğu 1960–70 illərə təsadüf etmişdir. 1959–70 illərin əhali siyahıyaalınması dövründə Nax. MR-də əhalinin sayı 43% (Azərb. SSR-də 38,4%) artmışdır. Həmin dövrdə bütünlükdə Azərb. SSR-də əhalinin orta illik artım sürəti 3,5% olduğu halda, Nax. MSSR-də 3,9% təşkil etmişdir. Bu, hər şeydən əvvəl həmin dövrdə muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım göstəricilərinin Azərb. SSR-dəkindən xeyli yüksək olması ilə əlaqədar idi.

Muxtar respublikada 1970–90 illərdə əhalinin sayı 48,6% artaraq 205,7 min nəfərdən 305,7 min nəfərə, o cümlədən şəhər əhalisi 99,2% artaraq 51,0 min nəfərdən 101,6 min nəfərə, kənd əhalisi isə 31,9% artaraq 154,7 min nəfərdən 204,1 min nəfərə çatmışdı. 1990 illərin sosial-iqtisadi çətinliklərinə baxmayaraq, bu dövrdə burada əhalinin sayı 15,8% artaraq 305,7 min nəfərdən 361,2 min nəfərə çatmışdır. Orta sıxlıq 1 $km^2$-də 66 nəfərdir (2001, 1 yanvar). Şəhərləri: Naxçıvan, Ordubad, Culfa, Şərur. Şəhər tipli qəsəbələri: Babək, Şahbuz, Parağaçay, Heydərabad.

**Əhalinin dinamikası və quruluşu**

| İllər | Cəmi əhali min nəfər | o cümlədən | | Yekuna nisbətən, faizlə | |
|---|---|---|---|---|---|
| | | şəhər | kənd | şəhər | kənd |
| 1924 | 90,0 | 11,0 | 79,0 | 12,2 | 87,8 |
| 1926 | 104,9 | 14,7 | 90,2 | 14,0 | 86,0 |
| 1939 | 126,6 | 22,5 | 104,1 | 17,8 | 82,2 |
| 1950 | 112,0 | 27,0 | 85,0 | 24,1 | 75,9 |
| 1959 | 141,0 | 38,0 | 103,0 | 27,0 | 73,0 |
| 1970 | 205,7 | 51,0 | 154,7 | 24,8 | 75,2 |
| 1979 | 240,0 | 63,0 | 177,0 | 26,3 | 73,7 |
| 1980 | 248,5 | 66,0 | 182,5 | 26,6 | 73,4 |
| 1985 | 275,5 | 78,0 | 197,5 | 28,3 | 71,7 |
| 1989 | 295,0 | 89,0 | 206,0 | 30,2 | 69,8 |
| 1990 | 307,2 | 90,8 | 216,4 | 29,6 | 70,4 |
| 1993 | 326,1 | 94,8 | 231,3 | 29,1 | 70,9 |
| 1998 | 353,9 | 99,6 | 254,3 | 28,1 | 71,9 |
| 2000 | 359,8 | 96,1 | 263,7 | 26,7 | 73,3 |

**Tarix.** Nax. MR ərazisində zəngin maddi mədəniyyət nümunələrinin aşkar olunması burada qədim daş dövründən başlayaraq ardıcıl dövran sürüldüyünü, bu mədəniyyətlər arasınrda qırılmaz varislik əlaqələrinin olduğunu göstərir. Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, hələ 100–35 min il bundan əvvəl başlamış Mustye mədəniyyəti dövründə burada ibtidai insanların məskunlaşmasına şərait yaranmışdır. Batabat yaylağında, Qazma mağarasında, Naxçıvançay və Əlincəçay vadilərində, Ordubad r-nu ərazisindəki Kilit mağarasında, İlandağın ətəyində və digər abidələrdə daş dövrü mədəniyyətinin izləri aşkar olunmuşdur. Arxeoloji qazıntılar nəticəsində Qazma mağarasından, əsasən, çaxmaqdaşı və obsidiandan (d ə v ə g ö z ü) hazırlanmış Mustye dövrü əmək alətləri

*Daş əmək alətləri. Mustye mədəniyyəti.*







*II Kültəpə yaşayış yeri. E. ə. 4–1-ci minilliklər*

ləri, ovlanmış heyvanların çapılıb doğranmış sümükləri aşkar olunmuşdur. Kültəpə yaşayış yeri yaxınlığından Aşöl mədəniyyəti dövründə hazırlanmış əl çapacağı qeydə alınmışdır.

Naxçıvan ş.-ndən 8 *km* şm.-ş.-də, indiki Kültəpə və Sirab k.-ləri ərazisində yeni daş dövrü – Neolit dövrü (e. ə 7–6-cı minilliklər) yaşayış məskənləri yerləşir. Naxçıvanda Neolit mədəniyyəti əsasında mis metalın kəşf olunduğu Eneolit dövrü mədəniyyəti (e. ə. 6–5-ci minilliklər) inkişaf tapmışdır. I Kültəpənin ən qədim mədəni təbəqəsindən mismərgmüş qatışıqlı müxtəlif alətlər və bəzək nümunələri əldə edilmişdir. I Kültəpə yaşayış yerinin Eneolit təbəqəsinin alt qatlarında düzplanlı, orta qatda dairəvi və düzplanlı, son mərhələdə üst qatlarda isə yalnız düzplanlı tikinti qalıqlarına rast gəlinmişdir.

Eneolit dövrü oturaq əkinçi-maldar qəbilələr Naxçıvançay, Arpaçay vadilərində və digər ərazilərdə məskunlaşmışlar. Eneolit dövrü I Kültəpə, Ovçulartəpə, Damlama, Xələc yaşayış yerlərində və Sədərəkdə tədqiq edilmişdir. Bu dövrdə Naxçıvan bölgəsində əsas təsərrüfat sahələri kimi əkinçilik və maldarlıq, eləcə də metalişləmə, dulusçuluq, daşişləmə, toxuculuq və s. sənət sahələri inkişaf tapmışdı. Arxeoloji materiallar göstərir ki, bütün Eneolit dövrü ərzində Azərb., eləcə də qədim Naxçıvan əhalisi ilə Mesopotamiya (İraq, Suriyanın şm.-ı, Türkiyənin c.-ş.-i) arasında əlaqələr olmuşdur.

Tunc dövründə (e. ə. 4–2-ci minilliklər) qədim Naxçıvan qəbilələrinin iqtisadi, ictimai və mədəni həyat tərzində böyük təkamül baş vermişdir. Naxçıvanda da etnik proseslər güclənmiş və iri tayfa ittifaqları yaranmışdır. I və II Kültəpə, Maxta, Ovçulartəpə, Daşarx və s. Kür–Araz mədəniyyəti abidələrində aparılmış arxeoloji tədqiqatlar göstərir ki, e. ə. 4-cü minilliyin 2-ci yarısı – 3-cü minilliklərdə Naxçıvan qəbilələrinin əkinçilik, maldarlıq mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoymuş, texniki tərəqqi yüksəlmiş, əmək alətlərinin çeşidi və keyfiyyəti daha da artmışdır. Bu dövrdə tuncun kəşfi mühüm rol oynamışdır.

Yaxın Şərq ölkələri ilə Azərb.-ı, eləcə də bütün Qafqazı əlaqələndirən əsas yolların kəsişdiyi əlverişli mövqedə yerləşən iri tayfa ittifaqları mərkəzləri iqtisadi, mədəni cəhətdən yüksəldi və nəticədə 2-ci minilliyin əvvəllərində Naxçıvanda ilkin şəhər mərkəzləri yarandı. Belə şəhər mərkəzlərindən olan II Kültəpədə, Govurqala, Qarabağlar, Oğlanqala, Plovtəpə və Qazançıda arxeoloji tədqiqatlar aparılmışdır. Tunc dövründə Naxçıvan yüksək incəsənəti ilə Yaxın Şərq dünyasında tanınmışdır. Gəmiqaya təsviri sənət abidələri



***Babatəpə sərdabəsi tapıntıları:***
*1, 2. Küpələr. 3. Saxsı qab məmulatı. 4. Yarpaq şəkilli ox ucluğu. 5. Tunc bəzək. 6. Keçi fiquru. 7. Əqiq muncuq. 8. Ön Asiya tipli pasta muncuq. 9. Bilərzik. 10. Sırğa. 11. Tunc borucuq. 12. Sancaq.*



Muncuqlutəpə. Daş sərdabə. E.ə. 8–6 əsrlər.

(bax *Qəmiqaya rəsmləri*), bədii tərtibatlı boyalı qablar (bax *Boyalı qablar mədəniyyəti*), tunc məmulatları və s. Naxçıvanın qədim tayfalarının həyat tərzini, dini-ideoloji və fəlsəfi-estetik dünyagörüşünü əks etdirir.

E. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərində Naxçıvan ərazisinin tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Araşdırmalara əsasən, demək olar ki, bu dövrdə Azərb. ərazisində Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin formalaşması prosesi getmişdir. Naxçıvan ərazisində bu mədəniyyətə aid abidələr I Kültəpə, Şahtaxtı, Kolanı, Sarıdərə, Haqqıxlıq, Bəyəhməd, Qarabulaq, Zeyvə və s. aşkar edilmişdir. Bu abidələrin tədqiqi Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfaların qədim dövrdən bu ərazidə məskunlaşmış aborigenlərdən ibarət olduğunu göstərir. Bu dövrdə Naxçıvan ərazisi üçün əsas təhlükə qonşuluqda olan Urartu dövləti tərəfindən yaranmışdı. Culfa r-nu ərazisindəki İlandağda e. ə. 820–810 illərə aid mixi yazısı aşkar olunmuşdur. Yazıdan məlum olur ki, Urartu çarları İşpunin və onun oğlu Minuanın dövləti birlikdə idarə etdikləri dövrdə bu əraziyə basqın etmişlər. İşğalçılara qarşı mübarizə məqsədilə regionun qədim yaşayış yerlərində möhtəşəm müdafiə istehkamları inşa edilmişdir (Oğlanqala, Qalacıq, Govurqala və s.).

E. ə. 9–6 əsrlərdə Naxçıvan ərazisi qədim Manna və Midiyanın tərkibində olmuşdur. Qazıntılar nəticəsində əldə olunmuş tapıntılar bu ərazinin, həmçinin Manna mədəniyyətinin təsir dairəsinə daxil olduğunu göstərir. Naxçıvan torpağı eramızın 4 əsrinin 30-cu illərinədək Əhəmənilər dövlətinin hakimiyyəti altında idi. Əhəmənilər imperiyası süquta uğradıqdan sonra Naxçıvan e. ə. 4 əsrin sonlarından Atropatenanın, eramızın 3 əsrindən Sasanilər dövlətinin tərkibinə daxil olmuşdur.

Atropatena hökmdarının iqamətgahı Naxıçıvanın qonşuluğunda, Marağa yaxınlığındakı Qazaka ş.-ndə yerləşdiyindən Naxçıvan Yaxın Şərqin bir sıra şəhərləri ilə iqtisadi və mədəni əlaqələri gücləndirmiş, antik dünya xalqlarıyla sıx ticarət əlaqələri yaratmışdı. Bu barədə qədim yunan, Roma, ərəb, Suriya, erməni müəlliflərinin əsərlərində, az da olsa, məlumatlar vardır. Şərur r-nunun Püsyan k. yaxınlığındakı yaşayış yerindən və nekropoldan, Oğlanqala, Qoşatəpə, Babatəpə və s., Babək r-nu ərazisindəki Meydantəpə, Nurudərəsi abidələrindən antik dövr mədəniyyəti izləri qeydə alınıb, ilkin tədqiqat işləri aparılmışdır. Naxçıvan nekropolundan əldə edilən saxsı məmulatı, metal, şüşə, bəzək əşyaları, qliptika nümunələri, Şahbuz r-nu ərazisindən tapılan Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş pullar (e. ə. 4 əsr) bu bölgədə küp qəbirlərin e. ə. 4-cü əsrdən gec olmayaraq yayıldığını göstərir.

Naxçıvan bölgəsinin orta əsrlər dövrünün ayrı-ayrı mərhələlərinə aid abidələr öz zənginliyi ilə xüsusilə diqqəti cəlb edir. Əlincəçay vadisindəki Zoğallı abidəsindən tapılmış sütun altlıqları, tunc qrifon, Cavanşirin tunc heykəli (Naxçıvan ş.), Batabat yaylağındakı Fərhad evi, onun üzərindəki kitabə, yaxınlığından keçən qədim karvan yolu və bir çox abidələrdən aşkar olunmuş materialların müqayisəli təhlili göstərir ki, Naxçıvan orta əsrlərdə Azərb.-ın əsas ticarət mərkəzlərindən biri olmuş, Yaxın Şərq və Qafqazla iqtisadi, mədəni əlaqələrin daha da genişlənməsində önəmli rol oynamışdır.

Eramızın ilk əsrlərində bütün Azərb.-da olduğu kimi, Naxçıvan bölgəsində də məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafında ciddi dəyişikliklər əmələ gəlir, köhnə istehsal münasibətləri yeni feodal münasibətləri ilə əvəz olunurdu. Əmək alətləri də təkmilləşirdi; arxeoloji qazıntılar nəticəsində tapılan maddi mədəniyyət abidələri təsərrüfatda xış, dəryaz, oraq, bel və s. kimi daha təkmil əmək alətlərindən istifadə olunduğunu sübut edir. İstehsal alətlərinin təkmilləşməsi təsərrüfatın müxtəlif sahələrinin inkişafına təkan verdi.





Azərbaycan hökmdarı Cavanşir. 7 əsr. Tunc. Naxçıvan. Ermitaj (Sankt-Peterburq).



Məscid qapısı üzərində oyma üsulu ilə işlənmiş kitabə. 14 əsr. Cuğa qəbiristanlığı. Culfa.

Eramızın əvvəllərində indiki Nax. MR-in c.-q. hissəsi Vaspurakan tarixi vil.-nə daxil idi. 591 il Bizans–İran müqaviləsinə görə Vaspurakan, eləcə də Sünik və Dvin siyasi baxımdan İrana tabe edilir. Albaniya (Qafqaz) əyaləti Sünikin vil.-lərindən biri olan Naxçıvan və Qoğtən (Ordubad ərazisi) da bu tarixdən Sasani imperiyasının tərkibinə daxil edilmiş Vaspurakana qatılır. Buranı Sasani canişinləri – mərzbanlar idarə etməyə başladılar. Roma–İran, sonralar isə İran–Bizans müharibələri zamanı döyüş meydanına çevrilən Naxçıvan bölgəsi də dəfələrlə əldən-ələ keçdi (bax *Sasanilər dövləti*). Sasani gümüş sikkələri ilk dəfə Naxçıvan zərbxanasında kəsilmişdi (bax *Naxçıvan zərbxanası*). Mihranilər sülaləsinin Albaniyada dövlətçiliyi bərpa etmələri ilə (7 əsrin 30-cu illəri) Naxçıvan və Qoğtən yenidən Albaniyanın tabeliyinə keçdi.

7 əsrin 2-ci yarısında başlanmış ərəb istilaları nəticəsində yaranan Xilafətin tərkibinə daxil edilmiş Vaspurakan ərəb mənbələrində Basfurcan adı ilə qeydə alınır. Ərəb istilalarına xüsusi əsər həsr etmiş ərəb tarixçisi əl-Bəlazurinin (9 əsr) məlumatına görə Basfurcan ərəblərin Cənubi Qafqazda tutduqları yerləri özündə birləşdirən yeni ərəb inzibati-ərazi bölgüsünə daxil edilir. Burada və digər ərəb mənbələrində Nəşavə (Naxçıvan) həmin bölgüyə əsasən, Arran vil.-nə daxil edilən Basfurcanın əsas şəhəri adlandırılır. Bu dövrdə feodal zülmünə, həmçinin yadelli əsarətə qarşı bir sıra çıxışlar olmuşdu. Babək hərəkatı Naxçıvan ərazisində də geniş yayılmışdı.

9 əsrdə Naxçıvan Sacilər dövlətinin tərkibinə daxil edilir və 10 əsrin 30-cu illərinədək onun hakimiyyətində qalır. Sacilər xanədanı süquta uğradıqdan (942) sonra Naxçıvan bir müddət onun əmirlərindən olan Deysəm ibn İbrahimin hakimiyyəti altında qalmışdır. 942–81 illərdə Naxçıvan Salarilər dövlətinin əhatə etdiyi ərazinin tərkibinə qatılır.

11 əsrin 1-ci yarısında Azərb., eyni zamanda Naxçıvan bölgəsi Səlcuq nəsli nümayəndələrinin başçılıq etdikləri oğuzlar və b. türk tayfaları tərəfindən ələ keçirildi. 1018–21 illərdə Araz çayını adlayan oğuzlar e. istiqamətindən Arran torpaqlarına yürüş edərək, Naxçıvan, sonra isə Dəbil ş.-lərinə yetişdilər.

1038 ildə Səlcuqlar dövləti yarandı. Onun ilk hökmdarı Toğrul bəyin [1038–63] varisi Alp Arslan [1063–72] Azərb.-ın c. vil.-lərində Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra səlcuqlar Naxçıvana yiyələndilər (1064). Bəzi qaynaqların məlumatına görə, Alp Arslan Naxçıvan ş.-ndə özünə xüsusi iqamətgah tikdirmişdi. Səlcuqlar dövlətinin meydana çıxma, çiçəklənmə və nəhayət, parçalanma dövrləri Yaxın və Orta Şərqin bir çox ölkəsinin, o cümlədən Azərb.-ın tarixi taleyində mühüm yer tutur; bir sıra türk xalqlarının formalaşması, türk dillərinin geniş yayılması, elm, ədəbiyyat, memarlıq, incəsənət və mədəniyyəin inkişafı səlcuqilərin adı ilə bağlıdır. Səlcuqiləri tədricən siyasi və iqtisadi qüdrət kəsb edən ayrı-ayrı atabəy sülalələri əvəz etdi; Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövləti – Azərbaycan atabəyləri dövləti [1136–1225] yarandı. Dövlətin əsasını Azərb.-ın da bir vilayət kimi daxil olduğu İraq səlcuq sultanlığının başçısı sultan II Toğrulun [1132–35] azyaşlı oğlu Arslan şahın atabəyi (tərbiyəçisi) Şəmsəddin Eldəniz qoymuşdur.

Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılırdı. Əsas xəzinə isə Naxçıvan ş. yaxınlığındakı Əlincəqalada mühafi-



Xarabagilan. Orta əsr.

zə olunurdu. Şəmsəddin Eldənizin hakmiyyəti dövründən başlayaraq dövlətin bütün gəlirləri burada toplanırdı. Naxçıvan ş. bir müddət Azərb. atabəyləri dövlətinin paytaxtına çevrilir və 12 əsrin 70-ci illərindən Eldənizlərin mərkəz şəhəri kimi fəaliyyət göstərir. Bu dövrdə Naxçıvan xeyli inkişaf etdi. Naxçıvanda qiymətli memarlıq abidələri – qalalar, saray, məscid, türbə və s. tikildi. Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə Naxçıvan hakimi onun arvadı Zahidə xatun idi. Eldənizlərdən sonra Naxçıvan bir müddət xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnının nüfuz dairəsində qalır. Həmin dövrdə Naxçıvanın hakimi Cəlaliyyə xatun (Məhəmməd Cahan Pəhləvanın Zahidə xatundan olan qızı) idi.

13–14 əsrlərdə Naxçıvan bölgəsi Azərb.-da və ümumiyyətlə, Yaxın Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslərin mərkəzlərindən birinə çevrilir. Hülakuların, Çobanilərin, Cəlairilərin nüfuz dairələrində olan Naxçıvan bu dövlətlərin siyasi həyatında da yaxından iştirak edirdi. Əmir Teymurun Azərb.-a yürüşləri və Naxçıvanda ona göstərilən müqavimət bölgənin tarixində mühüm yer tutur. Dövrün mənbələrindən aydın olur ki, inzibati-ərazi baxımından 9 tümənə ayrılan Azərb.-ın bir tüməni olan Naxçıvan bölgəsi dövlətə 10.000 döyüşçü vermək qüdrətinə malikdi. İran tarixçisi Həmdullah Qəzviniyə görə, Azərb.-ın 27 şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə Naxçıvan tüməninə daxil idi və o, geniş ərazini – Araz çayının şm. və c. tərəflərini əhatə edirdi.

13–14 əsrlərə aid yazılı qaynaqlarda Naxçıvan ərazisində və onun ətrafında Vənənd, Qarabağlar, Giran, Cüləhə (müasir Culfa), Şahbuz, Şərur, Əlincə, Sürməli, Gəriş, Taqmar, Fəqnan və s. yaşayış məskənləri, qala və istehkamlar, Əshabi-Kəhf mağarası, Xudafərin və Ziyaülmülk körpüləri və s. mövcud olmuşdur. Möhtəşəmliyi, strateji mövqeyi, təbii şəraiti ilə fərqlənən Əlincəqala 13–14 əsrlərdə Azərb.-da fəaliyyət göstərmiş dövlətlərin tarixində, eləcə də diyarın və Azərb. xalqının azadlıq mübarizəsində mühüm mövqe tutmuşdur. Bu dövrdə Naxçıvanda sənətkarlıq və ticarət nisbətən inkişaf etmişdi. Ərazidə taxıl, pambıq, üzüm, cürbəcür meyvələr becərilirdi. Daş duz, xam ipək, zərgərlik məmulatları, ağacdan düzəldilmiş müxtəlif məişət əşyaları, xalılar, baş örtükləri, mis və saxsı qablar qonşu ölkələrə də ixrac olunurdu. Orta əsrlərdə Naxçıvan, Ordubad, Əlincə və s. zərbxanalarda ayrı-ayrı hökmdarların adından müxtəlif nominallı gümüş və mis sikkələr kəsilirdi.

15 əsrdə Naxçıvan ərazisi Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətlərinin tərkibində idi. 1501 ildə Şərur düzündə qızılbaşların Ağqoyunlular üzərində qələbəsindən sonra Naxçıvan Səfəvilərin hakimiyyətinə keçdi (bax *Şərur döyüşü*). Səfəvilər dövlətinin təsisi və fəaliyyəti onun tərkibinə daxil olan vilayətlərin, o cümlədən Cənubi Qafqaz bölgəsinin həyatında ciddi dəyişikliklərə səbəb oldu. Azərb. torpaqları inzibati-ərazi daxilində vil. kimi genişlənməyə başladı. Orta əsrlər Azərb.-ının ən geniş ərazisi (vil. kimi) Səfəvilər dövrünə təsadüf edir. 280–300 min $km^2$-lik Azərb. ərazisi inzibati-ərazi baxımından 4 bəylərbəyiliyə bölünmüşdü: Şirvan bəylərbəyiliyi, Qarabağ (Gəncə) bəylərbəyiliyi, Çuxursəd bəylərbəyiliyi və Təbriz bəylərbəyiliyi (Ordubad bu bəylərbəyiliyə daxil idi). Səfəvilər dövründə Çuxursəd bəylərbəyiliyinin mərkəzi İrəvan ş. idi. İrəvan, eləcə də Naxçıvan ş. qızılbaş ustaclılar tayfasının iqamətgahı olmuşdur. Səfəvi–Osmanlı müharibələri dövründə (16–17 əsrlər) Naxçıvan ərazisi döyüş meydanına çevrildi. Dəfələrlə əldən-ələ keçən Naxçıvan dağıntılara məruz qaldı. Dövrün hərbi-siyasi hadisələri üzündən Naxçıvan ş. əski əzəmətini, Azərb.-ın iqtisadi-siyasi, mədəni həyatındakı önəmli rolunu və mövqeyini




**Boyalı qablar mədəniyyəti tapıntıları:** *1. Monoxrom boyalı küpə (Kültəpə II). 2. Monoxrom boyalı tək qulplu küpə (Kültəpə II). 3. Polixrom boyalı çıraq (Culfa). 4. Monoxrom boyalı küpə (Kültəpə II). 5. Çaydantipli polixrom boyalı qab (Naxçıvan). 6. Monoxrom boyalı küpə (Yaycı). 7. Polixrom boyalı kasa (Culfa). 8. Polixrom boyalı üçayaqlı vaza (Naxçıvan ş.). 9. Monoxrom boyalı küpə (Nəhəcir).*




***Naxçıvanda zərb olunmuş və pul dövriyyəsində işlədilmiş sikkələr:*** *1–2. Üzərində "Naxç." sözü yazılmış Sasani hökmdarı II Xosrov [591–628] və Boran [629–631] dövrlərinə aid gümüş dirhəmlər. 3–4. Atabəy Şəmsəddin Eldənizə [1136–1175] və Atabəy Qızıl Arslana [1186–1191] aid mis dirhəmlər. 5. H ü l a k ü l ə r. Məhəmməd Xudabəndə Ölcaytu [1304–1316]. Naxçıvan, 704 (1305–1306), gümüş dirhəm. 6. M ü z ə f f ə r i l ə r. Şah Şüca [1359–1384], Naxçıvan, gümüş dirhəm. 7. S ə f ə v i l ə r. Məhəmməd Xudabəndə [1578–1587], Ordubad, 892 (1486/87), gümüş məhəmmədi. 8. S ə f ə v i l ə r. Sultan Hüseyn [1694–1722], Naxçıvan, 1130 (1717–1718), gümüş abbasi. 9. Naxçıvan xanlığı, anonim. Naxçıvan. 1190 (1776–1777), gümüş abbasi.*



itirmişdi. Culfa, Ordubad, Əylis kimi mərkəzlərə də xeyli zərər yetirilmişdi. I Şah Abbasın hakimiyyəti illərində [1587–1629] Naxçıvandan İrana çoxlu əhali sürgün olundu.

17–18 əsrlərdə Naxçıvan ölkəsi ustaclılar tayfasının idarəsinə verilmişdi. Bu tayfanın tərkibində kəngərlər ölkənin siyasi həyatında fəal iştirak etmişlər. 17 əsrin sonlarından başlayaraq Səfəvilər dövləti dərin sosial-iqtisadi və siyasi böhran keçirir və bu, 1722 ildə imperiyanın faktiki süqutu ilə başa çatır.

18 əsrin əvvəlində Azərb.-a sahib olmaq uğrunda İranla Türkiyə arasında mübarizə yenidən gücləndi. Xəzərboyu bölgələri ələ keçirməyə çalışan Rusiya da Türkiyənin həmin r-nlarda irəliləməsindən narahat idi. I Pyotr 1722 ildə 100 minlik ordu ilə yürüşə çıxaraq, Dərbəndə kimi Xəzərsahili torpaqları işğal etdi. Azərb. ərazisinin qalan hissəsi isə Osmanlıların əlinə keçdi. 1724 ilin sentyabrında Osmanlılar Naxçıvan ş.-ni, bir neçə gündən sonra isə Ordubad ş.-ni tutdular. Naxçıvan vil.-nin çox hissəsi yeni təşkil olunmuş Naxçıvan sancağının tərkibinə daxil edildi. Osmanlılar dövründə Naxçıvan sancağı 14 nahiyəyə bölünmüşdü: Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvazeyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərəşürgüt, Sisyan və Dərələyəz. Ordubad ayrıca nahiyə təşkil etməyərək, Azadciran nahiyəsinə daxil idi. Bu dövrdə Naxçıvan ş.-nin yuxarı məhəlləsində 322 ev, aşağı məhəlləşində 327 ev olmuşdur.

1735 ildə Azərb.-ın digər əraziləri kimi, Naxçıvan da Nadir xanın hakimiyyətinə keçdi. 1736 il Muğan qurultayında özünü şah elan edən Nadir Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu. Mərkəzləşdirmə siyasəti yeridən Nadir şah inzibati-ərazi bölgüsünü dəyişdirdi, bəylərbəyilikləri ləğv edib, Azərb.-ın bütün ərazisini vahid Azərb. vil.-ndə (mərkəzi Təbriz) birləşdirdi və vil.-in idarəsini qardaşı İbrahim xana həvalə etdi. Naxçıvan bölgəsində yaşayan kəngərli tayfası Nadir şaha itaətsizlik göstərdiyinə görə bu tayfanın bəzi üzvləri Əfqanıstana köçürüldü. Nadir şah Naxçıvan əyalətinə eyni zamanda iki hakim təyin etdi: "Hakim-e ölkə-ye Naxçıvan" (tayfa vəkili və əyalətdən toplanan qoşunun rəisi idi) və "Hakim-e tümən-e Naxçıvan" (şah tərəfindən təyin olunur, iqtisadi və inzibati idarə işlərinə rəhbərlik edirdi).

1747 ildə Nadir şah Əfşar əyanlarının suiqəsdi nəticəsində öldürüldükdən sonra kəngərli tayfa başçısı Heydərqulu xan özünü Naxçıvanın müstəqil xanı elan etdi. Zəngəzur dağlarından Araz vadisinə qədər ərazini əhatə edən xanlığın mərkəzi Naxçıvan ş. oldu. Xanlıq inzibati cəhətdən Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə, Çənənəb və Biləv mahallarına bölünmüşdü. Həmin dövrdə xanlığın iqtisadi həyatında müəyyən dirçəliş nəzərə çarpırdı (ətraflı məlumat üçün bax Naxçıvan xanlığı). 1826–28 illər Rusiya–İran müharibəsi dövründə Naxçıvanı rus qoşunları tutdular. *Türkmənçay müqaviləsinə (1828)* əsasən xanlığın ərazisi Rusiyaya ilhaq olundu. Azərb. xalqının ikiyə bölünməsi kimi tarixi faciəni başa çatdıran bu hadisə ölkənin şm.-nı çar Rusiyasının ucqar müstəmləkəsinə çevirsə də, obyektiv olaraq əhalini xarici hücumlardan, ara müharibələrinin, feodal çəkişmələrinin törətdiyi bəlalardan da xilas etdi. İstiladan sonra çar hökuməti İrandan və Türkiyədən 10 minlərlə erməni ailəsini Naxçıvana köçürmüş və diyarın demoqrafik durumunu ciddi surətlə dəyişmişdi. Bu, özgə torpaqlarında süni surətdə xristian "erməni dövləti" yaratmaq istəyənlərin məkrli niyyətlərinin başlanğıcı idi. Naxçıvan diyarı çar hökumətinin Qafqazda apardığı inzibati islahata (1840, 10 aprel) əsasən Gürcüstan–İmeretiya quberniyasının tərkibində Naxçıvan qəzası kimi təşkil edildi (1849 ildən İrəvan quberniyasının tərkibinə keçirilmişdi). Naxçıvanın Ümumrusiya bazarına cəlb olunması k. t., xüsusilə də pambıqçılıq və ipəkçiliyin inkişafına əlverişli şərait yaratdı. 1837 ildə Sust k. yaxınlığında 2-ci duz mədəni istifadəyə verildi. 60-cı illərin 2-ci yarısında Naxçıvan duz mədənlərində muzdlu əməyin tətbiqinə başlanması illik duz istehsalını 250 min puddan 300 min puda çatdırmağa imkan vermişdi.

19 əsrin 50–60-cı illərində diyarda pambıqçılıq sürətlə inkişaf etdi. Pambıqtəmizləmə sənayesi də yaranmağa başladı. Azərb.-da ilk pambıqçılıq z-dlarından biri 1882 ildə Naxçıvanda tikilmişdi. Naxçıvan qəzasında mahlıc istehsalı müəssisələri daha sürətlə artırdı. 80-ci illərdə Naxçıvan və Ordubadda şərab məhsulları istehsalının artması nəzərə çarpırdı.



*Şah Abbasın tunc təbərzini 16–17 əsrlər. Naxçıvan Dövlət Tarix Muzeyi*

*Dərviş keşkülü. Hicri 1272= =1855/56 miladi. Naxçıvan Dövlət Tarix Muzeyi*



90-cı illərdə qəzada ildə orta hesabla 150–200 min vedrə şərab istehsal edilirdi. Ordubadda ilk ipəksarıma f-kləri yarandı. 1870 ildə İrəvan quberniyasının tərkibində əhalisinin çox böyük əksəriyyəti azərb.-lılardan ibarət olan Şərur–Dərələyəz qəzası təşkil edildi. Naxçıvan və Şərur–Dərələyəz qəzaları İrəvan quberniyasının tərkibində qaldı; bölgədə aparılmış yeni inzibati-ərazi dəyişiklikləri əzəli Azərb. torpaqlarının ermənilər tərəfindən zəbt olunmasına zəmin yaratdı.

70–90-cı illərdə Azərb.-da, o cümlədən Naxçıvanda çar mütləqiyyətinin və yerli zülmkarların əsarətinə qarşı etiraz hərəkatı getdikcə güclənirdi. Kəndlilərin narazılığı bəzi yerlərdə bəylər və yerli hakimiyyət orqanlarının nümayəndələri ilə silahlı toqquşmalara keçən açıq çıxışlar formasını aldı. 19 əsrdə qaçaqçılıq hərəkatı Zəngəzurda və Naxçıvanda Qaçaq Nəbi kimi əfsanəvi qəhrəmanlar yetişdirmişdi.

Əsrin sonunda Naxçıvanda yeni tipli şəhər və qəza təhsil ocaqlarının yaradılmasında mühüm addımlar atıldı. Yeni tipli məktəblərin yayılmasında 1882 ildə Ordubadda "Əxtər", 1894 ildə isə Naxçıvanda "Tərbiyə" adlanan məktəblər açmış Məhəmmədtağı Sidqinin böyük xidməti olmuşdur. M. Sidqi 1896 ildə Naxçıvanda ilk dünyəvi qız məktəbinin də təsisçisi idi.

19 əsrdə Naxçıvanda ədəbi-mədəni həyat da canlandı. Hələ 1838 ildə Ordubadda Şeyxəli Naib tərəfindən Azərb.-da ilk ədəbi məclislərdən olan "Əncüməni-şüəra" yaradılmışdı. 80-ci illərin əvvəlində Naxçıvanda "Ziyalı məclisi", "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" təşkil olundu, 1886 ildə isə M. F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah..." pyesinin tamaşası ilə Naxçıvan teatrının təməli qoyuldu.

Naxçıvan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. 20 əsrin əvvəllərində Azərb.-da milli şüurunun formalaşması prosesinin gücləndiyi bir şəraitdə Naxçıvan əhalisi də, xüsusən fəhlə və kəndlilər çar mütləqiyyətinə, onun müstəmləkəçilik siyasətinə qarşı fəal mübarizəyə qoşuldular. Bu işdə Naxçıvan diyarında fəaliyyət göstərən istər inqilabi sosial-demokrat, istərsə də milliyyətçi təşkilatların fəaliyyəti mühüm rol oynayırdı. N. Nərimanovun yaxın silahdaşları M. B. Mir Heydərzadə, K. Camalbəyov, Ə. Yüzbaşov, Ə. Tağızadə və başqaları ilə birlikdə 1904 ildə Tiflisdə yaratdığı sosial-demokrat "Hümmət" dərnəkləri tezliklə Naxçıvan və Culfada da fəaliyyət göstərməyə başladı. Tiflis "Hümmət" təşkilatı bürosunun qərarı ilə Naxçıvana göndərilən Əşrəf Qurbanov, Əli Yüzbaşov və Əli Tağızadə 1905 ildə "Hümmət"in Naxçıvan bürosunu yaratdılar. Təşkilatın üzvləri yerlərdə inqilabi iş aparır, zəhmətkeş əhalini maarifləndirir, onları çar mütləqiyyətinə qarşı mübarizəyə çağırırdılar. Rusiyada 1905–07 illər inqilabı dövründə Naxçıvanda kəndli hərəkatı daha da gücləndi. "Hümmət"in Naxçıvan təşkilatının üzvləri sonralar İran inqilabında (1905–11), xüsusən Təbriz ş.-nin müdafiəsinin təşkilində fəal iştirak etmişdilər. 1915–16 illərdə Naxçıvan və Culfa şəhərlərində fəaliyyət göstərmiş "Mücahidin" milliyyətçi təşkilatı da yerli əhalinin islamçılıq və türkçülük ideyaları ətrafında çar mütləqiyyətinə qarşı mübarizəyə qaldırılmasında mühüm rol oynamışdı.

1917 ilin fevralında Rusiyada çar mütləqiyyəti devrildikdən sonra imperiyanın bir çox əyalətlərində olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik meydana gəldi. Bəzi dövlətlər yaranmış vəziyyətdən istifadə edərək, Azərb.-ın ayrılmaz tərkib hissəsi olan bu bölgəyə yiyələnməyə cəhdlər göstərdilər. Naxçıvanda yerli hakimiyyət, orqanlarının – qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlandı; əhalinin milli tərkibinə uyğun "qarışıq milli komitələr" yaradıldı.

Naxçıvan diyarında vəziyyət mürəkkəbləşdi. Əhali arasında, ictimai-siyasi həyatda qeyri-müəyyənlik hökm sürürdü. 1918 ildə xarici imperialistlərin, erməni daşnak hökumətinin maddi və mənəvi yardımına arxalanan "erməni milli komitəsi" Naxçıvan bölgəsində qarşıdurmanı, qırğınları daha da artırdı.

1918 ilin mayında Azərb. ilk dəfə olaraq dövlət müstəqilliyini elan etdi, Azərb. Xalq Cümhuriyyəti (AXC) yarandı. AXC qısa müddət ərzində mühüm ictimai-siyasi, iqtisadi, sosial-mədəni tədbirlər həyata keçirdi, parlamenti, müvafiq hökumət orqanları, ordusu, milli pul vahidi olan müstəqil, suveren



dövlətə çevrildi, dövlətçilik rəmzlərini yaratdı. 1918 ilin payızında Naxçıvan-Araz-Türk Respublikası yaradıldı. Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olundu. Araz-Türk Respublikasının ərazisinə Naxçıvan, Şərur, Mehri, Vedibasar, Qəmərli dairələri daxil idi. Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə və yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı. 1919 ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz Türk Respublikasını, Naxçıvan Milli Komitəsini ləğv etdilər.

1919 ilin iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutdular. Yerli əhali canını xilas etmək üçün Cənubi Azərb.-a qaçmalı oldu. Az sonra Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların hərbi hissələrini Naxçıvandan qovdu. 1919 ilin yay və payızında Şərur–Dərələyəzdə və Naxçıvanda Amerika gen.-qubernatorluğunun yaradılması təşəbbüsü də uğursuzluqla nəticələndi (bax *Naxçıvanda Amerika general-qubernatorluğu*).

1920 il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası bərqərar oldu. Naxçıvan əhalisi kömək üçün Azərb. SSR hökumətinə müraciət etdi. 1920 il iyulun 28-də Naxçıvan Sovet Respublikası elan olundu. Naxçıvanda əmin-amanlığın yaradılmasında, diyarın daşnak ünsürlərindən təmizlənməsində A. Şadlinskinin başçılığı ilə "Qırmızı tabor" fəal iştirak etdi. Eyni zamanda əzəli Azərb. torpağı Zəngəzur Ermənistanın tərkibinə qatıldı. N. Nərimanovun tapşırığı ilə o zaman Moskvada danışıqlar aparan B. Şahtaxtinski Türkiyə nümayəndələri ilə görüşdə Naxçıvan və Zəngəzurun Ermənistana qatılması barədə Ermənistan hökuməti ilə sovet hökuməti arasında razılaşma olduğunu bildirmiş və demişdir: "Naxçıvan da Azərb.-a və Türkiyəyə birləşdirilməlidir". Bununla əlaqədar o, Naxçıvan əhalisinə müraciətlə bildirmişdi: "Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, istinad edəcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpaqlarınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər". Naxçıvan ərazisini Azərb.-dan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921 ilin yanvarında Azərb., Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan mahalının muxtariyyət statusunda Azərb. SSR-in tərkibində qalmasına səs verdi. Naxçıvanın Azərb.-ın himayəsi altında muxtar ərazi statusu RSFSR-lə Türkiyə arasında bağlanmış *Moskva müqaviləsində (1921)*, Rusiya, Azərb., Gürcüstan, Ermənistan və Türkiyə arasında imzalanmış *Qars müqaviləsində (1921)* təsbit edildi. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması böyük siyasi əhəmiyyət kəsb edən bir fakt oldu.

I Zaqafqaziya Sovetlər qurultayı (1922, dekabr) Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərb. SSR-in ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi. Azərb. MİK Naxçıvan Muxtar Diyarının Azərb. SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edərək, onun təsdiq olunmasını Zaqafqaziya MİK-dən xahiş etdi. 1924 il yanvarın 8-də Zaqafqaziya MİK-in plenumu Q. Musabəyovun məruzəsini və Azərb. MİK-in qərarını müzakirə edərək, Azərb. SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan olunmasını təsdiq etdi. Azərb. SSR MİK-in 1924 il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Azərb. SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi rəsmiləşdirildi.

Nax. MR-in Azərb.-ın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olan Ermənistan Naxçıvana ərazi iddialarından, onu özünə birləşdirmək niyyətlərindən əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb, öz ərazilərinə birləşdirməyə nail oldular. 1929 ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 $km^2$ ərazisi – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan dairəsi Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad dairəsinin Qorçevan



Naxçıvan şəhərindən görünüş.

kəndi, habelə Kilit k. torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930 ildə isə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri r-nu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş, o, indi də bu çirkin niyyətlərindən əl çəkmir.

Naxçıvanın muxtar ərazi statusunun möhkəmləndirilməsində 1926 il aprelin 18-də 5-ci Ümumnaxçıvan Sovetlər Qurultayında qəbul olunmuş Nax. MSSR-in birinci Konstitusiyasının, 1937 il sentyabrın 17-də Nax. MSSR-in 10-cu fövqəladə Sovetlər Qurultayında qəbul olunmuş Nax. MSSR-in ikinci Konstitusiyasının, 1978 il mayın 30-da Nax. MSSR Ali Sovetinin 9-cu çağırış növbədənkənar 8-ci sessiyasının qəbul etdiyi üçüncü Konstitusiyasının mühüm əhəmiyyəti olmuşdur.

Nax. MR Azərb. Respublikasının tərkibində özünəməxsus inkişaf yolu keçmiş, sosial-iqtisadi, ictimai-siyasi həyatda mədəni-maarif, elm, təhsil, səhiyyə sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu baxımdan, 1969 ildən sonrakı dövr xüsusilə mühüm mərhələ təşkil edir. Heydər Əliyevin Azərb.-a rəhbərlik etdiyi 30 ildən çox müddət ərzində ölkənin hər yerində olduğu kimi, Nax. MR-də də əsl tərəqqi və quruculuq dövrü başlanmışdır. 1969 ildən sonra mürəkkəb və çətin tarixi şəraitdə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada sənaye və tikinti sahələrinin şəbəkəsi genişləndi. Sənaye istehsalında konserv, üzüm emalı, tikinti materilları, elektrotexnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artdı. Naxçıvan ş.-ndə ildə 55 mln. ədəd butulka istehsal edən şüşə qablar z-dunun, alt trikotaj f-kinin, tütün fermentasiya, alüminium qablar, elektrotexnika "Araz" təcrübə z-dları, taxıl məhsulları və ət-süd kombinatları, Ordubad və Şərur r-nlarında konserv z-dları, Şahbuz r-nunda avtotəmir, Şərurda radio, Ordubadda elektron z-dları məhz bu illərdə tikilib istifadəyə verilmişdir. 1980 ilin sonuna yaxın məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924 ilə nisbətən 180 dəfədən çox artmışdı. Təkcə 1987 ilin iki gündündə 1913 ildə istehsal olunan qədər məhsul istehsal edilirdi. Son 30 ildə Nax. MR böyük tikinti meydançasına çevrilmişdir. Təkcə Naxçıvan ş.-ndə 45 min nəfər əhalinin yaşadığı yeni yaşayış massivləri salınmış, 400 çarpayılıq respublika xəstəxanası, dəri-zöhrəvi, vərəm və onkologiya dispanserləri, şəhər poliklinikasının yeni binası, r-nlarda mərkəzi xəstəxanalar, feldşer-mama məntəqələri tikilmişdir. 53 min 246 şagird yeri olan 111 məktəb binası, 3920 yerlik 38 uşaq bağçası və 40-a yaxın məktəbdənkənar uşaq tərbiyə müəssisəsi tikilib istifadəyə verilmişdir.

Aqrar bölmənin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və sahənin sistemli şəkildə intensivləşdirilməsi istiqamətində də əsaslı addımlar atılmışdır. Kimyalaşdırma, iri miqyaslı meliorasiya-irriqasiya tədbirləri həyata keçirilmiş, Araz, Arpaçay, Bənənyar, Sirab kimi iri sututarlar və dəryaçalar salınmışdır. Bu illərdə təsərrüfatlarda rentabellik səviyyəsi 8,3 faiz, fəhlə və qulluqçuların əmək haqqı 117 faiz çoxalmış, kənd yerlərində mənzil fondu 5,5 dəfə, klubların sayı 2,6 dəfə, məktəbəqədər uşaq müəssisələri 2,3 dəfə, kitabxanalar 2,7 dəfə, mənzillərin telefonlaşdırılması 1,7 dəfə artmışdır. Naxçıvanda elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı güclənmiş, Azərb. Milli EA-nın Naxçıvan Regional Elmi Mərkəzi, Elm və Texnika Mərkəzi, Naxçıvan Dövlət Un-ti, Azərb. Müəllimlər İn-tunun Naxçıvan filialı, kənd təsərrüfatı, musiqi və tibb texnikumları, Şamaxı astrofizika rəsədxanasının Batabat bölməsi, Ordubad Xüsusi Konstruktor Texnoloji Bürosu yaradılmış və fəaliyyətə başlamışdır.



Nax. MR keçmiş Sovetlər Birliyi dövründə sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə etdiyi nailiyyətlərə görə, o dövrün çox yüksək mükafatlarına – Lenin ordeninə, Xalqlar Dostluğu və Oktyabr İnqilabı ordenlərinə layiq görülmüşdür.

Nax. MR mövcudluğu, bugünkü yaşayışı və nicatı üçün 1990–93 illərdə Heydər Əliyevin siyasi təqib üzündən burada yaşayıb-işləməsinə, siyasi fəaliyyət göstərməsinə borcludur. Muxtar respublikanın əhalisi müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, vətənimizin ərazi bütövlüyünün qorunması, ölkədə demokratik dəyərlərin bərqərar olması kimi ali amallara qovuşmaq üçün Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı uğrunda mübarizənin ön sıralarında getmişdir. 1991 il sentyabrın 3-də Nax. MR Ali Məclisinin fövqəladə sessiyasında xalqın təkidli istək və arzusu ilə Heydər Əliyev Nax. MR Ali Məclisinin sədri vəzifəsini öhdəsinə götürdü. 1992 ilin noyabrında Azərb.-ın ən görkəmli ziyalıları, elm və sənət adamları, siyasi xadimləri Naxçıvana üz tutdular. Nax. ş.-ndə Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının əsası qoyuldu. 1993 ilin yayına doğru Naxçıvan bütün ölkənin milli-demokratik hərəkatının mərkəzi, möhkəm dövlətçiliyin, siyasi sabitliyin hakim olduğu bir bölgə idi. Naxçıvanlılar 1993–95 illərin dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında, ölkədə sabitliyin və birliyin bərqərar olmasında öz sözlərini dedilər.

20 əsrin 90-cı illərinin əvvəlində SSRİ-nin süqutu ərəfəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərb.-a, o cümlədən Naxçıvana qarşı ərazi iddialarını açıq silahlı təcavüz yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan diyarı çətin sınaqlar qarşısında qaldı. 1990 il yanvarın 19-dan 20-ə keçən gecə sovet qoşunlarının Bakıya yeridilməsindən 8 saat əvvəl sovet-erməni silahlı dəstələri Nax. MR ərazisinə hücuma keçdi və erməni quldur dəstələri Sədərək r-nunun Kərki k.-ni işğal etdilər. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan, Azərb.-ı Naxçıvanla bağlayan d.-y. xətləri və avtomobil yolları kəsildi. Naxçıvan Azərb.-dan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamağa başladı. O dövrdə Azərbaycan rəhbərliyinin Nax. MR-in taleyüklü problemlərinə laqeyd münasibəti, biganə yanaşması vəziyyəti daha da çətinləşdirdi. 1992 ilin mayında Azərb.-da hakimiyyət dəyişikliyi, Azərb.Xalq Cəbhəsinin (AXC) iqtidara gəlməsi də vəziyyəti dəyişmədi. Rusiya və Ermənistanın hərbi-iqtisadi blokadaya aldığı Naxçıvanı AXC iqtidarı da siyasi blokadaya almışdı. Belə ağır və iqtisadi çətinliklər şəraitində Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək, Azərb.-ın bu qədim torpağını erməni işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Nax. MR-in Ermənistan təcavüzündən mətanətlə müdafiə edilməsində, son dərəcə çətin vəziyyətdə idarə olunmasında Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti, onun bütün Azərb.-ın gələcəyi üçün müstəsna əhəmiyyət kəsb edən bir sıra təşəbbüslər irəli sürərək qərarlar qəbul etməsi Azərb. tarixinin ən parlaq səhifələrindəndir. O zaman muxtar respublika rəhbərliyinin milli istiqlaliyyət yollarında atdığı cəsarətli addımlar bütün Azərb. xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi. 1990 ilin yayında seçilmiş Nax. MSSR Ali Sovetinin noyabrın 17-də keçirilən 1-ci sessiyasının qərarı ilə "Sovet", "Sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı, Ali Sovetin adının dəyişdirilib, Ali Məclis adlandırılması qərara alındı,



Naxçıvan şəhərindən görünüş.



*Orta məktəb. Sədərək kəndi. 1998.*

Azərb. Xalq Cümhuriyyətinin 1918 ildə qəbul edilmiş üçrəngli bayrağı Nax. MR-in də bayrağı kimi qəbul olundu. Ali Məclis eyni addımın Azərb. Respublikasında da atılması barədə qanunvericilik təşəbbüsü ilə çıxış etdi. Elə həmin vaxtdan Heydər Əliyevin təşəbbüsü ilə Nax. MR-in ali qanunvericilik orqanı Qarabağda vəziyyət, Bakıda fövqəladə vəziyyətin aradan götürülməsi, habelə 1990 il 19–20 yanvar hadisələrinə siyasi qiymət verilməsi haqqında qərarlar qəbul etdi. Muxtar respublika ərazisində kommunist partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, dekabrın 31-nin dünya azərbaycanlılarının həmrəylik günü elan olunması kimi siyasi aksiyalar həyata keçirildi.

1995 il noyabrın 12-də müstəqil Azərb. Respublikasının ilk Konstitusiyası qəbul edildi. Azərb. və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirildi. Nax. MR Ali Məclisinin 1995 il dekabrın 16-da keçirilən ilk sessiyasında Heydər Əliyevin sədaqətli silahdaşı V. Y. Talıbov Ali Məclisin sədri seçildi. Ölkədə müstəqil demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm hüquqi baza yaratmış Azərb. Konstitusiyası Nax. MR-ə Azərb.-ın tərkibində muxtar dövlət statusu verdi. Yeni Konstitusiya əsasında Nax. MR-in yeni Konstitusiyası hazırlandı və 1998 il aprelin 28-də muxtar respublikanın Ali Məclisində qəbul edilərək, həmin il dekabrın 29-da Azərb. Respublikasının Milli Məclisi tərəfindən təsdiqləndi. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə də ciddi diqqət yetirilirdi. Bölgənin düşdüyü iqtisadi çətinlikləri aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Araz çayı üzərində Türkiyənin Dilucu və Azərb.-ın Sədərək bölgələrini birləşdirən "Ümid körpüsü" tikilib istifadəyə verildi. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev özünün çox böyük səyləri və gərgin əməyi sayəsində qısa vaxtda inşa edilərək blokada şəraitində yaşayan Naxçıvanı qardaş Türkiyə ilə birləşdirən körpünün açılışında iştirak etmiş və demişdir: "Bu körpü, həqiqətən, bizim ümid və arzularımızın körpüsüdür, bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir". 114 *km* uzunluğunda Türkiyə–Naxçıvan yüksək gərginlikli elektrik xətti çəkildi. İran İslam Respublikası ilə də əlaqələr yarandı, oradan elektrik enerjisi alındı. Duzdağ ərazisində istilik elektrik stansiyaları quruldu. Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri fəaliyyətə başladı. Nax. MR-də iri miqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri genişləndi, tarixə, mədəniyyətə və elmə qayğının, diqqətin yeni mərhələsi başlandı; səhiyyənin, təhsilin inkişafına diqqət artırıldı, 30-dan çox məktəb binası, Naxçıvan Dövlət Un-tinin yeni korpusları tikildi, yeni xəstəxanalar açıldı. Muxtar respublikanın telekommunikasiya sistemində aparılan yenidənqurma işləri nəticəsində dünyanın hər yerinə çıxışı olan 35 mindən yuxarı elektron tipli xətt və nömrələr istifadəyə verilmişdir. Vayxır su anbarında yeni nasos stansiyaları qurulmuş, torpaqların suvarılması xeyli yaxşılaşdırılmışdır.

Əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır. Son illərdə 49 min $m^2$-ə yaxın yaşayış sahəsi, uz. 240 paqonometrdən çox olan 30 körpü tikilmiş və ya bərpa olunmuş, kəndlərə su çəkilmiş, yollar inşa olunmuş, park və xiyabanlar salınmışdır. Naxçıvanda aqrar islahatlar başa çatdırılmış, əhali torpaq payları ilə təmin olunmuş, heyvandarlıq və bitkiçilik sahəsində mühüm uğurlar qazanılmışdır. Muxtar respublikanın xarici ticarət və iqtisadi əlaqələri genişlənmişdir.



**Naxçıvan MR.** *1. Naxçıvan MR Ali Məclisinin binası. 2. Heydər Əliyevin büstü. 1983. Naxçıvan şəhəri. Heykəltəraş akad. Ö. Eldarov. 3. Gömrükxana binası. Sədərək. 4. Ordubad şəhərindən görünüş. 5. Qış fəsli. Şahbuz rayonu.*











***Naxçıvan MR.*** *1. Araz su elektrik stansiyası. 2. Avtovağzal. 1992. Naxçıvan şəhəri. 3. Sədərək kəndi. 4. Yeni aptek binası. Naxçıvan şəhəri. 5. Yaylaq. Babək rayonu.*









***Naxçıvan MR.*** *1. Uşaq və Gənclər Yaradıcılıq Sarayı. Naxçıvan. 2. Naxçıvan şəhərindən görünüş. 3. "Dədə Qorqud" meydanı. Heydər Əliyev, Vasif Talıbov və İlham Əliyev Naxçıvan MR-in 75 illik yubileyi günlərində. 4. Xoşkəri körpüsü. 1998. Culfa rayonu.*













***Naxçıvan MR.*** *1. Nazirlər Kabinetinin binası. 2. Şərur konserv zavodu. 1984. 3. Oğlanqala mərmər yatağı. Şərur rayonu. 4. Babək daş emalı zavodu. 1982. 5. Biləv qalası. Ordubad rayonu. 6. Yaylaq. Culfa rayonu.*







*Taxıl zəmisi.*

*Taxıl Məhsulları Kombinatı. 1975. Naxçıvan şəhəri.*

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" 4 fevral 1999 il tarixli fərmanı Azərbaycan xalqının tarixinə əlamətdar hadisə kimi daxil oldu. Muxtar respublikanın xarici qonaqların iştirakı ilə keçirilən 75 illik yubileyi təkcə Naxçıvan diyarında deyil, Azərb. Respublikasının hər yerində – Bakıda, Gəncədə, Sumqayıtda, digər şəhər və rayonlarda əsl xalq bayramına çevrildi.

**İqtisadiyyat.** Azərb. Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında Nax. MR ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur. Lakin o, özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu, muxtar respublikanın Azərb. Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. Son 80 ildə muxtar respublikada yeni istehsal sahələri yaradılmış, zəngin təbii ehtiyatlar aşkara çıxarılaraq istismara cəlb olunmuş, sənaye müasir texnika və texnologiya ilə təchiz edilmişdir. Nax. MR inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli k. t. məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, yüngül, tikinti materialları sənayesi var. K. t., əsasən, üzümçülük, tütünçülük və bağçılıq sahəsində ixtisaslaşmışdır. Taxılçılıq və heyvandarlıq inkişaf etmişdir.

Son illərdə muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. 2000 ildə muxtar respublikada 430 mlrd. manatlıq ümumi məhsul istehsal olunmuşdur ki, bunun 271,2 mlrd. manatını, yaxud 62,5%-ni k. t. məhsulları, 59 mlrd. 218 mln. manatını, yaxud 14,4%-ni sənaye məhsulları istehsalı, 63 mlrd. 390 mln. manatını, yaxud 15,4%-ni tikinti-podrat işləri təşkil etmişdir. Nəqliyyat, rabitə, ticarət və sosial sahələrdə xidmətlərin həcmi ümumi məhsulda 38 mlrd. 418 mln. manat, yaxud 9,4%, ümumi məhsul buraxılışında qeyri-dövlət bölməsinin xüsusi çəkisi 85,2% (sənayedə 74,0%, tikintidə 17,0%, k.t.-nda 99,9%, yük və sərnişin daşınmasında 80%) olmuşdur (2001, sentyabr). Bütövlükdə, 2000 ildə muxtar respublika üzrə ümumi məhsul istehsalı 1995 ildəkinə (179 mlrd. manat) nisbətən 2,4 dəfə artmışdır.

S ə n a y e. Nax. MR sənayesi tarixən Azərb. iqtisadiyyatında önəmli yerlərdən birini tutmuşdur. Hələ 1970–80 illərdə muxtar respublikada istehsal olunan yüzlərlə məhsul növünün xeyli hissəsi xarici ölkələrə göndərilirdi. 1990–2000 illərdə muxtar respublikada aparılmış elmi ixtisaslaşma və ictimai əmək bölgüsü sayəsində emal və hasilat sənayesi formalaşmışdır. Nax. MR-in xarici ölkələrlə, xüsusilə İran və Türkiyə respublikaları, MDB ölkələri ilə ticarət-iqtisadi əlaqələri genişlənmişdir. Sənayenin ümumi məhsulunun həcmi 1924 ildəkinə nisbətən 1990 ildə 200 dəfədən çox, 2001 ildə isə 1995 illə müqayisə-



Şüşə Qablar Zavodu. 1979. Naxçıvan şəhəri.

də 1,7 dəfə artmışdır. Bütünlükdə, regionun sənayesi yerli xammala əsaslanır və yüngül və yeyinti sənayesi müəssisələri əksəriyyət təşkil edir. Üzümçülüyün inkişafı, eyni zamanda, şərabçılığın təşəkkül tapmasına şərait yaratmışdır. Badamlı–Vayxır–Naxçıvan mineral su kəmərinin çəkilməsi Nax. MR-in mineral su istehsalını artırmışdır. Keyfiyyətinə və müalicə əhəmiyyətinə görə dünyada tanınan bu mineral sular Badamlı, Sirab, Vayxır, Darıdağ, Nəhəcir mineral su z-dlarında şüşələrə doldurulur və ölkənin tələbatını ödəməklə yanaşı, yaxın-uzaq xaricə də ixrac edilir. Nax. MR-də ət, süd kombinatları, çörək zavodları və digər müəssisələr fəaliyyət göstərir. 1970–85 illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Nax. MR-ə 900 mln. manat sərmayə qoyulmuşdur. Onun orta illik həcmi 60 mln. manat təşkil edirdi. Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində 783 mln. manatlıq əsas fondlar tikilib istifadəyə verildi. Həmin illərdə burada qonşu İran dövləti ilə birgə Araz çayı üzərində elektrik stansiyası (iri su anbarı ilə birlikdə), Azərb. miqyasında iri alt trikotaj f-ki, yeni mineral sudoldurma z-du, şüşə z-du, taxıl məhsulları kombinatı, Naxçıvan iri evtikmə kombinatı və dəmir-beton məmulatı z-du, Şahtaxtı daş karxanası, kərpic z-du, Naxçıvan süd z-du və digər iri sənaye müəssisələri tikilib istifadəyə verildi. Naxçıvanda xalça kombinatı və yeni dəmir-beton məmulatı müəssisələri, Şərurda konserv z-du tikintisi sürətləndi. Nax. MR-in sənaye məhsulunun ümumi həcmi 1985 ildə 1970 ildəkinə nisbətən 4,3 dəfə (Azərb. üzrə 2,7 dəfə) artmışdı. Bu dövrdə bütün mühüm sənaye məhsulları istehsalı, o cümlədən elektrik enerjisi 35 dəfə, ipək xammalı 2,2 dəfə, konservlər 137 dəfə, daş duz 2 dəfəyə qədər, mineral sular və şərab məhsulları bir neçə dəfə artmışdı. 1985 ildə Azərb. Respublikası sənayesi məhsulunun 2,2%-i muxtar respublikada istehsal olunmuşdu. 1985 ildə Azərb. Respublikasında istehsal olunan duzun hamısı (118 min *t*) və mineral suların əsas hissəsi (147,5 mln. *l*), konservlərin 6%-ə qədəri (35 mln. şərti banka), ipək xammalının 23%-dən çoxu (107 *t*), üzlük travertin tikinti materialının və butulka istehsalının hamısı, şərab materiallarının xeyli hissəsi muxtar respublikanın payına düşmüşdür. 1987–90 illərdə Azərb.-ın digər regionları kimi, Naxçıvan da durğunluq dövrü keçirmiş, 1990 ildə ümumi məhsulun həcmi 1985 ilə nisbətən 137,1%, 1989 ildəkinə nisbətən isə 95,9% olmuşdur. Ermənistanın Dağlıq Qarabağ ətrafında törətdiyi fitnəkarlıqla və SSRİ-nin sürətlə dağılması ilə bağlı proseslər nəticəsində 1990-cı illərin birinci yarısında Nax. MR-in iqtisadiyyatı Azərb.-ın başqa regionlarına nisbətən daha ağır vəziyyətə düşdü. Muxtar respublikanın sənayesi 1992–93 illərdə daha kəskin surətdə azaldı. Bununla yanaşı, məhz muxtar respublika üçün ən ağır və mürəkkəb bir dövrdə – 1990–93 illərdə iqtisadi həyatın dirçəlməsinə və problemlərin qismən həllinə yönəlmiş ciddi tədbirlər də görülmüşdü. Azərb.-la əlaqələrin qırıldığı bir şəraitdə həmin dövrdə Nax. MR Ali Məclisinə rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Araz çayı üzərində Türkiyənin Dilucu və Azərb.-ın Sədərək bölgələrini birləşdirən uz. 275 *m* olan "Ümid körpüsü" tikilib istifadəyə verildi. Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri fəaliyyətə başladı. Naxçıvan ş. yaxınlığında istilik elektrik stansiyası (İES) tikildi. İran İslam Respublikasından Nax. MR-in Culfa r-nuna, Türkiyənin İqdır vil.-ndən isə Naxçıvana yüksək gərginlikli elektrik xətləri (uz. 92 *km*) çəkildi. Həyata keçirilən digər tədbirlər nəticəsində sonrakı illərdə sənayenin tənəzzül sürəti azalmış, inkişaf meyli artmışdır. 1996 ildən başlayaraq, istehsal həcminin aşağı düşməsinin qarşısı alınmış, iqtisadiyyatda müsbət meyllər daha da







möhkəmlənmişdir. Ümumiyyətlə, 1998 ildə Azərb.-da istehsal olunan sənaye məhsulunun 0,5%-i muxtar respublikanın payına düşmüşdür.

Maşınqayırma, metal emalı, elektrotexnika, ağac emalı müəssisələri muxtar respublikanın sosial-iqtisadi inkişafında və əhalinin məşğulluğu kimi mühüm problemin həllində əsaslı rol oynayır. Nax. MR-in 4 hasilat və 14 emal sənaye müəssisəsi diyarda ümumi məhsulun 2/3 hissəsini istehsal edir. "Araz" təcrübə z-du, "Araz" SES, tikinti materialları kombinatı, Ordubad ipək kombinatı, taxıl və çörək məhsulları səhmdar cəmiyyəti, tütünçülük şirkəti, "Türkçan" müştərək müəssisəsi, k. t. məhsulları emalı səhmdar şirkəti kimi müəssisələr 1996–98 illərdə artıma nail olmasalar da, fəaliyyət göstərməkdə davam etmişlər. Mineral sular istehsalat birliyində istehsal olunan məhsulun dəyərinin 1996 ildəki göstəricinin 73,0%-ni təşkil etməsinə baxmayaraq, buraxılan mineral sular natural ifadəsində 2,8 dəfə artmışdır. Digər sahələrdə də müşahidə olunan irəliləmə 2000 ildə ümumi məhsul buraxılışını (430 mlrd. manat) artırmağa imkan vermişdir. 2000 ildə 39 iri sənaye müəssisəsində 60 812,0 mln. manatlıq məhsul, o cümlədən 42,5 *mln./kvt. saat* elektrik enerjisi, 2,0 min $m^3$ dəmir-beton məmulatı, 166,2 min ədəd alt trikotaj məmulatı, 11,4 min dal. tünd içkilər, 1,8 mln. ədəd mineral su, 2,3 min *t* daş-duz istehsal olunmuşdur. İstehsal edilmiş sənaye məhsulunun 80,0%-i yeyinti sənayesinin, 13,5%-i yüngül sənayenin, 5%-i tikinti materialları istehsalı müəssisələrinin payına düşmüşdür. 2001 ildə iri sənaye müəssisələrinin sayı 47-yə çatmış, ilin 8 ayında 39 mlrd. 409,1 mln. manatlıq sənaye məhsulu istehsal olunmuş, 15 addan çox sənaye məhsulunun istehsalı təmin edilmişdir. 1999 illə müqayisədə 2000 ildə məhsul istehsalının həcmi alt trikotaj f-kində 2,4 dəfə, Badamlı mineral su z-dunda 8,1 dəfə, Sirab mineral su z-dunda 4,0 dəfə, Naxçıvan Tikinti-Quraşdırma Dövlət Şirkətində 109,6%, Elektronika z-dunda 44,3% artmışdır. Naxçıvan şüşə qablar z-dunda transformator yarımstansiyaları üçün təcridedicilərin (izolyatorların) kütləvi istehsalına başlanılmışdır. Z-dda müxtəlif çeşidli gips və keramika məmulatları istehsalının genişləndirilməsi üçün tədbirlər həyata keçirilmişdir.

Zəngin və çoxsaylı tikinti materiallarına malik muxtar respublikanın ərazisi, burada tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər və s. sənaye müəssisələrinin yaradılmasına və nadir tikinti məhsullarının dünya bazarına çıxarılmasına imkan vermişdir. Burada aparılan tikinti-quraşdırma və tikinti-təmir işləri yalnız muxtar respublikanın daxili imkanları hesabına təmin olunur. 91 tikinti-quraşdırma təşkilatı fəaliyyət göstərir. Bu təşkilatların hesabına son 5 ildə muxtar respublikanın şəhər, kənd və digər yaşayış

məntəqələrində un-t, hərbi məktəb, ticarət-tədris mərkəzi, İES, poliklinika, 20-dən çox məktəb, xəstəxana, kommunal məişət xidməti müəssisələri tikilib istifadəyə verilmiş, 40-dan çox körpü inşa edilmişdir. 2000 ildə muxtar respublikada 55,9 mlrd. manatlıq tikinti-quraşdırma, yenidənqurma və əsaslı təmir işləri aparılmışdır. Tikintiyə əsaslı vəsait qoyuluşu 1995 ildəkinə nisbətən 2,5 dəfə artmışdır. Ümumiyyətlə, bu dövrdə muxtar respublikada 140 mlrd. manatlıq tikinti-quraşdırma və təmir işləri görülmüşdür. Muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyəti olan "Heydər dəryaçası"nın birinci növbəsi başa çatdırılmışdır.

1999 ildə Ordubad r-nunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyatı və istismarı üzrə B.Britaniya şirkətləri ilə bağlanmış müqavilə Nax. MR-də mədən sənayesinin bərpası işlərinə başlamağa imkan vermişdir. 1999 ildə sənaye müəssisələri tərəfindən 1,8 mlrd. manatlıq məhsul ixrac, 0,2 mlrd. manatlıq məhsul idxal edilmişdir.

K ə n d t ə s ə r r ü f a t ı. Muxtar respublika iqtisadiyyatının əsasını çoxsahəli k. t. təşkil edir. Buranın iqlim-torpaq şəraiti k. t.-nın inkişaf etdirilməsinə əlverişli imkan yaradır. K. t.-nın inkişafı istifadəsiz qalmış yararlı torpaqların mənimsənilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsindən asılıdır. Araz çayı üzərində hidrotexniki kompleksin, Arpaçay, Sirab su anbarlarının, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sistemlərinin işə salınması, Fərhad, Nehrəm su anbarlarının tikilməsi və geniş miqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində k. t.-nın suvarma imkanları və təchizatı yaxşılaşmışdır.

K. t.-na yararlı torpaqlar 157,2 min ha-dır. Bunun 29,5 min *ha*-ı əkin sahəsi, 0,8 min *ha*-ı çoxillik əkmələr, 11 min *ha*-ı xam və dincə qoyulmuş torpaqlar, 115,8 min *ha*-ı biçənək və otlaqlardır. Əkin sahəsinin məhdudluğu ərazinin dağlıq relyefi ilə əlaqədardır. Həyata keçirilən aqrar islahatlar nəticəsində muxtar respublikada ümumi torpaq sahəsinin 22%-i xüsusi mülkiyyətə, 33%-i bələdiyyə mülkiyyətinə verilmiş, 45%-i isə dövlət mülkiyyətində saxlanmış, 57,8 min *ha* torpaq sahəsi özəlləşdirilərək sahibkarların mülkiyyəti olmuşdur. Ümumi ərazinin 2,2 min *ha*-ı (0,5%-i) meşələrdir. K. t.-nda süni suvarma mühüm rol oynayır. K. t. bitkilərinin əkin sahəsinin (34,9 min *ha*) yarıdan çoxunda (18,3 min *ha*, yaxud 52,4%-ində) buğda əkilir. Son illərdə şəkər çuğunduru əkininə diqqət artmışdır. 1992 ildən əkilən şəkər çuğunduru hələlik emal üçün Türkiyəyə göndərilir.

2000 ildə k. t. məhsulları istehsalının həcmi 271,2 mlrd. man. (1995 ildə 117 mlrd. man) olmuş, yaxud 1995 illə müqayisədə 2,3 dəfə artmışdır. K. t. məhsullarının, demək olar ki, hamısı (99,8%-i) özəl təsərrüfatlarda istehsal edilmişdir. 2001 ildə Nax. MR-də bütün təsərrüfat kateqoriyaları üzrə 59,0 min *t* taxıl, 47,7 min *t* tərəvəz, 37,1 min *t* bostan məhsulları, 15,2 min *t* kartof, 0,05 min t tütün, 2000 ildə 28,4 min *t* meyvə, 14,15 min *t* üzüm, 45,4 min *t* (1995 ildəkindən 5,7 dəfə çox) şəkər çuğunduru istehsal edilmişdir. 2001 ildə 1995 ilə nisbətən 15,1 min *t* çox kar-



Şəkər çuğunduru plantasiyası.



Yaylaqda qoyun sürüsü.



tof, 36 dəfədən çox tərəvəz, 90 dəfə çox bostan məhsulları istehsal olunmuşdur. İlk dəfə kütləvi şəkər çuğunduru əkininə başlanan 1992 illə müqayisədə 2000 ildə məhsul istehsalı 122 dəfə artmışdır. 2001 ildə istehsal olunan şəkər çuğunduru hesabına muxtar respublikaya 3525 *t* şəkər tozu (1999 ildə 2656 *t*) gətirilmişdir ki, bu da əhalinin şəkər tozuna olan tələbatının ödənilməsində mühüm rol oynayamışdır.

2000 il muxtar respublikada torpaq islahatında həlledici il olmuş, nəzərdə tutulan 54,9 min *ha* torpağın hamısı xüsusi təsərrüfatçılara paylanmışdır. Özəlləşdirilmiş torpaq sahələrinin su təchizatını təmin etmək məqsədilə Sədərək, Şərur, Babək və Ordubad r-nlarının kəndlərində yeni nasos st.-ları tikilmiş və köhnələri bərpa edilmiş, Şərur kollektor drenaj şəbəkəsi yenidən qurulmuş, Daşarx (Culfa r-nu), Quru arx və Şamlar (Şahbuz r-nu) kanallarında bərpa işləri aparılmış, Cəhri çayında (Babək r-nu) 2,5 kilometrlik kaptaj qazılmış, 17 nasos st., 80 subartezian quyusu bərpa edilib istifadəyə verilmişdir (2000).

K. t. sahibkarlarına əvəzsiz yardım olaraq təkcə 2000 ildə İtaliyadan 30-dan çox yeni k. t. texnikası alınmışdır. 2001 ilin əvvəlində muxtar respublikada 78291 şəxsi təsərrüfat, 165 kəndli (fermer) təsərrüfatı, k. t. üzrə 92 kiçik müəssisə və kooperativ, yerli k. t. məhsullarının emalı ilə məşğul olan 14 z-d və digər dövlət və özəl müəssisələri fəaliyyət göstərir.

Prezident Heydər Əliyevin göstərişi əsasında Şərur r-nunun Püsyan və Təzəkənd kəndləri bazasında nümunəvi özəl k. t. müəssisəsi yaradılır.

Muxtar respublikanın düzənlik yerlərində, əsasən, ətlik-südlük və yunluq, dağlıq yerlərində ətlik-yunluq heyvandarlıqla məşğul olunur. Balbas cinsli qoyunlar yetişdirilir. Muxtar respublikada 77870 baş (1995 ildəkindən 22413 baş, yaxud 40,4 faiz çox) iri buynuzlu, 485555 baş (1995 ildəkindən 206 855 baş, yaxud 74,2% çox) xırda buynuzlu mal-qara var (2001, 1 sentyabr). Son illərdə ət, süd, yumurta və yun istehsalı üzrə də xeyli artım olmuşdur. 2000 ildə muxtar respublikada4,8 min *t* ət, 37,9 min *t* süd, 58,8 min ədəd yumurta, 0,7 min *t* yun (2001 ilin 8 ayında müvafiq olaraq 3,8 min *t*, 35 min *t*, 31,7 min ədəd, 0,5 min *t*,) istehsal olunmuşdur.

Muxtar respublikada quşçuluq, baramaçılıq və arıçılıqla da məşğul olunur. Əhalinin şəxsi həyətyanı təsərrüfatında qaramalın sayı 1997 ildə 1992 ildəkindən 1,8 dəfə, qoyun və keçilərin sayı 2 dəfə artmışdır. Başqa sözlə, əhalinin şəxsi istifadəsində olan qoyun və keçilərin 1993–97 illərdə orta illik artım sürəti 16,3%-ə çatmışdır.

N ə q l i y y a t. Muxtar respublikada d.-y. nəqliyyatı mühümdür. Araz çayı boyunca Bakı–Yerevan d.-y. keçir (Nax. MR-də təqr. 190 *km*-dir); Culfa–Yerevan hissəsi 1906 ildə, Culfa–Mincivan (Zəngilan r-nu) hissəsi 1941 ildə istifadəyə verilmişdir. Culfadan Təbrizə (İran) qol (1916 ildə Rusiya hökuməti çəkmişdir) ayrılır. Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumittifaq şəbə-



Naxçıan torpağının nemətləri.






kəsinə daxil olan, muxtar respublikanı Azərb.-la bağlayan d.-y. xətti 1992 il aprelin 24-də tamamilə kəsildi. Avtomobil yolları ilə də əlaqə pozuldu. Həmin vaxtdan Naxçıvan Azərb.-dan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayır. Muxtar respublikanın yeganə əlaqələri təyyarə nəql. vasitəsilə həyata keçirilir. 1993–95 illərdə Naxçıvan ş.-nin hava limanı genişləndirilərək yenidən qurulmuş, sərnişin və ağır yüklü nəqliyyat təyyarələrinin qəbul olunmasına imkan yaranmışdır.

1999 ildə muxtar respublikada ümumi istifadədə olan nəqliyyat vasitələri ilə 43,6 min *t* yük, 1,1 mln. nəfər sərnişin daşınmışdır. Yük dövriyyəsi 8,4 *t/km*, sərnişin dövriyyəsi 33,8 mln. *sərnişin/km* olmuşdur.

1999 ildə Azərb. Dövlət Dəmir Yolu Naxçıvan bölməsi tərəfin-dən təqr. 1,2 mln. *t* yük göndərilmiş, 24455 vaqon boşaldılmışdır. Naxçıvan–Ordubad, Naxçıvan–Şərur, Bakı–Horadiz, Bakı–Astara, Naxçıvan–Təbriz marşrutları üzrə qatarların hərəkəti təmin edilmiş, 70 mindən artıq sərnişin daşınmışdır. 1999 ildə d.-y. nəqliyyatı vasitəsilə İran İslam Respublikasından 22,4 min *t* müxtəlif yüklər daşınmış, yük dövriyyəsi 4,8 mln. *t/km* olmuşdur. Naxçıvan hava limanından 2000 il ərzində təyyarə vasitəsilə 204,8 min sərnişin, 4,3 min *t* yük daşınmışdır.

1990 ildən d.-y.-ları bütün istiqamətlərə işləmədiyi üçün avtomobillərin sayı xeyli artmışdır. 1985 ilə nisbətən 1999 ildə minik avtomobillərinin sayı 30 dəfədən çox, yük avtomobillərinin sayı 2 dəfə, bütün növlərdən olan avtomobillərin sayı təqr. 5 dəfə artmışdır. 2000 ildə muxtar respublikada 18805 avtomobil (12583 *sərnişin/minik*, 5250 yük) var idi. Sərnişin və yük daşınmasının 82%-i avtomobil nəqliyyatının üzərinə düşür. 2000 ildə bu nəqliyyat vasitəsilə 2561 min *t* yük, 86875 min nəfər sərnişin daşınmışdır. Yük dövriyyəsi 197 017 min *t/km* olmuşdur. 1991–2001 illərdə muxtar respublikada 49 körpü salınmış, yenidən qurulmuş və ya bərpa edilmişdir.

Əhaliyə rabitə, kommunal, ticarət və ictimai-iaşə xidməti də muxtar respublikanın iqtisadiyyatında əhəmiyyətli yer tutur. Son illərdə rabitə xidmətinin həcmi 3,8 dəfə, kommunal və məişət xidmətlərinin həcmi 2,2 dəfə çoxalmışdır. 2000 ildə muxtar respublikanın 102 rabitə müəssisəsi (şəhər yerlərində 17, kənd yerlərində 85) əhaliyə 7 mlrd. 857 mln. manatlıq rabitə xidməti göstərmişdir. Muxtar respublikada 37 kommunal, 172 məişət, 205







ticarət və ictimai-iaşə müəssisəsi fəaliyyət göstərir (2000).

Xarici iqtisadi əlaqələr. Sosial-iqtisadi inkişafın və əhalinin rifahının yaxşılaşdırılmasının mühüm amillərindən olan xarici iqtisadi, o cümlədən ticarət əlaqələri inkişaf etmişdir. Naxçıvan diyarının xarici iqtisadi, xüsusilə ticarət əlaqələri ta qədim zamanlardan təşəkkül tapmış, onun nadir məhsulları bir sıra xarici ölkələrin də tələbatını ödəmiş və diyar müəyyən səviyyədə ölkələrarası inteqrasiyaya qoşula bilmişdir. Bunu Naxçıvan ərazisindən qədim dünyanın bir sıra ölkələrinə və dövlətlərinə məxsus sikkələrin, maddi-mədəniyyət nümunələrinin tapılması da təsdiq edir. Beynəlxalq sərgi və yarmarkalarda Naxçıvanın da ara-sıra iştirakı, 1898 ildə ABŞ-ın Kaliforniya ştatında təşkil olunmuş sərgidə onun ərik və digər meyvələrinin birinci yerə layiq görülməsi, xarici ölkələrin Naxçıvana marağının artması, diyarın geosiyasi mövqeyi, tarixi Böyük İpək Yolunun üstündə yerləşməsi, təbii ehtiyatlarının zənginliyi, gömrük mərkəzlərinin mövcudluğu onun xarici iqtisadi əlaqələrinin formalaşmasına təkan vermişdir. Təkcə 1912 ildə Naxçıvan gömrük məntəqələrindən xaricə 16,6 mln. manatlıq, xaricdən isə 4,3 mln. manatlıq mal keçirilmişdir. Nax. MR xarici iqtisadi əlaqələrdə həmişə sənaye, tikinti məmulatı, k. t. və ərzaq məhsulları ilə təmsil olunmuş, dünya bazarına metal, duz, mərmər, xalçaçılıq və zərgərlik məmulatları, travertin, mineral sular və s. çıxarmışdır.

Azərb. Respublikasının, o cümlədən onun tərkib hissəsi olan Nax. MR-in müstəqillik yoluna qədəm qoyması ilə bütün sahələrdə olduğu kimi, diyarın xarici iqtisadi əlaqələrində də dirçəliş əmələ gəlmiş, onların bərpasına və yeni mərhələyə daxil olmasına əsaslı zəmin yaranmışdır. 1991 ildə Türkiyə ilə birgə "Ümid körpüsü"nün tikilib istifadəyə verilməsi, muxtar respublika ilə Türkiyə və İran arasında 3 gömrükxananın və keçid məntəqələrinin yaradılması buna sübutdur. Həmin ölkələrdən Nax. MR-ə yüksək gərginlikli elektrik xətləri sistemi qoşulmuş və enerji nəql olunması təmin edilmişdir. Cənubi Koreyanın "Deu telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikanın bütün yaşayış məntəqələri telefonlaşdırılmış və abonentlər birbaşa beynəlxalq telefon rabitəsi sisteminə çıxmaq imkanı əldə etmişlər.

Nax. MR-də istehsal olunan şəkər çuğunduru İranın və Türkiyənin şəkər f-klərində, şərab məmulatı isə Türkiyə müəssisələrində emal olunur. Türkiyədən duru yanacaqla işləyən 4 ədəd səyyar nasos alınmış və şəkər çuğunduru sahələrinin suvarılmasında istifadə edilir. Təbrizdə bağlanmış protokola görə muxtar respublikanın quşçuluq f-klərinin İranla birgə işlədilməsi nəzərdə tutulmuşdur. Türkiyə ilə bağlanmış müqavilə əsasında Nax. MR-də bir neçə istehsal müəssisəsinin müştərək işlədilməsinə başlanmışdır. Litvanın elektrotexnika müəssisələrindən çoxlu avadanlıq alınmışdır. 1999 ildə muxtar respublikada xarici ticarət dövriyyəsi 15,2 mln. ABŞ dolları təşkil etmişdir.

2000 ildə muxtar respublikaya xalq təsərrüfatına və əhalinin tələbatına uyğun müxtəlif texniki və istehlak təyinatlı məhsullar idxal edilmiş, buradan isə şəkər çuğunduru, qurudulmuş lobya, xammal və materiallar ixrac olunmuşdur. Bütövlükdə, 32130,7 *t* mal ixrac olunmuş, 750623,3 *t* mal isə idxal olunmuşdur. İxrac-idxal əməliyyatları nəticəsində 1995 ildə muxtar respublikanın gömrükxanalarında 1,1 mlrd. manatlıq gömrük rüsumu toplandığı halda, 2000 ildə bu rəqəm 7,755 mlrd. manatı ötüb keçmişdir.

Nax. MR-in xarici iqtisadi və xüsusilə ticarət əlaqələri ildən-ilə artır, dərinləşir və onun coğrafiyası genişlənir. Şərqlə Qərbi birləşdirən tarixi Böyük İpək Yolunun bərpası xarici iqtisadi əlaqələr sahəsində Nax. MR-in rol və əhəmiyyətini artıracaq və bu əlaqələrdən bəhrələnmək üçün yeni imkanlar yaranacaqdır.

**Səhiyyə.** Çar Rusiyası dövründə müstəmləkə vəziyyətində olan Azərb.-ın hər yerində olduğu kimi, Naxçıvan bölgəsində də iqtisadi və sosial gerilik, məişət və əmək şəraitinin aşağı səviyyədə olması, yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlərin həyata keçirilməməsi, ümumiyyətlə, sağlamlığı qoruyan dövlət sisteminin olmaması nəticəsində tez-tez ağır epidemiyalar baş vermiş, kütləvi ölüm halları olmuşdur. Təkcə 1904 ilin 3 ayı ərzində vəba epidemiyası nəticəsində Naxçıvan və Şərur qəzalarında 1674 nəfər bu xəstəliyə tutulmuş, onlardan 1286 nəfəri, yəni 76,2%-i ölmüşdü.



Respublika Mərkəzi Xəstəxanası. 1987. Naxçıvan şəhəri.

Nax. MR-də səhiyyə sisteminin yaradılması, xalqımızın və dövlətimizin ən böyük nailiyyətlərindən biri oldu. 1920 ilin oktyabrında bölgədə ilk səhiyyə şöbəsi təşkil edildi. Sonralar səhiyyə şöbəsi səhiyyə komissarlığına çevrildi. 1920–24 illərdə Naxçıvanda tibb müəssisələrinin açılmasına başlandı. Naxçıvan ş.-ndə xəstəxana, şəhər ambulatoriyası, Ordubad ş.-ndə həkim məntəqəsi, Çənənəb, Culfa, Əbrəqunis, Cəhri, Qıvraq və Baş Noraşendə (indiki Cəlilabad) feldşer məntəqələri işə başladı. Malyariya ilə mübarizə məqsədilə Naxçıvan ş.-ndə və Baş Noraşendə malyariya st.-ları açıldı. 20-ci illərdə yoluxucu xəstəliklərlə mübarizə səhiyyə orqanları qarşısında ən zəruri vəzifə olaraq qalırdı. Xüsusi təhlükəli xəstəliklərə qarşı fövqəladə komissiya yaradılmışdı. Əhaliyə kütləvi peyvənd edilməsi məqsədilə qəzalara epidemioloji dəstələr göndərilirdi. 1925 ildə uşaqlara xidmət tədbirlərini təşkil etmək və həyata keçirmək məqsədilə Naxçıvan ş.-ndə ilk uşaq məsləhətxanası açıldı. Naxçıvan uşaq evində məktəb ambulatoriyası təşkil olundu.

Tibb məktəbi.



Bölgədə çiçək, malyariya, vərəm, traxoma, dəri-zöhrəvi xəstəlikləri ilə mübarizədə planlı surətdə epidemioloji tədbirlər həyata keçirilirdi. 30-cu illərdə malyariyaya qarşı mübarizə tədbirləri nəticəsində bu xəstəliyə yoluxma və ölüm halları 1940 ildə 1934 ildəkinə nisbətən 3 dəfə azaldı. Muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən ölüm halları 1998 ildə 1940 ildəkinə nisbətən 1,9 dəfə, 1970 ildəkinə nisbətən isə 37,7% azalaraq, müvafiq surətdə 10,6 və 7,7 nəfərdən 5,6 nəfərə, 1 yaşadək uşaqlar arasında ölüm halları isə müvafiq surətdə 3,1 və 1,8 dəfə azalaraq 56,0 və 33,3 nəfərdən 18,1 nəfərə düşmüşdür.

50–60-cı illərdə muxtar respublikada səhiyyə ocaqlarının sayı sürətlə artmağa başladı. Əhaliyə səhiyyə xidmətində diqqətəlayiq uğurlar qazanıldı. Malyariyaya qarşı tədbirlər nəticəsində 1958 ildə muxtar respublikada bu xəstəliyin kökü kəsildi.

70–90-cı illərdə səhiyyənin inkişafında xeyli irəliləyişlər olmuşdur. 2000 ildə Nax. MR-də 3670 çarpayısı olan 55 xəstəxana müəssisəsi, 5 poliklinika, 49 ambulatoriya, 123 feldşer-mama məntəqəsi, 8 gigiyena və epidemiologiya mərkəzi, 3 təcili-tibbi yardım st., 5 təcili-tibbi yardım köməkçi st., 5 təcili-tibbi yardım köməkçi st., 62 aptek və aptek məntəqəsi olmuşdur. N. Nərimanov ad. respublika xəstəxanası, 6 rayon mərkəzi xəstəxanası, Naxçıvan şəhər mərkəzi xəstəxanası, akad. Z. Əliyeva ad. Naxçıvan şəhər poliklinikası, göz xəstəxanası, 8 dispanser, Ə. Əliyev ad. respublika uşaq xəstəxanası, uşaq poliklinikası, 2 rayon (Şərur, Ordubad) uşaq xəstəxanası, yoluxucu xəstəliklər mərkəzi, fizioterapiya xəstəxanaları (Duzdağ və Badamlı), respublika stomatoloji və uşaq stomatoloji poliklinikaları, diaqnostika və bərpa mərkəzi, 29 kənd sahə xəstəxanası, 329 çarpayısı olan 87 qadın məsləhətxanası, doğum mərkəzi, 1 kənd doğum evi, ana və uşaqları bərpa mərkəzi, sağlamlıq mərkəzi, məhkəmə ekspertizası və patoloji anatomiya birliyi, Nax. MR əczaçılıq və tibb sənayesi birliyi fəaliyyət göstərirdi. Muxtar respublikanın yarandığı vaxtdan bəri xəstəxana çarpayılarının sayı 38 dəfə artmış, 2000 ildə əhalinin hər 10 min nəfərinə 98,4



**Səhiyyənin inkişafının əsas göstəriciləri**

| | 1924 | 1970 | 1980 | 1985 | 1993 | 2000 |
|---|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı | 19 | 262 | 591 | 718 | 894 | 693 |
| Əhalinin hər min nəfərinə | 2,1 | 12,6 | 24,1 | 26,6 | 28,2 | 19 |
| Orta tibb işçilərinin sayı | – | 1435 | 1900 | 2193 | 2870 | 2891 |
| Əhalinin hər 10000 nəfərinə | – | 69,2 | 77,6 | 81,3 | 93,8 | 80 |
| Xəstəxana müəssisələrinin sayı | – | 53 | 48 | 48 | 54 | 55 |
| Xəstəxana çarpayılarının sayı | 95 | 1975 | 2530 | 2590 | 3775 | 3670 |
| Əhalinin hər 10000 nəfərinə | 10,6 | 95,5 | 103,3 | 96 | 119,3 | 102 |
| Əhaliyə ambulatoriya poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | – | – | – | – | 263 | 255 |
| Qadın məsləhətxanalarının, uşaq poliklinikalarının və ambulatoriyaların sayı (müstəqil və başqa müəssisələrin tərkibinə daxil olan) | – | 15 | 34 | 39 | 83 | 89 |
| Hamilə və zahı qadınlar üçün, çarpayıların sayı | – | 275 | 239 | 240 | 313 | 327 |

xəstəxana çarpayısı düşmüşdür. Onların 24,4%-i kəndlərdə, 75,4%-i isə ş.-lərdə və r-n mərkəzlərində olmuşdur. Həkimlərin sayı isə 40 dəfə artmışdır. Muxtar respublikada bütün ixtisaslardan olan 693 həkim, 2891 orta tibb işçisi çalışır. Əhalinin hər 10 min nəfərinə 19 həkim, 80 orta tibb işçisi düşür (2000).

**Bədən tərbiyəsi və idman.** Naxçıvanda xalq arasında güc, çeviklik və bacarıq tələb edən milli idman oyunları qədimdən yayılmışdır. Güləş, at çapmaq, qılınc və gürz oynatmaq, nizə və ox atmaq, üzmək, qaçmaq və s. üzrə keçirilən yarışlardan əsas məqsəd gəncləri əməyə və hərbi işə hazırlamaq idi. 19–20 əsrlərdə Naxçıvanda idman geniş vüsət almışdı. Naxçıvanda pəhləvanların hazırlanmasında zorxanalar (bax *Zorxana*) mühüm rol oynamışdır. 20 əsrin 20-ci illərindən Azərb.-da, o cümlədən Naxçıvanda bədən tərbiyəsi və idman mədəni və ictimai həyatın bir hissəsinə çevrildi. 1924 ildə Naxçıvan Bədən Tərbiyəsi Şurası yaradıldı, 1930 ilə qədər onun tərəfindən futbol, yüngül atletika, cıdır, akrobatika, ağır atletika, güləş, voleybol yarışları və başqa idman oyunları təşkil edilirdi. 1931–34 illərdə Nax. MSSR ƏMH və ƏMHO kompleksi nişançılarının hazırlanmasında mühüm işlər görüldü. 1937 ildə ağır atletika üzrə Azərb. birinciliyi Naxçıvanda keçirildi. Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafında "Dinamo", "Spartak", "Burevestnik", "Məhsul" idman cəmiyyətlərinin, "Ehtiyat Əmək Qüvvələri" cəmiyyətinin (1998 ildən Təhsil idman mərkəzi) böyük rolu olmuşdur. 1940 ildə muxtar respublikada 5320 idmançı, 61 idman qurğusu var idi.

1946 ildə Naxçıvanda idmanın 9 növünü təmsil edən 250 nəfərlik gənclər idman məktəbi, 1949 ildə isə Naxçıvan şəhər təhsil sistemində 10 idman növünü əhatə edən uşaq-gənclər idman məktəbi yaradıldı. 1950 ildə bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 15 481 nəfər, bədən tərbiyəsi kadrlarının sayı 71 nəfər, idman qurğularının sayı 230 (1 stadion, 12 idman zalı, 197 idman meydançası, 19 atıcılıq tiri, 10 uyğunlaşdırılmış zal və s.) olmuşdur. 1959 ildə Azərb. Respublikası "Məhsul" cəmiyyətinin yunan-Roma güləşi (klassik güləş) yarışlarında Naxçıvanın ko-

Olimpiya kompleksi. 2002.



İ Axundu ad. Respublika Mərkəzi stadionu. Naxçıvan şəhəri.



mandası birinci yerə çıxmışdı. 1961 ildə Nax. MSSR qadınlarının birinci spartakiadasında 1849, final yarışlarında isə 319 nəfər idman mübarizəsi aparmışdı. 1962 ildə Naxçıvan voleybol komandası Azərb. birinciliyində ikinci yeri, futbol komandası isə üçüncü yeri qazanmışdı.

1970–80 illərdə Nax. MSSR-də idman kollektivlərinin və idmançıların sayı xeyli artdı. 1970 ildə idmançıların sayı 27390 nəfərə (4230-u qadın), idman qurğularının sayı isə 322-yə (2 stadion, 21 idman zalı, 251 idman meydançası və s.) çatdı. Həmin ildə 12 uşaq-gənclər idman məktəbi və 1 güləş məktəbi fəaliyyət göstərirdi. 1980 ildə isə 32 590 idmançı var idi. İdmanın müxtəlif növləri üzrə məktəblilər arasında spartakiadalar, "Sevinc" futbol kuboku uğrunda yarışlar, "Şahin", "Cəsurlar" hərbi idman oyunları, "Şən startlar", "Möcüzəli dama", "Ağ top", "Pioner" çoxnövlülüyü üzrə yarışlar keçirilməsi ənənəvi şəkil almışdır. Naxçıvanın "Sevinc" futbol komandası 1973 ildə Zaqatala ş.-də 13–14 yaşlı uşaqlar arasında keçirilmiş Azərb. yarışlarında birinci yerə, həmin ildə Daşkənddə keçirilmiş Ümumittifaq "Dəri top" birinciliyində isə ikinci yerə çıxmışdı.

1980–90 illər muxtar respublikanın bədən tərbiyəsi və idman tarixində mühüm mərhələ təşkil edir. 1990 ildə bədən tərbiyəsi və idmanla 34886 nəfər (4699-u qadın) məşğul olurdu. Muxtar respublikada 468 idman qurğusu (3 stadion, 90 idman zalı, 308 idman meydançası və s.) vardı. 1999 ildə muxtar respublikada bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 37329 nəfər olmuş, idman qurğularının sayı isə 525-ə çatdırılmışdı. 14 idman növü üzrə federasiya yaradılmışdır. Naxçıvan şəhərində "Dinamo" cəmiyyətinin idman kompleksi və stadionu fəaliyyət göstərir, Olimpiya Mərkəzi tikilir.

Naxçıvanın şahmat, sərbəst güləş, karate komandaları Azərb. yarışlarında, İran və Türkiyə idmançıları ilə dostluq görüşlərində mükafata layiq yerlər qazanmışlar. Naxçıvan şahmat məktəbinin yetirməsi Gəncəli İsmayılov 1993 ildə Azərb. birinciliyində mükafata layiq yer qazanaraq, Avropa çempionatında iştirak edəcək Azərb. komandasının heyətinə salınmışdı. Həmin məktəbin yetirməsi Vüqar Babayev isə Polşada keçirilən beynəlxalq turnirdə bütün rəqiblərinə qalib gəlmişdi. Naxçıvanın karate komandası da yarışlarda uğurlu nəticələr göstərmişdir. 1994 ildə Türkiyədə keçirilmiş dostluq turnirində Seyid İsmayılov üçüncü yeri, 1995 ildə İranda keçirilmiş yoldaşlıq turnirində Sədi İsmayılov, Ramiz Zeynalov və Vüqar Salmanov müvafiq olaraq birinci-üçüncü yerləri tutmuşlar. Naxçıvan güləş məktəbinin yetirməsi, sərbəst güləşçi Əsgərxan Novruzov 1994 ildə Minsk ş.-ndə üç dəfə olimpiya çempionu Aleksandr Medvedin şərəfinə keçirilən turnirdə birinci yeri, İstanbulda keçirilən Avropa birinciliyində isə altıncı yeri qazanmışdır. 1998 ildə boks üzrə Azərb. çempionları İlham Kərimov və Toğrul Seyidov Avropa çempionatında yarışmış, İlham Kərimov isə həm də XXVI olimpiya oyunlarında iştirak etmişdir. Anar Məmmədov 1998 ildə kikboksinq üzrə Moskvada keçirilmiş dünya çempionatında gümüş medala layiq görülmüşdür. Vüqar Zeynalov pauerliftinq üzrə dəfələrlə Avropa və dünya birinciliyinin qızıl medalını qazanmış, 1999 ildə Beynəlxalq dərəcəli idman ustası adına layiq görülmüşdür. Rüstəm Bağırov 2001 ildə həmin növdə Avropa çempionu olmuş, Avropa rekordunu təzələmişdir. Nax. MR-in idmançıları mötəbər yarışlarda müntəzəm olaraq iştirak edir və Naxçıvanın idman şərəfini layiqincə qoruyurlar.

*Əd.:* Ə l i y e v M., Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı, Naxçıvan, 1999.

**Təhsil və mədəni-maarif müəssisələri.** Naxçıvanda maarif və təhsil hələ orta əsrlərdən inkişaf etmiş, məktəb və mədrəsə təhsili geniş yayılmışdı. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, hələ 12 əsrin sonlarında Naxçıvanda iki mədrəsə mövcud idi (bax *Mədrəsələr*). Orta əsr mənbələrinə görə, 13 əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində mollaxana adlanan 60-a qədər ibtidai mədrəsə fəaliyyət göstərirdi. Dünyəvi fənlərin də təlim edildiyi Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı. Naxçıvan ş.-ndə ilk dünyəvi məktəb Ehsan xan Kəngərlinin 19 əsrin 30-cu illərinin sonlarında açdırdığı rus-tatar (Azərb.) qəza məktəbidir. Həmin məktəb 1879 ildə üçsinifli şəhər məktəbinə çevrilmişdi. Əsrin sonunda Azərb.-ın başqa bölgələrində olduğu kimi,







*Orta məktəb. Yuxarı Buzqov k.*

*Türk kolleci. Şərur qəs.*

Naxçıvanda da üsuli-cədid məktəbələri yaranmağa başladı. M.T.Sidqi Ordubadda "Əxtər" (1892), Naxçıvanda "Tərbiyə" ("Məktəbi-tərbiyə", 1894), "Qız məktəbi" (1896) məktəblərini təsis etdi. "Məhəlli məktəblər", "Məktəbi-xeyriyyə" və "Rüşdiyyə" kimi tədris ocaqları da fəaliyyət göstərirdi. 20 əsrin əvvəllərində maarif şəbəkəsi genişləndi, diyarın şəhər və kəndlərində müxtəlif səviyyəli dünyəvi məktəblər açıldı. Naxçıvanda maarifin inkişafında M.T.Sidqi ilə yanaşı, dövrün qabaqcıl ziyalıları, Qori və İrəvan müəllimlər seminariyalarının məzunları – C.Məmmədquluzadə, C.P.Sultanov, M.Ə.Süleymanov, Ə.Xəlilov, S.Xəlilov, M.Kəngərli, Ə.Sultanov, M.Qazıyev, M.C.Şürbi və b. mühüm xidməti olmuşdur. 1920 ilədək Naxçıvanda 45 məktəb (təqr. 2000 şagird) var idi.

20-ci illərdə tədris müəssisələrinin geniş şəbəkəsi yaradıldı, savadsızlığın aradan qaldırılması uğrunda hərəkat yeni vüsət aldı. 1936/37-ci dərs ilində 147 məktəbdə 24205 şagird oxuyurdu. Sonralar ümumicbari yeddiillik, səkkizillik və orta təhsil həyata keçirilmişdir. 1939 ildə əhalinin hər min nəfərinə 47 orta təhsilli düşürdüsə, 1979 ildə onların sayı 227-yə çatmışdı. 1971–90 illərdə muxtar respublikada 51870 yerlik ümumtəhsil məktəbi binaları tikilib istifadəyə verilmiş, onların maddi-texniki bazası, tədris avadanlığı ilə təchizatı yaxşılaşdırılmışdır. Şagird kontingenti isə 1945/46-cı dərs ilindəki 21 min nəfərdən 1990/91-ci dərs ilində 63 min nəfərə çatmış və ya 3 dəfə artmışdı. 1991–2001 illərdə muxtar respublikada 45 məktəb binası tikilmiş, 18 məktəb binası isə əsaslı təmir edilmiş və yenidən qurulmuşdur. 2000–2001-ci dərs ilində 233 ümumtəhsil məktəbində, o cümlədən 200-ə yaxın orta məktəbdə 74037 min şagird oxuyurdu. Ümumtəhsil məktəbdlərində 9 mindən çox müəllim çalışırdı ki, onların da 90% ali təhsilli idi. Muxtar respublikada 106 daimi məktəbəqədər uşaq tərbiyə müəssisəsi (4636 uşaq), 26 məktəbdənkənar müəssisə, 14 uşaq idman və şahmat məktəbi fəaliyyət göstərir. Texniki peşə təhsili də inkişaf etmişdir. 1970 ildə muxtar respublikada bir texniki peşə təhsili məktəbi (0,1 min şagird) var idisə, 1990 ildə onların sayı 10-a (4,2 min şagird) çatdırılmışdı. 1984 ildən texniki peşə məktəbləri həm də orta təhsil verir. Hazırda 6 peşə litseyi və peşə məktəbi var (2000). Orta ixtisas təhsili də genişlənmişdir. 2000/2001-ci dərs ilində 4 texnikumda 1001 nəfər təhsil alırdı. Muxtar respublikada ali təhsil sistemi yaradılmışdır. C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Müəllimlər İnstitutu, Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) Naxçıvan fi-

*Bəhruz Kəngərli muzeyi. 2001. Naxçıvan şəhəri.*



**Gündüz ümumtəhsil məktəbləri (dərs ilinin əvvəlinə)**

| | 1940 | 1970 | 1980 | 1985 | 1990 | 1993 | 2000 |
|---|---|---|---|---|---|---|---|
| Məktəblərin sayı | 196 | 210 | 209 | 209 | 217 | 225 | 234 |
| o cümlədən, ibtidai | 87 | 52 | 21 | 19 | 18 | 18 | 11 |
| əsas | 74 | 85 | 67 | 55 | 34 | 18 | 24 |
| orta | 35 | 73 | 121 | 135 | 165 | 189 | 209 |
| Şagirdlərin sayı, nəfər | 30453 | 59059 | 65389 | 60752 | 63633 | 66551 | 74026 |
| Müəllimlərin sayı, nəfər | 1039 | 3120 | 5410 | 6271 | 7200 | 8343 | 8330 |

lialı, Naxçıvan Dövlət Pedaqoji İnstitutu muxtar respublikanın müəllim kadrlarına ehtiyacının təmin olunmasında mühüm rol oynamışlar. Hazırda 3 ali məktəbdə – onlarla ixtisas üzrə ali təhsilli mütəxəssislər, pedaqoji və elmi kadrlar hazırlanır. 2000/2001 dərs ilində onlarda 4129 nəfər tələbə təhsil alır, 632 nəfər prof.-müəllim heyəti, o cümlədən 7 elmlər doktoru, 130 elmlər namizədi çalışırdı.

Muxtar respublikada mədəni-maarif müəssislərinin geniş şəbəkəsi yaradılmışdır. 1940 ildə muxtar respublikada cəmi 74 min nüsxə kitab və jurnal fondu olan 80, 1970 ildə 232 (1286 min nüsxə kitab və jurnal) kütləvi kitabxana var idisə, 2000 ildə onların sayı 294-ə (1986 min nüsxə) çatmış və ya 1940 illə müqayisədə müvafiq olaraq 3,7 və 32,4 dəfə, 1970 ildəkinə nisbətən isə 28,4% və 1,9 dəfə artmışdır. Kitabxanaların 263-ü, (1335 min nüsxə) kənd yaşayış məntəqələrindədir. 1940 ildə muxtar respublikada cəmi 105, 1970 ildə isə 166 klub müəssisəsi fəaliyyət göstərirdisə, 2000 ildə onların sayı 253-ə çatmış və ya həmin illərlə müqayisədə müvafiq olaraq 2,5

**Dövlət ali və orta ixtisas təhsili müəssisələri (dərs ilinin əvvəlinə)**

| | 1940 | 1970 | 1980 | 1985 | 1990 | 1993 | 2000 |
|---|---|---|---|---|---|---|---|
| Ali məktəblərin sayı | 1 | | 1 | 1 | 1 | 1 | 2 |
| Tələbələrin sayı, | 161 | – | 1971 | 2079 | 2229 | 2247 | 3315 |
| o cümlədən şöbələrdə təhsil alanlar, gündüz | 161 | – | 1338 | 1319 | 1365 | 1591 | 3063 |
| qiyabi | – | – | 633 | 760 | 864 | 656 | 1066 |
| Əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayı | 13 | – | 79 | 75 | 73 | 69 | 114 |
| Orta ixtisas təhsili müəssisələrinin sayı | 6 | 3 | 4 | 4 | 4 | 4 | 3 |
| Şagirdlərin sayı, | 763 | 1070 | 1762 | 2171 | 1811 | 879 | 1092 |
| o cümlədən şöbələrdə təhsil alanlar, gündüz | 763 | 919 | 1378 | 1643 | 1304 | 619 | 899 |
| qiyabi | – | 151 | 384 | 528 | 507 | 260 | 154 |
| Əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayı | 60 | 52 | 71 | 79 | 59 | 27 | 30 |

və 1,6 dəfə artmışdır. Klubların 246-sı kənd yerlərindədir. Muxtar respublikada 2 peşəkar teatr (C. Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Kukla Teatrı), Naxçıvan, Ordubad və Şərur xalq teatrları, Hüseyn Cavid poeziya teatrı, Respublika Mədəniyyət Sarayı, filarmoniya, 18 muzey: Heydər Əliyev muzeyi, Nax. MR tarix, ədəbiyyat, "Azərbaycan xalçası" muzeyləri, r-n tarix-diyarşünaslıq muzeyləri, 6 xatirə muzeyi (C. Məmmədquluzadə, M. S. Ordubadi, Hüseyn Cavid, Y. Məmmədəliyev, C. Naxçıvanski və B. Kəngərlinin ev muzeyləri), şəkil qalereyası, rəssamlar birliyinin sərgi salonu fəaliyyət göstərir (2000).

*Əd.:* M o l l a y e v İ., Naxçıvanda xalq maarifinin inkişafı tarixindən, "Azərbaycan tarixində Naxçıvan" kitabında, B., 1996, səh. 91–103.

**Elm.** Naxçıvan diyarı qədimdən Azərb.-ın mühüm elm mərkəzlərindən olmuşdur. Naxçıvan torpağı orta əsrlərdə Azərb. elminə təkcə ölkəmizdə deyil, bütün Yaxın və Orta Şərqdə şöhrət qazanmış onlarla görkəmli alim, mütəfəkkir, filosof, hüquqşunas, tarixçi, filoloq, təbib və s. bəxş etmişdir. Əbu Əbdüllah əl-Müfərric Nəşəvi, Əhməd ibn Hacəf Nəşəvi, Əkmələddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, İzzəddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzullah Nəimi və b. bütün Şərq dünyasının elm xəzinəsinə dəyərli töhfələr vermişlər.

20 əsrin 20-ci illərindən Azərb.-da, o cümlədən də Nax. MR-də müasir elmin əksər sahələrində böyük inkişaf yoluna qədəm qoydu. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Naxçıvan şöbəsinin yaradılması diyarın zəngin təbii sərvətlərinin aşkara çıxarılmasında, tarix, elm və mədəni irsinin öyrənilməsində əhəmiyyətli rol oynadı. Azərb. Milli EA-nın yaradılması (1945) muxtar respublikada da elmin inkişafına güclü təkan verdi. Muxtar respublikada elmi idarələr, o cümlədən Araz (Naxçıvan) Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası (bax *Araz Elm-İstehsalat Birliyi*), Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzi, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Günəşi



Müşahidə Stansiyası (bax *Batabat rəsədxanası*) yaradıldı. 1972 ildə təşkil olunmuş Naxçıvan Elm Mərkəzində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılır. Burada muxtar respublikanın təbii sərvətlərinin, tarix və mədəniyyət abidələrinin öyrənilməsi sahəsində çoxlu səmərəli iş görülmüşdür. 1999 ildə yaradılmış Naxçıvan Elm və Texnika Mərkəzində muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman preparatları, tibbdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində uğurlu tədqiqatlar aparılmış, nəticələr əldə olunmuşdur. Elmi kadrlar hazırlanmasında da uğurlar qazanılmışdır. 2000 ildə təkcə muxtar respublikaının ali və orta ixtisas məktəblərində 7 elmlər doktoru və prof., 130 nəfər elmlər namizədi çalışırdı. Muxtar respublikanın elmi əlaqələri genişlənir. Dünyanın bir çox elmi idarələri, o cümlədən Türkiyənin elm mərkəzləri ilə sıx əlaqələr yaradılmış, mütəxəssis və təcrübə mübadiləsi aparılmış, birgə elmi konfranslar keçirilmişdir.

Azərb.-ın elmi potensialına Naxçıvan diyarının töhfəsi böyükdür. Ölkənin elmi idarə və ali təhsil müəssisələrində, habelə onun hüdudlarından kənarda Naxçıvan torpağının yetirməsi olan yüzlərlə alim çalışmış və çalışır. Onların bir çoxu ən yüksək elmi dərəcə və adlara, dövlət mükafatlarına və fəxri adlara layiq görülmüşdür. Akademiklər Y.Məmmədəliyev, H.Şahtaxtinski, Ş.Məmmədov, H.Əliyev, M.Abutalıbov, M.C.Cəfərov, İ. İbrahimov, H.Abdullayev, Z.Əliyeva, R.Rəhimov, T.Şahtaxtinski, Cəlal Əliyev, M. Məmmədyarov, S. Məmmədova, Ə.Mahmudov, A.Nadirov, F.Maqsudov, M.Rüstəmov, M.Şahtaxtinski, E.Salayev, N. Seyidov, R.Rizayev, M. Kərimov, Cəmil Əliyev, Ə.Abbasov, habelə Azərb. Milli EA müxbir üzvləri C.Zülfüqarlı, B.Axundov, A.Zamanov, H.Məmmədəliyev, K.Kərimov, A. Əliyev, Y.Seyidov, Q.Mədətov, M.Hüseynov, Y.Məmmədov, M. Rəhimov, Y. Rüstəmov, T.Qurbanov, Ə.Səfərli, V. Məmmədəliyev, İ.Həbibbəyli, A. Abbasov, S. Məmmədəliyeva, Q. Kəlbəliyev, S. Kərimov, Ə. Quliyev, A.Hacıyev, professorlar Əziz Şərif, Ə.Sultanlı, M.H.Təhmasib, M.M. Qasımov və b.-nın elmin inkişafında mühüm xidmətləri var. Y.Məmmədəliyev, H.Abdullayev, E.Salayev və F.Maqsudov müxtəlif illərdə Azərb. Milli EA-nın prezidenti olmuşlar. 2001 ildən Milli EA-nın prezidenti M. Kərimovdur.

**Mətbuat, nəşriyyat, televiziya və radio verilişləri.** Nax. MR-də ilk mətbuat orqanı muxtar respublika Ali Məclisinin və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetidir [1921; ilk adları "Cavanlar həyatı (1921, noyabr–dekabr) və "Füqəra səsi" (1922, yanvar–mart); 1980–90 illərdə isə "Sovet Naxçıvanı" və "Sovetskaya Naxiçevan" adları ilə Azərb. və rus dillərində çıxmışdır]. 1996 ildən Naxçıvan Şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" qəzeti nəşr edilir. 30-cu illərdən muxtar respublikada yaradılmış inzibati r-nlarda da müvafiq olaraq R-n İcra Hakimiyyətlərinin orqanı olan "Şərurun səsi" (Şərur), "El həyatı" (Ordubad), "Şərqin səhəri" (Babək), "Arazın səsi" (Culfa), "Oğuz səsi" (Şahbuz), "Oğuz yurdu" (Sədərək) qəzetləri çıxır. Muxtar respublika mətbuatı diyarın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatını işıqlandırır, onun tərəqqisində əhəmiyyətli rol oynayır.

1921 ildə yaradılmış Naxçıvan mətbəəsi 1938 ilədək "Şərq qapısı" qəzeti redaksiyanın tabeliyində fəaliyyət göstərmiş, həmin ildən müstəqil müəssisəyə çevrilmişdir. 1976 ildə mətbəə üçün xüsusi bina tikilmişdir. Muxtar respublikada çıxan qəzetlər burada rotasiya üsulu ilə çap edilmişdir. Mətbəə 1985 ildən Azərb. Nəşriyyat-Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin (sonralar Mətbuat və İnformasiya Nazirliyi) strukturuna daxil edilərək, Naxçıvan Şəhər Poliqrafiya Müəssisəsi adlandırılmışdı. 1991 ildə mətbəədə ofset dəzgahı quraşdırılmış, muxtar respublika qəzetlərinin bu üsulla çapına başlanmışdır. 1997 ildən isə müəssisə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi kimi fəaliyyət göstərir. Birlik muxtar respublikanın tarixində kitab nəşr edən ilk müəssisədir. Ən müasir avadanlıqla təchiz olunmuş nəşriyyatda indiyədək muxtar respublika həyatının müxtəlif sahələrindən bəhs edən xeyli kitab çap edilmişdir. Naxçıvan Dövlət Un-tinin "Qeyrət" nəşriyyatı-mətbəəsi də fəaliyyət göstərir.

Nax. MR-də radio verilişlərinə 1926 il-

dən, yerli radio verilişlərinə isə 1930 ildən başlanmışdır. 1963 ildən televiziya mərkəzi işə salınmışdır. Həmin ildə muxtar respublika Nazirlər Sovetinin qərarı ilə yerli radionun bazasında Nax. MR Televiziya və Radio Verilişləri Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi dövrdə muxtar respublikanın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatının işıqlandırılmasında mühüm rol oynamış, xüsusilə 1988-90 illərdə informasiya blokadasını yararaq, Azərb.-ın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdır. Komitə bu gün də müstəqillik və demokratik inkişaf yolunu seçmiş Azərb. Respublikasının, o cümlədən onun ayrılmaz hissəsi olan Nax. MR-in bu yolda inamla irəliləməsinə layiqli töhfəsini verir. Azərb. Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin verilişləri ilə yanaşı, tamaşaçı və dinləyicilərə hər gün televiziya ilə 3 saat, radio ilə isə 2 saat 30 dəqiqə rəngarəng yerli proqramlar təqdim edilir. Komitənin maddi-texniki bazası daim yeniləşir və müasirləşir. Son illərdə yeni televiziya ötürücüləri quraşdırılmış, Azərb. radiosunun FM dalğasında yayımlanmasına başlanmışdır. Bunların və birbaşa İnternetə qoşulmaq imkanı verən kompüter-tədris mərkəzinin istifadəyə verilməsi ilə Nax. MR-in informasiya blokadasına son qoyulmuşdur. 1997 ildə quraşdırılmış yeni avadanlıq verilişlərin texniki səviyyəsini və keyfiyyətini xeyli yüksəltməyə imkan yaratmışdır. Azərb. Respublikası Rabitə Nazirliyi "Teleradio" İstehsalat Birliyi mütəxəssislərinin 2001 ilin əvvəlində Ordubad r-nunda quraşdırdığı yeni ötürücü vasitəsilə hazırda Ordubad və Culfa r-nları arasında Azərb. televiziyasının birinci kanalı və Naxçıvan televiziyası proqramlarının yayım keyfiyyəti xeyli yaxşılaşmışdır.

**Ədəbiyyat.** Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Xalq ədəbiyyatında Naxçıvan motivləri əhəmiyyətli yer tutur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə və yer-yurd adlarına rast gəlinir. Qorqudşünaslar dastandakı "Basatın Təpəgözü öldürdüyü boy" və "Bəkil oğlu İmran" boylarında cərəyan edən hadisələrin, əsasən, Naxçıvanla bağlı olduğunu göstərmişlər. Naxçıvan süjetləri, toponimləri və qəhrəmanları "Koroğlu", "Əsli və Kərəm", "Qaçaq Nəbi" dastanlarında da özünə yer almışdır. Naxçıvan folklorunda Azərb. şifahi xalq ədəbiyyatının bütün janrları təmsil olunmuşdur. Əsasən, bu diyara xas olan janrlar (haxışta, gülümey, yallıbaşı mahnılar) və nümunələr də var. Diyarda xalq ədəbiyyatının mühüm qollarından olan aşıq sənəti də (əsasən, Şərur və Şahbuz r-nlarında) inkişaf etmişdir (Aşıq Dəhri, Aşıq Əli Xanxanım oğlu, Gülalı Məmməd, Vayxırlı Məmmədcəfər, Aşıq Nabat, Aşıq Fətullah, Sərraf Qasım, Sədərəkli Yusif, Yamin İsmayıl və b.).

Hələ qədim zamanlarda bir çox görkəmli şair və yazıçılar, o cümlədən Qətran Təbrizi bir müddət Naxçıvanda yaşayıb-yaratmışdır. Atabəy Məhəmməd Cahan Pəhləvanın sarayına yaxın olan, "təbiblər sultanı" kimi şöhrət qazanmış Kəmaləddin Naxçıvani şair kimi də məşhur idi. Əbubəkr ibn Xosrovun Atabəylər sarayında xidməti dövründə yazdığı məşhur "Munisnamə" əsəri mühüm sosial-əxlaqi motivləri və humanizmi ilə seçilir. Orta əsrlərdə Əhməd ən-Nəşəvi, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Sadiq bəy Ordubadi, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və b. alim və mütəfəkkirlər həm də bədii əsərləri ilə Azərb. ədəbiyyatını zənginləşdirmişlər.

19 əsrdə maarifçilik hərəkatının geniş yayılması bu bölgədə də ədəbiyyat və mədəniyyətin sürətli inkişafına təkan verdi. Heyran xanımın və Qönçəbəyimin yaradıcılığında məhəbbət lirikası ilə yanaşı, zəmanədən şikayət, zülmə, sosial ədalətsizliyə qarşı etiraz motivləri də güclüdür. Bu dövrdə Naxçıvan ədəbi mühitində ciddi canlanma nəzərə çarpır. Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisi (1838) klassik ədəbi ənənələrlə yanaşı, yeni maarifçi-realist ədəbiyyatın da inkişafına müəyyən təsir göstərmişdir. Məclisin fəal üzvlərindən Qüdsi Vənəndi, Fəqir Ordubadi, Əhmədağa Şəmi, Usta Zeynal Nəqqaş, Molla Hüseyn Bikəs, Abbas Dəhri, Məşədi Həsən Dabbağ və b.-nın yaradıcılığında klassik məhəbbət lirikasının ənənəvi mövzuları ilə yanaşı, maarifçilik ideyaları, tənqidi-realist-satirik meyllər, dövrandan şikayət, haqsızlığa etiraz motivləri də əhəmiyyətli yer tutur. M.T.Sidqinin (1854–1903) ədəbi-pedaqoji irsinin Azərb. maarifçi-realist ədəbiyyatında özünəməxsus yeri var. "Nümuneyi-əxlaq" və "Töhfeyi-bənat, yaxud qızlara hədiyyə" dərsliklərinə daxil edilmiş şer və nəsr nümunələri, "Kəblə Nəsir", "Heykəli-insanə bir nəzər" əsərləri, "Məktəb hekayələri" Azərb. maarifçilik ədəbiyyatının kamil nümunələrindəndir. 19 əsrin 80-ci illərindən Naxçıvan ədəbi-mədəni mühitinə görkəmli yazıçı-publisist və teatr xadimi E.Sultanov (1866–1935) başçılıq edirdi. Onun təşəbbüsü və rəhbərliyi ilə yaradılmış "Ziyalı məclisi", "Müsəlman şiə dram incəsənəti cəmiyyəti" Naxçıvanın qabaqcıl ədəbi-mədəni qüvvələrinin təşkilatlanmasında, maarif və mədəniyyətin, mətbuatın inkişafında, xüsusilə Naxçıvan teatrının yaranmasında və təşəkkülündə mühüm rol oynamışdır. Həmin cəmiyyətlərin ətrafında toplaşmış C. Məmmədquluzadə, Ə.Xəlilov, M.Ə.Süleymanov, S.Xəlilov, N.Şeyxov, Ə.Sultanov, M.C.Şürbi və b. təhsilli maarifçi ziyalılar bu sahədə mühüm xidmətlər göstərmişlər.

20 əsrdə Naxçıvan diyarı Azərb. ictimai, ədəbi-bədii fikrinə və mədəniyyətinə bir sıra böyük şəxsiyyətlər bəxş etmişdir. Dahi yazıçı, dramaturq və publisist, "Molla Nəsrəddin" jurnalının yaradıcısı C. Məmmədquluzadə (1869–1932) hekayələri, felyetonları, "Danabaş kəndinin əhvalatları" povesti, ölməz "Ölülər" komediyası, "Anamın kitabı", "Dəli yığıncağı" və s. pyesləri ilə realist-demokratik Azərb. ədəbiyyatı tarixində müstəsna yer tutur. Ədib "Çay dəstgahı", "Kişmiş oyunu", "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu" kimi əsərlərini Naxçıvanda yaşadığı illərdə (1903 ilə qədər) yazmışdır. Böyük romançı M.S.Ordubadi Azərb. ədəbiyyatında tarixi roman janrının əsasını qoymuş və onun kamil nümunələrini (dördcildlik "Dumanlı Təbriz" epopeyası, "Qılınc və qələm" və s.) yaratmışdır. "Dumanlı Təbriz"dəki süjetlərin əksəriyyəti ədibin həyatının Naxçıvan dövrü ilə bağlı müşahidələrinin məhsuludur. "Qılınc və qələm"də Naxçıvanla da bağlı motivlər var. Şair və jurnalist Ə. Qəmküsarın irsi ədəbiyyatımızın tarixində layiqli yer tutur. Milli romantik şer və dramaturgiyamızın korifeyi Hüseyn Cavidin humanist lirikası, "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və s. mənzum və mənsur dramları, "Azər" mənzum dastanı Azərb. ədəbiyyatının şah əsərləri sırasına daxil olmuşdur.



20 əsrin 20-ci illərində ədəbiyyata yeni gənc qüvvələr gəldi. "Qızıl qələmlər" cəmiyyətinin Naxçıvan şöbəsində birləşən gənc yazarların [Ə.Şəkili (Abbasov)], M.Təhmasib, M.Nəsirli, Hüseyn Əzim, B. Mərdanlı, Əbdül Kazım, M.Tarıverdiyev, Ə.Rəsizadə, A.Gülməmmədov, Əvəz Sadıq, N.Nağıyev, Ə.Abbasquliyev, Məmməd Əkbər və b.] ilk qələm təcrübələri "Şərq qapısı" qəzetində müntəzəm dərc olunurdu. Xalq yazıçıları M.İbrahimov və Ə.Vəliyevin ayrı-ayrı vaxtlarda Naxçıvanda yaşayıb-yaratmaları da ədəbi-mədəni prosesin, teatrın inkişafına müsbət təsir göstərmişdir. Eyni zamanda, Naxçıvan mühiti ilə bağlı hadisələr hər iki yazıçıya zəngin yaradıcılıq materialı vermişdir. M.İbrahimov "Həyat" pyesinin mövzusunu Naxçıvan həyatından götürmüş, Ə.Vəliyev "Budağın xatirələri" romanında Naxçıvan təəssüratlarından istifadə etmişdir.

Çağdaş Azərb. ədəbiyyatının görkəmli nümayəndələri – şair və dramaturq İ.Səfərli, xalq şairi Məmməd Araz, xalq yazıçısı Ə.Əylisli, şair Rüstəm Behrudi də Naxçıvan torpağının yetirmələridir.

Azərb. yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb yaradır. Azərb. Yazıçılar Birliyinin Naxçıvan şöbəsinin (hazırda Naxçıvan Yazıçılar Birliyi) yaradılması, "Şərq qapısı" vil. qəzetinin nəşri, yerli radio verilişləri 20 əsrin 50-ci illərindən etibarən Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir.

Naxçıvan ədəbi mühitində şer həmişə üstünlüyə malik olmuşdur. M. Nəsirli, Hüseyn Əzim, Hüseyn Razi, Ə. Yusifli, Əkbər Məftun, Əkbər Məşkur, Kəmalə, Əhməd

Mahmud, A. Qasımov, Ramiq Muxtar, E.Qasımova, Həsən Valeh, Elman Həbib, V.Məmmədov, İ. Yusifli, X. Kərimov, M.Qasımzadə, Ə. Sədərəkli, İnqilab Orxan, Budaq Təhməz, Vaqif Əsrar, Qafar Qərib və b.-nın şer və poemaları ümumazərbaycan poeziyasında özünəməxsus yer tutmuşdur.

Nəsr sahəsində də diqqətəlayiq uğurlar qazanılmışdır. Xalq yazıçısı H. İbrahimovun "Əsrin onda biri", "Böhtan", "Sabahın sorağında", "Bahar yağışı" romanları, povestləri müasir Azərb. nəsrinin nailiyyətlərindəndir. Həsən Elsevər, M. Möhsünov, A. Axundov, H. Arzulu, N. Əliyev, R. Babayev, B. İskəndərzadə, G. Məmmədova, Akif İman, Ə. İnfiloğlu və b.-nın roman, povest və hekayələri ədəbi prosesdə qabarıq nəzərə çarpır.

Dramaturgiya ənənələri müvəffəqiyyətlə davam etdirilir. H. İbrahimovun ("İtirilən sağlıq", "Torpağın övladları"), M. Tarıverdiyevin ("Kölgəli dağ"), Hüseyn Razinin ("Odlu diyar"), Ə. Yusiflinin ("Vicdan əzabı", "Əlincədən uçan qartal" və s.), Həsən Elsevərin ("Vüqarlı gözəl", "Alınmaz qala"), Kəmalənin ("Məhsəti", "O, bizim dağların oğlu idi"), Ramiq Muxtarın ("Üfüqlər qızaranda"), H. Arzulunun ("Əlincə qalası") və b.-nın pyesləri Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulmuş, teatrın qastrol səfərləri zamanı Bakıda, Gəncədə, Sumqayıtda, başqa şəhərlərdə də nümayiş etdirilmişdir.

Publisistika sahəsində də uğurlu addımlar atılır (M. Məmmədov, H. Əsgərov, N. Babayev, F. Fərəcov, C. Əliyev və b. ).

Naxçıvan torpağı Azərb. ədəbiyyatşünaslıq elminə M.Şahtaxtlı, Məmməd Cəfər, Əziz Şərif, Əli Sultanlı, M.H. Təhmasib, A. Zamanov kimi görkəmli alimlər bəxş etmişdir. Tanınmış ədəbiyyatşünaslar Y. Seyidov, M. Sadıqlı, F. Hüseynov, Ə.Səfərli və b. bu torpağın yetirməsidir. 20 əsrin 50-ci illəridən başlayaraq ədəbiyyatşünaslıq bilavasitə Naxçıvanda da inkişaf etmişdir. Qocaman maarif xadimi və ədəbiyyatşünas L. Hüseynzadə Azərb. ədəbiyyatşünaslığında ilk dəfə olaraq Naxçıvanda Ə. Qəmküsar haqqında dissertasiya müdafiə etmiş(1950), Qaraqoyunlu hökmdar-şairi Cahanşah Həqiqinin divanını tapıb nəşr etdirmiş, onun, habelə Azərb. ədəbiyyatının bir çox digər klassiklərinin, yaradıcılığını araşdırmışdır. Son 30 ildə burada tənqidçi və ədəbiyyatşünasların tam bir nəsli yetişmişdir. Azərb. Milli EA-nın m. üzvü İ.Həbibbəylinin, filologiya elmləri doktorları Y.Axundlunun, Ə. İsmayılovun Azərb. ədəbiyyatının böyük klassikləri C. Məmmədquluzadə, M.S. Ordubadi, H. Cavid haqqında monoqrafik tədqiqatları ədəbiyyatşünaslığımıza qiymətli töhfədir. Mərhum ədəbiyyatşünas İ. Maqsudov görkəmli yazıçı və publisist E. Sultanovun həyat və yaradıcılığını tədqiq etmişdir. Hazırda H. Həşimli, M.Cəfərov, Ə. Əzimli, Ə. Qədimov, F. Kazımova, M. Muradov, İman Cəfər, Hikmət Mehdi və b. Naxçıvan ədəbi mühitinin tarixinə, çağdaş ədəbi prosesə dair uğurlu tədqiqatlar aparırlar.

*Əd.:* H ə b i b b ə y l i İ., Ədəbi yüksəliş, B., 1985; A x u n d l u Y., Naxçıvanda ədəbi mühit, " Qobustan" toplusu, 1999, № 2.

**Sənətkarlıq, memarlıq və təsviri sənət.** Naxçıvan diyarı hələ ən qədim zamanlardan sənətkarlıq və memarlığı ilə Yaxın Şərq dünyasında tanınmışdır. Qədim xalq sənəti sahələri olan dulusçuluq, metalişləmə, misgərlik, daşişləmə, ağacişləmə, toxuculuq, zərgərlik və s. Eneolit və ilk Tunc dövrlərindən məlumdur. Naxçıvanda əkinçiliyin, maldarlığın intensiv inkişafı sənətkarlığın təkamülünə imkan yaratmışdır. Mədəni tələbatın artması bəzək əşyalarının, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Arxeoloji

*Bəzək əşyaları. Qızılburun. Naxçıvan. Tunc–ilk Dəmir dövrləri.*





qazıntılar nəticəsində qədim yaşayış yerlərindən (I və II Kültəpə, Sədərək, Maxta, Ovçular təpəsi, Daşarx, Qızılburun, Şahtaxtı, Qarabağlar, Külüs, Kolanı və s.) müxtəlif əmək alətləri, məişət və bəzək əşyaları aşkara çıxarılmışdır. Arazın sol sahilində yaşamış qədim tayfaların sosial həyat tərzi, dini-ideoloji dünyagörüşləri, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır. Naxçıvanın Tunc dövrü mədəniyyəti üçün səciyyəvi sayılan yüksək ustalıqla hazırlanmış bədii tərtibatlı boyalı gil qabları (bu dövrdə Naxçıvanda birsıra xüsusiyyətləri ilə fərqlənən Boyalı qablar mədəniyyəti təşəkkül tapmışdır), rəngarəng motivli bəzəklər, həmçinin tunc və gümüşdən nəfis zərgərlik məmulatı, qızıl bəzək əşyaları, müxtəlif minerallardan hazırlanmış muncuqlar, metal, ağac, sümük, gil və daşdan zərif sənətkarlıq əsərləri, gil və daş heykəlciklər buna parlaq sübutdur. Qədim sənətkarlığın mühüm sahəsi olan dulusçuluq Naxçıvan ərazisində e. ə. 4 minillikdə yaranmışdır. Arxeoloji materiallar göstərir ki, Eneolit və Tunc dövrlərinə aid gil qablar dulus çarxında hazırlanmış və xüsusi kürələrdə bişirilmişdir. Dulus kürələrinin ən qədim qalıqları I Kültəpə yaşayış yerində aşkar olunmuşdur. Tunc dövrünə aid II Kültəpə yaşayış yerindən əl ilə, qismən də dulus çarxında hazırlanmış müxtəlif formalı sadə, həndəsi və nəbati naxışlar, insan, quş və heyvan təsvirləri ilə bəzədilmiş boyalı qab-qacaq (küp, küpə, kasa, badya, çölmək, vaza, çıraq və s.) məlumdur. Yüksək keyfiyyəti, rəngarəngliyi və çeşidli formaları ilə seçilən dulus qablarının bəzədilməsi, şüyrələnməsi, şirlənməsi və s. xalq sənətinin mühüm sahələridir.



*Naxçıvan dulus qabları*

Naxçıvan dünyanın qədim metal (mis) işləmə ocaqlarından biridir. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mis – mərgmüş, nikel-mərgmüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilmişdir. Ordubad rayonunun Plovdağ nekropolundan çoxlu tunc sancaqlar, Kültəpədən Tunc dövrünə aid başı ilgəkli dörd sancaq, bıçaq parçası və s. tapılmışdır. Arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan əmək aləti və bəzək hazırlamaq məharətinə malik olduqlarını göstərir. Toxuculuq peşəsinə aid daşdan, sümükdən və gildən iy başlıqlarına, həmçinin çox zərif parça qalıqlarına rast gəlinmişdir. Orta əsrlərdə misgərlik, zərgərlik, ipəkçilik, xalçaçılıq kimi sənətlər xüsusilə vüsət almış, yüksək sənətkarlıq və zövq ilə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları şöhrət qazanmışdı. Bu sənətkarlıq məhsulları xarici bazara da ixrac edilirdi. Bədii metal ustası Osman ibn Salman Naxçıvaninin oyma naxışlarla bəzədilmiş bürünc dolçası (1190) Luvr (Fransa) muzeyində saxlanılır.

Erkən orta əsrlərdən başlayaraq istehsal texnikası təkmilləşmiş, ipək istehsalında ayaqla hərəkətə gətirilən təkərli mancanaqlar (baramaaçan dəzgahlar), ipək karxanalarında mütəhərrik toxucu dəzgahları tətbiq olunmuşdur. Ordubad ipək parça istehsal edən əsas mərkəzlərdən biri idi. Azərb. ipəyi İraq, Kiçik Asiya, Suriya və Avropanın bir sıra ölkəsinə ixrac olunurdu. Culfa, Ordubad və Naxçıvanda bez istehsalı (bəzzazlıq) sənəti geniş yayılmışdı.

Orta əsrlərdə xalçaçılıq sənəti də inkişaf etmiş, sonrakı dövrlərdə Naxçıvan əhalisinin məişət və iqtisadiyyatında mühüm yer tutmuşdur. Xalçaçılıq ənənələri bu gün də davam etdirilir. Bu dövrdə dabbağlıq, gön-dəri məmulatı istehsalı da inkişaf etmişdi.

3-cü minilliyin sonu – 2-ci minilliyin əvvəllərinə aid yaşayış məskənlərindən Naxçı-

vanın qədim memarlığına aid çiy kərpic və möhrədən inşa edilmiş bina qalıqları, Naxçıvan ərazisində möhtəşəm qala divarları, düzbucaqlı və yarımdairəvi bürclərlə əhatə olunmuş erkən şəhər yerləri (I və II Kültəpə, Govurqala, Qarabağlar, Oğlanqala, Plovtəpə, Qazançı, Vayxır, Çalxanqala və s.) meydana gəlmişdir. Bu abidələr Azərb.-ın, eyni zamanda Naxçıvanın Qafqaz və Yaxın Şərqin yüksək inkişaf tapmış mədəniyyət mərkəzləri ilə əlaqələrini aşkara çıxarmışdır. Naxçıvanın ayrı-ayrı tarixi dövrlərə aid yaşayış məskənləri, siklop tikililəri, maddi mədəniyyət və memarlıq abidələri, qalaları, istehkamları, inşaat materialları, tikinti texnikası və s. zənginliyi ilə diqqəti cəlb edir.

Naxçıvan 12 əsrdə qüdrətli Azərb. atabəylər dövlətinin paytaxtı olaraq əzəmətli bir şəhər, Azərb.-ın siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzlərindən idi. Burada memarlıq sənəti yüksək səviyyəyə çatmışdı; çoxsaylı dini memarlıq abidələri və mülki binalar: zəngin ornamentlər və boyalarla bəzədilmiş əzəmətli məscidlər, türbələr, saraylar, karvansaralar, körpülər, qala və bürclər, mədrəsələr, bəzəkli yaşayış evləri, zəngin tərtibatlı hamamlar və s. inşa edilmişdi.

Azərb.-da orta əsr xatirə memarlığının ən geniş yayılmış tipi olan qülləvarı türbələrin yaradılmasında naxçıvanlı memarlar Əcəmi Əbubəkr oğlu və Əhməd Əyyub oğlunun böyük xidmətləri olmuşdur. Memar Əcəminin 12 əsrin 2-ci yarısında Naxçıvanda ucaltdığı və dövrümüzədək salamat qalmış Yusif ibn Küseyir türbəsi və Möminə xatun türbəsi dünya memarlığında insan xatirəsini monumental biçimlərlə əbədiləşdirən ən uğurlu örnəklərdəndir. Təkcə Azərb.-nın deyil, islam ölkələrinin ən uca və ən incə kompozisiyalı türbələrindən olan Möminə xatun türbəsinin belə uzunömürlülüyü, öncə, onun mühəndis həllinin bitkinliyi ilə bağlıdır. Memar Əcəmi öz şah əsərində təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin təcrübəyə əsaslanan mühəndislik dühası göstərmişdir. Abidənin mükəmməl dayaq sistemi, xüsusilə sərdabəsinin tektonik quruluşu əyani şəkildə göstərir ki, naxçıvanlı memar öz çağında "mühəndislər şeyxi" adını nahaq yerə daşımamışdır. Əcəminin fəaliyyəti ilə Azərb. memarlığı tarixində Naxçıvan memarlıq məktəbi yaranmış və formalaşmışdır. Bu məktəbin təsiri ilə Yaxın Şərq ölkələrində bir sıra memarlıq kompozisiyaları yaradılmışdır. Naxçıvan memarlığı yalnız daş memarlıq abidələri ilə deyil, əsas inşaat materialı qırmızı bişmiş və bənövşəyi rəngli kaşılı kərpiclər olan abidələrlə də məşhurdur (İmamzadə memarlıq kompleksi və s.). Monqol istilaları nəticəsində əvvəlki əzəmətini itirmiş, Elxani hökmdarları dövründə digər Azərb. şəhərləri kimi dirçəlmiş, 14 əsrin 2-ci yarısında Çobani və Cəlairi əmirləri arasındakı dağıdıcı müharibələrdən zərər çəkmiş, Qızıl Orda xanı Toxtamışın və Əmir Teymurun yürüşləri zamanı qətl-qarətlə üzləşmiş, 16 əsrdə dəfələrlə əldən-ələ keçmiş, 17 əsrin 1-ci yarısında iki dəfə dağıntılara məruz qalmış Naxçıvan əski əzəmətini, Azərb.-ın siyasi-iqtisadi, mədəni həyatındakı aparıcı rolunu və möv-qeyini itirdi. Hərbi-siyasi hadisələr Culfa, Ordubad, Əylis kimi mədəni mərkəzlərə də xeyli zərər yetirmişdi. Görkəmli memarların yaratdıqları yüzlərcə qiymətli tikinti və abidə ara müharibələri zamanı dağılmış, dövrümüzə qədər gəlib çatmamışdır. Çox zaman bunları yaradan sənətkarların və xalq ustalarının adı belə unudulmuşdur.

17 əsrin 2-ci yarısından başlayaraq Naxçıvanın, Ordubadın, Culfanın şəhər həyatında müəyyən canlanma hiss olundu. Türk tarixçisi Övliya Çələbinin məlumatına görə, XVII əsrdə Naxçıvanda 20 min ev, 70 dini bina, 20 karvansara, 7 hamam və bazarlar olmuşdur. İmamzadə memarlıq kompleksi (16-17 əsrlər), İsmayıl xan hamamı (18-19 əsrlər), Xan evi (19 əsr), Ordubadda məscid və mədrəsələr, zorxana, hamam və karvansaralar tikilmiş, Ərasət meydanı ansamblı, örtülü bazar kompleksi salınmış, Dər, Dəstə, Əylis, Dırnıs, Düylün, Gənzə, Vənənd kəndlərində türbə və məscidlər, digər memarlıq abidələri, tarixi binalar inşa edilmişdi. Ordubadda divarları gözəl rəsmlərlə bəzədilmiş 18 əsrə aid memarlıq abidələri dövrümüzədək qalmışdır.

Tarixi daim saxtalaşdırmağa cəhd göstərən erməni "tədqiqatçıları" qədim Azərb. abidələrinin yerləşdiyi Naxçıvan ərazisində saxta yollarla qəbir daşları basdırır, sonradan hay-küy qaldıraraq, torpaqlarımıza ərazi iddiası irəli sürürdülər. Erməni tarixçiləri gizli yollarla Naxçıvan ərazisinə gəlib, buradakı



*"Heydər Əliyev xalçası". 1998. Müəllifi xalq rəssamı, professor Kamil Əliyev. Naxçıvan Dövlət Xalça Muzeyi.*



"Naxçıvan" xalçası. 19 əsr. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. Bakı ş.



Xovlu xalçalar. 19–20 əsrlər. Ordubad ş. Naxçıvan Dövlət Xalça Muzeyi.


1


2


3


4


5


6


7

1. Tunc boyunbağı, asma və bi-lərziklər. Son Tunc – ilk Dəmir dövrü. 2. Qızıllanmış gümüş kəmər. 3. Gil qablar. Son Tunc – ilk Dəmir dövrü. 4. Mis məi-şət qabları. 19 əsr. 5. Çıraq. 19 əsr. 6. Qızıl sinəbəndi. 19 əsr. 7. a) Üzəri şəbəkəli gümüş bə-zək qutusu. b) Qızıl boyun ziynəti "Çəçik". 19 əsr. Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyası.












*1-2. Daş qoç heykəllər. 15 əsr. Cuğa qəbiristanı. 3. Deko-rativ qaşıqlar. Ağacişləmə. 19 əsr. Naxçıvan ş. Naxçıvan Dövlət Tarix Muzeyi. 4. Mücrü. Ağacişləmə. 18–19 əsrlər. Naxçıvan ş. R.Mustafayev ad. Azərbaycan Dövlət İncəsənət Muzeyi. 5. Şəbəkəli minbər. 18 əsr. Ordubad ş.*



müxtəlif dövrlərə aid tarixi abidələrin fotolarını çəkdirmiş, onları özününküləşdirərək, erməni dilində uydurma məlumatlarla dolu məqalələr və albom xarakterli kitablar nəşr etdirmişlər. Çox hallarda isə özününküləşdirə bilmədikləri bir sıra abidələri oğurlamış, yaxud yerlə-yeksan etmişlər. Bununla da, onlar bu regionda azəri türklərinin izini itirməyə yönəldilmiş məkrli niyyətlərini planlı şəkildə həyata keçirirdilər.

1969-cu ildən sonra Heydər Əliyevin rəhbərliyi ilə Nax. MR-in mədəni həyatında da əsl inkişaf dövrü başlandı. Muxtar respublika bu illərdə quruculuq və yüksəliş dövrü keçdi. Tariximizə, mədəniyyətimizə, xalq sənətinə diqqət və qayğı artdı. Xalqın milli və mənəvi sərvətlərinin, böyük tarixi dəyərə malik abidələrin tədqiqi, mühafizəsi və bərpası sahəsində bir sıra mühüm dövlət qərarları qəbul edildi, onların qorunub saxlanması işində kompleks tədbirlər həyata keçirildi. Nax. MR-də mədəniyyət özünün əvvəlki intibah dövrünü yaşamağa başlamışdır. Son illərdə şəhər və rayon mərkəzlərində, ayrı-ayrı yaşayış yerlərində milli və müasir memarlığın nailiyyətlərini özündə əks etdirən meydanlar, istirahət bağ və parkları, bulaq-abidə kompleksləri, şəhid xiyabanları, müasir üslublu tikililər, yaraşıqlı klub və mədəniyyət evləri, təhsil və səhiyyə ocaqları, milli arxitekturalı binalar, mehmanxanalar, körpülər inşa edilmiş, abidələr ucaldılmış, neçə-neçə tarixi memarlıq abidələri bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Bütün bunlar Heydər Əliyevin 1969-cu ildən başladığı böyük tarixi missiyanın məntiqi davamıdır.

Naxçıvanda təsviri sənətin kökləri qədim Gəmiqaya rəsmlərinə (e. ə. 7–1 minilliklər) gedib çıxır. Bu diyarın qədim sakinlərinin dünyagörüşünü, bədii-estetik təfəkkürünü əks etdirən həmin rəsmlərdə onların təsərrüfat həyatı və məişəti (ov, mərasim, rəqs səhnələri, süjetli daş oymalar, keçi, öküz, maral, quş və s. heyvan təsvirləri, müxtəlif piktoqrafik işarələr) əbədiləşmişdir. Ərazidən tapılmış maddi mədəniyyət nümunələri, xüsusilə Əlincəçay vadisindəki Zoğala yaşayış yerindən tapılmış sütun altlıqları, orijinal tunc qrifon fiqurları (6-7 əsrlər) Cavanşirin tunc heykəli və s. sənət əsərləri Naxçıvanda təsviri sənətin qədimdən mövcud olduğunu göstərir.

Orta əsrlərdə, bütün Yaxın Şərqdə olduğu kimi, Naxçıvanda da xəttatlıq və kitabşünaslıq inkişaf etmişdi [ Nəşəvi Həddad ibn Asim (11 əsr), İzzəddin Əbülfəzl Dövlətşah əs-Sahibi (12 əsr), Ətiq Ordubadi, Mirzə Məhəmməd Ordubadi (16-17 əsrlər) və b.]. Görkəmli şair Usta Zeynal Nəqqaş (19 əsr) həm də mahir nəqqaş idi. Professional rəssamlıq sənəti 20 əsrin əvvəllərində yaranmışdır. Realist Azərb. rəssamlığının banisi Bəhruz Kəngərlinin əsərlərində dövrün kaloriti, öncül mövzuları əksini tapmışdır. Azərb. boyakarlığında mənzərə və portret janrlarının təşəkkülü onun adı ilə bağlıdır. Ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı nəticəsində doğma yurdundan didərgin düşmüş soydaşlarımızın portretlər silsiləsi ("Qaçqın qadın", 1921; R.Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyi və s.) təkcə rəssamın yaradıcılığında deyil, həm də Azərb. boyakarlığında əhəmiyyətli yer tutur. Son 80 ildə incəsənətin başqa sahələri ilə yanaşı, təsviri sənət də uğurla inkişaf etmişdir.

Məşhur Azərb. və türk boyakarı İbrahim Səfi, xalq rəssamları Hüseyn Əliyev və Elmi-



*B. Kəngərli. "Qaçqın qadın". Akvarel. 1921. Azərb. Dövlət İncəsənət Muzeyi.*

ra Şahtaxtinskaya, əməkdar incəsənət xadimi Əyyub Hüseynov, əməkdar rəssam Cəmil Müfidzadə bu torpağın yetirmələridir. Əməkdar incəsənət xadimləri Şamil Qazıyev, Əyyub Fətəliyev M.Qasımov əsasən teatr rəssamı kimi tanınmışdır. Ş. Qazıyevin "Çoban portreti" Tretyakov qalereyasında (Moskva) saxlanılır (1931). Boyakarlar Yuran Məmmədov, Mircəlil Seyidov, Məmməd Şirzadov və b., heykəltaraşlar Hüseynqulu Əliyev, Arif Qazıyev, Elman Cəfərov və b. da bir sıra uğurlu əsərlər yaratmışlar. Respublika Milli EA-nın müxbir üzvü Kərim Kərimovun, sənətşünaslıq doktoru Cəmilə Novruzovanın Azərb. sənətşünaslığının inkişafında xidmətləri var. Nax. MR-də Azərb. Rəssamlar İttifaqının filialı fəaliyyət göstərir.

**Teatr.** Naxçıvanda meydan teatrı və şəbeh tamaşaları formalarında teatr sənəti hələ qədim dövrlərdən mövcud olmuşdur. Peşəkar teatrın isə 120 ilə yaxın yaşı var. 1882 ildə tanınmış ziyalı E. Sultanovun təşəbbüsü ilə Naxçıvanda əsas üzvləri müəllimlərdən ibarət olan "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti", "Ziyalı məclisi" yaradılmışdı. E. Sultanov 1884 ildə iki birpərdəli "Tatarka" ("Azərbaycan qızı") pyesini yazmışdı. Cəmiyyət və məclis üzvlərinin təşəbbüsü ilə 1886 il avqustun 12-də mütərəqqi ziyalılardan Hacı Nəcəf Zeynalovun "Zaviyə" məhəlləsindəki evində M.F.Axundovun "Müsyö Jordan və dəviş Məstəli şah" komediyası oynanıldı. Bu tamaşa ilə Naxçıvan teatrının təməli qoyuldu. Bunun ardınca M. F.Axundovun "Molla İbrahimxəlil kimyagər", "Lənkəran xanının vəziri", "Hacı Qara", "Xırs quldurbasan" komediyaları, sonrakı illərdə isə N. Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər"), Ə. Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", N. Nərimanovun "Nadir şah", C. Məmmədquluzadənin "Ölülər" əsərləri və s.pyeslər səhnə təcəssümü tapdı. Naxçıvan teatrının təşəkkülündə E.Sultanovla yanaşı, C. Məmmədquluzadə, M.T. Sidqi, Q. Şərifov, Ə. Sultanov, M.S.Qulubəyov, Ə. Xəlilov, S. Xəlilov, M.C.Şürbi, C.P. Sultanov, M. Ə. Süleymanov, N. Şeyxov, M.Qazıyev və b.-nın, sonralar isə B.Naxçıvaninin, R. Təhmasibin, Ə.Qəmküsarın, R. İsfəndiyarlı-nın və b.-nın mühüm xidməti olmuşdur. Azərb. teatrının müqtədir ustadları H. Ərəblinskinin, M. Əliyevin, S.Ruhullanın və b.-nın tez-tez Naxçıvana gələrək, yerli aktyor və rejissorlarla birlikdə tamaşalar göstərməsi, dəyərli məsləhətləri Naxçıvan teatrının peşəkarlıq səviyyəsinin artmasına və püxtələşməsinə güclü təsir göstərmişdir. Ümumiyyətlə, 19 əsrin 80–90-cı illərində və 20 əsrin əvvəlində Naxçıvan teatrı milli teatrın inkişafında əhəmiyyətli rol oynamışdır.

20 əsrin 20-ci illərində Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoydu. Naxçıvan aktyorları vahid truppada birləşdi. 1922 ildə Dövlət Dram Teatrı yaradıldı. Hüseyn Cavidin ("Şeyx Sənan") və C. Cabbarlının ("Aydın") pyeslərinin tamaşaya qoyulması Naxçıvan teatrına yeni ab-hava gətirdi. Teatr həm romantik, həm də realist istiqamətdə inkişaf edirdi. 30-cu illərdə teatrda C. Cabbarlının "Almaz", "Yaşar", M. İbrahimovun "Həyat", S. Rəhmanın "Toy", S. Vurğunun "Vaqif" pyesləri və s. əsərlər uğurla tamaşaya qoyuldu. Bu dövrdə Naxçıvan teatrının səhnəsinə bir sıra istedadlı aktyor və rejissorlar (İ. Musayev, S. Mövləvi, M. Mirişli, İ. Həmzəyev, Ə. Haqverdiyev, X. Qazıyeva, F. Əlixanova və b.) gəldi. Teatr öz repertuarında Azərb. dramaturgiyası ilə yanaşı, dünya klassiklərinin əsərlərinə də müntəzəm surətdə müraciət edirdi.

Böyük Vətən müharibəsi (1941–45) illərində qəhrəmanlıq və vətənpərvərlik ruhunda yazılmış pyeslər ("Babək", O. Sarıvəlli; "Aslan yatağı", M. H. Təhmasib; "Fərhad və Şirin, S. Vurğun; "Vəfa", R. Rza; "İntiqam" Z.Xəlil və s.) oynanılmışdı. Sonrakı dövrlərdə Azərb. dramaturgiyasının ən yaxşı əsərləri, o cümlədən H. Cavid, C. Cabbarlı, S. Vurğun, S. Rəhman, M. İbrahimov, M. Hüseyn, İ.Əfəndiyev, İ. Qasımov, İ. Səfərli, Ə. Əylisli, Anar, Elçin, R. İbrahimbəyov və b.-nın, habelə Sofokl, Şekspir, F. Şiller, K. Qoldoni, Lope de Veqa, N. V. Qoqol, A. N. Ostrovski, A. P. Çexov, M. Qorki, N. Hikmət və b. dünya klassiklərinin əsərləri uğurla tamaşaya qoyulmuşdur. Teatrın repertuarında yerli müəlliflərin (H. İbrahimov, M. Tarıverdiyev, H. Razi, H. Elsevər, Ə. Yusifli, Kəmalə, H.Arzulu və b.) əsərləri də əhəmiyyətli yer tutur. Müxtəlif illərdə teatrın səhnəsində dram







*Naxçıvan Dövlət Dram Teatrının tamaşalarından səhnələr:*
*"Yaşar" (C.Cabbarlı), "Bahar qız" (R.Heydər)*

əsərləri ilə yanaşı, musiqili teatr əsərləri, o cümlədən Ü. Hacıbəyovun "Leyli və Məcnun", "Ər və arvad", Z. Hacıbəyovun "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evlikən subay", S. Rüstəmovun "Beş manatlıq gəlin", "Durna", F. Əmirovun "Gözün aydın", S.Ələsgərovun "Ulduz", "Özümüz bilərik" və s. opera və musiqili komediyaları uğurla tamaşaya qoyulmuşdur.

Sonrakı onilliklər ərzində Naxçıvan teatrında istedadlı aktyor (M. Quliyev, Z. Həmzəyeva, S. Hüseynova, Ə. Qardaşbəyov, A.Şahsuvarov, R. Cəfərxanova, İ. Məmmədov, H. Ağayev, K. Quliyev, Y. Haqverdiyev, K. Hüseynov, P. Məmmədova, T. Məmmədova, İ. Bənənyarlı, T.Mövləvi, M. Səfərov, N. Həmzəyev və b.) və rejissorların (B. Qələndərli, V. Babayev, V. Əsədov, Ə. Lalayev və b.) bir neçə nəsli yetişmişdir.

Azərb. hökumətinin 14 sentyabr 1989 il tarixli qərarı ilə uşaq və yeniyetmələrin milli mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyəsini gücləndirmək, dünyagörüşünü formalaşdırmaq məqsədilə Naxçıvan Dövlət Kukla Teatrı yaradılmışdır.

*Əd.:* Hüseynzadə L., Naxçıvan teatrının tarixindən, *Azərbaycan incəsənəti*, c. 3, B., 1950; Xəlilov Ə., Naxçıvan teatrının tarixi, B., 1964; Vəzirov C., Qədim sənət məbədi, "Qobustan" toplusu, 1999, № 2.

**Musiqi.** Naxçıvan diyarında ta qədimdən həm xalq musiqisi, həm də klassik musiqi yanaşı şəkildə yayılmışdı. Musiqi mədəniyyətinin inkişafında xalq yaradıcılığının – xalq mahnı və rəqs havalarının, aşıq sənətinin mühüm rolu olmuşdur. Mövsüm və mərasimlərlə (üzərliksalma, xan bəzəmə, cangülüm, duvaqqapma və s.) , əmək fəaliyyəti ilə bağlı nəğmələr (godu-godu, sayaçı sözləri, xırman nəğmələri və s.) musiqi folklorunun qədim nümunələridir. Xalq mahnıları ("Ay qız, dur gəl, sabah oldu", "Aynalı qız", "Çobanla qız", "Oyanmır, yatmış, oyanmır" və s), habelə toy mərasimi ilə bağlı haxıştalar, gülümeylər rəqs havaları, xüsusilə xalq yaradıcılığının sintetik janrı, vokal və instrumental musiqini özündə birləşdirən yallı və yallıbaşı mahnılar (ən çox Şərurda) geniş yayılmışdı. Xalq yaradıcılığında özünəməxsus yeri olan aşıq sənəti, əsasən, Şərur və Şahbuz bölgələrində yayılmışdı. 19–20 əsrlərdə Aşıq Dəhri, Aşıq Əli Xanxanım oğlu, Gülalı Məmməd, Vayxırlı Məmmədcəfər, Çobankərəli Cəfər, Aşıq Nabat, Aşıq Fətullah, Aşıq Həmid, Sərraf Qasım, Sədərəkli Yusif və b. aşıqlar tanınmışlar. Professional klassik musiqi – muğam ifaçılığı, xanəndəlik, əsasən, Ordubad və Naxçıvanda yayılmışdı (müğənnilərdən Mandı Mələk, Kəblə Baxşəli, Gülan oğlu, İdris Nağıyev, Məşədi Əbil, Sarı Heydər və b.). Məşhur çalğıçı Muradağa Naxçıvanlı (18 əsr) Türkiyə sultanı IV Muradın saray musiqiçisi kimi fəaliyyət göstərmişdir. 20 əsrin əvvəllərinə qədər musiqi ifaçılığı, əsasən, xalq şənliklərində, toy mərasimlərində, bədii-musiqili məclislərdə intişar edirdi. İnstrumental ifaçılıq da geniş yayılmışdı (qarmon çalan Səlminaz, kamançaçı Firuz və b.).

19 əsrin sonu – 20 əsrin əvvəllərindən Naxçıvanda da müasir musiqi formalarına maraq artdı. Həmin dövrdə dramatik və mu-

siqili teatr yaranır, açıq konsertlər təşkil edilirdi. 20 əsrin əvvəllərində tikilmiş teatrda Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Şah Abbas və Xurşidbanu" muğam operaları, "Arşın mal alan", "Ər və arvad", habelə Z.Hacıbəyovun "Əlli yaşında cavan", "Evliykən subay" musiqili komediyaları tamaşaya qoyuldu. Əsrin 20-ci illərindən başlayaraq, Naxçıvan ş.-nin mərkəzi istirahət parkında nəfəsli alətlər orkestri və Şərq üçlüyü konsertlər verirdi. Sonralar onları xalq çalğı alətləri ansamblları əvəz etdi. 30-cu illərdə xalq çalğı alətləri ilə yanaşı, skripka, mandolina kimi Avropa alətləri də dəb düşdü. 1937 ildə Ü.Hacıbəyovun təşəbbüsü ilə Naxçıvanda musiqi məktəbi (indiki musiqi texnikumu) açıldı; dahi bəstəkar məktəbə notlar və "Berlin" markalı pianino bəxş etmişdi. 50-ci illərdən başlayaraq muxtar respublikada musiqi mədəniyyətinin inkişafı yeni vüsət aldı. Naxçıvan musiqi məktəbinin yetirmələri (N.Məmmədov, R.Mirişli, R.Məmmədov, Ə.Ələkbərova və b.) təhsillərni Azərb. Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) davam etdirdilər. 1958 ildə Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblı (1983 ildən Naxçıvan Dövlət Filarmoniyası) yaradıldı. Filarmoniyada instumental ansambl, xalq çalğı alətləri orkestri, simfonik heyət, rəqs kollektivi fəaliyyət göstərir. 70-ci illərin sonundan Azərb. Dövlət Konservatoriyasına muxtar respublikadan müsabiqədən kənar tələbə qəbul edilirdi. 1994 ildən Naxçıvan Dövlət Un-tində musiqi ixtisası üzrə mütəxəssislər hazırlanmağa başlandı. 1998 ildə un-tin incəsənət fakültəsi nəzdində konservatoriya açılmışdır. Konservatoriyanın fortepiano, skripka, xalq çalğı alətləri, ifaçılıq sinifləri, konsert salonu var. 2000 ildən burada opera studiyası fəaliyyət göstərir.

Naxçıvan diyarı Azərb. musiqi sənətinə R.Mirişli, N.Məmmədov, M. Ələkbərov, M.Məmmədov, R.Məmmədov kimi bəstəkarlar, H.Qubadov, A.Babayev, A. Zeynalov, Y. Səfərov kimi müğənnilər bəxş etmişdir.

*Əd.:* Q u l i y e v N., Naxçıvan musiqi mədəniyyəti tarixindin, B., 1999.



*Naxçıvan Uşaq Musiqi Məktəbinin ilk buraxılışı. 1939.*

**NAXÇIVAN MR ALİ MƏCLİSİ (Nax. MR AM)** – Nax. MR-də qanunvericilik hakimiyyətini həyata keçirən ali dövlət hakimiyyəti orqanı (1990 il noyabrın 17-dək Nax. MSSR Ali Soveti adlanırdı). Mojaritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilən 45 nəfər deputatdan ibarətdir. İldə iki növbəti sessiya keçirir; Azərb. Respublikasının Prezidenti, Milli Məclisi tərəfindən, Nax. MR AM-nin ən azı 16 deputatının tələbi əsasında və ya təşəbbüsü ilə Ali Məclisinin Sədri tərəfindən növbədənkənar sessiyaları çağırıla bilər.

Nax. MR AM öz iş qaydasını müəyyən edir. Müvafiq orqanlarını, o cümlədən Daimi və digər komissiyalarını yaradır, sədrini və onun müavinlərini seçir, səlahiyyətləri dairəsində aşağıdakı məsələlərə dair ümumi qaydalar və qanunlar qəbul edir: 1) Nax. MR AM-nə seçkilər; 2) Nax. MR AM deputatlarının statusu; 3) Azərb. Respublikasının iqtisadi və sosial siyasətinə uyğun olaraq vergilər; 4) Nax. MR iqtisadiyyatının inkişaf istiqamətləri; 5) sosial təminat; 6) ətraf mühitin qorunması; 7) turizm; 8) səhiyyə, elm və mədəniyyət; 9) Azərb. Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər. Bura həmçinin Ali Məclisin işinin təşkili, muxtar respublika büdcəsinin, iqtisadi və sosial proqramlarının təsdiqi, baş nazirin vəzifəyə təyin və vəzifədən azad edilməsi, Nax. MR Nazirlər Kabinetinin təsdiqi və ona etimad və digər məsələlər barədə qərarlar daxildir.

Nax. MR AM Azərb. Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququna malikdir.



**NAXÇIVAN MR ALİ MƏHKƏMƏSİ (NAX. MR AM)** – Nax. MR-in ali məhkəmə orqanı. Nax. MR Konstitusiyasının 43-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq Nax. MR-də məhkəmə hakimiyyətini Nax. MR AM; Nax. MR-in İqtisad Məhkəməsi, Nax. MR-in ümumi və ixtisaslaşdırılmış məhkəmələri həyata keçirir. Azərb. Respublikası Konstitusiyasının 125-ci və Nax. MR Konstitusiyasının 43-cü maddələrinə, "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997 il tarixli Azərb. Respublikası Qanununun 52-ci maddəsinə əsasən Nax. MR AM Nax. MR-də qanunla müəyyən edilmiş qaydada ədalət mühakiməsini həyata keçirir və muxtar respublikanın ümumi məhkəmələrinin işinə nəzarət edir. Ədalət mühakiməsinin həyata keçirilməsində Nax. MR-in Prokurorluğu və müdafiə tərəfi iştirak edir. Nax. MR Konstitusiyasının 44-cü maddəsinə uyğun olaraq Nax. MR AM Nax. MR-də Konstitusiya nəzarətini təmin edir. Konstitusiya nəzarəti hüququ Nax. MR Ali vəzifəli şəxsinin, Nax. MR Ali Məclisinin, Nax. MR Nazirlər Kabinetinin, Nax. MR AM sədrinin və Nax. MR Prokurorluğunun sorğusu əsasında qanunların, qərar, fərman və sərəncamların, normativ-hüquqi aktların Nax. MR Konstitusiyasına uyğunluğu məsələlərini həll edir.

Nax. MR AM qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya və apellyasiya instansiyası məhkəməsidir. Nax. MR AM Rəyasət Heyətindən, mülki işlər üzrə apellyasiya kollegiyasından, Cinayət və hüquqpozmalara dair işlər üzrə apellyasiya kollegiyasından və ağır cinayətlərə dair işlər üzrə birinci instansiya kollegiyasından ibarətdir; kollegiyalarda işlərə baxılmaq üçün məhkəmə tərkibləri yaradılır. Nax. MR AM hakimlərinin tərkibinə məhkəmənin sədri, onun müavini, məhkəmə kollegiyalarının sədrləri və hakimlər daxildir.

Azərb. Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq və Azərb. Respublikası Prezidentinin "Azərbaycan Respublikası məhkəmələrinin təşkili və fəaliyyətinin təmin edilməsi haqqında" 17 iyun 1999-cu il tarixli Fərmanına əsasən Nax. MR AM hakimlərinin say tərkibi 14 nəfərdən ibarət müəyyən edilmişdir. Nax. MR AM-nin Rəyasət Heyəti məhkəmənin sədrindən, onun müavinindən və kollegiya sədrlərindən ibarət tərkibdə fəaliyyət göstərir. Rəyasət Heyətinin tərkibinə daxil olan şəxslərin öz səlahiyyətləri daxilində hüquqları bərabərdir. Nax. MR AM-nin Rəyasət Heyəti Nax. MR AM-nin hakimləri sırasından məhkəmə kollegiyalarının tərkiblərini təşkil edir və hakimləri kollegiyalar üzrə müəyyənləşdirir; Nax. MR AM sədrinin təqdimatı ilə Nax. MR AM yanında Elmi-Məsləhət Şurasının əsasnaməsini və tərkibini təsdiq edir; qanunların və normativ aktların Azərb. Respublikasının Konstitusiyasına və qanunlarına uyğunsuzluğu barədə Azərb. Respublikası Konstitusiya Məhkəməsinə sorğu verilməsi üçün Ali Məhkəməyə müraciət edir. Azərb. Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak hüququna malik olan, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərb. Respublikası vətəndaşları hakim ola bilərlər.

Azərb. Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərb. Respublikası məhkəmələrinin hakimlərini Azərb. Respublikasının Prezidenti təyin edir. Nax. MR Konstitusiyasının 44-cü maddəsinin üçüncü hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" Azərb. Respublikası Qanununun 94-cü maddəsinə əsasən Nax. MR AM-nin hakimlərini Naxçıvan Ali Məclisi Sədrinin təklifi ilə Azərb. Respublikasının Prezidenti təyin edir.

Azərb. Respublikası Konstitusiyasının 127-ci maddəsinin birinci hissəsinə uyğun olaraq hakimlər müstəqildir, yalnız Azərb. Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Azərb. Respublikası Konstitusiyasının 128-ci maddəsinə uyğun olaraq hakimlər toxunulmazdırlar; hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər; hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər.

"Hakimlərin statusu haqqında" qanunun 96-cı maddəsinə uyğun olaraq Nax. MR AM hakimlərinin səlahiyyət müddəti 10 il, rayon, şəhər hakimlərinin səlahiyyət müddəti 5 il müəyyən edilmişdir.

Nax. MR məhkəmələrində işlərə baxılarkən Azərb. Respublikasının Konstitusiyası və qanunları və digər qanunvericilik aktları, eləcə də Azərb. Respublikasının qoşulduğu beynəlxalq müqavilələr rəhbər tutulur. Məhkəmələr baxılmış işlər üzrə Azərb. Respublikası adından qətnamələr, hökmlər, qərardadlar, qərarlar çıxarır. Nax. MR AM Naxçıvan MR-in paytaxtı Naxçıvan ş.-ndə təşkil edilir, onun yurisdiksiyası Naxçıvan MR-in bütün ərazisinə şamil edilir.

**NAXÇIVAN MR ƏDƏBİYYAT MUZEYİ,** C. Məmmədquluzadə ad. – Bax *Ədəbiyyat muzeyi*.

**NAXÇIVAN MR FƏXRİ ADLARI** – fəaliyyətlərində xüsusilə fərqlənmiş incəsənət, maarif-mədəniyyət xadimlərinin və mütəxəssislərin xidmətlərini qeyd etmək məqsədilə təsis edilmiş adlar. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 1967 il tarixli fərmanı ilə "Naxçıvan MSSR əməkdar müəllimi", "Naxçıvan MSSR əməkdar artisti", "Naxçıvan MSSR əməkdar incəsənət xadimi, "Naxçıvan MSSR əməkdar mədəniyyət işçisi", "Naxçıvan MSSR əməkdar həkimi" fəxri adları təsis olunmuş, Muxtar Respublika Ali Soveti Rəyasət Heyətinin 1983 il 27 oktyabr tarixli fərmanı ilə onların sayı 23-ə çatdırılmışdı. Nax. MR Ali Məclisi Sədrinin 18 iyun 1998 il tarixli fərmanı ilə muxtar respublikada mədəniyyətin, təhsilin, səhiyyənin inkişafında böyük nailiyyətlər qazanmış şəxslərin əməyini qiymətləndirmək məqsədilə, "Naxçıvan MR əməkdar müəllimi", "Naxçıvan MR əməkdar həkimi", "Naxçıvan MR əməkdar artisti", "Naxçıvan MR əməkdar incəsənət xadimi", "Naxçıvan MR əməkdar memarı" fəxri adları təsis edilmişdir.

**NAXÇIVAN MR HƏMKARLAR İTTİFAQLARI ŞURASI (NAX. MR HİŞ)** – Nax. MR-də irqindən, milliyyətindən, cinsindən, dini əqidəsindən asılı olmayaraq bütün peşələrdən olan fəhlə, qulluqçu və tələbələri birləşdirən ən böyük ictimai təşkilat; vahid Həmkarlar İttifaqı Mərkəzi kimi 1967 il noyabrın 16-da təsis konfransında yaradılmış və muxtar respublikada həmkarlar hərəkatının fəaliyyətindəki pərakəndəliyə son qoymuşdur; yaradılarkən tərkibində 31000 həmkarlar ittifaqı üzvünü birləşdirən 463 ilk həmkarlar ittifaqı təşkilatı, 27 rayon və şəhər, 6 vilayət komitəsi olmuşdur. Azərb.-ın rəhbəri Heydər Əliyev 1974 ildə Nax. MR HİŞ binasının açılışında iştirak etmiş və öz çıxışında şuranın fəaliyyətini yüksək qiymətləndirmişdir. Təşkilatca genişləndirilməsi və üzvlərinin formalaşdırılmasına göstərilən qayğı sayəsində 1990 illərin əvvəlləri üçün şuranın tərkibində 100000 həmkarlar ittifaqı üzvünü birləşdirən 738 həmkarlar ittifaqı komitəsi, 28 rayon və şəhər, 2 birləşmiş və 7 sahə komitəsi fəaliyyət göstərirdi. İstehsalat prinsipi üzrə qurulmuş Nax. MR HİŞ-in ali orqanı beş ildə bir dəfə çağırılan konfransdır. Konfransda Şura məclisi və Təftiş komissiyası seçilir. Həmkarlar ittifaqı təşkilatları Nax. MR HİŞ-in rəhbərliyi ilə əməkçilərin sosial hüquqlarının müdafiəsi, onların iş, məişət və istirahət şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması, habelə bədən tərbiyəsi və idmanın inkişafı üçün böyük səy göstərmişlər.

SSRİ-nin dağılması ilə Azərb.-ın müstəqillik qazanması, yeni iqtisadi münasibətlər sisteminə – bazar iqtisadiyyatına keçilməsi ilə əlaqədar Azərb.-ın hər yerində olduğu kimi, muxtar respublikada da baş verən sürətli dəyişikliklər şəraitində həmkarlar ittifaqının fəaliyyətinin real gerçəklikdən geri qalması onun üzvlərində öz təşkilatlarına inamsızlıq yaratdı və onların bir çoxu həmkarlar ittifaqının sıralarını tərk etməyə başladılar. Nəticədə muxtar respublikada həmkarlar ittifaqı üzvlərinin sayı 74 min nəfərə endi (2000).

Hazırda Nax. MR HİŞ Azərb. Həmkarlar İttifaqları Konfederasiyasının tərkib hissəsi kimi öz strukturlarında əsaslı dəyişikliklər apararaq fəaliyyətində beynəlxalq həmkarlar ittifaqı təşkilatları ilə inteqrasiyanı dərinləşdirir, beynəlxalq təcrübənin tətbiqinə böyük əhəmiyyət verir, öz işini bazar iqtisadiyyatının tələbləri səviyyəsində qurmaq üçün ciddi səy göstərir.

**NAXÇIVAN MR HƏRBİ MƏHKƏMƏSİ** (Nax. MR HM) – "Hərbi Tribunallar haqqında" Azərb. Respublikası Qanununa (may, 1992) əsasən Azərb. Respublikası Milli Məclisinin 1992 il 11 avqust tarixli 266 saylı qərarı ilə Naxçıvan Qarnizonunun Hərbi Tribunalı kimi Naxçıvan ş.-ndə təsis edilmişdir. 2000 ilin sentyabrından Nax. MR HM adlanır. Nax. MR HM muxtar respublikada yerləşən silahlı qüvvələrin bütün hərbi qulluqçu-



larının, habelə toplanış keçərkən hərbi vəzifəlilərin, milli təhlükəsizlik orqanlarında xidmət edən hərbçilərin, islah-əmək müəssisələri rəis heyətinə mənsub şəxslərin törətdikləri bütün cinayətlər haqqında işlərə birinci instansiya məhkəməsi kimi baxan xüsusi subyektlərə malik ixtisaslaşdırılmış məhkəmədir. Azərb. Respublikasının vahid məhkəmə sisteminə daxil olub, Azərb. Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında" Azərb. Respublikası Qanunu və Azərb. Respublikasının digər qanunvericilik aktları əsasında fəaliyyət göstərir. Sədri ədliyyə polkovniki M. M. Sadıqovdur (1993 ildən).

**NAXÇIVAN MR İQTİSADİ-COĞRAFİ RAYONU** – Azərb. Respublikası tərkibində iqtisadi-coğrafi rayonlardan biri. Ətraflı məlumat üçün bax *Naxçıvan Muxtar Respublikası*.

**NAXÇIVAN MR KONSTİTUSİYASI (Nax. MR K)** – Nax. MR-in əsas qanunu; 1998 il aprelin 28-də birinci çağırış Nax. MR Ali Məclisinin 5-ci sessiyasında qəbul edilmiş, Azərb. Respublikası Milli Məclisinin 30 iyun və 29 dekabr 1998 il tarixli iclaslarında təsdiq edilmiş, 1999 il yanvarın 8-dən qüvvəyə minmişdir. Konstitusiya preambuladan, 6 fəsildən (50 maddə) və 4 keçid müddəasından ibarətdir. Konstitusiyanın 1-ci maddəsinə görə, Naxçıvan muxtar dövləti Azərb. Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır və Nax. MR-in muxtariyyət statusu Azərb. Respublikası Konstitusiyası və 1921 il Moskva və Qars müqavilələri ilə müəyyən edilir. Nax. MR Azərb. Respublikası Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir. Nax. MR-də dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir; qanunvericilik hakimiyyətini Ali Məclis, icra hakimiyyətini Nazirlər Kabineti, məhkəmə hakimiyyətini muxtar respublikanın məhkəmələri həyata keçirir.

Nax. MR K.-nda, ilk dəfə olaraq, Nax. MR-in Ali vəzifəli şəxsi institutu təsis edilmişdir. Ali vəzifəli şəxs – Nax. MR Ali Məclisinin sədri həm qanunvericilik, həm də icra hakimiyyəti səlahiyyətlərinə malikdir. Nax. MR Konstitusiyası muxtar respublikanın normativ-hüquqi aktları arasında ən yüksək hüquqi qüvvəyə malikdir (bax həmçinin *Naxçıvan MSSR Konstitusiyaları* (1926, 1937, 1978).

**NAXÇIVAN MR QADINLAR MƏCLİSİ (Nax. MR QM)** – Naxçıvan MR qadınlarının müstəqil, özünü idarə edən, qeyri-hökumət ictimai təşkilatı; 1995 ildə yaradılmışdır, öz fəaliyyətini Azərb. Respublikasındakı və xaricdəki mövcud hökumət və qeyri-hökumət ictimai təşkilatları ilə əlaqədə qurur və qadın hərəkatının, qadın problemlərinin, müasir cəmiyyətdə qadınların yeri, mövqeyi, vəziyyəti, qayğılarının, eləcə də beynəlxalq qadın hərəkatının öyrənilməsi sahəsində iş aparır. BMT-nin İnkişaf Proqramının köməyi ilə muxtar respublika qadınlarının işlə təmin edilməsi, habelə BMT-nin "Ailənin planlaşdırılması" Proqramı sahəsində müəyyən işlər görmüşdür. Ali orqanı 5 ildən bir çağırılan konfransdır; konfrans açıq səsvermə yolu ilə məclisin sədrini, 39 nəfərdən ibarət idarə heyətini, təftiş komissiyasını seçir. Məclisin 7000 nəfərdən çox üzvü var (2000).

**NAXÇIVAN MR MƏRKƏZİ DÖVLƏT ARXİVİ (Nax. MR MDA)** – Vahid Arxiv Fondunun təşkili və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivi yaradılması haqqında Azərb. Müvəqqəti İnqilab Komitəsinin N. Nərimanov tərəfindən imzalanmış 13 dekabr 1920 il tarixli dekretinə əsasən Naxçıvan MİK-in 13 dekabr 1925 il tarixli sərəncamı ilə yaradılmışdır. Azərb. MİK-in 1930 il 18 yanvar tarixli qərarından sonra Azərb. arxiv orqanlarının yenidən təşkil olunması ilə əlaqədar Naxçıvan MSSR Mərkəzi Arxiv İdarəsi, 1941 ildə isə Nax. MR MDA yaradılmışdır; 1 milyon 200 min sənəd vahidinin saxlanması üçün nəzərdə tutulmuşdur.

Nax. MR MDA-dəki 780 fondda 1831 ildən indiyə kimi keçmiş İrəvan quberniyasının Naxçıvan və Ordubad mahallarının, Rusiyada 1917 il fevral inqilabından sonrakı hadisələrin, Nax. MSSR-in və muxtar respublikanın tarixinə dair 350 min sənəd vahidi, görkəmli dövlət, mədəniyyət, ədəbiyyat, incəsənət və elm xadimlərinin, müharibə və əmək qəhrəmanlarının həyat və fəaliyyətini əks etdirən 3500-dək kino-foto sənədləri saxlanılır; bu sənədlər arasında Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvandakı fəaliyyətini və muxtar respublikaya səfərlərini əks etdirən materiallar mühüm yer tutur.

Nax. MR MDA-nda 5 minədək kitab və broşür fondu olan elmi kitabxana fəaliyyət göstərir.

**NAXÇIVAN MR MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ (Nax. MR MTN)** – Nax. MR-də ali dövlət təhlükəsizliyi orqanı; 1992 il sentyabrın 20-də Nax. MR Ali Məclisinin Sədri Heydər Əliyevin imzaladığı qərarla Dövlət Təhlükəsizlik Komitəsinin bazası əsasında yaradılmışdır. Nax. MR MTN-nin fəaliyyətinin hüquqi əsasını Azərb. Respubikasının Konstitusiyası və qanunları təşkil edir; fəaliyyətinin başlıca məqsədi Azərb. Respublikasının və onun ayrılmaz tərkib hissəsi olan Nax. MR-in suverenliyinə, iqtisadi, müdafiə və elmi-texniki potensialına qarşı törədilə biləcək təxribat-pozuculuq niyyətlərini vaxtında aşkar edib qarşısını almaqdır.

**NAXÇIVAN MR NAZİRLƏR KABİNETİ (Nax. MR NK)** – Nax. MR-də yuxarı icra hakimiyyəti orqanı. Naxçıvan İnqilab Komitəsinin 10 sentyabr 1921 il tarixli qərarı ilə Naxçıvan Diyar Xalq Komissarları Soveti (ND XKS) adı altında yaradılmışdır. ND XKS 1925 ildən Nax. MSSR XKS, 1946 ildən isə Nax. MSSR Nazirlər Soveti adlandırılmışdır. Nax. MR Ali Məclisinin "Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin adı və Naxçıvan Muxtar Respublikası hökumətinin başçısı haqqında" 3 dekabr 1990 il tarixli qərarı ilə Nax. MR NK adlandırılmışdır. Nax. MR NK-nə Nax. MR-in baş naziri rəhbərlik edir. Nax. MR NK Nax. MR Ali Məclisinə tabedir və onun qarşısında hesabat verir. Nax. MR-in baş nazirini Azərb. Respublikası Prezidentinin təqdimatı ilə, Nax. MR NK-nin tərkibini isə baş nazirin təklifi ilə Nax. MR Ali Məclisi təsdiq və təyin edir. Nax. MR NK muxtar respublikanın büdcəsinin layihəsini hazırlayıb Nax. MR Ali Məclisinə təqdim edir və büdcənin, iqtisadi-sosial proqramların yerinə yetirilməsini təmin edir, nazirliklərə və digər icra hakimiyyəti orqanlarına rəhbərliyi həyata keçirir, ümumi qaydalar müəyyən etdikdə qərarlar, başqa məsələlər üzrə isə sərəncamlar qəbul edir.

**NAXÇIVAN MR PROKURORLUĞU** – Nax. MR-də qanunlara dürüst əməl olunmasına ali nəzarət edən dövlət orqanı. Əsası Naxçıvan Diyar XKS-nin Naxçıvan qəzası prokurorunun yoldaşı vəzifəsini təsis etmək haqqında 15 fevral 1923 il tarixli qərarı ilə qoyulmuşdur. 1924 ildən Nax. MR-in Xalq Ədliyyə Komissarı eyni zamanda dövlət prokurorluğuna başçılıq edir, bu iş üçün məsuliyyət bilavasitə komissarın köməkçisinin üzərinə düşürdü. Məhkəmələrdə dövlət ittihamının müdafiəsi, ümumiyyətlə, məhkəmə qərarlarının və hökmlərin qanuniliyinə nəzarəti Dövlət Prokuroru və onun köməkçiləri həyata keçirirdi. Azərb. Respublikası MİK-in 9 oktyabr 1926-cı il tarixli qərarı ilə prokurorluğun səlahiyyətləri genişləndirilmiş, onlara məhkəmələrdə nəzarət qaydasında iş tərtib etmək hüququ verilmişdi. Prokurorluq orqanlarının sonrakı hüquqi vəziyyəti 1937 il Azərb. SSR Konstitusiyası ilə təsbit edilmişdir. Konstitusiya ilk dəfə olaraq qanunların dürüst icrasına ali nəzarəti prokurorluğa həvalə edirdi. 1955 il mayın 24-də SSRİ-də "Prokuror nəzarəti haqqında" Əsasnamənin qəbul edilməsi ilə prokuror nəzarətinin əsas təyinatı qanunçuluğun dönmədən təmini kimi təsbit edildi. 1978 ildə qəbul edilən Azərb. SSR Konstitusiyasında göstərilirdi ki, Naxçıvan MSSR Prokuroru SSRİ Baş Prokuroru tərəfindən təyin olunur, r-n və şəhər prokurorlarını isə Azərb. SSR Prokuroru təyin edir və SSRİ Baş Prokuroru təsdiqləyir. 1979 il noyabrın 30-da "SSRİ Prokurorluğu haqqında" Qanunun qəbul olunması ilə prokuror nəzarətinin sahələri anlayışı və onların sayı dəqiq müəyyən edildi.

1990–93 illərdə Heydər Əliyevin Nax. MR-ə rəhbərliyi prokurorluq orqanlarının fəaliyyətinin güclənməsində mühüm rol oynadı. 1992 il sentyabrın 2-dən Nax. MR-in milli hərbi prokurorluq orqanlarının yaradılmasına başlanılmış, hərbi prokurorluğun yeganə müstəntiqi sərhəd qoşunlarını qəbul edən komissiyanın tərkibinə salınaraq, sərhəd zastavalarının təhvil-təslim prosesində iştirak etmişdir. 1993–1999 illərdə Nax. MR Prokurorluğunda əsaslı struktur islahatları həyata keçirilmişdir.

**NAXÇIVAN MR UŞAQ KİTABXANASI** – Naxçıvan şəhər uşaq kitabxanası əsasında 1960 ildə yaradılmışdır. Fondunda 174.948 çap vahidi vardır. Kitabxanada iki oxu zalı, müxtəlif profilli 3 dərnək fəaliyyət göstərir. 7.280 oxucusu var (2000). Kitabxana muxtar respublikanın məktəb kitabxanaları ilə əlaqə



saxlayır, onlara əməli metodik köməklik göstərir. Burada məktəbli və yeniyetmələrin mənəvi-vətənpərvərlik tərbiyəsi ilə əlaqədar tədbirlər, oxucu konfransları, kitabların müzakirəsi keçirilir. Kitabxanaya 1980 ildə şair Adil Babayevin adı verilmişdir.

**NAXÇIVAN MR-İN BAKI ŞƏHƏRİNDƏ DAİMİ NÜMAYƏNDƏLİYİ** – diplomatik missiya. Nax. MR Ali Məclisinin 3 mart 1992 il tarixli fərmanı ilə yaradılmışdır. Nümayəndəlik Nax. MR Nazirlər Kabineti ilə Azərb. Respublikası Nazirlər Kabineti arasında gündəlik operativ əlaqələri, Nax. MR-in iqtisadi-sosial inkişaf proqramları və birgə ümumdövlət kompleks proqramları həyata keçirilərkən Azərb. Respublikası hökuməti, nazirlik, dövlət komitələri və baş idarələri ilə Nax. MR-in müvafiq səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqələri təmin edir. Nax. MR hökuməti və digər orqanları tərəfindən irəli sürülmüş məsələlərə Azərb. Respublikasının Nazirlər Kabinetində, nazirlik, dövlət komitələri və baş idarələrində baxılmasında, muxtar respublikaya aid qərar və sərəncamların layihələrinin hazırlanmasında və qəbul olunmasında, Azərb. Respublikası Nazirlər Kabinetinin yaratdığı komissiyaların Nax. MR-ə aid iqtisadi və sosial inkişaf, material-texniki təchizat planlarının, dövlət büdcəsi, digər mədəni, tikinti və təsərrüfat məsələləri layihələrinin hazırlanmasında və baxılmasında iştirak edir. Nax. MR Nazirlər Kabinetinin irəli sürdüyü məsələlər üzrə Azərb. Respublikasının hökumət orqanlarına tələb olunan müvafiq arayışların, hesabatların, əlavə əsasnamələrin təqdim olunmasını təşkil edir, habelə Azərb. Respublikası nazirlik, dövlət komitələri və baş idarələrinin muxtar respublikaya aid məsələlərin həlli üçün lazımi materialları Nax. MR-in müvafiq orqanlarından almasına köməklik göstərir. Bundan əlavə, Daimi Nümayəndəlik Azərb. respublikasında fəaliyyət göstərən xarici səfirliklər, nümayəndəliklər, elm, mədəniyyət, humanitar və digər sahələrdə çalışan beynəlxalq təşkilatlarla sıx əlaqə yaradaraq, Nax. MR-ə aid məsələlərin həll olunmasında, habelə BMT-nin İnkişaf Proqramının Nax. MR-də həyata keçirilməsində yaxından iştirak edir. Nümayəndəlik Nax. MR sakinlərinin qəbulunu və problemlərinin vaxtında həll olunmasını təmin edir.

**NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASI (Nax. MSSR)** – 1924–90 illərdə Azərb. SSR-in tərkibində muxtar dövlət qurumunun rəsmi adı. Nax. MSSR Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçən 17 noyabr 1990 il tarixli sessiyası öz qərarı ilə muxtar respublikanın rəsmi adından "Sovet Sosialist" sözlərini çıxarmış, qanunverici hakimiyyət orqanını Nax. MR Ali Məclisi adlandırmış, ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918–20) üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul etmişdir. Ətraflı məlumat üçün bax *Naxçıvan Muxtar Respublikası*.

**NAXÇIVAN MSSR ALİ SOVETİ** – 1924–90 illərdə Nax. MSSR-də qanunvericilik hakimiyyətini həyata keçirən ali dövlət hakimiyyəti orqanı. Nax. MSSR AS-nin Heydər Əliyevin sədrliyi ilə keçən 17 noyabr 1990 il tarixli sessiyası qanunverici hakimiyyət orqanının adını dəyişərək *Naxçıvan MR Ali Məclisi* adlandırmışdır.

**NAXÇIVAN MSSR XALQ KOMİSSARLARI SOVETİ (Nax. MSSR XKS)** – 1921–46 illərdə Nax. MSSR-in ali icraedici və sərəncamverici orqanı; Naxçıvan Diyar İnqilab Komitəsinin qərarı ilə 1921 ilin sentyabrından fəaliyyətə başlamışdır. 1923 il fevralın 27-dək Nax. SSR XKS adlanmış 1923 il fevralın 27-dən 1924 il fevralın 9-dək *Naxçıvan Diyar İcraiyyə Komitəsi* kimi fəaliyyət göstərmişdir. Nax. MSSR XKS muxtar respublikanın komissarlıqları və onların tabeliyində olan idarələrin işini əlaqələndirir, fəaliyyətinə rəhbərlik edirdi. Muxtar respublika Sovetlər Qurultayı, qurultaylararası dövrdə isə Nax. MSSR MİK (1937 ildən Ali Sovet) qarşısında məsul idi və ona hesabat verirdi. 1946 il martın 28-də Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Nax. MSSR Nazirlər Soveti adlanmışdır. Nax. MR Ali Məclisinin "Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin adı və Naxçıvan MR hökumətinin başçısı haqqında" 3 dekabr 1990 il tarixli qərarı ilə Nax. MR Nazirlər Kabineti adlandırılmışdır.

**NAXÇIVAN MSSR KONSTİTUSİYALARI (1926, 1937, 1978)** – sovet hakimiyyəti illərində Nax. MR-in əsas qanunları. Naxçıvan muxtariyyətinin əsasları 16 mart 1921 il tarix-

li Moskva və 13 oktyabr 1921 il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur [bax *Moskva müqaviləsi (1921)*, *Qars müqaviləsi (1921)*]. 1921 il martın 16-dan Nax. SSR, 1923 il iyunun 16-dan Naxçıvan Muxtar Diyarı, 1924 il fevralın 9-dan Nax. MSSR, 1990 il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlanmışdır. 1924 ilin aprelində Azərb. MİK-in təsdiq etdiyi Nax. MSSR haqqında Əsasnaməyə görə, Azərb. SSR-in tərkibində 3 inzibati qəzadan (Naxçıvan, Şərur, Ordubad) ibarət muxtar qurum kimi yaradılmışdır. Nax. MSSR-in birinci Konstitusiyası həmin Əsasnaməyə uyğun olaraq işlənib hazırlanmış və 1926 il aprelin 18-də 5-ci Ümumnaxçıvan Sovetlər Qurultayında təsdiq edilmişdir. Konstitusiyaya əsasən, Naxçıvan MSSR-in qanunvericilik, ali və yerli icraedici və məhkəmə orqanları yaradılmışdı. 1926 il Konstitusiyası Naxçıvan MSSR-ə geniş özünüidarə ilə yanaşı qonşu xarici dövlətlərlə də əlaqələr yaratmaq üçün geniş hüquq və səlahiyyətlər vermişdi: İranın Təbriz, Maku və Xoy ş.-lərində muxtar respublikanın konsulluğu, hər üç Cənubi Qafqaz respublikasının (Azərb., Gürcüstan, Ermənistan) paytaxtlarında nümayəndəliyi olmuş, Qarsdakı (Türkiyə) RSFSR konsulluğu yanında müvəkkili fəaliyyət göstərmişdir; Nax. MSSR-də isə Türkiyə Respublikasının hərbi nümayəndəliyi, 1938 ilədək İran konsulluğu olmuş, Cənubi Qafqaz respublikalarının Azərb. müvəkillərlərinin nümayəndəlikləri yaradılmışdı.

1937 il martın 14-də IX Ümumazərbaycan Sovetlər Qurultayında təsdiq edilmiş Azərb. SSR Konstitusiyasının 5-ci və 6-cı fəsilləri ilə Nax. MSSR-in dövlət hakimiyyəti və idarə orqanlarının səlahiyyətləri müəyyən edildi. Konstitusiyaya uyğun olaraq 1937 il sentyabrın 18-də keçirilən X Ümumnaxçıvan Fövqəladə Sovetlər qurultayı Nax. MSSR-in ikinci Konstitusiyasını qəbul etdi. SSRİ-də totalitar rejimin gücləndiyi bir şəraitdə qəbul edilmiş və Azərb. SSR Ali Soveti tərəfindən yalnız 1941 il aprelin 7-də təsdiq olunmuş həmin Konstitusiyada digər muxtar milli-ərazi qurumları kimi, Nax. MSSR-in də hüquq və səlahiyyətləri xeyli məhdudlaşdırılmışdı. Məsələn, Konstitusiyanın 15-ci maddəsində göstərilirdi ki, muxtar respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Halbuki artıq totalitar rejimin hökm sürdüyü bir şəraitdə bu müddəaya məhəl belə qoyulmamışdı. Nax. MR-in ərazisi 1929 ildəki 5988 $km^2$-dən 5365 $km^2$-dək azaldılmışdı.

Muxtar respublikanın üçüncü Konstitusiyası doqquzuncu çağırış Nax. MSSR Ali Sovetinin 1978 il mayın 30-da keçirilmiş səkkizinci sessiyasında qəbul edilmişdir. 10 bölmə, 16 fəsil, 163 maddədən ibarət bu Konstitusiyanın hüquqi əsasını SSRİ və Azərb. SSR Konstitusiyalarının müvafiq fəsilləri (18-ci və 8-ci) təşkil etmişdi. Konstitusiyada SSRİ-də guya inkişaf etmiş sosializm cəmiyyətinin qurulması ilə əlaqədar bir sıra söz və ifadə oyunlarından istifadə olunur, muxtar respublikada xalqın dövlət hakimiyyətini Sovetlər vasitəsilə həyata keçirdiyi elan edilirdi. Burada digər bir "yenilik" yuxarı konstitusiyalara uyğun olaraq Sov. İKP-nin rəhbər və istiqamətverici rolunun təsbit edilməsi idi. Bu Konstitusiyaya sonralar (xüsusən 1985 ildən sonra) edilən əlavə və dəyişikliklərin həddindən çox olması, onun müddəalarının həyata keçirilməsində əsl mənada dolaşıqlıq yaratdı. 1991 il sentyabrın 3-də dövrümüzün görkəmli siyasi xadimlərindən biri Heydər Əliyevin Nax. MR Ali Məclisinin Sədri seçilməsi ilə Konstitusiya yaradıcılığı sahəsində də önəmli işlər görülməyə başladı. 1990–93 illərdə Naxçıvanda qəbul edilmiş bir sıra Konstitusiya qanunları təkcə muxtar respublikanın deyil, Azərb. dövlətinin də gələcək taleyinin müəyyən edilməsində həlledici rol oynadı. 1990 ilin yanvarında sovet ordusunun Bakıda həyata keçirdiyi soyqırımı faciəsinə etiraz edən Nax. MSSR SSRİ-nin tərkibindən çıxdığını bildirdi; 1990 il noyabrın 17-də muxtar respublikanın adındakı "Sovet Sosialist" sözləri tarixin arxivinə verildi; 1990 il dekabrın 14-də Nax. MR Ali Məclisi SSRİ rəhbərliyinin yeni İttifaq müqaviləsi bağlamaq təklifini rədd etdi; 1991 ilin martında SSRİ-nin saxlanması ilə əlaqədar referendum keçirilərkən Nax. MR Konstitusiya hüquqlarından istifadə edərək öz ərazisində referendum keçirmədi. 1992 il yanvarın 31-də Ali Məclis "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə əlaqədar Nax. Muxtar Respublikasının Konstitusiya Qanunu"nu qəbul etdi. Qanuna görə, Nax. MR Azərb. Respublikasının tərkibində beynəlxalq muxtar ərazi statusuna malik demokratik dövlət, demokratik quruluşun və qanunun aliliyinin təminatçısı isə hakimiyyətin mənbəyi olan xalq elan edilirdi. Bir qədər sonra, 1978 il Konstitusiyasının 103-cü maddəsində dəyişiklik edilərək ali dövlət hakimiyyəti orqanının fəaliyyətini yaxşılaşdırmaq, Ali Məclisin icraedici və nəzarətedici funksiyalarını gücləndirmək üçün Ali Məclisin Rəyasət Heyəti daimi işçi orqanına çevrildi. 1990–93 illərdə muxtar respublikada şikayət, ərizə və təkliflərə baxılması qaydası haqqında, aqrar münasibətlərin yenidən qurulması və s. haqqında məsələlər də müzakirə olunmuş və müvafiq tövsiyələr hazırlanmışdı. Bu qanunların heç də hamısı imzalanaraq qüvvəyə minməsə də, daha çox siyasi akt kimi əhəmiyyətli rol oynamışdı. Bütün bunlar isə 1998 il aprelin 28-də qəbul edilmiş Nax. MR-in sayca dördüncü Konstitusiyasının prinsipcə nəzəri və hüquqi müddəalarının əsasını təşkil etmişdir (bax, *Naxçıvan Muxtar Respublikasının Konstitusiyası*).




**NAXÇIVAN MSSR MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ (Nax. MSSR MİK)** – 1922–37 illərdə Nax. MR-də dövlət hakimiyyətinin ali qanunverici, sərəncamverici və nəzarətedici orqanı. Nax. SSR MİK-in ilk tərkibi və onun 7 üzv və 2 namizəddən ibarət rəyasət heyəti 1922 il yanvarın 25-də Naxçıvan ş.-ndə keçirilmiş I Ümumnaxçıvan Sovetlər Qurultayında seçilmişdir (1923 il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər Qurultayının qərarı ilə buraxılmış və 1924 il fevralın 9-dək məhdud səlahiyyətlərlə Naxçıvan Diyar İcraiyyə Komitəsinə çevrilmişdir). Nax. MSSR MİK muxtar respublikada XKS və bütün dövlət orqanlarının fəaliyyətinə ümumi rəhbərlik edir, dekret və qərarlar verir, muxtar respublika hökumətinin təqdim etdiyi qanun layihələrini müzakirə və təsdiq edirdi. Nax. MR-in siyasi və ictimai həyatının ümumi normaları, Azərb. SSR büdcəsindən muxtar respublika üçün ayrılmış büdcə mütləq Nax. MİK-də müzakirə və təsdiq olunurdu. Nax. MİK Ümumnaxçıvan Sovetlər qurultayı qarşısında məsul idi və ona hesabat verirdi. Nax. MİK-in sessiyaları iki ayda bir dəfə çağırılırdı. Sessiyalararası dövrdə Nax. MSSR MİK-in funksiyalarını onun Rəyasət Heyəti həyata keçirirdi. 1937 il sentyabrın 17-də Nax. MSSR-in X Fövqəladə Sovetlər Qurultayının qəbul etdiyi Nax. MSSR Konstitusiyasına əsasən Nax. MSSR Ali Sovetinin seçilməsi ilə fəaliyyətini dayandırmışdır.

**NAXÇIVAN MUXTARİYYƏTİ MƏSƏLƏSİ (1920–26)** – Naxçıvan diyarının Azərb.-ın protektoratında muxtar respublika kimi təşkil olunması məsələsi. Hələ 1918–20 illərdə Ermənistan Respublikasının daşnak hökuməti ingilislərin və amerikalıların himayəsindən istifadə edərək Naxçıvan diyarının Ermənistana ilhaq edilməsi üçün canfəşanlıq göstərmiş və yeri gəldikcə silahlı təcavüzə də əl atmışdı.

Yalnız Azərb. Xalq Cümhuriyyətini tanıyan və öz gələcəyini onun hakimiyyəti altında qurmaq istəyən Naxçıvan əhalisinin qətiyyətli mövqeyi və Türkiyə hökumətinin köməyi erməni qəsbkarlarının öz xəbis niyyətlərini həyata keçirməsinə imkan verməmişdi. 1920 ilin aprel–mayında Azərb.-ın işğalını başa çatdıran bolşevik Rusiyasının XI Ordusunun bir hissəsi (28-ci atıcı diviziyasının 1 süvari alayı) iyulun 28-də Gorus və Şahbuzdan keçərək Naxçıvana daxil olmuş və elə həmin gün də burada Sovet hakimiyyəti elan edilmişdi; M. Bəktaşovun başçılığı ilə *Naxçıvan İnqilab Komitəsi* yaradılmışdı. 1920 il avqustun 10-da M. Bəktaşov Azərb. SSR XKS-nin sədri N. Nərimanova məktub göndərərək, Naxçıvan diyarının Azərb.-ın ayrılmaz hissəsi olduğunu, diyar əhalisinin Azərb.-la birləşmək arzusunu bəyan etmişdi. Məktubda qaldırılan məsələ avqustun 28-də Azərb. K(b)P MK-nın Siyasi Bürosunda müzakirə edilmişdi; Naxçıvan diyarına fövqəladə komissar təyin olunması və onun sərəncamına 30 mln. manat vəsait ayrılması qərara alınmışdı. Lakin RK(b)P və RSFSR hökuməti rəhbərliyinin, o cümlədən V. İ. Lenin və İ. V. Stalinin təzyiqi ilə Ermənistanda sovet hakimiyyəti elan edildiyi gün (30 noyabr 1920) Azərb. K(b)P-nin siyasi və təşkilat bürolarının birgə iclası Zəngəzur və Naxçıvanın Ermənistanın tərkibinə keçirilməsi, Qarabağın dağlıq hissəsinə isə öz müqəddaratını təyin etmək hüququ verilməsi barədə qərar çıxardı. Həmin qərar dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında N. Nərimanovun elan etdiyi bəyannamədə öz ifadəsini tapdı,

dekabrın 2-də isə RSFSR-lə Ermənistan SSR arasında imzalanmış müqavilədə Naxçıvan, Zəngəzur Ermənistan əraziləri kimi "mübahisəsiz tanındı". 1920 il 1 dekabr bəyannaməsi Naxçıvanda kəskin etirazla qarşılandı; əhalinin Naxçıvan ş.-ndə, Şərur və Ordubad bölgələrində və bir çox kəndlərdə keçirilmiş kütləvi mitinqlərində Naxçıvan Diyarının Azərb.-ın tərkibində qalması tələb edildi; 1921 ilin əvvəllərində bu məsələ ilə əlaqədar keçirilmiş rəy sorğusunda iştirak edənlərin 90 faizi Naxçıvanın muxtar respublika hüququnda Azərb.-ın tərkibində qalmasına səs verdi. Xalqın rəyinin nəzərə alınmasında Türkiyə dövlətinin qəti mövqe tutması da böyük rol oynadı. 1921 il martın 16-da RSFSR-lə Türkiyə arasında Moskvada imzalanmış müqavilənin 3-cü maddəsinə əsasən müqaviləyə əlavədə göstərilən Naxçıvan vilayəti ərazisində Azərb.-ın protektoratı altında, həmin hüququ Azərb.-ın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə Naxçıvan muxtar qurumunun yaradılması nəzərdə tutuldu; həmin il oktyabrın 13-də Qars ş.-ində RSFSR-in iştirakı ilə Azərbaycan, Ermənistan, Gürcüstan ilə Türkiyə arasında bağlanmış müqavilənin 5-ci maddəsində isə göstərildi ki, Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin bu müqaviləyə 3-cü əlavədə göstərilən sərhədləri daxilində Azərb.-ın himayəsi altında muxtar qurum yaratmasına razıdırlar.

1921 ilin sentyabrında Nax. SSR XKS təşkil edilmiş, həmin ilin sonlarında Nax. Respublikasında Sovetlərə seçkilər keçirilmişdir. 1922 il yanvarın 25-də keçirilmiş birinci Ümumnaxçıvan Sovetlər Qurultayı diyar inqilab komitəsini ləğv edərək Nax. SSR Mərkəzi İcraiyyə Komitəsini (MİK) seçdi. Respublikanın ali qanunvericilik orqanı Sovetlər qurultayı, qurultaylararası müddətdə isə MİK, ali icraedicilik orqanı isə XKS hesab edildi. 1922 il dekabrın 12-də keçirilən I Zaqafqaziya Sovetlər Qurultayı "Naxçıvan muxtariyyəti haqqında" qəbul etdiyi xüsusi qərarda "Naxçıvan Respublikasının muxtariyyət hüququ ilə Azərb.-ın ayrılmaz tərkib hissəsi" elan etdi. Bununla belə, 1923 il yanvarın 18-də RK(b)P Zaqafqaziya Diyar Komitəsinin Rəyasət Heyəti Azərb. K(b)P MK-ya təklif etdi ki, Naxçıvanı muxtar vilayətə, Naxçıvan XKS və MİK-i isə Naxçıvan Diyarının İcraiyyə Komitəsinə çevirsin. 1923 il yanvarın 21-də Azərb. K(b)P MK katibliyi həmin təklifi müzakirə və qəbul etdi, üstəlik Naxçıvan Diyar Partiya Komitəsini Azərb. K(b)P Naxçıvan Diyar Komitəsinə çevirdi. 1923 il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan Respublikasını Naxçıvan Diyarına çevirmək haqqında qərarı bəyənərək, müvafiq bəyannamə qəbul etdi; Naxçıvan MİK və XKS buraxıldı, 17 üzv və 7 namizəddən ibarət Naxçıvan Diyar İcraiyyə Komitəsi seçildi.

1923 il iyunun 16-da Azərb. MİK-in üçüncü sessiyası Naxçıvan Diyarını Azərb.-ın muxtar qurumu kimi onun tərkibinə daxil etmək haqqında Naxçıvan Sovetlər Qurultayının xahişini qəbul etmək haqqında qərar verdi. 1923 il dekabrın 11-də Azərb. K(b)P MK-nın Rəyasət Heyəti yenidən N.m.m.-nə qayıdaraq indi də Naxçıvan Diyarını Nax. Respublikasına çevirmək haqqında qərar qəbul etdi, Azərb. MİK-ə bu məsələni Zaqafqaziya MİK qarşısında qaldırmağı tapşırdı. Zaqafqaziya MİK Rəyasət Heyətinin 8 yanvar 1924-cü il tarixli müvafiq qərarına əsasən Nax. SSR MİK-in yanvarın 18-də keçirilən I-ci plenumu Naxçıvan diyarını Azərb.-ın protektoratında Nax. SSR-ə çevirmək haqqında qərar qəbul etdi, MİK respublikada XKS yaratdı, respublikanı inzibati cəhətdən üç qəzaya – Naxçıvan, Şərur və Ordubad qəzalarına böldü.

1924 il fevralın 9-da Azərb. MİK N.m.m. haqqında yeni qərarı ilə Naxçıvan Diyarını Azərb. SSR protektoratında Nax. MSSR-ə çevirdi və bu barədə əsasnamə layihəsini hazırlamaq üçün komissiya yaratdı. Azərb. MİK komissiyanın hazırladığı əsasnaməni 1924 il martın 23-də təsdiq etdi. Beş bölmədən ibarət əsasnamədə Nax. MSSR Sovetlər qurultayının, onun MİK və XKS-nin səlahiyyətləri, yerlərdə sovet hakimiyyət orqanlarının yaradılması, onlara seçkilərin keçirilməsi qaydaları əksini tapdı. 1924–25 illərdə Nax. MSSR-in Konstitusiyasının işlənib hazırlanması sahəsində böyük iş görüldü və onun layihəsi 1925 il dekabrın 27-də Nax. MSSR MİK-in dördüncü çağırış 2-ci sessiyasında qəbul olundu, baxılmaq və təsdiq olunmaq üçün Azərb. MİK-ə göndərildi.



1926 il aprelin 8-də Azərb. SSR MİK-in yaratdığı komissiya Nax. Respublikasının Konstitusiya layihəsinə baxaraq, onu düzəliş və əlavələrlə birlikdə bəyəndi. Həmin il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı Nax. Respublikasının ilk Konstitusiyasını yekdilliklə qəbul etdi; konstitusiyanın 4-cü bölməsində hətta Nax. MSSR-in gerbi və bayrağı haqqında maddələr də saxlanmışdı (1936 il iyunun 16-da çıxarılmışdır). Beləliklə, N.m.m. özünün ədalətli həllini həmişəlik tapmış oldu.

Bununla belə, Zaqafqaziya MİK-in qərarı ilə Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Nax. MSSR-in 657 $km^2$ ərazisi Ermənistana ilhaq edilmiş, 1930 ildə isə Əldərə, Lehvaz, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilərək həmin ərazilərdə Mehri r-nu yaradılmışdır. Azərb.-a, o cümlədən Naxçıvana ərazi iddialarından əl çəkməyən erməni qəsbkarları SSRİ-nin dağıldığı 90-cı illərin əvvəllərində ölkəmizin torpaqlarının 20%-ni, habelə Nax. MR-in Kərki k.-ni işğal etmişlər.

**NAXÇIVAN MUSİQİ TEXNİKUMU**, Ü. Hacıbəyov ad. – 1975 ildə Naxçıvan ş.-ndə orta ixtisas musiqi məktəbi kimi yaradılmış, 1976 ildə ona Üzeyir Hacıbəyovun adı verilmişdir. 1975/76 tədris ilində fp., xalq çalğı alətləri (kamança, tar), ork. alətləri (skripka, truba), xanəndəlik və vokal ixtisasları fəaliyyət göstərmiş, 1980/81 tədris ilində xor dirijoru, 1984/85 tədris ilində isə musiqi nəzəriyyəsi ixtisasları açılmışdır. 1992 ildə məktəbə musiqi texnikumu statusu verilmişdir. Texnikumda fp., ork. alətləri (skripka, fleyta, klarnet, qoboy), xalq çalğı alətləri (tar, kamança, kanon, saz, qarmon, nağara), xanəndəlik, xor dirijoru, musiqi nəzəriyyəsi ixtisasları üzrə kadrlar hazırlanır. Fəaliyyət göstərdiyi müddətdə Nax. MR-in mədəni-maarif müəssisələri üçün 1000-dən artıq orta ixtisaslı musiqi kadrları yetişdirmişdir.

**NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU** – ali-orta təhsil müəssisəsi (1939–54). Bax *Naxçıvan Dövlət Müəllimlər İnstitutu*.

**NAXÇIVAN MÜƏLLİMLƏR QURULTAYI** – "İrəvan quberniyası xalq məktəblərinin sahə qurultayı" adı ilə 1893 il noyabrın 22–24-də Naxçıvan ş.-ndə keçirilmişdir. Qurultayda "Məktəblərdə müəllimlər heç bir əlavə vəsait sərf etmədən hansı kənd təsərrüfatı məşğələlərini təşkil edə bilərlər?" mövzusunda müzakirə aparılmışdır. Müzakirələrdə mahalın tanınmış müəllimlərindən Cəlil Məmmədquluzadə, Kərim bəy İsmayılov (Nehrəm məktəbi), Nəsrulla Əmirov (Naxçıvan şəhər məktəbi), Əbülqasım Sultanov (Şahtaxtı məktəbi), Məmməd bəy Qazıyev (Baş Noraşen məktəbi) çıxış etmişlər. Qurultayın bu məsələ ilə əlaqədar qəbul etdiyi qərarda məktəblərdə ipəkçiliyin təşkili və inkişaf etdirilməsi nəzərdə tutulmuşdu. Qurultayda Naxçıvan şəhər məktəbində müxtəlif fənlər üzrə keçirilmiş açıq dərslər də müzakirə olunmuşdur.

**NAXÇIVAN NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə N. n. 12 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; Naxçıvan ş.-ndə yalnız müsəlmanlar (Azərb. türkləri), nahiyənin 3 kəndində müsəlmanlar, 1 kəndində xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 323.229 ağça idi ki, bu da Naxçıvan sancağının illik gəlirinin 12,3%-ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**NAXÇIVAN NEKROPOLU** – Naxçıvan ş.-nin şm. kənarında Tunc dövrünə aid arxeoloji abidə. 1968 ildə təsərrüfat işləri zamanı torpaq qəbirlər dağıdılaraq təsadüfən aşkar olunmuşdur. Düzbucaqlı formalı qəbirlərin üstü uz. 1 *m*, eni 0,5 *m*, qalınlığı 0,2–0,3 *m* olan daş plitələrlə örtülmüşdür. Qəbirlər şm.-dan c.-a, həmçinin ş.-dən q.-ə doğru istiqamətlənmişdir. Skeletlərin qalıqları olduqca pis qalmışdır; bir qəbirdə c.-dan q.-ə istiqamətlənərək bükülü vəziyyətdə olan skelet salamat qalmışdır. Digər qəbirdən pis vəziyyətdə olan 7 kəllə sümüyü tapılmışdır. Naxçıvanın orta və son Tunc, həmçinin ilk Dəmir dövrü qəbir abidələri üçün kollektiv dəfn adəti səciyyəvidir. Qəbirlərdən zəngin maddi mədəniyyət nümunələri – boyalı gil qablar, müxtəlif formalı tunc bəzəklər (bilərzik, üzük, sırğa və s.) ayrı-ayrı minerallardan hazırlanmış muncuqlar və s. tapılmışdır. Gil

məmulatı içərisində çəhrayı rəngli, üzəri qara, qəhvəyi, qırmızı və sarı rənglərlə naxışlanmış boyalı qablar (küpə, çaydan, vaza və s.) xüsusilə sənətkarlıqla hazırlanmışdır. Naxçıvanın məişət abidələrinin stratiqrafiyasına, həmçinin arxeoloji materialların texnoloji analizinə əsasən N. n. e. ə. 2-ci minilliyin ortaları və sonuna aid edilir. Əldə olunmuş materiallar Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir.

*Əd.:* Ə l i y e v V. H., Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; y e n ə o n u n, Культура эпохи средней бронзы Азербайджана, Б., 1991.

**NAXÇIVAN NEKROPOLU I** – Naxçıvan ş.-nin şm. kənarında antik dövrə aid arxeoloji abidə. 1970 ildə tikinti işləri aparılarkən təsadüfən aşkar olunmuşdur. Sah. 1,9 *ha.* Dağıdılmış altı küp qəbirdən ibarətdir. Materiallar hərbi qulluqçu Peters tərəfindən kompleks şəkildə nömrələnmiş və Gürcüstan Dövlət Tarix Muzeyinə verilmişdir. Arxeoloji qazıntılar nəticəsində qəbirlərdən çəhrayı rəngdə bişirilmiş gil qablar (küpə və s.), üzəri qırmızı boya ilə örtülərək sığallanmış, bəzən isə cilalanmış sadə qablar (küpə və badya),




*Naxçıvan nekropolu tapıntıları:*
*1, 2. Polixrom boyalı küpələr. 3–5. Sadə və polixrom boyalı çaydan tipli qablar. 6. Üçayaqlı polixrom boaylı vaza. 7. Sərnic tipli qab. 8. Qədəh tipli qab.*

boz rəngli gil məmulatı (küpə, çölmək və kasa tipli qablar), gümüşdən və tuncdan hazırlanmış bilərzik, sancaq, üzük və sırğalar, serdolik, pasta, şüşə və əqiq muncuqlar, iki şüşə möhür, Makedoniyalı İskəndərə aid bir ədəd gümüş draxma əldə olunmuşdur. Tapıntılar e. ə. 4–3 əsrlərə aid edilir. Nekropolun materialları Naxçıvanın qədim tarixini və onun Yaxın Şərq ölkələri ilə ticarət və mədəni əlaqələrini öyrənməyə imkan verir.

*Əd.:* Ə l i y e v V. H., Tarixin izləri ilə, B., 1975; y e n ə o n u n, Naxçıvan şəhərinin antik dövrü küp qəbir abidələri, Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1976, №1.

**NAXÇIVAN NEKROPOLU II** – Naxçıvan–Şahbuz avtomobil yolunun sol tərəfində, hərbi şəhərciyin qurtaracağında antik dövrə aid arxeoloji abidə. 1990 ildə tikinti işləri aparılarkən təsadüfən aşkar olunmuşdur. Tikinti zamanı küp qəbirlər və onlardan aşkar olunmuş maddi mədəniyyət nümunələri tamamilə dağılmışdır. Əldə olunmuş materiallar (qara rəngli çölmək, çəhrayı rəngli kasa və küp qırıqları, tunc düymə, mavi və göy rəngli şüşə muncuqlar və s.) Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzinin əməkdaşları tərəfindən toplanmış və Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Tapıntılara əsasən, nekropol e. ə. 2–1 əsrlərə aid edilir.

**NAXÇIVAN NEKROPOLU III** – orta əsr Naxçıvan ş. ərazisində, (K ö h n ə q a l a d a) arxeoloji abidə. 1987 ildə aşkar olunmuşdur. Arxeoloji qazıntılar zamanı qalanın c.-ş. tərəfində iki küp qəbirin qalıqları öyrənilmiş, boz rəngli, cilalanmış gil qablar, çəhrayı rəngli küpə qırığı, dəmir toqqa, nizə ucluqları və s. maddi mədəniyyət nümunələri tapılmışdır. Əldə olunan materiallara əsasən nekropol erkən orta əsrlərə (3–7 əsrlər) aid edilir.

**NAXÇIVAN ÖZƏL UNİVERSİTETİ** – ali məktəb. 1999 ildə yaradılmışdır. 11 ixtisas üzrə mütəxəssis hazırlayan iki fakültəsi (hüquq və yol nəqliyyatı; pedaqogika), əyani və qiyabi şöbələri, 5 kafedrası (filologiya, təbiət elmləri, humanitar elmlər, pedaqogika və psixologiya, xarici dillər), laboratoriya və kabinələri, kompüter mərkəzi, kitabxanası var. Bədii studiya, Azərb. dili və ədəbiyyatı, ingilis dili üzrə diskussiya klubları fəaliyyət göstərir. Un-tdə 80 nəfər prof.-müəllim heyəti çalışır (2000). Un-t ABŞ-ın Perdu, Türkiyənin Qazi, Pamukkale, Qaziantep Un-tləri ilə əlaqə saxlayır.



**NAXÇIVAN PİYADA BATALYONU** – 19 əsrin başlanğıcında Naxçıvan camaatının Kəngərli tayfasına mənsub olmayan əhalisinin döyüşə çıxardığı qoşun hissəsi, sərbazlardan ibarət dəstə.

**NAXÇIVAN POLİTEXNİK TEXNİKUMU** – orta ixtisas təhsili məktəbi. Kiyev Politexnik texnikumunun filialı kimi 1969 ildə fəaliyyətə başlamışdır. 1971 ildən müstəqil fəaliyyət göstərən texnikuma Cəmşid Naxçıvanskinin adı verilmişdi. Texnikum sənaye tikintisi, mülki tikinti, sənaye müəssisələrinin və qurğularının elektrik avadanlıqları, tikinti maşın və avadanlıqları ixtisasları üzrə mütəxəssislər hazırlayırdı. 1974 ildən Əcəmi Naxçıvani adına idi. Texnikum xalq təsərrüfatının müxtəlif sahələri üçün minlərlə kadr yetirmişdir. Son illərdə yol hərəkətinin təşkili, nəqliyyat vasitələrinin təmiri və servis xidməti, gömrük ekspertizası, istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi və s. ixtisaslar üzrə kadrlar hazırlayırdı. Azərb. Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanına əsasən texnikum ləğv edilmiş (7.9.2000), onun bazasında *Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı* yaradılmışdır.

**NAXÇIVAN RAYONU** – *Babək rayonunun* 1978 ilədək adı.

**NAXÇIVAN REGİONAL ELMİ MƏRKƏZİ**, A z ə r b. M i l l i EA-n ı n N a x ç ı v a n R e g i o n a l E l m i M ə r k ə z i, H.M. A b d u l l y e v a d. – Nax. MR-in təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsi və səmərəli istifadə olunmasının elmi əsaslarının işlənib hazırlanması, muxtar respublikanın sosial-iqtisadi tarixinin, arxeoloji, epiqrafik, etnoqrafik və folklor abidələrinin araşdırılması və s. sahələrdə tədqiqat işlərini gücləndirmək məqsədilə Azərb. Milli EA Rəyasət Heyətinin 1972 il 7 iyul tarixli qərarı əsasında təsis edilmişdir. Mərkəzin yaradılması o zamanlarda da Azərb.-a rəhbərlik edən Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Mərkəzin yaradılmasına SSRİ EA-nın icazəsi alınana qədər o, respublika rəhbərliyinin dəstəyi ilə,



*Naxçıvan Regional Elmi Mərkəzində.*

əvvəlcə Azərb. Milli EA Qeyri-Üzvi və Fiziki Kimya İn-tunun strukturuna daxil edilmişdi. Mərkəzin tərkibində 5 bölmə (fizika-riyaziyyat, kimya, biologiya, iqtisadiyyat və tarix) fəaliyyət göstərirdi. Hazırda mərkəz 3 bölməni (geobotanika, riyazi modelləşdirmə, elmi-texniki informasiya), 5 laboratoriyanı (bitki mənşəli maddələrin kimyası, mineral xammalın kimyası və texnologiyası, fiziki-kimyəvi tədqiqatlar, genetika və seleksiya, dekorativ bağçılıq) və metrologiya və standartlaşdırma qrupunu birləşdirir. Burada 105 nəfər əməkdaş çalışır ki, onların da 14-ü elmlər namizədidir (2001). Kimyaçıların araşdırmaları muxtar respublikanın təbii xammal ehtiyatları əsasında qeyri-üzvi və bioloji-aktiv maddələrin və preparatların alınması üsullarının işlənib hazırlanmasına yönəldilmişdir. Darıdağ termal sularının kompleks öyrənilməsinin prinsipial texnoloji sxeminin təklif edilməsi, bu sulardan bor-arsen konsentratının, nəticədə isə, yüksək təmizliyə malik arsen 3-sulfidin sintezi, karbon qazı alınması ilə bağlı araşdırmalar (respublika dövlət mükafatına layiq görülmüşdür) mərkəzin uğurlarından sayılır. Mərkəzin mütəxəssisləri muxtar respublikanın istehsal sahələrinin yerli xammal əsasında işləməsi üçün axtarışlar aparırlar. Bioloji araşdırmalar muxtar respublikanın flora və bitki örtüyünün öyrənilməsi, yeni bitki növlərinin yerli şəraitdə introduksiyası və iqlimləşdirilməsi, xüsusilə bu bölgədə geniş yayılmış sarı çiçəyin işlənmə texnologiyasının hazırlanması və onun su ilə ekstraksiyasından alınan məhlulun zəfəran əvəzinə boyaq maddəsi kimi qənnadı məmulatında, habelə tərkibindəki saflor yağından təbabətdə istifadə olunması, eləcə də yerli qoyun cinsinin bərpası, qiymətli balıq

növlərinin, həmçinin bəzək bitkilərinin yetişdirilməsi sahəsində müsbət nəticələr əldə etməyə imkan vermişdir. Arxeoloji tədqiqatlar nəticəsində qədim və orta əsrlərə aid arxeolji abidələr, diyarın etnoqrafiyası öyrənilmişdir. Folklor materialları əsasında əvvəllər məlum olmayan şifahi xalq ədəbiyyatı örnəkləri müəyyənləşdirilmiş və Azərb. folkloru antologiyasına daxil edilmişdir. N. r. e. m. muxtar respublikanın elm və mədəniyyət ocağına çevrilmişdir. 1994 ildən akad. H.M.*Abdullayevin* adınadır. Müxtəlif illərdə mərkəzə T.N.*Şahtaxtinski*, M.Ə.*Məmmədyarov*, Ə.N.*Nuriyev*, Ə.V.*Rəhimli*, V.B.Quliyev və Ə.D.Abbasov rəhbərlik etmişlər.

*Əd.:* Azərbaycan Elmlər Akademiyası-50, B., 1995.

**NAXÇIVAN RESPUBLİKA KİTABXANASI**, M. S. O r d u b a d i ad. – Nax. MR-in ən böyük kitabxanası, elmi-metodik mərkəz. Naxçıvan şəhər kitabxanası (1922) əsasında 1930 ildə yaradılmışdır. 1953 ildə kitabxanaya M. S. Ordubadinin adı verilmişdir. Kitabxananın fondunda 260 minə yaxın kitab və jurnal var (2001). Metodiki, kitabişləmə, kataloq, komplektləşdirmə, kütləvi, məlumat-biblioqrafiya, xidmət, kitabsaxlama, musiqi-not şöbələri, informasiya, mübadilə, abonement, səyyar bölmələri fəaliyyət göstərir (2001). Kitabxana muxtar respublikanın ictimai-mədəni həyatında iştirak edir, oxucuların mənəvi-estetik tərbiyəsi ilə əlaqədar tədbirlər, elmi-nəzəri seminarlar keçirir.

**NAXÇIVAN RESPUBLİKA MƏDƏNİYYƏT SARAYI** – 1984 ildə istifadəyə verilmişdir. Binanın uz. 110 *m*, eni 45 *m*.-dir. Səhnəsinin eni 16 *m*, dərinliyi 25 *m*, hünd. 12 *m*, texniki avadanlıqların işlədiyi hissədə isə hünd. 36 *m*.-dir. Səhnənin fırlanan döşəməyə malik olması bir çox tədbirlərin rəngarəng keçirilməsinə şərait yaradır. İşıq sistemi müasir tələblərə uyğundur. İki zalı var. Böyük zal iki hissədən ibarətdir. Alt hissə 675, loja isə 365 yerlidir. Kiçik zalda yerlərin sayı 340-dır. Sarayda qonaq otağı da daxil olmaqla 50-yə qədər məşq otağı vardır. Burada müxtəlif dövlət tədbirləri keçirilir, qastrol tamaşaları, konsertlər, müsabiqələr təşkil olunur.



*Naxçıvan Respublika Mədəniyyət Sarayı. 1984.*

**NAXÇIVAN SANCAĞI** – 18 əsrdə Osmanlıların Azərb. torpaqlarında yaratdığı inzibati-ərazi vahidi. 17 əsrin sonu – 18 əsrin əvvəllərində Səfəvilər dövlətinin daxilində gedən sosial-iqtisadi və siyasi proseslərin nəticəsində dövlət xeyli zəifləyir, ölkədə mərkəzdənqaçma qüvvələr güclənməyə başlayırdı. Bundan istifadə edən Osmanlı qoşunları 1724 ilin yayında İrəvan qalasını mühasirəyə aldılar, sentyabrın əvvəlində Naxçıvan ş.-ni, sentyabrın 10-da isə Ordubad yaxınlığında Naxçıvan hakimi Mənsur xanın 8 minlik qoşununu darmadağın edərək Ordubad ş.-ni ələ keçirdilər. Osmanlı imperiyası Azərb. ərazisində öz idarəetmə sistemlərini tətbiq etmiş, Naxçıvan vil.-nin çox hissəsini yeni təşkil olunan N. s.-nın tərkibinə qatmışdı. Osmanlıların hakimiyyəti dövründə Naxçıvan diyarının ərazi və inzibati bölgüsü barədə "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndə ətraflı məlumat verilmişdir.

14 nahiyədən ibarət olan N. s-nın idarə edilməsi sancaqbəyinə, nahiyələr naiblərə, kəndlər isə kəndxudalara tapşırılmışdı.

**"NAXÇIVAN SANCAĞININ MÜFƏSSƏL DƏFTƏRİ" (NSMD)** – 1724–35 illərdə Osmanlı idarəsində olmuş Naxçıvan diyarında əhalidən vergiləri nizamlı şəkildə toplamaq məqsədilə tərtib olunmuş statistik xarakterli maliyyə sənədi. 1727 il avqustun 27-də təsdiq olunub, qüvvəyə minmiş dəftər 302 səhifədir (81 və 95-ci səhifələr boşdur) Yeganə nüsxəsi İstanbulda, başbakanlıq arxivində saxlanılır (№ 905). NSMD Naxçıvan diyarının tarixi coğrafiyasını, Naxçıvan və Ordubad ş.-lərinin tarixini, ticarət həyatını və topoqrafiyasını, iqtisadiyyatın, k. t.-nın ayrı-ayrı sahələrinin, o cümlədən taxılçılığın, üzümçülüyün, pambıqçılığın, arıçılığın vəziyyətini, bu diyarın toponimikasını, demoqrafiyasını öyrənmək baxımından qiymətli mənbədir. Osmanlıların ərazi-inzibati bölgüsündə "sancaq" statusu alan Naxçıvan 14 nahiyəyə (Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz) bölünmüşdü. Çox geniş ərazini tutan Naxçıvan sancağı muxtar respublikanın bugünkü ərazisi ilə yanaşı, indiki Ermənistanın həmsərhəd rayonlarından Ararat r-nunun c.-ş. hissəsini, Yexeqnadzor r-nunu bütövlüklə, Cermuk r-nunun tam yarısını, Sisyan r-nunun böyük bir hissəsini və Mehri özü də daxil olmaqla, bu r-nun bir neçə yaşayış məntəqəsini əhatə edirdi. 315 yaşayış məntəqəsinin vergi mükəlləfiyyətli əhalisi hər il xəzinəyə 2629059 ağça dəyərində vergi ödəyirdi. Vergilər, əsasən, kənd təsərrüfatının ayrı-ayrı sahələrindən əldə edilən gəlirin hesabına formalaşırdı. Naxçıvan və Ordubad ş.-ləri əhalisinin əsas məşğuliyyəti ticarət və sənətkarlıq idi. Naxçıvanda 191, Ordubadda isə 210 ticarət və sənətkar dükanı var idi.

NSMD-ndə Naxçıvan sancağının əhalisi və onun etnik tərkibi barədə də dolğun məlumat var. İrəvan əyalətinə aid edilmiş Şərur və Sədərək nahiyələri də daxil edilməklə, Naxçıvan diyarının əhalisinin 70%-inin azərb.-lılar olduğunu müəyyən etmək mümkündür.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**NAXÇIVAN SƏFƏRİ (1554)** – Səfəvi–Osmanlı müharibələri gedişində Osmanlı ordusunun Naxçıvana yürüşü. 1552 ildə Ərzurum hakimi İsgəndər paşanın Çuxursəd vilayətinə və digər ərazilərə basqınlarına cavab olaraq Səfəvi hökmdarı I Şah Təhmasib Osmanlı Türkiyəsinin sərhəd ərazilərini viran qoymaq, hərbi qənimət ələ keçirmək və gələcəkdə onların ölkəyə hücum təhlükəsinin qarşısını almaq məqsədilə bir sıra fəal hərbi əməliyyatlar keçirdi. Ərzurumun "dikbaş" hakimi İsgəndər paşanı "cəzalandırmaq" üçün şah öz oğlu İsmayıl Mirzənin başçılığı altında Səfəvi ordusunu ona qarşı göndərdi. Qarabağ hakimi Şahverdi Soltan Ziyad oğlu, Bədrxan Ustaclı, Çuxursəd hakimi Şahqulu Soltan Ustaclı, Məhəmməd xan Mosullu kimi adlı-sanlı sərkərdələrin başçılıq etdiyi qoşun hissələrinin və "altı yüz" naxçıvanlı "qorçisi"nin iştirak etdiyi bu yürüşdə həlledici döyüş qızılbaşların qələbəsi ilə başa çatdı, Səfəvi tərəfi böyük qənimətlər ələ keçirdi. Trabzon hakimi Mustafa bəy, Məraş hakimi Bəbir İsa, sultanın qullarağası Məhəmməd bəy, İsgəndər paşanın qardaşı Ramazan bəy, Malatya hakimi Xeyrəddin bəy və b. Osmanlı sərkərdələri əsir alındı. I Şah Təhmasib yürüşdən sonra Naxçıvana qayıtdı. Sultan hökuməti ilə aparılan sülh danışıqları heç bir nəticə vermədi.

1554 ilin yazında sultan Süleyman özünün "Naxçıvan səfəri", yaxud "On ikinci səfər" adlanan yürüşünə başladı və böyük bir qoşunla dördüncü dəfə Azərb. ərazisinə daxil oldu. Düşmənin başlıca qüvvələri ilə toqquşmaqdan çəkinən şah Təhmasib 1554 il iyunun 8-də Naxçıvanı tərk edərək Bazarçay yaylağına çəkildi və sultan qoşunları ilə mübarizədə daha çox partizan müharibəsinə bənzər bir döyüş taktikası seçdi. Nəticədə, ciddi müqavimətə rast gəlməyən Osmanlı ordusu iyulun 28-də Naxçıvana daxil oldu, şəhər əhalisinin varidatını qarət etdi, üç gün ərzində şəhərdə "daşı daş üstündə qoymadı". Lakin sultan Süleyman Naxçıvanda çox qalmadı. Bunun başlıca səbəbi ərzaq və döyüş sursatının çatışmaması idi. İyulun 30-da şəhərə od vuran sultan qoşunu Ərzuruma çəkildi.

N. s. Naxçıvanın iqtisadi cəhətdən zəiflədilməsi və taqətdən salınmasında fəlakətli rol oynadı. Bir tərəfdən sultan ordusunun hücumu, digər tərəfdən I Şah Təhmasibin "viran edilmiş ərazi" taktikası Naxçıvan diyarının iqtisadi və mədəni inkişafına olduqca mənfi təsir göstərdi.

*Əd.:* Ə f ə n d i y e v O. Ə., Azərbaycan Səfəvilər dövlətinin tarixi oçerkləri, B., 1997.

**NAXÇIVAN SƏRHƏD DƏSTƏSİ** – Azərb. Respublikasının Nax. MR-də dövlət sərhədini mühafizə dəstəsi; 1992 il avqustun 22-də Azərb. Respublikasının yurisdiksiyasına keçmiş ilk milli sərhəd dəstələrindən biri. Sovet

hakimiyyəti illərində Nax. MR ərazisində Sovet–İran və Sovet–Türkiyə sərhədləri Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin 41-ci sərhəd dəstəsi, Ordubad və indiki Sədərək r-nlarının ərazisindən keçən hissəsi isə heç bir səbəb göstərilmədən Ermənistanda yerləşən sərhəd dəstələri tərəfindən mühafizə olunurdu. Nax. MR Ali Məclisinin sədri Heydər Əliyevin təkidli tələbindən sonra 1991 il oktyabrın 30-da muxtar respublika ərazisində yerləşən bütün sərhəd zastavaları 41-ci sərhəd dəstəsinə tabe edildi. Lakin SSRİ-nin süqutu və Azərb. Respublikasının müstəqil dövlət kimi bərqərar olduğu bir şəraitdə Rusiyanın tabeliyində olan 41-ci sərhəd dəstəsinin Azərb. dövlət sərhədinin mühafizəsini həyata keçirməsi qeyri-mümkün idi. Belə mürəkkəb durumda N.s.d.-nin Rusiya sərhədçilərindən təhvil alınmasında Heydər Əliyevin müstəsna xidməti olmuşdur. Heydər Əliyev Azərb. Respublikası, o cümlədən Nax. MR ərazisində yerləşən hərbi hissələrin bütün texnika və əmlakının qeyd-şərtsiz muxtar respublikaya təhvil verilməli olduğunu konkret dəlillərlə sübut etdi. Onun əzmi və iradəsi sayəsində rus sərhədçiləri heç nə götürmədən muxtar respublika ərazisini tərk etdilər; bu, müstəqil Azərb.-ın ordu quruculuğunun parlaq səhifələrindən birini təşkil edir.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin 1993 il noyabrın 2-də radio və televiziya ilə xalqa tarixi müraciətindən sonra ötən illər ərzində N. s. d. böyük inkişaf yolu keçmişdir. Onun yetişdirmələri sərhədlərimizin qorunmasında və erməni təcavüzkarlarına qarşı döyüşlərdə, Azərb. dövlətçiliyinə xəyanət edərək dövlət çevrilişinə cəhd göstərənlərə qarşı mübarizədə fədakarlıq və qəhrəmanlıq nümunələri göstərmişlər. Onların sırasında Azərb.-ın milli qəhrəmanları Ə. R. Əliyevin, F. Ç. Cəfərovun, həmçinin Qafur Məmmədovun qəhrəmanlığını təkrar edərək komandirini ölümdən xilas edib, özü həlak olmuş kiçik çavuş N. T. Xəlilovun və b. -nın adlarını çəkmək olar.





Naxçıvan (K ə n g ə r l i) süvari alayının bayraqları. 1830, 1858. Azərb. Tarixi Muzeyi.

Son illərdə dövlət sərhədinin əməliyyat şəraiti gərgin olan 42,5 *km*-lik məsafəsində mühəndis-texniki qurğuların yenidən çəkilib bərpa edilməsi sayəsində mütəşəkkil qaçaqmalçılığa son qoyulmuş, İran, Türkiyə və Ermənistan sərhədləri boyu bütün 231,3 *km*-lik məsafədə zastavaların möhkəmləndirilməsi və yeni texniki vasitələrlə təchiz edilməsi sahəsində ciddi işlər görülmüşdür. Ali Baş komandan Heydər Əliyev 1996 ilin oktyabrında Nax. MR-ə səfəri zamanı N. s. d.-ndə də olmuş və şəxsi heyət qarşısında söylədiyi nitqində demişdir: "Sizin hamınız, zabit heyəti, şəxsi heyət çox iş görmüş, yararlı sərhəd dəstəsi yaratmısınız. Gördüyünüz bu işlərə görə sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əldə etdiyiniz nailiyyətləri daha da artıracaq, burada Azərbaycan Sərhəd Qoşunlarının böyük bir dəstəsini nümunəvi dəstəyə çevirərək respublikamızın sərhədlərini etibarlı mühafizə edəcək, qoruyacaqsınız. Mən buna əminəm".

**NAXÇIVAN SU QOVŞAĞI** – Babək r-nunda, Naxçıvan çayı üstündə bənd tipli hidrotexniki qurğu. Vayxır k. yaxınlığındadır. 1970 ildə istifadəyə verilmişdir. Su qovşağından magistral kanallar çəkilmişdir. Kanallardan Uzunoba və Sirab su anbarlarına da su verilir. Su qovşağından 30 min *ha*-dan çox sahənin suvarılmasında istifadə edilir. Əsasən, mövsümi tənzimləməyə malikdir.

**NAXÇIVAN SÜVARİLƏRİ** – Cənubi Qafqaz Rusiyaya birləşdiriləndən az sonra, 1829 ildə yaradılmış süvari dəstələri. Azərb.-da beş alay yaradılmışdı. Onlardan dördü naxçıvanlılardan və İrəvan azərb.-lılarından, beşincisi isə Naxçıvanın kəngərlilər tayfası igidlərindən təşkil edilmişdi. Kəngərli süvariləri cəsurluğu ilə xüsusi şöhrət qazanmışdı. "Kavkaz" qəzeti 1890 il 6 noyabr sayında yazırdı ki, "döyüşkənlikləri ilə bütün Qafqazda məşhur olan kəngərlilər ... xüsusi süvari dəstələri







Naxçıvan şəhər poliklinikası.

təşkil edib, bütün döyüşlərdə bizim qoşunlarla çiyin-çiyinə vuruşdular". "Qafqaz" hərbi-tarix muzeyinin 1913 ildə nəşr olunmuş sorğu kitabındakı qeyddə deyilir: "Kəngərli süvariləri bütün Şərqdə cəsurluğu ilə şöhrət qazanmışdılar. Onlar döyüşə girərkən ölümə nifrət əlaməti olaraq atlarının boynuna qırmızı kaporlar taxardılar ki, düşmən tərəfindən tez gözə çarpsınlar."

**NAXÇIVAN ŞAHMAT MƏKTƏBİ** – 1981 ildə yaradılmışdır. Açılış mərasimində o zaman da Azərb.-ın rəhbəri olan Heydər Əliyev iştirak etmişdir. Məktəbdə 436 şagird məşğul olur. Onların 15-i ustalığa namizəddir (2000). Təkmilləşmə və ibtidai hazırlıq, təlim-məşq qrupları fəaliyyət göstərir. Məktəbin yetirmələri məktəblilərin keçmiş ümumittifaq və respublika şahmat yarışlarında iştirak etmişlər. 1998 ilin dekabrında şəhərin Nizami küçəsindəki ikimərtəbəli müasir binaya köçmüşdür.

**NAXÇIVAN ŞƏHƏR POLİKLİNİKASI**, **akad.** Z. Ə. Ə l i y e v a ad. – tibb müəssisəsi. 1922 ildə Naxçıvan şəhər xəstəxanası nəzdində ambulatoriya kimi fəaliyyətə başlamışdır. 1936 ildən həmin xəstəxana yanında poliklinikaya çevrilmişdir. 1985 ildən A. Cəlilov küçəsində tikilmiş yeni ixtisaslaşdırılmış binada yerləşir. Poliklinikada cərrahiyyə, rentgen şöbələri, I–II terapiya şöbəsi və kabinələri, stomatologiya, oftalmologiya, lor, nevrologiya, fizioterapiya, laboratoriya kabinələri, profilaktika-müayinə və yeniyetmələr kabinələri fəaliyyət göstərir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev 1999 ildə





Naxçıvan MR-in 75 illik yubileyi ilə əlaqədar Naxçıvanda olarkən poliklinikaya gəlmiş, onun işi ilə tanış olmuşdur. 1999 ildən akad. Zərifə Əliyevanın adınadır. Burada onun həyat və fəaliyyətini əks etdirən muzey yaradılmışdır.

**NAXÇIVAN ŞƏRAB ZAVODU** – yeyinti sənayesi müəssisəsi; üzüm, meyvə və giləmeyvə şərabı istehsal edir. 1927 ildə inşa olunmuşdur. Hər növbədə 20 min ədəd və ya 1000 *dkl* şərab və şərab məhsulları istehsal etmək gücünə malikdir. Z-dun emal, spirtçəkən və doldurucu sexləri, laboratoriyası, hazır məhsul anbarı, şüşə yuyan qurğusu və s. əsas və yardımçı sexləri vardır. İstehsal prosesləri əsasən, mexanikləşdirilmiş və avtomatlaşdırılmışdır. 1998 ildən açıq tipli "Şərab" səhmdar cəmiyyətinə çevrilmişdir. Z-dda ağ və çəhrayı süfrə şərabları, şirin çaxır və s. istehsal olunur. Məhsulları müxtəlif beynəlxalq müsabiqələrdə nümayiş etdirilmişdir.

**NAXÇIVAN ŞÜŞƏ QABLAR ZAVODU** – şüşə sənayesi müəssisəsi. 1979 ildə istifadəyə verilmişdir. 1983 ildən qaz yanacağı ilə işləyən z-d istehsal həcmini artırmış və nəticədə 1986 ildən başlayaraq ildə 60 mln.-a qədər butulka istehsal etmişdir. 1992 ilin iyulunadək z-dda 440 mln.-a qədər butulka istehsal olunmuşdu. İlk fəaliyyəti dövründə 450–500 nəfər fəhlə və qulluqçu işləmişdir. Z-dun ümumi tikililərinin sah. 3,5 *ha*, tam ərazisi 12 *ha*-dır. Əsas istehsal növü 0,5 *l*-lik butulka məhsuludur. Z-dun istehsal gücü ildə 60 mln. ədəd 0,5 *l*-lik butulka üçün nəzərdə tutulub. Z-dda əsas istehsal prosesi ilə yanaşı, transformator yarımstansiyaları üçün təcridedicilər (izolyatorlar), müxtəlif çeşidli məişət qabları və keramika məmulatları istehsal olunur (2000).

**NAXÇIVAN TAXIL MƏHSULLARI KOMBİNATI** – yeyinti sənayesi müəssisəsi. 1979 ildə istifadəyə verilmişdir. Kombinatın tərkibinə taxıl məhsulları emalına və un istehsalına dair əsas və yardımçı sexlər daxildir. 30 min *t* tutumu olan keyfiyyət normaları tələbatına uyğun elevator sexi (taxıl anbarı) var. Kombinat gündə 245 *t* buğda emal etmək və 185 *t* un üyütmək gücünə malikdir. 1983 ildə istifadəyə verilmiş qarışıq yem sexində gündə 200 *t* qarışıq yem istehsal etmək mümkündür. 1997 ildən səhmdar cəmiyyətə çevrilib.

**NAXÇIVAN TƏBİİ VİLAYƏTİ** – Azərb. Respublikası ərazisinin təbii vilayətlərindən biri. Bax *Naxçıvan fiziki-coğrafi vilayəti*.

**NAXÇIVAN TİBB TEXNİKUMU,** H e y r a n X a n ı m ad. – orta ixtisas təhsili müəssisəsi. Təsisçisi Azərb. Respublikası Səhiyyə Nazirliyidir. 1931 ildə təşkil edilmişdir (1935 ildə 12 nəfərdən ibarət ilk buraxılışı olmuşdur). 1935 ilin sonundan Naxçıvan Tibb Bacısı Məktəbi adı ilə fəaliyyət göstərmişdir. 4 ixtisas üzrə tibb kadrları (feldşer; feldşer-laborant; tibb bacısı; mamalıq) hazırlayır. 1972 ildən şairə Heyran xanımın adını daşıyır. 1999 ilədək N. t. t. -nu 5027 mütəxəssis bitirmişdir.

**NAXÇIVAN TİCARƏT-TƏDRİS MƏRKƏZİ** – 1999 il oktyabrın 12-də açılmışdır. Muxtar respublika rəhbərliyinin təşəbbüsü və Azərb. Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsaiti hesabına, şüşə-beton konstruksiyalardan istifadə olunmaqla, müasir üslubda tikilmiş üç mərtəbəli mərkəzin (Təbriz küç., 3) 1-2-ci mərtəbələrində ticarət və xidmət obyektləri, 3-cü mərtəbəsində isə tədris sahələri (kompüter mərkəzi, internet sistemi) yerləşir. Nax. MR-in 75 illik yubiley şənliklərindlə iştirak edən Azərb. Respublikasının Prezidenti Heydər Əliyev mərkəzin açılış mərasimində geniş nitq söyləmişdir.

**NAXÇIVAN TİKİNTİ-QURAŞDIRMA DÖVLƏT ŞİRKƏTİ** – bina və qurğuların ucaldılması zamanı tikinti obyektlərində görülən və hər cür avadanlığın quraşdırılmasını yerinə yetirən müəssisə. 1996 ildə 5 nömrəli Naxçıvan Tikinti Trestinin, 8 nömrəli Naxçıvan Su Tikinti Trestinin və Naxçıvan Aqrotikinti Trestinin bazası əsasında yaradılmışdır. Şərur, Ordubad, Culfa, Babək, Şahbuz, Sədərək rayon tikinti-quraşdırma idarələrini, 2 saylı Naxçıvan tikinti-quraşdırma idarəsini, Mexanizasiya və avtonəqliyyat idarəsini, Santexelektromontaj idarəsini, Naxçıvan su tikinti-quraşdırma idarəsini, sənaye kombinatını, təchizat idarəsini əhatə edir. Şirkət Nax. MR büdcəsi, yerli büdcə vəsaiti hesabına maliyyələşən obyektlərdə inşaat yönlü bütün işləri görür.

**NAXÇIVAN TİKİŞ FABRİKİ** – yüngül sənaye müəssisəsi. 1959 ildə Nax. MSSR Yerli Sənaye Nazirliyinin nəzdində 1 sex və 74 nəfər işçi ilə fəaliyyətə başlamışdır. 1964 ildə Yüngül Sənaye Nazirliyinin tərkibinə daxil





olaraq "5 saylı Naxçıvan tikiş fabriki", 1974 ildə isə "Naxçıvan Muxtar Respublikasının 50 illiyi ad. Naxçıvan tikiş fabriki" adlandırılmışdır. 1967 və 1987 illərdə f-kdə tikilmiş 2 istehsalat korpusu ilə birlikdə 3 tikiş sexi, bir biçim sexi, hazır mal anbarı, xammal anbarı və idarə binası mövcuddur. Əsasən, məktəbəqədər yaşlı, məktəbli uşaqlar və böyüklər üçün köynək istehsalı üzrə ixtisaslaşmışdır. Fabrik işə düşəndən ən yüksək nəticəni 1987 ildə əldə etmiş, 1200 nəfər təcrübəli tikişçi ilə iki növbədə işləyərək 250 min ədəd müxtəlif çeşidli və ölçülü köynək istehsalına nail olmuşdur. Keçmiş SSRİ-nin 87 şəhərindəki ticarət təşkilatları ilə müqavilə bağlayaraq məhsullarının satışını təşkil etmiş, 27 şəhərdən isə xammal və köməkçi materiallar almışdır. 1987 ildə f-kin yeni tikilmiş korpusunda Almaniyanın "PFAFF" firmasının istehsalı olan yeni modelli tikiş maşınları quraşdırılmışdır. 1999 ildə 3 mlrd. 216 mln. manatlıq məhsul istehsal edilmişdir.

**NAXÇIVAN TÜMƏNİ** – orta əsrlərdə (xüsusilə 13–15 əsrlərdə) Azərb.-da inzibati-ərazi vahidi; həmin əsrlərdə Azərb.-ın c. əraziləri 9 tümənə bölünmüşdü. Onlardan biri də N. t idi. Çoxmənalı "tümən" termini ilə 10000 döyüşçünü birləşdirən hərbi hissə, 10000 dinara bərabər pul vahidi və 10000 əsgər verə biləcək inzibati ərazi nəzərdə tutulurdu. N. t. də Təbriz, Ərdəbil, Pişkin, Xoy, Sərab, Marağa və Mərənd tümənləri kimi dövlətə 10000 döyüşçü verməli idi. Nisbətən geniş ərazini – Araz çayının şm. və c. tərəflərini əhatə edirdi; ərazisinin əsas hissəsi Arranda olsa da, müəyyən qismi indiki Cənubi Azərb.-ın şm.-q.-ndə idi. Şərqdə Ərmən vilayəti ilə sərhədlənən bu tümən Makudan Qafan dağlarına kimi geniş ərazini əhatə edir, Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla hüdudlanaraq, Göyçə gölünə qədər uzanırdı. Fəzlullah Rəşidəddinin (1247–1318) "Asar və əhya" /"Təsir və dirçəliş"/ əsərində verilmiş "Zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir" və s. kimi faktlar Qafan ərazisinin N. t.-nə daxil olduğunu göstərir. Azərb.-ın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Maku N. t.-nin tərkibinə daxil idi. Naxçıvan və Ordubad ş.-ləri Azərb.-ın 260 tümən olan illik hasilatının toplandığı 21 iri şəhəri sırasında sadalanırdı.

Azərb.-ın c.-nda Naxçıvan ş.-ndən çox da uzaqda olmayan və onunla eyni en dairəsində yerləşən Makunun digər Azərb. tümənlərinin, xüsusilə N. t. ilə qonşu olan Xoy və ya Mərənd tümənlərinin tərkibində verilməməsi ərazinin məhz N. t.-nə daxil oduğunu bir daha təsdiq edir. Dvin şəhəri də N. t.-nə daxil idi. Ərəb coğrafiyaşünası Yaqut Həməvinin /1179–1229/ yazdığına görə, Dvin "Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında" yerləşirdi. 1338 ildə Dvin ərazisi Şərurla birlikdə Hülaku əmiri Əkəncinin oğlu Hacı bəyə verilmişdi. Dvinin Azərb.-a, deməli N. t. ərazisinə daxil olması əl-Umari, əl-Məkrizi, Əbu-l-Fida, İbn Xəldun və b. ərəb müəlliflərinin məlumatından da bəllidir.

16 əsrin əvvəllərində Naxçıvan bölgəsi Səfəvilər imperiyasının tərkibinə daxil oldu və inzibati ərazi vahidi bəylərbəyiliklə əvəz olundu. Naxçıvan ərazisinin çox hissəsi *Çuxursəd bəylərbəyiliyinin* tərkibinə daxil idi. Yalnız Ordubad Azərbaycan–Təbriz bəylərbəyiliyinə tabe idi. Belə vəziyyət İran hökmdarı Nadir şah Əfşarın [1736–47] hakimiyyətinə qədər davam etdi. Səfəvi–Osmanlı müharibələri dövründə türklər qələbə çaldığı zaman Azərb. ərazisində yeni inzibati–idarə sistemi yaratdı və onu sancaqlara böldü. Naxçıvan diyarı inzibati-ərazi vahidi kimi sancaq adlandırıldı (bax *Naxçıvan sancağı*). İran hakimiyyəti dövründə (1798–1828) 9 mahaldan ibarət olan Naxçıvan diyarı iki tüməndə – N. t.-ndə və *Ordubad tümənində* birləşdirilmişdi. Nadir şah Naxçıvan əyalətinə rəhbərlik etmək üçün təyin etdiyi iki hakimdən biri "Hakim-e Naxçıvan" adlanırdı.

*Əd.:* P i r i y e v V. Z., XIII-XIV əsrlər Naxçıvanın

tarixi-coğrafiyası. Naxçıvan Dövlət Universitetinin "Elmi əsərləri" (humanitar seriya), 1999, № 6.

**NAXÇIVAN TÜRK LİTSEYİ** – təhsil müəssisəsi. 1991 ildə, Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin Nax. MR Ali Məclisinin sədri işlədiyi vaxt, onunla Türkiyə Respublikası "Zaman" qəzetinin təmsilçiliyi arasında Naxçıvan ş.-ndə Oğlanlar kollecinin açılması barədə bağlanan müqaviləyə əsasən 1992 ildən fəaliyyət göstərir. Litsey öz fəaliyyətində Azərb. Respublikasının təhsil qanununa, Əsasnamə və Nizamnaməsinə əsaslanmaqla yanaşı, Türkiyə Respublikasının təhsil proqramından da istifadə edir. Dərslər Azərb. və türk dillərində aparılır. Bəzi dəqiq fənlər ingilis dilində tədris olunur, rus dili də öyrədilir. Litseydə fənn kabinələri, laboratoriyalar, 2000 kitab fondu olan kitabxana fəaliyyət göstərir. Litseyin bazası əsasında onun filialları – Ordubadda qız litseyi (1993), Şərur ekonomik litseyi (1994) yaradılmışdır.

**NAXÇIVAN ÜZLÜK PLİTƏLƏR ZAVODU** – tikinti materialları sənayesi müəssisəsi. 1982-91 illərdə fəaliyyət göstərmişdir. 1991 ildən *Babək Rayon Daş Emalı Zavodu* adlanır.

**NAXÇIVAN YAZIÇILAR BİRLİYİ** – Nax. MR yazıçılarının könüllü yaradıcılıq təşkilatı. 1928 ildə Azərb. Proletar Yazıçıları Cəmiyyətinin filialı kimi yaradılmışdır. 1958 ildə Azərb. Yazıçılar İttifaqının Naxçıvan şöbəsinə çevrilmiş, Azərb. yazıçılarının X qurultayında (1997) Naxçıvan Yazıçılar Birliyi statusu almışdır. Azərb. Yazıçılar Birliyinin tərkibindədir. 42 üzvü var (2000); üzvlərindən biri Azərb.-ın xalq yazıçısı adına, bir çoxu isə Azərb. Respublikasının və Nax. MR-in müxtəlif fəxri adlarına layiq görülmüşdür. Naxçıvanda yaşayan şair və yazıçıların əsərlərindən ibarət "Səadət mahnıları" adlı ilk almanax 1953 ildə çapdan çıxmışdır. İndiyədək Naxçıvan şair və yazıçılarının 200-dən çox kitabı nəşr olunmuşdur (2000); onların 17-si Azərb. Respublikasının Prezdenti Heydər Əliyevin Nax. MR-in yaradılmasının 75 illiyi ilə əlaqədar sərəncamına əsasən 1999 ildə işıq üzü görmüşdür. İranda Naxçıvan yazıçı və şairlərinin əsərlərindən ibarət Azərb. və fars dillərində "Səhər nəğmələri" adlı kitab çap edilmişdir (1999). Naxçıvan Musiqili Dram Teatrında naxçıvanlı müəlliflərin 30-a yaxın pyesi tamaşaya qoyulmuşdur. Birliyin sədri xalq yazıçısı Hüseyn İbrahimovdur.

**"NAXÇIVAN YÜRÜŞÜ"** – Osmanlı qoşunlarının Səfəvi dövləti ərazisinə 12-ci yürüşünün (1554) tarixi qaynaqlarda adı. Bax *Naxçıvan səfəri (1554)*.

**NAXÇIVAN ZƏRBXANASI** – erkən orta əsrlərdən Naxçıvan ş.-ndə fəaliyyətə başlamış sikkəkəsən zərbxana. Tarixi qaynaqlardan məlumdur ki, Naxçıvan ş. qədim zamanlardan mühüm ticarət və sənətkarlıq mərkəzi idi; İranın, Gürcüstanın (xüsusilə Mesxeti) bir sıra şəhərləri ilə, Qara dəniz limanları, Kiçik Asiya və Beynəlnəhreyndəki şəhərlərlə sıx ticarət əlaqələri saxlayırdı. Əmtəə istehsalının artımı və ticarətin inkişafı pul dövriyyəsinə xeyli vüsət verdi. Naxçıvan ş.-ndə ilk zərbxananın Sasani şahənşahı I Xosrovun – Ənuşirəvani-Adilin [531–579] hakimiyyətinin 3-cü ilində (534) təsis edildiyi bəllidir. Bu, Azərb.-da ən qədim zərbxanalardan biri hesab olunur. Tarixçi-numizmat Y. A. Paxomovun fikrincə, əldə olunmuş pəhləvi dilində "Naxç" işarəsi ilə kəsilmiş Sasani sikkələri N. z.-na məxsusdur. N. z.-nda Sasani hökmdarlarından IV Hürmüz [579–590], VI Bəhram Çubin [590–591], II Xosrov Pərviz [591–628], II Qubad [628], III Ərdəşir [628–629], Fərruxan Şəhrvəraz [629], V Hürmüz [631–632], III Xosrov [632], III Yezdəkürd [632–651] və b.-nın adından gümüş dirhəmlər kəsilmişdir.





Numizmatik materiallardan aydın olur ki, Böyük İpək Yolu üstündə yerləşən Naxçıvanın Şərq–Qərb ticarət əlaqələrində əhəmiyyətli rolu, buranın özündə ticarətin və sənətkarlığın inkişafı 11–12 əsrlərdə N. z.-nda İraq səlcuq sultanlarının, o cümlədən Azərb. atabəylərinin (Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Özbək və b.) adından mis dirhəm və felslərin zərbinin daha da artmasına səbəb olmuşdur.

Monqol istilalarının (13 əsr) ilk vaxtlarında N. z.-nda "Uluq monqol ulusbəyi" yazısı ilə adsız gümüş dirhəmlər, Elxanilər dövründə [1256–1357] Hülaku xan və onun xələflərinin adlarından qızıl dinar, gümüş dirhəm və mis felslər, həmçinin Müzəffərilər, Cuçilər, Cəlairilərin adından sikkələr zərb olunmuş, əmir Teymurun "işğal zərbi" icra edilmişdir. N. z. Səfəvilər dövründə daha gərgin fəaliyyət göstərmiş, burada I İsmayıl [1501–24], I Təhmasib [1524–76], II İsmayıl [1576–77], Məhəmməd Xudabəndənin [1578–87] adlarından gümüş şahı və məhəmmədi (1/2 şahı) adlı sikkələr, I Abbas [1587–1629] və onun xələfləri adından gümüş abbası, yarım abbası – məhəmmədi, və şahı (1/4) adlı pullar zərb olunmuşdur. Səfəvi–Osmanlı müharibələri N. z.-nın da fəaliyyətinə təsir göstərmiş, burada Türkiyə sultanlarının adlarından "işğal zərbi" icra edilmişdir. N. z. xanlıqlar dövründə də fəaliyyətini davam etdirmiş və adsız gümüş sikkələr – abbası və onun hissələri, eləcə də mis fülüslar zərb etmişdir.

*Əd.:* M ə m m ə d o v R. A., Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), B., 1977; П а х о м о в Е. А., Монеты "Нахчавана", Azərb. SSR EA-nın Xəbərləri, 1949, № 5; Р а д ж а б л и А., Нумизматика Азербайджана, Б., 1997.

**NAXÇIVANÇAY** (qədim adı Q a r a b a b a ç a y) – Şahbuz və Babək r-nları ərazisində çay. Uz. 81 *km*, hövzəsinin sah. 1630 $km^2$. Keçidağdan (2720 *m* hünd.-dən) başlanır. Araz su qovşağının su anbarına tökülür. Qar, yağış suları və yeraltı sularla qidalanır. Əsas qolu Cəhri çayıdır. Hövzəsində su anbarları (Uzunoba, Sirab) və su qovşağı yaradılmışdır. N. vadisindəki qədim yaşayış yerlərində (Kültəpə və s) aparılmış arxeoloji qazıntıların nəticələri Eneolit və ilk Tunc dövrlərində Araz çayının sol sahilində yaşamış əhalinin həyat və mədəni inkişaf yollarını izləməyə imkan verir. 19 əsrin əvvəlində çayın Araza töküldüyü yerdə *Abbasabad* qalası tikilmişdi.

**NAXÇIVANDA ERMƏNİ İDARƏÇİLİYİ** – 1919 ilin may-iyun aylarında İngiltərənin təşəbbüsü və dəstəyi ilə Azərb.-ın Naxçıvan mahalında yaradılmış Ermənistan "idarəçiliyi". Bölgə əhalisinin iradəsi əleyhinə mahalı Ermənistana birləşdirmək məqsədi güdürdü. Azərb. Xalq Cümhuriyyəti (AXC) hökuməti və mahalın əhalisi Naxçıvan bölgəsinin əldən getməsi təhlükəsi qarşısında zəruri tədbirlər görmək məcburiyyətində qaldı; "erməni idarəçiliyi"nə yol verməmək tələbləri ilə Paris Sülh konfransına (1919), müttəfiq dövlətlərin Qafqazdakı nümayəndəliklərinə dəfələrlə müraciətlər edildi. Lakin bu müraciətlərə məhəl qoyulmadığından yerli əhali "erməni idarəçiliyi"nə öz qüvvəsi ilə hərbi yolla son qoymaq qərarına gəldi; əli silah tutan kişi əhalisi arasında səfərbərlik işləri gücləndirildi. Görülmüş zəruri hazırlıq tədbirlərindən sonra iyulun 18-i ilə 25-i arasında Naxçıvan ş.-ndə və ətraf ərazilərdə işğalçı erməni silahlı qüvvələri ilə qanlı döyüşlər aparıldı. Qıvraq k-ndən gələn silahlı yardım sayəsində erməni silahlı dəstələri Naxçıvandan çıxarıldı; Şahtaxtı və Noraşen stansiyalarında gedən döyüşlərdə xeyli itkilər verərək "Qurd qapıları"ndan Ermənistan tərəfə geri çəkilməyə məcbur oldu. Beləliklə, 1919 il iyulun 25-i Naxçıvan mahalının erməni işğalçılarından xilas edilməsi uğrunda mübarizənin qalibiyyətlə başa çatdırılması günü kimi xalqın tarixinə əbədi həkk olundu, ermənilərin Naxçıvan bölgəsindəki siyasi, hərbi və iqtisadi mövqelərinə sarsıdıcı zərbə endirildi.

**NAXÇIVANDA KƏNDLİ İĞTİŞAŞLARI VƏ ÜSYANLARI (1920–30)** – Nax. MR-də sovet hakimiyyəti əleyhinə çıxışlar, iğtişaşlar və üsyanlar. 1920 il iyulun 28-də Naxçıvan ş.-ndə sovet hakimiyyəti elan edilməsinə, iyulun 29-da isə Hərbi İnqilab Komitəsi və Hərbi Əmək Müdafiə Şurası yaradılmasına baxmayaraq, yeni hakimiyyət yalnız diyarın ərazisinin 20 faizində təsir gücünə malik idi. Bunu Ordubadda ancaq oktyabrın 19-da, Şərurda isə dekabrın 2-də inqilab komitələri və yerli sovet hakimiyyəti orqanları yaradılması faktından da görmək olar; çünki bu ərazilərdə yeni hakimiyyəti qurmazdan əvvəl daşnak təhlükəsi və işğalının nəticələrini ləğv etmək

tələb olunmuşdu. Digər tərəfdən, Ermənistanın daşnak hökuməti silahlı qüvvələrinin mütəmadi hücumlarının qarşısının qətiyyətlə alınmaması, yeni hakimiyyətin diktaturaya meyl etməsi hallarının güclənməsi də diyarın əhalisini hiddətləndirirdi; onlar nicat dolu nəzərlərini getdikcə daha çox Naxçıvanda olan türk qoşun hissələrinə yönəldirdilər. Oktyabrın 5-də Sovet Rusiyasının tərəfdarı sayılan Bahadır Vəlibəyovun XI Qızıl Ordunun əlavə hissələri ilə fövqəladə komissar kimi Naxçıvan ş.-nə gəlməsi və cəza tədbirlərini gücləndirərək, türk hərbi hissələrinin Naxçıvandan çıxarılmasını tələb etməsi azərb.-lı əhalinin qəzəbini daha da artırmışdı. Naxçıvan ictimaiyyətinin tələbilə B. Vəlibəyov vəzifəsindən uzaqlaşdırılsa da, az sonra Q. Orconikidzenin köməyi ilə yenidən vəzifəsinə bərpa olunmuşdu.

1920 il dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında Azərb. İnqilab Komitəsinin elan etdiyi bəyannamədə Zəngəzur və Naxçıvan qəzalarının Ermənistana verilməsi xəbəri əhalinin sovet hakimiyyətindən narazılığını son həddə çatdırdı. Yenidən Ermənistanın əsarəti altına düşmək təhlükəsi ilə üzləşən Naxçıvan əhalisi inqilab komitəsi qarşısında toplaşaraq buna qəti etirazını bildirdi və rəsmi izahat tələb etdi. Vəziyyətin gərginləşəcəyindən qorxuya düşən Azərb. İnqilab Komitəsi Naxçıvana yaxşı bələd olan Azərb. SSR Xalq Ədliyyə komissarı B.Şahtaxtinskini fövqəladə səlahiyyətlə diyara ezam etdi. B.Şahtaxtinski Naxçıvan əhalisinin qarşısında çıxış edərkən hətta bildirmişdi ki, "Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir...". O, Naxçıvan ş.-ndə Şərur–Dərələyəz və Ordubad əhalisinin də mitinqlərini keçirmişdi. Mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərb. SSR qəyyumluğunda müstəqil respublika kimi təşkil olunmasını istədiyini bildirdi. Mitinqlərin nəticələri barədə Azərb. və Ermənistan inqilab komitələrinə müvafiq məlumatlar verilmişdi. Görünür, Naxçıvan əhalisinin türk hərbi hissəsi tərəfindən dəstəklənən bu qətiyyəti artıq Naxçıvana öz ərazisi kimi baxan Ermənistan İnqilab Komitəsini dekabrın 28-də bəyanat verərək Naxçıvanı müstəqil sovet respublikası kimi tanımağa və daşnakların bu ərazi ilə bağlı iddialarından imtina etdiyini bütün dünyaya bildirməyə məcbur etmişdi.

1920–30 illərdə sovet hakimiyyətinin Azərb. ictimai-siyasi və mənəvi həyatı ilə uzlaşmayan sərt tədbirləri Naxçıvan əhalisinin müqaviməti ilə qarşılaşmış, dəfələrlə iğtişaş və üsyanlara səbəb olmuşdu. 1925 ilin mart ayında Naxçıvan diyarının bir sıra şəhər və kəndlərini iğtişaşlar bürümüşdü. Naxçıvanda, Tirkeşdə, Vənənddə və s. yerlərdə kəndli iğtişaşları zor gücünə yatırıldı. Sonralar aparılmış saysız-hesabsız istintaqlarda erməni müstəntiqləri heç bir günahı olmayan dinc əhalinin cəzalandırılmasında xüsusilə fərqlənmişdilər. Culfa rayonunun Milax kəndində onların əli ilə 38 nəfər güllələnmiş, 38 nəfər isə müxtəlif cəzalara məhkum olunmuşdu. Şərurda kəndli iğtişaşlarına 1918–20 illərdə erməni işğalçılarına qarşı mübarizədə misilsiz xidmətləri olmuş Fətulla bəy Hüseynov rəhbərlik etmişdir. Naxçıvan–Dərələyəz bölgəsində genişlənən kəndli hərəkatına Şahbuzun Tirkeş, Keçili, Kolanı, Culfanın Əbrəqunis, Milax, Ərəfsə, Ordubadın Tivi və digər kəndlərinin sakinləri də qoşulmuşdu. Bu çıxışlar amansızlıqla yatırılmışdı.

30-cu illərin əvvəllərində kollektivləşmə xəttinin zorla həyata keçirilməsi bütün Azərb.-da olduğu kimi, Naxçıvan MR-də də kütləvi narazılıqlara və həyəcanlara səbəb olmuşdu. 1929 ilin sonundan başlanan silahlı müqavimət halları 1930 ilin yayında genişlənmişdi. Sovet hakimiyyətinə qarşı silahlı müqavimət Şahbuz r-nunda xüsusilə güclü olmuşdu. Naxçıvan, Şərur, Ordubad r-nlarının dağ kəndləri silahlı müqavimət tərəfdarlarının sığınacaq məntəqələrinə çevrilmişdi. 1930 ildə Naxçıvanda əhali kommunist hakimiyyətini devirməyə cəhd göstərmiş, yalnız sovet qoşun hissələrinin müdaxiləsi bolşevik hakimiyyətini yenidən bərpa etməyə imkan vermişdi; bu zaman daxili müqavimət hərəkatını xaricdəki mühacir təşkilatlarının fəaliyyəti ilə əlaqələndirmək üçün də təşəbbüslər göstərilmişdi. Müqavimət hərəkatı muxtar respublikada kolxoz hərəkatını xeyli zəiflətmişdi. Heç də təsadüfi deyildir ki, muxtar respublikada yaranmış təhlükəli vəziyyət sovet hakimiyyəti orqanlarında yüksək səviyyədə dəfələrlə müzakirə olunmuş və bu məqsədlə



Azərb. SSR MİK-in sədri Q. Musabəyov SSRİ və ZSFSR MİK-ləri adından tam səlahiyyətlə Naxçıvana təhkim edilmişdi. Yalnız təbliğat və təşviqat vasitələrinin tam qüvvəsi ilə işə salınması, kömək üçün hərbi hissələrə müraciət edilməsi vəziyyətin daha təhlükəli hala düşməsinin qarşısını almış, sovet hakimiyyətini qoruyub saxlamağa imkan vermişdi. 1930 il martın 20–22-də sayı 500 nəfərə çatan və ən çox Şahbuz r-nunda toplaşan silahlı müqavimət dəstələrinə qarşı nizami ordu hissələrinin yeridilməsi isə döyüşləri, təbii olaraq, sovet hakimiyyətinin xeyrinə həll etmişdi. Görünür, 1937–38 illər repressiyaları zamanı Naxçıvan əhalisinin sovet hakimiyyətinə qarşı bu fəal çıxışları da yada salınmış və 1937 ilin avqust ayının təkcə 10 günündə (5–15-i) Naxçıvan kəndlilərindən 9950 nəfəri həbs edilərək müxtəlif cəzalara məhkum olunmuş, yaxud sürgün edilmişdi.

*Əd.:* Ə l i y e v Ə., Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə, B., 1960; y e n ə o n u n, Əlincə yaddaşı. Naxçıvan. 1914–1992. B., 1997; S a d ı q o v S., Naxçıvan Muxtar Respublikası tarixindən. B., 1995.

**NAXÇIVANIN MUXTARİYYƏTİ STATUSU** – 1918–24 illərdə erməni təcavüzünün qarşısını almaq, diyarın Ermənistana ilhaq edilməsinə və Azərb. əhalisinin soyqırımına yol verməmək məqsədilə Naxçıvan diyarına Azərb.-ın tərkibində muxtariyyət statusu verilməsi ilə bağlı məsələnin beynəlxalq səviyyədə həlli prosesi. N. m. s.-nun əldə edilməsində M. K. Atatürk, N. Nərimanov, B. Şahtaxtinski, Kazım Qarabəkir Paşa və b. mühüm rol oynamışlar. 1917–20 illərdə Naxçıvan diyarı üçün daha çətin inkişaf dövrü olmuş, bu qədim Azərb. torpağının real olaraq Ermənistana ilhaq edilmək təhlükəsi yaranmışdı. Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlərin (ABŞ, İngiltərə) himayə etdiyi Ermənistanın daşnak hökuməti bu bölgəni "Böyük Ermənistan"a qatmaq üçün silahlı təcavüzə əl atmış, bu məqsədlə hətta Andronikin, Dronun, Njdenin qaniçən quldur dəstələrinin xidmətindən belə istifadə etməkdən çəkinməmişdi. Lakin diyarın əhalisi bu amansız təcavüz tədbirlərinə mərdliklə müqavimət göstərmiş, özünün yeganə xilas yolunu Azərb.-a birləşməkdə görmüşdü. Həmin dövrdə ermənilərin təqsiri üzündən Naxçıvan diyarında baş verən ictimai-siyasi hadisələr faciəli bir həddə çatdığından beynəlxalq ictimaiyyəti düşündürən mühüm problemə çevrilmişdi. Azərb. Xalq Cümhuriyyəti hökumətinin bu problemi sülh yolu ilə həll etmək cəhdlərini zəiflik əlaməti kimi qiymətləndirən daşnak hökuməti bu diyarın tezliklə Ermənistana birləşəcəyi barədə şayiələr yayırdı. 1920 ildə qədim Azərb. ərazisi olan Zəngəzur mahalının Ermənistan SSR-in tərkibinə qatılması ilə Naxçıvanın Azərb.-dan ayrı salınması diyarın muxtariyyət məsələsinin daha da ciddiyyətlə irəli sürülməsini zəruri etdi.

1921 ilin əvvəllərində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda diyar əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərb.-ın tərkibində qalmasına səs verdi. Məsələnin həllində Türkiyə hökumətinin qəti mövqeyi, B. Şahtaxtinskinin Moskvada apardığı danışıqlar mühüm rol oynadı və RSFSR hökumətinin də bu məsələdə mövqeyinin dəyişməsinə təsir göstərdi. 1921 ildə imzalanmış Moskva və Qars müqavilələri Naxçıvan diyarının Azərb.-ın tərkibində muxtar qurum kimi qalmaq imkanlarını reallaşdırdı [bax *Moskva müqaviləsi* (1921), *Qars müqaviləsi* (1921)]. Bu beynəlxalq müqavilələr Naxçıvanın Azərb.-ın tərkibində muxtar ərazi statusunu təsbit etdi; bu müqavilələrlə Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərb.-ın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişdir.

Azərb. SSR MİK-in 9 fevral 1924 il tarixli dekreti Azərb.-ın tərkibində Naxçıvanın muxtariyyət statusunu qəti təsbit etdi. N. m. s. diyarın sonrakı tarixi taleyində çox mühüm rol oynamışdır. "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq" (H. Ə. Əliyev).

**NAXÇIVANİ** Abdulla, M i r M u r t a z (?–?) – filosof, ilahiyyatçı (təxm. 15 əsr). Nəsirəddin Tusinin "Kəlamın təcridi" ("Təcrid əl-kəlam") traktatına şərh yazdığı məlumdur. "Təcrid əl-kəlam"ın mündəricəsinə əsasən N.-nin ümumi fəlsəfi problemləri, substan-

siya, aksidensiya və i. a. məsələləri araşdırdığını söyləmək olar. Türk alimi Katib Çələbi (Hacı Xəlifə; 1608–70) onu "tədqiqatçı" ("əl-müdəqqiq") deyə yad etmişdir.

*Əd.:* Məmmədov Z. C., Azərbaycan fəlsəfəsi tarixi, B., 1994.

**NAXÇIVANİ** Böyükxan (?, Naxçıvan ş. – ?) – teatr xadimi, aktyor və rejissor. 20 əsrin əvvəllərində Naxçıvan teatrında rejissor və aktyor olmuşdur. 1919 ildə bu teatrın Təbrizə qastrol səfərini təşkil etmiş və böyük uğur qazanmışdır. Sonralar Cənubi Azərb.-da fəaliyyət göstərmiş, Təbriz teatrının əsasını qoymuşdur. "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşr edildiyi dövrdə C. Məmmədquluzadənin yaxın məsləhətçilərindən olmuş, onun "Ölülər" tragikomediyasının Təbriz tamaşasında Kefli İskəndər rolunu oynamışdır.

**NAXÇIVANİ** Əcəmi Əbubəkr oğlu – Azərb. memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. Bax *Əcəmi Əbubəkr oğlu Naxçıvani.*

**NAXÇIVANİ** Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani (?–?) – 14 əsr Azərb. memarı. Bax *Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani.*

**NAXÇIVANİ** Fəxrəddin, Əbu-l-Fəzl Məhəmməd ibn Deyləm Məhəmməd ən-Naxçıvani (?–1279, Giran) – vəzir, fəqih (hüquqşünas). Tanınmış vəzirlər ailəsinə mənsub olmuş, monqolların hakimiyyəti ərəfəsində və dövründə Naxçıvanda, istifa (maliyyə) divanında xidmət etmişdir. Mənbələrin məlumatına görə, 13 əsrin ortalarında vəzifəsindən və imtiyazlarından əl çəkərək Əhərə getmiş, dövrün məşhur sufi filosofu şeyx Qütbəddin Əbdülqədir ibn Həmzə əl-Əhərinin müridlərindən olmuş, onun zaviyəsində guşənişin həyat sürmüşdür. N.-yə Əhərdə rast gəlmiş məşhur ərəb alimi İbn Fuvati (1244–1326) "bu gözəl qocanı" artıq 1271–72 illərdə Marağada gördüyünü, Nəsirəddin Tusinin onu yüksək qiymətləndirdiyini yazır. Dövrünün tanınmış fəqihi kimi ad çıxarmış N. fars dilində şerlər də yazırdı.

*Əd.:* Сеидбейли М. Г., Научно-культурная жизнь Азербайджана (второй половины XIII – начало XIV вв.), Б., 1999.

**NAXÇIVANİ** Hacı Hüseyn Hacı Abbas oğlu (1848, Təbriz – 1934, orada) – maarifpərvər ziyalı, kitabşünas alim və ictimai xadim. Ata-babaları vaxtilə Naxçıvandan Təbrizə köçmüşdür. Hacı Məhəmməd *Naxçıvaninin* böyük qardaşıdır. Əsasən, ticarətlə məşğul olsa da, ömrü boyu səfərdə olduğu Avropa, Asiya və Afrika ölkələrindən, o cümlədən Misir, Suriya, Türkiyə və Hindistandan, Orta Asiyadan fars, ərəb və türk (Azərb.) dillərində nadir əlyazma və çap kitablarını almışdır. Onun şəxsi kolleksiyasında 4000 kitab olmuşdur. Qardaşı M. Naxçıvani kimi, sonralar kitabxanasını Təbriz Milli Kitabxanasına bağışlamışdır. "Çehel məqalə" ("Qırx məqalə") adlı kitab çap etdirmiş (1909), burada Təbrizin tarixinə dair qiymətli fikirlər söyləmiş, adları ədəbiyyat tarixinə düşməmiş şairlərdən, habelə nadir əlyazmalarından bəhs etmişdir.

**NAXÇIVANİ** Hacı Məhəmməd Hacı Abbas oğlu (1881, Təbriz – 1963, orada) – maarifpərvər ziyalı, kitabşünas alim və ictimai xadim. Ata-babaları vaxtilə Naxçıvandan Təbrizə köçmüşlər. Əsas işi ticarət olsa da, ömrü boyu öz vəsaiti hesabına fars, ərəb və türk (Azərb.) dillərində nadir əlyazma və çap kitabları toplamış, bu məqsədlə böyük qardaşı Hüseyn Naxçıvani ilə birlikdə dəfələrlə Avropa, Asiya və Afrika ölkələrinə – Misirə, Türkiyəyə, Hindistana, Orta Asiyaya səfər etmiş, İranın müxtəlif şəhərlərini gəzmişdir. N.-nin 3692 əlyazma və çap kitabından ibarət kitabxanasındakı nadir incilər arasında "Quran"ın 12 əsrə aid nadir nüsxəsi, Nizami Gəncəvi "Xəmsə"sinin 4 nüsxəsi (2-si 14–15 əsrlərə aiddir), Mirzə Hüseyn Zünuzinin 8 hissədən ibarət "Riyaz ül-cənnə", ikicildlik "Bəhr ül-ülum" əsərləri, Sadıq bəy Əfşarın (Sadiqi) külliyyatı (o cümlədən "Qanun üs-süvər", "Məcmə ül-xəvas" əsərləri), Əlişir Nəvainin 18 əsərdən ibarət külliyyatı, Abdulla Vafi Əhməd ibn Məhəmmədin "Məcməli Fəsih ül-Xəvas", Ömər Xəyyamın müasiri olan məşhur riyaziyyatçı Əbdürrəhman Xazinin "Mizan ül-hikmə" kitabları vardır. O, başqa kitab həvəskarlarından fərqli olaraq, baha qiymətə aldığı nadir kitablarını təmənnasız olaraq tədqiqatçıların istifadəsinə verirdi. Buna görə də dünyanın hər yerindən şərqşünas alimlər onun yanına axışırdı. 1956 ildə Təbriz Milli Kitabxanası təşkil olunarkən kitablarından 500-nü həmin kitabxanaya bağışlamış, vəfatından sonra isə bütün kitabxanasının həmin kitabxanaya bağışlanmasını



vəsiyyət etmişdir. Qətran Təbrizinin divanını bir neçə əlyazması əsasında ilk dəfə çap etdirmiş, "Tərbiyət" kitabxanasının kataloqunu tərtib etmiş (1954), tarix, ədəbiyyat, kitabşünaslıq və digər bilik sahələrinə aid çoxlu məqalələr yazmışdır. N. ictimai xadim kimi də tanınmış, irticaya, işğalçılıq siyasətinə qarşı mübarizəyə çağırmış, xalqın mənafeyini müdafiə etmişdir.

**NAXÇIVANİ** Hinduşah, ibn Səncər ibn Abdullah əs-Sahibi əl-Girani ən-Naxçıvani (1245, Giran – 1328, ?) – tarixçi, dilçi alim, filosof, ədib, mütərcim, şair, katib, dövlət xadimi. Bağdadın Müstənsəriyyə mədrəsəsində oxumuşdur. N. 1275 ildə qardaşı, Kaşan hakimi Seyfəddövlə Əmir Mahmudun naibi olmuş, daha sonra Müstənsəriyyə mədrəsəsində müdərris işləmişdir. 1289 ildə həmin mədrəsə üçün Nəcməddin Katibinin məntiqə dair "Came əd-dəqaiq fi kəşf əl-həqaiq" əsərinin üzünü köçürmüşdür. Əsrin sonlarında maliyyə sistemində çalışmış, bir sıra vilayətlərin hakimi olmuş, görkəmli dövlət xadimi kimi tanınmış və "Fəxr əd-dövlə" ləqəbi almışdır. Əlaəddin Ətaməlik Cüveyninin oğlu ilə yaxın dost olmuş və Cüveyniyə hörmət əlaməti olaraq "Sahibi" nisbəsini qəbul etmişdir. N. türk, ərəb, fars, eləcə də pəhləvi (orta fars) dillərini mükəmməl bilmiş, dərin məlumata malik olması, uzaqgörənliyi, ədəbi zövqü ilə diqqəti cəlb etmişdir. O, fəlsəfə, nücum, riyaziyyat və s. elmlərlə də məşğul olmuş, tərcümələr etmişdir. Müasiri Sədi Şirazi kimi, fars dilində səlis və gözəl nəsrin ən yaxşı nümunələrini yaratmışdır. N.-nin zəmanəmizədək bir neçə əsəri gəlib çatmışdır. Onun ərəb dilində yazdığı "Məvarid əl-ərəb" antologiyası 1307 ildə Təbrizdə tamamlanmışdır. Ərəb xəlifələrinin (56 xəlifə) həyatından, dövrlərindən, onların vəzirlərindən, Əməvilər, Abbasilər və Səlcuqilərin tarixindən bəhs edən "Təcarüb əs-sələf" ("Sələflərin təcrübələri") əsəri isə 1324 ildə tamamlanmış və Böyük Lur atabəyi Nüsrətəddin Əhməd bin Yusif şaha [1295–1330] tihaf olunmuşdur. "Təcarüb əs-sələf" əslində, ərəb alimi İbn Təqtəqinin "Əl-Fəxri" əsərinin fars dilinə tərcüməsi kimi tanınır. Lakin N. həmin əsəri fars dilinə səlis tərcümə etməklə yanaşı, onun bəzi hissələrini atmış, özündən çoxlu əlavələr etmiş, əsəri təkmilləşdirmiş və son nəticədə əsər ərəb variantından 3 dəfə böyük həcmdə başa çatmışdır. Bu mövzuda fars dilində yazılmış ən mükəmməl əsər hesab olunan "Təcarüb əs-sələf"də müəllifin nəsli, özü, Şəmsəddin Cüveyni və b. görkəmli şəxsiyyətlərlə bərabər, Naxçıvan barədə də məlumata təsadüf olunur. Müəllif Giranın Naxçıvan tüməninə, Vənənd k.-nin isə Girana aid olduğunu qeyd edir və Vənənddə Şəmsəddin Məhəmməd Cüveyni [1225–83] tərəfindən layiqli xanəgah tikildiyini və ona əmlak vəqf olunduğunu göstərir. N.-nin Naxçıvana olan həsrəti onun həmin diyardan olduğunu bir daha təsdiqləyir. Allahdan qüvvət, şəfa diləyən müəllif özünün yenidən Nəşəva (Naxçıvan) torpağına yetirilməsini təvəqqe edir. N.-nin "Sihah ül-əcəm" adlı əsəri farsca-azərbaycanca lüğətdir. 21 bab, 393 fəsildən ibarət bu lüğət 3 hissədən – müqəddimə (ərəb dilində), lüğət və fars dilinin qrammatikasından (ərəb dilində) ibarətdir. Burada digər lüğətlərə nisbətən ən çox fars sözü (5117) və onların qarşılığını ifadə edən təxminən 10.000-ə yaxın Azərb. sözü verilmişdir. Əsər 13–14 əsrlərdə Azərb., eləcə də fars dillərinin leksikasını və qrammatikasını öyrənmək üçün qiymətli mənbədir.

*Əd.:* Зариназаде Г. Г., Сравнение "Сихах ал-аджам и "Сихах ал-фурс"; "Ərəb filologiyası məsələləri", buraxılış 2, B., 1973; Буниятов З. М., Сведения Камал ад-дина ибн ал-Фувати о представителях семьи Санджара ибн Абдуллаха ан-Нахичевани. ДАН, XXXIV т., 1978, № 5.

**NAXÇIVANİ** Hüsaməddin, Toğan şah ibn Səncər Abdulla əs-Sahibi ən-Naxçıvani – alim. (13–14 əsrlər). Tanınmış alimlər nəslinin nümayəndəsidir. Görkəmli alim, dövlət xadimi Əlaəddin Ətaməlik Cüveyninin himayəçiliyi ilə elmə yiyələnmiş və ona hörmət əlaməti olaraq "əs-Sahibi" nisbəsi qəbul etmişdir. Bu nəsildən Nəsirəddin Qutluğşah, Fəxrəddin Hinduşah və İzzəddin Dövlətşah kimi elmin müxtəlif sahələrində çalışmış görkəmli alimlər, dövlət xadimləri yetişmişdir.

**NAXÇIVANİ** İbrahim ibn Zeynalabdin (?, Naxçıvan ş. – 1648, Dəməşq) – təbib. Gənc yaşlarında atası ilə Dəməşqə (Suriya) getmiş və orada tibb elminin sirlərini öyrənmişdir. Dəməşqin baş təbibi olmuş, "təbiblər rəisi" kimi şöhrətlənmişdir. Fiqh (müsəlman hüququ) elmi ilə də məşğul olmuşdur. O, həm də

çox söhbətcil və zarafatcıl bir şəxs olmuş, camaat arasında Cəməl adı ilə də tanınmışdır.

*Əd.*: T ə r b i y ə t M., Danişməndani -Azərbaycan, B., 1987, səh. 165.

**NAXÇIVANİ** Məhəmməd i b n H i n d u ş a h i b n S ə n c ə r i b n A b d u l l a h ə l - G i r a n i ə n - N a x ç ı v a n i (təqr. 1293, Naxçıvan – 1376) – alim və dövlət xadimi, qazı əl-qüzzat (baş qazı). Tanınmış elm xadimləri nəslinə mənsub olmuş, atası Hinduşah *Naxçıvaninin* yolunu davam etdirmişdir. Yaxşı təhsil almış, ərəb, fars, türk dillərini mükəmməl bilmiş, dövrünün bir sıra elmlərinə yiyələnmişdir. 14 əsrin 20-ci illərində Təbrizə gəlmiş və Hülakular sarayında maliyyə sahəsində çalışmışdır. F. Rəşidəddinin oğlu, sonralar dövlətin baş vəziri olmuş Qiyasəddin Məhəmməd Rəşidinin yanında münşi və nədim olmuş, qabiliyyətinə görə "Şəms-i münşi ən-Naxçıvani" ləqəbini almışdır. Qiyasəddin Məhəmməd Rəşidinin vasitəçiliyi ilə Elxani hökmdarı Sultan Əbu Səid Bahadır xanla [1316–1335] tanış olmuş, onun göstərişinə əsasən dövlət quruluşu və idarə sisteminə həsr olunmuş xüsusi əsər yazmağa başlamış, lakin onu uzun müddətdən sonra (1366) başa çatdıra bilmişdir. Həyatının ikinci yarısı Azərb.-da Çobanilərin ağalığı və Cəlairilərin hakimiyyəti dövrlərinə təsadüf edir. Bu illərdə din sahəsində də məşhurlaşmış və Cəlairilər dövründə bir müddət dövlətin baş qazısı (qazı əl-qüzzat) vəzifəsində çalışmışdır. N.-nin ictimai-siyasi baxışları Nizam əl-mülk, Rəşidəddin və onun oğlu Qiyasəddinin, həmçinin Vəssaf, Həmdullah Qəzvini və b. mütəfəkkirlərin baxışları ilə demək olar ki, eyniyyət təşkil edir. O da sələfləri kimi, dövlət quruluşunda monarxiya sistemi və mərkəzləşdirilmiş güclü hakimiyyət tərəfdarı olmuşdur. Elmi irsindən dövrümüzədək 2 əsər çatmışdır. 1328 ildə başa çatdırdığı "Sihah əl-fors" əsəri fars dilində işlənilən 2300 sözün, ibarənin izahına həsr olunmuş lüğətdir. Əsər müəllifin müqəddiməsindən (dibaçə), 25 bab və 431 fəsildən ibarətdir. Lüğətin tərtibində sələflərinin təcrübəsindən istifadə edən müəllif fars sözlərinin izahı zamanı bir çox dillərdən, o cümlədən Azərb. və türk dili materiallarından faydalanmışdır. Lüğətdə Azərb. əhalisinin həyat tərzini əks etdirən etnoqrafik materiallar vardır. Burada bir çox söz ustalarının, eləcə də atası Hinduşah Naxçıvaninin şerlərindən parçalar verilir. Müəllif yeri gəldikcə fars dilinin leksikologiyası və fonetikasından bəhs edir. Əsər sonrakı dövrlərdə lüğət tərtibçiləri üçün mənbə rolunu oynamışdır. 4 əlyazma nüsxəsi məlumdur. 1962 ildə Tehranda Ə. Taəti tərəfindən nəşr olunmuşdur.

Cəlairi hökmdarı Şeyx Üveysə [1356–1374] həsr olunmuş və 1366 ildə tamamlanmış 2-ci əsəri iki hissədən ibarət "Dəstur əl-katib fi təyin əl-məratib" ("Dərəcələrin təyin edilməsində katiblər üçün göstəriş") əsəridir. Burada rəsmi dövlət sənədlərinin nümunələri verilmişdir. Lakin sənədlər, sadəcə, nümunə xarakteri daşımayıb, dövrün ictimai-iqtisadi, siyasi, mədəni və dini həyatı barədə çoxlu real faktlarını əks etdirir. Əsərdə torpaq mülkiyyəti formaları, torpaqdan istifadə qaydaları, vergi və mükəlləfiyyətlər, hərbi quruculuq, hərbi və dini məhkəmələr, şəhər həyatı, sənətkarlıq və ticarət, oturaq və köçəri təsərrüfatla bağlı məsələlər, xalq kütlələrinin acınacaqlı vəziyyəti və mübarizəsi, feodal iyerarxiyasına uyğun bütün vəzifələrin şərhi, bir çox elm adamları, dövlət xadimləri, sənətkarlar və s. barədə məlumat verilir. Müəllif dövrün idarə sistemində mövcud olmuş vəzifələrə təyinatları şərh edərkən nümunə kimi faktik sənədləri misal göstərmişdir. Burada real tarixi şəxsiyyətlər və yer adları xatırlanır. Əsərdə 100-dən artıq tarixi termin, istilah verilir və onların bir çoxu müəllif tərəfindən açıqlanır. Əsər Nizam əl-mülkün "Siyasətnamə"si, Rəşidəddinin "Cami ət-təvarix"i və s. əsərlərlə bir səviyyədə tutulur. Dünya kitabxanalarında 6 əlyazma nüsxəsi mövcuddur. Elmi-tənqidi mətni (bütün mövcud əlyazma nüsxələri əsasında) akad. Ə. Ə. Əlizadə tərəfindən hazırlanmış və 1964–76 illərdə Moskvada 2 cilddə (3 kitabda) çap olunmuşdur.

Ə s ə r i: Дастур ал-катиб фи та'йин ал маратиб (критический текст, предисловие и указатели А.А.Али-заде), т.1 (кн. 1–2), М., 1964–71; т.2, М., 1976.

*Əd.*: P i r i y e v V. Z., Məhəmməd ibn Hinduşah Naxçıvani, B., 2001; А л и - з а д е А. А., О произведении и родном языке Мухаммада ибн Хиндушаха Нахчевани, Azərb. EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1973, № 3.

**NAXÇIVANİ** Mövla Məhəmməd (?–?) – filosof (təxm. 15 əsr). Rum elində yaşamışdır.



Türk alimi Katib Çələbinin (Hacı Xəlifə, 1608–70) yazdığına görə onun fəlsəfəyə dair "Zamanın hissəsi və ani dövrlər haqqında traktat" ("Risalə fi-l-cüz əz-zamaniyyə və-l-ühud əl-aniyyə") əsəri "dünyada yayılmışdır". N.-nin başqa bir əsəri Şəmsəddin Səmərqəndinin (?–1203) hind məntiqi üslubunda "Mübahisə etmək qaydaları" ("Adab əl-bəhs") məntiq traktatına yazdığı haşiyədir. Azərb. filosoflarından Şah Fəthulla Şirvaninin şagirdi Kəmaləddin Məsud Şirvani (?–1499), Əbdürrəhim Şirvani, Əbülfəth Ərdəbili (15 əsr), Sinanəddin Yusif Gəncəvi Təbrizi (?–1507) və b.-nın şərh və haşiyələr həsr etdikləri bu əsərin məzmunu N.-nin özünəməxsus məntiqi yaradıcılığının məndəricəsindən xəbər verir.

*Əd.*: M ə m m ə d o v Z. C., Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir, B., 1978.

**NAXÇIVANİ** Nəcməddin ibn Əhməd ibn Əbubəkr ibn Məhəmməd (?, Naxçıvan ş. – 1253 ildən sonra, Suriya, Hələb) – müsəlman Şərqində tanınmış Azərb. filosofu. Naxçıvanda təhsil almış, elmin bütün sahələrini mükəmməl öyrənmişdir. Ömrünün müəyyən hissəsini Azərb.-da yaşamış, Marağa rəsədxanasında çalışmış ərəb alimi İbn əl-İbri (Əbü-l Fərəc; 1226–86) "Müxtəsər tarix əl-düvəl" ("Dövlətlərin müxtəsər tarixi") əsərində N. haqqında yazırdı: "O, böyük fəzilət sahibi, dəqiq elmlərin dərin bilicisi idi. Öz vətənində fəlsəfə ilə məşğul olurdu". N. doğma yurdunu, çox güman ki, siyasi şərait üzündən tərk etməli olmuşdur. Bir müddət Əmir Cəlaləddin Qaratayın vəziri işləyən filosof yuxarı dairələrdəki haqsızlığın, ədalətsizliyin bilavasitə şahidi olduqda ətrafında baş verən ictimai-siyasi hadisələrə biganə qala bilməmiş, etiraz əlaməti olaraq saray həyatını tərk edərək Hələbə getmiş, ömrünün axırlarında guşənişin həyat keçirmişdir. İbn əl-İbri yazır: "O, ölkələri səyahətə çıxdı, xeyli gəzib-dolaşdı, axırda Ruma gəldi, böyük mənsəblər tutdu".

N.-nin elmi və fəlsəfi yaradıcılığı orta əsr müəllifləri tərəfindən yüksək qiymətləndirilmişdir. Ərəb müəllifi İbn Bibi onu "bütün elmlərdə və fənlərdə dalğalı dənizə və yağışlı buluda" bənzətmiş, dini və dünyəvi elmləri özündə topladığını qeyd etmişdir. N. peripatetik fəlsəfənin problemlərini dərindən araşdırmış, məntiqə və təbiətşünaslığa böyük əhəmiyyət vermişdir. Ərəbdilli peripatetizmin, onun görkəmli nümayəndəsi İbn Sinanın əsərlərinin fəal təbliğatçılarından sayılmasına baxmayaraq, bir sıra doktrinaları tənqidi planda nəzərdən keçirmişdir. N. İbn Sinanın "Tibb qanunu" və "İşarələr və qeydlər" kitablarına şərhlər yazmışdır. İnsan öləndən sonra nəfsin yaşamasına inanan N. Şərq peripatetiklərinin əksinə olaraq, mənbələrdə deyildiyi kimi, "tənəsüx təliminə güclü meyl göstərirdi". O, İbn Sinanın əsərlərini ortodoksal islam mövqeyindən təftiş etməmiş, əksinə, hakim ideologiyanın prinsiplərinə heç də uyğun gəlməyən bir təlimi – tənəsüxü qəbul etməklə peripatetiklərə tənqidi yanaşmışdır. Əsərlərinin əlyazma nüsxələri dünyanın müxtəlif arxivlərində, o cümlədən "Tibb qanunu" kitabının şərhi Paris Milli kitabxanasında, "İşarələr və qeydlər" kitabına şərh Türkiyənin Ayasofiya, Nur Osmaniyyə və Köprülü kitabxanalarında, "Məntiqin məğzi və fəlsəfənin xülasəsi" risaləsi Nəcəf (İraq) şəhərindəki Əl-Məşhəd əl-Əlvin əlyazmalar fondunda saxlanılır.

*Əd.*: M ə m m ə d o v Z. C., Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir, B., 1978; y e n ə o n u n, Azərbaycan fəlsəfəsi tarixi, B., 1994.

**NAXÇIVANİ** Seyfəddövlə, Ə m i r M a h m u d i b n S ə n c ə r i b n A b d u l l a h ə n - N a x ç ı v a n i (?–?) – dövlət xadimi. Tanınmış alimlər ailəsinə mənsub olub. Elxanilər dövründə (13–14 əsrlər) dövlət vəzifələrində çalışmışdır. Sahib divan Cüveyninin oğlu Bəhaəddin Cüveyni tərəfindən Kaşan ş.-nə hakim göndərilmiş, qardaşı Hinduşah Naxçıvanini öz naibi təyin etmişdir (1275). N.-nin Hinduşah və onun oğlu Məhəmməd Naxçıvanilərin inkişafında, elmə yiyələnmələrində mövqeyi yüksək olmuşdur.

**NAXÇIVANİ** Səncər ibn Abdullah (?–?) – elm, mədəniyyət və dövlət idarəçiliyində fərqlənən görkəmli şəxsiyyətlər yetirmiş ailə başçısı (13 əsr). Oğlanları Nəsirəddin Qutluğşah, Fəxrəddin Hinduşah, İzzəddin Dövlətşah, Hüsaməddin Toğanşah, nəvəsi Məhəmməd ibn Hinduşah, nəticəsi Kamaləddin ibn Məhəmməd elmin müxtəlif sahələrində tanınmış, dövlət idarəsinin ayrı-ayrı sahələrində çalışmışlar. Övladları görkəmli alim, dövlət xadimi *Əlaəddin Ətaməlik Cüveyninin* şərəfinə "əs-Sahibi" (dövlət aparatında yüksək vəzifə


Naxçıvanski Cəmşid

tutan şəxs) nisbəsi qəbul etmişlər. Orta əsrlərdə "Sahib" ləqəbi isə dövlət aparatında işləyən yüksək vəzifəli şəxslərə verilirdi.

**NAXÇIVANİ** Şərəfəddin (?-?) – siyasi xadim. 14 əsrin 40–50-ci illərində Azərb.-da və qonşu vil.-lərdə faktiki ağalıq etmiş Çobanilərin dövlət idarəsində yüksək mövqe tutmuşdur. İran tarixçisi Zeynəddin Qəzvininin (14 əsr) "Zeyl-e tarix-e qozide" ("Seçilmiş tarixə əlavə") əsərində adı çəkilir. Müəllifin məlumatına görə, Çobani əmiri Məlik Əşrəf 1350 ildə İsfahanı mühasirəyə aldıqda N.-ni şəhərə göndərmiş və onun başçılığı ilə İsfahanda Hülaku hökmdarı Ənuşirəvanın adına xütbə oxunmuş, 2000 dinar qızıl sikkə kəsilmişdi.

*Əd.*: Zeynəddin bin Həmdullah Qəzvini, Zeyl-e tarix-e qozide (fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M. D. Kazımov və V. Z. Piriyevindir), B., 1990.

**NAXÇIVANSKİ** Cəmşid Cəfərqulu oğlu (10.8.1895, Naxçıvan ş. – 26.8.1938) – hərbi xadim, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir (1915). Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdu. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan N. igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci, 3-cü dərəcəli Stanislav ordenləri ilə təltif olunmuşdu. Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri N. başçılıq etdiyi süvari alayı ilə birgə Azərb.-a qayıtmış, 1918 il sentyabrın 15-də türk qoşunları və Azərb. Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizləmişdi. Azərb.-ın müstəqilliyi uğrunda N. də inamla vuruşmuşdur. 1920 ilin martında N.-nin Qarabağda (Şuşada) yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) bolşevik çevrilişindən sonra N. Nərimanov Şuşaya, N.-yə dərhal Bakıya qayıtmaq, milli ordu hissələrinin təşkilinə başlamaq haqqında teleqram göndərmişdi. O, Bakıda yaradılmış Azərb. Birləşmiş Komanda Məktəbinin rəisi, 1921 ilin dekabrında isə Azərb.-ın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı hərbi kadr hazırlığında mühüm rol oynamışdır. N. 1923 və 1928 illərdə Moskvada qısa müddətli Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərb.-a qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur. 1922–29 illərdə N. məşhur general Ə. Şıxlinskinin təşəbbüsü ilə Azərb. dilində nəşr olunan "Hərbi bilik" jurnalının redaktorlarından biri idi. N. 1931 ildə Moskvaya M.V.Frunze ad. Ali Hərbi-Siyasi Akademiyaya oxumağa göndərilmişdi. Akademiyanı fərqlənmə diplomu ilə bitirdikdən (1933) sonra, orada müəllim saxlanmış, 3 il Ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakültənin kurs rəisi olmuşdur. 1935 ildə N.-yə briqada komandiri (kombriq) hərbi vəzifəyə təyin olunmuşdur.

30-cu illərin axırlarında N. guya başçılıq etdiyi "casus təxribatçı dəstəsi" ilə mühacirətdə olan qardaşları Davudxan və Kalbalı xanla (Azərb.-da sovet hakimiyyəti qurulanda hər iki qardaş rəsmi icazə alıb İrana getmiş, tezliklə Şah qvardiyasında yüksək rütbələrə çatmışdılar. Lakin N.-nin Sovet Ordusunda kombriq olması, ata-babalarının isə rus qoşunlarının tərkibində İran ordusuna qarşı vuruşmasını bilən şah onları güllələtdirmişdi) sıx əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur.

Azərb. SSR və ZSFSR MİK-lərinin üzvü idi. Qırmızı Bayraq, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir. Adına Bakıda Hərbi litsey (Naxçıvanda filialı açılmışdır), Bakıda və Naxçıvanda küçə var. Naxçıvanda ev-muzeyi yaradılmışdır.

Naxçıvanski Hüseyn xan


**NAXÇIVANSKİ** Hüseyn xan Kalbalı xan oğlu (28.6.1863, Naxçıvan – 1919, Petroqrad) – hərbi xadim. Gen.-leytenant (1915). Kalbalı xan *Naxçıvanskinin* oğlu, *Ehsan xan Kəngərlinin* nəvəsidir. On beş yaşında ikən Peterburqdakı Paj korpusu məktəbinə verilmiş, 1881 ildə oranı əla qiymətlərlə bitirərək, çarın xüsusi süvari qoşununda xidmət etmişdir. Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan N.-yə 1903 ildə polkovnik rütbəsi verilmişdir. Rusiya–Yaponiya müharibəsində (1904–05) qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik etmişdir. Tanınmış rus jurnalisti A. Kvitkanın "Zabaykalye kazak zabitinin gündəliyi" əsərində N.-nin alayının döyüş rəşadətindən də bəhs olunur. 1906 ildə leyb-qvardiya polkunun komandiri olmuş, 1907 ildə gen.-mayor rütbəsinə layiq görülmüşdür. 1912 ildə N. 1-ci Əlahiddə süvari briqadasının komandiri idi. Birinci dünya müharibəsində 1-ci və 2-ci süvari diviziyalarının komandiri olan N. alman cəbhəsinin yarılmasında fərqlənmişdir. Rus yazıçısı A. Soljenitsın "14 avqust" romanında yazmışdır: "Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi". Birinci dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916 ildə N.-yə tam süvari qoşunu generalı rütbəsi verilmişdir. Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmiş, Fevral inqilabından (1917) sonra hərbi işdən uzaqlaşmışdır. Müqəddəs Georgi ordeninin dörd dərəcəsi ilə, Müqəddəs Vladimir, ikinci dərəcəli Müqəddəs Aleksandr, Müqəddəs Anna, İgidliyə görə, İranın almazla bəzədilmiş 2-ci və 4-cü dərəcəli Şire-Xurşid, zabitlərə məxsus Rumın ulduzu, Avstriyanın Dəmir xaç, Bolqarıstanın Döyüş xidmətlərinə görə ordenləri, dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla təltif olunmuşdur. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastırının qəbiristanlığındadır.

*Əd.*: N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999.




Naxçıvanski İsmayıl xan

**NAXÇIVANSKİ** İsmayıl xan Ehsan xan oğlu (5.1.1819, Naxçıvan ş. – 1918, orada) – hərbi xadim. Gen.-leytenant. Sonuncu Naxçıvan xanı *Ehsan xan Kəngərlinin* oğlu, Kalbalı xan *Naxçıvanskinin* qardaşıdır. Tiflis hərbi gimnaziyasını bitirmiş (1839), bir il sonra poruçik rütbəsi almışdır. Uzun müddət Qafqaz Əlahiddə Ordusunda xidmət edən N.-yə 1844 ildə ştabs-kapitan, 1860 ildə isə alay komandiri kimi polkovnik rütbəsi verilmişdir. 1877–78 illər Rusiya–Türkiyə müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə isə o, süvari qoşunu gen.-mayoru rütbəsinə layiq görülmüşdür. Ordudan gen.-leytenant rütbəsi ilə tərxis olunan N. vətənində abadlıq işləri ilə məşğul olmuş, Naxçıvana su çəkdirmiş, kəhrizlər qazdırmış və tarixi abidə kimi bugünədək qorunan günbəzli hamam tikdirmişdir. X. B. Natəvanın qızı Xanbikə xanımı oğlu Əman xana alıb, Qarabağ xanlığı ilə qohum olmuşdur. Birinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav", üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunmuşdur. Rus yazıçısı Valentin Pikul "Bəyazid" tarixi romanında N.-nin obrazına müraciət etmiş, onun igidliyindən, əla sərkərdəlik bacarığından söz açmışdır. N.-nin adı Sovet Hərbi Ensiklopediyasının birinci cildində də çəkilir. "Bəyazid" şəhəri rus qoşunları tərəfindən mühasirəyə alınarkən gedən ağır döyüşlərə polkovnik N.-nin rəhbərlik etdiyi göstərilir. Bəzi tədqiqatlarda N. İsmayıl xan onun qardaşı oğlu olan Hüseyn xan Naxçıvanski ilə qarışıq salınmışdır.

*Əd.*: N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999.

**NAXÇIVANSKİ** Kalbalı xan Ehsan xan oğlu (?, Naxçıvan – 1883, orada) – hərbi xadim. Gen.-mayor (1874). Sonuncu Naxçıvan xanı *Ehsan xan Kəngərlinin* oğlu, İsmayıl xan *Naxçıvanskinin* qardaşıdır. 14 yaşında ikən Peterburqdakı zadəgan uşaqlarına məxsus Paj korpusu məktəbinə verilmiş, lakin qəfildən xəstələndiyinə görə Naxçıvana qayıtmalı olmuşdur. Müalicədən sonra 1849 ildə könüllü olaraq Dağıstan yürüşündə iştirak etmiş, döyüşlərdə igidlik göstərdiyinə görə zabit rütbəsinə layiq görülmüşdür. Krım müharibəsində (1853–56) igidliklə vuruşmuş, 1855 ildə leyb-qvardiya Qusar polkuna komandir təyin olunmuşdur. 1877–78 illər Rusiya–Türkiyə müharibəsində azərb.-lılardan ibarət İrəvan süvari briqadasının komandiri təyin olunan N. hərbi əməliyyatlarda böyük şücaət göstərmişdir. Xalq arasında böyük nüfuz sahibi olan N. Naxçıvanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Üçüncü dərəcəli Müqəddəs Stanislav ordeni, iki Müqəddəs Georgi ordeni ilə təltif olunmuş, brilyantla bəzədilmiş qılıncla mükafatlandırılmışdır.

*Əd.*: N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999.

Naxçıvanski Kalbalı


**NAXÇIVANSKİNİN EV-MUZEYİ**, C ə m ş i d N a x ç ı v a n s k i n i n e v - m u z e y i, Naxçıvanda – Azərb. hökumətinin 8 avqust 1981 il tarixli qərarı ilə görkəmli sərkərdə, Azərb. atıcı diviziyasının komandiri gen. Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illiyi ilə əlaqədar yaşadığı evdə yaradılmışdır (22 oktyabr 1982 ildə açılmışdır). Nax. MR Mədəniyyət Nazirliyi sistemindədir. Muzeyin 320 $m^2$ sah. var. Fond iki otaqdan, ekspozi-



siya-sərgi sahəsindən, 3 zal və 1 yardımçı otaqdan ibarətdir. Muzeydə C.Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmaları, şəxsi və ev əşyaları və s., ümumiyyətlə, 4500-ə yaxın eksponat nümayiş etdirilir. Bunların içərisində C.Naxçıvanskiyə, Azərb. atıcı diviziyasının tarixinə, keçdiyi döyüş yoluna həsr olunmuş məqalələr, kitablar və s. xüsusi yer tutur. Muzeydə xatirə günləri, milli vətənpərvərlik gecələri, görüşlər və s. keçirilir.

Nalband.



**NAXÇIVANŞAH** – *Əbuduləfilər* nəslindən olan Naxçıvan hakimlərinə isnad edilən titul. Bu titul yalnız onları mədh edən Azərb. şairləri Qətran Təbrizinin (1012–88) və Əsədi Tusinin (1010–11 əsrin 80-ci illəri) qəsidələrində işlədilmişdir. Tədqiqatçıların fikrincə, 11–12 əsrlər şerində və nəsrində təsadüf edilən bu səpkili titullar (şahi Gəncə, şahi İran, şahi Şamaxı və s.) bəzən təkcə dövlət başçılarına deyil, onların vassallarına – hər hansı bir şəhəri və ya vilayəti idarə edən feodal mülk sahiblərinə də verilirdi. Belə feodal mülk sahibləri tabeliklərindəki ərazini, demək olar, müstəqil idarə edir, yaxud hər hansı bir münasibətdən asılı olaraq müstəqil olmağa cəhd göstərirdilər. Dövrün mədhnamələrində "naxçıvanşah" adlandırılan Naxçıvan hakimi Əbu Düləf və onun nəslinin nümayəndələri də belə feodal mülk sahiblərindən olmuşlar.

*Əd.:* bax *Əbuduləfilər* məqaləsinin ədəbiyyatına.

**NAXIŞNƏRGİZ** – Babək r-nunda kənd. Qahab bələdiyyəsinin tərkibindədir. Zəngəzur silsiləsinin ətəyindədir. 1999 il 5 oktyabr tarixli qərarla Qahab k.-nin bir hissəsi əsasında yaradılmışdır.

**NAKSUANA** (N a x u a n a) – Naxçıvan ş.-nin ilk dəfə yunan coğrafiyaşünas alimi Ptolemeyin (2 əsr) "Coğrafi təlimnamə" əsərində qeyd olunmuş adı.

**NALBƏND** (Ulmus densa) – qaraağac fəsiləsinin qaraağac cinsinə aid bitki. Yerli ağac növlərindən olan N. Nax.MR-in düzənlik hissəsindəki oazislərdə mədəni şəkildə yayılır. Sıx şarşəkilli çətirə malik ağacın hünd. 20 *m*-ə çatır. Yarpaqları çətirin kənar səthində daha sıx yerləşir. Yarpaq ayası sıx ətli, dərivarı olmaqla uzunsov-yumurta şəkilli və ya uzunsov–lansetşəkillidir. Yarpaqlar zoğ üzərində ikicərgəli növbəli yerləşir; yarpaq ayasının uz. 12,6 *sm*, en 7,4 *sm*, saplağının uz. 1–2 *sm* olur. Çiçəkləri ikicinslidir; yarpaqlamadan əvvəl, mart ayında açılır. Quraqlığa, istiyə, şaxtaya davamlı, torpağa az tələbkardır. Uzunömürlü olub, 300 ilə qədər yaşaya bilir. Ən qocaman ağaclarına Babək r-nunun Qahab k.-ndə rast gəlinir. Dekorativ bəzək ağacı kimi yaşıllaşdırmada istifadə olunur.

*Əd.:* M ə m m ə d o v Ə., Yaraşıqlı nalbənd ağacı, "Qobustan" jurn., 1999, № 2.



**"NAMEYİ HÜMAYUN"** – tarixi sənəd, 1724 il sazişi. Əfqan Mir Mahmud 1722 ildə Səfəvilərə qalib gəldikdən sonra Türkiyə və Rusiya İrana və onun tabeliyindəki yerlərə qoşun çəkərək, sabiq Səfəvi torpaqlarını bölüşdürməyə başlamışdılar. Həmin bölüşdürmənin yekun sənədi kimi hazırlanmış bu saziş giriş, nəticə və 6 maddədən ibarətdir. Girişdə İranın o zamankı siyasi vəziyyətindən, əfqan döyüşçülərinin Mir Mahmudun rəhbərliyi ilə Səfəvilərin paytaxtı İsfahanı tutub, Səfəvi şahı Sultan Hüseyni devirməsindən, sabiq Səfəvi xanədanının idarə etdiyi bir sıra torpaqların (Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabad) Rusiya çarı tərəfindən zəbt edilməsindən, Osmanlı dövlətinin də bir sıra İran torpaqlarını tutmasından qısaca bəhs olunur. Sazişin üçüncü maddəsində bütün Şərqi Gürcüstan, ermənilər yaşayan torpaqların şərq hissəsi, Azərb.-ın əksər ərazisi, o cümlədən Naxçıvan və Ordubad artıq Osmanlı torpaqları kimi qeyd olunur.

*Əd.:* Bax *Mühümmə dəftəri (1590)* məqaləsinin ədəbiyyatına.

**NARINQALA** – müdafiə divarları ilə möhkəmləndirilmiş qala tipli orta əsr istehkam kompleksi. Hökmdar və ya feodal hakiminin əsas iqamətgahı olan N.-da saray, xəzinə, cəbbəxana, müxtəlif inzibati və təsərrüfat binaları və s. yerləşirdi. Naxçıvan ş.-nin N.-sı müdafiə istehkamı kimi 17-ci əsrin ortalarınadək mövcud olmuşdur. Səfəvi–Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmamışdır. Hazırda qalıqları Naxçıvan ş.-nin c.-ş. ərazisində qalmaqdadır. Xalq arasında *Költəqala* adlanan Naxçıvan N.-sı Tunc və Dəmir dövrlərinə aid olunan qalalarla (*Oğlanqala, Qazançıqala, Çalxanqala*) oxşarlıq təşkil edir.

**NAVAXLISU** – Culfa r-nu ərazisində çay. Ərəfsə çayının (Əlincə hövzəsi) sağ qolu. Zəngəzur silsiləsinin yamacından, 2500 *m* hünd.-dən başlanır. Uz. 5 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır.

**NEHRƏM** – Babək r-nu ərazisində çay. Naxçıvançayın hövzəsindədir. Qızılqaya silsiləsindən (1000 *m* hünd.-dən) başlanır. Uz. 13 *km*. Nehrəm k.-ndən q.-də suvarma sisteminə qarışaraq itir. Yağış suları ilə qidalanır.

**NEHRƏM** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* c.-da, Araz çayının sol sahilindədir. R-nun ən böyük kəndlərindəndir. Əh. 11784 nəfər (2000); taxılçılıq, üzümçülük, heyvandarlıq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. 3 orta, 1 əsas, 1 texniki peşə məktəbi, 1 məktəblilər evi, musiqi məktəbi, 4 kitabxana, klub, mədəniyyət evi, kənd sahə xəstəxanası, müstəqil doğum evi, poçt, rabitə şöbəsi, uşaq bağçası var. 6 məscid fəaliyyət göstərir. 4,3 *km* məsafədən kəndə içməli su kəməri çəkilmişdir (1993). Yaxınlığında kəc sexləri var. Şəhidlər xiyabanı salınmışdır.

N. tarixi kənddir. 1885 ildə burada ilk dünyəvi məktəb açılmışdır. C. Məmmədquluzadə 7 ildən çox (15 yanvar 1890 – 10 iyul 1897) N. məktəbində müəllim və nəzarətçi (müdir) işləmiş, yerli əkinçilərin əməyini yüngülləşdirmək məqsədilə 1893 ildə Tiflisdəki "Ekker" firmasından kəndə ilk dəmir kotan gətirməyə nail olmuşdu. Yazıçı "Kişmiş oyunu" (1892), "Danabaş kəndinin əhvalatları" (1894), "Danabaş kəndinin məktəbi" (1896) əsərlərini burada yazmış, mahalda ilk dəfə olaraq qızları təhsilə cəlb etmiş və məktəb-tarix diyarşünaslıq muzeyi yaratmışdır. C. Məmmədquluzadə 1896 ildə bu kənddən olan Həlimə Nağı qızı ilə ailə həyatı qurmuşdur. Bu nikahdan yazıçının birinci övladı Münəvvər *Məmmədquluzadə* dünyaya gəlmişdir (hazırda kənd doğum evi onun adını daşıyır). Kənddəki imamzadə piri (bax *Nehrəm imamzadəsi*) qədim tarixə malikdir.

Maarif xadimi Kərimbəy İsmayılov "Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kafkaza" toplusunda (Tiflis, 1900, 27-ci bur., 2-ci bölmə, səh. 192–201) dərc olunmuş yazısında N. kəndinin ərazisi, coğrafi şəraiti, iqlimi, fauna və florası, adının



Orta məktəb. Nehrəm kəndi. 1998.

etimologiyası, tikililəri, suvarma sistemi, əhalisi, məşğuliyyəti, adət-ənənələri, dini ayinləri, bayramları və s. haqqında məlumat vermişdir.

Kəndin c.-q.-ində, "Qızılburun" adlanan yerdə Tunc dövrünə aid yaşayış məskəninin qalıqları və qəbiristan aşkar olunmuşdur. Kəndin ərazisində isə orta əsrlərə aid yaşayış yeri və qəbiristan var. Qəbir abidələri kitabəli sənduqələrdən və daşdan düzəldilmiş qoç fiqurlarından ibarətdir. Kəndin adı ərəb mənşəli – "nehr" – böyük çay və "əm" – icma, cəmiyyət sözlərinin birləşməsindən ibarət olub, mənası böyük arx ya və çay kənarında yaşayış məskəni deməkdir. 1996–2000 illərdə kənddə böyük quruculuq və bərpa işləri aparılmışdır.

N.-dən bir çox maarif, elm və mədəniyyət xadimləri çıxmışdır.

Əd.: Babazadə N., Elman Həbib, Nehrəm və nehrəmlilər, B., 2000.

**NEHRƏM** – Babək r-nunun eyniadlı k.-ndə orta əsrlərə aid yaşayış yeri. 1967 ildə qeydə alınmışdır. Sah. 3 *ha*. Yaşayış yerinin üzərinə xeyli maddi mədəniyyət qalıqları səpələnmişdir. Tikinti qalıqları tamamilə dağılmışdır. Mədəni təbəqə çürüntülü torpaq qarışıq gildən ibarətdir. Axtarışlar nəticəsində saxsı qab, çiy və bişmiş kərpic hissələri, orta əsrlərə xas olan müxtəlif üsullarla naxışlanmış əsasən qırmızı, həmçinin boz rəngli keramika məmulatı (küpə, kasa, çıraq, cam və s.) əldə olunmuşdur. Tapıntılara əsasən, abidə 5–18 əsrlərə aid edilir.

**NEHRƏM DAŞDUZ YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 12 *km* c.-ş.-də; Qızılvəng d.y. keçidindən 4 *km* şm.-da, Nehrəm k. ətrafındadır. Geoloji quruluşunda Orta Miosenin karaqan horizontunun gil və duzları iştirak edir. 1946 ildə aşkar edilmişdir. Yataqda duz qatının qalınlığı c.-ş.-dən (43,0 *m*) şm.-q.-ə (92,0 *m*) doğru artır. Duzun tərkibində NaCl-un miqdarı 78–92%-dir; həll olmayan qalıqlar 11–17% təşkil edir. NaCl-un miqdarı aşağı olduğuna görə yataq susuzlaşdırılmış soda istehsalı məqsədilə öyrənilmişdir. Yatağın ehtiyatı 1378 mln. *t*-dur.

**NEHRƏM DOLOMİT YATAĞI** – Babək r-nu ərazisində, Nehrəm k.-ndən 10 *km* c.-da, Dərəşam d.-y. st.-ndan 2 *km* şm.-dadır. Geoloji quruluşunda Üst Triasın boz, çəhrayımtıl-boz, çəhrayı və sarımtıl-boz rəngli dolomitləri iştirak edir. Yataq tektonik cəhətdən Şərur-Culfa antiklinoriumunun şm.-ş. qanadında yerləşir. Sah. 5 $km^2$, dolomitin qalınlığı 1000 *m*-dən çoxdur. Dolomit ehtiyatları müxtəlif vaxtlarda maqnezial əhəng, odadavamlı xammal, yüksək möhkəmlikli çınqıl, susuzlaşdırılmış soda və şüşə istehsalı məqsədilə öyrənilmişdir. Yatağın sənaye ehtiyatı 9914 mln *t*-dur.

**NEHRƏM İMAMZADƏSİ** – Babək r-nunun Nehrəm k.-ndə 18 əsrə aid memarlıq abidəsi. Bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən N. i. türbə, məscid, təkyə və s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasında olub gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Camaat arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvarı çərçivələrdə dini xarakterli kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Kompleks ətraflı tədqiq edilməmişdir.





**NEHRƏM SU ANBARI,** Babək su anbarı – Babək r-nunda, Nehrəm k. yaxınlığındadır. İki su anbarından ibarətdir: 1. Köhnə Nehrəm su anbarı – 1953 ildə istifadəyə verilmişdir. Sah. 0,40 $km^2$, faydalı həcmi 2,4 mln. $m^3$; 2. Yeni Nehrəm su anbarı – 1965 ildə istifadəyə verilmişdir. Sah. 0,85 $km^2$, faydalı həcmi 6 mln. $m^3$. Suyu Künnüt arxı vasitəsilə Əlincəçaydan götürülür. Suvarmada istifadə edilir. Mövsümi tənzimləməyə malikdir.

**NƏBİ QALASI** – orta əsrlərə aid *İlandağ* yaşayış yerinin xalq arasında adı.

**NƏBİ YURDU** – Ordubad r-ni ərazisində, Zəngəzur silsiləsinin c.-q. yatamacinda qədim yurd yeri. Gəmiqayanın c.-ş. yamacında, dəniz səviyyəsindən təqr. 3000 *m* yüksəklikdədir. Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış qədim əkinçi-maldar tayfaların əsas yaylaq yeri olmuşdur. Tədqiqatlar nəticəsində N. y. ərazisi, buradakı qayaüstü təsvirlər (bax *Gəmiqaya rəsmləri*), qədim və orta əsrlərə aid qəbir abidələri və yaşayış yerlərindən əldə olunmuş materiallar e. ə. 2–1-ci minilliklərdə Naxçıvan bölgəsində yaşamış əhalinin həyat və məişət tərzini, mədəni inkişaf yollarını izləməyə imkan verir.

**NƏBİYEV** Vəli Nəbi oğlu (13.1.1955, indiki Şərur r-nunun Çərçiboğan k. – 21.5.1998, Gəncə) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1992), prof. (1996). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1977) və Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunun aspiranturasını (1982) bitirmişdir. Ədəbiyyat İn-tunda kiçik elmi işçi, böyük və aparıcı elmi işçi (1980–96), Nizami Gəncəvi ad. Gəncə Un-tinin prof. və prorektoru (1996–98) olmuşdur. 19-20 əsrlər Azərb. bədii nəsrinin üslub istiqamətlərinə, janrüslub təkamülünə dair tədqiqatların, 100-ə qədər elmi, elmi-publisistik məqalənin müəllifidir. Qubadlı, Laçın, Zəngilan və Cəbrayıl bölgələrinin folklor nümunələrini toplayıb nəşr etdirmişdir.

Əsəri: Zaman və nəsrin problemləri, B., 1987.

**NƏBİYURD DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Nəsirvaz k.-ndən 2,5 *km* c.-ş.-dədir. Hünd. 2725 *m*. Konusvarı formalı, sıldırım yamaclıdır.

**NƏCƏFƏLİ DİZƏ** – Babək r-nunda kənd. Qahab bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 18 *km* şm.-ş.-də, dağətəyi düzənlikdədir. Əh. 151 nəfər (2000); əsasən heyvandarlıqla məşğuldur. Məktəb, kitabxana, feldşer-mama məntəqəsi, məscid var.

**NƏCƏFOV** Adil Yusif oğlu (12.2.1925, Naxçıvan ş. – 9.10.1989, Bakı) – fəlsəfəşünas. Fəlsəfə elmləri doktoru (1967), prof.(1968). Azərb. Respublikası əməkdar elm xadimi (1979). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. Dövlət Un-ti (indiki BDU) tarix fakültəsinin fəlsəfə şöbəsini (1950) və SSRİ EA Fəlsəfə İn-tunun aspiranturasını (1953) bitirmişdir. 1950–63 illərdə Azərb. Milli EA-da işləmişdir. 1963 ildən Azərb. Tibb İn-tunun (indiki Tibb Un-ti) fəlsəfə kafedrasının müdiri idi. Millət, mədəniyyət, mənəviyyat və mənəvi tərbiyə, incəsənət və təbabət problemlərinə dair monoqrafik tədqiqatların, o cümlədən bir neçə kitabın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Qırmızı Əmək Bayrağı, I dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif olunmuşdur.

Əsərləri: Ölkəmizdə mədəniyyətlərin inkişafı və yaxınlaşmasında keçmiş irsin rolu, B., 1964; Ədəbiyyat və incəsənət mənəvi tərbiyənin qüdrətli vasitəsidir, B., 1983; Həkimlik sənətinin mənəvi əsasları, B., 1986; İncəsənət və səhhət, B., 1989.

**NƏCƏFOV** Rzaqulu Məşədi Ələkbər oğlu (1884, Naxçıvan ş. – 1938, Bakı) – publisist, ictimai xadim, Əliqulu *Qəmküsarın* qardaşıdır. Ruhani təhsili almış, M. T. Sidqinin Naxçıvanda açdığı "Tərbiyə" məktəbində oxumuşdur. 20 əsrin əvvəllərində Naxçıvanın mədəni həyatında fəal iştirak etmişdir. Culfa gömrükxanasında işləmiş, İran inqilabına (1906–11) yardım göstərmişdir. "Molla Nəsrəddin" jurnalının fəal müxbirlərindən idi. 20-ci illərdə Tiflisdə nəşr olunan "Dan ulduzu" jurnalının redaktor müavini, "Yeni fikir" qəzetinin redaktoru, Gürcüstan Türk (Azərb.) Teatrının direktoru olmuşdur. Dövri mətbuatda aktual problemlərə dair elmi, ciddi və satirik üslubda məqalələri dərc edilmişdir. 30-cu illərdə Bakıya köçmüş, nəşriyyatda işləmiş, A. P. Çexovun əsərlərini Azərb. dilinə çevirmişdir.

**NƏCƏFOVA** Nazlı Məmməd qızı (1890–1977) – maarif xadimi. Bax *Tahirova-Nəcəfova* Nazlı Məmməd qızı.

**NƏHƏCİR** – Babək və Culfa r-nları ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbin-



Nəbiyev Vəli



Nəcəfov Adil

dən 10 *km* məsafədə, Şəkərabad k.-ndən bir qədər aşağıda ona tökülür. Uz. 14 *km*, hövzəsinin sah. 42 $km^2$-dir. Əsasən, yağış və qrunt suları ilə qidalanır. Suyu bütünlüklə suvarmada və Qahab su anbarının doldurulmasında istifadə edildiyindən, Naxçıvançayın axımının formalaşmasında rolu cüzidir.

**NƏHƏCİR** – Culfa r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Nəhəcir k.-ndən şm.-q.-dədir. Hünd.1665 *m*. Andezit-dasit tərkibli ekstruziv olub, c. və ş. yamacları sıldırımdır. Dağın üstündə qədim qala xarabalığı (bax *Nəhəcir qalası*) və Nəqşi-nərgiz adlı mağara var. Çox güman ki, əsl adı N u h ə c i r olub, "Nuhun yamacı" deməkdir. Toponim, ehtimal ki, Naxçıvan diyarında geniş yayılmış Nuh haqqında əfsanə ilə əlaqədar yaranmışdır.

**NƏHƏCİR** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.-y. st.-ndan 42 *km* şm.-da, Nəhəcir d.-nın ətəyindədir. Əh. 499 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, 2 kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var. Yaşayış məntəqəsi kəndin üst tərəfindəki Nəhəcir dağının adı ilə adlanmışdır.

**NƏHƏCİR I** – Culfa r-nunda eyniadlı kəndin şm.-ş.-ndə Tunc dövrünə aid yaşayış yeri. Şm.-dan Nəhəcir d., c.-dan Nəhəcir k. ilə məhdudlaşır. Yaşayış yerindən (sah. təqr. 10 *ha*, mədəni təbəqənin qalınlığı təqr. 3 *m*) monoxrom boyalı boz, qara rəngli gil qab qırıqları, dən daşları, sürtgəclər, həvəngdəstələr və s. aşkara çıxarılmışdır. Yaşayış yerindən tapılmış anqoblu (şirli) monoxrom boyalı qablardan birinin üzərində qara boya ilə xırdabuynuzlu heyvanın (keçi) boğazına bağlanmış ipdən tutan kişi təsvir olunmuşdur. Rəsmdə adamın duruşu elədir ki, burada bəsit təsərrüfat – məişət səhnəsini güman etmək çətindir. Ən başlıcası odur ki, kişinin əlləri yuxarıya, səmaya qalxmışdır. Bu ayin, çox ehtimal ki, Naxçıvanın orta Tunc dövrü tayfalarının etiqadlarını göstərir. Maraqlıdır ki, bu ayin səhnəsi Gəmiqayadakı rəsmlərlə tam eyniyyət təşkil edir. Tapıntıların təhlilinə əsaslanaraq, əlverişli coğrafi və strateji mövqedə olan bu yaşayış yerinin ərazisində insanların e. ə. 3-cü minilliyin sonlarından məskunlaşmağa başladığını ehtimal etmək mümkündür.

*Əd.:* H ə b i b u l l a y e v O. H., Kültəpədə arxeoloji qazıntılar, B., 1959; Ə l i y e v V. H., Tarixin izləri ilə, B., 1975

**NƏHƏCİR II** – Culfa r-nunda eyniadlı kəndin şm.-q.-ndə orta əsrlərə aid yaşayış yeri. Abidə şm.-dan Nəhəcir d. ilə məhdudlaşır və onun yamacı boyunca ensiz zolaq şəklində ş.-dən q.-ə doğru uzanır. Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən 1991 ildə kəşfiyyat səciyyəli tədqiqat işləri aparılmışdır. Yaşayış yerində tikinti qalıqlarına, iki yerdə böyük kül təpəsinə təsadüf edilmiş, çəhrayı rəngli küpə və kasa tipli şirsiz və şirli qab qırıqları (həndəsi və nəbati rəsmlərlə bəzədilmişdir) toplanmışdır.

*Əd.:* Bax *Nəhəcir I* məqaləsinin ədəbiyyatına.

**NƏHƏCİR III** – Culfa r-nunun Nəhəcir k.-ndən q.-də, Qahab k.-nin yaxınlığında Dəmir dövrünə aid yaşayış yeri. 1990 ildə Azərb. Milli EA Naxçıvan Elmi Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış, kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Hazırda yaşayış yerində yonulmamış qaya parçalarından iki cərgə düzbucaqlı planda inşa edilmiş böyük binanın qalığı saxlanmışdır. Yerüstü materiallar çəhrayı və boz rəngli gil qab (kasa, küpə, nimçə və s.) qırıqlarından ibarətdir. N. III yaşayış yerinin e. ə. 6–4-cü əsrlərə aid olduğu ehtimal edilir.

*Əd.:* Bax *Nəhəcir I* məqaləsinin ədəbiyyatına.

**NƏHƏCİR QALASI** – Culfa r-nunun Nəhəcir k. yaxınlığındakı eyniadlı dağın coğrafi-strateji cəhətdən əlverişli olan hündür və sıldırım qayalı c. hissəsi üzərindəki yastı sahədə e. ə. 2-ci minilliyə–1-minilliyin əvvəllərinə aid qala. Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir (2001). Ərazisində həmin dövrə aid bazalt daşından hazırlanmış balta, kiçik həcmli daş həvəng-dibək, qara, boz və çəhrayı rəngli gil qab qırıqları, N. q. ilə həmdövr olan dağıdılmış kurqandan e. ə. 2-ci minilliyin əvvəllərinə aid monoxrom boyalı gil qablar əldə edilmişdir. Dağın c. və ş. ətəklərindəki terraslarda iri qaya parçalarından siklop tipli müdafiə sədləri tikilmişdir. Divarların eni 2–2,5 *m*-dir. Qalanı Nəhəcir dağının c. ətəyindəki düzən sahədə yaşamış və iqtisadi, mədəni cəhətdən inkişaf etmiş qədim tayfalar düşmən basqınlarından müdafiə məqsədilə tikmişlər.



**NƏHƏCİR MİNERAL SUYU** – Culfa r-nu ərazisində, Nəhəcir k. yaxınlığında, Naxçıvan ş.-dən 17 *km* aralı, dəniz səviyyəsindən 1700 *m* hünd.-dədir.

Balneoloji tərkibi:

$$CO_2\,1{,}1\,M\,5{,}4\,\frac{Cl50\,HCO_3 42}{(Na+K)84\,Mg12}\cdot pH\,6{,}6\;\;D\,30\,m^3/gün\;\;T\,26{,}3^{\circ}C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, natriumludur. Kimyəvi tərkibinə görə "Yessentuki" tipli olub, mədə-bağırsaq xəstəliklərində əvəzolunmaz vasitədir.

**NƏHƏCİR NEKROPOLU I** – Culfa r-nunda, *Nəhəcir I* yaşayış yerinin ş. qurtaracağında Tunc dövrünə aid arxeoloji abidə. Buradakı daş, qismən də torpaq kurqanlardan Azərb. boyalı qablar mədəniyyətinin ilk mərhələsi (e. ə. 22–18 əsrlər) üçün səciyyəvi olan monoxrom boyalı küplər, cızma və basma naxışlı boz və qara rəngli saxsı qablar və s. əldə edilmişdir. Monoxrom qabların üzəri dalğalı və sınıq xətlər, həndəsi fiqurlar (üçbucaq, dairə), insan və heyvan rəsmləri ilə bəzədilmişdir. Boyalı ,qabların üzərindəki heyvan, quş, adam rəsmləri motivinə, ölçülərinə və sxematikliyinə görə *Gəmiqayanın* bir qrup rəsmləri ilə eyniyyət təşkil edir.

*Əd.:* Bax *Nəhəcir* I məqaləsinin ədəbiyyatına.

**NƏHƏCİR NEKROPOLU II** – Culfa r-nunda *Nəhəcir II* yaşayış yerinin q. tərəfində, uzunsov təpənin üzərində orta əsrlərə aid arxeoloji abidə. Nekropoldakı qəbirlər q.-ş. istiqamətində yerləşdirilmişdir. Qəbiristanda daşdan təbii böyüklükdə çoxlu qoç fiqurları (15-16 əsrlər) olmuşdur. Qəbirüstü abidələr olan bu fiqurların üzəri müxtəlif rəsm və işarələrlə bəzədilmişdir. Təəssüf ki, hazırda onların heç biri saxlanmamışdır. Bəzisi oğurlanıb aparılmış, bəzisi isə sındırılmışdır.

*Əd.:* Bax *Nəhəcir I* məqaləsinin ədəbiyyatına.

**NƏİMİ,** Ş ə h a b ə d d i n F ə z l u l l a h T ə b r i z i A s t a b a d i (təqr. 1339/40 – 1402) – mütəfəkkir, şair. Orta əsrlərdə Yaxın və Orta Şərqdə geniş yayılmış hürufilik təriqətinin əsasını qoymuşdur. Hürufiliyin fəlsəfi əsasını təşkil edən ardıcıl panteizmin başlıca müddəalarını "Cavidani-Səğir", "Məhəbbətnamə", "Ərşnamə" traktatlarında, qismən "Novmnamə" ("Yuxular haqqında") əsərlərində və "Divan"ında şərh etmişdir. Başlıca əsəri "Cavidani-Kəbir"dir ("Cavidannamə"). Hürufilər allahın Fəzlullahda təcəssüm etdiyinə, onun allahın timsalı kimi yerdəki ədalətsizliyi aradan qaldıracağına inanırdılar. Mənbələrdəki məlumatlara görə hürufiliyi təbliğ etdiyi və hakim dairələrə qarşı kəskin siyasi mübarizə apardığı üçün Teymurilər N.-ni Əlincə qalasına qədər təqib etmiş, əmir Teymurun əmri ilə onun oğlu Miranşah tərəfindən tutulmuş və Əlincə qalasında edam edilmişdir.



*Nəhəcir nekropolu tapıntıları. Monoxrom boyalı qablar. Orta Tunc dövrü*

Ə s ə r i: Vəsiyyətnamə, "Azərbaycan" jurn., 1970, №5.

*Əd.:* Q u l u z a d ə M., Böyük ideallar şairi, B., 1973; К у л у з а д е З. А., Хуруфизм и его представители в Азербайджане, Б., 1970.

**NƏİMİ TÜRBƏSİ** – Culfa r-nunun Xanağa k. yaxınlığında orta əsrlərə aid memarlıq abidəsi. Qırmızı kərpicdən inşa edilmiş türbənin üstündə bir iri, altı xırda günbəz var. Məşhur mütəfəkkir və şair Fəzlullah Nəiminin məzarı üzərində yaradıldığı üçün N. t. adlandırılmışdır (bax *Şeyx Xorasan xanəgahı*).

**NƏQQAŞ USTA ZEYNAL** (1839–1904) – şair və nəqqaş. Bax *Usta Zeynal Nəqqaş.*

**NƏQŞİ-CAHAN** – bəzi orta əsr İran və türk müəlliflərinin (Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və b.) əsərlərində Naxçıvan ş.-nin adı, ərəbcə "nəqş" rəsm, təsvir, bəzək və farsca "cahan" (dünya) sözlərindən ibarət olub "Dünyanın bəzəyi" deməkdir. Görünür, bu epitet Naxçıvanın ən parlaq çağında, Azərb. atabəylərinin (Eldənizlər dövləti) paytaxtı olduğu dövrdə (12–13 əsrlər) yaranmışdı; tarixçi Həmdullah Qəzvini (1280–1349) Naxçıvan haqqında yazmışdı ki, şəhər gözəldir və nəqşi-cahan adlanır.

**NƏSİRƏDDİN NAXÇIVANİ,** Qutluğşah ibn Səncər ibn Abdullah əs-Sahibi ən-Naxçıvani (? – 1288) – alim, filosof, müşrif, dövlət xadimi. Görkəmli alimlər ailəsinin nümayəndəsidir. Məşhur ərəb alimi və biblioqrafı ibn əl- Fuvatinin məlumatına görə N. N. 1277 ildə Vasit mahalında sədr vəzifəsinə, 1286 ildə isə İraqa müşrif (vil. müfəttişi) təyin olunmuşdur. Burada itaətsizlik göstərdiyindən 1288 ildə vəzifəsindən kənarlaşdırılmış və həmin ildə İraq müşrifi Sədəddövlə Məsud əl-Yəhudi əl-Məşiri tərəfindən öldürülmüşdür. Salman əl-Farsi ziyarətgahında məqbərədə dəfn olunmuşdur. Fəlsəfəyə dair qiymətli əsəri miras qalmışdır. Mənbələrin verdiyi məlumata görə N. N. Vasit mahalında Cəfər çayı sahilindəki əl-Məmun şəhərciyində mədrəsə və Mədaində ribat (qonaq evi, karvansara) tikdirmişdir.

*Əd.:* Буниятов З. М., Сведения Камал ад-дина ибн ал- Фувати о представителях семьи Санджара ибн Абдаллаха ан-Нахичевани, ДАН Азерб. ССР, т. XXXIV, 1978, № 5.

**NƏSİRƏDDİN TUSİ** Məhəmməd ibn Məhəmməd ibn Həsən (17.2.1201, Tus – 25.6.1274, Bağdad) – ensiklopediyaçı alim, filosof, ictimai-siyasi xadim. Tusi onun nisbəsi, Nəsirəddin (dinin tərəfdarı) ləqəbidir. Məhəmməd adının əvəzedicisi Əbu Abdulla, yaxud Əbu Cəfər künyələri ilə də tanınmışdır. Ona Xacə (Cənab), habelə həmin mənada Mövla demişlər. İlk təhsilini atasından və dayısından almış, sonra Xorasanda humanitar və dəqiq elmlərin müxtəlif sahələrini dərindən öyrənmişdir. N.T.-yə 30.6.1222 ildə Müinəddin Salim Misri tərəfindən hədis söyləmək icazənaməsi verilmişdir.

N. T. ismaililərin başçılarından olan Kuhistan hakimi Nasirəddin Möhtəşəmin dəvəti ilə İsfahana getmiş, rəğbətlə qarşılanmışdır. Lakin aralarında baş verən müəyyən narazılıq nəticəsində N. T.-yə inam azalmış və o, Ələmut qalasında, bir növ, həbsdə yaşamışdır. Hülaku xan 1256 ildə ismaililərin hakimiyyətinə son qoyarkən N. T.-ni azad edib, özünə məsləhətçi götürmüşdür. Bağdadın fəthində iştirak edən alim müdrik tədbirləri ilə tanınmış, insanlara, xüsusən ziyalılara böyük qayğı göstərmiş, onları ölümdən qurtara bilmişdir. Marağa və Təbrizi tərk etmiş 500-ə qədər ailə onun sayəsində vətənə qayıtmışdır.

N. T. -nin dünya elm və mədəniyyəti tarixində mühüm xidmətlərindən biri 1259 ildə Marağa Rəsədxanasını təşkil etməsidir. O, ayrı-ayrı millətlərin müxtəlif əqidəli 100-dən çox nümayəndəsini buraya toplamış, onların işləməsi üçün lazımi şərait yaratmışdır. Rəsədxana nəzdində fəaliyyət göstərən mədrəsədə o dövrün bütün bilik sahələri, elmi, dini, fəlsəfi və ictimai-siyasi təlimləri öyrənilirdi. Mədrəsənin 400 min cilddən çox kitabı olan zəngin kitabxanası var idi. N. T. Bağdadda səfərdə olarkən vəfat etmiş, öz vəsiyyətinə görə onun yaxınlığındakı müqəddəs Kazımeyn ş.-ndə dəfn edilmişdir. Maraqlıdır ki, onun dəfn olunduğu sərdabə N. T. anadan olan vaxt – hicri tarixi ilə 75 il, 7 ay, 7 gün əvvəl, xəlifə Nasir li-Dinillah üçün hazırlanmış, lakin müəyyən səbəblərə görə boş saxlanılmışdı.

N. T.-nin Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd adlı üç oğlu da elm yolunu tutmuş, eyni zamanda dövlət işlərində çalışmışlar. Əvhədi Marağayi (1274–1338) "Dəhnamə" məsnəvisini (1306) N. T.-nin nəvəsi Xacə Ziyaəddin Yusif ibn Əsiləddin Həsənə ithaf etmişdir. N. T. nəslindən olanlar sonralar Naxçıvan ərazisində yaşamış, elm, ədəbiyyat və incəsənət sahəsində tanınmışlar. N. T. nəslinin Ordubad mahalında yaşaması və buna görə I Şah Abbasın [1587–1629] oranı bütün vergilərdən azad etməsi haqqında fərmanı 17 əsrdə Ordubadda tikilmiş böyük cümə məscidinin qapısı üstündəki daş kitabədə həkk olunmuşdur.

N. T.-nin ilahiyyata, fəlsəfəyə, siyasət və etikaya dair traktatlarında onun dünyagörüşü geniş ifadəsini tapmışdır. Şiəliyin imamilik (imamət) təriqətinə mənsub mütəfəkkirin "İmamətə dair traktat" ("Risalə fi-l-imamə") və bir sıra başqa əsərlərində təkcə 12 şiə imamı deyil, ümumiyyətlə, imam (başçı) üçün səciyyəvi keyfiyyətlər ön plana çəkilir. N. T. "Cəbr və qədr" traktatında insanın iradə azadlığını məqbul saymışdır. Təriqət təəssübkeşliyindən uzaq olan mütəfəkkirin əsərlərindən şiələr də, sünnilər də bəhrələnmişlər. N. T.-nin fəlsəfəyə dair traktatlarında [İbn Sinanın "İşarələr və qeydlər" kitabının şərhinə həsr olunmuş "Problemlərin həlli" ("Həll əl-müşkilat"), "Kəlamın təcridi" ("Təcrid əl-kəlam"), "İqtibasın əsası" ("Əsas əl-iqtibas")]



ilahiyyat məsələlərinə də müəyyən yer verilmişdir. Azərb. Milli EA Füzuli ad. Əlyazmalar İn-tunda "Problemlərin həlli" traktatının 13 və 17 əsrlərə aid əlyazması nüsxələri vardır. N. T. İbn Sina və Bəhmənyar məktəbinin görkəmli davamçısı olub, Şərq peripatetizmini inkişaf etdirmişdir. N. T. varlığı ilk səbəb və nəticə timsalında qisimlərə bölüb, onlar arasında zaman fərqinin olmadığını göstərmiş, mümkün varlığı, o cümlədən maddi aləmi əzəli və əbədi saymışdır. Filosofun varlıq təlimində materiya və formanın vəhdəti, hərəkətin kəmiyyət, keyfiyyət, məkan və vəziyyətə görə növləri, zaman və b. fəlsəfi kateqoriyalar riyazi və təbii-elmi fikirlərdən misallarla hərtərəfli və dərindən işıqlandırılmışdır. N. T. "Problemlərin həlli" traktatında sxolast Fəxrəddin Razinin (1148–1210) İbn Sinaya qarşı qərəzli müddəalarını təkzib etmiş, peripatetik filosofa haqq qazandırmışdır. N. T.-nin idrak nəzəriyyəsində idrak prosesinin hissi və əqli mərhələləri elmi şəkildə şərh edilmiş, hisslər vasitəsilə şeylərin zahiri cəhətlərinin, əqllə isə onların mahiyyətinin dərk olunduğu göstərilmişdir. Filosofun məntiq təlimində təfəkkür formaları və onların növləri xüsusi araşdırılır.

N. T.-nin etik və ictimai-siyasi görüşləri əsas etibarilə 1235 ildə Nasirəddin Möhtəşəmin şərəfinə yazılmış "Əxlaqi-Nasiri" əsərində əksini tapmışdır. Ümumi fəlsəfi məsələlərə də müəyyən yer verilmiş bu əsərdə xasiyyətlərin müxtəlif aspektləri, fəzilətli və qəbahətli cəhətləri araşdırılır, insanı kamilləşdirən keyfiyyətlər, xeyir və səadətə aparan məziyyətlər göstərilir. Diqqəti insan və cəmiyyət münasibətlərinə yönəldən N. T.-in idarəetmə nəzəriyyəsində özünü, ailəni və dövləti idarəetmə məsələləri təhlil edilir, insanların "ədalət, fəzilət və hikmət qanunları əsasında idarə edilməsi" zəruri sayılır. N. T. fiqhə (müsəlman hüququ) dair əsərlərində humanist mövqe tutmuş, insanların əmin-amanlığı qayğısına qalmağı ümdə prinsip saymışdır. N. T. poeziya nəzəriyyəsinə, musiqiyə dair traktatların və fəlsəfi şerlərin də müəllifidir. N. T.-nin dünyagörüşü, geniş mündəricəli fəlsəfəsi, mütərəqqi etik və ictimai-siyasi, habelə ilahiyyata dair fikirləri təkcə tarixilik baxımından deyil, bugünün özündə də böyük maraq doğurur, mühüm əhəmiyyət kəsb edir.



*"Nəsirəddin Tusi". Rəssamı Nacəfqulu. 1981. Azərbaycan Milli EA Nəsirəddin Tusi ad. Şamaxı Astrofizika Rəsədxanası.*

N. T.-nin riyaziyyat, astronomiya və fizika sahələrində misilsiz xidmətləri vardır. "Zic Elxani" əsərində planetlərin geosentrik orbitinin əsas elementləri verilmiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta 17 əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin edilmişdir. N. T.-nin rəhbərliyi ilə Yerin fırlanma oxunun illik presessiyasının qiyməti (51"4) tapılmışdır (müasir qiyməti 51"2). "Zic Elxani" əsərində çoxlu riyazi, astronomik və coğrafi cədvəllər də verilir. Ən mühümləri sinus və tangensin 60-lıq say sistemində üçrəqəmli triqonometriya cədvəlləri və 13 əsrdə məşhur olan 256 şəhərin coğrafi koordinatlar cədvəlidir. X. Kolumbun müəllimi P. Toskanelli bu cədvəldən istifadə etmişdir. Cədvəl Londonda (1652) və Oksfordda (1711) ərəb və latın dillərində çap edilmişdir. 1266 ildə Marağa rəsədxanasına gəlmiş azərb. mühəndis Kəriməddin Səlmasi alman alimi Martin Böhaymdan (1459–1507) 2 əsr əvvəl coğrafi qlobusu hazırlamışdır. N. T.-nin "Təhriri-öqlidis" ("Evklidin şərhi") əsəri həndəsənin inkişafına təkan vermiş, Romada ərəb (1594) və latın (17 əsr) dillərində nəşr olunmuş, fransız riyaziyyatçısı A. Lejandrın, ingilis riyaziyyatçısı C. Vallisin və italyan alimi C. Sakkerinin işlərinə böyük

təsir göstərmişdir. N.T. bu əsərdə və "Həndəsənin əsasları"nda Evklidin 5-ci postulatı haqqında öz nəzəriyyəsini vermiş, üçbucağın daxili bucaqlarının cəmi arasında əlaqəni tapmışdır. Arximedin "Kürə və silindr" və "Dairənin kvadratlanması" əsərlərindəki nisbətlər nəzəriyyəsini N.T. inkişaf etdirmişdir. N. T.-nin verdiyi ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdı. Onun müstəvi və sferik triqonometriyadan bəhs edən "Şəklül-qita" ("Tam dördtərəfli haqqında traktat") əsərində Menelay teoreminin, müasir triqonometriyanın əsas teorem və düsturarı verilmiş, sferik üçbucağın üç bucağına görə tərəfləri təyin edilmiş, diskret və kəsilməz kəmiyyətlər anlayışına dialektik tərif verilmişdir. Bu əsər vasitəsilə müstəvi və sferik triqonometriya sərbəst riyazi fənn şəklinə düşmüşdür; o, 1891 ildə İstanbulda ərəb və fransız dillərində nəşr olunmuşdur. "Cəleul hesab" ("Taxta və qum vasitəsilə hesablama") əsərində müsbət ədəddən istənilən dərəcədən kökalma qaydası, binomial hədlərin on iki dərəcəli həddədək əmsalları verilir. Qədim yunan alimi K.Ptolemeyin məşhur "Almagest" əsərinin işlənmiş variantı olan "Təhrir əl-Məcəsti" əsəri Ptolemeyin geosentrik sistemi daxilində planetlərin hərəkət nəzəriyyəsinə və onun təshihinə aiddir. N. T. hesaba aid əsərində tam ədəddən ixtiyari dərəcədən kökalma əməlini, $\sqrt[4]{244140626}$ kökünün nümunəsi kimi izah etmiş (riyaziyyat tarixində ilk dəfə), ədəd üçbucağını əmələ gətirən binomial əmsalları və onlar arasındakı qanunauyğunluqları göstərmiş, Nyuton binomunu sözlə ifadə etmişdir. N. T. fizikaya sözün ən geniş mənasında bütün təbiətşünaslıq məsələlərini aid etmişdir. Burada bəsit və mürəkkəb cisimlər, yerdə və göydə əmələ gələn hadisələrin, məsələn, göy gurultusu, ildırım, şimşək, yağış, qar, zəlzələ və buna oxşar hadisələrin səbəbləri, mürəkkəb maddələr, onların tərkiblərinin xüsusiyyətləri (mineralogiya), bitkilər, onların növləri, nəfs və qüvvələri (botanika), ixtiyari və iradi hərəkət edən cisimlər, onların hərəkət xüsusiyyətləri, nəfs və qüvvələri (zoologiya), insanın düşüncəli nəfsinin xüsusiyyətləri (psixologiya) öyrənilir. N.T. təbabət, əkinçilik elmi və s.-ni fizikanın əlavə bölmələri hesab etmişdir. N.T.-nin və Marağa rəsədxanası alimlərinin kəşf və ixtiraları bəşər elmi fikrini zənginləşdirmişdir. Mənbələrdə N. T.-yə fövqəladə qabiliyyətinə, dərin zəkasına və misilsiz xidmətlərinə görə "on birinci əql" ("əl-əql əl-hadi əşər" – Şərq peripatetizmi on əql növünün mövcudluğunu qəbul edirdi) və "bəşər ustadı" ("ustad əl-bəşər") deyilmişdir.

1981 ildə anadan olmasının 780 illik yubileyi geniş qeyd olunmuş, şərəfinə medal təsis edilmiş, abidələri ucaldılmış, portreti (xalq rəssamı Nəcəfqulu) yaradılmışdır. Azərb. Respublikasının bir sıra elm, təhsil və mədəni-maarif müəssisəsinə, o cümlədən, Azərb. Milli EA Şamaxı Astrofizika Rəsədxanasına, küçələrə N. T.-nin adı verilmişdir. YUNESKO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd ediləcəkdir. Bu münasibətlə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı ilə yubiley komissiyası yaradılmışdır..

Ə s ə r l ə r i: Əxlaqi-Nasiri (farscadan tərcümə edəni Rəhim Sultanov), B., 1980; Cavahirnamə (farscadan tərcümə edəni Qafar Kəndli), B., 1984; Трактат о полном четырехстороннике ("Шаклул-гита"), Б., 1952.

*Əd.:* E y v a z o v F.İ., Nəsirəddin Tusinin etik görüşləri, B., 1976; y e n ə o n u n, Dahi alim və filosof, B., 1981; M ə m m ə d b ə y l i H. C., Nəsirəddin Tusi, B., 1980, M ə m m ə d o v Z. C., Azərbaycan fəlsəfəsi tarixi, B., 1994; R z a y e v A. Nəsirəddin Tusi. Həyatı, elmi, dünyagörüşü, B., 1996; M ə m m ə d o v a A. Z. Nəsirəddin Tusinin dünyagörüşü, B., 2000; М а к с у д о в Ф. Г., М а м е д б е й л и Г. Дж., Мухаммед Насиреддин Туси, Б., 1981.

**NƏSİRLİ** Məmməd Nəsir oğlu (24. 10. 1911, Naxçıvan ş. – 1979, Bakı) – etnoqraf. Tarix elmləri namizədi (1960). 1933–46 illərdə orduda xidmət etmiş, Xalxin-Qol döyüşlərində və Böyük Vətən müharibəsi (1941–45) cəbhələrində vuruşmuşdur. Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini (1951) və SSRİ EA Etnoqrafiya İn-tunun (Moskva) aspiranturasını (1954) bitirmişdir. Həmin vaxtdan Azərb. Milli EA Tarix Muzeyində, sonralar isə Tarix İn-tunda çalışmışdır. Respublikanın ilk etnoqraflarından olan N. Azərb., o cümlədən Naxçıvan etnoqrafiyasının öyrənilməsi sahəsində çox iş görmüşdür. N. ilk dəfə olaraq Azərb. yaşayış evləri və məskənlərinin tipologiyası məsələlərini tədqiq etmiş, "Nax. MSSR-in xalq yaşayış məskənləri və yaşayış evləri" (B., 1959), "Azərbaycan SSR Şəki–Zaqatala zonası əhalisinin yaşayış evləri" (B., 1975) əsərlərini nəşr etdirmişdir. Ekspedisiyalar zamanı topladığı zəngin materiallar əsasında "Məskənlər və yaşayış evləri" mövzusu üzrə tarixi-etnoqrafik atlas hazırlamışdır. Bir sıra ümumittifaq və respublika elmi məclislərində məruzələr etmişdir.



**NƏSİRLİ** Müzəffər Qasım oğlu (14. 9.1911, indiki Şahbuz r-nunun Sələsüz k. – 1. 1. 1980, Naxçıvan ş.) – şair. Naxçıvan Pedaqoji Texnikumunu (1929) və Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini bitirmişdir (1936). Orta məktəblərdə, Yerevan Pedaqoji Texnikumunda və Yerevan Pedaqoji İn-tunda müəllim işləmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Müharibədən sonra Naxçıvan Dövlət Qiyabi İn-tunda direktor müavini, eyni zamanda dil və ədəbiyyat fakültəsinin dekanı olmuş, Azərb. Yazıçılar İttifaqının Naxçıvan bölməsinə başçılıq etmişdir. "Həyat haqqında mahnı" (1938), "Sivaş sahillərində" (1945), "Qafqaz yollarında" (1952), "Araz sahilində" (1962), "Laləli dağlar" (1965), "Yanar üfüqlər"(1968), "Qaynar bulaq" (1978) və s. şer və poema topluları nəşr olunmuşdur, "Qanlı qanunlar", "İntiqam" pyesləri var. Muxtar respublika Ali Sovetinin deputatı olmuşdur..

Ə s ə r i: İki ürək, B., 1974.

**NƏSİROV** Vəli Hüseynəli oğlu (17.12.1925, indiki Şərur r-nunun Qarabağlar k. – 16.6. 1987, Bakı) – fəlsəfəşünas. Fəlsəfə elmləri doktoru (1975), prof. (1976). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. Dövlət Un-ti (indiki BDU) tarix fakültəsinin fəlsəfə şöbəsini bitirmişdir (1950). "Azərnəşr"də siyasi və sosial-iqtisadi ədəbiyyat şöbəsində redaktor, böyük redaktor (1952–56), BDU-nun fəlsəfə kafedrasında müəllim və dosent (1956–75) işləmişdir. 1975 ildən indiki Azərb. Memarlıq və İnşaat Un-ti fəlsəfə kafedrasının müdiri idi. Vətənpərvərlik və beynəlmiləlçiliyə, milli münasibətlərə dair tədqiqatların, o cümlədən 10-dan çox kitab, monoqrafiya, broşürün və elmi məqalələrin müəllifidir. SSRİ Jurnalistlər İttifaqının (1958) və Fəlsəfə Cəmiyytinin (1973) üzvü idi. Qırmızı Ulduz, I dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif olunmuşdur.



Nəsirli Müzəffər

**NƏSİRVAZ** – Ordubad r-nu ərazisində çay. Gilançayın sol qolu. Zəngəzur silsiləsinin ətəyindən başlanır. Uz. 12 *km*, hövzəsinin sah. 44 $km^2$-dir. Əsasən yeraltı sular və qar suları ilə qidalanır. Suvarmada istifadə edilir. Sağ sahili sıldırım qayalıqlara, sol sahili füsunkar mənzərəli çoxterraslı relyefə malikdir.

**NƏSİRVAZ** – Ordubad r-nunda kənd. Bist bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən şm.-q.-də, Ordubad–Nürgüt avtomobil yolunun kənarında, dağ ətəyindədir. Əh. 151 nəfər (2000); arıçılıq və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, tibb məntəqəsi var. N. Naxçıvanın qədim mədəniyyət ocaqlarından biri olmuşdur. Kəndin yaxınlığında qayaüstü təsvirlər aşkar edilmişdir (*bax Gəmiqaya rəsmləri*). "Nəbi yurdu" adlanan ərazidə isə qayaüstü təsvirlərlə yanaşı, Tunc və Dəmir dövrlərinə aid maddi mədəniyyət qalıqları və orta əsrlərə aid maraqlı qəbir abidələri də var.

**NƏSİRVAZ MİNERAL SULARI** – Ordubad r-nu ərazisində, dəniz səviyyəsindən 2200–2400 *m* hünd.-dədir. Bir neçə çıxışdan ibarət olub müxtəlif debitə malikdir.

Balneoloji tərkibi:

$$CO_2 1,4\,M 1,5\frac{HCO_3 68\ SO_4 21}{(Na+K)36\ Ca35\ Mg29}\cdot$$

$$\cdot pH\,6,2\ \ D\,330\,m^3/gün\ \ T\,15^\circ C$$

Suları karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı–sulfatlı, natriumlu–kalsiumlu–maqneziumludur. "Narzan" tiplidir və bir sıra daxili xəstəliklərin müalicəsində istifadə oluna bilər.



Nəsirov Vəli

**NƏSİRVAZ POLİMETAL YATAĞI** – Ordubad r-nu ərazisində, Nəsirvaz k.-nin ətrafında, Zəngəzur silsiləsinin c.-q.-ində, dəniz səviyyəsindən 1800–2300 *m* hünd.-dədir. Geoloji quruluşunda Orta Eosen yaşlı andezit-porfiritlər və onların tufları, həmçinin qranodiorit-porfir daykası iştirak edir. Polimetal filizləşməsi zona tiplidir və qranodiorit-porfir daykasının yatım təməsında intişar etmişdir. Filizləşmə qranodiorit-porfir daykası ilə əlaqədardır. Şm.-ş. (80–850) istiqamətli po-

zulma boyunca qranodiorit-porfir daykası yerləşir. Filizləşmə q.-dən ş.-ə, qalınlığı 60–120 *m* olmaqla 2,2 *km* məsafədə izlənilir. Filiz kütləsində sink 1,2%, qurğuşun 1,16%, mis 0,4%-dir. Əsas filiz mineralları: pirit, qalenit, sfalerit, xalkopirit, misin törəmə mineralları. Tekstur əlamətlərinə görə filizlər zolaqvarı, brekçiya və məsaməli tiplidir.

**NƏZƏRABAD** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 23 *km* şm.-da, düzənlikdədir. Əh. 1004 nəfər (2000); taxılçılıq, heyvandarlıq, quşçuluq və tərəvəzçiliklə məşğuldur. Məktəb, tibb məntəqəsi, kitabxana, məscid var. Kəndin şm.-nda, Naxçıvan–Şahbuz avtomobil yolunun üstündə *Meydantəpə* antik dövr yaşayış yeri qeydə alınmışdır.

**NƏZƏRABAD KÖRPÜSÜ** – Babək r-nu ərazisində, Naxçıvan – Biçənək aşırımından keçən avtomobil yolunun 12 *km*-liyində, Cəhri çayı üstündədir. Uz. 54 paqonometr. 1932 ildə tikilmiş, 1997 ildə bərpa edilib yenidən qurulmuş və istifadəyə verilmişdir.

**NƏZƏRABAD NEKROPOLU** – Babək r-nunda, eyniadlı kəndin q.-ndə, Naxçıvan–Şahbuz avtomobil yolunun sağında 14–17 əsrlərə aid arxeoloji abidə. Müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin üzərində sənduqə tipli abidələr qoyulmuşdur. Axtarışlar nəticəsində bir sıra maddi mədəniyyət nümunələri tapılmışdır.

**NƏZƏRƏLİ BƏY KƏNGƏRLİ** (?–?) – Naxçıvan tüməninin hakimi *Kəlbəli xan Kəngərlinin* oğlu, Ehsan xan, Şeyxəli (Şıxəli) bəy və Lütfəli Sultan Kəngərlilərin qardaşıdır. Bir müddət İran şahzadəsi Abbas Mirzəyə xidmət etmiş, sonradan xan tituluna layiq görülmüşdür. 1806 ildə Lütfəli Sultan Kəngərlinin təşkil etdiyi "Kəngərli süvariləri"nin komandiri olmuşdur.

**"NİSƏBƏYİM BULAĞI"** – Culfa r-nunun Şurud k. ərazisində ziyarətgah. İlandağın zirvəsinə qalxan cığırdan azca aralıdır. Yerli camaat arasında möhkəm kök salmış adətə görə, meyvə ağaclarına tırtıl daraşanda, xəstəlik düşəndə ziyarətgaha qurban deyər, yaxud "N.b"-ndan su gətirib ağaclara çiləyər xeyir-bərəkət, bol məhsul diləyərdilər. Bundan sonra ağaclar sanki canlanar, azarbezardan qurtarardı, arzu və niyyətlər hasil olardı.

**NOHUR** – Şahbuz r-nunda Arınc k. yaxınlığında, Arınc çayının sol sahilində 11–14 əsrlərə aid yaşayış yeri. Sah. 1000 $m^2$. Yaşayış yerində tikinti qalıqları izlənir. Yonulmuş əhəngdaşılarından inşa edilmiş evlər dördkünc və düzbucaqlıdır. Otaqlardan birinin (6x4 *m*) içərisində təmizləmə işləri aparılarkən şirsiz (çəhrayı, sarımtıl rəngli küpə və səhəng tipli qab qırıqları) və şirli (kasa, boşqab sınıqları) saxsı məmulatı aşkar olunmuşdur.

**NOXUDDAĞ** – Babək r-nu ərazisində dağ. Nehrəm platosundan 5 *km* c.-da, Arazın sol sahilindədir. Hünd. 1677 *m*. C. yamacı sıldırımdır.

**NORAŞEN** – Şərur ş.-nin (1981 ilədək ştq.) 1964 ilədək adı.

**NORAŞEN** – Culfa r-nundakı *Göydərə* k.-nin keçmiş adı.

**NORAŞEN DAĞI** – Culfa r-nu ərazisində dağ. Əlincəçayın sağ sahilində, Noraşen (indiki Göydərə) k.-nin q.-indədir. Hünd. 1587 *m*. Andezit-dasit tərkibli ekstruzivdir. Konusvarı formadadır.

**"NORAŞEN KOLXOZÇUSU"** – qəzet. Şərur Rayon İcra Hakimiyyətinin orqanı *"Şərurun səsi"* qəzetinin 1954–59 illərdə adı.

**NORAŞEN NEKROPOLU** – Culfa r-nunun Göydərə (keçmiş Noraşen) k. yaxınlığında orta əsrlərə aid arxeoloji abidə *(bax Göydərə nekropolu)*.

**NORAŞEN RAYONU** – Şərur rayonunun 1964 ilədək adı.

**NOVDƏRƏ** – Ordubad r-nu ərazisində dağ. Gilançayın aşağı axınında, onun dərəsinin sol yamacında, Gilançay k.-ndən 1 *km* şm.-ş.-dədir. Hünd. 1092 *m*.

**NOVRUZOV** Heydər Qulu oğlu (1902, indiki Babək r-nunun Təzəkənd k. – 5.1.1938) – dövlət qulluqçusu. Azərb. Xalq Cümhuriyyəti dövründə Müsavat zabiti kimi daşnaklarin Naxçıvan və Qarabağda azərb.-lılara qarşı soyqırımının dəf olunmasında iştirak etmiş, sonralar A. Şadlinskinin rəhbərlik etdiyi "Qırmızı tabor"un sıralarında vuruşmuşdur. Tiflisdə (1924–27), Moskvada (1928–30) və Bakıda (1931–33) təhsil almış, tarixçi və iqtisadçı ixtisaslarına yiyələnmişdir. Azərb. K(b)P Naxçıvan Vilayət Komitəsi təşkilat (1927–28) və aqrar (1929–30) şöbələrinin müdiri, sonralar Vilayət İcraiyyə Komitəsi sədrinin müavini, Noraşen (indiki Şərur) və Naxçıvan (indiki Babək) r-n partiya komitələrinin katibi, Masallı r-n İcraiyyə Komitəsinin sədri olmuşdur (1933–36). 1937 ildən Bakı şəhər Soveti sədrinin müavini idi. "Naxçıvan fəalları" adlı gizli əksinqilabi siyasi təşkilatın rəhbəri ittihamı ilə həbs edilərək, "xalq düşməni" kimi güllələnmişdir.

*Əd.:* B a y r a m o v İ., Varislik. "Dirçəliş" jurn., 1992, № 3.

**NOVRUZOV** Manaf Əbdülrəhim oğlu (d. 26.12.1926, Naxçıvan ş.) – həkim-terapevt. Tibb elmləri doktoru (1970), prof. (1975). Naxçıvan Müəllimlər İn-tunun tarix fakültəsini (1944), Azərb. Dövlət Tibb İn-tunu (1952) və keçmiş SSRİ EA Vərəm Xəstəlikləri İn-tunun aspiranturasını (1962) bitirmişdir. Noraşen (indiki Şərur) r-nu mərkəzi xəstəxanasının baş həkimi (1952–55), Nax. MSSR vərəmlə mübarizə dispanserinin baş həkimi (1955–58), Bakı şəhər 4 saylı vərəm xəstəxanası baş həkiminin müavini və şöbə müdiri (1958–59), Azərb. Elmi-Tədqiqat Vərəm Xəstəlikləri İn-tunda baş elmi işçi (1963–68), təşkilat şöbəsinin müdiri (1970–81), elmi işlər üzrə direktor müavini (1981–95) işləmişdir. 1995 ildən Azərb. Respublikası Səhiyyə Nazirliyinin baş ftizio-pulmonoloqu, respublika ftiziatr və pulmonoloq həkimləri assosiasiyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Azərb. Respublikasında vərəm xəstəlikləri üzrə milli əlaqələndiricisidir. 150-dən çox elmi əsərin, vərəmlə mübarizəyə dair yaddaş kitabçalarının, elmi-kütləvi filmin ssenari müəllifidir.

**NOVRUZOV** Rafiq Manaf oğlu (d. 1.3.1952, Bakı) – filoloq, ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1990), prof. (1991). Rusiya Pedaqoji və Sosial EA-nın həqiqi üzvü (1995). *M.Ə.Novruzovun* oğludur. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1975). 1976 ildən Bakı Slavyan Un-tində (keçmiş M. F. Axundov ad. Azərb. Pedaqoji Rus dili və Ədəbiyyatı İn-tu) çalışır. Un-tin qiyabi fakültəsinin dekanı (1991–93) işləmişdir. 1993 ildən tədris işləri üzrə prorektoru olmuş, 1997 ildən rektor vəzifəsini icra etmişdir. 2000 ildən rus ədəbiyyatı tarixi kafedrasının prof.-dur. Rus ədəbiyyatına, Azərb.-rus ədəbi əlaqələrinə və tərcümə problemlərinə dair tədqiqatların, o cümlədən, 3 monoqrafiya və bir dərsliyin müəllifidir. Rusiya Federasiyasının A. S. Puşkin ad. medalı ilə təltif olunmuşdur (1999).

Ə s ə r l ə r i: Художественный перевод и проблема взаимодействия, взаимообогащения литератур. Б., 1990; Пути взаимообогащения. Б., 1994.



Novruzov Manaf

**NOVRUZOV** Sabir Abbasqulu oğlu (d. 16.6.1940, indiki Babək r-nunun Nehrəm k.) – həkim-cərrah. Tibb elmləri namizədi (1990). Nax. MR əməkdar həkimi (1980), səhiyyə əlaçısı (1972). 1964 ildə Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir. Culfa r-n mərkəzi xəstəxanasında həkim, baş həkim, N.Nərimanov ad. Naxçıvan Respublika xəstəxanasında həkim-cərrah, baş həkimin müavini işləmişdir (1980 ilədək). 1981–84 illərdə Nax. MSSR Səhiyyə nazirinin müavini olmuş, eyni zamanda nazir vəzifəsini (1983–84) icra etmişdir. 1984 ilin sonundan muxtar respublika xəstəxanasında həkim-cərrah vəzifəsində çalışır. Elmi məqalələri var. Hemosorbsiya üsulu ilə müalicədə yeni sorbent növü ixtira etmişdir (1989).

**NOVRUZOV** Şövqi Heydər oğlu (d. 3.5.1937, Bakı – 14.1. 2000, Bakı) – ədəbiyyatşünas və jurnalist. Filologiya elmləri namizədi (1968). Azərb. Respublikası əməkdar jurnalisti (1988). "Qızıl qələm" mükafatı laureatı (1979). *N. Q. Novruzovun* oğludur. Azərb. Dövlət Un-ti (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini (1960) və Azərb. Milli EA Nizami ad. Dil və Ədəbiyyat İn-tunun (indiki Ədəbiyyat İn-tu) aspiranturasını (1966) bitirmişdir. Azərb. Sovet Ensiklopediyası Baş Redaksiyasında (indiki "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyatı) böyük elmi redaktor, redaksiya müdiri (1966–70), Bakı Ali Partiya Məktəbində baş müəllim, dosent əvəzi (1970–74), "Azərbaycan kommunisti" jurnalının baş redaktor müavini (1981–1991), "Dirçəliş" jurnalının, "Ana vətən" qəzetinin (1992–93) baş redaktoru (1991–93), Bakı Sosial İdarəetmə və Politologiya İn-tunun baş müəllimi (1993–99) olmuşdur. Mətbuat tarixinə dair tədqiqatı, elmi-publisistik məqalələri var.



Novruzov Rafiq

Ə s ə r i: "Şərqi-Rus"un çağırışı. B., 1988.

**NOVRUZOVA** Cəmilə Həsən qızı (d. 9.4.1930, Naxçıvan ş.) – sənətşünas. Sənətşünaslıq doktoru (1978), prof. (1990). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1952). 1962 ildən Azərb. Milli EA Memarlıq və İn-

Novruzova Cəmilə



cəsənət İn-tunda baş elmi işçi vəzifələrində çalışır. Azərb. heykəltəraşlığının yaranması və inkişafı problemlərinə, görkəmli nümayəndələrinin yaradıcılığına dair elmi əsərlərin müəllifidir. "SSRİ xalqları incəsənəti tarixi" əsərinin hazırlanmasında iştirak etmişdir. 1988 ildən Azərb. Mədəniyyət və İncəsənət Un-tində pedaqoji fəaliyyətlə də məşğuldur.

Ə s ə r l ə r i: Fuad Əbdürrəhmanov, B, 1974; Токай Мамедов, М., 1972; Скульптура Советского Азербайджана, Б., 1979.

**NOVUŞ,** K a z ı m d ə h n ə – Ordubad r-nu ərazisində çay. Gilançayın sol qolu. 2300 *m* hünd.-dən başlanır. Uz. 6 *km*. Əsasən, yeraltı sular (Sərinçeşmə, Xançeşmə və s. bulaqlar) və qar suları ilə qidalanır. Yuxarı axınında Kazımdəhnə adlanır.

**NOVUŞBAŞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Parağa k.-ndən 3,5 *km* şm.-q.-dədir. Hünd. 1600 *m*.

**"NUH YURDU"** – siyasi, ictimai, iqtisadi və ədəbi qəzet. Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanıdır. İlk nömrəsi 1996 il aprelin 5-də çıxmışdır. Qəzetdə Naxçıvan ş.-nin və muxtar respublikanın ictimai-siyasi, iqtisadi, ədəbi- mədəni həyatına, eləcə də Azərb.-da və dünyada baş verən mühüm hadisələrə dair məqalələr, ədəbi-bədii yazılar dərc edilir. Ayda iki dəfə, böyük formatda rəngli çap olunur.

**NUHÇIXAN** – fərziyyəyə görə, Naxçıvan ş.-nin ən qədim adı. Bəzi tarixçi və dilçilər "Naxçıvan" toponiminin etimoloji mənşəyini əfsanəvi Nuh peyğəmbərin adı ilə bağlı olan dünya tufanı əfsanəsi ilə əlaqələndirərək, belə bir fərziyyə irəli sürmüşlər ki, guya Naxçıvan Nuhun gəmisinin quruya çıxdığı yerdə salındığından şəhər N. adlandırılmışdır.

**NUHDABAN** – əfsanəvi toponim. Guya Nuh peyğəmbərin gəmisi quruya oturarkən ətrafdakı dağlar od tutub yanırmış. Bu dağlar Gəmiqaya, İlandağ və Ağrı dağları imiş. Lakin od-alov nə insanları, nə də yaşıllığı yandırmışdır. Bunun səbəbini Nuhdan soruşduqda o, həmin odun adi deyil, qüvvət və bərəkət gətirən möcüzəli od olduğunu bildirmiş və burada yurd salmağı məsləhət görmüşdür. Bundan sonra Nuh gəmidən çıxarkən ilk dəfə pəncəsi deyil, dabanı torpağa dəydiyi üçün həmin yer N. adlanmışdır.

**NUHUN QƏBRİ** – Naxçıvanla bağlı olan və burada geniş yayılmış "Nuh tufanı" əfsanəsində göstərilir ki, guya Nuh peyğəmbər yer üzünü su basacağı barədə Allah-təaladan xəbər tutaraq bir gəmi düzəltmiş, öz ailəsini və hər canlıdan bir cüt götürüb gəmiyə doldurmuşdur. Səfər zamanı gəmi Naxçıvanın şərqindəki İlandağa (əfsanəyə görə İnandağa), Ordubaddakı Ələngəz dağına və Araz sahilindəki Kəmki dağlarına toxunub keçmiş, Gəmiqayada quruya oturmuşdur. Nuh gəminin toxunduğu dağlara ad vermişdir. Bu əfsanə Nuh tufanı haqqında qədim şumer və yəhudi əfsanələri ilə bu və ya digər dərəcədə səsləşir və onların hamısının bir kökdən olduğunu göstərir. Alimlərin (Avstraliya etnoqrafı Elkin) fikrincə, hər bir əfsanə müəyyən hadisə ilə bağlıdır. Tədqiqatçı R. Sultanovun qənaətincə, tufan Ağrı dağında vulkan püskürməsi ilə əlaqədar Dəclə və Fərat çaylarının daşması nəticəsində baş vermişdir. Deməli, Ağrı dağına yaxın olan Araz çayında, daha doğrusu, Naxçıvanın özündə də güclü daşqın olmuşdur. Bəzi mənbələrə əsasən əfsanənin süjeti hələ eramızdan əvvəl üçüncü minillikdə məlum imiş. O, ikinci minilliyin ortalarında şumerlilər tərəfindən yazıya alınmışdır. Bir sıra tarixçi və coğrafiyaşünasların fikrincə, bu, Naxçıvanın salındığı tarixlə (e. ə 1539-cu il) eyni dövrə təsadüf edir.

Naxçıvanda yayılmış əfsanəyə görə, Nuhun gəmisi Gilançayın yuxarı axarındakı Gəmiqayada lövbər salmışdı. Rəvayətə görə, gəminin qalıqları indi də buradakı "Ayı çuxuru" deyilən yerdə qalmaqdadır. Digər rəvayətə görə isə, Nuhun və qarısının qəbri Naxçıvandadır. Ə. Hüseyni isə Gəmiqayada Nuhla bağlı qədim yazı olduğunu göstərmişdir. Naxçıvanda "Nuhdaban" adlı qədim kəndin xarabalığı, Nəhəcir (güman ki, qədim adı Nuhəcir) dağı və kəndi var. Erməni tarixçisi Camçıyan, 16 əsr ərəb coğrafiyaşünası Əl-Əşrəfi də Nuhun gəmisinin və qəbrinin Naxçıvanda olduğunu qeyd edirlər. Bundan belə bir qənaətə gəlmək olar ki, əfsanə azərb.-ların məskunlaşdığı qədim Naxçıvanla və ona yaxın ərazi ilə bağlı yaranmışdır. Bəhruz Kəngərli yağlı boya ilə "Nuhun qəbri" rəsmini çəkmişdir (Naxçıvan Dövlət Tarix Muzeyindədir).

*Əd.:* S ə f ə r o v Y., Bir əfsanənin mənşəyi, "Azərbaycan" jurn. № 3, 1966.



**NURİYEV** Əli Nəcəfqulu oğlu (d. 29.12.1928, indiki Babək r-nunun Nehrəm k.) – kimyaçı. Kimya elmləri doktoru (1972), prof. (1986). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1980). Azərb. Dövlət Un-tində (indiki BDU) oxumuş (1948–51), sonra isə təhsilini Qorki (indiki Nijni-Novqorod) Dövlət Un-tində davam etdirmişdir (1951–53). Azərb. Milli EA Kimya İn-tunun aspiranturasını bitirdikdən sonra Qeyri-Üzvi və Fiziki Kimya İn-tunda kiçik və böyük elmi işçi işləmiş, 1980 ildən isə laboratoriya müdiri vəzifəsində çalışır. N. eyni zamanda həmin in-tun direktor müavini və Azərb. Milli EA Naxçıvan Regional Elmi Mərkəzinin rəhbəri olmuşdur. Elmi fəaliyyəti, əsasən, nadir və radioaktiv elementlərin heterogen üçlü sistem təşkil edən neftli lay sularında, neftdə və onlarla təmasda olan süxurlarda paylanması qanunauyğunluğunun öyrənilməsi, həmin elementlərin tipindən asılı olaraq neftin, suyun və süxurun tərkibində dəyişməsi, onların miqrasiya mexanizmi və s. qanunauyğunluqlarının hərtərəfli tədqiqi məsələlərinə həsr edilmişdir. N.-in rəhbərliyi ilə Darıdağ termal mineral suyundan iqtisadiyyatda geniş istifadə olunan karbon qazının alınma texnologiyası işlənib hazırlanmış və onun əsasında z-d tikilib istifadəyə verilmişdir. 150-dən çox elmi məqalənin, 9 müəlliflik şəhadətnaməsinin, 1 patentin müəllifidir.

**NURS,** N u r s u – Şahbuz r-nunda çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 46 *km* məsafədə ona tökülür. Uz. 13 *km*, hövzəsinin sah. 52 $km^2$-dir. Əsasən, qar və qrunt, qismən yağış suları ilə qidalanır.

**NURS** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km*



şm.-ş.-də, dağətəyi ərazidədir. Əh. 768 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, ambulatoriya, rabitə şöbəsi var.

**NURS NEKROPOLU** – Şahbuz r-nunun Nurs k. ərazisində son orta əsrlərə aid arxeoloji abidə. Hündür təpə üstündə yerləşir. Müsəlman qəbiristanlığıdır. Yerli əhalinin məlumatına görə, qəbiristanlıqda 10-a yaxın qəbirüstü qoç fiquru olmuş, əksəriyyəti dağıdılmış, bəziləri isə daşınıb aparılmışdır. Abidənin təqr. 15–16 əsrlərə aid olması ehtimal edilir.

**NÜRGÜT** – Ordubad r-nunda kənd. Bist bələdiyyəsinin tərkibindədir. R-n mərkəzinin şm.-q.-ndə, Ordubad düzündədir. Əh. 128 nəfər (2000); arıçılıq və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, klub var. Dərədə yerləşdiyinə görə D ə r ə N ü r g ü t də adlanır. Toponim çox güman ki, farsca "yeni kənd", "təzə qala" demək olan N o u q u t sözünün təhrif edilmiş variantıdır.

**NÜSNÜS** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* şm.-ş.-də, dağ ətəyindədir. Əh. 1809 nəfər (2000); bağçılıq, əkinçilik, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi, uşaq bağçası, rabitə şöbəsi, məscid var.

**NÜSNÜS KÖRPÜSÜ** – Ordubad r-nu ərazisində, Dübəndi çayı üzərində, Ordubad–Nüsnüs avtomobil yolunun 10 *km*-liyindədir. Uz. 10 paqonometr. 1998 ildə inşa edilmişdir. Körpü Nüsnüs k.-nin r-n mərkəzi ilə nəqliyyat əlaqəsini etibarlı şəkildə bərpa etmişdir.

**NÜSNÜS MƏSCİDİ** – Naxçıvan memarlıq məktəbinə aid tarixi abidə. Ordubad r-nunun Nüsnüs k.-ndə, nisbətən hündür ərazidə inşa edilmişdir. Tədqiqatçılar plan quruluşu və özünəməxsus kompozisiyası ilə diqqəti cəlb edən N. m.-nin orta əsrlərin inşaat ənənələrinə uyğun gəldiyini göstərirlər. Məscid binasının birinci mərtəbəsində pir (bax *Nüsnüs piri*) var. N. m. kənd camaatının təşəbbüsü və vəsaiti ilə təmir edilmişdir (1992–93).

**NÜSNÜS MİNERAL SUYU** – Ordubad r-nu ərazisində, Nüsnüs k.-dən 600 *m* q.-də, r-n mərkəzindən 7 *km* aralı, Şamxal çayının məcrasındadır.



Nuriyev Əli

Balneoloji tərkibi:

$$CO_2\,0{,}8\,M\,0{,}6\,\frac{HCO_3\,87\,SO_4\,10}{Ca81\,Mg17}\cdot pH\,6{,}2\;D100\,m^3/gün\;T\,12^\circ C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı-kalsiumludur və müalicəvi əhəmiyyətə malikdir.

**NÜSNÜS PİRİ** – Ordubad r-nunun Nüsnüs k.-ndə orta əsrlərə aid ziyarətgah. Kəndin q.-ində, nisbətən hündür ərazidə inşa edilmiş, tarixi-memarlıq abidəsi kimi diqqəti cəlb edən məscid binasının 1-ci mərtəbəsində yerləşir. Məscidin həyətindəki sadə quruluşlu məzarda kimin dəfn olunduğu barədə dəqiq məlumat yoxdur. Onun Dahyanus (Dağ Yunus) dövrünə, *Əshabi-Kəhflə* eyni tarixə aid olduğu da söylənilir. Məscidin mərkəzində hünd. təxm. 5 *m* olan daş sütun var. Rəvayətə görə, o bir neçə dəfə dağıdılmış, lakin yenidən peyda olmuşdur. Pirin giriş qapısı Ordubad ərazisində geniş yayılmış möhkəm qoz ağacı materialından hazırlanmışdır (hünd. 1,5 *m*, eni 1 *m*-dir). Qapının üzərində



süls xətti ilə ərəb dilində doqquz sətirlik kitabə həkk edilmişdir. Kitabə haqqında ilk dəfə rus diplomatı və şərqşünası N. V. Xanıkov məlumat vermişdir. O, kitabəni oxumuş və fransızcaya çevirərək Parisdə nəşr etdirmişdir. Kitabədən məscidin Elxani hökmdarı Əbu Səid Bahadır xanın (Ölcaytu Məhəmməd Xudabəndənin oğlu) dövründə [1316–1335] inşa edildiyi məlum olur. Məscid 1992–93 illərdə kənd camaatının təşəbbüsü və vəsaiti ilə təmir edilmiş, divarlarda Quran ayələri və dini xarakterli kəlamlar yazılmış, müqəddəs yerlərin şəkilləri çəkilmişdir.



# O

**OCAQTƏPƏ** – Babək r-nunun Xalxal k. yaxınlığında, Naxçıvançayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. 1971 ildə qeydə alınmışdır. Uzunsov formalı hündür təpədən ibarətdir. Sah. təqr. 20 *ha*. Yaşayış yerinin üst hissəsində daşdan əmək alətlərinin, şirli və şirsiz saxsı qabların fraqmentlərinə rast gəlinmişdir. Arxeoloji tədqiqatlar erkən orta əsr laylarını göstərsə də, əldə olunmuş tapıntılar son dövrlərə aiddir. Mədəni təbəqənin qalınlığı 5 *m*-dəkdir. Daş bünövrə üzərində çiy kərpicdən hörülmüş tikili qalıqları, bişmiş kərpic, xeyli şirli və şirsiz gil qab məmulatı (kasa, cam, küpə, çıraq və s.) qalıqları və s. arxeoloji materiallar aşkara çıxarılmışdır. Tapıntılar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Abidə 3–15 əsrlərə aid edilir.

**OĞBAŞ**, O ğ b u n – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Naxçıvan qəzasının Şahbuz nahiyəsinə daxil olmuş yaşayış məntəqəsi. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarı ilə O. Nax. MSSR-in 9 kəndi ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin (1921)* şərtlərinə zidd olub, beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

**OĞLANQALA** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* şm.-da, Arpaçayın sahilində, düzənlikdədir. Əh. 1795 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, kinoqurğu, tibb məntəqəsi, memarlıq abidələrindən qala divarları, üç bürc var. Yaxınlığında mərmər yatağı yerləşir.

**OĞLANQALA** – Şərur r-nunda e. ə. 2–1-ci minilliklərə aid yaşayış yeri. Arpaçay sahilindəki Qaratəpə dağındadır. Sah. 40 *ha*. Mədəni təbəqənin qalınlığı 3 *m*-dən artıqdır. Dağın şm. yamacları sıldırımdır. Digər yamaclar isə möhtəşəm müdafiə divarı ilə əhatələnmişdir. Divarlar uz. 1,5–3 *m*, qalınlığı isə 1 *m*-dən çox olan kobud yonulmuş nəhəng daşlardan tikilmişdir (bu baxımdan abidə çox vaxt siklop tikililərinə aid edilir). Divarların bəzi yerlərində üst-üstə qoyulmuş 4 cərgə daş qalmışdır. Dağın c.-q.-ndə kiçik bürclərə oxşar yarımdairəvi tikililər var. Tikinti üslu-



Oğlanqalanın ümumi görünüşü.



Oğlanqalanın bərpa layihəsi.





Oğlanqala. Yarımdairəvi qala bürcü və qala divarı. E. ə. 1-ci minillik.

buna görə O. aşşurların dağ qalalarına oxşayır. O.-nın mərkəzindəki düz meydançada (sah. 70x100 *m*) aşkar edilmiş daş sütun qalıqları vaxtilə burada müxtəlif binaların olduğunu göstərir. Meydança bəzi yerlərdə divarlarla əhatə olunmuşdur. Aşkar olunmuş materialların əksəriyyəti boz və çəhrayı rəngli saxsı məmulatından (boz rəngli gil qabların bəzisinin tərkibində Eneolit mədəniyyəti üçün xarakterik olan saman qarışığına təsadüf edilmişdir) ibarətdir. O.-dan e. ə 1-ci minilliyin 2-ci yarısı–eramızın 1–2 əsrlərinə aid tufdan hazırlanmış dən daşları, son orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatı və s. maddi mədəniyyət materialları da toplanmışdır. Əlverişli təbii-coğrafi və strateji mövqedə yerləşməsi O.-dan uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğunu göstərir. Tədqiqatlar nəticəsində O.-nın əsas fəaliyyət dövrünün e. ə. 9–4 əsrlər olduğu müəyyənləşdirilmişdir. Yaşayış yerinin müasir dövrədək saxlanmış qala divarları e. ə. 1-ci minilliyin əvvəllərində tikilmiş və antik dövrədək istifadə olunmuşdur.



Oğlanqala yaşayış yerindən tapılmış küpə, dopu, parç, kasa, vaza, piyalə və xeyrə tipli qablar. E. ə. 2–1-ci minilliklər.

*Əd.:* Əliyev V. H., Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; Алекперов А., Исследования по археологии и этнографии Азербайджана, Б., 1960; Керимов В., Оборонительные сооружения Азербайджана (историко-архитектурный очерк). Б., 1998.

**OĞLANQALA MƏRMƏRLƏŞMİŞ ƏHƏNGDAŞI YATAĞI** – Şərur r-nu ərazisində, Şərur d. y. st.-ndan 8 *km* şm.-ş.-dədir. Geoloji quruluşunda Üst Karbon yaşlı, tünd-boz və qara rəngli kristallik, mərmərləşmiş əhəngdaşılar iştirak edir. Tektonik cəhətdən Dizə-Sədərək sinklinalının c.-q. qanadında yerləşir. Faydalı qat xırda və orta dənəli olub, müxtəlif istiqamətli kalsit damarları ilə kəsilir. Sıxlığı 2,53–2,72 $t/m^3$-dir. Tərkibində SaO-ın miqdarı 51,8% təşkil edir. Əhəngdaşı yüksək keyfiyyətli üzlük daşı və dekorativ çınqıl kimi yararlıdır. Yatağın sənaye ehtiyatı 2299 min $m^3$, blok çıxımı 35%-dir.

**OĞLANQIZ DAĞI** – Ordubad r-nu ərazisində dağ. Gilançayın aşağı axınında, onun dərəsinin sağ yamacında, Baş Dizə k.-ndən 2,5 *km* c.-q.-dədir. Hünd. 1144 *m*.

**"OĞUZ SƏSİ"** – qəzet, Şahbuz Rayon İcra Hakimiyyətinin orqanı. 1936 ildən nəşr olunur. Müxtəlif vaxtlarda "Sosializm maldarlığı" (1936–65), "Qabaqcıl" (1966–92) adları ilə buraxılmışdır. 1992 ildən isə "O. s." adı ilə həftədə iki dəfə çıxır. Qəzet Şahbuz r-nunun sosial-siyasi, iqtisadi və mədəni həyatını işıqlandırır, ədəbi-bədii yazılar, mühüm hadisələr haqqında xəbərlər və s. dərc edir.

**"OĞUZ YURDU"** – qəzet, Sədərək Rayon İcra Hakimiyyətinin orqanı. İlk nömrəsi 2000 il martın 21-də çıxmışdır. Qəzetdə əzəli və əbədi oğuz yurdu olan Naxçıvan diyarının, o cümlədən Sədərəyin tarixinə, rayonun iqtisadi, sosial və mədəni problemlərinə dair məqalələr, habelə ədəbi-bədii yazılar, xəbərlər dərc edilir.

**ORDU YURDU** – Şahbuz r-nunda, Mahmudoba k.-nin şm.-q.-ndə 7–8 əsrlərə aid yaşayış yeri. Sah. 5 *ha*. Hər iki tərəfdən quru çay vadisi ilə əhatə olunmuş alçaq təpələr üzərində yerləşir. Mədəni təbəqə saxlanmamışdır. Yerüstü axtarışlar nəticəsində çəhrayı rəngli gil qab qırıqları toplanmışdır. Yaşayış yerinin "Qərincə" adlanan hissəsində divar qalıqları var. Təpənin yamacı boyunca təqr. 30 *m*-lik məsafədə salamat qalan divarın eni 1 *m*-dir. Hazırda yaşayış yeri hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur.



**ORDUBAD** – Nax. MR-də şəhər. Ordubad r-nunun və bələdiyyəsinin mərkəzi. Arazın sol sahilində, Naxçıvan ş.-ndən 75 *km* c.-q.-də, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 9818 nəfər (2001, 1 yanvar); 2682 təsərrüfatı var. Bağçılıq, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Şəhərdə bir sıra sənaye müəssisəsi (konserv z-du, ipək kombinatı və s.), rabitə şöbəsi, 4000 yerlik ATS (1998 ildə istifadəyə verilmişdir), məişət xidməti kombinatı, r-n mərkəzi və uşaq xəstəxanaları var. Azərb. Milli EA-nın elmi idarəsi, 3 orta məktəb, musiqi, internat və peşə məktəbləri, kitabxana, mədəniyyət evi, klub, xalq teatrı, r-n tarix-diyarşünaslıq muzeyi, M. S. Ordubadi və Y. H. Məmmədəliyevin ev-muzeyləri, məscid, kino-teatr fəaliyyət göstərir.

O.-ın salındığı tarix dəqiq müəyyənləşdirilməmişdir. Buradakı ilk yaşayış məskəninin 5–6 əsrlərə aid olması ehtimal edilir. Orta əsrlər O. şəhərinin əksər hissəsi müasir tikililərin altında qaldığından geniş tədqiqatlar aparılmamışdır. Arxeoloji axtarışlar zamanı müasir O.-ın ərazisində orta əsrlərə aid geniş bir ərazini əhatə edən yaşayış yeri aşkar olunmuşdur. 9–18 əsrlərə aid mədəni təbəqənin qalınlığı 3 *m*-ə çatır. Təbəqə kül qarışıqlı torpaq laylarından, gil qab qırıqlarından, yaşayış binalarının qalıqlarından ibarətdir. Bəzi yerlərdə istehsalat ocaqlarına və kül yığıntılarına rast gəlinmişdir. Ərazidən müxtəlif sənətkarlıq nümunələri, zəngin ornamentlərlə bəzədilmiş sadə və şirli gil qab sınıqları, dəmir alətlər, şüşə məmulatı tapılmışdır.

Tədqiqatçılar O. toponiminin qədim türk dillərində "xan düşərgəsi", "iqamətgah", "qərargah" və s. mənalarda işlədilən o r d u və a b a d ( "yaşayış məntəqəsi", "kənd") sözlərinin birləşməsindən yarandığını qeyd edirlər. Mahmud Kaşğari (11 əsr) o r d u sözünü "xaqanın yaşadığı yer, mərkəz" mənasında izah edir. Coğrafi adın tərkibindəki o r d u sözünün "qoşun" mənası 14 əsrdən sonra yaranmışdır.

Yazılı qaynaqlarda O.-ın orta əsrlərdə böyük bir şəhər olduğu göstərilir. O. haqqında ərəb, türk, fars, gürcü, erməni və Avropa



mənbələrində məlumat verilmişdir. O.-ın adı ilk dəfə 7 əsrdə çəkilir. Yepiskop Sebeos həmin əsrdə ərəb istilalarından danışarkən "işğalçıların O.-dan (Qoğtəndən) keçərək Ararat vilayətinə yollandıqlarını" göstərirdi. O.-ın meyvə bağları, dağ bulaqları, kəhrizləri və sağlam ab-havası bir çox tarixçi və səyyahların diqqətini cəlb etmişdir. İran tarixçisi Həmdullah Qəzvini (14 əsr) "Nüzhət əl-qülub" ("Qəlblərin əyləncəsi") əsərində O.-ın çoxlu meyvə bağları ilə əhatə olunduğunu, çeşidi, növü və dadı ilə şöhrət qazanmış üzüm bağlarının, dənli bitkilərinin olduğunu, ipəkçiliyin inkişaf etdiyini xəbər vermişdir. Səfəvi tarixçisi İsgəndər Münşi (1560/61–1634) O.-ın gözəl meyvə bağları ilə əhatələnmiş iri şəhər olduğunu qeyd etmişdir. Etnoqraf və tarixçi, mənşəcə fransız olan İ.İ.Şopen (1798–1870) Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə və coğrafiyasına həsr etdiyi əsərində O. haqqında maraqlı məlumat vermiş, əla meyvələri – üzümü, əriyi,



Səfəvi hökmdarı I Şah Abbasın Ordubad şəhər əhalisinin vergilərdən azad edilməsi haqqında fərmanının kitabəsi. 1607.



Orta əsr tikintiləri. Ordubad şəhəri.

şaftalısı, albuxarası, heyvası olan O. bağlarının Qafqazda, hətta Şərqdə şöhrət tapdığı, həmçinin sağlam iqlimi haqqında yazır: "... Dağlarla əhatə olunmuş Ordubad al-əlvandır, sağlam iqlimə malikdir, şəhər sudan boldur. [Burada] çaydan başqa, bütün bağları və evləri su ilə əsasən təmin edən 70-ə qədər bulaq var.". "Ordubadı, mübaliğəsiz, bütün Qafqazın ən şairanə, ən dilbər guşələrdən biri adlandırmaq olar" ("Qafqaz" qəz., 1862, № 25).







Yaşayış binalarında "taqqılbablar". Ordubad şəhəri.

O. Uzaq və Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolunun üstündə yerləşdiyindən burada ticarətin və sənətkarlığın (xüsusilə ipəkçiliyin) inkişafı üçün əlverişli şərait olmuşdur. 16 əsrin 2-ci yarısında O.-dan Venesiya, Marsel, Amsterdam və s. Avropa şəhərlərinə ipək ixrac olunurdu. 15–16 əsrlərdə O. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərinin tərkibinə daxil olmuşdur. 16 əsrin sonlarında O.-ın kələntəri (bu vəzifəyə adətən, Nəsirəddin Tusi nəslinin nümayəndələri təyin edilirdi) yerli feodal Məlik Bəhram idi. Səfəvi hökmdarı I Şah Abbasın [1587–1629] vəziri təyin edilən ordubadlı *Hatəm bəy Ordubadi* ölkənin mülki və maliyyə işlərində mühüm rol oynayırdı. 1588 ildə Təbrizdəki Osmanlı qoşun dəstələrinin başçısı Cəfər paşa O.-ı ələ keçirdi. Şəhər geri alındıqdan sonra I Şah Abbas düşmənə müqavimət göstərdiyinə görə şəhəri "xəzinəyə verilən bütün divan vergilərindən" (malcəhat, vücuhat, ixracat, qonalğa, boniçe, əvariz və s.) azad etdi (Hatəm bəyin vəzir olması da burada müəyyən rol oynamışdır). O. məscidindəki kitabədə həkk edilmiş həmin fərman (1607) burada ticarət və sənətkarlığın inkişafına müəyyən təsir göstərdi.

16 əsrin sonu – 17 əsrin əvvəli Səfəvi–Osmanlı müharibələri dövründə döyüş meydanına çevrilən O. gah Osmanlı, gah da İran əsarətinə məruz qaldı, dağıdıldı, qarət olundu. 17 əsrin 2-ci yarısında şəhərin həyatında canlanma hiss olundu; Cümə məscidi, mədrəsə, buzxana, zorxana, hamam və karvansaralar tikilmiş, Aşağı Ambaras, Yuxarı Ambaras məhəllələri (həmçinin məscidlər), Ərasət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdı. Mənbələrə görə, O.-da üstü günbəzlə örtülmüş qülləvarı rəsədxana olmuşdur. Divarları gözəl rəsmlərlə bəzədilmiş 18 əsrə aid memarlıq abidələri, Eyvaz türbəsi, Dilbər məscidi və s. dövrümüzədək gəlib çatmışdır. O.-ın əsas su təchizatı olan kəhriz sistemi də orta əsrlərdə yaradılmışdı. O.-ın küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydanda şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin (Ambaras, Kürdətal, Minkəs, Sərşəhər və Üçtərəngi) əsasını təşkil edir. Hər məhəllənin öz kəhrizi vardı. İctimai istifadə üçün şəhər kənarında da kəhrizlər mövcud idi. Məhəllələrin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və s. yerləşirdi. O.-da ipəkçilik, dulusçuluq, toxuculuq, həkkaklıq, ağacişləmə və s. inkişaf etmişdi. 18 əsrin əvvəlində O. Osmanlıların tabeliyində olan *Naxçıvan sancağının* 14 nahiyəsindən biri – Azadciran nahiyəsinin tərkibində idi. Bu dövrdə O.-ın gəliri 63669 ağça təşkil edirdi. 18 əsrin 2-ci yarısında O. mahal mərkəzi kimi Naxçıvan xanlığının tərkibinə daxil idi. Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinə (1828) əsasən O. Naxçıvan xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1829/30 ildə O.-da 3444 nəfər yaşayırdı ki, onların da 3260-ı azərb.-lı idi. 1840 ildə nahiyə ləğv edilərək, çar Rusiyasının 1849 il 9 iyun tarixli fərmanına əsasən təşkil edilmiş İrəvan quberniyasının tərkibinə qatıldı və eyniadlı qəzanın mərkəzi oldu. 19 əsrin ortalarında O.-da 515 ev, 7 meydan, 5 körpü, 6 karvansara, 200-dən çox dükan, bir bazar, 3 hamam, 30-dan çox məscid, o cümlədən 8 böyük məscid, 470-dən artıq meyvə bağı,



70 xalis üzüm bağı və s. vardı. 1854 il noyabrın 24-də O.-da ikisinifli ibtidai qəza məktəbi açıldı. 1863 ildə Tiflisdə keçirilən k. t. sərgisində ordubadlı ustaların əl işləri böyük maraqla qarşılanmışdı. 1892 ildə M. T. Sidqi yeni üsullu *"Əxtər"* məktəbini təsis etdi. Bu məktəb 4 il fəaliyyət göstərmiş, 1896 ildə rus–Azərb. məktəbinə çevrilmişdi. 1870 ildə rus çarizminin həyata keçirdiyi şəhər islahatı az sonra Azərb.-da [Bakı, Gəncə, Nuxa (indiki Şəki), Şuşa, Naxçıvan və Ordubad] da tətbiq olundu. O.-da şəhər özünüidarəçiliyi orqanı yaradıldı; onun fəaliyyəti şəhərin abadlaşdırılması, sənaye, ticarət, səhiyyə, maarif məsələləri ilə məhdudlaşdırıldı. 1875 ildə O.-da buxar mühərriki ilə işləyən 1 ipəksarıma f-ki var idi. 1886 ildə isə ildə 300 pud ipək istehsal edən 4 iri, habelə xırda əmtəə istehsalı tipli onlarla ipəksarıma müəssisəsi fəaliyyət göstərirdi. Bütün bunların nəticəsində 19 əsrin 2-ci yarısı— 20 əsrin əvvəllərində O. Rusiya bazarlarını yüksək keyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə və s. ilə təchiz edən mühüm mərkəzlərdən birinə çevrildi. O. ipəyi dünya və Ümumrusiya sərgilərində yüksək qiymətləndirilirdi; təkcə 20 əsrin əvvəllərində keçirilmiş sərgi və baxışlarda O. ipəyi 13 dəfə qızıl medala layiq görülmüşdü. 1920 ilin iyulunda O.-da sovet hakimiyyəti quruldu.

O. təbii gözəlliyi, landşaftı, ənənəvi plan quruluşu, orta əsr şəhərlərinə xas siması ilə bir çox Azərb. şəhərlərindən fərqlənir. Azərb. xalq yaşayış binalarının ən maraqlı tiplərindən olan O. evləri otaqların həyətə tərəf yönəldilməsi, 8 bucaqlı qapalı həyətin mikroiqliminə xüsusi diqqət verilməsi (həyətdə hovuz tikilməsi, kəhriz quyusu, həyətin hündür divarlarında hava keçməsi üçün dəliklər açılması və s.), bəzi həyətlərdə ovdan, gölayağı (soyuqxana) yaradılması, küçə fasadında baştağın və onun üstündə balaxananın yerləşdirilməsi ilə səciyyələnir.

Özünəməxsus memarlıq quruluşu və tarixi abidələri ilə fərqlənən O. son onilliklərdə Azərb.-ın abad şəhərlərindən birinə çevrilmiş, 1977 ildə isə qoruq-şəhər elan olunmuşdur. O. Azərb.-ın qədim elm və mədəniyyət mərkəzlərindən biridir. Bura onlarca alim, mütəfəkkir, şair və yazıçının, incəsənət, maarif, mədəniyyət və dövlət xadiminin vətənidir.



Yaşayış evi. Şəbəkəli eyvan. 19 əsr. Ordubad şəhəri.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.3, B., 1999; N e m ə t o v a M. S., Azərbaycanın epiqrafik abidələri (XVII–XVIII əsrlər), B., 1963; Ə f ə n d i y e v O., Azərbaycan Səfəvilər dövləti, B., 1993; Р а х м а н и А. А., "Тарих-и алам арай-и Аббаси" как источник по истории Азербайджана, Б., 1960; у е г о ж е, Азербайджан в конце XVI и в XVII веке, Б., 1981; А б д у л л а е в Г., Азербайджан в XVIII веке и взаимоотношения его с Россией, Б., 1965; Г е й д а р о в М. Х., Ремесленное производство в городах Азербайджана в XVII в., Б., 1967; е г о ж е, Города и городские ремесла Азербайджана XIII–XVII вв., Б., 1982; М а д а т о в Г. А., Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, Б., 1968; Ф а р а д ж е в А. С. Ордубад, Б., 1970; П а ш а е в А., Город Ордубад в XIX – начале XX века, Б., 1998.

**ORDUBAD CÜMƏ MƏSCİDİ** – orta əsrlərə aid Azərb. memarlıq abidəsi. Bax *Cümə məscidi*.

**ORDUBAD ÇINQIL-QUM QARIŞIĞI YATAĞI** – Ordubad ş.-ndən c.-da, d. y. st.-ndan 400 *m* şm.-ş.-dədir. Geoloji quruluşunda qayma, çınqıl, çaqıl və qum qarışığından ibarət Üst dördüncü dövr yaşlı allüvial-prolüvial çöküntülər iştirak edir. Sahəsi 0,64 $km^2$, faydalı qatın qalınlığı 5,25–5,95 *m*-dir. Texnoloji tədqiqatlara görə, çaqıl-çınqıl-qayma qarışığı "200" markalı beton istehsalında və d. y. tikintisində ballast örtük kimi istifadəyə yararlıdır. Yatağın sənaye ehtiyatı 6974 min $m^3$ təşkil edir. Yataq istismar olunur.

**ORDUBAD DÜZÜ** – Ordubad r-nu ərazisində düzənlik. *Arazboyu düzənliklərdən* biri. Arazın sol sahilindədir. Şm.-da Aşağı Əylis







Yaşayış binalarında "taqqılbablar". Ordubad şəhəri.

k.-nədək davam edir. C.-ş.-dən başlayaraq şm.-q. istiqamətində Dəstə k.-nədək 9 *km* məsafədə uzanır. Səthi parçalanmış maili düzənlikdir. Əylis, Ordubad, Gənzə çaylarının gətirmə konuslarından təşkil olunmuşdur; q. hissəsi Yuxarı Əylis k.-ndən başlayaraq Araz çayına qədər struktur sel çöküntüləri ilə örtülmüşdür. O. d.-nün şm. hissəsində, Ordubad ş. ətrafında, həmçinin Yuxarı Əylisdən c.-a doğru əkinçilik üçün yararlı dağ-qəhvəyi torpaqlar, ş.-ndə isə dar zolaq şəklində dağ-açıq şabalıdı torpaqlar yayılmışdır.

**ORDUBAD ELEKTRON ZAVODU** – Azərb. Milli EA "Xəzər" elmi mərkəzi nəzdində Radiofiziki Cihazqayırma Xüsusi Konstruktor Bürosu adı ilə 1978 ildə yaradılmışdır. 1993 ildən "Azərelektromaş" Elm-İstehsalat Birliyinin tabeliyinə verilmiş və O.e.z. adlandırılmışdır. 1978–91 illərdə müəssisə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin Yer kürəsini kosmosdan öyrənmək məqsədilə apardığı işlərdə yaxından iştirak etmiş, hibrid-inteqral mikrosxemlərin yaradılma texnologiyası əsasında müxtəlif çevirici cihazların yaradılması və istehsala hazırlanmasına nail olmuşdur. 1984–90 illərdə seysmik telemetrik stansiyaların yaradılması sahəsində Moskva Yer Fizikası İn-tu ilə birgə tədqiqatlar aparılmış, keçmiş SSRİ-nin 20-yə yaxın seysmik stansiyası müəssisədə yaradılan cihazlarla təmin olunmuşdu. SSRİ dağıldıqdan sonra zavod respublika müəssisələri üçün müxtəlif radioelektron cihazlar hazırlamışdır. 1993–2000 illərdə müəssisə xalq istehlak mallarını istehsalı ilə məşğul olmuşdur. Sifariş olmadığından 2000 ildən fəaliyyətini dayandırmışdır.



Ordubad elektron zavodu.

**"ORDUBAD FƏHLƏSİ"** – qəzet. Ordubad Rayon İcra Hakimiyyətinin orqanı *"El həyatı"* qəzetinin 1932–56 illərdə adı.

**ORDUBAD XALQ TEATRI**, Kazım Ziya adına – 1964 ildə yaradılmışdır. Teatrda Ə. Haqverdiyevin "Bəxtsiz cavan", Ü. Hacıbəyovun "Leyli və Məcnun", "Arşın mal alan", "Ər və arvad", Səməd Vurğunun "Fərhad və Şirin", M. S. Ordubadinin "Beş manatlıq gəlin", H. İbrahimovun "İtirilən sağlıq", Ə. Əylislinin "Vəzifə", A. Məmmədovun "Həmyerlilər" və s. əsərlər tamaşaya qoyulmuşdur. Hər il Novruz bayramı günlərində "Xan oyunu" tamaşası göstərilir. Yaradılmasının 25 illiyi ilə əlaqədar teatra Nax. MR-in "əməkdar kollektivi" fəxri adı verilmişdir (1989).

**ORDUBAD XÜSUSİ KONSTRUKTOR TEXNOLOJİ BÜROSU**, Azərb. Milli EA Qeyri-üzvi və Fiziki Kimya İn-tunun Materialşünaslıq üzrə Xüsusi Konstruktor Texnoloji Bürosu – 1978 ildə yaradılmışdır. Nax. MR təbii sərvətlərindən istifadə edilməsi və müxtəlif dərman preparatlarının, bitki yağları və ekstratlarının, aztapılan kimyəvi birləşmələrin alınması fəaliyyətinin əsas istiqamətləri idi. Konstruktor texnoloji bürosu Sirabda təbii karbon qazının alınması texnologiyasını işləyib hazırlamış və bu texnologiya əsasında karbon qazının alınması və balonlara doldurulması sexi quraşdırılıb istifadəyə verilmişdir. Analoji qurğu Darıdağ hidrotermal su yatağında da quraşdırılmışdır. Müəssisədə alınmış Sarı gül rəngindən yeyinti sənayesində və parfümeriyada istifadə edilir. Büro 1985–90 illərdə müdafiə sənayesində istifadə edilən xüsusi təmiz kimyəvi birləşmələrin alınması və təmizlənməsi ilə məşğul olmuşdur. 1992 ildən fəaliyyətini dayandırmışdır.

**ORDUBAD İPƏK KOMBİNATI**, Y.H.Məmmədəliyev adına – yüngül sənaye müəssisəsi. Ordubadda Avropa tipli baramaaçan f-klərin tikilməsinə 1870 ildə başlanmışdı. 1883 ildə kiçik kustar ipək sexləri bazasında yaradılıb istifadəyə verilmişdir. 1890 ildə 12 kiçik f-k fəaliyyət göstərirdi. 1910 ildə onlar 7 f-kdə birləşdirilmişdi. 1928–29 illərdə həmin f-klər, kiçik sexlər və artellər birləşdirilərək bir f-k kimi fəaliyyətə başlamışdır. 1969 ildə f-kdə yenidənqurma işləri aparılmış, müasir avadanlıqlar quraşdırılmış, müəssisə kombinat kimi fəaliyyət göstərmişdir. Həmin ildə kombinat 103 ton xam ipək sapı və 1200 min *m* xam ipək parça istehsal etmişdir. İstehsal olunan xam ipəyin bir hissəsindən cod parça hazırlanır, digər hissəsi isə Şəki, Şamaxı, İsmayıllı, Moskva, Kiyev, Leninqrad (indiki Sankt-Peterburq), Düşənbə və s. şəhərlərə, həmçinin İsveçrə, İtaliya, Belçika, Yaponiya, Tailand, Koreya və s. ölkələrə göndərilirdi. 1987 ildə kombinatda 108 ton ipək sapı istehsal olunmuşdur. Nax. MR-in blokada şəraitinə düşməsi ilə əlaqədar istehsal həcmi azalmışdır.





**"ORDUBAD İŞÇİSİ"** – qəzet. Ordubad Rayon İcra Hakimiyətinin orqanı *"El həyatı"* qəzetinin 1956–66 illərdə adı.

**ORDUBAD QƏZASI** – Şimali Azərb.-ın Rusiya tərəfindən istilasından (1828) sonra yaradılmış inzibati ərazi vahidi. Rus çarizminin Qafqazda inzibati islahat haqqında 10 iyun 1849 il tarixli fərmanına əsasən İrəvan qub.-nın tərkibində yaradılmışdı. Mərkəzi Ordubad ş. idi. Qəza idarəsi şəhərdə yerləşirdi. Tərkibinə qəza rəisi və onun köməkçisi, xəzinədar, məntəqə iclasçıları və polis idarəsi daxil idi. Hakimiyyət qəza rəisinin əlində cəmləşmişdi. Əsas əhalisi azərb.-lılar idi. Rus çarizminin köçürmə siyasəti ilə əlaqədar O. q. ərazisində İrandan köçürülmüş ermənilər də məskunlaşmışdı. Bu dövrdə qəzada ilk ipəksarıma f-kləri yaranmağa başladı (Aşağı Əylis k.-ndə və Ordubad ş.-ndə). Ordubad ş.-nin özündə və 46 kəndindən 41-ndə ipəkçiliklə məşğul olurdular. Ordubad Rusiya bazarlarını yüksək keyfiyyətli xam ipək, ipək parça və s. ilə təchiz edən mühüm mərkəzlərdən birinə çevrilmişdi. 1868 ildə Gəncə (Yelizavetpol) qub.-nın yaradılması ilə əlaqədar O. q.ərazisinin bir hissəsi ona verildi, digər hissəsi isə Naxçıvan qəzasının tərkibində İrəvan qub.-nda qaldı. Rusiya müstəmləkə inzibati idarəsi azacıq dəyişikliklərlə 20 əsrin əvvəlrinədək saxlandı. 1917–20 illərdə erməni təcavüzü bu bölgənin təsərrüfat və mədəni həyatına fəlakətli təsir göstərdi; onlarla kənd viran edildi, talan olundu, yüzlərlə adam qırıldı. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən, Azərb.-ın r-nlaşdırılması ilə əlaqədar O. q. ləğv edilmiş, tərkibindəki Qorçevan k., Kilit k.-nin bir hissəsi torpaqları ilə birlikdə Ermənistana verilmişdir.

**ORDUBAD KONSERV ZAVODU** – yeyinti sənayesi müəssisəsi. 1928–30 illərdə tikilib istifadəyə verilmişdir. Sah. 3 *ha*-a yaxındır. Z-dun ilkin gücü ildə 400 min şərti banka (1 şərti banka 400 *qr* konserv məhsulu deməkdir) olub. Z-d işə başlayanda, əsasən, ət konservləri, müxtəlif mürəbbələr və halva məhsulları istehsal edib. Ət konservlərinə tələbat azaldığından həmin məhsulun istehsalı dayandırılıb. 1970–80 illərdə z-dda 20 adda müxtəlif konserv məhsulları (qoz, qızıl gül, qovun, ərik, gilənar, tut mürəbbələri, cem, şirələr, ərik və şaftalı kompotları və s.) buraxılıb, onlardan 8-i keyfiyyət nişanı alıb. Məhsulları sabiq SSRİ-nin hər yerində böyük şöhrət tapmışdı. Nax. MR-in blokada şəraitinə düşməsi nəticəsində z-dda işin ahəngi tədricən azalmışdır.

**ORDUBAD RAYON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ** – 1981 ildən Ordubad ş.-ndə fəaliyyətə başlamışdır. Nax. MR Mədəniyyət Nazirliyi sistemindədir. Cümə məscidinin binasındadır. 8 şöbədən ibarətdir. Burada Ordubad diyarının ən qədim zamanlardan müasir dövrədək tarix və mədəniyyəti əks etdirilir. Muzeydə xalq sənətkarlarının əsərləri, musiqi alətləri, milli geyim və bədii tikmələr, rəssamlıq əsərləri, heykəltəraşlıq və tətbiqi sənət nümunələri, qədim numizmatika materilları, ağacişləmə, zərgərlik, misgərlik və dulusçuluq məmulatı, bəzək şeyləri, xalçalar, fotoşəkillər, sənədlər və s. – cəmi 4000-ə



yaxın eksponat toplanmışdır. Arxivi və kitabxanası var. R-n ərazisindən aşkara çıxarılmış arxeoloji tapıntılar muzeydə xüsusi yer tutur.

**ORDUBAD RAYONU** – Nax. MR-də inzibati r-n. 1930 ildə təşkil olunmuşdur. 1963 ildə ləğv edilərək ərazisi Culfa r-nu ilə birləşdirilmişdi, 1965 ildə yenidən müstəqil r-n olmuşdur. C.-da İran, şm.-da və ş.-də Ermənistanla həmsərhəddir. Sah. 0,97 min $km^2$. Əh. 41347 nəfər (2001, 1 yanvar). R-nda 1 şəhər, 1 ştq., 42 kənd və qəsəbə var. Mərkəzi Ordubad ş.

**Təbiət**. R-nun səthi, əsasən, dağlıqdır. Ərazinin çox hissəsini Zəngəzur silsiləsinin c.-q. yamacı və Araz çayına doğru ayrılan qolları tutur. Nax. MR-in ən yüksək nöqtəsi olan Qapıcıq d. (3904 *m*) buradadır. Araz çayı boyu Arazboyu düzənliklər (Ordubad düzənliyi və s.) uzanır. R-nda Tabaşir–Antropogen çöküntüləri geniş yayılmışdır. Faydalı qazıntıları: polimetallar, molibden və mis filizləri, tikinti materialları və s.



Yayı quraq keçən soyuq iqlimi var. Orta temp-r yanvarda -3-dən –10°C-yədək, iyulda 10–25°C-dir. İllik yağıntı 300–800 *mm*. Ən böyük çayları: Gilan, Vənənd, Ordubad və s. İranla sərhəd boyu Araz çayı axır. Boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Arazboyu düzənliklər və qismən alçaq dağlıq sahələr (600–1200 *m*) səhra və yarımsəhra kserofit bitkiləri, yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülüdür. Bəbir, Cənubi Qafqaz qaya keçisi, daşlıq dələsi, boz kəklik, ular və s. var. Yasaqlıq (*Ordubad yasaqlığı*) yaradılmışdır.

**Əhali**. R-nun əhalisi 1980 illə (31,3 min nəfər) müqayisədə 2001 ildə təqr. 10 min nəfər, yaxud 30% artmışdır. Orta sıxlıq 1 $km^2$-də 43 nəfərdir (2001). İri yaşayış məntəqələri Ordubad ş., Vənənd, Dəstə və Yuxarı Əylis k.-ləridir.

**Təsərrüfat**. O. r., əsasən, k. t. r-nudur. K. t.-nda meyvəçilik və maldarlıq mühüm yer tutur. K. t.-na yararlı torpaqlar 16,5 min *ha*-dır (2000). Bunun 2,1 min *ha*-ı şum yeri, 2,5 min *ha*-ı çoxillik bitkilər 2,6 min *ha*-ı dincə qoyulmuş torpaqlar, 0,3 min *ha*-ı biçənəklər, 9 min *ha*-ı otlaqlardır. Suvarılan torpaqlar 5,9 min *ha*-dır. Dənli və dənli-paxlalı bitkilər (buğda, arpa və s.), tərəvəz-bostan bitkiləri və kartof, yem bitkiləri əkilir. O. r. respublikanın mühüm meyvəçilik (qoz, şaftalı və s.) r-nlarındandır. 2001 il ərzində O. r-nunda bütün təsərrüfat formaları üzrə 1427 *t* taxıl, 1602 *t* kartof, 2948 *t* tərəvəz, 792 *t* meyvə, 103 *t* şəkər çuğunduru istehsal olunmuşdur. 1998 ildə O. r-nda 1970 illə müqayisədə süd istehsalı 61,4%, yun istehsalı 68,6%, yumurta istehsalı 2,9 dəfə artmışdır. 1998 ildə O. r.-nda 0,4 min *t* ət, 2,6 min *t* süd, 7,2 min ədəd yumurta, 60,7 *t* yun istehsal olunmuşdur. Muxtar respublikada istehsal edilən ətin 9,1%-i, südün 9,7%-i, yunun 10,7%-i, yumurtanın 12,8%-i O. r-nunun payına düşür (1998). O. r.-nunda qaramalın sayı 1970 ildəkinə nisbətən 2166 baş, yaxud 32,6%, inək və camışların sayı 56 baş, yaxud 2,2%, xırda buynuzlu heyvanların sayı 1879 baş, yaxud 5,9%, artmışdır. R-nda 4895 baş qaramal, o cümlədən 2707 baş inək və camış, 38022 baş xırda buynuzlu heyvanlar, 24845 quş var (2001, 1 yanvar). Muxtar respublikadakı qa-








ramalın 7,4%-i, xırda buynuzlu heyvanların isə 9,4%-i O. r.-nun payına düşür (2000). 1999 ildə O. r. üzrə aqrar islahatlar başa çatdırılmış, əhali torpaq payları ilə təmin olunmuşdur. Özəl torpaqları suvarmaq üçün su xətləri yenidən qurulmuşdur.

Sənayesi Parağaçay filiz mədəni, aqrar-sənaye birliyinin konserv z-du, ipək kombinatı, qənnadı və tikinti materialları sexləri, elektrik şəbəkəsindən ibarətdir. 1970 ildə muxtar respublika sənaye məhsullarının 7,3%-i, 1980 ildə 10,0%-i, 1990 ildə 10,4%-i O. r-nunun sənaye müəssisələrində istehsal edilirdisə, 1998 ildə bu rəqəm 11,7% olmuşdur. 1998 ildə muxtar respublikadakı kapital qoyuluşunun 6,2%-i, istifadəyə verilmiş əsas fondların 5,3%-i, cəmi əmtəə dövriyyəsinin 0,4%-i, əhaliyə göstərilən pullu xidmətlərin 4,2%-i O. r-nun payına düşmüşdür. Bakı–Yerevan d.y. O. r.-nu ərazisindən keçir; Nax. MR-in Ermənistan tərəfindən blokadaya alınması nəticəsində hazırda işləmir.

**Tarixi-arxeoloji abidələr və memarlıq.** Naxçıvan diyarında qədim insanın məskunlaşdığı əsas bölgələrdən biri olan O. r. ərazisi uzaq Daş dövründən başlayaraq son orta əsrlərə qədərki abidələrlə zəngindir. Tivi və Nəsirvaz k.-lərindən şm.-ş.-də, Qapıcıq (Gəmiqaya) d.-nın c.-ş. yamacındakı Qaranquş yaylağı ərazisi Eneolit, Tunc və ilk Dəmir dövrlərində Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri idi. Elə həmin dövrlərdən burada iri qaya parçaları üzərində heyvan rəsmləri, ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar həkk olunmuşdur. Gəmiqayada aşkar edilmiş (1968) qədim təsviri sənət nümunələri (bax *Gəmiqaya rəsmləri*) e. ə. 4–1-ci minilliklərdə Azərb. ərazisində yaşamış qədim əhalinin həyat tərzini, dünyagörüşü, adət-ənənələrini, dini-ideoloji və estetik təfəkkürünün inkişafını izləməyə imkan verir. Qaranquş yaylağında, Gilançay vadisində Naxçıvan tayfalarının qədim yurd yerləri, yaşayış məskənləri, nekropollar, ibadətgahlar vardır. Tədqiqatlar nəticəsində e. ə. 2-ci minillikdə Gilançay vadisinin Arazboyu düzənliklə qovuşduğu ərazidə əhalinin daha sıx məskunlaşdığı müəyyənləşdirilmişdir. Burada e. ə. 2–1-ci minilliklərə aid Sabirkənd, Plovdağ, Xarabagilan, Şomudərə, Xalı-Kaşan, Mərdangöl və s. maddi mədəniyyət qa-



lıqları ilə zəngin yaşayış yerləri və nekropollar mövcuddur. Bu ərazilər Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində yaşamış qədim əkinçi-maldar tayfaların yaylaq yerləri olmuşdur. O. r. ərazisində – Gilan, Biləv, Parağa, Tivi, Nəsirvaz, Xurs və s. kəndlərdə də Tunc, ilk Dəmir dövrlərinə, antik dövrə, həmçinin erkən orta əsrlərə aid maddi mədəniyyət qalıqları izlənmişdir. Biləv k. yaxınlığında, Gilançayın sol sahilindəki əzəmətli kanyonun zirvəsində yerləşən abidə xalq arasında Babək qalası, Gəmiqayada Qaranquş yaylağındakı qəbiristanlıq isə babəkilərin qəbirləri kimi tanınır. Ordubad ş.-ndə orta əsrlərə aid *Cümə məscidi, Qeysəriyyə, Eyvas türbəsi, Zorxana* və s. tarixi memarlıq abidələri var. Bu abidələr memarlıq sənətinin, inşaat texnikasının müstəsna dəyərli nümunələri olmaqla yanaşı, həm də gözəl sənət əsərləridir. Dər k.-ndə türbə (14 əsr), Əylis k.-ndə Şah Abbas məscidi (16 əsr), Dəstə, Dırnıs, Gənzə, Vənənd kəndlərində məscidlər (18–19 əsrlər), orta əsrlərə aid Düylün, Aza, Malik İbrahim, Xanağa, Nüsnüs pirləri, Unus və Aşağı Əylis k.-lərində məbəd (hər ikisi 17 əsrə aiddir), Aza körpüsü (orta əsrlər) və s. mühafizə olunmuşdur. R-n ərazisində mühüm elmi və tarixi əhəmiyyət kəsb edən nadir abidələr yenidənqurma və tikinti işləri nəticəsində əsaslı surətdə təmir və bərpa edilmişdir.

**Mədəni quruculuq və səhiyyə.** Son illər O. r-nun sosial infrastrukturunun möhkəmlən-



Ordubad Mәdәniyyәt evi vә Uşaq xәstәxanası.

dirilmәsi, әhalinin güzaranının yaxşılaşdırılması, tәhsilin, sәhiyyәnin inkişafı sahәsindә ardıcıl tәdbirlәr hәyata keçirilir. Pәzmәri, Yuxarı Əylis, Aşağı Aza kәndlәrindә yeni mәktәb binaları tikilmiş, Üstüpü kәnd orta mәktәbi әsaslı tәmir olunmuşdur. R-nun 10 mәktәbәqәdәr müәssisәsindә 305 uşaq tәrbiyә olunur. 41 ümumtәhsil mәktәbindә 8322 şaird oxuyur (2001). 5 mәktәbdәnkәnar müәssisәdә 1600 şagirdin cәlb olunduğu 100-dәk qrup vә dәrnәk fәaliyyәt göstәrir.

Rayonda 1 mәrkәzlәşdirilmiş kitabxana vә onun 58 şöbә vә filialı, 16 kәnd mәdәniyyәt evi, 23 klub, 3 muzey, şahmat klubu, 2 avtoklub, 2 musiqi mәktәbi, 1 teatr fәaliyyәt göstәrir (2001). Əylisdә yeni mәdәniyyәt evi tikilib istifadәyә verilmişdir. Ordubad R-n İcra Hakimiyyәtinin orqanı olan *"El hәyatı"* qәzeti nәşr olunur (1932 ildәn). R-nda televiziya verilişlәrinә baxılır. R-n әrazisindә quraşdırılmış yeni teleötürücü (2001, yanvar) Azәrb. televiziyasının 1-ci kanalı, Türkiyә televiziyasının TRT-1 proqramı vә Naxçıvan televiziyası proqramlarının qәbulunun keyfiyyәtini xeyli yaxşılaşdırmağa imkan vermişdir.

R-nda 150 çarpayılıq r-n mәrkәzi xәstәxanası, 50 çarpayılıq uşaq xәstәxanası, hәr biri 25 çarpayılıq 3 kәnd sahә xәstәxanası, 6 ambulatoriya, 30 feldşer-mama mәntәqәsi, gigiyena vә epidemiologiya, tәcili yardım stansiyaları var. 49 hәkim, 246 orta tibb işçisi çalışır (2001).

**ORDUBAD TÜMƏNİ** – Azәrb.-da inzibati әrazi vahidi. 18 әsrin ortalarında vә 19 әsrin әvvәllәrindә – müstәqil xanlıq dövründә vә İran hakimiyyәti illәrindә mövcud olmuşdur. Mәrkәzi Ordubad ş. idi. Hәmin dövrdә Naxçıvan diyarı 9 mahaldan ibarәt olub, iki tümәnә – Naxçıvan vә O. tümәnlәrinә bölünmüşdü. O. t.-nin tәrkibinә 5 mahal – Ordubad, Əylis, Dәstә, Çәnәnәb vә Bilәv mahalları daxil idi. Mahalları naiblәr (mahal hakimi) idarә edirdi. Onlar hakimiyyәtә sәdaqәtli bәylәrdәn tәyin olunurdu. Naiblәr, bir qayda olaraq, bütöv әyalәt üçün müәyyәn edilmiş ölçüyә әsaslanaraq, vergi vә mükәllәfiyyәtlәri kәndlәr arasında bölüşdürür, kәndlilәri mükәllәfiyyәtlәri yerinә yetirmәyә mәcbur edir, mәhkәmә vә polis hakimiyyәtini yerinә yetirirdilәr.

İkinci Rusiya–İran müharibәsi illәrindә (1826–28) O. t. әzәli Azәrb. torpaqları – Naxçıvan xanlığı vә İrәvan xanlığı ilә birlikdә rus çarizmi tәrәfindәn yeni yaradılmış "ermәni vilayәti"nin tәrkibinә daxil edilmişdi (1827, 1 oktyabr; 1828 il martın 21-dәn qüvvәyә minmişdir). Əhalisi 2292 ailәdәn ibarәt idi; Ordubad mahalında 633 ailә (Ordubad ş.-ndә isә 515 ailә), Bilәv mahalında 388, Dәstә mahalında 319 ailә, Əylis mahalında 318 ailә, Çәnәnәb mahalında 119 ailә yaşayırdı. Əhalinin böyük әksәriyyәti müsәlmanlar (azәrbaycanlılar) idi. 1829/30 ildә Ordubad ş.-nin әh. 3444 nәfәrdәn ibarәt idi (803 ailәdәn 767-i azәrb.-lılar, 36-sı isә Türkmәnçay müqavilәsindәn sonra İrandan köçürülmüş ermәnilәr idi). Bölgәnin kәndlilәri taxıl, pambıq, çәltik әkmәklә yanaşı, bağçılıq, arıçılıq vә qoyunçuluqla da mәşğul olurdular. Sәnәtkarlıq (boyaqçılıq, dabbağlıq, dulusçuluq, toxuculuq, ipәkçilik, qәlәmkarlıq vә s.) inkişaf etmişdi.



***Ordubad rayonu.*** *1. Ordubad şәhәri. 2. Rayon İcra Hakimiyyәtinin binası. 3. Akad. Y.H.Mәmmәdәliyevin büstü. Ordubad. 4. Şәhidlәrә abidә. Ordubad. 5. Ordubad cümә mәscidi. 17 әsr.*



















***Ordubad rayonu.*** *1. Limon bağları. 2. Ordubad dağları. 3. Ordubad konserv zavodu. 4. Ordubad ipək kombinatı. 5. Rayon tarix-diyarşünaslıq muzeyi. 6. Ordubad xalça fabriki.*



Çar hökumətinin 10 aprel 1840 il inzibati məhkəmə islahatına əsasən (1841 il yanvarın 1-dən tətbiq edilmişdir) "erməni vilayəti" ləğv olunmuş, Ordubad dairəsi ilə birlikdə Naxçıvan qəzası, həmçinin İrəvan qəzası Gürcüstan-İmeretiya qub.-na daxil edilmişdir. 1849 ildə Qafqazda inzibati islahata əsasən Ordubad qəzasına çevrilmişdi.

*Əd.:* B u d a q o v a S. Naxçıvan diyarının tarixi coğrafiyası (18 əsrin 2-ci yarısı – 19 əsrin 1-ci qərinəsi), B., 1996.

**ORDUBAD YASAQLIĞI** – Ordubad r-nu ərazisində dövlət yasaqlığı. 1969 ildə təşkil olunmuşdur. Yasaqlıqda Cənubi Qafqaz və bölgə üçün nadir olan bezar keçisi (qaya keçisi) mühafizə edilir.

**ORDUBADÇAY** – Ordubad r-nu ərazisində çay. Arazın sol qolu. Uz. 24 *km*, hövzəsinin sah. 42 $km^2$. Zəngəzur silsiləsindən (3200 *m* hünd.-dən) başlanır. Şm.-dan c.-a doğru Ordubad ş.-ni iki hissəyə bölür. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Sel və daşqın olur. Suvarmada geniş istifadə edildiyindən ilin çox vaxtı Ordubad ş.-ndən aşağıda axım olmur.

**ORDUBADİ HATƏMBƏY** (?–1610) – dövlət xadimi. Bax *Hatəmbəy Ordubadi.*

**ORDUBADİ** Məmməd Səid (24.3.1872, Ordubad ş. – 1.5.1950, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – nasir, şair, dramaturq, jurnalist, tərcüməçi. Azərb. Respublikasının əməkdar incəsənət xadimi (1938). Şair *Fəqir* Ordubadinin oğludur. İlk təhsilini mollaxanada almış, sonra isə görkəmli maarifçi M. T. Sidqinin yeni üsullu "Əxtər" məktəbində oxumuşdur. Atasını erkən itirdiyindən şəhərdəki ipək fabrikində fəhləlik etmişdir. Yaradıcılığa 19 əsrin 90-cı illərində başlamış, zəmanənin haqsızlıqlarını tənqid edən şerlər yazmışdır. Cəhalət və nadanlıq əleyhinə yazdığı "Ədəbiyyat" adlı ilk mətbu şeri Tiflisdə çıxan "Şərqi-Rus" qəzetinin 13 iyul 1903 il tarixli 31-ci sayında dərc olunmuşdur. 1906 ildə Tiflisdə "Qəflət", 1907 ildə isə "Vətən və hürriyyət" adlı şer kitabları çap edilmişdir. 1906 ilin aprelindən nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı gələcək ədibin yaradıcılıq inkişafına böyük təsir göstərmişdir. Bu jurnalda əməkdaşlığının əsas səbəbi hələ keçən əsrin 90-cı illərində C. Məmmədquluzadə Naxçıvanın Nehrəm kəndində müəllim işlərkən onunla tanışlığı və sonralar Ömər Faiqlə Tiflisdə yaxınlığı olmuşdur. O.-nin "Politika aləmindən" adlı felyetonu jurnalın 2 iyun 1906 il tarixli 9-cu sayında çap edilmiş, beləliklə, o, jurnalın əsas əməkdaşlarından biri olmuşdur. O. Bakıda çıxan "İrşad", "Səda", "Sədayi-həqq", "Tərəqqi", "Təzə həyat" və s. qəzetlərdə, "Tuti", "Babayi-Əmir" jurnallarında da yaxından iştirak edirdi. 1907 ildən Culfaya köçən O. bu illərdə ədəbi fəaliyyətini davam etdirməklə yanaşı, Cənubi Azərb.-da Səttarxanın rəhbərliyi altında başlayan azadlıq hərəkatı ilə də yaxından maraqlanırdı. O, həmin illərdə "Molla Nəsrəddin" jurnalında, Bakıda nəşr olunan qəzetlərdə İran həyatına dair çoxlu felyeton, şer və digər yazılarla çıxış etmişdir. Ədib həmin illərdə "İki cocuğun Avropaya səyahəti" (1908), "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab" (1914) romanlarını çap etdirmişdir. Həmin əsərlərdə maarifçilik ideyaları təbliğ olunur. 1911 ildə Bakıda milyonçu Murtuza Muxtarovun maddi köməkliyi ilə Haşım bəy Vəzirovun "Səda" mətbəəsində nəşr edilən "Qanlı sənələr" adlı kitabında müəllif real faktlar və sənədlər əsasında 1905–06 illərdə çar hökumətinin himayəsi və erməni daşnaksütyun partiyasının fitvası ilə törədilən milli qırğın faciəsini qələmə almışdır. 10-cu illərdə "Bağı-şah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) pyeslərini də çap etdirmişdir. 1915 ilin yanvarında Culfada həbs olunaraq, Saritsına (indiki Volqoqrad) sürgün edilən ədib burada kommunistlərlə yaxınlaşmış, 1918 ildə Kommunist partiyası sıralarına girmişdir. O. 1920 il mayın əvvəlində Bakıya gələrək, "Əxbar" qəzeti redaktorunun müavini, bir qədər sonra isə redaktoru olmuşur. 1925–28 illərdə "Yeni yol" qəzetinin redaktoru, bir müddət "Molla Nəsrəddin" jurnalının müdiri vəzifələrində işləmişdir. 1920 ildən daha məhsuldar işləyən ədib şer, felyeton, publisistik məqalələr yazmış, tərcüməçiliklə məşğul olmuş, şer kitabları çap etdirmiş, "Koroğlu", "Nərgiz", "Nizami" operalarının, "Beş manatlıq gəlin", "Ürək çalanlar" musiqili komediyalarının librettosunu, "Dumanlı Təbriz" pyesini yazmış, həmçinin Nizami, Füzuli, Vaqif, Sabir və b. haqqında məqalələr dərc etdirmişdir.



*Ordubadi Məmməd Səid*

"XII əsr Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" əsəri ciddi tədqiqatın məhsuludur. Bütün bunlarla bərabər, O. Azərb. ədəbiyyatında tarixi roman janrının banisi kimi şöhrət tapmışdır. O, 20-ci illərdən əvvəl yazmağa başladığı dörd cildlik "Dumanlı Təbriz" (1933–48) roman-epopeyası ilə Azərb. ədəbiyatında bu janrın əsasını qoymuşdur. Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" (1946–48) romanında ədib dahi şairin obrazını, o dövrün ictimai-siyasi mənzərəsini yaratmışdır. "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) tarixi romanları da var. Əsərləri müxtəlif dillərə tərcümə edilmişdir. Azərb. SSR Ali Sovetinin (1–3-cü çağırış) deputatı seçilmiş, Lenin ordeni və "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Respublikada bir sıra küçəyə, mədəni-maarif müəssisəsinə O.-nın adı verilmiş, Ordubadda və Bakıda ev-muzeyi yaradılmış, Naxçıvanda büstü qoyulmuşdur.

Ə s ə r l ə r i: Əsərləri, 8 cilddə, B., 1964–67; Qanlı sənələr, B., 1991; Həyatım və mühitim, B., 1996.

*Əd.:* B a ğ ı r o v a N., M. S. Ordubadi və tarixi roman janrı, B., 1968; V ə z i r o v a F., M. S. Ordubadi, B., 1970; T a ğ ı y e v R., M. S. Ordubadi (Biblioqrafiya), B., 1975; R ü s t ə m o v T., Alovlarda bərkiyən qələm, B., 1981; M ə f t u n Ə k b ə r, M. S. Ordubadi, B., 1987; A x u n d l u Y., M. S. Ordubadi, B., 1997.

**ORDUBADİ FƏQİR** (1836, Ordubad–1886, orada) – şair. "*Əncüməni-şüəra*" ədəbi məclisinin yaradıcılarından və başçılarından biri. Bax *Fəqir*.

**ORDUBADİ İBRAHİM** (?, Ordubad – ?, İsfahan) – şair (17 əsr). Ordubad şəhərinin seyidlərindəndir. Orta yaşlarında Hindistana getmiş, böyük moğol hökmdarı Cahan şahın [1627–58] baş vəziri Nəvvab Cəfərxanın oğlanlarının müəllimi olmuşdur. Burada böyük sərvət toplasa da, tezliklə müflisləşmiş və yoxsulluq içində vəfat etmişdir.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 165–166.

**ORDUBADİNİN EV-MUZEYİ**, M ə m m ə d S ə i d O r d u b a d i n i n e v - m u z e y i, B a k ı d a – Azərb. SSR-in direktiv orqanlarının 16 iyun 1976 il tarixli qərarı ilə 1979 il oktyabrın 31-də ədibin 1938 ildən ömrünün sonunadək yaşayıb yaratdığı mənzildə (Xaqani küçəsi, 19) təşkil olunmuşdur. Azərb. Respublikası Mədəniyyət Nazirliyi sistemindədir. Muzeyin fondunda 2000-ə yaxın eksponat toplanmışdır. Onların 300-ü muzeyin ekspozisiyasında nümayiş etdirilir. Ekspozisiya ümumi sahəsi 60 $m^2$ olan iki otaqda yerləşir. Yazıçının həm iş, həm də qonaq otağı olmuş birinci otaqda məişət əşyaları, mebel, o cümlədən arxasında məşhur tarixi romanlarını qələmə aldığı yazı masası, fotoşəkillər, qrafika və yağlı boya ilə işlənmiş rəsm əsərləri, kitablar toplanmışdır. Otağın görünüşü ədibin həyatının son dəqiqələrində olduğu kimi qorunub saxlanmışdır. İkinci otaq M. S. Ordubadinin bütün yaradıcılığını əks etdirir. Burada ədibin 20 əsrin əvvəllərindən bəri nəşr olunmuş kitabları, əlyazmaları, işlədiyi qəzet və jurnalların nümunələri nümayiş etdirilir. Tamaşaçılar burada yazıçının anadan olduğu evin maketi ilə də tanış ola bilərlər. Mədəni-maarif müəssisəsi olmaqla yanaşı, muzeydə M. S. Ordubadinin ədəbi irsinin öyrənilməsi sahəsində də axtarışlar, tədqiqatlar aparılır.

**ORDUBADİNİN EV-MUZEYİ**, M ə m m ə d S ə i d O r d u b a d i n i n e v - m u z e y i, O r d u b a d d a – M. S. Ordubadinin anadan olmasının 100 illiyi münasibətilə 1972 ilin iyununda ədibin anadan olduğu mənzildə açılmışdır. Naxçıvan MR Mədəniyyət Nazirliyi sistemindədir. Muzeydə ədibin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, müxtəlif sənədlər, orada yaşadığı dövrə aid xatirə əşyaları, portretlər, əsərlərinin müxtəlif illərdə və dillərdə nəşrlərindən nümunələr, məktub və əlyazmaları, M. S. Ordubadi ilə ünsiyyətdə olmuş görkəmli xadimlərin şəkilləri, xatirələ-





M.S. Ordubadinin büstü. Naxçıvan.



*Yusif ibn Küseyir türbəsi. 1162. Memar Əcəmi. Naxçıvan şəhəri.*



ri və s. qorunub saxlanılır. Muzey M. S. Ordubadinin zəngin ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində səmərəli fəaliyyət göstərir. Burada xatirə günləri, görüşlər və s. tədbirlər keçirilir.

**ORDUBADLI** Davud (Davud Rzaqulu oğlu V a h a b o v u n ədəbi adı; d. 20.3.1930, Ordubad ş.) – şair. Kiçik yaşlarından ana-atasını itirmiş, Ordubad müəssisələrində fəhləlik etmiş, "Ordubad fəhləsi" (indiki "El həyatı") qəzetində mürəttib və ədəbi işçi işləmişdir. ADU-nun (indiki BDU) şərqşünaslıq fakültəsini bitirmiş (1955), uzun müddət Bakıda pedaqoji fəaliyyət göstərmişdir (1960–88). Yaradıcılığa, əsasən, 40-cı illərin ortalarından başlamış ilk şer və felyetonlarını "Ordubad fəhləsi", "Şərq qapısı" qəzetlərində dərc etdirmişdir. "Həyat yollarında" (1955), "Ata yurdu" (1958), "Mənim arzum" (1960), "Qayğı" (1964), "Qartal" (1970), "Pillələr" (1976), "Ürəklərə bağlıyam" (1978), "Qanadlı illər" (1980), "Şairin ömrü" (1983), "Ürəkdən yananlar" (1986), "Ləyaqət" (1989) və s. şer və poema toplularının müəllifidir. Birpərdəli "Böhtan" (1954) pyesi var.

Ə s ə r l ə r i: Anama abidə, B., 1974; Seçilmiş əsərləri, B., 1991.

**ORDUGAH** – Şərur r-nu Axura k.-nin şm.-nda, "Bəysalı" adlanan dağın təqr. 2 *km*-liyində orta əsrlərə aid arxeoloji abidə. Axtarışlar nəticəsində xeyli maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Mədəni təbəqə yoxdur. Ehtimal ki, O.-dan hərbi qüvvələrin müvəqqəti düşərgəsi kimi istifadə edilmişdir. Tapıntılara əsasən O. 9–17 əsrlərə aid edilir.

**ORTA ARAZ FİZİKİ-COĞRAFİ VİLAYƏTİ** – Azərb. Respublikası ərazisinin fiziki-coğrafi vilayətlərindən biri. Bax *Naxçıvan fiziki-coğrafi vilayəti.*

**ORTA SURƏMƏLİK DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarındadır. Hünd. 1144 *m*.

**ORUC DİZƏ** – Babək r-nunda kənd. Qaraqala bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 16 *km* şm.-ş.-də, dağətəyi ərazidədir. Əh. 473 nəfər (2000): taxılçılıq, heyvandarlıq və quşçuluqla məşğuldur. Feldşer-mama məntəqəsi var.

**ORUCƏLİYEV** Nəriman Bilal oğlu (d. 7.11.1930, indiki Babək r-nunun Cəhri k.) – pedaqoq. Pedaqoji elmlər namizədi (1975), dosent (1978). Azərb. Respublikasının əməkdar müəllimi (1999). Naxçıvan Müəllimlər İn-tunun tarix-filologiya fakültəsini (1947) və Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU, 1962) bitirmişdir. 1969 ildən Naxçıvan Dövlət Un-tinin pedaqogika və psixologiya kafedrasının müəllimidir. 1975–96 illərdə un-tin qiyabi şöbəsində, tarix-filologiya və pedaqoji fakültələrində dekan işləmişdir. 1996 ildən pedaqogika və psixologiya kafedrasının müdiridir. Azərb. ədəbiyyatının tədrisi metodikasının aktual problemlərinə dair 80-dən çox əsərin, o cümlədən 10 kitab və broşürün müəllifidir. Respublika, ümumittifaq və beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Nax. MR Ali Məclisinin (2-ci çağırış) deputatıdır.



*Ordubadlı Davud*



*Orucəliyev Nəriman*

**OSMAN İBN SALMAN NAXÇIVANİ** (?–?) – rəssam-nəqqaş (12 əsr). Bədii metal ustası kimi incə naxışlı zərif mis qablar hazırlamaqla tanınmışdır. Ona məxsus nəfis Naxçıvan bürünc dolçası Beyləqandan tapılmışdı. Parisin məşhur Luvr muzeyində mühafizə olunur. Hünd. 22 *sm* olan orijinal formalı həmin dolça oyma naxışlarla, gümüşlə işlənərək təsvirlərlə bəzədilmiş, üzərində düzəldilmə tarixi (1190) və ustanın adı həkk edilmişdir.

**OVÇULAR TƏPƏSİ** – Şərur r-nu Dizə k.-nin şm. qurtaracağında, Arpaçayın sol sahilində e. ə. 4–3-cü minilliklərə aid yaşayış yeri. Abidə ş.-q. istiqamətində uzanan təbii təpənin üzərindədir. Sah. təqr. 10 *ha*. Kəşfiyyat xa-

*Ovçular təpəsi yaşayış yeri. E. ə. 4–3-cü minilliklər.*






*Ovçular təpəsi yaşayış yerinin materialları: 1, 3, 4. Bədyə tipli gil qab qırıqları. 2. Dairəvi-diskvarı gil qapaq. 5. Daş həvəng. 6. Daş iskənə. 7. Dən daşı. İlk Tunc dövrü.*



rakterli arxeoloji tədqiqatlar nəticəsində yaşayış yerində Eneolit və ilk Tunc dövrlərinə aid mədəni təbəqələr müəyyən edilmişdir. Eneolit keramikası bitki və qum qarışıqlı gildən hazırlanmış, qırmızı biçimlidir, hər iki tərəfdən yaxşı hamarlanmışdır. Bəzi nümunələrinin bir və ya hər iki üzü tünd qırmızı rənglə, yaxud açıq rəngli anqobla örtülmüşdür. Bir çox hallarda xarici və daxili səthlərində daraqvarı alətlə işlənmənin izləri saxlanmışdır. Saxsılar, əsasən, küpə, kasa və cam tipli qablara aiddir. Küpələrin müxtəlif formalı qulpları vardır (yerli dulusçular məhz bu dövrdə qablara qulplar qoymağa başlayıblar). Onların bəzi nümunələri sonrakı Kür–Araz mədəniyyəti dövrünün yarımşar formalı qulplarını xatırladır. Qablar çoxsaylı yapma, çərtmə, basma ornamentlərlə bəzədilib. Bikonik formalı gil əyircək də keramika məmulatına aiddir. Eneolit dövrünün daş alətləri dən daşları, sürtgəclər, həvənglər, obsidian (d ə v ə g ö z ü) və çaxmaqdaşı lövhələrindən ibarətdir. İlk Tunc dövrü isə əsasən, qara, çəhrayı, boz rəngli cilalı və cilasız müxtəlif qablar, dən daşları, sürtgəclər, həvənglər, obsidian və çaxmaqdaşı lövhələri, tunc bizlə təmsil olunmuşdur.

*Əd.:* S e y i d o v A. Q., Naxçıvan tunc dövründə, B., 2000; А л и е в Н. Г., Н а р и м а н о в И. Г., Культура северного Азербайджана эпохи позднего Энеолита, Б., 2001.

**OYUQLU DAĞI** – Ordubad r-nu ərazisində dağ. Düylünçayı ilə Gilançayın suayırıcında, Düylün k.-ndən 3 *km* şm.-q.-dədir. Hünd. 1182 *m*. Konusvarı formadadır.



# Ö

**ÖLƏNŞƏHR** – Babək r-nu Nehrəm k.-nin aşağı hissəsində, Arazboyunda arxeoloji abidə. Tədqiqatçılar Ö.-in qədim şəhər yerinin xarabalığı olmasını ehtimal edirlər. Rəvayətə görə, əfsanəvi padşah Dağyanusun vaxtından qalan şəhər idi.

**ÖRTMƏTİKMƏ,** d o l d u r m a t i k m ə – bədii tikmə növü; əsasən ipək və yun sapla işlənirdi. Ö.-də tətbiq olunan zərif və rəngli saplar güləbətin tikmə ilə vəhdət təşkil edir. Naxışın üzəri düz və ya çarpaz xətlərlə doldurulur, bununla da yeni naxışlar alınırdı. Ö.-dən divar bəzəkləri, pərdə, rübənd, balışüzü, müxtəlif örtüklər və s. bəzədilməsində istifadə olunmuşdur. Azərb. Tarixi Muzeyində nümayiş etdirilən zoğalı rəngli şal parçadan nəfis şəkildə hazırlanmış örtük əlvanlığı və tikmə üslubu, rəng koloriti və rənglərin tətbiqi cəhətdən diqqəti cəlb edir (örtüyü 19 əsrin sonunda Naxçıvan sakini Həcər xanım İmamqulu qızı işləmişdir). Örtüyün hər bir küncündə buta yerləşdirilmiş, kənarları tirməni xatırladan qırmızı, qara, sarı saplarla çox incə işlənmiş, mürəkkəb bitki motivli naxışlarla haşiyələnmişdir. Örtüyün haşıyəsi ara sahəyə doğru xırda butalarla calaqlanmışdır.



*Əd.:* Ə l i y e v a G., Naxçıvan bədii tikmələri (XIX əsrin sonu–XX əsrin əvvəlləri), Azərb. SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, № 8.

**ÖVLİYA ÇƏLƏBİ** ibn Dərviş Məhəmməd Zilli (25.3.1611, İstanbul – 1679, 1682 və ya 1685) – türk səyyahı, coğrafiyaşünas. Mədrəsə təhsili almış, ərəb, fars, latın və s. dilləri mükəmməl öyrənmişdi. Bir müddət sarayda, sonralar isə sipahi (süvari) qoşununda xidmət etmişdir. 1640 ildən başlayaraq ömrünün əsas hissəsini səyahətdə keçirən Ö. Ç. gah səyyah, gah rəsmi nümayəndə, gah da hərbi yürüş iştirakçısı kimi Yaxın Şərq, Afrika, Avropa ölkələrini, habelə Moldovanı, Krımı, Ukraynanı, Volqaboyunu, Şimali və Cənubi Qafqazı gəzmiş. 10 cildlik "Səyahətnamə" əsərində olduğu ölkələr haqqında geniş məlumat vermişdir. Dəfələrlə (1640–44, 1646–48, 1655–56) Azərb.-da, o cümlədən Təbrizdə, Naxçıvanda, Gəncədə, Ərdəbildə, Ərəşdə, Şamaxıda, Bakıda və s. yerlərdə olmuş, bu yerlərin təbiətindən, təsərrüfat həyatından, yollarından, tarixi abidələrindən, məişət və adətlərindən ətraflı bəhs etmişdir. "Səyahətnamə"də Naxçıvan bölgəsi haqqında verilən məlumat maraq doğurur. Müəllifin Sədərək k., Qarabağ(lar) və Naxçıvan (Nəxşivan–Nəqşicahan) şəhərləri haqqında məlumatları (o cümlədən statistik və etnoqrafik) diqqəti cəlb edir. Ö. Ç. əhalisi, əsasən, müsəlmanlardan ibarət bu bölgənin barlı-bəhərli abad yer olduğunu, insanlarının qonaqpərvərliyini xüsusi qeyd edir. Müəllifin

"10200 örtülü böyük evi" olan Naxçıvan ş. haqqında məlumatı xüsusilə diqqətəlayiqdir. O yazır: "Şəhərdə 40 məscid, 20 karvansara, 7 gözəl hamam, təqribən 1000 dükan vardır. İmarətlərinin əksəriyyəti gözəldir". Bəzi mübahisəli və qeyri-dəqiq məlumatlarına baxmayaraq, "Səyahətnamə" Azərb., o cümlədən Naxçıvan tarixinin öyrənilməsində qiymətli mənbədir.

Ə s ə r l ə r i: Səyahətnamə (Azərb. tarixinə aid seçmələr), B., 1997; Övliya Çelebi Seyahatnamesi, İstanbul, c. 1–15, 1970–72; Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII века). Вып. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана, М., 1983.

**ÖZBƏK** Müzəffərəddin (?–1225, Əlincəqala) – Azərb. atabəyləri dövlətinin son hökmdarı [1210–1225]. Məhəmməd Cahan Pəhləvanın kənizdən olan oğlu. Atabir qardaşı Əbu Bəkrin ölümündən sonra onun tabeliyində olan mülkləri idarə etməyə başlamış, hakimiyyətə gələnədək bölgənin siyasi həyatında fəal iştirak etmişdir. Hakimiyyətinin ilk ilində (1210–11) gürcülərin Azərb.-a ən böyük hərbi yürüşlərindən biri baş verir. Naxçıvana hücum edən gürcülər şəhəri ələ keçirə bilməyərək, Culfaya doğru yönəlir, Dərədüz dərəsini keçib cənuba – Mərəndə, Təbrizə, Miyanəyə, Zəncana, Qəzvinə, Ərdəbilə və s. hücüm edir, talan və qarətlər törədirlər. Dövrün müəllifinin yazdığına görə, gürcülər geri qayıdarkən bir çox qalaları ələ keçirir, Naxçıvan və Beyləqan ş.-ləri üzərinə xərac qoyurlar. Ö.-in dövründə öz hücumları ilə ölkəni ağır vəziyyətə salan gürcülərdən başqa, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən əmirlərlə, eləcə də Xarəzmşahlarla aparılan mübarizə şəraitində Atabəylər (Eldənizlər) dövləti zəifləyir. Ö. Xarəzmşah Məhəmmədin vassalı hesab olunmağa başlayır. Onun hakimiyyəti zamanı (1221 ilin yanvarında) monqollar birinci dəfə Xorasan və İraqi-Əcəmdən keçərək Azərb. ərazisinə soxulurlar. Qarşılarına çıxan şəhər və kəndləri viran və talan edən monqollar Ö.-in iqamətgahı Təbriz ş.-nə hücum etsələr də, böyük təzminat müqabilində şəhəri tərk edirlər. Ö.-in gürcü hökmdarına və başqa qonşu hakimlərə rəqibliyi unudaraq, ümumi düşmənə qarşı birgə vuruşmaq təklifi cavabsız qalır. Marağanı, Təbrizi, Ərdəbili, Sərabı ələ keçirib, viran və talan edən monqollar, Rəşidəddinin məlumatına görə, Naxçıvanı da viran və talan etməyə, əhalisini qırmağa başlayırlar. Yalnız Naxçıvan hakimi, Ö.-in oğlu *Xamuşun* monqollara boyun əyməsi qırğının dayandırılmasına səbəb oldu. Mənbələr qıpçaqların və gürcülərin, monqolların birinci yürüşündən sonra baş vermiş hücumları və Ö.-in tədbirləri haqqında da məlumat verirlər. 1224 ildə Eldənizlərin mülklərindən olan İraqi-Əcəmi tutmuş Xarəzmşah Məhəmmədin oğlu Qiyasəddin Pirşah Ö.-ə alçaldıcı sülh bağlatdırıb, bacısı – Naxçıvan hakimi *Cəlaliyyə* ilə evlənirsə də, bu müvəffəqiyyəti qoruyub saxlaya bilmir. 1225 ildə Pirşahın qardaşı, Hindistandan yürüş etmiş Cəlaləddin Manqburnı İraqdan keçərək, Azərb. ərazisinə daxil olur və Marağanı tabe edir. Təbrizdəki iqamətgahında olan Ö. Cəlaləddinin Marağaya hücumu haqqında məlumat aldıqda, şəhəri tərk edərək, əvvəl Gəncədə, sonra isə Naxçıvandakı Əlincəqalada sığınacaq tapır. Ölkənin idarəsi faktiki olaraq Ö.-in arvadı, sonuncu səlcuq sultanı III Toğrulun qızı Məleykənin əlinə keçir. Mənbənin məlumatına görə, Əlincə qalasında qalan Ö. kəbinli arvadı Məleykənin öz razılığı ilə Cəlaləddinə ərə getməsi xəbəri ona çatandan "bir neçə gün sonra vəfat edir". Beləliklə, atabəy Ö.-in ölümü ilə Azərb. atabəyləri dövlətinə son qoyulur. *Şəmsəddin Eldənizin* övladlarına tabe olan ərazilər Azərb.-da, Arranda, Şirvanda və Gürcüstanda ağalıq edən xarəzmşah Cəlaləddin Manqburnının əlinə keçir.

*Əd.:* B ü n y a d o v Z. M., Azərbaycan Atabəyləri dövləti (1136–1225). B., 1985; Azərbaycan tarixi, 7 cilddə, c. 2, B., 1998; А н - Н а с а в и Ш и х а б а д - Д и н М у х а м м е д. Жизнеописание султана Джелал ад-Дина Манкбурны. Б., 1973; А л - Х у с е й н и С а д р а д - д и н А л и, Ахбар ад-даулат ас-Селджукийя (Зубдат ат-Таварих), изд. текста, пер., введение, прим. З. М. Буниятова), М., Б., 1980.



# P

**PAİZ,** P a y ı z – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Cəhri çayının hər iki sahilində, dağətəyi ərazidədir. Əh. 1030 nəfər (2000); taxılçılıq, heyvandarlıq və quşçuluqla məşğuldur. Orta məktəb, feldşer-mama məntəqəsi, klub, kitabxana, məscid var. Yaxınlığında Tunc dövrünə aid *Çalxanqala* yaşayış yeri aşkar olunmuşdur.

**PAİZ** – Babək r-nunda, eyniadlı kəndin c.-q.-ndə son Tunc – ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Şm.-c. istiqamətində uzanan təbii təpənin üzərindədir. Sah. 2 *ha*-a yaxındır. Geniş arxeoloji qazıntı işləri aparılmamışdır. Buradan və qazıntı sahəsindən arxeoloji materiallar (çəhrayı və boz rəngli kasa, üzərinə qırmızı boya çəkilmiş küpə və s.) toplanmışdır. Tapıntılara əsasən, abidənin e. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərinə aid olduğu qeyd edilir.

**"PAMBIĞA DOĞRU"** – qəzet. Şərur Rayon İcra Hakimiyyətinin orqanı *"Şərurun səsi"* qəzetinin 1931–54 illərdə adı.

**PARADƏŞT** – indiki Ordubad r-nunda, dağətəyi ərazidə mövcud olmuş kənd. Parağa k.-nin yaxınlığında idi. 19 əsrə aid yazılı qaynaqlarda adı çəkilir.

**PARAĞA** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 48 *km* şm.-q.-də, Ordubad–Tivi avtomobil şose yolunun kənarında, Gilançayın sol sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 291 nəfər (2000); bağçılıq, meyvəçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, rabitə şöbəsi var.

**PARAĞA MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Parağa k.-ndən 1,5 *km* aralı, dəniz səviyyəsindən 1785 *m* hünd.-dədir. Üç çıxışdan ibarətdir.

Balneoloji tərkibi:

$$CO_2 1,8\,M 1,7 \frac{SO_4 85\,HCO_3 13}{Ca 77\,Mg 20}$$

$$pH\,6.5\,D\,90\,m^3/gün\,T\,13°C$$

Suyu karbon qazlı, zəif minerallaşmış, sulfatlı, kalsiumlu–maqneziumludur. Müalicə məqsədi ilə istifadə oluna bilər.

**PARAĞAÇAY** – Ordubad r-nu ərazisində çay. Gilançayın ən uzun və sulu sol qolu. Zəngəzur silsiləsinin yamacından, 3580 *m* hünd.-dən başlanır. Uz. 21 *km*, hövzəsinin sah. 49 *km*²-dir. Əsasən yeraltı (48%) sular və qar (40%), qismən də yağış (12%) suları ilə qidalanır. Yazda və yayda qar sularından daşqın əmələ gətirən çaylar qrupuna daxildir. Suvarmada istifadə edilir.

**PARAĞAÇAY** – Ordubad r-nunda şəhər tipli qəsəbə. R-n mərkəzindən 52 *km* şm.-ş.-də, Ordubad–Tivi avtomobil yolunun q.-ində, Gilançayın sağ sahilində, Zəngəzur silsiləsi-


Parağaçay dərəsi

nin ətəyindədir. Əh. 102 nəfər (2000); bağçılıq, meyvəçilik və heyvandarlıqla məşğuldur.

**PARAĞAÇAY ƏNDƏLİSİT YATAĞI** – Ordubad r-nu ərazisində, Culfa d. y. st.-ndan 70 *km* şm.-ş.-də, Parağaçay molibden yatağından 9 *km* şm.-dır. Geoloji quruluşunda Mehri–Ordubad qranitoid intruziyasının ekzokontaktında Eosen yaşlı vulkanik süxurların və andezit-porfiritlərin hesabına əmələ gəlmiş əndəlist saxlayan törəmə kvarsitlər iştirak edir. Bu süxurların tərkibində rutil, muskovit, serisit və kvars da mövcuddur. Süxurda əndəlistin miqdarı 10–30%, bəzən isə 65–75% təşkil edir. Əndəlistli kvarsitlərin sah. 5–6 *ha*-dır. Əndəlistdən oda və turşuya yüksək davamlı, elektrik keçirməyən materiallar istehsalında istifadə olunur. Yataq 10 *m* dərinliyə qədər öyrənilib. Dərinliyə doğru əndəlistin miqdarı artır. İlkin hesablamalara görə əndəlistin miqdarı 0,5 mln. *t*-dur. Yataq istismar olunmur.

**PARAĞAÇAY MOLİBDEN YATAĞI** – Ordubad r-nu ərazisində dəniz səviyyəsindən 2300–2800 *m* hünd.-dədir. Eyniadlı filiz sahəsinin mərkəzi hissəsini tutur. Geoloji quruluşunda qabbro-diorit və diorit süxurları, həmçinin lamprofir və diorit-porfirit daykaları iştirak edir. Mis-molibden filizləşməsi damar və damar zonaları tiplidir; 280–$310^0$ şm.-q. və 20–$60^0$ şm.-ş. istiqamətli pozulmalarla əlaqədardır. Yataqda istismar əhəmiyyətli kvars-molibden damarı məlumdur. Əsas filiz mineralları: pirit, xalkopirit, molibdenit. Tekstur əlamətlərinə görə filizlər zolaqvarı və brekçiya tiplidir. Yataq 1952 ildən istismara verilmiş, hazırda istismarı dayandırılmışdır.

**PARÇI** – Şərur r-nunda, Naxçıvan–Şərur avtomobil yolunun sağ tərəfində orta əsrlərə aid yaşayış yeri. Hazırda Xanlıqlar k.-nin əhatəsində qalmışdır. Möhrədən və çiy kərpicdən inşa edilmiş tikinti qalıqları, möhrədən tikilmiş məscidin qalıqları saxlanmışdır. Kəşfiyyat xarakterli axtarışlar zamanı xeyli şirli və şirsiz saxsı məmulatı toplanmışdır. Tədqiqatlar nəticəsində abidənin 13–17 əsrlərə aid olması ehtimal edilir.

**PARÇI İMAMZADƏSİ** – Şərur r-nunun Parçı k.-ndə (hazırda Xanlıqlar k.-nə birləşdirilmişdir), orta əsrlərə aid ziyarətgah. Kəndin şm. hissəsindədir. Günbəzli böyük binadan



ibarət imamzadənin mərkəzi salonunda bir qəbir var. Son zamanlar bina kənd camaatı tərəfindən bərpa edilərkən qəbrin üstü səliqə ilə düzəldilmiş, üzərinə yerli materiallardan hazırlanmış başdaşı və sinə daşı qoyulmuşdur. Deyildiyinə görə, vaxtilə qəbrin üzərində yazı olmuşdur. Kənd əhalisi abidəni "Şahzadə İbrahim ibn Musa imamzadəsi" adlandırır. Buna əsasən ehtimal etmək olar ki, ziyarətgahda dəfn olunan şəxs yeddinci imam Museyi-Kazımın oğlu İbrahimdir. Abidənin üzərində sonralar türbə ucaldılmışdır. Memarlıq-konstruktiv əlamətlərinə görə, P. i. 17–18 əsrlərə aid edilir.

*Əd.:* S ə f ə r l i F., C ə f ə r o v H., Naxçıvan ziyarətgahları, B., 1998.

**PARÇI NEKROPOLU** – Şərur r-nunda, *Parçı* yaşayış yeri yaxınlığında orta əsrlərə aid arxeoloji abidə. Buradakı torpaq qəbirlər hazırda tamamilə itmiş, qəbirüstü sinə daşları, başdaşıları isə saxlanmamışdır. Yerli əhalinin məlumatına görə, müsəlman qəbirlərindən ibarət idi. Hazırda nekropolda üç otaqlı imamzadə məqbərəsi saxlanmışdır. Abidə Parçı yaşayış yeri ilə həmdövrdür.

**PARİS SÜLH KONFRANSI (1919–20)** – Birinci dünya müharibəsində (1914–18) qalib gəlmiş dövlətlərin məğlub dövlətlərlə sülh müqavilələri hazırlamaq və bağlamaq üçün çağırdıqları Beynəlxalq konfrans (1919, 18 yanvar – 1920, 21 yanvar).

Konfransda Cənubi Qafqazda vəziyyətin nizama salınması, xüsusilə Naxçıvan, Qarabağ və Zəngəzur mahalları ilə bağlı müzakirələr kontekstində bəzi dövlətlərin (əsasən ABŞ, qismən də İngiltərə və Fransa) dəstəyindən istifadə edən Ermənistan hökuməti Azərb.-ın əzəli torpaqlarına – Naxçıvana və s. bölgələrə dair əsassız ərazi iddialarını qanuniləşdirməyə və gerçəkləşdirməyə çalışırdı. İran diplomatiyası da Sülh konfransından faydalanmaq istəyir, "öz tarixi torpaqlarını" – Şimali Azərb.-ı, o cümlədən Naxçıvan və Zəngəzur mahallarını "geri qaytarmağa" cəhdlər edirdi.

Ermənistan nümayəndə heyətinin P.S. k.-na memorandumunda "Qafqaz Ermənistanı"nın əhatə etdiyi əraziyə Azərb.-ın Naxçıvan və Zəngəzur mahalları da daxil edilmişdi; Qars Respublikasının Ermənistana birləşdirilməsi, habelə Naxçıvan, Şərur–Dərələyəz, Sürməli mahallarının "erməni idarəçiliyi"nə keçməsi nəzərdə tutulurdu və s. Azərb. nümayəndə heyətinin başçısı Ə. M. Topçubaşov bu iddialara cavab olaraq Sülh konfransının sədrinə və müttəfiqlərin nümayəndələrinə etiraz notası (16/19.12.1919) vermiş və memorandumda adları çəkilən mahalların idarəçiliyinin Azərb. hökumətində saxlanılmasının zəruriliyini əsaslandırmışdı. P. S. k.-nda Ermənistan nümayəndələrinin guya Naxçıvanın Ermənistana qarşı təşviqat mərkəzinə çevrildiyinə dair uydurmaları da əsaslı şəkildə təkzib edildi; İranın Naxçıvan və s. Azərb. mahallarına dair ərazi iddiaları dəf olundu.

**PAŞAYEV** Ataxan Əvəz oğlu (d. 1.5.1938, indiki Culfa r-nunun Başkənd k.) – tarixçi. Tarix elmləri namizədi (1981). Azərb. Respublikası əməkdar mədəniyyət işçisi (1981). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1963). 1962 ildən arxiv işi sahəsində çalışır. Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru (1968–82) işləmişdir. 1984 ildən Azərb. Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisidir. Azərb.-da arxiv quruculuğuna, "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə, Azərb. tarixinə, xüsusilə azərb.-lıların deportasiyasına dair tədqiqatların, o cümlədən 2 kitabın, 170-dən çox elmi məqalənin müəllifi, 14 sənəd məcmuəsinin tərtibçilərindən biridir. "Azərbaycan arxivi" jurnalının baş redaktorudur (1984 ildən). Beynəlxalq Arxivlər Şurasının 7-ci (1972, Moskva), 13-cü (1996, Pekin) və 14-cü (2000, Sevilya) konqreslərinin nümayəndəsi olmuşdur.

Ə s ə r l ə r i: "Molla Nəsrəddin": dostları və düşmənləri, B., 1982; Köçürmə, B., 1995; Açılmamış səhifələrin izi ilə, B., 2001.





Paşayev Ataxan

**PETROQLİFLƏR** (yun. petros – daş + glyphe – oyma, naxış açma) – mağaraların divar və tavanlarında təbii daş və qaya üzərində oyma, yaxud müxtəlif üsullarla həkk edilmiş qədim rəsmlər. P. qədim insanların sosial həyat tərzi, adət-ənənələri, ideoloji, estetik və fəlsəfi baxışları ilə əlaqədar yaranmış qayaüstü rəsmlər, qiymətli təsviri sənət əsərləri olmaqla yanaşı, bir növ, bəşəriyyətin ilkin inkişaf mərhələlərini əks etdirən sirli piktoqrafik yazılardır. Bax *Gəmiqaya rəsmləri*.

**PƏLƏ** – ənənəvi su nəqliyyat vasitəsi, ibtidai qayıq növü. İndi tamamilə izi itmiş bu nəqliyyat vasitəsi növü yalnız Naxçıvan bölgəsi üçün səciyyəvi idi. P. hazırlamaq üçün möhkəm ağac növü seçilir (diametri 10–15 *sm*, uz. 2–2,2 *m*) sonra həmin ağaclar 1 *m* aralı olmaqla paralel qoyulub baş (hər iki tərəf) və orta hissələrdən başqa ağacla bir-birinə bərkidilirdi. Alınmış hər iki kvadrata keçi, yaxud qoyun dərisindən olan içərisi hava ilə doldurulmuş tuluq bağlanır, əsasın üstü çubuqlardan hörülmüş çəpərə ilə örtülürdü. Çən vasitəsilə hərəkətə gətirilən P. 2 adam və ağır olmayan yük üçün nəzərdə tutulurdu. Əsasən, çayın bir sahilindən o biri sahilinə keçməkdə, bəzən isə çayın axarı istiqamətində istifadə olunmuşdur.

*Əd.:* K ə r i m o v T. M., Naxçıvan MR-in ənənəvi nəqliyyat vasitələri haqqında, Naxçıvan Dövlət Un-tinin Elmi Əsərləri, 2000, № 7.

**PƏNAHLILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində pənahlı nəslinin də adı çəkilir.

**PƏZMƏRİ** – Ordubad r-nunda kənd. Unus bələdiyyəsinin ərazisinə daxildir. R-n mərkəzindən 37 *km* şm.-q.-də, Ordubad–Unus avtomobil yolunun kənarındadır. Əh. 151 nə-



*Pələ. Nəqliyyat vasitəsi. 19 əsr.*

fər (2000); bağçılıq, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, tibb məntəqəsi, kitabxana, klub var.

**PƏZMƏRİ MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Pəzməri k. yaxınlığındakı eyniadlı intruzivin təmas zonasındadır. Suyunun temp-ru 13°C , debiti 43 *m³/gün*, minerallaşma dərəcəsi 1,52 *q/l*-dir. Su coddur /22, 27 *mq-ekv/l*, dadı turşməzədir. Süxurlarda dəmir pası örtüyü müşahidə olunur.

Balneoloji tərkibi:

$$CO_2 0,7 M 1,5 \frac{HCO_3 64 SO_4 28}{Ca72 (Na+K)23} \cdot pH 6,4 D 43 m^3/gün\ T 13°C$$

Suyu zəif karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı–sulfatlı, kalsiumlu–natriumludur. Müalicə üçün istifadə edilə bilər.

**PİLƏLƏR SİLSİLƏSİ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Dağüstü silsilənin ş. yamacında, ona paralel olaraq şm.-q. istiqamətində uzanır. Uz. 3,5 *km*. Ş. yamacı sıldırımdır. Ən yüksək zirvəsinin hünd. 1563 *m*.

**PİLƏKTİKMƏ** – Naxçıvan diyarında yayılmış bədii tikmə növlərindən biri. Pilləklər, adətən, nazik, yastı, elastik, rəngli metal vərəqələrdən kəsilib, ipək parçaların, taxça, buxarı, ayna örtüklərinin, xüsusən yelpiklərin üzərinə bənd edilib, müxtəlif formalı həndəsi, zoomorf və nəbati ornamentlər əmələ gətirirlər. Belə tikmələrdə bədii bəzək tərtibatı əsas şərtlərdəndir. Bəzən P. üsulu ilə mürəkkəb quruluşlu, bədii dəyərli əşyaların hazırlanmasında əlavə bəzək kimi güləbətin, muncuq, təkəlduz və s. tikmə növlərindən də istifadə edilirdi. Qızılı və gümüşü rəngli piləklərdən Azərb. xalça kompozisiyaları üçün səciyyəvi olan mehrablı, tağlı, ləçəkturunc, səmtli və s. bədii quruluşlar da alırdılar. Qədim ənənəvi metal piləklər Azərb.-ın sənətkarlıq cəhətdən inkişaf edən şəhərlərində (Şamaxı, Bakı, Gəncə və s.) sənətkarlar və zərgərlər tərəfindən hazırlanırdı.

*Əd.*: Ə l i y e v a G., Naxçıvanın bədii tikmələri (XIX əsrin sonu – XX əsrin əvvəlləri), Azərb. EA-nın Xəbərləri (ictimai elmlər seriyası), 1961, №8; y e n ə o n u n, Azərbaycanın bədii parça və tikmələri, B., 1990.

**PİR ÖMƏR NAXÇIVANİ ZİYARƏTGAHI** – Naxçıvanın orta əsrlərdə tanınmış ziyarətgahlarından biri. 14 əsr İran tarixçisi Zeynəddin Qəzvininin "Zeyl-e tarix-e qozide" ("Seçilmiş tarix"in davamı) əsərində adı çəkilir. Müəllifin məlumatına görə, Cəlairilər dövlətinin (1341—1431) şahzadəsi Sultan Əhmədin [1382–1410] hakimiyyət uğrunda mübarizəsi dövründə əsaslı surətdə qarət olunmuşdur.

*Əd.*: Z e y n ə d d i n b i n H ə m d u l l a h Q ə z v i n i Zeyl-e tarix-e qozide (fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M. D. Kazımov və V.Z. Piriyevindir), B., 1990.

**PİRCUVAR DÜZÜ QUM YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 7 *km* c.-q.-dədir. Geoloji quruluşunda Üst Dördüncü dövrün xırda və orta dənəli prolüvial, delüvial qumları iştirak edir. Qranulometrik tərkibinə görə yataqda iki lay ayrılır: 1) xırda, orta və iri dənəli qum layı; 2) incə və xırda dənəli, zəif sementlənmiş qumdaşı layı. Yataqda uzanma istiqamətində və dərinliyə doğru heç bir qanunauyğunluq nəzərə çarpmır və hər yerdə müxtəlif fraksiyalı qumların laylaşmasına rast gəlinir. 1-ci layın qalınlığı 23,0 *m*-ə qədər, 2-ci layın qalınlığı isə 3,0–16,0 *m*-dir. Laboratoriya texnoloji tədqiqatların nəticələrinə görə, ilkin ələnmədən və yuyulmadan sonra qumlardan tikinti işlərində istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 12366 min $m^3$-dir.

**PİRÇAY** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Uz.10 *km*. 2600 *m* hünd.-dəki bulaqlardan başlanır. Qar, yağış suları və yeraltı sularla qidalanır.

**PİRHƏSƏNLİLƏR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan bir sıra qol və tirələrin içərisində pirhəsənli nəslinin də adı çəkilir.

**PİR-İ SÜLEYMAN** – Şərur r-nunun Tənənəm k.-ndə ziyarətgah. Diqqəti çox da cəlb etmə-







Plovdağ. İlk Tunc dövrü.

yən bir binadan ibarət olub içərisində qəbir var. Qəbir üstündə tikilmiş türbə – sərdabə uzun illərdən bəri ibadətgaha çevrilib. Günbəzi təcvarı formalı, dairəvi planlıdır. Abidənin giriş qapısı üzərində vaxtilə kitabə olsa da, dövrümüzədək qalmamışdır. P. S. türbəsinin ətrafından orta əsrlər (xüsusilə 14 əsr) üçün səciyyəvi olan xeyli saxsı qab sınıqları və kaşı hissələri aşkar olunmuşdur. Tədqiqatçıların ehtimalına görə, 14 əsrdə burada hansısa sufi təriqəti fəaliyyət göstərmiş, Süleyman isə onun rəhbər şeyxlərindən olmuşdur.

*Əd.*: S ə f ə r l i F., C ə f ə r o v H., Naxçıvan ziyarətgahları, B., 1998.

**PİRQƏMİŞ MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə dini etiqadla bağlı məhəllə. Məşhur Pirqəmiş məscidi bu məhəllədədir. Prof. Əziz Şərif "Molla Nəsrəddinin yaranması" kitabında C. Məmmədquluzadənin bu məhəllədə boya-başa çatdığını göstərmişdir.

**PİSDƏR MAĞARASI** – Şərur r-nunun Axura k.-ndən ş.-dəki *Tanı qalası* yaxınlığında mağara. Yarımdairəvi formalıdır. Dərinliyi 10 *m*-dən artıqdır. Aşağı hissəsi torpaqla örtülmüşdür. Arxeoloji qazıntılar aparılmamışdır. Ehtimal ki, P. m.-ndan ibtidai insan məskəni kimi istifadə edilmişdir.

**PİŞİKDIRNAĞI**, P i ş i k d ə r ə s i – Culfa r-nu ərazisində dağ. Arazın sol sahilindəki şm.-q. istiqamətli alçaq tirənin suayırıcında, Aşağı Aza k.-ndən 3,5 *km* q.-dədir. Hünd. 808 *m*.

**PİYAZBAŞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Düylünçayla Qaplançayın suayırıcında, Urmis k.-ndən 2,75 *km* c.-ş.-dədir. Hünd. 2612 *m*. Günbəzvarı formadadır.

**PİYAZBAŞI QIZIL YATAĞI** – Ordubad r-nu ərazisində Pəzməri k.-ndən 4 *km* şm.-q.də, Zəngəzur silsiləsinin c.-q. yamacında, dəniz səviyyəsindən 1800–2700 *m* yüksəklikdədir. Kələki və Pəzməri dərinlik qırılmaları nəticəsində qalxmış blokun mərkəzi və şm. hissələrini əhatə edir. Geoloji quruluşunda Orta Eosen yaşlı andezit porfiritlər və onların tufları, həmçinin diorit, diorit-porfirit daykaları iştirak edir. Filizpaylayıcı struktur şm.-q. istiqamətli Pəzməri dərinlik qırılması, filizdaşıyıcı isə ondan ayrılmış çoxlu müxtəlif istiqamətli xırda yerli qırılmalardır. Qızıl-sulfid filizləşməsi damar və damar zonaları tiplidir. Yataqda 73 kvars-sulfid damarı və damar zonası vardır. Bunlardan 5-ində qızılın miqdarı yüksəkdir. Yataq hidrotermal yolla əmələ gələrək, orta temperaturludur və əmələ gəlməsinə görə Mehri–Ordubad qranitoid intruziyası ilə əlaqədardır. Əsas filiz mineralları: pirit, xalkopirit, bornit, malaxit, sərbəst qızıl. Filizlərdə qızıl 1,0–15,0 *q/t*, mis 0,1–1,8%-dir. Tekstur əlamətlərinə görə filizlər brekçiya (süxur) tiplidir.

**PLOVDAĞ** – Ordubad r-nu ərazisində, eyniadlı dağın c. ətəyində ilk Tunc dövrünə aid abidə. Aşkar olunmuş qəbirlər düzbucaqlı kameralardan ibarət olub, daşdan tikilmişdir. Örtüyü ağac və üstündən xırda daş plitələrdən ibarət idi. Qəbirlərdə sağ böyrü üstə qoyulmuş skelet, boz rəngli geniş ağızlı qab, çaxmaqdaşıdan ox ucu və balıqqulağından düzəldilmiş muncuq tapılmışdır.

**PLOVTƏPƏ** – Babək r-nu ərazisində dağ. Uzunoba su anbarından 500 *m* q.-dədir. Hünd. 1036 *m*.

**PLOVTƏPƏ** – Ordubad r-nunun Sabirkənd k.-ndən 2 *km* ş.-də, Gilançayın sol sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1975–76 illərdə tədqiq edilmişdir. Sah. təqr. 5 *ha* . Abidənin bəzi yerlərinin kürənib dağılmasına baxmayaraq, tikinti qalıqları, daş yığıntıları aydın izlənilir. Daş və çiy kərpicdən tikinti məskənlərinin bünövrələri aşkar olunmuşdur. Yerüstü materiallar gil qab nümunələrindən, daş əmək alətlərindən



Plovtəpə yaşayış yerində açılmış binanın bünövrəsi.

və s.-dən, mədəni təbəqə kül qarışıq gil laylarından ibarətdir: keramika məmulatı, xırdabuynuzlu heyvan sümükləri, əmək alətləri, həmçinin çaxmaqdaşı və obsidian (d ə v ə g ö z ü) qırıntıları və s. aşkar olunmuşdur. Tapıntılara əsasən P.-nin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

**POTIKİNGƏDİK DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Girdəni çayı ilə Düylün çayının suayrıcında, Urmis k.-ndən 1,5 *km* c.-q.-dədir. Hünd. 2478 *m*. Günbəzvarı formadadır.



Püsyan yaşayış yerindən və nekropolundan tapılmış keramika məmulatı.

**PÜSYAN** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 23 *km* c.-ş.-də, Azərb. beynəlxalq d.y. və magistral avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 3597 nəfər (2000); maldarlıq, taxılçılıq, yemçilik və pazıçılıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, klub, kitabxana, kinoqurğu, xəstəxana var.

**PÜSYAN** – Şərur r-nunun eyniadlı k.-ndən c.-ş-də antik dövrə aid yaşayış yeri. Sah. 3 *ha*. 1987 ildə qeydə alınmışdır. Geniş tədqiqat işləri aparılmamışdır. Arxeoloji kəşfiyyat işləri nəticəsində açıq sarı rəngli gil qab nümunələri (kasa, küpə tipli qablar) və s. maddi mədəniyyət materialları aşkar olunmuşdur. Tapıntılar e. ə. I və eramızın 1–2 əsrlərinə aid edilir.

**PÜSYAN DAŞDUZ YATAĞI** – Şərur r-nunun Püsyan k. ətrafındadır. 1955 ildə aşkar olunmuşdur. Duz laylarının qalınlığına görə yataq *Nehrəm daşduz yatağını* xatırladır. Geoloji yaşına görə duz daşıyan çöküntüləri Orta Miosen dövrünə hesablanmışdır. Yataq hələlik dəqiq öyrənilməmişdir. Daşduzdan məişətdə və mal-qaranın yemlənməsində, kalsitləşdirilmiş soda hazırlanmasında və s. istifadə olunur.

**PÜSYAN NEKROPOLU** – Şərur r-nunda eyniadlı kəndin c.-ş.-ndə antik dövrə aid arxeoloji abidə. Hər tərəfdən əkin sahələri ilə əhatə olunub. Dağıdılmış abidələrə əsasən, sah. 1200 $m^2$-dən artıqdır. 1981 ildə təsərrüfat işləri görülərkən aşkar olunmuşdur. Abidələr daş qutu və torpaq qəbirlərdən ibarətdir; skeletlər ş.-q. istiqamətində, bükülü vəziyyətdə idi. Aşkar olunmuş arxeoloji materiallar sarı rəngli gil qablardan (küpə, dolça, kasa, çaydan tipli qablar və s.) ibarətdir. Bəzi qablar sarı rənglə anqoblanaraq cilalanmışdır. P. n.-ndan tapılmış materiallar Azərb.-ın son antik dövr abidələrindən məlumdur. Aşkar olunmuş materiallar Şərur r-n tarixdiyarşünaslıq muzeyində saxlanılır. Abidənin e. ə. 2–1-ci əsrlərə aid olması ehtimal edilir.

*Əd.:* Б а л а л о в А. Г., Глиняные сосуды античного периода из с. Пусян. Доклады АН Аз. ССР, 1989, № 3.



# R

**RAMAZANOV** Fərrux Fətulla oğlu (d. 20. 11. 1922, Şərur r-nunun Çərçiboğan k.) – filosofşünas. Fəlsəfə elmlər doktoru (1973), prof. (1976). 1953 ildə Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsinin fəlsəfə şöbəsini bitirmiş, fəlsəfə kafedrasında müəllim kimi saxlanmışdır. 1960 ilin sentyabrından indiki Azərb. Texniki Un-tində baş müəllim, dosent, prof. vəzifələrində çalışmışdır. 1970 ildən fəlsəfə (hazırda fəlsəfə və politologiya) kafedrasının müdiridir. R. Azərb. fəlsəfi-etik fikir tarixinə dair 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 100-dən artıq elmi və elmi-metodiki məqalənin müəllifidir. Beynəlxalq elmi simpozium və konqreslərdə məruzələr etmişdir. Ali məktəbdə çoxillik səmərəli elmi-pedaqoji fəaliyyətinə görə "Ali məktəb əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. Böyük Vətən müharibəsinin iştirakçısı olan R. bir sıra döyüş ordeni və medallarla təltif edilmimşdir.



Ramazanov Fərrux

**RAMAZANOVA** Yasəmən Allahverdi qızı (d. 25.1.1958, indiki Babək r-nunun Tumbul k.) – aktrisa. Nax. MR (1987) və Azərb. Respublikasının (1999) əməkdar artisti. Azərb. Dövlət İncəsənət Un-tini (indki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1981). C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram teatrında işləyir. Əsas rolları: Nina, Göyərçin, İsmət ("Şeyx Sənan", "Uçurum", "Ana", H. Cavid), Gültəkin ("Aydın", C. Cabbarlı), Gülnaz ("O olmasın, bu olsun", Ü. Hacıbəyov) və s.

**RAMİQ MUXTAR** (Ramiq Muxtar oğlu N a - ğ ı y e v; d. 5.9.1942, Naxçıvan ş.) – şair, dramaturq. Rəsul Rza mükafatı laureatı (2001). Azərb. Dövlət Teatr İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1968). 80-dən çox şerinə musiqi bəstələnmişdir. "Arxamca su atsan", "Sənsən xilaskarımız", "Müstəqildir Vətənim" (bəstəkar N. Məmmədovla birgə), "Bu Vətən sənindir" (bəstəkar N. Mirməmmədli ilə birgə) mahnıları 1992, 1994, 1995, 1997-ci illərdə respublika hərbi vətənpərvərlik mahnıları müsabiqəsində, "Ana durnanın ölümü" şeri isə Türkiyədə "Altun saçaq" şer müsabiqəsində (2001) 1-ci mükafata layiq görülmüşdür. "Çiçəklənən Naxçıvan" süitasının (bəstəkar N. Məmmədov) da sözləri R. M.-ındır. "Üfüqlər qızaranda" (1970), "Əgər sevirsənsə" (1976), "Şəhərli kürəkən" (1985) pyesləri C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrında, "Əlvida, köhnə dünya" (1973) pyesi Ə. Haqverdiyev adına Ağdam Dövlət Teatrında, telepyesləri Naxçıvan televiziyasında tamaşaya qoyulmuşdur. "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Ölüm tanqosu" balet librettoları var.

Ramiq Muxtar



**RASİZADƏ** Abdulla Məşədi Qulu oğlu, H a c ı M o l l a A b d u l l a Ş a h t a x t l ı (1843, indiki Şərur r-nunun Şahtaxtı k. – ?, Naxçıvan ş.) – ziyalı, din xadimi. H. *Cavidin* atasıdır. Ruhani ailəsində doğulmuşdur. Atası aşıq şerini və klassik şeri sevər, məclislərdə onları muğamat üstündə oxuyar, bəzən özü də bədahətən şer deyərmiş. Bu qabiliyyət irsən Abdullaya da sirayət etmişdi. Dövrünün tanınmış ruhanisi olan Hacı Molla Abdulla 1877 ildə ailəsi ilə birlikdə Naxçıvana köçmüşdür. Şeri, musiqini yaxşı bildiyinə və məlahətli səsinə görə onu rövzəxan kimi tez-tez Bakı, Şamaxı, Gəncə, İrəvan və Nuxaya (Şəkiyə), habelə Güney Azərb. və İran şəhərlərinə dəvət etmişlər. S. Ə. Şirvani "Hacı Molla Abdulla Şahtaxtlıya" adlı mənzum məktubunda onun rövzəxanlıq məharətini yüksək qiymətləndirmiş, "avazeyi-fəzli"nin



Rəhimov Kamran



Rəhimov Mikayıl



Rəhimov Rəhim Səfər oğlu

Rəhimov Rəhim



**RƏHİMOV** Kamran Nəbi oğlu (d.4.7.1928, indiki Şərur r-nunun Qarabağlar k.) – tarixçi. Tarix elmləri doktoru (1968). Azərb. Respublikasının əməkdar elm xadimi (1991). Naxçıvan Müəllimlər İn-tunun tarix-dil və ədəbiyyat fakültəsini (1945) və Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini (1950) bitirmiş. Sov. İKP MK yanında Marksizm-leninizm İn-tunun aspiranturasında oxumuşdur. "Azərbaycan kommunisti" jurnalında şöbə müdiri, baş redaktor müavini (1956–62), baş redaktor (1962–75; 1988–91) olmuş, Azərb. KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi (1975–83), Azərb. SSR maarif naziri, Ali Təhsil nazirinin birinci müavini (1983–88) vəzifələrində çalışmışdır. 1974–76 illərdə Azərb. Jurnalistlər İttifaqının sədri seçilmişdir. Ən yeni tarixə, demokratiya və dövlət quruculuğu məsələlərinə dair tədqiqatların, o cümlədən bir neçə kitab, monoqrafiya və dərsliyin, 300-dən çox elmi və elmi-publisistik məqalənin müəllifidir. Məqalələri xaricdə (Rusiya, Bolqarıstan, keçmiş ADR, Çin) də dərc olunmuşdur. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Mötəbər elmi şuraların, elm və texnika üzrə Respublika Dövlət Mükafatları Komitəsinin üzvü olmuşdur. Naxçıvan MSSR, Azərb. SSR və keçmiş SSRİ Ali Sovetinin, Azərb. Respublikası Milli Məclisinin (1-ci çağırış) deputatı seçilmişdir. Bir neçə orden və medallarla təltif olunmuşdur.

Ə s ə r l ə r i: Mənim Azərbaycanım, B., 1995; İnsan haqqında düşüncələr, kitab 1–2, B., 1998–2000.

**RƏHİMOV** Mikayıl İsmayıl oğlu (d. 26.9. 1930, indiki Şərur r-nunun Tumaslı k.) – zootexnik. Kənd təsərrüfatı elmləri doktoru (1985), prof. (1986), Azərb. Milli EA-nın (2001) və Rusiya Kənd Təsərrüfatı EA-nın (1991) m. üzvü. SSRİ Dövlət mükafatı laureatı (1985). 1937 ildə valideynləri ilə birlikdə Qazaxıstana sürgün edilmişdi. Perm Kənd Təsərrüfatı İn-tunun zootexnika fakültəsini (1958) və həmin in-tun aspiranturasını (1964) bitirmişdir. 1978 ilədək Rusiyanın ali məktəb və elmi idarələrində çalışmış, Tümen kənd təsərrüfatı in-tunda kafedra müdiri, dekan, Sibir elmi-tədqiqat layihə-texnoloji heyvandarlıq in-tunda şöbə müdiri işləmişdir. 1987 ildən F. Ə. Məlikov ad. Azərb. Elmi-Tədqiqat Heyvandarlıq İn-tunun direktorudur. Heyvandarlıq məhsulları istehsalının texnologiyasının hazırlanmasına və tətbiqinə dair tədqiqatların, 3 kitabın və 150-yə yaxın elmi məqalənin müəllifidir.

**RƏHİMOV** Rəhim Cəfər oğlu (15.3.1920, Babək r-nunun Təzəkənd k.) – Böyük Vətən müharibəsi qəhrəmanı, istefada olan leytenant. Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur. 1941 ildə ordu sıralarına çağırılmış, Qafqazın müdafiəsində, Belorusiya, Pribaltika və Kalininqradın azad edilməsi uğrunda döyüşlərdə igidlik göstərmişdir. Komandirlik etdiyi minaatan batareyası ilə Mozdokdan (Şimali Qafqaz) Maqdeburqadək (Almaniya) döyüş yolu keçmişdir. Ordudan buraxıldıqdan (1945) sonra Naxçıvan (indiki Babək) r-nundakı Təzəkənd orta məktəbində müəllim işləmişdir. I dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz və Qırmızı Bayraq ordenləri və medallarla təltif olunmuşdur. Hazırda pensiyaçıdır.

**RƏHİMOV** Rəhim Kərəm oğlu (d. 20.5.1920, indiki Şərur r-nunun Qıvraq k.) – iqtisadçı. İqtisad elmləri namizədi (1961), prof. (1984). Azərb. Respublikası əməkdar iqtisadçısı (1970). Naxçıvan Müəllimlər İn-tunu (1941) və Sov. İKP MK yanında Ali Partiya Məktəbini (1952) bitirmişdir. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. KP Culfa r-n komitəsinin katibi (1945–46), Naxçıvan vilayət komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri (1946–48), Nax. MSSR Nazirlər Soveti Sədrinin birinci müavini (1948–49; 1952–54), Sədri (1954–59), Azərb. SSR Maarif naziri (1959–60), Azərb. SSR Dövlət Plan Komitəsinin şöbə rəisi və kollegiya üzvü (1960–81), Azərb. Texnologiya İn-tunun (1981–87), Azərb. Respublikası Nazirlər Kabineti yanında Xalq Təsərrüfatını İdarəetmə İn-tunun (1987–2001) rektoru olmuşdur. Bir monoqrafiyanın, çoxlu elmi məqalənin müəllifidir. Nax. MSSR Ali Sovetinin (2–4-cü çağırış), Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı seçilmişdir. Qırmızı Əmək Bayrağı, II dərəcəli Vətən müharibəsi ordenləri, SSRİ XTNS-nin Qızıl medalı ilə təltif olunmuşdur.

*Əd.:* İ s a y e v Ə., Dəyərli ömrün anları, B., 1999.

**RƏHİMOV** Rəhim Nurməmməd oğlu (d. 13. 8.1923, Ordubad ş.) – rentgenoloq. Tibb elmləri doktoru (1969), prof. (1970), Azərb.



Milli EA akad. (1989; m. üzvü 1983), əməkdar elm xadimi (1981), səhiyyə əlaçısı (1964). Azərb. Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini (1950) və Azərb. Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Rentgenologiya və Radiologiya İn-tunun aspiranturasını (1957) bitirmişdir. Elmi-Tədqiqat Rentgenologiya, Radiologiya və Onkologiya İn-tunun baş elmi işçisi (1962–70), elmi işlər üzrə direktor müavini (1970–74) və direktoru (1975–90) olmuşdur. 1990 ildən Azərb. Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin şüa diaqnostikası şöbəsinin rəhbəridir. Mədə-bağırsaq xəstəliklərinin diferesial diaqnostikasına, qida yolunun, mədənin, yoğun bağırsağın rentgen-morfoloji dəyişikliklərinə həsr olunmuş fundamental əsərlərin müəllifidir. R. yoğun bağırsağın patologiyasının tədqiqində yeni rentgen diaqnostikası metodunu işləyib hazırlamışdır. Alınmış nəticələr keçmiş SSRİ-də, Yaponiyada, Almaniyada dərc olunmuşdur. 130-dan çox elmi əsərin müəllifidir. Doktorluq və namizədlik dissertasiyaları müdafiəsi üzrə ixtisaslaşdırılmış elmi şuranın sədri, Respublika Rentgenoloqlar və Radioloqlar Elmi Cəmiyyətinin sədri (1965–85), SSRİ Rentgenoloq, Radioloq və Onkoloqlar Elmi Cəmiyyəti plenumunun üzvü (1970–90), "Rentgenologiya və radiologiya xəbərləri" jurnalı (Moskva) redaksiya heyətinin üzvü (1975–97) olmuşdur. "Onkologiya məsələləri" jurnalı (Sankt-Peterburq) redaksiya heyətinin üzvüdür (1976 ildən). Amerika Bioqrafiya İn-tu tərəfindən "İlin adamı" adına (1997) və qızıl medala (1999) layiq görülmüşdür. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: К вопросу о рентгенодиагностике рака желудка, Б., 1964; Клиническое значение двухконторного, комбинированного контрастирования при колитах, Б., 1971.

**RƏMLƏR DAĞI** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin şm.-q. yamacında, Tənənəm k.-ndən 5,5 *km* şm.-ş.-dədir. Hünd. 2289 *m*. C. və q. yamacları sıldırımdır.

**RİZAYEV** Kərim Novruz oğlu (25.12.1912, Ordubad ş. – 1.1.1995, Bakı) – metallurq, təsərrüfat rəhbəri. Sosialist Əməyi Qəhrəmanı (1980). *N. K. Rizayevin* oğludur. Moskvada Əlvan Metallar və Qızıl İn-tunu bitirmişdir (1941). Əmək fəaliyyətinə 1941 ildə RSFSR Sverdlovsk vil.-nin "Uralqızıl" trestində mühəndis kimi başlamışdır. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Ordudan tərxis olunduqdan (1946) sonra Kalininqrad vil.-indəki Kəhrəba z-dunun direktoru (1946–50), Kəhrəba f-kinin rəisi, emal f-kinin baş mühəndisi (1950–53), Kəhrəba kombinatının baş mühəndisinin müavini (1953–55) və kombinatın direktoru (1955–62) olmuşdur. 1962 ildən Azərb. xalq təsərrüfatı sistemində müxtəlif vəzifələrdə çalışmış, dağ-mədən və metallurgiya idarəsinin rəisi (1962–65), Azərb. SSR Nazirlər Soveti yanında Əlvan Metallurgiya Birliyinin (1965–79) və Azərb. Respublikası Əlvan Metallurgiya İdarəsinin (1979-89) rəisi işləmişdir. Yüksək ixtisaslı mütəxəssis və bacarıqlı təşkilatçı olan R. Azərb.-da əlvan metallurgiyanın inkişafı üçün çox iş görmüş, bu sahədə səriştəli və hazırlıqlı mütəxəssislərin hazırlanmasına böyük əmək sərf etmişdir. Azərb. SSR Ali Sovetinin (9–10-cu çağırış) deputatı seçilmiş, Lenin ordeni, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdur.



Rəhimov Rəhim

**RİZAYEV** Novruz Kərim oğlu (1883, Ordubad ş. – 30.7.1941) – inqilabçı, dövlət xadimi və təsərrüfat rəhbəri. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi orqanlarının fəxri əməkdaşı. 1899 ildən Ordubad ipəksarıma f-kində, Culfa–Təbriz d.-y. tikintisində fəhləlik etmiş, zəhmətkeşlər arasında inqilabi iş aparmışdır. Rusiyada Fevral inqilabından (1917) sonra əvvəl Tiflisdə, sonra isə Bakıda inqilabi fəaliyyət göstərmişdir. Azərb.-da sovet hakimiyyəti elan edildikdən sonra Bakının fabrik-zavod r-n partiya komitəsinin məsul katibi, Bakı Soveti sədrinin müavini (1923–27), Azərb. SSR xalq daxili işlər komissarı, həmçinin Dövlət Siyasi İdarəsinin (indiki MTN) sədri (1927–29) olmuşdur. 1930–37 illərdə RSFSR-in Perm və Sverdlovsk vilayətlərində, Qazaxıstanda rəhbər sovet və təsərrüfat vəzifələrində çalışmışdır. Azərb. KP MK Rəyasət Heyətinin, Azərb. SSR və ZSFSR MİK-lərinin üzvü olmuşdur. Azərb. Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası R.-in adına idi.

Rizayev Kərim



**RİZAYEV** Ramiz Həsənqulu oğlu (d. 2.11. 1939, Naxçıvan ş.) – kimyaçı. Kimya elmləri doktoru (1974), prof. (1977), Azərb. Milli EA-nın akad. (2001; m. üzvü 1983), Azərb.



Rizayev Ramiz

Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini bitirmişdir (1962). Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda elmi və baş elmi işçi (1962–73), laboratoriya müdiri (1973-85) olmuşdur. 1985–93 illərdə Azərb. Milli EA Qeyri-üzvi və Fiziki Kimya İn-tunun direktoru işləmişdir. 1993 ildən Azərb. Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiridir. Əsas tədqiqatları aromatik birləşmələrin oksidləşdirici ammonoliz reaksiyalarının nəzəri və tətbiqi problemlərinin həllinə aiddir. R.-in rəhbərliyi ilə keçmiş SSRİ-də ilk dəfə benzonitrilin, ftalonnitrilin və tereftalonnitrilin texnologiyası hazırlanmış və tətbiq edilmişdir. Bu maddələr əsasında yeni növ plastik kütlələr, sintetik qatranlar, boyalar, stabilizatorlar və s. istehsal edilir. 250-yə yaxın elmi işin müəllifidir. 50 müəlliflik şəhadətnaməsi var. R.-in ixtiralarına ABŞ, Yaponiya, Fransa, İngiltərə, AFR, Belçika və s. ölkələrin 30-dan çox patenti verilmişdir. Əsərləri mötəbər xarici jurnallarda çap olunmuşdur. Rumıniyada (1971), AFR-də (1972), Niderlandda (1976, 1981, 1982), İsveçdə (1978) keçirilən elmi məclislərdə məruzələr etmişdir. Kimya sənayesi sahəsində əməkdaşlıq üzrə keçmiş Sovet-Niderland işçi qrupunun üzvü (1981–1991) olmuş, "AKZO" konserninin (Niderland) Mançester və Amsterdamdakı elmi mərkəzləri, Almaniyanın Leypsiq və Hindistanın Heydərabad Un-tləri ilə birgə tədqiqatlar aparmışdır.

Ə s ə r l ə r i: Кинетика окислительного аммонолиза м-ксилола, "Кинетика и катализ, 1972, №4; (совм. с др.); Окислительный аммонол из ароматических соединений, "Химическая промышленность, 1983, № 11 (совм. с др.)

**RSFSR XKS-nin "TÜRKİYƏ ERMƏNİSTANI HAQQINDA" DEKRETİ** – Osmanlı Türkiyəsinin parçalanmasına yönəlmiş sovet dekretlərindən biri. 1917 il dekabrın 29-da (1918 il yanvarın 11-də) RSFSR XKS-nin sədri V. Lenin və milli işlər komissarı İ. Stalin tərəfindən imzalanmışdır. Dekretdə bildirilirdi ki, RSFSR-in fəhlə və kəndli hökuməti "Türkiyə Ermənistanı"ndakı ermənilərin öz müqəddəratını təyin etməsi hüququnu dəstəkləyir. Dekretdə erməni xalq milisinin təşkili, ermənilərin digər yerlərdən bura köçürülməsi və s. məsələlərin nizama salınmasını nəzərdə tuturdu. Qafqazın fövqəladə komissarı S. Şaumyan dekretdə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsini təmin etməli idi. Əslində, bu dekret digər bir dövlətdə – Osmanlı Türkiyəsi torpaqlarında heç bir beynəlxalq hüquqi normaya sığmayan tərzdə erməni dövləti qurulması planı idi. Sonradan Bakı Sovetində rəhbərliyi ələ keçirmiş S. Şaumyan, A. Əmiryan və b. erməni liderlərinin azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırımı tədbirləri bir daha göstərdi ki, "Türkiyə Ermənistanı" deyilən qondarma quruma gələcəkdə Qərbi və Şərqi Azərb., o cümlədən Naxçıvan torpaqlarının da qatılması niyyəti də var imiş. Təsadüfi deyildi ki, RSFSR hökumətinin bu dekretinə ən yüksək qiyməti də qəddar cani Andronik vermiş və onu Ermənistana münasibətdə ən səmimi və ən iri fakt kimi dəyərləndirmişdi.

**RUMUS** – Ordubad r-nunda kənd. Üstüpü bələdiyyəsinin ərazisində, r-n mərkəzindən 45 *km* şm.-q.-də, dağlıq ərazidədir. Hazırda kənddə yaşayış yoxdur; Oranın torpaq və yaylaqlarından qonşu kəndlərin əhalisi istifadə edir. Yerli əhali arasında U r m u s da adlandırılır.

**RUSİYA–İRAN MÜHARİBƏLƏRİ (19 əsr)** – Cənubi Qafqazda hökmranlıq uğrunda Rusiya ilə İran arasında müharibələr. 18 əsrin 20-ci illərinin əvvəllərində guya əfqanların işğalına məruz qalmış İranda qayda-qanun yaratmaqda şah hökumətinə kömək göstərmək bəhanəsi altında, əslində isə, Cənubi Qafqazın şərqindəki əraziləri ələ keçirmək və Xəzər dənizində ağalıq etmək məqsədilə həyata keçirilmiş I Pyotrun İran yürüşü (1722–23) nəticəsində Dağıstanın və Azərb-ın bir hissəsi Rusiyaya birləşdirilmişdi. Sonralar beynəlxalq vəziyyətin və hər iki dövlətin qüvvələr nisbətinin dəyişməsi ilə əlaqədar 1732–35 illərdə, əsasən, Xəzər dənizinin qərb hissəsini əhatə edən bu ərazilər İrana qaytarılmışdı. Həmin dövrdə Naxçıvan diyarı daha çox Osmanlı Türkiyəsinin hücumlarına məruz qalmış və bir müddət (1723–32) bu dövlətin tərkibinə qatılmışdı. 1747 ildə Nadir şah dövləti süquta uğradıqdan sonra müstəqil *Naxçıvan xanlığı* (1747–97) yaranmışdı. 1795 ildə Ağa Məhəmməd xan Qacar Cənubi Qafqazda möhkəmlənmək məqsədilə bu ərazidə hərbi əməliyyatlar apararkən Rusiya hökuməti buna biganə qalmamış və general V. A. Zubovun komandanlığı altında buraya qoşun göndərmişdi. Naxçıvanda İran hakimiyyəti dövründə (1797–1828) xanlığın ərazisi şahzadə Abbas Mirzənin hakim olduğu Cənubi Azərb. əyalətinə daxil edilmişdi.

1 8 0 4–13 i l l ə r m ü h a r i b ə s i. 1801 ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi, müstəmləkəçi rus qoşunlarının Car-Balakən camaatlığını (1803) və Gəncə xanlığını (1804) tutmaqla Azərb. xanlıqlarına münasibətdə əsl qəsbkarlıq müharibəsinə başlaması Cənubi Qafqazda vəziyyəti yenidən gərginləşdirdi. 1804 ilin mayında İran hökuməti qoşunlarını Cənubi Qafqazdan çıxarmağı Rusiyadan tələb etdi. Rusiya hökumətinin bu tələbi rədd etməsi və işğalçılıq müharibəsini davam etdirməsi 1804 il iyunun 10-da Rusiya ilə İran arasında diplomatik münasibətlərin pozulmasına, Rusiya–İran müharibəsinin başlanmasına səbəb oldu. İran şahzadəsi Abbas Mirzənin 30 minlik qoşununun Sisianovun başçılıq etdiyi rus qoşunu ilə İrəvan yaxınlığında baş vermiş vuruşmada məğlubiyyətə uğraması hərbi şəraiti rus ordusunun xeyrinə dəyişdirdi. Sisianov ilk əvvəl Naxçıvan ş.-ni də tutmaq, sonra isə orada bir polk qoyaraq Gürcüstana qayıtmaq istəyirdi. Lakin burada çoxsaylı İran ordusunun yerləşdiyi barədə məlumat aldığından bu fikrindən dönmüşdü. 1805 ilin iyununda Abbas Mirzənin ordusunun ön hissələrinin Arazı keçərək Şuşaya doğru irəliləməsi də istənilən nəticəni vermədi. İran qoşunu məğlub olaraq geri çəkildi. Bundan bir qədər sonra general Bulqakovun qoşunu Quba xanlığını döyüşsüz işğal etdi. Hərbi və texniki cəhətdən üstün olan rus ordusunun əməliyyat fəallığının artdığı bir şəraitdə çıxılmaz vəziyyətdə qalan Qarabağ, Şəki, Şirvan xanlıqları 1805 ildə Rusiyanın himayəsinə keçməyə məcbur oldular. Lakin elə həmin ildə rus eskadrasının Bakını və Rəşti tutmaq cəhdləri boşa çıxdı. 1806 ilin yanvarında Sisianovun qoşunu Bakı xanlığına hücum etdi. Lakin fevralın 8-də Bakı xanı Hüseynqulu xanla Bakı qalasını təslim etmək haqqında danışıq zamanı xanın əmisi oğlu İbrahim bəy Sisianovu qətlə yetirdiyindən rus qoşunu geri çəkilməyə məcbur oldu. Qafqaza yeni baş komandan təyin olunmuş general İ. V. Qudoviç oktyabrın 3-də Bakını tutdu. Bakı xanlığı Rusiyaya birləşdirildi.

1806 ildə Rusiya–Türkiyə müharibəsi başlandıqda gen. Qudoviç vaxt qazanmaq üçün İranla sülh danışıqlarına başladı. Sentyabrda Eçmiədzini tutan rus qoşunu İrəvanı mühasirəyə alsa da, müvəffəqiyyət qazana bilmədi. 1808 ilin oktyabrında rus qoşunları Naxçıvanı tutmağa nail oldular. Lakin çətin təbii şərait və ac qalmaq təhlükəsi onları tezliklə Naxçıvanı tərk etmək və İrəvanın mühasirəsini dayandırmaq məcburiyyətində qoydu. 1808, 1809, 1810 illərdə Abbas Mirzənin Gəncəni, Qarabağı tutmaq cəhdləri boşa çıxdı.

1811 ildə İran ordusu ingilis mütəxəssislərinin köməyi ilə yenidən təşkil edildi. 1812 ildə Rusiyanın Fransa ilə müharibə apardığı dövrdə onun zəifləməsindən istifadə edən İran ordusu Qarabağa hücum edərək Şahbulağı tutdu. Lakin P. S. Kotlyarevskinin dəstəsi onları Qarabağdan çəkilməyə məcbur etdi. Avqustda İran qoşunu Talış xanlığını və Lənkəran qalasını ələ keçirdi. Oktyabrda P. S. Kotlyarevskinin dəstəsi Araz çayı yaxınlığındakı Aslandüz adlanan yerdə qəfil hücumla Abbas Mirzənin ordusunu darmadağın etdi; 1813 il yanvarın 1-də Lənkəran qalası alındı. Bu məğlubiyyətdən sonra İran hökuməti sülh bağlamağa məcbur oldu. *Gülüstan müqaviləsinə (1813)* görə İran Şimali Azərb. xanlıqlarına, Şərqi Gürcüstana və Dağıstana olan iddialarından əl çəkdi. Bununla belə, müqaviləyə əsasən İrəvan, Naxçıvan və Cənubi Azərb. xanlıqları üzərində İranın hakimiyyəti bərpa olundu. Tarixi Azərb. torpaqlarının ikiyə bölünməsində ən amansız addımlardan biri atılmış oldu.

1 8 2 6 – 2 8 i l l ə r m ü h a r i b ə s i. Gülüstan müqaviləsinin imzalamasına baxmayaraq, İran hökuməti Cənubi Qafqaza iddialarından əl çəkməmişdi. Əvvəllərdə olduğu kimi, İranı Rusiyaya qarşı müharibəyə yenə İngiltərə təhrik etdi. B. Britaniya hökumətinin planlarına görə, Qafqaz İranın əlinə keçməli və İngiltərənin nüfuz dairəsinə daxil edilməli idi. 1826 ilin iyulunda Abbas Mirzənin komandanlığı altında 60 minlik İran ordusu müharibə elan etmədən Arazı keçərək, Şimali Azərb.-a daxil oldu. Qarabağa doğru hərəkət edən əsas qüvvələr Şuşa-


Rüstəm Behrudi

nı mühasirəyə aldı. Mühasirə 48 gün davam etsə də, Abbas Mirzə şəhəri tuta bilmədi. Şah qoşunlarının başqa dəstələri iyunda Lənkəranı, iyulda Salyanı tutdu. 1826 ilin payızında Cənubi Qafqaza əlavə rus qoşunları göndərildi. Baş komandan dəyişdirildi (1816 ilin oktyabrından Baş komandan olan general A. P. Yermolov gen. İ. F. Paskeviçlə əvəz edildi). Şuşanın mühasirəsinin uzanması rus qoşunlarının Şamxor (Şəmkir) vuruşmasında şah qvardiyasını məğlub etməsinə şərait yaratdı. Sentyabrda Gəncə yaxınlığındakı vuruşmada Abbas Mirzənin 35 minlik qoşunu 8 minlik rus qoşununa məğlub oldu. Bundan sonra hərbi üstünlüyü ələ alan rus qoşunları 1827 il iyunun 26-da Naxçıvanı tutdular; iyulun 5-də Araz sahilində "Cavan bulağı" yaxınlığındakı döyüşdə Abbas Mirzənin qoşununu daha bir məğlubiyyətə uğradıb 2000 nəfər əsir, çoxlu qənimət və bayraq ələ keçirdilər. Rus qoşunları qısa müddətli mühasirədən sonra İrəvan, Xoy, Mərənd, Urmiya, Ərdəbil, Təbriz şəhərlərini də tutdular. Beləliklə, ikinci Rusiya-İran müharibəsi İranın tam məğlubiyyəti ilə başa çatdı. *Türkmənçay müqaviləsinə (1828)* əsasən, Naxçıvan və İrəvan xanlıqları Rusiyaya birləşdirildi. R.–İ. m. Cənubi Qafqaz və Dağıstanı sonu görünməyən feodal çəkişmələrindən xilas etsə də, onları çar Rusiyasının ucqar müstəmləkəsinə çevirdi, Azərb.-ın ikiyə bölünməsini qəti olaraq rəsmiləşdirdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 3, B., 1998; Ə l i y e v F., Ə l i y e v U., Naxçıvan xanlığı (1747–1828), B., 1996; И б р а г и м б е й л и Х. М., Россия и Азербайджан в первой трети XIX в., М., 1969; Очерки новой истории Ирана (XIX – нач. XX в), М., 1978.

**RÜSTƏM BEHRUDİ** (Rüstəm Hidayət oğlu A l m ə m m ə d o v u n ədəbi adı; d. 14.9.1957, Ordubad r-nunun Behrud k.) – şair, publisist. Naxçıvan Pedaqoji İn-tunun tarix-ədəbiyyat fakültəsini bitirmiş (1979), Ordubad r-nunun Unus, Kələki k.-lərində müəllimlik etmişdir (1979–84). "Yazıçı" nəşriyyatında poeziya şöbəsinin, "Azərbaycan" qəzetində, "Azərbaycan" jurnalında publisistika şöbəsinin müdiri olmuşdur. "Daha gülə-gülə ağlamaq olmur" publisistik poeması C.Məmmədquluzadəyə, "Qanlı gəlin" məktub-poeması milli azadlıq mübarizəsinə həsr olunmuşdur. Kitablarından seçmələr xarici ölkələrdə də çap edilmişdir.

Ə s ə r i: Mələkdən iblis gözəldir, B., 1997.


Rüstəmov Məmməd

**RÜSTƏMOV** Məmməd İbrahim oğlu (d. 10.5.1930, Ordubad ş.) – maşınqayırma sahəsində alim. Texnika elmləri namizədi (1965), prof. (1992). Azərb. Politexnik İn-tunun (indiki Texniki Un-t) mexanika fakültəsini (1953) və Ukrayna EA Mexanika İn-tunun aspiranturasını (göndərişlə, 1963) bitirmişdir. Zavodda mühəndis-konstruktor, sex rəisi, baş mühəndis və direktor vəzifələrində çalışmışdır (1953–60). 1966 ildən Azərb. Texniki Un-tində işləyir; un-tin metalkəsən dəzgahlar və alətlər kafedrasının müdiri olmuşdur (1981–92). 1992 ildən həmin kafedranın prof.-dur. 100-dən çox elmi məqalənin, dərslik, tədris vəsaiti, metodik göstəriş və ixtiraların müəllifidir.

Rüstəmov Muxtar



**RÜSTƏMOV** Muxtar İbrahim oğlu (d. 19.3.1931, Ordubad ş.) – geoloq. Geologiya-mineralogiya elmləri namizədi (1960). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini (1954) və Azərb. Milli EA Geologiya İn-tunun aspiranturasını (1957) bitirmişdir. Nax. MR-də xüsusi geoloji xəritələrin tərtibi işlərində geoloq və baş geoloq (1955–61), Azərb. EA Geologiya İn-tunda baş elmi işçi (1961–76) işləmişdir. 1976 ildən həmin in-tun Petrologiya laboratoriyasının müdiridir. Petrologiya, paleovulkonogiya, mineralogiya, geokimya, metallogeniya, tektonika və geodinamika sahəsində tədqiqatlar aparmışdır. 150-yə yaxın elmi məqalənin müəllifi, o cümlədən "SSRİ geologiyası"nın Azərb.-a həsr olunmuş 47-ci cildinin, Azərb.-ın 1:500000 miqyaslı tektonik, geoloji və maqnetizm-metamorfizm xəritələrinin müəlliflərindəndir. Nax. MR geologiyasının kompleks öyrənilməsi sahəsindəki tədqiqatları keçmiş SSRİ EA-nın elmi nəticələrindən sayılmışdır. Nax. MR-in təbii sərvətlərindən istifadə sahəsində ixtiraya görə 2 müəlliflik şəhadətnaməsi var. Beynəlxalq elmi məclislərdə (Ankara, 1994; Moskva, 1995; Daşkənd, 1997; Bakı, 1998; İstanbul, 2000 və s.) məruzələr etmişdir. SSRİ EA Petroqrafiya Komitəsinin, onun Qafqaz-Krım-Karpat komitəsi rəyasət heyətinin, Qafqaz Mineral Sərvətləri İn-tu ekspert şurasının üzvü olmuşdur.


Rüstəmov Musa

**RÜSTƏMOV** Musa İsmayıl oğlu (d. 8.5.1930, Ordubad ş.) – kimyaçı-texnoloq. Texnika elimləri doktoru (1968), prof. (1971), Azərb. Milli EA akad. (1989; m. üzvü 1980). Azərb. Respublikası əməkdar elm xadimi (1979), Azərb. Respublikası Dövlət mükafatı laureatı (1982). Azərb. Sənaye İn-tunu (indiki Neft Akademiyası) bitirmişdir (1952). Azərb. Neft Emalı Sənayesi Elmi Tədqiqat İn-tunda (indiki Azərb. Milli EA Y. H. Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tu) müxtəlif vəzifələrdə işləmiş, direktor müavini (1968 ildən) olmuşdur; 1988 ildən in-tun direktorudur. R. Azərb.-da neft emalı və neft kimyası sahəsində elmi məktəbin yaradıcılarındandır. Elmi fəaliyyəti heterogen katalitiz texnologiyasında, neftin emalının rasional sxemlərinin işlənib hazırlanmasında, neft xammalının katalitik emalı üçün yeni texnoloji sistemlərin və katalizatorların yaradılması sahəsində geniş problemlər dairəsini əhatə edir. Onun rəhbərliyi ilə yüksək çıxımla izopentan və avtomobil benzininin yüksəkoktanlı izokomponentinin alınmasına imkan verən hidrokrekinq və destruktiv hidroizmerləşmə proseslərinin orijinal texnologiyası yaradılmış, bir çox şəhərlərdəki [Moskva, Bakı, Kazan, Pavlodar, Burqas (Bolqarıstan) və s.] neft emalı z-larında tətbiq olunmuşdur. Hidrogen energetikaşı sahəsində tədqiqatların əsasını qoymuşdur. Tədqiqatlarının nəticələri 450-dən çox elmi məqalədə, yüzdən çox müəlliflik şəhadətnaməsi və patentdə əksini tapmışdır. Beynəlxalq konqres və simpoziumlarda [Moskva (1968), London (1976), Praqa (1982), Buenes-Ayres (1990), Budapeşt (1991), Kioto (1994), Baltimor, Boston, Ştutqart (1996), San-Diyeqo (1997) və s.] məruzələr etmişdir. Bakı Beynəlxalq neft-kimya konfranslarının (1994, 1996, 1998, 2000) təşkilatçısı olmuşdur. Elmi kadrlar hazırlanmasında xidməti var. Bir sıra beynəlxalq elmi şura və assosiasiyaların üzvüdür. "Neft kimyası və neft emalı prosesləri" jurnalının baş redaktorudur.

Ə s ə r l ə r i: Современное состояние и пути интенсификации процесса каталитического крекинга, Б., 1966 (şərikli); Получения неэтилированного высокооктанового автомобильного бензина на установках каталитического крекинга, "Нефтепереработка и нефтехимия", 1978, №11 (şərikli); О перспективах создания атомно-нефтеперерабатывающих комплексов, "Вопросы атомной науки и техники (серия Атомно-водородная энергетика и технология), в. 2(9), 1981 (şərikli); Исследование валентного и координационного состояния ионов и никеля в цеолитсодержащих катализаторах методом диффузного отражения, "Кинетика и катализ", т. 26, вып. 2, 1985 (şərikli); Концепция развития нефтеперерабатывающей, газоперерабатывающей и нефтехимической промышленности Азербайджана, "Процессы нефтепереработки и нефтехимии", 2000, № 1.


Rüstəmov Yavuz

**RÜSTƏMOV** Yavuz İsmayıl oğlu (d. 9.5.1933, Ordubad) – kimya texnologiyası sahəsində alim. Texnika elmləri doktoru (1984), prof. (1994), Azərb. Milli EA-nın m. üzvü (2001). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) kimya-texnologiya fakültəsini bitirmişdir (1957). Sumqayıt Sintetik Kauçuk Zavodunda növbə rəisi, polimerləşmə sexinin texnoloqu (1957–61), Respublika Xalq Təsərrüfatı Şurasında baş mütəxəssis (1961–63), Sumqayıt Superfosfat Zavodunda baş mühəndis (1963–69) işləmişdir. 1969 ildən Azərb. Milli EA-nın indiki Polimer Materialları İn-tunda polimerlər texnologiyası prosesləri və aparatları laboratoriyasının müdiridir. Elmi fəaliyyəti kimya texnologiyasının nəzəri əsaslarına, çoxfazalı sistemlərdə kinetika, hidrodinamika, istilik və maddələr mübadiləsi proseslərinin yeni metodlarının tədqiqi və tam riyazi modellərinin yaradılmasına yönəldilmişdir. Bir monoqrafiyanın, 100-ə yaxın elmi məqalənin müəllifidir. 20 müəlliflik şəhadətnaməsi və patenti var. Pedaqoji fəaliyyətlə də məşğul olur. Beynəlxalq və keçmiş ittifaq əhəmiyyətli elmi simpozium və konqreslərdə (Minsk, 1982; Leninqrad, 1983; Türkiyə, 1983) məruzələr etmişdir.


Rüstəmova Raziyyə

**RÜSTƏMOVA** Raziyyə Əli qızı (d. 14.7.1936, indiki Şərur r-nunun Qarahəsənli k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1966). 1955–72 illərdə Şərur r-nundakı SSRİ-nin 50 illiyi ad. k-zda kolxozçu, manqa başçısı olmuş, 1972 ildən həmin k-zda üzümçü işləmişdir. 1965 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Hazırda pensiyaçıdır.

Rzayev Həbib



**RZAYEV** Həbib Allahverdi oğlu (26.12.1923, indiki Babək r-nunun Nehrəm k. – 12.8.1997, Bakı) – hüquq-mühafizə orqanı işçisi, ədliyyə gen.-mayoru (1987). Orconikidze (indiki Vladiqafqaz) Səhra komandirləri kursunu (1942), Naxçıvan Müəllimlər İn-tunu (1944), Bakı hüquq məktəbini (1947) və Azərb. Dövlət Un-tini (indiki BDU) hüquq fakültəsini (1954) bitirmişdir. Böyük Vətən müharibəsi-



*Rzayev Ramiz*

nin (1941–45) iştirakçısıdır. Noraşen (indiki Şərur) r-n prokuroru (1961–69), Kürdəmir r-n prokuroru (1970–75), Naxçıvan MR Baş prokuroru (1975–80) vəzifələrində çalışmışdır. Vətən müharibəsi ordeni və medallarla, SSRİ-nin əlaçı hüquqşünası döş nişanı ilə təltif olunmuşdur.

**RZAYEV** Məmməd Hüseyn oğlu (d. 8.5. 1952, Naxçıvan ş.) – fəlsəfəşünas. Fəlsəfə elmləri namizədi (1984). Naxçıvan Dövlət Pedaqoji İn-tunda (indiki Naxçıvan Dövlət Un-ti) müəllim (1974–81) və baş müəllim (1981–97) işləmişdir. 1997 ildən un-tin tərbiyə işləri üzrə prorektorudur. Fəlsəfənin müxtəlif problemlərinə dair 40-dan artıq elmi məqalənin müəllifidir. Almatı (1973), Bişkek (1984), Tehran (2000), Marağa (2001) və s. şəhərlərdə elmi məclislərdə məruzələr etmişdir.

**RZAYEV** Ramiz Yaqub oğlu (d. 25.2.1953, Naxçıvan ş.) – II dərəcəli dövlət ədliyyə müşaviri (2002). ADU-nun (indiki BDU) hüquq fakültəsini bitirmişdir (1977). Bakı ş. Nərimanov r-n prokurorluğunda müstəntiq, Bakı şəhər prokurorluğunda baş müstəntiq, Azərb. Respublikası baş prokuroru yanında xüsusilə mühüm işlər üzrə müstəntiq, Respublika Prokurorluğu xüsusilə mühüm işlər üzrə istintaq şöbəsinin böyük prokuroru, Dəvəçi və Beyləqan r-nlarının prokuroru (1979–95), Azərb. Respublikasının hərbi prokuroru (1995–2000) vəzifələrində çalışmışdır. 2000 ildən Azərb. Respublikası baş prokurorunun birinci müavinidir. Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvüdür.

*Rzayev Tofiq*



**RZAYEV** Tofiq Heydər oğlu (d. 1935, indiki Babək r-nunun Nehrəm k.) – avtomatika sahəsində alim. Texnika elmləri doktoru (1990), prof. (1991). Azərb. Sənaye İn-tutunun neft-mexanika fakültəsini (1957), SSRİ EA Avtomatika İn-tunun aspiranturasını (1964) bitirmişdir. 1964–92 illərdə Sumqayıt Neft Kimyası Elmi-Tədqiqat və Layihə İn-tunda aparıcı mühəndis, laboratoriya və şöbə müdiri işləmiş, 1977–92 illərdə eyni zamanda "İdarə sistemlərinin problemləri" elmi-texniki seminarına rəhbərlik etmişdir. 1992–93 illərdə Azərb. Dövlət Neft Akademiyasının prorektoru, 1993–95 illərdə avtomatik idarəetmə kafedrasının prof. olmuşdur. 1995 ildən Azərb. Texniki Un-tinin avtomatika və idarəetmə kafedrasının prof. və "Avtomatlaşdırma, informatika və optimal idarəetmə" elmi-texniki və metodiki seminarının sədridir. Elmi nəticələri keçmiş ittifaqın müxtəlif regionlarında, o cümlədən Özbəkistan və Azərb.-ın neft kimyası sənayesində, suvarmada avtomatlaşdırılmış idarə sistemlərinin yaradılmasında və istismarında tətbiq edilmişdir. Bir monoqrafiyanın, 140-dan çox elmi məqalənin müəllifidir.

**RZAYEVA**, R z a l ı Səkinə Məmməd qızı (1912, Naxçıvan – 13.12.1991, Bakı) – qabaqcıl maarif işçisi, ictimai xadim. Naxçıvan Pedaqoji Texnikumunu (1931) və Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1937). Əmək fəaliyyətinə Culfa r-nunun Bənənyar k.-ndə müəllimliklə başlamış, pedaqoji fəaliyyətini Naxçıvan ş.-ndə davam etdirmişdir (1931–37). Müəllimlik fəaliyyəti dövründə özünü istedadlı maarif işçisi və fəal ictimaiyyətçi kimi göstərməsi R.-ya muxtar respulikanın pedaqoji kollektivləri arasında böyük nüfuz qazandırdığından rəhbər vəzifəyə irəli çəkilmiş, ibtidai və orta məktəb işçiləri həmkarlar ittifaqları Naxçıvan vilayət komitəsinin sədri (1938–42), sonra isə Nax. MSSR sosial təminat naziri (1942–70) vəzifələrində çalışmışdır. 4 dəfə Nax. MSSR, 2 dəfə Azərb. SSR Ali Sovetinin deputatı seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.



# S

**SAATLILAR** – türk tayfası. Etnonimin 14 əsrin sonunda Çuxursəd vil.-nin hakimi olmuş Əmir Saadın adı ilə bağlı olduğu ehtimal edilir. Əvvəllər Naxçıvan mahalında, Arpaçayın aşağı və Arazın sağ sahilində yaşayan S.-ın xeyli hissəsi 15 əsrin 30-cu illərində qonşu ərazilərə köçmüşdü. S.-ın bir qismi ayrımlara qarışaraq Qazax bölgəsində məskunlaşmışdı. 1795–98 illərdə S.-ın bir hissəsi Qarabağa köçmüşdü. Azərb.-ların etnogenezində iştirak etmişlər. Ehtimal ki, Saatlı ş.-nin, Bərdə r-nundakı Saatlı k.-nin adı S.-la bağlıdır.

**SABİRKƏND** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi.R-n mərkəzindən 23 *km* şm.-q.-də. Ordubad–Naxçıvan avtomobil yolunun sağ kənarında, Arazın sol sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 963 nəfər (2000); bağçılıq, əkinçilik, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**SABİRKƏND NEKROPOLU** – Ordubad r-nunun eyniadlı k.-ndən c.-q.-də son Tunc dövrünə aid arxeoloji abidə. Subatan-Dizə qədim yaşayış yeri ilə yanaşıdır. 1975 ildə qeydə alınmışdır. Dördkünc torpaq tipli qəbir abidələrinin bir çoxu təsərrüfat işləri görülərkən dağılmışdır. Buradan monoxrom boyalı gil qablar, yastı tunc xəncər və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılara əsasən S. n.-nun e. ə. 16–14 əsrlərə aid olduğu ehtimal edilir.



*Sadıqov Fikrət*

**SADIQOV** Fikrət Məmməd oğlu (d. 28.4. 1940, Ordubad ş.) – kimyaçı. Texnika elmləri doktoru (1994), Beynəlxalq Mühəndislik Akademiyasının (1993), Beynəlxalq Şərq Neft Akademiyasının (1994), Beynəlxalq Ekologiya-Energetika Akademiyasının həqiqi üzvü, Azərb. Respublikasının əməkdar mühəndisi (1993). Azərb. Respublikası Dövlət mükafatı laureatı (1980). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini bitirmişdir (1965). Sumqayıtın kimya müəssisələrində aparatçı texnoloq, şöbə rəisi, baş mühəndis, "Kimyasənaye İstehsalat Birliyinin" Baş direktoru (1965–92) vəzifələrində işləmişdir. 1992 ildən "Azərkimya" Dövlət Şirkətinin prezidentidir. S.-un iştirakı və təşəbbüsü ilə respublika kimya sənayesinin inkişafı, yenidən qurulması üçün xarici kapital cəlb olunması, müasir texnologiya əldə edilməsi məqsədilə Türkiyə, İran, İngiltərə, ABŞ və s. dövlətlərin iş adamları ilə konkret planlar tərtib olunmuşdur. 40-dan çox elmi əsərin, 55 ixtira və 100-ə qədər səmərələşdirici təklifin müəllifidir. Pirolizin maye məhlullarının doymamış birləşmələrinin eliqomerləşməsi və benzolun ayrılması, Sumqayıt sənaye r-nunda etilbenzol istehsalının yaradılması işlərinə rəhbərlik edir. Bir sıra beynəlxalq konqres və simpoziumlarda məruzələr etmişdir. Azərb. Respublikası Milli məclisinin (1-ci–2-ci çağırış) deputatıdır.

*Sadıqov Fuad*



**SADIQOV** Fuad Mikayıl oğlu (d.10.4.1950, indiki Şərur r-nunun Qarabağlar k.) – kimyaçı. Kimya elmləri doktoru (1993), prof. (1995). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1973) və Azərb. Milli EA Qeyri-Üzvi və Fiziki Kimya İn-tunun aspiranturasını (1978) bitirmişdir. BDU-nun Qeyri-üzvi materialşünaslıq elmi-tədqiqat laboratoriyasında böyük və aparıcı elmi işçi vəzifələrində işləmişdir (1988–95). 1995 ildən Ümumi və qeyri-üzvi kimya kafedrasının prof.-dur. Elmi fəaliyyəti yarımkeçirici üçlü nadir-torpaq elementləri xalkostibnit və xalkobismutitlər əsasında effektiv termoelektrik materiallar alınmasının fiziki-kimyəvi əsaslarının yaradılmasına həsr olunmuşdur.



Sadıqov İsmayıl



Sadıqov Murtuz



Sadıqov Nurəddin

Sadıqov Rzaqulu



O, ilk dəfə nadir torpaq elementləri və onların birləşmələrini əlavə etməklə yüksək effektli termoelektrik materialların alınması nəticəsində yüksək tempr. intervalında mexaniki möhkəmliyə malik termoelektrik materiallar almışdır. 125-dən çox elmi məqalənin, 4 müəlliflik şəhadətnaməsinin müəllifidir. Beynəlxalq simpoziumlarda [Sovet–Polşa (Vilnüs, 1988), Sovet–Yaponiya (Düşənbə, 1989), Sovet–Almaniya (Kazan, 1991)] məruzələr etmişdir.

Ə s ə r i: Qeyri-ənənəvi kompleks birləşmələr. B., 1999.

**SADIQOV** İsmayıl Rza oğlu (d. 15.7.1941, Naxçıvan ş.) – mexanika sahəsində alim. Texnika elmləri doktoru (1984). Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü (1997; m. üzvü 1994). Azərb. Dövlət Politexnik İn-tunun (indiki Texniki Un-t) mexanika fakültəsini bitirmiş (1962), Kuybışev (indiki Samara) və Moskva ş.-lərində aspiranturada təhsil almışdır (1965–68). Texniki Un-tdə baş müəllim, dosent, kafedra müdiri işləmişdir (1962–83). 1983 ildə Azərb. SSR Nazirlər Sovetinin şöbə müdiri təyin edilmişdir. Hazırda Azərb. Respublikası Nazirlər Kabinetinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiridir. Deformasiya olunan bərk cisimlər mexanikasının qeyri-xətti məsələləri sahəsində tədqiqatlar aparmışdır. Tavanlar və digər fəza konstruksiyalarına dair Beynəlxalq Assosiasiyanın (İASS) keçmiş SSRİ üzrə Milli Komitəsinin üzvü seçilmişdi (1986).

**SADIQOV** (S a d ı q l ı) Murtuz Zeynal oğlu (21.3.1929, Ordubad r-nunun Nüsnüs k. – 24.4.1997, Bakı) – ədəbiyyatşünas. Filologiya elmləri doktoru (1971), prof. (1973), Azərb. Respublikasının əməkdar elm xadimi (1989), "Qızıl qələm" mükafatı laureatı (1994). 1937 ildə repressiyaya məruz qalan ailəsi ilə Qazaxıstana sürgün olunmuş, burada orta təhsil almışdır. Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1951) və aspiranturasını (1960) bitirmişdir. Naxçıvan, Şəki müəllimlər in-tlarında, Gəncə Dövlət Pedaqoji İn-tunda dərs demiş (1951–57), M.F.Axundov ad. Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tutunda (indiki Slavyan Un-ti) baş müəllim, dosent olmuşdur. Həmin in-tun klassik rus ədəbiyyatı kafedrasının müdiri (1972 ildən), Azərb. Yazıçılar Birliyinin üzvü (1980 ildən), repressiya qurbanları "Vicdan" komissiyasının təsisçisi və sədri (1989 ildən) idi. Azərb.–rus və polyak ədəbi əlaqələrinə dair tədqiqatların, o cümlədən 7 monoqrafiyanın ["Dekabrist yazıçılar və Azərbaycan" (1967), "Rus yazıçıları Azərbaycan haqqında" (1970), "Azərbaycan rus ədəbiyyatında" (1989) kitabları və s.], 200-ə yaxın məqalənin müəllifidir. Moskva, Varşava, Paris və s. şəhərlərdə keçirilən elmi məclislərdə məruzələr etmişdir. 20 əsrdə azərb.-ların soyqırımından bəhs edən "Tarix cavab verəcək" (1995) adlı publisistik toplunun tərtibçisi və müəlliflərindəndir. Bədii yaradıcılıqla da məşğul olurdu. "Qan yaddaşı" sənədli-publisistik povestində repressiyaya məruz qalmış soydaşlarımızın məşəqqətli taleyi təsvir olunur.

Ə s ə r l ə r i: M. F. Axundov B., 1987 (7 dildə); Очерки русско-азербайджанско-польских литературных связей, Б., 1975; М.Ф. Ахундов и русская литература. Б., 1986.

**SADIQOV** Nurəddin Sadıq oğlu (d.5.12.1935, Ordubad r-nunun Behrud k.) – hərbi xadim, gen.-mayor (1992), hərbi elmlər namizədi (1983). Lvov hərbi məktəbini (1959), M.V.Frunze ad. Hərbi Akademiyanı (Moskva) bitirmişdir (qızıl medalla). 1975 ilin sentyabrından Zaqafqaziya Hərbi Dairəsinin 4-cü ümumqoşun ordusunun kəşfiyyat rəisi, 1979 ildən M.V.Frunze ad. Hərbi Akademiyada müəllim işləmişdir. 1991 il noyabrın 12-də SSRİ Silahlı Qüvvələrindən ehtiyata buraxılmışdır. 1992–93 illərdə Azərb. Respublikası Müdafiə Nazirliyində baş müşavir, kadrlar idarəsinin rəisi, Baş qərargah rəisinin müavini və rəisi vəzifələrində çalışmışdır. 1993 ilin noyabrından 1999 ilin martınadək Azərb. Respublikası Prezidentinin hərbi işlər üzrə müşaviri olmuşdur. Hazırda istefadadır. S.-un rəhbərliyi və şərikli müəllifliyi ilə hərbi akademiyalar üçün 5 dərslik, 22 məxfi dərs vəsaiti yazılmışdır. Orden və medallarla təltif edilmişdir.

**SADIQOV** Rzaqulu Zeynal oğlu (d. 15.10.1944, Qazaxıstan, Taldı-Kurqan vil.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1989). Ailəsi 1937 ildə repressiyaya məruz qalaraq Ordubaddan Qazaxıstana sürgün olunmuşdu. Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU)



(1969), Azərb. Milli EA Fizika İn-tunun aspiranturasını (1974) bitirmişdir. 1990 ildən həmin in-tun aparıcı elmi işçisidir. Tədqiqatları mürəkkəb yarımkeçiricilərin aşağı temperaturlarda maqnit xassələrinin, onlarda müşahidə olunan faza keçidlərinin öyrənilməsinə həsr edilmişdir. Elmi işlərinin nəticələri Rusiya, Almaniya və Türkiyədə dərc olunmuşdur. Beynəlxalq elmi konfrans və simpoziumlarda (Kiyev, 1974; Minsk, 1976; Bordo, Fransa, 1996; İstanbul, 1997) məruzələr etmişdir. "Soros fondu" mükafatına layiq görülmüşdür (1993).

**SADIQOV** Şükür Əli oğlu (15.4.1924, indiki Şərur r-nunun Qarabağlar k. – 26.1.1994, Bakı) – tarixçi. Tarix elmləri doktoru (1967), prof. (1968), "SSRİ maarif əlaçısı". Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) tarix fakültəsini (1947) və aspiranturasını (1950) bitirmiş, 1948 ildən orada müəllim işləmişdir. Tarix fakültəsinin (1953–55), tarix–filologiya fakültəsinin (1961–65) dekanı olmuşdur. 1970–90 illərdə tədris işləri üzrə prorektor, eyni zamanda SSRİ tarixi kafedrasının (1970–88), Türk və Şərqi Avropa xalqlarının tarixi kafedrasının (1988 ildən) müdiri vəzifələrində çalışmışdır. Cənubi Qafqaz respublikalarının əməkdaşlığı və əlaqələri mövzusunda tədqiqatlar aparmışdır.

**SADIQZADƏ** Sadıq İsmayıl oğlu (29.12.1917, Ordubad ş. – 3.11.1988, Bakı) – kimyaçı. Kimya elmləri doktoru (1962), prof. (1965). 1937 ildə Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsinə qəbul olunmuş, 1939–46 illərdə Hərbi Dəniz Donanmasında xidmət etmişdir. BDU-nu (1949), Azərb. Milli EA Kimya İn-tunun aspiranturasını (1952) bitirmişdir. Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda (NKPİ) polimerlər kimyası şöbəsinin və sintetik kauçuk kimyası laboratoriyasının (1959–65), NKPİ-nin Sumqayıt filialında epoksid birləşmələri kimyası laboratoriyasının rəhbəri olmuş, həmin filialın direktoru işləmişdir. S. pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərb. Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsində çalışmışdır (1964–70). 1973–75 illərdə Azərb. Texniki Un-tində, 1976–88 illərdə indiki Azərb. Memarlıq və İnşaat Un-tində ümumi kimya kafedralarına rəhbərlik etmişdir. S.-nin elementüzvi, YMB, üzvi kimya və neft-



Sağarsu dərəsi

kimya sintezi sahəsində tədqiqatları 5 monoqrafiya və dərslikdə, 450-dən artıq elmi məqalədə, 70 müəlliflik şəhadətnaməsində əksini tapmışdır. Beynəlxalq konfrans və simpoziumlarda (Yaponiya, AFR, Macarıstan) məruzələr etmişdir.

**SAĞARSU,** S a k k a r s u – Ordubad r-nu ərazisində çay. Gilançayın (Arazın qolu) sol qolu. Zəngəzur silsiləsinin ətəyindən, 3065 *m*. hünd.-də yerləşən Göygöldən başlanır. Uz. 10 *km*, hövzəsinin sah. 21 $km^2$-dir. Əsasən, yeraltı sular (36%) və qar suları (50%) ilə qidalanır. Göygöl çayı da adlanır.

**SAİR MƏVAZİ NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, bu dövrdə S.M.n. 16 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 12 kəndində müsəlmanlar (azərb.-lılar), 1 kəndində xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 152342 ağça idi ki, bu da Naxçıvan sancağının illik gəlirinin 5,8% -ni təşkil edirdi.

*Əd.*: Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**SALAHLILAR** – əsasən Naxçıvanda, Qərbi və Cənubi Azərb.-da məskunlaşmış kəngərlilər (bax *Kəngərlər*) tayfasının bir qolu. Bir qismi indiki Qazax bölgəsində məskunlaşan S. qazax tayfa birliyinə daxil olmuşdur. Tayfa başçısı vəkil adlanırdı. Sonralar S.-ın bir hissəsi cəmilli, qaradəmirçi, boyəhmədli, qazaxrəhimli və b. tayfalarla birlikdə Qarabağa köçmüşdür. Qazax r-nundakı Yuxarı Salahlı, Daş Salahlı, Orta Salahlı, Aşağı Salahlı, Ağ-



Sadıqov Şükür

Sadıqzadə Sadıq





Salayev Eldar

dam r-nundakı Salahlı Kəngərli, Xanlar, Ağdaş r-nlarındakı Salahlı kəndlərinin adı S.-la əlaqədardır. Naxçıvan bölgəsində yaşayan kəngərlilərin 28 qolundan biri də S. olmuşdur. 1831 ildə İrəvan qubernatorluğunda katib işləmiş Zolotnitskinin Naxçıvan mahalı haqqında tərtib etdiyi məlumatda Nəhəcir, Sirab, Külüs, Şahbuz, Mahmudabad və s. yaşayış yerlərində Salahlı tayfası nümayəndələrinin yaşadığı qeyd edilmişdir.

**SALAXANA**, S a l l a x a n a, S a l a x a n – Babək r-nunun dağlıq sahəsində, Qazan yaylağının q. ətəklərində dərə, bulaq, yurd, qaya və mağara. S. ilə bağlı toponimlər xalq arasında S a l a x a n adlandırılır. S. dərəsi və ətrafı mürəkkəb tektonik quruluşa və relyefə malikdir. 4 *km*-ə qədər uzanan kanyonvarı, çətin keçilən struktur terraslı S. dərəsi və onu əhatə edən bölgə, əsasən, sahəvi, pelitomorf, nazik təbəqəli və gilli-qumlu əhəngdaşılardan, gildən və konqlomeratlardan ibarətdir. Ərazisi zəngin subalp bitkiləri ilə örtülmüşdür. Yemişan, itburnu, qaraca (gərməşov), alça, armud, ardıc və s. bitir. Dərənin sol sahili uca, sıldırımlı, sanki sallarla hörülmüş divarı xatırladan 25–30 *m* hündürlükdə dik qayalıqdır. Vahimə doğuran dərənin sonunda, sağ sahildə, qayaların arasında iki mağara var. Dərənin dibindən bir neçə *m* hündürlükdəki böyük mağarada min başdan artıq davar saxlanıla bilər. Mağaraya ancaq dağ yamacından daxil olmaq mümkündür. Birincidən kiçik olan alçaqdakı mağaranın giriş hissəsini aşınma materialları qismən doldurmuşdur. Bəzi tədqiqatçılar (O. Ş. Kökyay, F. Zeynalov, S. Əlizadə) S. toponiminin ərəbcə "salx", " sallax" (soymaq, dəri soyan) və farsca xana sözlərindən ibarət olub "dəri soyulan yer" mənasını bildirməsi, bəziləri (S. Babayev) isə xalis azərb.-ca "sal" və "axan" söz birləşməsindən yaranması ehtimalını irəli sürmüşlər. "Kitabi-Dədə Qorqud"da təkcə qoyunları deyil, adamları da yeyən təpəgözün (kəlləgözün) olduğu yer kimi bir neçə dəfə adı çəkilən "Salaxan qayası" ilə əlaqədar birinci ehtimal inandırıcı görünür.

*Əd.*: B a b a y e v S., Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası, c. 2, B., 2000.

**SALAMMƏLİK TRAVERTİN YATAĞI** – Ordubad r-nu ərazisində, Ordubad ş.-ndən 15 *km* c.-ş.-də, Salamməlik d.y. st.-ndan 1 *km* şm.-dadır. Geoloji quruluşunda Dördüncü dövr yaşlı sarımtıl-boz rəngli travertin iştirak edir. Yatağın üst hissəsi (2 *m*-ə qədər) məsaməli, zəif bərkimiş, nazik laylı, alt hissəsi isə möhkəm bərkimiş travertindən ibarətdir. Sah. 1,6 *ha*, faydalı qatın qalınlığı 5 *m*-dir. Yataq əhəng istehsalı üçün öyrənilib; sənaye ehtiyatı 143 min *t*-dur.

**SALAYÇILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli qol və tirələrin içərisində salayçı nəslinin də adı çəkilir.

**SALAYEV** Eldar Yunis oğlu (d.31.12.1933, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1975), prof. (1979). Azərb. Milli EA akad. (1983; m. üzvü 1980). Azərb. Respublikası əməkdar elm xadimi (1990). Respublika Dövlət mükafatı (1972), N. Nərimanov, H. Z. Tağıyev, S. İ. Vavilov, Avropa Türk-İslam Cəmiyyəti mükafatları laureatı. Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1956).

Salaxana. Qayada təbii mağara.



Salaxana dərəsi.





Azərb. Milli EA Fizika İn-tunda elmi işlər üzrə direktor müavini (1970–73), Fotoelektronika İn-tunun direktoru (1973-98), eyni zamanda Azərb. Milli EA-nın prezidenti (1983-97) olmuşdur. 1998 ildən Fotoelektronika İn-tu optoelektronika şöbəsinin müdiridir. Bərk cisim fizikası, kvant elektronikası, qeyri-xətti optika sahəsində tanınmış alim olan S.-in əsas işləri yarımkeçiricilərin tədqiqinə, mürəkkəb yarımkeçiricilərin müxtəlif hallarının enerji spektrlərinin öyrənilməsinə aiddir. S. sürətli elektronlar dəstəsi vasitəsi ilə ilk dəfə laylı kristallarda induksiyalanmış şüalanmanı aşkara çıxarmış və bu sinif yarımkeçiricilərdə qeyri-xətti optik xassələri öyrənmişdir. Həmin tədqiqatlar lazer şüaları çeviricilərinin yaranmasına imkan vermişdir. S.-in rəhbərliyi ilə yarımkeçiricilər əsasında deflektor, deşifrator, fotoqəbuledicilər, elektron mikrosoyuducuları, meteoroloji tədqiqatlar üçün qurğular yaradılmışdır. Xüsusi təyinatlı, analoqu olmayan optoelektron sistem və cihazların istiqamətinin yaradıcısıdır. Bu sistem və cihazlar, kosmik aparatlar hərbi sənayedə və digər sahələrdə geniş tətbiq olunmuşdur. 4 monoqrafiyanın, dünyanın mötəbər jurnallarında dərc olunmuş 250-dən artıq elmi məqalənin, 100-ə qədər ixtiranın müəllifidir. Bir sıra beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. Elmi kadrlar hazırlanmasında xidməti var. İslam EA-nın (1993), Şərq Beynəlxalq Neft Akademiyasının (1993), İngiltərə sualtı texnologiya elmi cəmiyyətinin (1996) həqiqi üzvüdür. Elm və texnika sahəsində Azərb. Dövlət Mükafatları Komitəsinin sədri (1984–97), SSRİ Ali Sovetinin (11-ci çağırış) deputatı, SSRİ xalq deputatı, Azərb. Milli Məclisinin (1-ci çağırış) deputatı olmuşdur. Orden və medallarla təltif edilmişdir.

Ə s ə r l ə r i: Взаимодейсвие лазерного излучения с полупроводниками типа АIII БVI. Б., 1979 (совм. с др.); Свободные и связанные экситоны в монокристалле $TlInS_2$. Письма в ЖЭТФ, 1983, т.38, № 11 (совм. с др.); Phase-matched second harmonic generation at 789,5 nm in GaSe crystals. Appl. Phys. Lett 1996, № 69 (6) (başqaları ilə birgə); Second-harmonic generation in GaSe crystals investiqated with the Maker fringe technigue. Ortics Communications 1997, № 143 (başqaları ilə birgə)



Salehov Akif

**SALEHOV** Akif Əyyub oğlu (d.2.1.1951, Ordubad r-nunun Üstüpü k.) – həkim. Tibb elmləri doktoru (1991). Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) tibbi profilaktika fakültəsini (1974), Azərb. Respublikası Səhiyyə Nazirliyi Tibbi Parazitologiya və Tropik Təbabət İn-tunun aspiranturasını (1981) bitirmiş, həmin in-tda elmi işçi, baş elmi işçi və şöbə müdiri işləmişdir (1974–95; 1984–90 illərdə SSRİ Səhiyyə Nazirliyinin Tibbi Parazitologiya və Tropik Təbabət İn-tunun doktoranturasında oxumuşdur). 1996 ildən Müstəqil Azərbaycan Un-tinin rektorudur. Enterebioz əleyhinə tədbirlərin işlənməsi və təkmilləşdirilməsinin epidemioloji əsaslarına, heyvanlarda exinokokkoz xəstəliyinin diaqnostika və profilaktikasına, onun sosial-iqtisadi ziyanının azaldılması tədbirləri sisteminin elmi əsaslarına dair tədqiqatların, 70-dən çox elmi məqalənin müəllifidir.

**SALİK ORDUBADİ** – şair. Bax *Məmmədqulu Salik*.

**SALLAQXANA MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə sənət və peşə ilə bağlı məhəllə. Ərəbcə "sallaq" (qəssab) və farsca "xana" (ev) sözləri əsasında yaranmışdır. Şəhərdə arabaçı, faytonçu işləyənlərin, qəssablıqla məşğul olanların əksəriyyəti bu məhəllədə yaşayırdı. Hazırda məhəllə adı kimi unudulmuşdur.

**SALMANOV** Arif Hənifə oğlu (d. 5.12.1942, Naxçıvan ş.) – coğrafiyaşünas. Coğrafiya elmləri doktoru (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) geologiya-coğrafiya fakültəsini (1966) və Azərb. Milli EA Coğrafiya İn-tunun aspiranturasını (1972) bitirmişdir. Azərb. EA Coğrafiya İn-tunda baş elmi işçi, iqtisadi coğrafiya bölməsinin, iqtisadi və sosial coğrafiya şöbəsinin müdiri işləmişdir (1973–2000). Tədqiqatları məhsuldar qüvvələrin ərazi üzrə təşkili, rekreasiya coğrafiyası və siyasi coğrafiya sahəsinə aiddir. 1 monoqrafiyanın, 75-dən artıq elmi məqalənin müəllifidir. "Naxçıvanın xalq təsərrüfatı kompleksi" (1987, rus dilində), "Naxçıvanın mineral-xammal ehtiyatları" (1999, rus və ingilis dillərində) və s. əsərləri çap olunmuşdur. Pedaqoji fəaliyyətlə də məşğuldur (1973 ildən).

Salmanov Arif



**SALTAX** – Culfa r-nunda eyniadlı kəndin ş.-ndə, Əlincəçayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. 1991 ildə kəşfiyyat xarakterli

tədqiqatlar aparılmışdır. Sah. 56.000 $m^2$. Yaşayış yeri hazırda su arxı vasitəsilə 2 yerə bölünüb; şm.-ş.-ndə tikinti qalıqları aydın izlənilir. Yerüstü materiallar, əsasən, çəhrayı rəngli gil qab qırıqlarından ibarətdir. Qazıntı zamanı uçub tökülmüş daş yığınları, bişmiş kərpic sınıqları, 1 *m* uzunluğunda saxlanmış divar (yonulmuş daşlardan əhəng qatılmış kəc məhlulu ilə tikilmişdir) qalığı aşkar olunmuşdur. S. yaşayış yerinin 10–16 əsrlərə aid olması ehtimal edilir.

*Əd.:* Novruzlu Ə. İ., Baxşəliyeva V. B., Culfa bölgəsinin arxeoloji abidələri, B., 1993.

**SALTAX** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d. y. st.-ndan 30 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 1452 nəfər (2000); üzümçülük, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, iki kitabxana, kinoqurğu, klub, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi var. Kəndin şm.-ş.-ndə orta əsrlərə aid *Yeyeə* abidəsi aşkar olunmuşdur.

**SALTAX KÖRPÜSÜ** – Culfa r-nu ərazisində, Saltax k.-nin ş.-ndə, Əlincəçay üzərindədir. Uz. 60 *m*. S. k.-nün əsaslı surətdə bərpası və yenidən qurulması (1998) nəticəsində Saltax, Kırna, Kal, Şurud k.-lərinin r-n mərkəzi ilə əlaqələri təmin edilmişdir.

**SALTAX NEKROPOLU I** – Culfa r-nunda Saltax yaşayış yerinin q.-ndə, Əlincəçayın sol sahilində, hündür təpə üzərində orta əsrlərə aid arxeoloji abidə. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qəbir abidələrinin bir çoxu əkin işləri zamanı dağılmışdır. Arxeoloji mədəniyyət izləri S. n.-nun 14–16 əsrlərə aid olduğunu göstərir.

**SALTAX NEKROPOLU II** – Culfa r-nunda Saltax k.-nin şm.-q.-ində, Əlincəçayın sağ sahilində orta əsrlərə aid arxeoloji abidə. Hər tərəfdən dağlarla əhatə olunmuş dərədə yerləşir. Qəbiristanlığın bir hissəsi tamamilə dağılmış, digər hissəsi hazırda yerli əhali tərəfindən istifadə olunur. Mərkəzində daşdan tikilmiş sərdabə (bax *Saltax sərdabəsi*) xüsusilə diqqəti cəlb edir. Nekropolun 14–16 əsrlərə aid olması ehtimal edilir.



Saltax kənd orta məktəbi. 1999.

**SALTAX SƏRDABƏSİ** – Culfa r-nunda eyniadlı k.-in şm.-q.-dəki nekropolda (bax *Saltax nekropolu II*) 14–16 əsrlərə aid abidə. Qəbiristanlığın mərkəzində kiçik daşlardan əhəng məhlulu qatılmış kəclə tikilmişdir. Tavanı tacvarı formada tamamlanmışdır; girişi xaricə doğru çıxıntılıdır. Qapının tikintisində bişmiş kərpicdən (23x23x5 *sm*; 20x10x5 *sm*) də istifadə olunmuşdur (çox güman ki, bu kərpiclər onun sonrakı bərpası ilə əlaqədardır). Sərdabənin daxili divarları kəclə suvanmışdır; bəzi yerlərdə uçub tökülmüşdür. İçərisində taxta tabut və insan skeletinin qalıqları aşkar olunmuşdur.

**SALVARTI,** S a l v a r d ı – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 62 *km* məsafədə ona tökülür. Uz. 10 *km*, hövzəsinin sah. 19 $km^2$-dir. Yayda yağan leysan yağışları daşqınlar əmələ gətirir. Çayda baş verən sel hadisələri yaşayış məntəqələrinə, yollara və əkin sahələrinə böyük ziyan vurur. Suvarmada istifadə edilir.

**SALVARTI,** S a l v a r d ı – Şahbuz r-nu ərazisində göl. Salvartı d.-nın yamacında, 2849 *m* hünd.-dədir. Sah. 3,2 *ha*, uz. 280 *m*, ən geniş yerdə eni təqr. 200 *m*-dir. Müxtəlif mənbələrdən qidalanır. Göldən Salvartı çayı başlanır.

**SALVARTI,** S a l v a r d ı –Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsində sönmüş vulkan konusudur. Hünd. 3160 *m*. Alt Pliosenin lava və vulkanogen-qırıntı materiallarından təşkil olunmuşdur. Subalp və alp çəmənlikləri var.

**SALVARTI OPALSAXLAYAN SÜXUR YATAĞI** – Şahbuz r-nu ərazisində, Naxçıvan ş.-ndən 55 *km* şm.-da, Gömür k.-ndən 8 *km* ş.-dədir. Geoloji quruluşunda Eosenin andezit-bazalt, andezit və onların vulkanogen tuf və brekçiyalarının örtükləri iştirak edir. Opalsaxlayan süxurlar Salvartı-Qanlıgöl dərinlik qırılması boyunca, Salvartı d.-nın ətəyində və suayırıcı hissəsində 350 *m* məsafədə izlənilir. Opalsaxlayan süxurlar sarımtıl-ağ, yaşılımtıl-boz və ağ rəngli şüşə parıltısı verən, bəzi sahələrdə kaolinləşmiş və dəmirləşmiş süxurlardan təşkil olunmuşdur. Laboratoriya-texnoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, tərkibindəki dəmirin miqdarına görə opalsaxlayan süxurlar tünd-yaşıl rəngli butulka istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 1452 min *t*-dur.



**SAN-STEFANO SÜLH MÜQAVİLƏSİ (1878)** – Rusiya–Türkiyə müharibəsini (1877–78) başa çatdırmış ilkin müqavilə. Fevralın 19-da (martın 3-də) İstanbul yaxınlığındakı San-Stefano (indiki Yaşılköy) ş.-ndə imzalanmışdır. Müqaviləyə görə Çernoqoriya, Serbiya və Rumıniya müstəqil dövlətlər elan edildilər. Osmanlı imperiyası daxilində Bosniya və Herseqovinaya muxtariyyət verildi. Bolqarıstan Türkiyədən vassal asılılığında dövlət elan olundu. Batum, Ərdəhan, Qars, Bayazid və Cənubi Bessarabiya Rusiyanın tabeliyinə keçdi. Türkiyə Epirə, Fessaliya və Albaniyaya daxili özünüidarə hüququ verməyi, Türkiyənin ş.-ində ermənilər yaşayan ərazilərdə islahatlar keçirməyi və s. öhdəsinə götürdü. Müqavilə Cənubi Qafqazda yeni bir münaqişə ocağının meydana gəlməsinin başlanğıcını qoydu. Türkiyənin heç bir vilayətində əhalinin əksəriyyətini təşkil etməyən ermənilərə muxtariyyət vədləri verilməsi onların arasında terrorçuluq, separatçılıq meyllərinin güclənməsində, "erməni məsələsi"nin sonralar beynəlxalq səviyyələrdə müzakirə obyektinə çevrilməsinə, dənizdən-dənizə "Böyük Ermənistan" xülyaları əsasında xəritələr cızılmasına, Azərb.-a və Türkiyəyə, xüsusilə keçmiş İrəvan və Naxçıvan xanlıqları ərazilərinə əsassız iddialar irəli sürülməsinə və s. səbəb oldu. Sonralar Avropa dövlətləri və Rusiyanın imzaladığı Berlin konqresi (1878) traktatı və Rusiya ilə Türkiyə arasında imzalanmış İstanbul müqaviləsi (1879) S.-S. s. m.-nin şərtlərində dəyişikliklər etmiş və onda dəqiqləşdirmələr aparmışdısa da, bunlar erməni terrorizminin və separatçılığının təşkilatlanmasını aradan qaldırmamışdı.

**SARACLIDAĞ** – Şərur r-nu ərazisində dağ. "Qurd qapısı" keçidindən 1,2 *km* c.-q.-dədir. Hünd. 1045 *m*. Günbəzvarı formadadır.

**SARIBULAQ** – Şərur r-nunun ən hündür dağları arasında, geniş bir düzənlikdə orta əsrlərə aid yaşayış yeri. Kəşfiyyat qazıntıları nəticəsində eni 80 *sm* olan (2x2 *m* ölçüdə) daşdan inşa edilmiş divar qalığı aşkar olunmuşdur. Ərazidən dörd ədəd təndir qalığı, bir neçə küp, səhəng tipli qab sınıqları və şirli qabın oturacaq hissəsi tapılmışdır. S. yaşayış yerinin 9–18 əsrlərə aid olması ehtimal edilir.

**SARIBULAQ NEKROPOLU I** – Şərur r-nunda, Sarıbulaq yurd yerindən 1 *km* ş.-də, hündür təpə üzərində antik dövrə aid arxeoloji abidə. Arxeoloji qazıntı işləri aparılmamışdır. Sel suları nəticəsində dağılmış nekropol torpaq və daş qutu qəbirlərdən ibarətdir. Qəbirlərdən xeyli maddi mədəniyyət nümunələri, xüsusilə saxsı qab qırıqları əldə olunmuşdur. Nekropolun e. ə. 2 – eramızın 3-cü əsrlərinə aid olması ehtimal edilir.

**SARIBULAQ NEKROPOLU II** – Şərur r-nunda, Sarıbulaq yurd yeri yaxınlığında antik dövrə aid arxeoloji abidə. Sel suları nəticəsində dağılmış torpaq və daş qutu qəbirlərdən saxsı qab qırıqları toplanmışdır. Bu nekropoldan 2 *km* şm.-ş.-dəki Keçəltəpə üzərindəki digər nekropolda torpaq qəbirləri (bəziləri dağılmışdır) aşkar olunmuş və erkən orta əsrlər üçün səciyyəvi olan saxsı məmulatı əldə edilmişdir.

**SARIBULAQ OBA YERİ** – Şərur r-nu ərazisində orta əsrlərə aid arxeoloji abidə. Kəşfiyyat qazıntıları nəticəsində ev və küz xarabalıqları, nisbətən yaxşı qorunub saxlanmış 6 ədəd təndir qalığı, saxsı qab (xüsusilə nehrə) qırıqları və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. 9–19 əsrlərə aid edilən oba yerinin yay mövsümündə Şərurun maldar tayfalarının və Arazboyu əhalinin istirahət və yaylaq yeri olduğu ehtimal edilir.

**SARIBULAQ YURD YERİ** – Şərur r-nu ərazisində eyniadlı oba yerindən təqr. 5 *km* c.-da orta əsrlərə aid arxeoloji abidə. Kəşfiyyat qazıntıları nəticəsində divar qalığı aşkara çıxarılmışdır. Ərazidən bir neçə təndir qalığı, saxsı qablar və digər maddi mədəniyyət nümunələri də tapılmışdır. Əldə olunmuş materiallara əsasən, yurd yerinin 9–18 əsrlərə aid olması ehtimal edilir.

**SARIDAĞ** – Babək r-nu ərazisində dağ. Vayxır k.-ndən 4 km c.-ş.-dədir. Hünd. 1725 *m*.

**SARIDAĞ** – Culfa r-nu ərazisində dağ. Əlincəçayın aşağı axınında, onun dərəsinin sağ yamacında, Qızılca k.-ndən 3,5 *km* c.-ş.-dədir. Hünd. 1181 *m*. C.-q. yamacı sıldırımdır.

**SARIDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Sarınındibi çayının mənbə hissəsindədir. Hünd. 1987 *m*.

**SARIDAĞ** – Şərur r-nu ərazisində dağ. Dəmirçi k.-ndən 2 *km* şm.-ş.-dədir. Hünd. 1084 *m*.

**SARIDƏRƏ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Azərməscidi və Ayçonqal aşırımlarının arasındadır. Hünd. 3754 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır. Vənənd çayı S.-ın c.-q. yamacından başlanır.

**SARIDƏRƏ** – Şahbuz r-nunda Aşağı Remeşin k. yaxınlığında, Küküçayın sağ sahilində, hündür təpə üzərində Tunc dövrünə aid yaşayış yeri. Hər tərəfdən dərin dərələrlə sərhədlənir. Abidə oval planda olub iki terrasdan ibarətdir. Sah. 1500 $m^2$. Burada tikinti qalıqlarına təsadüf edilmişdir. Yerüstü materiallar çəhrayı və boz rəngli gil məmulatından (küpə, kasa, qapaq qırıqları) və s. ibarətdir. Təpənin yamacında boz və qara rəngli tufdan hazırlanmış dən daşlarına təsadüf edilmişdr. Tapıntıların təhlili və analizi S. yaşayış yerinin e. ə. 3–1-ci minilliklərə aid olmasını göstərir.




*Sarıdərə nekropolu tapıntıları:*
*1–3. Cızma naxışlı gil küpələr. 4, 5. Qədəh tipli gil qablar. 6, 7, 9. Kasa tipli qablar. 8, 10–15, 17, 18, 20. Tunc bəzək nümunələri. 16, 19. Sümük asma. 21, 22. Ox ucluqları. E. ə. 3–1-ci minilliklər.*

**SARIDƏRƏ NEKROPOLU I** – Şahbuz r-nun Aşağı Remeşin k. yaxınlığında, Sarıdərə adlı yerdə Tunc dövrünə aid arxeoloji abidə. Bir-birinin yaxınlığında, müəyyən xüsusiyyətləri ilə fərqlənən üç qəbirdən ibarətdir. Qəbirlər tamamilə dağıldığından onların əlamətlərini izləmək xeyli çətinləşmişdir; çox güman ki, torpaq qəbirlərdən ibarət idi. Qum qatışıqlı gildən hazırlanmış və çəhrayı rəngdə bişirilmiş bir neçə ədəd kasa (xarici səthi yaxşı hamarlanmışdır) və s. maddi mədəniyyət nümunələri toplanmışdır. Tapıntılara əsasən, S. n.-nun e. ə. 2-ci minilliyə aid olduğu ehtimal edilir.

**SARIDƏRƏ NEKROPOLU II** – Şahbuz r-nunda, Küküçayın sağ sahilində, dağ silsiləsinin çaya enən yamacında arxeoloji abidə. Ərazi uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən dağıntıya məruz qalmışdır. Nekropoldakı oval təpələrdən (hünd. 1,5 *m*) ibarət kurqanların dördü salamat qalmışdır. Tədqiqat zamanı (1987) kurqanlardan boz rəngli gil qab (əsasən, kasa tipli qablar) qırıqları, möhrə döşəmə üzərində skelet qalıqları, dən daşı, çəhrayı rəngli əqiqdən hazılanmış muncuqlar aşkar edilmişdir. Qəbir daşlarından birinin üzərindəki piktoqrafik işarələr çox güman ki, qədim insanların axirət dünyasına inamı ilə bağlı olmuşdur. Tapıntıların son Tunc və ilk Dəmir dövrlərinə aid olduğu ehtimal edilir.

**SARIDƏRƏ NEKROPOLU III** – Şahbuz r-nunda II nekropoldan şm.-ş.-də arxeoloji abidə. Küküçaya tökülən azsulu çayın yatağına enən yamacdadır. Bir hissəsi sel suları nəticəsində yuyulub dağılmışdır. Çayın içərisində kəllə qapağına, boz rəngli gil qab qırıqlarına təsadüf edilmişdir. Qəbirlərdən kəllə sümüyü, skelet qalıqları, boz və çəhrayı rəngli gil qab qırıqları, tunc bəzək əşyaları (bilərzik, sırğa, muncuq, asma, toqqa, boyunbağı və s.), ox ucluqları, obsidian (d ə v ə g ö z ü) qəlpələri, tuncdan tökülmüş quş fiquru və digər maddi mədəniyyət qalıqları aşkara çıxarılmışdır. Tapıntılara əsasən, nekropolun e. ə. 3-cü minilliyin sonu – e. ə. 12–10-cu əsrlərə aid olduğu ehtimal edilir.

*Əd.:* N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B., Şahbuz bölgəsinin arxeoloji abidələri., B., 1992; S e y i d o v A. Q., Naxçıvan tunc dövründə, B., 2000.



**SARIQAYA** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Tivi çayı ilə Gilançayın suayırıcında zirvə. Tivi k.-ndən 250 *m* şm.-dadır. Hünd. 1723 *m*.

**SARMIQ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Keçili k.-ndən 1,5 *km* şm.-ş.-dədir. Hünd. 2295 *m*.

**SARNINDİBİ** – Şahbuz r-nu ərazisində çay. Qahab çayının (Naxçıvançayın qolu) yuxarı hissəsinin adı. 2025 *m* hünd.-dən, bulaqlardan başlanır. Uz. 14 *km*. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır.

**SARVANLAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində sarvan nəslinin də adı çəkilir. İran hökmdarı Nadir şahın hakimiyyəti dövründə [1736–47] Naxçıvandakı S.-a inzibati cəhətdən öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirdilər.

**SARVANLAR MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Kəngər tayfasının bir qolu olan Sarvanların adı ilə bağlıdır. Tədqiqatçı T.Əhmədov dilçilik ədəbiyyatlarına istinadən "sarvan" sözünün İran mənşəli olduğunu, sar (dəvə) sözü və isimlərə əlavə edilərək, "qoruyan", "mühafizə edən" mənası yaradan "van" şəkilçi komponenti əsasında formalaşıb, "dəvəçi", "dəvə saxlayan", "dəvə mühafizəçisi", "dəvə başı çəkən", "dəvə sürən" mənaları daşıdığını qeyd etmişdir. Görünür, bu tayfa daha çox dəvəçiliklə məşğul olduğundan sarvanlar adlanıb. Doğrudan da, məhəllənin sakinləri 20 əsrin 40–50-ci illərinə qədər daha çox dəvəçilik, arabaçılıq və faytonçuluqla məşğul olurmuşlar. Sarvanlar tayfası müxtəlif tirələrə bölünüb ayrı-ayrı ərazilərdə yaşamış və tayfa adını qoruyub saxlamışlar. Ona görə bu onamastik vahidin paralelləri də yaranmışdır; məs., Sarvanlar k. (indiki Ermənistanda). Şəhərin qədim məhəllələrindən biri kimi el arasında adını indi də yaşadır.

**SASANİLƏR DÖVLƏTİ** – 3–7 əsrlərdə Yaxın və Orta Şərqdə dövlət. Sasanilər sülaləsi idarə edirdi. Banisi və ilk şahənşahı I Ərdəşir [224–39] idi. 224 ildə Parfiya hökmdarı V Artabanı məğlubiyyətə uğradaraq Parfiya padşahlığına son qoyan I Ərdəşir 226/27 ildə Ktesifon (Mədain) ş.-ndə hökmdar elan edildi. I Ərdəşir və I Şapur [239–72] dövründə İran torpaqları birləşdirildi; q.-də, şm.-da və ş.-də geniş ərazilər, eyni zamanda Atropatena (Naxçıvan Atropatenanın tərkibində idi) S. d.-nə qatıldı. Mənbələrin verdiyi məlumata görə Sasani hökmdarı II Şapurun Cənubi Qafqaza yürüşü zamanı (364–67) Naxçıvan talan edilib dağıdıldı, 18 min ailə əsir alınaraq sürgün edildi. Atropatena S. d.-nin ən mühüm əyalətlərindən, Taverеş (Təbriz) isə əsas şəhərlərindən biri oldu. Sasanilərin xarici siyasətdə qazandıqları müvəffəqiyyətlər, xüsusilə Roma üzərində qələbələr S. d.-nin və mərkəzi hakimiyyətin güclənməsinə səbəb oldu. Atropatenada hakim din olan Zərdüştilik 4 əsrin sonundan Sasanilərin dövlət dininə, zərdüşti məbədləri isə S. d.-nin əsas siyasi və iqtisadi dayağına çevrildi. İranla Bizans arasındakı sülh müqaviləsinə (387) əsasən Albaniya (Qafqaz) S. d.-nin tərkibinə daxil edildi. Albaniyanın mühüm strateji əhəmiyyətini (Qafqaz keçidlərinin qorunması) nəzərə alan Sasani hökmdarları daxili idarəetmə sistemini ancaq burada saxlamışdılar. 428 ildən Sasani mərzbanlarının iqamətgahı Dvindən (Dəbil) Naxçıvana köçürülmüşdü. 5 əsrdə Cənubi Qafqaz xalqlarının Sasani əsarətinə qarşı üsyanı oldu (Avarayr vuruşması, 450–51). 457–62, 481–84, 571–72 illərdə də Sasanilər əleyhinə güclü üsyanlar baş verdi. İranla Bizans arasında 591 ildə bağlanmış müqaviləyə görə Naxçıvan *Sünik* və *Vaspurakan* vilayətlərinin tərkibində Sasanilərə tabe edildi. 5 əsrin 90-cı illərinin əvvəlləri – 6 əsrin 20-ci illərinin sonunda İranı və Azərb.-ı bürüyən Məzdəkilər hərəkatının (şəhər yoxsullarının və kəndlilərin əyanlardan və kahinlərdən ibarət varlı təbəqələr əleyhinə hərəkatı) genişlənməsi S. d.-nin idarə sistemində, sosial-siyasi quruluşunda, mədəniyyət və s. sahələrdə köklü dəyişikliklərə səbəb oldu. 6 əsrin 1-ci yarısından 7 əsrin 1-ci yarısınadək Naxçıvanda Sasanilərə məxsus sikkə zərbxanası olmuşdur. Bu, Azərb.-da mövcud olan ən qədim zərbxanalardan hesab edilir. 628–632 illərdə S. d.-ndə 10 hökmdar bir-birini əvəz etmişdi. Sasanilər sülaləsinin sonuncu hökmdarı III Yezdəgirdin [632–651/52] dövründə ərəblər tərəfindən işğal edilən S. d. süquta uğradı. Azərb. 3 əsrdən artıq Sasanilə-

rin ərazəti altında olmuş. İran–Bizans müharibələri zamanı gah Sasani, gah da Bizans qoşunlarının basqınlarına məruz qalan Naxçıvan ərazisi də müharibə meydanına çevrilmişdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 2. B., 1998; M ə m m ə d o v R., Naxçıvan şəhərinin tarixi oçerki. B., 1977; А л и е в И., Очерк истории Атропатены. Б., 1989.

**"SBORNİK MATERİALOV DLYA OPİSANİYA MESTNOSTEY İ PLEMYON KAVKAZA" (SMOMPK)** ("Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu") – Qafqaz xalqlarının və ölkələrinin tarixindən, etnoqrafiyasından, folklorundan, coğrafiyasından və s. bəhs edən məcmuə. 1881 ildə Qafqaz Təhsil Dairəsi tərəfindən Tiflisdə nəşrə başlamış, 1929 ilədək çıxmışdır. Məcmuədə Qafqaz xalqları və ölkələrinin, o cümlədən Azərb. və azərb.-lıların tarixi, etnoqrafiyası, folkloru, adət-ənənələri, ayrı-ayrı yaşayış məntəqələri, maddi mədəniyyət abidələri haqqında materiallar verilmişdir. Bu materialların hazırlanmasında Qori Müəllimlər Seminariyasını bitirib, Qafqazın müxtəlif guşələrində pedaqoji fəaliyyət göstərən yerli müəllim və ziyalılar, habelə burada çalışan rus pedaqoqları yaxından iştirak edirdilər. Məcmuədə Azərb.-ın digər bölgələri ilə yanaşı, Naxçıvan diyarının, o cümlədən Naxçıvan və Ordubad ş.-lərinin, Dərələyəz nahiyəsinin, Nehrəm və Kilit k.-lərinin ərazisi, təbiəti, əhalisi, məşğuliyyəti, bağçılıq və əkinçilik mədəniyyəti, maarifi, maddi mədəniyyət abidələri və s. haqqında da yazılar dərc olunmuşdur.

*Əd.:* Ə f ə n d i y e v Ə., Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu. İzahlı biblioqrafiya, B., 1999.

**SELBASAR** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin ş. hissəsində, Nehrəm k.-ndən 6 *km* şm.-ş.-dədir. Hünd. 914 *m*.

**SELOVÇAY** – Babək r-nu ərazisində çay. Yuxarı axınında Şorsu, Sirab çayı ilə birləşdikdən sonra isə S. adlanır. Uz. 8 *km*. 1150 *m* hünd.-də olan bulaqlardan başlanır. Yeraltı sular və yağış suları ilə qidalanır. 965 *m* hünd.-də soldan Naxçıvançaya tökülür.

**SEVR SÜLH MÜQAVİLƏSİ (1920)** – avqustun 10-da Sevr ş.-ndə (Paris yaxınlığında) Sultan Türkiyəsi ilə Birinci Dünya müharibəsində qalib gəlmiş "başlıca müttəfiq dövlətlər" (B.Britaniya, Fransa, İtaliya, Yaponiya) və onlara kömək etmiş dövlətlər (Belçika, Yunanıstan, Polşa, Portuqaliya, Rumıniya, Çexoslovakiya, Yuqoslaviya) arasında bağlanmış müqavilə. S. s. m.-nin əsasını vaxtilə ingilis diplomatı M.Sayks və fransız diplomatı F.Jorio-Piko tərəfindən hazırlanmış gizli İngiltərə–Fransa Sayks-Piko müqaviləsinin (1916) şərtləri və Antanta dövlətlərinin San-Remo konfransında (1920, aprel-may) işləyib hazırladıqları, təkcə Osmanlı imperiyası ərazilərinin deyil, həm də türk torpaqlarının bölüşdürülməsi haqqında müqavilənin mətni təşkil edirdi. S. s. m.-nə əsasən, Fələstin və İraq B. Britaniyanın, Suriya və Livan isə Fransanın mandatlığı altına keçir, Türkiyə Ərəbistan y-a-na və Şimali Afrikaya münasibətdə iddialarından əl çəkməyə məcbur olur, İngiltərənin Kipri ilhaq etməsini, həmçinin İngiltərənin Misir, Hicaz əmirliyi, Fransanın isə Mərakeş və Tunis üzərində protektoratlığını tanıyırdı; Dodekanes a-rı İtaliyaya, Ədirnə və Gelibolu ilə birlikdə Şərqi Frakiya Yunanıstana, Anadolu vilayətinin c.-ş.-i "müstəqil Kürdüstan"a, əksər sərhəd əraziləri isə daşnak Ermənistanına verilirdi; S. s. m.-nin İstanbul və Boğazlar üzrə şərtləri Türkiyəni nəinki Boğazlardan, əslində həm də İstanbuldan məhrum edirdi. Boğazlar üzərində nəzarət üçün yaradılmış "komissiya"ya daxil ediləcək dövlətlərin 7-dən 4-ü (B.Britaniya, Fransa, İtaliya, ABŞ) Qara dəniz dövləti deyildi; İstanbul formal olaraq Türkiyəyə verilsə də, onun quru tərəfdən Yunanıstan torpaqları ilə əhatə edilməsi, dəniz tərəfdən isə hər iki sahilinin "Boğazlar komissiyası"nın nəzarəti altında olan "beynəlxalq boğazlar zonası"na aid edilməsi bu "güzəşt"i əslində heçə endirmişdi. S. s. m. təkcə Osmanlı imperiyasının varlığına son qoymaqla kifayətlənməyərək, Türkiyənin dövlətçiliyini və müstəqilliyini də məhv etməyə yönəldilmişdi; hətta Türkiyənin əlində qalan Daxili Anadolunun mərkəzi Ankara olan kiçik bir sahəsi üçün belə elə məhdudiyyətlər və ağır şərtli təəhhüdlər qoyulurdu ki, bunlar əslində Türkiyəni gələcəkdə müstəmləkəyə çevirmək məqsədi güdürdü.

S. s. m. həm də Cənubi Qafqazda sabitliyin pozulmasına yönəldilmişdi; müqaviləyə əsasən Türkiyə əraziləri hesabına şirniklən-



dirilən daşnak Ermənistanının hakimləri və ideoloqları cürətlənərək yenidən "Böyük Ermənistan" xülyasına qapılır, Azərb. torpaqlarına olan ərazi iddiaları üçün bir daha "tarixi əsaslar" axtarır, Naxçıvan bölgəsini və digər Azərb. ərazilərini işğal və ilhaq etmək üçün növbəti cəhdlər göstərirdilər.

S. s. m. Türkiyədə milli azadlıq hərəkatına güclü təkan vermiş və M. K. Atatürkün başçılığı ilə xəyanətkar və təslimçi sultan hökumətinə və xarici qəsbkarlara qarşı yönəlmiş Kamalçılar inqilabını sürətləndirmişdi. 1921–22 illərdə xarici işğalçılara ağır zərbələr endirərək onları ölkədən qovmağa əsasən nail olmuş Kamalçı türk hökumətinin diplomatik sahədə də fəaliyyətini xeyli gücləndirməsi sayəsində S. s. m. Lozanna konfransının (1922–23) qərarları ilə ləğv edilmişdir.

*Əd.:* H ü s e y n o v Q. H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970, О р е ш - к о в а С. Ф. и др., Очерки истории Турции,. M., 1983.



Seyidli Hamza

**SEYİDLİ** Həmzə Səməd oğlu (d. 21.1.1953, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1989), prof. (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika fakültəsini (1974) və Azərb. Milli EA Fizika İn-tunun aspiranturasını (1979) bitirmişdir. 1974 ildən Azərb. EA Fotoelektronika İn-tunda (keçmiş Tətbiqi Fizika İn-tu) çalışmışdır. 1992–98 illərdə eyni zamanda Bakı Ali Hərbi Dənizçilik Məktəbində fizika kafedrasının müdiri vəzifəsində işləmişdir. 1998 ildən Azərb. Müəllimlər İn-tunun (keçmiş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İn-tu) elmi işlər üzrə prorektorudur. Dar zolaqlı yarımkeçiricilərdə qeyri-tarazlıqlı elektron proseslərinə, onların parametrlərinin idarə edilməsi üsullarına dair tədqiqatlar aparmışdır. 160 elmi əsərin müəllifidir. Elmi məqalələri xaricdə (Almaniya, İngiltərə, Polşa, həmçinin Rusiya və digər MDB ölkələri) də dərc olunmuşdur. Keçmiş ümumittifaq və beynəlxalq elmi məclislərdə iştirak etmişdir.

**SEYİDOV** Abbas Qadir oğlu (d. 1.4.1957, Naxçıvan ş.) – tarixçi-arxeoloq. Tarix elmləri namizədi (1991), dosent (1996). "Qızıl qələm" mükafatı laureatı (1998). Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) tarix-filologiya fakültəsini bitirmişdir (1978). Naxçıvan Dövlət Un-tində baş müəllim, dosent (1983–96), Azərb. Ali Tətbiqi Elmlər Kollecində (1996–98), Bakı Kompüter Litseyində (1998–2000) dosent işləmişdir. 2000 ildən Azərb. Dövlət İqtisad Un-ti Azərb. tarixi kafedrasının dosenti, eyni zamanda Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunun elmi işçisidir. Akademiyanın Naxçıvan arxeoloji ekspedisiyasının üzvüdür (1978 ildən). Naxçıvanın tarixinə, arxeologiyasına, xüsusilə diyarın Tunc dövrü mədəniyyətinin müxtəlif problemlərinə dair tədqiqatların, o cümlədən 10 monoqrafiya və kitabın, 80-dən çox elmi məqalənin müəllifidir.

Ə s ə r l ə r i: Naxçıvanın qədim tarixi (V.B.Baxşəliyevlə birgə), B., 1995; Tarixdən səhifələr, B., 1999; Naxçıvan Tunc dövründə (Azərb. və ingilis dillərində), B., 2000; Naxçıvanın ilk Tunc dövrü abidələri və onların dövrləşdirilməsi (Azərb. və ingilis dillərində), B., 2000; Памятники куро-араксской культуры Нахичевани, Б., 1993.



Seyidov Məhərrəm

**SEYİDOV** Məhərrəm Mirəziz oğlu (17.10.1952, Şərur r-nun Alışar k. – 19.1.1990, Sədərək; Şərurda dəfn edilmişdir) – Azərb-ın ilk Milli Qəhrəmanı (ölümündən sonra) (1992). Daxili işlər orqanlarında işləmiş, Bakı Xüsusi Orta Milis Məktəbini bitirdikdən sonra Şərur r-n DİŞ yanında mühafizə şöbəsində baş inspektor vəzifəsində çalışmış, polis kapitanı rütbəsi almışdır. 1990 il yanvarın 19-da Sədərək uğrunda gedən döyüşlərdə komandiri Azər Seyidovu xilas edərkən qəhrəmancasına şəhid olmuşdur. Şərur ş.-ndə adına küçə, məktəb var; şəhərin mərkəzində tuncdan abidəsi ucaldılmışdır.



Seyidov Mirəsgər

**SEYİDOV** Mirəsgər Mirabdulla oğlu (6.2.1970, Babək r-nu Qaraxanbəyli k. – 17.5.1992, Yuxarı Buzqov k.; Naxçıvan ş. Şəhidlər Xiyabanında dəfn olunmuşdur) – Azərb.-ın Milli Qəhrəmanı (ölümündən sonra). Əcəmi ad. Naxçıvan Politexnik Texnikumunda təhsil almışdır. 1992 ilin mayında erməni qəsbkarlarının Azərb. torpaqlarına təcavüzünün gücləndiyi bir şəraitdə Naxçıvanın ilk könüllü müdafiə dəstələrinin tərkibində Sədərək, Biçənək, Havuş və s. kəndlər uğrunda döyüşlərdə fərqlənmiş və qəhrəmancasına şəhid olmuşdur. Oxuduğu 39 saylı Naxçıvan şəhər d.-y. orta məktəbinə S.-un adı verilmişdir.



Seyidov Mirheydar

**SEYİDOV** Mirheydər Mirabbas oğlu (1884, indiki Şərur r-nunun Şahtaxtı k. – 17.4.1953,


Seyidov Nadir

indiki Babək r-nunun Böyükdüz k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1928–54 illərdə indiki Babək r-nunun "Azərbaycan" k-zunda baş çoban işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Orden və medallarla təltif edilmişdir.

**SEYİDOV** Nadir Miribrahim oğlu (d. 28.4.1932, Naxçıvan ş.) – kimyaçı. Kimya elmləri doktoru (1968), prof. (1969), Azərb. Milli EA akad. (2001; m. üzvü 1989). Azərb. Dövlət Un-tinin (indiki BDU) kimya fakültəsini (1955) və Azərb. EA Neft İn-tunun aspiranturasını (1960) bitirmişdir. Azərb. Dövlət Elmi Tədqiqat Olefinlər İn-tunda (ADETOİ) baş elmi işçi, Elastomerlər laboratoriyasının (1962–78), Elastomerlər və karbohidrogen aşqarları şöbəsinin (1979–93) müdiri, elmi işlər üzrə direktor müavini (1993–97) işləmişdir. 1997 ildən Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda laboratoriya müdiridir. Polimer kimyası sahəsində görkəmli alim olan S. yüksək molekullu birləşmələr kimyası və neft-kimya sintezi, olefinlər əsasında yeni sintetik kauçukların alınması sahəsində fundamental tədqiqatlar aparmış, bu kauçukların istehsalı üçün lazım olan monomerin texnologiyasını işləyib hazırlamışdır. Onun rəhbərliyi ilə yüksək aktivliyə və sabitliyə malik yeni növ katalizatorlar alınmış, bunların aktivləşmə, oliqomerləşmə, polimerləşmə reaksiyalarında işlədilən katalizatorlardan 2–3 dəfə səmərəli olduğu müəyyən edilmiş, Sumqayıt Sintetik Kauçuk z-dunda, Tolyatti İstehsalat Birliyində, Nijni-Kamsk Kimya Kombinatında sınaqdan çıxarılaraq sənayedə tətbiq olunmuşdur. Etilen-propilen birgə polimerinin parçalanması nəticəsində bir sıra qiymətli məhsulların, o cümlədən effektli özlülük aşqarlarının, xüsusilə aşağı temperaturda (-70°C ) donan yüksək özlülüyə malik yağların alınması sahəsində də səmərəli tədqiqatlar aparılmışdır. 4 monoqrafiyanın, 250 elmi əsərin müəllifiir. 100 müəlliflik şəhadətnaməsi və 20 xarici ölkənin (ABŞ, Almaniya, İtaliya, Yaponiya və s.) patentini almışdır. Pedaqoji fəaliyyətlə də məşğul olur. İtaliya, Çexoslovakiya, Macarıstan, Bolqarıstan, Polşa, Türkiyə, Rusiya, Finlandiya və s. ölkələrdə beynəlxalq elmi simpozium və konfranslarda Azərb. elmini təmsil etmişdir. Elmi kadrlar hazırlanmasında xidməti var. Orden və medallarla təltif olunmuşdur.

Ə s ə r l ə r i: Получение новых каучуков на основе этилена и пропилена. Б., 1968; Получение новых каучуков на основе этилена и альфаолефинов. Б., 1982.


Seyidov Yahya

**SEYİDOV** Yəhya Qasım oğlu (6.3.1920, Ordubad ş. – 4.12.1980, Bakı) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru (1972). Ordubad və Naxçıvan uşaq evlərində tərbiyə almış, Naxçıvanda pedaqoji məktəbi bitirib, Ordubad şəhər məktəblərində dil və ədəbiyyatdan dərs demişdir. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1951) və aspiranturasını (1957) bitirmişdir. Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunun müasir Azərb. ədəbiyyatı şöbəsinin baş elmi işçisi (1961–79) və müdiri (1979 ildən) olmuşdur. Azərb. Yazıçılar Birliyinin üzvü idi (1959 ildən). Çağdaş Azərb. yazıçılarının yaradıcılığına dair tədqiqatların və ədəbi-tənqidi məqalələrin müəllifidir. "Mehdi Hüseynin yaradıcılıq yolu" (1966; 2-ci nəşri "Mehdi Hüseyn", 1979), "Süleyman Rəhimov" (1971; 2-ci nəşri "Süleyman Rəhimovun romanları", 1975), "İlyas Əfəndiyev" (1975) monoqrafiyaları nəşr edilmişdir.

Ə s ə r i: Axtarış yollarında, B., 1983.

Seyidov Yusif



**SEYİDOV** Yusif Mirəhməd oğlu (d. 2.5.1929, indiki Şərur r-nunun Yengicə k.) – dilçi. Filologiya elmləri doktoru (1966), prof. (1967), Azərb. Respublikası Dövlət mükafatı laureatı (1974), əməkdar elm xadimi (2000). İkiillik Naxçıvan Müəllimlər İn-tunu (1946), Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1952) və aspiranturasını (1955) bitirmişdir. BDU-nun Ümumi dilçilik kafedrasında müəllim, baş müəllim, dosent işləmişdir (1955–65). 1965 ildən Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiridir Azərb. dilində feli tərkiblərə, söz birləşmələrinə, nitq hissələrinə, dilçiliyin bir sıra nəzəri problemlərinə, ədəbi dil tarixinə, tarixi qrammatikaya aid tədqiqatların, ali məktəb dərsliklərinin müəllifidir. Ədəbiyyatşünaslıq sahəsində də fəaliyyət göstərir. Yazıçı və dil, klassik və müasir Azərb. ədəbiyyatı, ədəbi-bədii dil məsələlərinə həsr olunmuş araşdırmaları, monoqrafiyaları və məqalələri var. Azərb. Yazıçılar Birliyinin üzvüdür (1965 ildən).

Ə s ə r l ə r i: Azərbaycan ədəbi dilində söz birləşmələri, B., 1966; 1992; Müasir Azərbaycan dili. Sintaksis (şərikli), B., 1972; 1985; Yazıçı və dil (XIX–XX əsrlər), B., 1979; Sözün şöhrəti, B., 1981; Sözün qüdrəti, B., 1983; Sözün hikməti, B., 1989; Nəsiminin dili, B., 1986; Şairin dili, B., 1986; Azərbaycan dilinin qrammatikası. Morfologiya, B., 2000.




Orta məktəb. Sədərək.


Seyidov Yühənnas

**SEYİDOV** Yühənnas Mirhəsən oğlu (16.2.1927, Naxçıvan ş. – 18.11.1996, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1973), prof. (1975), Azərb. Milli EA m. üzvü (1980), Azərb. Respublikası Dövlət mükafatı laureatı (1986). İkiillik Naxçıvan Müəllimlər İn-tunun fizika-riyaziyyat şöbəsini (1944), Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini (1949) və M.V.Lomonosov ad. MDU-nun aspiranturasını (1952) bitirmişdir. BDU-nun nəzəri fizika kafedrasında baş müəllim, dosent (1953–60), Azərb. EA Fizika İn-tunda nəzəri fizika şöbəsinin müdiri (1960–66), bərk cisimlər nəzəriyyəsi laboratoriyasının müdiri (1966–87) və bərk cisimlər nəzəriyyəsi şöbəsinin müdiri (1987–96) vəzifələrində işləmiş, eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Tədqiqatları, əsasən, bərk cisim fizikası sahəsindədir. S. Azərb.-da bərk cisimlər nəzəriyyəsi üzrə məktəb yaratmışdır. Maqnetizmdə dolayısı mübadilənin, zəif maqnetizmin, maqnitoelektrik və pyezomaqnetizm hadisələrinin çoxelektronlu mikroskopik nəzəriyyəsini qurmuşdur. Maqnit yarımkeçiricilərində elektron enerji spektrinin mübadilə sahəsindən asılılığını vermişdir. S. elektrik sahəsi vasitəsilə spin dalğalarının parametrik həyəcanlanmasının mümkünlüyünü irəli sürmüşdür. İlk dəfə olaraq antiferromaqnetitlərdə aşqar hallar, ferritlərdə spontan maqnitlənmənin temperatur asılılığı, ideal antiferromaqnitlərdə istidən genişlənmə nəzəriyyələrini yaratmışdır. 120-dən çox elmi-tədqiqat işinin müəllifidir. Novosibirsk (1968), Moskva (1963, 1974), Leninqrad (indiki Sankt-Peterburq, 1970) və s. ş.-lərdə keçirilən beynəlxalq elmi simpozium və konfranslarda məruzələr etmişdir.

**SƏBƏTKEÇMƏZ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Gilançayın mənbə hissəsindədir. Hünd. 3234 *m*. Konusvarı formadadır.

**SƏDƏRƏK** – Sədərək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən şm.-ş.-də, Sədərək düzündədir. Əh. 6827 nəfər (2001, 1 yanvar); üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Şərab emalı z-du, Naxçıvan tikiş fabrikinin filialı, 2 orta məktəb, uşaq-gənclər məktəbi, məktəbəqədər müəssisə, texniki yaradıcılıq mərkəzi, mədəniyyət evi, klub, kitabxana, uşaq musiqi məktəbi, xəstəxana, sanitariya-epidemioloji st., televiziya ötürücüsü, 1024 yerlik elektron tipli ATS, 3 məscid var. Kəndin mərkəzi abadlaşdırılmış, bərpa və tikinti-quruculuq işləri görülmüş, müasir tipli ticarət mərkəzi tikilib istifadəyə verilmişdir. Azərb. torpaqları uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş bulaq-abidə kompleksi, Şəhidlər Xiyabanı və s. salınmışdır.

S. Naxçıvan ərazisində Eneolit dövrünə aid yaşayış məskənlərindən və mədəniyyət ocaqlarından biridir. "Sədərək" sözünün etimoloji mənası haqqında mülahizələr

Xəstəxana. Sədərək kəndi.



müxtəlifdir. Bəzi tədqiqatçılara görə "Sədərək" sözü farsca "se dərə" ("üç dərə") və yaxud "səd rəng" ("yüz rəng") sözlərinin birləşməsindən əmələ gəlmişdir. "Çox adam yaşayan yer" mənasını bildirən "Sedrək", ərəbcə "düşərgə" bildirən "sədər" sözləri, 14 əsrdə bu ərazidə yaşamış səədli tayfasının adı ilə də bağlayırlar. Xalq etimologiyasına görə isə "Sədərək" – "sel gərək" mənasındadır. Tarixən məlumdur ki, Azərb.-ın şm. bölgələrini Yaxın və Orta Şərq ölkələri ilə birləşdirən Böyük İpək Yolunun Bərdə–İrəvan–Naxçıvan–Culfa–Təbriz qolu S. yaxınlığından keçmişdir. Bəzi tədqiqatçılar "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Səkrək adının toponimləşərək Sədərək oykoniminə çevrilməsində uyğunluq olduğunu irəli sürürlər.

1958 və 1978 illərdə S.-in c.-unda aparılmış arxeoloji qazıntılar zamanı Eneolit və ilk Tunc dövrlərinə (e. ə. 4–3-cü minilliklər) aid yaşayış yeri aşkar olunmuşdur. Buradan bazalt və tufdan hazırlanmış əmək alətləri




*Sədərək yaşayış yeri tapıntıları: 1–4. Çəllək və badya tipli gil qab qırıqları. 5, 6. Daş sürtkəc və dən daşı. 7. Həvəng. 8–13. Dəvəgözü (o b s i d i a n) lövhələr – əmək alətləri. Eneolit dövrü.*

(dən daşları, sürtgəclər, həvəngdəstə, oraq dişləri və s.), obsidian lövhələr, iskənə, qaşov, çaxmaqdaşından alətlər, nukleuslar, müxtəlif gil qab (küpə, badya və s.) qırıqları əldə edilmişdir. Alətlər taxıl biçinində, sümük və ağac alətlərin işlənməsində və s. istifadə edilmişdir. S. yaşayış yerindən əldə olunmuş materiallar *Kültəpə* I və digər abidələrdən aşkara çıxarılmış son Eneolit dövrü keramika məmulatına oxşardır. Sədərək mağarası, Tunc dövrünə aid qəbir abidələri, "Div hörən" adlı siklop tikili qalıqları buranın qədim insan məskənlərindən olduğunu ehtimal etməyə əsas verir. Tədqiqatçılar Sədərək düzünün də daxil olduğu Arazın orta axar sahillərinin ayrı-ayrı vaxtlarda Van, Midiya, Assuriya padşahlıqları kimi iri dövlət birliklərinin tərkibinə daxil olduğunu təsdiqləyirlər. Ərazi erkən orta əsrlərdə Sasanilər, Bizans imperiyası, Ərəb xilafəti, sonralar isə Atabəylər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin təsir dairəsinə daxil olmuşdur. Səfəvilər dövründə S. -də indiki Nax. MR-in ərazisi ilə birlikdə Çuxursəd bəylərbəyiliyinin tərkibinə daxil idi.

Orta əsr S. yaşayış yeri müasir dövrdə eyniadlı kəndin c.-ş.-ndə, Araz çayının sol sahilində geniş bir ərazini əhatə edirdi. Ticarət-karvan yollarının kəsişdiyi yerdə yerləşən S. orta əsrlərdə şəhər səviyyəsinə yüksəlmiş, buraya saxsı borularla su çəkilmişdi. Fransız səyyahı Jan Şarden (1643–1713), türk səyyahı, coğrafiyaşünas Övliya Çələbi (1611–79) və b. S. haqqında maraqlı məlumatlar vermişlər. Dəfələrlə (1640–44, 1646–48, 1655–56) Azərb.-da olmuş Övliya Çələbi "Səyahətnamə"sində S. haqqında yazır: "Biz ... Sədərək kəndinə çatdıq. Naxçıvan torpağında yerləşən ... kənd gözəl və abaddır, 1000 gözəl evi, saysız-hesabsız bağ və üzümlükləri, xoş iqlimi var. Əhalisinin hamısı şiədir. Şəhərin arxasında, bağların yaxınlığındakı hündür təpənin ətəyində isti su çıxır".

S. 18 əsrin əvvəllərindən Osmanlıların idarəsində olmuşdur. "İrəvan" əyalətinin müfəssəl dəftəri"ndə 24 kənddən ibarət S. nahiyəsinin bu əyalətin tərkibində olduğu göstərilir. 1828 il Türkmənçay müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları ilə birlikdə S. də Rusiyanın tərkibinə qatıldı. Həmin müqavilə bağlanandan az sonra ermənilər bu torpaqlara köçürülməyə başladı.



Erməni qəsbkarları Naxçıvan torpaqlarını mənimsəmək üçün dəfələrlə (1904–05, 1918–20, 1990–93) S.-ə hücum etmiş, vəhşiliklər törətmişlər. Çoxlu kənd dağıdılmış, adam qırılmışdır. Məkrli ermənilər qədim Azərb. torpaqlarında Azərb. xalqının varlığını, əsil-nəsəbini bildirən neçə-neçə yer-yurd adlarını dəyişdirmiş, maddi mədəniyyət abidələrinin bir qismini özününküləşdirmiş, bir qismini yerlə-yeksan etmişlər. S. əhalisi də saysız əzab-əziyyətə düçar olmuşdur. Abbasqulubəy Şadlinskinin başçılığı ilə yaradılan "Qırmızı tabor" özünümüdafiə batalyonunun əsas qərargahı S.-də yerləşdirilmişdi. 1921 ildə Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur, Şərur və s. yerlərin silahlı daşnak dəstələrindən təmizlənməsində fərqlənmiş "Qırmızı tabor"un 500-ə yaxın döyüşçüsündən (100-ə yaxını sədərəkli idi) 19 nəfəri (4-ü sədərəkli idi) "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu.

1990–93 illərdə erməni-rus silahlı qruplaşması S. üzərinə 14 dəfə güclü hücum etmiş, 1990 il yanvarın 19–20-də Kərki k. zəbt olunmuş, Qanlı yanvar faciəsinin ilk şəhidləri S.-in müdafiəsi zamanı verilmişdir (1990–93 illərdə S.-in müdafiəsində 108 nəfər şəhid olmuşdur). 1990 il martın 28-də S.-yə Ermənistan tərəfdən 300-ə yaxın top mərmisi atılmışdı. Bu müddət ərzində S.-də 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati idarə binaları dağıntılara məruz qalmışdır. S.-in müdafiəsində Naxçıvan, Şərur, Ordubad, Culfa, Şahbuz və Babək r-nlarının mərd oğulları böyük qəhrəmanlıqlar göstərmişdir. Heydər Əliyev Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə digər sərhəd bölgələri kimi S. də işğal təhlükəsindən xilas olmuş, əhalisi torpaqlarından bir qarış da olsun geri çəkilməmişdi (bax *Sədərək döyüşləri*). Ərazinin geostrateji mövqeyi nəzərə alınaraq sərhədyanı yaşayış məskənlərinin sosial-iqtisadi qüdrətini gücləndirmək məqsədilə S. k.-nin bazasında *Sədərək rayonu* yaradılmışdır (1990, 28 avqust).

*Əd.*: Ə l i y e v V., Sədərək Eneolit yaşayış yeri. Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1985, № 2; M ə m m ə d o v V., Naxçıvanın qala qapısı – qədim Sədərək. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları kitabında, B., 1996.

**SƏDƏRƏK DÖYÜŞLƏRİ (1990–93)** – Nax. MR-in Ermənistanla ən ucqar sərhəd kəndi, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərb. -ın ərazi bütövlüyü uğrunda erməni işğalçıları ilə döyüşlər. İlk döyüş 1990 ilin Qanlı Yanvarından 2 gün əvvəl, yanvarın 18-də, axırıncı döyüş isə 1993 il avqustun 13-də olmuşdur. Bu müddət ərzində kənd 14 dəfə qəsbkar ermənilərin ağır zirehli texnika ilə güclü hücumlarına məruz qalmışdır. 500-ə yaxın yaşayış evi, ictimai-inzibati binalar, sosial obyektlər top mərmiləri ilə dağıdılsa da, bütün kənd camaatı, Sədərəyin mərd oğulları, habelə Naxçıvandan, Azərb.-ın digər bölgələrindən onların köməyinə gəlmiş fədakar vətən övladları sinələrini düşmənə sipər edərək, bu hücumları qəhrəmanlıqla dəf etmiş, Sədərəyi mənfur yağılara verməmişlər. S. d.-ndə 108 qeyrətli vətən oğlu şəhidlik zirvəsinə ucalmış, 500-ə yaxın adam yaralanmışdır. Şəhidlərin 40-dan çoxu Sədərəyin özünün yetirmələri idi. Onlardan biri – kapitan Məhərrəm Seyidov Azərb.-ın Milli Qəhrəmanı (ölümündən sonra) adına layiq görülmüş, bir çoxu Azərb. Respublikasının orden və medalları ilə təltif olunmuşdur. Sədərək şəhidləri arasında Azərb.-ın 12 r-nundan (o cümlədən Nax. MR-in bütün r-nlarından), şəhər, qəsəbə və kəndlərindən köməyə gəlmiş döyüşçülər var idi. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev Sədərəyi Naxçıvanın "Qeyrət qalası" adlandıraraq demişdir: "Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub. Tək sədərəklilər deyil, naxçıvanlılar da burada şəhid oldular. Biz şəhidlərin xatirəsini əbədiləşdirməli, onların ailəsinə xüsusi qayğı göstərməliyik".

*Əd.*: M ə m m ə d o v V., Sədərək şəhidləri, B., 1998; y e n ə o n u n, Qeyrət qalası, B., 1999.

**SƏDƏRƏK DÜZÜ** – Sədərək r-nunda maili düzənlik. *Arazboyu düzənliklərdən* biri. C.-ş.-də Dəhnə və Vəlidağ yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şm.-q.-də Ağrı düzənliyi ilə birləşir, c-q-də isə Araza qovuşur. Allüvial və allüvial-prolüvial çöküntülərdən təşkil olunmuşdur. 800–940 *m* mütləq yüksəkliyə malik olan S. d. şm.-dan c.-a və q.-

dən ş.-ə doğru meyillidir. S. d.-nün mərkəzi hissəsindən k. t. məqsədləri üçün istifadə olunur; üzümçülük inkişaf etmişdir.

*Əd.:* B a b a y e v S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası. B., 1999.

**SƏDƏRƏK GİL YATAĞI** – Sədərək r-nu ərazisində. Sədərək k.-ndən c.-da, Sədərək–Naxçıvan avtomobil yolundan 10 *km* c.-q.-də, d.-y. xəttinin yaxınlığındadır. Geoloji quruluşunda Üst Dördüncü dövrün allüvial-prolüvial çöküntüləri – gillər və gilcələr iştirak edir. Sah. 0,48 $km^2$, faydalı qatın qalınlığı 4,36 *m*-dir. Gildən "150" markalı kərpic istehsalında istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 2092 min $m^3$ təşkil edir.

**"SƏDƏRƏK" XEYRİYYƏ CƏMİYYƏTİ** – könüllü ictimai təşkilat. 1980-ci illərin axırlarında yaradılmışdır. Cəmiyyətin əsas məqsədi Sədərək r-nunun, bütövlükdə Nax. MR-in ərazi bütövlüyünün qorunmasına, r-nun iqtisadi, sosial və mədəni inkişafına yardım etmək, habelə Abşeron yarımadasında və sərhədyanı r-nlarda yaşayan aztəminatlı ailələrə, kimsəsiz və imkansız soydaşlarımıza maddi köməklik göstərməkdir. Nizamnaməsinə əsasən ali orqanı ildə bir dəfə çağırılan konfransdır. Cəmiyyətin gündəlik fəaliyyətini İdarə Heyəti və işçi qrupu həyata keçirir.

**SƏDƏRƏK KÖRPÜSÜ** – Sədərək r-nu ərazisində, Araz çayı üzərində körpü. Türkiyə ilə Azərb. arasında sərhəddə iki qardaş dövlət və ölkəni birləşdirir (bax *Ümid körpüsü*).

**SƏDƏRƏK QALASI** – Sədərək k.-nin c.-unda, Araz çayına doğru uzanan Validağın c.-q. silsiləsi üzərində son Tunc və ilk Dəmir dövrünə (e.ə. 14-7 əsrlər) aid qala-şəhər. Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir (2001). Qala-şəhərin salındığı yüksəklik əlverişli coğrafi-strateji mövqeyə malik idi; Anadolu–Sədərək–Naxçıvan istiqamətindəki qədim karvan-ticarət yolu buradan yaxşı müşahidə olunur və nəzarətdə saxlanılırdı. Dağın c., ş-q., və q. ətəklərindən aşağı terraslarda buraya çıxmaq mümkün olan bütün keçidlərin qarşısını kəsən 2,5 *m* enində siklop tipli möhtəşəm müdafiə səddi (bəzi yerlərdə 1,5–2 *m* hünd.-də salamat qalmışdır) ucaldılmışdır. Səddin c.-q. hissəsində eni 5 *m* olan giriş qapısı var. Girişin hər iki tərəfindən içəriyə doğru 3 *m* uzunluğunda konturfors divarlar hörülmüşdür. Qala divarı boyunca bir neçə yerdə daş tikinti qalıqları və mədəni təbəqə var. Buradan e. ə. 2-ci minilliyin 2-ci yarısı – 1-ci minilliyin əvvəllərinə aid boz, qara və açıq çəhrayı rəngli gil qab qırıqları və obsidian (d ə v ə g ö z ü) lövhələr əldə edilmişdir. Validağ üzərindəki 40 *ha*-a yaxın yamaclı sahə çoxbucaqlı plana malik möhtəşəm qala divarları ilə əhatələnmişdir. Dağın hündür yerində divarlar boyunca dairəvi və düzbucaqlı bürclər – gözətçi qüllələri, daxili terraslarda isə dördkünc binalar tikilmişdir. Qala-şəhərin müdafiə sistemi qədim Naxçıvan qalatikmə memarlığı üçün səciyyəvi olan üslubda inşa edilmişdir; irihəcmli qara mərmər bloklar hörgüdə kənar cərgələrdə düzülmüş, aralarındakı boşluq isə xüsusi memarlıq üslubunda orta və xırda həcmli qaya parçaları ilə doldurulmuş, istehkamların inşasında bərkidici məhluldan – palçıqdan istifadə olunmamışdır.

Şərqi Anadolu və Şərur ərazisində yaranmış güclü tayfa ittifaqları – dövlət qurumları arasında siyasi münasibətlərin gərginləşməsi ilə əlaqədar yadelli basqın təhlükəsinin qarşısını almaq məqsədilə salınmış S. q. Naxçıvan diyarının siyasi tarixində, iqtisadi və mədəni inkişafında əhəmiyyətli rol oynamışdır. Abidə Naxçıvanın, qədim Ön Asiya dövlətləri ilə siyasi münasibətlərini öyrənmək üçün dəyərli tarixi mənbədir.



Sədərək qalasının divar qalıqları. Son Tunc – ilk Dəmir dövrü.

**SƏDƏRƏK MƏSCİDİ** – Sədərək k.-ndə 18–19 əsrlərə aid memarlıq abidəsi. Böyüklüyü, abadlığı və kitabələrinin zənginliyinə görə fərqlənir. Məscidin baş fasadında, önündə, sütun başlığında taxta üzərində, birinci cərgə, ikinci cərgə və digər sütun başlıqlarında nəstəliq xətti ilə memar və xəttatların adları (zərgər Məşədi Əbülqasim, nəccar Məşədi Məhəmməd ibn Abbas Sədərəkli, Təqi oğlu Məşədi Əhməd və b.), Qurandan ayələr həkk olunmuşdur. Kitabələrdə bir neçə tarix göstərilmişdir: hicri 1112 (1700–1701), hicri 1259 (1843), hicri 1315 (1897). 1112 il məscidin ilkin tikilmə tarixi sayılarsa, binanın hicri 1259 ildə əsaslı təmir olunduğunu söyləmək mümkündür. Çünki bina 18 əsr memarlıq-konstruktiv formalarını saxlamamışdır. Hicri 1315 ildə yenidən təmir işləri aparılmışdır. Hazırkı binanın memarı sədərəkli Abbasın oğlu Məhəmməd olmuşdur. Məsciddəki taxta işləri, yaraşıqlı nəbati ornament və kitabə motivləri ilə işlənmiş sütun başlıqları sədərəkli memar və nəccar Məhəmmədə məxsusdur. 1259/1843 il tarixli kitabəyə əsasən, Təqi oğlu Məşədi Əhmədin memar Məhəmmədlə eyni vaxtda işləməsi, Məhəmmədin yüksək peşəkar memar, Məşədi Əhmədin isə bənna olması qənaətinə gəlmək olar. Digər kitabələrdə göstərilən Şahbaz oğlu Məhəmmədə və Məhəmməd xanın oğlu Saleha gəldikdə isə, onların xeyriyyə məqsədi ilə məscidin tikilməsinə vəsait verdikləri məlum olur.





Sədərək məscidinin kitabələrindən biri.

**SƏDƏRƏK MİNERAL SU YATAĞI** – Sədərək r-nu ərazisində, Sədərək k. yaxınlığında, Qaraburun deyilən sahədə, dəniz səviyyəsindən 1020 *m* hünd.-dədir. Bir neçə çıxışdan ibarətdir. Yataq 1980 ildə kəşf olunmuşdur.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3\,M\,4{,}1\frac{HCO_3 56\,SO_4 32}{Ca48\,(Na+K)35}\cdot pH\,6{,}4\,D\,500\,m^3/gün\,T\,18^\circ C$$

Karbon qazlı, az minerallaşmış hidrokarbonatlı-sulfatlı, kalsiumlu-natriumlu-maqneziumlu və natriumludur. "Aşağı İstisu", "Jeleznovodsk" (Şimali Qafqaz) və s. tipli müalicə-süfrə və ya süfrə suyu kimi istifadə edilir.

**SƏDƏRƏK NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan İrəvan əyalətininin nahiyələrindən biri. 1728 il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə S. n.-nin 23 yaşayış məntəqəsini əhatə etdiyi qeyd olunur; 178 ailədən ibarət idi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; böyük əksəriyyəti müsəlmanlar (azərb.-lılar) idi. S. n.-nin illik gəlirini 60 660 ağça təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**SƏDƏRƏK RAYONU** – (Nax. MR-də) inzibati r-n. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990 il avqustun 28-də Azərb. SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. C.-q.-dən Türkiyə ilə 11 *km*, şm.-q.-dən Ermənistanla 24 *km* məsafədə həmsərhəddir. Sah. 0,15 min $km^2$, əh. 12,2 min nəfərdir (2001, 1 yanvar). Mərkəzi Heydərabad qəs.-dir. R-nda 1 ştq. və 3 kənd yaşayış məntəqəsi var. Xəritə, bax səh. 463.

**Təbiət.** Səthi şm.-da və ş.-də dağlıq, Araz-boyu hissədə bir-birindən tirə və yüksəkliklərlə ayrılan maili düzənlikdən (bax *Sədərək düzü*) ibarətdir. C.-ş.-də Dəhnə və Validağ yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şm.-q.-dən isə Sarıbulaq dağlarının c.-ş. ətəkləri ilə sərhədlənib Ağrı düzü ilə birləşir. Ucubiz, Əjdəkan, Tejkar, Validağ və Saraclı dağları ilə əhatələnmişdir. Düzənlikdə başıaşağı olaraq allüvial və allüvial-prolüvial, dağlıq hissədə, xüsusilə mütləq yüksəkliyi



Heydərabad qəsəbəsindən görünüş.



*Ağoğlan piri.*

1100–1200 *m*-ə çatan Vəlidağda Devon, qismən Tabaşir çöküntüləri yayılmışdır. Ərazidə gil, mərmərləşmiş əhəngdaşı yataq və təzahürləri, mineral su yataqları var. Quru kontinental iqlimə malikdir. Yayı isti, qışı soyuq olur. Ərazisindən Qaraçay, Çapan çayı və Türkiyə sərhədi boyunca Araz çayı axır. Ərazidə, əsasən, boz torpaqlar yayılmışdır. Sədərək düzünün Arazyanı hissəsində yeraltı sular səthə yaxın olduğundan çəmən-ot bitkiləri yaxşı inkişaf etmişdir.

**Əhali.** R-nun əhalisi 1990 illə müqayisədə cəmi 1200 nəfər, yaxud 10% artmışdır. Orta sıxlıq 1 $km^2$-də 82 nəfərdir (2001). Yaşayış məntəqələri Heydərabad qəs., Sədərək, Qaraağac və Kərki (19–20 yanvar 1990 ildə erməni-rus silahlı qüvvələri tərəfindən işğal olunmuşdur) k.-ləridir.

**Təsərrüfat**. S. r.-nun sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və gücləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. R-n mərkəzində və kənd yaşayış məskənlərində yeni inzibati və ictimai obyektlər inşa edilmiş, bərpa, tikinti-quruculuq və abadlıq işləri aparılmışdır. Yeni yaşayış qəsəbəsi salınmış (bax *Heydərabad*), Araz çayı üzərində Türkiyə ilə Azərb.-ı birləşdirən Sədərək–Dilucu körpüsü (bax "*Ümid körpüsü*") tikilmişdir. Heydərabad qəs.-ndə ermənilər tərəfindən dağıdılan 100-ə yaxın yaşayış binası təmir olunmuş, su, elektrik və rabitə xətləri bərpa edilmiş, 35/10 *kvt*-lıq yarımstansiya quraşdırılmışdır. Türkiyənin Aralıq bölgəsindən Sədərəyə 35 *kvt*-lıq fasiləsiz elektrik xətti çəkilmişdir. Elektrik enerjisi ilə təmin olunması sahəsinidə xeyli işlər görülmüşdür. R-nun suvarma sistemləri tamamilə yeniləşdirilmiş və yaxşılaşdırılmışdır. "Bulaqbaşı" kəhrizi əsaslı şəkildə təmir olunaraq S. r.-na 5 *km* məsafədən yeni içməli su xətti çəkilmiş, 7 subartezian quyusu qazılmış, su kəmərləri təmir olunmuş, ərazidə 15 bulaq-abidə tikilib istifadəyə verilmişdir. 4 pilləli nasos stansiyasında yenidənqurma işləri aparılmışdır. Əsası 1992 ildə qoyulmuş aqrar islahatların aparılması 1996 ildən etibarən daha da sürətləndirilmiş, 1999 ildə S. r. üzrə tamamilə başa çatdırılaraq, əhali torpaq payları ilə təmin olunmuşdur. K. t. məhsulu istehsalının həcmini və məhsuldarlığını yüksəltmək üçün özəl təsərrüfatların inkişaf etdirilməsi istiqamətində fermerlərə, torpaq mülkiyyətçilərinə xeyli güzəştlər edilmişdir. Hazırda r-n ərazisində BMT-nin İnkişaf Proqramının və İslam İnkişaf Bankının vəsaiti hesabına bir sıra işlər görülmüş və həyata keçirilməsi planlaşdırılmışdır.

R-n iqtisadiyyatının əsasını üzümçülük, taxılçılıq və heyvandarlıq təşkil edir. 1998–2000 illər ərzində bütün təsərrüfat dərəcələri üzrə istehsal olunan bitkiçilik və heyvandarlıq məhsullarının hamısında artım baş versə də, muxtar respublikanın müvafiq məhsullar istehsalında r-nun payı o qədər də əhəmiyyətli deyil. 2001-ci ildə 201 *t* buğda, 118,4 *t* arpa, 9 *t* noxud, 446 *t* şəkər çuğunduru, 102 *t* kartof, 470 *t* tərəvəz, 240 *t* bostan məhsulu, əlavə olaraq 1000 *t* üzüm, 455 *t* meyvə, 1400 *t* quru ot, 660 *t* küləş istehsal olunmuşdur. 1998 ildə r-nda qaramalın sayı 1993 illə müqayisədə 340 baş, yaxud 22,7%, o cümlədən inək və camışların sayı 45 baş, yaxud 4,6%, xırda buynuzlu heyvanların sayı 3753 baş, yaxud 82,5% artmışdır. 1998 ildə r-nda 1817 baş qaramal, o cümlədən 1015 baş inək və camış, 8211 baş xırda buynuzlu heyvan var idi, bu da muxtar respublikadakı qaramalın 2,9%-ni, xırda buynuzlu heyvanların isə 2,3%-ni təşkil edirdi. R-nda 16000 quş vardı. 1998 ildə r-nda 0,2 min *t* ət, 1,0 min *t* süd, 30 min ədəd yumurda, 16,7 *t* yun



***Sədərək rayonu.*** *1. Qeyrət qalası Sədərək. 2. Rayon İcra Hakimiyyətinin binası. 3. Heydərabad qəsəbəsindən görünüş. 4. Sədərək məscidi. 5. Şəhidlərə abidə.*









***Sədərək rayonu.*** *1. Əjdəkandağ ətrafı. 2. Taxıl zəmisi. 3. Ticarət mərkəzi. Heydər-abad qəsəbəsi. 4. Orta məktəb. Sədərək kəndi.*



istehsal olunmuş, muxtar respublikada heyvandarlıq məhsulları istehsalı üzrə ətin 3,8%-i, südün 3,6%-i, yunun 2,9%-i, yumurtanın 5,3% -i bu rayonun payına düşmüşdür. R-nda sənaye müəssisələrindən 2 şərab emalı z-du (burada şərabdan keyfiyyətli spirt də çəkilir), Naxçıvan Tikiş Fabrikinin filialı var. 2000 ildə muxtar respublika sənaye məhsulunun 2,2%-ə qədəri S.r.-nun sənaye müəssisələrində istehsal olunmuşdur. Bakı–Yerevan d.-y., Naxçıvan–Yerevan, Naxçıvan–Türkiyə avtomobil yolu magistralları r-nun ərazisindən keçir. Sədərək gömrükxanası fəaliyyət göstərir.

2000 ildə muxtar respublikadakı kapital qoyuluşunun 1,5%-i, istifadəyə verilmiş əsas fondların 1,3%-i bu r-nun payına düşürdü. R-nda cəmi əmtəə dövriyyəsinin 241,1 mln. manatını, yaxud 89,9%-ini pərakəndə əmtəə dövriyyəsinin, 27,1 mln. manatını, ŷaxud 10,1%-ini ictimai iaşənin əmtəə dövriyyəsi təşkil edir. Əhalinin hər nəfərinə 22,3 min manatlıq əmtəə dövriyyəsi düşür ki, bu da 1997 ildəkindən 20,7% yüksəkdir. Adambaşına düşən pullu xidmətlər cəmi 1983 manat olmuşdur.

R-nda təbii su mənbəyi olmadığından suvarma, əsasən, 4 pilləli nasos st.-ları və 3 qoldan ibarət kanallar, onların üzərindəki hidrotexniki qurğular vasitəsilə həyata keçirilir. Əhalinin içməli suya tələbatı isə "Bulaqbaşı" adlanan kəhriz və artezian quyuları vasitəsilə təmin edilir. Nax. MR Ali Məclisi "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2001 il 15 mart tarixli xüsusi qərar qəbul etmişdir.

**Tarixi-arxeoloji və memarlıq abidələri.** Son illər aparılmış arxeoloji qazıntılar nəticəsində S. r. ərazisində Eneolit, Tunc dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkara çıxarılmış və öyrənilmişdir. S.-in c.-nda e. ə. 4–3-cü minilliyə aid yaşayış yeri aşkar olunmuşdur. Ərazidə Əjdəkan, Cin təndiri, Cəhənnəmdərə, Şir arxı, Dəhnə, Qırmızılar, Fərhad arxı, Kültəpə, Ağoğlan, Karvansara, Ələddin, Qaraburun və s. tarixi yer adları mövcuddur.

S.-in c.-ş.-ində, Araz çayının sol sahilində geniş bir ərazini əhatə edən orta əsrlərə aid yaşayış yeri tapılmışdır (bax *Şəhər yeri*). *Sədərək qalasının* izləri bu günədək qalmaqdadır. Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, bölgədə e. ə. 4-cü minillikdən başlayaraq fasiləsiz həyat davam etmişdir. R-n ərazisində tarixi-memarlıq abidələrindən 3 məscid, orta əsrlərə aid qala xarabalığı, müdafiə istehkamı, karvansara, Ağoğlan piri, 19–20 əsrin əvvəlində tikilmiş hamam binası və s. mühafizə olunmuşdur. Mühüm elmi və tarixi əhəmiyyət kəsb edən nadir abidələr bərpa olunur.

Böyük Vətən müharibəsində (1941–45) və Azərb. torpaqları uğrunda şəhid olanlara abidə kompleksi inşa edilmiş, Şəhidlər xiyabanı salınmışdır.

**Mədəni quruculuq və səhiyyə.** S. r.-nda təhsilin, səhiyyənin və mədəniyyətin inkişafı sahəsində də ardıcıl tədbirlər görülmüşdür. R-nda bir sıra inzibati və sosial-mədəni binalar, Qaraağac k.-ndə yeni məktəb binası tikilmiş, kəndlərin mərkəzi meydanları abadlaşdırılmış, asfalt örtük salınmış, milli memarlıq üslubunda işlər görülmüşdür. Mədəniyyət sarayının, rabitə evinin binaları təmir edilmiş, bərpa və abadlıq işləri aparılmışdır. R-nun girəcəyindəki 4 *km*-lik qoşa yolun əsaslı təmiri başa çatdırılmış, 3 körpü yenidən qurulmuşdur.

R-nun 2 məktəbəqədər müəssisəsində 125 uşaq tərbiyə olunur. 4 ümumtəhsil məktəbində 2109 şagird, texniki peşə məktəbinin filialında isə 45 şagird təhsil alır. R-nda 1 mədəniyyət evi, 1 kənd mədəniyyət evi, 2 klub, mərkəzi kitabxana sistemi, 3 kitabxana filialı, yeddiillik uşaq musiqi məktəbi, 2 məktəb-

*Rabitə evi.*





Səfərli Əliyar

dənkənar müəssisə və uşaq-gənclər şahmat məktəbi, tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir (2000).

R-n İcra Hakimiyyətinin orqanı "Oğuz yurdu" qəzeti çıxır (2000, 21 mart). R-nda Azərb. və Naxçıvan televiziyasının verilişlərinə baxılır. 1024 yerlik yeni elektron tipli ATS istifadəyə verilmişdir (2000).

R-nda 75 çarpayılıq mərkəzi xəstəxana, feldşer-mama məntəqəsi, sanitariya-epidemioloji st. var. Onlarda 10 həkim, 18 orta tibb işçisi çalışır (2001).

**SƏDƏRƏKLİ YUSİF** (Yusif Məhərrəm oğlu Y u s i f o v; oktyabr 1930, Sədərək k. – 31.12.1995, orada) – aşıq. Ağ Aşıq adı ilə də tanınır. Sədərəkli Aşıq Əlinin (Dəllək Əli) şagirdi olmuşdur. 100-dən çox qoşma, gəraylı və təcnisin ("Ha düzə-düzə", "Danışaq", "Zülflərin", "Gözlərin", "Ay səni", "Qayıt", "Üzək" və s.) müəllifidir. "Qeys Qənbər və yanıq Pəri", "Göyçə səfəri" dastanları el arasında yayılmışdır. Bir neçə şeri dövri mətbuatda ("Şərq qapısı", "Bakı" qəzetləri və s.) dərc olunmuşdur.

*Əd.:* Azərbaycan folkloru antologiyası, c.1. Naxçıvan folkloru, B., 1994.

**SƏFƏRLİ** Əliyar Qurbanəli oğlu (d. 28.12.1937, Ordubad r-nunun Anabad k.) – ədəbiyyatşünas, mətnşünas, maarif xadimi. Filologiya elmləri doktoru (1983), prof. (1984), Azərb. Milli EA-nın m. üzvü (1989). Ordubad pedaqoji məktəbini (1955) və Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsini (1960) bitirmişdir. 1960–68 illərdə Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunun elmi işçisi olmuşdur. Həmin vaxtdan BDU-nun filologiya fakultəsində çalışır. 1986–94 illərdə Azərb. ədəbiyyatı tarixi kafedrasının müdiri işləmişdir. Hazırda həmin kafedranın prof.-dur. Azərb. Yazıçılar Birliyinin üzvüdür (1983 ildən). S. orta əsrlər Azərb. ədəbiyyatının tanınmış tədqiqatçılarındandır. O, Məsihinin (17 əsr) həyat və yaradıcılığına, 17–18 əsrlər Azərb. epik şerinə dair sanballı tədqiqatların müəllifidir. Mətnşünaslıq sahəsində də səmərəli fəaliyyət göstərir. Bir sıra ədəbi abidələri aşkara çıxarmış, ilk anadilli poema olan "Dastani-Əhməd Hərami"ni, Qazi Bürhanəddinin "Divan"ını, M.Füzulinin "Hədiqət üs-süəda" əsərini (şərikli), Məsihinin "Vərqa və Gülşa" poemasını, "Şəhriyar" dastanını, habelə Nəsimi, Əmani və b.-larının əsərlərini tərtib və nəşr etdirmişdir. Uzun illər Təhsil Nazirliyində "Ədəbiyyatşünaslıq" bölməsinin rəhbəri olmuş, orta və ali məktəblər üçün dərslik, tədris vəsaiti və proqramların yaradılmasında bilavasitə yaxından iştirak etmişdir. Əsərləri xarici ölkələrdə (Türkiyə, İran, Rusiya, Orta Asiya respublikaları) nəşr olunmuşdur. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir. S. diplomatik sahədə də fəaliyyət göstərmiş, 1994–98 illərdə Azərb. Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuş, ölkəmizi Beynəlxalq İqtisadi Təşkilatda (EKO) təmsil etmişdir.

Ə s ə r l ə r i: XVII–XVIII əsrlər Azərbaycan epik şeri, B., 1982; Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı (X. Yusifovla birgə), B., 1982; Məsihi, B., 1992.



Səfərli İslam

**SƏFƏRLİ** İslam Əhməd oğlu (12.2.1923, indiki Babək r-nunun Şəkərabad k. – 6.11.1974, Bakı; Fəxri Xiyabanda dəfn olunmuşdur) – şair, dramaturq. Azərb. Respublikası əməkdar incəsənət xadimi (1973). 1941 ildə Azərb. Dövlət Pedaqoji İn-tunun Naxçıvan filialına daxil olmuş, 1942 ildə könüllü cəbhəyə getmiş, mahir kəşfiyyatçı kimi şöhrət qazanmışdır. Döyüşlərdə ağır yaralandıqdan sonra ordudan tərxis olunaraq (1944) Naxçıvana qayıtmış, "Azərbaycan gəncləri" qəzetinin zona müxbiri işləmişdir. 1951 ildə Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir. "Ədəbiyyat" qəzetində poeziya şöbəsinin müdiri, Azərb. Dövlət Radio və Televiziya Verilişləri Komitəsində müxbir, redaktor, televiziyanın ədəbi-dram verilişləri şöbəsinin müdiri (1951–59), Azərb. Yazıçılar İttifaqının poeziya və dramaturgiya bölmələrinin məsləhətçisi (1960–73) olmuşdur. Bədii yaradıcılığa müharibə illərində başlamış, cəbhəçi şair kimi tanınmışdır. "Mingəçevir nəğmələri" adlı ilk şerlər kitabı 1950 ildə nəşr olunmuşdur. 20-dən çox kitabın müəllifidir. "Darülfünun şerləri" (1951), "Pıçıldaşın ləpələr" (1956), "Həyatın nəfəsi" (1959), "Qağayılar yorulanda" (1964), "Qoşa söyüd" (1965), "Torpağın ətri" (1967), "Dan ulduzu, bir də mən"... (1974) və s. şer və poema toplularında müasirlərimizin yaradıcı əməyi,



mənəvi aləmi, məhəbbəti tərənnüm olunur. Nəğməkar şair kimi məşhurdur. 150-dən çox şerinə mahnılar ("Ana", "Aylı gecələr", "Pıçıldaşın, ləpələr", "Bir könül sındırmışam", "Həkim qız", "Dan ulduzu", "Bakı, sabahın xeyir" və s.) bəstələnmişdir. Müasir mövzularda yazdığı "Göz həkimi", "Yadigar", "Ana ürəyi" və "Yol ayrıcında" pyesləri dəfələrlə Azərb. Akademik Milli Dram Teatrında və Naxçıvan Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. Adına Bakıda küçə və gəmi, Naxçıvanda məktəb var.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, B., 1973; Pyeslər, B., 1971; Əbədi beşik, B., 1978; Adsız zirvə, B., 1986.



Səfərov Şahin

**SƏFƏROV** Şahin Tağı oğlu (31.12.1928, indiki Şərur r-nunun Qarabağlar k. – 15.11.1995, Bakı) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru (1983), prof. (1987). Azərb. Respublikasının əməkdar elm xadimi (1991). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1951). Bakı məktəblərində müəllimlik etmiş, "Azərbaycan müəllimi" qəzetinin müxbiri, şöbə müdiri, redaktor müavini və redaktoru (1974–92), "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinin eyniadlı nəşriyyatının direktoru (1993–94) və "Şəhriyar" qəzetinin redaktoru (1994–95) olmuşdur. Müasir Azərb. ədəbiyyatına, ədəbiyyatın tərbiyəvi roluna və tədrisi metodikasına dair tədqiqatların, monoqrafiya, metodik vəsait, elmi və ədəbi-tənqidi məqalələrin müəllifidir. "Nizami sorağında", "Tələ", "Tərgül", "Nişan üzüyü", "Qu quşunun məhəbbəti" pyesləri, "Bir payız günü" povesti, hekayələri var. İki ordenlə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir, B., 1981; Sənətkar və zaman, B., 1987; Nizami Gəncəvi yaradıcılığı fənlərin tədrisində (B. Həsənovla birgə), B., 1991.



Səfərov Yaşar

**SƏFƏROV** Yaşar Abutalıb oğlu (d. 25.6.1940, Şahbuz r-nunun Çay-Şahbuz k.) – müğənni. Nax. MR (1974) və Azərb. Respublikası (1989) əməkdar artisti, A.Zeynallı ad. Bakı Musiqi Məktəbini (1960), Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) musiqili komediya aktyorluğu ixtisası üzrə (1970) bitirmişdir. Azərb. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin solistidir (1960 ildən). Repertuarında Azərb. bəstəkarlarının mahnıları və xalq mahnıları mühüm yer tutur. Dünyanın bir çox ölkəsində qastrol konsertləri ilə çıxış etmişdir. 1989 ildən Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-tində vokal sənətindən dərs deyir (1991 ildən dosent).

**SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ (16 əsr–18 əsrin 1-ci rübü)** – Səfəvi və Osmanlı dövlətləri arasında Cənubi Qafqaz, Kürdüstan və İraq ərazilərini, strateji və beynəlxalq ticarət yollarını ələ keçirmək uğrunda aparılan müharibələr.

1 5 1 4 – 5 5 i l l ə r m ü h a r i b ə s i. Azərb. Səfəvilər dövlətinin banisi I Şah İsmayıl [1501–24] keçmişdə Ağqoyunlular dövlətinin tərkibinə daxil olan Kürdüstan və İraqi-Ərəb ərazilərini öz dövlətinə qatandan sonra başlandı. Buna cavab olaraq Avropada hərbi əməliyyatları dayandıran Osmanlı sultanı I Səlim [1512–20] 150 minlik qoşunla Səfəvilər dövlətinə hücum etdi. Əsas qoşun hissələrinin toplanmasını gözləməyən I Şah İsmayıl, çoxlu top və odlu silahla təchiz olunmuş Osmanlı ordusu ilə 1514 il avqustun 23-də Maku ş. yaxınlığındakı Çaldıran düzündə baş vermiş döyüşdə məğlubiyyətə uğradı. Osmanlılar Təbrizi tutsalar da, Azərb.-da möhkəmlənə bilməyib ölkəni tərk etməyə məcbur oldular. I Səlim Kürdüstanı, İraqi-Ərəbin şm.-nı Osmanlı imperiyasına qatdı (1516). Bundan sonra S.-O. m. bir müddət ara verdi.

1533 ildə Avstriya ilə sülh bağlayan sultan I Süleyman Qanuni [1520–66] Azərb.-a hərbi səfərlərə başladı. Osmanlılar 1534/35 ildə iki dəfə Cənubi Azərb.-a hücum etdilər və Təbrizi tutdular. Lakin I Süleyman da geri çəkilməyə məcbur oldu. Bu səfərlər nəticəsində İraqi-Ərəb Osmanlı imperiyasına qatıldı: Aralıq dənizini İran körfəzi ilə birləşdirən ticarət-karvan yollarına nəzarət Osmanlıların ixtiyarına keçdi. 1536 ildə Osmanlılar Gürcüstanın c.-q. hissəsini və s. əraziləri tutdular. Səfəvi hökmdarı I Təhmasib [1524–76] Osmanlı təcavüzünün qarşısını almaq məqsədilə bir sıra tədbirlər həyata keçirdi. 1538 ildə Şirvan, 1551 ildə isə Şəki Səfəvilər dövlətinə birləşdirildi. Qızılbaşlar dəfələrlə Şərqi Gürcüstana hücum edib Kartli və Kaxetini yenidən tabe vəziyyətə saldılar. 1548 ildə I Süleyman 3-cü dəfə Azərb.-a yürüş etdi. Təbriz və s. şəhərləri ələ keçirən

Osmanlılar Kaşana və Qumadək irəliləyib İsfahanı tutdular. 1552 ildə I Təhmasib Osmanlıları qabaqlayaraq Kiçik Asiyaya soxulub, Ərzuruma qədər irəlilədi. I Süleyman 1554 ildə 4-cü dəfə Azərb.-a qoşun çəkdi, Naxçıvan və s. yerlər dağıdıldı. Lakin qızılbaş ordusunun inadlı müqaviməti, Təbriz əhalisinin fəal çıxışları və s. Osmanlılara yenə də Azərb.-da möhkəmlənmək imkanı vermədi. 1555 il mayın 29-da bağlanmış Amasya müqaviləsinə əsasən İraqi-Ərəb, Qərbi Gürcüstan və s. ərazilər Osmanlı imperiyasına qatıldı. Qars bölgəsi iki dövlət arasında bitərəf zona elan olundu və viran edildi.

1578–90 illər müharibəsi ilə S.-O. m.-nin 2-ci mərhələsi başladı. Osmanlı imperatorluğu Cənubi Qafqazın ş. hissəsini ələ keçirmək, Xəzər dənizi sahillərinə çıxmaq, Volqa–Xəzər yolunu nəzarət altına almaq və Rusiyanın Qafqaza doğru irəliləməsini dayandırmaq məqsədi güdürdü. Osmanlılara Krım xanlığı da fəal kömək edirdi. I Təhmasibin vəfatından sonra Azərb. Səfəvilər dövləti xeyli zəiflədi. Bundan istifadə etməyə çalışan Osmanlı hökmdarı III Murad [1574–95] Amasya sülhünü pozaraq, Mustafa Lələ paşanın komandanlığı ilə 100 minlik türk ordusunu Səfəvilər dövlətinə qarşı göndərdi. Osmanlılara müqavimət göstərməyə çalışan Çuxursəd hakimi Məhəmməd xan Ustaclu avqustun 9-da Çıldır gölü yaxınlığında baş vermiş döyüşdə məğlubiyyətə uğradı.

1578–90 illər müharibəsinin gedişində Naxçıvan bölgəsinin Osmanlılar tərəfindən ələ keçirilməsi barədə geniş məlumat yoxdur. Bəzi tarixi qaynaqlara əsaslanaraq göstərmək olar ki, Naxçıvan ş. həmin dövrdə Osmanlıların nəzarəti altında olmamışdı. Görünür, Osmanlı ordusu şəhəri tutduqdan sonra onu tərk etmişdir. Osmanlı ordusu Gürcüstandan keçib Şirvana girdi. Osmanlıların qarşısını kəsən qızılbaş sərkərdəsi Arasxan Rumlunun hərbi qüvvələri Krım tatarları tərəfindən darmadağın edildi. Osmanlılar Ərəş, Qəbələ, Şamaxı, Dərbənd, Mahmudabad, Salyan və s. şəhərləri tutdular. Lakin 1578 il noyabrın 28-də Ağsuda Mollahəsən k. yaxınlığında baş vermiş vuruşmada qızılbaş ordusu qalib gəldikdən sonra Osmanlılar Şirvanı tərk edib Dərbəndə çəkilməyə məcbur oldular. 1579 ildə Krım xanı Məhəmməd Girey (Gəray) 100 minlik qoşunla Şimali Qafqazdan keçib Şirvan və Qarabağa hücum etdi. 1583 ildə Fərhad paşa İrəvanı tutdu. Həmin dövrdə Osmanlı ordusunun mühüm strateji mövqedə yerləşən Naxçıvan ş.-ni tutmağa ciddi əhəmiyyət verdiyini belə bir faktdan görmək olar ki, 1585 il avqustun 11-də Ərzurumdan yürüşə başlayan Özdəmiroğlu Osman paşa Naxçıvana doğru hərəkət edəcəyini əskərlər qarşısında rəsmi şəkildə bildirmişdi. Lakin sonradan aydın olmuşdu ki, əsl məqsəd Təbrizi tutmaq imiş və bu səbəbdən də yürüş Naxçıvana deyil, Təbrizə doğru yönəldilmişdi. Tezliklə Osman paşa güclü qoşunla hücum edib inadlı mübarizədən sonra Təbrizi ələ keçirdi. Hətta Təbrizin fəthindən sonra belə Naxçıvan bölgəsinin Osmanlılara tabe olması barədə məlumatlar mübahisəlidir. Belə bir məlumat yalnız 1588 ilin noyabrına aiddir. Yalnız həmin tarixdə Rəvan (İrəvan) bəylərbəyi Gizir paşanın Naxçıvanı zəbt etməsi, vilayətin ələ keçirilməsi barədə səhih məlumat vardır. Bundan sonra Naxçıvan əyaləti 1590 ilin noyabrında tərtib edilən Rəvan əyalət dəftərinə əsasən onun tərkibinə daxil edilmişdi. 1590 il martın 21-də bağlanmış İstanbul sülhünə görə bütün Azərb. (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olmaqla), Gürcüstan, habelə İranın q. vil.-ləri (Nəhavənd, Luristan və s.) Osmanlı imperiyasına birləşdirildi. Osmanlı hərbi komandanlığı Naxçıvan ş.-nin strateji əhəmiyyətini nəzərə alaraq onu özünün hərbi düşərgələrindən birinə çevirmiş və möhkəmləndirmək üçün xüsusi səy göstərmişdi. Beləliklə, işğaldan sonra ayrı-ayrı paşalıq və sancaqlıqlara bölünmüş Azərb. kimi, onun bir hissəsi olan Naxçıvan vilayəti də müvəqqəti olaraq Osmanlı imperatorluğuna qatılmışdı.

1603–12 illər müharibəsi Osmanlıların ələ keçirdiyi Azərb. və b. əraziləri geri qaytarmaq uğrunda aparılırdı. Mərkəzi hakimiyyəti möhkəmlədən və 44 minlik daimi ordu yaradan Səfəvi hökmdarı I Şah Abbas [1587–1629] Təbriz yaxınlığında baş vermiş Sufiyan vuruşmasında (1603) Osmanlı ordusunu məğlubiyyətə uğratdı. Təbriz, Naxçıvan və İrəvan geri qaytarıldı. Təbrizdən sonra ikinci ən mühüm hədəf nöqtəsi kimi Naxçıvanın seçilməsi və azad



edilməsi təsadüfi deyildi. Qaynaqların məlumatına görə, bu zaman Naxçıvan özünün hərbi və ictimai əhəmiyyətinə görə diqqət mərkəzində idi. Odur ki, I Şah Abbas Culfa ş.-ni və Əlincə qalasını ələ keçirdikdən sonra 1603 ilin sonlarında Naxçıvan ş.-nə doğru hərəkət əmri verdi. Təbrizin tutulması və şəhərin hakimi Ali Paşanın əsir düşməsi xəbəri Naxçıvandakı Osmanlı qoşunu içərisində çaşqınlıq yaratmışdı. Bu səbəbdən də şəhər döyüşsüz təslim olmuşdu. Şəhər tutulduqdan üç gün sonra I Şah Abbas Naxçıvana gəlmişdi. Az sonra Osmanlılara qarşı üsyana qalxmış şəhər əhalisinin köməyi ilə Ordubad qalası da qızılbaşlara təslim olmuşdu. Yalnız Çıqaloğlu Sinan paşanın əks-hücumu (1605) nəticəsində Səfəvilərin hərbi yürüşlərinin qarşısı alındı. Osmanlı ordusunun hücumunu dayandırmaq üçün I Şah Abbasın əmrilə Araz çayının sol sahili boyu hər şey məhv edildi və əhali zorla İranın mərkəzi r-nlarına köçürüldü. Tarixdə "böyük sürgün" adı ilə məşhur olan bu köçürmə siyasəti nəticəsində geniş bir ərazi viran edildi. Bu tədbir Naxçıvanda da həyata keçirildi. Naxçıvan əhalisi başlıca olaraq Dizmar və Qaradağ vilayətlərinə, Culfa əhalisi isə İsfahana köçürüldü. Naxçıvan ş. dağıdılmış və viran qoyulmuşdu. O dövrün yazılarından birində deyilirdi: "Culfadan başlayaraq Naxçıvan və Vana qədər bir bina da salamat qalmamışdı". 1606 ildə yenidən hücuma başlayan Səfəvilər tədricən Azərb. və Şərqi Gürcüstanı Osmanlılardan təmizlədilər. 1609–12 illərdə Osmanlıların Azərb.-ı yenidən tutmaq təşəbbüsləri boşa çıxdı. S.-O. m.-nin bu mərhələsində I Şah Abbasın rəğbətini qazanmış erməni əhalisinin xeyli hissəsi Azərb.-a köçmüşdü. I Şah Abbasın hərbi və siyasi zərurət olmadan daha çox azərb.-lıların hesabına həyata keçirdiyi "böyük sürgün" siyasəti Naxçıvan bölgəsinin xarabazara çevrilməsi ilə nəticələndi. 17 əsrdə Azərb.-da olmuş alman, türk, fransız səyyahları bu barədə ətraflı məlumat vermişlər. 1612 ildə İstanbulda bağlanmış sülh şərtlərinə görə zəbt edilmiş ərazilər Səfəvilər dövlətinin tabeliyində qaldı.

1616–18 illər müharibəsi zamanı Osmanlı dövləti itirilmiş torpaqları geri qaytarmağa çalışırdı. 1616 ilin sonunda Osmanlılar İrəvan və Naxçıvana hücum etdilər. Lakin müvəffəqiyyətsizliyə uğrayaraq geri çəkildilər. 1616 ildə 15 minlik qoşunla Azərb.-a soxulan Krım xanı Canıbəy 35 minlik Osmanlı ordusu ilə birləşərək Təbrizə yaxınlaşdı. Onların qoşunu 1618 il sentyabrın 10-da Ərəştenab adlı yerdə (Sərab yaxınlığında) Səfəvilər tərəfindən darmadağın edildi. 1618 ilin sonunda Mərənddə aparılan barışıq danışıqlarında 1612 il İstanbul sülh şərtləri təsdiqləndi.

1623–39 illər müharibəsi Səfəvi ordusunun hücumu ilə başlandı. 1623/24 ildə Bağdadda baş vermiş qiyamdan istifadə edən I Şah Abbas İraqi-Ərəbi ələ keçirdi. Bağdad, Bəsrə, Mosul, Nəcəf və Kərbəla ş.-lərini tutdu. Lakin 1625 ildə Georgi Saakadzenin qaldırdığı üsyan Səfəviləri öz hərbi qüvvələrinin xeyli hissəsini Gürcüstana göndərməyə məcbur etdi. Əks-hücuma keçən Osmanlı ordusu Samsxe-Saatabaqo ərazisini tutdu. 1635 ildə Təbriz və Naxçıvan IV Murad [1624–40] tərəfindən dağıdıldı. 1638 ildə Osmanlılar Bağdadı tutdu. Qəsri-Şirində bağlanan (1639, 17 may) sülh şərtlərinə görə İraqi-Ərəb Osmanlı imperiyasına qatıldı; hər iki dövlət arasındakı sərhəd 1612 il müqaviləsi əsasında təsdiq edildi.

1723–27 illər müharibəsi Osmanlıların hücumu ilə başladı. Əfqan tayfalarının basqını nəticəsində Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən III Əhməd [1703–30] Cənubi Qafqazı və Qərbi İran ərazisini ələ keçirməyə çalışırdı. 1723–25 illərdə Osmanlılar Şərqi Gürcüstanı, Şərqi Ermənistanı, Azərb.-ı (Marağa, Xoy, Naxçıvan, Ordubad, Təbriz, Gəncə, Ərdəbil) və Qərbi İranı zəbt etdilər. Osmanlı işğalı Rusiyanın Xəzər dənizi hövzəsində mənafeyinə ciddi təhlükə törədirdi. Hələ 1722–23 illərdə rus qoşunları Dərbənddən Ənzəliyədək Xəzər dənizi sahillərini işğal etmişdi. 1723 il sentyabrın 23-də bağlanmış Rusiya–İran müqaviləsinə əsasən, həmin ərazilər Rusiyanın tərkibinə keçdi. Beləliklə, Rusiya ilə Türkiyə arasında müharibə təhlükəsi yarandı. Lakin Rusiya və Türkiyə arasında 1724 il iyunun 23-də İstanbulda imzalanan müqavilə bu təhlükəni aradan qaldırdı. Osmanlılar öz işğallarını genişləndirərək Həmədanı (1724) və Qəzvini (1725) tutdular. İsfahana yaxınlaşan Osmanlı ordusunun hücumu 1726 ildə əfqan Əşrəf

tərəfindən dayandırıldı. Həmədanda bağlanmış sülhə (1727, 4 oktyabr) görə Əşrəf Osmanlı sultanını bütün müsəlmanların xəlifəsi kimi tanıdı; türklərin tutduğu ərazilərin Osmanlı imperiyasına keçdiyini təsdiq etdi. İran şahı kimi tanınan Əşrəf sultandan asılı vəziyyətə düşdü.

1730–36 illər müharibəsinin başlanmasına İranda əfqan ağalığına son qoyan və faktiki olaraq hakimiyyəti əlində cəmləşdirən Səfəvi sərkərdəsi Nadir xan Əfşarın (bax *Nadir Şah*) Həmədan sülh şərtləri ilə razılaşmaması səbəb oldu. 1730 ildə Nadir Osmanlıları məğlub edərək onları Həmədan, Kirmanşah və Cənubi Azərb.-dan çıxara bildi. 1731 ildə Nadir Xorasanda əfqanların qiyamını yatırarkən II Şah Təhmasib türklərə qarşı müstəqil hərbi əməliyyata başladı. Lakin Həmədan yaxınlığında məğlubiyyətə uğrayıb, Osmanlılarla sülh bağlamağa məcbur oldu. 1732 il müqaviləsinə əsasən, Araz çayından şm.-da yerləşən Cənubi Qafqaz ərazisi Osmanlı imperiyasının tərkibinə keçdi. Lakin tezliklə II Şah Təhmasibi hakimiyyətdən salan Nadir Osmanlılara qarşı hərbi əməliyyatı genişləndirdi. 1734–35 illərdə Şimali Azərb. və Şərqi Gürcüstan Osmanlılardan təmizləndi. Qars və Eçmiədzin arasında ağır məğlubiyyətə uğrayan (1735, 14 iyun) Osmanlılar sülh danışıqları aparmağa məcbur oldular. İstanbulda bağlanmış (1736, 17 oktyabr) sülhün şərtlərində 1723 ildən başlayaraq Osmanlılar tərəfindən işğal edilmiş bütün ərazilərin İrana qaytarılması nəzərdə tutulurdu. Lakin bu müqavilə həyata keçmədi. Sonralar Nadirin apardığı müvəffəqiyyətli hərbi əməliyyatlar Osmanlıları 1639 il sülh şərtlərini imzalamağa (1746) məcbur etdi.

S.-O. m., müəyyən dövrlərdə azadlıq uğrunda mübarizə epizodları istisna olmaqla, ədalətsiz, işğalçı xarakter daşıyırdı. Müharibələrin bütün ağırlığı hər iki dövlətin zəhmətkeş əhalisinin üzərinə düşürdü. S.-O. m. Cənubi Qafqaz üçün əsl fəlakətə çevrilmiş, çoxlu insan itkisinə, iqtisadi, ictimai və mədəni durğunluğa səbəb olmuşdu. S.-O. m. zamanı Naxçıvan ş., eləcə də vilayətin dəfələrlə əldən-ələ keçməsi nəticəsində bölgə ərazisi tamamilə dağıdılmış, çoxlu mədəniyyət abidələri məhv edilmiş, əhalinin yaşayış səviyyəsi kəskin şəkildə pisləşmişdi. Naxçıvan bölgəsinin Səfəvilər dövlətinin tərkibində saxlanmasına baxmayaraq, dağıdılmış və talan edilmiş şəhərin bərpası uzun müddət mümkün olmamışdı.

*Əd.:* Əfəndiyev O., Azərbaycan Səfəvilər dövləti, B., 1993; Məmmədov R., Naxçıvan şəhərinin tarixi oçerki, B., 1971; Kırzıoğlu F., Osmanlıların Qafqaz ellərini fəthi (1450–1590), Ankara, 1976; Kütükoğlu, Osmanlı–İran siyasi münasibətləri, c. 2, İstanbul, 1993; Nəcəfli T., Osmanlı-Səfəvi müharibələri və Naxçıvan (XVI əsr – XVII əsrin əvvəlləri), "Naxçıvan" məqalələr toplusu, B., 1999; Рахмани А., Азербайджан в конце XVI и в XVII веке., Б., 1981; Петрушевский И., Азербайджан XVI-XVII., вв. ССИА, вып. I, Б., 1949.

**SƏFİYEV** Tağı bəy Baxşəli bəy oğlu (1878, Naxçıvan mahalının Şərur-Dərələyəz qəzasının Baş Noraşen (indiki Şərur r-nunun Cəlilkənd k.) – 1937, orada) – maarifçi. C. Məmmədquluzadənin dostu və məsləkdaşı. İlk təhsilini C.Məmmədquluzadənin dərs dediyi ikisinifli zemstvo məktəbində almış, sonra isə onun təşviqi ilə İrəvan Müəllimlər Seminariyasında oxumuşdur (1889–93). Seminariyanı bitirdikdən sonra iki il Baş Noraşen məktəbində dərs demiş, 1895–96 dərs ilindən isə pedaqoji fəaliyyətini C. Məmmədquluzadənin müdir olduğu məktəbdə ikinci müəllim kimi davam etdirmişdir. "Molla Nəsrəddin" jurnalında "Baş Noraşenli" imzası ilə çıxışlar etmişdi. Sovet hakimiyyəti illərində pedaqoji fəaliyyətini davam etdirmiş, *Qars müqaviləsinin (1921)* imzalanması mərasimində Naxçıvan diyarının təmsilçisi olmuşdur. 1923 ildə Naxçıvan Xalq Maarif Komissarlığında inspektor vəzifəsində çalışmış, "Rusca-azərbaycanca lüğət" (1929) hazırlamışdır. "Maarif zərbəçisi" döş nişanına layiq görülmüşdür.

*Əd.:* Həbibbəyli İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri., B, 1997; yenə onun, Qars müqaviləsində Naxçıvan təmsilçisi, "Fikir" jurn., Naxçıvan, 1999, səh. 13–14.

**SƏLƏSÜZ** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Mənsəbindən 36 *km* məsafədə, Sələsüz k. yaxınlığında ona tökülür. Uz. 19 *km*, hövzəsinin sah. 66 $km^2$-dir. Qar, yağış və qrunt suları ilə qidalanır. Çayda dövri olaraq Sələsüz k.-nin əkin sahələrinə böyük ziyan vuran qeyri-struktur sellər müşahidə edilir.





Orta məktəb. Sələsüz kəndi.

**SƏLƏSÜZ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* q.-də, Yevlax–Laçın–Naxçıvan avtomobil yolunun kənarında, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 578 nəfər (2000); əkinçilik, bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, ambulatoriya, rabitə şöbəsi var.

**SƏLƏSÜZ MİNERAL SU BULAĞI** – Şahbuz r-nu ərazisində, Sələsüz və Əzizbəyov k.-lərinin arasındadır.

Balneoloji tərkibi:

$$CO_2 0{,}7\, M0{,}9 \frac{HCO_3 64\, SO_4 32}{Mg46\, (Na+K) 30\, Ca24} \cdot pH6{,}3\;\; D\, 8\, m^3/gün\;\; T\, 16^\circ C$$

Suyu karbon qazlı, az minerallaşmış hidrokarbonatlı-sulfatlı, maqneziumlu–natriumlu–kalsiumludur. Yataqda hidrogeoloji tədqiqat aparılmamışdır.

**SƏLİM KARVANSARASI** – Azərb.-ın tarixi Zəngəzur mahalında, dəniz səviyyəsindən 2410 *m* hünd.-də, Səlim keçidindədir. Asiya ilə Avropanı birləşdirən tarixi Böyük İpək Yolunun üstündə yerləşirdi. Yaxşı cilalanmış bazalt daşından inşa edilmişdir. Salonu 7 qoşa dirəklə orta (5,3 *m*) və yan (3,05–3,2 *m*) hissələrə – neflərə bölünmüşdür. Bina tikilərkən giriş qapısının (1,80x1,13 *m*) üzərindəki divara hörülmüş daşda (1,87x0,86 *m*) cızma üsulu ilə həkk olunmuş farsca kitabədə karvansaranı Elxani hökmdarı Əbu Səidin vaxtında Çuşkyab ibn Ləvənd ibn Şah Nur ibn ... adlı şəxsin vəsaiti ilə h. 729/1328–29 ildə inşa edildiyi göstərilir. İçəridə ş. divara sonradan ermənicə bir kitabə də hörülmüşdür. 1984 ildə Yerevanda çap olunmuş bukletdə həmin kitabəyə istinadən karvansara əsassız və yanlış olaraq h. 781/1379280 ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilmiş erməni memarlıq abidəsi kimi qələmə verilir, ərəb-fars dilli kitabənin isə guya ermənicə kitabənin eyni və sonradan əlavə edildiyi iddia olunur. Ərəb qrafikalı kitabə sanki qəsdən pozulmuş və oxunmaz hala salınmışdır. Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, S. k. Araz boyunca Böyük İpək Yolunun abadlaşdırılmasına çalışan Elxani hökmdarları vaxtında inşa edilmiş abidələrdən olub, Qarabağ memarlıq məktəbinə mənsubdur.

*Əd.:* Nemətova M. S., Köprükənddə konfrans, "Elm və həyat" jurnalı, 1997, № 2; yenə onun, Корпус эпиграфических памятников Азербайджана, т. 3. Арабо-персо-тюркоязычные надписи Нахичеванской Автономной Республики (XII-XX вв.), Б., 2001, стр. 58–59.

**SƏLİMOV** Həbib bəy Hacı Yusif oğlu (? – avqust 1920, Naxçıvan ş.) – hərbi xadim, gen.-mayor (26.2.1919). Rusiya ordusunda xidmət etmiş, podpolkovnik rütbəsi almışdı. 1918 ildə Qafqaz İslam Ordusunun (QİO) təşkilində və hərbi əməliyyatlarında fəal iştirak edərək QİO-nun komandanı Nuru Paşanın əmri ilə Azərb. korpusu yenidən qurularkən onun qərargah rəisi təyin edilmiş. 1918 ilin avqust-sentyabrında Bakının bolşevik-daşnak hərbi qüvvələrindən azad olunması uğrunda döyüşlərdə cəbhənin Cənub qrupuna rəhbərlik etmiş, yüksək hərbi təşkilatçılıq qabiliyyəti və şücaət göstərmişdi. Bakı azad edildikdən (1918, 15 sentyabr) sonra S.-a polkovnik rütbəsi verilmişdi. 1919 ilin martında Azərb. ordusunun, ayrı-ayrılıqda fəaliyyət göstərən baş qərargahı ilə baş idarəsinin birləşdirilməsi əsasında yaradılan Əlahiddə Qərargahın rəisi təyin edilmişdi. 1919 il mayın 15-də rus-erməni bolşevikləri Sovet Rusiyasının təhriki və yardımı ilə "Muğan Sovet Respublikası" elan etmiş, sonra isə Azərb.-ın c.-ş. bölgəsini ələ keçirmişdilər. Azərb. hökumətinin respublika ərazisinin bütövlüyünü qorumaq üçün göndərdiyi qoşunlara (4 min nəfərlik iki alay) S. komandanlıq etmişdi; iyulun 25-də "Muğan Sovet Respublikası" süqut etmiş, əldə edilmiş hərbi qənimət (1 təyyarə, 24 top, 60 pulemyot) Azərb. ordusuna təhvil verilmişdi. 1920 ilin martında (Novruz bayramı günlərində)

Ermənistan Qarabağ ermənilərini qiyama təhrik edərək, Qarabağı Azərb.-dan qoparmağa cəhd göstərdikdə (Xankəndidə yerləşən Azərb. qarnizonuna hücum, Əskəran qalasının ələ keçirilməsi, Şuşaya hücum və s.) Azərb. hökuməti S.-un komandanlığı altında korpusu ora göndərmişdi. Ağır döyüşlərdən sonra Əskəran geri alınmış, erməni hərbi hissələri ağır məğlubiyyətə uğradılmışdı; Ermənistan tərəfi aprelin 26-da sülh istəməyə məcbur olmuşdu. RSFSR-in XI Qızıl Ordusu Bakıya daxil olduqdan və Azərb. SSR elan edildikdən (1920, 28 aprel) sonra Qarabağda olan S. Azərb. Milli Ordusunun bir hissəsi (2000 nəfər) ilə İrana mühacirət etmiş, oradan isə Naxçıvana gəlmişdi. Naxçıvanda Sovet hakimiyyəti elan edildikdən (1920, 28 iyul) sonra XI Qızıl Ordu hərbi şurasının hökmü ilə güllələnmişdir.

**SƏMƏDOV** Müştəba Mürsəl Yusif oğlu (d. 1937, Zəngəzur mahalı) – geoloq. Nax. MR əməkdar mühəndisi, "Yer təkinin əlaçı kəşfiyyatçısı". Azərb. Dövlət Un-tinin (indiki BDU) geologiya-coğrafiya fakültəsini bitirmişdir (1959). Zəngilan r-nu və Nax. MR ərazisində geoloji-axtarış partiyalarının rəisi (1966–77), Naxçıvan geoloji kəşfiyyat ekspedisiyasının baş mühəndisi və rəisi (1977–81, 1986–93) olmuş, bir sıra filiz, qeyri-filiz yataqlarının və təzahürlərinin (Vejnəli qızıl, Göydağ mis-porfir, Darıdağ civə, Qanlıgöl-Zərləl, Batabat qızıl, Kükü, Salvartı kaolin, Salvartı opal) aşkar olunmasında yaxından iştirak etmişdir. 1993 ildən Azərb. Respublikası Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsində (indiki Ekologiya və Təbii Sərvətlər Komitəsi) mərkəzi laboratoriyanın müdiridir. 15 elmi məqalənin, 85 səmərələşdirici təklifin müəllifidir.



Orta məktəb. Sarxanlı kəndi.

**SƏNGƏR** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 2911 *m*. Günbəzvarı formadadır; şm. yamacı sıldırımdır.

**SƏNGƏRTƏPƏ** – Şahbuz r-nu ərazisində dağ. Nurs k.-ndən 500 *m* şm.-ş.-dədir. Hünd. 1757 *m*.

**SƏPƏRDƏRƏ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Qapıcıq və Yağlıdərə dağlarının arasındadır. Hünd. 3827 m.

**SƏRDAR DÜZÜ** – Bax *Şərur düzü*.

**SƏRDARABAD QALASI** – müdafiə tikilisi; 19 əsrin əvvəllərində İrəvan sərdarı Hüseynqulu xanın göstərişi ilə İran – Türkiyə sərhədinin yaxınlığında, Alagöz d. istiqamətindəki böyük düzənlikdə, qədim Azərb. torpaqlarında tikilmişdi. Qalanın məhz burada tikilməsindən məqsəd iki dövlət arasında başlanan hərbi yürüşlərin ilk zərbəsini öz üzərinə götürmək idi. Qala düzbucaq şəklində inşa edilmişdi; Hündür qüllələri olan iki uca divarı vardı. Qoşa divar qalanın müdafiə qabiliyyətini artırırdı. Qalaya giriş üçün böyük darvazalar düzəldilmişdi. Qala divarlarının üstündə toplar yerləşdirilmişdi. Buradakı qarnizonun sayı 2 min nəfərə çatırdı. Bir sıra qanlı döyüşlərin şahidi olmuş S. q. ikinci Rusiya–İran müharibəsi (1826–28) gedişində 1827 il avqustun sonunda rus qoşunları tərəfindən mühasirəyə alınmış, inadlı müqavimətdən sonra sentyabrın 20-də süqut etmişdi.

*Əd.:* S ü l e y m a n o v M., İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, B., 1997; Azərbaycan tarixi, 7 cilddə, c. 4., B., 2000.

**SƏRXANLI,** S a r x a n l ı – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Əh. 500 nəfər (2000); yemçilik, çuğundurçuluq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, tibb məntəqəsi var.

**SƏRKİDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Əylisçayla Ordubadçayın suayırıcındadır. Hünd. 2697 *m*.

**SƏRPİDAŞ** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Gecəzur k.-ndən 2,5 *km* c.-ş.-dədir. Hünd. 2499 *m*. Şm. və c. yamacları sıldırımdır.

**SƏRRAF QASIM** (Qasım Əyyub oğlu R ü s t ə m o v u n ədəbi adı; d. 1939, Şahbuz r-nunun Aşağı Qışlaq k.) – aşıq-şair. Azərb. Kənd



Təsərrüfatı İn-tunun (indiki Kənd Təsərrüfatı Akademiyası) zootexnika fakültəsini bitirmişdir (1967). Uşaqlıqdan sözə, saza həvəs göstərmiş, tələbəlik illərində aşıq şerləri yazmağa başlamışdır. Məşhur aşıqlar Məzahir Daşqın, Aşıq İmran, Aşıq Əkbər onun şerlərini oxumuşlar. Aşıq Hüseyn Saraclının "Naxçıvan səfəri" dastanı Aşıq Hüseynlə S. Q.-ın deyişmələri əsasında qoşulmuşdur. Bəzi şerləri dövri mətbuatda dərc olunmuşdur.

*Əd.:* Azərbaycan folkloru antologiyası, c.1 Naxçıvan folkloru, B., 1994.

**SƏRŞƏHƏR** – Ordubad ş.-ndə qədim məhəllə. Ordubadçayın sol sahilindədir. "Sərşəhər" sözü, "şəhərin başı, mərkəzi" mənasındadır. Burada qədim tikililərə daha çox təsadüf edilir. 18 əsrin əvvəllərində Naxçıvan sancağının tərkibinə daxil olan Azadciran nahiyəsi Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və digər tarixi-memarlıq tikililəri var. S. orta əsr məhəllələrinin gözəl örnəyi kimi keçmiş cəhətlərini qoruyub saxlamaqla, buradakı məscid (bax *Sərşəhər məscidi*), örtülü bazar bitkin kompleks təşkil edir.

**SƏRŞƏHƏR MƏSCİDİ** – Ordubad ş.-ndə məhəllə məscidi. Memarlıq baxımından 18 əsrə xas üslubi və tipoloji xüsusiyyətləri əks etdirir. İkimərtəbəli məscidin mehrabı, ağac sütunları, şəbəkəli pəncərələri və meydanı var. 1986 ildə bərpa və təmir edilmiş, meydan kompleksi şəklinə salınmışdır.

**SIRTMIŞAN,** B i b q ə t ə l – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Ağdərə filiz mədənindən 1,5 *km* c.-ş.-dədir. Hünd. 3102 *m*. Sıldırım yamaclıdır.

**SİDQİ** (Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu S ə f ə r o v u n təxəllüsü; 22.3.1854, Ordubad ş. – 9.12.1903, indiki Şərur r-nunun Qarabağlar k.; Naxçıvan ş.-ndə dəfn edilmişdir) – maarifçi, pedaqoq, şair, publisist. Mədrəsə təhsili almış, klassik şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənmişdir. Gəncliyində ticarətlə məşğul olmuş, ailəsini dolandırmaq üçün çayxana açmışdı; çayxana, bir növ, ziyalıların, ədəbiyyat həvəskarlarının toplaşdığı mədəni mərkəz, qiraətxana rolu oynayırdı. S. Ordubadda "Əxtər" (1892, maarifçi ziyalı Hüseyn Sultan Kəngərli ilə birgə), Naxçıvanda isə "Tərbiyə" ("Məktəbi-Tərbiyə", 1894) məktəbi təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmış, ədəbi-mədəni tədbirlərin və teatr tamaşalarının əsas təşkilatçılarından olmuşdur. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin ("Nümuneyi-əxlaq", "Töhfeyi-bənat, yainki Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" və s.) müəllifidir (əlyazmaları Azərb. Mlli EA M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanır). S. müntəzəm surətdə bədii yaradıcılıqla da məşğul olmuşdur. Ordubadda fəaliyyət göstərən "*Əncüməni-şüəra*" ədəbi məclisinin fəal üzvlərindən idi. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi qəzəllərdən (300-dən çox), "Məsnəviyyati-mənəviyyə" adlı irihəcmli mənzumədən, "Kəblə Nəsir" mənzum hekayətindən, "Heykəli-insanə bir nəzər" ədəbi-fəlsəfi traktatından (1912 ildə kitab halında çap edilmişdir), 20-dən çox hekayədən ibarətdir. S. Azərb. uşaq nəsrinin ilk yetkin nümunələrini yaratmışdır. "Məktəb hekayələri" kimi tanınan bu əsərlərdə ("Məktəbə davam", "Gözütox uşağın hekayəti", "Yalançı uşaq", "Səxavətli uşaq" və s.) o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətləri bədii şəkildə təbliğ etmişdir. Onun təşəbbüsü ilə "Tərbiyə" məktəbində A. S. Puşkinin anadan olmasının 100 illik yubileyi keçirilmiş (1899), bu münasibətlə S. məruzə etmişdir (1914 ildə kitabça halında çapdan çıxmışdır). S. publisistika sahəsində də fəaliyyət göstərmiş, "Tərcüman" (Baxçasaray), "Əxtər" (İstanbul), "Həblülmətin" (Kəlkətə), "Kaspi" (Bakı), "Nasiri" (Təbriz) və s. qəzetlərlə yaxından əməkdaşlıq etmiş, ara-sıra məqalələr dərc etdirmişdir. Ana dilində "Çıraq" adlı qəzet çıxarmaq üçün təşəbbüs göstərmişdir.

Ə s ə r l ə r i: Seçilmiş pedaqoji əsərləri (tərtib edəni M.Aslanov), B., 1967; Məktəb hekayələri (toplayıb tərtib edəni və ön sözün müəllifi İ.Həbibbəyli), B., 1996.

*Əd.:* M o l l a y e v İ., M. T. Sidqinin pedaqoji görüşləri, B., 1997; Э й в а з о в а Я., Мамед Таги Сидги, Б., 1986.



Sidqi Məhəmməd Tağı



Sidqi Məmmədəli

**SİDQİ** Məmmədəli Məhəmməd Tağı oğlu (1888, Naxçıvan ş. – 1956, Bakı) – jurnalist. Məhəmməd Tağı *Sidqinin* oğludur. Atasının Naxçıvanda açdığı "Tərbiyə" məktəbində təhsil almış, İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Naxçıvanda müəllim olmuş, teatr tamaşalarında iştirak etmişdir. 1905–08 illərdə "Həyat" və "İrşad" qəzetlərində mə-

qalaləri dərc olunmuşdur. C.Məmmədquluzadə 1910 ildə S.-ni Tiflisə çağıraraq, "Molla Nəsrəddin" jurnalının redaktorluğunu müvəqqəti (1910, iyun – 1911, oktyabr) ona tapşırmışdı. Jurnalda yaxından iştirak etmişdir. A. S. Puşkinin 100 illik yubileyi münasibətilə atasının məruzəsini (1899) Bakıda kitab halında nəşr etdirmişdir (1914). Sovet hakimiyyəti illərində Bakıda müəllimlik və jurnalistlik fəaliyyəti göstərmiş, "Kommunist" qəzeti (indiki "Xalq qəzeti") redaksiyasının müdiri vəzifəsində çalışmışdır.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**SİKLOP TİKİLİLƏRİ** – əsasən, iri və yonulmamış qaya parçalarından, bərkidici məhlul işlədilmədən hörülmüş müdafiə qalaları. S. t. adı qədim yunanlar tərəfindən əfsanəvi nəhənglərə (sikloplara) aid edilən Mikena mədəniyyəti tikililərinə verilmişdi. Meqalit abidələrinə aid edilir. S. t. Eneolit, ən çox Tunc, ilk Dəmir dövrlərinə aiddir. Erkən orta əsr qəsr və qalaları son S. t. sayılır. Yerli əhali arasında "qala", "düzülü daş" və s. də adlanan S. t. Azərb.-da 1927 ildən öyrənilməyə başlanmışdır. Azərb.-ın qədim S.t. 1, 2 və ya 3 cərgəli divarlardan ibarətdir. 3 cərgə divarı olan qalalar müdafiə üçün daha möhkəm və əlverişlidir. Siklop qalaların 2 və 3 cərgəli divarları bir-birindən 10–15 *m* aralı olub, paralel şəkildə tikilmişdir. S. t.-nin içində və ətrafında müxtəlif tip qəbir-abidələrə də təsadüf olunur. Nax.MR ərazisi də S. t. ilə zəngindir. Yaxın qonşuları Assuriya və Urartunun aramsız hücumları bu ərazidə məskunlaşmış tayfaları bir sıra istehkam qurğuları yaratmağa vadar edirdi. Bu məskənlər get-gedə möhkəmləndirilmiş qala görkəmi aldığından, sonralar "S. t." adlanırdı. Həmin dövrün tikililərində iri daş bloklarından (1,5x2,0x1,0 *m*) hörülən qala divarlarının hədsiz qalınlığı diqqəti cəlb edir. Nax. MR ərazisindəki Oğlanqala, Əznəbürtqala, Çalxanqala, Govurqala, Qazançıqala və s. bu cür siklopik istehkamlı qurğulara aid etmək olar. Nax. MR ərazisində S. t. tipləri təkcə Cənubi Qafqaz deyil, bütün Ön Şərq müdafiə qurğuları memarlığının inkişafına təsir göstərmişdir.

*Əd.:* Ə l i y e v V., Tarixin izləri ilə, B., 1975; М е щ а н и н о в И.И., Циклопические сооружения Закавказья, Изв.ГАИМК, т. 13, в. 4-7, 1932; К е р и м о в В., Оборонительные сооружения Азербайджана (историко-архитектурный очерк), Б., 1998.

**SİNAN** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Nəcəfalı Dizə k.-ndən 2,5 *km* ş.-dədir. Hünd. 1151 *m*.

**SİPAHİ AŞIRIMI** – Ordubad r-nu ərazisində dağ aşırımı. Zəngəzur silsiləsinin c.-q. yamacında, Gilançayla Parağaçayın suayırıcında, Parağa k.-ndən 1,5 *km* şm.-ş.-dədir. Hünd. 1825 *m*.

**SİPƏRDAĞ** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Küküçayın mənbə hissəsindədir. Hünd. 3117 *m*. Günbəzvarı formadadır.

**SİRAB** – Babək r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Mənsəbindən 23 *km* məsafədə ona tökülür. Uz. 11 *km*, hövzəsinin sah. 29 $km^2$-dir. Əsasən, yağış və qrunt suları ilə qidalanır. Suvarmada və eyniadlı su anbarının doldurulmasında istifadə edillir.

**SİRAB** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 14,6 *km* şm.-ş-də, dağətəyi ərazidədir. Əh. 2504 nəfər (2000); taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və arıçılıqla məşğuldur. Orta məktəb, 2 kitabxana, poçt şöbəsi, ambulatoriya, mədəniyyət evi, məscid var. Sirab mineral su yatağı k.-in yaxınlığındadır.




Siklop tikilisi. E. ə. 2-1-ci minilliklər Oğlanqala. Şərur rayonu.



**SİRAB ARAQONİT YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 15 *km* şm.-da Sirab k.-ndən 3 *km* şm.-q.-dədir. Geoloji quruluşunda Paleogenin gil, üzvi və silisli pelitomorf əhəngdaşıları, dördüncü dövr yaşlı travertinlər və allüvial-delüvial çöküntülər iştirak edir. Yataqda araqonit ağ, çəhrayı-ağ, sarımtıl-ağ, şüşə görünüşlü, eyni tərkibli mərmər oniksi ilə təmsil olunmuşdur. Yataqda 5 damar və 5 layarası mərmər oniksi aşkar edilmişdir; qalınlığı 0,1–0,4 *m*, uz. 5–100 *m* təşkil edir. Sah. 2,5 $km^2$-dir. Yüksək cilalanma qabiliyyətinə malik olduğuna görə dekorativ daş kimi bəzək məmulatlarının hazırlanmasında istifadə etmək olar. Ehtiyatı 234 $m^3$-dir.

**SİRAB MAĞARASI** – bax *Daşqala mağarası*.

**SİRAB MƏDƏNLƏRİ** – Babək r-nunda eyniadlı mis yatağında qədim mədən qalıqları. İki yerdə təsadüf edilmişdir. Birincisi Xalxaldan Quyuludağa doğru uzanan torpaq yolun sol tərəfindədir. Tunel tipli oval qaladan ibarət (eni 1,55 *m*, dərinliyi 2 *m*, hünd. 2,3 *m*) olan qədim mədənin divarlarında filiz qalıqlarına, küt alətlə vurulmuş zərbə izlərinə rast gəlinmişdir. Ətrafında filizin ilk saflaşdırılması zamanı toplanmış süxur qalıqları vardır. Bir qədər aralıda yerləşən ikinci mədən geoloji kəşfiyyat qazıntıları zamanı dağıdılsa da, kiçik bir hissəsi salamat qalmışdır. Mədənlərin ətrafından çəhrayı rəngli gil qab qırıqları (çölmək, dopu, kasa tipli qablar) aşkar olunmuşdur. Tapıntılar, əsasən Tunc və Dəmir dövrləri üçün səciyyəvidir. S. m. Kültəpə I və II istehsal mərkəzlərinə yaxın olduğundan, bu mədənlərdən e. ə. 3–1-ci minilliklərdə istifadə olunduğu ehtimal edilir.

**SİRAB MİNERAL SU YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 18 *km* şm.-ş.-də, Sirab k.-ndən 3 *km* şm.-da, dəniz səviyyəsindən 1100 *m*, hünd.-dədir. Sirab (ş i r l i s u), yaxud Sərab (b a ş s u) suyu qədim zamanlardan məşhur olmuş, mühüm müalicə vasitəsi kimi tanımışdır. Yataqda kimyəvi tərkibinə görə fərqlənən üç tip su aşkar edilmişdir.

I tip – 9 və 12 №-li quyulardan Orta Eosenin alevrolitli, çatlı, gilli süxurlarından alınmışdır; kimyəvi tərkibinə görə az minerallaşmış, karbon qazlı, hidrokarbonatlı kalsiumlu-natriumludur. "Narzan" (Kislovodsk) tipli sulara yaxındır.

Balneoloji tərkibi:

$$CO_2 1{,}0-1{,}5\,M\,2{,}6-3{,}0\,\frac{HCO_3 79 SO_4 14}{Ca52(Na+K)27\,Mg21}\cdot D\,1470\,m^3/\,gün\;\;T\,20^\circ C$$

II tip – 8 №-li quyudan, 531 *m* dərinlikdən alınmışdır; kimyəvi tərkibinə görə karbon qazlı, orta dərəcədə minerallaşmış, hidrokarbonatlı, natriumludur; "Borjomi" (Gürcüstan) tipli sulara yaxındır.

Balneoloji tərkibi:

$$CO_2 1{,}2\,M\,5{,}5-6{,}5\,\frac{HCO_3(72-81)\,Cl(11-19)}{(Na+K)62-82\,Ca\,(12-15)}\cdot D160\,m^3/gün\;T26^\circ C\;pH\,6{,}8$$

III tip – 10 №-li quyudan, 075–1080 *m* dərinlikdən alınmışdır; kimyəvi tərkibinə görə karbon qazlı, mərgmüşlü, yüksək dərəcədə minerallaşmış, hidrokarbonatlı-xlorlu, natriumludur; Saxalindəki "Sineqorsk" və Culfadakı "Darıdağ" tipli sulara uyğundur.

Balneoloji tərkibi:

$$CO_2 0{,}9\,As\,2{,}1\,mq/l\,M\,29{,}7\,\frac{Cl\,54\,HCO_3 45}{(Na+K)\,95\,Mg3}\cdot pH6{,}6\,D\,95m^3/gün\;T\,29^\circ C$$

Yatağın ehtiyatı 1053 $m^3$/*gün* təsdiq edilmişdir (1966). Sudan mədə-bağırsaq, qara ciyər və s. xəstəliklərin müalicəsində istifadə olunur.

**SİRAB MİNERAL SUDOLDURMA ZAVODU** – yeyinti sənayesi müəssisəsi. Babək r-nunun Sirab k.-dən şm.-da yerləşir. 1968 ildə yaradılmışdır. Azərb. Mineral Sular İstehsalat Birliyinin tərkibində idi. İlkin olaraq 3 xətt (saatda 6000 şüşə) istismara buraxılıb. 1984 ildə z-dda istehsal prosesləri yenidən qurulmuş və əlavə 2 xətt də quraşdırılmışdır. 1989 ildə z-d ayda 4,5 mln. şüşə su istehsal etmişdir. 1999 ildən müstəqil z-d kimi fəaliyyət göstərir.



Sırab su anbarı.

**SİRAB NEKROPOLU** – Babək r-nunun eyniadlı kəndindən c.-da orta əsrlərə aid arxeoloji abidə. Sah. təqr. 5 *ha*. Əsasən, q.-dən ş.-ə doğru istiqamətlənmiş düzbucaqlı torpaq qəbirlərdən ibarətdir. Başdaşılarının əksəriyyəti düşmüşdür. Saxlanan başdaşılarının bəzisi yastı daş plitələrdən ibarət olub, yuxarısı tacvarı sonluqla tamamlanmışdır. Bəzi başdaşılarının üzərində ərəbdilli yazılara rast gəlinir. Qoç formalı başdaşılarının üst hissəsində də ərəbdilli yazılar var.

**SİRAB SU ANBARI** – Babək r-nunda, Sirab k. yaxınlığındadır. 1979 ildə istifadəyə verilmişdir. Sah. 1,54 $km^2$. Faydalı həcmi 11,6 mln. $m^3$. Suyu kanalla (uz. 5,5 *km*, sukeçirmə qabiliyyəti 5 $m^3$/san) Naxçıvançaydan götürülür. Suvarmada istifadə edilir. Su anbarı istifadəyə verildikdən sonra Babək r-nunda 4 min *ha* sahə əkinə yararlı hala salınmışdır. Mövsümi tənzimləməyə malikdir.

**SİSƏKBƏR** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3826 *m*. Konusvarı formadadır.

**SİSQATAR** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3093 m. Günbəzvarı formadadır.

**SİSYAN NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"ndən aydın olur ki, S. n. 42 yaşayış məntəqəsini əhatə etmişdir. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 8 kəndində müsəlmanlar (azərb.-lılar), 3 kəndində xristianlar, 3 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 192916 ağça olub, Naxçıvan sancağının illik gəlirinin 7,3%-ni təşkil edirdi.

*Əd.*: Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.

**SİYAQUT** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 10 *km* c.-ş.-də, Bakı–Şərur d. y.-dan 3 *km* aralı, Şərur düzündədir. Əh. 1427 nəfər (2000); meyvəçilik, tərəvəzçilik və çuğundurçuluqla məşğuldur. Orta məktəb, 2 kitabxana, klub, kinoqurğu, tibb məntəqəsi, məscid, istirahət parkı, mədəniyyət mərkəzi, 200 yerlik ATS var.

**SOFULULAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan bir sıra qol və tirələrin içərisində sofulu nəslinin də adı çəkilir.

**SOLTANBUD** – Culfa r-nu ərazisində dağ. Zəngəzur silsiləsində Əlincəçayın yuxarı axını hövzəsindədir. Hünd. 2272 *m*. Eosen yaşlı tuflu konqlomerat, brekçiya, qumdaşı və porfiritlərdən təşkil olunmuşdur. Otlaqdır.

**SOLTANBUD** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c-q. yamacında Dəmirlisu çayının mənbə hissəsindədir. Hünd. 2277 *m*. Günbəzvarı formadadır.

**"SOSİALİST MALDARLIĞI"** – qəzet. Şahbuz Rayon İcra Hakimiyyətinin orqanı "*Oğuz səsi*" qəzetinin 1936–66 illərdə adı.

**"SOVET CULFASI"** – qəzet. Culfa Rayon İcra Hakimiyyətinin orqanı "*Arazın səsi*" qəzetinin 1951–59 illərdə adı.

**"SOVET NAXÇIVANI"** – qəzet. "*Şərq qapısı*" qəzetinin 1980 illərdə adı. Rus dilində də ("Sovetskaya Naxiçevan") nəşr edilmişdir.

**SOVETABAD** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* c.-ş.-də, Arpaçayın sağ sahilində, Şərur düzündədir. Əh. 500 nəfər (2000); heyvandarlıq, yemçilik, əkinçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var. Kənd elektrikləşdirilmiş, telefonlaşdırılmışdır. Adı dəyişdirilərək Xətai adlandırılmışdır.

**SOVXOZ** – Şərur r-nunda kənd. Siyaqut icra nümayəndəliyinin tərkibindədir. R-n mərkəzindən 16 *km* aralıdır. Əh. 635 nəfər (2000); heyvandarlıq və yemçiliklə məşğuldur. Məktəb, tibb məntəqəsi var.

**SOYUQDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3146 *m*. Konusvarı formadadır.



**SOYQIRIMI** (1828–1921 illərdə Naxçıvanda ermənilərin azərbaycanlılara qarşı soyqırımı) – Rusiya–İran müharibələri (1804–13; 1826–28) nəticəsində bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Şm. Azərb. xanlıqları, o cümlədən Naxçıvan və İrəvan xanlıqları Rusiyaya ilhaq edildikdən sonra çar Rusiyası hələ 18 əsrin əvvəlindən Cənubi Qafqazın ş. hissəsində xristian dövləti yaratmaq kimi məkrli niyyətini gerçəkləşdirmək məqsədi ilə erməniləri İran və Türkiyədən kütləvi surətdə Azərb.-a, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə köçürməyə başladı. Ermənilərin əzəli Azərb. torpağı olan Naxçıvanda məskunlaşdırılması əhalinin milli tərkibində müəyyən dəyişikliyə səbəb oldu. 1828 ilədək azərbaycanlılar diyarın əhalisinin 92 faizini təşkil edirdilərsə, 1897 ildə bu, 66,3 faizə enmiş, ermənilərin sayı isə artaraq 32,7 faizə çatmışdı. Ermənilər azlıq təşkil etmələrinə baxmayaraq, havadarlarının köməyi ilə bu bölgədə "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Bununla da, əslində, azərb.-lıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. Ermənilər 19 əsrin sonunda yaradılmış millətçi və terrorçu "Hnçak" və "Daşnaksütyun" partiyalarının təşviqi ilə silahlanaraq, Naxçıvanın "qədim erməni torpağı" olması barədə uydurma iddialarla çıxış etməyə, diyarın ayrı-ayrı yerlərində silahsız, dinc azərbaycanlı əhaliyə qarşı qanlı S. əməlləri törətməyə başladılar.

20 əsrin əvvəlindən bu cinayətlər Azərb.-ın digər bölgələrində olduğu kimi, Naxçıvanda da açıq və geniş miqyas aldı. 1905 il mayın əvvəlində Naxçıvanın Cəhri, Tunbul, Əliabad və s. kəndlərində azərbaycanlılar amansızlıqla qətlə yetirildi; noyabr ayında kazakların köməyi ilə Cəhri kəndi büsbütün yandırıldı, Xanlıqlar, İtqapan kəndləri dağıdıldı; Naxçıvan şəhərində 35 dükan, 75 anbar və bütünlüklə bazar yandırıldı. Bu qanlı hadisələr zamanı bölgədə dinc əhalidən yüzlərcə ölən və yaralanan oldu; çoxlu naxçıvanlı ailəsi İran ərazisində sığınacaq tapdı.

Birinci dünya müharibəsindən, Rusiyada 1917 il fevral inqilabından və oktyabr çevrilişindən istifadə edən ermənilər öz məkrli niyyətlərini bolşevik bayrağı altında gerçəkləşdirməklə, xalqımıza qarşı S. cinayətlərini Bakı, Şamaxı, Quba, Qarabağ, Lənkəran və Azərb.-ın digər bölgələrində olduğu kimi, Zəngəzurda və Naxçıvanda da xüsusi qəddarlıqla davam etdirmiş, 1918–21 illərdə isə Ermənistanın dövlət siyasəti səviyyəsində daha amansızlıqla həyata keçirmişlər. Andronik, Njde və digər qaniçənlərin başçılıq etdikləri quldur dəstələri təkcə 1918 ildə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq azərbaycanlı kəndini viran qoymuş, yandırmış, əhalisinin çoxunu işgəncə ilə qətlə yetirmişdilər; Şərurda 76, Dərələyəzdə 74 kənd yerlə yeksan edilmişdi. Bütövlükdə 1918–21 illərdə erməni millətçiləri Naxçıvan bölgəsində 73727 nəfər azərb.-lını vəhşicəsinə qətlə yetirmişdilər.

1921 ilin yanvarında Naxçıvan əhalisinin referendum əsasında Azərb.-ın tərkibində qalmaq arzusunu qəti şəkildə bildirməsi, Moskva (1921) və Qars (1921) müqavilələri ilə diyara Azərb.-ın tərkibində muxtariyyət statusu verilməsi və Naxçıvan MR-in yaradılması (1924) ilə bölgədə azərbaycanlıların S.-na rəsmən son qoyulsa da, "Böyük Ermənistan" yaratmaq kimi sərsəm xülyalarla yaşayan erməni şovinistləri bu siyasətdən əl çəkməmiş, zaman-zaman onu açıq və gizli şəkildə davam etdirmiş (30-cu illərin qanlı repressiyaları, 20 əsrin 40–50-ci və 80-ci illərində azərb.-lıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyası və s.), nəhayət, SSRİ-nin süqutu ərəfəsində və bundan sonra məkrli niyyətlərini silahlı təcavüz yolu ilə həyata keçirməyə başlamış, nəticədə torpaqlarımızın 20%-i işğal edilmiş, minlərlə azərb. həlak olmuş, bir milyondan çox soydaşımız dədə-baba yurdundan didərgin salınmışdır. 1990–93 illərdə Ermənistanın Nax. MR-ə silahlı təcavüzü nəticəsində muxtar respublikanın Şərur-Sədərək bölgəsində qanlı döyüşlər getmiş (bax *Sədərək döyüşləri*), lakin həmin dövrdə Naxçıvan MR-ə rəhbərlik edən Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində düşmənin mənfur niyyətləri dəf edilmişdir.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998 il tarixli fərmanında erməni millətçilərinin Azərb.-ın digər bölgələrində olduğu kimi Zəngəzurda və Naxçıvan-



Sultanlı Əli

da da xalqımıza qarşı S. törətdikləri qeyd olunmuşdur. Həmin fərmanla mart ayının 31-i azərb.-ların S. günü elan edilmişdir.

Naxçıvan ş.-ndə, Naxçıvan Dövlət Un-ti-nin "Gənclik park"ında S. qurbanlarının xatirəsinə abidə ucaldılmışdır (2001).

*Əd.:* O r d u b a d i M. S., Qanlı illər, B., 1991; N ə v v a b M., 1905-1906-cı illərdə erməni-müsəlman davası, B., 1993; Ə l i y e v M., Qanlı günlərimiz (1918-1920-ci illər), B., 1993; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921 illər), B., 1996; Q a s ı m o v A., XX əsrdə Naxçıvanda erməni–Azərbaycan ziddiyyətləri. "Naxçıvan Azərbaycan tarixində" kitabında, B., 1996; Ə l i y e v Ə., Əlincə yaddaşı: Naxçıvan, 1914-1992, B., 1997.

**SÖYÜDLÜ** – Şahbuz r-nunun Kolanı k.-ndən şm.-da orta əsrlərə aid yaşayış yeri. Hündür təpənin yamacında yerləşir. Sah. 12500 $m^2$. Uçub-tökülmüş tikili qalıqları aydın nəzərə çarpır. Mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar dulus çarxında formalaşdırılmış çəhrayı rəngli şirsiz və şirli gil qab qırıqlarından ibarətdir. Qabların üzəri qırmızı boya ilə, bəzisi isə yaşıl şirlə örtülmüşdür. S. yaşayış yerindən bir qədər aralıda müsəlman qəbiristanı var. Qəbirlər traktorla dağıdılmış, qəbirüstü daşlar qırılmışdır. Tədqiqatlar yaşayış yerinin 9–15 əsrlərə aid olduğunu göstərir.

**SÖYÜDLÜ NEKROPOLU** – Şahbuz r-nunun Kolanı k. ərazisində orta əsrlərə aid arxeoloji abidə. Müsəlman qəbiristanlığındakı baş daşları sıradan çıxmış, yalnız beş-altısı salamat qalmışdır; adi sal daşlardan ibarət olub, işlənməmişdir. Onların üstündə yazıya, yaxud təsvirlərə təsadüf edilməmişdir. Abidənin 13–15 əsrlərə aid olması ehtimal edilir.

**SUBATAN DİZƏ** – Ordubad r-nundakı Sabirkənd k.-nin c.-q.-ndə, Gilançayın sağ sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1976 ildə aşkar olunmuşdur. Hündür olmayan təpəni əhatə edir. Sah. 5 *ha*. Mədəni təbəqənin qalınlığı 3 *m*-dir. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı yaşayış yerindən monoxrom boyalı və sadə gil qab nümunələri, dən daşları, həvəng və dəstələr, daş çəkiclər, obsidian (d ə v ə g ö z ü) lövhələr aşkar olunmuşdur. Dəmir dövrü üçün səciyyəvi olan monoxrom boyalı qablar qırmızı rəngli ornamentlərlə bəzədilmişdir. Tapıntılara əsasən yaşayış yeri e. ə. 2-ci minilliyin 2-ci yarısı və 1-ci minilliyin əvvəllərinə aid edilir.

**SUCUQ**, b a s t ı x – Naxçıvanda, xüsusilə Ordubad bölgəsində geniş yayılmış çərəz. S. hazırlamaq üçün qoz ləpələrini sapa düzüb, üzərinə doşab (b ə k m ə z) qatılmış qatı umac çəkib qurudurlar. Xalq arasında S.-dan mədə xəstəliklərinin, qan azlığının, ümumi zəifliyin və s.-nin qarşısını almaq üçün müalicə vasitəsi kimi də istifadə olunur. Orta əsrlərdə əsas ixracat məhsullarından sayılırdı. Türkiyədə, Qafqazın başqa yerlərində, Orta Asiyada da yayılmışdır.

**SULTAN İBRAHİM İMAMZADƏSİ** – Şərur r-nunda orta əsrlərə aid memarlıq abidəsi. Möhrədən tikilmiş kiçik ölçülü məscidin qalıqları *Parçı* yaşayış yerinin mərkəzi hissəsindədir. Məlumata görə, vaxtilə imamzadənin qapısı üzərində ərəb əlifbası ilə yazılmış kitabə olmuşdur. Arxeoloji qazıntı işləri aparılmamışdır. Ətrafdan toplanmış maddi mədəniyyət nümunələrinə əsasən abidənin 14 əsrə aid olması ehtimal edilir.

**SULTAN TAHİR CƏLAİRİ** ibn Sultan Əhməd ibn Sultan Hüseyn ibn Şeyx Üveys Cəlairi (?–?) – Əlincə qalasının hakimi. Cəlairi hökmdarı Sultan Əhməd [1382–1410, fasilələrlə] Əmir Teymurun ilk yürüşü dövründə (1386) Cəlairilərin xəzinəsini, öz ailəsini, oğlu Tahiri 300-ə qədər döyüşçü ilə Əlincə qalasında yerləşdirib Bağdada çəkilmişdi. Sultan Tahir 14 ilə yaxın qalanın müdafiəsinə başçılıq etmiş, son nəticədə Şəki və gürcü qoşun hissələrinin köməyi ilə mühasirədən çıxmış və xəzinəni götürüb yaxın adamları ilə birlikdə Bağdada getmişdir.

*Əd.:* P i r i y e v V. Z., Teymurun və Toxtamışın Azərbaycana yürüşləri və işğalçılara qarşı mübarizə. Azərb. EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1983, № 1.

**SULTANBƏY** – inzibati-ərazi bölgüsünə əsasən, vaxtilə Naxçıvan qəzasının Şahbuz nahiyəsinə daxil olmuş yaşayış məntəqəsi. Əzəli Naxçıvan torpağı olan S. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən, Nax. MSSR-in 9 kəndi və onların əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana birləşdirilmişdir. Bu, *Moskva müqaviləsinin (1921)* və *Qars müqaviləsinin (1921)* şərtlərinə zidd olub, beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

**SULTANLI** Əli Abdulla oğlu (25.12.1906, Naxçıvan ş. – 19.7.1960, Bakı) – ədəbiy-







yatşünas, pedaqoq. Filologiya elmləri doktoru (1946), prof. (1947). Naxçıvanda müəllimlər seminariyasının hazırlıq kursunda təhsil almaqla yanaşı, "Şərq qapısı" qəzetinin müxbiri olmuşdur. Azərb. Dövlət Un-tinin (indiki BDU) dil-ədəbiyyat fakültəsini bitirmişdir (1929). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) filologiya fakültəsinin dekanı (1934), ADU-nun xarici ədəbiyyat kafedrasının müdiri (1941–60), filologiya fakültəsinin dekanı (1950–52; 1957–59) olmuşdur. Azərb.-da xarici ədəbiyyat üzrə ali məktəb kursunun yaradılmasında mühüm xidməti var. Azərb. dilində antik, orta əsrlər və Renessans dövrü ədəbiyyatına dair ilk müntəxəbatların tərtibçisi və dərsliklərin müəllifidir. Azərb. və Qərbi Avropa ədəbi əlaqələrinə ["M.F.Axundov və Molyer" (1939), "Kitabi-Dədə Qorqud" və qədim yunan eposları" (1946), "Nizami və Qərbi Avropa ədəbiyyatı" (1947)], Azərb. dramaturgiyasının tarixi və nəzəriyyəsinə ("Azərbaycanda xalq dramı", 1945; "Ü.Hacıbəyovun dramaturgiyası", 1945 və s.) dair tədqiqatları var. Üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957–60) müəlliflərindən və 2-ci cildinin redaktorlarındandır.

Ə s ə r l ə r i: Antik ədəbiyyatı tarixi, B., 1958; Azərbaycan dramaturgiyasının inkişafı tarixindən, B., 1964; Məqalələr, B., 1971.

**SULTANOV** Eynəli bəy Çölü bəy oğlu, E y n ə l i S u l t a n (5.5.1866, Naxçıvan ş. – 1935, Tiflis) – yazıçı, nasir, publisist, teatr xadimi və ictimai xadim. Naxçıvan qəza məktəbində təhsil almış, İrəvan Kişi Kimnaziyasında oxumuşdur (1880–86). 80-ci illərdən Naxçıvanda maarif və mədəniyyət sahəsində yaxından fəaliyyət göstərmişdir. Onun təşəbbüsü ilə burada "Ziyalı məclisi", Naxçıvan teatrının təməlini qoyan "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" kimi ədəbi-mədəni mərkəzlər yaradılmışdır. C. Məmmədquluzadə S.-u özündən "artıq huşyar" əməl dostlarından saymış, onu ilk müəllimi adlandırmışdır. 1908 ildən Tiflisdə yaşayan S. burada çıxan "Zakavkazye" qəzetinin "müsəlman həyatı" şöbəsinin müdiri olmuş, rusdilli Cənubi Qafqaz mətbuatında ["Novoye obozreniye", "Kavkaz", "Zakavkazskaya reç", "Kaspi" (1905–08 illərdə bu qəzetin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri olmuşdur)] sosial-ictimai, milli, mədəni və tarixi mövzularda dərc etdirdiyi publisistik məqalələrində hakim təbəqələrin özbaşınalığını, gerilik, fanatizm və cəhaləti, qadın hüquqsuzluğunu tənqid atəşinə tutmuşdur. S.-un publisistikasında Naxçıvan mövzusu mühüm yer tutur ("Naxçıvan məktubları" silsiləsinə daxil olan "Naxçıvan xəbərləri", "Naxçıvanda nə danışırlar", "Dövlət dumasına seçkilər", "Naxçıvan kişi gimnaziyası haqqında" və s. məqalələr). Publisistikasında qaldırdığı məsələlər ədibin bədii yaradıcılığının da başlıca mövzularıdır: "Tatarka" ("Azərbaycan qızı") pyesi (1884 ildə Naxçıvanda tamaşaya qoyulmuş, 1904 ildə İrəvanda kitab halında nəşr edilmişdir), xüsusilə hekayələri ("Novruz ağa", "Kiçik sərgüzəşt", "Acı masqara", "Çalma", "Çadra altında", "Dəhşətli intiqam", "Həsən xan", "Qayınana – xain ana" və s.). Yaradıcılığında teatr tamaşalarına yazdığı resenziyalar da əhəmiyyətli yer tutur. 1920–30 illərdə Tiflisdə mədəni-maarif və mətbuat sahəsində çalışmış, burada çıxan "Kavkazskaya kommuna" qəzetinin redaktoru (1921–23), "Yeni fikir" qəzetinə əlavə kimi nəşr edilən "İşıq" qəzetinin məsul katibi (1924–26) olmuş, "Dan ulduzu" jurnalında yaxından iştirak etmiş, "Atalıq", "Səhhət", "Verirsən, vermirsən?" adlı səhnəciklər qələmə almışdır. 1926 ildə Tiflisdə "Seyidlər" adlı hekayələr kitabı çapdan çıxmışdır. S. tərcümə ilə də məşğul olmuş, M.F.Axundovun "Molla İbrahimxəlil kimyagər", "Hacı Qara" komediyalarını rus dilinə çevirib nəşr etdirmişdir.



Sultanov Eynəli bəy

Ə s ə r i: Seçilmiş hekayələri (tərtib edəni İ.Maqsudov), B., 1966.

*Əd.:* M a q s u d o v İ., Eynəli Sultanovun publisistikası haqqında, Azərb.SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1963, № 5; M i r ə h m ə d o v Ə., Alim və jurnalist, "Elm və həyat" jurnalı, 1970, № 1; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1996; М а к с у д о в И., Жизнь и творчество Эйнали Султанова (автореф.), Б., 1963; А с а д о в а И., Творческий путь Э.Султанова (автореф.), Б., 1991.

**SULTANOV** Əbulqasım (12.4.1866, Naxçıvan ş. – 1916, İran, Qəzvin ş.) – ziyalı, maarif və teatr xadimi. Cəlil Məmmədquluzadə ilə eyni vaxtda Naxçıvan şəhər üçsinifli ibtidai məktəbində təhsil almış, hər ikisi bir ildə (1882) Qori Müəllimlər Seminariyasına daxil olmuş, üç il eyni sinifdə oxumuşlar. Lakin xəstəliyi ilə əlaqədar 1885 ildə bir il sinifdə

Sultanov Əbülqasım





Sultanov Qeyis



Sultanov Mehdi

Sultanov Rüstəm



qalan S. seminariyanı 1888 ildə bitirərək, Şahtaxtı məktəbinə təyinat almış və 1896 ilədək bu məktəbdə əvvəlcə müəllim, sonra isə nəzarətçi (müdir) vəzifəsində çalışmışdır. 1896–1908 illərdə Baş Noraşen (indiki Cəlilkənd) zemstvo məktəbində müdirlik etmişdir. Naxçıvanda C.Məmmədquluzadənin başçılıq etdiyi maarifçilik hərəkatının fəal iştirakçılarından. Naxçıvan teatrının tamaşalarında əsas rolların, xüsusən qadın rollarının (M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasında Gülçöhrə, E.Sultanovun "Azərbaycan qızı" pyesində Sənəm, Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsində Sona xanım, "Pəri Cadu" dramında Şamama və s.) mahir ifaçılarından olmuşdur. Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnunun atası, Z. Hacıbəyovun "Əlli yaşında cavan" musiqili komediyasında Qulu rollarını da məharətlə yaratmışdır. Tələbəlik illərində yazdığı "Ədəbiyyatşünaslıq dəftəri" icmal formalı kiçik dərs vəsaitidir. Molla Nəsrəddinin lətifələrini rus dilinə çevirmişdir. Tərtib etdiyi "Ədəbi nümunələr müntəxəbatı"nda 19 əsr – 20 əsrin əvvəli şairlərinin əsərləri toplanmışdır. Ciddi elmi-siyasi əhəmiyyətə malik "İranda qayda-qanun yoxdur" (1912) adlı fəlsəfi-publisist traktatı var.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**SULTANOV** Qeyis Cəmşid oğlu (d. 9.3.1939, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1998). Xarkov Dövlət Un-tinin fizika fakültəsini bitirmişdir (1963). Azərb. Milli EA Fizika İn-tunda baş elmi işçi olmuşdur (1975–77). 1977 ildən həmin in-tun Bərk cisimlərdə rezonans hadisələri laboratoriyasının müdiridir. Bərk cisimlərdə ifrat incə qarşılıqlı təsirlərə dair tədqiqatların, o cümlədən 80 elmi məqalənin müəllifidir. Əsərləri ABŞ, Fransa, Almaniya, İngiltərə, İtaliya, Yaponiya, Rusiya və s. ölklərədə dərc olunmuşdur. Fransa, Polşa, Rusiya, Ukrayna, Qazaxıstan və s. ölkələrdə keçirilmiş beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

**SULTANOV** Mehdi Nəcəf oğlu (d. 1.8.1924, Naxçıvan ş.) – terapevt, herontoloq. Tibb elmləri doktoru (1967), prof (1977). Nax. MR əməkdar həkimi (1965). Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) müalicə-profilaktika fakültəsini bitirmişdir (1950). Naxçıvan şəhər təcili tibbi yardım stansiyasının baş həkimi (1950–55), Nax. MR Səhiyyə Nazirliyinin baş terapevti (1957–59) işləmiş, SSRİ Tibb EA-nın Terapiya İn-tunda (1959–66) çalışmışdır. Azərb. Səhiyyə Nazirliyinin Əmək Gigiyenası və Peşə Xəstəlikləri İn-tunun elmi işlər üzrə direktor müavini (1967), Kabarda-Balkar Dövlət Un-tinin daxili xəstəliklər kafedrasının (1968–70), Türkmənistan Dövlət Tibb İn-tunun terapiya kafedrasının (1970–73) müdiri, Azərb. Dövlət Tibb İn-tunun II daxili xəstəliklərin propedevtikası kafedrasının prof. və müdiri (1973–85) olmuşdur. 1985 ildən indiki Tibbi Bərpa İn-tunun aparıcı elmi işçisidir. İlan, əqrəb, qaraqurd, tarantul və arı sancmalarının müalicəsinə, ilan və arı zəhərinin müalicə əhəmiyyətinə, aterosklerozun profilaktikasına, daxili xəstəliklərin aktual məsələlərinə və uzunömürlülük problemlərinə həsr olunmuş 18 monoqrafiya və kitabın, 160-dan artıq elmi məqalənin müəllifidir. S. heyvan mənşəli yağların, xüsusilə xolesterinin insanın sağlamlığı üçün təhlükə olması haqqında son zamanlara qədər elmdə yayılmış fikri təkzib edərək, tədqiqatlara, xüsusən dünyanın uzunömürlü xalqlarından olan azərb.-lıların çoxəsrlik qidalanma təcrübəsinə əsasən, əksinə, sağlamlığın qorunmasında onların başlıca amil, təbiətin əvəzsiz neməti olduqlarını sübut etmişdir. Xaricdə 3 monoqrafiyası ("Zəhərli sancmalar", ABŞ, 1966; "Zəhərli heyvanların sancmaları", Hindistan, 1985 – hər ikisi ingilis dilində; "Ömrü necə uzatmalı", Tokio, 1978, yapon dilində),12 elmi məqaləsi nəşr olunmuşdur. Bir sıra beynəlxalq elmi məclislərdə (Kiyev, 1972; Sofiya, Minsk, 1974; Berlin, 1979 və s.) məruzələr etmişdir.

Ə s ə r l ə r i: İlan sancmanın klinikası, patogenezi və müalicəsi, B., 1963; Naxçıvan MSSR-in mineral suları və onların müalicədə tətbiqi, B., 1964; İlan və arı zəhəri şəfa verir, B., 1976; Ürək-damar xəstəliklərinin profilaktikası və uzunömürlülük problemi, B., 1999; Укусы ядовитых животных, 2-ое изд., перераб. и доп., М., 1977; Азербайджан — страна долгожителей, Б., 1981.

**SULTANOV** Rüstəm Möhsün oğlu (25.10.1910, Naxçıvan ş. – 22.11.1990, Bakı) – riyaziyyatçı. Fizika-riyaziyyat elmləri namizədi (1947), prof. (1970). Naxçıvan Kişi Pedaqoji Texnikumunu bitirdikdən (1927) sonra bir neçə il indiki Şərur r-nunun Yengicə k.-ndə





Sultanov Sultan

Sultanzadə Nazim



və Tiflisdə müəllimlik etmişdir. 1932 ildə Moskva Toxuculuq İn-tuna daxil olmuş, lakin birinci kursu bitirdikdən sonra qolçomaq oğlu kimi təqibə məruz qalaraq, in-tdan xaric edilmişdir. 1937 ildə Moskva Vilayət Pedaqoji İn-tunun riyaziyyat fakültəsini bitirmiş, 1938 ildən Azərb. Dövlət Un-tinin (indiki BDU) riyaziyyat fakültəsində çalışmış, ali cəbr və topologiya kafedrasının müdiri və prof., dekan, tədris hissəsi üzrə prorektor (1963–71) işləmişdir. Ali məktəblər üçün "Xətti cəbrin əsasları" (1960), "Ali cəbr" (1964; Azərb. dilində ilk dəfə) dərsliklərinin, Erüp nəzəriyyəsinə və xətti analizə dair elmi məqalələrin müəllifidir. N. S. Piskunovun ikicildlik "Diferensial və inteqral hesabı" əsərini, orta məktəblərin IX–X sinifləri üçün "Cəbr və analizin başlanğıcı" dərsliklərini tərcümə etmişdir. Azərb. dilində riyaziyyata dair terminologiyanın yaradılmasında xidməti var.

**SULTANOV** Sultan Əskər oğlu (d. 15.8.1927, Ordubad ş.) – kimyaçı. Kimya elmləri doktoru (1980), prof. (1991). Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda (NKPİ) böyük elmi işçi olmuşdur (1959–82); 1983 ildən reaktiv və dizel yanacaqları laboratoriyasının müdiridir. Əsas tədqiqatları Azərb. neftləri əsasında istehsal olunan reaktiv yanacağın keyfiyyətinin yaxşılaşdırılması və yeni yanacaq növlərinin alınması sahəsindədir. O, respublikada dünya standartlarına uyğun RT, T-8V və A-1 tipli termostabil reaktiv yanacaqların istehsalı üçün tövsiyələr vermiş, T-6 və T-8V tipli yüksək yanma istiliyinə malik termostabil yanacaqların alınmasının texnologiyasını işləyib hazırlamışdır. Azərb. neftlərinin emalında yeni elmi istiqamətin əsasını qoymuşdur. 170-ə yaxın elmi məqalənin, o cümlədən 19 müəlliflik şəhadətnaməsinin və patentin müəllifidir.

**SULTANZADƏ** Nazim Müzəffər oğlu (d. 21.12.1938, Naxçıvan ş.) – maşınqayırma texnologiyası sahəsində alim. Texnika elmləri doktoru (1983), prof. (1987). Rusiya Keyfiyyət Problemləri Akademiyasının akad. Azərb. Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini (1961) və aspiranturasını bitirmişdir. 1966 ildən Moskvaya köçmüşdür. Ümumittifaq Qiyabi maşınqayırma İn-tunda dosent (1971–78), kafedra müdiri (1978–84), Moskva Dəzgahqayırma İn-tunda Maşınqayırma texnologiyası kafedrasının müdiri (1984–93) olmuşdur. 1993 ildən Moskva Dövlət Cihazqayırma Akademiyasında Maşınqayırma texnologiyası kafedrasının müdiri vəzifəsində işləyir. Rusiya Ali Təhsil Nazirliyinin fəxri işçisi, maşınqayırma texnologiyası üzrə Elmi-metodik şurasının sədridir. 160-dan artıq elmi əsərin, o cümlədən 3 monoqrafiyanın, 6 dərsliyin müəllifidir. Əsərləri Moskvada çap olunmuş "Metalçının məlumat kitabı" (c. 1, 1978), "Avtomat xətlər" (2 cilddə, 1985), "Maşınqayırma ensiklopediyası" (2000) kimi mötəbər nəşrlərdə dərc edilmişdir.

**SULTANZADƏ** Zahid Müzəffər oğlu (d. 11.3.1941, Naxçıvan ş.) – texniki kibernetika sahəsində alim. Texnika elmləri namizədi (1979), prof. (1999). Azərb. Neft və Kimya İn-tunun (indiki Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini bitirmişdir (1963). 1963–70 illərdə Qroznı ş.-ndə kimya kombinatında, Bakıda Ümumittifaq Neft Maşınqayırma İn-tunda elmi işçi işləmişdir. 1970 ildən Azərb. Texniki Un-tində (AzTU) hesablama mərkəzinin rəisi, baş müəllim, dosent olmuşdur. 1996 ildən elektron aparatlarının konstruksiya edilməsi kafedrasının müdiri, 2000 ildən eyni zamanda un-tin beynəlxalq əlaqələr üzrə prorektoru vəzifələrində çalışır. Kibernetika sahəsində simpozium və konfranslarda iştirak etmişdir. "Avtomatlaşdırılmış istehsalat sistemlərinin məhsuldarlığı" (B., 2000) monoqrafiyasının, dərslik və tədris vəsaitinin, 50-dən çox elmi məqalənin müəllifidir.

**SUST** – Babək r-nunun keçmiş eyniadlı kəndinin şm.-q.-ndə orta əsrlərə aid yaşayış yeri. 1979 ildə Naxçıvan Arxeoloji Ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Sah. təqr. 6 *ha*. Mədəni təbəqənin qalınlığı 2 *m*-dən çoxdur. Təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, əsasən, çiy kərpic (bişmiş kərpicə də təsadüf edilmişdir), qalıqları, şirli və şirsiz gil qab məmulatı ilə zəngindir. Şüşə məmulatı fraqmentlərinə də rast gəlinmişdir. S. yaşayış yerinin 15–17 əsrlərə aid olduğu ehtimal edilir. S. yaxınlığında, "Qaş" adlı yerdə çox güman ki, 9–17 əsrlərə aid duzdağ mədəni qeydə alınmışdır. Yaşayış yeri hazırda duz karxanası tərəfindən dağıdılmışdır.

**SUST DAŞDUZ YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 20 *km* şm.-q.-də, keçmiş Sust k.-ndən 3 *km* ş.-dədir. Geoloji quruluşunda Üst Miosenin gil, qumdaşı, alevrolit və daşduz layları iştirak edir. Yataqda 2 duz layı aşkar edilmişdir. 1-ci layda NaCL 96,44%, 2-ci layda isə 95,28%-dir. Yatağı Naxçıvan duz yatağının davamı hesab etmək olar. Kimyəvi təmiz soda istehsalında mineral xammal mənbəyi kimi istifadə oluna bilər. Sənaye ehtiyatı 15317 min *t*-dur.

**SÜLEYMANOV** Mirzə Ələkbər (1862, Naxçıvan ş. – 1921, orada) – ziyalı, maarif və teatr xadimi. Qori Müəllimlər Seminariyasını bitirmiş (1882), Şərur-Dərələyəz qəzasının Yengikənd ictimai məktəbində (1882–90), Baş Noraşen (indiki Cəlilkənd) zemstvo məktəbində (1890–94), M.T.Sidqinin "Tərbiyə" məktəbində (1894–1906), Naxçıvan şəhər üçsinifli məktəbində (1915–20) müəllim, inspektor və nəzarətçi (müdir) vəzifələrində çalışmışdır. C.Məmmədquluzadə ilə birlikdə Naxçıvan teatrının təşəkkülünə böyük əmək sərf etmişdir. M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasında Məstəli şah, "Molla İbrahimxəlil kimyagər" komediyasında Şeyx Saleh, Ə.Haqverdiyevin "Dağılan Tifaq" faciəsində Nəcəf bəy, E.Sultanovun "Azərbaycan qızı" pyesində Ağaşərif rollarında oynamışdır.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**SÜLEYMANOVA** Zərifə Salman qızı (d. 6.8.1937, Naxçıvan ş.) – maarif xadimi. Azərb. Respublikasının əməkdar müəllimi (1984). Azərb. Dövlət Un-tinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini bitirmişdir (1960). Naxçıvan ş.-ndəki M.T.Sidqi ad. 4 saylı və E.Sultanov ad. 7 saylı orta məktəblərdə riyaziyyatdan dərs demişdir (1960–85). 1986 ildən Naxçıvan şəhərinin A.Cəlilov ad. orta məktəbində çalışır. "Azərb. SSR qabaqcıl maarif xadimi" nişanı ilə təltif edilmişdir.

**SÜRƏMƏLİK DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Sürəməlik k.-ndən 1,5 *km* şm.-dadır. Hünd. 1477 *m*. Konusvarı formada andezit-dasit tərkibli ekstruzivdir. Sıldırım yamaclıdır.

**SÜRƏMƏLİK MİNERAL SU BULAĞI** – Babək r-nu ərazisində vaxtilə mövcud olmuş eyniadlı k.-dən 5 *km* şm.-ş.-dədir. Bulaq Orta Eosen yaşlı əhəngli qumdaşılardan çıxır. Suyu soyuqdur. Tərkibinə görə "Vayxır" suyuna yaxın olub, dəmirli, karbon qazlı, zəif minerallaşmışdır.

**SÜNİK** (S i s a k a n, S i s ə c a n) – Qafqaz Albaniyasının c.-unda, Arazın sol sahilində tarixi vilayət. Antik mənbələrdə (Yevsevi, Prokopi və b.) albanlarla qonşuluqda Sünik adı ilə qeyd olunur. Alban tarixçisi M. Kalankatlının (təqr. 7–8 əsrlər) "Alban tarixi" əsərində Sünik, Sisakan və Sünestan şəklində adı çəkilir. Tədqiqatçılar (K.V.Trever və b.) haqlı olaraq S.-in etnik, siyasi və mədəni baxımdan daha çox Albaniya (Qafqaz) və Atropatena ilə bağlılığını qeyd edirlər. Eramızın 3 əsrinə aid Sasani kitabəsində S. adı Atropatena, İberiya, Albaniya və b. adlarla yanaşı müstəqil çəkilir. Mənbələr ilk alban hökmdarı Aranı S.-la bağlayır. "Sisakın nəslindən olan Aranın" eramızın 1 əsrində Parfiya hökmdarı tərəfindən ölkəyə hakim təyin edildiyi haqqında məlumat verirlər. Ermənistanın Roma və Sasanilər arasında bölüşdürülməsindən (387) sonra Albaniyadan, bəzən də Atropatenadan asılı vəziyyətə düşən S. müəyyən dövrlərdə öz müstəqilliyini saxlaya bilmişdi. Yerli qaynağın məlumatına görə, S. 12 vilayətdən ibarət idi. Vaspurakan tarixinin müəllifi Stepanos Orbelyanın 1–6 əsrlərdə alban ərazisi olan Naxçıvan və Qoğtanın də S.-in tərkibində olması haqqında məlumatı vardır. 591 il İran-Bizans müqaviləsinə görə S. və onun vilayətlərindən olan Naxçıvan və Qoğtən Vaspurakan əyaləti ilə birləşdirilərək Sasanilərə tabe inzibati bölgə olur. Bu dövrdə Naxçıvan Vaspurakanın əsas şəhərinə çevrilir. Albaniyada dövlətçiliyin Mihranilər tərəfindən bərpası ilə əlaqədar Naxçıvan və Qoğtən yenidən Albaniya vilayətləri olurlar. Ərəb istilaları ərəfəsində S. Arazadək torpaqları tutmuş Xəzərlər tərəfindən işğal edilir. Xilafət dövründə ərəb üsul-idarəsinə tabe edilən S.-də yerli feodal mülkləri saxlanılmışdı. Xürrəmilər hərəkatı zamanı S. knyazı Vasaq Babəklə ittifaqa girərək öz qızını ona ərə vermişdi. 10 əsrin 2-ci yarısında S.-də mərkəzi Qafan ş. olan S. knyazlığı təşəkkül tapdığı zaman Naxçıvan və Qoğtən *Əbudüləfilərin* mülkü oldu. S. knyazlığı 12 əsrin sonlarına yaxın dağıldı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.2, B., 1998; M ə m m ə d o v a F., Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, B., 1994.



# Ş

**ŞABANLILAR** – türk tayfası. Kəngər tayfasından (bax *Kəngərlər*) olmuşlar. 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli qol və tirələr arasında şabanlı nəslinin də adı çəkilir.

**ŞADA** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 18 *km* şm.-q.-də, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 162 nəfər (2000); əsasən, heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**ŞADLİNSKİ** Abbasqulu bəy Xanbaba oğlu (24.2.1886, İrəvan qub.-nın Böyük Vedi k. – fevral, 1930) – xalq qəhrəmanı, "*Qırmızı tabor*"un komandiri. Uşaq ikən atasını itirmiş, 1894 ildə anasının köməyi ilə Vedidəki ikiillik rus-tatar (Azərb.) məktəbində oxumuş, lakin maddi çətinliklər ucbatından sonralar təhsilini davam etdirə bilməmiş, 1902 ildən atadan-qalma kiçik torpaq sahəsini əkib becərməklə məşğul olmuşdur. Rusiyada 1905–07, İranda 1905–11 illər inqilabları gənc Abbasqulunun ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynamışdır. Rusiyada mütləqiyyət rejiminə son qoymuş 1917 il fevral inqilabından sonra Ş. öz həyatını bütünlüklə xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir. 1918 ilin əvvəllərindən Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və s. ərazilərdə daşnak fitnəkarlıqlarının, azərbaycanlılara qarşı mütəşəkkil soyqırımı siyasətinin gücləndiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Ş. Vedidə, ilk vaxtlar erməni-daşnak quldur dəstələri ilə vuruşan könüllü partizan birləşməsi – gələcək "Qırmızı tabor"u təşkil etmişdi.

1918–19 illərin yay aylarında daşnak hərbi hissələrinin Vediyə hücumlarının qarşısının alınmasında böyük şücaət göstərmiş taborçular sonradan Ş.-nin əmri ilə nizami daşnak ordusunun üstün qüvvələri qarşısında kəndi döyüşlə tərk etmiş, Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək əvvəlcə Xoy ş. yaxınlığında, sonra isə Mərənd ş. ətrafında mövqe tutmuşdular. Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan (1920, 28 iyul) sonra Hərbi İnqilab Komitəsinin dəvətini qəbul edərək sentyabrın 17-də 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gəlmişdi; buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdir. Ş. ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmiş, 1921 ilin fevralı – aprelin əvvəlində isə İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdi. Döyüşlərdə göstərdikləri şücaətə görə Ş. başda olmaqla "Qırmızı tabor"un 19 nəfər üzvü Ermənistan SSR-in "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu.



*Şadlinski Abbasqulu*

1921 ilin yayında Ş.-nin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində fərqlənmişdilər. Ermənistanda və Zəngəzurda daşnak fitnəkarlıqlarına son qoyulduqdan sonra Ş. 1922 ilin sonunadək Naxçıvanda qalmış və muxtar respublika sərhədlərinin qorunmasına rəhbərlik etmişdi. Bundan sonra Vediyə qayıdan Ş. 1922–28 illərdə Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, sonra isə yeni yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri olmuşdu. Banditlər tərəfindən öldürülmüşdür. F. Kərimzadənin "Qarlı aşırım" romanı və onun süjeti əsasında çəkilmiş "Axırıncı aşırım" bədii filmi Ş.-nin həyat və fəaliyyətindən

bəhs edir. Naxçıvan MR-in Şərur r-nunda "Qırmızı tabor"a həsr edilmiş şöhrət muzeyi açılmışdır.

*Əd.:* Bax *Qırmızı tabor* məqaləsinin ədəbiyyatına.

**ŞAH ABBAS KÖRPÜSÜ** – Ordubad r-nunun Yuxarı Əylis k.-ndə, bir-birinə yaxın olan iki vadini birləşdirir. Bir aşırımlıdır. Dərin dağ vadisinin aşağısından adi daşla yüksək inşaat texnikası səviyyəsində hörülmüşdür. 16 əsrin sonu – 17 əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Milli memarlıq səviyyəsini və möhkəmliyini qoruyub saxlamışdır. Səfəvi hökmdarı I Şah Abbasın adı ilə bağlıdır.

**ŞAH ABBAS MƏSCİDİ** – memarlıq abidəsi (16 əsr). Ordubad r-nunun Əylis k.-ndə, meydan adlanan keçmiş yaşayış məhəlləsindədir. Məscid, mədrəsə və hamam kompleksindən ibarət idi. Uzun illər baxımsızlıq üzündən kompleks uçulub dağılmış, günbəzli hamamdan yalnız "xəznə"nin, fəvvarəli soyuq su hövuzunun və hamamı işıqlandıran bacaların cüzi izləri dövrümüzədək qalmışdı. Son illərdə məscid xeyriyyəçilərin təşəbbüsü ilə bərpa edilib, istifadəyə verilmişdir.

**ŞAHAB MƏHƏLLƏSİ** – Naxçıvan ş.-nin ən qədim məhəllərindən biri. Tədqiqatçıların fikrincə, məhəllənin adı çox güman ki, ərazisində vaxtilə gur su, yaxşı su olmasına görə, fars dilində eyni mənada işlənən "şahab" sözü ilə bağlıdır. Başqa bir fərziyyəyə görə isə, Naxçıvanın 4 əsas məhəlləsindən (Sarvanlar, Əlixanlı, Şahab, Qurdlar) biri olan Ş.m.-nin adı, Qurdlar məhəlləsi istisna olmaqla, Kəngərli nəslinin eyniadlı tayfalarının (sarvanlar, əlixanlılar) adı ilə bağlı olan Sarvanlar və Əlixanlılar məhəllələri kimi, bu tayfanın Şahbanular tirəsinin adındandır. Bu mülahizəyə görə, "Şahab" etnonimi "Şahbanular" etnoniminin xalq dilində dəyişilmiş formasıdır.



Şahbuz qəsəbəsindən görünüş.

**ŞAHBAĞI** – Şərur r-nunun Şahtaxtı k.-ndən ş.-də, Qıvraq yaylasının Araz çayına doğru uzanan yamacında son orta əsrlərə aid yaşayış yeri. Sah. 8 *ha*. Abidənin ş. tərəfində indi də istifadə olunan təbii bulaqlar və göl, gölün yaxınlığında isə "İydəli pir" adlı ziyarətgah vardır. Burada kromlexlər və eni 1–1,5 *m* olan tikinti qalıqları saxlanmışdır. Tədqiqatlar zamanı xeyli şirli və şirsiz saxsı parçalarına təsadüf olunmuşdur. Yaşayış yerinin q. qurtaracağında ağ rəngli əhəngdaşından hörülmüş hovuz qeydə alınmışdır. Yerli əhalinin məlumatına görə, vaxtilə burada şahlara layiq böyük bir bağ olmuşdur (adı da, görünür, buradandır).

**ŞAHBULAQ**, Ş a h b u z – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Zəngəzur silsiləsindən başlanır. Mənsəbindən 40 *km* məsafədə ona tökülür. Uz. 27 *km*, hövzəsinin sah. 100 $km^2$-dir. Yaz-yay aylarında (mart–iyun) daşqın əmələ gətirən çaylar qrupuna daxildir. Əsasən, qar, qrunt və yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur.

**ŞAHBULAQ** – Şahbuz r-nu ərazisində kiçik göl. Naxçıvançayın hövzəsində, Sərpidaş dağının (hünd. 2500 *m*) ətəyində, 2400 *m* hünd.-dədir. Əsasən, qar suları və yeraltı sularla qidalanır.

**ŞAHBUZ** – Şahbuz r-nu ərazisində çay. Bax *Şahbulaq*.

**ŞAHBUZ**, K ə n d Ş a h b u z – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 7 *km* c.-ş.-də, Şahbuz–Keçili avtomobil yolunun kənarında, dağətəyi ərazidədir. Əh. 1181 nəfər (2001); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, uşaq bağçası, ambulatoriya, rabitə şöbəsi var. Ş. toponimi erkən orta əsrlərdə orada mövcud olmuş və xarabalıqları qalmış qalanın adı, həmin qalanın adı isə *Şahbuztəpə* dağının adı ilə əlaqədardır. Yaxınlığında son orta əsrlərə aid *Köhnəqala* yaşayış yeri var.

**ŞAHBUZ**, Ç a y Ş a h b u z – şəhər tipli qəsəbə. Şahbuz r-nunun və eyniadlı qəsəbə bələdiyyəsinin mərkəzi. Yevlax–Laçın–Naxçıvan








avtomobil yolunun kənarında (Ermənistanın təcavüzü nəticəsində avtomobil nəqliyyatı ilə əlaqə tamamilə kəsilmişdir). Naxçıvançayın (Arazın qolu) sahilindədir. Əh. 2532 nəfər (2001). Üzüm emalı z-dları, elektrik şəbəkəsi, k. t. texnikası təmiri müəssisəsi, rabitə evi, orta məktəb,uşaq musiqi məktəbi, 2 uşaq bağçası, mərkəzi xəstəxana, tarix-diyarşünaslıq muzeyi, mədəniyyət evi, mərkəzi kitabxana, uşaq kitabxanası var. Qəsəbədə müasir memarlıq üslubuna uyğun inzibati binalar, yaşayış evləri tikilmiş, yenidənqurma işləri aparılmış, istirahət parkı, Şəhidlər xiyabanı, bulaq-abidə salınmışdır.

**ŞAHBUZ** – Şahbuz r-nunun eyniadlı kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində, *Şapurqalanın* yerləşdiyi dağın ətəyində qədim yaşayış yeri. Çay boyunca ensiz zolaq şəkilində uzanır. Sah. 1500 $m^2$. Yaşayış yerində daş ovuğu qatılmış möhrədən və daşdan tikilmiş bina qalıqları saxlanmışdır. Mədəni təbəqənin qalınlığı 2–2,5 *m* (mərkəzi hissədə); təbəqə kül qarışıqlı torpaq laylarından və gil qab qırıqlarından ibarətdir. Arxeoloji tədqiqatlar nəticəsində kəhriz sistemləri, dulus çarxında hazırlanmış su tüngləri, çəhrayı rəngli şirsiz və şirli saxsı qab qırıqları və s. maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Tapıntılara əsaslanan tədqiqatlar Ş. yaşayış yerində həyatın eramızın əvvəllərindən 17–18 əsrlərədək davam etdiyini göstərir.



**ŞAHBUZ GİL YATAĞI** – Şahbuz r-nu ərazisində, Şahbuz qəs.-ndən 2 *km* şm.-ş.-də, Qarababa k. yaxınlığındadır. Geoloji quruluşunda Üst Dördüncü dövrün allüvial-prolüvial çöküntüləri, boz, tünd-boz rəngli gil və gilcə süxurları iştirak edir. Sah. 0,23 $km^2$, faydalı qatın qalınlığı 1,4–4,7 *m*-dir. Laboratoriya və yarımzavod tədqiqatlarının nəticələrinə görə, gil suxurları "100" markalı kərpic istehsalına yararlıdır. Yatağın sənaye ehtiyatı 973540 $m^3$-dir.

**ŞAHBUZ (KƏND) NEKROPOLU** – Şahbuz r-nunda eyniadlı kəndin ərazisində orta əsrlərə aid arxeoloji abidə. Müsəlman qəbiristanlığının baş və sinə daşları sıradan çıxmışdır. Qəbiristanlıqdakı qəbirüstü qoç fiqurlarından abidənin 15–16 əsrlərə aid olduğu ehtimal edilir.

**ŞAHBUZ RAYON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ** – 1982 ildən Şahbuz ş.t.q.-ndə fəaliyyət göstərir. Nax. MR Mədəniyyət Nazirliyi sistemindədir. 6 şöbədən ibarətdir. Muzeydə 3500-dən çox eksponat, o cümlədən el sənətkarlarının əsərləri, xalça məmulatı, toxuculuq əşyaları, bədii tikmələr, bəzəklər, mis və saxsı qablar, fotoşəkillər, tətbiqi və təsviri sənət nümunələri, r-n ərazisindən aşkara çıxarılmış arxeoloji materiallar və s. toplanmışdır. Xalq şairi Məmməd Arazın həyat və fəaliyyətini əks etdirən guşə muzeydə xüsusi yer tutur.

**ŞAHBUZ RAYONU** – Nax. MR-də inzibati r-n. 1930 ildə təşkil olunmuşdur. 1963 ildə ləğv edilərək ərazisi Naxçıvan (1978 ildən Babək) r-nuna verilmişdi; 1965 ildən yenidən müstəqil r-ndur. Şm.-da və ş.-də Ermənistan Respublikası ilə həmsərhəddir. Sah. 0,92 min $km^2$. Əh. 20587 nəfər (2001, 1 yanvar). R-nda 1 ş.t.q., 24 kənd var. Mərkəzi Şahbuz ş.t.q.-dir.

**Təbiət.** R-nun səthi, əsasən, dağlıqdır (Dərələyəz silsiləsinin c. və Zəngəzur silsiləsinin q. yamacları). Ən yüksək zirvələri Zəngəzur silsiləsində Salvartı dağı (3160 *m*) və Keçəldağ (3115 *m*), Dərələyəz silsiləsində Kükudağdır (3120 *m*). *Biçənək aşırımı* Ş.r. ərazisindədir. Geoloji quruluşunda Tabaşir-Neogen çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: kükürd, torf, tikinti daşı, məmulat daşları və s. Mineral sular (Badamlı, Biçənək, Batabat,



Şahbuz dağları.

Karvansara və s.) çıxır. Yayı quraq keçən soyuq iqlimi var. Orta temp-r yanvarda 10-dan -15°C-yə qədər, iyulda 20–30°C-dir. İllik yağıntı 400–600 *mm*. Ərazisindən Naxçıvançay və onun qolları (Salvartı, Kükü, Şahbuz və s.) axır. Qanlıgöl, Batabat və s. göllər var; onlardan su anbarı kimi istifadə edilir. Torpaqları, əsasən, dağ-çəmən, qəhvəyi dağ-meşə, dağ-tünd-şabalıdıdır. Dağ-kserofit bitkiləri, dağ çölləri, subalp və alp çəmənləri yayılmışdır. Enliyarpaqlı dağ meşələrinə (palıd, fıstıq, vələs) rast gəlinir. Heyvanları: qaya keçisi, çöldonuzu, ayı, vaşaq, meşə pişiyi, süleysin, daşlıq dələsi, canavar, tülkü, dovşan, ular, boz kəklik, göyərçin və s.

**Əhali.** R-nun əhalisi 1980 illə müqayisədə 2001 ildə 3783 nəfər, yaxud təqr. 21% artmışdır. Orta sıxlıq 1 $km^2$-də 22 nəfərdir (2001). İri yaşayış məntəqələri Şahbuz ş.t.q., Kolanı, Kükü və Keçili k.-ləridir.

**Təsərrüfat.** Son illər r-nda sosial-iqtisadi inkişafın möhkəmləndirilməsi, əhalinin maddi rifahının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülmüşdür. Ş. r.-nda da iqtisadi və mədəni həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuşdur. Ş.r. əsasən, heyvandarlıq r-nudur. K.t.-na yararlı torpaqlar 25274 *ha*-dır (2000). Bunun 2673 *ha*-ı suvarılan torpaqlar, 2529 *ha*-ı biçənəklər, qalanı otlaqlardır. Dənli və dənli-paxlalı bitkilər (buğda, arpa və s.), yem bitkiləri, texniki bitkilər, tərəvəz və kartof əkilir. Meyvə yetişdirilir. 2000 ildə Ş. r.-nda 1300 *t* taxıl, 395 *t* tərəvəz, 322 *t* kartof, 546 *t* meyvə istehsal olunmuşdur. Bu, əvvəlki illərdə istehsal olunmuş məhsullardan xeyli artıqdar.

Daş qoç heykəli. Orta əsr.



1999 ildə Ş. r. üzrə aqrar islahatlar başa çatdırılmış, əhali torpaq payları ilə təmin olunmuşdur. Torpaqları suvarmaq üçün suvarma xətləri yenidən qurulmuş, yeni su mənbələri yaradılmışdır. Aqrar islahatların həyata keçirilməsi r-nda bitkiçiliyin və heyvandarlığın intensiv inkişafına, məhsul istehsalının artırılmasına müsbət təsir göstərmişdir. R-nda 11962 baş iribuynuzlu mal-qara, 65653 baş xırdabuynuzlu mal-qara, 35105 quş var (2001). Bu da əvvəlki illərdən xeyli artıqdır. R-nun təbii-coğrafi iqlim şəraiti arıçılığın inkişafına geniş imkanlar yaradır (4127 arı ailəsi var). 2000 ildə r-nda 276 *t* ət, 2577 *t* süd, 110 *t* yun, 24 min ədəd yumurta istehsal olunmuş, mal-qaranın məhsuldarlığı xeyli artırılmışdır.

R-nda Badamlı mineral su z-du, üzüm emalı müəssisəsi fəaliyyət göstərir. Son vaxtlar Badamlı suyunun istehsalını artırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, bu suyun müxtəlif ölkələrə də satışının təşkili üçün məqsədyönlü iş aparılmışdır. R-nda tikinti təşkilatı və kommunal müəssisələri kombinatı geniş miqyaslı tikinti və abadlıq işləri həyata keçirirlər. R-n əhalisinə nəqliyyat xidmətinin və digər pullu xidmətlərin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır.

**Tarixi-arxeoloji abidələr və memarlıq.** Ş. r. ərazisində Eneolit, Tunc, Dəmir dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri qeydə alınmış və öyrənilmişdir. Kükücay boyunca e. ə. 3-cü minilliyə aid yaşayış yerləri aşkar olunmuşdur. Tədqiqatlar göstərir ki, Şahbuz bölgəsində boyalı qablar (e. ə. 3–2-ci minilliklər), Xocalı–Gədəbəy (e. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəlləri) mədəniyyətləri yayılmışdır (Sarıdərə, Ağbulaq, Qarnıyarıq, Kükü, Külüs, Govurqala, Şamlar və s.). Sarıdərə abidələrində vahid dəfn adətinin olduğu müəyyənləşdirilmişdir. Ağbulaq k.-ndən aşkar olunmuş küp qəbirlər, möhür, mis pullar və s. eramızın əvvəllərində ərazinin Qafqaz Albaniyasının tərkibində olduğunu göstərir. Orta əsrlərə aid qaynaqlarda adı çəkilən Şahbuz qalası eramızın ilk əsrlərində inşa edilmişdir. R-n ərazisində 3–17 əsrlərə aid yaşayış yerləri (Quzey, Eyvaz, Yarnıx,



1



2



3



4



5



6

*Şahbuz rayonu. 1–2. Şahbuz qəsəbəsi. 3. Badamlı mineral su zavodu. 4. Rayon İcra Hakimiyyətinin binası. 5. Şahbuz məscidi. 6. Şəhidlərə abidə. Şahbuz.*



**Şahbuz rayonu.** *1. Kültəpə kəndi. 2. Badamlı qəsəbəsi. 3. Papaqdaş. 4. Gömür kəndi yaxınlığında otlaq. 5. Meyvə bağları.*







*Heydər bulaq kompleksi. Mərkəzi xəstəxana. Şahbuz qəsəbəsi.*

Keçili, Kələkli, Kolanı, Məzrə, Xarabalıq və s.) və qəbir abidələri (Arınc, Batabat, Qanlıgöl, Nurs, Söyüdlü, Tirkeş və s.) tədqiq edilib öyrənilmişdir.

Ş. r. ərazisində tarixi memarlıq abidələrindən orta əsrlərə aid qala (bax *Şapurqala*), bürc, müdafiə istehkamları, həmçinin karvansara, pir, məscid və s. mühafizə olunmuşdur. Mühüm elmi və tarixi əhəmiyyət kəsb edən nadir abidələr əsaslı şəkildə bərpa olunmuşdur. R-nun ərazisində aparılan yenidənqurma, quruculuq və abadlıq tədbirləri nəticəsində yaraşıqlı inzibati tikililər, milli və müasir arxitekturalı binalar, ticarət mərkəzləri, qədim üslubda meydanlar, köşklər inşa edilmiş, yollar boyu kəndlər abadlaşdırılmış, yeni körpülər (Kükü, Mahmudoba, Nurs, Remeşin) tikilmişdir.

**Mədəni quruculuq və səhiyyə.** Ş. r.-nda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Tirkeş, Şada, Biçənək, Keçili və digər kəndlərdə yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. R-nun 15 məktəbəqədər müəssisəsində 485 uşaq tərbiyə olunur (2001). 26 ümumtəhsil məktəbində 3982, texniki peşə məktəbində 90, yeddiillik musiqi məktəbində 49 şagird təhsil alır (2001). R-nda 30 klub, 41 kitabxana, r-n tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir (2001). R-n İcra Hakimiyyətinin orqanı olan *"Oğuz səsi"* qəzeti (1936–65 illərdə "Sosialist maldarlığı", 1966–91 illərdə "Qabaqcıl", 1991–92 illərdə "Oğuz yurdu" adları ilə çıxmışdır) nəşr olunur. Yerli radio verilişləri redaksiyası 1965 ildən fəaliyyət göstərir. Yeni televiziya ötürücüsü quraşdırılmışdır. R-n mərkəzində və kəndlərdə müasir tipli yeni telefon stansiyası qurulmuş, bütün yaşayış məntəqələri telefonlaşdırılmışdır.

Ş. r.-nda 175 çarpayılıq 5 xəstəxana, 20 feldşer-mama məntəqəsi, ambulatoriyalar, təcili tibbi yardım stansiyası, r-n gigiyena və epidemiologiya mərkəzi fəaliyyət göstərir, 25 həkim, 162 orta tibb işçisi çalışır (2001).

**ŞAHBUZTƏPƏ** – Şahbuz r-nu ərazisində dağ. Kənd Şahbuzdan 1,3 *km* c.-ş.-dədir. Hünd. 1621 *m*. Günbəzvarı formadadır. Yaxınlığında erkən orta əsrlərə aid eyniadlı qalanın xarabalıqları qalmışdır.

**ŞAHHÜSEYN ORDUBADİ** (?–?) – şair (15 əsr). Gənc yaşlarından Xorasana gedib zəkası və biliyi sayəsində böyük şöhrət qazanmışdır. Əlişir Nəvainin (1441–1501) məclislərində iştirak etmiş, burada şerlərini oxuyaraq,bir neçə dəfə mükafat və ənam almışdır. Qəsidələrinin çoxu müəmma formasındadır.

*Əd.:* T ə r b i y ə t M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 416-17.

**ŞAHİNGİREY MALİKANƏSİ** – Krım zadəganının oğlu, su mühəndisi Şahingireyin adı ilə bağlıdır. Azərb.-ın Rusiya tərəfindən işğalından sonra qəza rəisi olmuş Şahingirey 1870 ildə indiki Şərur r-nu ərazisində, Arpaçayın sol sahilindəki Böyük qır adlanın sahədə dövlətdən 24 il müddətinə 2 min desyatin torpaq icarəyə götürüb, Bazarçaydan 30 *km* məsafədən oraya arx çəkdirmişdi. Tikintisi 1896 ildə başa çatan bu arxın çəkilişinə o vaxtın pulu



Şahsuvarov Aydın

ilə 65 min manat sərf edilmişdi. Şahingirey Bazarçayın suyunu Batabatdan tunel vasitəsilə Naxçıvana çatdırmaq üçün bir milyon manat dəyərində layihə də hazırlamışdı. Lakin erməni rəqiblərinin mane olması üzündən banklardan kredit ala bilmədiyindən bu iş baş tutmamuşdır. O, Kəlbəli xanın tapşırığı ilə indiki Şahbuz r-nunun Kükü k. yaxınlığında sututar yaradılması layihəsini də hazırlamışdı. Sututar 1865 ildə istifadəyə verilmişdi. Şahingirey 1913 ildə erməni icarədarı M.Canpoladovun adamları tərəfindən qətlə yetirilmişdir. Malikanə 1920 ilə kimi Şahingireyin arvadı tərəfindən idarə olunmuşdur.

*Əd.:* Ə l i y e v Ə., Əlincə yaddaşı, B., 1997, səh. 94-95.

**ŞAHQARAŞ DAĞI** – Culfa r-nu ərazisində dağ. Darıdağ silsiləsinin şm.-ş. yamacındadır. Hünd. 1430 *m*. Konusvarı formadadır. Cənub yamacı sıldırımdır.

**ŞAHSUVAROV** Aydın Ağa oğlu (19.1.1931, Naxçıvan ş. – 2.6.1986, orada) – aktyor. Azərb. Respublikası xalq artisti (1984). 1954 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur (1967–68 illərdə C.Cabbarlı ad. İrəvan Azərb. Teatrında fəaliyyət göstərmişdir). Rolları: Şeyx Nəim ("Şeyx Sənan", H.Cavid), Şeyx Əhməd ("Ölülər", C.Məmmədquluzadə), Altunbay ("Od gəlini", C.Cabbarlı), Şahbaz bəy ("Eşq və intiqam", S.S.Axundov), Vidadi ("Vaqif", S.Vurğun), Təhmas bəy ("Qaçaq Nəbi", S.Rüstəm), Kor Padşah ("Kor Padşah", N. Hikmət), Markiz ("Mehmanxana sahibəsi", K. Qoldoni), Topal Teymur ("Əlincə qalası", H.Arzulu), Xətib ("Məhsəti", Kəmalə), Yaqub ("Toya



A.A. Ş a h s u v a r o v Yaqub ("Toya bir gün, bir günorta qalmış", L.Rəşidzadə) rolunda.

bir gün, bir günorta qalmış", L.Rəşidzadə) və s. Naxçıvandakı "Cavid poeziya teatrı"nda da fəaliyyət göstərmişdir.

**ŞAHTAXTI** – Şərur r-nunun eyniadlı k.-ndən şm.-q.-də Tunc – ilk Dəmir dövrlərinə aid şəhər yeri. Sah. təqr. 2 *ha*. Abidənin üzərində və ətrafında aşınma nəticəsində dağılmış daş və torpaq yığıntılarından ibarət tikinti qalıqları izlənilir. Tədqiqatlar (1936 və 1979–90) nəticəsində müəyyən edilmiş mədəni təbəqə tikinti qalıqları, əmək alətləri, gil qab sınıqları və çürüntü qarışığından ibarət olub 3–4,5 *m* qalınlığındadır. İri daşlardan tikilmiş möhtəşəm qala divarının (eni 2,2–2,6 *m*, hünd. 1,2–2,45 *m*) və yaşayış binalarının qalıqları xüsusi maraq doğurur. Bu dövrdə Ş. qala-şəhər tipli yaşayış yerinə çevrilmiş, Naxçıvanın iri tayfa ittifaqlarından birinin mərkəzi olmuşdur. Ş.-da dulusçuluq, metalişləmə, zərgərlik və s. yüksək inkişaf etmişdi. Buradan tapılmış zəngin boyalı keramika, silindrik möhür (e. ə. 15–14 əsrlər), nəfis bəzək nümunələri Ş.-nın Yaxın Şərqin qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqə saxladığını göstərir. Ş.-dan çəh-



Şahtaxtı və Araz ovalığı.



Şahtaxtı qala divarı.



rayı, boz və qara rəngli gil qablar, bəzək şeyləri, daş alətlər və osteoloji qalıqlar əldə edilmişdir. Tapıntılara əsasən Ş. yaşayış yeri e. ə. 3–1-ci minilliklərə aid edilir.

Əd.: Ə l i y e v V. H., Tarixin izləri ilə, B., 1975; S e y i d o v A. Q., Naxçıvan tunc dövründə, B., 2000; А л е к п е р о в А. К., Исследования по археологии и этнографии Азербайджана, Б., 1960; А б и б у л л а е в О. А., Энеолит и бронза на территории Нахичеванской АССР, Б., 1982; А л и е в В. Г., Культура эпохи средней бронзы Азербайджана, Б., 1992.

**ŞAHTAXTI** – Şərur r-nunda eyniadlı kəndin yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Təbii-coğrafi cəhətdən əlverişli mövqedə yerləşir. Yaşayış yerinin q. hissəsində qazıntı işləri nəticəsində (5x5 *m* sahədə) dairəvi planlı dulus kürəsi qalığı, şirsiz (qazan, küpə, küp, çölmək, çıraq və s.) və şirli (kasa və boşqab) qablar, gil fiqurlar, iki ədəd şiş uclu bıçaq tiyəsinin müxtəlif hissələri və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Əldə edilmiş materiallar Ş. əhalisinin əkinçilik və maldarlıqla yanaşı, sənətkarlıq və ticarətlə də məşğul olduğunu göstərir. Tapıntılara əsasən, Ş. yaşayış yerinin 7–13 əsrlərə aid olduğu ehtimal edilir.

**ŞAHTAXTI** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 28 *km* c.-ş.-də, Şərur düzündədir. Əh. 3050 nəfər (2000); əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb, uşaq bağçası, mədəniyyət evi, tibb məntəqəsi, poçt-rabitə şöbəsi var. Kəndin c.-q.-ndə *Cinlidərə*, ş.-ndə, Qıvraq yaylasının Araz çayına doğru uzanan yamacında isə *Şahbağı* orta əsr abidələri yerləşir.

**ŞAHTAXTI DAŞ KARXANASI** – tikinti sənayesi müəssisəsi. Şərur r-nun Şahtaxtı k. ərazisindədir. 1954 ildə istifadəyə verilmişdir. Bu dövrdən əvvəl mişar daşı, sonralar travertin bloku kəsilmişdir. Üzlük plitə sexi, tikinti materialları z-dunun nəzdində mexanikləşdirilmiş əhəng sexi (məhsuldarlığı 10 min *t*) var. Son vaxtlar z-dda yeni avadanlıqlar quraşdırılmış, istehsal gücü artırılmışdır. Z-dda mərmər sexi fəaliyyət göstərir (mərmər qırıntıları hasil edir). Ş. d. k.-nda ildə 2 mln. ədəd divar daşı kəsilir.

**ŞAHTAXTI GOVURQALASI** – Şərur r-nunun Şahtaxtı k. yaxınlığında son Tunc — ilk Dəmir dövrlərinə (e. ə. 3–1-ci minilliklər) aid qala (bax *Şahtaxtı* şəhər yeri).



Şahtaxtı yaşayış yerindən tapılmış saxsı məmulatı. Orta əsr.

**ŞAHTAXTI MİNERAL SU YATAĞI** – Şərur r-nu ərazisində, Şahtaxtı k.-nin c.-ş.-ndə, dəniz səviyyəsindən 1500 *m* hünd.-dədir. Kəşfiyyat quyusunun suyu muxtar respublika ərazisində, əsasən, yeganə olan hidrogen-sulfidli, az minerallaşmış, sulfatlı-hidrokarbonatlı kalsiumlu-natriumlu-maqneziumlu su tipinə aiddir. Minerallaşma dərəcəsi 2,8 *q/l*-dir.

Balneoloji tərkibi:

$$H_2S10\ mq/l\ \ M\,2{,}8\frac{SO_4 60\ HCO_3 30}{Ca40\,(Na+K)30\ Mg30}\cdot pH\,6{,}1\ D\,50\ m^3/gün\ \ T\,20^\circ C$$

. Mineral su Rusiya Federasiyasındakı "Pyatiqorsk" kükürdlü suyunun analoqu olub, revmatizm və s. xəstəliklər zamanı vanna şəklində qəbul edilir.

**ŞAHTAXTI NEKROPOLU I** – Şərur r-nunda, Şahtaxtı yaşayış yerindən şm.-ş.-də orta, son Tunc – ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Sah. 5 *ha*-dan çoxdur. Qəbirlərin əksəriyyəti daş qutulardan ibarət olub, üzəri torpaq qarışıq daş kurqanla örtülmüşdür. Arxeoloji qazıntılar nəticəsində kromlexlə əhatələnmiş daş qutu qəbirlərin birində bütöv at skeleti, polixrom boyalı küpə (üzəri qara, qırmızı rənglərlə quş, at, keçi, vəhşi heyvan təsvirləri, eləcə də həndəsi rəsmlərlə maraqlı kompozisiyada bəzədilmişdir), yüksək sənətkarlıq nümunələri olan boz, qara rəngli gil qablar, qızıl təbəqə ilə



Şahtaxtı nekropolunun keramika məmulatı: 1–3. Polixrom boyalı küpələr. 4–6. Cızma naxışlı sadə küpələr. 7, 8. Sadə və polixrom boyalı çaydanlar. 9. Badya tipli qab. 10. Vaza tipli qab. 11. Qədəh tipli qab. 12. Lüləyli qab.



örtülmüş bəzək əşyaları, tunc məmulatı və s. əldə edilmişdir. Tapıntılar e. ə. 2–1-ci minilliklərə aid olunur.

*Əd.:* bax *Şahtaxtı* şəhər yeri məqaləsinin ədəbiyyatına.

**ŞAHTAXTI NEKROPOLU II** – Şərur r-nunda, Şahtaxtı şəhər yerindən c.-q.-də son Tunc – ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Tikinti işləri zamanı bir neçə daş qutu qəbir dağıdılmış, çəhrayı və boz rəngli gil qablar, bəzək əşyaları, silindrik möhür tapılmışdır (1971). Sonralar torpaq işləri görülərkən dağıdılmış xeyli daş qutu qəbirlərdə küpə, kasa, çaydan, vaza, badya tipli gil qablar (bəzisi cızma və yonma ornamentlərlə bəzədilmişdir), silah və daş alətlər aşkar olunmuşdur (1979–80). Boyalı qablar mədəniyyətinin əsas ocaqlarından olan Şahtaxtı şəhər yeri və nekropollarından tapılan polixrom boyalı qablar öz bədii tərtibatına görə nəinki Azərb.-ın, eləcə də dünyanın nadir incəsənət nümunələrindəndir.

*Əd.:* bax *Şahtaxtı* şəhər yeri məqaləsinin ədəbiyyatına.

**ŞAHTAXTI–POLDƏŞT KÖRPÜSÜ** – Araz çayı üzərində körpü və keçid məntəqəsi. İran İslam Respublikası (İİR) ilə Nax. MR arasında yük və sərnişin daşınmasını, ticarət əlaqələrini genişləndirmək, vətəndaşların gediş-gəlişi üçün yeni qapı açmaq vasitəsi. İİR-in Qərbi Azərb. ostanının Poldəşt və Nax. MR-in Şahtaxtı k. yaxınlığında salınmışdır. 1990 illərin əvvəlində Nax. MR Ali Məclisinin sədri işləyən Heydər Əliyevin İran hökumətinin dəvəti ilə 1992 il avqustun 22–25-də İİR-ə rəsmi səfəri zamanı avqustun 24-də Tehranda İİR-lə Nax. MR arasında müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış protokola əsasən inşa edilmişdir. 1993 il dekabrın 3-də Nax. MR-i İİR-lə birləşdirən üzən körpünün və Şahtaxtı–Poldəşt keçid məntəqəsinin təntənəli açılışı olmuşdur. Mərasimdə Heydər Əliyev çıxış etmiş, körpünün və keçid məntəqəsinin blokada şəraitində yaşayan Nax. MR-də iqtisadi həyatın dirçəldilməsində, İran–Azərb. əlaqələrinin genişlənməsində mühüm rol oynayacağına əmin olduğunu bildirmiş və bunu Azərb. xalqının həyatında unudulmaz hadisə adlandırmışdır.

*Şahtaxtı–Poldəşt körpüsü. 1992.*





*Daş qutu qəbir.*



Şahtaxtı nekropolunun boyalı keramika məmulatı: 1, 8. Monoxrom boyalı küpələr. 2–5. Polixrom boyalı küpələr. 6, 7, 9. Monoxrom və polixrom boyalı badyalar.



**ŞAHTAXTI TRAVERTİN YATAĞI** – Şərur r-nu ərazisində, Şahtaxtı k.-ndən 3 *km* c.-q.-dədir. Geoloji quruluşunda Dördüncü dövr yaşlı möhkəm, bəzən məsaməli boz, bozumtul-ağ rəngli travertin iştirak edir. Yataq üç sahədən ibarətdir: I sahə Şahtaxtı k.-nin şm.-ş. hissəsində, II sahə I-dən 0,7 *km* şm.-ş.-də, III sahə isə II-dən 1 *km* şm.-ş.-dədir. Sah. 0,8 $km^2$, faydalı qatın qalınlığı 6,5–22,7 *m*-dir. Blok çıxımı 30–45% təşkil edir. Travertin yüksək dekorativliyə malikdir; daxili və xarici divarlarda üzlük materialı kimi istifadə edilir. 1968 ildən istismar olunur. Yatağın sənaye ehtiyatı 7156 min $m^3$-dir.

**ŞAHTAXTİNSKAYA** Adilə İsasultan qızı (17.4.1894, Tiflis – 30.3.1951, orada) – mama-ginekoloq. Tibb elmləri doktoru (1930), prof. (1936). Azərb.-da tibb sahəsində ilk qadın prof. və kafedra müdirlərindən biri. *İ.N.Şahtaxtinskinin* qızıdır. Azərb. Dövlət Tibb İn-tunun (indiki Tibb Un-ti) mama-ginekologiya kafedrasının müdiri işləmişdir (1933 ildən). Tədqiqatları, əsasən, qadın gigiyenasına, kəsilib götürülmüş uşaqlığın yumurtalıqlara təsirinə, eklampsiyaya həsr olunmuşdur.

**ŞAHTAXTİNSKAYA** Elmira Həbibulla qızı (25.10.1930, Bakı – 13.10.1996, Bakı, Fəxri Xiyabanda dəfn olunmuşdur) – rəssam. Azərb. Respublikası xalq rəssamı (1977) və əməkdar incəsənət xadimi (1963). *H.B.Şahtaxtinskinin* qızıdır. Ə.Əzimzadə ad. Azərb. Rəssamlıq Məktəbini (indiki Rəssamlıq Akademiyası, 1950) və V.İ.Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1956) bitirmişdir. Plakat və dəzgah rəsmlərinin müəllifidir. Yaradıcılığında sülh və xalqlar dostluğu, əmək mövzusu əhəmiyyətli yer tutur. 70-ci illərdə çəkdiyi "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsində Azərb.-ın orta əsrlərdə yaşayıb-yaratmış elm və mədəniyyət xadimlərinin (Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əcəmi Naxçıvani, Sultan Məhəmməd və b.), 70–80-ci illərdə isə müasir sənətkarların (Ü.Hacıbəyov, H. Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. Dəzgah rəsmləri silsiləsi və boyakarlıq əsərləri də diqqəti cəlb edir. Müxtəlif ölkə və şəhərlərdə (Çexoslovakiya, Bolqarıstan, Moskva, Kaunas və s.) fərdi sərgiləri nümayiş etdirilmişdir. "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.



*E. Şahtaxtinskaya. Abşeron mənzərəsi. 1960.*

*Əd.:* Elmira Şahtaxtinskaya. Kitab-albom (Mətnin müəllifi G. Qacar, tərtibçilər T. Qorçu və A. Sadıqzadə), B., 2001 (Azərb., rus və ingilis dillərində); Т а р л а- н о в М., Эльмира Шахтахтинская, Б., 1969; Эльмира Шахтахтинская (каталог выставки), М., 1981.

**ŞAHTAXTİNSKAYA** Leyli İsasultan qızı [1886, Qars ş. (Türkiyə) – dekabr 1907, İsveçrə] – ilk azərb. ziyalı qadınlardan biri. Görkəmli publisist, alim və ictimai xadim *İ.N. Şahtaxtinskinin* qızıdır. 1902 ildə Tiflis Qızlar İn-tunu bitirmişdir. Ş. Avropaya ali təhsil almağa gedən ilk azərb. qızıdır. 1904 ildə İsveçrədə Tibb Un-tinə daxil olmuş, lakin təhsilini başa vurmasına 2 il qalmış xəstələnərək orada vəfat etmişdir. "Molla Nəsrəddin" jurnalı Ş.-nın ölümü ilə əlaqədar nekroloq dərc etmişdir (1908, № 52).

**ŞAHTAXTİNSKAYA** Zəhra Mustafa qızı (17.11.1895, Xankəndi – 16.9.1977, Bakı) – zooloq, helmintoloq. Biologiya elmləri doktoru (1953), prof. (1954). Azərb. Respublikasının əməkdar elm xadimi (1960). Əmək



*Şahtaxtinskaya Adilə*



*Şahtaxtinskaya Elmira*



*Şahtaxtinskaya Leyli*

*Şahtaxtinskaya Zəhra*




Şahtaxtinski Behbud ağa

fəaliyyətinə 1916 ildə qadın gimnaziysında müəllimlikdən başlamışdır. 1922 ildən ömrünün sonunadək Azərb. Dövlət Pedaqoji İn-tunda (indiki APU) işləmiş, biologiya fakültəsinin dekanı, 1937 ildən zoologiya kafedrasının müdiri olmuşdur. Elmi araşdırmaları, əsasən, Azərb.-da yaşayan su və bataqlıq quşlarında parazitlik edən qurdların tədqiqinə həsr edilmişdir. Ş. bir çox elmi əsərin, dərsliyin müəllifidir. Elmi kadrlar hazırlanmasında xidməti olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Onurğasızlar zoologiyası, B., 1960; Təbiətşünaslığın əsasları, B., 1972 (C.İ.Sailov, V.İ.Orucov və H.M.Qəniyeva ilə birgə); Zoologiya, h. 1 (kitab 2), B., 1974.

**ŞAHTAXTİNSKİ** Behbud ağa (1881, indiki Şərur r-nunun Şahtaxtı k. – 30.5.1924, Tiflis) – diplomat. 1905–07 illərdə Bakıda kontor qulluqçuları ittifaqının yaradılmasında və fəaliyyətində iştirak etmişdir. 1917–18 illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı XKS fövqəladə komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Azərb.-da sovet hakimiyyəti qurulandan sonra (1920) xalq ədliyyə komissarı, eyni zamanda Azərb. SSR-in RSFSR-də fövqəladə nümayəndəsi idi. 1920 ilin iyul–sentyabrında Azərb. haqqında, habelə Qafqaz, Türkiyə və İrandakı vəziyyətlə əlaqədar V.İ.Leninə ətraflı məruzə təqdim etmişdi. RSFSR ilə Azərb. SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqaviləni V.İ.Lenin və Ş. imzalamışdılar (1920, 30 sentyabr). Kominternin 2-ci konqresinə nümayəndə seçilmişdi. 1921–24 illərdə Nax. İnqilab Komitəsinin, Nax. MSSR XKS-nin sədri, Azərb. SSR Xalq FKM komissarı, XKS sədrinin müavini və s. vəzifələrdə çalışmışdır. Naxçıvan diyarının Azərb.-ın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ olan Moskva və Qars müqavilələrinin (1921) bağlanmasında Ş.-nin böyük xidməti olmuşdur. Onun Naxçıvan məsələsində N.Nərimanovun adından Moskvada atdığı addımlar, Rusiya–Türkiyə danışıqlarında (Moskva) seçdiyi xətt Naxçıvana Azərb.-ın ayrılmaz bir hissəsi kimi muxtariyyət statusu verilməsinə müsbət təsir göstərmişdi.


Şahtaxtinski Əbülfət

**ŞAHTAXTİNSKİ** Əbülfət Nəcəfqulu oğlu (oktyabr, 1858, indiki Şərur r-nunun Şahtaxtı k. – 13.3.1913, Gürcüstan, Kutaisi ş; Şahtaxtıda dəfn olunmuşdur)–ziyalı, hərbçi, polkovnik (1912). İ.N.*Şahtaxtinskinin* qardaşıdır, 19 əsrin 70-ci illərində Peterburqda hökumət əleyhinə tələbə iğtişaşlarının təşkilatçılarından olmuş, Peterburqda və Moskvada təhsil alan azərb.-lı tələbələrin "İmdadiyyə" təşkilatının işində yaxından iştirak etmişdir. 1877 ildə Peterburq Texnologiya İn-tuna daxil olmuş, "tələbələri qadağan olunmuş toplanışlara təhrik etdiyinə görə" 1878 ildə oradan çıxarılmışdı. Lazerev Özəl Şərq dilləri İn-tuna daxil olsa da, bu in-t diplom vermədiyinə görə Almaniyanın Heydelberq ş.-ndə diplom işi müdafiə edərək bakalavr dərəcəsi almışdı. Xaricdə aldığı diplomla qulluğa girə bilməyən Ş. 1883 ildə yunker məktəbinə daxil olub, oranı fərqlənmə ilə bitirmişdi. Rusiya–Yaponiya müharibəsində (1904–05) batalyon komandiri olmuş, 1912 ildə polkovnik rütbəsində Rusiyanın hərbi nümayəndəsi kimi İsveçrə ordusunun manevrlərini müşahidə etmişdi. Ömrünün son illərində ədəbi fəaliyyət göstərmiş, Hötenin "Gənc Verterin iztirabları" əsərini almancadan Azərb. dilinə tərcümə etmişdir.

*Əd.:* M i r z o e v O., Капля и озеро, Б., 1979.


Şahtaxtinski Həbibulla

**ŞAHTAXTİNSKİ** Həbibulla Baxşəli oğlu (9.9.1900, (indiki Şərur r-nunun Şahtaxtı k. – 22.9.1986, Bakı) – kimyaçı (analitik və qeyri-üzvi kimya). Kimya elmləri doktoru (1949), prof. (1950), Azərb. Milli EA akad. (1967), Azərb. Respublikası əməkdar elm xadimi (1974). Azərb. Dövlət Un-tinin (indiki BDU) tibb fakültəsini (1926) və Azərb. Politexnik İn-tunun kimya-texnologiya fakültəsini (1930) bitirmişdir. 1930–72 illərdə respublikanın ali məktəblərində dərs demiş, Politexnik in-tda miqdari kimyəvi analiz kafedrasının, Azərb. Sənaye İn-tunda (indiki Neft Akademiyası) analitik kimya kafedrasının müdiri olmuşdur (1937–59). 1959–86 illərdə Azərb. EA Qeyri-Üzvi və Fiziki Kimya İn-tunda mineral maddələr texnologiyası laboratoriyasının müdiri işləmişdir. Əsas elmi tədqiqatları analitik və qeyri-üzvi kimya texnologiyasının nəzəri və təcrübi problemlərinə həsr edilmişdir. Ş. analitik kimya elmində yeni səhifə açan "Yodometriyanın arsenat metodu" mövzusunda geniş elmi tədqiqatlar aparmış və bir çox elementlərin analitik təyini üçün yeni arsenat-yodometrik üsul vermiş,



Azərb.-ın faydalı qazıntı sərvətlərindən alunitin, dəmir filizinin, titanlı dəniz qumunun, tərkibində faydalı komponentlər olan polimetal filizlərin kompleks emalı üçün orijinal texnoloji sxemlər işləyib hazırlamış, bunların iri laboratoriya qurğularında və yarımsənaye miqyasında sınaqdan keçirilməsinə nail olmuşdur. Ş.-nin rəhbərliyi ilə metallurgiya z-dlarının tullantı qazlarından konversiya olunmuş təbii qazla elementar kükürdün alınması üzrə iş başa çatdırılmış və istehsalata tətbiq olunması tövsiyə edilmişdir. Ş. kimya fənnini respublikada ilk dəfə tədris edənlərdən biridir. Onun 1937 ildə çapdan çıxmış "Miqdari kimyəvi analiz" dərsliyi sonralar (1953) da nəşr olunmuş və bu günədək ali məktəb tələbə və müəllimlərinin istifadə etdiyi ən qiymətli vəsaitdir. Ş. 7 monoqrafiya və dərsliyin, 380-dən çox məqalə və digər elmi əsərin müəllifidir. Yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm xidməti var. Oktyabr İnqilabı ordeni ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: Получение окиси алюминия из бедноалунитизированных пород Заглинского месторождения, Б., 1972 (совм. с А.Халиловым и Г.Аслановым); Получение пятиокиси ванадия при комплексной переработке алунитов, Б., 1974 (совм. с С.Гусейнзаде и Х.Халиловым); Исследование процесса восстановления барита на непрерывнодействующей установке, "Азербайджанский химический журнал", 1982, № 3 (совм. с Г.Р.Аскеровым и А.А.Аскеровой).

*Əd.:* H. B. Ş a h t a x t i n s k i. Biblioqrafiya, (tərtibçilər Z.İ.Əlizadə, Q.M.Səmədzadə, T.A.İsaçenko), B., 2000.

**ŞAHTAXTİNSKİ** İsasultan Nəcəfqulu oğlu (5.7.1851, İrəvan – 18.10.1894, Türkiyə, Qars ş.) – ziyalı, jurnalist, alim və ictimai xadim. *Ə. N. Şahtaxtinskinin* qardaşıdır. Tiflis realni gimnaziyasını bitirmiş (1871), Peterburq Əkinçilik İn-tunda təhsil almış, Parisdə və Londonda siyasi iqtisada, Sürix Politexnikumunda təbiətşünaslığa dair mühazirələrə qulaq asmışdır (1872–75). 1875 ildə "Təbiətdə və cəmiyyətin iqtisadiyyatında meşənin əhəmiyyəti" mövzusunda dissertasiya müdafiə etmiş, kənd təsərrüfatı elmləri namizədi diplomu ilə Tiflisə qayıtmışdır. Rus, fars, ingilis, fransız və alman dillərini bilirdi. 1875–87 illərdə Tiflisdə mətbuatda çalışmış, "Tiflisski vestnik" qəzeti redaksiyasında xarici siyasət şöbəsinin müdiri olmuş, onun səhifələrində aktual mövzulara dair bir sıra məqalələr ("Naxçıvan və Kulpi duz mədənləri", "Quba xanlığında torpaq sahibkarlığı", "Zaqafqaziya müsəlmanlarının əqli tələbatı", "Ağrılı yer" və s.) dərc etdirmişdir. Naşiri olduğu "Kavkazski kalendar" məcmuəsində (2 sayı çıxmışdır, 1877) müxtəlif təqvimlər, bayramlar, Qafqazın inzibati bölgüsü, coğrafiya, astronomiya, meteorologiya, habelə dövlət idarələri, maarif xadimləri haqqında məlumat verilmişdir. Ş.-nin almanaxda dərc olunmuş irihəcmli "Şərqin böhranı" məqaləsində Şərqin ictimai-siyasi və iqtisadi həyatına, xüsusilə Türkiyənin beynəlxalq münasibətlərinə dair maraqlı mülahizələr irəli sürülür. "Əkinçi"nin redaktoru H.Zərdabiyə məktubunda (9 may, 1876) qəzetin nəşrini "qəlbim üçün çox əziz olan iş" deyə hərarətlə alqışlamışdır. 1878 ildən ömrünün sonunadək Qars ş.-ində inzibati işdə çalışmış, xüsusi tapşırıqlar üzrə məmur, hərbi qubernator dəftərxanasında müdir işləmiş, 1883 ildən çıxan "Kars" adlı həftəlik rus qəzetinin əsas əməkdaşlarından olmuşdur. Zəmanəsinin hazırlıqlı, yüksək mədəniyyətli və alicənab şəxsiyyətlərindən olan Ş. ənənəvi olaraq bir-birinə qarşı qoyulan Qərb-Şərq tarixi-mədəni regionlarının yaxınlaşmasına, qovuşmasına çalışan açıq fikirli ziyalı idi.

*Əd.:* M i r ə h m ə d o v Ə., Dövri mətbuat, onun "Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX–XX əsrlər)" kitabında, B., 1983; Q u l i y e v V., İsa Sultan Şahtaxtinskinin qəribə həyatı, B., 1999.


Şahtaxtinski Məhəmməd

**ŞAHTAXTİNSKİ** Məhəmməd Həbibulla oğlu (d. 10.7.1932, Bakı) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1970), prof. (1971), Azərb. Milli EA akad. (1989; m. üzvü 1980), Azərb Respublikası əməkdar elm xadimi (1991). *H. B. Şahtaxtinskinin* oğludur. Moskva Energetika İn-tunun radiotexnika fakültəsini bitirmişdir (1956). Azərb. Milli EA Fizika İn-tunda elmi və baş elmi işçi (1956–67), laboratoriya müdiri (1968–87) işləmişdir. 1987 ildən in-tun bərk cisimlər elektronikası şöbəsinin rəhbəridir. Tədqiqatları bərk cisimlər fizikasına aiddir. Yarımkeçirici və yarımmetalların bərk məhlullarında yük daşıyıcıların enerji spektri və elektron xassələri arasında ümumi qanunauyğunluğu müəyyən etmiş, onların qalvanomaqnit və termo-



Şahtaxtinski Toğrul

elektrik xassələrində bir sıra anomaliyanın, maqnitoplazma dalğalarının dispersiyasının miqdarı cəhətdən şərhinin mümkünlüyünü, aşqar halların bərk məhlulun tərkibindən asılı olmayaraq dəyişməsini göstərmişdir. Yarımkeçiricilərin termodinamikasının tədqiqində, bir sıra orijinal metodika və qurğuların yaradılmasında yaxından iştirak etmişdir. Ş.-nin rəhbərliyi ilə yüksək keyfiyyətli, iqtisadi cəhətdən sərfəli poladlar yaradılmış, böyük sürətlə işləyən etibarlı və sərfəli, sağlamlıq üçün zərərsiz çapetmə metodikası işlənib hazırlanmışdır. Fransada kristalların yetişdirilməsi üzrə beynəlxalq konfransda məruzə etmişdir. Azərb. Fizika Cəmiyyətinin prezidenti (1991), Avropa – Asiya Fizika Cəmiyyətinin vitse-prezidentidir (1991).

**ŞAHTAXTİNSKİ** Toğrul Nemət oğlu (d.22.10.1925, Bakı) – kimyaçı, texnoloq, kimya elmləri doktoru (1968), prof. (1968), Azərb. Milli EA akad. (1976; m. üzvü 1972). Azərb. Respublikası əməkdar elm xadimi (1991). Azərb. Sənaye İn-tunun (indiki Neft Akademiyası) kimya-texnologiya fakültəsini (1949) və Azərb EA Neft İn-tunun aspiranturasını (1952) bitirmişdir. Azərb. Milli EA Neft Kimyası Prosesləri İn-tunda laboratoriya müdiri (1962–74) olmuş, 1971–73 illərdə Naxçıvan Regional Elmi Mərkəzinə rəhbərlik etmişdir. Azərb. Milli EA Kimya Elmləri bölməsinin akademik-katibi (1973–81 və 1990–97) olmuşdur. Azərb. Milli EA M. Nağıyev ad. Kimya Texnologiyasının Nəzəri Problemləri İn-tunun direktoru və Oksidləşmə prosesləri laboratoriyasının müdiri (1975 ildən, eyni zamanda). Azərb. EA-nın Baş akademik-katibi (1997 ildən), "Azərbaycan kimya jurnalı"nın baş redaktorudur (1975 ildən). Əsas elmi işləri kimyəvi reaksiyaların genetika və mexanizminin tədqiqinə, üzvi və neft-kimya sintezi proseslərində karbohidrogenlərin katalitik çevrilmələrinin öyrənilməsinə, kimya proseslərinin modelləşdirilməsinə və optimallaşdırılmasına, kimya texnologiyasının nəzəri əsaslarının işlənilməsilə əlaqədar geniş problemlərə həsr olunmuşdur. Ş. neft kimyası, homogen və heterogen katalitik reaksiyaların kinetika və mexanizmi, qeyri-stasionar katalitik proseslərin nəzəriyyəsi və texnologiyası, bioüzvi və fermentativ sistemləri sahəsində görkəmli alimdir. 500-dən çox elmi əsərin, o cümlədən 11 monoqrafiyanın, 130 ixtira və patentin müəllifidir. Beynəlxalq konqres və simpoziumlarda (Almaniya – 1963, 1969, 1971, 1996; Rumıniya – 1996; Yaponiya – 1974, 1975, 1998, 2000; Fransa – 1980; Bolqarıstan – 1983; Macarıstan – 1983, 1986, 1989; ABŞ – 1977, 1979, 1990, 1997; Türkiyə – 1992, 1993, 1996; Hollandiya – 1996; Belçika – 1998, 2000) Azərb. elmini təmsil etmişdir. Əsərləri nüfuzlu beynəlxalq elmi nəşrlərdə (İngiltərə, AFR, Macarıstan, Rumıniya və s.) çap olunmuşdur. Elmi kadrlar hazırlanmasında mühüm xidməti var. Şərəf nişanı, Xalqlar dostluğu ordenləri ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Значение нефти в производстве современных синтетических материалов, М., 1959 (совм. с А.Топчиевым и М.Ф.Нагиевым); Алифатические кислородсодержащие мономеры и полимеры, Б., 1963; Создание и развитие учения о рециркуляционных процессах в химической технологии, Б., 1979 (совм. с В.И.Кузнецовым и З.А. Зайцевой); Оптимизация процессов химической технологии с программами для ЭВМ, Б., 1985 (совм. с М.Ф.Бахмановым и Г.И.Келбалиевым); Syntetic materials from petroleum, Pergamon Press, London, 1962 (coautbors A.V.Topchiev and M.F.Nagiev); The C4 hydrocarbons and their industria, derivatives, Ernest Benn Litd., London, 1980 (edited by E. Hancock).

Şahtaxtlı Məhəmmədi ağa



**ŞAHTAXTLI,** Ş a h t a x t i n s k i Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu (1846, indiki Şərur r-nunun Şahtaxtı k. – 12.12.1931, Bakı) – publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq "Asiya cəmiyyəti" (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü. Bakı Un-tinin prof. (1920). Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını (1863) qurtardıqdan sonra, Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. Leypsiq Un-tinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir (1869). 1873–75 illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərb., rus, alman, fransız, ingilis, ərəb, türk, fars dillərində ədəbi və elmi əsərlər yazmışdır.

Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. 70-ci illərdə dərc etdirdiyi ilk məqalələrində liberal xalqçılığın təsiri duyulur. Ş. əlifba islahatı sahəsində M.F.Axundovun ardıcıllarındandır. 1879 ildə Şərqdə əlifba islahatı tarixində ilk kitab – "Təkmilləşmiş müsəlman əlifbeyi"ni Tiflisdə nəşr etdirmişdir. Bir müddət "Moskovskiye vedomosti" qəzetinin əməkdaşı və İstanbulda xüsusi müxbiri işləmişdir. 1891–93 illərdə Ş. "Kaspi" qəzetinin müvəqqəti redaktoru təyin edilmişdi. 1898 ildə Azərb. dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna icazə vermədiyi üçün Ş. yenidən Avropaya getmiş, 1902 ilədək Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərindən dərs demişdir. Bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropa və Amerika mətbuatında da müzakirə və mübahisələrə səbəb olmuşdu. Ş. Sorbonna Un-tində prof. P.Passinin rəhbərliyi ilə fonetika sahəsində tədqiqat aparmış, Fransa Maarif Nazirliyinin fəxri diplomunu (1901) almışdır.

1902 ildə Ş. Tiflisdə xüsusi mətbəə açmış (sonralar "Qeyrət" adlanmışdır), 1903 ilin martında ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzetinin nəşrinə başlamışdır. Qəzetin Azərb.-da ictimai fikir tarixinin inkişafında xüsusi xidməti olmuşdur. Onun səhifələrində dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-Rus" qəzeti C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Ö.F.Nemanzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Nəzmi kimi açıqfikirli ədib və mühərrirləri öz ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərb.-da mətbuatın inkişafının yeni mərhələsinin ("Molla Nəsrəddin") başlanmasına zəmin yaratdı. 1907 ildə İrəvan qub.-dan II Dövlət Dumasına deputat seçilən Ş. Duma bağlandıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908–18 illərdə, xaricdə (əsasən, Türkiyə, İran və İraqda) yaşamışdır. 1919 ildə vətənə qayıtmış, Bakı Un-tinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. 1920-ci illərdə "Kommunist", "Bakinski raboçi", "Qızıl Şərq" (Moskva) qəzetlərində məqalələr dərc etdirmiş, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir. 1922 ildə Ş.-ya fərdi pensiya təyin olunmuşdu.

Elmi, tənqidi və publisist əsərlərində Ş. müstəmləkəçilik, irqçilik, qadın əsarəti, dövlət quruluşu, demokratiya, xalq hakimiyyəti, din, şəriət məsələləri və s. haqqında dövrünə görə mütərəqqi fikirlər irəli sürmüşdür. Dövrünün qabaqcıl şəxsiyyətləri Ş.-nın ədəbi, elmi və jurnalistlik fəaliyyətini yüksək qiymətləndirmişlər.

Ə s ə r l ə r i: Sövti Şərq əlifbası, Tiflis, 1902; Усовершенствованная мусульманская азбука, Тифлис, 1879; Фонетическая восточная азбука, Тифлис, 1902; Кризис мусульманской жизнеспособности, в кн.: Турецкий сборник, СПБ, 1909.

*Əd.*: Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c. 2, B., 1960; M ə m m ə d q u l u z a d ə C., Xatirətım, B., 1961; M i r ə h m ə d o v Ə., Dövri mətbuat (1900-1920), onun "Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX–XX əsrlər)" kitabında, B, 1983; M ə l i k o v a M., B a y r a m o v E., Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər), B., 1984; N o v r u z o v Ş., "Şərqi-Rus"un çağırışı, B., 1988.

**ŞAMLAR** – Şahbuz r-nunda, Qarababa və Mahmudoba k-ləri arasında, Naxçıvançayın sol sahilində Dəmir dövrünə aid yaşayış yeri. Qövs şəklində birləşən iki təpəni və onların ətəyini əhatə edir. Təpələrdən biri hündür olub, qayalıqlarla əhatələnmişdir. Şm.-ş. tərəfdən quru çay vadisi ilə məhdudlaşır. Sah. 1500 $m^2$-dir. Abidə 1987 ildə qeydə alınmışdır. Yaşayış yerinin bəzi hissələrində tikinti qalıqlarına təsadüf olunmuşdur. Axtarışlar zamanı boz və çəhrayı rəngli gildən küpə, kasa və badya qırıqları, çəhrayı rəngli tuf daşından hazırlanmış dən daşları tapılmışdır. Mədəni təbəqə yalnız bəzi yerlərdə saxlanmışdır. Tapıntıların tədqiqinə əsasən, Ş. yaşayış yerinin e. ə. 9–4 əsrlərə aid olması ehtimal edilir.

**ŞAMLAR NEKROPOLU** – Şahbuz r-nunda, Şamlar yaşayış yerinin şm.-ş.-ndə Dəmir dövrünə aid arxeoloji abidə. Şm.-q. və şm.-ş.-dən hündür dağlarla, c.-ş.-dən isə quru çay vadisi ilə məhdudlaşır. Yerli əhali arasında "Mehbalı yeri", "Dölçək" adları ilə də tanınır. Nekropolun aşağı hissəsində sel sularının açdığı yarğanda boz rəngli gil qablar tapılmışdır. Qazıntı zamanı nekropoldan üç bütöv gil qab aşkara çıxarılmışdır. Onlardan biri kasa tipli qara rəngli iri qab olub, xaricdən yüngülcə cilalanmış, gövdəsi qabarıq zolaqla əhatələnmişdir. Qablar (xüsusilə piyalələr) kiçik həcmli olub qabarıq gövdəlidir; üzərində çəhrayı ləkələr var. Tapıntılar tipoloji cəhətdən Şamlar yaşayış yerindən toplanmış

Şamlar yaşayış yerinin keramika məmulatı. E. ə. 9–4 əsrlər





Şeyx Xorasan xanəgahı. 12–13 əsrlər.

gil məmulatı ilə oxşardır. Abidənin e.ə. 10–9 əsrlərə aid olması ehtimal edilir.

*Əd.:* N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B., Şahbuz bölgəsinin arxeoloji abidələri, B., 1992.

**ŞAMLU DƏRƏSİ** – indiki Culfa r-nu ərazisində yer. Orta əsrlərdə Azərb.-da "dərə" məfhumu bir sıra yaşayış məntəqələrinin olduğu vadi, bəzən mahal mənasında da işlədilirdi. Əmir Teymurun oğlu Miranşahın 27 ramazan 798 (4.7.1396) il tarixli fərmanında Culah (Culfa) qəsəbəsindən toplanan mal və müstəvəccihatın soyurqal olaraq marakanlı Şeyx Dursuna verildiyi göstərilir. Marakan (M a r a q a n) Culfa ətrafındakı Şamlı (Ş a m l u q) dərəsində kənd olmuşdur. Teymurun kiçik oğlu və varisi Şahruxun 8 məhərrəm 838 (14.8. 1434) il tarixli fərmanından isə məlum olur ki, Şeyx Dursun Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə yüksək nüfuzlu şəxs olmuş və onlara rəğbət bəsləmişdir. Ş. d. toponiminə "Kitabi-Dədə Qorqud" dastanında *Dərəşam* şəklində rast gəlinir.

*Əd.:* O n u l l a h i S. M., H e y d ə r o v M. X., Fars dilində 101 sənəd, Azərb. EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1991, № 4.

Şeyx Xorasan türbəsinin kitabəsi.



**"ŞAPUR BULAĞI"** – Şərur r-nunda ziyarətgah. Cağazir k.-nin yaxınlığındadır. Deyilənə görə, səfərə çıxanlar, arzusuna qovuşmaq istəyənlər, övlad həsrətində olanlar niyyətlərinə çatmaq üçün Ş.b.-na gələrək, onun pak suyunda əl-üzünü yuyar, ətrafından daş götürüb, bulağın üstündəki "Əhdigah" adlanan qaya taxçalara atardılar. Rəvayətə görə daş taxçada qalsa, tutulan niyyət qəbul olunacaqdır.

**ŞAPURQALA** – Şahbuz r-nunun eyniadlı kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş hündür dağın üstündədir. Arxeoloji abidə kimi 1990 ildə qeydə alınmışdır. Sah. 1300 $m^2$. Qalaya qalxan yolun üstündə pir var; pirdən bir qədər yuxarıdakı meydançada uçub tökülmüş tikinti qalıqlarına, çəhrayı rəngli gil qab qırıqlarına təsadüf olunmuşdur. Qala çoxbucaqlı meydança şəklindəki sahədə yerləşir. Meydançanın hündür yeri onun c.-ş.-indəki iri qayadır. Qayanın içərisində dördkünc (4x3,6 *m*) otaq qazılmışdır; otağın içərisindən ölçüsü 19x19x5 *sm* olan bişmiş kərpiclər tapılmış, q. divarında rombşəkilli taxça düzəldilmiş, taxçanın altında divar yarımdairəvi şəkildə yonulmuşdu. Qalanın mərkəzi hissəsində tikinti qalıqlarına, bişmiş kərpic, çəhrayı rəngli gil qab və dən daşlarının qırıqlarına, ocaq yerinə təsadüf edilmişdir. Tapıntılar Ş.-da həyatın eramızın ilk əsrlərindən 15–16 əsrlərədək davam etdiyini göstərir. Abidədən müdafiə məqsədilə, həm də gözətçi məntəqəsi kimi istifadə olunmuşdur.

*Əd.:* bax *Şamlar nekropolu* məqaləsinin ədəbiyyatına.

**ŞEYX XORASAN XANƏGAHI** – Culfa r-nunun Xanağa k. yaxınlığında, Əlincə qalasının ətəyində orta əsrlərə aid abidə. Kompleksdə konstruktiv memarlıq formasına görə 12–13 əsrlərə aid edilən türbə binasının qapısı üzərindəki daş ovulub töküldüyü üçün orada həkk olunmuş kitabənin axırıncı sətrindəki sözlər və tarix qalmamışdır. Ərəbcə kitabədə türbəni tikdirən şəxsin yüksək titulları, ləqəbləri, onun baş sərkərdə, alim olduğu göstərilir. Lakin türbənin kimin üçün tikildiyini müəyyənləşdirmək mümkün olmayıb. Qapının girəcəyində sağ və sol tərəfdə divara



gipsdən düzəldilmiş iki mehrab qoyulmuşdur. Hər iki mehrab memarlıq ünsürləri – sütun, tağ, oyma, haşiyə, nəbati ornament və kitabə motivləri ilə çox nəfis şəkildə işlənmiş sənət əsəridir. Qazıntılar zamanı xanəgah ərazisindən 1444–45, 1491–92, 1492–93 tarixləri olan mərmər sənduqələr aşkar olunmuşdur (1976). Bəzi tədqiqatçılar "Şeyx Xorasan" adının Günəş mənasında *F.Nəimiyə* aid edildiyini söyləyirlər. Mənbələrdəki məlumatlara görə, Teymurilər onu Əlincə qalasına qədər təqib edib, oralarda edam etmişlər.

*Əd.:* M ə ş ə d i x a n ı m N e m ə t, Azərbaycan pirləri, B., 1992; S ə f ə r l i F., C ə f ə r o v H., Naxçıvan ziyarətgahları, B., 1998

**ŞEYXƏLİ BƏY KƏNGƏRLİ**, Ş ı x ə l i N a i b (?–?) – Naxçıvan xanı Kəlbəli xanın oğlu, Ehsan xan, Nəzərəli bəy və Lütfəli Sultan Kəngərlilərin qardaşıdır. Hələ 1805 ildə Rusiyaya birləşdirilən Qarabağ xanlığına gedərək, Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etmişdi. Rus komandanlığı Ş. b. K.-nı hörmətlə qəbul edərək, Qarabağ xanı Mehdiqulu xana onun yaşaması üçün kənd ayrılmasını tapşırmışdı. Naxçıvan ətrafında düşərgə salmış rus süvari hissəsinə qəbul olunan Ş. b. K 1808 ilin oktyabrında öz atlıları ilə Naxçıvan qalasına doğru hərəkət edən rus süvari dəstəsinə bələdçilik etmişdir. Qarabata adlanan yerdə baş vermiş qanlı döyüşdə İran qoşunu məğlubiyyətə uğrayaraq geri çəkildi və ruslar Naxçıvanı müqavimətsiz tutdu. Bu qələbədə Ş.b.K.-nin dəstəsi fərqlənmiş, şəxsi şücaət və igidliyinə görə ona rus ordusunun polkovniki rütbəsi verilmişdi (1809); o, Kəngərli nəslindən Rusiya hərbi rütbəsi alan ilk zabitdir. Bununla belə, İranda girov saxlanan atasının həyatını təhlükədən qurtarmaq üçün İrana getməyə məcbur olan Ş.b.K. burada həbs olunmuşdu. Lakin Rusiya–İran müharibəsində (1804–13) məğlubiyyət qarşısında qalan İran hökuməti ata-oğulu həbsdən azad edərək, onların vətənə qayıtmasına razılıq vermişdi. Fətəli şahın ikinci Rusiya–İran müharibəsindən (1826–28) əvvəl Ordubad nahiyəsinə naib təyin etdiyi Ş. b. K. 1827 ilin sentyabrında rus qoşunlarını müqavimət göstərmədən ş.-ə buraxmış, 400 atlı ilə Arazı keçərək, Naxçıvandan və Ordubaddan zorla o taya köçürülmüş əhalini geri qaytarmış, Mehridən c.-da yerləşən Kürdad qalasını tutmuş, burada ələ keçirdiyi çoxlu hərbi sursatla rusların düşərgəsinə qayıtmışdır. Rusiya–İran müharibəsində Rusiyaya göstərdiyi xidmətlərə görə Ordubad nahiyəsinin idarəsi Ş. b. K.-yə həvalə olunmuşdu. Ədalətli siyasəti ilə xalq arasında böyük nüfuz qazanmış Şeyxəli bəy Ordubadda abadlıq, iqtisadi dirçəliş və mədəniyyət məsələlərinə ciddi fikir verirdi. Onun vaxtında Ordubadda ipəkçiliyin inkişafı sürətləndi. "Naib" təxəllüsü ilə şerlər yazan Ş. b. K. Ordubadda "*Əncüməni-şüəra*" ədəbi məclisi yaratmışdı (1838). Şair Əndəlib Qaracadaği (19 əsr) ona şer həsr etmişdir.

*Əd.:* Ə l i y e v F., Ə l i y e v U., Naxçıvan xanlığı, B., 1996, səh. 79-106.

**ŞEYXOV** Nəsrulla Əsəd oğlu (1863, Naxçıvan ş. – 1921, İran, Rəşt ş.) – maarifçi, teatr xadimi. Uşaqlığı "Məddah" təxəllüsü ilə şerlər yazan atası ilə birlikdə Naxçıvanda və Kərbəlada (İraq) keçmişdir. 19 əsrin 80–90-cı illərində C. Məmmədquluzadə ilə birlikdə Naxçıvanın teatr həyatında iştirak etmiş, M.F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında Hətəmxan ağa, E. Sultanovun "Azərbaycan qızı" pyesində Pəri rollarında oynamışdır. İran məşrutə hərəkatında yaxından iştirak etmiş, məşrutəçi kimi "Cəmşid" ləqəbilə tanınmışdır. Tiflis ş.-də "Hümmət" təşkilatı Naxçıvan şöbəsinin yaradılmasında mühüm rol oynamışdır. İranda, Həştərxanda həbsdə olmuşdur. İranın Rəşt ş.-ndə kommunist firqəsinin məsul katibi olan Ş. müxalif qüvvələrlə gedən vuruşmalarda faciəli surətdə həlak olmuşdur.

*Əd.:* X ə l i l o v Ə., Naxçıvan teatrının tarixi, B., 1964; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**"ŞƏFA"** – Naxçıvan ş.-ndə özəl sağlamlıq ocağı, xəstəxana. 1999 ilin noyabrından fəaliyyətə başlamışdır. 3 palatası, əməliyyat bloku, 6 həkim kabineti, hamam və müalicə əhəmiyyətli mineral sularla təchiz olunmuş vanna otaqları var (2000). Burada rentgen və göz xəstəliklərindən başqa, hər cür xəstəliklər müalicə olunur. Müəssisə müasir tibbi avadanlıqla, o cümlədən Almaniyanın istehsalı olan ultra səslə müayinə aparatı, əməliyyat dəsti və stolu, işıqlandırıcı, daxili xəstəlikləri aşkara çıxaran digər aparatlarla təchiz edilmişdir. Ambulator müalicəsindən və evdə

müalicədən geniş istifadə olunur, cərrahiyyə əməliyyatı keçirmiş xəstələrə tibbi xidmət göstərilir. Sağlamlıq ocağında 20 həkim, tibb bacısı və sanitar çalışır (2000). "Şəfa" fəaliyyət dairəsini ilbəil genişləndirir.

**ŞƏHƏR YERİ** – Sədərək k-nin 3–4 *km* c.-q.-ndə aşkara çıxarılmış Eneolit dövrünə aid yaşayış yerinin (bax *Sədərək*) yerli əhali arasında adı.

**ŞƏHİD MƏMMƏD** (1965–90 illərdə Y e n i k ə n d) – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 15 *km* c.-ş.-də, Naxçıvan –Sədərək avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 2760 nəfər (2000); əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb, natamam orta məktəb, 3 klub, kitabxana, uşaq bağçası, ambulatoriya var. 1990 ilin qanlı yanvarında Sədərək uğrunda döyüşlərdə mərdliklə həlak olmuş Məmməd Məmmədovun (1949–1990) xatirəsini əbədiləşdirmək məqsədilə Ş.M. adlandırılmışdır.

**ŞƏHİDLƏR XİYABANI** – Naxçıvan ş.-ndə Azərb.-ın, Nax. MR-in azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin əbədi uyuduğu məzarlıq. İlk Ş. x. sovet imperiyası qoşunlarının 1990 il yanvarın 19-dan 20-nə keçən gecə Azərb.-a xaincəsinə təcavüzü zamanı azadlıq atəşi ilə yanan odlu sinələrini amansız düşmən güllələrinə sipər etmiş onlarca igid vətən övladının dəfni ilə bağlı Bakının Dağüstü parkında salınmışdır. Vətən yolunda fədakarlıqla vuruşaraq qəhrəmancasına həlak olmuş Qarabağ müharibəsi şəhidləri də həmin xiyabanda dəfn olunmuşlar. Sonralar Azərb.-ın digər ş. və r-nlarında, o cümlədən Nax. MR-in paytaxtında və r-n mərkəzlərində də şəhid xiyabanları salındı. Ş. x. Nax. MR-in ən müqəddəs ziyarətgah yerlərindəndir. Muxtar respublikada rəsmi səfərdə olan nümayəndə heyətləri, görkəmli ictimai-siyasi xadimlər, şəhərin qonaqları Ş.x.-na gələrək, şəhidlərin əziz xatirəsini ehtiramla yad edir, onların məzarları önünə əklillər, gül-çiçək dəstələri qoyurlar. Azərb. xalqı, xüsusilə gənclər, elin qəhrəman övladlarını heç vaxt unutmur, ən əziz və əlamətdar günlərdə Ş.x.-nı ziyarət edir, vətənə, xalqa onlar kimi sədaqətlə xidmət edəcəklərinə and içirlər. Ş.x. kompleksinin müəllifi Nax. MR əməkdar incəsənət xadimi heykəltəraş-rəssam Elman Cəfərovdur.




**ŞƏHİDLƏR MUZEYİ** – Naxçıvan ş.-ndə Azərb.-ın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək üçün 1990 ildə yaradılmışdır. Muzey Naxçıvan–Şərur yolunun kənarında, uca təpə üzərində tikilmişdir. Qarşısında rəmzi Ana heykəli ucaldılmışdır. Muzey dairəvi formalı olub, 400 $m^2$ sahəni əhatə edir. Burada şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş yollarına aid materiallar və s. toplanmışdır.

**ŞƏHRİYAR** – Şərur r-nu ərazisində çay. Arpaçayın deltasında, ondan ayrılan axar. 849 *m* hünd.-də Arpaçayın sağ sahilindən ayrılaraq 786 *m* hünd.-də Araza tökülür. Uz. 29 *km*. Axını boyunca Sərxanlı, Babək, Şəhriyar, Muğan və s. yaşayış məntəqələrinin təsərrüfat sahələrinin suvarılmasında istifadə edilir

**ŞƏHRİYAR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 3 *km* q.-də, Şərur düzündədir. Əh. 1990 nəfər (2000); tütünçülük və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, klub, kitabxana, kinoqurğu, xəstəxana, məscid var.

**ŞƏKƏRABAD** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən



4 *km* şm.-da, Naxçıvançayın sol sahilində, düzənlikdədir. Əh. 926 nəfər (2000); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Məktəb, klub, kitabxana, məscid var.

**ŞƏKƏRDƏRƏ QIZIL YATAĞI** – Ordubad r-nu ərazisində, Ordubad ş.-ndən 30 *km*, Kələki k.-ndən 6 *km* şm.-q.-də, dəniz səviyyəsindən 1500–2000 *m* hünd.-dədir. Geoloji quruluşunda Orta Eosenin vulkanogen süxurları, həmçinin diorit-porfirit, diabaz daykaları iştirak edir. Mis-qızıl filizləşməsi damarı, damar zonaları və misli-qızıllı ştokverk tipli metasomatitlərdən ibarətdir. Filizli damar və damar zonaları 300–3300 şm.-q. pozulmaları ilə əlaqədardır. Filizli damarlarda qızıl 1,4 *q/t*, mis 1,9%, qızıllı metasomatitlərdə isə qızıl 1,0 *q/t*, mis 0,24%-dir. Əsas filiz mineralları: pirit, xalkopirit, sfalerit, misin törəmə mineralları, sərbəst qızıl. Tekstur əlamətlərinə görə filizlər brekçiya və konsentrik zona tiplidir.

**ŞƏMSƏDDİN ELDƏNİZ** (?–1175) – *Azərbaycan atabəyləri dövlətinin* [1136–1225] yaradıcısı, Eldənizlər sülaləsinin banisi. Son tədqiqatlar bu adın ədəbiyyatda rast gəlinən "Eldəgəz", "Eldəgiz", "İldəniz" və "Eldoqquz" formalarının yanlış olduğunu, onun "il" ("el") və "denqiz" ("tenqiz, "dəniz") türk sözlərindən əmələ gəldiyini təsdiq edir. Ş. E.-in həyat və fəaliyyəti haqqında dövrün ərəb və fars mənbələrində (Sədrəddin əl-Hüseyni, İbn əl-Əsir, Ravəndi, Mirxond, Xondəmir və b.) məlumat vardır. Mirxondun yazdığına görə, Azərb.-ın da daxil olduğu İraq Səlcuq sultanlığının hökmdarı Mahmudun [1118–31] dövründə Dərbənd bazarından alınmış qıpçaq qullarından olan Eldəniz sultanlığın paytaxtı Həmədana gətirilmiş, orada sultanın vəziri Əbu Həmid Əli ibn Əhməd əs-Sumayramiyə satılmışdır. 1122 ildə ismaililərin öldürdüyü həmin vəzirin əmlakı sultan tərəfindən müsadirə edildikdə, Eldəniz də onun xidmətinə keçmişdir. Zirəkliyi və fərasəti ilə seçilən Eldəniz çox keçmədən at sürməkdə, ox atmaqda öz həmyaşıdlarını geridə qoya bilmişdi. 1132 ildə sultan Mahmud vəfat etdikdə, Eldəniz artıq yalnız inanılmış adamlara həvalə olunan sultan mətbəxinin başçısı vəzifəsinədək yüksəlmişdi. Yeni sultan II Toğrulun [1132–35] dövründə sultanın şəxsi məmlükləri sırasına keçən və vəzifə pillələri ilə sürətlə irəliləyən Eldəniz sultanın arvadı *Mömünə xatunun* xüsusi hörmətini qazanmışdı. Onun məsləhəti ilə saray çəkişmələrinə qarışmayan Eldəniz hökmdarına sədaqət müqabilində əmir titulu almış, sultanın azyaşlı oğlu Arslanşahın *atabəyi* təyin edilmişdi. II Toğrulun ölümündən sonra hakimiyyətə gəlmiş yeni sultan Məsud [1135–52] Eldənizi mərhum sultanın dul qalmış arvadı Mömünə xatunla evləndirir, 1136 ildə isə Arranı (Bərdəni) iqta kimi ona verir. Taxt-tac uğrunda gedən mübarizədə öz mövqelərini möhkəmlətməyə çalışan səlcuq sultanları bu dövrdə hərbi iqta sistemi yaratmışdılar. Sadiq qoşun başçıları belə torpaq payı – iqta ilə təmin edilirdi. Nəticədə, bütün sultanlığın ərazisi on minlərlə qoşuna malik hərbi sərkərdələrin – əmirlərin arasında bölüşdürülmüşdü. Ş. E. də belə əmirlərdən biri idi. Bərdədə özünə ilkin iqamətgah qurmuş Ş. E. Arranın böyük bir hissəsini, o cümlədən Naxçıvanı h. 521 (1127) ildən öz idarəsində saxlayan əmir Qara Sunqurun (sultan Məsud və onun qardaşı Toğrulun atabəyi) səlcuqi əmirlərinin hüquqlarını məhdudlaşdıran sultan Məsudla mübarizəsini kənardan izləyərək, əlverişli məqam gözləyirdi. Belə bir məqam Qara Sunqurun vəfatından (1141) sonra onun yerini tutmuş Əmir Çavlının 1146 ildə qəfil ölümü zamanı yarandı. Mirxondun məlumatına görə, Ş. E. bu dövrdə artıq Şirvanı asılı vəziyyətə salmışdı. Qarışıqlıqdan istifadə edərək, Naxçıvan vilayətini ələ keçirən Ş. E. iqamətgahını Bərdədən Naxçıvana köçürür. Lakin Arranın əsas şəhəri Gəncə və onun ətrafları Əmir Çavlıdan sonra bu yerləri sultanın hədiyyəsi kimi qəbul edən əmir Fəxrəddin Toğan Yürəyin əlinə keçir. Toğan Yürəyin 1147 ildə sultan Məsudun vəziri Xass bəyin əli ilə Gəncə yaxınlığında öldürülməsilə Azərb. və Arran torpaqlarının idarəsi Xass bəyə həvalə edilir. Bu hadisə bir çox vilayət hakimlərinin, o cümlədən Ş. E.-in narazılığına səbəb olur. Xass bəyin vəzifədən uzaqlaşdırılması ilə ara çəkişmələri bir qədər səngiyir. 1148 il hadisələri ilə əlaqədar Ş. E.-in adı mənbələrdə artıq "Gəncə və Arranın" da sahibi kimi çəkilir. Alban müəllifi Mxitar Qoşun yazdığına görə, o, "qüdrətli hökmdara çevrildi, bütün əzəmətli hakimləri əzərək, çoxlarını özünə tabe etdi, üsyan etmiş türkmanların başçılarını tamamilə darmadağın etdi, Arran ölkəsində

başlanmış həyəcanların qarşısını aldı". Bu vaxtadək sultanlığın işlərinə qarışmadan Naxçıvandakı iqamətgahında qalan və yalnız Arrandakı mülklərində əmin-amanlıq yaratmağa çalışan Ş. E. çox keçmədən yenidən Abbasi xəlifəsi, sultan və əmirlər arasında baş qaldıran hakimiyyət çəkişmələrinə qoşulur. 1157 ildə Həmədana hücum edərək, hələ 1153 ildən sultan taxtına çıxmış Məhəmmədin xəzinəsini ələ keçirən Ş. E. əvvəlcə Rey şəhərinin qala divarları, sonra isə Araz vadisində, Naxçıvan yaxınlığında sultan tərəfindən məğlub edilir; nəticədə, Naxçıvan və təqribən bütün Arran sultan Məhəmmədin ixtiyarına keçir. Əfv olunmasını xahiş edən Ş. E. Arran hakimi, Marağanın sahibi Arslan Apa ibn Ağsunqur əl-Əhmədili isə Azərb. hakimi təyin edilir. Dövrün mənbələri Ş. E.-i cəsur döyüşçü və tədbirli siyasi xadim kimi təqdim edir, tarixin bu dövrünün "müharibələrdə qələbə çalan, dolaşıq qəsdləri məharətlə açan... Eldənizin hakimiyyəti ilə əlamətdar" olduğunu bildirir.

1161 ildə sultan Süleymanşah devrilərək əmirlərin qəsdi nəticəsində öldürüldükdən sonra, Ş. E.-in himayəsində olan Arslanşah sultan elan edilir. Bu zamandan etibarən "böyük atabəy" titulu alan Azərb. atabəyi Ş. E. bütün İraq sultanlığının gerçək sahibi, sultan Arslanşah isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxs olur. O dövrün tarixçisi yazırdı: "Atabəy Eldəniz əsl hökmdar idi. Əmrləri o verir, torpaqları o paylayır, dövlət xəzinəsinə o nəzarət edirdi. Toğrulun oğlu sultan Arslanşahın isə ancaq adı hökmdar idi". Dövlət işlərində həlledici səsə malik olan Ş. E. xarici siyasətə görə məsuliyyət daşıyır, müharibə və qoşun məsələlərini həll edir, ordunu özü döyüşə aparırdı. Ş. E. adına pul kəsilməsi, xəlifə və sultandan sonra adının xütbələrdə çəkilməsi haqqını da əldə etmişdi. Bu vaxtadək yalnız Azərb.-ın və Arranın müəyyən hissəsinə sahiblik edən Ş. E. sultanın adından fəaliyyət göstərmək imkanı qazanmış, Qafqaz dağlarından İran körfəzinədək uzanan böyük ərazini öz hakimiyyətinə tabe etmişdi. "Bağdad və ətrafı istisna olmaqla bütün ölkələr" Ş. E.-in hakimiyyəti altına düşmüşdü. Tarixçi Sədrəddin əl-Hüseyninin məlumatına görə, onun mülkləri "Tiflis qapılarından Məkranadək" uzanırdı. O, Azərb. və Arrandan əlavə, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey vilayətlərinin də sahibi idi. Ş. E.-in vassalları olan Mosul, Kirman və Fars atabəyləri, Şirvan, Xuzistan, Xilat, Ərzən ər-Rum və Marağa hakimləri xütbələrdə onun adını xəlifə və sultandan sonra çəkir, adına pul kəsdirirdilər. Apardığı daxili siyasət əmirlər arasındakı ara çəkişmələrini zəiflədə bilmişdi. Yaratdığı dövlətin güclü rəqibləri olan gürcülərin və xarəzmşahların hücumlarının qarşısını almaq üçün Ş. E. ordusunun hərbi qüdrətini artırmağa çalışırdı. Gürcü hökmdarı III Georginin [1156–84] başçılıq etdiyi qoşunların 1161 ildən başlayaraq dəfələrlə Ş. E.-in tabeliyində olan torpaqlara hücumları onun bacarığı sayəsində dəf edilmişdi. Bütün çəkişmələri ilk növbədə siyasi yolla həll etməyə cəhd göstərən, yerli salnaməçilərin dili ilə desək "xeyirxah xasiyyəti və sülhsevərliyi ilə fərqlənən" Ş. E. Azərb.-ın və ona qonşu yerlərin xristian əhalisinə qayğı ilə yanaşır, ruhanilərə himayəçilik edir, kilsələrə kəndlər bağışlayır, monastırları vergilərdən azad edirdi.

Ş. E.-in ardıcıllığı, enerjisi, sultan hakimiyyətinin nüfuzundan bacarıqla istifadə etməsi, feodal təşkilatının başçısı və müdafiəçisi kimi yüksəlməsi, ehtiyatlı xarici siyasəti onun fəaliyyətinin başlıca cəhətləri idi. Bütün bunlar Azərb. atabəyləri dövlətinin yaradıcısının öz zəmanəsinin böyük siyasi xadimi olduğunu sübut edir. Məhz onun dövründə Azərb.-da şəhər həyatı yeni çiçəklənmə dövrünə qədəm qoyur. Ş. E.-in vaxtında görkəmli memar Əbu Bəkr *Əcəmi* tərəfindən Naxçıvanda yerli şeyxlərin başçısı Yusif Kuseyir oğlunun türbəsi (*Atababa günbəzi* də adlanır) tikilmiş, Mömünə xatunun Ş. E.-in vəfatından sonra başa çatdırılmış məqbərəsinin əsası qoyulmuş, elmin, mədəniyyətin inkişafı üçün əlverişli şərait yaranmışdı (bax, həmçinin *Azərbaycan atabəyləri dövləti*).

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 2., B., 1998; B ü n y a d o v Z. M., Azərbaycan atabəyləri dövləti, B., 1985.

**ŞƏMSƏDDİN MƏHƏMMƏD SAHİB-DİVAN** (?–?) – Hülakular (E l x a n i l ə r) dövründə (13 əsr) vəzir. Hülakular dövrünə aid "Təqriri-tədrisi-mədrəseyi Naxçıvan əz inşa mərhum Şəmsəddin Sahib-divan" adlı fərmanda (1284) onun Naxçıvan mədrəsəsini



tikdirərək, *Mömünə xatun türbəsi* kompleksinə daxil etdiyi qeyd olunur.. Kompleksdən əldə olunan vəqflər hesabına fəaliyyət göstərən mədrəsədə təkcə yerli deyil, bütün Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı. Bax həmçinin *Mədrəsələr* məqaləsinə.

**ŞƏRƏFƏDDİN NAXÇIVANİ** — bax *Naxçıvani Şərəfəddin.*

**"ŞƏRİLİ"**–aşıq havası. Şərur r-nunun adı (Şərur–Şərir–Şəril) ilə bağlıdır. "Ağır şərili", "Orta şərili", "Yüngül şərili", "Qarabağ şərili" adlı havalar mövcuddur. "Ş." havalarının məqam əsası segah, musiqi ölçüsü 6/8-dir. Sazda "Şah pərdə" kökündə çalınır. İnstrumental variantları da var.

**"ŞƏRQ QAPISI"**–ictimai-siyasi qəzet. Nax. MR Ali Məclisinin və Nazirlər Kabinetinin orqanı. İlk nömrəsi 1921 il noyabrın 21-də "Cavanlar həyatı" adı ilə çıxmışdır. Həmin il, dekabrın sonundan 1922 ilin aprelinədək "Füqəra səsi", 1922 ilin aprelindən 1980 ilin yanvarınadək isə "Şərq qapısı" (1924 ildə "Qızıl Şərq") adı ilə çap olunmuşdur. 1980 ildən "Sovet Naxçıvanı" adlandırılmış, rus dilində "Sovetskaya Naxiçevan" adlı dublikatı ilə birlikdə buraxılmışdır. 1989 ilin sonunda "Şərq qapısı" adı özünə qaytarılmışdır. Qəzetin təşəkkülünə, onun üçün jurnalist kadrlarının hazırlanmasına xalq yazıçıları M.İbrahimov və Ə. Vəliyev səy göstərmişlər. Ə. Vəliyev 1933–34 illərdə qəzetin redaktoru







olmuşdur. "Ş.q." nəşrə başlayandan Nax. MR-in ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatının güzgüsü olmuş, onun tərəqqi və yüksəlişində fəal və mühüm rol oynamışdır. Qəzet ölkəmizin həyatını əks etdirən rəngarəng materallarla yanaşı, dünyada baş verən ictimai-siyasi hadisə və proseslərə, dünya xalqlarının mədəniyyətinə dair yazılar da dərc edir. Hazırda qəzet həftədə 2 dəfə, 8 səhifə həcmində çıxır. Tirajı 2000 nüsxədir (2001). *M. Tarverdiyev, H. İbrahimov, M. Bəktaşi, S. Kərimova* və b. görkəmli mədəniyyət, maarif və mətbuat xadimləri müxtəlif illərdə qəzetin redaktoru olmuşlar.

**ŞƏRQİ ARPAÇAY** – bax *Arpaçay.*

**"ŞƏRQİ-RUS"** – Tflisdə Azərb. dilində həftədə üç dəfə çıxmış ictimai-siyasi, iqtisadi, elmi, ədəbi qəzet. İlk nömrəsi 1903 il martın 30-da, sonuncusu 1905 il yanvarın 15-də (cəmi 392 nömrə; 1905 ilin əvvəllərində həm də Bakıda "Ş.-R."-un teleqramları" adlı axşam xəbərlərinin bir neçə nömrəsi) çıxmışdır. Naşiri və redaktoru *M.Şahtaxtlı*, son 45 nömrəsinin redaktoru isə *C.Məmmədquluzadə* idi. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. L.Tolstoydan Azərb. dilinə ilk tərcümələr bu qəzetdə verilmişdir. "Ş.-R." qəzeti C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Ö.F.Neymanzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Nəzmi kimi görkəmli maarifçiləri ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərb.-da mətbuatın yeni inkişaf mər-



*Şərifzadə Qurbanəli*

hələsinin başlanmasına (*"Molla Nəsrəddin"*) zəmin yaratdı.

*Əd.:* A x u n r d o v N., Azərbaycanda dövri mətbuat, B., 1965; Z e y n a l o v N., Azərbaycan mətbuatı tarixi, h. 1, B., 1973; N o v r u z o v Ş., "Şərqi-Rus"un çağırışı, B., 1988.

**ŞƏRİFZADƏ** (Şərifov) Qurbanəli (1854, Naxçıvan – 1917, orada) – maarifçi ziyalı, publisist, xeyriyyəçi. *Əziz Şərifin* atasıdır. Gürcüstan dağ yollarının, Şahtaxtı–Maku d. y.-nun çəkilişində icarəçi mühəndis kimi iştirak etmişdir. Milli təhsilin, mətbuat və mədəniyyətin fəal müdafiəçisi idi. M. T. Sidqinin Naxçıvanda açdığı "Tərbiyə" məktəbinin və Naxçıvan teatrının inkişafına maddi və mənəvi yardım göstərmişdir. H. Cavidin gənclik dövrü mənəvi təkamülündə mühüm rolu var. C. Məmmədquluzadənin əməl və məslək dostlarından olmuş, "Molla Nəsrəddin"in nəşrində ədibə dəstək vermiş, jurnalda ara-sıra "Leylək" imzası ilə çıxış etmişdir; "Mozalan bəyin səyahətnaməsi"nin İrəvana və Naxçıvana aid hissələrinin müəllifidir. Ə. Haqverdiyev, F. Köçərli, M. Ə. Sabir, Ö. F. Nemanzadə və Ə. Qəmküsarla dostluq əlaqələri saxlamışdır.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**ŞƏRUR** (1964 ilədək N o r a ş e n, 1964–91 illərdə İ l i ç) – Nax. MR-də şəhər (1981 ilədək ş.t.q.). Şərur r-nunun mərkəzi. D. y. st. Naxçıvan ş.-ndən 66 *km* şm.-q.-də, Şərur düzündədir. Əh. 6315 nəfər (1999). Ş.-un salındığı tarix hələlik dəqiq müəyyənləşdirilməsə də, buranın hələ eradan əvvəl məskunlaşdırıl-



*"Heydər bulağı". Şərur şəhəri.*



*Şərur dəmir yol stansiyası.*

dığı məlumdur. Ş. yaşayış yerinin adı "Kitabi-Dədə Qorqud" dastanlarındakı boylardan birində Ş ə r u k kimi xatırlanır. Qədim Ş. yaşayış yeri müasir tikililərin altında qaldığından burada geniş arxeoloji tədqiqatlar aparılmamışdır.

Ş.-un müasir şəhərə çevrilməsində 1–2 mərtəbəli köhnə binaların, evlərin yerində müasir memarlıq üslubuna uyğun inzibati binaların, beşmərtəbəli yaşayış evlərinin salınması mühüm rol oynamışdır. Şəhərdə yenidənqurma işləri aparılmış, milli arxitekturalı müasir tikililər, incəsənət məktəbi, mədəniyyət sarayı, rabitə evi, icra hakimiyyəti, tarix-diyarşünaslıq muzeyi, d.y. vağzalı, məktəb binaları inşa edilmişdir. Ş.-da 3 orta məktəb, litsey, musiqi məktəbi, 3 uşaq bağçası, mərkəzi xəstəxana, özəl xəstəxana və diaqnostika mərkəzi, məscid, elektrik şəbəkələri mərkəzi, 2 ticarət mərkəzi, kinoteatr var. Stadion tikilmiş (1981), Şəhidlər xiyabanı salınmışdır. Şəhərin mərkəzində – baş meydanda Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə panno-abidə ucaldılmış, adına istirahət parkı salınmışdır.

**ŞƏRUR-DƏRƏLƏYƏZ** – tarixi vilayət. İndiki Nax. MR ərazisinin bir hissəsini əhatə edirdi. Dağlıq (Dərələyəz) və düzən (Şərur) hissələrdən ibarət idi. Dərələyəzdə maldarlıq, Şərurda isə əkinçilik inkişaf etmişdi. 1886 il məlumatına görə, əhalisinin 70,5%-i azərb.-lılardan ibarət idi. Kürdlər və b. millətlər də yaşayırdı. Rus çarizminin köçürmə siyasəti ilə əlaqədar ərazidə İrandan köçürülmüş ermənilər də məskunlaşmışdı. Azərb.-ın, eyni zamanda Naxçıvan bölgəsinin Rusiya tərəfindən işğalından (1828) sonra çar hökumətinin 1870 il inzibati ərazi islahatına əsasən



Ş.-D. ərazisində İrəvan qub.-nın tərkibinə daxil olan *Şərur-Dərələyəz qəzası* təşkil edilmişdi. Bax həmçinin *Dərələyəz*.

**ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZASI** – İrəvan qub.-nın tərkibində inzibati-ərazi vahidi. Azərb.-ın, eyni zamanda Naxçıvan bölgəsinin Rusiya tərəfindən istilasından (1828) sonra 1870 ildə yaradılmışdı. İrəvan, Yeni Bayazid, Cavanşir, Naxçıvan qəzaları və İranla həmsərhəd idi. Mərkəzi Baş Noraşen (indiki Cəlilkənd) məntəqəsi olmuşdur. Ş.-D. q.-nı qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları, şəhər polisi idarə edirdi. Hakimiyyət qəza rəisinin əlində cəmlənmişdi. Qəzada məhkəmə yaradılmışdı. Sah. 2972,3 $km^2$, əh. 76551 nəfər idi; əhalisinin böyük əksəriyyətini (təqr. 75%). azərb.-lılar təşkil edirdi. Təsərrüfatında əkinçilik, bağçılıq, üzümçülük, pambıqçılıq, maldarlıq, arıçılıq əsas yer tuturdu. Naxçıvan bölgəsində ilk qəza xəstəxanası (dörd çarpayılıq) 1889 ildə Baş Noraşen məntəqəsində yaradılmışdı. 1905–08 illərdə qəzada 1 aptek və 1 feldşer məntəqəsi (Xanlıqlar k.) var idi. 1918 ildə Ş.-D.q. Naxçıvanla birlikdə Araz Türk Respublikası yarandı. 1917–20 illərdə Ş.D.q.-nda erməni-quldur dəstələri tərəfindən onlarla kənd xarabalığa çevrilmiş, yüzlərlə adam qırılmışdı. Zaqafqaziya MİK-in 1929 il 18 fevral tarixli qərarına əsasən, Azərb.SSR-in rayonlaşdırılması ilə əlaqədar Ş.-D.q. ləğv edilmiş, tərkibindəki Qurdqulaq, Xaçik, Horadiz k.-ləri torpaqları ilə birlikdə Ermənistana qatılmışdı. Bax, həmçinin *Dərələyəz*.

**ŞƏRUR DÖYÜŞÜ (1501)** – Ağqoyunlu Əlvənd Mirzə və İsmayıl Səfəvinin qoşunları arasında həlledici döyüş. 1500 ilin sonunda Şirvanda Gülüstan qalasından bir qədər aralı Cabanı adlı yerdə Şirvanşah Fərrux Yasara qalib gələn, 1501 ilin yazında isə, Bakını tutan İsmayıl Səfəvi Gülüstan qalasını hələ də mühasirədə saxlayarkən, Ağqoyunlu Əlvənd Mirzənin böyük bir qoşunla onun üstünə gəldiyindən xəbər tutur. İsmayıl təcili qaydada mühasirəni götürüb, Əlvənd Mirzənin ordusunu Şirvana buraxmamaq üçün tədbirlər gördü və Naxçıvana doğru hərəkət etdi. Kür çayını keçmək niyyəti baş tutmayan Əlvənd Mirzə İsmayıla məktub göndərib, Şirvana qayıtmağı və həmin vilayəti idarə etməklə kifayətlənməyi tələb etsə də, rədd cavabı aldı. Belə olduqda, o, Naxçıvandan çıxıb şm.-q.-ə doğru getdi və Şərur düzündə dayanaraq qəti döyüşə hazırlaşmağa başladı. İsmayıl Arazın c. sahili boyunca hərəkət edərək, Naxçıvan bölgəsində çayı keçdi və düşməni qarşılamağa tələsdi. Tarixi qaynaqlara görə, ağqoyunluların 30 minlik, qızılbaşların isə 7 minlik ordusu var idi.

1501 ilin ortalarında Şərur düzündə həlledici döyüş baş verdi. Döyüşdə İsmayıl yüksək sərkərdəlik məharəti və hünər nümayiş etdirərək, ağqoyunlu sərkərdələrinin bir neçəsini şəxsən qılıncdan keçirdi. Öz sərkərdələrinin başlarını qızılbaşların nizələrində görən ağqoyunlu qoşunları vahimə içərisində qaçmağa başladılar. Əlvənd Mirzə Ərzincana qaçmaqla xilas ola bildi. Qızılbaşlar zəngin qənimət ələ keçirdilər. Şərur qələbəsindən dərhal sonra İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan edərək Azərb. Səfəvilər dövlətinin əsasını qoydu.

*Əd.:* M ə m m ə d o v R. A., Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), B., 1977; Ə f ə n d i y e v O. Ə., Azərbaycan Səfəvilər dövləti, B., 1993.

**ŞƏRUR DÜZÜ** – Şərur r-nunda maili düzənlik. *Arazboyu düzənliklərdən* biri. Arpaçayın aşağı axınındadır. Şm.-q.-də Qurd keçidi ilə Sədərək düzündən ayrılır. Qurd keçidindən c.-ş. istiqamətində Arpaçayın dərəsinədək uzanır. C.-q.-də isə Araz çayının dərəsinədək davam edir və şm.-ş.-də Dərələyəz silsiləsinin ətəklərinə söykənir. Səthi zəif parçalanmış və k.t. üçün əlverişlidir. S ə r d a r d ü z ü də adlanır. Hünd. 700–800 *m*-dən (Araz çayı sahilində) 1200 *m*-ə qədərdir. Əkinçilik r-nudur; üzüm, taxıl, tütün və s. yetişdirilir. Azərb.-ın qədimdən məskunlaşmış bölgələrindən olan Ş. d.-ndə son illər aparılmış arxeoloji qazıntılar nəticəsində Eneolit, Tunc dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkar olunmuşdur.

*Əd.:* B a b a y e v S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**"ŞƏRUR" XALQ YALLI ANSAMBLI** – rəqs kollektivi. 1929 ildə kolxoz rəqs ansamblı kimi yaradılmışdır. İllər keçdikcə kollektiv böyümüş və repertuarını zənginləşdirmişdir. 1936 ildən böyük səhnəyə qədəm qoyan ansambl 1938 ildə Moskvada keçirilən Azərb. ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir. Ü. Hacıbəyov yallı ansamblına



"Şərur" xalq yallı ansamblı.

daim qayğı və yardım göstərmişdir. Ansambl dünyanın bir çox ölkələrində keçirilən bədii özfəaliyyət festivallarında iştirak etmiş, diplom və mükafatlara layiq görülmüşdür. 1972 ildə keçmiş ADR-də keçirilən ümumdünya folklor rəqsləri festivalında ölkəni təmsil etmiş, festivalın laureatı adını almışdır. I Ümumittifaq xalq yaradıcılığı festivalının, Polşada keçirilən XI beynəlxalq folklor festivalının (1984) da laureatı adına layiq görülmüşdür. Ansambl 1980 ildə Macarıstanda keçirilən Azərb. mədəniyyəti və incəsənəti ongünlüyündə, 1987 ildə Türkiyənin İskəndərun şəhərində keçirilən folklor bayramında, 1998 ildə Bayburt şəhərində "Dədə Qorqud" festivalında, 2001 ildə Qahirədə (Misir) XII beynəlxalq folklor festivalında da uğurla çıxış etmişdir. Ansamblın çıxışları dəfələrlə Moskva televiziyası ilə göstərilmişdir. Kollektiv yaradıcılıq axtarışlarını daim davam etdirir, repertuarını qədim xalq oyunları ilə zənginləşdirir. Repertuarına ifa



Şərur konserv zavodu.

tərzi ilə bir-birindən fərqlənən 40-dan çox yallı və rəqs ("Qaladan-qalaya", "Tello", "Xələfi", "Urfanı", "Tirmə şal", "Qazı-qazı", "Dırqo", "Höynəri", "Gülümey", "Haxışta" və s.) daxildir. Hazırda ansamblın 50-yə yaxın üzvü var (2000). Ansambl gənc ardıcıllarını yetişdirmək sahəsində də səmərəli fəaliyyət göstərir. Çarçıboğan kənd mədəniyyət evinin "Fidanlar", Aralıq kənd mədəniyyət evinin "Şərur qönçələri", Yengicə mədəniyyət evinin "Cücələrim", Muğancıq Mehrab kənd klubunun qızlardan ibarət yallı rəqs qrupu və digər kollektivlər məhz "Şərur" yallı ansamblının yetirmələridir.

**ŞƏRUR KANALI** – Şərur və Sədərək r-nları ərazisində suvarma kanalı. Uz. 20 *km*. Mahmudkənd yaxınlığında Arpaçayın sol sahilindən ayrılır; şm.-q. istiqamətdə axaraq Şərur və Sədərək r-nlarının əkin sahələrinin suvarılmasında istifadə edilir.

**ŞƏRUR KONSERV ZAVODU** – yeyinti sənayesi müəssisəsi. 1986 ildə istifadəyə verilmişdir. İstehsal gücü 55 mln. şərti bankadır. 1986–89 illərdə meyvə və tərəvəzdən müxtəlif çeşiddə (adda) mürəbbə, cem, povidla, kompot və şirələr, marinadlar və şorabalar, tomat-pasta, tomat şirəsi və s. istehsal edilmişdir. 1988–89 illərdə istehsal gücü 30–35 mln. şərti bankaya çatdırılmışdı. 1990–91 illərdə Ermənistanın Azərb.-a təcavüzü nəticəsində yaranmış blokada şəraiti ilə əlaqədar istehsal prosesləri müvəqqəti dayanmışdır.

**ŞƏRUR MİNERAL SU YATAĞI** – Sədərək r-nu ərazisində, Şərur ş.-ndən 8 *km* c.-q.-dədir. Balneoloji tərkibi:

$$CO_2 10\, M4.5 \frac{HCO_3 60\, Cl 30}{Mg 48 (Na+K) 30} \cdot pH\, 7.5\;\; D\, 1000\, m^3/gün\;\; T\, 18°C$$

Su kimyəvi tərkibinə görə karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu, maqneziumlu-natriumludur.

**ŞƏRUR NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan İrəvan əyalətinin nahiyələrindən biri. 1728 il tarixli "*İrəvan əyalətinin müfəssəl dəftəri*"ndə Ş. n.-nin 73 yaşayış məntəqəsini əhatə etdiyi göstərilir; 1838 ailədən ibarət idi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; böyük əksəriyyəti



müsəlmanlar (azərb.-lar) idi. Ş. n.-nin illik gəliri 767096 ağça təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı). B., 1997.

**ŞƏRUR–ORDUBAD FİZİKİ-COĞRAFİ RAYONU** – Nax. MR ərazisində fiziki-coğrafi r-n; *Naxçıvan fiziki-coğrafi vilayətinin* bir hissəsi. Araz çayının sol sahili boyunca birbirini əvəz edən maili düzənliklər (Sədərək, Şərur, Kəngərli, Böyükdüz, Naxçıvan, Culfa, Ordubad və s.) əhatə edir. Hünd. 600–1000 *m*. Dördüncü dövrün çay və sel çöküntülərindən təşkil olunmuşdur. Çayların müasir gətirmə konusları ilə yanaşı, onların düzənliklərdə saxlanmış qədim gətirmə konusları da mühüm yer tutur. Faydalı qazıntıları: daşduz, müxtəlif tikinti materialları və s. Mineral su bulaqları var. Kəskin kontinental – yayı quraq keçən soyuq yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta illik temp-r 14–12°C, ən soyuq ayın (yanvar) orta temp-ru – 2-dən -40°C-yədək, ən isti ayın (iyul) orta temp-ru 27–28°C-dir. Azərb. Respublikasında müşahidə olunmuş mütləq minimum (-31°C) və mütləq maksimum (43°C) temp-rlar burada qeydə alınmışdır. İllik yağıntı 200–300 *mm*. R-nun ərazisindən axan çaylar (Arpaçay, Naxçıvançay, Əlincəçay, Ordubadçay, Düylünçay, Gilançay, Vənəndçay, Əylisçay və s.) yayda çox sulu olur. Nehrəm, Uzunoba, Qahab, Xok və s. su anbarları yaradılmışdır. Araz su qovşağı çayların suyunu tənzimləyir. Ərazidə boz və çəmən-boz torpaqları, yovşanlı və yovşanlı-şoranlı yarımsəhra, şoranlı səhra bitkiləri geniş yayılmışdır. Canavar, tülkü, oxlu kirpi, ilan, çöldonuzu, çöl siçanı, quşlardan kəklik, göyərçin, qaraqarın bağrıqara və s. var.

*Əd.:* B a b a y e v S., Naxçıvan Muxtar Respublikasının coğrafiyası, B., 1999.

**ŞƏRUR RADİO ZAVODU** – radio sənayesi müəssisəsi 1961 ildə açılmışdır. Bakı radio z-dunun filialı idi;. Sonralar müstəqil radiotexnika z-duna çevrilmişdir. Ş. r. z. "Araz", "Xəzər-404" tranzistor radioqəbulediciləri, "Araz-M" radioları, elektrik avadanlığı hissələri və s. istehsal edirdi. Məhsulları xarici ölkələrə də göndərilirdi. 1991–92 illərdə həmin sahələr üzrə fəaliyyət dayanmış, 1996 ildə Türkiyənin bir şirkəti ilə "Yapraq plastik" ortaq müəssisəsi yaradılmış, məişətdə işlədilən plastmas qablar istehsal etmişdir. 1997 ildə z-dda yeni sex qurularaq "Rassan" adı ilə meyvə suları istehsalına başlanmışdır. Z-d binalarının şəraiti nəzərə alınaraq, inşaat materialları istehsal edən sex (1997), "Rassan" adlı pivə istehsal edən sex qurulmuşdur.

**ŞƏRUR RAYON TARİX-DİYARŞÜNASLIQ MUZEYİ** – mədəni-maarif müəssisəsi. İctimai əsaslarla 1978 ildə təşkil edilmişdir. 1980 ildən dövlət müəssisəsi kimi fəaliyyət göstərir. 9 bölməsi (təbiətşünaslıq, arxeologiya, etnoqrafiya, numizmatika, "Qırmızı tabor", Böyük Vətən müharibəsi, mədəniyyət və incəsənət, elm xadimləri, şəhidlər) var. Naxçıvan MR-in 75 illiyinə və Azərb. Respublikası Prezidenti Heydər Əliyevin anadan olmasının 75 illiyinə həsr olunmuş xüsusi guşələr yaradılmışdır. Muzeyin fondunda 5500-ə yaxın eksponat var (2000).

**ŞƏRUR RAYON XALQ TEATRI** – 1938 ildən dram kollektivi kimi fəaliyyət göstərmişdir. İlk vaxtlar həvəskar aktyorların ifasında Səməd Vurğunun "Vaqif", C. Cabbarlının "Solğun çiçəklər", C. Məmmədquluzadənin "Ölülər" əsərləri oynanılmışdır. 1981 ildən xalq teatrı adlanır. Son illərdə S. S. Axundovun "Tamahkar", Ü. Hacıbəyovun "Leyli və Məcnun", S. M. Qəniyevin "Rəhmə gəl, mələyim", Q. Hüseynovun "Nicat", Seyran Səxavətin "Zəngulənin səsləri" və s. əsərlər tamaşaya qoyulmuşdur.

**ŞƏRUR RAYONU** (1964 ilədək N o r a ş e n r-nu, 1964–91 illərdə İ l i ç r-nu) – Nax. MR-də inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Şm.-da və şm.-ş.-də Erm. Respublikası, c.-da və c.-q.-də İranla həmsərhəddir. Sah. 1,16 min *km*². Əh. 112 min nəfər (2001, 1 yanvar). R-nda 1 ş., 72 kənd və digər yaşayış məntəqəsi var. Mərkəzi Şərur ş.-dir. Xəritə, bax səh. 525.

**Təbiət.** R-nun səthi şm.-da və ş.-də dağlıq, Arazboyu hissədə bir-birindən tirə və yüksəkliklərlə ayrılan maili düzənliklərdən (Şərur, Qarabağlar, Kəngərli, Sərdar, Tənənəm düzləri və Böyükdüzün bir hissəsi) ibarətdir. Ərazidə Dərələyəz silsiləsi əsas yer tutur. Hünd. Araz çayı sahilində təqr. 600–700 *m*-dən Dərələyəz silsiləsində 2775 *m*-ədək (Qalınqaya d.) dəyişir. Düzənlik və dağətəyi hissədə əsasən Antropogen, dağlıq

hissədə Devon, Perm, Trias, Təbaşir çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: polimetal filizlər, travertin, mərmərəbənzər əhəngdaşı və s. Yayı quraq keçən soyuq yarımsəhra, quru çöl və yayı quraq keçən soyuq iqlimi var. Orta temp-r yanvarda 3-dən 6°C-yə qədər, iyulda 20–26°C, illik yağıntı 200–400 *mm*-dir. Çayları (Şərqi Arpaçay və s.) r-nun İranla sərhədi boyu axan Araz hövzəsinə aiddir; suvarmada geniş istifadə olunduğundan suları yayda mənsəbə çatmır. Şərqi Arpaçay üstündə tikilmiş su anbarının (bax *Arpaçay su anbarı*) fəaliyyəti sayəsində k.t. torpaqlarının suvarılması təmin edilir. Boz və çəmən-boz, şorakətvarı boz-qonur, dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü əsasən, yarımsəhra bitkilərindən (yovşan, şoranotu və s.) və dağ-kserofitlərindən ibarətdir. Heyvanları: qaya keçisi, muflon, canavar, tülkü, boz dovşan, çöldonuzu, daşlıq dələsi, çöl siçanı və s. Quşlardan qırqovul, kəklik, ular, qaraqarın bağrıqara və s. var.

**Əhali.** R-nun əhalisi 1980 illə müqayisədə 30 min nəfər, yaxud təqr. 39% artmışdır. Orta sıxlıq 1 $km^2$-də 97 nəfərdir. İri yaşayış məntəqələri Şərur ş., Qarabağlar və Qıvraq k.-ləridir.

**Təsərrüfat.** Son illər muxtar respublikada aparılan quruculuq və abadlıq işləri nəticəsində iqtisadi və mədəni həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuş, Ş. r. da əsl inkişaf yoluna qədəm qoymuşdur. Ş. r. Nax. MR-in ən böyük tütünçülük, üzümçülük, heyvandarlıq, taxılçılıq və tərəvəzçilik r-nu, Azərb. Respublikasının isə iri tütünçülük r-nlarından biridir. K.t.-na yararlı torpaqlar 41,2 min *ha*-dır. Bunun 13 min *ha*-ı şum yeri, 5 min *ha*-ı çoxillik bitkilər, 6,2 min *ha*-ı dincə qoyulmuş torpaqlar, 0,4 min *ha*-ı biçənəklər, 16,6 min *ha*-ı otlaqlardır. Suvarılan torpaqlar 20,4 min *ha*-dır. Dənli və dənli-paxlalı bitkilər (əsasən buğda, qismən arpa, qarğıdalı və s.), texniki bitkilər (tütün), tərəvəz-bostan bitkiləri, (o cümlədən şəkər çuğunduru), kartof, yem bitkiləri əkilir.

1999 ildə Ş. r.-nu üzrə aqrar islahatlar başa çatdırılıb, 18881 *ha* sahə xüsusi mülkiyyətə verilib, 48 *ha*-dan artıq torpaq isə bələdiyyə mülkiyyətində qalıb. 99757 nəfər pay norması əsasında torpaq payları ilə təmin olunub. Hər nəfərə orta hesabla 1893 $m^2$ torpaq sahəsi düşüb. Torpaqları suvarmaq üçün Həmzəli, Şəhid Məmməd, Kərimbəyli və digər kəndlərdə nasos stansiyalarından və artezian quyularından istifadə edilmişdir. 58 *km*-lik Şərur–Naxçıvan su kəməri bərpa edilib işə salınmışdır. 1997–98 illər ərzində Ş. r.-nda bütün təsərrüfat dərəcələri üzrə taxıl məhsulları istehsalı 45,1%, kartof istehsalı 14,6%, meyvə istehsalı 7,6%, üzüm istehsalı isə 5,3% artmışdır. 1998 ildə muxtar respublikada istehsal olunan taxılın 53,2 %-i, tütünün 89,7%-i, tərəvəzin 60,9%-i, bostan məhsullarının 32,1%-i, kartofun 66,5%-i, meyvənin 65,9%-i, üzümün 53,6%-i Ş. r.-nun payına düşmüşdür. 1998 ildə Ş. r.-nda ət istisna olmaqla, heyvandarlıq məhsulları üzrə də xeyli uğurlar əldə edilmişdir. Süd istehsalı 1970 ildəkinə nisbətən 48,3%, yun istehsalı 57,4%, yumurta istehsalı 3 dəfə artmışdır. 1998 ildə Ş.r.-nda 1,4 min *t* ət,



*Həmzəli su nasos stansiyası. 1997.*





9,8 min *t* süd, 23,4 min ədəd yumurta, 136,5 *t* yun istehsal olunmuşdur. Muxtar respublikada istehsal olunan ətin 33,3%-i, südün 36,4 %-i, yunun 24,0%-i, yumurtanın 41,3%-i Ş.r-nuna aiddir (1998).

R-nda qaramalın sayı 1993 ildəkindən 1832 baş, yaxud 17,2%, xırda buynuzlu heyvanların sayı isə 30,8 min baş, yaxud 52,1% artmışdır. R-nda 20343 baş qaramal, o cümlədən 12504 baş inək və camış, 89801 baş xırda buynuzlu heyvan, 38109 quş var (1998). Muxtar respublikadakı qaramalın 33,5%-i, o cümlədən inək və camışların 35,7%-i, xırda buynuzlu heyvanların 24,9%-i Ş. r.-nun payına düşür (1998). Qış otlaqları geniş sahə tutur. R-nda heyvandarlıq birlikləri yaradılmışdır.

Ş. r.-nun sənayesi, əsasən, k. t. məhsulları emalı və tikinti materialları istehsalı üzrə ixtisaslaşmışdır. R-nda 3 şəkər çuğunduru şirkəti fəaliyyət göstərir (2000 ildə r-nda 41 min *t* şəkər çuğunduru istehsal edilmişdir). Konserv z-du, 3 şərab z-du, quşçuluq f-ki, sənaye kombinatı, Gümüşlü dağ mədəni, Şahtaxtı daş karxanası r-nun əsas sənaye müəssisələridir. 1998 ildə muxtar respublika sənaye məhsulunun19,5%-i Ş. r.-nunun müəssisələrində istehsal olunmuşdur. Muxtar respublikada kapital qoyuluşunun 9,3 %-i, istifadəyə verilmiş əsas fondların 7,9%-i, cəmi əmtəə dövriyyəsinin 1,9%-i, əhaliyə göstərilən pullu xidmətlərin 9,2%-i Ş. r.-nunun payına düşmüşdür. Əhalinin hər nəfərinə düşən pullu xidmətlərin həcmi 6 min manat olmuşdur ki, onun da 6,6%-ini məişət xidməti təşkil edir. Bakı–Yerevan d.y., Naxçıvan–Yerevan avtomobil magistralı r-nun ərazisindən keçir (vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan d.y. və avtomobil xətləri Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində 1992 ildən işləmir).

**Tarixi–arxeoloji abidələr və memarlıq.** Ş. r. ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var (20 əsrin 30-cu illərindən tədqiq olunur). Bu abidələr qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar və memarlıq abidələrindən ibarətdir. 1987–90 illərdə Daş dövrünə (Mustye) aid Qazma mağarasından maddi mədəniyyət qalıqları, o cümlədən çaxmaqdaşı və obsidiandan (d ə v ə g ö z ü) hazırlanmış xeyli əmək aləti aşkara çıxarılmışdır. Eneolit və Kür–Araz mədəniyyəti abidələrinin bu ərazidə sayca çoxluğu və mədəni təbəqənin qalınlığı e. ə. 4–3-cü minilliklərdə Şərur ərazisində əkinçi-maldar tayfaların intensiv məskunlaşdığını göstərir. Orta Tunc dövrünün abidələri, əsasən, Araz, Arpaçay və onların qolları üstündə salınmışdır. Şahtaxtı, Şortəpə və s. abidələrdən yüksək sənətkarlıqla hazırlanmış boyalı qablar aşkar olunmuşdur.

E. ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərində Ş. r. ərazisində Xocalı–Gədəbəy mədəniyyətinin (son Tunc–ilk Dəmir dövrləri) keramikası ilə seçilən abidələr yayılmışdı. E. ə. 1-ci minilliyin 1-ci yarısına aid abidələrin tədqiqi bu əraziyə xarici işğalçıların, xüsusilə Urartu basqınlarının artdığını göstərir. Bölgədə Oğlanqala, Qalacıq, Govurqala, Qarasu qalası kimi müdafiə istehkamları inşa edilmişdir. Qədim Şərur ərazisi küp qəbirlərlə zəngindir. E. ə. 1-ci minilliyin 2-ci yarısına aid abidələr Alban (Qafqaz) mədəniyyətinə məxsus elementləri ilə seçilir. Eramızın 1–4 əsrlərində bölgədə quyu qəbirlərlə xarakterizə olunan arxeoloji mədəniyyətin yayılması xüsusi maraq doğurur. Qəbirlərin dəfn adətinin müəyyən cəhətləri türk tayfalarının Azərb.-a axınının gücləndiyini göstərir. Erkən və inkişaf etmiş orta əsrlərdə Ş. r. ərazisində yaşayış məskənlərinin sayı xeyli artmışdır (Qarabağlar, Qıvraq, Danzik, Yaycı, Parçı, Sarıbulaq, Tənənəm, Şahtaxtı və s.). Şahtaxtı yaşayış yeri tarixi İpək yolunun üstündə yerləşdiyindən burada sənətkarlıq və ticarət inkişaf etmişdi.

Ş. r. ərazisində memarlıq abidələrindən Arpaçay üzərində körpü (orta əsrlər), Qarabağlar türbəsi (12 əsrin sonu – 13 əsrin əvvəl-



*Arpaçay körpüsü.*



Musiqi məktəbi.



ləri), Qoşa minarə (14 əsr), Quti xatun türbəsi (14 əsr), orta əsrlərə aid bürclər, məscid və pirlər, karvansaralar mühafizə olunmuşdur. Mühüm elmi və tarixi əhəmiyyət kəsb edən nadir abidələr əsaslı şəkildə bərpa olunmuşdur. R-nun ərazisində aparılan yenidənqurma və quruculuq tədbirləri nəticəsində gözəl, müasir tikililər, milli arxitekturalı binalar, qədim üslubda meydanlar inşa edilmiş, yollar boyu kəndlər abadlaşdırılmış, kəndlərarası körpülər tikilmişdir.

**Mədəni quruculuq və səhiyyə.** Son illər Ş. r.-nun sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Diadin, Qorçulu, Sərxanlı, Yeni Kərki, Dərvişlər kənd orta məktəb binaları tikilib istifadəyə verilmiş, Aralıq və digər kənd orta məktəbləri əsaslı təmir olunmuşdur. R-nun 36 məktəbəqədər müəssisəsində 1660 uşaq tərbiyə olunur, 70 ümumtəhsil məktəbində 22494 şagird oxuyur (2000). R-nda 83 klub müəssisəsi, tarix-diyarşünaslıq muzeyi, 77 kitabxana fəaliyyət göstərir (2000). R-nun sosial-siyasi, iqtisadi və mədəni həyatını işıqlandıran Şərur R-nu İcra Hakimiyyətinin orqanı "Şərurun səsi" qəzeti 1931 ildən nəşr edilir (1931–54 illərdə "Pambığa doğru"; 1954–59 illərdə "Noraşen kolxozçusu", 1966–91 illərdə "İşıqlı yol" adları ilə çıxmışdır). Telefon şəbəkəsi istifadəyə verilmiş, yeni televiziya ötürücüsü quraşdırılmışdır.

R-nda 803 çarpayılıq 14 xəstəxana, 44 feldşer-mama məntəqəsi, ambulatoriyalar, təcili yardım stansiyası, r-n gigiyena-epidemiologiya mərkəzi fəaliyyət göstərir. Bütün ixtisaslar üzrə 109 həkim, 589 orta tibb işçisi çalışır (2000).

Uşaq xəstəxanası.



**ŞIXLAR** – Babək r-nunun Cəhri k. yaxınlığında orta əsrlərə aid yaşayış yeri. 1974 ildə tədqiqat işləri aparılmışdır. Sah. təqr. 7 *ha*. Qalınlığı 1,5 *m* olan mədəni təbəqədən kül, osteoloji (heyvan sümükləri) qalıqlar, keramika məmulatı, orta həcmli çaydaşılar, həmçinin yandırılmış gil qalıqları aşkarlanmışdır. Arxeoloji materiallar şirli və şirsiz gil qab qırıqlarından, həvəng və dəstələrdən, habelə bəzək əşyalarından ibarətdir. Əldə olunmuş materiallar Cəhri k. orta məktəbinin diyarşünaslıq muzeyində saxlanılır. Tapıntılara əsasən Ş. yaşayış yeri 3–15 əsrlərə aid edilir.

**ŞIXMAHMUD** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 13 *km* şm.-da, Naxçıvan–Şahbuz avtomobil yolunun kənarında, Naxçıvançayın sağ sahilində, dağətəyi düzənlikdədir. Əh. 2690 nəfər (2000); taxılçılıq, heyvandarlıq, quşçuluq, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, ambulatoriya, poçt, rabitə şöbəsi, uşaq bağçası, kitabxana, 2 məscid var.

**ŞIXMAHMUD NEKROPOLU** – Babək r-nunun eyniadlı kəndi yaxınlığında antik dövrə aid arxeoloji abidə. 1989 ildə təsərrüfat işləri zamanı təsadüfən aşkar edilmişdir. Qazılmış yarğanda kül yığıntılarına və gil qab qırıqlarına təsadüf edilmişdir. Dördkünc formalı



1



2



3



4



5

*Şərur rayonu. 1. Ana abidəsi. Şərur. 2. Rayon İcra Hakimiyyətinin binası. 3. Rayon tarix-diyarşünaslıq muzeyi. 4. Mərkəzi xəstəxana. 5. Şəhidlərə abidə.*


1


2


3


4


5


6

*Şərur rayonu. 1. "Heydər parkı". Şərur. 2. Rayon mədəniyyət sarayı. 3. Orta məktəb. Sərxanlı kəndi. 4. Şərur sənaye kombinatı. 5. Gümüşlü qəsəbəsi. 6. Körpü. Dəmirçi kəndi.*



torpaq qəbirdəki skelet baş tərəfi c.-a olmaqla sağ böyrü üstdə, bükülü vəziyyətdə şm.-dan c.-a istiqamətlənmişdi. Buradan tünd mavi rəngdə 78 ədəd şüşə muncuq tapılmışdır. Ş.n.-nda qəbirlərdən çəhrayı, yaşıl və göy rəngdə 4 ədəd şüşə qab aşkara çıxarılmışdır. Toplanmış materiallar Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Tapıntılara əsasən Ş.n. 1–3 əsrlərə aid edilir.

**ŞIRRANLI** – Ordubad r-nu ərazisində çay. Nəsirvaz çayının (Gilançayın qolu) sol qolu. Uz. 5 *km*. Yeraltı sular və qar suları ilə qidalanır.

**ŞİLAGİDZOR** – Ordubad r-nu ərazisində çay. Vənənd çayının (Arazın qolu) sol qolu. Sarıdərə zirvəsinin c.-ş. yamacından başlanır. Uz. 6 *km*.

**ŞİRƏLİYEV** Asif İsmayıl oğlu (d. 19.12. 1939, indiki Şərur r-nunun Düdəngə k.) – iqtisadçı. İqtisad elmləri doktoru (2001), prof. (1991). Azərb. Dövlət Un-ti (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsini (1965) və Bakı Ali Partiya Məktəbini (1968) bitirmişdir. Şərur r-nunun komsomol, partiya və həmkarlar ittifaqları təşkilatlarının rəhbər orqanlarında işləmişdir (1963–73). 1973 ildən Naxçıvan Dövlət Un-tinin müəllimidir. 1979 ildən un-tin İqtisadiyyat və tənzimləmə kafedrasının müdiridir. Milli gəlirin formalaşması və bölgüsü, aqrar-sənaye kompleksi, iqtisadi mənafelər, aqrar bölmədə istehsalın və əməyin təşkili formaları, bazar iqtisadiyyatı və s. problemlərə dair tədqiqatlar aparır. 28 kitab, dərslik və dərs vəsaitinin, 60-dan çox elmi məqalənin müəllifidir. Beynəlxalq və regional elmi məclislərdə məruzələr etmişdir.

Ə s ə r l ə r i: Aqrar bölmədə əməyin və istehsalın təşkili formaları, B., 1994; Bazar iqtisadiyyatı sistemində mənafelər problemi, B., 1999.

**ŞİRƏLİYEV** Həsən İsmayıl oğlu (22.9.1929, indiki Şərur r-nunun Düdəngə k. – 30.11. 1997, Bakı) – fəlsəfəşünas. Fəlsəfə elmləri doktoru (1977), prof. (1978). Azərb. Respublikasının əməkdar elm xadimi (1980), "Ali məktəb əlaçısı" (1985). Azərb. Dövlət Un-ti (indiki BDU) tarix fakültəsinin fəlsəfə şöbəsini (1952) və aspiranturasını (1956) bitirmişdir. Şərur r-nunun Yengicə məktəbinin direktoru (1952–53). Azərb. Milli EA Fəlsəfə bölməsinin elmi katibi (1957–58) işləmişdir. 1958 ildən BDU-nun fəlsəfə kafedrasında çalışmış, 1967 ildən indiki politologiya və sosiologiya (keçmiş elmi kommunizm) kafedrasının müdiri olmuşdur. Ş. fəlsəfənin müxtəlif sahələrinə, dialektik və tarixi materializmə, məhsuldar qüvvələrlə istehsal münasibətlərinin dialektikasına, həyat tərzinə, məişətin strukturu, ictimai münasibətlər sistemində rolu və inkişaf qanunauyğunluqlarına, şəxsiyyətin formalaşması problemlərinə və s. dair tədqiqatların, o cümlədən 10-dan çox monoqrafiya, dərslik və tədris vəsaitinin ("Tarixi materializm" 1969; "Dialektik materializm", 1971 – hər ikisi müştərək və s.), 100-dən çox elmi məqalənin müəllifidir.

Ə s ə r l ə r i: Yeni istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafının başlıca amilidir, B., 1960; Şəxsiyyətin hərtərəfli inkişafı, B., 1964; Məişət, B., 1979; Politologiya (müəlliflərdən biri), B., 1997.

**ŞİRƏLİYEV** Şulan İsmayıl oğlu (d. 20.2. 1935, indiki Şərur r-nunun Düdəngə k.) – şərqşünas, dilçi. Filologiya elmləri namizədi (1966), prof. (1977). Azərb. Dövlət Un-ti (indiki BDU) şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsini (1962) və aspiranturasını (1966) bitirmişdir. Həmin vaxtdan un-tin şərqşünaslıq fakültəsinin müəllimidir (1968–71 illərdə İranda tərcüməçi işləmişdir). 1974–76 illərdə şərqşünaslıq fakültəsinin dekanı olmuşdur. 1977 ildən İran filologiyası kafedrasının prof.-dur. Müasir fars dilində modallıq kateqoriyasına, ara söz və cümlələrə, söz birləşmələrinə, ədatlara dair tədqiqatların, ali və orta məktəblər üçün dərslik və dərs vəsaitlərinin müəllifidir. Şərqşünaslıq elmi məclislərində [Tehran, Moskva, Tbilisi, Düşənbə, Leninqrad (indiki Sankt-Peterburq) məruzələr etmişdir. YUNESKO-nun kadr Akademiyası tərəfindən "Filoloji elmlərdə fəlsəfə doktoru" dərəcəsinə və diplomuna layiq görülmüşdür (2000).

**ŞİRƏLİYEV** Vasif Müseyib oğlu (d. 31.3. 1936, indiki Şərur r-nunun Düdəngə k.) – tikinti iqtisadiyyatı sahəsində alim. İqtisad elmləri doktoru (1992), prof (1995). Azərb. Politexnik İn-tunu (indiki Texniki Un-t,1958) və Moskvada Ümumittifaq Tikinti İqtisadiyyatı İn-tunun aspiranturasını (1964) bitirmişdir. Azərb. Milli EA-nın və Dövlət Plan Komitəsinin iqtisadiyyat in-tlarında baş, aparıcı və böyük elmi işçi, bölmə və şöbə müdiri,


*Şirəliyev Asif*


*Şirəliyev Həsən*


*Şirəliyev Şulan*


*Şirəliyev Vasif*







keçmiş Ümumittifaq Elmi-Tədqiqat Tikintidə Əməyin Layihələşdirilməsi İn-tu Zaqafqaziya Filialının direktoru (1976–82) işləmiş, respublikanın dövlət və özəl ali məktəblərində dərs demiş, dekan və kafedra müdiri (1995–99) vəzifələrində çalışmışdır. Tikintinin, o cümlədən mənzil tikintisinin iqtisadiyyatına dair 80-dən çox elmi əsərin, 6 monoqrafiya və dərs vəsaitinin, metodik tövsiyələrin müəllifidir.

Ə s ə r l ə r i: Əsaslı tikintidə investisiya siyasəti, B., 2000; Tikinti müəssisələrinin maliyyələşdirilməsi və kreditləşdirilməsi, B., 2000.

**ŞORALI MAĞARASI** – Şərur r-nunun Axura k.-ndən ş.-dəki Tana qalası yaxınlığında mağara. Pisdər mağarasının q. tərəfindədir. Qövsvarı formalıdır. Uz. 15 *m*-dən artıqdır. Qalın torpaq örtüyü var. Arxeoloji qazıntılar aparılmamışdır. Bəzi tapıntılara əsasən mağaradan ibtidai insan məskəni kimi istifadə olunduğu ehtimal edilir.

**ŞORÇAY** – Şahbuz r-nu ərazisində çay. Şahbuz çayının (Naxçıvançayın qolu) sağ qolu. Uz. 7 *km*. 2700 *m* hünd.-dən başlanır.

**ŞORDƏRƏ** – Ordubad r-nu ərazisində çay. Düylün çayının sol qolu. Uz. 9 *km*, hövzəsinin sah. 11 *km*²-dir. Əsasən qar suları və yeraltı sularla qidalanır. Yaz-yay daşqınları olur.



**ŞORLUT NAHİYƏSİ** – 18 əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. "*Naxçıvan sancağının müfəssəl dəftəri*"*ndən* aydın olur ki, bu dövrdə Ş. n. 5 yaşayış məntəqəsini əhatə edirdi. Əhalisi etnik mənsubiyyətinə görə deyil, dini mənsubiyyətinə görə qruplaşdırılmışdı; nahiyənin 3 kəndində müsəlmanlar (azərb.-lılar), 1 kəndində həm müsəlmanlar, həm də xristianlar yaşayırdı. Nahiyənin illik gəliri 28.870 ağça idi; bu da Naxçıvan sancağının illik gəlirinin 1,1% -ni təşkil edirdi.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997.



*Şortəpə nekropolundan tapılmış küpə, çölmək kasa və çaydan tipli keramika məmulatı və ocaq qurğusu. Tunc dövrü.*

**ŞORSU** – Babək r-nu ərazisində çay. Sirab çayı ilə qovuşduğu yerdən aşağıda S e l o v adlanır. Uz. 8 *km*. 1150 *m* hünd.-dəki bulaqlardan başlanır. Yeraltı sular və yağış suları ilə qidalanır. Suvarmada istifadə edilir. 965 *m* hünd.-də soldan Naxçıvançaya tökülür.

**ŞORSU KÖRPÜSÜ** – Babək r-nu ərazisində, Sədərək–Naxçıvan–Ordubad avtomobil yolunun 81 *km*-liyində, Şorsu çayı üzərindədir. Uz. 40 paqonometr. 2000 ildə əsaslı surətdə bərpa edilib yenidən qurulmuş və istifadəyə verilmişdir.

**ŞORTƏPƏ** – Şərur r-nunun İbadulla k.-nin c.-ş.-ndə Tunc dövrünə (e.ə. 3–2-ci minilliklər) aid yaşayış yeri. 1934 ildə təsərrüfat işləri zamanı aşkar olunmuşdur, 1936 ildə kəşfiyyat qazıntıları aparılmış (Ə.Ələkbərov), mədəni təbəqə 3 *m* dərinliyinədək tədqiq edilmişdir. Qazıntılar 1970–80-ci illərdə davam etdirilmişdir. Ş.-nin alt təbəqəsindən Kür–Araz mədəniyyəti üçün səciyyəvi olan cilalı boz və qara rəngli gil qablar, öküz başı formalı ocaq qurğuları, tunc bilərzik və s., üst təbəqəsindən isə orta Tunc dövrü Naxçıvan mədəniyyətinə aid monoxrom boyalı qablar tapılmışdır. Son tədqiqatlar e.ə. 3-cü minilliyə aid maddi mədəniyyət qalıqlarının qismən salamat qaldığını müəyyənləşdirmişdir. Ş. yaşayış yerindən ilk Dəmir dövrünə aid xeyli gil qab (əsasən, kasa tipli qablar) qırıqları toplanmışdır. Qədim əkinçi tayfalardan birinin məskəni olan Ş.-də süni suvarma əkinçiliyi inkişaf etmişdi. Əhalisi dulusçuluq, daşişləmə və s. ilə məşğul olmuşdur. Tədqiqatlara əsasən, qeyd etmək olar ki, Ş.-də həyat uzun müddət davam etmiş, ilk Dəmir dövründə o, əhəmiyyətini itirmiş və qəbiristanlıq kimi istifadə olunmuşdur.

*Əd.:* Ə l i y e v V. H., Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, B., 1977; А л е к п е р о в А. К., Исследования по археологии и этнографии Азербайджана Б., 1960.

**ŞORTƏPƏ NEKROPOLU** – Şərur r-nunun İbadulla k.-ndən ş.-də eyniadlı yaşayış yerinin yaxınlığında Tunc dövrünə (e. ə. 2-ci minillik) aid arxeoloji abidə. Sah. 3 *ha*. Təsərrüfat işləri zamanı dağılmış daş qutu qəbirlərdən zəngin maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Tapıntılar narın qum qarışığı olan gildən hazırlanmış qırmızı rəngli küpə, çölmək, kasa, çaydan tipli qablardan ibarətdir. Polixrom boyalı qablar bir küpə ilə təmsil olunmuşdur.



**ŞURUD**– Culfa r-nu ərazisində çay. Qaradərə çayının (Arazın qolu) sol qolu. Uz. 16 *km*, hövzəsinin sah. 65 *km*²-dir. 1000 *m* hünd.-də Qaradərə çayına tökülür. Əsasən, yaz-yay və payız aylarında yağan yağışlar və yeraltı sularla (40%-ə qədər) qidalanır. Qar suları az rol oynayır (10%). Suvarmada istifadə edilir.

**ŞURUD** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d.y. st.-ndan 23 *km* şm.-da, hündür dağ silsiləsinin ətəyindədir. Əh. 163 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, iki kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**ŞÜKÜRƏLİ XAN** (? – ?) – Naxçıvan xanı. Nüfuzlu Naxçıvan feodallarından biri olan Ş. x. hakim dairələrdəki qarışıqlıqdan istifadə edərək 1785 ildə xanlığı ələ keçirsə də, hakimiyyətdə çox qala bilməmiş, 2 ildən sonra Cəfərqulu xan tərəfindən devrilmişdir.



*Şükürov İsrafil*

**ŞÜKÜROV** İsrafil Xudaverdi oğlu (18.6. 1924, keçmiş Erm. SSR, Əzizbəyov r-nunun Qabaqlı k. – 16.3.1994, Babək r-nunun Didivar k.) – müəllim. Nax. MSSR əməkdar müəllimi (1980), SSRİ xalq müəllimi (1984). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Naxçıvan Müəllimlər İn-tunu (1948) və Azərb. Dövlət Pedaqoji İn-tunu (indiki APU, 1954) bitirmişdir. Babək r-nunun Şıxmahmud və Təzəkənd kənd məktəblərində müəllim, Paiz və Sust kənd məktəblərində direktor (1948–57), həmin r-nunun Didivar kənd orta məktəbində Azərb. dili və ədəbiyyatı müəllimi (1957 ildən) işləmişdir. I-ci dərəcəli "Vətən müharibəsi", "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. Didivar kənd orta məktəbinə onun adı verilmişdir.



*Şürbi Mirzə Cəlil*

**ŞÜRBİ** (Mirzə Cəlil oğlu M i r z ə y e v i n təxəllüsü; 12.2.1874, Naxçıvan ş. – 1915, İran, Rəşt ş.) – ziyalı, maarif və teatr xadimi, şair. İrəvan Müəllimlər Seminariyasında oxumuş (1888–92), Şərur–Dərələyəz qəzasındakı Aralıq ibtidai məktəbində pedaqoji fəaliyyətə başlamış, 1894 ildə C. Məmmədquluzadənin müdir olduğu Nehrəm məktəbinə dəyişilmiş, qısa müddətdən sonra müəllimliyini Naxçıvan şəhər ibtidai məktəbində davam etdirmişdir. C. Məmmədquluzadənin təşviqi ilə teatr hərəkatına qoşulmuş, Naxçıvan teatrında qadın rollarını oynamış, ədəbi-maarif tədbirlərinin təşkilində fəal iştirak etmişdir. Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbinin (1903–08) və Naxçıvan şəhər rus-tatar məktəbinin (1909–13) müdiri olmuş, "Kollec registratoru" rütbəsi almışdır. Açıqfikirliliyinə, milli mənafeyi və maarifçiliyi üstün tutmasına, xurafat və fanatizmə qənim kəsilməsinə, siyasi "bədgümanlıq" doğurmasına görə Naxçıvan mühitindən uzaqlaşdırmaq məqsədilə Şahbuz ibtidai məktəbinə göndərilmiş, lakin şərab içməsi bəhanə gətirilərək, şübhəli şəxs kimi, 3 aydan sonra vəzifəsindən geri çağırılmışdır. Aşqabad, yaxud Bakı məktəblərində münasib iş tapmaq təşəbbüslərinə də maneçilik törədilmişdir. "Şürbi" təxəllüsü ilə şerlər yazmışdır. Klassik üslubda qələmə aldığı qəzəllərində həyat eşqi qabarıq şəkildə ifadə olunmuşdur. Maarifçi şerlərində ("Elm və cəhalət", "Səhranişin və ayı" və s.) fanatizmi, gerilik və cəhaləti tənqid etmiş, yeniliyə, elmə və maarifə çağırmışdır. "Molla Nəsrəddin"in Naxçıvan üzrə təmsilçisi kimi, jurnalın abunə və satış məsələləri ilə məşğul olmuş, jurnala xəbər və məqalələr göndərmişdir. Yazıları "Şərqi-Rus" qəzetində də dərc olunmuşdur. C. Məmmədquluzadə "Ölülər" komediyasında Ş.-dən İskəndər obrazının prototiplərindən biri kimi faydalanmışdır.

*Əd.:* N ə s i r l i M., Mirzə Cəlil Şürbi, "Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri" kitabında, B., 1967; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

# T



Tağıyev Adil

**TACA** – Şahbuz r-nu ərazisində göl. Naxçıvançayın hövzəsində, Sərpidağın (2499*m*) ətəyində, 2200 *m* hünd-dədir. Əsasən, qar suları və yeraltı sularla qidalanır.

**TAĞIYEV** Adil Cəlil oğlu (25.5.1928, indiki Şərur r-nunun Xok k. – 20.11.1988, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). 1945–57 illərdə Şərur r-nunun Əzizbəyov ad. k-zunda (1957 ildən tütünçülük s-zu) manqa başçısı, sədr müavini, sədr işləmişdir; 1957 ildən həmin s-zda aqronom idi. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**TAĞIZADƏ** Allahverdi Abbas oğlu (15.5.1932, indiki Culfa r-nunun Yaycı k. – 8. 3. 2000, Bakı) – şair, pedaqoq. Pedaqoji elmlər namizədi (1969), dosent (1973). C.Məmmədquluzadə ad. Naxçıvan Müəllimlər İn-tunun dil və ədəbiyyat (1951) və H.Zərdabi ad. Gəncə Dövlət Pedaqoji İn-tunun tarix-filologiya (1960) fakültələrini bitirmişdir. Azərb. Dövlət Pedaqoji Xarici Dillər İn-tunda (indiki Dillər Un-ti) baş müəllim (1967–71), dosent əvəzi (1971–73) olmuşdur. 1973 ildən pedaqogika kafedrasının dosenti idi. "Sənin əllərin" (1964), "Mənim narahatlığım" (1970), "Gözəlliyin sorağında" (1975), "Görüş" (1980), "Ömürdən nişanə" (1986) şer topluları nəşr olunmuşdur.

Ə s ə r i: O tayda bir çinar var, B., 1990.

Tahirova-Nəcəfova Nazlı



**TAHİROVA-NƏCƏFOVA** Nazlı Məmməd qızı (1890, Naxçıvan ş. – 2.1.1977, orada) – maarif xadimi, Azərb. Respublikasının əməkdar müəllimi. 1900 ildə H. Z.Tağıyevin Bakıda açdığı qız gimnaziyasına daxil olmuş, oranı bitirdikdən (1908) sonra bir müddət İravanda açdığı məktəbdə qızlara dərs demiş, 1910 ildən şəhərdəki qız məktəbində işləmişdir. 1912 ildən pedaqoji fəaliyyətini Naxçıvanda davam etdirmiş, burada da qız məktəbi açmışdır. 1923 ildə Naxçıvanda açılmış qız pedaqoji məktəbinə müdir təyin olunmuş, 18 il fasiləsiz olaraq həmin məktəbə rəhbərlik etmişdir. 40-cı illərin əvvəlində "xalq düşməni"nin arvadı kimi repressiyaya məruz qalaraq, Qazaxıstana sürgün olunmuşdu. Sürgündən qayıtdıqdan sonra bir neçə il Göyçay rayonunda yaşamalı olmuş, 1954 ildən Naxçıvandakı 2 saylı orta məktəbdə dərs demişdir. Ömrünün yarım əsrdən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş T.-N.-nın Naxçıvanda və resp.-nın bir sıra r-nlarında pedaqoji kadrların hazırlanmasında mühüm xidməti var. T.-N. tədrisə bir çox yeniliklər gətirmiş, məktəblərdə fənn dərnəkləri və kabinələri yaradılmasının, tədris prosesində əyaniliyin təşəbbüsçüsü olmuşdur. Orden və medallarla təltif edilmişdir. Fərdi pensiyaçı idi.

**TAXTAXANI DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Biləv k.-ndən 2,75 *km* c.-ş.-dədir. Hünd. 1651 *m*.

**TALIBOV** Əli Abdulla oğlu (d. 24.12.1916, Naxçıvan ş.) – fəlsəfəşünas. Fəlsəfə elmləri namizədi (1962), dosent (1967). Azərb. Dövlət Un-tinin (indiki BDU) tarix fakültəsini bitirmişdir (1942). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır; ağır yaralandığından ordudan tərxis edilmişdir. 1944–54 illərdə C. Məmmədquluzadə ad. Naxçıvan Müəllimlər İn-tunda dərs demişdir. 1954 ildən Azərb. Neft Akademiyası fəlsəfə kafedrasının müəllimidir. Bir kitabın, 20-dən çox elmi-metodik və publisistik məqalənin müəllifidir. Birinci və ikinci dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz ordenləri, Azərb. Respublikasının Şöhrət ordeni





(2001) ilə təltif olunmuşdur. N. Kərimovanın "Həyat fəlsəfəsi, iztirab, əzab..." kitabı (B., 2001) T.-un həyat yolundan bəhs edir.

**TALIBOV** Vasif Yusif oğlu (d. 14.1.1960, Şərur r-nunun Aşağı Aralıq k.) – dövlət xadimi. Nax. MR Ali Məclisinin sədri. Nax. Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-ti) tarix-filologiya fakültəsini (1981) və Bakı Dövlət Un-tinin hüquq fakültəsini (1998) bitirmişdir. Əmək fəaliyyətinə 1976 ildə Şərur r-n xalq maarif şöbəsində başlamış, sonra isə Naxçıvan alt trikotaj f-kində kadrlar üzrə inspektor, xüsusi şöbənin rəisi vəzifələrində çalışmışdır. İşlədiyi və təhsil aldığı illərdə doğma torpağına və xalqına qırılmaz tellərlə bağlı bir ziyalı kimi daim fəal həyat mövqeyində dayanmışdır. Azərb.-da müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, vətənimizin ərazi bütövlüyünün qorunması, ölkədə demokratik dəyərlərin bərqərar olması kimi ali məqsədlərə çatmaq üçün xalqın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı uğrunda mübarizənin öncüllərindən olmuş və müdrik rəhbərin yanında olmaqla əsl mənada onun məktəbini keçmişdir. T. 1991 ilin sentyabrından 1994 ilin aprelinədək Nax. MR Ali Məclisi Sədrinin Baş köməkçisi, 1994 ilin aprelindən 1995 ilin dekabrınadək Nax. MR Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini vəzifələrində çalışmışdır. Əsası Azərb. Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasında və təşkilati cəhətdən formalaşmasında iştirak etmiş, YAP-ın Nax. MR təşkilatının 1995 il aprelin 8-də keçirilən konfransında onun sədri seçilmişdir. Cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan bu partiyanın rəhbər orqanında fəaliyyət göstərir. 1995 il noyabrın 12-də və 2000 il noyabrın 5-də 1-ci və 2-ci çağırış Azərb. Respublikası Milli Məclisinin, 1-ci və 2-ci çağırış Nax. MR Ali Məclisinin deputatı, 1-ci və 2-ci çağırış Nax. MR Ali Məclisinin müvafiq olaraq 1995 il dekabrın 16-da və 2000 il noyabrın 9-da keçirilən ilk sessiyalarında Nax. MR Ali Məclisinin sədri seçilmişdir. T. millət vəkili və Nax. MR Ali Məclisinin sədri kimi Azərb.-da vətəndaş cəmiyyətinin və hüquqi dövlətin bərqərar olmasına, Naxçıvan diyarının iqtisadiyyat və mədəniyyətinin daha da tərəqqisinə, xalqın rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi üçün müvafiq qanunların qəbul olunmasında iştirak edir.



Talıbov Vasif

Son illərdə muxtar respublikada həyata keçirilən quruculuq işləri Azərb.-ın müdrik rəhbəri Heydər Əliyevin və onun yaxın silahdaşı T.-un adı ilə sıx bağlıdır. Muxtar respublikada aqrar islahatlar, əsasən, başa çatdırılmış, heyvandarlıq və bitkiçilik sahəsində böyük uğurlar qazanılmışdır. Naxçıvana xarici sərmayə axını davam edir. Əhalinin sosial problemlərinin həlli üçün konkret işlər görülür, təhsilin, səhiyyənin, elm və mədəniyyətin inkişafına, tikinti-abadlaşdırma və bərpa işlərinə daim böyük qayğı və diqqət göstərilir. Güclü iqtisadiyyatın yaradılması muxtar respublikanı yaxın illərdə məhsul ixrac edən bölgəyə çevirməyə imkan verəcəkdir.

Dünya azərbaycanlılarının I qurultayında (Bakı ş., 9–10 noyabr 2001) Əlaqələndirmə Şurasının üzvü seçilmişdir.

**TALIBOVA** Bahar Məhərrəm qızı (d. 17.3. 1927, indiki Şərur r-nunun Aşağı Aralıq k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1960). Əməkdar pambıq ustası (1959). 1951–75 illərdə Şərur r-nunun M.Hüseynzadə ad. k-zunda kolxozçu, manqa başçısı işləmişdir. 1959 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Sov. İKP-nin 22–24-cü qurultaylarının nümayəndəsi olmuş, Azərb. KP 25–27-ci qurultaylarında MK üzvü seçilmişdir. SSRİ Ali Sovetinin (4–7-ci çağırış), Nax. MSSR Ali Sovetinin (9–11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir. SSRİ Veteranlar Şurası plenumunun üzvü olmuşdur. Hazırda fərdi pensiyaçıdır.

Talıbova Bahar



**TAMAŞALI** – Şərur r-nunun Havuş k. ərazisində erkən orta əsrlərə aid yaşayış yeri. Hər tərəfdən hündür dağlarla əhatələnmiş düzənlik sahədə salınmışdı. Ərazi heyvandarlıq üçün olduqca əlverişlidir. Sah.1 *ha*. Kəşfiyyat qazıntıları (2x2) nəticəsində 70 *sm* dərinlikdən yerli daşdan inşa edilmiş divar qalığı aşkara çıxarılmışdır. 3 *m*-dən artıq dərinlikdən 2 mədəni təbəqə müəyyən edilmişdir. Üst təbəqədən şirli qab sınıqları əldə olunmuşdur; təbəqənin 11–16 əsrlərə aid olduğu



Tamayev Nəbi

göstərilir. Alt təbəqə isə 1–9 əsrlərə aiddir. Üst və alt təbəqələr arasında 1 *m* dərinliyində qısa müddəti əhatə edən lal təbəqə vardır.

**TAMAŞALI NEKROPOLU** – Şərur r-nunda Tamaşalı yaşayış yerinin 1 *km*-liyində təpə üzərində orta əsrlərə aid arxeoloji abidə. Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, nekropol daş qutu, onun üstü isə torpaq qəbirlərdən ibarətdir. Ərazidən əl ilə nisbətən kobud şəkildə formalaşdırılmış kiçik ölçülü küpə tipli qablar aşkar olunmuşdur. Qəbiristanın 10–16 əsrlərə aid olması ehtimal edilir.

**TAMAYEV** Nəbi Koroğlu oğlu (1887, indiki Babək r-nunun Sust k. – 2.6.1957, orada) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1948). K.-zda çoban olmuşdur. 1947 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**TANA QALASI** – Şərur r-nunun Axura k.-ndən ş.-də, Havuş k.-nin c. tərəfində, hündür dağ zirvəsində orta əsrlərə aid qala. Arxeoloji tədqiqatlar zamanı iri daşlardan inşa edilmiş qala divarlarının izləri aşkar olunmuşdur. Qala ərazisindən, əsasən, şirsiz saxsı məmulatı, həmçinin şirli qab hissələri, metal əşya qalıqları aşkar olunmuşdur. Tapıntılar 11–18 əsrlər üçün səciyyəvidir. Adı "Kitabı Dədə-Qorqud"da çəkilir.

**TARIVERDİYEV** Məmmədəli Hüseyn oğlu (20.11.1910, indiki Ordubad r-nunun Dəstə k. – 19..., Naxçıvan ş.) – yazıçı, nasir. Naxçıvan Pedaqoji Texnikumunu (1927), Bakıda diş həkimliyi məktəbini (1938), Azərb. KP MK yanında ikiillik ali-orta partiya məktəbini (1949) bitirmişdir. Bir neçə il müəllimlik etmiş, sonra mətbuatda çalışmış, "Şərq qapısı" qəzeti redaksiyasında məsul katib, "Gənc işçi" (Bakı) qəzetində şöbə müdiri, redaktor müavini, "Şərq qapısı" qəzetinin redaktoru olmuşdur. Partiya və sovet orqanlarında fəaliyyət göstərmiş, Azərb. KP Naxçıvan Vilayət Komitəsində şöbə müdiri, Şəhər Partiya Komitəsinin birinci katibi, Naxçıvan şəhər Səhiyyə şöbəsinin müdiri və s. vəzifələrdə çalışmışdır. Ədəbi yaradıcılığa oçerklərlə başlamış, 1935–37 illərdə Azərb. Yazıçılar İttifaqının Naxçıvan filialına başçılıq etmişdir. "Naxçıvan mayakları" (1963), "Mehriban insanlar" (1973) oçerk və hekayə kitabları nəşr olunmuşdur. "Zaman" (1943), "Kölgəli dağ" (1961), "Qəmküsar" (1975) pyesləri tamaşaya qoyulmuşdur.

**TAVARADAĞ** – Şərur r-nu ərazisində dağ. Axura k.-ndən 5 *km* şm.-dadır. Hünd. 1652 *m*. Günbəzvarı formadadır. Coğrafi ədəbiyyatda adı Təvərədağ kimi də işlədilir.

**TAZIUÇAN DAĞI** – Babək r-nu ərazisində dağ. Arazın sol sahilində, Böyükdüzün q. hissəsindədir. Hünd. 935 *m*.

**TEYMUR**, Ə m i r T e y m u r, T e y m u r l ə n g, T o p a l T e y m u r (9.4.1336, indiki Özb. Respublikası, Qaşqadərya vil.-nin Xoca İlqar k. – 18.2.1405, Otrar ş.; Səmərqənddə Əmir Teymur məqbərəsində dəfn olunmuşdur) – Orta Asiya dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; sağ çiynindən və dizindən aldığı zədədən ayağı qatlanmadığına görə "Teymurləng" (Topal Teymur) ləqəbi ilə tanınmışdır. 1370 ildə hakimiyyət uğrunda mübarizədə qalib gəlmiş və əmir titulu ilə Çingiz xanın [1306–27] nəsli adından Mavəraünnəhri idarə etmişdir. T.-un ətraf ölkələrə hərbi yürüşləri 1380 ildən sonra daha da genişlənmişdir. T. üç yürüşündə (1386–87; 1392–97; 1399–1404) Azərb.-da, o cümlədən Naxçıvanda olmuşdur. İlk yürüşü dövründə Naxçıvanda Şeyx Həsənin başçılıq etdiyi xalq müqavimətini qırmış, Kərkit və Sürməli istehkamlarını dağıtmış, Əlincə qalasını mühasirəyə almışdır. Əlincə uğrunda 14 il mübarizə aparan T. buraya 4 dəfə (1387, 1393, 1397, 1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da, məqsədinə nail ola bilməmiş, yalnız son yürüşü zamanı tərk olunan qalaya girmiş və onu seyr edərək, möhtəşəmliyinə heyran qalmışdır. Hüseyn Cavidin "Topal Teymur" dramı T.-un həyatından bəhs edir. 1996 ildə türk dövlətləri başçılarının və digər qonaqların iştirakı ilə Özbəkistanda anadan olmasının 660 illik yubileyi təntənə ilə qeyd olunmuşdur.

*Əd.:* M ə m m ə d o v R., P i r i y e v V., Teymurləngin Əlincə səfəri, "Elm və həyat", 1977, № 9; P i r i y e v V., Teymurun və Toxtamışın Azərbaycana yürüşləri və işğalçılara qarşı mübarizə, "Azərb. EA-nın Xəbərləri" (tarix, fəlsəfə və hüquq seriyası), 1983, № 1.

**TEYMURİLƏR DÖVLƏTİ** – orta əsr feodal dövləti [1370–1507]. Banisi Əmir *Teymurdur* (1336–1405). Teymurun hakimiyyətinin son illərində Mavəraünnəhr, Xarəzm, Xorasan,



Pəncab, İran, İraq, Azərb. və Cənubi Qafqazı əhatə edirdi. 1370 ildə hakimiyyət uğrunda mübarizədə qalib gələrək əmir titulu qəbul edən Teymur, Çingiz xanın nəsli adından Mavəraünnəhri təkbaşına idarə etməyə başladı, T. d.-ni yaratdı və Səmərqəndi onun paytaxtı elan etdi. 1380 ildən işğalçılıq yürüşlərini genişləndirən Teymur 1386 ildə özünün "üç illik səfəri"nə çıxmış Sultaniyyə ş.-ni tutub Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa yürüşlər etmiş. 1387 ildə Qızıl Orda xanı Toxtamışın qoşunlarını Dərbənddən şimala qovmuş, sonra Salmas, Urmiya və Marağadan keçib Gilana, oradan isə Səmərqəndə qayıtmışdı. Teymur sonralar "beş illik" (1392 ildən) və "yeddi illik" (1399 ildən) yürüşlər zamanı da Azərb.-a hücumlar etmişdi. O, Qızıl Orda xanı Toxtamışa qalib gələrək, xanlığın paytaxtı Saray Bərkəni və s. şəhərləri dağıtmış, 1398 ildə Hindistana hücum edərək Dehlini tutmuş, 1400–01 illərdə Sivas, Dəməşq və Bağdadı işğal etmiş, Ankara vuruşmasında (1402) Osmanlı sultanı İldırım Bəyazidə qalib gəlmişdi (bu döyüşdə Şirvanşah I İbrahimin və Şəki hakimi Sidi Əhmədin hərbi dəstələri də Teymurun tərəfində vuruşurdu). Teymur 1403 ilin yazında Azərb.-ın və qonşu ölkələrin idarəsini nəvəsi Ömər Mirzəyə tapşıraraq Səmərqəndə dönmüşdü. O, işğal etdiyi ölkələri öz oğlanları arasında bölüşdürmüşdü. Xorasan, Cürğan, Mazandaran və Sistan (mərkəzi Herat) Şahruxa, Qərbi İran, Azərb, İraq (mərkəzi Təbriz) Miranşaha, Cənubi İran (mərkəzi Şiraz) Ömər Şeyxə, Əfqanıstan və Şimali Hindistan (Mərkəzi Qəznə, sonra Bəlx) isə Pirməhəmmədə soyurqal verilmişdi. Ayrıca dövlət aparatı, qoşunu olan bu inzibati ərazilərin mərkəzi dövlətə tabeliyi, əsasən, toplanan verginin bir hissəsini mərkəzə göndərməkdən və əmirin yürüşlərində iştirakdan ibarət idi. Mərkəzi dövləti, əsasən, icra, maliyyə və hərbi işlərə baxan divanlar idarə edirdi. Din, şəriət və məhkəmə işləri qazı və şeyxülislamın nəzarətində idi.

Yürüş və işğallar nəticəsində yaranmış hərbi feodal dövləti olan T. d.-nin ayrı-ayrı hissələri arasında sıx iqtisadi əlaqələr mövcud deyildi. Bu isə öz növbəsində mərkəzi hakimiyyətin iqtisadi və siyasi dayaqlarını daim zəiflədirdi. Eyni zamanda, dövlətdaxili feodal çəkişmələri ara vermirdi. Teymurun ölümü bu prosesləri daha da gücləndirdi və varislər arasındakı hakimiyyət mübarizəsi son nəticədə dövlətin parçalanmasına və süqutuna səbəb oldu. Teymurun ölümündən sonra Mavəraünnəhrdə hakimiyyətə keçən nəvəsi Xəlil Sultan [1405–09] 1409 ildə əmisi – Xorasan hakimi Şahrux tərəfindən devrildi. Şahruxun hakimiyyəti [1409–47] dövründə T. d.-nin parçalanmasının qarşısı nəinki alınmadı, əksinə, bu proses daha da gücləndi. Həmin dövrdə Azərb.-da Qaraqoyunlu dövlətinin güclənməyə başlaması Şahruxu qorxuya salmış və o, Azərb.-a üç dəfə (1420, 1429, 1434) yürüş etmişdi. Ondan sonra hakimiyyətə keçən oğlu Uluq bəy [1447–49; 1409–47 illərdə Mavərannəhr hakimi] T.d.-ni dağılmaqdan xilas etməyə cəhd göstərsə də, bu, istənilən nəticəni vermədi. Hakimiyyət uğrunda növbəti çəkişmələrdən sonra T.d.-nin taxt-tacına Miranşahın nəvəsi Əbu Səid [1458–69; 1451–58 illərdə Mavərannəhr hakimi] sahib olmuşdu. T.d.-ndəki siyasi çəkişmələrdən istifadə edən Qaraqoyunlu Cahanşah 1458 ildə Heratı tutsa da, sonra Əbu Səidlə sülh bağlayaraq Azərb.-a dönmüşdü. 1470 ildə T. d.-ndə Sultan Hüseyn Baykara [1470–1506] hakimiyyətə keçdi. 1500 ildə özbəklər Məhəmməd Şeybaninin başçılığı ilə Mavəraünnəhri tutdular. Bundan sonra mövcudluğunu təkcə Xorasanda saxlayan T. d.-nə 1507 ildə özbəklər tərəfindən son qoyuldu.

T. d.-ndə elmin, mədəniyyətin, ədəbiyyatın inkişafına əhəmiyyət verilirdi. Avropa alimlərinin Teymuri intibahı kimi təqdim etdiyi dövr məhz Teymurun nəvələri zamanına təsadüf edir. Dövrün siyasi hadisələri tarixçilərdən Hafiz Əbrunun, Əbdürrəzzaq Səmərqəndinin, Mirxondun və b.-nın əsərlərində əksini tapmışdır. T. d.-ndə türkcə Cığatay ədəbiyyatı inkişaf etmişdi. Teymuri hökmdarlarından bir neçəsi – Sultan Xəlil bəy, Əbu Bəkr Mirzə, Babur, Hüseyn Baykara və b. öz dövrünün tanınmış şairləri olmuş və əsərlərini türkcə yazmışlar. T.d.-ndə memarlıq xüsusilə inkişaf etmişdi. Teymurilər dövrünün bir sıra möhtəşəm memarlıq abidələri dövrümüzədək mühafizə olunmuş və ilkin görkəmini saxlaya bilmişdir.

*Əd.:* İ s m a y i l A k a, Teymur və dövləti, Ankara,

1991; Б а р т о л ь д В. В., Улуг бек и его время, Соч., т.2, ч.2, М., 1964; у е н э о п и п, Из истории Улуг бека, Ташкент, 1965.



Teymurov Kamil

**TEYMUROV** Kamil Heydər oğlu (17.6. 1914, Naxçıvan ş. – 24.2.1998, Bakı) – torpaqşünas, meliorator. Kənd təsərrüfatı elmləri doktoru (1969), prof. (1994). Azərb. Kənd Təsərrüfatı İn-tunu (indiki Kənd Təsərrüfatı Akademiyası) bitirmişdir (1937). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısıdır. Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunda elmi işçi (1946–52), meliorativ torpaqşünaslıq laboratoriyasının müdiri (1952–80), baş elmi işçi (1980–92), elmin təşkili şöbəsinin eksperti (1992–98) vəzifələrində işləmişdir. Şorlaşmış və şorakət torpaqların meliorasiyası məsələlərinin tədqiqi ilə məşğul olmuş, "şorlaşmış torpaqların əvvəlcədən kimyalaşdırılma yolu ilə yuyulması" üsulunu işləyib hazırlamışdır. Bu üsul sonralar Sovet İttifaqında məktəb sisteminə çevrilmişdi. 120-dən artıq elmi əsərin müəllifidir. Keçmiş SSRİ Torpaqşünaslar Cəmiyyətinin fəxri üzvü seçilmişdi. 2 ordenlə, V. V. Dokuçayev ad. yubiley medalı ilə təltif olunmuşdur.

**TEYVAZ** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və Culfa d. y. st.-ndan 57 *km* şm.-da Əlincəçayın (Arazın qolu) sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 335 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, iki kitabxana, uşaq bağçası, tibb məntəqəsi var.

**TEYVAZ MİNERAL SU BULAĞI** – Culfa r-nu ərazisində, Teyvaz k.-ndən 2 *km* c.-q.-də, Teyvaz çayının məcrasında, dəniz səviyyəsindən 1785 *m* hünd.-dədir. Dasit süxurlarından çıxır. Tərkibində karbon qazı azdır.

Balneoloji tərkibi:

$$M\,7{,}3\frac{NCO_3\,69\,Cl\,18\,SO_4\,13}{(Wa+K)\,69\,Ca\,19\,Mg\,13}\cdot pH\,6{,}6\;D\,10\,m^3/gün\;T\,13^\circ C$$

Suyu orta dərəcədə minerallaşmış, hidrokarbonatlı-natriumludur. Gələcəkdə tədqiqat üçün maraq doğurur.

**TƏBRİZ BƏYLƏRBƏYİLİYİ**, A z ə r b a y c a n b ə y l ə r b ə y i l i y i – Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən biri. Mərkəzi Təbriz ş. idi. 16 əsrin 1-ci yarısında yaradılmışdı. Çuxursəd, Qarabağ, Şirvan, İran əyalətləri və Osmanlı imperatorluğu ilə həmsərhəd olan T. b. -nə Marağa, Urmiya, Soucbulaq, Xoy, Salmas, Mərənd, Naxçıvan (16 əsrin sonunadək), Maku, Qaradağ, Ərdəbil, Miyanə, Talış, Arasbar, Sultaniyyə, Zəncan və s. əyalətlər daxil idi. T. b. ictimai-iqtisadi və strateji baxımdan Səfəvilər dövlətinin ən zəngin və mühüm əyalətlərindən biri idi. Burada əkinçilik, maldarlıq və sənətkarlıq inkişaf etmişdi; mühüm ticarət yolları onun ərazisindən keçirdi. Səfəvilər dövlətinin paytaxtı əvvəlcə Qəzvinə (1555), sonralar isə İsfahana (1598) köçürüləndən sonra da T. b. ölkənin siyasi və iqtisadi həyatında mühüm rol oynayırdı. Səfəvi ordusunun şəxsi heyətinin (təqr. 60 min nəfər) 5/1 hissəsi (təqr. 11–12 min) T. b.-nin payına düşürdü. T.b.-nə ən nüfuzlu qızılbaş əmirləri (əsasən, təkəli və türkman tayfa başçıları) hakim təyin edilirdi.

1531 ilədək bəylərbəyi Üləma Təkəli idi. Ondan sonra T. b. türkman əmirləri nəslinin idarəsinə keçdi. 1583/84 ildə şamlı və ustaclı əmirlərinin təkidi ilə türkman tayfa başçısı Əmir xan bəylərbəyilikdən kənar edildi. Bu, qızılbaşlar arasında qanlı toqquşmalara səbəb oldu. Əmir xana təkəlilər də yardım edirdi. Tayfalararası çəkişmələr Osmanlı imperatorluğu ilə müharibə aparan Səfəvilər dövlətinin vəziyyətini xeyli çətinləşdirdi; T. b.-nin idarəsi yenidən türkmanlara qaytarıldı. 1590–1605 illərdə T. b.-nin ərazisi (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olmaqla) Osmanlıların tabeliyinə keçmişdi. I Şah Abbas dövründə [1587–1629] T. b. Osmanlı qoşunlarından azad edildikdən sonra onun idarəsi yenidən türkman əmiri Pirbudaq xana tapşırıldı. Nadir şah [1736–47] hakimiyyətə gələndən sonra bəylərbəyilik sistemi ləğv edilmiş, o öldürüldükdən (1747) sonra isə T. b. ərazisində bir sıra müstəqil xanlıqlar (Təbriz, Marağa, Urmiya, Xoy, Qaradağ, Sərab) yaranmışdı.

*Əd.:* Ə f ə n d iy e v O. Ə., Azərbaycan Səfəvilər dövləti, B., 1993; Azərbaycan tarixi, 7 cilddə, c.3, B., 1999; П е т р у ш е в с к и й И.П., Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв., Л., 1949; Р а х м а н и А.А., Азербайджан в конце XVI и в XVII веке, Б., 1981; Историческая география Азербайджана, Б., 1987.



**"TƏBRİZ MEYDANI"** – Naxçıvan ş.-ində meydan. 20 əsrin əvvəllərində G ö m r ü k x a n a adı ilə tanınmış, sonralar adı dəyişdirilərək "Sovnarkom meydanı" adlandırılmışdı. 1930 ildən "17-lər meydanı", daha sonra "Xırda bağ" kimi tanınmışdı. Şəhərsalma ilə əlaqədar aparılan yenidənqurma və abadlıq işləri, xüsusilə çoxmərtəbəli "Təbriz" mehmanxanasının tikilməsi ilə bağlı ətraf ərazi 1989 ildən "T. m." adlanır.

**TƏHMASİB** Cəmilə Abbasqulu qızı (d. 25.2. 1925, Naxçıvan ş.) – psixoloq. Psixologiya elmləri namizədi (1966), dosent (1970), Azərb. Respublikasının əməkdar müəllimi (2000). Azərb. Dövlət Un-tinin (indiki BDU) şərqşünaslıq fakültəsini (1948) və psixologiya üzrə aspiranturasını (1952) bitirmişdir. 1952 ildən un-tin məntiq-psixologiya kafedrasının müəllimi olmuşdur. Hazırda psixologiya kafedrasının dosentidir. 35-dən çox elmi məqalənin müəllifi, 2 tədris vəsaitinin müəlliflərindəndir. Psixoloqların XVIII ümumdünya konqresində (1966), SSRİ psixoloqlarının Daşkənd konfransında (1964) və s. elmi məclislərdə, Azərb. qadınlar qurultayında (1998) məruzə, qadın problemlərinə dair beynəlxalq konfransda (Ankara, 1997) çıxış etmişdir. BDU "Sevil" qadınlar məclisinin sədridir (1997 ildən).

**TƏHMASİB** Məmmədhüseyn Abbasqulu oğlu (12.4.1907, Naxçıvan ş. – 5.10.1982, Bakı) – ədəbiyyatşünas, folklorşünas, dramaturq. Filologiya elmləri doktoru (1965), prof. (1970). Bakı Pedaqoji Texnikumunu bitirmiş (1927), dörd il Naxçıvanda müəllimlik etmişdir. Sonra Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1930–33). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsində baş müəllim (1939–1951), dosent (1951–59), Azərb. Milli EA Nizami ad. Ədəbiyyat İn-tunda folklor şöbəsinin müdiri (1945 ildən ömrünün sonunadək) işləmişdir. T. Azərb. elmi folklorşünaslığının əsasını qoyanlardandır. Mövsüm və mərasim nəğmələri, xalq dastanları haqqında sanballı tədqiqatların müəllifidir. "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarının, dastanların, nağılların, Molla Nəsrəddin lətifələrinin toplanması, nəşri və tədqiqində, elmi və pedaqoji kadrların hazırlanmasında mühüm xidməti var. "Bahar" (1938), "Aslan yatağı" (1941), "Çiçəklənən arzular" (1951), "Hind nağılı" (1956) və s. pyesləri tamaşaya qoyulmuşdur. "Rübailər aləmində" (1968) pyesi Məhsəti Gəncəviyə həsr olunmuşdur. "Onu bağışlamaq olarmı?" ("Bahar" pyesi əsasında), "Bir qalanın sirri" ("Çiçəkli dağ" pyesi əsasında) filmlərinin (hər ikisi 1960) ssenari müəllifidir.

Ə s ə r l ə r i: VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı, "Azərbaycan ədəbiyyatı tarixi", 3 cilddə, c.1, B., 1960; Dədə Qorqud boyları haqqında, "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", kitab 1–2, B., 1961–66; Azərbaycan xalq dastanları (orta əsrlər), B., 1972.



Təhmasib Cəmilə



Təhmasib Məmmədhüseyn

**TƏHMASİB** Rza Abbasqulu oğlu (20.4.1894, Naxçıvan ş. – 14.2.1980, Bakı) – aktyor, rejissor, pedaqoq. Azərb. Respublikasının xalq artisti (1964) və əməkdar incəsənət xadimi (1946), prof. (1949). SSRİ Dövlət mükafatı laureatı (1946). Ümumittifaq Kinematoqrafiya İn-tunun (Moskva) rej.-luq fakültəsini bitirmişdir (1937). Səhnə fəaliyyətinə 1910 ildə Tiflisdə "Müsəlman Artistləri İttifaqı"nın teatr truppasında başlamışdır. Tiflis, İrəvan, Naxçıvan teatrlarında aktyorluq və rej.-luq etmişdir. T.-in səhnə yaradıcılığı, əsasən Azərb. Akademik Milli Dram Teatrı ilə bağ-



R. A. T ə h m a s i b Knyaz ("Knyaz", H.Cavid) rolunda.



Təhmasib Rza

lıdır. O, burada aktyor və rej. (1920 ildən), direktor və bədii rəhbər (1922–24, 1937–38, 1953–59) işləmişdir. T.-in yaratdığı İskəndər ("Ölülər", C.Məmmədquluzadə), İblis və Arif, Şeyx Sənan, Knyaz ("İblis", "Şeyx Sənan", "Knyaz", H.Cavid), Qacar ("Ağa Məhəmməd şah Qacar", Ə.Haqverdiyev), Süleyman ("Həyat", M.İbrahimov), Koşkin ("Lyubov Yarovaya" K.Trenyov), Strijin ("Eskadranın məhvi", A.Korneyçuk), Karl Moor ("Qaçaqlar", F.Şiller) kimi obrazlar sənətkarlıq, yaradıcılıq axtarışları baxımından diqqəti cəlb edir. T.-in istedadının püxtələşməsində C.Cabbarlı dramaturgiyası mühüm rol oynamışdır; o, Aydın, Elxan, Balaş, Hacı Əhməd, İmamyar, general-qubernator ("Aydın", "Od gəlini", "Sevil", "Almaz", "Yaşar", "1905-ci ildə") rollarının ən yaxşı ifaçılarından olmuşdur. T. teatr və kino rej.-u kimi də tanınmışdır. C.Məmmədquluzadənin "Ölülər" komediyası onun ilk müstəqil rej.-luq işidir (1915, Naxçıvan). Sonralar T.Azərb. Dövlət Dram Teatrında "Şeyx Sənan" (1931, H.Cavid), "Sevil" (1934, C.Cabbarlı), "Özgə uşağı" (1936, V.Şkvarkin), "Madrid" (1938, M.İbrahimov), "Vəfa" (1943, Rəsul Rza), "Hacı Qara" (1958, M.F.Axundov) və s. tamaşalara quruluş vermişdir. T. həmçinin, "Ordenli Azərbaycan" (1937) sənədli filminin, "Səbuhi" (1943, şərikli), "Arşın mal alan" (1945, N.Leşşenko ilə birgə), "Bakının işıqları" (1950, A.Zarxi və İ.Xeyfitslə birgə), "Mahnı belə yaranır" (1959, M.Mikayılovla birgə), "Onu bağışlamaq olarmı?" (1960) bədii filmlərinin rej. olmuş, "Fətəli xan" (1947), "Qanun naminə" (1969, S.Rəhimovun "Mehman" povestinin motivləri üzrə) və s. filmlərdə çəkilmişdir. K.Stanislavskinin "İncəsənətdə mənim həyatım", A.Ostrovskinin "Günahsız müqəssirlər", D.Furmanovun "Çapayev" əsərlərini tərcümə etmişdir. T. Bakı Teatr Texnikumunda, 1946 ildən isə Azərb. Dövlət Teatr İn-tunda (indiki Mədəniyyət və İncəsənət Un-ti) aktyor sənəti kafedrasının müdiri işləmişdir. İstedadlı aktyor və rej. kadrlarının yetişdirilməsində mühüm xidməti var. 3 Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

*Əd.:* M ə m m ə d o v C., Rza Təhmasib, B., 1966.

*Təkeşiyi məscidinin kitabəsi.*



**TƏKEŞİYİ MƏSCİDİ** (ş i ə t ə k y ə s i deməkdir) – Ordubadda 18 əsrə aid Azərb. memarlıq abidəsi. Karvansarası olmuşdur. Naxışlı uca sütunları sıradan çıxdığından adi sütunlarla əvəz edilmişdir. Şəbəkəli pəncərələri var. Məscidin giriş qapısında iki mərmər sənduqə hörülmüşdür. Sənduqələrin yan haşiyələrində Qurandan ayə, üst tərəfində mürəkkəb kompozisiyalı xalça ornamentləri həkk olunmuşdur. Bərpa və yenidənqurma işləri aparılır.

**TƏKƏLİK DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c.-q. yamacında, Yuxarı Qışlaq k.-ndən 3,5 km şm.-ş.-dədir. Hünd. 2892 *m*. Günbəzvarı formaya malikdir.

**TƏKİNSKİ** Məmməd xan (?–?) – dövlət xadimi. Bir müddət (1918 il iyul-dekabr) Azərb. Fövqəladə İstintaq Komissiyasının üzvü işləmiş, 1919 il yanvarın 29-da Azərb. Xalq Cümhuriyyəti (AXC) hökuməti tərəfindən Ermənistanda diplomatik nümayəndə (səfir) təyin edilmişdi. T. ermənilərin keçmiş İrəvan quberniyasının türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklərin, müəyyən qədər də olsa, qarşısının alınmasında, azərb. qaçqınların problemlərinin həllində mühüm xidmətlər göstərmişdir. O, Naxçıvan mahalında "erməni idarəçiliyinə" son qoyulması məsələsinin zəruriliyini də dəfələrlə Ermənistandakı beynəlxalq missiyaların qarşısında qaldırmış, AXC hökumətini bu işə fəal müdaxilə etməyə çağırmışdır. Təsadüfi deyildi ki, T.-nin fəal diplomatik mövqeyindən narazı qalan Ermənistanın daşnak hökuməti müxtəlif bəhanələrlə onun geri çağırılmasına nail olmuşdu.

**TƏKNƏ DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin c. yamacında zirvə. Şada k.-ndən 3 *km* c.-q.-dədir. Hünd. 1949 *m*. Günbəzvarı formadadır.

**TƏKYƏ** – orta əsrlərə aid xırda günbəzli tarixi-memarlıq abidəsi. Əlincə (keçmiş Xanəgah) k.-ndə aşkar olunmuşdur (1978). Planda dördkünc olan bu bina yanlardan divarla əhatələnmiş, üstü günbəzlə örtülmüşdür. Bu tip xüsusi günbəzli tikililər orta əsrlərin T. (və yaxud Z a v i y ə) adlandırılan dini müəssisələr qrupunu təmsil edirdi. Onlar dərviş təriqətinə mənsub olub, ömrünü ibadətə həsr etmiş dərvişlərin yaşayış binası olmuşdur. Abidənin ən əhəmiyyətli hissəsi bişmiş qırmızı kərpicdən tikilmiş günbəzli örtmədir. Memarın sənətkarlıq məharəti və yüksək səviyyəli memarlıq



məktəbinə mənsubiyyəti kvadrat əsasdan günbəzə keçid sistemində daha aydın görünür.

**TƏNDİRLİ DAĞI** – Şərur r-nu ərazisində dağ. Arpaçayın aşağı axınında, onun dərəsinin sol yamacında, Cağazur k.-ndən 1,5 *km* q.-dədir. Hünd. 1653 *m*. Günbəzvarı formadadır.

**TƏNƏNƏM** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 24 *km*, Naxçıvan–Sədərək avtomobil yolundan 9 *km* aralı, Şərur düzündədir. Əh. 704 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Məktəb, klub, uşaq bağçası, kitabxana var. Kənddən 3 *km* şm.-ş.-də Paleolit dövrünə aid *Qazma mağarası*, ş.-də "Ağ zirət" deyilən yerin yaxınlığında isə Tunc və Dəmir dövrlərinə aid *Cənnət qayası* adlı arxeoloji abidələr yerləşir. Orta əsrlərdə Naxçıvan ərazisindən keçən ticarət-karvan yolunun kənarında yerləşən T.-də *Piri-Süleyman* adı ilə tanınan ziyarətgah mövcuddur.

**TƏNƏNƏM** – Şərur r-nunda eyniadlı kəndin əhatəsində orta əsrlərə aid yaşayış yeri. Kəndin içərisində uçub tökülmüş kərpic və köhnə tikililərin qalıqları nəzərə çarpır; nisbətən salamat qalan günbəz tipli abidənin tikintisində bişmiş kərpic və kaşıdan istifadə edilmişdir. Yaşayış yerindən çəhrayı rəngdə, bişirilmiş şirli və sadə saxsı məmulatına (yaşıl, göy və mavi rənglərlə naxışlanmışdır) təsadüf edilmişdir. T. yaşayış yerinin 14–18 əsrlərə aid olması ehtimal edilir.

**TƏNƏNƏM DAĞI** – Şərur r-nu ərazisində dağ. Dərələyəz silsiləsinin şm.-q. yamacında, Tənənəm k.-ndən 750 *m* ş.-dədir. Hünd. 1623 *m*. Günbəzvarı formadadır.

**TƏNƏNƏM PİRİ** – Şərur r-nunun Tənənəm k.-ndə orta əsrlərə aid ziyarətgah. Yerli əhali



*Təkyə. Əlincə kəndi. Orta əsr.*

arasında daha çox "*Piri-Süleyman*" adı ilə tanınır.

**TƏPƏLƏR DAĞI** – Culfa r-nu ərazisində dağ. Təpələr silsiləsinin c.-ş. yamacında, Kərimqulu Dizə k.-ndən 1 *km* c.-q.-dədir. Hünd. 987 *m*.

**"TƏRBİYƏ"**, "M ə k t ə b i - t ə r b i y ə" – M.T.Sidqinin Naxçıvan ş.-ndə təsis etdiyi ibtidai məktəb (1894). Məktəbdə dünyəvi fənlərin tədrisinə ciddi fikir verilir, ana dili ilə yanaşı, rus dili və ədəbiyyatı da öyrədilirdi. 1896 ildə məktəb üçün yeni bina tikilmişdi. Onun inşasına H.Z.Tağıyev, gen.-leytenant İsmayıl xan Naxçıvanski yaxından köməklik göstərmişdilər. Məktəb az vaxtda Naxçıvanın ədəbi-mədəni həyatının mərkəzlərindən birinə çevrilmişdi. Burada yerli ziyalıların iştirakı ilə teatr tamaşaları göstərilir, ədəbi əsərlərin müzakirəsi keçirilir, yubiley gecələri təşkil olunurdu. A.S.Puşkinin anadan olmasının





*Tənənəm kəndi və körpüsü.*

100 illiyi münasibətilə keçirilən yubiley gecəsində (26 may, 1899 il) M.T.Sidqi şairin həyat və yaradıcılığı haqqında məruzə etmişdir (1914 ildə ayrıca kitabça halında nəşr olunmuşdur). C. Məmmədquluzadə "T." məktəbini "yeniyetmə müəllim və ədiblər üçün darülürfan" adlandırmışdır. Hüseyn Cavid bu məktəbdə oxumuşdur.

*Əd.:* H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**TƏVƏRƏDAĞ** – Şərur r-nu ərazisində dağ. Bax *Tavardağ*.

**TƏZƏKƏND** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 26 km şm.-q.-də, Dərələyəz silsiləsinin yamacındadır. Əh. 500 nəfər (2000); taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, məscid var. Yaxınlığında son Tunc və ilk Dəmir dövrünə aid (e. ə. 2-1-ci minilliklər) yaşayış yeri və nekropol var.

Vaxtilə Əznəbürt (indiki Çalxanqala) k.-ndə yaşamış azərb.-lı ailələr 1918 ildə ermənilərin törətdikləri qırğın ilə əlaqədar köçərək, indiki kəndin yerində məskunlaşmış və kənd yeni salındığına görə T. adlandırılmışdır.

**TƏZƏKƏND** (keçmiş adı S ə r d a r a b a d) – Şərur r-nunda kənd. Püsyan bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 29 *km* aralı, Bakı–İrəvan d. y.-ndan c.-da, Araz çayı yaxınlığındadır. Əh. 250 nəfər (2000); maldarlıq və əkinçiliklə məşğuldur.

**TƏZƏKƏND** – Şərur r-nunda, eyniadlı kəndin şm.-ş.-ində orta əsrlərə aid yaşayış yeri. Əsas sahəsi əkin yerinə çevrilmişdir; qalan hissəsinin sah. 2 *ha*-dır. Yaşayış yerinin mərkəzi hissəsi yer səthindən 1–1,5 *m* hünd.-də olan təpə şəklindədir (mədəni təbəqənin qalınlığı 1–2,5 *m*). Bəzi yerlərdə aşınma nəticəsində dağılmış mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, gil qab (küpə, dolça, çıraq, çölmək və kasa tipli qablar) sınıqları, osteoloji və tikinti qalıqları ilə zəngindir. Şirli saxsı məmulatı kasa və nimçə tipli qablardan ibarətdir. Abidənin 7–17 əsrlərə aid olması ehtimal edilir.

T.–Şahtaxtı kəndləri ərazisindən Dəmir dövrünə aid nazik tunc təbəqədən hazırlanmış, üzərində mifiq-hərbi səhnələr təsvir edilmiş tunc kəmər tapılmışdır (1983).

*Əd.:* N o v r u z l u Ə.İ., B a x ş ə l i y e v V. B., Şərurun arxeoloji abidələri, B., 1993.



Təzəkənd. Tunc kəmər. E. ə. 8–7 əsrlər.

**TƏZƏKƏND GİL YATAĞI** – Babək qəs.-ndən c.-q.-dədir. Geoloji quruluşunda Üst Dördüncü dövrün allüvial-prolüvial çöküntüləri – tünd-boz rəngli gilcə iştirak edir. Sah. 1,6 $km^2$, gilcənin qalınlığı 4,7 *m*-ə qədərdir. Gilcədən aqloparit və kərpic istehsalında istifadə etmək olar. Yatağın sənaye ehtiyatı 7,3 mln. $m^3$ təşkil edir.

**TİRKEŞ** – Şahbuz r-nu ərazisində dağ. Naxçıvançay dərəsindən şm.-q. istiqamətdə uzanan Girdəsər silsiləsinin suayırıcında zirvə. Tirkeş k.-ndən 1 km c.-ş.-dədir. Hünd. 1409 m. Şm.-ş. yamacı sıldırımdır.

**TİRKEŞ** – Babək r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. Mənsəbindən 34 *km* məsafədə ona tökülür. Uz. 10 *km*, hövzəsinin sah. 30 $km^2$-dir. Əsasən yağış, qismən qar və qrunt suları ilə qidalanır.

**TİRKEŞ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 13 *km* c.-q.-də, dağətəyi ərazidədir. Əh. 381 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var.

**TİRKEŞ NEKROPOLU** – Şahbuz r-nunda eyniadlı kəndin ərazisində orta əsrlərə aid arxeoloji abidə. Qəbirüstü sinə daşları və başdaşılarının əksəriyyəti sınıb dağılmışdır. Üç ədəd qoç fiqurunun ikisi sadə formalıdır, üçüncünün bir tərəfində cızma üsulu ilə əyri xətlər çəkilmişdir. Arxeoloji qazıntılar zamanı mədəni təbəqədən tapılmış xəncər qalıqları abidənin 15–16 əsrlərə aid olmasını göstərir.





**TİVİ** – Ordubad r-nu ərazisində çay. Gilançayın (Arazın qolu) sol qolu. Xəzəryurd d.-nın ətəyindən, 2980 *m* hünd.-dən başlanır. Uz. 9 *km*. Yeraltı sular və qar suları ilə qidalanır.

**TİVİ** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən təqr. 60 *km* şm.-ş.-də, Ordubad–Bist avtomobil yolunun kənarında, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 1306 nəfər (2000); bağçılıq, əkinçilik, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var. Dağların cənnət guşəsi sayılan T. saysız-hesabsız mineral su ocağıdır. Burada son Tunc və antik dövrlərinə aid maraqlı abidələr (nekropol və yaşayış yeri) vardır. *Gəmiqaya rəsmləri* T. k.-nin şm.-ş.-ndədir.

**TİVİ MİNERAL SU BULAĞI** – Ordubad r-nu ərazisində, Tivi k.-nin ətrafındadır. Bir neçə çıxışdan ibarətdir.

Balneoloji tərkibi:

$$CO_2 1{,}5\,M\,4{,}4\,\frac{HCO_3 72 SO_4 15 Cl 13}{Ca 53 Mg 33 (Na+K) 14},$$

$$\cdot\, pH\,5{,}7\ \ D\,2000\, m^3/gün\ \ T\,9°C$$

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, kalsiumlu-maqneziumludur. "Narzan" tiplidir. Daxili xəstəliklərin müalicəsində istifadə etmək məsləhətdir.

**TİVİ NEKROPOLU** – Ordubad r-nunun Tivi k. yaxınlığında antik dövrə aid arxeoloji abidə. 1968 ildə qeydə alınmışdır. Sah. təqr. 2 *ha*. Daş qutu tipli qəbirlərdən ibarətdir. Qəbirlər düzbucaqlı formada olub, şm.-dan c.-a, q.-dən ş.-ə doğru istiqamətlənmişdir; yan divarları yonulmamış kobud daşlardan, üstü isə 2, yaxud 3 iri daş plitə ilə qurulmuşdur. Qəbirlərin bir qismi aşınma nəticəsində, digərləri isə təsərrüfat işləri görülərkən dağılmışdır. Aşkar olunmuş materiallar sadə gil qab məmulatından və antik dövr üçün xarakterik olan tunc üzük, müxtəlif sırğalar, əqiqdən hazırlanmış muncuqlardan ibarətdir. Tapıntılara əsasən abidə e. ə. 3–2 əsrlərə aid edilir.



Tofiq Mahmud

**TOFİQ MAHMUD** (Tofiq Mahmud oğlu M e h d i y e v i n ədəbi adı; 6.11.1931, Şahbuz r-nu – 11.4.1997, Bakı) – şair, nasir, jurnalist. Azərb. komsomolu mükafatı laureatı (1984). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1954). "Göyərçin" uşaq jurnalının redaktoru olmuşdur (1976 ildən ömrünün sonunadək). "Yola çıxıram" (1959), "Buzovna qayaları" (1963), "Açıqdır pəncərəm" (1966), "Ana qucağı" (1971), "Ulduzlar, düşüncələr" (1977), "Məhəbbətim sirr deyil" (1981), "Yağış yağır dənizə" (1985) və s. şer və poema topluları nəşr edilmişdir. Hekayə və povestlərin ["Pəncərəyə toxunan budaq" (1978), "Yerə dağılan muncuqlar" (1983) və s. kitabları] müəllifidir. "Uzaqda ucalan dağlar" povesti Azərb.-ın ilk professional rəssamı Bəhruz Kəngərlinin həyatından bəhs edir. "Zəlzələ" dramı, tərcümələri var. T.M. uşaq şairi kimi də tanınır: "Kəpənək gözəlliyi" (1980) toplusu və s. Azərb. Yazıçılar Birliyi uşaq və gənclər ədəbiyyatı şurasının, Respublika Uşaq Fondu Bakı şöbəsinin sədri idi.

Ə s ə r l ə r i: Bu işıqla qalacağam (şerlər və poemalar), B., 1985; Gecə qapı döyülür (povestlər və hekayələr), B., 1988.

**TOĞLUGƏDİK AŞIRIMI** – Ordubad r-nu ərazisində aşırım. Zəngəzur silsiləsinin c.-q. yamacında, Parağaçayla Düylünçayın yuxarı axınlarının suayırıcındadır. Hünd. 2684 *m*.

**TOĞLUQAYA**, T o ğ r u q a y a – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında zirvə. Hünd. 2905 *m*. Konusvarı formalı olub, Alt Pliosen yaşlı püskürmə mərkəzidir. Yamacları sıldırımdır.

**TOXLUCA SİLSİLƏSİ** – Culfa r-nu ərazisində dağ silsiləsi. Qaradərə çayının orta axınında, c.-ş.-də sağ sahildən başlayaraq, şm.-q. istiqamətində uzanır. Uz. 5 *km*. Ən yüksək zirvələri: 1200, 1097, 1046 *m*. C.-q. yamacı sıldırımdır.

**TOPA QALASI** – Şərur r-nunun Axura k.-ndən ş.-də, Havuş k.-nin c. tərəfində, hündür dağ zirvəsində qala. Arxeoloji tədqiqatlar nəticəsində iri daşlardan inşa edilmiş qala divarlarının izləri aşkar olunmuşdur. Qala ərazisindən, əsasən, şirsiz saxsı məmulatı, həmçinin şirli qab hissələri, metal əşya qalıqları tapılmışdır. Tapıntılar 11–18 əsrlər üçün səciyyəvidir.

**TOPDAĞ** – Babək r-nu ərazisində dağ. Arazın sol sahilində, Qaraçuq qəs.-ndən 1,75 *km* c.-q.-dədir. Hünd. 787 *m*.

**TOYDAŞ DAĞI** – Babək r-nu ərazisində dağ. Naxçıvan çökəkliyinin şm.-ş. kənarında, Qaracalal–Qızılboğaz tirəsindədir. Hünd. 1312 *m*. Alt Pliosen yaşlı andezit-dasit tərkibli ekstruzivdir. Konusvarı formadadır.

**TRABZON KONFRANSI** (1918) – Osmanlı Türkiyəsi hökuməti və Zaqafqaziya Seymi (ZS) nümayəndələrinin iştirakı ilə martın 1 (14)-dən aprelin 1 (14)-dək Türkiyənin Trabzon ş.-ndə keçirilmişdir. ZS nümayəndə heyətinə 40 nəfər (o cümlədən müsavat fraksiyası üzvləri M. Hacınski, X.Xasməmmədov və Ş.Rüstəmbəyovdan, sosialist İ.Heydərov, ittihadçı M. Y. Mehdiyev, menşevik-hümmətçi Ə.Şeyxülislamzadədən ibarət Azərb. qrupu) daxil idi. Türkiyə nümayəndə heyətinə (7 nəfər) xarici işlər naziri Hüseyn Rauf bəy başçılıq edirdi. ZS Birinci dünya müharibəsindən əvvəlki Rusiya–Türkiyə sərhədlərinin bərpa edilməsi, Türkiyə Ermənistanına muxtariyyət verilməsi və s. şərtlərlə sülh müqaviləsi bağlamağa cəhd göstərsə də, bu şərtlər qəbul edilmədi. Türkiyə tərəfi Brest–Litovsk müqaviləsinin (1918) tanınmasını və bu müqaviləyə əsasən Qarsın, Ərdəhanın və Batumun dərhal boşaldılmasını, danışıqlar aparmaq üçün hüquqi şəxs kimi tanınmaqdan ötrü Zaqafqaziyanın müstəqilliyinin elan olunmasını tələb etdi; danışıqlar zamanı Axalsix və Axalkələk qəzalarının bir hissəsinin müsəlman əhalisi nümayəndələrinin adından bu qəzaların Türkiyəyə birləşdirilməsini tələb edən sənəd Türkiyənin təkidi ilə gündəliyə daxil olundu. Danışıqlar getdiyi bir vaxtda türk qoşunlarının hərbi əməliyyatları davam etdirərək irəliləməsi şəraitində martın 29-da(10 aprel) menşevik A. Çxenkeli Brest-Litovsk sülhünü danışıqların əsası kimi qəbul etdi və Batum istisna olmaqla digər ərazilərin türklərə verilməsinə razı oldu. Lakin Türkiyə nümayəndə heyəti Batumun da onlara verilməsini tələb etdi. Yaranmış mürəkkəb şəraitdə ZS-nin Azərb. fraksiyasının münaqişəni dinc yolla aradan qaldırmaq tələblərinə baxmayaraq, seymin qeyri-müsəlman çoxluğu aprelin 14-də Türkiyəyə müharibə elan etmək lehinə səs verdi və T.k. uğursuzluqla başa çatdı. 1918 ilin mart-aprelində Bakıda və Azərb.-ın digər ş.-lərində Bakı Sovetinin erməni-daşnak bolşevik rəhbərliyinin azərb.-lara qarşı törətdiyi qanlı soyqırımı hadisələrinə münasibətdə ZS-nin passiv mövqe tutması da T.k.-nın iflasında mühüm rol oynadı. 1918 il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında ZS-nin geniş iclası müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığını elan etdi [bax, *Batum konfransı (1918)* və *Batum müqaviləsi* məqalələrinə].

*Əd.:* M i r z ə B a l a M ə m m ə d z a d ə, Azərbaycan milli hərəkatı, B., 1992; Azərbaycan Cümhuriyyəti (1918–1920), B., 1998.

**TULUM** – nəfəsli xalq çalğı aləti. Qədim və orta əsrlərdə Naxçıvanda geniş yayılmışdı. Dəri və ağac hissələrdən ibarətdir. Aşılanmış çəpiş dərisinin ayaq çıxıntıları kəsilir, sonra boğaz və ayaq hissələri tikilib iplə bağlanır. Qol dərisinin birinə ağac, digərinə lülə sümüyü bərkidilir. Ağacın yonulmuş daxili tərəfinə iki qamış bağlanır. Qamışların üzərində çalğı üçün 6–7 deşik açılır, onların baş tərəfinə qarğıdan sümsü (dil) taxılır. Çalğı zamanı dəri lülə sümüyü tərəfindən üfürülür və hava ilə dolaraq şişirdilir. Qol altına sıxılan dəridəki hava sümsünün dil hissəsini titrədib ehtizaza gətirir, nəticədə uca zil səs alınır.





İfa zamanı barmaqları qamışdakı deliklər üzərində gəzdirməklə istənilən melodiyanın səslənməsinə nail olmaq mümkündür. Tulumçunu, adətən, nağaraçı müşayiət edir. Naxçıvan (xüsusilə Şərur, Babək) bölgəsinin böyük şöhrət qazanmış tulumçuları Bakıda, Moskvada və keçmiş SSRİ-nin bir sıra ölkələrində keçirilmiş musiqi festivallarında dəfələrlə mükafat almışlar.

*Əd.:* Naxçıvanın musiqi tarixinin yadigarı – tulum. Naxçıvan tarixinin səhifələri (məqalələr məcmuəsi), B., 1996.

**TUMASLI** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-da, düzənlikdədir. Əh. 607 nəfər (2000); əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb, xəstəxana, uşaq bağçası, klub, kitabxana var.

**TUMBUL** – Babək r-nu ərazisində çay. Naxçıvançayın gətirmə konusunda ondan ayrılan və bir qədər axdıqdan sonra yenidən ona birləşən kiçik axardır. Uz. 6 *km*. Suvarma kanalı kimi istifadə edilir.

**TUMBUL**– Babək r-nunda kənd. Tumbul bələdiyyəsinin mərkəzi. R-n mərkəzindən 8 km c.-da, Naxçıvan düzündədir. Əh. 1350 nəfər (2001); əsasən üzümçülüklə məşğuldur. Şüşə qablar və pivə z-dları, orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**TUMBUL GİL YATAĞI** – Babək r-nu ərazisində, Tumbul k.-nin c.-ş.-ində, Bakı–Naxçıvan d.y.-nun sağ tərəfindədir. Geoloji quruluşunda Orta Miosenin Karaqan mərtəbəsinin gil və argillit layları iştirak edir. Sah. 3,0 $km^2$, faydalı qatın qalınlığı 4,7 *m*-dir. Yatağın sənaye ehtiyatı 14,1 mln. $m^3$ təşkil edir.

**TUMBUL PİVƏ ZAVODU** – yeyinti sənayesi müəssisəsi. Naxçıvan ş.-nin inzibati ərazi vahidliyinə aiddir. Naxçıvan ş.-nin c.-q.-ndə, 1968 ildən fəaliyyət göstərir. Z-dun istehsal prosesləri, əsasən, mexanikləşdirilmiş və avtomatlaşdırılmışdır. Spirtsiz içkilərin istehsalı ilə də məşğul olur.

**TUSİ** Nəsirəddin – Azərb. ensiklopediyaçı alimi, dövlət xadimi. Bax *Nəsirəddin Tusi*.

**TUTAYUK** Murad Xaspolad oğlu (2.5.1904, Şuşa ş. – 23.3.1970, Naxçıvan ş.) – maarif xadimi. Nax. MR (1955) və Azərb. Respublikası (1966) əməkdar müəllimi. Qabaqcıl maarif xadimi. Şuşa Realnı Gimnaziyasını (1920) və Azərb. Ali Pedaqoji İn-tunun (indiki APU) fizika-riyaziyyat fakültəsini (1925) bitirmişdir. Naxçıvan Pedaqoji Texnikumunda müəllim və tədris hissə müdiri (1925–39), Naxçıvan Müəllimlər İn-tunda müəllim (1940–48; 50–54) və tədris işləri üzrə direktor müavini (1940–48), Naxçıvan Elmi Bazasının direktoru (1948–50), 3 №-li Naxçıvan şəhər orta məktəbində müəllim və tədris hissə müdiri (1954–66), Naxçıvan Pedaqoji Məktəbində pedaqogika və psixologiya müəllimi (1966–68) işləmişdir. Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

**TÜLKÜTƏPƏ** – Babək r-nu ərazisində dağ. Qahab k.-ndən 2,5 *km* c.-dadır. Hünd. 976 *m*.

**TÜRKMƏNÇAY MÜQAVİLƏSİ (1828)** – 19 əsrin əvvəllərində Rusiya–İran müharibələrini başa çatdırmış, bununla da Azərb.-ın bölüşdürülməsini rəsmiləşdirmiş müqavilə; fevralın 10 (22)-da Təbriz yaxınlığındakı Türkmənçay k.-ndə bağlanmışdır (adı buradandır). 16 maddədən ibarət T. m.-nə əsasən Cənubi Qafqaz əraziləri, o cümlədən Şimali Azərb. Rusiyaya birləşdirildi, Cənubi Azərb. torpaqları isə İranda qaldı. T. m -nin 3-cü maddəsinə əsasən Araz çayının o tayı və bu tayı üzrə İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasının tam mülkiyyətinə keçdi. T.m.-nin 15-ci maddəsinə və ona əsasən milliyyətcə erməni olan N.Lazerevə verilən təlimata müvafiq olaraq İrandan Şimali Azərb.-a, ilk növbədə isə İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur mahallarına çoxlu erməni ailəsi köçürüldü. Bir çox qaynaqlarda aşkarlandığı kimi, T.m.-nin imzalandığı ərəfədə Naxçıvan əyalətində 2791 "müsəlman türkü" (azərb.-lılar) və yalnız 434 erməni ailəsi olmuşdusa, sonrakı köçürmələr nəticəsində azərb.-lıların üstünlüyü qalsa da, bu nisbət xeyli dəyişmişdi. 1916 il yanvarın 1-nə olan statistik məlumatlara görə həmin dövrdə Naxçıvan qəzasında azərb.-lılar 81708 nəfər (50,0%), ermənilər 54209 nəfər (40,0); Şərur–Dərələyəz qəzasında azərb.-lılar 60183 (66,7%), ermənilər 29165 nəfər (32,3%); Zəngəzur qəzasında azərb.-lılar 123,1 min nəfər (55,0%); ermənilər 99,2 min nəfər (44,3%). Sürməli qəzasında azərb.-lılar 66370 nəfər (63,6%), ermənilər 32686 nəfər (31,2%) təşkil etmişlər.

# U

**UCAGÜNEY DAĞI** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Gilançayla Parağaçayın suayırıcındadır. Hünd. 1576 *m*. Biləv k.-ndən 1 *km* şm.-ş.-dədir. Günbəzvarı formadadır.

**UÇURDAĞ** – Ordubad r-nu ərazisində, Zəngəzur silsiləsində dağ. Vənənd və Əylis çaylarının (Arazın qolları) yuxarı axınları arasındadır. Hünd. 2572 *m*.

**ULUARX KANALI**– Culfa r-nunda suvarma kanalı. 1026 *m* hünd.-də Əlincəçaydan çəkilmişdir. Naxçıvan–Culfa avtomobil yolunadək Ərəzin və Camaldin k.-ləri arasındakı sahənin suvarılmasında istifadə edilir.

**ULULU KƏRİM** (?–?) – aşıq (19 əsr). İndiki Şahbuz r-nunun Aşağı Remeşin kəndində doğulmuşdur. Yaradıcılığında qoşma və təcnislər başlıca yer tutur. Ustadnamələri məşhurdur. Şerlərində ictimai bərabərsizlikdən, zəmanədən şikayət, dərd, qüssə-kədər motivləri ilə yanaşı, zülm və haqsızlığa qarşı etiraz da güclüdür.

**"ULUSLARARASI QAYNAQLARDA NAXÇIVAN"** – beynəlxalq elmi simpozium. Nax. MR Ali Məclisnin sədri V.Talıbovun 24 mart 1996 il tarixli sərəncamına əsasən, həmin il iyulun 11–13-də Naxçıvan Dövlət Un-tində keçirilmişdir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev simpoziumun iştirakçılarına təbrik məktubu göndərmişdir. Azərb. Respublikası, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası alimlərinin iştirakı ilə keçirilən simpozium "Hər daşı, hər qayası tarixin canlı şahidi olmuş... bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin vətəni" (Heydər Əliyev) olan Naxçıvan diyarının qədim dövrlərdən başlayaraq, bu günə qədərki tarixinin ən müxtəlif problemlərinin xalqın milli mənafeyi baxımından, obyektiv şəkildə araşdırılmasında mühüm rol oynamışdır. Simpoziumda elmi-nəzəri səviyyəsi, faktik materialın yeniliyi və zənginliyi ilə seçilən, son tədqiqatların nəticəsi olan 50-dən artıq məruzə dinlənilmişdir. Məruzələrin xülasəsi "Naxçıvan tarixinin səhifələri" (B., 1996) adlı ayrıca kitab halında nəşr olunmuşdur.

**UNUS** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 33 *km* şm.-q.-də, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 715 nəfər (2000); meyvəçilik, əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi, kitabxana var.

**URARTU** (Assuriya dilində; Urartu dilində – B i a y n i l i) – e. ə. I-ci minilliyin əvvəlində Ön Asiyada dövlət. Van gölü ətrafındakı r-nlarda yerləşirdi. Urartu dili, ona yaxın olan hürri dili ilə birlikdə Qafqaz dillərinin şərq qoluna aid edilir. Ən qüdrətli dövründə dövlətin sərhədi şm.-da Göyçə gölünə, ş.-də Urmiya gölünə, c.-q.-də Dəclə çayına və Fərat çayının yuxarı axarına çatırdı. Assuriya mənbələrində Uruatri–Nairi tayfa ittifaqı ilk dəfə e. ə. 13 əsrdə xatırlanır. E. ə. 9 əsrdə mərkəzləşmiş dövlət yarandı. Dövlətin paytaxtı Tuşpa ş. (indiki Türkiyənin Van ş.) idi. U. çarı I Sardurinin ilk yazısı Assuriya dilindədir. I Sardurinin oğlu İşpuininin dövründə Urartu dilində yazılar meydana gəldi (U. yazısının əsasında Assuriya mixi yazıları dururdu). İşpuini və oğlu Minuanın zamanında urartuluların c.-ş.-ə doğru işğalçılıq yürüşləri başladı. Urartuluların baş allahı Xaldiyə sitayiş mərkəzi – o vaxt Assuriyanın əlində olan Ardini (Musasir) ş., həmçinin Urmiya gölünün c. q. sahilindəki bölgələr tutuldu. Dövlətin şm. sərhədləri Araz çayına





sonra isə Göyçə gölünə qədər genişləndirildi. Həmin çarlar o vaxt Culfa ətrafı ərazilərə də basqın etmiş və bu haqda İlandağ qayalarında öz mixi yazılarını həkk etmişlər. U.-nun ən qüdrətli dövrü çar I Argiştinin Xorxor salnaməsində təsvir olunmuşdur. I Argişti güclü Manna dövləti və Cənubi Qafqaz tayfaları, Şimali Mesopotamiya torpaqları uğrunda Assuriya ilə mübarizə aparırdı. II Sarduri [e. ə. 764–730] işğalçılıq siyasətini davam etdirsə də (Urmiya gölündən şm.-da Puluadi ölkəsini tutmuşdu), dəfələrlə üsyan qaldırmış bölgələri sakitləşdirməli olmuşdu. II Sardurinin oğlu I Rusanın dövründə [e. ə. 740–714] U. tədricən tənəzzül edirdi. O, U.-dan ayrılan vil.-lərə, şm.-dan hücum edən skif-kimmeri tayfalarına və əsas rəqibi olan Assuriyaya qarşı mübarizə aparırdı. I Rusa Göyçə gölü ətrafında qalxan üsyanları yatırtmış və Kiçik Qafqazda yerləşən 19 ölkəni özünə tabe etmişdi. Lakin Assuriya çarı II Sarqonun e. ə. 714 ildə vurduğu zərbə U.-nun işğalçılıq siyasətinə son qoydu. I Rusanın oğlu II Argişti [e. ə. 714–685] Assuriya ilə həmsərhəd vil.-lərdə müharibə aparmaq iqtidarında deyildi və ş.-dəki keçmiş ərazilərini yenidən tutmağa çalışırdı. Sərab və Ərdəbil ş.-ləri arasında tapılmış iki yazıda bu barədə məlumat verilir. II Rusanın hakimiyyəti haqqında məlumat azdır. O, q.-də bəzi vil.-ləri tabe etmək üçün müharibələr aparmış və şm.-da mövqeyini möhkəmləndirmişdi. İnzibati-təsərrüfat və dini mərkəz Teyşebaini ş.-ni II Rusa saldırmışdı. Sonuncu U. çarları III Sarduri, IV Sarduri, Erimena, III Rusa və IV Rusanın adlarına yalnız arxeoloji tapıntılardakı yazılarda rast gəlinir. Assuriya mənbələrinə görə, U. artıq Assuriyanın müttəfiqi və hətta ondan asılı idi. E. ə. 6 əsrdə U.-nu Midiya işğal etdi. U. üç əsr ərzində Ön Asiyanın ən qüdrətli dövlətlərindən olmuşdur. Dövlətin başında irsi hakimiyyətə malik çar dururdu. Ölkə canişinlərin başçılıq etdiyi vil.-lərə bölünmüşdü. Geniş suvarma sistemi təsərrüfatın başlıca sahələri olan əkinçilik, bağçılıq və üzümçülüyün inkişafına şərait yaratmışdı. Maldarlıq və atçılıq da yayılmışdı. Arxeoloji qazıntılar zamanı (Van, Karmir–Blur, Arin-Berd və s.) əhalinin mədəniyyəti və incəsənəti barədə məlumat verən zəngin materiallar tapılmışdır. U.-da tikinti işləri və metal emalı yüksək inkişaf etmişdi. Urartulular bir çox allaha sitayiş edirdilər (Xaldi, Teyşeba, Şivini və s.).

*Əd.* История СССР, т.1, М., 1966, с. 177–191; Д ь я к о н о в И. М., Ассиро-вавилонские источники по истории Урарту, "Вестник древней истории", 1951, № 2–4; y e n ə o n u n, Урартские письма и документы, М.-Л., 1963; М е л и к и ш в и л и Г. А., Древневосточные материалы по истории народов Закавказья, т. 1: Наири-Урарту, Тбилиси, 1954; y e n ə o n u n, Урартские клинообразные надписи, М., 1960; П и о т р о в с к и й Б. Б., Ванское царство (Урарту), М., 1959; А р у т ю н я н Н. В., Биайнили, Ереван, 1970.

**URMUS** – Ordubad r-nun dağətəyi ərazisində yerləşən *Rumus* k.-nin el arasındakı adı. Hazırda kənddə yaşayış yoxdur.

**URUD**, U r u t – tarixi Azərbaycan ərazisi *Zəngəzurda* kənd. 20 əsrin əvvəlində də əhalisi azərb.-lılardan (1905 ildə 435 nəfər, 1914 ildə 409, 1931 ildə 340 nəfər) ibarət idi. Erməni tədqiqatçısı A.D. Papazyan dərc etdirdiyi sənədlərdə Zəngəzurun Naxçıvana, Naxçıvanın isə Azərb.-a daxil olduğunu qeyd etmişdir. Azərb.-da sovet hakimiyyəti qurulduqdan sonra Zəngəzur mahalının bir hissəsi ilə birlikdə U. kəndi də Ermənistana qatılmışdı. 1968 ildə ermənilər kəndin adını dəyişdirərək "Vorotan" adlandırmışlar. Dağlıq Qarabağ münaqişəsi başlayandan (1988) sonra Ermənistandakı dədə-baba torpaqlarından didərgin salınan digər soydaşlarımız kimi, U. kəndinin əhalisi də doğma yurdlarından qovulmuşdur. U. qəbiristanlığındakı qoç heykəlli və sənduqə formalı məzar daşlarının üzərindəki ərəbcə kitabələrin ("min övladi avğan", "övladi avğan" – avğan nəslindəndir) və qə-











dim türk tayfalarının dini ayinlərini, məişətini, onqonlarını (maral üstündə oturdulmuş ov quşları, Tibet yak öküzləri və s.) əks etdirən təsvirlərin tədqiqi Zəngəzurda yaşamış alban (avğan) tayfalarının islamı qəbul edib müsəlmanlaşdığını göstərir. U. abidələrinin xronoloji əhatə dairəsi h. 883–1019/ h. 1475–1611 illərlə müəyyən edilmişdir. 1727 ilə aid Naxçıvan sancağının müfəssəl dəftərində ona tabe olan Dərələyəz nahiyəsinin kəndləri arasında 2910 ağça illik gəlir verən U.-un adı çəkilir. Bütün bunlar U. qəbiristanlığındakı məzarları "özününküləşdirən", onların guya Əmir Teymur istilası zamanı türkləşdirilmiş ermənilərə məxsus olduğunu iddia edən erməni "alimləri"nin saxtakarlığını sübut edir. U. qəbiristanlığındakı 15–17 əsrlərə aid azərbaycanlı qəbirlərinin ermənilərin özləri tərəfindən dağıdılaraq yerlə-yeksan edilməsi də bunu bir daha təsdiqləyir.



Məscid eyvanının şəbəkəli qapısı. 19 əsr. Usta Zeynal Nəqqaş. Ordubad şəhəri.

*Əd.*: Н е й м а т о в а М. С., Еще раз об урудских памятниках. Azərb. EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1985, № 4; y e n ə o n u n, Корпус эпиграфических памятников Азербайджана, т.3. Арабо-персо-тюркоязычные надписи Нахичеванской Автономной Республики (XII-XX вв), Б., 2001.

**USTA ZEYNAL NƏQQAŞ** (tam adı və soyadı Kərbəlayi Zeynalabdin Əbusəid oğlu A b d u l l a z a d ə; 1839, Ordubad – 1904, orada) – şair və nəqqaş. Ordubadda, sonra isə Təbrizdə mədrəsə təhsili almış, nəqqaşlıq sənəti ilə yanaşı, ərəb-fars dillərini və klassik Şərq şerini mükəmməl öyrənmişdir. Ordubadda fəaliyyət göstərən *"Əncüməni-şüəra"* ədəbi məclisinin ən fəal və istedadlı üzvlərindən olmuşdur. Ədəbi irsindən çox az nümunələr dövrümüzədək gəlib çatmışdır. Əlyazma divanı itdiyindən yaradıcılığı haqqında ətraflı danışmaq mümkün deyil. Lakin əldə olan nümunələr göstərir ki, U.Z.N. həm klassik, həm də tənqidi-realist üslubda şerlər yazmışdır. Şerləri bədii sənətkarlıq xüsusiyyətləri, orijinal obrazları, cinas qafiyələri ilə diqqəti cəlb edir. Ə. Haqverdiyev "Dağılan tifaq" (1896) faciəsində onun "Ey əzizan, bir baxın dünyaya, ibrətxanədir" misrası ilə başlayan qəzəlinin ilk beytindən istifadə etmiş, görkəmli maarif xadimi. R. Əfəndiyev isə həmin qəzəli bədii nümunə kimi özünün "Bəsrətül-ətfal" (1901) dərsliyinə salmışdır. İctimai məzmunlu şerlərində dövrün sosial ziddiyyətləri, yoxsul camaatı iqtisadi və mənəvi əsarətdə saxlayan hakim təbəqələr tənqid olunur. Azərb.-ın digər şəhərlərində fəaliyyət göstərən ədəbi məclislərin üzvləri ilə yaradıcılıq əlaqəsi saxlamış, onlarla şerləşmiş, məktublaşmışdır. Şuşadakı "Məclisi-fəramuşan"ın üzvü Həsənəli xan Qaradağinin U.Z.N.-ın "Nə bilim" rədifli qəzəlinə bənzətmə yazması, Lənkərandakı "Fövcül-füsəha"nın başçısı M.İ.Qasirin, həmin məclisin üzvü M.Ə.Mühəqqirin və U.Z.N.-ın eyni mövzuda "Qara pul" adlı şer qələmə almaları bunu təsdiq edir. Usta Zeynal həm də mahir nəqqaş olmuş (təxəllüsü də buradandır). Ordubad, Təbriz və Tiflisdə bir sıra binanın dekorativ bəzəklərini işləmişdir. Naxçıvandakı xan sarayının və yaşayış binasının, Ordubaddakı Cümə məscidinin bəzəkləri U.Z.N.-ın ən yaxşı işlərindəndir.



*Əd.*: R ə f i y e v C., Nəqqaş və şair, "Elm və həyat" jurnalı, 1979, № 8.

**UŞAQ VƏ GƏNCLƏR İSTİRAHƏT PARKI,** H e y d ə r Ə l i y e v ad. – Naxçıvan ş.-ndə, İstiqlal küçəsində yerləşir. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 75 illiyi şərəfinə salınmış və 1998 ilin may ayında istifadəyə verilmişdir. 3 *ha* sahəni əhatə edən parkda ticarət və iaşə obyektləri, "Venesiya" su kanalı, süni şəlalə, müxtəlif idman və əyləncə meydançaları vardır.



Uşaq və gənclər istirahət parkı. 1998. Naxçıvan şəhəri

**UZUNDAĞ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin c.-q. yamacında, Düylünçayla Vənəndçayın suayırıcında zirvə. Vənənd k.-ndən 1 *km* q.-dədir. Hünd. 1109 *m*.

**UZUNOBA NEKROPOLU** – Babək r-nunun Yuxarı Uzunoba k. yaxınlığında, Naxçıvançayın sağ sahilində arxeoloji abidə. 1972 ildə aşkar edilmişdir. Müxtəlif dövr qəbir abidələrindən ibarətdir: Orta Tunc dövrünə aid qəbirlər q.-dən ş.-ə doğru istiqamətlənmişdir. Nekropolda küp qəbirlərə də rast gəlinmişdir. Küp qəbirlərdən birinin içərisindən insan skeletinin qalıqları və xırdabuynuzlu heyvan sümükləri aşkar edilmiş, ətrafından isə küpə tipli qab tapılmışdır. Tədqiqatlara əsasən, U. n.-nun e. ə. 3-1-ci minilliklərə aid olması ehtimal edilir.

**UZUNOBA SU ANBARI** – Babək r-nu ərazisindədir. 1961 ildə istifadəyə verilmişdir. Suyunu uz. 13 *km* və sukeçirmə qabiliyyəti 1,5 $m^3/san$ olan kanallar vasitəsilə Naxçıvançaydan və onun qolu Cəhri çayından alır. Sah. 1,2 $km^2$, faydalı həcmi 8,5 mln. $m^3$-dir. Bəndin uz. 1,9 *km*, hünd. 17,5 *m*. Min *ha*-dək sahənin suvarılmasında istifadə edilir. Mövsümi tənzimləməyə malikdir.

# Ü

**ÜÇBULAQ** – Babək r-nunun keçmiş Sust k.-nin q.-ndə son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1979 ildə Naxçıvan Arxeoloji Ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Sah. təqr. 3 *ha*. 3 *m* qalınlığında nəhəng mədəni təbəqə müəyyənləşdirilmişdir. Mədəni təbəqə kül qarışıq gil laylarından ibarətdir. Buradan tikinti qalıqları, keramika və daş məmulatı, həmçinin xırdabuynuzlu heyvan sümükləri tapılmışdır. Kəşfiyyat axtarışları nəticəsində xeyli miqdarda boz və qara rəngli gil qab məmulatı, dən daşları, həvəng və dəstələr, sürtgəclər, çaxmaqdaşı və obsidian (dəvəgözü) qırıntıları, digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılar e. ə. 2–1-ci minilliklərə aid edilir.

**ÜÇQARDAŞ DAĞI** – Şahbuz r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 2689 *m*. Konusvarı formadadır və püskürmə mərkəzidir.

*Ümid körpüsü. 1992.*



**ÜÇTƏRƏNGİ**, H ü ş t ə r ə n g i – Ordubad ş.-ndə qədim məhəllə. Gənzə çayının ş. sahilindədir. 18 əsrin əvvələrindən Naxçıvan sancağının tərkibinə daxil olan Azadciran nahiyəsindəki Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, çeşmə, dükanlar və s. tarixi memarlıq tikililəri var.

**ÜMİD KÖRPÜSÜ**, H ə s r ə t k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 paqonometr). Türkiyə ilə Azərb. arasında sərhəddə (Türkiyənin Dilucu və Azərb.-ın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 1992 il may ayının 26-da Nax. MR Ali Məclisinin sədri Heydər Əliyevin və Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəlin iştirakı ilə açılmışdır. Körpünün açılışında Heydər Əliyev demişdir: "Bu körpü, həqiqətən, bizim ümid və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir." 90-cı illərin əvvəllərində Nax. MR-in keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə məruz qaldığı nəqliyyat blokadasının aradan qaldırılmasında körpünün müstəsna rolu olmuşdur. Naxçıvan–İstanbul avtobus marşrutu Ü. k.-ndən keçir.

**ÜSTÜPÜ** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 36 *km* şm.-q.-dədir. Əh. 1121 nəfər (2000); meyvəçilik, əkinçilik, heyvandarlıq və arıçılıqla məşğuldur. Orta məktəb, uşaq bağçası, klub, kitabxana var.

**ÜSTÜPÜ KÖRPÜSÜ** – Ordubad r-nunda qədim körpü. Üstüpü k.-nin 18 *km*-də, Düylünçayın üzərindədir. Uz. 10 paqonometr. 18 əsrin sonu – 19 əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Yüksək inşaat texnikası səviyyəsində tikilmiş körpü milli memarlıq



xüsusiyyətlərini və möhkəmliyini qoruyub saxlamışdır. Hörgüsündə adi yerli daşdan istifadə edilmişdir. Körpünün yenidən qurulması nəticəsində (1996) Məzrə, Üstüpü k.-ləri magistral yola çıxış əldə etmişdir..

**ÜSTÜPÜÇAY** – Ordubad r-nu ərazisində çay. Dülünçayın (Arazın qolu) sol qolu. Zəngəzur silsiləsinin c.-q. yamacından, 2250 *m* hünd.-dən başlanır. Qar, yağış suları və yeraltı sularla qidalanır.

**ÜSULİ-CƏDİD** (ərəbcə: yeni üsul) – Azərb.-da məktəb və mədrəsələrdə tətbiq edilən yeni tədris üsulu, mütərəqqi pedaqoji cərəyan. 19 əsrin ikinci yarısında yaranmışdı. Ü.-c. məktəblərində dərslər ana dilində keçirilir, tədris planına ümumtəhsil xarakterli dünyəvi fənlər də daxil edilirdi. Bu məktəblər dünya elm və mədəniyyətinin yayılmasında mühüm rol oynayırdı. Onlarda dövrün qabaqcıl ziyalıları dərs deyirdi. Azərb.-da ilk Ü.-c. məktəbini 1870 ildə Şamaxıda görkəmli şair və maarifçi S.Ə.Şirvani açmışdır. Sonralar Azərb.-ın digər bölgələrində, o cümlədən Naxçıvanda da belə məktəblər təsis olunmuşdu. Görkəmli maarif xadimi M.T.Sidqinin Ordubadda açdığı *"Əxtər"*, Naxçıvanda təsis etdiyi *"Tərbiyə"* ("Məktəbi-tərbiyə") məktəblərinin diyarın xalq maarifi tarixində mühüm xidməti olmuşdur. Həmin məktəblərin təşəkkülündə və fəaliyyətində Hüseyn Soltan Kəngərli, Əhməd İsmayılov, Hüseyn Mirzə Xəlil Salehzadə, Soltan Hacıbəyzadə, Əsgər Hüseynzadə kimi dövrünün mütərəqqi ziyalı və gözüaçıq adamları yaxından iştirak etmişlər.

# V

**VASPURAKAN**, B a s o r o p e d a – əsasən, Van gölünün c.-q.-indəki və Urmiya (Rezaiyyə) gölünün şm.-q.-indəki torpaqlardan başlanıb, indiki Nax. MR-in c.-q. hissəsini əhatə edən əraziyə qədərki bölgədə tarixi vil. V. torpaqları e. ə. 2 əsrin əvvəllərinədək Atropatenaya məxsus idi. Buna görə də bəzi mənbələrdə V. Şimali (və ya Yuxarı) Midiya da adlanırdı. Strabonun məlumatına görə e. ə. 2 əsrin əvvəllərində Ermənistan çarları midiyalıların hakimiyyəti altında olan bəzi torpaqları tutmuşdular. Güman ki, V. da həmin dövrdə işğal edilmişdi. Sonralar V. gah müstəqil, gah Parfiya Arşakilərinin, daha sonralar isə Sasanilərin tabeliyində olmuşdur. Son tədqiqatlara görə, V. adı 6–7 əsrlərdən tez olmayaraq meydana gəlib. 591 il Bizans–İran müqaviləsinə görə V., eləcə də Sünik və Dvin siyasi baxımdan İrana tabe edildi. Alban əyaləti Sünikin vilayətlərindən olan Naxçıvan və Qoğtən (Ordubad ərazisi) də bu tarixdən V.-ın tərkibinə qatıldı. Mihranilər sülaləsinin Albaniyada dövlətçiliyi bərpa etmələri ilə (7 əsrin 30-cu illəri) Naxçıvan və Qoğtən yenidən Albaniyanın tabeliyinə keçdi. 7 əsrin 2-ci yarısında başlanan ərəb istilaları nəticəsində yaranan Ərəb xilafətinin tərkibinə daxil edilmiş V. ərəb mənbələrində Basfurracan (B u s f a r a c a n) adı ilə qeydə alındı. Ərəb istilalarına xüsusi əsər həsr etmiş tarixçi əl-Bəlazurinin (9 əsr) məlumatına görə Basfurracan ərəblərin Cənubi Qafqazda tutduqları yerləri özündə birləşdirən yeni inzibati-ərazi bölgüsünə daxil edilmişdi. Burada və digər ərəb mənbələrində həmin bölgüyə əsasən Nəşavə (Naxçıvan) Arran vilayətinə aid edilən Basfurracanın əsas şəhəri adlandırıldı. 9 əsrdə Naxçıvan Azərb.-ın digər bölgələri ilə birlikdə Sacilər dövlətinin tərkibinə daxil edildi. V. isə erməni feodal nəsli Artsrunilərin xanədanına çevrildi. 11 əsrin 1-ci yarısında adı çəkilən xanədan Bizans imperiyasına qatıldı.

**VAYXIR**, K ö h n ə V a y x ı r – Babək r-nunda, eyniadlı kənddən 1 *km* ş.-də orta əsrlərə aid yaşayış yeri. 1967 ildə qeydə alınmışdır. Sah. 5 *ha*, mədəni təbəqənin qalınlığı 1,5 *m*-dir. Abidə yamacda yerləşdiyindən mədəni təbəqə güclü aşınmaya məruz qalmışdır. Yaşayış yerindən çoxlu şirsiz və şirli gil qab qırıqları toplanmışdır. Şirli qablar, əsasən qəhvəyi, həmçinin ağ, sarı, yaşıl rəngdə müxtəlif mövzulu həndəsi və nəbati rəsmlərlə yüksək zövqlə bəzədilmişdir. Tapıntılar V. yaşayış yerinin 9–17 əsrlərə aid olduğunu göstərir.

*Əd.:* Ə l i y e v V. H., Köhnə Vayxır orta əsr yaşayış yeri, Azərbaycanın maddi mədəniyyəti, c. 6, B., 1965.

**VAYXIR** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 21 *km* şm.-da, Naxçıvan–Şahbuz avtomobil yolunun kənarında, Naxçıvançayın sol sahilindədir. Əh. 1253 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik və quşçuluqla məşğuldur. Orta məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi, poçt şöbəsi, şm.-q.-ndə mineral su yatağı var.

**VAYXIR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* c.-da, düzənlikdədir. Əh. 630 nəfər (2000); əkinçilik və maldarlıqla məşğuldur. Bütün ictimai binaları Tumaslı k. ilə müştərəkdir.

**VAYXIR QALASI**, V a y x ı r G o v u r q a l a s ı – Babək r-nunda, Naxçıvançayın sol sahilində, eyniadlı kəndin yaxınlığında qala. Hər tərəfdən dərin yarğan, yaxud sıldırım qayalarla əhatələnmiş və təbii mühafizəyə malikdir. Qala, eyni zamanda, əlavə müdafiə istehkamı ilə də möhkəmləndirilmişdir. Müdafiə divarının həm dördkünc bürcləri,





Vayxır Govurqalasının bərpa layihəsi

həm də bucaqşəkilli çıxıntıları var. Divarlar yüngülcə yonulmuş iri qaya parçalarından hörülərək gil məhlulu ilə bərkidilmişdir. Kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmiş, bərpa layihəsi hazırlanmışdır. Qalanın e. ə. 2-ci minilliyə aid olması ehtimal edilir.

**VAYXIR MİNERAL SU YATAĞI** – Babək r-nu ərazisində, Naxçıvan ş.-ndən 18 *km* şm.-da, Vayxır k.-nin şm.-q.-ndə, dəniz səviyyəsindən 1100 *m* hünd.-dədir. Sarıdağ istiqamətində tektonik qırılmalar vasitəsilə yer səthinə çıxır. Bir neçə bulaqdan ibarət qrup təşkil edir. Mərkəzi hissədəki quyularda iki tip su aşkar edilmişdir. I tip – 1, 2, və 12 saylı quyuların suyu "Yesentuki" tipli, orta dərəcədə minerallaşmış karbon qazlı, hidrokarbonatlı–xlorlu, natriumlu–kalsiumludur. 12 saylı quyunun suyu ion tərkibinə görə fərqlənir, sulfatı yoxdur, xlor anionu isə hidrokarbonatdan artıqdır.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3\, M 6.9 \frac{HCO_3 49\, Cl 41\, SO_4 9}{(Na+K) 65\, Ca 23\, Mg 12} \cdot pH\, 6{,}5\, D\, 270\, m^3/gün\, T\, 19{,}9°C$$

II tip – 7 saylı quyunun suyu "Sirab" və "Soymi" tipli, karbon qazlı, az minerallaşmış hidrokarbonatlı-kalsiumlu-natriumludur.

Balneoloji tərkibi:

$$CO_2 1{,}3\, M 4{,}5 \frac{HCO_3 79\, SO_4 18\, Cl 13}{Ca 44\, (Na+K) 39\, Mg 17} \cdot pH\, 6{,}5\, D\, 175\, m^3/gün\, T\, 20{,}4°C$$

Yatağın istismar ehtiyatı 1972 ildə I tip üzrə 270 $m^3$/*gün*, II tip üzrə 175 $m^3$/*gün* təsdiq edildikdən sonra, 1985 ildə Naxçıvan ş.-ndə illik istehsal gücü 200 mln. şüşə olan mineral sudoldurma z-du tikilmiş, Vayxır–Naxçıvan mineral su kəməri çəkilib istifadəyə verilmişdir. 1987 ildə 31508 min şüşə "Vayxır" suyu istehsal olunmuşdur. Yatağın suyundan qaraciyər (hepatit), öd kisəsi yolları iltihabı, xroniki qastrit, xroniki kolit və s. xəstəliklərin müalicəsində istifadə oluna bilər. Ümumiyyətlə, bu tipli suların osmotik qatılığı qan plazmasının qatılığına yaxın olduğu üçün onunla müalicə daha yaxşı effekt verir.

**VAYXIR NEKROPOLU** – Babək r-nunun eyniadlı kəndindən şm.-ş.-də son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Şm.-dan c.-a doğru uzanan dar dərədə yerləşir. 1970 ildə qeydə alınmışdır. Aşınma nəticəsində düzbucaqlı formalı daş qutu tipli qəbirlər üzə çıxaraq dağıntıya məruz qalmışdır. Qəbiristanlıqdan gil qab məmulatı və obsidian (d ə v ə g ö z ü) qalıqları aşkar olunmuşdur. Cilalı boz və qara rəngli oyma naxışlarla bəzədilmiş saxsı qab qırıqları, monoxrom boyalı keramika, tuncdan aypara sırğa diqqəti cəlb edir. Qəbiristanlıq e. ə. 2–1-ci minilliklərə aid edilir.

**VAYXIR KÖRPÜSÜ** – Babək r-nu ərazisində, Vayxır–Məzrə yolunun 1 *km*-liyində, Naxçıvançayın üstündədir. Uz. 86 paqonometr. V. k.-nün bərpası nəticəsində (1997) Naxçıvan–Biçənək aşırımı ilə, Naxçıvan ş.-nə girmədən kəsə yolla Naxçıvançay sahilindəki kəndlərlə birbaşa əlaqə yaradılmışdır.

**VAYXIR MƏDƏNLƏRİ** – Babək r-nu ərazisində aşkar olunmuş qədim mədənlər. I və II Kültəpə yaşayış yerlərinin yaxınlığında oval çalalardan ibarətdir. Burada filizin saflaşdırılması nəticəsində əmələ gəlmiş süxur yığınlarının toplandığı sahədə (1,2 $km^2$) kəşfiyyat qazıntıları zamanı daş çəkic, boz rəngli gil qab qırıqları aşkar olunmuşdur. Tapıntıların e. ə. 2-ci minilliyə aid olması ehtimal edilir.

**VAYXIR SU ANBARI**, V a y x ı r d ə r y a ç a s ı – Babək r-nu ərazisində, Vayxır k. yaxınlığındadır. Suyunu kanallar vasitəsilə Naxçıvançaydan alır. Muxtar respublikada (xüsusilə Babək və Şahbuz r-nlarında) geniş miqyaslı meliorasiya və suvarma tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar tikintisinə



20 əsrin 80-ci illərinin ortalarına yaxın başlansa da, sonralar yarımçıq qalmışdı. Özəl torpaqları suvarmaq məqsədilə V.s.a.-nın tikintisi yenidən bərpa olunmuş, birinci növbəsi 1999 ildə başa çatdırılmışdır. Su səthinin sah. 4,54 *km²*-dir. Ümumi həcmi 100 mln. *m³*, faydalı həcmi isə 90 mln. *m³* olan dəryaça 10 min *ha* əkin sahəsini suvarmağa imkan verəcəkdir.

**VAYXIRLI MƏMMƏDCƏFƏR** (?, indiki Şahbuz r-nunun Tirkeş k. – ?, orada) – aşıq (19 əsrin 2-ci yarısı – 20 əsrin 30-cu illəri). Ədəbi irsindən bir neçə qoşma, təcnis, satirik şer və "Məmmədcəfər–Səhnə xanım" dastanının deyişmə hissəsi qalmışdır. Əldə olan nümunələrdən V. M.-in orijinal üsluba malik sənətkar olduğu görünür. İctimai mövzulara daha çox meyl etmiş, şerlərində ancaq şəxsi mənfəətini düşünən ruhanilərin, hakim təbəqələrin bəd əməllərini ifşa etmişdir. Onun tənqid hədəfləri real, həyati şəxslərdir (Dəmirçi k.-nin koxası haqqında həcvsayağı şeri və s.). Bu cəhət V. M.-i 19 əsrin realist-satirik Azərb. şairlərinə yaxınlaşdırır.

*Əd.:* Q ə d i m o v Ə., Aşıq Məmmədcəfər, "Şərq qapısı" qəzeti, 1977, 7 dekabr; Azərbaycan folkloru antologiyası, c.1, Naxçıvan folkloru, B., 1994.

*Vəkilov İlyas*



**VƏKİLOV** İlyas Sultan oğlu (20.3.1905, keçmiş Şərur–Dərələyəz qəzasının Cüvə k. – 2.6.1987, Bakı) – iqtisadçı və dövlət xadimi, iqtisad e. n., dosent. 1923 ildə komsomolun göndərişi ilə təhsil almaq üçün Bakıya gəlmiş, Bakı hərbi məktəbini bitirərək bölük komandiri rütbəsi almışdır (1927). Azərb. SSR Xalq Ədliyyə Komissarlığında xüsusi şöbə rəisinin müavini və rəisi işləmişdir (1927–29). Moskva Kommunist Tərbiyəsi Akademiyasında təhsilini (1929–31) başa vurduqdan sonra Azərb. SSR Dövlət Plan Komitəsi sistemində işləmiş (1931–35), ixtisasını artırmaq üçün Moskvada Ümumittifaq Plan Akademiyasında təhsilini davam etdirmişdir (1935–38). Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri olmuş (1938–49), Bakı Şəhər Soveti plan komissiyasının sədri işləmişdir (1949–78). Oktyabr inqilabı, "Şərəf nişanı" ordenləri, "Qafqazın müdafiəsi uğrunda" medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmişdir. Dəfələrlə Bakı Şəhər Sovetinin deputatı və İcraiyyə Komitəsinin üzvü, Azərbaycan KP Bakı Komitəsinin üzvü seçilmişdir.

**VƏL** – qədim kənd təsərrüfatı aləti. Azərb.-da, eyni zamanda Naxçıvan bölgəsində taxıl, əsasən, V.-lə döyülürdü. Xalq əkinçilik texnikasının mühüm elementlərindən sayılan V. daşdan və ağacdan hazırlanırdı. Cənubi Qafqazda ən qədim daş V. Babək r-nunun Yuxarı Uzunoba k. yaxınlığındakı *Kültəpə II* orta Tunc dövrü (e. ə. 4–1-ci minilliklər) yaşayış yerindən aşkar olunmuşdur. Xanlar r-nu 2 saylı kurqandan tapılan son Tunc dövrünə aid ağac V. Azərb. kəndlərində yaxın illərə qədər işlənimş V.-lərdən fərqlənmirdi. V., əsasən, palıd ağacından düzəldilir və quruluşca birtaylı və ikitaylı olurdu. Ağacdan hazırlanan V.-in alt hissəsinə cərgə ilə düzülmüş xırda daşlar bərkidilirdi. V.-in üstündə qoşqu heyvanlarına qoşulmaqdan ötrü vəlbənd adlanan dairəvi hissə vardı. Bura ip keçirilərək V. heyvanlara (əsasən, kəl, öküz və at) qoşulurdu.

*Əd.:* C a v a d o v C.Q., Azərbaycanın qədim əkinçilik alətləri, B., 1979.

*II Kültəpə yaşayış yerindən tapılmış daş vəl. E. ə. 4–1-ci minilliklər.*





**VƏLƏVER** – Ordubad r-nunda kənd, Vənənd bələdiyyəsinin tərkibindədir. R-n mərkəzindən 27 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin ətəyindədir. Əhalisi 418 nəfər (2000); bağçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**VƏLİDAĞ** – Şərur r-nu ərazisində dağ. Dəhnə–Vəlidağ tirəsində zirvə. Qurd qapısı keçidindən 2 *km* şm.-ş.-dədir. Hünd. 1244 *m*. Relyefdə kəskin parçalanmış günbəzvarı yüksəklik əmələ gətirir.

**VƏLİDAĞ MƏRMƏRLƏŞMİŞ ƏHƏNGDAŞI YATAĞI** – Şərur r-nu ərazisində, Sədərək qəs.-ndən 12 *km* q.-dədir. Geoloji quruluşunda Orta Devonun Eyfel mərtəbəsinin karbonat və karbonat-terrigen çöküntüləri–qara rəngli mərmərləşmiş əhəngdaşılar iştirak edir. Tektonik cəhətdən Dəhnə–Vəlidağ antiklinalının c.-q. qanadında yerləşir. Sah. 0,12 *km²*-dir. Yataq 0,63–40 *mm* ölçülü dekorativ çınqıl istehsalı məqsədilə öyrənilmişdir. Yatağın sənaye ehtiyatı 3271 min *m³*-dir.

**VƏLİQULU XAN** (?–?) – Naxçıvan xanı. 1778 ildə İran hökmdarı Kərim xan Zəndin [1760–79] köməyi ilə hakimiyyəti ələ keçirən Əliqulu xanı devirib özünü xan elan etmişdi.



*Vəliyev Balakişi*

**VƏLİYEV** Balakişi Əhməd oğlu (7.11.1927, indiki Culfa r-nunun Xoşkeşin k. – 12.7.2001, Bakı) – həkim, terapevt. Tibb elmləri doktoru (1992), prof. (1993). Azərb. Dövlət Tibb İn-tunu (indiki Tibb Un-ti) bitirmişdir (1953). 17 il Qazaxıstanın Çimkənd vil.-nin tibb müəssisələrində, Qazaxıstan EA Mahal Peşə Xəstəlikləri Elmi Tədqiqat İn-tunda işləmişdir. 1971 ildən Azərb. Tibb Un-tində assisent, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1993 ildən II daxili xəstəliklər kafedrasının professoru idi. 1974–80 illərdə Bakının baş terapevti olmuşdur. Qurğuşunla zəhərlənmə xəstəliklərinin patogenezinə və müalicəsinə dair tədqiqatların, o cümlədən 2 monoqrafiyanın, 80-dək elmi işin, həmçinin metodik vəsaitlərin müəllifidir.

Ə s ə r i: Новые аспекты патогенеза и лечения больных со свинцовой интоксикацией, Б., 1996.



*Vəliyev Məmməd*

**VƏLİYEV** Məmməd Hüseynəli oğlu (d. 16.6.1943, indiki Şərur r-nunun Qarxun k.) – kimyaçı. Kimya elmləri doktoru (1987), prof. (1991). Nyu-York EA-nın həqiqi üzvü (1995). Azərb. Neft-Kimya İn-tunu (indiki Neft Akademiyası) (1968), Azərb. Milli EA Y. H. Məmmədəliyev ad. Neft Kimyası Prosesləri İn-tu Sumqayıt filialının (indiki Polimer Materialları İn-tu) aspiranturasını (1974) bitirmiş, burada elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. Moskvada akad. N. D. Zelinski ad. Üzvi Kimya İn-tunda birgə tədqiqat işləri aparmışdır. Tədqiqatları əsasən polifunksional doymamış birləşmələrin, həmçinin silisium (halogen) saxlamayan törəmələrin alınmasında yeni üsulların işlənməsinə, alınan birləşmələrin reaksiyaya girmə qabiliyyətinin öyrənilməsinə həsr olunmuşdur. 250-dən artıq elmi məqalənin, o cümlədən bir neçə ixtira və patentin müəllifidir. Azərb. Neft Akademiyasında pedaqoji fəaliyyət göstərir (1990 ildən). Beynəlxalq konqres və simpoziumlarda, o cümlədən Hindistanda ezamiyyətdə olarkən (1991) elmi məruzələr etmişdir.

Ə s ə r i: Кумулены, Б., 1987.



*Vəliyev Saleh*

**VƏLİYEV** Saleh Cəbrayıl oğlu (d. 5.4.1938, indiki Babək r-nunun Nehrəm k.) – iqtisadçı, statistika əlaçısı (1991). Azərb. Respublikasının əməkdar iqtisadçısı (1991). Azərb. Dövlət Kənd Təsərrüfatı İn-tunun (indiki Kənd Təsərrüfatı Akademiyası) iqtisadiyyat fakültəsini bitirmişdir (1960). Nax. MR Nazirlər Soveti Dövlət Plan Komitəsində böyük iqtisadçı, bölmə müdiri, Nax. MR Statistika İdarəsində rəis müavini – kənd təsərrüfatı şöbəsinin rəisi, hesablama mərkəzinin rəisi, Nax. MR Nazirlər Soveti Sədrinin referenti, Nax. MR maliyyə nazirinin müavini vəzifələrində çalışmışdır. 1983 ildən Nax. MR Dövlət Statistika Komitəsinin (1993 ilədək statistika idarəsi) sədridir. Şərəf nişanı ordeni ilə təltif olunmuşdur (1990).

*Vəliyev Zöhrab*



**VƏLİYEV** Zöhrab Əhməd oğlu (d. 4.6.1953, Naxçıvan ş.) – fizik. Fizika-riyaziyyat elmləri doktoru (1999), prof. (1999). Azərb. Respublikasının əməkdar müəllimi (1999). Moskva Dövlət Un-tini (1977) və Azərb. Milli EA Fizika İn-tunun aspiranturasını bitirmişdir. 1977–86 illərdə Azərb. Milli EA Fizika İn-tunda elmi işçi olmuşdur. 1986 ildən Naxçıvan Dövlət Pedaqoji İn-tunda müəllim, dosent işləmiş, eyni zamanda texniki təlim fakültəsinin dekan müavini (1988), elmi şuranın elmi katibi (1988–93), təbiyyatşünaslıq-



Vəliyeva Xasa

riyaziyyat fakültəsinin dekanı (1993–97) vəzifələrində çalışmışdır. 1997 ildən un-tin elmi işlər üzrə prorektorudur. Dislokasiyalı yarımkeçiricilərin elektron xassələri məsələlərinə dair tədqiqatlar aparmışdır. 10-dan çox kitabın və 70-dən çox elmi məqalənin müəllifidir. Nyu-York EA-nın həqiqi üzvü seçilmişdir (2001). Tbilisi (1978), Novosibirsk (1980), Donetsk (1981, 1986, 1991), Bakı (1982, 2000), Ujqorod (1984), Vilnüs (1986), Moskva (1986), Sankt-Peterburq (1998) ş.-lərində beynəlxalq konfranslarda məruzələr etmişdir.

Ə s ə r l ə r i: Kvant mexanikasından məsələ həlli nümunələri, B., 1988; Elektrik bəhsi, B., 1992; Klassik mexanikadan məsələ həlli nümunələri, B., 1997; Kimyəvi reaksiyalarda tunel hadisələrinin öyrənilməsi metodikası, B., 2000; Nəzəri fizikanın riyazi elementləri, B., 1998; О заполнении дислокационных уровней в сильных электрических полях, СПб, 1998; Каскадный захват электронов дислокациями в многодолинных полупроводниках, СПб, 1999.

**VƏLİYEVA** Xasa Cahangir qızı (d. 1909, indiki Şərur r-nunun Qarabağlar k.) – əmək qabaqcılı. Sosialist Əməyi Qəhrəmanı (1949). Əmək fəaliyyətinə başladığı vaxtdan k-zçu, 1958 ildən manqa başçısı işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



Vənənd məscidinin kitabəsi.

**VƏNƏND** – Ordubad r-nu ərazisində çay. Uz. 29 *km*, hövzəsinin sah. 91 $km^2$. Zəngəzur silsiləsinin c.-q. yamacından (3400 *m* hünd.-dən) başlanır. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Suvarmada istifadə olunur. Aşağı axınında Dəstə çayı adlanır.

**VƏNƏND** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-q.-də, Vənənd çayının sahilində, Ordubad–Unus avtomobil yolunun kənarında, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 2292 nəfər (2000); taxılçılıq, meyvəçilik, baramaçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, musiqi məktəbi, xəstəxana, körpə evi var.



V. Azərb.-ın qədim yaşayış məntəqələrindəndir. Vənədlərin adı ilə bağlıdır (bax *Vənədlər*). Buradakı qədim qəbiristandan (bax *Vənənd nekropolu*) qoç formalı qəbirüstü daş abidələr tapılmışdır. Mənbələrdə orta əsrlərdə Naxçıvan tüməninin Giran bölgəsində kənd olduğu qeyd edilir. V.-də İranın siyasi xadimi, tarixçi Məhəmməd Cüveyni (1225–83) tərəfindən layiqli xanəgah tikilmiş, ona əmlak vəqf edilmişdir. V. 18 əsrin əvvəllərində *Naxçıvan sancağının* Azadciran nahiyəsinin tərkibində idi. Bu dövrdə kəndin gəliri 12.783 axça təşkil edirdi. V.-də orta əsrlərə aid tarixi-memarlıq abidələrindən məscid (bax *Vənənd məscidi*), hamam və s. qalıqları saxlanmışdır. Şair *Qüdsi Vənəndi* bu kənddə doğulmuşdur.

*Əd.:* Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov-Qaramanlı), B., 1997; P i r i y e v V. Z., Naxçıvan XIII–XIV əsrlərdə, "Naxçıvan" (məqalələr toplusu), B., 1999.

**VƏNƏND MƏSCİDİ** – Ordubad r-nunda, eyniadlı kəndin ərazisində orta əsrlərə aid tarixi memarlıq abidəsi. 1324/25 ildə tikilmişdir. Düzbucaqlı formada olan məscidin sah. təqr. 375 $m^2$, hündürlüyü 7 *m*-dir; günbəzlidir. Məscid bir neçə dəfə bərpa olunmuş, 17 əsrin əvvəllərində ona böyük bir bina əlavə edilmişdir. Cümə məscidinin ilkin binası həzırda onun şm.-q. küncünü təşkil edir. Bu hissəyə q. fasadından açılan qapıdan girmək mümkündür. Qapı yerinin çatmasında iri nəsx xəttilə farsca kitabədə "Yeddi yüz iyirmi beşinci ildə (1324–25) ... yarandı" yazılmışdır. Digər kitabədə isə göstərilir ki, məscidi 1732 ildə vənəndli Məhəmməd Rza bərpa etmişdir. Bərpa zamanı şm. tərəfdəki tağın üzərində fars və ərəb dillərində yazılmış kitabədə 18 əsrin 1-ci yarısında Vənəndin, eləcə də Naxçıvanın iqtisadi həyatına dair məlumat verilir. Kitabəni ilk dəfə rus şərqşünası, tarixçi, etnoqraf və diplomat N. V. Xanıkov fransız dilinə tərcümə etmişdir.

*Əd.:* N e m ə t o v a M. S., Azərbaycanın epiqrafik abidələri (XVII–XVIII əsrlər), B., 1963; y e n ə o n u n, Корпус эпиграфических памятников Азербайджана, т. 3. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII – начало XX века), Б., 2001.



**VƏNƏND NEKROPOLU** – Ordubad r-nunun Vənənd k.-ndən şm.-q.-də son orta əsrlərə aid arxeoloji abidə. 1968 ildə qeydə alınmışdır. Sah. təqr. 3 *ha*-dır. Əsasən, q.-dən ş.-ə doğru istiqamətlənmiş düzbucaq formalı torpaq qəbirlərdən ibarətdər. Nekropolda başdaşı düzbucaqlı şəkildə daş plitədən hazırlanaraq, yuxarısı tağvarı sonluqla tamamlanmış qəbir abidələri diqqəti cəlb edir. Onların üzərində süls və nəsx xətlərilə ərəbcə yazılmış kitabə var. Prizma və qoyun formalı qəbirüstü abidələr də tapılmışdır. Abidə 16–18 əsrlərə aid edilir.

**VƏNƏDLƏR** – qədim türk tayfası. V. haqqında məlumata antik (Herodot, Tit, Livi, Tatsit), latın və Bizans (Kesariyalı Prokopi, İordan), erməni (Movses Xorenli), ərəb və yəhudi (əl-Məsudi, Qardizi) müəlliflərinin əsərlərində rast gəlmək olar. V.-in adı tarixdə ilk dəfə Yunan-Troya müharibəsi (e. ə. 13 əsr) ilə bağlı çəkilir. Tit Livinin məlumatına görə, Troyanın süqutundan sonra Troya zadəganları Antenor və Eney ailələri ilə birlikdə şəhəri tərk edirlər. Antenor öz eli ilə Balkan yarımadasının şm.-q.-ində – Adriatik dənizi sahilində, Eney isə əvvəlcə Siciliyada, sonra isə Apennin yarımadasında məskən salır. Məhz həmin vənəd nəslindən olan Romul və Rem qardaşları Roma şəhərinin və dövlətinin əsasını qoymuşlar. Tədqiqatçılar İtaliyanın Venesiya ş.-nin adının da həmin V.-lə bağlı olduğunu ehtimal edirlər. V.-in bir hissəsi sonralar Baltik dənizinin sahillərinə köçmüş, eramızın təxminən 2–3 əsrlərində Qara dənizin şm.-nda məskunlaşmışlar. V.-lə bağlı Azərb.-da Vənənd, Sırxavənd, Xocavənd, Vəndam, indiki Ermənistanda Vanadzor yer adları var.

**VƏRMƏZİYAR** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 9 *km* aralı, düzənlikdədir. Əh. 1109 nəfər (2000); əsasən əkinçiliklə məşğuldur. Məktəb, klub, kitabxana var.



Vəzirov Cəlil

**VƏZİROV** Cəlil Həbib oğlu (d. 8.11.1944, Naxçıvan ş.) – teatrşünas. Azərb. Respublikasının əməkdar mədəniyyət işçisi (1987). Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1968). Həmin vaxtdan "Şərq qapısı" qəzetində işləyir; baş müxbir, ədəbiyyat və incəsənət şöbəsinin müdiri olmuşdur. V. Naxçıvan teatrı tarixinin, onun öncül nümayəndələrinin yaradıcılığının tədqiqatçısıdır. 16 kitab və broşürün, onlarca elmi və tənqidi məqalənin müəllifidir. Azərb. Teatr Xadimləri İttifaqının (1976), Jurnalistlər (1978) və Yazıçılar (2000) birliklərinin üzvü, Teatr Xadimləri İttifaqı Naxçıvan Təşkilatının sədridir (1980 ildən).

Ə s ə r l ə r i: İbrahim Həmzəyev, B., 1982; Güldürən-ağladan, Naxçıvan, 1998.



Vəzirov Heydər

**VƏZİROV** Heydər Sadıq oğlu (1893, indiki Babək r-nunun Nehrəm k. – 1937) – hərbi və dövlət xadimi, komissar. İlk təhsilini Naxçıvanda üsuli-cədid məktəbində almış, 1913 ildə İrəvan seminariyasını bitirərək, gimnaziyanın səkkizinci sinfinə imtahan vermişdir. Birinci dünya müharibəsi (1914–18) başlananda qısa müddət hərbi məktəbdə təhsil almış və ön cəbhəyə göndərilmişdir. 1915 ilin iyununda kiçik zabit rütbəsində Qalitsiya uğrunda döyüşlərdə almanlar tərəfindən əsir alınmış, 1918 ildə hərbi əsirlər dəyişdirilərkən yaralılar sırasında Türkiyədən keçərək Azərb.-a qayıtmışdır. V. 1918 ilin noyabrından Azərb. Xalq Cümhuriyyətinin Milli Ordusunun kiçik komandirlər hazırlayan məktəbində müəllim işləmiş, 1920 il aprel çevrilişindən sonra məktəbin kollektivi ilə birgə Sovet hakimiyyəti tərəfinə keçmiş, Azərb. Birləşmiş Hərbi-Siyasi Məktəbinin rəisi təyin olunmuşdur. V.-un rəhbərliyi altında Azərb. Birləşmiş Hərbi Məktəbi Ermənistanda, həmçinin Azərb. qəzalarında daşnaklara və banditizmə, Gürcüstanda menşeviklərə qarşı hərbi əməliyyatlarda fəal iştirak etmişdir. V. respublika hərbi komissarı kimi milli hərbi kadrların hazırlanmasında xidmətlərinə görə Azərb. SSR-in Qırmızı Bayraq Ordeni (1923) ilə təltif olunmuşdu. 1925–27 illərdə Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927–33 illərdə isə Azərb. SSR Xalq Torpaq Komissarı vəzifələrində işləmişdir. AKP 12-ci və 13-cü qurultaylarında MK üzvü, Azərb. MİK (8-ci çağırış), ZSFSR MİK (7-ci çağırış) və SSRİ MİK-in (7-ci çağırış) üzvü seçilmişdir. 1937 ildə repressiyaya məruz qalmış, ailəsi ilə birlikdə məhv edilmişdir.

Vəzirov Qambay



**VƏZİROV** Qambay Məmməd oğlu (19.8.1899, indiki Ermənistanın Gümrü ş. – 13.11.1937) – hərbi xadim, diviziya komandiri,

gen.-mayor. İlk yeddiillik təhsilini İrəvan gimnaziyasında almış, 1918 ildə səfərbər olunaraq, altı ay Türkiyədə işləmişdir. 1919 ildə Azərb. Xalq Cümhuriyyəti Milli Ordusunda xidmət etmiş, hərbi məktəbi bitirmişdir. Sovet hakimiyyəti tərəfinə keçmiş və 1920–22 illərdə Qazaxda, Cəbrayılda və Qarabağda daşnaklara qarşı vuruşmuşdur. V. 1922 ildə Moskvaya Frunze ad. Hərbi Akademiyaya göndərilmiş, təhsilini başa vurduqdan sonra 1925 ilin avqustunda Azərb. Birləşmiş Hərbi-Siyasi Məktəbinin rəisi təyin olunmuş və burada işlədiyi iki ildə özünü təşəbbüskar komandir və qayğıkeş müəllim kimi göstərmişdir. 1927 ildə Zaqafqaziya milli hərbi məktəbləri birləşdirildikdən sonra V. 3-cü Qafqaz atıcı diviziyasının, 1928 ildə isə Azərb. atıcı diviziyasının qərargah rəisi təyin edilmişdi. Azərb. atıcı diviziyası onun rəhbərliyi altında 1929 ilin avqust-sentyabrında Əlahiddə Qafqaz ordusunun ilk manevrlərində uğurla iştirak etmişdi. V. nümunəvi döyüş komandiri kimi 1930–32 illərdə Belorusiya hərbi dairəsindəki 111-ci atıcı alayının komandiri, eyni zamanda, Jizdra şəhər qarnizonunun rəisi vəzifələrində çalışmışdı. 1932 ildə V. Azərb. atıcı diviziyasının komandiri və komissarı təyin edilmiş, bilik və təcrübəsini respublikada hərbi kadrların hazırlanmasına həsr etmişdi. Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. 1937 ilin iyununda saxta ittihamlar əsasında həbs edilmiş və güllələnmişdir; SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının 28 iyul 1956 il tarixli qərarı ilə V.-a ölümündən sonra bəraət verilmişdir.

**VİŞAP** – əsasən, balığaoxşar daş heykəl. Sal daşdan yonulurdu; hünd. 5 *m*-ə çatır. Bəzi V.-larda öküz, yaxud qoyun başı, həmçinin durna və leylək təsvirləri var. V.-ların dövrü dəqiq müəyyən edilməmişdir, çox güman ki, e.ə. 2-ci minilliyə aiddirlər. Naxçıvan bölgəsində (Culfa, Ordubad, Şahbuz r-nlarında), Cənubi və Şimali Qafqazda, Mesopotamiyada, Monqolustanda aşkar edilmişdir. V. su və bərəkət ilahəsinə sitayişlə əlaqələndirilir.

**VOPOTƏPƏ** – Babək r-nu ərazisində dağ. Hünd. 1033 *m*. Günbəzvarı formadadır.



# Y

**YAĞLIDƏRƏ** – Ordubad r-nu ərazisində dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3827 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**YALLI** – qədim Azərb. kütləvi xalq rəqsi. Toylarda və el şənliklərində instrumental ansambl (əsasən, iki zurnaçı və nağaraçıdan ibarət), yaxud mahnının müşayiəti ilə ifa edilir. İfaçıların sayı qeyri-məhdud olur (10–15-dən 80–100 nəfərədək). Yallı rəqsi zamanı əl-ələ tutmuş kişi, yaxud qadınlardan (bəzən qarışıq) ibarət dəstə düzəldilir (dəstənin sayı iki, üç və daha artıq ola bilər). Dəstənin başında duran rəqqas "yallıbaşı" (əlində yaylıq, yaxud çubuq tutur), axırdakı isə "ayaqçı" adlanır. Y. ağır tempdə başlanır, getdikcə sürətlənir, ifaçılar ritmik hərəkətlərlə (bədənlərinin əyilib-qalxması) dövrəvi rəqs edirlər. Y.-nın mənşəyi dəqiq müəyyən edilməmişdir. Ən qədim və geniş təsvirinə Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, daha sonralar Nizaminin "Xosrov və Şirin" poemasında rast gəlinir. Y.-lar Azərb.-da ən çox Naxçıvan diyarının Şərur, Şahbuz və Ordubad r-nlarında ifa olunur. Hazırda yalnız Şərur bölgəsində 20-dən çox növü mövcuddur. Vaxtilə yüzdən çox Y. havası olmuşdur ("Çolağı", "Üç addım", "Dönə yallı", "Qaz-qazı", "Köçəri", "El yallışı", "İki ayaq", "Qaladan-qalaya", "Şəranı" "Qaleyi", "Çöp-çöpü" və s.). Y.-nın komponentlərinin açılması onların hər birində musiqi sənətinin müxtəlif janrlarından istifadə olunduğunu göstərir. "Arzuman", "Tello", "Qaladan-qalaya" Y.-ları həm mahnı kimi oxunur, həm də rəqs kimi oynanılır. Naxçıvan ərazisində vokal Y.-nın ən məşhurları "Gülümey" və "Haxışta" həm xoreoqrafik formaca, həm də yayılma ərazisi-lə bir-birindən seçilir. Yalnız qız-gəlinin oynadığı "Gülümey" Y.-sı, əsasən, Ordubad, Şərur bölgələrində yayılmışdır. "Haxışta"ya isə Nax. MR-in bütün r-nlarında rast gəlinir. Y. rəqsi xoreoqrafiya məzmununa görə iki növə – süjetli Y.-lara və rəqs Y.-larına ayrılır. Müəyyən hadisəni təsvir edən süjetli Y.-lar teatrlaşmış xalq oyunları olduğu üçün "Oyun yallı" (el arasında "Yallı-yallı" da deyilir) adlanır. Rəqs Y.-sında isə qəhrəmanlıq motivlərinin, xalqın əhvali-ruhiyyəsinin, gəncliyin, çevikliyin təsviri və tərənnümü öz əksini tapır ("Dönə yallı", "Siyaqutu", "Mənzərə", "Ürfanı" və s.). Y. sintetik rəqs kimi xoreoqrafik, instrumental və vokal musiqini özündə birləşdirir. 2–3 hissədən ibarət olan Y. rəqsində bir hava növbə ilə müxtəlif templərdə (andante, moderato, alleqro) və ya variasiya şəklində ifa edilir. Ü. Hacıbəyov ("Koroğlu" operası), M. Maqomayev ("Nərgiz" operası), S. Hacıbəyov ( "Gülşən" baleti), Ə. Bədəlbəyli ("Qız qalası" baleti), A.Əlizadə ("Babək" baleti), C. Cahangirov (xalq çalğı alətləri üçün "Yallı" əsəri), F. Qarayev ( "Qobustan kölgələri" baleti), R. Hacıyev ("Yallı" balet miniatürü) və b. bəstəkarlar əsərlərində Y.-nın janr xüsu-



siyyətlərindən istifadə etmişlər. Y. nəsildən-nəslə, eldən-elə keçdikcə formaca dəyişir. Bax, həmçinin *"Şərur" xalq yallı ansamblı.*

*Əd.:* Hüseynli B., Azərbaycan xalq rəqs melodiyaları, dəftər 1, B., 1965; Ələkbərli Ə., Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı, "Qobustan", 1999, №2.

**YAMACLAR** – Şərur r-nunun Xələc k.-ndə son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Geniş arxeoloji axtarışlar və qazıntılar aparılmamışdır. Əldə olunmuş maddi mədəniyyət qalıqlarına əsasən Y. yaşayış yerinin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

**YAMXANA** – Naxçıvan d.-y. st.-ndan 5 *km*, Araz çayından 3 *km* aralı, Tumbul k.-ndən 3 *km* c.-da mövcud olmuş kənd. 1905–07 illər erməni-müsəlman davasında İrana köçmüş Çeşməbasar k.-nin və qonşu kəndlərin əhalisi türk ordusunun köməyi ilə geri qayıtdıqda burada məskən salmışdılar. 1971 ildə Araz SES-in tikintisi ilə əlaqədar əhalisi indiki Babək qəsəbəsinə köçmüşdür. Y.-da Naxçıvan ş.-ndən və ətraf kəndlərdən gələn uşaqların oxuduğu beynəlmiləl məktəb olmuşdur.

**YARIMCA** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* şm.-ş.-də, avtomobil yolunun kənarında, Naxçıvançayın sahilində, dağətəyi ərazidədir. Əh. 1277 nəfər (2000); taxılçılıq, heyvandarlıq, bostançılıq, tərəvəzçiliklə məşğuldur. Orta məktəb, 2 kitabxana, klub, poçt şöbəsi, ambulatoriya, məscid var.

**YARIMCA** – Babək r-nunun eyniadlı kəndində Tunc dövrünə (e. ə. 2-ci minillik) aid yaşayış yeri. 1977 ildə qeydə alınmışdır. Sah. 2 *ha*. Mədəni təbəqənin qalınlığı 2 *m*-dir. Qalıqları müasir binaların və bağların altında qalmışdır. Yerüstü materiallar keramika məmulatından, obsidian və çaxmaqdaşı qırıqlarından, daş əmək alətlərindən ibarətdir. Mədəni təbəqədən, əsasən, qırmızı və boz rəngli saxsı qab hissələri əldə olunmuşdur. Qazıntılar nəticəsində yaşayış yerindən Naxçıvanın orta Tunc dövrü üçün səciyyəvi olan monoxrom boyalı gil qablar tapılmışdır.

**YARIMCA NEKROPOLU** – Babək r-nunun eyniadlı kəndi yaxınlığında arxeoloji abidə. 1977 ildə qeydə alınmışdır. Qəbirlər düzbucaqlı şəklində olub, q.-dən ş.-ə doğru istiqamətlənmişdir. Başdaşılarının əksəriyyəti düşmüş və dağılmışdır. Saxlanılan başdaşıları yastı daş plitələrdən ibarət olub, yuxarısı tağvarı sonluqla tamamlanmışdır. Bəzi başdaşıların üzərində nəsx və ya süls xətti ilə ərəbdilli yazılara, həmçinin, qoç başdaşılarına rast gəlinir. Qəbiristanlıq 10–15 əsrlərə aid edilir.

**YARNIX** – Şahbuz r-nunda, Yuxarı Remeşin k. yaxınlığında 5–8 əsrlərə aid yaşayış yeri. Sah. 625 $m^2$. Hündür və uzunsov təpənin üzərindədir. Abidənin c.-q. tərəfində tikinti qalıqlarına, dördkünc otaq yerlərinə rast gəlinmişdir. Arxeoloji kəşfiyyat işləri nəticəsində çəhrayı rəngli gil qab qırıqları toplanmışdır. Y. yaşayış yerinin yaxınlığında, təpənin yamacında nalşəkilli formada nekropol var.

**YAŞILLIQ MİS-PORFİR YATAĞI** – Ordubad r-nu ərazisində, Pəzməri k.-ndən 2,4 *km* şm.-ş.-də, Şiladzorçayın sol sahilindədir. Şəlalə strukturunun c.-q. davamını əhatə edir. Struktur boyunca qranodiorit-porfir daykası müşahidə olunur. Dəniz səviyyəsindən 2200–2500 *m* hünd.-dədir. Geoloji quruluşunda diorit, qabbro-diorit, qranodiorit, kvars-siyenit-diorit intruziv süxurları, həmçinin qranodiorit-porfir daykaları iştirak edir. Yataq xətti ştokverk zona tiplidir; kvars-siyenit-diorit süxurları içərisində c.-q. istiqamətində 300 *m* qalınlıqda 600 *m* məsafədə izlənilir. Filizlərdə mis 0,1–1,4%, molibden 0,01–0,08% təşkil edir. Əsas filiz mineralları: pirit, xalkopirit, molibdenit, xalkozin, bornit, kovellin, misin törəmə mineralları. Tekstur əlamətlərinə görə filizlər brekçiya, daraq və zolaqvarı tiplidir.

**YAYCI** – Şərur r-nunun Aşağı Yaycı k. ərazisində orta əsrlərə aid yaşayış yeri. Üstü müasir tikililərlə örtülmüşdür. Bəzi yerlərdə möhrədən və çiy kərpicdən hörülmüş divar qalıqları saxlanmışdır. Tikintilərin ətrafında orta əsrlər üçün səciyyəvi olan çəhrayı rəngli şirli və şirsiz saxsı qab qırıqlarına (aşkar olunmuş çölmək tipli qab qabarıq gövdəli olub uzunsov formadadır; ağzının kənarı düz, oturacağı yastıdır, gövdəsinin yuxarı hissəsini ağzının kənarına birləşdirən iki lentşəkilli qulpu var) təsadüf olunmuşdur. 19 əsrdə inşa edilmiş bina indi də qalmaqdadır. Yaşayış yerinin 13–19 əsrlərə aid olması ehtimal edilir. Türk yaycı tayfasının (bax *Yaycılar)* adı ilə bağlıdır.



**YAYCI** – Şərur r-nu ərazisində çay. Şərqi Arpaçayın sol qolu. Mənsəbindən 23 *km* məsafədə ona tökülür. Uz. 7 *km*, hövzəsinin sah. 5 $km^2$-dir. Yağış və qrunt suları ilə qidalanır.

**YAYCI** – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Arxeoloji qazıntı işləri aparılmışdır. Zəngin yerüstü maddi mədəniyyət nümunələri toplanmışdır. Tapıntılara əsasən Y. yaşayış yeri 11–18 əsrlərə aid edilir.

**YAYCI** – Culfa r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən və d.-y. st.-ndan 15 *km* ş.-də, Araz çayının sol sahilindədir. Əh. 5611 nəfər (2000); üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğuldur. 2 orta məktəb, texniki peşə məktəbi, mədəniyyət evi, 3 kitabxana, 2 uşaq bağçası, xəstəxana, rabitə şöbəsi, şərab z-du var.

**YAYCI DÜZÜ** – Culfa r-nu ərazisində düzənlik. *Arazboyu düzənliklərdən* biri. Arazın sol sahilində, Yaycı k.-nin ətrafındadır. Şm.-da alçaq dağlığa söykənən düzənlik Kərimqulu Dizə k.-nədək davam edir. Düzənlik c.-ş.-dən şm.-q.-ə doğru 6 *km* məsafədə uzanır. C.-da Araz çayının dərəsinə qovuşur. Qaradərə çayının gətirmə konusu üzərində formalaşmışdır. Səthi az meyllidir və k.t.-nda geniş istifadə edilir.

**YAYCI QALASI** – Şərur r-nunun Aşağı Yaycı k.-ndə, Arpaçayın sol sahilində qala. Strateji cəhətdən əlverişli mövqedə – hündür dağ zirvəsində daşdan inşa edilmişdir. Bir hissəsi təbii qayalarla əhatə olunmuşdur. Yerüstü tədqiqatlar nəticəsində buradan xeyli şirsiz və şirli saxsı məmulatı, çürümüş dəmir əşya hissələri (silah, ox və nizə ucları) aşkar edilmişdir. Tapıntılara əsasən qalanın 9–13 əsrlərə aid olması ehtimal edilir.

**YAYCI NEKROPOLU** – Şərur r-nunda Aşağı Yaycı k.-ndən c.-da Tunc dövrünə aid arxeoloji abidə. Dərələyəz dağ silsiləsinin Arpaçaya enən yamacında salınmışdır. 1976 ildə Arpaçay su anbarının tikintisi zamanı aşkar olunmuşdur. Dağıdılmış bir neçə qəbirdən zəngin maddi mədəniyyət nümunələri toplanmışdır. Qəbirlər daş qutulardan ibarət olub müxtəlif istiqamətlərə yönəlmişdir. Bəzi qəbirlər kromlexlə əhatələnmişdir. Aşkar olunmuş arxeoloji materiallar, əsasən, gil və kasa tipli boyalı qablardan ibarətdir. Qabların üzərində həndəsi ornamentlər arasında quş təsvirlərinin verilməsi, iki cərgə heyvan (maral, it, keçi, qoyun) rəsmləri ilə naxışlanması Şumer mədəniyyətinə məxsus elementləri xatırladır. Azərb.-ın Tunc dövrü boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün (e. ə. 22–18 əsrlər) səciyyəvi olan monoxrom boyalı qablar diqqəti xüsusilə cəlb edir. Abidənin e. ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.

*Əd.:* Seyidov A. Q., Naxçıvan tunc dövründə, B., 2000; Алиев В. Г., Культура эпох средней бронзы Азербайджана, Б., 1991.



*Yaycı nekropolundan tapılmış keramika məmulatı:*
*1, 3. Monoxrom boyalı badya tipli qablar. 2, 5–7. Monoxrom boyalı və cızma naxışlı qablar. 4. Nehrə.*





*Polixrom boyalı küpələr. Tunc dövrü.*



*Qotaz. Şərur rayonu Yengicə kəndi. 19 əsr. Azərbaycan Tarixi Muzeyi.*

**YAYCILAR** – türk tayfası. Mənşəcə oğuz tayfalarından hesab olunurlar (bax *Oğuzlar*). Bir qismi 12–13 əsrlərdə Azərb.-a gəlmiş, əsasən, Naxçıvan ərazisində yaşamışdır. *Yaycı* (Culfa r-nu), *Aşağı Yaycı* və *Yuxarı Yaycı* (Şərur r-nu) kəndlərinin adları Y.-la əlaqədardır.

**YENGİCƏ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 2 *km* c.-q.-də, Şərur düzündədir. Əh. 3958 nəfər (2000); əkinçilik və bağçılıqla məşğuldur. Orta məktəb, musiqi məktəbi, uşaq bağçası, mədəniyyət evi, ambulatoriya, rabitə şöbəsi, un dəyirmanı və 2 məscid var. Böyük Vətən müharibəsində həlak olmuş həmyerlilərin şərəfinə abidə ucaldılmışdır. Azərb.-ın Milli Qəhrəmanı Səyavuş Həsənovun büstü, orta məktəbin qarşısında isə SSRİ maarif əlaçısı Kamil Qafarovun büstü qoyulmuşdur.

**YENİ AZƏRBAYCAN PARTİYASININ NAXÇIVAN MUXTAR RESPUBLİKA TƏŞKİLATI (YAP NMRT)** – Azərb.-da ən kütləvi-siyasi partiya olan Yeni Azərb. Partiyasının (YAP) Nax. MR-də fəaliyyət göstərən yerli təşkilatı. YAP-ın 1992 il noyabrın 21-də Naxçıvan ş.-ndə keçirilmiş təsis konfransında Məramnamə və Nizamnaməsi qəbul edilmiş, Nax. MR Ali Məclisinin sədri Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. YAP NMRT-nın təsis konfransı 1995 il aprelin 8-də, 2-ci konfransı isə 2000 il fevralın 25-də keçirilmişdir; hər iki konfransda Nax. MR Ali Məclisinin sədri V.Y. Talıbov YAP NMRT-nın sədri seçilmişdir. YAP NMRT Azərb.-ın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak edir və YAP-ın Proqram və Nizamnaməsinin qarşıya qoyduğu böyük vəzifələri layiqincə yerinə yetirir.

**YENİ CULFA** – İsfahan (İran) yaxınlığında şəhər. Mənbələrin verdiyi məlumata görə 1604 ilin payızında İran-Osmanlı müharibəsi zamanı Naxçıvanla birlikdə Culfa da I Şah Abbas tərəfindən dağıdılmış, əhalisi zorla İsfahana və Mazandarana köçürülmüşdü. Y.C. şəhəri də bu dövrdə salınmışdı.

**YENİ HAVUŞ** – Şərur r-nunda kənd. Havuş bələdiyyəsinin ərazisindədir. R-n mərkəzindən 15 *km* aralıdır. Əh. 293 nəfər (2000); yemçilik və heyvandarlıqla məşğuldur. Məktəb, kitabxana və klub var. 1992 ildə Havuş k.-nin məcburi köçkünləri tərəfindən salınmışdır.

**YENİ KƏRKİ** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 47 *km* aralı, Naxçıvan–Şərur avtomobil yolunun kənarındadır. Əh. 330 nəfər (2000); əsasən, maldarlıqla məşğuldur. Erməni millətçilərinin daimi hücumlarına məruz qalmış *Kərki* k. 1990 il yanvarın 19-da erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, əhalisi isə ata-baba yerlərindən didərgin düşüb burada yurd salmışdır. Məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var. Əhalisinin içməli su ilə təchizatını yaxşılaşdıran su qülləsi istifadəyə verilmişdir.

**"YENİ ORDUBAD"** – qəzet. Ordubad Rayon İcra Hakimiyyətinin orqanı olan *"El həyatı"* qəzetinin 1966–91 illərdə adı.

Yeycə yaşayış yerindən tapılmış saxsı məmulatı. Orta əsr. Culfa rayonu.



**YENİ YOL** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 14 *km* şm.-da, dağətəyi ərazidədir. Əh. 482 nəfər (2000); taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və quşçuluqla məşğuldur. Orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, məscid var.

**YENİKƏND** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 4 *km* c.-q.-də, Naxçıvançayın sahilindədir. Əh. 171 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. İbtidai məktəb var.

**YENİKƏND** – Şərur r-nunda kənd. R-n mərkəzindən 11 *km* c.-ş.-də, Şərur düzündədir. Yaşayış məntəqəsi kimi 1958 ildə kəndin ərazisində üzümçülük s-zu yaradıldıqdan sonra formalaşmağa başlamış, r-nun xəritəsinə Yenikənd adı ilə düşmüşdür. 1976–77 illərdə Arpaçay dəryaçasının tikintisi zamanı Danzik k.-nin buraya köçürülməsi ilə əlaqədar Y. sürətlə böyüyərək r-nun ən böyük kəndlərindən birinə çevrilmişdir. 1990 ilin qanlı yanvar günlərində Sədərək döyüşlərində mərdliklə həlak olmuş danzikli Məmməd Məmmədovun (1949–1990) xatirəsini əbədiləşdirmək məqsədilə kənd *Şəhid Məmməd* adlandırılmışdır.

**YEYCƏ** – Şərur r-nunda eyniadlı kəndin ərazisində orta əsrlərə aid yaşayış yeri. Hazırda müasir tikintilərin altında qalmışdır. Kəndin içərisində bəzi yerlərdə möhrədən və çiy kərpicdən hörülmüş dördkünc formalı binaların və divarların qalıqları saxlanmışdır. Yerüstü axtarışlar nəticəsində çəhrayı rəngdə bişirilmiş şirsiz saxsı məmulatına təsadüf edilmişdir. 19 əsrə aid hamam hazırda qalmaqdadır.

**YEYCƏ** – Culfa r-nunun Saltax k.-ndən şm.-ş.-də, Əlincəçayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. Q.-də Əlincəçayla, şm. və c.-da dərin dərə ilə məhdudlaşan abidə ş. tərəfdə alçaq təpələrlə birləşərək, ümumi relyeflə əlaqələnir. Sah. 1850 $m^2$. 1991 ildə qeydə alınmışdır. Abidənin üzərindəki tikintilər tamamilə dağılmış, yerlərində dördkünc və oval çalalar saxlanmışdır. Yerüstü materiallar şirli və şirsiz saxsı (çəhrayı və boz rəngdə bişirilmiş qab qırıqları), gil (küpə, badya, kasa tipli qablar) məmulatından və s. ibarətdir. Tapıntılara əsasən yaşayış yeri 9–18 əsrlərə aid olunur; burada qədim dövrlərə aid təbəqənin də olması güman edilir.



**YEZDABAD,** Y e z i d a b a d – Naxçıvan ş.-nin c.-unda orta əsrlərə aid qala. 1957–59 illərdə qalanın ərazisindən zəngin arxeoloji materiallar, xüsusilə saxsı qab fraqmentləri, daş gürzlər aşkar olunmuşdur. Arxeoloji tədqiqatlardan belə daş gürzlərin Tunc dövründə (e. ə. 3–2-ci minilliklər) duz mədənlərində istifadə olunduğu məlumdur. Qalanın sonuncu Sasani hökmdarı III Yezdəgird [632–651/52] tərəfindən inşa edildiyi ehtimal olunur (bax həmçinin *Köhnəqala*).

**YƏHƏRGƏDİK DAĞI** – Sədərək r-nu ərazisində dağ. Günnüt k.-ndən 4,5 *km* ş.-dədir. Hünd. 2055 *m*. Günbəzvarı formadadır.

**YƏHYA BƏY (?–?)** – *Azadciran* hakimi (1824). İran şahzadəsi Abbas Mirzənin ona ünvanladığı reskript məlumdur. Bu reskriptdə Naxçıvan əhalisinin (Kəngərli bəylərinin) Varakerd və Qarakerd kəndlərindəki mülklərinin ermənilər tərəfindən qeyri-qanuni şəkildə zəbt olunması haqda məlumat verilir və məsələnin ayırd edilməsi Y. b.-ə tapşırılırdı.

**YUXARI ARALIQ** (1935 ilədək B ə y A r a l ı q) – Şərur r-nunda kənd. Aralıq bələdiyyəsinin tərkibinə daxildir. R-n mərkəzindən 4 *km* c.-ş.-də, Arpaçayın sağ sahilindədir. Əh. 1050 nəfər (2000); tərəvəzçilik, maldarlıq və bağçılıqla məşğuldur, Şəkər çuğunduru yetişdirilir. Orta məktəb, musiqi məktəbi, mədəniyyət evi, uşaq bağçası, tibb məntəqəsi, ATS var. Ərazisindəki içməli su yatağından artezian quyuları vasitəsilə r-nun kəndlərinin və Naxçıvan ş.-nin tələbatı təmin edilir.

**YUXARI AZA** – Ordubad r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 17 *km* c.-ş.-də, Ordubad–Naxçıvan avtomobil yolunun c.-unda, Gilançayın sağ sahilindədir. Əh. 392 nəfər (2000); bağçılıq, tərəvəzçilik, taxılçılıq, heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, tibb məntəqəsi var.

**YUXARI BUZQOV** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 45 *km* şm.-da, Buzqov çayının (Cəhri çayının qolu) sahilində, Dərələyəz silsiləsinin c. yamacındadır. Əh. 158 nəfər (2000); heyvandarlıq, arıçılıq, meyvəçiliklə məşğuldur. Məktəb, klub, məscid var.

**YUXARI DAŞARX** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 8 *km* aralı, Naxçıvan–Sədərək avtomobil yolunun üstündədir. Əh. 1388 nəfər (2000); meyvəçilik, bostançılıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**YUXARI ƏYLİS** – Ordubad r-nunda kənd. Əylis bələdiyyəsinin tərkibindədir. R-n





Yezdabad qala divarlarının bürclə görünüşü və planı

Aralıq kəndində Heydər məscidi.







Yuxarı Əylis məscidi və onun kitabəsi.

mərkəzindən 12 *km* şm.-ş.-də, Ordubad–Əylis avtomobil yolunun sağ və sol tərəfindədir. Əh. 959 nəfər (2000); bağçılıq, taxılçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana var (bax, həmçinin *Əylis* k.).

**YUXARI QIŞLAQ** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sağ qolu. 2400 *m* hünd.-dən başlanır. Uz. 11 *km*. Əsasən qar, bulaq, qismən yağış suları ilə qidalanır.

**YUXARI QIŞLAQ** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-ş.-də, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 493 nəfər (2000); əsasən, heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**YUXARI REMEŞİN** – Şahbuz r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-da, Küküçayın (Naxçıvançayın qolu) sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 545 nəfər (2000); bağçılıq və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var. Yaxınlığında erkən orta əsrlərə aid *Yarnıx, Dəlmə, Kələkli I* yaşayış yerləri qeydə alınmışdır.

**YUXARI SOVXOZ KANALI** – Şərur r-nu ərazisində suvarma kanalı. Arpaçaydan başlanır. Uz. 48 *km*. Başlanğıc hissədə sukeçirmə qabiliyyəti 8 $m^3$/*san*-dir. Üzərində 76 hidrotexniki qurğu var. 3 min *ha*-dək sahənin suvarılmasında istifadə edilir. Kanal 1956 ildə yenidən qurulmuşdur.



Yurdçu yaşayış yerindən tapılmış arxeoloji materiallar.

**YUXARI UZUNOBA** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-da, Naxçıvançayın sol sahilindədir. Əh. 518 nəfər (2000); taxılçılıq, heyvandarlıq, meyvəçilik və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, məscid var. Yaxınlığında Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə *Kültəpə II* qədim yaşayış yeri yerləşir.

**YUXARI YAYCI** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-ş.-də, Arpaçayın sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 833 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, feldşer-mama məntəqəsi, mədəniyyət evi var.

**YURDÇU** – Şərur r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 25 *km* c.-ş.-də, Dərələyəz silsiləsinin ətəyindədir. Əh. 1031 nəfər (2000); əkinçilik və heyvandarlıqla məşğuldur. Orta məktəb, klub, feldşer-mama məntəqəsi, rabitə şöbəsi var. İlk Dəmir dövrünə, orta əsrlərə aid yaşayış yerləri, müxtəlif dövrlərə aid sikkə dəfinəsi, antik dövrə aid kurqanlar, Tunc və ilk Dəmir dövrələrinə aid nekropol və Dəmir dövrünə aid sərdabə kəndin yaxınlığındadır.

**YURDÇU** – Şərur r-nu ərazisində, Yurdçu k.-dən c.-q.-də ilk Dəmir dövrünə aid yaşayış yeri. Sah. 2 *ha*. Yaşayış yeri 1983 ildə qeydə alınmışdır. Yerüstü tapıntılar gil qab sınıqlarından və daş alətlərdən ibarət olub iki dövrə bölünür. Birinci dövrə ilk Dəmir dövrünə xas gil məmulatı və əmək alətləri aiddir. Axtarışlar zamanı tapılmış yerüstü materiallar dən daşı, çəhrayı və boz rəngli gil qab qırıqlarından ibarətdir. Y. yaşayış yerinin e. ə. 10–8 əsrlərə aid olması ehtimal edilir.

**YURDÇU** – Şərur r-nu ərazisində, Yurdçu k.-ndən c.-q.-də, qədim dövr yaşayış yerinin yaxınlığında orta əsr yaşayış yeri. 10x10 *m* ölçüdə arxeoloji qazıntı işləri aparılmışdır.

**YURDÇU DƏFİNƏSİ** – Şərur r-nunda eyniadlı kəndin ərazisindən tapılmış müxtəlif dövrlərə aid gümüş və mis sikkə dəfinəsi. 328 ədədi Azərb. Milli EA Arxeologiya və Etnoqrafiya İn-tunda tədqiq edilmişdir. Ən qədimi Bizans imperatoru I Yuanın [969–976] adına kəsilmiş dirhəmdir. Y. d. içərisində Səlcuq sultanlarından II Toğrulun, Məsudun, Arslan şahın adına kəsilmiş dirhəmlər də var-



dır. Dəfinənin əksər sikkələri atabəylər dövləti hökmdarlarının adına kəsilmişdir. Y. d. Naxçıvanın iqtisadi, siyasi tarixini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

**YURDÇU KURQANLARI** – Şərur r-nunda eyniadlı kəndin q.-ndə son antik dövr abidəsi. Bir qədər hündürdə olan uzunsov təpənin üstündədir. Su anbarının tikintisi (1985) ilə əlaqədar dağıdılmışdır. Kurqanların diametri 3–5 *m*-dir. 17 qəbir abidəsi öyrənilmişdir. Qəbirlər quyu formasında olub dairəvidir; üzəri qalın kül təbəqəsi ilə örtülmüşdür. Qəbirlərdən çəhrayı, boz, sarı rəngli gil qab qırıqları, çay daşları, heyvan sümükləri, bıçaq, daş qəlib, qırmızı əqiqdən hazırlanmış muncuq, iki çıraq, daş mehrab və s. maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Y. k.-nda qəbir üçün yandırma adəti səciyyəvi olmuşdur. Gil qablar və bəzək əşyaları dəfn prosesində müəyyən ayinlərin icra edildiyini göstərir. Dəfn başa çatdıqdan sonra qəbirin üzərində od yandırılır, çox güman ki, qurban da kəsilirmiş. Bundan sonra qəbir daşla örtülür və üzərinə torpaq tökülərək təpə şəklinə salınırmış.



Yurdçu kurqanı tapıntıları: 1, 2, 4, 5. Küpə tipli gil qab qırıqları. 3. Şüşə flakon. 6. Tunc bilərzik. 7–9. Piyalə tipli dayaz gil qablar. 10. Parç tipli gil qab. 11. Dopu tipli gil qab. Antik dövr.

**YURDÇU NEKROPOLU** – Şərur r-nunda eyniadlı kəndin yaxınlığında Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Ərazidə tikinti işləri zamanı (1983) bir neçə daş qutu qəbir dağıdılmış, zəngin maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Qəbirlərin üzəri daş və torpaq qarışıq kurqanla örtülmüşdür. Kurqanların diametri 4–8 *m*, hünd. 0,2–0,5 *m*-dir. Dağıdılmış qəbirlərdən beşinin materialları (boyalı küpə, kasa, çaydan tipli gil qablar, tunc nizə ucu, sırğa, üzük, sancaq, digər bəzək əşyaları və s.) toplanmışdır.

*Əd.*: Novruzlu Ə. İ., Baxşəliyev V. B., Şərurun arxeoloji abidələri, B., 1993.

**YURDÇU SƏRDABƏSİ** – Şərur r-nunda eyniadlı kəndin şm.-q.-ndə Dəmir dövrünə aid abidə. Dördkünc formalı olub, şm.-c. istiqamətinə yönəlmişdir. Divarlar boyunca gil məhlul istifadə olunmadan 6 cərgə üst-üstə iri sal daşlar hörülmüşdür. Sərdabənin uz. 3 *m*, eni 1,6 *m*, hünd. 1,8 *m*-dir. Ş. və q. divarlarının hərəsində iki, şm. divarında isə 40x40x40 ölçüdə bir taxça var. Giriş yolu xaricdən bütöv daş plitə ilə qapanmışdır. Sərdabənin içərisindəki skelet sağ böyrü üstdə, yarı bükülü, sağ əli başın altına doğru qatlanmış vəziyyətdə idi. Skeletin arxasında boz, qırmızı, qonur rəngli 4 ədəd küp yerləşdirilmişdir. Qablardan arxada heyvan sü-



Yurdçu nekropolu tapıntıları: 1. Daş qutu qəbrin planı. 2, 3, 6. Küpə tipli gil qablar. 4, 5. Kasa tipli gil qablar. 7. Çaydan tipli gil qab. 8–10, 15. Dopu tipli gil qablar. 11–14. Tunc bəzək nümunələri. 16. Tunc nizə ucu. Tunc–ilk Dəmir dövrü.

Yurdçu sərdabəsindən tapılmış bəzək əşyaları.





Yusif ibn Küseyir türbəsinin portalı.

mükləri var. Sərdabədən tunc və gümüşdən yüksək sənətkarlıqla hazırlanmış bəzək şeyləri (üzük, sırğa, bilərzik, sancaq, pilək, asma, müxtəlif minerallardan düzəldilmiş muncuqlar), silahlar (nizə ucluğu, dəmir xəncər) və s. aşkar olunmuşdur. Tədqiqatlar göstərir ki, sərdabə tayfa başçısına məxsus idi. Tapıntılara əsasən abidənin e. ə. 8–7 əsrlərə aid olduğu ehtimal edilir.

**YURDÇULAR** – kəngərli tayfasının (bax *Kəngərlər)* bir tirəsi. Keçmişdə Naxçıvanda yaşamış Y. bir neçə kəndin əsasını qoymuşlar.

**YUSİF XAN** (?–?) – Qaracadağ qubernatoru. Eyni zamanda Naxçıvanda əsgəri qüvvələrin komandanı (sərtib) olmuşdur (1824). Kəngərli sənədləri kitabındakı 13 saylı reskriptdə İran şahzadəsi Abbas Mirzə "Naxçıvan mülkədarlarının Naxçıvandan kənarda olan başqa torpaq və mülkləri də zəbt etmək istədiklərini" Y. x.-a bildirir və bu məsələnin ayırd olunmasından ötrü Təbriz hökumətinin ona göstəriş hazırladığını nəzərə çatdırırdı.



**YUSİF İBN KÜSEYİR TÜRBƏSİ** – memarlıq abidəsi. Naxçıvan ş.-ndədir. Xalq arasında Atababa türbəsi də adlanır. Türbənin üzərindəki kitabədə onun 1162 ildə memar *Əcəmi* Əbubəkr oğlu Naxçıvani tərəfindən tikildiyi və orada dəfn olunmuş şəxsin adı (Yusif ibn Küseyir) göstərilmişdir. Abidənin gövdəsindəki frizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbə yeraltı hissədən və səkkizbucaqlı yerüstü gövdədən ibarətdir. Yeraltı hissə türbənin sərdabəsi, yerüstü hissə isə xatirə abidəsi olub, monumental xarakterlidir. Səkkizüzlü türbənin çıxıntılı dayaqlar şəklində olan tilləri sadə hörgülü kərpicdən yaradılmışdır. Binanın qəfəsəsini təşkil edən bu qurğuların arasındakı sahələr (türbənin səthləri) həndəsi ornamentli tavalarla üzlənmiş, ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, gəc məhlulu ilə tava şəklində birləşdirilərək səthlərə bərkidilmişdir. Türbənin q.-ə baxan səthi digər səthlərdən fərqli olaraq, giriş baştağı şəklində tərtib edilmişdir. Ornament bəzəkləri tikilinin memarlıq formaları ilə həmahəngdir. Abidənin ikiqat

Türbənin naxışlı kitabəsi.





örtüyünün daxili günbəzi çatma tağ, xarici günbəzi isə piramida şəklindədir. Sərdabə ilə yerüstü hissə arasındakı günbəz də çatma tağlıdır. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir. Şəkil, bax səh. 467.

*Əd.:* S a l a m z a d ə Ə. V., Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri, B., 1976.

**YUSİFLİ** Əliyar Yusif oğlu (15.10.1929, indiki Şərur r-nunun Püsyan k. – 1.9.1993, Naxçıvan ş.) – şair, dramaturq. Ordubad Pedaqoji Texnikumunu (1950), Azərb. Dövlət Pedaqoji İn.-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1956), Moskvada M. Qorki ad. Ədəbiyyat İn-tu nəzdində ikiillik ali ədəbiyyat kurslarını (1969) bitirmişdir. Pedaqoji fəaliyyət göstərmiş, mətbuatda çalışmışdır. 1970 ildən Nax. MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Baş redaktoru olmuşdur. "Dağlar yaraşığı" (1964), "Səni xatırlayıram" (1967), "Səni tapacağam" (1979), "Bənövşə ətri" (1985) və s. şer topluları nəşr edilmişdir. "Vicdan əzabı" (1961), "Ürək sevərsə" (1962), "Səadət naminə" (1970), "Gözüm yollarda qaldı" (1975), "Siz xoşbəxt yaşayın" (1981), "Əlincədən uçan qartal" (1989) pyesləri tamaşaya qoyulmuşdur.

Ə s ə r i: İllər ömürdən gedir, B., 1974.

**YUSİFOĞLU** Ənvər (tam adı və soyadı Ənvər Yusif oğlu Q a s ı m o v; 15.1.1914, Yevlax – 4.3.1989, Bakı) – yazıçı, nasir. Əslən ordubadlıdır. Tiflisdə pedaqoji texnikum bitirmiş (1929), burada çıxan "Yeni kənd" qəzetində ədəbi işçi işləmişdir. 30-cu illərdə "Kommunist" (Bakı) qəzetində ədəbi işçi, Azərb. incəsənət muzeyində elmi işçi olmuşdur. 1937 ildə həbs edilmiş, altı ay Hüseyn Cavidlə bir kamerada qalmışdır. 9 aydan sonra buraxılsa da, 1938 ildə yenidən həbs olunaraq, 10 il müddətinə Sibirə sürgün edilmişdir. Sürgündən qayıtdıqdan sonra Balakən taxta emalı zavodunda fəhləlik etmiş (1950–56), sonra "Ədəbiyyat və İncəsənət" (indiki "Ədəbiyyat qəzeti") qəzetində, "Azərbaycan" jurnalında ədəbi işçi (1957–65) işləmişdir. Ədəbi yaradıcılığa 30-cu illərin əvvəllərində hekayələrlə başlamışdır. "Cərrahlar" (1967), "Gənclik illərinə səyahət" (1976) povestlərinin, "Düşmənimin düşməni" (1978) romanının, hekayə toplularının müəllifidir. Sənətşünaslığa dair əsərləri ("Maral Rəhmanzadə", 1968 və s.) var.

**YUSİFZADƏ** Əşrəf Əmrah oğlu (5.12.1906, indiki Şərur r-nunun Sərxanlı k. – 7.3.1963, Gəncə) – aktyor. Azərb. Respublikasının xalq artisti (1955). Səhnə fəaliyyətinə İrəvan Azərb. Teatrında (1928-30) başlamışdır. Y. 1932 ildə Bakı Türk İşçi Teatrına daxil olmuşdur (1932 ilin dekabrında həmin teatr bütün truppası ilə Gəncəyə köçmüşdür). 1932 ildən ömrünün sonuna kimi Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. Obrazı dolğunluğuyla, bütün incəliyi ilə yaratmaq, düzgün mənalandırıb sənətsevərlərə çatdırmaq Y. yaradıcılığının əsas məziyyəti idi; onun ifası üçün emosianallıq, zəngin mimika və s. səciyyəvi olmuşdur. Rolları: Aqşin, Dövlətbəy, Hacı Əhməd ("Od gəlini", "Aydın", "Almaz", C. Cabbarlı), Hacı Qara ("Hacı Qara", M. F. Axundov), Şeyx Sənan ("Şeyx Sənan", H. Cavid), Qacar, Vaqif ("Vaqif", S. Vurğun), Yaqo ("Otello", U. Şekspir), Vilyams ("Kəllə", N. Hikmət), Ezop ("Tülkü və üzüm", G. Figeyredu) və s.

*Əd.:* M ə m m ə d o v A., Əşrəf Yusifzadə, B., 1974.



Yusifli Əliyar



Yusifoğlu Ənvər



Yusifzadə Əşrəf



Ə. Ə. Y u s i f z a d ə Ezop ("Tülkü və üzüm", G.Figeyredu) rolunda.

# Z



Zalov Oruc

**ZAHİDƏ XATUN** (?–?) – Eldənizlər sülaləsinin ikinci atabəyi *Məhəmməd Cahan Pəhləvanın* arvadlarından biri. Ondan *Cəlaliyyə* adlı qızı olmuşdur. Ərinin ölümündən (1186) sonra Naxçıvanda yaşamış, Eldənizlərin xəzinəsi yerləşən Əlincə qalasının sahibi olmuşdur. İlk atabəy Şəmsəddin Eldənizin dövründən atabəylərə tabe torpaqlardan gələn bütün gəlirlər bu xəzinədə saxlanılırdı. Cahan Pəhləvanın türk qızı Qətibə (Quteybə) xatundan olan oğlu Əbu Bəkr əmisi Qızıl Arslan öldürülən kimi (1191) Naxçıvana gələrək, Əlincə qalasını və oradakı xəzinəni ələ keçirir. Mənbələrdəki məlumatın təhlili Z. x.-un bundan sonra, görünür, Cahan Pəhləvanın hələ 1175 ildə Ağsunqurilərdən geri aldığı Təbrizə köçdüyünü və bu şəhərin hakimi olduğunu təsdiq edir. Tarixçi əl-Hüseynin məlumatına görə, atabəy Əbu Bəkr öldükdən (1210) sonra Naxçıvana, oradan da Culfaya, Mərəndə və b. Azərb. şəhərlərinə hücum edən gürcülər Z. x.-un hakimlik etdiyi Təbrizi də mühasirəyə alırlar. Şəhər rəisləri ilə məsləhətləşən Z. x. Təbrizi qarətdən və dağıntıdan xilas etmək üçün gürcülərə o qədər mal, pul, qızıl bac verir ki, "böyükdən kiçiyə kimi bütün gürcülər dövlətlənirlər". Son atabəy *Özbək* dövründə Naxçıvan Z. x.-un qızı, Özbəyin ata bir bacısı *Cəlaliyyənin* mülkü olmuşdur.

Zamanov Abbas



*Əd.:* B ü n y a d o v Z. M., Azərbaycan Atabəyləri dövləti [1136–1225], B., 1985; А н - Н а с а в и Ш и х а б а л - Д и н, Жизнеописание султана Джалал ад-Дина Манкбурны, Б. 1973; А л - Х у с е й н и С а д р а д д и н А л и, Ахбар ад-даулат ас-Селджукийя, М., 1980.

**ZALOV** Oruc İbrahim oğlu (d.7.12.1952, Naxçıvan ş.) – hüquq-mühafizə orqanları işçisi. Polis gen.-leytenantı (2002). Naxçıvan Dövlət Pedaqoji İn-tunun (indiki Naxçıvan Dövlət Un-tin) tarix fakültəsini (1978) və Volqoqrad Ali İstintaq Məktəbini (1990) bitirmişdir. Nax. MR Hərbi Komissarlığında (1973–79), Nax. MR Daxili İşlər Nazirliyində (1979–89) müxtəlif vəzifələrdə çalışmış, nazirliyin qərargah rəisi (1988–92), Babək r-nu polis şöbəsinin rəisi (1992–94), Azərb. Respublikası Daxili İşlər Nazirliyinin Baş qərargah rəisi (1995–97) vəzifələrində işləmişdir; 1997 ildən daxili işlər nazirinin müavinidir. 1992-93 illərdə Nax. MR-in Ermənistanla sərhəd bölgələrində gedən döyüşlərdə fəal iştirak etmişdir. Azərbaycan Bayrağı ordeni ilə təltif olunmuşdur.

**ZAMANOV** Abbas Fəttah oğlu (10.10.1911, indiki Şərur r-nunun Maxta k. – 1.4.1993, Bakı; Fəxri Xiyabanda dəfn edilmişdir) – ədəbiyyatşünas, tənqidçi, mətnşünas. Filologiya elmləri doktoru (1968), prof. (1971). Azərb. Milli EA m. üzvü (1983), Azərb. Respublikası əməkdar elm xadimi (1980). Azərb. Dövlət Pedaqoji İn-tunun (indiki APU) dil və ədəbiyyat fakültəsini bitirmişdir (1939). "Ədəbiyyat qəzeti"ndə məsul katib, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri (1937–39), Azərb. Dövlət Opera və Balet Teatrının və Azərb. Dövlət Filarmoniyasının direktoru (1939–41) olmuşdur. Böyük Vətən müharibəsi dövründə (1941–45) cəbhə qəzetlərində çalışmışdır. Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsində dərs demiş (1948–60), Azərb. Milli EA Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyinin direktoru (1968–71), BDU-nun Müasir Azərb. ədəbiyyatı kafedrasının müdiri (1971–79), Azərb. ədəbiyyatı tarixi kafedrasının prof. (1980–93) işləmişdir. 20 əsr Azərb. ədəbiyyatının, xüsusən M. Ə. Sabirin həyat və yaradıcılığının görkəmli tədqiqatçılarındandır. Mətnşünaslıq sahəsində də fəal çalışmış, Q. Zakir, S. Ə. Şirvani, C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Haqverdiyev, N. Nərimanov, S. S. Axundov, S. M. Qənizadə, S. Hüseyn və b.-nın əsərlərini tərtib və nəşr etdirmişdir. Azərb. ədəbiyyatının qonşu ölkələrdə (Türkiyə, İran, İraq) təbliğində mühüm xidməti var. "C. Məmmədquluzadənin həyat və yaradıcılığının qısa oçerki", "M. Ə. Sabir və müasirləri" kitabları İranda, məqalələri İraq, Türkiyə, Avstraliya və Fransada dərc olunmuşdur. H. Məmmədquluzadə-Cavanşirin "Mirzə Cəlil haqqında xatirələrim" adlı memuarını ruscadan çevirmiş, ön söz və izahlarla birlikdə çap etdirmişdir (1981). Türk Dil Qurumunun (Türkiyə) müxbir üzvü (1971), Konya və Səlcuq Un-tlərinin (Türkiyə) fəxri doktoru seçilmişdir.

Ə s ə r l ə r i: Sabir və müasirləri, B., 1973; "Əməl dostları, B., 1979; Sabir gülür, B., 1981; Sabir bu gün, B., 1985; Cəbhə dəftərindən (oçerklər), B., 1986.



**ZAMANOV** Asəf Dağbəyi oğlu (d. 10.5.1957, Şahbuz r-nunun Kolanı k.) – riyaziyyatçı. Fizika-riyaziyyat elmləri namizədi. Azərb. Dövlət Un-tinin (indiki BDU) tətbiqi riyaziyyat və kibernetika fakültəsini (1979) və Azərb. Milli EA Riyaziyyat və Mexanika İn-tunun (RMİ) aspiranturasını (1986) bitirmişdir. RMİ-də böyük və aparıcı elmi işçi (1986–94), Azərb. Milli EA Rəyasət Heyətinin Fizika-riyaziyyat və texnika elmləri bölməsində elmi katib (1994–97) işləmişdir. 1997 ildən Azərb. Respublikası Təhsil Nazirliyi elm idarəsinin rəisidir. 2000 ildən həm də Azərb. Respublikasının Təhsil Problemləri İn-tunun direktoru vəzifəsini icra edir. 1998 ildən Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının əlaqələndirmə komitəsinin üzvüdür. "İzləyən" və "ölü" yüklərin eynizamanlı təsiri altında boş silindrik cisimlərin dayanıqlığı, kiçik ölçülü əyri strukturlu kompozit materiallardan hazırlanmış lövhələrin məxsusi və məcburi rəqsləri mövzularında tədqiqatların, o cümlədən respublikada və xaricdə dərc edilmiş 50-ə yaxın məqalənin müəllifidir. Bir sıra beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.

**ZAMANOV** Paşa Bayram oğlu (d. 13.3.1927, indiki Sədərək r-nunun Sədərək k.) – aqrokimyaçı, kənd təsərrüfatı elmləri doktoru (1991), prof. (1992). Moskvada K. A. Timiryazev ad. Kənd Təsərrüfatı Akademiyasını (1952), Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunun aspiranturasını (1958) bitirmişdir. Pambıqçılıq İn-tu Naxçıvan təcrübə tarlasının müdiri (1952–56), Naxçıvan Zona Təcrübə Stansiyasının texniki bitkilər şöbəsinin müdiri (1956–58), Azərb. Milli EA Torpaqşünaslıq və Aqrokimya İn-tunun elmi katibi (1967–68) olmuşdur. 1975 ildən in-tun üzvi gübrələr və örtülü qruntun aqrokimyası laboratoriyasının müdiridir. Tədqiqatları Naxçıvan şəraiti üçün pambıq, yonca, qarğıdalı sortlarının öyrənilməsinə, Azərb.-da tütün bitkisinin gübrələnməsinə, sənaye, məişət, kommunal və k. t. tullantılarından üzvi gübrə alınmasına, onların tətbiqinə, Darıdağ termal müalicə suyunun k. t.-nda stimulyator kimi istifadəsinə həsr edilmişdir.



Zamanov Paşa

Ə s ə r l ə r i: Naxçıvan Muxtar Respublikasında tütünçülüyün inkişafı yolları, B., 1962; Darıdağ termal müalicə suyu tütünçülükdə boy stimulyatoru və nikotinin intoksikatoru, B., 1978; Azərbaycanda şəkər çuğundurunun becərilməsində üzvi gübrələrin səmərəliliyi, B., 1995.

**ZAVİYƏ MƏHƏLLƏSİ** – Naxçıvan ş.-ndə qədim məhəllə. Ərəbcə "bucaq" mənasındadır. Fars mənbələrində isə "müqəddəs yer" deməkdir.

**ZAVİYƏ MƏSCİDİ** – Naxçıvan ş.-ndə tarixi-memarlıq abidəsi. Naxçıvan memarlıq məktəbinə aid edilən məscidin zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun 17–18 əsrin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir. Əsaslı təmir və bərpa olunmuşdur (1997). Nax. MR Qadınlar Məclisi burada yerləşir.





Zeynal Vəfa

**ZEYDƏRƏ** – Ordubad r-nu ərazisində çay. Gilançayın (Arazın qolu) sol qolu. Zəngəzur silsiləsinin c.-q. yamacından, 1700 *m* hünd.-dən başlanır. Uz. 4 *km*-ə qədərdir. Yağış və qrunt suları ilə qidalanır.

**ZEYNAL VƏFA** (Zeynalabdin İsmayıl oğlu Z e y n a l o v u n ədəbi adı; d. 2.12.1938, Naxçıvan ş.) – şair, publisist. Azərbaycan Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir (1962). "Şərq qapısı" qəzetində ədəbi işçi, Nax. MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor və böyük redaktor (1963–68), Azərb. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor (1969–80, 1982–90), "Aydınlıq" qəzetinin redaktor müavini (1990–92), "Meydan" qəzetinin baş redaktoru (1992–93) işləmişdir. 1993 ilin sonlarından "Azərbaycan" qəzeti baş redaktorunun birinci müavinidir. "Çinarım mənim" (1967), "Qəlbimin səsi" (1971), "Əgər sevirəm desən" (1978), "Körpələrin xətrinə" (1981), "Beşiklərdən gələn səslər" (1986), "Ömrün beşinci fəsli" (1987) şer və poema topluları nəşr olunmuşdur.



Zeynalov Fərhad

**ZEYNALOV** Azər Zeynalabdin oğlu (d. 13.12.1964, Naxçıvan ş.) – müğənni, lirik-dramatik tenor. Azərb. Respublikasının xalq artisti (1998, birbaşa). *Zeynal Vəfanın* oğludur. Azərb. Dövlət İncəsənət İn-tunun (indiki Mədəniyyət və İncəsənət Un-ti) rejissorluq fakültəsini bitirmişdir (1989). 1992 ildə Azərb. Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil olmuş, ikinci kursda ikən uğurla imtahan verərək, Avqustina Steffano ad. İtaliya Musiqi Akademiyasının birbaşa üçüncü kursuna qəbul edilmişdir. İki il ərzində İtaliyada musiqi təhsilini başa vurub, "akademiyanın fəxri məzunu" kimi vətənə qayıdan Z. Bakı Musiqi Akademiyasını da bitirmişdir (1997). 1990 ildə vokalçıların "Odlar yurdu – Bakı-90" müsabiqəsinin laureatı adına layiq görülmüş, əvvəlcə Rəşid Behbudov ad. Mahnı Teatrında, sonra isə Rafiq Babayevin "Cəngi" ansamlında çalışmışdır. 1996 ildən Azərb. Dövlət Akademik Opera və Balet Teatrının solistidir. Yüksək diapozonlu məlahətli səsə malik olan Z. Əsgər ("Arşın mal alan", Ü. Hacıbəyov), Alfred ("Traviata", C. Verdi), Balaş ("Sevil", F. Əmirov), Kanio ("Paliaçço"; "Məzhəkəçilər", R.Leonkavallo) partiyalarının, dünya və Azərb. bəstəkarlarının oda, aratoriya, mahnı və romanslarının mahir ifaçısıdır. Z. pedaqoji fəaliyyətlə də məşğul olur; Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-tinin vokal kafedrasının müdiridir (2001 ildən). Almaniyanın Türk-İslam Kültür Cəmiyyətinin qızıl medalına layiq görülmüşdür.



Zeynalov Azər



A. Z. Z e y n a l o v Əsgər ("Arşın mal alan", Ü.Hacıbəyov) rolunda.

**ZEYNALOV** Fərhad Ramazan oğlu (22.6.1929, Ordubad ş. – 16.10.1984, Bakı; Ordubadda dəfn olunmuşdur) – türkoloq, dilçi. Filologiya elmləri doktoru (1966), prof. (1968). Azərb. Dövlət Un-tinin (indiki BDU) filologiya fakültəsini (1953) və Moskva Dövlət Un-tinin aspiranturasını (1956) bitirmişdir. Həmin vaxtdan ADU nəşriyyatının direktoru işləmişdir. 1962 ildən un-tin Ümumi dilçilik kafedrasının dosenti olmuş, 1969 ildən ömrünün sonunadək türkologiya kafedrasına rəhbərlik etmişdir. Azərb.-da türkologiya məktəbinin yaradıcılarından olan Z. onun aktual problemlərinə, o cümlədən türk dillərində nitq hissələrinin təsnif prinsiplərinə, köməkçi nitq hissələrinə, türk dillərinin müqayisəli qrammatikasına, qədim türk yazılı abidələrinə dair tədqiqatların, 11 monoqrafiya, dərslik və tədris vəsaitinin müəllifidir. "Türkologiyanın əsasları" (1981) adlı fundamental monoqrafiyasında Z. türk dillərinin yeni təsnifini vermişdir. ADU-da türkoloji fənlərin və ixtisas kurslarının ("Türkologiyaya giriş", "Türk dillərinin müqayisəli qrammatikası", "Qədim türk yazılı abidələri") tədrisi onun adı ilə bağlıdır. Mətnşünaslıq sahəsində də çalışmış, "Kitabi-Dədə Qorqud" eposunun elmi-tənqidi mətnini geniş müqəddimə ilə tərtib etmişdir (S. Əlizadə ilə birlikdə). Əsərləri Türkiyədə, Rusiyada, Almaniyada, Fransada, Macarıstanda, o cümlədən "Türk dillərinin müqayisəli qrammatikası" kitabı 1993 ildə Türkiyədə təkrar çap olunmuşdur. Beynəlxalq elmi məclislərdə məruzələr etmişdir.



Ə s ə r l ə r i: Türk dillərinin müqayisəli qrammatikası, h. 1–2, B., 1974–75; Türkologiyanın əsasları, B., 1981.

**ZEYNALOV** Həsən Sultan oğlu (d.1.1.1951, indiki Şərur r-nunun Yengicə k.) – diplomatik nümayəndə. Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1974). 1969–92 illərdə Bakı Soveti İcraiyyə Komitəsi nəzdində, mühəndis, böyük mühəndis, idarə rəisi vəzifələrində çalışmışdır. 1992 ildən Nax. MR-in Bakı ş.-də Daimi nümayəndəsidir. Nax. MR-in iqtisadi və sosial inkişaf proqramları və birgə ümumdövlət kompleks proqramları həyata keçirilərkən Z. Azərb. Respublikasının nazirlikləri, dövlət komitələri və baş idarələri ilə Naxçıvanın müvafiq səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqələrin təmin olunmasına rəhbərlik edir. Nax. MR Ali Məclisinin (1-ci çağırış) deputatı olmuşdur.

**ZEYNALOV** Vüqar Səfərəli oğlu (d. 22.8.1977, indiki Babək r-nunun Nehrəm k.) – idmançı, beynəlxalq dərəcəli idman ustası (1999). Azərb. Dövlət İqtisad İn-tunu bitirmişdir (1998). Nax. MR Vergilər Nazirliyinin baş müfəttişidir. Z. ağır atletikanın pauerliftinq növü ilə məşğuldur. Avropa [1998, Derbi (İngiltərə), 1999, Cersi (İngiltərə); 2000, İnsbruq (Avstriya); 2001, Helsinki (Finlandiya)] və dünya [1998, Qrats (Avstriya); (1999, Kalqari (Kanada); 2000, Las-Veqas (ABŞ)] çempionu olmuş, bu yarışlarda dünya rekordunu iki dəfə təzələmişdir.

**ZEYNƏDDİN** – Babək r-nunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. R-n mərkəzindən 12 *km* şm.-ş.-də, dağətəyi düzənlikdədir. Əh. 2599 nəfər (2000); taxılçılıq, üzümçülük, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, poçt şöbəsi, ambulatoriya, məscid var. Kəndin ərazisində e. ə. 5–3-cü minilliklərə aid *Dəyirmanyeri* arxeoloji abidəsi qeydə alınmışdır.

**ZEYNƏDDİN KÖRPÜSÜ** – Babək r-nunun Zeynəddin k. ərazisində, Qahab selovu üstündədir. Uz. 15 paqonometr. Sel daşqınları zamanı nəqliyyat vasitələrinin hərəkəti dayandığından r-n mərkəzi və Naxçıvan ş. ilə əlaqə qırılırdı. Bunu nəzərə alaraq, 1999 ildə Zeynəddin k.-nə giriş yolunda Z. k. inşa edilib istifadəyə verilmişdir.



Zeyvə nekropolundan tapılmış kasa, piyalə və küpə tipli qablar. İlk Dəmir dövrü.

**ZEYVƏ** – Şərur r-nunda kənd. Zeyvə-Düdəngə kənd icra nümayəndəliyinin tərkibindədir. R-n mərkəzindən 3 *km* şm.-q.-də, Naxçıvan–Sədərək avtomobil yolunun kənarında, düzənlikdədir. Əh. 2185 nəfər (2000); əsasən, əkinçilik və maldarlıqla məşğuldur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, məscid var.

**ZEYVƏ NEKROPOLU** – Şərur r-nunun eyniadlı kəndi yaxınlığında ilk Dəmir dövrünə aid arxeoloji abidə. Tikinti işləri zamanı aşkar olunmuşdur. Arxeoloji tədqiqatlar nəticəsində gil qab nümunələri (əsasən, boz rəngdə bişirilmiş kasa, piyalə və küpə tipli qablar və onların müxtəlif hissələri) toplanmışdır. Tapıntılar Şərur rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Z.n.-nun materialları Naxçıvanın ilk Dəmir dövrü abidələri (I və II Kültəpə, Sarıdərə, Kolanı, Şahtaxtı) içərisində özünə geniş analogiya tapır. Z. n.-nun e. ə. 1-ci minilliyə aid olduğu ehtimal edilir.

Əd.: S e y i d o v A. Q., Naxçıvan tunc dövründə, B., 2000.

**"ZƏFƏR"** – Culfa rayon İcra Hakimiyyətinin orqanı *"Arazın səsi"* qəzetinin 1959–91 illərdə adı.

Zeynalov Vüqar



**ZƏNGƏZUR** – Azərb.-da tarixi ərazi. İndiki Erm. ərazisinin c.-ş.-ini, Göyçə gölünün c.-unu, Azərb. Respublikasının c.-q.-ini əhatə edirdi. Z. ərazisi ayrı-ayrı tarixi dövrlərdə antik və erkən orta əsrlər Azərb. dövlətlərinə –Atropatena və Albaniyaya tabe olmuş, bəzən isə müstəqil knyazlıq olan Sünik (Si-





Zəngəzur. Urud kəndi. Sanduqə tipli qəbir abidələri. 16 əsr.

sakan) vilayətinin tərkibinə daxil edilmişdir. 5–6 əsrlərdə Cənubi Qafqazda Sasanilər əleyhinə baş vermiş üsyanlar Z. ərazisini də əhatə etmişdi. 6 əsrdə burada nestorianlıq təriqəti yayılmışdı. 7 əsrin 1-ci yarısında Albaniyanın tərkibində olan Z. Xəzər xaqanlığının hakimiyyəti altına düşmüş, həmin əsrin ortalarında isə ərəblər tərəfindən istila olunmuş və Ərəb xilafətinə qatılmışdı; islam dini yayılmağa başlamışdı. 9 əsrin 20-ci illərində Babəkin başçılığı ilə Xilafət əleyhinə vüsət almış xürrəmilər hərəkatı Z. ərazisini də bürümüşdü. Z. 10 əsrin sonlarında təşəkkül tapmış Sünik knyazlığının tərkibində olmuş, 11 əsrdə Səlcuqlar tərəfindən tutulmuşdu. 12–13 əsrlərdə Azərb. atabəyləri, Hülakular, sonralar isə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olmuşdur. 1639 ildə Osmanlı Türkiyəsi ilə İran arasında imzalanmış müqaviləyə əsasən İranın tərkibində qalmış, 1730 ildə türk qoşunları tərəfindən tutulmuş, 1735 ildə İran sərkərdəsi Nadirqulu xan Əfşar (1736 ildən Nadir şah) tərəfindən yenidən İrana qaytarılmışdı. Z. Nadir şahın ölümündən (1747) sonra yaranmış Azərb. xanlıqlarından biri olan İrəvan xanlığının (bir hissəsi Qarabağ xanlığının) tərkibində olmuşdur. Rusiya–İran müharibələrindən (1804–13; 1826–28) sonra *Türkmənçay müqaviləsinə (1828)* əsasən Rusiyaya qatılmışdır. Çar hökumətinin himayəsi altında Z.-a Türkiyə və İrandan ermənilərin kütləvi axını başlanmış, beləliklə də yerli azərbaycanlı, qismən də kürd əhalisinin mütləq əksəriyyət təşkil etdiyi bir şəraitdə erməni əhalisinin də sayca xeyli çoxalmasına səbəb olmuşdu. Z. 1829 ildən Qarabağ əyalətinə qatılmış, 1861 ildə isə qəza (bax *Zəngəzur qəzası*) kimi təşkil olunmuşdu.

1917, mart–1918, may dövründə Z.-da daşnakların azərb.-lı və kürd əhalisinə qarşı soyqırımı siyasəti nəticəsində müsəlman kəndləri yerlə-yeksan edilmiş, xeyli insan həlak olmuş, doğma yurdlarından didərgin düşmüşlər. 1918 ilin mayında Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan, Ermənistan respublikaları elan edildikdən sonra daşnak hökuməti azərb.-lılara qarşı dövlət siyasəti səviyyəsində soyqırımı həyata keçirmişdir. Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Z.-a basqınları təkcə 1918 ildə 115 Azərb. kəndinin dağıdılması və yandırılmasına, on minlərlə adamın qətlə yetirilməsinə və yaralanmasına, 40 min nəfərdən artıq dinc sakinin öz doğma yurdunu tərk etməsinə səbəb olmuşdu; üstəlik, 30 mindən artıq erməni Z.-da yerləşdirilmişdi. Andronikin və Njdenin quldur dəstələri 1919–20 illərdə də Z.-da azğınlıqlar törətməkdə davam etmişdilər.

1920 il aprelin 28-də Azərb.-da, 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra yaranmış mürəkkəb şəraitdə, Moskva hakim dairələrinin antiazərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük hissəsi Erm. SSR XKS-nin 1921 il iyulun 20-də təsdiq etdiyi yeni inzibati-ərazi bölgüsünə əsasən yaradılmış 8 qəzaya 9-cu – Z. qəzası kimi əlavə olunmuş, əslində, qəsb edilmişdu.

*Əd.:* Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), c. 1, B.,1994; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər), B., 1961; Ə l i y e v F., H ə s ə n o v U., İrəvan xanlığı, B., 1997; Azərbaycan Cümhuriyyəti (1918–1920), B., 1998; Г е й д а р о в Н. Г., В горах Зангезура, Б., 1986.

**ZƏNGƏZUR QƏZASI** – 19 əsrin 2-ci yarısında Azərb.-da inzibati ərazi vahidi. 1861 ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867 il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) qub.-nın tərkibinə daxil edilmişdi. Qəza idarəsinə qəza rəisi, onun müavini, məntəqə iclasçıları, xəzinədar, polis idarəsi daxil idi. Hərbi, mülki və inzibati hakimiyyət qəza rəisinin əlində cəmlənmişdi. Sah. 7892 $km^2$. Təsərrüfatında maldarlıq, qismən də əkinçilik və bağçılıq mühüm yer tuturdu.



19 əsrdə Azərb.-da çar Rusiyasının müstəmləkəçilik siyasətinə, bəy və xanların zülmünə qarşı qaçaqçılıq hərəkatı Z. q.-nda da yayılmışdı. Qaçaq Nəbi (1854–96) doğulduğu Z. q.-nda, habelə Naxçıvan qəzasında fəaliyyət göstərmişdi. "Kavkazski kalendar"ın (1917) və arxiv sənədlərinin məlumatına əsasən, əhalisinin etnik tərkibi belə idi: 123085 (və ya 99073) nəfər, yəni 55,0% azərb.-lı və 99257 (və ya 82976) nəfər, yəni 44,3% erməni (bax, həmçinin *Zəngəzur*).

**ZƏNGƏZUR SİLSİLƏSİ** – Cənubi Qafqaz yaylasında dağ silsiləsi. Şm.-q.-də Ağdaban zirvəsindən (Tərtər və Arpa çaylarının yuxarı axınlarından) başlayaraq c.-ş. istiqamətində Araz çayı dərəsinə doğru getdikcə alçalır. Uz. 130 *km*, ən hündür zirvəsi 3904 *m*-ə qədərdir (Qapıcıq d.). Kəskin parçalanmış relyefə, molibden, polimetal (mis, sink, qurğuşun), nadir və əlvan metallarla zəngin olan mürəkkəb geoloji quruluşa malikdir. Silsilə Biçənək aşırımı r-nunda alt Pliosendə baş vermiş vulkanizmin məhsulu olan lava axınları ilə örtülmüşdür. Ağdaban, Salvartı, Üçqardaş, Toğluqaya, Camışölən zirvələri günbəzvarı, konusvarı formaya malik püskürmə mərkəzləri olub, təkrarolunmaz coğrafi landşaft əmələ gətirmişlər. Z. s.-nin mərkəz və c.-ş. hissəsi (Dəvəboynu, Qazangöldağ, Gəmiqaya, Qapıcıq, Qaranquş, Ayıçınqıl zirvələri) daha qədim (Sosen və Oliqosen yaşlı) vulkanik süxurlardan təşkil olunmuşdur. Silsilənin c.-ş. yamaclarında inkişaf etmiş və Kiçik Qafqazın heç bir yerində rast gəlinməyən İlandağ, Nəhəcir, Əlincə, Qurddağ, Misdağ, Qızılboğaz ekstruzivləri və subvulkanları daha əzəmətli görünür. Silsilənin q. yamacları çöl və yarımsəhra bitkiləri, ş. yamacları (800 *m*-dən yüksəkdə) enliyarpaqlı meşələr (palıd, vələs, göyrüş, ağcaqayın) və subalp çəmənləri ilə örtülüdür.

**"ZƏRBƏÇİ HEYVANDAR"** – Culfa Rayon İcra Hakimiyyətinin orqanı *"Arazın səsi"* qəzetinin 1936–50 illərdə adı.

**ZƏRDƏRƏ** – Şərur r-nu ərazisində çay. Arpaçayın sağ qolu. Uz. 6 *km*, hövzəsinin sah. 6 $km^2$-dir.

**ZƏRİŞDƏRƏ** – Culfa r-nunda, Ləkətağ k.-ndən c.-q.-də, Əlincəçayın sağ sahilində orta əsrlərə aid yaşayış yeri. Q. tərəfdən hündür dağlarla əhatələnmişdir. Sah. 890 $km^2$. Kəşfiyyat xarakterli tədqiqatlar (1991) aparılmışdır. Z. dağ yamacında yerləşdiyindən, mədəni təbəqə yuyulub dağılmışdır. Şirsiz qab qırıqları toplanmışdır. Z.-dən hazırda əkin sahəsi kimi istifadə olunur. Əhalinin məlumatına görə, vaxtilə burada məscid və yaşayış binaları olmuşdur. Yer şumlanarkən kir-kirə daşı, mis qablar, şamdan və s. əşyalar tapılmışdır. Yaşayış yerinin ş. qurtaracağında dairəvi formada iri daş və kollarla əhatələnmiş pir vardır. Yaşayış yerinin 16–18 əsrlərə aid olduğu ehtimal edilir.





Zəngəzur silsiləsi

**ZƏRİŞDƏRƏ NEKROPOLU** – Culfa r-nunda, Zərişdərə yaşayış yerindən q.-də, hündür təpənin üstündə orta əsrlərə aid arxeoloji abidə. Kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır (1990–91). Qəbirlərin hamısı ş.-q. istiqamətində, başdaşılar q.-ə tərəfdir. Z. n.-nun 16–18 əsrlərə aid olduğu ehtimal edilir.

**ZƏRNEL** – Şahbuz r-nunda mövcud olmuş kənd. Zirnel dağının ətəyində, Kükü çayın sahilində idi. 1969 ildə baş vermiş torpaq sürüşməsi ilə əlaqədar əhalisi Aşağı Remeşin k.-nə köçürülmüşdür.

**ZƏRNƏTÜN** – Şahbuz r-nu ərazisində çay. Naxçıvançayın sol qolu. Zəngəzur silsiləsinin yamacında, 2849 *m* hünd.-də yerləşən Salvartı gölündən başlanır. Uz. 10 *km*. Yeraltı sular və qar suları ilə qidalanır.

**ZƏRNƏTÜN** – Şahbuz r-nunda, Zərnətün çayının mənbəyində, mövcud olmuş kənd. Əhalisi 1962 ildə Biçənək k.-nə köçürülmüşdür.

**ZƏVVAR ARXI** – Ordubad r-nu ərazisində, Nax. MR-in Ermənistanla sərhədində süni suvarma şəbəkəsi. Ordubad əhalisi k. t.-nın, xüsusilə bağçılığın, üzümçülüyün inkişafında əsrlər boyu arxdan istifadə etmişdir. Ermənilər r-n iqtisadiyyatına ziyan vurmaq məqsədilə dəfələrlə bu su mənbəyinin qabağını kəsirdilər. 40-cı illərin axırlarında ordubadlılar r-n partiya komitəsinin 1-ci katibi A. Nadirovun rəhbərliyi ilə çətinliklərə baxmayaraq, onu bərpa etdilər. Akad. Y. Məmmədəliyevin göstərişi ilə resp. EA-nın Coğrafiya İn-tu arxın bərpasına səfərbər olundu. Ordubad r-nu bir neçə il su cəhətdən yaxşı təmin edilmiş r-nlardan birinə çevrildi. Bundan xəbər tutan ermənilər arxın qarşısını yenidən kəsdilər.

**ZİYADLILAR** – türk tayfası. Kəngər tayfasından olmuşlar (bax *Kəngərlər*). 18–19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində ziyadlı nəslinin də adı çəkilir.

**ZİYAİ ORDUBADİ** (?–1520/21, Təbriz) – şair. Mənbələrin verdiyi məlumata görə, özbək hökmdarı Hüseyn Bayqaranın zamanında Herata köçmüş, özbək klassik ədəbiyyatının banisi Əlişir Nəvai ilə yaxın olmuşdur. Ömrünün sonlarına doğru Ordubada qayıtmış, daha sonra Təbrizə gedərək, orada vəfat etmişdir. Əlişir Nəvainin "Məcalisün-nəfais", Sam Mirzənin "Töhfeyi-Sami", Lütfəli bəy Azərin "Atəşkədə" təzkirələrində, Şəmsəddin Saminin "Qamusül-aləm"ində (c.4) Z. O.-dən bəhs edilmişdir. Şerlərindən nümunələr Azərb. Milli EA Əlyazmalar İn-tunda saxlanılan bir sıra cünklərdə mühafizə olunmuşdur.

*Əd.:* Tərbiyət M., Danişməndani-Azərbaycan, B., 1987, səh. 156.

**"ZİYALI MƏCLİSİ"** – mədəni-maarif cəmiyyəti. 1882 ildə Naxçıvan ş.-ndə yazıçı-publisist *E. Sultanov* tərəfindən yaradılmışdı. Əsas məqsədi Naxçıvanın gənc ziyalı qüvvələrini məktəb, maarif və mədəniyyətin inkişafına cəlb etmək idi. Məclis üzvləri mövhumat və cəhalət əleyhinə açıq mübarizə aparırdılar. "Z. m."-ndə bədii əsərlərin, teatr tamaşalarının müzakirəsi də keçirilirdi. Məclisin üzvləri Naxçıvan teatrının yaradıcıları hesab olunurlar. Cəlil Məmmədquluzadə, Əsəd ağa Kəngərli, Paşa ağa Sultanov, Məmmədqulu bəy Kəngərli, Əliməmməd, Məhəmmədhüseyn və Sadıq Xəlilovlar, Əbülqasım Sultanov və b. məclisin fəal üzvləri idilər. 19 əsrin 90-cı illərinədək fəaliyyət göstərmiş "Z. m." Naxçıvanda maarifçilik hərəkatının əsas ideyaəməl mərkəzi idi.

**ZİYARƏTTƏPƏ** – Şərur r-nu ərazisində dağ. Arpaçayın aşağı axınında, onun sol sahilində, Dərəkənddən 1 *km* şm.-ş.-dədir. Hünd. 920 *m*.

**ZİYAÜLMÜLK KÖRPÜSÜ** – Araz çayı üstündə körpü-qəntərə. Culfa yaxınlığında, Araz çayının dağın ətəyinə toxunaraq, burulğan halda döndüyü yerdə yonulmuş daşdan inşa olunmuşdur. Olduqca möhkəm, son dərəcə hamar və gözəl görünüşə malik körpünün iki yüksək və geniş tağı olmuşdur. Onlardan birinin eni 60 arşın (gəz), digərinin eni isə 55 arşın idi. Arazın tüğyan etdiyi vaxtlarda çayın suyu bütünlüklə dağa bitişik olan tağın altından keçirdi. Xeyli hündür olan körpünün hər iki tərəfində daşdan darvaza var idi. Tağlardan birinin altından karvansara kimi istifadə edilirdi. Körpünün salınma texnikası mahir mühəndisləri də heyran qoyurdu. Əmir Teymur 1386 ildə Mərənd və Zər dərəsi istiqamətindən Naxçıvana gələrkən Z.k.-ndən keçmişdir. Xarabalıqları xalq arasında "İskəndər körpüsü" adı ilə tanınır. 14 əsr tarixçisi Həmdullah Qəzvini-



nin "Nüzhət əl-qülub" ("Qəlblərin əyləncəsi") əsərində verdiyi məlumata görə, körpünü Ziyaülmülk-Naxçıvani (həyat və fəaliyyəti haqqında hələlik məlumat yoxdur) tikdirmişdir.

*Əd.:* Şərəfəddin Əli Yəzdi, Azərbaycan tarixinə dair seçmələr (fars dilindən tərcümə, ön söz və izahlar V. Z. Piriyevindir), B., 1996.

**ZOĞALA** – Culfa r-nunda çay. Əlincəçayın sağ qolu. Mənsəbindən 42 *km* məsafədə ona tökülür. Uz. 13 *km*, hövzəsinin sah. 36 $km^2$-dir. Başlanğıcını Şahbuz r-nunun Keçili k.-nin dağlarından götürür. Qrunt və qar suları ilə qidalanır. Yaz-yay daşqınları və sellərlə səciyyələnir.

**ZOĞALA I**, Yeni Zoğala – Culfa r-nunun Milax k.-ndən 6 *km* şm.-q.-də, Əlincəçayın sağ sahilində, antik və ilk orta əsrlər dövrünə aid yaşayış yeri. C.-q.-də Zoğala çayı, şm.-ş.-də dərin dərə ilə məhdudlaşır. Ədəbiyyatda Zağalı, Zoğalı, Zoğallı kimi də qeyd edilmişdir. Yaşayış yerindən iki tunc *qrifon* (1932) tapılmışdır. Qazıntı aparılmış və sütun altlıqları aşkar edilmişdir (1987). Çəhrayı rəngli gil qab qırıqları, bir ədəd kasa tipli qab sınığı tapılmışdır. Vaxtilə tapılmış ilk orta əsrlərə aid sütun altlıqları mühafizə olunmamışdır. Tunc qrifonların biri Ermitajda (Sankt-Peterburq) digəri isə Azərb. Milli EA Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyində saxlanılır. Qrifonların taxt ayağı olduğu qeyd edilmişdir. Yaşayış yerində həyat e. ə. 4 əsrdən eramızın 7 əsrinədək mövcud olmuş, sonrakı dövrlərdə bərpa olunaraq son orta əsrlərədək davam etmişdir.

**ZOĞALA II**, Köhnə Zoğala – Culfa r-nunun Milax k.-ndən şm.-q.-də, Zoğala çayının sol sahilində, I Zoğala yaşayış yerindən bir qədər aralıda son orta əsrlərə aid yaşayış yeri. Ş.-də dərin dərə, c.-q.-də Zoğala çayı, şm.-da isə dağ silsiləsi ilə məhdudlaşır. Kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır (1987). Binaları uçub-dağılmış, yerində dördkünc və oval çalalar qalmışdır. Binalar, əsasən, daşdan tikilmişdir. 0,5–1 *m* qalınlığında mədəni təbəqə yaxşı saxlanmışdır. 16–18 əsrlərə aid olduğu ehtimal edilir.

**ZOĞALA NEKROPOLU** – Culfa r-nunda, Milax k-ndən şm.-q.-də I Zoğala, yaşayış yerinin yaxınlığında son orta əsrlərə aid arxeoloji abidə. Ərazisi şm.-q. və c.-ş.-də dərin dərə ilə məhdudlaşır. Nekropoldakı qəbirlər q.-ş. istiqamətindədir. Heç birinin başdaşı saxlanmamışdır. Abidənin 17–19 əsrlərə aid olması ehtimal edilir.

**ZORXANA** ("güc-qüvvə evi" deməkdir) – Azərb.-ın orta əsr şəhərlərində idman oyunları və yarışlarının keçirildiyi yer, bina. Orta əsrlərə aid yazılı qaynaqlarda Təbriz, Ordubad, Naxçıvan, Bakı, Şamaxı, Gəncə, Ərdəbil, Urmiya, Xoy, Şəki, Marağa və s. şəhərlərdə Z.-ların olması və burada keçirilən idman tamaşaları haqqında məlumat verilir. Səfəvilər dövründə şöhrət qazanmış Azərb. pəhləvanları Z.-ların yetirmələri idi. Z. binasının böyük zalının səqfi tağlarla örtülürdü. Zalın ortasındakı dövrəsi tamaşaçıların oturduqları səki ilə əhatələnmiş, dərinliyi 1 *m*, ölçüsü-10x10 *m* olan oyun meydanı süfrə adlanırdı. Oyundan asılı olaraq, süfrədə eyni vaxtda 15–20 oyunçu iştirak edirdi. Z.-lar 200–300 tamaşaçı tuturdu.

Ordubaddakı məşhur Z.-nın çox maraqlı plan quruluşu var. Onun oyunlar keçirilən mərkəzi hissəsindən dörd tərəfə simmetrik qollar ayrılır. Bunlar kiçik otaqlar şəklindədir. Həmin otaqlar idmançıların geyim və məşq otaqları olmuşdur. Bütün otaqların damı günbəzlə örtülüdür. Z. oyunlarını süfrəyə yaxın hündür yerdə oturan təlimçi-mürşid idarə edirdi. Ənənəvi Z. oyunları rəqs şəklində, nəfəsli çalğı alətlərinin müşayiəti ilə icra olunurdu. Z. oyunları ("sino oyunu", yaxud "qulunc sındırma", "ayaqdöymə", "mil oyunu", "səngi-daş qaldırma", "kəbbadə", "təndövrə") kompleks idman məşqləri olub, idmançılara qüvvət, mərdlik və s. keyfiyyətlər aşılayırdı.

Zorxana. Ordubad şəhəri. Orta əsr.





*Zülfüqarlı Cümşüd*

**ZÜLFÜQARLI** Cümşüd İsmayıl oğlu (30.1. 1905, Naxçıvan ş. – 12.12. 1982, Bakı) – kimyaçı (qeyri-üzvi kimya). Kimya elmləri doktoru (1963), prof. (1961), Azərb. Milli EA m. üzvü (1968), Azərb. Respublikası əməkdar elm xadimi (1979). Böyük Vətən müharibəsi (1941–45) iştirakçısıdır. Müharibədən sonra Azərb. Milli EA Neft İn-tunda laboratoriya müdiri (1950 ilədək), Azərb. Dövlət Un-ti (indiki BDU) kimya fakültəsinin dekanı (1951–52), qeyri-üzvi kimya kafedrasının müdiri (1957–82) vəzifələrində işləmişdir. Tədqiqatları neftdə, orqanizmlərdə, torpaqda, müxtəlif tipli çökmə süxurlarda, lay sularında mikroelementlərin yayılma qanunauyğunluqlarının aşkara çıxarılmasına həsr edilmişdir. Buruq sularından yod alınmasının yeni üsulunu təklif etmiş, alunitin emalı məhsullarından sulfat turşusu alınması texnologiyasının təkmilləşdirilməsi yollarını göstərmiş, ana dilində kimya terminologiyasının yaranması işinə, kimya elminin tədrisi üsullarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirmişdir. 300-dən çox elmi əsərin müəllifidir. Elmi-pedaqoji kadrların hazırlanmasında xidməti var. Almaniya Demokratik Respublikasında (1966, 1967), Yaponiya (1974), Şotlandiya (1977), Suriya və Çexoslovakiyada beynəlxalq konfrans və konqreslərdə məruzələr etmişdir. Qırmızı Ulduz ordeni ilə təltif edilmiş, SSRİ-nin və Azərb. Respublikasının qabaqcıl maarif xadimi fəxri adlarına layiq görülmüşdür.

Ə s ə r l ə r i: Qeyri-üzvi kimya terminologiyası, B., 1939; Azərbaycanca üzvi kimya terminologiyasının prinsipləri haqqında, B., 1941; Qeyri-üzvi kimya praktikumu, B., 1979; Распространение микроелементов в каустобиолитах, организмах, осадочных породах и пластовых водах, Б., 1960.

---

## XƏRİTƏLƏRDƏKİ ƏSAS ŞƏRTİ İŞARƏLƏR

Dövlətlərin paytaxtları

Muxtar Respublikanın paytaxtı

Rayonların mərkəzləri

İri şəhərlər

Digər yaşayış məntəqələri

Şəhər və şəhər tipli qəsəbələrin əhalisi

| | |
|---|---|
| BAKI | 1000 000-dən çox |
| SUMQAYIT | 50 000-dən 500 000-ə qədər |
| Ağdam | 10 000-dən 50 000-ə qədər |
| Qubadlı | 10 000-dən az |

Respublika tabeliyində olan şəhərlər

| | |
|---|---|
| BAKI | NAFTALAN |
| ƏLİ-BAYRAMLI | SUMQAYIT |
| GƏNCƏ | ŞƏKİ |
| XANKƏNDİ | ŞUŞA |
| LƏNKƏRAN | YEVLAX |
| MİNGƏÇEVİR | |

Dövlət sərhədləri

Rayon sərhədləri

Dəmir yolları

Avtomobil yolları

*Türkmənbaşı 305 km* — Bərə ilə dəniz dəmir-yolu keçidi

*Həştərxan 863 km* — Dəniz yolları və məsafələr, kilometrlə

x 2346 Bicənək aşr. — Aşırımlar, onların yüksəklik göstəriciləri

Çayların axma istiqaməti

Hava limanları

Limanlar

Mineral su mənbələri

• 3724 — Yüksəklik göstəriciləri

–27,0 — Su səviyyəsinin dəniz səviyyəsindən hündürlüyü

küç. — küçəsi

bataqlıqlar

şoranlıqlar

)( — körpülər

sils. — silsiləsi

s-d. — sıra dağları

d. — dağı

su anb. — su anbarı

g. — gölü

a. — adası

meşələr

## CİLDDƏ QƏBUL EDİLMİŞ ƏSAS İXTİSARLAR

ABŞ – Amerika Birləşmiş Ştatları
ad. – adına
AFR – Almaniya Federativ Respublikası
akad. – akademik
AK(b)P – Azərbaycan Kommunist (bolşevik) Partiyası
AKP MK – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
APU – Azərbaycan Pedaqoji Universiteti
ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
ATU – Azərbaycan Tibb Universiteti
Azərb. – Azərbaycan
azərb. – azərbaycanlı
AzPU – Azərbaycan Politexnik İnstitutu
B. – Bakı
b. – başqa, başqaları
BDU – Bakı Dövlət Universiteti
BMT – Birləşmiş Millətlər Təşkilatı
c. – cənub
c. – cild
c.-q. – cənub-qərb
c.-ş. – cənub-şərq
ÇXR – Çin Xalq Respublikası
d.-y. – dəmir yolu
e. ə. – eramızdan əvvəl
əh. – əhalisi
*Əd.* – ədəbiyyat
f-k – fabrik
GUÖAM – Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldaviyanın daxil olduğu regional təşkilat
hünd. – hündürlüyü
XKS – Xalq Komissarları Soveti
XTNS – Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi
in-t – institutut
k. – kənd
k. t. – kənd təsərrüfatı
k-z – kolxoz
q. – qərb
qəs. – qəsəbə
LKGİ – Lenin Kommunist Gənclər İttifaqı
M. – Moskva
m. üzvü – müxbir üzvü
MDB – Müstəqil Dövlətlər Birliyi
MİK – Mərkəzi İcraiyyə Komitəsi
Nax. MSSR – Naxçıvan Muxtar Sovet Sosialist Respublikası
Nax. MR – Naxçıvan Muxtar Respublikası
OADKYC – Orduya Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti
prof. – professor
r-n – rayon
RSFSR – Rusiya Sovet Federativ Sosialsit Respublikası
RK(b)P – Rusiya Kommunist (bolşevik) Partiyası
s. – sair
sah. – sahəsi
SES – Su Elektrik Stansiyası
səh. – səhifə
Sov. İKP MK – Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi
SSRİ EA – Sovet Sosialist Respublikaları İttifaqı Elmlər Akademiyası
st. – stansiya
s-z – sovxoz
temp-r – temperatur
təqr. – təqribən
uz. – uzunluğu
un-t – universitet
ş. – şəhər
ş. – şərq
şm. – şimal
şm.-q. – şimal-qərb
şm.-ş. – şimal-şərq
ş.t.q. – şəhər tipli qəsəbə
vil. – vilayət
y-a – yarımada
yun. – yunanca
YUNESKO – BMT-nin Maarif, Elm və Mədəniyyət İşləri üzrə Təşkilatı
z-d – zavod
ZSFSR – Zaqafqaziya Sovet Federativ Sosialsit Respublikası
*ha* – hektar
*kq.* – kiloqram
*km.* – kilometr
*l* – litr
*m* – metr
*mm* – millimetr
*san.* – saniyə
*sm* – santimetr
*t* – ton

## CİLDDƏ GEDƏN RƏNGLİ XƏRİTƏLƏRİN SİYAHISI

Azərbaycan Respublikası (inzibati), Naxçıvan Muxtar Respublikası (inzibati), Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası – fiziki (səh. 38–39), Babək rayonu, Culfa rayonu (səh. 57–58), Azərbaycan xanlıqları, Azərbaycan Respublikası – 1920 (səh. 356–357), Naxçıvan Muxtar Respublikası – geoloji xəritə seysmik sxemlə birlikdə, faydalı qazıntılar (səh. 368–369), iqlim xəritəsi, torpaq xəritəsi (səh. 368–369), bitki örtüyü, heyvanlar aləmi (səh. 378–379), Ordubad rayonu, Sədərək rayonu (səh. 456–457), Şahbuz rayonu, Şərur rayonu (səh. 536–537), şərti işarələr, ixtisarlar.

ISBN 5-8066-1468-9

5001000000
655(07)-2002

© "Naxçıvan Ensiklopediyası", 2002

Korrektor
**E.K. Məmmədyarova**

Yığı operatorları
**H.K. Mehdiyeva**
**Z.Q. Nəcəfova**

Çapa verilmişdir 23.08.2002
Kağız biçimi 84x108 1/16.
Həcmi 41,75 ç.v.
Tirajı 10000 nüsxə.
Qiyməti müqavilə ilə.

Cilddə 18 rəngli xəritə, 2 xəritə-sxem, 1 ağ-qara xəritə,
şərti işarələr və ixtisarlar, 408 portret,
765 rəngli, 55 ağ-qara şəkil
və sxem verilmişdir.

Bakı, İstiqlaliyyət küç., 10.
Azərbaycan Milli Elmlər Akademiyası.

Uniprint Basım San. ve Tic. A.Ş.
Ali Kaya Sokak No 7 Levent / İstanbul
Tel: (0212) 283 83 71 (3 Hat) Fax: (0212) 281 87 60

30 т 50 ц.

Я20
N 17